AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
FƏLSƏFƏ, SOSİOLOGİYA VƏ HÜQUQ İNSTİTUTU

ELMİ ƏSƏRLƏR

Beynəlxalq elmi-nəzəri jurnal

№ 1 (16)

BAKI-2011

BAŞ REDAKTOR:
İlham MƏMMƏDZADƏ, *fəlsəfə elmləri doktoru, professor*

BAŞ REDAKTOR MÜAVİNİ:
Bəhram ZAHİDOV, *hüquq elmləri doktoru,professor*

MƏSUL KATİBLƏR:
Həbib HÜSEYNOV, *fəlsəfə doktoru*
Zeynəddin ŞABANOV, *fəlsəfə doktoru*
Rəşad İLYASOV, *fəlsəfə doktoru*

REDAKSİYA HEYƏTİNİN ÜZVLƏRİ:

FƏLSƏFƏ ELMLƏRİ ÜZRƏ

Səlahəddin XƏLİLOV,
fəlsəfə elmləri doktoru, AMEA-nın müxbir üzvü
Sevda MƏMMƏDƏLİYEVA,
fəlsəfə elmləri doktoru, AMEA-nın müxbir üzvü
Adil ƏSƏDOV, *fəlsəfə elmləri doktoru*
Əli ABASOV, *fəlsəfə elmləri doktoru*
Lalə MÖVSÜMOVA, *fəlsəfə elmləri doktoru*
Füzuli QURBANOV, *fəlsəfə elmləri doktoru*
Arzu HACIYEVA, *fəlsəfə elmləri doktoru*
Roida RZAYEVA, *fəlsəfə doktoru*

SOSİOLOGİYA ELMLƏRİ ÜZRƏ

Əbülhəsən ABBASOV, *fəlsəfə elmləri doktoru*
Rəna MİRZƏZADƏ, *fəlsəfə elmləri doktoru*
Rəfiqə ƏZİMOVA, *fəlsəfə elmləri doktoru*
Rafael Həsənov, *sosiologiya elmləri doktoru*

SİYASİ ELMLƏR ÜZRƏ

Əlikram TAĞIYEV, *fəlsəfə elmləri doktoru*
Həsən ƏLİBƏYLİ, *tarix elmləri doktoru*
Ramiz SEVDİMALIYEV, *fəlsəfə elmləri doktoru*
Azər MUSTAFAYEV, *fəlsəfə elmləri doktoru*

İLAHİYYAT ELMLƏRİ ÜZRƏ

Sakit HÜSEYNOV, *fəlsəfə elmləri doktoru*
Aydın ƏLİZADƏ, *fəlsəfə elmləri doktoru*

HÜQUQ ELMLƏRİ ÜZRƏ

İsaxan VƏLİYEV, *hüquq elmləri doktoru*
Mirağa CƏFƏRQULİYEV, *hüquq elmləri doktoru, professor*
Habil QURBANOV, *hüquq elmləri doktoru, professor*
Əli RZAYEV, *hüquq üzrə fəlsəfə doktoru*
Aqşin QULİYEV, *hüquq üzrə fəlsəfə doktoru*
Rauf QARAYEV, *hüquq üzrə fəlsəfə doktoru*
Mirafərim SEYİDOV, *hüquq üzrə fəlsəfə doktoru*

BEYNƏLXALQ REDAKSİYA HEYƏTİ

Valentina FEDOTOVA (Rusiya)
fəlsəfə elmləri doktoru, professor
Eduard QİRUSOV (Rusiya)
fəlsəfə elmləri doktoru, professor
Oleq BAKSANSKİ (Rusiya)
fəlsəfə elmləri doktoru, professor
Aleksandr ÇUMAKOV (Rusiya)
fəlsəfə elmləri doktoru, professor
Nizami MƏMMƏDOV (Rusiya)
fəlsəfə elmləri doktoru, professor
Fuat KEYMAN (Türkiyə)
Professor, doktor
Doğan ÖZLƏM (Türkiyə)
Professor, doktor
Taxir MAHAMATOV (Rusiya)
fəlsəfə elmləri doktoru, professor

Elsevər SƏMƏDOV, *fəlsəfə doktoru*	**Yuriy POPKOV (Rusiya)**
	fəlsəfə elmləri doktoru, professor
PSİXOLOGİYA ELMLƏRİ ÜZRƏ	**Mahmud Erol KILIÇ (Türkiyə)**
Bəxtiyar ƏLIYEV,	*Professor, doktor*
psixologiya elmləri doktoru, AMEA-nın müxbir üzvü	**Şaban Teoman DURALI (Türkiyə)**
	Professor, doktor
Kamilə ƏLİYEVA, *psixologiya elmləri doktoru, professor*	**Cafer Sadık YARAN (Türkiyə)**
	Professor, doktor
Svetlana MƏCİDOVA, *psixologiya elmləri doktoru*	**Ömer Mahir ALPER (Türkiyə),** *professor, doktor*
Rəna İBRAHİMBƏYOVA,	**Paul BALLANFAT (Fransa)**
psixologiya üzrə fəlsəfə doktoru	*fəlsəfə doktoru*
	Victor Palleja de BUSTİNZA (İspaniya)
	Professor, doctor

REDAKSİYA HEYƏTİNİN ÜNVANI:

Azərbaycan Respublikası, Bakı şəhəri, Hüseyn Cavid pr.31, AMEA-nın əsas binası, IV mərtəbə.
Tel.: 537-22-79; Faks: (99412) 537-11-39; e-mail: elmieserler @gmail.com.
ISBN 9952 428-03-0
AMEA Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutunun Elmi Şurasının
qərarı ilə çap olunur. (protokol № 2. 14.02.2011)
Jurnal Ədliyyə Nazirliyində qeydiyyatdan keçmişdir. Qeydiyyat № 1704. 17.02.06
Azərbaycan Respublikası AAK-nın 30.IV.2010-cu il tarixli qərarı ilə
elmi nəşrlər siyahısına daxil edilmişdir.

THE INSTITUTE OF PHILOSOPHY, SOCIOLOGY
AND LAW OF AZERBAIJAN NATIONAL
ACADEMY OF SCIENCES

SCIENTIFIC WORKS

The International Scientific and Theoretical Journal

№ 1 (16)

BAKU-2011

EDITOR-IN-CHIEF:
Ilham MAMMADZADE, *doctor of philosophical sciences, professor*
DEPUTY EDITOR-IN-CHIEF:
Bahram ZAHIDOV, *doctor of juridic sciences, professor*
EXECUTIVE SECRETARIES:
Habib HUSEYNOV, *doctor of philosophy*
Zeynaddin SHABANOV, *doctor of philosophy*
Rashad ILYASOV, *doctor of philosophy*
EDITORIAL BOARD MEMBERS:

ON PHILOSOPHICAL SCIENCES

Salakhaddin KHALILOV, *doctor of philosophical sciences, Associate Member of the ANAS*

Sevda MAMMADALIYEVA, *doctor of philosophical sciences, Associate Member of the ANAS*

Adil ASADOV, *doctor of philosophical sciences*

Ali ABASOV, *doctor of philosophical sciences*

Lala MOVSUMOVA, *doctor of philosophical sciences*

Fuzuli GURBANOV, *doctor of philosophical sciences*

Arzu HAJIYEVA, *doctor of philosophical sciences*

Roida RZAYEVA, *doctor of philosophy*

ON SOCIOLOGOLICAL SCIENCES

Abulhasan ABBASOV, *doctor of philosophical sciences, professor*

Rena MIRZAZADEH, *doctor of philosophical sciences*

Rafiga AZIMOVA, *doctor of philosophical sciences*

Rafael HASANOV, *doctor of sociological sciences*

ON POLITICAL SCIENCES

Alikram TAGIYEV, *doctor of philosophical sciences, professor*

Hasan ALIBEYLI, *doctor of historical sciences, professor*

Ramiz SEVDIMALIYEV, *doctor of philosophical sciences*

Azer MUSTAFAYEV, *doctor of philosophical sciences*

ON *JURIDICAL* SCIENCES

Isahan VELIYEV, *doctor of juridical sciences*

Miragha JAFARGULIYEV,
doctor of juridical sciences, professor

Habil GURBANOV, *doctor of juridical sciences, professor*

Ali RZAYEV, *doctor of philosophy on law*

Agshin GULIYEV, *doctor of philosophy on law*

Rauf GARAYEV, *doctor of philosophy on law*

Miraferim SEYIDOV, *doctor of philosophy on law*

THE INTERNATIONAL EDITORIAL BOARD

Valentina FEDOTOVA (Russia),
Doctor of philosophical sciences, professor

Eduard GIRUSOV (Russia),
Doctor of philosophical sciences, professor

Oleg BAKSANSKY (Russia),
Doctor of philosophical sciences, professor

Alexandr CHUMAKOV
Doctor of philosophical sciences, professor

Nizami MAMMADOV(Russia),
Doctor of philosophical sciences, professor

Fuat KEYMAN (Turkey), *professor, doctor*

Doghan OZLEM (Turkey), *professor, doctor*

Takhir MAKHAMMATOV (Russia),
Doctor of philosophical sciences, professor

***ON THEOLOGICAL* SCIENCES** **Sakit HUSEINOV,** *doctor of philosophical sciences* **Aydin ALIZADEH,** *doctor of philosophical sciences* **Elsever SAMADOV,** *doctor of philosophy* **ON PSYCHOLOGICAL SCIENCES** **Bakhtiyar ALIYEV,** *doctor of psychological sciences, Associate Member of the ANAS* **Kamila ALIYEVA,** *doctor of psychological sciences, professor* **Svetlana MAJIDOVA,** *doctor of psychological sciences* **Rena IBRAHIMBEYOVA,** *doctor of philosophy on psychology*	**Juriy POPKOV (Russia),** *Doctor of philosophical sciences, professor* **Mahmud Erol KILICH (Turkey),** *professor, doctor* **Shaban Teoman DURALY (Turkey),** *professor, doctor* **Cafer Sadik YARAN (Turkey),** *professor, doctor* **Omer Mahir ALPER (Turkey),** *professor, doctor* **Paul BALLANFAT (France),** *doctor* **Victor Palleja de BUSTINZA (Spain),** *professor, doctor*

ADDRESS OF EDITORIAL STAFF:
Azerbaijani Rep., Baku c., Huseyn Javid ave.31, The basic building of ANAS, the IV floor.
Tel.: 537-22-79; Fax: (99412) 537-11-39; e-mail: elmieserler @gmail.com.
ISBN 9952 428-03-0
Published by Resolution of Scientific Council of theInstitute of Philosophy, Sociology and Law of ANAS(proceedings №2. 14.02.2011)
The journal has been registered by the Ministry of Justice. Registration № 1704. 17.02.06.
By the decision of SSC of the Azerbaijani Republic dated 30.IV.2010 was included into the list of scientific editions.

MÜNDƏRİCAT

FƏLSƏFƏ BÖLMƏSİ

Ramiz MEHDİYEV
Müasir Azərbaycan milli ideyanın təcəssümü kimi

Sərdar MUSTAFAYEV
İnsan ekologiyası: bəzi sosial-fəlsəfi aspektlər

Ağasəlim HƏSƏNOV
Fəlsəfə və ideologiya

Faiq ƏLƏKBƏROV
Millət, milli ideya, milli ideologiyanın mahiyyəti barədə

Rövşən HACIYEV
Azərbaycan xalqının milli şüurunun formalaşmasında milli identikləşmənin rolu

Севиндж ГАСАНОВА
Проблема переоценки нравственных ценностей в эпоху глобализации и модернизации

Джейла ИБРАГИМОВА
Междисциплинарные особенности комического как фактор его трансцендентальности

Afaq MƏMMƏDOVA
Romantizmin sosio-mədəni universal cərəyan kimi fəlsəfi səpgidə tədqiqinin aktuallığına dair mülahizələr

Əli BABAYEV, Eynulla RƏHMANİ
Nəsirəddin Tusinin "Əsasül-İqtibas" əsərində qeyri-müəyyən təkliflər üçün doğruluq cədvəli

Əliyar ORUCOV
XIX əsrin sonu - XX əsrin əvvəllərində Azərbaycan xalqının milli özünüdərkində ədəbiyyat və mədəniyyətin rolu

Elşən ALLAHVERDİYEV
Qloballaşma ümumdünya proseslərinin tərkib hissəsi kimi

Vüsal ZÜLFÜQAROV
Ekoloji problemlər kontekstində elmin sosial funksiyaları

Əlirza MALİKİ
İranda Bəxtiyari etnosunun məişət mədəniyyəti haqqında

Cahanbəxş KİYANİ
Əttar Nişapurinin əsərlərində və digər Şərq mənbələrində cəmiyyətin adət və ənənələri

Kəmalə NURİYEVA
Müstəqil Azərbaycanın dövlətçilik ideologiyası – azərbaycançılıq və Türk birliyi konsepsiyası

Nosrat DELBASTEH
Azərbaycan filosofları həyatın mənası haqqında

Mikayıl ƏKBƏROV
Əkinçilik mədəniyyətinə fəlsəfi yanaşma

Məhəmməd CƏBRAYILOV
Biosferanın tarixi təkamül prosesinə fəlsəfi baxış

XARİCİ ÖLKƏ TƏDQİQATLARI

Ильшат НАСЫРОВ
"Мусульманский культурный язык": достояние прошлого или реальность?

Анна Михайловна СТАРОСТЕНКО
Контекстуальность социальности кризиса

Константин Викторович СТАРОСТЕНКО
Политическое многообразие в России: проблемы кадрового потенциала государственного управления

Serdar USLU
Bir bilim olarak metafizik mümkün müdür?
Kant'ın metafizik anlayışına yönelik açıklayıcı bir çalışma

Маульшариф МИРА
Проблемы реформирования системы высшего образования Республики Казахстан в свете Болонского процесса

Юрий ПОПКОВ
Ценности народов внутренней Евразии как отражение взаимовлияния Востока и Запада

Эльмира САДЫКОВА
Теоретические аспекты цивилизационного подхода к исследованию мировых процессов

Tom ROKMOR
«Naturalizm» antikantçılıq kimi

SOSİOLOGİYA BÖLMƏSİ

Hüseyn QARAŞOV
Müasir dövrdə həmkarlar ittifaqları liderinin spesifik xüsusiyyətləri

Mətləb MAHMUDOV, Mahir SƏLİMOV
Ailə müasir texnologiyalar mühitində (sosial-fəlsəfi təhlil)

Seyid Rəhmət MOZƏFFƏRİ
İİR-nin Gilan əyalətində şəhid və qazilərin övladlarının boşanmasına təsir edən amillərin təhlili

Məhəmmədi Meyxoş ƏLAƏDDİN
Mədəni turizm və milli identiklik

Səməd ŞAHNƏHAD
İctimai kapital anlayışına dair

Hafiz Əli MUXTARİ
Təlim-tərbiyədə imkanlar bərabərsizliyi

PSİXOLOGİYA BÖLMƏSİ

İlham MİRZƏYEV
Dağlıq Qarabağ münaqişəsinin baş verməsi səbəblərinin tarixi retrospektivdə hüquqi-psixoloji təhlili

Jalə PƏŞMFRUŞ
Narkomanlığa qayıdışın səbəbləri və onun qarşısını alma yolları

Sədaqət MƏSTURƏ
Qadınlarda hamiləliyin ilk aylarında özünüdərk hallarının İran tədqiqatlarında təhlili

Nəsrullah ƏNSARİNEZHAD
Cinayətkar və adi qrupda polisə münasibət

SİYASİ ELMLƏR BÖLMƏSİ

Hikmət MƏMMƏDOV
Avropada yeni beynəlxalq münasibətlər sisteminin formalaşması, xüsusiyyətləri və beynəlxalq təşkilatlar

Güləddin HƏMZƏYEV
Ekoloji və sosial sistemlərin inkişafında xarici və daxili amillərin rolu haqqında

Эсма ЭМИР-ИЛЬЯСОВА
Классификация стран, типы и формы их интеграции в мировую экономику и международные отношения

Telman QULİYEV
Avropanın enerji təchizatı: Azərbaycan-Gürcüstan və Türkiyə siyasi əməkdaşlığında

Sənan HƏSƏNOV
Qlobal əməkdaşlıqda Xəzərin statusi probleminin həlli perspektivləri

Hüseyn İBRAHİMOV

Azərbaycanda siyasi mədəniyyətin formalaşması prosesi

Sevil ƏLİYEVA
Milli özünüdərketmədə ideoloji aspektlər

Mayis MUSAYEV
Müasir dövrdə Azərbaycan və İran arasında münasibətlər

Kazım ƏZİMOV, Nazim ƏLİYEV
Makiavellinin dövlətçilik ideyasının sosial mahiyyəti

Əbülfəzl BOZÇOLLOU
İranın xarici ticarətində ASEAN ölkələrinin yeri (2001-2009)

Mahir İBRAHİMOV
Azərbaycanın Xəzəryanı ölkələrlə elmi-mədəni əlaqələrində Heydər Əliyev şəxsiyyətinin rolu

Könül BƏŞİROVA
Azərbaycan-Türkiyə əməkdaşlığı beynəlxalq siyasi proseslərin tərkib hissəsi kimi

Daşqın RƏCƏBLİ
Beynəlxalq siyasi münaqişələrin funksiyaları haqqında

Pərviz SƏMƏDOV
Azərbaycana tətbiq edilən embarqoya erməni lobbisinin təsiri

İLAHİYYAT BÖLMƏSİ

Rauf MƏMMƏDOV
İslam mənbələrində məcusilik dini

HÜQUQ BÖLMƏSİ

Mirağa CƏFƏRQULİYEV
Son 20 ildə müstəqil Azərbaycan Respublikasının cinayət-prosessual hüququnun stabil inkişaf prosesi

Mirafərim SEYİDOV
XI-XII əsrlərdə Azərbaycanın hüquq abidələrinin xarakteristikası: Mxitar Qoşun «Qanunnamə»si

Zaur MƏMMƏDOV
Nikah müqaviləsinin notariat qaydasında təsdiqi problemləri

Fikrət NƏBİYEV
Əxlaq və hüququn qarşılıqlı əlaqəsi məsələsi

Əli RZAYEV
Dövlət qulluğu problemlərinin tədqiqinin metodoloji əsasları

Əbülfəz HÜSEYNOV
Hüquq dialoji və konsensual tənzimləyici kimi

Qəhrəman BEHBUDOV
Hüseyn Cavidin siyasi-hüquqi görüşlərinin formalaşmasının tarixi şəraiti və ideya əsasları

Егяна БАЛАКИШИЕВА
История развития института отсрочки отбывания наказания беременным женщинам и женщинам, имеющих малолетних детей

Səidə HƏSƏNZADƏ
Beynəlxalq və milli hüquqda uşaq cinayətkarlığı ilə mübarizə məsələləri

Sevinc SƏBZƏLİYEVA
İnsanın yaşamaq və sosial hüquqlarının təmin edilməsində beynəlxalq hüquq normalarının rolu

İlqar CƏFƏROV
Azərbaycan Respublikasının qanunvericilik sistemində yerli özünüidarəetmənin iqtisadi əsaslarının hüquqi tənzimlənməsi

Südabə ƏSGƏROVA
Hüquqi maarifləndirmə hüquqi düşüncənin formalaşdırılmasının əsasları kimi

Mətləb AĞAYEV
İbtidai istintaq mərhələsində zərərçəkmiş şəxsin hüquq və qanuni mənafelərinin müdafiəsi haqqında

Əlirza DƏRVİŞHA
Beynəlxalq öhdəliklərlə bağlı müqavilələrin nizamlanması

Seyid Abdolla HOSEYNİ
İranın postsovet ölkələri ilə iqtisadi əlaqələrinin hüquqi nizamlanması sistemində beynəlxalq ticarət müqaviləsi

Vasif QASIMOV
Cinayət mühakimə icraatında şəxsiyyətin dövlət müdafiəsi və təhlükəsizliyinin təmin edilməsi anlayışı

Mohammədi Eiravanlou SOLTANƏLİ
Yetkinlik yaşına çatmayan cinayətkarın şəxsiyyəti

Kamran EMİNOV
Bankların fəaliyyətinin lisenziyalaşdırılması zərurəti

Anar PƏNAHOV
Cinayət mühakimə icraatında sübutların anlayışı, təsnifatı və sistemi haqqında

Sevil MƏMMƏDOVA
Yetkinlik yaşına çatmayanların hüquqları ilə bağlı Azərbaycan qanunvericiliyinin inkişaf tarixi

Vüsal ƏHMƏDOV
İstintaq şöbəsinin (bölməsinin, idarəsinin) rəisinin (rəisi olmadıqda müavininin)

prosessual nəzarətinin predmeti və hədləri

Nəcəfloo REZA
İran İslam Respublikası qanun vericiliyində boşanma hüququ

Tamilla ÇƏLƏBİYEVA
Azadlığın məhdudlaşdırılması cəzasına məhkum edilənlərin cəzadan şərti olaraq vaxtından əvvəl azad edilməsi

Şəhla ZAREİ
Beynəlxalq hüququn məcəllələşdirilməsi və mütərəqqi inkişafı

Elmi həyat .....

C O N T E N T S

PHILOSOPHY SECTION

Ramiz MEHDIYEV
Modern Azerbaijan as an embodiment of national idea .....

Sardar MUSTAFAYEV
The ecology of human: the aspects of social philosopical

Aghasalim HASANOV
Philosophy and ideology

Faik ALEKPEROV
On the essence of nation, national idea and national ideology

Rovshan HAJIYEV
The role of national identification in forming national consciousness of Azeri people

Sevinj HASANOVA
The problem of reappraisal of moral values in the period of globalization and modernization

Jeyla IBRAGIMOVA
Interdisciplinary features of the comic as a factor of its transcendentality

Afag MAMMADOVA
The reflections on actuality of studying Romanticism as sociocultural universal tendency in philosophical aspect

Ali BABAYEV, Eynulla RAKHMANI
Truth tables of the indefinite statements in the treatise “Asas al-iktibas” by Nasireddin Tusi

Aliyar ORUDJEV
The role of literature and culture in the national self-consciousness of the Azerbaijan people in the end of the XIX th and the beginning of the XX th centuries

Elshan ALLAHVERDIYEV
Globalization as a part of the world processes

Vusal ZULFUGAROV
Social functions of science in the context of ecological problems

Alirza MALIKI
On culture of Bahtiyari ethnos mode of life in Iran

Jahanbakhsh KIYANI
The customs and traditions of a society in the works by Attar Nishapuri and other Eastern sources

Kyamala NURIYEVA

State system ideology of independent Azerbaijan – Azerbaijanism and the concept of Turkic unity

Nosrat DELBASTEH
Azerbaijani philosophers on the problem of the meaning of life

Mikail AKBEROV
Philosophical approach to agricultural culture

Mahammad JABRAILOV
Philosophical views on the process of historical evolution of biosphere

FROM PHILOSOPHICAL THINKING OF THE FOREIGN STATES

Ilshat NASIROV
Muslim cultural language: a property of the past or reality?

Anna Mikhaylovna STAROSTENKO
Contextuality of sociality crisis

Konstantin Viktorovich STAROSTENKO
Political diversity in Russia: problems of human resource capacity of public administration

Sardar USLU
Is methaphysics possible as science?
Towards to interpretive study of notion of Kant′s metaphysics

Maulsharif MIRA
The problems of reforming the system of higher education in the Republic of Kazakhstan in the light of the Baloniya process

Yuriy POPKOV
The values of the peoples of inner Euroasia as a reflection of reciprocal impact between East and West

Elmira SADIKOVA
Theoretical aspects of civilizational approach to the investigation of world processes

Tom ROCKMORE
Naturalism as anti-Kantianism

SOCIOLOGY SECTION

Hussein GARASHOV
Specific features of a trade-union leader at present stage

Matlab MAHMUDOV, Mahir SELIMOV
Family in the enviroment of the modern technologies

(socio-philosophical analysis)

Sejid Rahmat MUZAFFARI
The sociological analysis of the factors, influencing on the level of divorcement among descendents of the shahids and veterans of Giljan province of IIR

Mohammadi Meykhosh ALADDIN
Cultural tourizm and national unity

Samed SHAHNEHAD
To concept of the social capital

Hafiz Ali MOHTARI
Inequality of opportunities during training and education

PSYCHOLOGY SECTION

İlham MIRZOYEV
The legal-psychological analysis of the reasons of an origin of the Nagorno-Karabakh conflict in a historical retrospective

Zhala PASHMFRUSH
The reasons of returning to drug addiction and the ways of its prevention

Sadagat MASTURA
Analysis of the studies of a state of women's self-cognition in the early period of pregnancy, carried out in Iran

Nasrullah ANSARINEJDAD
An attitude to the police in the criminal and ordinary groups

SECTION OF THE POLITICAL SCIENCES

Hikmet MAMEDOV
Formation of a new system of the international relations in Europe, features and international organizations

Guladdin HAMZAYEV
About the role of external and internal factors in the development of ecological and social systems

Esma EMIRILYASOVA
Classification of the countries, tupes and forum sof their integration into world economics and international realitions”

Telman KULIYEV
Political collaboration of Azerbaijan, Georgia and Turkey in providing Europe with power resources

Sanan HASANOV
Perspectives of solution of the Caspian status in the global collaboration

Husein IBRAHIMOV
The process of forming a political culture in Azerbaijan

Sevil ALIYEVA
Ideological aspects of the national self-consciousness

Mais MUSAYEV
Azerbaijan-Iran relations on the present stage

Kazim AZIMOV, Nazim ALIYEV
Social essence of Machiavelli's idea of the statehood

Abulfeyzl BOZCHOLLOU
The place of the ASEAN countries in foreign trade of Iran

Mahir IBRAHIMOV
The role of Heydar Aliyev in establishing scientific and cultural relations of Azerbaijan with the littoral countries of the Caspian sea

Kenul BASHIROVA
Azerbaijan-Turkey collaboration as a constituent part of the international political processes

Dashgin RAJABLI
About the functions of the international political conflicts

Parvız SAMEDOV
The influence of Armenian lobby on laying embargo on Azerbaijan

DIVINITY SECTION

Rauf MAMMADOV
The religion Majusi in the Islamic sources

LAW SECTION

Miraga JAFARQULIYEV
Development and the improvement of the criminal procedure legislation of Azerbaijan Republic after the restoration of its sovereignty

Miraferim SEYIDOV
The charactertics of the legal thought monuments of Azerbaijan in XI-XII centuries: the «Code of laws» of Mkhitar Gosh

Zaur MAMMADOV
Problems of notarial certification of the marriage contract

Fikrat NABIYEV
The issue of interrelationship between morals and law

Ali RZAYEV
Methodological foundations of studying the problems of state service

Abulfaz HUSEYNOV
The right as a dialogue and consensus regulator

Kagraman BEHBUDOV
Ideological foundations and historical conditions of forming the political and legal views of Huseyn Javid

Yegana BALAKISHIYEVA
History of development of the institution of a determent of serving punishment to the pregnant women and women having juvenile children

Saida HASANZADE
The struggle against child's criminality: in national and international law

Sevinj SABZALIYEVA
Role of international legal norms in providing human right for life and the social rights

Ilgar JAFAROV
Legal regulation of the economic foundations of local self-government in the system of the legislation of Azerbaijan Republic

Sudaba ASKEROVA
Legal education as a base of forming legal consciousness

Matlab AGAYEV
On protection of the rights and legitimate interests of a victim at a stage of preliminary investigation

Alirza DARVISHA
Regulation of the contracts connected with the international commitments

Seyid Abdallah HOSSEYNI
International trade agreement in the system of legal regulation of economic relations between Iran and post-Soviet states

Vasif GASUMOV
The concept of providing state protection and safety of personality in the criminal procedure

Mohammadi Eiravanlou SOLTANALI
Personality of a minor criminal

Kamran EMINOV
The necessity of licensing banks activity

Anar PANAHOV
On the notion, classification and system of evidence at holding legal proceedings

Sevil MAMMADOVA
History of development of Azerbaijani legislation related to the rights of the underaged

Vusal AHMADOV
The subject and limits of procedural supervision of chief (in his absence-deputy chief) of

investigation department (section, office)

Najafloo REZA
The right of divorcement in the legislation of the Islamic Republic of Iran

Tamilla CHALABIYEVA
Provisionally ahead of time discharge of the convicted to punishment restriction of freedom

Shahla ZAREI
Codification of the international law and its progressive development

Scientific life .....

FƏLSƏFƏ BÖLMƏSİ

Ramiz MEHDİYEV
Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri, Azərbaycan Milli Elmlər Akademiyasının akademiki

MÜASİR AZƏRBAYCAN MİLLİ İDEYANIN TƏCƏSSÜMÜ KİMİ

Ad augusta per angusta (lat.) -
Zirvəyə aparan yol çətin olur.

Azərbaycan Prezidenti İlham Əliyev 2011-ci il mayın 10-da "Buta" sarayında ümummilli lider Heydər Əliyevin anadan olmasının 88-ci ildönümü münasibətilə təntənəli mərasimdəki nitqində demişdir:

"Bu gün Azərbaycan dinamik inkişaf edən, öz ehtiyaclarını özü ödəyən müasir ölkədir. Bizim siyasətimiz çox açıqdır, aydındır. Güclü iqtisadi təməl üzərində müasir siyasi sistemin formalaşdırılması, dövlətçiliyin əsaslarının möhkəmləndirilməsi, azərbaycançılıq ideologiyasının gücləndirilməsi məsələləri bizim üçün prioritet məsələlərdir... Biz müstəqilliyi bərpa etmişik, qoruyub saxlaya bilmişik. Bu gün müstəqilliyi möhkəmləndiririk.

Müstəqillik bizim üçün ən böyük sərvətdir, ən böyük nemətdir, ən böyük dəyərdir".

("Azərbaycan" qəzeti, 12 may 2011-ci il).

Məqalənin mövzusunun açılmasında bu fikirlər əsas rol oynayır.

SSRİ-nin süqutu ərəfəsində 1991-ci il oktyabrın 18-də Azərbaycan müstəqilliyini yenidən bərpa etmişdir. Hər bir xalqın tarixində 20 il o qədər də böyük müddət deyildir. Lakin Azərbaycan üçün bu illər ciddi sınaqlar dövrü idi: o, müstəqil dövlət kimi yaşaya biləcəkdimi?! Zaman göstərdi ki, Azərbaycan xalqının milli ruhu sönməmişdi, əgər bu millətin layiqli lideri, dünya miqyaslı dövlət xadimi olarsa, o, istənilən çətinlikləri dəf edə bilər.

Bu illər ərzində həll edilən məsələlərin xarakterini əvvəlki illərlə əsla müqayisə etmək olmaz. XIX əsrdə və XX əsrin əvvəllərində azərbaycanlıların bir neçə nəslinin həyata keçirmək uğrunda mübarizə apardığı milli ideya özünün həqiqi təcəssümünü məhz müstəqil Azərbaycanın mövcud olduğu bu 20 ildə tapmışdır.

İranla müharibə nəticəsində 1828-ci ildən Rusiya imperiyasının tərkib hissəsinə çevrilmiş Şimali Azərbaycanda XIX əsrin ikinci yarısından etibarən dini identiklikdən Azərbaycan milli ideyasının formalaşmasının başlanğıcı olan etnik identikliyə keçid ideyası bu məkanda ideya axtarışlarının mərkəzində dayanırdı. Bu dövrdə ən ümdə məqsəd etnik şüurun dini şüurdan ayrılması ideyası idi. XIX əsrin A.A.Bakıxanov, M.F.Axundzadə, Mirzə Kazımbəy kimi mütəfəkkirləri bu yöndə çalışırdılar.

Milli məsələ XX əsrin əvvəlində Azərbaycan cəmiyyətində xeyli aktuallaşmışdı və bunun da ciddi səbəbləri vardı. Həmin dövrdə Azərbaycan sənaye cəmiyyəti yaradılması yoluna qədəm qoymuş və ümmənin (müsəlman icmasının) etnik-mədəni millət mərhələsinə transformasiyası prosesi başlanmışdı. O dövrün Azərbaycan ziyalılarının milli problemləri nə səviyyədə başa düşmələrini bizim yazıçıların, publisistlərin, şairlərin, ictimai xadimlərin əsərlərində görmək olar.

Azərbaycanda inqilabaqədərki milli təfəkkür əvvəlcə türkçülük və etnik millətçilik ideologiyası kimi inkişaf edirdi. Bu, həmin ideyanın transformasiyası üçün mühüm və zəruri platforma idi, çünki çox böyük bir regionun türkdilli əhalisinin tarixi və mədəni yaddaşına əsaslanırdı. Bu ideologiya öz milli hüquqlarının müdafiəsi işində bütün türkdilli xalqların birliyi və həmrəyliyini, ayrıca türk (Azərbaycan) millətinin, perspektivdə isə dövlətinin yaranmasını təmin etməli idi.

Sonrakı dövrdə bizim mütəfəkkirlər milli identiklik ideyasını irəli sürməyə başladılar. Bu ideya azərbaycançılıq ideologiyasının formalaşmasına keçidi nəzərdə tuturdu, onun növbəti hədəfi isə milli ideya idi. Azərbaycanda genişlənən kəskin siyasi mübarizə milli ideyanı öz məntiqi sonluğuna - Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasına gətirib çıxardı. Bu, bizim böyük əcdadlarımızın fəaliyyətinin kvintessensiyası idi.

Əlbəttə, bütün bu məqsədlər formalaşmaqda olan Azərbaycan cəmiyyətində çox böyük izahat işi aparmağı tələb edirdi. Ziyalıların görkəmli nümayəndələri öz intellektini bu məsələlərin həllinə sərf etməli, cəsarət və məsuliyyət nümayiş etdirməli idilər. Əhalini böyük dəyişikliklərə hazırlamaq, insanların tarixi və mənəvi dəyərləri dərk etməsi, onlarda etnik mənlik şüuru oyatmaq üçün vaxt lazım idi. Bütün bu işlər çarizm tərəfindən müqavimətlə, onun Cənubi Qafqaz müsəlmanlarına tətbiq etdiyi məhdudiyyətlərlə üzləşirdi. Əhali onun üçün ənənəvi olmayan etimadsızlıq, şübhəlilik, bəlkə də düşmənçilik şəraitində yaşayırdı.

Üstündən neçə-neçə onilliklər keçəndən sonra soydaşlarımızın həyatının həmin dövrünü dərindən düşünəndə anlamağa başlayırsan ki, onlar nə qədər hüquqsuz, təhqiramiz şəraitdə yaşamışlar. Yeri gəlmişkən deyək ki, sovet hakimiyyəti dövründə də Kremldə azərbaycanlılara qarşı etimadsızlıq olmuşdur. Bunu mən öz şəxsi həyat təcrübəmə və Azərbaycan Kommunist Partiyasının rəhbərlərindən biri kimi iş təcrübəmə əsasən deyirəm. Əgər bu gün xalqımız mövcuddursa və çoxları üçün nümunədirsə, bu, yalnız və yalnız onun daxili insan resursları və istedadı sayəsindədir.

XX əsrin əvvəlində o dövr üçün az-çox bitkin məzmun kəsb etmiş Azərbaycan milli ideyası və birləşdirici ideologiya kimi "azərbaycançılıq" milli ruhu və milli-mədəni yüksəlişin mexanizmlərini dirçəltmək, o cümlədən xalqı öz tarixi torpaqlarından tədricən qovulmaqdan xilas etmək cəhdi idi. Bu ideyanın reallaşdırılması xalqın öz milli muxtariyyətini, sonradan isə suveren, müstəqil dövlətini yaratmasını nəzərdə tuturdu.

1918-ci ilin mayında Azərbaycan dövlətinin yaradılması Azərbaycan xalqının milli mənlik şüurunun formalaşması prosesinin obyektiv yekunu oldu. M.Ə.Rəsulzadə 1952-ci ildə Münxendə çıxan "Qafqaz" jurnalında yazırdı: "Böyük dövlətlər Azərbaycanı 1920-ci il yanvarın 12-də tanımışlar. Bu, artıq gerçəkləşmiş milli ideyanın təntənəsi günü idi. O vaxtdan Azərbaycan müstəqil dövlət kimi beynəlxalq ailəyə daxil olmuşdur".

Azərbaycan milli ideyası prioritetlərin müəyyən edilməsində uzun bir yol keçmişdir. Bu müddətdə əvvəlcə dini tərkib hissə yaranmış, sonradan o, tədricən milli mənlik şüurunun mədəni-tarixi paradiqmasına - türkçülüyə transformasiya etmişdir.

XIX-XX əsrlərdə Azərbaycanda ictimai fikrin təkamülü milli inkişafın "türkləşmə, islamlaşma, avropalaşma" prioritetlərini əks etdirən formulu yaratmışdır. Bu gün məhz həmin ideyalar Azərbaycanın Dövlət bayrağının üç rəngində təcəssüm olunur.

XIX-XX əsrlərin tarixi zaman kəsiyində C.Məmmədquluzadə, M.Ə.Sabir, Y.V.Çəmənzəminli, Ə.Topçubaşov, Ə.Ağayev, Ə.Hüseynzadə, H.Zərdabi, F.Xoyski, M.Ə.Rəsulzadə və digər milli klassiklər və görkəmli maarifçilər azərbaycanlıların milli mənlik şüurunun oyanışında başlıca rol oynamışlar.

Onlardan bəziləri həm də müstəqil Azərbaycan dövlətinin yaradılmasının təməlini qoymuşlar. Göstərilən dövr azərbaycanlıların tarixində həmişə bu insanların adları ilə bağlı olacaqdır. Bununla belə, tarix sübut etmişdir ki, nəzəri fikrin formalaşdırılması onun tərkib hissələrinin əməli şəkildə həyata keçirilməsi qədər məsuliyyətli işdir. Təəssüf ki, bir sıra obyektiv və subyektiv daxili və xarici səbəblər üzündən birinci Azərbaycan Respublikasının liderləri dövlətçiliyimizin uzunmüddətliliyinə nail ola bilmədilər. Nəticədə keçən əsrin 90-cı illərinin əvvəlində Sovet İttifaqı dağılana qədər müstəqillik ideyaları boğuldu. SSRİ-nin dağılması ilə Azərbaycan xalqı milli ideyanın həyata keçirilməsi - müstəqil milli dövlətçiliyin qurulması üçün daha bir tarixi şans əldə etdi. Lakin 1990-cı illərin əvvəlində həm Azərbaycanın daxilində, həm də qlobal geosiyasi kontekstdə cərəyan edən ictimai-siyasi proseslər, regiondakı qüvvələr nisbəti, üstəlik, həmin dövrdə hakimiyyətdə olmuş şəxslərin siyasi baxımdan qeyri-yetkinliyi, millətin və dövlətin inkişafının strateji prioritetlərini lazımınca təsəvvür etməmələri bu vəzifənin tam şəkildə yerinə yetirilməsini təhlükə qarşısında qoymuşdu. XX əsrin əvvəlində qurulmuş Azərbaycan Xalq Cümhuriyyəti dövrünün ibrət götürülməmiş mənfi dərslərinin təkrarlanması təhlükəsi 1993-cü ildə özünü aşkar şəkildə göstərməyə başlamışdı.

Mənfi ictimai-siyasi proseslərin gedişi təkidlə tələb edirdi ki, Azərbaycanı tamamilə dağılmaq və ya parçalanmaq təhlükəsindən yalnız sözün həqiqi mənasında tarixi miqyaslı, həm Azərbaycan millətinə xas olan mühüm dəyərlərin müəyyən toplusunun təcəssümü rolunda, həm də qeyri-standart siyasi qərarların güclü və iradəli mənbəyi rolunda çıxış etməyə qadir olan şəxsiyyət xilas edə bilər. Yalnız böyük dövlət xadimi milləti xilas edə, onun ideyasını həyata keçirə bilər.

Fəlsəfə elmində çoxdan təsdiqlənmişdir ki, milli ideya cəmiyyətin həyatında, siyasi praktikada mühüm rol oynayır. Ona görə də hər bir millətin öz milli ideyası olmalıdır, əks halda həmin millətin yaşamağa haqqı yoxdur. Filosoflar milli ideyanı xalqın taleyini, onun vəzifəsini ifadə edən və taleyüklü məsələlərin həlli üçün milli enerjini səfərbər edən inteqrativ milli mənlik şüuru konsepsiyası adlandırırlar.

Milli ideya bir insanın ixtirası deyil, o, xalqın şüurunun dərinliklərindən qaynaqlanır və konkret tarixi məqamda sosial reallıq onu dəstəkləyir. Çoxmillətli dövlətdə ərazi bütövlüyünü qoruyub saxlamaq üçün milli ideya dilindən, etnik mənsubiyyətindən və dinindən asılı olmayaraq, ölkənin bütün əhalisinin maraqlarını nəzərə almalıdır. Milli ideya cəmiyyətin inkişafının ümumi məqsədi və strategiyasıdır.

Milli ideyanın mahiyyətinin məğzi nədən ibarətdir? Qeyd etmək lazımdır ki, milli ideya əvvəlcə milli şüurun oyanması, müstəqillik uğrunda mübarizə ilə şərtlənən əqli nəticə, ictimai ideya kimi yaranır. Dövlətçilik yaranıb təkamül etdikcə, ölkənin sosial-iqtisadi mövqeyi möhkəmləndikcə, mədəniyyət inkişaf etdikcə milli ideya tədricən milli maraqlarla, dövlətin beynəlxalq birlikdə rolunun elmi dərki ilə qovuşur. Bu şəraitdə milli ideya elmi cəhətdən əsaslandırılır və müvafiq ideologiyanın formalaşması üçün zəmin kimi çıxış edir.

Millətin indi və gələcəkdə salamatlığı, inkişafı və tərəqqisinin strategiyası kimi milli ideya milləti sıx birləşdirir, onu möhkəmləndirir, millətin vahid tam kimi fəaliyyət göstərməsinə şərait yaradır, bütövlükdə cəmiyyətin mənafelərini ifadə edən davranış qaydaları, qanunlar və digər mühüm ictimai-siyasi qaydalar formalaşdırmağa kömək edir. Milli ideya etnosun (millətin), onun bənzərsiz mədəniyyətinin, təkrarsız "Mən"inin qorunub saxlanmasına imkan yaradır.

Milli ideya mənəvi və rəmzi mənada müəyyən dəyərlər toplusu kimi çıxış edir. Bu halda formalaşması xalqın mənəvi seçimi ilə sıx bağlı olan milli ideyanın ən mühüm tərkib hissəsi və özəyi ərazinin və millətin yaradıcısı və qorunub saxlanmasının təminatçısının rəmzi kimi məhz millət və milli dövlət ideyası çıxış edir. Əgər milli ideya tarixi təcrübəyə, sosial-mədəni dəyərlərə və ənənələrə əsaslanmırsa, o, həyat qabiliyyətli ola bilməz.

Müasir mərhələdə Azərbaycan milli ideyasının leytmotivi Azərbaycanın müstəqil mahiyyət kimi dərk edilməsi olmalıdır. Bundan ötrü isə milli ideyanın özü şəxsi, ictimai və dövlət varlığının baza dəyərlərini ehtiva etməlidir. Ölkənin BMT tərəfindən tanınmış sərhədləri daxilində qorunub saxlanmasına yönəldilmiş Azərbaycan milli ideyasının və onun mahiyyətinin həyata keçirilməsi ərazi, əhali və idarəçilik kimi əsas xüsusiyyətlərə malik olan dövlətin ən mühüm vəzifəsidir. Azərbaycan xalqı məhz öz milli ideyasını müəyyən etmək yolu ilə millətə çevrilmişdir.

Milli ideya və milli ideologiya anlayışlarını qarışdırmaq olmaz. Elmi ədəbiyyatda onların eyniləşdirilməsi hallarına tez-tez rast gəlmək olar. Hərçənd, məlum olduğu kimi, qərarlaşmış milli dövlətə bunların hər ikisi xasdır. Buna baxmayaraq, çox vaxt milli ideyanı səhvən ideologiya kimi təsnif edirlər. Halbuki onların funksiyaları müxtəlifdir: milli ideyanı strategiya kimi səciyyələndirmək olar, ideologiya isə ideyanın reallaşdırılmasına kömək edən taktikadır. İdeologiya milli ideyanın cəmiyyətdə yayılması metodları və vasitələridir. O, milli ideyanın daşıyıcısıdır. Reallıq dəyişir, onun təqdim edilməsinin metodları və formaları da dəyişməlidir.

Şəksiz təşkilatçılıq xüsusiyyəti olan ideologiya cəmiyyətin mənəvi həyatının ən mühüm strukturudur, lakin ondan yalnız milli məsələlərin həlli, milli ideyanın reallaşdırılması üçün zəruri mexanizm kimi istifadə etmək lazımdır. Nəzərə almaq lazımdır ki, milli birliyə xidmət edən ideologiya milli ruhun mənəvi meyarlarına uyğun olmalıdır. Lakin əgər milli şüura tətbiq edilmiş həqiqilik meyarı surroqat həqiqətlə əvəz edilirsə, onda hakimiyyət nüfuzunu itirir, milli dəstəkdən məhrum olur.

Dövlət ideoloji fəaliyyətlə məşğul olmağa, yəni konkret milli və dövlətçilik dəyərlərini dəstəkləməyə və təbliğ etməyə borcludur, eyni zamanda, başa düşməlidir ki, milli ideologiya milli ideyanı əvəz etməməlidir. İdeya həyata keçirilməsi nəzərdə tutulan, müəyyən nəticəyə gətirib çıxarmalı olan bir niyyət, yaxud "nəzəri sistemin əsasını təşkil edən məntiqi prinsipdir" (bax: Социологический энциклопедический словарь. М., 1998, с. 94). İdeologiya isə insanların gerçəkliyə və bir-birinə münasibətini dərk etməyə, qiymətləndirməyə imkan verən, müxtəlif sosial qrupların və cəmiyyətlərin mənafelərini ifadə edən baxışlar və ideyalar sistemidir.

Milli ideologiya bütün millətin mənafelərini ifadə etdikdə, onun həyatına, inkişaf vektoruna, ölkə əhalisinin əksəriyyətinin dünyabaxışının mühüm hissəsinə çevrildikdə öz məqsədini doğrulda bilər.

Son 20 ildəki siyasi inkişaf göstərmişdir ki, Azərbaycan cəmiyyəti üçün təkcə milli ideya yetərli deyildir, ölkəyə milli maraqlara söykənən yeni, müasir siyasi ideologiya lazımdır.

Məhz bu səbəbdən müasir Azərbaycanın ideoloji konstruksiyasının mahiyyətinin müəyyən edilməsi çox aktual məsələdir. Artıq 18 ildir ki, "azərbaycançılıq" ideoloji konstruksiyası bu missiyanı gerçəklikdə öz üzərinə götürmüşdür. Bu konstruksiya mühüm funksional keyfiyyətlərlə zəngindir. Onların mahiyyəti ölkəni mənəvi və fiziki cəhətdən zəiflətmək cəhdlərindən qorumaqdan, Azərbaycanı unitar, hüquqi və demokratik dövlət kimi möhkəmləndirmək və inkişaf etdirməkdən ibarətdir. Azərbaycançılıq ideologiyası elə bir mənəvi dəyərdir ki, o, müstəqil və öz yolu ilə gedən Azərbaycanı informasiya baxımından koqnitiv

(idraki) sivilizasiyalar sırasına, yəni biliklərə əsaslanan və biliklər iqtisadiyyatı yaradan cəmiyyətə çevirəcəkdir.

Milli ideyanın və azərbaycançılıq ideologiyasının reallaşdırılması yalnız o halda uğurlu hesab edilə bilər ki, onlar əhalinin sosial aktiv təbəqələrinin səfərbər edilməsi, inkişaf və modernləşdirmə strategiyası, ölkənin qarşısında duran məsələlərin həlli ətrafında hakimiyyətin xalq kütlələri ilə həmrəyliyinin təmin olunması vasitəsinə çevrilsin.

Xalqın milli mənlik şüurunun oyanması ilə milli ideyanın yaranması arasında çox böyük zaman kəsiyi vardır. Milli ideya qəti şəkildə yalnız millətin yaranması ilə formalaşır, yəni tam qərarlaşmış formaya düşür.

Bizim müasir Azərbaycan üçün milli ideya anlayışının məzmununu nə ilə dolğunlaşdırmaq barədə düşünməyimizə ehtiyac yoxdur. Strateji məqsədlər ölkənin Konstitusiyasında müəyyən edilmişdir. Ona görə də milli ideyanın maddiləşdirilməsi Azərbaycan Konstitusiyasının reallaşdırılması yolu ilə həyata keçirilir. 1995-ci ildə qəbul edilmiş Konstitusiya ölkənin bütün vətəndaşlarını birləşdirən ideyadır. Bütün insanları təkcə keçmiş haqqında xatirələr deyil, məhz Konstitusiya birlikdə saxlayır. Bu gün Azərbaycan Konstitusiyası Azərbaycan milli ideyasının rəsmi ifadəsidir.

Bəs milli ideyanın və xalqın dəyər oriyentasiyalarının mahiyyəti nədən ibarətdir? Heç şübhəsiz, əsas dəyərlərdən biri məhz dövlətçilikdir. Dövlətin ali dəyərləri isə müstəqillik, dövlət suverenliyi, habelə mədəniyyət, din və ənənə dəyərləridir. Milli ideya Azərbaycan cəmiyyətinin və dövlətinin həyatının əsas məqsədi və mənasıdır. XXI əsrdə Azərbaycan milli ideyasının əsas tərkib hissələri bunlardır: dövlətin, ərazi bütövlüyünün və müstəqilliyin qorunub saxlanması, iqtisadiyyatın hərtərəfli inkişafı, vətəndaşların firavanlığı (buraya bir sıra komponentlər daxildir), müasir təhsil standartları, mənəvi inkişaf, demokratiya, təhlükəsizlik və ondan irəli gələn tam bir sıra məsələlər.

Tarix sübut etmişdir ki, dövlətin, cəmiyyətin və qlobal proseslərin inkişafını müəyyən edən başlıca amillərdən biri şəxsiyyət fenomenidir. Tarixi proseslərə obyektiv surətdə təsir göstərən bütün başqa amillər konkret ictimai-siyasi, geosiyasi, sosial-iqtisadi şəraitdən asılıdır. Şəxsiyyətin rolu isə prioritet kimi çıxış edir, çünki məhz konkret şəxsiyyət özünün fəaliyyəti və qəbul etdiyi qərarlarla xalqların, dövlətlərin tarixinə və dünya nizamına təsir göstərə bilər. Bəşəriyyətə ən qədim zamanlardan bəri çoxlu görkəmli insanlar, şəxsiyyətlər məlumdur, dünya tarixinin ayrı-ayrı dövrləri, bütöv epoxalar, millətlərin keçmişi və bugünü onların adı ilə bağlıdır. Bu tarixi şəxsiyyətlər öz əməlləri ilə xalqların həyatında o qədər dərin iz qoyurlar ki, millətin və dövlətin inkişafının həmin dövrü konkret görkəmli siyasi şəxsiyyətin ideyalarının təcəssümünün nəticəsi kimi onların adları ilə səciyyələndirilir.

Bir çox xalqların tarixi təcrübəsi milli tarixin böhranlı zaman kəsiyində məhz müəyyən şəxsiyyətin sayəsində ölkədə vəziyyətin necə dəyişməsinə, həyati əhəmiyyətli məqsədlərə nail olmaq üçün cəmiyyətin və onun ən yaxşı nümayəndələrinin sıx birləşməsinə dair parlaq misallarla zəngindir. Bu baxımdan nisbətən yaxın tarixdən misallar göstərmək olar: Mustafa Kamal Atatürk və 1920-ci illərdə müasir Türkiyə Cümhuriyyətinin yaradılması; Konrad Adenauer və müharibə nəticəsində dağıdılmış Almaniya Federativ Respublikasının 1950-ci illərdə bərpası; Şarl de Qoll və 1960-cı illərdəki narahat Fransa; Li Kuan Yu və 1965-ci ildə Sinqapurun yaranması; Franklin Ruzvelt və 1930-1940-cı illərdə ABŞ-ın timsalında dünya hegemonunun formalaşması.

Azərbaycan xalqının ən yeni tarixində belə bir şəxsiyyət ümummilli lider Heydər Əliyev - sözün həqiqi mənasında millətin və dövlətçiliyin xilaskarı olan insan öz bəsirəti, təcrübəsi və işləri ilə indiyəqədərki bütün dəyərlər və siyasi oriyentirlər sisteminin fövqünə ucalmış şəxsiyyət olmuşdur. Heydər Əliyevin onu tarixi şəxsiyyətlər sırasına çıxaran vətəndaş və siyasi hünəri müxtəlif təhdidlərə və təqiblərə rəğmən siyasətə qayıtmaq və Azərbaycanın taleyini öz əlinə almaq qətiyyətindən ibarət idi.

1991-ci ildə Azərbaycanın müstəqillik yoluna qədəm qoyması onun tarixində yeni səhifə açmaqla yanaşı, həm də o vaxt qarşıya çıxan məsələlərin təcili həll edilməsini kəskin zərurətə çevirmişdi. Lakin təəssüf ki, müstəqilliyin ilk illərində Azərbaycan dövlət quruculuğu ilə əlaqədar bütün təxirəsalınmaz məsələlərin - xarici təcavüzün dəf edilməsi, daxili siyasi vəziyyətin sabitləşdirilməsi, cəmiyyətin tam hərc-mərcliyə və vətəndaş müharibəsinə sürüklənməsinə yol verilməməsi, heç olmasa, minimum həyat qabiliyyətinə malik iqtisadiyyat yaradılması məsələlərinin az bir hissəsini də reallaşdıra bilməmişdi.

Ölkənin o vaxtkı rəhbərliyinin xüsusən xarici siyasət, müdafiə qabiliyyəti və iqtisadi islahatlar kimi sahələrdə diletant idarəçilik metodları və tam bacarıqsızlığı Azərbaycan cəmiyyətində daxili siyasi qarşıdurmanın kəskinləşməsini son həddə çatdırmış və separatçı meyillərin güclənməsi üçün zəmin yaratmışdı. Belə bir şəraitdə hər hansı uzunmüddətli məqsədlərə nail olmaq naminə millətin sıx birləşməsindən söhbət də gedə bilməzdi və ölkə rəhbərliyinin özü də həmin məqsədlərin nədən ibarət

olduğunu aydın dərk edə bilmirdi. Bu uğursuz siyasət nəticəsində dövlət qurumları və ictimai təsisatlar tamamilə tənəzzülə uğramışdı. Ona görə də 1988-ci ildən 1993-cü ilədək olan dövrü tam əminliklə qarışıqlıq, hakimiyyətsizlik və anarxiya dövrü adlandırmaq olar.

Tarixi miqyaslı şəxsiyyət olan Heydər Əliyev ölkədə yaranmış vəziyyəti hərtərəfli düşünülmüş şəkildə qiymətləndirərək, Azərbaycan dövlətinin varlığının özü üçün gərəkli təcili və həyati əhəmiyyətli məsələlərin - hakimiyyət boşluğunun aradan qaldırılması, separatçılıq təhlükəsinin və silahlı quldur dəstələrinin ləğv edilməsi, döyüş qabiliyyətli ordu yaradılması kimi məsələlərin həlli naminə bütün Azərbaycan cəmiyyətini sıx birləşdirə və səfərbər edə bildi.

Xarici dövlətlərin rəhbərləri, dünyanın tanınmış analitikləri birmənalı şəkildə etiraf edirlər ki, Heydər Əliyev XX əsrin ikinci yarısının - XXI əsrin əvvəlinin siyasi tarixində görkəmli siyasi xadim və dövlət xadimi kimi qalacaqdır. Çox böyük siyasi təcrübəsi, nadir xarizması, natiqlik qabiliyyəti və yüksək nüfuzu onu müasir siyasi xadimlər arasında kəskin şəkildə fərqləndirirdi. Onun məqsədi qabaqcıl Avropa standartlarına uyğun milli dövlət yaratmaq idi. Məhz o, Azərbaycan dövlətçiliyinin möhkəm təməlini qoydu, bununla da milli müstəqilliyin inkişaf vektoruna dönməzlik xarakteri verdi. Heydər Əliyev mürəkkəb geosiyasi dövrdə ölkəni vətəndaş qarşıdurması və dərəbəylik vəziyyətindən, dərin iqtisadi və siyasi böhrandan çıxarmağa, onu sabit inkişaf səviyyəsinə qaldırmağa nail oldu. Ölkənin xarici siyasi aləmdə təcrid olunmuş vəziyyətdən çıxarılması da onun xidmətidir. O, bütün dünyaya sübut etdi ki, Azərbaycan tərəqqi edən müasir dövlətə çevrilə bilər.

Heydər Əliyev bütün dövlət quruculuğu prosesinin həyata keçirilməsinin yeganə təminatçısı olmuşdur. Ötən əsrin 70-80-ci illərində uğurla həyata keçirilən səmərəli dövlətçilik, varislik və proqnozlaşdırıla bilən konsepsiya əsas götürüldü. Azərbaycan xalqı çox güclü məna potensialı ilə dolğunlaşdırılan, cəmiyyətin daxilindəki ziddiyyətləri həll etməyə və davamlı inkişaf üçün zəmin yaratmağa qadir olan milli ideya əldə etdi.

Heydər Əliyevin bütün parlaq həyatı mühüm tarixi hadisələrlə zəngin idi. Bütövlükdə isə o, siyasət korifeyi idi və özünün qaynar fəaliyyəti ilə qeyri-adi şəxsiyyət kimi müasir Azərbaycanın tarixində çox böyük rol oynamışdır.

1993-2003-cü illəri əhatə edən on il ən müxtəlif təhdid və təhlükələrlə dolu idi, gənc respublikaya çox böyük təzyiqlər vardı. Heydər Əliyevin siyasi nüfuzu və onun vaxtında qəbul etdiyi qərarlar Azərbaycanı simasız dövlət vəziyyətinə yuvarlanmaq təhlükəsindən xilas etdi. Azərbaycan bu on ildə dövlətçiliyin bərqərar olması, demokratik keçid və konsolidasiya yolu qət etmiş, eyni zamanda, ölkədə genişmiqyaslı iqtisadi islahatlar aparılmış, siyasi sistem və sosial münasibətlər humanistləşmişdir. Bu cür geniş əhatəli transformasiya sistemli xarakter daşıyır və subyektiv səpkili çoxsaylı maneələrə rəğmən həyata keçirilirdi.

Azərbaycanda dövlətçiliyin və milli şüurun, iqtisadiyyatın və sosial quruluşun, siyasi sistemin və identikliyin durğunluq və tənəzzül keçirdiyi həmin dövrdən təqribən 20 il ötəndən sonra cəsarətlə deyə bilərik ki, 1993-2003-cü illərdə Heydər Əliyevin on illik prezidentliyinin əsas uzunmüddətli hədəfləri aşağıdakılar olmuşdur:

* ölkədə son dərəcə zəruri olan ictimai-siyasi həyatın sabitləşdirilməsi, demokratik ənənələrin və təsisatların yaradılması və təkmilləşdirilməsi;

* dövlət aparatının möhkəmləndirilməsi və işlək dövlət idarəçilik təsisatlarının formalaşdırılması;

* cəmiyyətdə yeni davranış normaları və stereotiplərinin yaradılması, yeni - açıq və demokratik vətəndaşlıq mövqeyinin formalaşdırılması;

* 1994-cü ildən başlayaraq Qarabağ cəbhəsində atəşkəs rejimi şəraitində iqtisadi inkişafın mühüm prioritetlərinin formalaşdırılması;

* müstəqil dövlətin neft strategiyasının yaradılması, - bunun təməli "Əsrin müqaviləsi"nin imzalanması ilə qoyulmuşdur, - əsas regional enerji aktoruna transformasiyanın başlanması;

* "Böyük İpək yolu" layihəsində fəal iştirak etməklə regional logistika mərkəzi kimi Azərbaycanın rolunun dəyişdirilməsi;

tarazlaşdırılmış xarici siyasətin dövrə uyğunlaşdırılmış modelinin formalaşdırılması;

* müasir və döyüş qabiliyyətli ordu yaradılması və s.

Heydər Əliyevin həm nəzəri səviyyədə, həm də praktikada həyata keçirdiyi norma və dəyərlərin məcmusu konsolidasiya edilmiş demokratiyanın həyat qabiliyyətli modelinə çevrilmişdir. Heydər Əliyevin prezidentliyi dövründə ölkənin müasir inkişafı üçün möhkəm təməl qoyulmuş, Azərbaycanın yetkin dövlət kimi qəbul edilməsi təmin olunmuş, gələcəkdə müasir dünyaya sürətlə qovuşması üçün şərait yaradılmışdı. Ölkə inamla qəddini düzəltmiş, həm quruculuq fəaliyyəti, həm də dövlətçiliyin qorunub saxlanması və ink-

işaf etdirilməsi problemlərinin fəlsəfi baxımdan dərk olunması üçün imkan yaranmışdı. Azərbaycan cəmiyyətinin üzləşdiyi müasir təhdidlər və çətinliklər daha ciddi tələblər irəli sürür, XXI əsrin çağırışları nəzərə alınmaqla sonrakı illərdə ölkəyə başçılıq edə biləcək şəxsiyyətin seçilməsinə daha böyük tarixi məsuliyyətlə yanaşmağı zəruri edirdi.

YENİ PARADİQMA

Ad cogitandum et agendum homo natus est (lat.) -
İnsan düşünmək və iş görmək üçün yaranmışdır.

2003-cü ildə Azərbaycan öz tarixinin yeni mərhələsinə qədəm qoymuşdur. Ölkə yuxarıda sadalanan istiqamətlərin hamısında nəzərəçarpacaq uğurlar qazanmışdır. Azərbaycan dövləti uzunmüddətli həyat qabiliyyətinə malik olduğunu, cəmiyyət isə tarixi prosesin növbəti mərhələsində iştirak etməyə hazır olduğunu nümayiş etdirmişdir. Müasir Azərbaycan Respublikasının müstəqilliyi həm adi vətəndaşlar, həm də qlobal miqyaslı ən mühüm güc mərkəzləri üçün aksioma çevrilmişdir. Məhz Heydər Əliyevə xas olan xarizma, uzaqgörənlik, iradi keyfiyyətlər, təcrübə, başqa sözlə desək, onun şəxsiyyəti göstərilən dövrdə bizim üçün sistem əhəmiyyətli "millət", "dövlətçilik", "idarəetmə sistemi", "hakimiyyət", "inkişaf etmiş iqtisadiyyat", "mənəvi dirçəliş", "liderlik", "transformasiya", "çoxvektorluluq" kimi dəyərlərin təşəkkülü və möhkəmlənməsində çox mühüm rol oynamışdır.

Prezident İlham Əliyevin şəxsiyyəti ölkənin inkişafının 2003-cü ildə başlanmış növbəti mərhələsinin rəmzinə çevrilmişdir. Dövlətçilik quruculuğu tarixi prosesinin məntiqi müasir dövrün çağırışlarını başa düşməyin keyfiyyətcə yeni səviyyəsinə keçməyi tələb edirdi. Bununla belə, sistem dəyərləri dəyişməz qalmalı idi. İlham Əliyev Azərbaycan milləti üçün hər iki tələbi təmin edən seçim oldu. Əgər bu seçimə Azərbaycan milləti və dövlətçiliyinin bütün tarixi təcrübəsi prizmasından nəzər salsaq, o, mahiyyət etibarilə reallıq olan tarixi dövlət layihəsinin legitimləşdirilməsi idi.

Müstəqil milli dövlətçiliyin və identikliyin qorunub saxlanmasını və eyni zamanda, dünya birliyinə inteqrasiya strategiyasını nəzərdə tutan milli ideyanın Prezident İlham Əliyev tərəfindən fəlsəfi baxımdan dərk edilməsi onun bütün əməli fəaliyyətində öz əksini tapır. Böyük dövlət xadimi kimi İlham Əliyevin malik olduğu şəxsi keyfiyyətlər onu tarixi miqyaslı siyasətçi, millətin kollektiv tarixi təcrübəsini dövlət quruculuğu istiqamətinə yönəldən ali idarəçilik funksiyalarını yerinə yetirməyə sövq edir. Azərbaycan cəmiyyəti və dünya birliyi bu fenomeni 2003-cü ildən bu günə qədər müşahidə edə bilir. Milli və dövlət müstəqilliyinin qorunub saxlanması, dünya birliyinə inteqrasiya indi azərbaycanlıların milli mənlik şüurunun tərkib hissəsinə çevrilmişdir. Məhz müstəqil Azərbaycan dövlətinə görə, onun hadisələrlə zəngin tarixinə görə qürur hissi, Azərbaycan millətinin dünya tarixinə öz töhfəsini verməyə hazır olması Heydər Əliyevi belə deməyə sövq etmişdi: "Mən fəxr edirəm ki, azərbaycanlıyam". Prezident İlham Əliyevin məqsədyönlü fəaliyyəti sayəsində bu siyasi kateqoriyalar tarixi prosesin yeni mərhələsində yeni keyfiyyət məzmunu ilə dolğunlaşmış, milli mənlik şüurunun strukturunu möhkəmlətmiş, milli "Mən"də konkret və dəqiq forma kəsb etmişdir.

Təsadüfi deyil ki, Prezident İlham Əliyev 2003-cü il oktyabrın 31-də andiçmə mərasimindəki nitqində Heydər Əliyevin prezidentliyi dövründə Azərbaycanın qazandığı bütün uğurlardan danışarkən ilk növbədə ölkə iqtisadiyyatının vəziyyətinin kökündən dəyişməsini vurğulamış, 1993-2003-cü illərdə həyata keçirilmiş islahatların bütün spektrini, o vaxta qədər ölkəyə cəlb edilmiş investisiyaların ümumi həcminin 15 milyard dollar olmasını, bu proseslərdə ictimai-siyasi sabitliyin mühüm rol oynamasını xatırlatmışdır. İlham Əliyev yeni vəzifədə elə ilk nitqində müasir Azərbaycanın ən mühüm probleminə - Dağlıq Qarabağın işğal edilməsinə yeni səpkidə münasibətini bildirmiş, dünya birliyini "ikili standartlardan" imtina etməyə çağırmış, dünyanın və regionun əsas aktorlarının təcavüzkara təzyiq göstərməkdə öz rollarını fəallaşdırmasının zəruriliyini vurğulamışdır. Prezident İlham Əliyev öz mövqeyinin vektorunu göstərmişdir: "Biz torpaqlarımızın işğal edilməsi ilə heç vaxt barışmayacağıq, Azərbaycan öz ərazilərini nəyin bahasına olursa-olsun azad edəcəkdir".

Bu bəyanatlar Dağlıq Qarabağ üstündə Ermənistanla hərbi qarşıdurma şəraitində dövlətin inkişafının strateji konsepsiyasının, eləcə də politoloji baxımdan adi "postsovet məkanından" inkişaf etməkdə olan azad dövlətə siyasi və iqtisadi keçid dövründə cəmiyyətin transformasiyasının əsasına çevrilmişdir.

SÖZLƏ ƏMƏL BİR OLANDA

Concordia rarvae res crescunt, discordia maximae dilabuntur (lat.) -
Harmoniya olduqda ən kiçik də böyüyür, nizamsızlıqda isə böyük də yox olur.

2003-cü ilə qədər Azərbaycanda hakim elitanın, cəmiyyətin fəal hissəsinin və geniş xalq təbəqələrinin təşəkkül tapmış həmrəyliyi daxili siyasətdə yanaşmalara dəyişikliklər olunmasını tələb edirdi. Müstəqillik illərində yaradılmış yeni dövlət təsisatları indi artıq onların fəaliyyətinin şəffaflığı və səmərəsinin artırılması istiqamətində təkmilləşdirilirdi. Bu, ilk növbədə, Azərbaycan cəmiyyətinin sosial və iqtisadi aspektlərinə aid idi, çünki Prezident İlham Əliyevin strateji baxışlarının reallaşdırılması ən əvvəl əhalinin maddi rifahının yaxşılaşması və yüksəlməsində, ölkənin hər bir vətəndaşının, - istər dövlət orqanlarında xidmət, istərsə də ictimai fəaliyyət və ya şəxsi təşəbbüsü olsun, - özünütəsdiqi üçün bütün imkanların açılmasında öz əksini tapmalı idi.

İlham Əliyev 2003-cü ildə dövlətə başçılıq etdiyi ilk günlərdən Azərbaycan iqtisadiyyatının həyat qabiliyyətli strukturunun təmin edilməsi üçün zəruri olan və idarəçiliyə cəlb edilmiş kadrların seçilməsi məsələsinə keyfiyyətcə yeni yanaşma tələb edən genişmiqyaslı infrastruktur layihələri irəli sürdü. Həmin məsələnin başa düşülməsi dünya birliyinə inteqrasiyanın strateji məqsədi ilə ahəngdar şəkildə uzlaşırdı. Sosial modernləşmə olmadan, ölkənin məmur və idarəçi elitasını "cavanlaşdırmadan", həmin elitanı texnokratlar, bu və ya digər fəaliyyət sahəsində uğur rəmzinə çevrilmiş, müvafiq praktik iş təcrübəsinə malik insanlar hesabına genişləndirmədən bu məqsədə çatmaq mümkün olmazdı. Bununla bərabər, iqtidar başa düşürdü ki, regional miqyasda Azərbaycanın çox böyük təbii və yüksək insani resursları nəzərə alınmaqla, həmin istiqamətlərdə qazanılan uğurlar ölkəni regional lider səviyyəsinə ucaldacaqdır.

Modernləşmə müasir dövlətin zəruri funksiyalarından biridir. Azərbaycan innovasiya modernləşməsinin həyata keçirilməsində çox maraqlıdır. Bu halda həmin proseslər fəal sosial qrupların maksimum sayda nümayəndələrini əhatə edəcəkdir. İnnovasiya modernləşməsi tipologiya baxımından inkişafın təkamül yoluna yaxındır, bu isə Azərbaycanın demokratik transformasiya strategiyasına uyğundur. Düşünürük ki, dəyişməkdə olan dünyada modernləşmə siyasətinin həyata keçirilməsi ölkədə keyfiyyət dəyişiklikləri üçün mühüm stimul olacaqdır. Ona görə ki, Azərbaycan dövləti daha möhkəm olacaq, çünki o, yeni çağırışlara, postindustrial cəmiyyətə xas olan dinamik mühitdə yaşamağa daha yaxşı uyğunlaşdırılacaqdır. Eyni zamanda, modernləşmə ritorikasının ölkənin müvafiq inkişaf strategiyalarının bütünlükdə məzmununa və real sosial-iqtisadi proseslərin tərkib hissəsinə çevrilməsi vacibdir. Əks halda o, təbliğat proqramı kimi qalacaq ki, bu da insanları məyus edə bilər.

Prezident İlham Əliyev müasir cəmiyyətin, müasir infrastrukturun yaradılmasını və müasir insanın formalaşdırılmasını modernləşmə sahəsində ölkə qarşısında duran əsas vəzifələr kimi müəyyən etmişdir. Eyni zamanda onu da nəzərə almaq lazımdır ki, inkişaf və modernləşmə idarə edilən proseslərdir, onların təkcə lokomotivi deyil, həm də hərəkəti tənzimləmək üçün pedalları vardır.

Qərbin tanınmış siyasi filosofları bildirirlər ki, "qızıl milyard" ölkələri qeyri-Qərb dövlətlərinin modernləşməsinin uğurlu olmasında o qədər də maraqlı deyildir. Qərbi həmin ölkələrin iqtisadiyyatının yalnız ayrı-ayrı sahələrinin inkişafı qane edir. Çünki həmin sahələr bu və ya digər dərəcədə Qərbin maraqlarına xidmət edir. "Qızıl milyard" ölkələrinə inkişaf etmiş rəqiblər lazım deyildir. Onlar, bir qayda olaraq, ucqar ölkələrin istismarı hesabına fəaliyyət göstərir. Onlara həmin ölkələrin təbii ehtiyatları və insan resursları lazımdır.

Müasir qlobal çağırışlar və dünyada yaranmaqda olan yeni geosiyasi və geoiqtisadi struktur şəraitində Azərbaycan milli ideyasının və milli ideologiyasının həyata keçirilməsi o halda uğurla nəticələnəcəkdir ki, bunlar yalnız milli strateji maraqlara əsaslanmış olsun.

Prezident İlham Əliyevin dövründə ölkənin seçdiyi dinamik sosial-iqtisadi inkişaf xətti üçün ən ciddi sınaq əvvəlcə Amerika iqtisadiyyatının ümumi axsaması fonunda ABŞ-ın ipoteka sistemində başlanmış böhranın doğurduğu 2008-2011-ci illərin dünya maliyyə böhranı oldu. Qeyd etmək yerinə düşər ki, əvvəlcə yalnız maliyyə sektorunu bürüyən böhran sonradan iqtisadiyyatın real sektoruna da keçmişdi. Fond və valyuta bazarlarında yaranmış problemlər qlobal iqtisadiyyatda struktur sarsıntılarına gətirib çıxarmış və xammal bazarlarında güclü dəyişkənliklə müşayiət olunmuşdu ki, bu da ayrı-ayrı ölkələrin və bütöv regionların milli iqtisadiyyatına son dərəcə mənfi təsir göstərmişdi. Əksəriyyətinin korporativ tarixi Avropanın bəzi dövlətlərinin yaşından çox olan ən iri beynəlxalq banklar, o cümlədən Lehman Brothers, Fannie Mae, ING, Northern Rock və ABM Amro kimi nəhənglər müflisləşmə həddinə çatmışdı. 2011-ci ilin martına qədər Amerikanın 350-yə yaxın bankı müflisləşdiyini bildirmişdi. Citigroup, General Motors, AIG və Gen-

eral Electric də daxil olmaqla, ən iri şirkətlər on minlərlə əməkdaşı ixtisar etmək məcburiyyətində qalmışdı. Portuqaliya, Yunanıstan, İslandiya və bir sıra başqa ölkələr ciddi böhran dərəcəsinə çatmış və öz tərəfdaşlarından maliyyə yardımı istəməyə məcbur olmuşdu. Onlar böhranın nəticələrindən hələ də özlərinə gələ bilmirlər.

Maliyyə-iqtisadi böhran bir sıra dövlətlərin sosial siyasətinə də təsir göstərmişdi. Həmin ölkələr öz borclarını yüngülləşdirməyə çalışaraq əhaliyə ödənilən sosial müavinətləri və pensiyaları azaltmağa məcbur olmuş, cəmiyyətin aztəminatlı təbəqələrinə kömək məqsədi ilə nəzərdə tutulan müxtəlif proqramlar kəskin şəkildə məhdudlaşdırılmışdı və s.

Hətta bu gün, dünya iqtisadiyyatının tədricən özünə gəldiyi bir vaxtda da böhranın nəticələri hiss edilir. Onun nəticələri o qədər ciddidir ki, dünyanın bir sıra regionlarında sosial gərginliyə səbəb olur, dünya iqtisadiyyatında resursların qeyri-bərabər paylanması, ərzaq qıtlığı, siyasi qarşıdurmalar kimi xroniki hallar bunu daha da kəskinləşdirir. Bu isə öz növbəsində sosial-siyasi sabitliyin pozulmasına gətirib çıxarır və çox vaxt belə halların nə ilə nəticələnəcəyini proqnozlaşdırmaq mümkün olmur. Dünya təcrübəsi göstərir ki, iqtisadi zəiflik, xarici amillər qarşısında tab gətirməmək çox vaxt dövlətlərin suverenliyi və milli təhlükəsizliyi üçün təhlükəyə çevrilir. Nəticədə həmin dövlətlərin bundan sonra hansı istiqamətdə hərəkət etməli olması barədə öyüd-nəsihət verməyə cəhd göstərən çoxlu məsləhətçilər peyda olur və onlar bəzən bunu dövlətlərin daxili işlərinə qarışmaq niyyətlərini gizlətmədən edirlər.

Azərbaycan iqtisadiyyatı, ölkənin bank sistemi, real sektorun sistemyaradan müəssisələri dünya maliyyə böhranını sənaye cəhətdən inkişaf etmiş bir sıra ölkələrdə və yeni müstəqil dövlətlərdə olduğu dərəcədə hiss etməmişdir. Hətta böhran dövründə Azərbaycan iqtisadiyyatının artım sürəti isə dünya ekspertləri arasında uğurlu strategiya nümunəsi kimi diskussiya mövzusuna çevrilmişdir. 2008-2009-cu illərdə - böhranın ən şiddətli dövründə belə Azərbaycan iqtisadiyyatı 9 faiz artmışdı. Özü də ÜDM-in strukturunda istehsal sektorunun üstünlüyü qorunub saxlanmış, yəni iqtisadi artımın 64 faizi real sektorun, istehsal sahəsinin hesabına təmin edilmişdi. Qonşu Ermənistanda isə 2009-cu ilin yekunlarına görə, ÜDM-in həcmi dram ilə götürdükdə 14,4 faiz, dollar ifadəsində 30 faizdən çox aşağı düşmüşdü. Böhranlı 2009-cu ildə Gürcüstanda da ÜDM 3,9 faiz azalmışdı.

Hələ 2004-cü ilin əvvəlində qəbul edilmiş və sonrakı dörd ildə həyata keçirilmiş regionların sosial-iqtisadi inkişafına dair birinci Dövlət Proqramı iqtisadi artım sürətinin saxlanmasında mühüm rol oynamışdır. Proqram çərçivəsində qarşıya qoyulmuş bütün vəzifələr yerinə yetirildikdən sonra 2009-2013-cü illər üçün yeni proqram qəbul edilmişdir və hazırda o da uğurla həyata keçirilir. Prezident İlham Əliyev Azərbaycan regionlarının sosial-iqtisadi inkişaf planlarının həyata keçirilməsi, habelə nəzərdə tutulan işlərin yerinə yetirilməsinin gedişi ilə tanışlıq çərçivəsində 2003-cü ildən 2011-ci ilin may ayına qədər respublikanın 58 rayon və şəhərinə 195 səfər etmişdir. Təkcə bu fakt dövlət başçısının bölgələrin hərtərəfli və sürətli inkişafına dərin maraq göstərməsinə dəlalət edir.

2008-2009-cu illərdə dünya böhranının şiddətli vaxtında yaranmış çətinliklər Azərbaycanın xarici borclardan həddən çox asılı olan bir sıra kommersiya banklarına, o cümlədən sistemyaradan banklara da müvəqqəti təsir göstərmişdi. Lakin tənzimləyici dövlət orqanlarının gördüyü səriştəli tədbirlər və müvafiq dövlət fondlarında ehtiyatların həcminin kifayət qədər olması sayəsində bu çətinliklər tezliklə aradan qaldırılmışdı. Bundan əlavə, Azərbaycan Mərkəzi Bankı 2003-cü ildən başlayaraq ölkənin kommersiya banklarının kredit bazarında daha ehtiyatlı davranışına yönəlmiş bir sıra qabaqlayıcı tənzimləmə tədbirləri görmüşdü. Böhran ərəfəsində bankların çoxunda əcnəbi ekspertlərin iştirakı ilə yaradılmış və təkmilləşdirilən riskləri idarəetmə sistemləri mövcud idi, aktivlərin və kreditlərin təminatı kimi qəbul edilən girovların keyfiyyətinə dair tələblər sərtləşdirilmişdi.

Prezidentin strateji baxışları çərçivəsində qarşıya qoyulmuş iqtisadi xarakterli vəzifələr iqtisadiyyatın müxtəlif sahələrində mövcud istehsal güclərinin modernləşdirilməsini davam etdirməyə, müəyyən edilmiş müddətlərdə iqtisadiyyatın strukturunu şaxələndirməyə imkan vermişdir. 2004-2011-ci illərdə ölkənin dövlət büdcəsinin mədaxil hissəsi 7,6 dəfə artmışdır. Həmin dövrdə ümumiyyətlə 900 minə yaxın iş yeri, o cümlədən 700 min daimi iş yeri açılmışdır.

2010-cu ildə yerli banklar tərəfindən ölkə iqtisadiyyatına ayrılmış qısamüddətli kreditlərin məbləği 8,8 faiz artmışdır. Uzunmüddətli kreditlər üzrə isə bu göstərici 9,1 faiz idi. 2011-ci il fevralın 1-nə ölkənin bank sektorunun aktivlərinin ümumi həcmi 13 milyard manatdan çox idi. 2010-cu ildə fiziki şəxslərin ölkə banklarındakı depozitlərinin ümumi həcmi 29,7 faiz artaraq ilin yekunlarına görə 3,3 milyard manat olmuşdur.

Azərbaycan Dövlət Neft Fondunun aktivləri 2011-ci il aprelin 1-nə 25,7 milyard manata çatmışdır. Həmin tarixdə Azərbaycan Mərkəzi Bankının valyuta ehtiyatları da maksimum məbləğə çataraq 6,7 milyard ABŞ dolları olmuşdur.

Onu da vurğulamaq lazımdır ki, qeyri-neft sektorunun inkişafı iqtisadi və sosial xarakterli başqa məsələlərin həlli üçün Azərbaycan Prezidenti tərəfindən qarşıya qoyulmuş strateji məqsədlərdən biri olmuşdur. Son 7 ildə ümumi daxili məhsul təxminən 3 dəfə artmış, hətta 2008-2009-cu illərdə dünya maliyyə böhranının ən kəskin dövründə də öz dinamikasını saxlamışdı. Eyni zamanda, qeyri-neft sektorunun inkişaf sürəti bütövlükdə iqtisadiyyatın inkişaf sürətini xeyli qabaqlayırdı. Belə ki, 2010-cu ildə ölkədə ÜDM-in artımı 5 faiz olduğu halda, qeyri-neft sektorunda bu göstərici 7,9 faiz idi.

Uzunmüddətli perspektivdə neft-qaz ehtiyatlarının məhdud olacağını nəzərə alaraq, Azərbaycan iqtisadiyyatın şaxələndirilməsinə daha çox diqqət yetirir. Bu məqsədlə kiçik və orta sahibkarlığın dəstəklənməsinə yönəldilmiş geniş tədbirlər həyata keçirilir. Sahibkarlığa Kömək Milli Fondunun xətti ilə kiçik və orta sahibkarlığın fəal kreditləşdirilməsi, o cümlədən uzunmüddətli kreditlərin ayrılması özəl sektorun inkişafına güclü təkan vermişdir. Bu gün Azərbaycan vətəndaşlarının, onun idarəçilik və işgüzar elitasının ən yaxşı nümayəndələrinin "uğur tarixlərinin" əksəriyyəti məhz özəl sektorda müşahidə olunur. Kreditlərin 80 faizinin regionlara verilməsi göstərir ki, iqtisadiyyatın təkcə sektorlar üzrə deyil, həm də respublikanın bölgələri üzrə şaxələndirilməsinin zəruriliyinə diqqət yetirilir.

Təkcə son bir ildə ölkədə beş mindən çox müəssisə açılmışdır. Həm də ölkə iqtisadiyyatına cəlb edilən investisiyaların həcmi saxlanılmaqla onların strukturunda müsbət dəyişikliklər baş verir - investisiyaların üçdə iki hissəsi Azərbaycanın öz kapitalı ilə təmin edilir.

Azərbaycanda aqrar sektorun inkişaf etdirilməsi üçün nadir təbii-iqlim şəraiti vardır. Lakin Prezidentin fikrincə, ölkəmiz özünün bu üstünlüyündən hələ yetərincə istifadə etmir. Dünyadakı 11 iqlim qurşağından 9-nun Azərbaycan ərazisində olması il boyu müxtəlif bitkiçilik məhsullarının yetişdirilməsi, eləcə də ekoloji təmiz kənd təsərrüfatı məhsullarının istehsal edilməsi üçün əlverişli şərait yaradır və biz bu imkanlardan bacarıqla istifadə etməliyik. Azərbaycan iqtisadiyyatının intensiv və dinamik inkişafı, maddi resursların artırılması ölkənin kənd təsərrüfatı qarşısında yeni imkanlar açmışdır. Bu yeni imkanlardan yetərincə və səmərəli istifadə edilməsi aqrar sektorda dövlət siyasətinin ən başlıca vəzifələrindən biridir.

Hazırda kənd təsərrüfatı milli iqtisadiyyatın ən mühüm sahəsidir. 1995-ci ildən etibarən Heydər Əliyevin təşəbbüsü ilə ölkədə radikal torpaq islahatlarına başlanmışdı. Hazırda aqrar istehsalda özəl sektorun payı 99,7 faizdir. Bu isə o deməkdir ki, aqrar sektor bazar münasibətləri əsasında inkişaf edir. Ölkə əhalisinin 47 faizi kəndlərdə yaşayır, məşğul əhalinin 39,7 faizi kənd təsərrüfatı sahəsində çalışır.

Müasir Azərbaycanın həm qida məhsullarına olan tələbatını daxili istehsal hesabına təmin etmək, həm də bəzi məhsul növlərini xarici ölkələrə ixrac etmək üçün bütün imkanları vardır. Həyat səviyyəsinin yaxşılaşması, vətəndaşların pul gəlirlərinin çoxalması adambaşına qida məhsullarına istehlakçı tələbatını yüksəltmişdir ki, bu da öz növbəsində ölkədə ərzaq bazarını genişləndirməyə şərait yaratmışdır.

Ərzaq təhlükəsizliyini təmin etmək məqsədi ilə "2008-2015-ci illərdə əhalinin ərzaqla etibarlı təmin edilməsi üzrə Dövlət Proqramı"nın həyata keçirilməsinə başlanmışdır. Bu proqram ölkədə yoxsulluğun aradan qaldırılması və davamlı inkişafın təmin edilməsi, habelə regionların sosial-iqtisadi inkişafı üzrə əvvəlki dövlət proqramlarını uğurlu şəkildə tamamlayır, aqrar, regional-iqtisadi və sosial siyasətdən ibarət, bir növ, üçbucaq yaradır, uzun müddət üçün əhalinin həyat şəraitinin yaxşılaşdırılmasının möhkəm təməlini qoyur.

Aqrar sahədə sahibkarlıq fəaliyyətinin stimullaşdırılması nəticəsində 2010-cu ildə kənd təsərrüfatı müəssisələrinin sayı 2036-ya, sahibkarların sayı 2659-a, emal müəssisələrinin sayı isə 556-ya çatmışdır.

2009-cu ildən etibarən kənd təsərrüfatı məhsulları istehsalçıları torpaq vergisindən savayı, bütün başqa vergilərdən azad edilmişlər. Bu siyasət 1999-cu ildən tətbiq olunur.

Rayonlarda və kəndlərdə sahibkarlığın dövlət tərəfindən təşviqi prosesi də davam edir. Sahibkarlığın İnkişafına Kömək Milli Fondu tərəfindən verilmiş kreditlərin çox hissəsi məhz aqrar sahəyə yönəldilmişdir. Dövlət tərəfindən maliyyələşdirilən layihələrin 94 faizi məhz kənd təsərrüfatı məhsullarının istehsalı və emalı sahələrini əhatə edir.

İqtidar yaxşı başa düşür ki, aqrar sahədə dövlət siyasəti daha çevik həyata keçirilməli və əlaqələndirilməli, bu sektorun kadr potensialı gücləndirilməli, institusional problemlər həll edilməlidir. Bu məsələlərin həllini təmin etmək üçün Prezident İlham Əliyev 2011-ci il mayın 3-də "Azərbaycanda aqrar sahədə idarəçiliyin təkmilləşdirilməsi və aqrar elmin inkişaf etdirilməsi ilə bağlı Xüsusi Komissiyanın yaradılması barədə" Sərəncam imzalamışdır. Bu, aqrar sahədə idarəçiliyin təkmilləşdirilməsində və aqrar elmin yenidən təşkilində mühüm vəsilə olacaqdır.

2010-cu il bir də onunla əlamətdar olmuşdur ki, Azərbaycan təkcə neft ölkəsi deyil, həm də qaz ölkəsi statusunu növbəti dəfə təsdiqləmişdir. Təsdiq edilmiş ehtiyatlarının həcmi 200 milyard kubmetrə çatan "Ümid" qaz yatağı açılmışdır. Bu tarixi layihə Azərbaycanın Avropanın enerji təhlükəsizliyi aktoru statusuna transformasiyası şəraitində ölkənin geoiqtisadi əhəmiyyətini yeni səviyyəyə yüksəldir.

Prezident İlham Əliyev ölkənin daxili simasını dəyişməklə bərabər, həm də onun regional funksionallığını modifikasiya etmişdir. Hazırda regional əhəmiyyətli şimal-cənub və şərq-qərb istiqamətində yollar çəkilir, Çindən Avropaya qədər geniş bir məkanı əlaqələndirəcək Bakı-Tbilisi-Qars dəmir yolu tikilir. Bunlarla yanaşı, yeni lokomotivlər və qatarlar, təyyarələr, gəmilər və bərələr alınır, çünki Azərbaycan ərazisindən keçməklə yükdaşımaların həcmi artmaqdadır. Bütün bu infrastruktur layihələrinin həyata keçirilməsi, Bakıda yeni aeroport kompleksinin və dəniz limanının tikilməsi, şübhəsiz ki, Azərbaycanın bütün regionun mərkəzi nəqliyyat qovşağına və rəqabətədavamlı logistika mərkəzinə çevrilməsinə şərait yaradacaqdır.

Müasir Azərbaycanın iqtisadi siyasətindən və modernləşmə xəttindən danışarkən informasiya və kommunikasiya texnologiyaları sahəsinə toxunmamaq olmaz. Son üç ildə Azərbaycan bu sahənin inkişaf dinamikasına görə MDB ölkələri arasında liderlik edir. Belə ki, BMT-nin məruzəsinə görə, ölkələrin elektron hökumət yaradılmasındakı uğurlarını əks etdirən "United Nations e-Government Survey-2010" indeksi üzrə Azərbaycan dünyanın 192 ölkəsi arasında 83-cü yeri, "e-iştirak" indeksinə görə isə 157 ölkə arasında 68-ci yeri tutmuşdur.

Prezidentin müəyyən etdiyi strategiyaya görə, Azərbaycan yaxın 10-15 ildə informasiya-kommunikasiya texnologiyaları sahəsindən gələn gəlirlərin həcminin neft ixracından əldə edilən gəlirlərə çatdırılmasına nail olmağı planlaşdırır. Prezident hələ 2003-cü ildə Cenevrədə, informasiya cəmiyyəti qurulması problemlərinə həsr edilmiş dünya sammitindəki çıxışında dəqiq göstərmişdir ki, Azərbaycanın əsas məqsədi özünün "qara qızıl"ını insan kapitalına çevirməkdir və bu işdə aparıcı rollardan biri informasiya texnologiyaları sahəsinə məxsusdur. İKT artıq bu gün öz həcminə və potensialına görə energetika sahəsindən sonra ikinci yeri tutur, lakin inkişafın perspektivləri və dinamikası baxımından bu sektor şəksiz liderdir. 2003-cü ildən bəri bu sahədə orta illik artım sürəti 30-32 faiz səviyyəsində olmuşdur, halbuki dünya üzrə illik artım orta hesabla cəmi 10 faizdir. Yalnız böhranlı 2009-cu il istisna təşkil etmiş, həmin il artım dinamikası 13-14 faizə düşmüşdü. Son yeddi ildə İKT sektorunun həcmi 5 dəfə artmışdır və hazırda 1,5 milyard ABŞ dollarına yaxındır. Bu isə Azərbaycanda bütövlükdə ÜDM-in 1,9 faizinə və qeyri-neft sektorunda ÜDM-in 4,3 faizinə bərabərdir. Hər il büdcədən bu sahəyə ayrılan birbaşa investisiyalar 50-60 milyon dollardan çoxdur. Ümumiyyətlə, son dörd ildə rabitə və informasiya texnologiyaları sahəsinə 600 milyon dollardan çox sərmayə qoyulmuşdur. Təkcə son beş ildə Azərbaycan bazarlarına və regiondakı digər bazarlara 500-dək yeni

İT - şirkət çıxmışdır. Davos Dünya İqtisadi Forumunun "The Global

Information Technology Report 2010-2011" hesabatında göstərilir ki, şəbəkə hazırlığının səviyyəsinə (The Network Readiness Index) görə Azərbaycan dünyanın 138 ölkəsi arasında 70-ci yeri tutur.

Azərbaycan Prezidentinin müəyyən etdiyi strategiyaya görə, "Virtual zona" layihəsinin həyata keçirilməsi planlaşdırılır. Bu layihə çərçivəsində bütün ölkə, bir növ, "makrotexnopark"a çevriləcəkdir. Layihə çərçivəsində güzəştlər konkret əraziyə deyil, İT fəaliyyətinin müəyyən növlərinə şamil ediləcəkdir. Vergi və gömrük güzəştləri, ucuz kreditlər, bütün zəruri infrastruktur - bunların hamısı İKT sahəsində biznes fəaliyyətini asanlaşdırmalıdır.

Ümumdünya inteqrasiyası, təhsilin beynəlmiləlləşməsi və qlobal maliyyə axınlarının günbəgün sürətlənməsi şəraitində bütövlükdə İKT, o cümlədən İnternet hər bir fərdin həyatının ayrılmaz tərkib hissələrinə çevrilir. Buna görə də dövlətin vəzifəsi ən yaxın perspektivdə hər bir vətəndaşın informasiya-kommunikasiya texnologiyaları ilə qarşılıqlı münasibətlər sahəsinə maksimum cəlb olunmasını təmin etməkdən ibarətdir.

Prezident İlham Əliyevin təşəbbüsü ilə irəli sürülmüş Azərbaycanın ilk orbital peykinin buraxılması layihəsi çərçivəsində işlər davam edir. Bu layihənin əhəmiyyətini qiymətləndirməmək olmaz. O, iqtisadiyyatdan daha çox informasiya baxımından əhəmiyyətlidir və Azərbaycanın müasir və uğurlu ölkə statusunu vurğulayır.

Şübhəsiz ki, Prezidentin iqtisadi siyasətinin əsas məqsədi Azərbaycanın ixrac potensialını genişləndirmək, xarici şirkətləri ölkəmizdə bütövlükdə Cənubi Qafqaz və Xəzər hövzəsi regionuna xidmət edəcək regional ofislərin və nümayəndəliklərin təşkilinə cəlb etməkdir. Azərbaycan xarici investisiyaların cəlb edilməsi üçün əlverişli şərait yaratmaqla bərabər, ölkə iqtisadiyyatı özü də iri investora çevrilir, dünya

iqtisadi məkanında özünün müsbət imicini transformasiya edir. 2003-2010-cu illərdə Azərbaycan fəal investisiya siyasəti həyata keçirmiş və başqa ölkələrin iqtisadiyyatına 5,7 milyard dollar sərmayə qoymuşdur. Şübhəsiz ki, Azərbaycanın maliyyə ehtiyatları bu göstəricini bir neçə dəfə artırmağa və dünyanın bir sıra regionlarında həyata keçirilən qlobal layihələrdə Azərbaycanın iştirakını təmin etməyə imkan verəcəkdir.

Bütün bunlar onu göstərir ki, artıq bu gün yeni texnologiyalar sahəsində gələcək uğurların təməli qoyulur. Bu, Azərbaycan iqtisadiyyatına nəinki çox güclü təkan verəcək, həm də Prezidentin həyata keçirdiyi strateji layihələrə uyğun olaraq, gəlirlərin şaxələndirilməsini təmin edəcəkdir.

Müasir dövrün qarşıya qoyduğu vəzifələrə və çağırışlara uyğun olaraq ölkənin bundan sonrakı modernləşmə və inkişaf xətti İlham Əliyevin aşağıdakı sözlərində vurğulanmışdır: "Biz 10 il, 20 il, 50 il qabağa baxmağa çalışmalıyıq. Dünya necə inkişaf edəcək?! Azərbaycan nəyin hesabına inkişaf edəcək?! Bölgədə vəziyyət necə olacaq?! Demoqrafik vəziyyət necə olacaq?! ...Bu gün aparılan işlər 10 il, 15 il, 20 il bundan sonra uğurlu inkişafımızı təmin edəcəkdir".

ZAMANIN SEÇİMİ

Prezidentin seçdiyi daxili və xarici siyasət xəttinin uğurları, bu xəttin ölkə əhalisi tərəfindən dərk edilmiş şəkildə qiymətləndirilməsi və qəbul olunması Azərbaycanda onun özünə xas olan, qlobalist romantizmdən azad, Azərbaycan dövlətçiliyinin qurulmasının tarixi prosesinin reallıqlarını nəzərə alan və milli inkişafın məntiqindən irəli gələn konsolidasiya edilmiş demokratiya modelinin, yaxud ABŞ-ın vitse-prezidenti Dik Çeyninin təbirincə desək, "soverign democracy" modeli yaratmaq yolundakı gələcək fəaliyyəti stimullaşdırır.

Bu gün Azərbaycan demokratiyanı əsas məqsəd kimi deyil, tarixi təcrübənin və ənənələrin dönüş dövrlərində hər bir xalqın keçdiyi tarixi tərəqqi prosesi kimi başa düşərək, öz inkişaf modelini nümayiş etdirir. Azərbaycan cəmiyyətinin demokratikləşməsi sonsuz prosesdir və milli xüsusiyyətlər gözlənilməklə, müstəqil dövlət quruculuğu və milli identikliyin qorunub saxlanması şərti ilə həyata keçirilir. Prezident İlham Əliyevin anlamında demokratiya milli inkişaf və şüurun ayrılmaz atributudur. Lakin o, cəmiyyətin siyasi və iqtisadi inkişaf səviyyəsi ilə ahəngdar olmalıdır. Buna görə də ölkədə islahatlar paralel, kəsişmədən, bir-birini qabaqlamadan həyata keçirilir. Siyasi sabitliyin iqtisadi əsası olmalıdır və yalnız bu halda cəmiyyətdə demokratik inkişaf və şəffaflıq barədə danışmaq olar.

Demokratiya milli maraqların və dövlət müstəqilliyinin ziyanına olaraq kənardan zorla qəbul etdirilə bilməz. Bizim hər birimiz demokratiyanı öz daxilimizdə "yetişdirir", sonra isə onu ictimai-siyasi səviyyəyə ötürürük. Bu gün başqa geosiyasi və etnik-milli məkanlarda yüzilliklər boyu formalaşmış təcrübəni "qəflətən daxil etmək", "kor-koranə köçürmək", "gətirmək" olmaz. Hər bir cəmiyyət onun yeni idarəçilər, top-menecerlər, intellektuallar nəsli formalaşdıqca, sosial-iqtisadi bazis dəyişdikcə demokratikləşir və daha şəffaf olur. Bu, bir-birindən asılı olan, iqtisadi inkişafın milli dünyagörüşü ilə dəstəklənən siyasi transformasiyalarla yanaşı getdiyi, onların bir-birini qabaqlamadığı prosesdir. Bu həqiqətlərin başa düşülməsi Prezidentin Azərbaycanda demokratik transformasiya məsələsinə yanaşmasını formalaşdırır.

Bir neçə il bundan əvvəl ABŞ Prezidenti C.Buş (oğul) "hər yerdə demokratiya" anlayışını adi danışıq dilinə daxil etməyə cəhd göstərmişdi. Lakin ətrafa nəzər saldıqda, geosiyasi maraqlar naminə geoiqtisadi demarşları təhlil etdikdə istər-istəməz bu qənaətə gəlirsən ki, "hər yerdə mövcud olan demokratiya", çox ehtimal ki, utopiyadır. Hərbi qüvvə vasitəsilə devrilmiş və müdaxilələrə, "demokratikləşməyə" məruz qalmış məkanlar təkcə milli suverenliyin itirilməsi, qlobal inteqrasiya prosesləri ilə əlaqədar sərhədlərin silinməsi təhlükəsi ilə üzləşmir, həm də ehtimal edilən rəqabət mübarizəsindən xeyli dərəcədə kənarda qalır, yanacaq-energetika sahəsi, strateji kommunikasiyalar üzərində nəzarəti itirir. Belə məkanlarda innovasiya və texnologiyalar yalnız "strateji tərəfdaşlıq" çərçivəsində satın alınan məhsul kimi mümkündür. İnkişafın idxal edilmiş modelinin təzyiqi altında cəmiyyətlər düşərgə baraklarına çevrilir, ölkələrin müdafiə qabiliyyətinin zəifləməsi isə onları "forpostlara" çevirir.

İnstitusional əsasları zəif olan ölkələr üçün milli ideya və ya milli identiklik kimi amillər yoxdur. Ona görə ki, cəmiyyətin daxili bazisi kənardan olan nəzarətə və direktivlərə tabedir. Bu isə ona gətirib çıxarır ki, ya milli "Mən" və suverenlik, bunun nəticəsi kimi dövlətçilik tədricən itirilir, yaxud da sərt radikallaşma və təcavüzkar millətçiliyin güclənməsi kimi əks proses gedir. Bunların hər ikisi sabitlik, dövlətin və onun vətəndaşlarının təhlükəsizliyi üçün çox qorxuludur. Hər ikisi sonda hərc-mərcliyə, xaosa və çox ola bilsin ki, anarxiyaya gətirib çıxarar.

Qərb analitiklərinin fikrincə, istənilən modernləşmə vesternləşməyə, yəni "qərbləşməyə" gətirib çıxarmalıdır. Düzdür, cəmiyyətlər özləri seçim etməlidir, lakin vesternləşmə olmadan modernləşmə şansı çox

cüzidir. Böyük qalmaqala səbəb olmuş "Sivilizasiyaların toqquşması?" bestsellerinin müəllifi S.Hantinqton bu barədə kifayət qədər dəqiq yazmışdır. Bununla belə, gözümüzün qabağında heyrətamiz siyasi metamorfozlar baş verir: dəbdə olan "qloballaşma" terminindən istifadə etməklə cəmiyyətin milli dayaqları yox edilir, "gecə gözətçisi dövləti" layihəsi həyata keçirilir, dövlətin qüdrəti zəifləyir. Bu baxımdan F.Fukuyama ilə razılaşmamaq çətindir. O yazır: "Güclü dövlət qurulması dünya birliyinin ən mühüm problemlərindən biridir, çünki dövlətlərin zəifliyi və dağılması yoxsulluqdan tutmuş, QİÇS, narkotiklər və terrorizmə qədər bir sıra çox ciddi problemlərin mənbəyidir" (Фукуяма Ф. Сильное государство. М., 2006, с. 5).

Dünyanın ən böyük siyasi filosoflarından və sosioloqlarından biri olan Ziqmunt Baumanın fikrincə, "bu gün baş verən qloballaşma hər cəhətdən mənfi qloballaşmadır, dövlət sərhədlərinə, yerli maraqlara, hüquqlara, imtiyazlara və digər məqamlara məhəl qoymamaqda ixtisaslaşan qüvvələrin qloballaşmasıdır. İndiyə qədər qloballaşmış qüvvələr, güclər milli dövlətlərin qüdrətini, qabiliyyətini azaltmaqda davam edən elə həmin qüvvələrdir. Buraya maliyyə, qloballaşan ticarət, informasiya, habelə cinayətkar təşkilatlar (müxtəlif mafiyalar), silah və narkotiklər alveri, beynəlxalq terrorizm aiddir" (bax: "Полит.ру", 6 мая 2011 г.).

Prezident İlham Əliyevin milli dövlət quruculuğu, Azərbaycanın demokratik inkişafı məsələləri barədə mövqeyi tarixi məntiqə, dünya təcrübəsinə, səmərəli siyasətə, ən başlıcası isə Azərbaycanın milli maraqlarına söykənən milli ideyanın gerçəkləşməsinin nəzərə alınmasına əsaslanır. Cəmiyyətin bu dərk edilmiş obyektiv tələbatı onun milli dəyərlərindən irəli gəlir və dövlətin qorunub saxlanmasına, onun mövcudluğu və mütərəqqi inkişafı üçün əlverişli şərait yaradılmasına yönəlmişdir. Milli maraqlara və inkişaf strategiyasının mahiyyətinə xalqın əksəriyyətinin həmrəy münasibətinə əsaslanan demokratiya daha səmərəlidir və hər bir yeni müstəqil dövlət üçün nümunə ola bilər.

REGİONAL GEOSİYASƏTİ FORMALAŞDIRARKƏN

Əsası Heydər Əliyev tərəfindən qoyulmuş xarici siyasətin çoxvektorluluğuna, regionda ən yüksək döyüş qabiliyyətinə malik ordu yaradılmasına və ölkənin geostrateji mövqeyinin maksimuma çatdırılmasına yönəlmiş fəaliyyət xətti bu gün də davam etdirilir. Məhz Azərbaycan cəmiyyətinin monolitliyi və siyasi iradəsi, eləcə də əhalinin geniş təbəqələrinin düşüncəsi və qəlbində ölkənin lideri kimi İlham Əliyevin alternativinin olmaması tarazlaşdırılmış və çoxvektorlu, lakin qat-qat fəal xarici siyasət yeritməyə imkan vermişdir.

İlham Əliyevin prezidentlik dövrü ilk növbədə müstəqil xarici siyasət təşəbbüslərinin, o cümlədən iqtisadi və nəqliyyat-energetika təşəbbüslərinin sayı ilə fərqlənir. 2003-cü ildən bəri dövlət başçısı dünyanın 45 ölkəsinə 146 səfər etmişdir və buraya yalnız dövlət səfərləri və rəsmi səfərlər daxildir. Xarici ölkələrin liderlərinin və siyasi xadimlərinin Azərbaycana səfərlərini də buraya əlavə etsək, görərik ki, bu gün ölkəmiz Cənubi Qafqazda regional liderə çevrilmişdir, onun fikri nəzərə alınmasa, istənilən regional layihələr ya bəri başdan səmərəsizliyə məhkum olacaq, yaxud da açıq-aşkar utopiya olaraq qalacaqdır. Bu gün Azərbaycan təkcə xammal ixracçısı və nəqliyyat dəhlizi deyil, həm də Avropa geoiqtisadiyyatının və regional siyasətin mühüm vəsiləsidir. Üstəlik, ölkəmiz tədricən Cənubi Qafqaz regionunun intellektual və informasiya mərkəzinə çevrilməkdədir. Müasir geosiyasət bizi regional və qlobal proseslərlə bağlı bir sıra məsələləri yenidən qiymətləndirməyə məcbur edir. Azərbaycan məhz bütün bunları başa düşərək, Avrasiyanın coğrafi mərkəzi kimi çıxış edib təkcə regional geosiyasəti deyil, həm də geoiqtisadiyyatı öz xeyrinə dəyişməyə nail olmuşdur.

Azərbaycan millətinin və dövlətçiliyinin, cəmiyyətimizin kollektiv "Mən"inin milli semantika və dünyanı dərk etmək simvolikasının əsasını təşkil edən bütün milli prioritetlər hazırda Prezident İlham Əliyevin xarici siyasət xəttində reallaşır. Azərbaycan Respublikası müsəlman və türk həmrəyliyi prosesində lider mövqelərdən birini tutur, Avropa inteqrasiyasına sadiqliyini nümayiş etdirir, ABŞ və Rusiya kimi qlobal dövlətlərlə, regiondakı qonşu dövlətlərlə və MDB üzrə tərəfdaşlarla qarşılıqlı şəkildə tamamlanan əlaqələri qurmaqda davam edir. Azərbaycan müasir dövrün qlobal çağırışlarında - istər terrorizmə, transmilli cinayətkarlığa və narkotrafikə qarşı mübarizədə, ətraf mühitin qorunması problemlərinin həllində, istərsə də demoqrafiya və əhali miqrasiyası kimi məsələlərdə özünü bir sıra ölkələrin və beynəlxalq təşkilatların etibarlı tərəfdaşı kimi göstərmişdir. Son illərdə mədəniyyətlərarası dialoqla bağlı bir sıra qlobal təşəbbüslərin müəllifi məhz Azərbaycandır.

Beləliklə, Azərbaycan Respublikası regionda informasiya mübadiləsinin və qarşılıqlı intellektual fəaliyyətin prioritet amilinə çevrilir. Müxtəlif dillərdə yayımlanan və çox geniş analitik və xəbər spektrini

əhatə edən informasiya resurslarının sayına görə Azərbaycan Cənubi Qafqaz ölkələri arasında liderdir. Buna görə də dünya intellektual elitasının müxtəlif mərkəzləri Azərbaycanla birgə iqtisadi, siyasi, elmi və humanitar xarakterli layihələri nəzərdən keçirməyə maraq göstərir. Hərçənd, bu da sirr deyil ki, ölkədə ictimai şüura təzyiq göstərmək məqsədilə informasiya-analitik "beşinci dəstə"lər yaratmaq cəhdləri də müşahidə olunur. Lakin sabitliyi pozmağa göstərilən bu cür cəhdlər Azərbaycan tərəfindən çox sərt reaksiya ilə üzləşmişdir və bundan sonra da üzləşəcəkdir. Azərbaycan belə cəhdləri informasiya təxribatı, onun daxili işlərinə qarışmaq aktı və ölkənin suverenliyinə qəsd hesab edir.

Dağlıq Qarabağ münaqişəsinin həllinə dair ATƏT-in Minsk qrupunun əvvəlki illərlə müqayisədə daha yüksək fəallığının sənaye-iqtisadi potensial və hərbi quruculuq, habelə cəmiyyətin monolitliyinin səviyyəsi baxımından Azərbaycanın Ermənistandan və kriminal "Dağlıq Qarabağ Respublikası" rejimindən total üstünlüyü kimi real əsasları vardır. Hazırda Ermənistanda mövcud olan kriminal rejim regionda yaranmış reallıqları qəbul etməkdən inadla boyun qaçırır, ictimai şüurla manipulyasiya edərək, yalançı şüarlar və miflərlə pərdələnərək, beynəlxalq hüququn müddəalarını özünün istədiyi kimi yozaraq təcavüzkar işğal siyasətini və tarixi həqiqətin danılmasını davam etdirir.

Azərbaycan erməni tərəfinə hər cür iqtis
adi, siyasi və informasiya təzyiqi göstərmək siyasətini davam etdirəcəkdir. İlham Əliyev öz müraciətlərində və çıxışlarında Qarabağ probleminə aid məsələlərə təkcə ölkənin xarici siyasət xəttinə görə cavabdeh olan dövlət başçısı kimi deyil, həm də ölkənin Silahlı Qüvvələrinin Ali Baş Komandanı kimi toxunur.

Ermənistanda isə iqtisadiyyat bütün istiqamətlər üzrə tənəzzül keçirir, ölkə rəhbərliyinin irrasional siyasəti nəticəsində cəmiyyət ehtiyac və məhrumiyyətlərə düçar olmuşdur. Ermənistanda və onun işğal etdiyi Azərbaycan torpaqlarında fəlakətli demoqrafik vəziyyət hökm sürür, son illərdə erməni sosiumunda daxili siyasi qeyri-sabitlik müşahidə edilir, diaspor ilə münasibətlər nəzərəçarpacaq dərəcədə pisləşmişdir. Bugünkü Ermənistanın reallıqları bunlardır. Ermənistanın birinci prezidenti və indiki erməni müxalifətinin lideri Levon Ter-Petrosyanın BBC telekanalına müsahibəsi bunun ən yaxşı təsdiqidir. O, həmin müsahibəni tamamilə birmənalı şəkildə belə tamamlamışdır: "...Əgər Ermənistan hər hansı fəlakətli vəziyyətlə üzləşərsə, bunun təqsiri yalnız və yalnız bizdə olacaqdır" ("Первый президент Армении Левон Тер-Петросян: интервью русской службе BBC", http:www.1in.amrusarmenia_arolitics_4736.html).

İlham Əliyevin müəyyən etdiyi hücum xarakterli xarici siyasət, Azərbaycan reallıqlarını dünya məkanına yayımlayan müasir kanalların yaradılması və daim təkmilləşdirilməsi, ölkədə KİV sektorunun və İnternet məkanının inkişafı çox qısa müddətdə Dağlıq Qarabağ problemi ilə əlaqədar Ermənistanla qarşıdurmada strateji qüvvələr nisbətində özünü göstərmişdir. Lakin hazırda informasiya məkanında uğurlar barədə danışarkən nəzərə almaq lazımdır ki, bu istiqamətdə hər gün iş aparılmalı, ermənilərin mövqeyinin saxta olması barədə dəlillər gücləndirilməli və konkret tarixi sübutlar təqdim edilməlidir.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin maddi-texniki bazasının yeniləşdirilməsi, ümidverici hərbi-sənaye kompleksinin yaradılması da İlham Əliyevin prezidentliyi dövründə qazanılmış nailiyyətlərdir. Bu gün Cənubi Qafqazda ən güclü ordu Azərbaycanındır. Ölkədə müxtəlif tipli atıcı silahların, zirehli maşınların, kəşfiyyat təyinatlı pilotsuz uçuş aparatlarının və döyüş sursatının istehsalı qaydaya salınmışdır. Azərbaycanın illik hərbi büdcəsi Ermənistanın bütün dövlət büdcəsindən çoxdur və bu göstərici artmaqda davam edir.

Azərbaycan ərazisinin işğal edilməsi, hüququn güc üzərində aliliyinin Ermənistan tərəfindən total şəkildə inkar edilməsi heç də təbii hal kimi qəbul edilə bilməz. Prezident dəfələrlə vurğulamışdır ki, Azərbaycanın səbrinin həddi vardır, beynəlxalq hüququn prinsipləri sərbəst şəkildə yozulmamalı, beynəlxalq gündəlikdə həmin prinsiplərə prioritet verilməlidir. Bu mənada dünya siyasətində "ikili standartlar"ın - bir halda təcavüzkarı sakitləşdirmək, başqa halda onu məcbur etmək praktikasının olmasını xatırlatmaq vacibdir. Çox vaxt aşkar görünür ki, dünya birliyi bəzi regionlarda münaqişəli vəziyyətlərə qeyri-mütənasib dərəcədə ciddi diqqət yetirdiyi halda, başqa regionlarda bu vəziyyətə açıq-aşkar etinasızlıq göstərir, münaqişələrin "dinc yolla həll edilməsi" və danışıqlar cəhdinə sədaqətdən dəm vurulur, həmin danışıqlar isə onilliklər boyu davam edir və heç bir nəticə vermir. Azərbaycanın işğal edilmiş ərazilərinin azad olunmasının zəruriliyi barədə BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsi (822, 853, 874 və 884 nömrəli) 19 ildən artıqdır ki, icra olunmamış qalır. Halbuki bəzən hətta beynəlxalq hüquqi baxımdan xeyli mübahisəli, lakin müasir dünya nizamının sırf geosiyasi tələblərinə cavab verən hallarda BMT Təhlükəsizlik Şurasının qərarları bir neçə saatda həyata keçirilir.

Sirr deyil ki, Dağlıq Qarabağ münaqişəsi Ermənistan-Azərbaycan qarşıdurması çərçivəsindən çıxmış, beynəlxalq və regional məsələyə çevrilmişdir. Son illərdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində Rusiyanın fəal iştirakı, bəzi ölkələr tərəfindən Ermənistan-Türkiyə sərhədinin açıl-

masının "zəruriliyi" məsələsi ilə əlaqədar Türkiyə rəhbərliyinə təzyiqlər edilməsi onu göstərir ki, dünyanın daha rasional və ədalətli qaydaya ehtiyacı vardır. XXI əsrin geosiyasəti getdikcə daha çox geoiqtisadiyyata və yanacaq-energetika amilinə istiqamətlənir. Bu isə heç şübhəsiz, qlobal sabitlik və təhlükəsizlik üçün yeni təhdidlər və çağırışlar doğurur.

Bu gün tam əminliklə demək olar ki, Azərbaycan diplomatiyasının ənənələri qərarlaşmışdır və ən yeni dövrdə mühüm nailiyyətlər qazanılmışdır. Qondarma "Türkiyə-Ermənistan yaxınlaşması" deyilən təşəbbüslərin qarşısının alınması, 2010-cu ildə Türkiyə ilə Strateji Əməkdaşlıq Şurası yaradılması haqqında saziş, Strateji tərəfdaşlıq və qarşılıqlı yardım haqqında müqavilə imzalanması, Azərbaycandan nəql edilən qazın həcmi, tranzit şərtləri və qiyməti barədə Rusiya və Türkiyə ilə danışıqlardakı irəliləyiş, Rusiya Federasiyası ilə dövlət sərhədinin delimitasiyasının uğurla başa çatdırılması və s. buna misal ola bilər.

Eyni zamanda, regional inkişaf istiqamətində irəliləyiş və Dağlıq Qarabağ probleminin tezliklə həlli yollarının axtarışının hərtərəfli fəallaşması bir-biri ilə qarşılıqlı surətdə bağlı olmaya bilməz. Prezident bu barədə öz mövqeyini daim vurğulayaraq bildirir ki, Azərbaycan ilə Ermənistan arasında silahlı qarşıdurma və Azərbaycan torpaqlarının işğal edilməsi faktı aradan qaldırılarsa, regionun iqtisadi gələcəyi keyfiyyətcə fərqli inkişaf dinamikasına malik ola bilərdi. Bu baxımdan Ermənistan tərəfini danışıqlar prosesində konstruktiv mövqe tutmağa məcbur etmək üçün göstərilən hər hansı cəhdlər 1990-cı illərdən başlayaraq Azərbaycanın xarici siyasətindəki iqtisadi və nəqliyyat-energetika amillərinin olması sayəsində əlavə dəyər kəsb etmişdir.

"AZƏRBAYCANÇILIQ" VƏ VƏTƏNDAŞLIQ

Tarixi prosesin yeni mərhələsi Azərbaycan xalqının tarixi irsinə və onun kollektiv yaddaşına, milli zəfərlər və ya uğursuzluqlar təcrübəsinə, milli qürurun obrazlar və rəmzlərinə tamam fərqli münasibət bəslənməsini tələb etmişdir. Hazırda Azərbaycanın humanitar təfəkkürü "azərbaycançılıq" ideologiyasının məna dolğunluğu elementlərinə dair dərin və sistematik tədqiqatlar aparmağa başlayır. Əlbəttə, bu modelin ideoloji baxımdan özünü artıq tam təsdiqləməsini söyləmək hələ tezdir. Lakin inamla demək olar ki, müstəqil Azərbaycanın vətəndaşlarının gələcək nəsilləri millətin formalaşması semantikasındakı bu strateji irəliləyişə görə dövlətimizin indiki başçısını lazımınca qiymətləndirəcəklər.

Bu məna dolğunluğu mühüm rol oynayır, çünki tədqiqatların elə indiki mərhələsində aşkar görünür ki, "azərbaycançılıq" millətin və müstəqil dövlətin dünyanı dərk etməsi sistemidir, ilk növbədə məsuliyyətə və şüurlu vətəndaş mövqeyinə, milli yaddaşa və sabahkı günə istiqamətlənməyə əsaslanır. Məhz məsuliyyət və vətəndaşlıq şüuru etnik, sosial və dini mənsubiyyətindən asılı olmayaraq, bu gün ölkənin hər bir vətəndaşına özünün Azərbaycan millətinə, bu ölkənin ictimai-siyasi həyatına, kollektiv iqtisadi və sosiomədəni uğurlara aidiyyətini hiss etməyə imkan verir.

Bu gün artıq millətin dəyərlər sistemində vətəndaşlıq mövqeyinə, hər bir azərbaycanlının şəxsiyyət kimi inkişafının roluna, insanın və vətəndaşın öz qabiliyyətlərini reallaşdırmaq imkanlarının maksimum üzə çıxarılmasına strateji yanaşma aşkar görünür. Dövlət aparatına, ictimai fəaliyyətə, iqtisadiyyat sektorlarının və müəssisələrin idarə edilməsinə, elmi tədqiqat fəaliyyətinə mümkün qədər çox sayda fəal gənclərin cəlb olunması dövlət başçısının uzunmüddətli kadr siyasəti forması almışdır. 2005-2009-cu illərdə ölkənin gənclər sektorunun inkişaf proqramının uğurla həyata keçirilməsinin nəticələri göz qabağındadır. 2011-ci ilin aprel ayında Prezident "Azərbaycan gəncliyi 2011-2015-ci illərdə" Dövlət Proqramının hazırlanması haqqında sərəncam imzalamışdır.

Dünya təcrübəsi, o cümlədən keçmiş sosialist düşərgəsinin bəzi ölkələrinin təcrübəsi göstərir ki, inkişafın milli xüsusiyyətlərinin nəzərə alındığı demokratiya modelinin bərqərar olması üçün təkcə cəmiyyətdə yeni davranış normalarının və dəyərlərin təşəkkülü deyil, həm də liderlərin və elitaların təhsil səviyyəsinin və submədəniyyətlərin şəffaflığının daim artırılması tələb olunur. Hər il bir neçə yüz gənc azərbaycanlı xarici ölkələrin nüfuzlu ali məktəblərində dövlət hesabına təhsil almağa göndərilir. Son illərdə azərbaycanlıların xaricdə təhsil proqramları üçün ayrılan müxtəlif növ kvotaların sayı yalnız artmaqdadır. Prezident özünün bir çox çıxışlarında Azərbaycan cəmiyyətinin təhsil səviyyəsinin keyfiyyətcə dəyişməsində, ölkəyə biliklərin və ən yaxşı dünya təcrübəsinin cəlb edilməsində bu gənclərin rolu barədə öz fikirlərini vurğulayır. Məhz bu insanlar sabah dövlət aparatının, ölkə iqtisadiyyatının idarəetmə sükanı arxasında dayanacaq, Azərbaycanda ictimai-siyasi münasibətlərin inkişafının ümumi istiqamətini müəyyən edəcəklər.

İstənilən genişmiqyaslı sosial dəyişikliklər motivasiyalı sosial qrup olmasını tələb edir, bunsuz həmin dəyişiklikləri həyata keçirmək mümkün deyildir. Tədqiqatçıların fikrincə, "biliklər cəmiyyəti", "bili-

klər iqtisadiyyatı", "informasiya sivilizasiyası", "innovasiya modernləşməsi" trendinə keçid dövründə kreativ modernləşdirmə qrupu bu cür sosial komponent ola bilər. Məhz həmin qrup insan kapitalının təkrar istehsalının subyekti, mədəni resursların və informasiya resurslarının daşıyıcısı kimi innovasiyaların əsas generatorudur.

Müasir Azərbaycanda kreativ qrup təşkil edən insanlar sırasına özünün peşə və ya sosial fəaliyyəti hüdudlarında inkişafın generatoru olan, maddi və ya mənəvi dəyərlər yaradan şəxsləri aid etmək olar. Buraya ilk növbədə, sahəvi və fundamental elmin nümayəndələrini, yüksək texnologiyaları işləyib hazırlayan və tətbiq edənləri, bəzi biznes seqmentlərinin nümayəndələrini, mənəvi dəyərlər və informasiya sisteminin yaradılması sahəsində çalışan ziyalıların fəal hissəsini aid etmək vacib olardı.

Kreativ qrupu ayrıca sosial-psixoloji tip kimi təsnif etmək mümkündür. Bu tipə çox vaxt daxili "təməli" olan, iradi keyfiyyətləri inkişaf etmiş, fəal həyat mövqeyi tutan passionar insanlar aid edilir. Məhz bu keyfiyyətlərə malik insanları tərbiyə etmək hazırda Azərbaycan dövlətinin və bütövlükdə cəmiyyətin ən aktual vəzifəsidir.

Ölkədə milli demokratiyanın təkamülü və ictimai həyatın, xüsusən QHT sektorunun nəzərəçarpacaq dərəcədə fəallaşması, internetin uğurla yayılması da gənclərin işlə təmin edilməsi, onların sosiallaşması, maraq dairələri üzrə ünsiyyət, sosiumda müxtəlif mövzularda ictimai diskussiyaların keyfiyyətinin artırılması sahələrində müsbət irəliləyişlər əldə edilməsində sanballı rol oynamışlar.

Cəmiyyətin demokratikləşməsi, yeni kreativ, yaradıcı, intellektual şəxsiyyətlərin formalaşması çox vaxt müxtəlif təşkilatlarda göstərilən təşəbbüskarlığın təzahürləri ilə bağlı olur. Qeyri-hökumət təşkilatlarının ölkədə cərəyan edən ictimai və sosial-humanitar prosesə fəal cəlb edilməsi məqsədilə onların dəstəklənməsi, konstruktiv ictimai tənqid üçün şərait yaradılması, QHT-lərin maddi-texniki bazasının möhkəmlənməsi, habelə aktual sosial və humanitar layihələrin həyata keçirilməsinə kömək göstərilməsi Azərbaycan cəmiyyətinin demokratikləşməsi yolunda görülən mühüm işlərdir. Hazırda Azərbaycanda üç mindən çox qeyri-hökumət təşkilatı vardır. 2007-ci ilin iyul ayında Prezidentin sərəncamı ilə qeyri-hökumət təşkilatlarına dövlət dəstəyi konsepsiyasının təsdiq edilməsi və QHT-lərə Dövlət Dəstəyi Şurasının yaradılması QHT sektorunun dəstəklənməsində və ölkədə vətəndaş cəmiyyətinin inkişafında mühüm addım olmuşdur.

Sirr deyil ki, həmin Şura yaradılana qədər Azərbaycan QHT-lərinin əksəriyyətinin fəaliyyəti əsasən müxtəlif beynəlxalq fondların onlara göstərdiyi köməkdən asılı idi. Bu isə həm bu təşkilatların fəaliyyətinin istiqamətinə, həm də Azərbaycanda vətəndaş təşəbbüslərinin inkişafına ictimai tələbatı heç də həmişə təmin etməyən bu və ya digər layihələrdə müəyyən dərəcədə üstüörtülü siyasi məqamların olmasında özünü göstərməyə bilməzdi.

Bu gün isə Şura yerli qeyri-hökumət təşkilatlarına maddi və informasiya dəstəyi verir. Bunun nəticəsidir ki, 2008-ci ildə Şuraya 365 təşkilat müraciət edərək maliyyə dəstəyi istəmişdisə, 2010-cu ildə onların sayı demək olar ki, üç dəfə artmışdır. Ötən üç ildə mindən çox sosial və humanitar layihə uğurla həyata keçirilmişdir. "Üçüncü sektor"un layihələri üçün dövlət büdcəsindən bütövlükdə 10 milyon manatdan çox vəsait ayrılmışdır. Bu müddətdə əvvəllər xarici donorların heç vaxt maliyyələşdirmədiyi sahələrdə ilk dəfə olaraq layihələr həyata keçirilmişdir: məsələn, Dağlıq Qarabağın işğal edilməsi və Ermənistanın Azərbaycana qarşı təcavüzü problemləri ilə əlaqədar Azərbaycan reallıqları haqqında məlumatın dünya ictimaiyyətinə çatdırılması, qaçqınların və məcburi köçkünlərin hüquqlarının müdafiəsi və s.

Ölkənin demokratik tranzitində və səmərəli vətəndaş cəmiyyətinin formalaşmasında müstəqil KİV-lərin inkişafı mühüm yer tutur. Azərbaycanda müstəqil mətbuatın təşəkkülü Sovet İttifaqının mövcudluğunun son illərinə təsadüf etmişdir. O vaxt Azərbaycanda ilk müstəqil qəzet və jurnallar yaranmağa başlamışdı. İndi isə Azərbaycanda dörd mindən çox KİV qeydiyyata alınmışdır, onlardan 300-dən çoxu daimi fəaliyyət göstərir. Müstəqil kütləvi informasiya vasitələrinin inkişafının dəstəklənməsi zərurəti nəzərə alınaraq, habelə hadisələri və prosesləri qabaqlayaraq ictimai rəyin inteqratoru kimi çıxış edə biləcək keyfiyyətli jurnalistikanın formalaşmasına şərait yaratmaq məqsədilə 2008-ci ilin iyul ayında Prezident İlham Əliyevin sərəncamı ilə Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Konsepsiyası təsdiq edilmişdir. 2009-cu ildə Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinə Dövlət Dəstəyi Fondu yaradılmışdır.

Təsadüfi deyildir ki, 2010-cu ilin dekabr ayında 30 gündəlik və 19 həftəlik qəzet, 2 jurnal, 11 informasiya agentliyi, 13 jurnalist təşkilatı, 8 informasiya portalı, 7 telekanal və 3 radio kanalı arasında aparılmış sorğunun nəticələrinə görə Prezident İlham Əliyev "Jurnalistlərin dostu" mükafatına layiq görülmüşdür.

İndiki dövrdə internet, innovasiyalar və sənayeləşmə ölkənin dünya birliyinə uğurla inteqrasiya etməsi üçün yeni perspektivlər açır və Azərbaycanda gələcəyin yetkin vətəndaş cəmiyyətinin qurulması üçün bu amillər əsas kimi götürülmüşdür.

Bütün bunlar dövlətçiliyin dərk edilmiş, başa düşülmüş, suveren və demokratiyanın "hazır reseptlərindən" azad yolla məqsədyönlü şəkildə inkişafına nail ola biləcək mütəşəkkil siyasi qüvvə yaratmağa kömək edir. Həm də yeni şəraitə uyğunlaşma "yuxarıdan" zorla qəbul etdirilmir, "aşağıdan" baş verir, gündəlik həyat prosesləri lazımi şəklə salınmaqla, qarşılıqlı etimad və sosial inteqrasiya potensialına malik olan dəyərlər və normalar aşkar edilməklə baş verir.

Azərbaycan gənclərinin indiki nəsli vətəndaşı olduqları dövlətin beynəlxalq aləmdə müstəqil mövqelərdən çıxış etməsini təbii hal hesab edir. Lakin başa düşmək lazımdır ki, bu mövqeni yaradan ölkə daxilində, Cənubi Qafqaz regionunda və dünyada baş verən proseslər haqqında geniş təsəvvürə malik olan liderdir. Milli ideyanın uğurla həyata keçirilməsi, milli identikliyin qorunub saxlanması və eyni zamanda, dünya birliyinə inteqrasiya həqiqətən tarixi nailiyyətdir, çünki iqtisadiyyatın inteqrasiya olunduğu, texnologiyaların sürətlə inkişaf etdiyi, transmilli maliyyə kapitalı və bilik axınları qarşısında dövlətlərarası sərhədlərin götürüldüyü müasir aləmdə milli ideoloji konsepti inkişaf etdirmək çətindir. Hər yerdə mövcud olan qlobalizmin məddahları milli, lokal dəyərlərin üstündən xətt çəkmiş, milli dövlətlərin əhəmiyyətini azaltmaqla, onları anaxronizm hesab etməyə başlamışlar. 1990-cı illərin əvvəlində Qərbin bütün fəlsəfi və siyasi təfəkkürü bu ruhda idi. Belə nəticələr çıxarmağın yanlışlığı göz qabağındadır. Nə yaxşı ki, bunu başa düşən qüvvələr var və onlar dünyanın bir sıra regionlarındakı real həyatı və ictimai prosesləri əsas götürərək bildirirlər ki, bütün milli xüsusiyyətlərin aradan qaldırılması bəşəriyyətin plüralist inkişafı üçün ciddi təhlükə doğurur. Bu gün bəzi elmi nüfuz sahibləri də onların səsinə səs verərək tarixi inkişafın məntiqinə zidd olan belə ictimai-siyasi konseptlərin yanlışlığı barədə xəbərdarlıq edirlər. Müasir mütəfəkkirlər hesab edirlər ki, yeni qlobal inteqrasiya şəraitində yalnız milli dövlətin inkişafı, texnoloji inkişaf, milli mənlik şüurunun inkişafı və modernləşmə ayrı-ayrı xalqların və bütövlükdə bəşəriyyətin xeyrinədir. Buna görə də bərabər tərəfdaşlar hüququnda mədəni qarşılıqlı mübadiləyə üstünlük verilməklə dünya birliyinə inteqrasiya milli sosiomədəni məkanın qorunub saxlanması üçün zəruri olan gücü verir.

Milli ideya azərbaycanlıların özlərini identikləşdirməsinə, xalqın zəngin mədəniyyətini və onun tarixi irsini əks etdirən dünyagörüşünə əsaslanır.

Heydər Əliyev dəfələrlə vurğulamışdır ki, mədəniyyət Azərbaycan xalqının böyük sərvətidir. Azərbaycanın tarixi abidələrinin beynəlxalq təşkilatlar tərəfindən tanınması prosesinin başlanması bu qayğının nəticəsi olmuşdur. 2000-ci ildə Bakının tarixi mərkəzi - Qız qalası və Şirvanşahlar sarayı da daxil olmaqla İçərişəhər YUNESKO-nun Dünya İrsi Siyahısına daxil edilmişdir. Bu qurumun ən mühüm vəzifələri dünya əhəmiyyətli obyektləri qoruyub saxlamaq və xüsusi mədəni, tarixi və ya ekoloji əhəmiyyətinə görə onları populyarlaşdırmaqdır. Eyni zamanda, Azərbaycan hökuməti hələ 1998-ci ildə ölkəmizin Hirkan Milli Parkı, Lökbatandakı palçıq vulkanları, Atəşgah məbədi, Naxçıvandakı Mömünə xatın, Yusif ibn Küseyir, Qarabağlar və Gülüstan türbələri, Abşeronun müdafiə qalaları kimi tarixi abidələrinin, habelə Şuşa, Ordubad, Şəki və digər şəhərlərin həmin siyahıya daxil olunmasını təklif etmişdi.

2003-cü ildən bugünə qədər Prezident İlham Əliyevin siyasəti ölkəmizin tarixi irsinin qorunması və təbliğinə yönəlmişdir. Günümüzün dəyişmiş reallıqlarına uyğun olaraq, eləcə də mədəniyyət abidələrimizin Ermənistan tərəfindən mənimsənilməsi cəhdlərinin çoxalması ilə əlaqədar mədəni irsə qayğı göstərilməsi və onun qlobal miqyasda təbliğ edilməsi işləri tamamilə yeni səviyyəyə çatdırılmışdır. İndi Azərbaycan bu və ya digər hadisələrə "cavab" reaksiyası vermək praktikasından özünün mədəniyyət incilərinin dünya ictimaiyyətinə çatdırılması sahəsində fəal siyasətə keçir.

2007-ci ildə YUNESKO-nun Dünya İrsi Siyahısına Azərbaycan mədəniyyətinin daha bir abidəsi - Qobustan qayaüstü təsvirləri daxil edilmişdir. Milli dövlət təsisatının həyat qabiliyyətli olması faktının özünün çox vaxt şübhə altına alındığı qloballaşan dünyada xüsusi əhəmiyyət kəsb edən qeyri-maddi dəyərlərin rolunu və mənasını başa düşən Prezident Azərbaycan mədəniyyətinin muğam sənəti, xalçaçılıq, aşıq sənəti və qədim bahar bayramı Novruz kimi bənzərsiz nümunələrinin qorunub saxlanmasına, inkişaf etdirilməsi və təbliğinə xüsusi diqqət yetirir. Buna görə də Prezident İlham Əliyevin qarşıya qoyduğu vəzifələrə uyğun olaraq, 2003-2010-cu illərdə Bəşəriyyətin qeyri-maddi mədəni irsi siyahısı Azərbaycan muğamı, Novruz bayramı, Azərbaycan aşıq sənəti və ənənəvi Azərbaycan xalça sənəti ilə zənginləşmişdir.

İndi ölkədə Azərbaycan mədəniyyətinin milli abidələrinin bərpası və qorunub saxlanması üçün çox böyük işlər görülür. Bu sahədəki müsbət dinamikanı adi gözlə də görmək olar. Prezidentin tapşırığına uyğun olaraq, Bakının tarixi mərkəzi İçərişəhərin bərpası və qorunub saxlanması sahəsində genişmiqyaslı işlər görülür.

Qeyd etmək yerinə düşər ki, zəngin mədəni irsə və ölkə daxilində müxtəlif mədəniyyətlərin birgə mövcud olması sahəsində tarixi təcrübəyə malik bir diyar kimi Azərbaycan indi regional miqyaslı mədəniyyətlərarası dialoq üzrə ideal platformaya uğurla transformasiya edir. 2009-cu ildə Bakı islam mədəniyyətinin paytaxtı elan olunmuşdu, 2011-ci il aprelin 7-9-da isə burada mədəniyyətlərarası dialoq üzrə ümumdünya forumu keçirilmişdir. Bu forumun keçirilməsi heç də təsadüfi deyildi - o, Azərbaycan tərəfinin təşəbbüsü ilə başlanmış və "Bakı prosesi" adlanan prosesin məntiqi nəticəsi idi. Azərbaycanda bu prosesin əsası 2008-ci ildə Avropa Şurasının üzvü olan ölkələrin mədəniyyət nazirlərinin iclasında qoyulmuşdu.

Prezidentin siyasi fəlsəfəsi bundan ibarətdir ki, bütün xalqlar, bütün dinlərin nümayəndələri bir-biri ilə sıx ünsiyyət saxlasınlar, problemləri açıq müzakirə etsinlər, öz fikirlərini sərbəst bildirsinlər. İndi Azərbaycan müxtəlif mədəniyyətlər və sivilizasiyalar arasında dialoqa dair bu cür sanballı tədbirlər keçirilməsi üçün ənənəvi məkana çevrilmişdir. Bunun həm coğrafi, həm tarixi, həm də mədəni əsasları vardır, çünki Azərbaycanda bütün xalqlar, bütün dinlərin nümayəndələri əsrlər boyu bir ailə kimi yaşamışlar. Prezidentin dediyi kimi, Azərbaycanda milli və dini dözümlülüyün, tolerantlığın yüksək səviyyədə olması faktdır və bu, Azərbaycan xalqının güc mənbəyidir. "Hər bir cəmiyyətin gücü onun dini və milli müxtəlifliyindədir". Bu sözlər Prezident İlham Əliyevin strateji mövqeyini dəqiq nümayiş etdirir. Həmin mövqeyə görə çox zəngin tarixi və mədəni irsi, dini və sosial tolerantlıq ənənələri olan Azərbaycan hazırda mədəniyyətlərarası dialoq, dünya mədəniyyətlərinin və sivilizasiyaların qarşılıqlı təsiri məkanına uğurla transformasiya olunur, özünün zəngin təcrübəsini dünya ictimaiyyətinə təklif edir.

Azərbaycanın uzunmüddətli perspektivdə özünü yetkin bir dövlət kimi təsdiq etməsi və demokratiya qurulması sahəsindəki uğurları cəmiyyətin sosiomədəni fonunda dəyişikliklərə şərait yaratmışdır. Milli identikliyin müxtəlif aspektləri yeni-yeni formalarda təzahür edir, dünya təcrübəsi ilə sintez edərək vətəndaşların həyatının mənəvi-əxlaqi komponentini intensiv surətdə zənginləşdirir. İcma şüurunun, kollektiv, fərdiləşdirilməmiş şüurun açıq-aydın təzahür edən arxetipi tədricən demokratik tranzit üçün daha açıq olan kütləvi şüurun digər formasına çevrilir.

Cəmiyyətimizin Azərbaycan millətinin ruhuna xas olan tolerantlığı hələ keçən əsrin 70-ci illərində Azərbaycanda şəxsiyyətlərarası və kollektiv münasibətlərin bütün spektrinin gündəlik tərkib hissəsinə çevrilmiş və tətbiqi forma almışdı. Bu təcrübə müasir Azərbaycan üçün də mühüm güc mənbəyidir və ölkədə yaşayan, özlərinin Azərbaycan millətinə mənsub olmasını hiss edən bütün etnosların birliyini səciyyələndirir. Dövlətimizin tərəqqisi və ərazi bütövlüyü naminə hər şeydən əziz olan canlarını da əsirgəməmiş Azərbaycan Respublikasının milli qəhrəmanlarının adları və soyadları, onların çox müxtəlif etnik mənşəyi ilə tanışlıq buna ən yaxşı sübutdur.

SABAHI DÜŞÜNƏRKƏN

Tempora mutantur et nos mutamur in illis (lat.)
Zaman dəyişir, onunla birlikdə biz də dəyişirik.

Azərbaycanın sənaye-iqtisadi qüdrəti və ölkə rəhbərliyinin dövlətin strateji inkişafına dair layihələrinin - mühüm dəyər oriyentirləri sistemini harmonik şəkildə əks etdirən layihələrin olması informasiya cəmiyyətinin müasir tələblərinə uyğun surətdə milli mənlik şüurunun transformasiyasının əsasıdır.

Bu gün vətəndaşlıq şüuru lazımi səviyyədə olan hər bir azərbaycanlı müasir Azərbaycan dövlətçiliyinin inkişafına dair tarixi layihəyə özünün şəxsi töhfəsini real şəkildə hiss edə bilər. Məhz son illərdə təkamül yolu ilə Azərbaycan fərdlərin ölkədə həyata keçirilən bütün tədbirlərin mənasını başa düşmək, dərk etmək imkanına malik şüurlu vətəndaşlara çevrilməsi üçün rahat şərait yaradan ölkə olmuşdur.

Azərbaycanda yaranmış iqtisadi inkişaf və dövlət idarəçiliyi modeli, modernləşmə xəttinin seçilməsi, heç şübhəsiz, bundan sonra yalnız təkmilləşəcək və bu mənada Azərbaycan demokratiyasının təkamülü istiqamətində səylər davam etdiriləcəkdir. Lakin artıq indidən demək olar ki, Azərbaycanın inkişaf vektorları barədə Prezidentin strateji planları özünü tamamilə doğrultmuşdur.

İndi bütün siyasi ssenarilər və müzakirələr yalnız inkişaf məcrasında nəzərdən keçirilir və bu fakt son illərdə qazanılmış nailiyyətlərin nəticəsidir. İlham Əliyev şəxsiyyətinin fenomeni müasir Azərbaycanın tarixi uğurlarında başlıca rol oynamışdır və əgər belə demək mümkündürsə, Azərbaycan millətinin və Azərbaycan dövlətçiliyinin tarixinin növbəti quruculuq mərhələsinin lokomotivinə çevrilmişdir. Bu sahədəki uğurlar mübahisə doğurmur və azərbaycanlıların gələcək nəsilləri tərəfindən layiqincə qiymətləndiriləcəkdir.

Əlbəttə, Azərbaycanın inkişafı indiyədək qazanılmış uğurlarla kifayətlənə bilməz. Buna görə də gələcəyin fəth edilməsi dövlətin yüksələn xətlə inkişafının növbəti mərhələsində, yəni biliklərə əsaslanan cəmiyyətdə Azərbaycan milli ideyasının əsas vəzifəsidir.

İllər, onilliklər keçəcək, inkişaf etmiş müstəqil Azərbaycanın vətəndaşlarının nəsilləri bir-birini əvəz edəcək, yeni çağırışlar yaranacaqdır. Lakin 1993-cü ilin yayından başlanmış və bütün sonrakı illərdə gələcək nəsillər üçün azad və insana layiq həyatın təmin edilməsi məqsədilə həyata keçirilmiş tədbirlər millətin kollektiv yaddaşında həmişəlik qalacaqdır. "Bizim ən yaxşı vətəndaşlarımızın" yeni nəsilləri dövlət idarəçiliyi sükanını əldə saxlayacaq, bu gün Prezident İlham Əliyevin milli ideyanı gerçəkləşdirərək formalaşdırdığı səmərəli dövlətçiliyin, güclü iqtisadiyyatın və açıq cəmiyyətin bünövrəsinə əsaslanacaqlar.

Sərdar MUSTAFAYEV
Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutunun
«Politologiya və siyasi sosiologiya» şöbəsinin
aparıcı elmi işçisi, fəlsəfə doktoru

İNSAN EKOLOGİYASI: BƏZİ SOSIAL-FƏLSƏFİ ASPEKTLƏR*

Müasir dövrdə insanın sosial mühitlə qarşılıqlı təsir münasibətləri və sosial-siyasi proseslərdə baş verən köklü dəyişikliklər əsrin qlobal probleminə çevrilmişdir. Sülhün qorunması, beynəlxalq gərginliyin zəifləməsi, ölkələr arasında hərtərəfli və qarşılıqlı əməkdaşlığın inkişafı kimi problemlər sırasında insan ekologiyası probleminin sosial-siyasi təhlili və onun inkişafı yolları ön planda durur. Elmin və dünyagörüşün ən mühüm xarakterik xüsusiyyətlərindən biri cəmiyyətin və sosial-siyasi mühitin qarşılıqlı təsir münasibətlərinin müxtəlif aspektlərinin şərhinə daha dərindən nüfuz etməsidir.

Bu baxımdan, sosial-siyasi əhəmiyyətli tədqiqatlara siyasi-fəlsəfi qanunauyğunluqlar əsasında yanaşılması, bəşəriyyətin əbədi problemlərinin həllini dialektik vəhdətdə dərk etməyə imkan verir. İnsan ekologiyasının mövcud problem kimi inkişafı insanın öz həyat səviyyəsinə münasibətini müşahidə etməyə və «cəmiyyət-təbiət» sistemində sağlamlığın sosial-siyasi aspektini tədqiqat obyektinə çevrilməsini zəruri edən mühüm şərtdir.

Bu gün ortaya çıxan olduqca zəruri bir problem– insan ekologiyasının sosial- siyasi aspekti təkcə nəzəri cəhətdən deyil, həm də praktiki olaraq insanları düşündürür. Bu ətraf mühitin insanın genefonduna və sağlamlığına təsiri məsələsidir. Bu nöqteyi-nəzərdən də alimləri düşündürən digər zəruri bir məsələ ortaya çıxır. «İnsanın daxili təbiətinin saxlanılmasının kompleks proqramı və bioloji fərdiliyinin sağlam əsaslarının qorunub saxlanılması» adlı bu problem günün vacib məsələləri sırasına daxil olmuşdur. Lakin həmin problemin sosial- siyasi aspekti fəlsəfi- nəzəri təhlil tələb edir və praktiki profilaktika tədbirləri sisteminə çıxış müəyyənləşdirir.

Bu baxımdan, insan ekologiyası probleminin «vətəndaş cəmiyyəti»nin inkişafı terminologiyasına tətbiq edilməsi sosial- siyasi anlayışın dəstəklənməsini zəruri edir və ətraf mühit hadisələrinin konseptual, sosial-fəlsəfi təhlilinin yeni cəhətləri üçün imkanlar yaradır. Həm də bioloji determinatlara nail olunaraq ərazi prinsiplərinin struktur dəyişmələri prosesində mikro və makrosəviyyəli münasibətlərin differensiasiyası ön plana çıxır və insan ekologiyasının müstəqil elm kimi inkişafını müəyyən edir.

Məhz insan ekologiyasının sosial- siyasi aspektdən araşdırılması nəzəri-metodoloji və elmi-praktik nailiyyətlərə əsaslanmağa imkan verir. V.Vernadskinin cəmiyyətin sağlamlığının qorunmasında sosial- siyasi qanunauyğunluqların vahid fəaliyyəti baxımından söylədiyi fikir bunu bir daha təsdiq edir: «Biz elmlərə görə deyil, məhz problemlər istiqamətində ixtisaslaşmalıyıq» (4).

İnsan ekologiyası həm təbiət, həm də humanitar elm statusuna malik olmaqla ərazi birliklərində yaranan münasibətlərin və insanı əhatə edən çoxmənalı əlaqələrin sosial- siyasi təhlilinə doğru daha çox istiqamətlənmişdir. «Belə münasibətlərdə tədqiqatlar genişlənir, müasir urbanizasiyalaşmış cəmiyyətin problemlərini də özünə daxil edir» (1).

İnsan ekologiyası nisbətən yeni elmdir. Onun inkişafı insan ekosistemini başqa canlı varlıqlırın xüsusiyyətlərindən fərqləndirməyə yönələn elmi marağın artması ilə bilavasitə bağlıdır. XX əsrin 70-80-ci illərindən başlayaraq insan ekologiyasına münasibət əhəmiyyətli

* Məqalə fəl.e. d., prof. Ə.Tağıyev tərəfindən çapa məsləhət bilinib.

dərəcədə formalaşmışdır. Elmi inkişaf üçün onun predmetini dəqiqləşdirmək və ümumi ekologiyadan ayırmaq ona görə zəruri olmuşdur ki, ekologiya biosferi təbii-sosial varlıq kimi insan baxımından deyil, məhz təbiət baxımından tədqiq edir. Lakin tədqiqatlar göstərdi ki, insan ekologiyasının predmetini öyrənərkən insanın ətraf mühitlə qarşılıqlı münasibətlərinin qanunauyğunluqlarından başqa onun sosial-siyasi və fəlsəfi aspektləri də nəzərə alınmalıdır.

İnsan ekologiyasının sosial- fəlsəfi aspektlərinin dialektik vəhdətdə müqayisəsi cəmiyyətin sağlamlığına mənfi təsir göstərəcək nəticələrin aradan qaldırılmasında sosial siyasətin başlıca funksiyasıdır. Doğrudan da sosial şərait ətraf mühitin elementi olduğundan cəmiyyətin sağlam inkişafı və gələcək nəslin xoşbəxt həyat tələbatlarını təmin etmək dövlətin həyata keçirdiyi sosial siyasətin nəticəsindən asılıdır.

İnsan ekologiyası problemi ilə cəmiyyətin sağlamlığının qarşılıqlı əlaqəsinin fəlsəfi-tibbi aspektlərinin öyrənilməsinin əsas məqsədi– sosial-siyasi faktorların insanın genefonduna və sağlamlığına mənfi təsirinin qanunauyğunluqları haqqında bütöv rəy yaratmaq, insanın vaxtından əvvəl qocalması və xəstəliklərin vaxtında xəbərdar edilməsi metodu ilə sağlamlığın saxlanılması və möhkəmləndirilməsi məqsədi güdən konkret sosial-siyasi təkliflərin irəli sürülməsidir.

Insanın təbiətə, həyata, cəmiyyətə və nəhayət, özünə münasibəti bütün dövrlərdə fəlsəfənin və bədii-ictimai fikrin mərkəzində durmuşdur. Həm də insanın bir şəxsiyyət kimi inkişafının fəlsəfi, yaxud sosioloji konsepsiyası insanla sosial-siyasi mühit arasında qarşılıqlı əlaqə prosesinin nəzəri cəhətidir. İnsanın real inkişafının və tarixi prosesdə rolunun başa düşülməsində həlledici cəhət– konkret tarixi-ictimai münasibətlər və sosial əlaqələr sistemində insanın vəziyyəti, cəmiyyətin sosial strukturunda onun yeri, hüquq və azadlığının real surətdə təmin edilməsidir. Deməli, insana tarixi yanaşma üsulu abstrakt antropoloji prinsipdən deyil, əksinə, gerçək insan mövqeyindən yaranır.

Hazırda hər birimiz cəmiyyətdə başlamış dəyişikliklərin mənasını daha yaxşı aydınlaşdırmağa, nəyə doğru getdiyimizi, dövrün mahiyyət və məqsədinin nədən ibarət olduğunu dərk etməyə çalışırıq. Mövcud dəyişikliklər hər birimizin şüuruna və psixologiyasına, mənafeyinə təsir edir, çünki heç nə insanın şüurundan yan keçmir, heç bir iş onsuz görülmür.

Müasir dövrdə Yer üzündə yaşayan insanlarda «təbəit-cəmiyyət» hadisələrinə münasibət yeni mərhələyə keçdiyindən milyon illər təkamül yolu keçmiş bioloji növ-insanın həyatı təhlükə altına alınmışdır. Bu münasibətlərin nəzəri-metodoloji cəhətlərini tədqiq edən elm sahələrindən ən mühümü insan ekologiyasıdır desək, yanılmarıq.

İnsan ekologiyası ətraf mühitdən və sosial-siyasi proseslərdən səmərəli istifadə üsullarının elmi-praktik əsaslarını, eyni zamanda insanla tibbi-ekoloji mühit arasındakı münasibətlərin harmonizasiya məsələlərini öyrənir. Bu elmin predmeti– insan və cəmiyyətin sağlamlığının qorunması, möhkəmlənməsi, həmçinin həyat ehtiyaclarını ödəmə prosesində vahid sosial-siyasi inkişaf qanunauyğunluqlarının dərk edilməsidir. «Qlobal problemlərin həlli bütün millətlərin sülh və əminamanlıq şəraitində yaradıcılıq səylərinin billəşdirilməsi, təsirli tənzimetmə və nüfuzlu beynəlxalq təşkilatların sosial-ekoloji mühitə ciddi nəzarəti yolu ilə nizama salına bilər»(6).

Qlobal sosial-siyasi problemləri tədqiq etmək üçün müasir elmdə iki metodoloji sistem yaranmışdır və bunların hər birini insan ekologiyası sisteminin təhlilinə tətbiq etmək olar: birinci sistemin genezisi və inkişaf tarixinin tədqiqi keçmişdəki perspektiv qanunauyğunluqları müəyyən edən əsas faktorların axtarışıdır; ikinci sistem daha xüsusi metodik xarakter daşıyır və qlobal sistemin bütün elementlərini vahid bütövlükdə birləşdirən əks əlaqələrin məcmusunun təhlilinə əsaslanır. İnsan ekologiyasının və qlobal problemlərin müasir elmlərarası

istiqamətində insanın sağlamlığı, həyat fəaliyyəti və sosial tələbatları sosial-siyasi əhəmiyyət kəsb etməkdədir.

Bu istiqamət ekosistemin mahiyyətini müəyyən edən müxtəlif növlü geniş statistik məlumatların analizi üçün sosial-siyasi modelləşmənin hərtərəfli təhlilini özündə birləşdirir. Nəticə etibarı ilə qeyd etmək olar ki, qlobal problemlərin bütün əhatə dairəsi sosial-siyasi ziddiyyətlərin artması səbəblərinin tədqiqi, qlobal və regional ekosistemlər üçün variantlar axtarışı, sosial-siyasi mühitin kəmiyyət göstəriciləri və keyfiyyət təhlili insan ekologiyasının bütün bölmələrinə qiymətli material verir. İnsan ekologiyasının sosial-siyasi aspektlərində alınmış bir çox empirik və nəzəri nəticələrin qlobal problemlərə tətbiq edilməsi mühüm sosial-fəlsəfi əhəmiyyətə malikdir.

Urbanizasiya və demoqrafik proseslərlə əlaqədar insan ekologiyası və cəmiyyətin ahəngdar mövcudluğu problemi mühüm sosial-siyasi xarakter almaqdadır. Həyat şəraitini proqnozlaşdırmaq və təbii ehtiyatların tükənməsinin qarşısını almaq üçün bəşəriyyətin bütün maddi və intellektual ehtiyatlarından sərt qənaət tələb olunarsa qəbul edilmiş minimal maddi-rifah halını tənzimləmək mümkün olar.

Cəmiyyətin sağlamlığına haqq qazandırmaq, hər bir insanın əsas hüququ olmaqla genetik irsi qorumaq bütün bəşəriyyətə məxsus xəzinədir. Sosial-siyasi mühitin qeyri-sabitliyi orqanizmin ümumi ahəngini pozduğundan V.İ.Vernadskinin «noosfer təlimi»nin qanunauyğunluğu əsasında insan şüurlu olaraq elmin aparıcı rol oynadığı idarəetmə funksiyasını öz üzərinə götürür. Noosfer təkcə biosferin təkamül mərhələsi kimi deyil, həm də planetar miqyasda insan ekologiyasının elmi təşkili kimi çıxış edir.

Bununla yanaşı tədqiqatlar göstərdi ki, insan ekologiyası insan münasibətlərini və onun təbii mühitini öyrənərkən insanın ictimai fəaliyyətinə də nəzər salmalıdır. İnsan ekologiyasının dörd əsas mövzusu bunlardır: əhali, mühit, texnologiya və sağlamlıq. İnsan ekologiyasının əsas tədqiqat sahələrinə belə yanaşmaya görə onu insan populyasiyasının öz mühitinə uyğunlaşması prosesləri baxımından cəmiyyətin strukturu haqqında elm kimi müəyyən edirlər. Belə müəyyənliyə görə, insan ekologiyası mühitin insana və insanın mühitə təsirini öyrənməklə sosial- ictimai sağlamlığa xidmət edir.

İnsan ekologiyası probleminin sosial-fəlsəfi xarakterə malik olmaqla tibbi-ekoloji kontekstinin əhalinin sağlamlıq ehtiyatlarının qiymətləndirilməsində tədqiqi və insan sağlamlığının üç funksiyası haqqında əldə edilmiş konsepsiya böyük maraq doğurur:

1) canlı təbiət və əmək; 2) tərbiyə, təhsil, təlim; 3) cəmiyyət üzvlərinin təkrar istehsalı. Nəzərdən keçirilən konsepsiyanın sosial-siyasi və nəzəri-metodoloji əhəmiyyəti ondan ibarətdir ki, onların qarşılıqlı əlaqəsi mahiyyətcə cəmiyyətin tibbi-ekoloji və təbi funksiyaların yaranmasına gətirib çıxarar. Beləliklə, sosial sağlamlıq səviyyəsinin qiymətləndirilməsinə şəhərin, regionun, bütövlükdə ölkənin potensial sosial-iqtisadi ehtiyatı kimi baxılmalıdır.

İnsan ekologiyası özünün kompleksliyi və aktuallığına görə elmi biliklər sistemində formalaşma səviyyəsindədir. Yeni növbəti ümumiləşmədə problemdən deyil, məhz elə sintetik elmdən söhbət gedir ki, ümumi biliklərin inteqrasiyası əsasında cəmiyyətin sağlamlığının möhkəmlənməsində insan ekologiyasının baza səviyyələri müəyyən edilmiş olsun.

Dünya alimləri insan ekologiyası probleminin nəzəri-metodoloji əsaslarını, onların mahiyyətini təhlil etmiş, ümumi spesifik xüsusiyyətlərini açmış, sosial-siyasi, iqtisadi, mənəvi-psixoloji əlaqələrinin müvəffəqiyyətlə həyata keçirilməsi yollarını göstərmişlər. Lakin insan ekologiyasının sosial-siyasi aspektlərini dərindən tədqiq edən fəlsəfi əsərlər yazılmamış və insan ekologiya hərtərəfli tədqiqat obyekti olmamışdır.

Aydındır ki, müasir dövrün sosial-ekoloji problemləri insan ekologiyası sisteminə müxtəlif cür təsir edir. İnsan orqanizmi öz biogenetik əlamətlərinə uyğun bütün qıcıqlara cavab

verərək özünü onlara uyğunlaşdırır. Amma insanın adaptasiya qabiliyyəti məhdud olduğuna görə orqanizm uzun illər davam edən mənəvi-psixoloji qıcıqlara tab gətirə bilmir. Şərti və şərtsiz yaranan psixi qıcıqlar insanın bütün morfofunksional fəaliyyətini pozub «mühit xəstəlikləri»nin yaranmasına şərait yaradır. Əlbəttə, bu işdə ali orqan– mərkəzi sinir sistemi çox böyük fəaliyyət göstərir.

İnsan ekologiyasının sağlamlıq mahiyyətinə müxtəlif nöqteyi-nəzərdən yanaşma və razılaşdırılmış uğursuzluğu onunla izah edilə bilər ki, insan orqanizmi çox mürəkkəb bir hal olduğu üçün onun bir çox xarakterik mühüm cəhətlərini qısa və birmənalı şəkildə izah etmək mümkün deyildir. Lakin müxtəlif metodoloji yanaşma zamanı onun problem kimi mövcudluğu bütövlükdə cəmiyyətin yaradıcılıq qabiliyyətinə, nəsl artımına, sosial və siyasi-ideoloji proseslərə mənfi təsiri ilə xarakterizə olunur. Sosial-siyasi mühit faktorlarının insan ekologiyasına təsirinin qiymətləndirilməsi– çox mühüm elmi, fəlsəfi-sosioloji şərtlərdəndir.

Sosial-fəlsəfi dərketməni və planetdəki sosial- siyasi vəziyyəti nəzərə almadan insan ekologiyası problemini həll etmək mümkünsüz görünür. Müasir dövrün mahiyyəti ondan ibarətdir ki, gündəlik həyatda qlobal problemlərin həll edilməsi ilə gələcək dövrün inkişafının əsası qoyulur.

Deməli, dünyanın dərk edilməsində və müasir dövrə uyğun yeni təfəkkürün formalaşmasında fəlsəfənin məsuliyyəti fövqəladə dərəcədə böyükdür. İnsan ekologiyasının sosial-siyasi aspektdən dərk olunması insanlarda elmi praktiki nəticələri möhkəmləndirir, həm də cəmiyyətin bütöv dünyagörüşünü formalaşdırır.

Sosial-siyasi proseslərin dərk edilməsi ilə insan ekologiyasının elmi- praktiki izahını verməklə hər bir tarixi dövrün sosial-fəlsəfi ideyaları və təsəvvürləri, eyni zamanda «cəmiyyət-təbiət» sistemindən istifadənin mənəvi- etik, sosial-siyasi determiniləşmə formaları və xarakteri aydınlaşmışdır. Tədqiqat işi nəzəri və praktiki axtarışlarla ümumiləşmələr əldə etməyə imkan vermiş, elmi nəticələrlə tamamlanmış, lakin insan ekologiyası özünün inteqrasiya funksiyasına, gerçəkliyə, insanların anlayış və dünyagörüşünə təsir göstərməsinə baxmayaraq cəmiyyətin həyat fəaliyyətini əks etdirən sosial- fəlsəfi problem olaraq qalır.

Açar sözlər: insan ekologiyası, cəmiyyət, qlobal problemlər, şəxsiyyət, demoqrafik proseslər.

İstifadə olunmuş ədəbiyyat

1. Şükürov A.M. Sosial ekologiya. Bakı, 1999.
2. Василенко И.А. Политическая глобалистика. М., Логос, 2000.
3. Лисичкин В.А., Шелепин А.А. Третья мировая информационно-политическая война. М., Институт Социально-Политических Исследований. АСН, 2000.
4. Панарин А.С. Глобальное политическое прогнозирование. М., Алгоритм, 2000.
5. Политика. 7 марта, 1985.
6. Введение в социальную экологию. Под ред. А.Д.Урсула. Ч.2. М., Луч, 1994.

Сардар МУСТАФАЕВ

ЭКОЛОГИЯ ЧЕЛОВЕКА: НЕКОТОРЫЕ СОЦИАЛЬНО-ФИЛОСОФСКИЕ АСПЕКТЫ

Резюме

Научная новизна статьи заключается в постановке социально политического аспекта взаимовлияния здоровья в системе «общество-природа» в объект исследования в обосновании новых выводов полученных во время решения задач с помощью научно-практической методологии.

Главной причиной, по нашему мнению, является недостаточная научная обоснованность "фундаментальных" положений, по которым и принимаются ответственные экономические и политические решения.

Ключевые слова: экология человека, общество, глобальные проблемы, личность, демографические процессы.

Sardar MUSTAFAYEV

THE ECOLOGY OF HUMAN: THE ASPECTS OF SOCIAL PHILOSOPICAL

Summary

The scientific novelty of the article shows itself in the system of «society-nature» – in changing of the searching object of the social-political aspect of the mutual influence of health and in the process of solving the necessity duties and during the results taking of the scientific - practical methodology.

In the article are solved detailed the problem of the ecology of human being to the development terminology of «citizen society», and learned the necessity of political-ecological notion and the new sides of the conceptional social-philosophical investigation of the events of environment.

Keywods: human ecology, society, global problems, personality, demographical processes.

UOT 101

Ağasəlim HƏSƏNOV
AMEA FSHİ-nin
e.i, fəlsəfə üzrə fəlsəfə doktoru

FƏLSƏFƏ VƏ İDEOLOGİYA*

Fəlsəfə və ideologiyanın qarşılıqlı əlaqəsi probleminin tədqiqi cəmiyyət həyatı üçün böyük aktuallıq kəsb edir. Demək olar ki, fəlsəfə həmişə ideologiya yaratmaq imkanına malikdir. İdeologiya nədir? İdeologiya - irəli sürülən idealların məcmusudur. Bəs, onda ideallar nədir? İdeallar - şüur vasitəsilə müəyyən edilən və insanın fəaliyyətini idarə edən məqsədlərdir (1, s. 170). Fəlsəfə məqsədlərin axtarışına istiqamətlənmişdir. O, öz başlanğıcını mədəniyyətdən götürür. Fəlsəfə ideologiyanı məqsədlərlə təmin etdiyinə görə onu formalaşdırır.

İ.Kantın fəlsəfəsinin nəticəsi hüquqa əsaslanan vətəndaş cəmiyyəti ideologiyasıdır. Kant üçün vətəndaş cəmiyyətini öz azadlıqlarını, hüquqlarını və, əlbəttə, vəzifələrini dərk etmiş, işləməyə qabil olan insanlar təşkil edir. K.Marksın fəlsəfəsinin, daha dəqiq desək, onun dialektik materializminin sonrakı praktiki şərhlərinin nəticəsi özünü totalitar dövlət ideologiyasında tapdı ki, bu da SSRİ adlı dövlətin misalında gerçəkləşdi. XIX əsr Azərbaycan maarfçilərinin, XX əsrin əvvəllərində Azərbaycan demokratik fikrinin isə ən faydalı ideyaları öz təcəssümünü hal-hazırda respublikamızda dövlətin, xalqın və cəmiyyətin birliyinə və möhkəmliyinə xidmət edən azərbaycançılıq ideologiyasında tapmışdır (2).

Tarixi təcrübə göstərir ki, hər hansı bir ideologiyanın ictimai şüurlara yeridilməsi heç də həmişə müsbət nəticələr vermir.

Müxtəlif zamanlarda ideologiyanın bu və ya digər şəkildə alimin fəaliyyətinə müəyyən təsir göstərməsi məlumdur. Bu şərait daha çox humanitar və ictimai elmlər sahəsində özünü büruzə verir, çünki qeyd olunan elm sahələri bilavasitə insanla, cəmiyyətlə bağlı problemlərin təhlilinə yönəlib. Bu mənada hər zaman mövcud rejimin diqqət mərkəzində durur. Yəni bu elmi istiqamətlərin bir sıra xüsusiyyətləri ilə yanaşı, mühüm funksiyalarından biri də müəyyən ideologiyaya əsaslanaraq ictimai fikrin formalaşdırılmasına yönəlmişdir. Bu sırada fəlsəfənin əlahiddə yeri vardır. Çünki ictimai sahələrə aid bir çox problemlərin təhlilini fəlsəfənin ideologiya ilə qarşılıqlı əlaqələrinə müraciət etmədən həyata keçirmək mümkün deyil. Yəni bütün ictimai elmlər ideoloji mahiyyət daşıyır və bu mənada fəlsəfə istisna deyil. Belə şəraitdə filosoflar ya sırf fəlsəfi problematikaya aid məsələlərin təhlilinə üstünlük verirdilər və ya özlərini müəyyən təzyiqlərdən qorumaq məqsədilə mövcud ideologiyaya müvafiq fikir və ideyalar irəli sürməyə çalışırdılar. Bu şərait totalitar rejimlər üçün xüsusilə xarakterikdir və biz bütün bunların təzahürlərinin keçmiş Sovet İttifaqının timsalında şahidi olduq. Fəlsəfə ilə peşəkar kimi məşğul olanlar əksər hallarda filosofdan daha çox ideoloq rolunda çıxış etməli olurdular. Hakim ideologiyaya xidmət etmək istəməyənlər üçün "hiss olunmadan" yaşamaq daha düzgün seçim idi. Belələri ya məntiqlə, ya elmin metodologiyası ilə məşğul olur, ya da ki, marksizm-leninizmdən uzaq bir sahədə tədqiqat aparmalı olurdular.

Filosof özü siyasətdən kənar olsa da fəlsəfənin təsiri altında ideologiyanın formalaşması işinə xidmət edir. İdeologiya fəlsəfə üçün müəyyən mənada yaradıcılıq predmetidir. Çünki vaxt keçdikcə fəlsəfə tərəfindən yaradılan ideologiya mədəniyyətdə əriyir. Fəlsəfə isə, qeyd etdiyimiz kimi, öz başlanğıcını mədəniyyətdən götürür. Təbii ki, mədəniyyət təkcə fəlsəfə və ideologiya ilə deyil, şüur və digər fəaliyyət növləri ilə zəngindir. Beləliklə, bəşəriyyətin müəyyən inkişafı baş verir və burada qapalı dairə mövcud deyildir.

Fəlsəfə - məqsəd axtarışı üçün universal vasitədir. O, məqsədləri tapır, onları sistemləşdirməyə çalışır. Siyasət fəlsəfənin aşkar etdiyi məqsədləri ideologiyaya çevirir. Siyasi təbliğat isə ideologiyanı xalqa çatdırmaq vasitəsidir. Xalq müqavimət göstərir və qruplara bölünür. Bu qruplardan bəziləri ideologiyanı qəbul edir və ona axıra qədər sadiq qalırlar. Digərləri isə onu ya rədd edir, ya da ki, digər ideologiyanın təsiri altına düşürlər. Bununla da onlar fəlsəfədən uzaq düşürlər. Belə olduqda onlar hər hansı ideologiyanın mahiyyətini dərk etmədən qəbul edirlər.

---

* Məqalə fəl.e.d., prof. A.Mustafayev tərəfindən çapa məsləhət bilinib.

Praktiki həyat fəaliyyətində, məsələn, siyasətdə məqsədlərin həyata keçirilməsi müəyyən hüquqi və mənəvi fəaliyyət qaydalarına əməl edilməsini tələb edir. Mənəvi normaların aşkar edilməsi və işlənib hazırlanması ilə fəlsəfi elm kimi etika məşğul olursa, hüquqi normalar üçün bunu hüquq nəzəriyyəsi yerinə yetirir. Norma - məqsədə çatmaq üçün vasitədir. Bu səbəbdən, norma vasitəsilə ideologiya da mövcud olur. Buradan belə nəticəyə gəlmək olar ki, fəlsəfə ideologiya üzərində üstünlüyə malikdir, çünki məhz o, etika qismində normaları üzə çıxarır və sistemli şəkildə işləyib hazırlayır. Beləliklə, fəlsəfə məqsəd və vasitələri müəyyənləşdirməklə ideologiyanın yaranmasına şərait yaradır.

İdeoloji şüur və ya ideologiya bəzən siyasətdən fərqləndirilmir və bunlar siyasi şüur kimi təqdim olunurlar. Lakin "ictimai" və "şüur" anlayışlarının bütün əlamətləri nəzərdən keçirildikdə məlum olur ki, "siyasət" daha geniş məfhumdur. Buraya, məsələn, şüura aid olmayan təhtəlşüur səviyyəsi də aiddir. Bu kontekstdə, bütövlükdə, ictimai siyasət deyil, bir şəxsin digərinə münasibətində yaranan siyasi mövqe anlaşılır. Bu mənada daha məqsədəmüvafiq olan ictimai şüuru ən yüksək nəzəri səviyyədə həyata keçən siyasət kimi qəbul etməkdir. "Siyasi ideologiya" sözlərinin uyğunluğu isə ideologiyanı siyasətin bir hissəsi kimi başa düşdükdə düzgün ola bilər (4. s. 29).

Siyasət məsələsi ən əvvəl dövlət və hakimiyyət məsələsidir. Burada konkret strukturlar, fəaliyyət mexanizmləri, təşkilati formalar, onların tabeçiliyi, əlaqələndirilməsi və s. haqqında bir çox təsəvvürlər vardır. Lakin ideologiya hər halda siyasətin müəyyən bir səviyyəsində qiymətləndirilən hadisə olduğundan ideologiyanın da tərifi "siyasət" anlayışına çox yaxındır. Zənnimizcə, ideologiyanın onun mahiyyətinə daha adekvat olan, onu siyasətdən fərqləndirən və eyni zamanda siyasətin nəzəri səviyyəsini əhatə edən aşağıdakı tərifini vermək olar: ideologiya - ictimai varlığın sosial-qrup və sinfi maraqlar prizmasından əks etdirilməsidir. İdeologiyanın məqsədi müəyyən dəyərlər sisteminin yaradılması, sosial dünyada nələrin vacib olmamasını əsaslandırmaqdan ibarətdir. Bəzən ideologiyanın tərifini genişləndirərək onun obyektinə təkcə sosial dünyanı deyil, həm də təbiəti daxil edirlər. Bu halda ideologiya hüdudları genişlənir və sosial qrup maraqlarında əks olunmuş maraqlardan daha böyük miqyas alır.

İdeologiya burjua cəmiyyətinin məhsulu olan elmlə yanaşı yarandı və tezliklə elmdən öz məqsədləri üçün suiistifadə etməyə başladı. Karl Manheymin qeyd etdiyi kimi, "müasir ideologiyaların əksəriyyəti mənşəyindən asılı olmayaraq elmə əsaslandıqlarını, hətta elmin özünün əsasını təşkil etdiklərini iddia edirlər. Bununla da onlar elmlə özlərinə legitimlik qazanmaq istəyirlər". Bütünlükdə XIX əsr istənilən istiqamətlərə aid olan ideoloqların tükənməz mənbədən - elmdən dəlil və sübutların əldə olunması tarixidir. Bu yolla onlar elmi bilikləri ideoloji silaha çevirirdilər (4. s. 176).

İdeologiya anlayışı XVIII əsrin sonunda təfəkkürün bioloji əsaslarını öyrənən elm sahəsi kimi yaranmış, sonradan müxtəlif qrupların siyasi maraqları mənasını almışdır. İdeologiya - biliyin bir növüdür. İnkişaf etmiş ideologiyalar siyasi ideyalar və proqramları əhatə edir. Burada nomoloji biliklər (təbiət və cəmiyyətdəki qanunauyğunluqlar haqqında), bu və ya digər sistem qurumlarının strukturları, funksiyaları haqqında biliklər, aksioloji biliklər (müxtəlif sosial qrup və siniflərin tələbat, maraq və maraqları haqqında) və prakseoloji biliklər (ümumi sosial məqsədlərin reallaşdırılmasının effektiv üsulları haqqında) təmsil olunur. Sonuncular isə ideologiyanın nəzəri səviyyəsini tez-tez praktika ilə, nəzəriyyənin insanların şüuruna təsiri ilə bağlamağa çalışan şüarlar, çağırışlar və vəzifələr formasında ifadə olunurlar. Bu keyfiyyətdə ideoloji bilik özünün təsir qüvvəsi və praktiki tərəfi ilə bir növ elmi biliyin metodiki təkliflərini xatırladır.

Fəlsəfədən fərqli olaraq ideologiya idrak obyektində özünə daha çox yer tapmış olur, başqa sözlə, o, maddi sistemlərin obyektiv izahından daha çox sosial qrup səviyyəsində götürülmüş subyektin maraqlarında öz ifadəsini tapmış olur. Onun nəzəriyyəçilərinə daha çox bu strukturlara, proseslərə, hadisələrə öz münasibətini bildirmək, onların sosial qruplar üçün, ən önəmlisi isə hakim sosial qrup üçün əhəmiyyətini açmaq vacibdir. Əgər elmi biliyin dəyəri subyektin obyektiv predmetləri (xüsusiyyətləri və münasibətləri) daha çox və dərin dərk etməsindədirsə, ideologiya üçün bu, onun müəyyən sosial qrupların maraqlarını daha çox və dərin ifadə etməsindədir.

İdeologiyanın əsas prinsiplərindən biri də partiyalılıq prinsipidir. Partiyalılıq prinsipi - subyektin sosial mövqeyinin müəyyənliyidir. Belə yanaşmada partiyalılıq prinsipi və müvafiq olaraq ideologiya nəinki partiya və onun tərəfdarları, həm də istənilən fərd və millət üçün səciyyəvidir. Əslində ideologiya (partiyalılıq) öz-özlüyündə heç də mənfi məna daşımır: onsuz nə cəmiyyət, nədə ki, insan yaşaya bilməz. Fərd cəmiyyətdə yaşadığı cəmiyyəti və onun hadisələrini bu və ya digər şəkildə qiymətləndirdiyinə görə sosial və siyasi varlıqdır. Bu nöqteyi-nəzərdən ideologiyalar müxtəlif ola bilər: demokratik, avtoritar, totalitar, kifayət qədər inkişaf etməmiş, nəzəri-intellektual, obyektivist və subyektivist, monistik və ya plüralistik və s.

Totalitar ideologiya hakim qrupların və onların ideologiyasını həyata keçirənlərin maraqlarını ifadə edir. Belə ideologiya həqiqətən də cəmiyyətin az bir hissəsi tərəfindən bütün cəmiyyətə zorla qəbul etdirilir. O, gerçəkliyi haradasa düzgün əks etdirsə də, əslində onu təhrif edir. Lakin bu vaxt ideologiyaya daxil olan dünya haqqında biliklər bütünlükdə siyasi maraqların hissələrinin ("part" - "party" - "partial" - azərbaycanca "hissə") bəşəriyyətin "ümumi", "köklü" maraqları ilə birləşmə vasitəsi kimi çıxış edir. Bir sosial qrupun dünyanın müəyyən bir ümumi mənzərəsində maraqlılığı bir sıra məqamlarda cəmiyyətin digər təbəqələrinin elə bu cür maraqları ilə kəsişir. Hissənin bütöv kimi, illüziyanın reallıq kimi qələmə verilməsi üçün elə bu cür uyğunluq kifayət edir. Ayrı-ayrı şəxslərin maddi durumu, informasiyanın yayılma imkanları, xüsusən də ideoloji təbliğat, fərdlərin sosial reallığa və bütövlükdə dünyaya bu və ya digər ideoloji baxışları mənimsətmək şəraitini yarada bilir. İdeologiyanın tədqiqatçılarının qeyd etdiyi kimi, ideologiyanın özü müxtəlif sinif və təbəqələrə bölünmüş cəmiyyətdə "ümumini" dağıdan idrakın bir tipi kimi çıxış edir.

Bəzi ölkələrdə şüurun həddindən artıq ideologiyalaşdırılması və siyasiləşmənin mədəniyyətin inkişafına zərərli təsiri nəticəsində Qərbi Avropada keçən əsrin 50-ci illərinin sonu - 60-cı illərinin əvvəllərində deideologiyalaşdırma konsepsiyası inkişaf tapdı (Raymon Aron, Daniel Bell, Edvard Şilz və b.).

İdeologiyanın əsas meyarı, T. Parsonsa (1959) görə, onun obyektiv reallıqdan sapması hesab olunurdu. Bu halda isə ideologiyanın sosiologiya və digər elmlərə də sirayət etməsini nəzərə alaraq nə obyektiv sosial nəzəriyyənin, nə də ki obyektiv təbiətşünaslığın mövcudluğu qəbul edilmirdi (5, s. 80-85). Buradan isə belə bir nəticə çıxarılırdı ki, ideologiyanın hökmranlığına son qoyulmalıdır. Deideologiyalaşdırma nəzəriyyəsi idrak sosiologiyasının nümayəndələri olan K.Manheym və M.Şelerin əsərlərinə əsaslanırdı. K.Manheymə görə, idrak həm ekzistensional, həm də ki, sosial nöqteyi-nəzərdən determinə olunmuşdur. Qrupun fəaliyyət göstərdiyi sosial şərait üstünlük təşkil edir. Hər bir qrup cəmiyyətdəki spesifik vəziyyətindən çıxış edərək özünün dərk etdiyi xüsusi perspektivini hazırlayır. Şüurlu və ya şüursuz olaraq fərd öz dediklərini perspektivdə və kateqoriyalar sistemində sosial qrupun maraqları ilə uyğunlaşdırmalıdır. İstər qrupun, istərsə də fərdin şərhi birtərəfli, natamam və subyektivdir. Buna misal olaraq liberal və konservatorun azadlıq haqqında olan anlayışını göstərmək olar. Dərk edən insanın sosial qrupda vəziyyətinin özü ona belə düşüncə istiqaməti verir və o, yanlışlığı həqiqət kimi qəbul edir və səhvən onu həqiqət hesab edir (6, s. 424-440).

Bəziləri idelogiyanı yanlış şüur adlandırır. Əlbəttə, bu, məsələyə birtərəfli yanaşmadır. İdeologiyada həmişə reallaşma imkanı və şəraiti olmayan məqamlar olur. Lakin bu heç də ideologiyanın lazımsızlığını, uydurma olduğunu göstərmir. İdeologiyasız nə cəmiyyət, nə də dövlət olmur. Bir tərəfdən adət-ənənələr, digər tərəfdən dövlət, başqa bir tərəfdən müxtəlif partiyalar ideologiyasız keçinə bilməz. Bu isə cəmiyyətin sağlamlaşmasına xidmət edir. Lakin hər hansı bir partiyanın ideologiyası dövlətin konstitusiyasını əvəz etməməlidir. Çünki dövlət konstitusiya hüdudlarında fəaliyyət göstərir. Buna görə də dövlətin ideologiyası qanunların aliliyini gözləmək və onun əsasında fəaliyyət göstərməkdən ibarət olmalıdır.

K.Manheymin "istənilən ideologiya (xüsusən hakim sosial qrupun ideologiyası) yalandır", fikri ilə razılaşmaq olmaz. İdeologiyaların digər sferalara müdaxiləsinin qarşısını almaq və onların məhdudluğunu azaltmaq üçün sosial qruplara və ilk növbədə, siyasi elitaya "sosial texnologiyalar" - elmi cəhətdən əsaslandırılmış sosial-siyasi aksiyalar sistemini tətbiq etmək lazımdır. Bunu etməyə "sosial cəhətdən azad intellektuallar" qadirdirlər (7). Əlbəttə, burada söhbət siyasi ideologiyadan gedir.

K.Manheymin konsepsiyasında və eləcə də deideologiyalaşdırmanın digər nümayəndələrində bir çox doğru fikirlər vardır. Lakin onların ideoloji şüuru ictimai həyatın zəruri sferası kimi tam aradan qaldırmaq səyləri o qədər də inandırıcı görünmür. Bu fikir də doğrudur ki, cəmiyyətdə dərin dəyişikliklər ideoloji əsaslandırma olmadan mümkün deyildir. İdeologiyanın mövcudluğu (sinfi, dövlət, milli) bir reallıqdır ki, bununla hesablaşmamaq olmur. Əslində ideologiyanı ləğv etmək yox, ona onun üçün ayrılmış fəaliyyət sferasından kənara çıxmaması üçün şərait yaradılması lazımdır. Hakim elitanın və partiya rəhbərlərinin ideoloji fəaliyyətdə obyektivlik prinsipinə (həqiqətə), ədalətlilik və humanist prinsiplərə arxalanması olduqca vacibdir. İdeologiyanın belə vəziyyətinə ictimai həyatda sosial-qrup antoqonizmlərinin aradan qaldırılması, cəmiyytdə konsensus münasibətlərinin gücləndirilməsi yolu ilə nail olmaq mümkündür. Bir sıra ölkələrdə bu cür meyillərin mövcudluğu deideologiyalaşdırma konsepsiyasının artıq 1970-ci illərdən başlayaraq nə üçün ideoloji biliyi dəyişməyə can atan reideologiyalaşdırma konsepsiyası ilə əvəz edilməsi faktını izah edir.

Beləliklə, ideologiya fəlsəfə, elm və biliklə qarşılıqlı əlaqədə təşəkkül tapır, ona əsaslanmağa çalışır. Lakin onlar arasında əsas fərq birincilərin obyektiv biliyə, ideologiyanın isə subyektivliyə

əsaslanmasındadır. Bu mənada demək olar ki, ideologiya siyasətə qulluq edir, hər hansı bir rejimin, quruluşun əsaslarının möhkəmləndirilməsinə, onun legitimlik qazanmasına xidmət edir (8).

Açar sözlər: fəlsəfə, ideologiya, cəmiyyət, vətəndaş, dövlətçilik.

İstifadə olunmuş ədəbiyyat

1. Философский энциклопедический словарь. М., Инфра-М, 1999.
2.Мехтиев Р. Азербайджан: вызовы глобализации. Уроки прошлого, реалии настоящего и перспективы будущего. Баку, 2004.
3. Политическая социология. М., 1997.
4. Кара-Мурза С.Г. Идеология и мать ее наука. Издательский дом: ЭКСМО.2008.
5. Парсонс. Т. Система современных обществ. М., 1998.
6. Mannheim K. Ideologische und soziologische Interpretation der geistigen Gebilde. - In: Jahrbuch fur Soziologie. Bd 2. Karlsruhe, 1926.
7. http://society.polbu.ru/alekseev_philosophy/ch07_html
8. Мамедзаде И. Гражданское общество и национальная идеология. Баку, 1995.

Агасалим ГАСАНОВ

ФИЛОСОФИЯ И ИДЕОЛОГИЯ

Резюме

В отличие от философии, идеология находит большее выражение в интересах субъекта, взятых на социально-групповом уровне, нежели в объективном объяснении материальных систем. Для идеологов важно прежде всего выражение своего отношения к структурам, процессам, явлениям, раскрытие их значения для господствующей социальной группы. Идеология не носит отрицательного значения: без нее не может существовать ни общество, ни индивид.

Глубокие изменения в обществе невозможны без их идеологического обоснования. Существование идеологии - реальность и не признать это невозможно. На самом деле не следует ликвидировать идеологию, а создавать условия, чтобы она действовала в рамках отведенной ей сферы деятельности.

Ключевые слова: философия, идеология, общество, гражданин, государственность.

Aghasalim HASANOV

PHILOSOPHY AND IDEOLOGY

Summary

As distinct from philosophy, ideology expresses itself mostly in the interests of a subject taken on social and group level, than in the objective explanation of material systems. For ideologists more important is the expressing their attitude to the structures, processes, phenomena, disclosing their meaning for the leading social group. Ideology has no negative meaning: neither society, nor individium can exist without ideology.

The radical changes in a society are impossible without their ideological basing. Existing of ideology is a reality and no one can ignore it. Actually it is necessary not to abolish but to create the conditions for its funtioning within the frames of a sphere assigned for its activity.

Keywords: philosophy, ideology, society, citizen, statehood.

UOT 101

Faiq ƏLƏKBƏROV
AMEA FSHİ-nun b.e.i., fəlsəfə doktoru

MİLLƏT, MİLLİ İDEYA, MİLLİ İDEOLOGİYANIN MAHİYYƏTİ BARƏDƏ*

Günümüzdə «milli ideologiya» və bu terminə yaxın olan anlayışlarla – etnos, millət, xalq, milli mentalitet, milli ideya və b. ilə bağlı elmi, fəlsəfi-siyasi ədəbiyyatda konkret, dəqiqləşdirilmiş kateqorial təriflərə rast gəlmək mümkün deyil. Şübhəsiz, problemin öyrənilməsi «milli ideologiya» anlayışının tam açılması və həlli yolunda başlıca amillərdən biridir. Ümumiyyətlə, Azərbaycanın ictimai-siyasi və fəlsəfi fikrində milli ideologiya probleminin məzmununu açmaq üçün, ilk növbədə aşağıdakı anlayışların izahı verilməlidir: 1. Etnos, milliyyət, millət və xalq; 2. Milli mənəvi dəyər və milli mentalitet; 3. Milli özünüdərk və milli ideya; 4. İdeologiya və milli ideologiya.

Qeyd edək ki, orta əsrlərdə **İslam Şərqi** ölkələrində **«millət»** sözü dini mənada, ümumilikdə müsəlman əhalisinə, ya da hər hansı məzhəbə, təriqətə, eləcə də dini icmaya və cəmiyyətə aid olunmuşdur. Belə ki, «Ərəb və fars sözləri lüğəti» kitabında ərəb dilindəki «millət» sözünün üç izahı var: 1. Əhali, xalq; 2. Təriqət, məzhəb; 3. Dini icma və yaxud cəmiyyət [2, s.387]. **Avropada** isə «millət» termini çağdaş anlamda 1830-cu ildən sonra işlədilməyə başlanmışdır. Bu vaxta qədər Avropa ölkələrində «millət» yalnız cəmiyyətin yuxarı təbəqəsinə – aristokratlara, kübarlara, eləcə də sonralar tacir birliklərinə və tələbələrə aid edilmişdir. Yalnız XVII-XVIII əsrlərdə «millət» və «xalq» sözü müəyyən mənada bir-birindən fərqləndirilmiş, «millət» - əhalinin şüurlu və fəal hissəsini, «xalq» - isə siyasi və sosial baxımdan passiv, ətalətli kütləni ifadə etmişdir.

XIX əsrin ortalarında meydana çıxmış marksizm təliminin banilərinə – K.Marks və F.Engelsə görə, millət kapitalizmin məhsuludur və gələcəkdə-kommunizmdə öz yerini ictimailəşmiş bəşəriyyətə verəcək və beləliklə də tarix səhnəsindən silinəcəkdir. Eyni zamanda onların fikrincə, millət insanların tarixən əmələ gələn sabit birliyi olub, onun varlığı üçün ümumi bir ərazinin və dilin olması vacibdir. Marks və Engels qeyd edirdilər ki, «indiyə qədər mövcud olan bütün cəmiyyətlərin tarixi siniflər tarixi olmuşdur» [7, s.37]. Marksizmə görə, əvvəlcə qan qohumluğuna əsaslanan qəbilələr, sonralar məhsuldar qüvvələrin inkişafı nəticəsində qəbilələrdən tayfalar və tayfa ittifaqları yaranmışdır. Sinifli cəmiyyətin yaranmasıyla «dil qohumluğuna malik tayfalardan xalqlar əmələ gəlməyə başlayır. Lakin xalq hələ millət deyildir. Xalqlar dil və mənşə etibarilə bir-birinə yaxın olan və ərazi ümumiliyinə malik tayfaların birliydir» [1, s.6]. Marksizmin davamı kimi yaranan marksizm-leninizm cərəyanı da «millət»ə təxminən Marks və Engelsin mövqeyindən yanaşmışdır. Marksizm-leninizmə görə, millət – cəmiyyətin feodal dağınıqlığının aradan qaldırılması və kapitalist iqtisadi əlaqələri əsasında siyasi mərkəzləşmənin gücləndirilməsi dövründə yeni sosial tarixi hadisə kimi yaranmışdır. Bu təlimin əsas ideoloqlarından olan V.İ.Leninə görə, millətlərin əmələ gəlməsi uzun sürən tarixi bir proses olmuşdur ki, bu proses məhz feodalizmin dağıldığı, kapitalizmin yarandığı dövrdə baş vermişdir [6, s.159].

XX əsrdə marksizm-leninizm ideoloqlarının «etnos», «milliyyət», «millət», «xalq» və b. anlayışları ilə bağlı bəlli müddəalarına daha dolğun və tutarlı cavabı Azərbaycan ictimai-siyasi və fəlsəfi fikir tarixində ilk dəfə, **Azərbaycan-türk ideoloqu Məhəmməd Əmin Rəsulzadə** vermişdir. Ona görə, qədimdə «ümmət» ilə «millət» arasında fərq olmayıbsa, hazırda bu fərqi görmək və bu anlayışları bir-birindən fərqləndirmək lazımdır: O, dili millətin varlığının əsas amili kimi verir: «Dil milliyyətin hamısını təşkil etməsə də, yüzdə doxsanını vücuda gətirən böyük bir amildir. Bir milliyyəti məhv edib aradan götürmək qəsdində olan siyasilərdə əsl bunun üçündür ki, təmsil (assimilyasiyon) əməliyyatı icra edərkən ən birinci fikirlərini dilə verər və ən əvvəl bir millətin dilini yaddan çıxarmağa səy edərlər» [13, s.476]. Ona görə, milliyyəti və milləti yalnız dil deyil, soykök, mədəniyyət, adət və əxlaq, tarixi ənənələr və b. amillər də ifadə edir: «Milli mədəniyyət və yaxud millət dil birliyi, adət və əxlaq birliyi, ənənati-tarixiyyə və nəhayət, etiqadati-diniyyə birliklərinin məcmuyundan mütəşəkkil bir məhsuldur» [13, 468]. Sonralar Rəsulzadə Qərb alimləri Madzi və Durkheymin fikirlərini təhlil edərək millət və milliyyət anlayışlarını bir qədər də dəqiqləşdirir: «Millət anlamını ifadə üçün dilimizdə iki söz vardır: Milliyyət və Millət. Bunlardan birincisi

* Məqalə fəl.e.d., prof. Ə.Abasov tərəfindən çapa məsləhət bilinib.

lisani, dini, irqi, qövmi, tarixi, coğrafi, iqtisadi və siyasi amillərin təsiri ilə meydana gələn etnik bir topluluğu ifadə edir. İkincisi, isə bu topluluqdan doğan ümumi bir iradəni anladır» [12, s.17].

Qeyd edək ki, M.Ə.Rəsulzadə «millət», «milliyyət», «etnos», «dil», «din» və b. anlayışların tərifini verərkən ustadı saydığı, XIX əsrin böyük Azərbaycan-türk ziyalısı, filosofu **Şeyx Cəmaləddin Əfqani**yə dəfələrlə müraciət etmişdir. O yazır ki, qohumluq və yaxınlıq dairəsi genişlənəndə ailə vəhdəti aradan qalxır, onun yerinə çoxlu ailələrin və insanların cəmindən ibarət olan qəbilə vəhdəti meydana gəlir. Əfqani də millətin varlığında dil birliyini ən vacib amil saymışdır: «Əgər dil birliyi olmasa, milli vəhdətin həqiqi mahiyyəti və həyat gücü ola bilməz» [5, s.187]. Onun fikrincə, insanları bir-birinə bağlayan iki vacib şeydən biri dil birliyi (milli vəhdət) isə, digəri din birliyidir [5, s.187].

Çağdaş dövrdə etnos, millət və xalq anlayışlarının izahını və şərhini verən Azərbaycan tədqiqatçılarından – akad.Ramiz Mehdiyev, prof. Ağayar Şükürov, f.e.d. Zümrüd Quluzadə, prof. Əli Abasov, prof. Əbülhəsən Abbasov, prof. Əlikram Tağıyev, f.e.d. Yadigar Türkel və b. olmuşdur. Bu müəlliflərin həmin anlayışlarla bağlı mülahizələri, demək olar ki, bir-birindən ciddi şəkildə fərqlənmir. Akademik **R.Mehdiyevin** baş redaktorluğu ilə 2007-ci ildə nəşr olunan «Politologiya. İzahlı lüğət» kitabında «millət» anlayışı belə izah olunur: «Millət (lat. *natio* tayfa, xalq) – tarixən kapitalizmin meydana gəlməsi, feodal pərakəndəliyinin dəf edilməsi, təsərrüfat əlaqələrinin güclənməsi, ədəbi dil bazasında savadlılığın yayılması, milli mənlik şüurunun möhkəmlənməsi ilə səciyyələnən etnos tipi» [10, 205]. R.Mehdiyevə görə, millət vahid etnik kökdən olan toplum yox, müəyyən dövlətə öz dövləti kimi baxan insanlardır. Xalq isə hər hansı dövlətdə yaşayan əhalinin cəmidir. **A.Şükürova** görə isə, «millət» və «etnos» anlayışı barədə dəqiq tərif yoxdur. BMT-də «millət» və «xalq» anayışlarının sinonim kimi işləndiyini qeyd edən A.Şükürovun fikrincə, bu mənada «millət» müxtəlif insan birliklərini ifadə edir: «Millət termini digər şərhlərdə də mövcuddur. Bu şərhə görə xalq və yaxud millət etnosla identikdir. Bu terminin şərhinin müxtəlif olması onunla əlaqədardır ki, bir mənada millət vətəndaş siyasi, digər halda etniki (etnomədəni, etnodil) kateqoriya kimi nəzərdən keçirilir» [15, s.24]. **Ə.Tağıyev** isə etnosa bir neçə tərif verir: etnos – bir-birinə oxşayan insanların sabit birliyidir; eyni cür düşünən insanların birliydir; sosial kateqoriyadır; təbiətin övladıdır; mənşə ümumiliyinə əsaslanan kollektivdir; hər şeydən əvvəl müəyyən bir kökə və nəslə malik insan birliyidir [9, s.12]. «Millət» anlayışına gəlincə, Ə.Tağıyev yazır ki, etnos ittifaqının yüksək forması olmaq etibarilə millət – insanların sosial-iqtisadi və mənəvi ümumiliyi zəminində formalaşan müəyyən psixi və milli mənlik şüuru ünsürlərinə malik tarixi birlik formasıdır [9, s.18]. **Z.Quluzadə** isə yazır ki, etnos insanların ərazi, sosial-siyasi həyat, dil və mənəvi mədəniyyət birliyi əsasında formalaşan yığcam birliyidir: «Etnos tarixi kateqoriyadır. Tarixin gedişində mövcud etnosların bazasında, onların differensasiyası və inteqrasiyası prosesi nəticəsində etnoslar bir-birini əvəz etmişlər. Bu, cəmiyyətin etnogenetik inkişafının ümumi qanunauyğunluqlarından biridir» [18, s.12]. **Y.Türkelə** görə, millət – eyni şüurlu, adət-ənənəli, mədəniyyətli, ictimai psixologiyalı, ideologiyalı, həyat tərzli insanların siyasi birliyidir: «Bəzi alimlərə görə, millətin mahiyyətində etnik mənsubluq əsasdır. Millət bununla da xalqdan fərqlənir. Başqalarının fikrincə isə millət olmaq üçün «milli ruh, milli idrak, etirafi-milliyyə, şəxsiyyəti-milliyyə lazımdır». Tam düzgün açıqlamanın çətinliyindən onu çox vaxt **«Millət=xalq+dövlət»** formulu ilə ifadə etməyə çalışırlar» [16, s.315].

«Milliyyət», «etnos», «millət», xalq və b. anlayışlara yuxarıda verilən onlarla təriflər də göstərir ki, bu məsələlərlə bağlı elmi, fəlsəfi ədəbiyyatda birmənalı fikir yoxdur. Bu anlayışlar, o cümlədən «millət»lə bağlı elmi ədəbiyyatda 300-dən çox tərif mövcudur ki, bu da hər bir xalqın özünəməxsusluğu, dini-fəlsəfi dünyagörüşü, milli ideologiyası və s. ilə bağlıdır. Fikrimizcə, «milliyyət», yaxud «etnos» dedikdə dili, soykökü, adət və əxlaqı, məişət ümumiliyi və s. bir olan tayfalar başa düşülməlidir. Ümumiyyətlə, etnosun sinonimi milliyyətdir və burada başlıca sırf dil, kök, adət-əxlaq və yurd birliyidir. Ancaq bu mənada «milliyyət» və «etnos» siyasi-ideoloji əhəmiyyət kəsb etmir. Əgər bu baş verərsə – etnos siyasi-ideoloji mənada meydana çıxarsa, artıq «millət» anlayışı yaranır. Bu da, daha çox dövlətin yaranması ilə bağlıdır. Yəni «etnos» və «milliyyət»ə yeni məna verən dövlət olduğu üçün, burada konkret bir etnosun hakimiyyətindən söz açmaq artıq çətinləşir. Ən yaxşı halda konkret bir etnosun hakim üstünlüyündən söhbət gedə bilər, ancaq həmin dövlətin tərkibindəki bütün etnosları eyniləşdirmək, eyni bir soya, dilə, mədəniyyətə, dinə və s. malik olduğunu söyləmək isə qətiyyən mümkün deyil.Görünür, qədim dövrlərdə və orta əsrlərdə mövcud olmuş dövlətlərdə bu məsələlər bir o qədər vacib olmadığı üçün, indi Midiya, Atropatena, Albaniya və b. dövlətlərin etnik tərkibi və dili ilə bağlı kifayət qədər uyğunsuzluqlar meydana çıxmışdır. Etnik kimlik və dilin müəyyənləşməsində etnos və milliyyətə dar mənada, konkretlik baxımından yanaşmaq lazımdır. Etnos və milliyyətlə müqayisədə «millət» məfhumu daha geniş anlayışdır və dar çərçivə ilə məhdudlaşdırıla bilməz.

«Millət» tarixən müəyyən bir ərazidə yaşamağa məcbur olan, iqtisadi münasibətlərə malik, bir çox hallarda eyni bir dinə tapınan, zaman-zaman soyca, dilcə, mənəviyyatca qohumlaşan və s. həm birsoylu, birdilli tayfaların (məsələn, türksoylu, türkdilli), həm də fərqli soylu, fərqli dilli tayfaların (türksoylu-türkdilli, irandilli, qafqazdilli və b.) siyasi-ideoloji mənada birliyidir. Bu siyasi birliyin ən bariz nümunəsi dövlətin yaranmasıdır. Dövlətlərin, imperiyaların yaranması ilə, hakim və ya qeyri-hakim vəziyyətdə olmalarından asılı olmayaraq, eyni bir hakimiyyətin sərhədləri çərçivəsində yaşamağa məcbur olan (konkret Azərbaycan və İran dövlətlərinin timsalında), bəzən soykökü baxımdan türk olmayan tayfalar türkləşərək daha çox türklüyü, azərbaycanlılığı başqa halda isə soykökü fars olmayan tayfalar farslaşaraq farslığı, iranlılığı ifadə etmişlər. Doğrudur, hansı etnosun və etnosların (türkdilli, irandilli, qafqazdilli və b.) hakimiyyətdə olması, ümumilikdə həmin dövlətin ərazisində yaşayan, ancaq hakim etnosla bağlı olmayan tayfaların çox vaxt assimilyasiyası ilə nəticələnmişdir. Ancaq unutmaq olmaz ki, bu proses əsrlər boyu yalnız bir istiqamətdə baş verməmiş, qarşılıqlı şəkildə olmuşdur. Beləliklə, müxtəlif dövrlərdə soykök və dil baxımdan qohum və yad etnoslar bir-biri ilə qaynayıb-qarışmışdır ki, artıq «millət» anlayışı çərçivəsində farslaşmış türklərə, türkləşmiş farslara, almanlaşmış fransızlara, fransızlaşmış almanlara və b. rast gəlmək mümkündür. Bu baxımdan, tarixən, soykökü fars, kürd, ləzgi, talış və s. olmasına baxmayaraq, türkçülüyə, azərbaycançılığa xidmət edən ziyalılar, dövlət adamları, eləcə də soykökü türk olub farsçılığa, irançılığa xidmət edən tarixi şəxsiyyətlər, mütəfəkkirlər də olmuşdur. Bütün bunlara baxmayaraq əsrlər boyu «hakim millət», «əsas millət» anlayışı da öz yerini qoruyub saxlamışdır ki, bu da dövlətin özəyini təşkil edən əsas etnoslar və milliyyətlə bağlıdır. Deməli, «millət» anlayışı dövlətin yaranması ilə bağlı nə qədər siyasi-ideoloji məna daşısa da, ona yad olan tayfalarla bu və ya başqa dərəcədə qaynayıb-qarışsa da, o, özünün başlıca, qohum etnoslarından təşkil olunmasını heç vaxt inkar etməmişdir və edə də bilməz. Belə ki, «millət» anlayışı dövlətçilik baxımından nə qədər siyasi-ideoloji məna daşıyıb, bir-birinə qohum və qohum olmayan etnik qrupları özündə ehtiva etsə də, bir o qədər də onun yaranmasında və dövlət kimi meydana çıxmasında başlıca rol oynayan vahid etnos(lar) və milliyyətlə bağlıdır. Bir sözlə, heç vaxt inkar oluna bilməz ki, istər ən qədim dövrlərdə, istər erkən orta əsrlər və orta əsrlərdə hər hansı bir dövlət, imperiya yaranarkən əsasən, başlıca rolu bir etnos, yaxud da bir-birinə soykökcə qohum olan bir neçə etnos oynamış, hətta dövlət də etnosun-tayfanın adı yaxud da, etnosun başçısının adı ilə (osman-Osmanlılar, səlcuq-Səlcuqlar, ərəb-Ərəb Xilafəti, türk-Türkiyə, alman-Almaniya, fransız-Fransa, ingilis-İngiltərə və b.) adlanmışdır. Ancaq zaman-zaman həmin dövlətdə, imperiyada başlıca etnos və ona qohum olan etnoslarla yanaşı, qohum olmayan, yad etnoslar, tayfalar da mühüm rol oynamış, hətta dövlətin, imperiyanın hökmdarları ilə qohumlaşaraq, müəyyən mənada ona şərik olmağı bacarmışlar. Ancaq bütün hallarda, hakim etnos və etnoslar, həmin dövlətdə, imperiyada başlıca millət sayılmışdır və bu gün də belədir, başqa cür də ola bilməz. Azərbaycanda milliyyət, etnos baxımından türklər «əsas millət», «hakim millət»dir və siyasi-ideoloji mənada «azərbaycanlı» adlanan millətin 90 %-dən çoxunu təşkil edir.

Çağdaş dövrümüzdə «millət» anlayışını iki cür fərqləndirmək olar: 1. Millət – vahid əraziyə, tarixə, soykökə və dilə, mədəniyyətə, dini-fəlsəfi dünyagörüşə, adət-ənənələrə, əxlaqi dəyərlərə, həyat tərzinə, məişət həyatına, iqtisadi münasaibətlərə və s. əsaslanan etnosların siyasi-ideoloji birliyidir; 2. Millət – qarışıq və sinkretik mədəniyyətə, dini-fəlsəfi dünyagörüşə, bir-birinə yaxın adət-ənənələrə, bununla yanaşı vahid əraziyə, hətta bu ərazidə qədim dövrlərdə mövcud olmuş dövlətçilik ənənələrinə eyni şəkildə iddialı, ancaq soykökcə və dilcə bir-birinə yad olan, zaman-zaman qohumlaşan etnosların birinin müəyyən, yaxud da başlıca üstünlüyü (həmin etnoslardan birinin dilinin dövlətdə əsas dil olması, sayca çoxluğu, dövlət atributlarında təmsilçiliyi və s.) nəticəsində meydana çıxmış siyasi-ideoloji birlikdir. Deməli, birincini «monomillət» (tək bir etnos, tək bir millət, tək bir ideologiya), ikincini isə «polimillət», yaxud da «polietnos»lu millət (çünki burada «çoxmillətlilik» əsas deyil, tək bir millət, ancaq bir-birinə soykök və dil baxımdan fərqli etnosların birliyi əsasdır) adlandırmaq olar. Bəllidir ki, hazırda dünyanın çağdaş siyasəti, demokratik dəyərləri, qloballaşma, milli və dini dözümlülük və s. amillər üstünlüyü «polimillətə», daha doğrusu «polietnos»lu millətə verir.

«Xalq» «etnos», «milliyyət» və «millət» anlayışları ilə müqayisədə daha geniş anlayışdır. «Xalq» anlayışı bir tərəfdən «milliyyət»dən (etnos olmaqdan) «millət»ə (siyasi-ideoloji birliyə) keçiddirsə, başqa tərəfdən «milliyyət» (etnos) və «millət»i ümumi şəkildə ifadə edən bir termindir. Yəni kök, dil, mədəniyyət, adət və əxlaq və s. baxımından bir-birinə yad və doğmalığından asılı olmayaraq onların ümumiliyi «xalq» adlana bilər. Məsələn, «Azərbaycan xalqı» dedikdə, hazırda burada yaşayan, bu ölkənin vətəndaşı olan bütün etnik qruplar, millətlər (türk, rus, gürcü, fars, talış, tat, ləzgi, avar, kürd, ukraynalı, latış, litiş, belorus və b.) başa düşülür. Heç kim deyə bilməz ki, hazırda onlardan hər hansı biri Azərbaycan xalqının tərkibinə aid deyil. «Azərbaycan xalqı» termini çağdaş dövrün tələblərinə uyğun şəkildə for-

malaşıb, müəyyən status qazanana qədər Azərbaycanda yaşayan bütün etnik qrupların və millətlərin ümumiliyini ifadə etmək üçün, dini mənada «ümmət» - «müsəlman», «Qafqaz müsəlmanları», «islam milləti», etnik mənada «türk» - «türk dili», «türk milləti», «Qafqaz türkləri», «Azərbaycan türkləri» və s. anlayışlarından istifadə olunmuşdur.

«Millətləşmə» prosesində **milli mənəvi dəyərlər və yaxud milli mentalitet** də mühüm rol oynayır. Yəni eyni bir ərazidə yaşayan, eyni soykökə və dilə bağlı olan, iqtisadi həyat birliyinə malik müxtəlif etnoslar üçün mənəviyyat, özünməxsusluq da vacibdir. Xüsusilə qeyd etmək lazımdır ki, millətin var olma səbəblərindən biri kimi də məhz mənəviyyat birliyi, onun mənəvi siması, mənəvi dəyərləri, eləcə də yalnız bu insanalara məxsus keyfiyyətlər (mentallıq) göstərilir. **Y.Türkel** mentalitetlə bağlı yazır ki, «milli mentalitet millətin tarix boyu yaşadığı təbii şəraitin, uğurlu, ağrılı-acılı, mədəni, iqtisadi, sosial, dini, ruhi-mənəvi həyat proseslərinin təsirilə formalaşıb, onun davranış və fəaliyyətində görünür» [16, s.319]. Mentalitet anlayışını geniş şəkildə tədqiq edən **Həsən Quliyevin** fikrincə, onun arxetip ünsürləri geniş zaman diapazonunda dəyişməz qalır. Bu baxımdan «mentalitetin tərəqqiyə münasibətdə xüsusi immunitetə malik olduğunu, ənənəvi ictimai təsisatlara daxil olduğunu» görmək olar. H.Quliyevin qeydinə görə, indiki keçid dövründə baş verən yeniləşmə mentalitet anlamını ortaya qoydu. Belə ki, yeniləşmə həm də mentalitetliyi – yəni keçmişin xüsusiyyətlərini qorumağı, yaxud da bu günün tələblərini mentalitetin xüsusiyyətlərinə uyğunlaşması zərurətini doğurmuşdur [19, s.120].

Milli mənəvi dəyərlər və milli mentalitet əsasən bir-birlərinə yaxın anlayışlar-dır. Belə ki, hər iki halda millətin keçmişə aid irsi, dini-fəlsəfi, dünyagörüşü, özünəməxsus cəhətləri və s. öz əksini tapır. Sadəcə olaraq, milli mənəvi dəyərlər daha geniş məna daşıyır və millətin bütün tarixini, mədəniyyətini, fəlsəfəsini, ədəbiyyatını və s. özündə əks etdirir. Milli mentalitet isə daha çox insanların ictimai şüruundakı dünyagörüşün özünəməxsus, bir millətə malikliyi şəkildə ifadəsidir. Milli mənəvi dəyər(lər) dedikdə, ilk növbədə milli ideologiyanın yaranmasında mühüm rol oynamış milli sərvətlərimiz, mədəniyyətimiz, mənəviyyatımız, dilimiz, adət-ənənələrimiz, dini-fəlsəfi dünyagörüşümüz və s. başa düşülməlidir. Əslində burada başlıca, önəmli olana milli mənəviyyat, milli sərvətlər, milli özünəməxsusluq, yaxud da milli mentalitetdir. Bu mənada «milli mənəvi dəyər» anlayışındakı «dəyər» isə qiymətləndirmədən daha çox bir xalqa məxsus sərvəti, özünəməxsusluğu və s. ifadə edir.

Milli mənəvi dəyər dedikdə, Azərbaycan xalqına məxsus olan sərvətlərin, obrazların, adət-ənənələrin, mədəni irsin, dini-fəlsəfi baxışların və s. ideologiyalaşma prosesi nəticəsində bütövləşməsi, çulğalaşması və vahid xətt üzrə formalaşmasına zəmin hazırlanması nəzərdə tutulur. Burada irəli sürülən müddəa Azərbaycanda, Azərbaycan xalqı arasında milli ideologiya təşəkkül tapana qədər hər hansı bir ideyanın və yaxud ideyaların olmaması deyil, əksinə həmin dövrə qədər mövcud olan mədəni irsin, dini-fəlsəfi təsəvvürlərin, milli xüsusiyyətlərin və s. nə cür vahid şəkilə salınması, çulğalaşması, başqa sözlə ideologiyalaşmanın təzahürlərinin hansı mənəviyyat və milli sərvətlər nəticəsində meydana çıxması ilə bağlıdır. Bir sözlə, mənəvi dəyərlər millətin varlığını ortaya qoyan əsas faktorlardan biri olan mənəviyyatla sıx bağlı olub, insanın özünü, təmsil olunduğu etnik kimlik çərçivəsində təsdiqləməsidir. Milli mənəvi dəyərlərin yaradıcısı millətin ayrı-ayrı üzvləri olsa da, həmin üzvlərin mənəvi-ideoloji, əxlaqi ideyaları sonralar bütövlükdə cəmiyyətin ümumi sərvətinə çevrilmişdir. Azərbaycan xalqı da milli dilini, milli mentalitetini, milli xarakterini, inancını, dinini, adət-ənənələrini və s. məhz milli mənəvi dəyərlər şəklində qoruyub saxlamışdır.

Milli mentalitet milli mənəvi dəyərlərdən milli özünüdərkə bir keçiddir. Belə ki, bir xalqda milli mənəvi dəyərlər o vaxt milli özünəməxsusluq səviyyəsində meydana çıxır ki, həmin xalqda milli oyanışa, milli özünüdərkə ehtiyac yaranır. Yəni millət etnik kimliyinin, dilinin, mədəniyyətinin və s. assimilyasiya olunmasını sövq-təbii hiss edərək özünümüdafiəyə cəhd edir. Bu zaman milli mənəvi dəyərlər milli mentallıq formasında – etnik mənşəyi, dili, mədəniyyəti, dini ideologiyası, sosial həyatı, məişət münasibətləri və s. ilə bağlı keçmişini şüurunda canlandırıb, oyandırıb yalnız ona aid olan milli mənəvi dəyərlərlə, milli sərvətlərlə mübarizə aparma səviyyəsinə yüksəldir. Bu isə, istər-istəməz milli özünüdərkə, milli oyanışa səbəb olur. Ümumiyyətlə, mentallıq hər bir millətin özünəməxsus psixoloji, mədəni, dini və fəlsəfi həyat tərzidir. Bu mənada hər hansı bir millət özünü başqa xalqlardan fərqləndirmədən, yalnız onun keçmişinə məxsus olan milli xüsusiyyətləri müəyyənləşdirmədən milli istiqlal uğrunda mübarizə apara bilməz.

Şübhəsiz, milli mentalitetin üst səviyyəyə qalxması ilə milli özünüdərk prosesi başlayır. Bu mənada milli mentalitetə aid olan hər bir anlayış milli özünüdərk səviyyəsinə qalxıb milli ideyaya çevrilə bilməz. Yalnız o anlayışlar, milli mentalitet səviyyəsindən milli özünüdərkə, daha sonra milli ideyaya qədər yüksələ bilər ki, onun ciddi elmi, fəlsəfi, iqdisadi, siyasi və s. əsasları olsun. Çünki milli mentalitetdən

fərqli olaraq milli özünüdərk hər hansı bir etnik toplumun başqa millətlərdən fərqli özəlliklərini dərk edib, özünü bir millət kimi təsdiq etməsidir.

Bu mənada milli mənəvi dəyərlə milli mentalitet, milli mentalitetlə milli özünüdərk, eləcə də həmin anlayışların milli ideya arasında oxşar və fərqli cəhətləri bir-birindən ayırmaq lazımdır. Fikrimizcə, milli mənəvi dəyər də, milli ideya da xalqın soykökü, dili, dini və başqa vacib əlamətlərini əks etdirir. Hər bir xalq özünün milli varlığını qoruyub saxlamaq üçün bir çox sərvətlərini – dilini, dövlətçiliyini, dini-fəlsəfi dünyagörüşünü, mədəniyyətini və s. milli mənəvi dəyərlər, yaxud da milli mentalitet kimi yaddaşlarda yaşadır və nəsillərdən-nəsillərə ötürür. Ancaq elə milli mənəvi dəyərlər var ki, bu günə qədər qorunub saxlansa da, onları bu mənada milli ideya kimi qəbul etmək doğru olmazdı. Məsələn, yaşlı insanlara, ağsaqqallara hörmət, qadına - anaya münasibət, vicdanlılıq, toy və yas mərasimlərinə münasibət və s. kimi. Bütün bunlar daha çox, yuxarıda qeyd etdiyimiz milli mentalitet anlayışına aid ola bilər.

Milli özünüdərk və milli ideya məsələsinə gəlincə, bu anlayışlar da bir çox filosofların, politoloqların və b. araşdırma mövzusu olmuşdur. XVIII əsrdə Avropa alimləri başa düşürdülər ki, milli özünüdərk nəticəsində milli ideya yaranır və nəticədə «millət olma» baş verir. Milli ideya anlayışını ilk dəfə XVIII əsrdə Fransada A.Vasyxaunt işlətmişdir. Həmin dövrdə Fransada milli ideya dedikdə, milli təəssübkeşlik, millətçilik və s. başa düşülürdü. Ümumiyyətlə, XVIII-XIX əsrlərdə Fransada meydana çıxan milli ideya anlayışı, çağdaş anlamda «millət» anlayışının yaranması və inkişafında mühüm rol oynamışdır. Bu baxımdan tədqiqatçıların əksəriyyəti belə qənaətdədirlər ki, kapitalist münasibətlərinin yaranması ilə həm də milli ideya və onun nəticəsi olan millət təşəkkül tapmışdır.

Qeyd edək ki**, ideologiya** ideyalar, **milli ideologiya** isə milli ideyalar nəticəsində meydana çıxmışdır. Ayrı-ayrı obrazları, təsəvvürləri və s. ilk dəfə formulə edərək ideologiya adlandıran isə XVIII əsrin sonu – XIX əsrin əvvəllərində, fransız filosofu və iqtisadçısı A.Destyuq de Trasi olmuşdur. Trasi «İdeologiya elementləri» kitabında ilk dəfə «ideologiya» terminindən istifadə etmişdi. O, dünyanı qavramada və şüur hadisələrində etikanın, əxlaqın, siyasətin əsasını tapmağa, onların məntiqi və psixoloji izahını verməyə cəhd edirdi [15, s.232].

Almaniyada ideologiyanın inkişafında mühüm rol oynamış klassik alman filosofu Hegel isə ideya, ideologiya, mənəviyyat və b. məsələləri şərh etmiş, onların qarşılıqlı bağlılıqlarına toxunmuşdur. Hegelə görə, cəmiyyətdə, dövlətdə ideologiya önəmli yer tutur. Ümumiyyətlə, klassik alman filosofları ideologiyanı tarix və fəlsəfənin qovuşağında mövcud olan ideyalar sistemi kimi tədqiq edirdilər.

Marks və Engels əvvəlcə ideologiyanın «iqtisadi bazisə» malik gerçəkliyin obyektiv əksi olduğunu söyləmiş, daha sonra «sinfi», «materialist» mənada izah etmişlər. Onlara görə, ideologiya maddi zəminə söykənir və «müəyyən sinif və sosial qrupların yaratdıqları obyektiv gerçəkliyin təhrif olunmuş inikası olan sosial konsepsiyalar» ideologiyadır. «Alman ideologiyası» əsərində marksist filosoflar ideologiyaya cəmiyyətdə mütərəqqi və mürtəce ictimai qüvvələr arasında ideya-siyasi mübarizə forması kimi baxırdılar. Onlar «hakim» və «məhkum», «mütərəqqi» və «mürtəce» siniflərin ideoloqlarını fərqləndirirdilər [20].

Müstəqillik dövründə akad. **R.Mehdiyev** yazır ki, ideologiya baxış və ideyaların rasional şəkildə əsaslandırılması kimi meydana çıxır. Akademikə görə, tam dünyagörüşü kimi ideologiya sosial aləmin mənzərəsi, şəxsiyyətin obrazı və onun ictimai təzahürləri, eləcə də daha çox siyasət, siyasi dəyərlər və proseslərlə bağlıdır: «İdeologiya müəyyən sosial funksiyaları yerinə yetirərək, sosial qrupların və ictimai-siyasi cərəyanların maraqlarına uyğun gələn təfəkkür və davranış tərzi tipləri, yaxud hətta sosial fəaliyyət proqramı hazırlayır» [8, s. 29]. **«Politologiya. İzahlı lüğət»** kitabında «milli ideologiya» anlayışı millətin dövlət hakimiyyətində maraqlarını və dəyərlərini ifadə və müdafiə edən ideyalar sistemi kimi, milli siyasi hərəkatların mənəvi əsası kimi verilir: «Milli ideologiya özlərinin sosial statuslarının yüksəlməsini milli mənsubiyyətlə bağlayan vətəndaşların siyasi tələblərini ifadə edir. Xarici şəraitdən və əhalinin milli özünüdərkindən asılı olaraq siyasi qüvvələr millətin mədəni özünəməxsusluğunun qorunmasını, millətin həyati mənafelərinin təmin olunması naminə geosiyasi məkanı genişləndirməyi və ya öz ərazisini və milli suverenliyini xarici müdaxilələrdən qorumağı, «yerli millət» üçün imtiyazlar yaradılmasını tələb edə bilərlər» [10, s.207].

«Politologiya» dərsliyində (2008-ci il) isə yazılır ki, ideologiya bu və ya digər qrupun hakimiyyət iddialarına haqq qazandırmağa istiqamətlənmiş ideya və fikirlər məcmusu kimi ortaya çıxır [11, s. 223]. **«Fəlsəfi ensiklopedik lüğət»**də isə yazılır ki, «ideya» (yun. idea – anlayış, təsəvvür) – «məna», «əhəmiyyət» və «mahiyyəti» ifadə edən, təfəkkür və varlıq kateqoriyaları ilə sıx bağlı olan fəlsəfi termindir [3, s.170]. Həmin kitabda «ideologiya» anlayışı isə belə izah olunur: «İdeologiya – siyasi, hüquqi, əxlaqi, estetik, dini, fəlsəfi baxışlar və ideyalar sistemidir» [3, s.170].

Prof. **Y.Rüstəmova** görə, ideologiya siyasi prosesdə öz yerini partiyaların rəqabətinə verir: «Belə

halda, yüksək ideyanın cazibədarlığı deyil, hakimiyyətdə olan partiyanın konkret praktik məqsədlərini nə dərəcədə səmərəli həll etmə qabiliyyəti əsas yer tutur. Lakin bu o demək deyildir ki, ideologiya, ümumiyyətlə yox olur. İdeologiya siyasi, hüquqi, fəlsəfi, əxlaqi, dini, estetik ideya və görüşlər sistemi kimi qalır. Bu o deməkdir ki, ideologiyasız cəmiyyət mümkün deyil» [14, s.346-347]. A.Şükürov isə yazır ki, ideyalar mütərəqqi və mürtəce xarakter dayışa bilər. Milli ideya daha çox bir millətə məxsus olduğu halda, milli ideologiya geniş anlayışdır. Milli ideya millətə, ideologiya dövlətə xidmət göstərir. Milli ideya milli ideologiyaya çevriləndə həm millətə, həm də dövlətə xidmət edir: «Bundan əlavə milli ideologiya bir dövlətin ərazisində yaşayan çoxsaylı bir millət (çox vaxt ona hakim millət deyirlər) deyil, bütün millət, xalq, etnik qrup və başqa milli azlıqlara xidmət edir, yəni milliyyətindən, irqindən, dinindən, dilindən asılı olmayaraq həmin dövlətin bütün vətəndaşlarının mənafeyini müdafiə edir» [15, s.234]. Akad. Ə.Daşdəmirov milli ideyanın yaranmasında milli özünüdərkin rolunu göstərir: «Milli ideya etnosun məqsədinin və özünüdərkinin ən ideologiyalaşmış sahəsi kimi millətin ideya-mənəvi, ruhi həyatının spesifik fenomeni, ictimai-siyasi şəraitin etnikləşməsi amilidir» [21, s.4]. O yazır ki, ideya xüsusiyyətləri, münasibətləri sadəcə olaraq, onların mövcud varlığında əks etdirmir, həm də onlardakı inkişaf meyllərinin zəruriliyini ifadə edir. Y.Türkelə görə isə, milli ideya – milli özünütəsdiq məqsədilə yaradılmış milli-mənəvi dəyərlər sistemidir. Bir yandan əhalinin uzun tarixi varlıq tək keçdiyi yolu, sosial-siyasi birlik kimi özünüdərkini, o biri yandan millətin varlığını, maraqlarını, iqtisadi, siyasi, mədəni inkişaf yönünü göstərir» [16, s.316].

Ə. Abbasov hesab edir ki, «ideologiya» dedikdə, burada ilk növbədə və başlıca olaraq dövlətin ideologiyasını, «milli ideologiya»nı nəzərdə tutmaq lazımdır. Belə ki, bu ideologiya yalnız ayrı-ayrı qrup və təbəqələrin, icma və birliklərin maraqlarını deyil, dövlətin ərazisində yaşayan bütün sosial, etnik, dini qrup və birliklərin mənafeyini ifadə edir. Onu «milli dövlətçilik ideologiyası» da adlandırmaq olar» [17, s. 28]. Onun fikrincə, milli ideologiya problemi araşdırılarkən milli mənəvi dəyərlər və çağdaş dövrün tələbləri arasında uzlaşdırma olmalı, ancaq milli maraqlar burada üstün mövqe tutmalıdır. Milli ideologiya ruhun sönməsini deyil, onun alovlanmasını tələb edir. Yalnız bu halda milli ideologiyanın əsasını təşkil edən milli maraqların gerçəkləşməsi mümkündür. Ə.Tağıyevin fikrincə, ideologiyanın hərtərəfli öyrənilməsi üçün birinci növbədə milli etnik ideyalar öyrənilməlidir [17, s. 21]. İdeologiya siyasi münasibətlərin bir vasitəsidir, milli ideologiya da bir sıra hallarda milli siyasətin aparıcısına çevrilə bilər: «Çox zaman «milli» sözü «dövlət» mənasını verir: milli ideologiya, yaxud dövlət ideologiyası» [17, s. 24]. İdeologiyanı mənəvi və sosial hadisə kimi qiymətləndirən D.İsmayılova görə, ideologiyanı şərh edərkən, ilk növbədə ideoloji (nəzəri-idrak) və sosial meyarlar nəzərə alınmalıdır. Onun fikrincə, ideologiyalar idraki baxımdan elmi və qeyri-elmi, həqiqi və yanlış, doğru və illüziyalı növlərə ayrılır. Sosial istiqamətləri və funksiyaları baxımdan isə, ideologiya mütərəqqi və konservativ, inqilabi və təkamülçü, liberal və radikal, millətçi və beynəlmiləlçi, habelə sinfi, milli və irqi, dini və dünyəvi, rasional və irrasional, universal və partikulyar və b. növlərə ayrılır [4, s.77-78].

Hər bir milli mənəvi dəyərin, milli mentalitetin milli ideyaya çevrilməsi məsələsində onun miqyası, əhəmiyyəti və xalqın bütün təbəqələri tərəfindən qəbul edilib-edilməməsi mühüm rol oynayır. Eyni zamanda o mənəvi dəyərlər, anlayışlar milli ideya, sonrakı mərhələdə milli ideologiyaya kimi qəbul edilə bilər ki, onların yalnız milli mənəvi mənada deyil, həm də elmi, fəlsəfi, siyasi və ideoloji baxımından da əsası olsun. Milli ideya konkret bir millətə aid anlayış kimi yaranır və həmin millətin oyanışı və inkişafı üçün istiqamətverici yol rolunu oynayır. Milli mənəvi dəyərlərdən, milli sərvətlərdən millətin tərəqqisi, milli kimliyi və ləyaqətinin müdafiəsi, milli dövlətini yaşatması və s. üçün istifadə olunarsa, onda onlar milli ideyaya çevrilə bilər.

Milli ideologiya dedikdə isə, xalqın fəlsəfi, dini, siyasi, mədəni, iqtisadi və s. görüşlərinin nəticəsində meydana çıxan, məzmun və formasına, mahiyyət və təzahürünə görə təşəkkül taparaq, siyasi-ideoloji mənada millətin formalaşmasına yardım edən təsəvvürlərin, obrazların, mənəvi dəyərlərin, özünməxsusluqların bütövlüyüdür. Müstəqillik əldə edərək azad şəkildə yaşayan bir dövlətdə «milli ideologiya» anlayışını isə iki mənada başa düşmək olar: 1. Dövlətin, hakimiyyətin maraqlarını özündə əks etdirən, siyasi-ideoloji yönlü milli ideologiya; 2. Heç bir direktiv-məmur, hakimiyyət göstərişi olmadan millətin özünün tapındığı və inandığı mənəvi-ideoloji ideyalar.

Bunun örnəyi, birinci halda vətəndaşlar istəyərəkdən və yaxud istəməyərəkdən, məcburi şəkildə bir çox mühüm məsələlərə (məs., millətin dövlətçilik, tarix, etnogenez, dil, mədəniyyət, fəlsəfə, din və s.) münasibətdə milli mənafeyi, dövlətin maraqlarını nəzərə almalı, bir sözlə hakim və vahid konsepsiyadan kənara çıxmamalıdır. Bu halda (sovet dövründə olduğu kimi) bir millətin tarixinə, etnogenezinə, dilinə, həmin xalqın formalaşmasına, fəlsəfəsinə və s. münasibət bütün dairələrdə, o cümlədən elm sahələrində (tarix, fəlsəfə, siyasət, ədəbiyyat, dilçilik, etnoqrafiya və s.) birmənalı olur. Şübhəsiz, burada hakimiyyətin,

bir partiyanın müəyyənləşdirdiyi direktiv-məmur göstərişləri – siyasi-ideoloji ideyalar həlledici rol oynadığı üçün həmin millətin tarixi, etnogenezi, dili, onun formalaşması və s. məsələlərdə obyektiv şəkildə öz əksini tapa bilməz. Bu baxımdan müstəqil dövlətdə milli ideologiyanın yuxarıdan müəyyənləşdirilməsi, adətən birmənalı qarşılanmır, bu, demokratiyaya, insan hüquq və azadlıqlarına və s. zidd olaraq verilir. Demokratik dövlətlərdə hakim qüvvələr yalnız ölkənin birbaşa mənafeyinə toxunan, onun gələcək taleyi, dövlət təhlükəsizliyi üçün təhlükəli olan və s. vacib məsələlər baxımından milli maraqların ifadəçisi kimi çıxış edərək, yerdə qalan məsələlərdə, özəlliklə elmi mübahisə doğuran məsələlərə (tarix, ədəbiyyat, etnogenez, dil, mədəniyyət, fəlsəfə, din və s.) müdaxilə etmirlər.

İkinci halda isə milli ideologiya millətin ziyalıları, alimləri və b. tərəfindən mənəvi-ideoloji ideyalar əsasında müəyyənləşdirilir. Bu halda millətin öz içindən qaynaqlanan, milli mənəvi dəyərlərinə söykənən, əsasən siyasi maraqlara əsaslanmayan və milli vicdanının öhdəsinə buraxılan mənəvi-ideoloji ideyalar həlledici rol oynayır. Bu zaman millətin maraqlarını ifadə etmək baxımından müraciət olunan vacib, o cümlədən elmi cəhətdən mübahisə doğuran məsələlərə – Azərbaycan elminin bəzi sahələrindəki tarix (qədim dövlətlərlə çağdaş dövlətin hüquqi və mənəvi bağlılığı, etnogenez, dil və xalqın formalaşması məsələləri), fəlsəfə (xalqın qədim dövr fəlsəfi dünyagörüşü ilə bugünkü dünyagörüşü arasında hansı bağlılıqların olması), ədəbiyyat (qədim dövr ədəbiyyatı ilə çağdaş ədəbiyyatın varisliyi), dilçilik (xalqın qədim dövr, orta əsr və çağdaş dövrlərdəki dil bağlılığı), mədəniyyət (xalqın qədim dövr mədəniyyəti və həmin mədəniyyətin çağdaş dövr mədəniyyəti ilə bağlılığı), din (qədim dinlərə sahiblik və bugünkü dini-fəlsəfi düynagörüşlərə uyğunluq) və s. problemlərə münasibətdə «vahid konsepsiya» yuxarının, hakimiyyətin göstərişləri əsasında deyil, mənəvi-ideoloji ideyalar əsasında müəyyənləşdirilir.

Fikrimizcə, bu gün Azərbaycan elmində ikinci məsələ daha aktual xarakter daşıyır və «milli ideologiya»nın qeyd etdiyimiz məzmunda başa düşülməsinə ehtiyac var. Yalnız bu halda, Azərbaycan xalqının etnogenezi, dili, bu xalqın formalaşması, «Azərbaycan» sözünün izahı, dini-fəlsəfi düynagörüşmüz və s. məsələlərlə bağlı Azərbaycan elmində, xüsusilə humanitar və ictimai elmlərdə mövcud olan ziddiyyətlər, anlaşılmazlıqlar aradan qaldırıla bilər. Bir sözlə, Azərbaycan ziyalıları, alimləri elmin bəzi sahələrində mövcud olan problemlərin həlli üçün, həmin problemlərin Azərbaycan xalqının milli maraqları ilə birbaşa bağlılığını nəzərə almaqla, öncə mənəvi-ideoloji ideyalardan çıxış etməli və sovet dövrünün məhsulu olan, yalnız «direktiv-məmur göstərişləri» əsasında milli məsələlərə yanaşmaqdan kənar qaçmalıdırlar. Əgər bu gün ictimai və humanitar elmlər üzərində dövlət nəzarəti yoxdursa, bu o demək deyil ki, millətin maraqları müxtəlif nəşrlərdə bir-birinə zidd şəkildə öz əksini tapmalıdır. Bu mənada tədqiqatçılar ictimai və humanitar elmlər üzərində dövlət nəzarəti olmadığı bir şəraitdən sui-istifadə etməməli, mənəvi-ideoloji ideyalar əsasında tədqiqatlar aparmalı və mənəvi-ideoloji mənada vahid konsepsiyadan çıxış etməlidirlər.

Açar sözlər: millət, milli ideya, milli ideologiya, etnos, milliyyət, xalq, mentalitet, milli mənəvi dəyər.

İstifadə olunmuş ədəbiyyat

1. Ağamirov M. Birinci rus inqilabi illərində Azərbaycan ictimai fikrində milli məsələyə dair. Bakı, «Azərb. SSR EA-nın nəşriyyatı», 1963, 120 s.
2. Ərəb və fars sözləri lüğəti. Bakı, «Azərbaycan SSR EA nəşriyyatı», 1967, 1036 s.
3. Fəlsəfə ensiklopedik lüğət. «Azərbaycan Ensiklopediyası». B., 1997, 520 s.
4. İsmayılov D. Azərbaycanın transformasiyası şəraitində ideologiyalar: konservatizm, liberalizm, sosial-demokratiya. Bakı, «Adiloğlu», 2005, 343 s.
5. Qurbanov Ş. Cəmaləddin Əfqani və türk dünyası. Bakı, «Azərnəşr», 1997, 220 s.
6. Lenin V.İ. Əsərləri. I cild (1893-1894). Bakı, ADN, 1973, 692 səh.
7. Marks K., Engels F. Kommunist Partiyasının manifesti. Bakı, 1960.
8. Mehdiyev R.Ə. XXI əsrdə milli dövlətçilik. Bakı, «XXI YNE», 2003, 248 s.
9. Müasir qlobal siyasi proseslər və milli dövlət ideyası (kitabın redaktoru və müəlliflər heyətinin rəhbəri prof. Ə.Tağıyevdir). Bakı, «Səda», 2006, 287 s.
10. Politologiya. İzahlı lüğət. Bakı, «Şərq-Qərb», 2007, 352 s.
11. Politologiya (ali məktəblər üçün dərslik). Bakı-2008, «MBM», 294 s.
12. Resulzade M.E. Milli tesanüd. Ankara, «Kardeş matbaası», 1978, 143 s.

13. Rəsulzadə M.Ə. Əsərləri (1909-1914). II cild, Bakı, «Şirvannəşr», 2001, 528 s.
14. Rüstəmov Y.İ. Fəlsəfənin əsasları. B., «Azərbaycan Universiteti», 2004, 409 s.
15. Şükürov A. Etnos, millət və millətçilik. Bakı: «Təknur», 2008, 254 s.
16. Türkel Y. «Politologiya». Bakı, «Təknur», 2008, 478 s.
17. Ümummilli Lider Heydər Əlirzaoğlu Əliyevin irsi və milli ideologiyanın formalaşması məsələləri (2010-cu il mayın 5-də keçirilmiş Ümumrespublika elmi-nəzəri konfransının materialları). Bakı, «Elm və təhsil», 2010, 424 s.
18. История Азербайджанской философии, Т.1, Баку, Элм, 2002, 360 с.
19. Кулиев Г. Научная стратегия малых стран (Поиски Азербайджанской модели). Баку, «Сяда». 2007, 152 с.
20. Маркс К., Энгельс Ф. Сочинение. Т.3. Москва, «Наука», 1975, 410 с.
21. Дашдамиров А. Национальная идея и этничность (Азербайджанская идея в этнокультурном интерьере). М., ЦИМО, 1996, 54 с.

Фаик АЛЕКПЕРОВ

СУЩНОСТЬ НАЦИИ, НАЦИОНАЛЬНОЙ ИДЕИ И НАЦИОНАЛЬНОЙ ИДЕОЛОГИИ

Резюме

В статье подробно рассматриваются вопросы сущности нации, национальной идеи и национальной идеологии. В ходе работы автор ссылается на мнение известных ученых и исследователей. Он подчеркивает, что национальная идеология формируется на основе нравственно-идеологических идей ученых и интеллигенции. Единая концепция национальной идеологии должна быть выработана с учетом национальной и государственной интересов.

Ключевые слова: нация, национальная идея, национальная идеология, этнос, национальность, народ, менталитет, нравственно-национальные ценности.

Faik ALEKPEROV

ON THE ESSENCE OF NATION, NATIONAL IDEA AND NATIONAL IDEOLOGY

Summary

In the article the issues of essence of nation, national idea and national ideology are widely considered. In the course of the work the author refers to the opinions of the famous scientists and researchers. He underlines that national ideology is being formed on the basis of morals and ideological ideas of the scientists and intelligentsia. The unite conception of national ideology should be worked out with account of national and state interests.

Keywords: nation, national idea, national ideology, ethnos, nationality, people, mentality, moral-national values.

UOT 101

Rövşən HACIYEV
AMEA FSHİ-nin e.i., fəlsəfə üzrə fəlsəfə doktoru

AZƏRBAYCAN XALQININ MİLLİ ŞÜURUNUN FORMALAŞMASINDA MİLLİ İDENTİKLƏŞMƏNİN ROLU*

Milli özünüdərk müəyyən mənada şəxsin öz milli mənsubiyyəti haqqında düşünməsini, öz milliyyətini tanımasını və daxil olduğu ictimai birliyi digər analoji sosiomədəni sistemlərdən fərqləndirə bilməsi istəyini nəzərdə tutur. Əksər mütəxəssislər milli özünüdərki və milli identikləşməni bir-birini nəzərdə tutan, bir-birilə sıx şəkildə bağlı olan anlayışlar kimi qəbul edirlər (6, s.107). Bu baxımdan milli özünüdərkin əsasında milli identikləşmə dayanır (identikləşmə termini latın sözündən əmələ gəlib kiminsə və ya nəyinsə konkret bir predmetə uyğunluğunun müəyyən edilməsini bildirir ifadəsini işlətmək mümkündür (4, s.374). Milli identikləşmə dedikdə istənilən şəxsin özünü bu və ya digər millətin üzvü, nümayəndəsi kimi qəbul etməsi istəyi (və ya seçimi) başa düşülür. Bu baxımdan milli identikləşməni etnik identikləşmədən fərqləndirmək lazımdır. Sonuncu anlayışın birincidən əsas fərqi ondadır ki, burada insanın şəxsi seçimi əhəmiyyətli rol oynamır. İnsan dünyaya gələn gündən müəyyən etnosun daşıyıcısına çevrilmiş olur. Milli identikləşməyə dair araşdırmalar göstərir ki, tədqiqatçılar əksər hallarda "milli identikləşmə" anlayışını "etnik identikləşmə" ilə eyniləşdirirlər. Məsələn, tədqiqatçı N.Xaritonovanın məqaləsində bu tipli anlaşılmazlıq özünü büruzə verir (13, s.2). Yəqin bu səbəbdəndir ki, öz tədqiqatlarında "etnos" və "millət" anlayışlarının müəyyən edilməsinə böyük yer ayıran akademik V.Tişkov dünya elm təcrübəsinə və müasir siyasi ədəbiyyata əsaslanaraq, "millət" terminindən etnik anlayış kimi istifadə olunmasını tənqid etmiş və belə praktikadan əl çəkməyin vaxtının çatdığını bildirmişdir (8).

Yuxarıdakı fikirlər onu göstərir ki, araşdırdığımız bəzi mühüm anlayışların məzmununa bir daha nəzər yetirilməsi məqsədəuyğun olardı. Adı çəkilən müəllif hesab edir ki, "etnos", "xalq" və "millət" anlayışlarının məzmununu bir-birindən keyfiyyətcə fərqləndirmək lazımdır. "Etnos" anlayışının məzmunu ilk növbədə tarixən müəyyən coğrafi ərazidə formalaşaraq eyni bir dilin daşıyıcıları kimi müəyyən davranış stereotiplərindən, ortaq adət və ənənələrdən irəli gələn insan birliklərini nəzərdə tutur. Müəllifə görə, "xalq" və "millət" anlayışları əvvəlkindən fərqli olaraq müəyyən bir siyasi qurumun, yəni konkret dövlətin ərazi hüdudlarında məskunlaşan və ortaq mədəniyyətə malik olan (dil, din, adət-ənənə və s.) insan birliklərini (buraya müxtəlif etnoslar daxil ola bilir) ifadə edir. Deməli, etnos dedikdə siyasi komponentin (yəni dövlətin) olmadığı sosiomədəni sistem başa düşülür. Eyni zamanda müəllif hesab edir ki, xalq və millət anlayışlarını da bir-birindən keyfiyyətli dərəcədə fərqləndirmək mümkündür. Əgər «xalq» dedikdə müəyyən bir dövlətin ərazisində yaşayan (və bir çox hallarda müxtəlif etnoslardan təşkil olunan) və ortaq mədəniyyəti bölüşdürən əhali başa düşülürsə, "millət" anlayışı ilk növbədə vətəndaş cəmiyyətinin və hüquqi dövlətin bərqərar olduğu məkana, başqa sözlə desək, azad seçim edən və sərbəst söz bildirən, yəni bütün vətəndaşlarının müstəqil davranışını, hüquq və azadlıqlarını nəzərdə tutan ictimai-siyasi mühitə şamil edilir. Belə demək mümkünsə, avtoritar cəmiyyətdə xalq formalaşa bilər, millət isə yox! Bu baxımdan heç də təsadüfi deyil ki, əksər mütəxəssislər haqlı olaraq millətin formalaşması prosesini XVII əsrdən etibarən kapitalist münasibətlərinin meydana gəldiyi Qərbi Avropa dövlətləri ilə əlaqələndirirlər. Başlayan bu proses yalnız XIX əsrin ikinci yarısında Avropa məkanında ilk milli dövlətlərin meydana gəlməsi ilə nəticələnmişdir, yəni xalqın tədricən millətə çevrilməsi mümkün olmuşdur. Bu barədə daha ətraflı məlumat almaq üçün görkəmli filosof Y.Habermasın məqaləsindəki 4-cü paraqrafa nəzər yetirmək məqsədəuyğun olardı (11, s.194-200). "Milli ruhla bağlı olan xalqdan milli vətəndaşlığa doğru" adlı həmin paraqrafdan aydınlaşır ki, alman alimləri hələ XIX əsrin ortalarında "xalq nəyə deyilir?" sualına cavablar axtarmışlar. Yuxarıdakı fikirləri nəzərə alan müəllif hesab edir ki, hələ qədim Yunanıstanda və Roma İmperiyasında artıq "vətəndaş" anlayışı mövcud olsa da, bu cəmiyyətlərin eyni zamanda qullardan təşkil olunduğunu nəzərə alaraq həmin dövlətlərin əhalisi ilə bağlı "yunan xalqı" və ya "Roma xalqı" ifadəsini işlətmək düzgün olardı. Həmin səbəbdən vaxtilə "sovet xalqı" ifadəsinin işlədilməsi praktikası da şübhəsiz ki, düzgün olmuşdur (yeri gəlmişkən, Sovet dövründə nəşr edilən fəlsəfi lüğətdə "xalq" anlayışı məhz

* Məqalə fəl.e.d.,prof. Ə.Tağıyev tərəfindən çapa məsləhət bilinib.

müəllifin dediyi mənada başa düşülür), (9, s.298), çünki kommunist rejimi dövründə vətəndaş cəmiyyəti və hüquqi dövlət deyilən bir şey mövcud deyildi.

İndi isə "millət" anlayışının müəyyən edilməsi ilə bağlı irəli sürülən fikirlərin təhlilinə çalışaq. Yuxarıda adını qeyd etdiyimiz akademik lüğətdən məlum olur ki, millət dedikdə *müəyyən ərazi* daxilində ümumi *iqtisadi əlaqələrin, ədəbi dilin, özünəməxsus mədəniyyətin və mənəvi mühitin* formalaşması prosesində meydana gələn tarixən yaranmış sabit insan birliyi başa düşülür" (4, s.608). Eyni mövqeni S.E.Krapivenskinin nəşr etdirdiyi dərslikdə də aşkar edirik (6, s.106). Ensiklopedik tərifdən və digər definisiyalardan aydın olur ki, "millət" anlayışının müəyyən edilməsi xeyli çətin məsələ olub özündə müəyyən çatışmazlıqların yer alması ilə səciyyələnir. Konkret olaraq, yuxarıdakı tərifdə millət anlayışının formalaşması işində həlledici əhəmiyyət kəsb edən vətəndaşlıq əlamətinin *yer almaması* faktı diqqət çəkir. Halbuki bu və analoji təriflərdə özünə yer tapan əlamətlər millət anlayışının müəyyən edilməsində o qədər də həlledici rol oynaya bilmir. Konkret olaraq dil amilinə diqqət yetirək. Əlbəttə ki, millətin formalaşmasında ümumi dilin mövcudluğu vacib şərtdir, lakin yetərli deyildir. Məsələn, vahid İsveçrə milləti vardır. Lakin hamıya yaxşı məlumdur ki, İsveçrədə bir-birindən fərqlənən dörd dil qrupu mövcuddur: alman-isveçrəlilər (ümumi əhalinin 65%-i), fransız-isveçrəlilər (18.4%), italyan- isveçrəlilər (9.8%), retormanlar (0.8%). Ərazi məsələsinə gəldikdə isə, məlumdur ki, dünyada bir çox etnoslar müxtəlif dövlətlərdə yaşayırlar. Lakin bu hələ o demək deyil ki, həmin etnoslar eyni bir xalqın və ya millətin daşıyıcıları deyildirlər. Bu mövqeni təsdiq edən nümunə isə, iki yüz ilə yaxın fərqli dövlətlərdə yaşayan Azərbaycan xalqıdır. Eyni sözləri koreyalılara və daha neçə belə etnoslara (məsələn, Avstriyada yaşayan almanlar eyni bir millətin daşıyıcılarıdır) şamil etmək mümkündür.

Daha bir xüsusiyyət ümumi iqtisadi əlaqələrlə bağlıdır. Bu əlamətin qabardılması, şübhəsiz ki, marksizm ideologiyasından qaynaqlanır və əsasında istehsal münasibətlərinin dayandığı iqtisadi bazisdən irəli gəlir. Lakin Avropa Birliyinin timsalında bu əlamət də "millət" anlayışının formalaşdırılması işində öz həlledici əhəmiyyətini itirmiş olur. Çünki Avropa İttifaqında vahid iqtisadi əlaqələr sistemi bərqərar olsa da (vahid valyuta, yəni yevro məkanı), bu birliyə daxil olan dövlətlər fərqli millətlərdən və xalqlardan təşkil olunmuşdur. Sonuncu əlamət isə vahid mədəni dəyərlər, mənəvi yaxınlıq amilləri ilə bağlıdır. Lakin etiraf edək ki, etnosun və xalqın formalaşması da özündə eyni amilləri ehtiva edir. Beləliklə, konkret təhlillər əsasında bir daha əmin olduq ki, milli şüurun formalaşmasında məhz vətəndaş cəmiyyətinin və onunla bilavasitə bağlı olan hüquqi dövlətin mövcudluğu vacib şərt kimi ortaya çıxır. Məhz bu səbəbdən amerikalılar fərqli etnoslardan təşkil olunsalar da, vahid millət kimi çıxış etməyə tam əsasları vardır. Eyni sözləri fransızlara, almanlara və Qərbi Avropanın bir sıra qabaqcıl xalqlarına şamil etmək mümkündür. Deməli, millət anlayışını sözün əsl mənasında yalnız vətəndaş cəmiyyətinin və hüquqi dövlətin tam şəkildə bərqərar olduğu sosiomədəni sistemlərə şamil etmək düzgün olardı. Yəqin ki, məhz bu şərtlər daxilində xalq millətə çevrilə bilər.

Yuxarıda apardığımız mühakimələrindən belə qənaətə gəlmək mümkündür ki, etnik identikləşmə yalnız etnosun özünü tanıması, özünü dərk etməsi üçün vacib şərtdirsə, bundan fərqli olaraq xalq və millətin özünüdərki milli identikləşmə əsasında müəyyənləşən bir məsələdir. Bir daha bəzi mühüm anlayışlarla bağlı müəllifin mövqeyini dəqiqləşdirək. "Etnos" və "milliyyət" anlayışları insan qruplarının vahid dilə, mədəniyyətə, adət və ənənələrə, mentalitetə, psixologiyaya və digər ortaq dəyərlərə sahib olmalarını bildirsə də, siyasi aspektdən bir-birindən fərqli məvhumlardır. Yalnız dövləti olan etnoslara özünəməxsusluq keyfiyyətini əks etdirən "milli" və dil mənsubiyyətini bildirən "milliyyət" anlayışlarını şamil etmək düzgün olardı. Məhz milli özünüdərk və milli identikləşmə əsasında hər bir xalq və ya millət ümumi maraq və məqsədini, milli ideyasını və ideologiyasını, digər siyasi toplumlar içərisində öz yerini müəyyən edə bilər. Digər tərəfdən, xalqın və millətin formalaşması yalnız obyektiv deyil, həm də subyektiv amillərdən asılıdır. Çünki hər bir siyasi toplum identikləşmə aktında digərlərinə qarşı "onlar", özlərinə qarşı isə "biz" anlayışlarından istifadə edir, yəni subyektiv meyarlardan çıxış edir. Bu baxımdan tanınmış politoloq S.Hantinqton hesab edir ki, milli maraqların formalaşması milli identikləşmədən keçir. Onun fikrincə, milli maraqların müəyyənləşdirilməsindən öncə "bizim kimliyimiz" məsələsi öz həllini tapmalıdır (12, s.29-35). Eyni zamanda tədqiqatçı A.M.Bulanov haqlı olaraq hesab edir ki, milli identikləşmə milli özünəməxsusluğun, milli xarakterin dərki problemidir (5).

"Populizmin milli aspekti siyasi mübarizə metodu kimi" dessertasiya işinin birinci fəslinin ikinci paraqrafında "millət" və "milli özünüdərk" anlayışlarının məzmununa toxunan N.A.Baranov haqlı olaraq bildirir ki, millət ilk növbədə hüquqi dövlət quruculuğunu nəzərdə tutur ki, burada söhbət sadəcə adətlərdən və ənənələrdən deyil, dövlət hüququndan və sistemləşdirilmiş mənəviyyatdan (bu ifadədə sistem halına düşmüş və yüksək səviyyədə inkişaf etmiş mədəniyyət başa düşülür) gedir (3). O, qeyd edir ki, etnos

daxilində insanlar arasındakı münasibətlər adətlər və ənənələr vasitəsilə qurulduğu halda, millət daxilində bu proses dövləti-hüquqi normalar əsasında tənzimlənir. Baranov bildirir ki, əgər etnos insan tərəfindən müəyyən edilmirsə, onun istəyi ilə seçilmirsə millətin üzvü olması qərarı məhz şəxsi seçim əsasında verilir. Daha sonra milli özünüdərk məsələsinə toxunan tədqiqatçı göstərir ki, bu prosesdə ictimai fikrin inkişaf səviyyəsi mühüm əhəmiyyət daşıyır. Onun fikrincə, milli özünüdərk amili həm də milli qürur hissinin formalaşması prosesinə bilavasitə təsir göstərir.

Milli özünüdərkin baş tutması, şübhəsiz ki, xalqın ziyalı təbəqəsinin formalaşmasından bilavasitə asılıdır. Yuxarıdakı mühakimələrimizdə göstərdik ki, milli özünüdərk prosesində mənəvi mədəniyyətin, yəni milli ruhun formalaşdırılması əsas şərtlərdən biri kimi çıxış edir. Bu amili bütün mütəxəssislər birmənalı şəkildə qeyd edirlər. Məlumdur ki, mənəvi mədəniyyətin, milli ruhun daşıyıcıları kimi ilk növbədə ziyalı təbəqəsi çıxış edir. Bu səbəbdən tam əsasla demək olar ki, milli özünüdərkin baş tutmasında ziyalıların böyük və yəqin ki, həlledici rolu vardır. Öz ziyalı təbəqəsini və inkişaf etmiş mənəvi mədəniyyətini formalaşdıra bilməyən etnoslar bir qayda olaraq öz milli maraqlarının dərk edilməsində və onların ifadə olunmasında aciz qalırlar. Aydın məsələdir ki, yüksək mənəvi mədəniyyətin, milli ruhun formalaşdırılmasında təhsilin böyük rolu vardır və bu prosesin cəmiyyətdə geniş yer alması yenə də ziyalıların üzərinə düşür. Təsadüfi deyil ki, Avropada milli dövlətlərin yaranmasından öncə ziyalılar tərəfindən maarifçilik ideyalarının yayılması, xalq kütlələrinin maaripləndirilməsi işi mühüm rol oynamışdır. Eyni mənzərini biz Rusiyanın və daha aydın şəkildə Azərbaycanın milli şüurunun inkişafı proseslərində aşkar edə bilərik. Deməli, milli özünüdərkin baş tutması yalnız ziyalı təbəqəsinin mövcud olması ilə məhdudlaşmayıb, əhəmiyyətli dərəcədə savadsızlığın aradan qaldırılması işindən də asılıdır. Bütün bu məsələlər Azərbaycanda milli şüurun oyanışı prosesində özünü qabarıq şəkildə büruzə vermişdir. Beləliklə, milli özünüdərk, milli identikləşmə və digər mühüm anlayışların məzmununa müəyyən aydınlıq gətirdikdən sonra bir qədər Azərbaycan xalqının milli özünüdərki və milli identikləşməsi proseslərinə nəzər yetirək.

Bir sıra aparıcı tədqiqatçıların fikirlərindən aydın olur ki, Azərbaycan xalqının identikləşməsi və milli şüurunun formalaşması prosesi yaxın iki yüz il ərzində müəyyən inkişaf mərhələlərini keçmiş və əsas etibarilə XIX əsrin birinci yarısında Şimali Azərbaycanın Çar Rusiyası tərəfindən işğal edilməsindən sonra mümkün olmuşdur. Tədqiqatçı Y.-M.Auxun məqaləsindən aydın olur ki, XIX əsrin birinci yarısında Rusiyanın təsir dairəsinə düşən Azərbaycanda yerli ziyalılar (bəzi bəylər, yazıçılar, şairlər və b.) Avropa mədəni irsinin müəyyən dəyərlərini qavramağa çalışsalar da, identikləşmə prosesini ilk növbədə müsəlmançılıq ideologiyası üzərində qurmağa səy göstərmişlər (1, s.51). Daha sonra Aux bildirir ki, XIX əsrin ikinci yarısında Rusiya İmperiyasında başlayan modernləşmə prosesləri onun ucqar ərazilərinin ictimai həyatına da öz təsirini göstərməyə bilməzdi. Bu dövrdə artıq yerli ziyalılarla yanaşı Rusiyada təhsil almış savadlı insanların da aktiv iştirakı sayəsində Azərbaycan xalqının milli dəyərlərə (ilk növbədə İslam dünyasının bir hissəsi kimi, daha sonra türkdilli etnos kimi) əsaslanan identikləşməsi prosesi baş qaldırdı. Bu dövrdə milli identikləşmə istiqamətində Azərbaycan ziyalıları çətin seçim qarşısında qalmışdılar. Birincisi, müsəlmançılıq meyillərinin cəmiyyətdə daha da təsbit etdirilməsi (faktiki olaraq köhnə həyat tərzinin yeni əsaslarda daha da gücləndirilməsi); ikincisi, işğalçı dövlətin mədəniyyətini qəbul etməklə əcnəbi dəyərlərə əsaslanan modernləşmə yoluna qədəm qoyulması (yəni, faktiki olaraq milli dəyərlərin assimilyasiyaya uğradılması); nəhayət, üçüncüsü, identikləşmə yolunda milli ənənələrə əsaslanan yeni ideologiyanın qəbul edilməsi. Azərbaycan ziyalılarının əksəriyyəti üçüncü yolu seçdilər və milli özünüdərk prosesində etnik dəyərləri əks etdirən türkçülük və ya osmançılıq ideologiyasının tədricən ictimai mühütdə yer almasına səy göstərdilər. Bu işdə ziyalılar tərəfindən maarifçilik fəaliyyətinin böyük səylə aparılması həlledici əhəmiyyətə malik oldu. Azərbaycanda H.Zərdabinin "Əkinçi" qəzetinin başladığı maarifpərvər işi sonralar "Ziya", "Ziya Kafkaz", "Kəşkül", "Şərqi-Rus", "Hümmət" və digər yerli qəzetlər müvəffəqiyyətlə davam etdirə bildilər. İ.Hüseynovanın hesablamalarına əsasən 1875-ci ildən 1917-ci ilə qədər Azərbaycanda nəşr edilən rusdilli və yerli çap məhsullarında 360-a yaxın azərbaycanlı ziyalılar ölkənin iqtisadi-siyasi və sosial-mədəni həyatı ilə bağlı öz məqalələri ilə çıxış etmişlər (1, s.59). Həmin çap məhsullarında A.Bakıxanovun, M.F.Axundovun, M.Ş.Vazehin və digər tanınmış maarifçilərimizin əsərləri də nəşr edilmişdir. Qəzetlərin istehsalında və ümumən Azərbaycan xalqının maariflənməsi işində H.Z.Tağıyev kimi xeyriyyəçilərin də böyük xidməti olmuşdur.

Həmin dövrdə Azərbaycanda cərəyan edən milli identikləşmə proseslərinə və onların inkişaf dinamikasına oxşar mövqedən yanaşan (yəni E-M.Auxun mövqeyindən) professor R.Bədəlov öz məqaləsində bildirir ki, 1860-cı ildən etibarən Rusiya İmperiyasında gedən modernləşmə prosesləri müsəlman bölgələrində milli özünüdərk axtarışlarının baş qaldırmasına böyük təkan verdi (2, s.268-269).

Bədəlovun bildirdiyinə görə, başlayan identikləşmə prosesləri ziyalı təbəqəsinin maarifçilik fəaliyyətində milli dilin, Qafkaz türklərinin etnoniminin, toponiminin, xalqın tarixinin, onun siyasi gələcəyinin müəyyən edilməsi məsələlərinin çözülməsi işini daha da aktuallaşdırdı. Bədəlovun göstərdiyi kimi, milli identiklik axtarışları əvvəlcə Qafkaz türklərinin ümumi müsəlman dünyasından, sonra isə türk dünyasından fərqliliyi məsələlərinə aydınlıq gətirilməsi cəhdlərinə imkan yaratdı. Bu, əlbəttə ki, elə də asan məsələ deyildi. Çünki müəllifin bildirdiyi kimi, savadsız yerli camaat faktiki olaraq özünü müsəlman dünyasının üzvü kimi identikləşdirir, ziyalıların fəaliyyətini anlamır və əksər hallarda bu işdən xəbərsiz olurdu. Bu kimi problemlərdən öz narahatlığını gizlətməyən böyük ictimai xadim M.Ə.Rəsulzadə millət anlayışının dini çalarlardan təmizlənməsi işində öz fədakar xidmətini əsirgəmirdi. Bədəlov hesab edir ki, Azərbaycanda sovet hakimiyyətinin qurulmasına qədər milli identikləşmə prosesləri hələ də özünün başlanğıc mərhələsindən kənara çıxa bilməmişdi. Xalqın milli identikliyi yolunda proqram xarakteri daşıyan məşhur ideoloji triada (türkçülük, islamçılıq və çağdaşlıq) məhz bu dövrdə irəli sürülsə də, Azərbaycan cəmiyyəti onun praktiki şəkildə həyata keçirilməsindən hələ xeyli uzaq idi. Bu səpgili məsələlərin çözümünə həsr edilmiş xüsusi məqaləsində amerikalı şərqşünas T.Sventoxovski bildirir ki, yalnız 1917-ci ildə Rusiyada baş verən inqilabi proseslər dövründə Rəsulzadə və onun rəhbərlik etdiyi "Musavat" partiyası ümumi türkçülük məfkurəsi ilə yanaşı lokal azərbaycançılıq ideyasının identikləşdirilməsinə cəhd göstərmişlər (7, s.25-26). Həmin əsərində Sventexovski göstərir ki, millət anlayışının formalaşması və azərbaycançılıq ideologiyasının ortaya çıxması proseslərində yerli türk dilinin əsas şərt kimi irəli sürülməsi mühüm əhəmiyyət daşımışdır və bu işdə görkəmli ziyalı F.Köçərlinin olduqca böyük xidmətləri olmuşdur.

D.Furman və Ə.Abasov haqlı olaraq bildirirlər ki, o dövrdə milli identikləşmənin və özünüdərkin təşəkkül tapması prosesi eyni zamanda milli müstəqillik ideyasının baş qaldırması demək idi. Bu prosesin ən ali nöqtəsi isə Şərqdə ilk dəfə olaraq milli dövlətin − Demokratik Azərbaycan Respublikasının qurulması olmuşdur (10, s.120).

Sovet dövlətinin süqutundan sonra müstəqilliyini qazanmış Azərbaycan Respublikasında milli identikləşmə proseslərinin baş qaldırması özünün yeni inkişaf mərhələsini yaşamaqdadır. Hesab edirik hazırda Azərbaycan xalqı milli identikləşmə prosesinin tam şəkildə başa çatması və bunun da nəticəsində vahid bir millət kimi formalaşması istiqamətində öz fəaliyyətini davam etdirməkdədir. Bu yol isə, şübhəsiz ki, vətəndaş cəmiyyətinin və hüquqi dövlətin bərqərar olması proseslərindən bilavasitə asılıdır.

Açar sözlər: milli identikləşmə, etnik identikləşmə, «etnos», «xalq» və «millət» anlayışı, siyasi komponent, sosiomədəni sistem.

İstifadə olunmuş ədəbiyyat

1. Аух Е-М. Между приспособлением и самоутверждением. Ранний этап поисков национальной идентичности в среде мусульманской интеллигенции и возникновение нового общества на юго-восточном Кавказе (1875-1905) //Азербайджан и Россия: общества и государства /Отв. ред. и сост. Д. Е. Фурман/. М., Летний сад, 2001.

2. Бадалов Р. Баку: город и страна // Азербайджан и Россия: общества и государства /Отв. ред. и сост. Д. Е. Фурман/. М., Летний сад, 2001.

3. Баранов Н.А. Национальные аспекты популизма как метода политической борьбы. Диссертация на соиск. ученой степ. канд. полит. наук. Санкт-Петербург, 1998 //щттп://ниъбар.народ.ру/диссер2.щтм

4. Большой толковый словарь русского языка. СПб., Норинт, 2003.

5. Буланов А.М. Русская идея и проблемы национальной идентификации //щттп://www.злев.ру/ъонт2.щтм

6. Крапивенский С.Э. Социальная философия (учебник для высш. учеб. завед.). Волгоград, Комитет по печати, 1996, 352с.

Коміческое, такім образом, можно дефініровать как особый від філософского познанія і преобразованія действітельності, характерізующійся соответствующім воспріятіем явленій і событій, в его не только узко-эстетіческом, но общечеловеческом контексте, когда суть дела ісчерпывается не целью, а осуществленіем, і не результат есть действітельное целое, а результат вместе с парадоксальностью своего становленія. Посредством подобного осмысленія весь мір предстает в органіческом єдінстве і целостності. Філософія прі этом оперірует обратнымі понятіямі, ібо прівнесеніе в любое состояніе ілі действіе его протівоположності (парадоксальності) позволяет кваліфіціровать его іменно «процессом», а не «протеканіем» ілі «наблюдаемой відімостью». В данном случае, как ні в каком другом, к коміческому пріменіма сістема М.Бахтіна - «інтертекстуальності», где явленіе представляет собой не вещь (узко-эстетіческую категорію), а пространство со множеством ізмереній і перспектів, в котором органічно сходятся і дополняют друг друга понятія этікі, эстетікі, культуры, обычаі, нравы, ментальность і т.д.

Очевідно, что коміческое делает общество более совершенным, а індівіда – более высокоразвітым. Вместе с тем, уменіе смеяться і шутіть является полезным не только на общеміровоззренческом, но і элементарном, медіко-біологіческом уповне. Исстарі досуговый характер обрядов позволял людям отвлечься от каждодневных трудов, дать отдых как рассудку, так і телу. Важнейшім із механізмов празднічной релаксаціі являлся смех. Арабскій пісатель-юморіст Абу Осман аль-Джахіз отмечал в предісловіі к своей кніге анекдотов: “Смех есть первое благо, которое ощущает ребенок, благодаря смеху он чувствует себя хорошо. Смех способствует накопленію жіра і увеліченію колічества крові, которая і составляет істочнік его сілы і радості...” [12,288].

Сама прірода напомінает о себе тем, что превращает его в своеобразный буфер от ударов судьбы. И с этой точкі зренія, коміческое обладает ярко выраженным целітельным эффектом. По А.Кестлеру, "коміческое - область творческой деятельності, где на высоком уровне складывающійся стімул вызывает ответную реакцію на уровне фізіологіческіх рефлексов" [13,97]; імеется в віду как бы основаніе, матеріальный субстрат, который делает коміческое столь целесообразным. Смех – іспытанное средство не только от фізіческіх, но і душевных крізісов. Лучшего лекарства от всякого рода стрессов, хандры і депрессій не прідумаешь. Г.Лессінг подчерківал, что комедія не может вылечіть болезнь, но она укрепіт еще здоровый організм. А И.Кант в кніге «Крітіка чістого разума» отмечал, что «смех дает ощущеніе здоровья, актівізіруя все жізненно важные процессы, прі этом достігается гармонія душі і тела» [14,В,353]. Известно, что Г.Спенсер і Э.Дарвін вообще объяснялі коміческое только лішь налічіем в человеке фізіологіческіх механізмов, сопряженных с реакціей смеха. Тенденція к біологізаціі коміческого, ісключенію із него соціального содержанія і ідейного смысла была характерна і для И.Тэна.

З.Фрейд, ізучая коміческое, отмечал, что остроуміе і юмор - унікальные проявленія человеческой псіхікі, а шутка - эффектівное средство леченія. Смех очіщает от дупных мыслей і способствует пподленію жізні. «Как установлено наукой, - отмечал З.Паперный (разумеется, не без долі остроумія – авт.), - наш організм непрерывно стареет, за ісключеніем двух случаев: когда человек спіт і когда он смеется. И наоборот, особенно інтенсівно человек старітся, когда он: сердітся, ревнует, заседает, разумеется, еслі на заседаніі он не смеется і не спіт» [8,6]. Исследованіем сложных біохіміческіх і нейрологіческіх процессов, ізвестных под названіем "смех", занімается отдельная отрасль наукі: гелотологія (от лат. "гелотос" - "смех"). Віднымі представітелямі в этой області сталі в середіне 60-х годов XX века Л.Бёрк і У.Фрей. По іх мненію, медіко-біологіческая ценность коміческого, смеха, с точкі зренія выжіванія, состоіт, коротко говоря,

в том, чтобы доставіть человеку шанс прожіть жізнь с максімально возможной прі данных обстоятельствах эффектівностью.

Не случайно то, что смех с успехом пріменяется в леченіі, а также прі оказаніі псіхологіческой помощі тяжело ілі неізлечімо больным людям. «Смехотерапія» уже давно практікуется в западных клініках, во многіх городах существуют «смехосемінары» і «группы смеха», сеансы «смехомедітаціі» предлагают і центры нетрадіціонной медіціны. Спеціалісты отмечают, что веселый настрой расслабляет человека і способствует піщевапенію. Смех счітается бесплатным лекарством от астмы, мігрені, болей в спіне і некоторых сексуальных расстройств, благотворно действует на кожу, укрепляет сердце, стімулірует сон. Счітается также, что смех, ко всему прочему, является однім із факторов долголетія, шведскіе врачі постаралісь доказать это в кніге "Пять дополнітельных лет жізні, еслі сохраніте улыбку". И подобная функція заложена в фізіобіологіческіх основах коміческого - смех стімулірует выделеніе організмом эндорфінов, которые обладают спеціфіческімі наркотіческімі свойствамі, прітупляющімі ощущенія фізіческой і духовной болі.

Осмысленіе вышепріведенных особенностей коміческого, как художественного, эстетіческого, культурологіческого, філософского і медіко-біологіческого феномена, пріводіт нас к поніманію завісімості между разлічнымі сторонамі бытія, как бы далеко друг от друга оні ні отстоялі. Такім образом, коміческое как междісціплінарный феномен, пронізывающій все сферы жізні, пріобретает універсальный характер. Подобное положеніе делает его однім із ценных свідетельств трансформаціі человечества, важным явленіем, способствующім поніманію общественных процессов настоящего і ценностно-регулятівным фактором, очерчівающім контуры будущего. С этой точкі зренія, можно сказать, что вся наша жізнь, с ее, зачастую, непостіжімымі пападоксамі, катаклізмамі і конфліктамі, является не только объектом коміческого, но і естественной спедой его ппоісхожденія і пазвітія; данная целостность заставляет нас воспрінімать коміческое не как застывшую данность, но постоянно трансформірующійся процесс, открытый для все новых ісследованій.

Ключевые слова: коміческое, смех, эстетіка, культурологія, філософія, іронія, сарказм, трансформація, оздоровленіе, дісціпліна.

Спісок іспользованной літературы

1. Ліповецкій Ж. Эра пустоты. Эссе о современном індівідуалізме. М., Владімір Даль, 2001.
2. Шеллінг Ф. Філософія іскусства. М., Мысль, 1966.
3. Finkelstein S. Composer and nation. The folk heritage of music. N.-Y., 1960.
4. Apropos Jusautor. Sofia, 1988.
5. Борев Ю. Эстетіка. М., Издательство політіческой літературы, 1988.
6. Дземідок Б. О коміческом. М., 1974.
7. Эко У. Имя Розы. М., 1989.
8. Паперный З. А музыка іграет так весело. М., Советскій пісатель, 1990.
9. Белінскій В. Полн.соб.соч. М., 1953-1956.
10. Mir Cəlal. Cəlil Məmmədquluzadənin realizmi haqqında. B., ADU, 1976.
11. Мехтіева Д. Эстетіческая актівность как фактор саморазвітія культуры. Діссертація на соісканіе ученой степені доктора філософскіх наук. Б., 1999.
12. Аль-Джахіз. Кніга о скупых. М., Наука, 1965.
13. Koestler A. Association and dissociation play - its role in development and evolution. N.-Y., 1976.
14. Кант И. Сочіненія в 6-ті тт. М., 1966.

Ceyla İBRAHİMOVA

KOMİKLİYİN FƏNLƏRARASI XÜSUSİYYƏTLƏRİ ONUN TRANSENDENTALLIĞININ AMİLİ KİMİ

Xülasə

Məqalədə komiklik müxtəlif fənlərdə təqdim olunur, onun hər sahədə mövcudluğu və hərtərəfli əhəmiyyətə malik olması sayəsində onun bir sahədən digər sahələrə keçid mexanizmi müəyyən olunur. Burada komikliyin mürəkkəb və çoxşaxəli fenomen olaraq əsas aspektləri – bədii, estetik, kulturoloji, fəlsəfi və tibbi-bioloji aspektlərindən bəhs edilir.

Məqalənin müəllifi bu münasibətlərin spesifik xarakterini aydınlaşdırmaq üçün komikliyin dərk və əks edilməsinin müvafiq xüsusiyyətlərini aydınlaşdırmağa çalışmışdır. Yalnız yuxarıda göstərilən bütün fənlərarası tərkib hissələrinin öyrənilməsi nəticəsində komikliyi universal mədəniyyət fenomeni kimi tanımaq mümkündür.

Açar sözlər: komiklik, gülüş, estetika, kulturologiya, fəlsəfə, istehza, sarkazm, transformasiya, sağaltma, fənlər.

Jeyla IBRAGIMOVA

INTERDISCIPLINARY FEATURES OF THE COMIC AS A FACTOR OF ITS TRANSCENDENTALITY

Summary

In the article the comic is presented in the various disciplines, owing to its omnipresence and universality. The mechanism of the comic transition from one plane of the reality other ones is considered. The basic aspects of the comic as complex, multiplane phenomenon are presented as follows: art, aesthetic, cultural science, philosophical, medical and biologic. The author has tried to make out specific character of the given correlations, having characterized the corresponding features of reflection and perception of the comic phenomena. Only by consideration of all listed above interdisciplinary components it is possible to recognize such a phenomenon of culture like as the comic, as universal.

Keywords: comic, laughter, aesthetics, cultural science, philosophy, irony, sarcasm, transformation, healing, disciplines.

UOT 091

Afaq MƏMMƏDOVA
AMEA FSHİ-nin b. e.i.,.fəlsəfə doktoru

ROMANTİZMİN SOSİO-MƏDƏNİ UNİVERSAL CƏRƏYAN KİMİ FƏLSƏFİ SƏPGİDƏ TƏDQİQİNİN AKTUALLIĞINA DAİR MÜLAHİZƏLƏR*

XXI əsrin başlanğıcında müasir fəlsəfi vəziyyətin özünəməxsusluğu yeni fəlsəfənin özündən əvvəlki fəlsəfi-mədəni irsə münasibətinin dərk edilməsilə səciyyələnir. XX əsr klassik Avropa fəlsəfəsində rasionallığın klassik idealları ilə yanaşı Maarifçilik fəlsəfəsinin fundamental əsasları da böhrana uğramışdır. Belə bir şəraitdə, neoklassik Avropa fəlsəfəsinin fundamental əsaslarını ilk olaraq açıqlayan və müəyyən qədər gerçəkləşdirməyə nail olan Romantizm cərəyanının universal sosio-mədəni cərəyan olmaq etibarilə müasir qlobal mədəni məkanda və fəlsəfi fikir tarixində mühüm mərhələ kimi tədqiqinə cəhd etmək tamamilə təbiidir və xüsusi aktuallıq kəsb edir, eləcə də, özünün dəyərləndirilməsinə haqq qazandırır.

XVIII əsrin ortalarından etibarən qlobal mədəni məkanda universal fenomen kimi Romantizm son iki yüzillikdə mənəvi mədəniyyətin müxtəlif sahələrində aparıcı mədəni-tarixi hərəkatlardan biri kimi çıxış etmişdir. Beləliklə, sosio-mədəni universal cərəyan kimi Romantizmin fəlsəfi səpgidə tədqiqini aktuallaşdıran amilləri aşağıdakı mülahizələrlə ümumiləşdirmək olar.

Əvvəla, dünya ictimai-fəlsəfi fikrinin inkişafında varislik prinsipinin tələblərinə əməl edilməsi zərurəti baxımından Romantizm cərəyanının ictimai-fəlsəfi fikir tarixində rolunun və, nəhayət, Romantizmin dünya ictimai-fəlsəfi və bədii fikrinin sonrakı inkişafına təsirinin öyrənilməsi xüsusi önəm kəsb edir.

Digər tərəfdən, Romantizm cərəyanının tədqiqi onun mövcud olduğu qlobal mədəni məkanda ölkənin ictimai-mədəni həyatında milli intibahın ayrılmaz tərkib hissəsi kimi ideoloji səpgidə təsir istiqaməti və gücü, siyasi həyata təsiri, görkəmli nümayəndələrini yetişdirən mənəvi zəmin, o zamankı gerçəkliyin doğurduğu problemlərə onların adekvat, yaxud qeyri- adekvat münasibəti öyrənilmədiyindən xüsusi aktuallıq kəsb edir.

Tədqiqatın aktuallığı yalnız "daxili fəlsəfi" situasiya ilə deyil, həmçinin ictimai həyatda baş verən dərin ideoloji və praktiki xarakterli proseslərlə şərtlənir. Müasir cəmiyyətlərdə ictimai quruluşun rasional, nizamlanmış perspektivlərinə müəyyən inamsızlıq, sosial optimizmin yoxluğu və rasional səviyyədə əsaslandırılmış ictimai ideallara qarşı laqeydliyin mövcudluğu aydın şəkildə nəzərə çarpır. Bütün öncəki humanist dəyərlərin yüksək qiymətləndirilməsi proqramı artıq faktiki olaraq həyata keçmiş praktika kimi çıxış edir. Hazırda cəmiyyətin rasional əsaslar üzərində radikal surətdə yenidən təşkilinin əvvəllər əsaslandırılmış variantları, o cümlədən maarifçilik, marksist və pozitivist-siyentik baxışlar utopik istiqamətlər kimi artıq «öz vaxtını» keçirmişdir. Bu reallıq isə, romantik dünyagörüşün canlanması, və o cümlədən romantik utopiyaların müxtəlif variantlarda bərpası üçün əlverişli şərait və zəmin yaradır [7, s.67].

Fəlsəfi fikir tarixində Maarifçilikdən sonrakı mərhələ kimi səciyyələnən Romantizm öz mövcudluğu ərzində cəmiyyətin mənəvi həyatının bir çox sferalarına - bədii ədəbiyyata, fəlsəfəyə, musiqiyə, təsviri sənətə, teatra və habelə sosiologiya, tarixşünaslıq, tibb, təbiətşünaslıq və digər elm sahələrinə təsir etmişdir. O, gerçəkliyi bədii obrazlarla, rasional və irrasional mənimsəyən fəlsəfi, təbii, elmi, sosial, siyasi, estetik, etik biliklərlə birbaşa bağlı olmuşdur. Lakin istər Azərbaycan, istərsə də postsovet məkanında Romantizm ictimai inkişafın müəyyən mərhələsində çoxistiqamətli fikir cərəyanı, qanunauyğun proses kimi öyrənilməmiş, mənəvi mədəniyyətin bir çox sahələrində ənənələrinin üzərindən sükutla keçilmişdir.

Qeyd etmək lazımdır ki, əksər tədqiqatçılar Romantizmin sosio-mədəni hərəkat kimi inkişafını yalnız Qərbə müncər etmişdilər. Şərqdə Romantizmin görkəmli nümayəndələrinin dünyagörüşü fəlsəfi araşdırmanın tədqiqat obyektindən kənarda qalmışdır [1, s.211].

---

* Məqalə fəl.e.d. A.Hacıyeva tərəfindən çapa məsləhət bilinib.

Müxtəlif ölkələrdə təzahür edən Romantizm yerli həyat və düşüncə tərzini, dünyanın qavranılması və mənimsənilməsi üsullarını, xalqın tarixi inkişaf yollarını, adət və ənənələrini, milli mənşəyini, dil və mədəniyyətini özündə əks etdirməklə spesifiklik kəsb etmişdir. XIX əsrin ikinci yarısında formalaşan Şərq romantizminin bir qədər əvvəl yaranmış Avropa romantizmindən fərqini də, fikrimizcə, bu yöndə axtarmaq vacibdir. Gerçəklik və onun inikası paralelini apararaq aydın görmək mümkündür ki, Şərq romantizmi göstərdiyimiz dövrdəki Şərq gerçəkliyinin zəruri tələbləri, xalqın düşdüyü ağır müstəmləkə vəziyyətindən çıxış yollarının axtarılması zərurəti və milli mənlik şüurunun təşəkkülünün nəticəsi olaraq yaranmışdır. Lakin həm Qərbdə, həm də Şərqdə Romantizm cərəyanı Maarifçilik cərəyanı ilə bağlı olan ümidlərin puç olmasına reaksiya kimi meydana gəlmişdir. Gözlədikləri nəticəni gerçəklikdə görə bilməyən filosof və ədiblər cəmiyyətin dəyişdirilməsinin yeni yollarını axtarmağa başlayırlar. Bu baxımdan harada yaranmasından asılı olmayaraq Romantizm bütöv və tam bir cərəyandır. Xırda çalarlardan, bir sıra ziddiyyətli məqamlardan sərfnəzər etsək, söyləyə bilərik ki, Romantizm cərəyanı Şərqdə rasionalizmin böhranına cavab olaraq meydana gəlmişdir. Qərbdə olduğu kimi, Şərq romantikləri də dünyanın, insanın və cəmiyyətin dərk olunmasında üstün yeri irrasional momentlərə – təxəyyülə, dini vəhyə, intuisiyaya və s. verirlər. Lakin elə buradaca onu qeyd etməliyik ki, Şərq romantizmində Qərbə nisbətən maarifçilik elementləri və sosial siyasi utopizm özünü daha bariz göstərir [4, s.152], qeyd etmək lazımdır ki, irrasional idrak vasitələrini önə çəkmələrinə baxmayaraq, Şərq romantikləri özlərinin xəyali cəmiyyətlərinin qurulmasında aparıcı rol oynayacaq mükəmməl şəxsiyyət tipinin yaradılmasında elm, təhsil və maarifin mühüm əhəmiyyətə malik olduğunu müntəzəm surətdə qeyd etmişlər. Burada sanki mütəfəkkirlərin gördükləri və qavradıqları gerçəklik hadisələri və prosesləri ilə onların daxili aləminin məhsulu olan romantik gerçəklik arasındakı ziddiyyət təzahür edir.

Yeni minilliyin başlanğıcında postindustrializm və informasiya cəmiyyətinin qərarlaşması, planetarlaşma və inteqrasiyanın geniş vüsət alması təməl olaraq tarixi mənəvi mədəniyyətə söykənir. Mədəni dəyərlər və mənəvi sərvətlər sistemini aydın və əhatəli dərk etmədən, mənimsəmədən milli mədəniyyətlərin perspektivini və sosial inkişafın gələcək taleyini müəyyənləşdirmək mümkün olmazdı. Bu baxımdan milli mədəniyyətlərin mahiyyətini və inkişaf meyillərinin tam mənzərəsini formalaşdırmaq üçün ictimai və fəlsəfi fikrin bütün mərhələlərinin, eləcə də sosio-mədəni universal cərəyan olmaq etibarilə Romantizmin dərin tədqiqinə xüsusi ehtiyac duyulur.

XXI əsrdə geniş vüsət almış qloballaşma proseslərində mədəniyyətlərin dialoqunun milli və fərdi özünüdərkə, mənəvi dəyərlərə və mentalitetə söykənməsinin araşdırılması, tarixi yaddaşla müasirliyin, varisliklə ənənəviliyin əlaqələndirilməsi baxımından millətlərin fərdi və milli mənlik şüurunun formalaşmasının yönümü, üsul və vasitələrinin düzgün müəyyənləşdirilməsi, xalqların sosial və mənəvi yaddaşının obyektiv, qərəzsiz, düzgün nəzəri və metodoloji əsaslarla öyrənmək hazırda aktual məsələlərdən biridir. Bu baxımdan dünya mədəniyyətinin təkamülünə Romantizmin sosial, fəlsəfi və ideoloji təsirinin tədqiqi, bu istiqamətdə onun rolu və yerinin müəyyənləşdirilməsi tədqiqatımızı aktuallaşdıran amillərdəndir.

Romantizm cərəyanı mövcud tədqiqatlarda təkcə ədəbiyyatşünaslıq və incəsənət sahəsi çərçivəsində öyrənildiyindən onun qlobal sosial-mədəni məkanda universal hərəkat, fəlsəfi fikir tarixinin müəyyən mərhələsi kimi yeri müəyyən edilməmişdir. Tədqiqatçılar romantik siyasi iqtisad, romantik tarixşünaslıq, romantik dilçilik, ədəbiyyatşünaslıq və s. epitetlərindən yeri gəldikcə istifadə etmiş, romantizmin incəsənət, əxlaqi və siyasi ideologiyadakı təzahürlərinə qismən, ötəri də olsa toxunsalar da, bütövlükdə sosio-mədəni universal cərəyan kimi Romantizmin bilik sahələrinə sirayəti, ideoloji-siyasi sferaya təsir gücünü müəyyən etməyə cəhd göstərməmişlər.

Qeyd etmək lazımdır ki, hər bir romantik – Romantizm cərəyanının nümayəndəsi mənəvi mədəniyyətin müxtəlif sferasına nüfuz edən universal yaradıcılıq imkanına malik idi. Məsələn, Novalis ədəbi-bədii yaradıcılıqla yanaşı naturfəlsəfə, təbabət, riyaziyyatla məşğul olurdu. Tik şair, dramaturq və ədəbiyyat tənqidçisi idi, Şellinq fəlsəfə ilə poeziyanı vəhdətə gətirməyə cəhd edirdi. Ritter fizik olmaqla yanaşı gözəl şair idi. A. və F. Şlegel qardaşları filologiya, sənətşünaslıq və estetika məsələləri ilə məşğul olurdular. Şleyermaher təkcə teologiya ilə deyil, həmçinin əxlaq problemləri ilə ciddi maraqlanırdı. Bu baxış bucağından Romantizm fəlsəfəsi sanki, müxtəlif biliklərin inteqrativ əlaqələndiricisinə çevrilmişdir.

İctimai fikir tarixində fəlsəfi problematikaya yeni tip yanaşmanın əsasını qoyan romantiklər bədii fəlsəfi yaradıcılıqda və ədəbiyyatşünaslıqda bir çox metodoloji üsul və vasitələrin yaranmasına səbəb olmuşdular [3, s.38]. Romantizm fəlsəfəsinin nəzəri estetik prinsipləri, yaradıcılıq üsulları digər cərəyanların nümayəndələri tərəfindən əxz olunurdu. Bədii-ədəbi yaradıcılığın fəlsəfi-estetik cəhətdən ümumiləşdirilməsi, sənətin fəlsəfi mahiyyət baxımından dəyərləndirilməsini əsaslandıran filosof-

romantiklərin nəzəri estetik prinsipləri uzun müddət aktuallığını qorudu. Bu nöqteyi-nəzərdən, demək olar ki, Romantizm cərəyanı nümayəndələri metodologiya sahəsində bir çox nailiyyətlər əldə etmiş və bu sahənin müstəqil elm kimi müəyyənləşdirilməsinə təsir göstərmişdilər.

Qeyd etmək lazımdır ki, bəzi tədqiqatçıların romantiklərin «heç bir qanun və üsluba sığmadıqlarını» (Kazımoğlu), hər hansı metodun çərçivəsi, hüdudları ilə qənaətlənmədiyini (Tik, Vakenroder) iddia etmələrinə baxmayaraq, müasir dövrdə humanitar sahədə tətbiq olunan bədii, fəlsəfi və elmi metodların bir çoxu romantik təfəkkürün məhsulu olaraq yaranmışdır. Romantizm cərəyanı nümayəndələri tərəfindən sistemləşdirilən tarixilik, millilik, universallıq prinsipləri (A.Şlegel), tarixiliklə müasirliyin əlaqələndirilməsi (J.de Stal və Şatobrian), müqayisəli - mifoloji (Şellinq, Y. və V. Qrimm qardaşları), subyektiv–idealist, bədii bioqrafik, estopsixoloji-tənqidi metodlar, habelə sonradan ayrıca cərəyana çevrilmiş hermenevtika [5, s.67] və impressionizm cərəyanları bu qəbildəndir. Bütün bunlara baxmayaraq, Romantizmin bu səpgidə öyrənilməsi, demək olar ki, yox dərəcəsindədir.

Romantizm cərəyanı Azərbaycan filosofları və ədibləri tərəfindən heç öyrənilməmişdir, desək, yanlışlığa yol verərik. Lakin bir cəhəti xüsusi qeyd etməliyik ki, sovet quruluşu illərində hər şeyə, bütün fəaliyyət növlərinə hakim kəsilmiş metodoloji, nəzəri və ideoloji doqmatizm bütün elm sahələri kimi fəlsəfənin də başı üstündən "Domokl qılıncı" kimi asılmışdı. Tədqiqatçı, ustalığından və intellektual səviyyəsindən asılı olmayaraq "müəyyən edilmiş" nəzəri, ideoloji və metodoloji stereotiplərdən kənara çıxa bilməzdi. Romantizmin tədqiqatçıları da həmin "sosial mərəzdən" xali deyildilər. Məhz ona görə də Romantizm cərəyanı da qeyri-obyektiv yanaşma tərzinə məruz qalmış və sovet ideologiyası çərçivəsində "saf-çürük" edilmişdir.

Müasir dövrdəki tədqiqat əsərlərində nəzərə çarpacaq irəliləyişlər, obyektiv yanaşmalar müşahidə olunur. Təəssüf ki, problemə həsr edilmiş əsərlərin əksəriyyətində Romantizm bədii yaradıcılıq metodu və ya ədəbi cərəyan "həddi" ilə məhdudlaşdırılır. Sosio-mədəni universal cərəyan kimi səciyyələnən Romantizmin inkişaf xüsusiyyətləri, onun nümayəndələrinin yaradıcılığı bu və ya digər ölkədə tədqiqat obyektinə çevrilsə də, o bütövlükdə qlobal mədəni məkanın və fəlsəfi fikir tarixinin xüsusi əhəmiyyət daşıyan mərhələsi kimi tədqiq edilməmişdir. Belə səciyyəli tədqiqatın zəruriliyi tədqiqatçıların əksəriyyəti [1, s. 47]. tərəfindən vurğulansa da, Romantizmin fəlsəfi fikir tarixində mühüm və növbəti mərhələ kimi öyrənilməsi, demək olar ki, yox dərəcəsindədir.

Romantizm cərəyanına hərtərəfli baxış belə bir nəticəyə gəlməyə əsas verir ki, bu cərəyan nümayəndələrinin irsinə "ya-ya" prinsipilə yanaşaraq teist-ateist, mütərəqqi-mürtəce, inqilabçı-mühafizəkar, aktiv-passiv, xalqçı-fərdiyyətçi, millətçi-kosmopolit və s. kimi epitetlər qarşıdurması şablonu ilə dəyərləndirmək əsla yolverilməzdir. Onların yaradıcılığı son dərəcə ziddiyyətlidir. Gerçəklik hadisələrini qiymətləndirmə meyarlarında romantiklər konkret vəziyyətdən çıxış edərək mühafizəkar və ya inqilabçı mövqe tuta, ictimai hadisələrin gedişatından asılı olaraq passiv müşahidəçi, xəyali məkan «sakini» və ya proseslərə fəal münasibət göstərən iştirakçı ola bilərlər. Bu ciddi nöqsanı aradan qaldırmaq üçün araşdırılan problemə yanaşmada nəzəri, ideoloji, metodoloji plüralizm prinsipinə söykənməklə adekvat tədqiqat aparması son dərəcə aktual bir vəzifədir.

Aydındır ki, romantiklərin yaradıcılığında fəlsəfi təfəkkür tərzi ilə bədii təfəkkür tərzinin birləşdirilməsinə cəhd edilir. Məhz bunun nəticəsidir ki, Romantizmdən yazan bütün müəlliflərin əsərlərində eyni məsələlərə dair fərqli, bir çox hallarda isə zidd fikirlərə rast gəlirik. Bunlara yol verməmək üçün romantiklərin yaradıcılığını "vahid konseptual karkas" əsasında yox, plüralizm prinsipi zəminində tədqiq etmək zəruridir.

Fəlsəfə və ictimai fikir tarixində Romantizmin təsiri və ənənələrindən bir çox fəlsəfi məktəb və filosoflar bəhrələnmişdilər. Xüsusilə, fəlsəfi Romantizm ənənələrini modernizm, ekzistensializm, «Həyat fəlsəfəsi» cərəyanları, Şopenhauer, Helderlin, Kerqeqor, Vaqner, Nitsşe, A.Kamyu kimi filosoflar davam etdirmişdilər [6]. XIX - XX əsrlərdə bir sıra filosof və yazarların dünyagörüşündə qabarıq təzahür edən romantik tendensiyalar bizə bu mütəfəkkirləri fəlsəfi romantizmin davamçısı kimi səciyyələndirməyə imkan verir. Geniş oxucu auditoriyası üçün, xüsusilə də keçmiş sovet məkanı hüdudlarında naməlum qalan belə mütəfəkkirlərin - O.Şpann, Q.Kayzerlinq, X.C.Çemberlen, A.Vensilin yaradıcılıqlarının tədqiqinə ehtiyac vardır.

Yuxarıda deyilənləri ümumiləşdirərək, bir daha vurğulamaq istərdik ki, ictimai-fəlsəfi fikrin inkişafında varislik prinsipinin tələbləri baxımından Romantizm cərəyanının ictimai–fəlsəfi fikir tarixində yeri, rolu, spesifik əhəmiyyətinin xüsusi tədqiqat obyektinə çevrilməsi, onun dünya ictimai-fəlsəfi və bədii fikrinin sonrakı inkişafına təsirinin öyrənilməsi nəinki aktuallıq kəsb edir, həm də mənəvi – mədəni inkişaf prosesinin obyektiv qanunauyğunluğu və məntiqi tələbidir.

Açar sözlər: romantizm, romantizm fəlsəfəsi, romantizmin yaradıcılıq stili və metodları, hermenevtika, dünyanın irrasional mənimsənilməsi.

İstifadə olunmuş ədəbiyyat

1. Кулізаде З.А. Из історіі азербайджанской філософіі VII-XVI в. Баку, Азернешр, 1992.
2. Кулізаде З.А. Концептуальные проблемы исследованія соціокультурного развітія (конец XX – начало XXI в.), в 2-х ч. Баку, Текнур, 2009; ч.I, с.396; ч.II, с.398.
3. M.C.Paşayev. Azərbaycanda ədəbi məktəblər. Bakı, Ziya-Nurlan, 2004.
4. Məmmədova A.S. XX əsr Azərbaycan romantizminin fəlsəfəsi (Məhəmməd Hadi irsinin tədqiqi əsasında). Bakı, «İqtisad Universiteti» nəş. 2003.
5. Hacıyeva A.Ə. Mədəni – tarixi irsin tədqiqində hermenevtikanın fəlsəfi və metodoloji əhəmiyyəti. Bakı, «Adiloğlu» nəş-tı, 2004.
6. Nikolas Kompridis. Philosophical romanticism. Routledge, 2006.
7. Manfred Frank. The philosophical foundations of early German romanticism. SUNY Press, 2004.

Афаг МАМЕДОВА

РАССУЖДЕНІЯ ОБ УКТУАЛЬНОСТІ ІССЛЕДОВАНІЯ РОМАНТІЗМА КАК СОЦІОКУЛЬТУРНОГО УНІВЕРСАЛЬНОГО ТЕЧЕНІЯ В ФІЛОСОФСКОМ АСПЕКТЕ

Резюме

В статье аналізіруется место романтізма как універсального соціокультурного теченія в історіі общественной і філософской мыслі, обосновывается его тесная связь с філософской, научной, соціальной, політіческой, эстетіческой, этіческой і другімі формамі художественно-образного, раціонального і ірраціонального отраженія міра, оценівается роль романтіческіх тенденцій в развітіі літературы, музыкі, театра, экономіческой теоріі, герменевтікі, соціологіі как наукі.

Ключевые слова: романтізм, філософія романтізма, творческій стіль і методы романтізма, герменевтіка, ірраціональное освоеніе міра.

Afag MAMMADOVA

THE REFLECTIONS ON ACTUALITY OF STUDYING ROMANTICISM AS SOCIOCULTURAL UNIVERSAL TENDENCY IN PHILOSOPHICAL ASPECT

Summary

The article examines the place of Romanticism as a universal social-cultural currents in the history of social and philosophical thought, grounds its close relationship with the philosophical, scientific, social, political, aesthetic, ethical and other forms of artistic and imaginative, rational and irrational reflection of the world, estimates the role of the romantic tradition in development of literature, music, theater, economic theory, hermeneutics, sociology as a science.

Keywords: romanticism, philosophical romanticism, romantic inclination, social views, romantic inclination, hermeneutics, irrational development of the world.

UOT 101

Əli BABAYEV
AMEA Riyaziyyat və Mexanika İnstitutunun e.i.,
riyaziyyat üzrə fəlsəfə doktoru

Eynulla RƏHMANİ
AMEA Riyaziyyat və Mexanika İnstitutunun dissertantı

NƏSİRƏDDİN TUSİNİN "ƏSASÜL-İQTİBAS" ƏSƏRİNDƏ QEYRİ-MÜƏYYƏN TƏKLİFLƏR ÜÇÜN DOĞRULUQ CƏDVƏLİ*

"Əsasül-iqtibas" dahi ensiklopedik alim N.Tusinin məntiq sahəsində ən irihəcmli və qiymətli əsəridir. Əsər məntiqin bütün bölmələrini əhatə edir. Məqalədə birinci hissənin üçüncü fəslinin» Malik olan və məhrum edilən təkliflər" adlanan on ikinci bölməsi tədqiq edilmişdir. Tədqiqat, Müdərris Rəzəvinin əsərin on müxtəlif əlyazmasından istifadə edərək nəşrə hazırladığı və 1947-ci ildə Tehran Universitetinin nəşriyyatında çap edilmiş kitabın C.Məmmədova və məqalənin müəlliflərindən biri, E.Rəhmaninin fars dilindən azərbaycan dilinə tərcümələri əsasında aparılmışdır [1, s.104-114].

Adı çəkilən bölmədə N.Tusi kateqorik təkliflərini növlərini və onların doğruluq cədvəllərini nəzərdən keçirərək, bununla bağlı öz mülahizələrini irəli sürmüşdür.

N.Tusi yazır ki, kateqorik təklif ancaq subyekt (mübtəda) və predikatdan (xəbər) ibarət bəli və ya yox nəqli cümlədir. Lakin belə cümlələrin hamısı kateqorik təklif deyil (əmr, sual, təəccüb və s.) Tusinin dili ilə desək, bu cümlələrdən ancaq "zatında doğru və ya yalan olmaqla səciyyələnənlər" kateqorik təklif adlanır. Kateqorik təkliflər keyfiyyətə görə təsdiqi, inkarı, kəmiyyətə görə qeyri-müəyyən, fərdi, ümumi, xüsusi olmaqla müxtəlif növlərə bölünür. Məsələn, Zeyd görəndir təsdiqi, Zeyd görən deyil inkarı, insanlar yazıçıdır qeyri-müəyyən, Zeyd yazıçıdır fərdi, bütün insanlar yazıçıdır ümumi, bəzi insanlar yazıçıdır xüsusi təklifdir.

Bundan əlavə bölmənin adından göründüyü kimi, N.Tusi kateqorik təklifləri onların subyekt və predikatlarının malik olma və məhrum edilmə xüsusiyyətlərinə görə də növlərə ayırır. O, yazır ki, əgər təklifin subyekti və ya predikatı və ya hər ikisi müəyyən bir nəsnəyə malikdirsə, o malik olan (adi)- ondan məhrumdursa, məhrum edilmiş təklif adlanır. Məsələn, Zeyd görəndir malik olan, Zeyd görməyəndir predikatı, görməyən alimdir subyekti, görməyən ağılsızdır isə həm subyekti, həm də predikatı məhrum edilmiş təklifdir. Bəzən təklifdə məhrum edilmişliyi göstərən sözün yerinə eyni mənalı malik olma sözü işlədilir. Məsələn, görməyənin yerinə - kor, eşitməyənin - kar, bilməyənin - cahil və s. Belə təkliflər neqativ təklif adlanır.

N.Tusi qeyd edir ki, təsdiqi malik olan təklif mənaca inkarı məhrum edilmiş və inkarı neqativ təklifə yaxındır. Məsələn, "İnsanlar görəndir", "İnsanlar görməyən deyil" və "İnsanlar kor deyil" təklifləri. Bu təkliflərin eyni mənalı yox, yaxın mənalı olması sonda aydınlaşacaq.

Sonra N.Tusi bölmədə fərdi kateqorik təkliflərdə predikat subyektin ya əksliklərdən birinə (isti, soyuq; ədalətli, zalım və s.), ya orta müəyyən edilənə (ilıq, mülayim), ya potensial olaraq (körpə uşaqda ədalətli ya zalım olmaq) bunlardan birinə malik olmasını və ya bunlardan heç birinə malik olmamasını (ədalətlilik və zalımlıq heyvana, görmək qabiliyyəti və korluq divara aid olmadığı kimi) göstərir. Subyektlər isə ya mövcud ola bilər ya da olmaz. Beləliklə, N.Tusi bu təklifləri altı yerə bölür:

1. Subyekt əksliklərin üstün cəhəti ilə müəyyən edilir: Zeyd ədalətlidir.
2. Subyekt əksliklərin alçaq cəhəti ilə müəyyən edilir: Zeyd zalımdır.
3. Subyekt əksliklərin ortalığı ilə müəyyən edilir: Su ilıqdır.
4. Subyekt bunların heç biri ilə müəyyən edilmir, ancaq potensial olaraq onların hər biri mümkündür: Körpədə ədalətli, zalım və orta (adi) olmaq potensial olaraq mövcuddur.
5. Subyekt bunların heç biri ilə müəyyən edilmir və onda potensial olaraq da mövcud deyil (Heyvanda ədalət və zülüm, divarda görmə qabiliyyəti və korluq olmadığı kimi).
6. Subyekt mövcud deyil və onun haqqında heç nəyi təsdiq etmək olmaz.

---

* Məqalə riyaziyyat üzrə fəlsəfə doktoru O.Məmmədov tərəfindən çapa məsləhət bilinib.

Bunlar subyektin tək halda olmasına uyğun gəlir.

Bu təkliflər üçün doğruluq cədvəli [2]-də araşdırılmışdır.

Sonra N.Tusi subyekti ümumi sözlə ifadə edilən təkliflərə və onların müasir dildə desək, konyuksiyalarını nəzərdən keçirir. Belə təkliflərin sayı otuz ikidir. Bunlardan 5-i sadə, 10-u iki təklifin konyuksiyası (ikili), 10-u üç təklifin konyuksiyası (üçlü), 5-i dörd təklifin konyuksiyası (dördlü), 1-i beş təklifin konyuksiyası (beşli), 1 hal isə subyekt mövcud olmayan haldır.

O, subyekt olaraq müəyyən insanlar qrupunu götürür və bu təklifləri aşağıdakı kimi yazır:

Sadə təkliflər:

1. Hamı – biləndir.
2. Hamı – bilməyəndir.
3. Hamı – bilənlə bilməyən arasında ortadır.
4. Hamı –potensial olaraq bilən və bilməyəndir (körpələr kimi).
5. Hamı – cahildir, bilib-bilməyə qabiliyyətsizdir (dəlilər kimi).

İkili təkliflər:

6. Bəziləri biləndir, bəziləri bilməyən.
7. Bəziləri biləndir, bəziləri orta.
8. Bəziləri biləndir, bəziləri potensial olaraq.
9. Bəziləri biləndir, bəziləri qabiliyyətsiz.
10. Bəziləri bilməyəndir, bəziləri orta.
11. Bəziləri bilməyəndir, bəziləri potensial olaraq.
12. Bəziləri bilməyəndir, bəziləri qabiliyyətsiz.
13. Bəziləri orta, bəziləri potensial olaraq.
14. Bəziləri orta, bəziləri qabiliyyətsiz.
15. Bəziləri potensial olaraq, bəziləri qabiliyyətsiz.

Üçlü təkliflər:

16. Bəziləri bilən, bəziləri bilməyən, bəziləri orta.
17. Bəziləri bilən, bəziləri bilməyən, bəziləri potensial olaraq.
18. Bəziləri bilən, bəziləri bilməyən, bəziləri cahil.
19. Bəziləri bilən, bəziləri orta, bəziləri potensial olaraq.
20. Bəziləri bilən, bəziləri orta, bəziləri cahil.
21. Bəziləri bilən, bəziləri potensial olaraq, bəziləri cahil.
22. Bəziləri bilməyən, bəziləri orta, bəziləri potensial olaraq.
23. Bəziləri bilməyən, bəziləri orta, bəziləri cahil.
24. Bəziləri bilməyən, bəziləri potensial olaraq, bəziləri cahil.
25. Bəziləri orta, bəziləri potensial olaraq, bəziləri cahil.

Dördlü təkliflər:

26. Bəziləri bilən, bəziləri bilməyən, bəziləri orta, bəziləri potensial olaraq.
27. Bəziləri bilən, bəziləri bilməyən, bəziləri orta, bəziləri cahil.
28. Bəziləri bilən, bəziləri bilməyən, bəziləri potensial olaraq, bəziləri cahil.
29. Bəziləri bilən, bəziləri orta, bəziləri potensial olaraq, bəziləri cahil.
30. Bəziləri bilməyən, bəziləri orta, bəziləri potensial olaraq, bəziləri cahil.

Beşli təkliflər:

31. Bəziləri bilən, bəziləri bilməyən, bəziləri orta, bəziləri potensial olaraq, bəziləri cahil.

Subyekt mövcud olmayan hal:

32. Bu halda subyekt haqda heç nəyi təsdiq etmək olmaz.

Sonda N.Tusi qeyri-müəyyən təkliflərin bu 32 halın hansında yalan hansında doğru olduğunu göstərən cədvəli vermişdir:

Qeyri-müəyyən təklif üçün cədvəl

Təsdiqi malik olan
a) İnsanlar biləndir
16 halda, harada ki, "Hamı və ya bəziləri biləndir" - doğrudur, qalan hallarda yalan

İnkarı malik olan
d) İnsanlar bilən deyil
"Hamı biləndir" halından başqa bütün hallarda doğrudur

İnkarı məhrum edilmiş
b) İnsanlar bilməyən deyil
17 halda doğrudur; bunlardan 16-sı "Hamı və ya bəziləri biləndir", 1-i isə subyekt mövcud deyil. Qalan 15 halda yalandır.

Təstiqi məhrum edilmiş
e) İnsanlar bilməyəndir
"Hamı biləndir" və subyekt mövcud deyil hallarında yalan, qalan 30 halda doğrudur

İnkarı neqativ
c) İnsanlar cahil deyil
"Hamı cahildir" halından başqa bütün hallarda doğrudur

Təsdiqi neqativ
f) İnsanlar cahildir
16 halda, hansı ki, "Hamı və ya bəziləri cahildir"- doğrudur, qalan 16 halda yalan

Boltayev M.N. öz tədqiqatında "Əsasül-iqtibas" əsərinin müəyyən hissələrini şərh etmişdir. Onun qeyri-müəyyən təkliflərin doğruluq cədvəlinə verdiyi şərh səhvdir (3, s.406). Boltayev yazır: "İnkarı neqativ qeyri-müəyyən təklifin doğruluğundan inkarı məhrum edilmiş qeyri-müəyyən təklifin doğruluğu, sonuncunun doğruluğundan isə təsdiqi əldə edilmiş qeyri-müəyyən təklifin doğruluğu alınır". Həqiqətdə isə bu əksinədir, təsdiqi əldə edilmiş qeyri-müəyyən təklifin doğru olmasından inkarı məhrum edilmiş qeyri-müəyyən təklifin doğruluğu, bundan isə inkarı neqativ qeyri-müəyyən təklifin doğruluğu alınır. Doğrudan da təsdiqi əldə edilmiş qeyri-müəyyən təklifin doğru olduğu 16 halda inkarı məhrum edilmiş və inkarı neqativ qeyri-müəyyən təkliflər də doğrudur. Lakin subyekt mövcud olmayan halda inkarı məhrum edilmiş qeyri-müəyyən təklifin, 2, 3, 4, 10, 11, 12, 13, 14, 15, 22, 23, 24, 25, 30, 31 hallarında isə neqativ qeyri-müəyyən təklif doğru olmasına baxmayaraq, təsdiqi əldə edilmiş qeyri-müəyyən təklif yalandır.

Boltayevin cədvəlin sağ tərəfinə verdiyi izah da səhvdir. Belə ki, o inkarı malik olan qeyri-müəyyən təklifin doğru olmasından təsdiqi məhrum edilmiş və təsdiqi neqativ qeyri-müəyyən təkliflərin doğruluğunun alınmasını göstərir. Halbuki, əksinə, təsdiqi neqativ qeyri-müəyyən təklifin doğruluğundan təsdiqi məhrum edilmiş və inkarı malik olan qeyri-müəyyən təkliflərin doğruluğu alınır. Doğrudan da təsdiqi neqativ qeyri-müəyyən təklifin doğru olduğu 5, 9, 12, 14, 15, 18, 20, 21, 23, 24, 25, 27, 28, 29, 30, 31 hallarında təsdiqi məhrum edilmiş və inkarı malik olan qeyri-müəyyən təkliflər də doğrudur.

Əgər qeyri-müəyyən təkliflər üçün doğruluq cədvəlinə diqqət yetirsək görərik:

I. Birinci sütundakı "İnsanlar biləndir", "İnsanlar bilməyən deyil" və "İnsanlar cahil deyil" mənaca yaxın olsalar da, eyni deyildirlər. Doğrudan da birinci təklif 16, ikinci 17, üçüncü isə 31 halda doğrudur. Əgər "İnsanlar biləndir" təklifi A hərfi ilə işarə etsək, onda formal olaraq "İnsanlar bilməyəndir və İnsanlar cahildir" təklifləri $\neg A$ ($\neg$ –inkar bildirən işarədir), "İnsanlar bilən deyil və İnsanlar cahil deyil" təklifləri $\neg\neg A$ olar.Bu isə o deməkdir ki, birinci təklifi ikinci ilə müqayisə etdikdə bir halda (32-ci), üçüncü ilə müqayisə etdikdə isə 15 halda (2, 3, 4, 10-15, 22-25, 30, 32) $A \neq \neg\neg A$ olar. Buradan aydın olur ki, təsdiqi malik olan təklif inkarı məhrum edilmiş və inkarı neqativ təkliflə eyni mənalı deyil.

II. İkinci sütundakı təkliflərin hər üçünün formal yazılışının eyni olmasına ($\neg A$) baxmayaraq birinci təklif otuz bir, ikinci təklif otuz, üçüncü təklif on altı halda doğrudur. Deməli, $\neg A$ təklifi 15 halda (2, 3, 4, 6, 7, 8, 10, 11, 13, 16, 17, 19, 26, 32) həm yalan, həm də doğrudur.

III. Cədvəlin sol və sağ sütunlarında eyni sətirdə yazılmış təkliflər bir-birinin inkarıdır. Məsələn, sağ sütundakı "İnsanlar bilən deyil" təklifi sol sütundakı "İnsanlar biləndir" təklifinin inkarıdır. 15 halda (6, 7, 8, 9, 16, 17, 18, 19, 20, 21, 26, 27, 28, 29, 31) bu təkliflərin hər ikisi doğrudur, yəni bu hallarda riyazi $A \& \neg A$ doğrudur (&-konyunikasiya işarəsidir). Bu isə formal məntiqdə həmişə yalandır. "İnsanlar bilməyən deyil" və "İnsanlar bilməyəndir" növbəti sətirdə bir-birinin inkarı olan təkliflərdir. Bu təkliflər də yuxarıda göstərilən 15 halda eyni zamanda doğrudur, yəni $\neg\neg A \& \neg A$ doğrudur.

A & ┐A və ┐┐ A &┐ A formullarının doğruluğu ondan irəli gəlir ki, A təklifi ("İnsanlar biləndir") kəmiyyətə görə qeyri-müəyyən təklifdir.

Açar sözlər: kateqorik təklif, subyekt, predikat, qeyri-müəyyən təkliflər, doğruluq cədvəli.

İstifadə olunmuş ədəbiyyat

1. N.Tusi. "Əsasül-iqtibas". Tehran, 1947.
2. Babayev Ə.Ə., Rəhmani E. Табліцы істінності неопределенных предложеній в трактате "Асас ал-іктібас" Насіреддіна Тусі. Pedaqoji Universitet xəbərləri, Bakı, № 5, 2010.
3. Болтаев М.Н. Вопросы гносеологіі і логікі в проізведеніях Ибн Сіны і его школы. Душанбе, 1961.

Алі БАБАЕВ, Эйнулла РАХМАНІ

ТАБЛІЦЫ ИСТІННОСТІ НЕОПРЕДЕЛЕННЫХ ПРЕДЛОЖЕНИЙ В ТРАКТАТЕ "АСАС АЛ-ІКТІБАС" НАСИРЕДДИНА ТУСИ

Резюме

В статье даются опісаніе і комментаріі к табліцам істінності неопределенных категоріческіх предложеній, пріведенных в двенадцатом разделе первой часті третьей главы логіческого труда Насіреддіна Тусі "Асас ал-іктібас". В этом разделе Тусі опісывает простые предложенія і дает іх классіфікацію.

Неопределенные категоріческіе предложенія – это предложенія, колічественная характерістіка субъектов которых не определена.

Ключевые слова: категоріческіе предложенія, субъект, сказуемое, неопределенные предложенія, табліца істінності.

Ali BABAYEV, Eynulla RAKHMANI

TRUTH TABLES OF THE INDEFINITE STATEMENTS IN THE TREATISE "ASAS AL-IKTIBAS" BY NASIREDDIN TUSI

Summary

In the paper the truth tables of indefinite categorical statements cited in the section 12, part 1 of chapter III of Nasireddin Tousi`s logical "Asas al-iktibas" are described and commented. In this section Tusi describes simple propositions and gives their classificantion. Indefinite categorical propositions are propositions, quantitative characteristic of wich has not been identified.

Keywords: categorical propositions, subject, predicate, indefinite prepositions, truth tables.

UOT 091
Əliyar ORUCOV
FHNA-nın müəllimi

XIX ƏSRİN SONU - XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ AZƏRBAYCAN XALQININ MİLLİ ÖZÜNÜDƏRKİNDƏ ƏDƏBİYYAT VƏ MƏDƏNİYYƏTİN ROLU*

Özünüdərketmənin öz-özlüyündə fəlsəfi problem kimi qoyuluşu çox qədimlərə, Delfada Apollon məbədinin giriş qapısının üstündə həkk olunmuş «özünü dərk et» sözlərini Sokratın öz həyat devizinə çevirdiyi vaxta, bəlkə də daha əvvəllərə gedib çıxır. İlk əvvəl mahiyyətinə görə bu anlayış insanla, onun düşüncə tərzi ilə bağı olub və indi də əlaqəlidir. O, insanın özünüdərk prosesində öz «Mən»ini ətrafdakı insanlara, mühitə – «qeyri-Mən»ə qarşı qoymaqla çoxcəhətli hadisələri müşahidə etməsini, müqayisə vasitəsilə onlarla özü arasında ümumi və fərqli cəhətləri aydınlaşdırmasını, təbiətdə və cəmiyyətdə öz yerini müəyyənləşdirməsini ehtiva edir. Özünüdərk «insana öz şəxsi şüur aktlarına tənqidi yanaşmaq, yəni özünə daxilən xas olan bütün cəhətləri ona kənardan daxil olan bütün cəhətlərdən ayırmağa – bir sözlə, öz şəxsi şüur aktlarını öyrənməyə imkan verir» (8, s.504).

Şüurun müxtəlif səviyyələri, o cümlədən refleksiya ilə sıx bağlı olan özünüdərk bir fenomen kimi təkcə insan fərdiyyətinə deyil, həm də cəmiyyəti təşkil edən ictimai zümrələrə, siniflərə, qruplara, daha geniş mənada isə xalqlara, millətlərə aid edilir.

Millət məfhumuna, məlum olduğu kimi, elmi-fəlsəfi ədəbiyyatda çoxlu tərifler verilmişdir. Onların hamısında göstərilən cəhətləri ümumiləşdirərək deyə bilərik ki, millət insanların tarixi birliyi əsasında ümumi əraziyə, ümumi ədəbi dilə, ümumi iqtisadi və mənəvi həyat birliyinə, mədəniyyət və xarakter xüsusiyyətlərinə, ümumi mentallığa malik böyük insan qruplarını təmsil edir. Bu mənada milli özünüdərk millətin özünü başqa xalq və millətlərlə müqayisədə öz tarixi köklərini, orijinallığını anlaması, ümumi maraq və ideallarını dərk etməsi əsasında özünü tanıması, bəşər tarixində, eyni zamanda müasir tarixdə xalqlar arasında tutduğu yeri və gələcək inkişaf yollarını müəyyən etməsi, vətəni üçün iftixar, qürur hisslərinin, onun naminə mübarizə əzminin göstəricisidir. Milli özünüdərk fərdin millətə mənsubluğunu və bütövlükdə milli toplumun özünü millət təmsilçisi olaraq dərk etməsi, onun milli varlıq kimi xassələrini bilməsi, qoruması və müdafiə etməsidir.

Milli özünüdərk ən müxtəlif - sosial-siyasi, mədəni, əxlaqi-mənəvi və s. aspektlərdən araşdırıla bilər. Məhəmməd Füzulinin 500 illiyi ilə əlaqədar yubiley üzrə Dövlət komissiyasının iclasındakı giriş sözündə ümummilli lider Heydər Əliyev məhz məsələnin etik-mənəvi aspektinə diqqət yetirərək «xalqın özünü tanıması»nı təmin etmək zərurəti haqqında deyirdi: «Xalq gərək daim öz kökünü xatırlasın, tarixini öyrənsin. Milli yubileyin keçirilməsi indiki nəslin, xüsusən gənclərin tariximizin nə qədər zəngin olduğunu və Azərbaycan xalqının dünya mədəniyyətinə necə töhfələr verdiyini bir daha dərk etməsinə şərait yaradacaq və hər bir azərbaycanlıda, ilk növbədə milli iftixar, vətənpərvərlik hissini daha da yüksəldəcəkdir. Bunun özü müstəqil Azərbaycanda bizim üçün çox gərəkli bir amildir» (5, s. 93) kimi dəyərləndirirdi.

Azərbaycan xalqının ictimai-siyasi və fəlsəfi mədəniyyətində (ədəbi – fəlsəfi irs də daxil olmaqla) milli mənlik və milli özünüdərk problemlərinin qoyuluşu və təlqini bir tərəfdən iqtisadi, sosial və ədəbi-mədəni inkişafın məhsulu, digər tərəfdən isə Azərbaycanın sosial-siyasi inkişafının təkanverici amillərindən biridir.

Qeyd etmək lazımdır ki, milli özünüdərk xalqların taleyində ciddi dönüşlərin baş verdiyi, şərti olaraq keçid dövrü adlandırdığımız dövrlərdə xüsusilə böyük əhəmiyyət kəsb edir. Məhz tədqiqat mövzumuz olan XIX əsrin sonu - XX əsrin əvvəlləri xalqımızın tarixi müqəddəratında, ictimai-siyasi və fəlsəfi fikrinin inkişafında belə bir dövrdür.

Azərbaycanın şimal hissəsinin çar Rusiyasına zorla birləşdirilməsi Şimali Azərbaycan xalqının taleyində dönüşün əsasını qoydu. Bütün neqativ tərəfləri ilə yanaşı, həmin hadisə ümumrusiya məkanına daxil olan Azərbaycanın xüsusilə iqtisadi inkişafında əhəmiyyətli rol oynadı, həyatın bütün sahələrində

---

* Məqalə fəl.e.d. Z. Quluzadə tərəfindən çapa məsləhət bilinib.

köklü dəyişikliklər baş verdi. Burada XIX əsrin 60-70-ci illərində Rusiyanın mərkəzi quberniyalarında olduğundan məhdud şəkildə də olsa, keçirilən aqrar və inzibati-məhkəmə islahatları feodal pərakəndəliyini tədricən aradan qaldırdı və artıq yaranan kapitalist istehsal münasibətlərinin inkişafına təkan verdi, onun yayılma dairəsini genişləndirdi. Xarici, həmçinin rus, erməni və gürcü kapitalistləri ilə kəskin mübarizə şəraitində milli burjuaziya formalaşmağa başladı. Azərbaycan fəhlələrinin siyasi şüurunun artması onların öz hüquqları uğrunda mübarizəsində əks olunurdu. Həmin dövrdə Avropa və Rusiyada təhsil almış milli ziyalılar nəsli yetişdi. Onların maarifçilik fəaliyyəti nəticəsində xalq təhsili və mədəniyyət ocaqları – ana dilində məktəblər, dövri mətbuat, kitabxanalar, müxtəlif ictimai təşkilatlar, milli teatr yarandı və inkişaf etməyə başladı, o cümlədən milli ədəbiyyat və incəsənət əsərlərinin sayı artdı.

Maarifçilik ilk dəfə olaraq Qərbi Avropa ölkələrində kapitalizmin təşəkkülü dövründə yaranmışdır. O, məzmunca çox geniş olub ictimai, siyasi, hüquqi, əxlaqi və bədii ideyalar, baxışlar sistemindən ibarətdir. Maarifçilik fəlsəfəsi onun mühüm tərkib hissəsi olmaqla əsasən dünyagörüşü məsələlərini əhatə edir. Lakin buna baxmayaraq təəssüf ki, Azərbaycanda Maarifçilik bir ideoloji cərəyan kimi Qərb ölkələrinə nisbətən bir qədər gec baş vermişdir. Bunun əsas səbəbi də Azərbaycanda iqtisadi inkişafın geriliyi və ölkənin müstəmləkə əsarətində olması idi. XIX əsrin sonları - XX əsrin əvvəllərində Azərbaycan mütəfəkkirlərinin yaradıcılığında və dünyagörüşündə maarifçilik ideyaları xeyli geniş surətdə yayılırdı. Maarifçilik adətən kapitalist münasibətlərinin meydana gəldiyi, kapitalizmin qərarlaşdığı dövrdə ictimai fikirdə özünü göstərən ideoloji cərəyandır.

Beləliklə, XIX əsrin sonlarında Azərbaycan cəmiyyətində formalaşan mədəniyyət getdikcə aydın ümummilli səciyyə alır və bu da öz növbəsində milli şüurun inkişafına, milli birliyin möhkəmlənməsinə xidmət edirdi. Bu zaman milli dil, tarixi keçmişə maraq, milli ləyaqət hissi, milli özünüdərketmə, vətən və vətənpərvərlik, xalqın taleyi, gələcəyi mədəni-tarixi tərəqqinin ən aktual məsələləri kimi qarşıda dururdu. Azərbaycanda maarifçilik ideyalarının yayılması ilə əlaqədar olaraq Azərbaycan mədəniyyətində demokratik fikirlər güclənir, ictimai-fəlsəfi fikirdə yeni sosial ideyalar qərarlaşırdı. Maarifçilik mənəvi mədəniyyətin bütün sahələrinin – ədəbiyyat, incəsənət, əxlaq və s. inkişafına yeni istiqamət verməklə mədəniyyətin strukturunda getdikcə radikal dəyişikliklər əmələ gətirdi. Mədəniyyət sistemində realist ədəbiyyat, demokratik ictimai fikir, elm və elmi biliklər ön plana keçməyə başladı. Xalqımızın qabaqcıl ziyalı nümayəndələri Avropa, rus və Azərbaycan həyatına müqayisəli nəzər salır, vətənin sosial tərəqqi baxımından dövrün tarixi inkişaf səviyyəsindən geri qaldığını aydın görür və artıq belə yaşamağın mümkün olmadığı qənaətinə gəlirdilər. Onlar milli həyatı, Azərbaycan cəmiyyətini iqtisadi, siyasi, mədəni gerilikdən xilas edib geniş sosial tərəqqi və maarif yoluna çıxartmaq barədə düşünür, yollar arayıb axtarırdılar.

Bütün bu hadisələrdə Azərbaycan xalqının milli özünüdərki öz ifadəsini tapırdı. «Azərbaycan xalqının dil, ərazi və mənəviyyat birliyi XIX-XX əsrlərin qovşağında yeni keyfiyyət kəsb etmişdir. Azərbaycan dilinin ədəbi dilə çevrilməsi prosesi güclənir, xalqın mənəvi mədəniyyətinin bütün sahələrində diqqətəlayiq dəyişikliklər baş verir. Maarif, ədəbiyyat, rəssamlıq, musiqi və xalq yaradıcılığı ümummilli dəyərlər, ənənələr zəminində yeni məzmunla zənginləşir. Elm – təhsilə marağın artması, başqa xalqların mədəniyyətlərindən öyrənmək cəhdləri milli oyanışın səciyyəvi xüsusiyyətləri idi» (6, s.14).

Qeyd edək ki, XIX əsrin sonu - XX əsrin əvvəllərində Azərbaycan ictimai və fəlsəfi fikrinin inkişafı ədəbiyyatda - istər sovet, istərsə də postsovet elmi ədəbiyyatında nisbətən geniş işıqlandırılmışdır. Akademik A.Daşdəmirov haqlı olaraq yazır: «Azərbaycan ictimai, fəlsəfi fikri milli appersepsiya, onun Azərbaycan xalqının milli şüurunun oyanışında, təşəkkülündə rolu aspektində öyrənilibmi?... Azərbaycan mədəniyyətinin özünüdərk prosesi onun xadimlərinin yaradıcı axtarışlarında necə təcəssüm etmişdir? Bir çox cəhətdən bu olduqca mürəkkəb tədqiqat vəzifələri həyatın gedişatı ilə milli, milli-dövlət quruculuğunun yeni vəzifələrinin önə keçdiyi bir vaxtda bizim etnomədəni, etnosiyasi inkişafımızın hazırkı mərhələsinin ehtiyacları ilə aktuallaşmışdır» (4, s.54). Bu baxımdan müəllif XIX-XX əsrlərdə Azərbaycanın milli mədəniyyəti quruculuğu təcrübəsinin öyrənilməsini xüsusilə faydalı hesab edir (4, s.4). Ümummilli lider Heydər Əliyev irsinin layiqli davamçısı olan prezident İlham Əliyevin xalqın ədəbiyyat, incəsənət və mədəniyyətinin inkişafı üçün atdığı addımlar bir tərəfdən mədəniyyətimizin daha da zənginləşməsinə gətirib çıxarmış, digər tərəfdən də Azərbaycan xalqının milli özünüdərkini stimullaşdırmışdır.

Prezident İlham Əliyevin cəmiyyətin inkişafına böyük önəm verdiyini təsdiqləyən məqamlardan biri də təhsil, elm və mədəniyyətin inkişafını nəzərdə tutan xüsusi Dövlət Proqramının həyata keçirilməsidir. Bundan əlavə ölkə başçısının təhsilin inkişaf istiqamətlərində atdığı mühüm addımlardan biri də ölkəmizdə təhsil müəssisələrinin informasiya texnologiyaları ilə təmin edilməsidir.

Akademik Səlahəddin Xəlilov «Təhsil, elm, tərbiyə» kitabında yazır: «Azərbaycanda təhsil sistemi yeni qurulmur. O, ilk növbədə sovet təhsil sisteminin davamı kimi mövcuddur. Bizim məqsədimiz isə bir

az sovet, bir az da Avropa təhsilinin eklektik qatışığını deyil, milli mahiyyətə əsaslanan və həm sovet, həm də Qərb təhsil sistemlərinin ən yaxşı cəhətlərini məqsədyönlü surətdə nəzərə ala bilən, daxili tamlığa malik bütöv milli təhsil sistemi yaratmaqdır» (7, s.14). Eyni zamanda prezident İlham Əliyevin qərarı ilə bütün kitabların latın qrafikası ilə çap olunması təqdirəlayiq haldır. Belə ki, «prezident İlham Əliyevin «siyasətinin mahiyyətinə vardığı mənəvi-tarixi ehtiyaclardan biri də xalqımızın tarixindəki mühüm ictimai-siyasi, elmi və mədəni hadisələri müasir dövrün tələblərinə uyğun səviyyədə əks etdirən Milli Ensiklopediyanın nəşri ideyasıdır. Milli Ensiklopediya tarixi, elmi-fəlsəfi, metodoloji düşüncənin inkişafı ilə əlaqədar olan bir məsələdir, müasir dünyanı bütövlükdə dərk etmək texnikasının sistemli şəkildə təqdim olunmasıdır» (3, s.65). Bundan başqa, prezident İlham Əliyevin qarşıya qoyduğu mühüm vəzifələrdən biri də neftdən əldə olunan vəsaitin qeyri-neft sektorunun inkişafına xərclənməsidir. Məlumdur ki, təməli 18 sentyabr 2002-ci ildə qoyulmuş Bakı-Tbilisi-Ceyhan əsas neft ixrac kəməri ilə 2005-ci ildə ilk neftin satışına başlandı və bu da Azərbaycana milyardlarla dollar vəsait gətirməkdədir. Neftdən gələn gəlirlərin getdikcə artması sayəsində ölkəmizdə qeyri-neft sektorunun, aqrar sahənin və emal sənayesinin inkişaf etdirilməsi üçün mövcud imkanlar daha da artacaqdır. Bütün bunlar da öz növbəsində Heydər Əliyevin uzaqgörən siyasətinin nəticəsi idi. Bu barədə Heydər Əliyev deyirdi: «Bu gün bir daha bəyan etməliyik ki, Azərbaycanın müstəqilliyi daimidir, əbədidir, dönməzdir və bu yolda hamımız əl-ələ verərək çalışmalıyıq» (2, s.247). Ölkədəki iqtisadi nailiyyətlər, siyasətdəki uğurlar - Qarabağı qaytararaq ərazimizin bütövlüyünə nail olmaq üçün zəmin yaradır.

Bu iqtisadi inkişafın arxasında milli təəssübkeşlik, milli mənlik və vətənpərvərlik amalı dayanır. Bu gün dövlətimizin iqtisadi tərəqqisi qələbəmizin təminatı sayılır. İqtisadi tərəqqini vacib sayan İlham Əliyev bu barədə demişdir: «Düşmən üzərində qələbə qazanmaq üçün iqtisadi nailiyyətlər əldə etmək vacib və zəruri şərtlərdən biridir» (9, s.176).

XX əsrin sonlarında öz müstəqilliyini, dövlətçiliyini və milli varlığını bərpa edən Azərbaycan bu gün mərhum prezident Heydər Əliyevin uğurlu siyasətini həyata keçirən İlham Əliyevin səyi nəticəsində dünya ölkələri içərisində özünə layiqli yer tutur və daima inkişaf edir. Heydər Əliyevin fikrincə desək, «Azərbaycan dövləti öz dövlətçiliyini qorumağa qadirdir» (1, s.9). Eyni zamanda siyasət və mədəniyyətdə əldə edilən bütün nailiyyətlər müasir dövr milli şüurun və milli özünüdərk ideyalarının inkişafının nəticəsidir.

1995-ci ildə Mehriban xanım Əliyevanın rəhbərliyi ilə yaradılmış və xalqın milli mədəni irsini təbliğ edən «Azərbaycan Mədəniyyətinin Dostları Fondu» uğurla fəaliyyət göstərməkdədir. Bu fondun təşkilatçılığı ilə keçirilən xeyriyyə konsertləri nəinki dinləyicilərə sevinc bəxş edir, eləcə də milli mədəniyyətimizin zəngin ənənələrinin davamına yaxından xidmət edir. Eyni zamanda, ölkədə Heydər Əliyev Fondu tərəfindən keçirilən muğam festivalları da bunun bariz nümunəsidir. Qeyd edək ki, muğam təxminən XIV əsrə qədər Yaxın Şərq xalqlarının vahid musiqi janrı olmuş, lakin sonralar baş verən ictimai-siyasi dəyişikliklər səbəbindən bu vahid musiqi janrı başqa xalqlara uyğun şəkildə yayılmışdır. Eyni zamanda Yaxın və Orta Şərq xalqlarının əsrlər boyu qohumlaşmış mənəvi və maddi sərvətləri vardır. Şərq xalqlarının musiqi mədəniyyətində ümumi cəhətlər daha bariz şəkildə özünü göstərir. Çünki bu mədəniyyət böyük bir region əhalisinin müxtəlif formalı və çalarlı əlaqə prosesi əsasında təşəkkül tapmışdır. Məhz bu səbəbdən də onlara bir çox mühüm ümumşərq xüsusiyyətləri xasdır. XX əsr 70-ci illərin əvvəllərində Sovet İttifaqında UNESCO-nun himayəsi altında keçirilən ənənəvi musiqinin beynəlxalq festivalları Qərb üçün Sovet Şərqinin ənənəvi musiqisini, həmçinin orijinal musiqi mədəniyyəti kimi Azərbaycan muğam sənətini «kəşf etdi». O vaxtdan Azərbaycan muğamı dünya mədəniyyəti məkanına daxil olmağa başlayır. 1971-ci ildə UNESCO 50 albomdan ibarət olan «Dünya ənənəvi musiqisinin antologiyası» kolleksiyasına «Şərqin musiqi antologiyası» seriyasında çıxan «Azərbaycan musiqisi» plastikasını daxil edib. 1975-ci ildə Azərbaycan muğamları yenə də UNESCO tərəfindən «Musiqi mənbələri» seriyasında buraxılıb. 2003-cü ildə UNESCO Azərbaycan muğamını «bəşəriyyətin şifahi və mənəvi irsinin şedevrləri» siyahısına daxil etdi və bununla da muğamın bədii təkrarolunmazlığını və dünya mədəniyyəti üçün dəyərini təsdiq etmiş oldu. Bu uğurlar bu gün də davam etməkdədir.

Eyni zamanda müasir dövrdə qədim fəlsəfi fikrə malik Azərbaycan fəlsəfəsinin, ədəbiyyat və mədəniyyətinin öyrənilməsi daha vacib və təqdirəlayiq məsələlərdəndir. Məlumdur ki, Azərbaycan fəlsəfi fikri daha qədimlərə, eramızdan əvvəl II-I minilliyin qovşağında meydana gəlmişdir. Bu Zərdüştün adı ilə bağlı dini-fəlsəfi biliklər toplusu, dünya mədəniyyətinin incisi «Avesta» ilə bağlıdır. Bu gün Azərbaycan fəlsəfəsi bütün təhsil və elm ocaqlarında geniş öyrənilir. Çoxlu sayda fəlsəfi məzmunlu tədqiqat əsərləri, dərs vəsaitləri və proqramlar yazılıb və yazılmaqdadır. Müasir dövr Azərbaycan fəlsəfi fikrinin öyrənilməsində və inkişafında, onun xalqa çatdırılmasında mərhum filosof-alimlərimizdən H.Hüseynov,

A.O.Makovelski, Z.Göyüşov, F.Köçərli, Z.Məmmədov, Ş.Hüseynov, M.Zeynalov, A.Şükürov, C.Əhmədli, F.F.Qasımzadə, Y.Rüstəmov ilə yanaşı akademik R.Mehdiyev, akademik S.Xəlilov, f.e.d. Z.Quluzadə, f.d. S.Rzaquluzadə, f.e.d. H.İmanov, f.e.d. F.Ramazanov, f.e.d. İ.Rüstəmov, f.e.d. R.Aslanova, f.e.d. S.Hüseynov və digərlərinin müstəsna xidmətlərini göstərmək olar. Sadaladığımız bu vətənpərvər alimlər milli özünüdərkə əsaslanaraq yazdıqları sanballı fəlsəfi məzmunlu əsərləri ilə müasir dövr Azərbaycan fəlsəfəsinin inkişafında mühüm rol oynamış və oynamaqdadırlar. Tarixən və müasir dövrdə mənəvi mədəniyyətdə və xüsusən ictimai-siyasi və fəlsəfi ədəbiyyatda milli özünüdərkin nəzəri tədqiqi və millətə təlqinində özünəməxsus və mühüm yeri olub və olmaqdadır. Eyni zamanda, bütün bunlar Azərbaycan xalqının milli özünüdərkində ədəbiyyat və mədəniyyətin rolunun bariz göstəricisidir.

Açar sözlər: milli özünüdərk, milli mənlik süuru, milli burjuaziya, milli ədəbiyyat, maarifçilik, dövri mətbuat, milli mədəniyyət, ictimai-siyasi, milli fəlsəfi fikir.

İstifadə olunmuş ədəbiyyat

1. Ağayev T. Azərbaycan – 1995. Qarşıdurmadan milli həmrəyliyə. I hissə. Bakı, 2005, 456 s.
2. Azərbaycan-1994. Milli dövlətçilik sınaq qarşısında. I hissə. Bakı, 2002, 472 s.
3. Cəfərov N., Osmanlı D. İlham Əliyev (siyasi portret cizgiləri). Bakı, AZ ATAM, 2004, 76 s.
4. Дашдаміров А. Національная ідея в этнокультурном і этнополітіческом контексте. Баку, Азернешр, 2001, 154 с.
5. Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. II cild. Bakı, Azərnəşr, 1997, 607 s.
6. Hacıyeva A. Nəriman Nərimanovun din haqqında fəlsəfi düşüncələri. Bakı, «Azərbaycan Ensiklopediyası» NPB,1998, 168 s.
7. Xəlillov S. Təhsil, təlim, tərbiyə. Bakı, Azərbaycan Universiteti, 2005, 650 s.
8. Сеченов И.М. Избранные філософскіе і псіхологіческіе проізведенія. М.,1947, 504 с.
9.Yusifov M. Heydər Əliyev işığında. Bakı, Nurlan, 2005, 180 s.

Аліяр ОРУДЖЕВ

РОЛЬ ЛІТЕРАТУРЫ І КУЛЬТУРЫ В НАЦІОНАЛЬНОМ САМОПОЗНАНІІ АЗЕРБАЙДЖАНСКОГО НАРОДА В КОНЦЕ XIX – НАЧАЛЕ XX ВЕКОВ

Резюме

Следует отметіть, что національное самопознаніе імеет особо важное значеніе в період серьезных перемен в судьбах народов, условно называемом переходным періодом. Конец XIX – начало XX в. является ісключітельным этапом історіческого предопределенія і развітія національного самосознанія в області літературы і культуры, в національном самоутвержденіі азербайджанского народа.

Ключевые слова: національное самопознаніе, національное самосознаніе, національная буржуазія, національная література, просвещеніе, періодіческая печать, національная культура, общественно-політіческій, національно-філософская мысль.

Aliyar ORUDJEV

THE ROLE OF LITERATURE AND CULTURE IN THE NATIONAL SELF-CONSCIOUSNESS OF THE AZERBAIJAN PEOPLE IN THE END OF THE XIX th AND THE BEGINNING OF THE XX th CENTURIES

Summary

It should be noted that the national self-consciousness is of great importance when the serious changes took place in the people's fortune, in the period conditionally called transitional.

The end of the XIX th and the beginning of XX th century was the exclusive stage in the historical fate of our people and the development of national self-consciousness of literature, art and culture.

The role and place of literature and culture has a great significance in the self-affirmation period of the Azerbaijan people, what is of an essential importance for them.

Keywords: national, self-cognition, national self-consciousness, national bourgeoisie, national literature, enlightenment, periodic press, national culture, sosio-political, national-philosopical thought.

UOT 001

Elşən ALLAHVERDIYEV
AMEA FSHİ-nin əməkdaşı

QLOBALLAŞMA ÜMUMDÜNYA PROSESLƏRİNİN TƏRKİB HİSSƏSİ KİMİ*

Bu gün dünyanın əksər ölkələrində böyük diqqət yetirilən məsələlərdən birinin qloballaşma olması onunla bağlıdır ki, hazırda ictimai həyat sahələrinin inteqrasiyası sürətlə davam edir. Bunu nəzərə alan elm adamları, tədqiqatçılar, mütəxəssislər - bir sözlə alimlər bu barədə öz fikirlərini söyləyir, bir-biri ilə təzad təşkil edən ideyalarını bölüşürlər. Maraqlı cəhət ondan ibarətdir ki, ayrı-ayrılıqda bu alimlərin hamısının haqlı olduğu, həqiqəti söylədiyi aşkar olunur. Bütün bunlar isə yeni elm sahəsinin - qlobalistikanın təşəkkül taparaq inkişaf etməsinə rəvac verir.

Qloballaşma fenomeninin unikal özünəməxsusluğu onun inkişafının mahiyyət və meyillərinin elmi baxımdan öyrənilməsi xeyli obyektiv və subyektiv çətinliklər yaradır. Hazırkı mərhələdə elmi ictimaiyyət qloballaşmanın immanent təbiətinin kifayət qədər qənaətləndirici birmənalı dərkinə malik deyil. Bunun nəticəsi olaraq alimlər çox vaxt qloballaşmanın mürəkkəb təbiətindən, həmçinin bu fenomenin tərifinin qeyri-müəyyənliyi və çoxmənalılığından irəli gələn, müxtəlif həqiqilik dərəcəsi olan mübahisəli tezislərlə kifayətlənmək məcburiyyətindədirlər. Qloballaşma hələlik elə bir inkişaf mərhələsindədir ki, hər bir yeni tədqiqat elmi ictimaiyyət tərəfindən fenomenin mürəkkəbliyini və onun mahiyyətinin adekvat dərkinin çətinliyini təsdiq edən elməbənzər fikir kimi qavranılır.

Hazırda qloballaşma, demək olar ki, bütün ictimai elmlərin tədqiqat obyektinə çevrilmişdir. Xüsusi kateqoriyalar və anlayışlardan istifadə etməklə, bu elmlər hələ ki, qloballaşma fenomeni haqqında hamı tərəfindən qəbul edilə biləjək bir mövqe tuta bilməmişlər və bu sahədə tədqiqatları konseptual baxımdan üstün sayılan müəllifi göstərmək çətindir. Qloballaşma anlayışının tərifi ilə bağlı nəzəri ədəbiyyatda gedən diskussiyalar, bu diskussiyaların konseptual aparatının kifayət qədər əsaslandırılmaması bir çox müasir alimlərin məşğul olduğu tətbiqi tədqiqatlarda anlaşılmazlıqlar yaradır. Onu da qeyd edək ki, qloballaşmanın mahiyyətinə olan yanaşmaların müxtəlifliyi və ziddiyyətliliyinin səbəbləri subyektiv amillərlə, mütəxəssis və tədqiqatçıların elmi dərəjəsi ilə deyil, bəşəriyyətə xoşbəxtlik və ya fəlakətlər gətirə biləjək bu fenomenin çoxşaxəliliyi ilə bağlıdır.

Qloballaşmanın əhəmiyyətini müdrikcəsinə sezən ümummilli lider Heydər Əliyev Minilliyin Zirvə görüşündəki (7 sentyabr 2000-ci il) çıxışında qeyd etmişdir: «Dünyanın inkişafının indiki mərhələsinin başlıca meyli qloballaşmadır. Bu mürəkkəb və heç də birmənalı olmayan prosesin perspektivləri bizim hamımızı düşündürür. Qloballaşma dövlətlərin sabit inkişafının, bütövlüyünün və idarəetmə sistemlərinin stabilliyinin təmin olunmasına, iqtisadi münasibətlərdə ayrı-seçkiliyin aradan qaldırılmasına, xalqların rifah halının yüksəldilməsinə kömək etməlidir» (2, s.3).

Professor İ.Məmmədzadə qeyd edir ki, qloballaşma və müasirləşmə proseslərinə daxil olmaq, digər ölkələrə çatmaq və ötüb keçməkdən ötrü inkişaf üçün müəyyən şüur növünə yönələn qloballaşma dövrünün özəlliyini dərk etmək lazımdır (1,s.23)

Fundamental və tətbiqi araşdırmaları harmonik şəkildə özündə birləşdirən qlobalistika «vahid dünyanı vahid nəzərlə əhatə edir və bu dünyanı, onun inkişaf dinamikasını, daxili qarşılıqlı əlaqəsini ümumiləşdirilmiş parametrlərin vahid sistemi ilə təsvir edir» (3, s.17). A.P.Fedotov isə qlobalistikanı müasir dünya haqqında elmin başlanğıcı kimi xarakterizə edir: «Qlobalistika elə bir elmdir ki, o, bəşəriyyətin ən ümumi inkişaf qanunauyğunluqlarını və idarə olunan, elmi və mənəvi baxımdan təşkil olunan dünya modelini, özünün antropogen cəhətdən qədərindən artıq yüklənmiş epoxasına daxil olan Yer kürəsinin real şəraitində onun sonlu fiziki ölçüləri və məhdud təbii ehtiyatları ilə birgə insan fəaliyyətinin üç əsas qlobal sferasının (ekoloji, sosial, iqtisadi) vəhdətində və qarşılıqlı əlaqəsində öyrənir» (4,s.19).

Qloballaşma dünya prosesinin indiki mərhələsində tamamilə yeni çalarlarla zəngindir. Çox vaxt qloballaşma dedikdə, iqtisadi qloballaşma başa dü-şülür ki, bu da qətiyyən doğru deyil. Hazırda qloballaşmanın üç forması haqqında danışmaq daha düzgün olardı. Bunlar aşağıdakılardır: 1) iqtisadi

* Məqalə fəl.e.d. A.Əlizadə tərəfindən çapa məsləhət bilinib.

qloballaşma; 2) siyasi qloballaşma; 3) mədəni qloballaşma. İqtisadi qloballaşma onun başlıca forması olaraq qalmaqdadır.

Qloballaşan müasir dünyada müxtəlif sosio-mədəni sistemlərin birgə mövcudluğu şəraitində qlobal proseslərin dərinləşməsinin bir çox səbəbləri var. Bu səbəblər içərisində ən mühümləri aşağıdakılardır: a) insanın fərdi-şəxsi inkişafına heç bir aidiyyəti olmayan süni yaradılmış istehlak dəyərləri və tələbatın artmasının obyektiv qanunu arasındakı ziddiyyətlərin əsasında dayanan səbəblər; b) insan tələbatları və onların konkret tarixi sosial gerçəklikdə, həm də dünyada təmin olunma imkanları arasındakı ziddiyyətlərin səbəbləri.

Qloballaşma yaranışı, təşəkkülü və inkişafına görə nə qədər mürəkkəb bir hadisədirsə, onun öyrənilməsi də bir o qədər mürəkkəb prosesdir. XX əsrin əvvəllərindən qloballaşma proseslərinin mahiyyət və anlayış ifadəsi fəlsəfə və digər sosial-siyasi və humanitar elmlərdə özünü bu və ya başqa formada sezdirməyə başlasa da, xüsusi terminoloji vahid şəklində «qloballaşma» 1980-ci illərin ortalarında yaranmış, geniş araşdırma obyektinə çevrilərək, müasir sivilizasiyanın inteqrasiya istiqamətlərini və perspektivlərini çevrələyən bir hadisə kimi tədqiq edilməyə başlamışdır. «Qloballaşma» termininin meydana gəlməsi T.Levitin adı ilə bağlıdır. O, 1983- cü ildə «Harward buziness review» jurnalında çap olunmuş məqaləsində ayrı-ayrı dünya bazarlarının çoxmillətli korporasiyaların istehsal etdiyi məhsullar vasitəsilə təmərküzləşməsini məhz həmin terminlə ifadə etmişdi. 1985- ci ildə «Globalization» anlayışının şərhini verən, 1992-ci ildə isə ayrıca tədqiqat əsəri ilə öz konsepsiyasının əsas mahiyyətini açıqlayan amerikalı sosioloq R.Robertson bu terminin elmi-analitik düşüncə çərçivəsində geniş spektrdə işlənməsinə təməl qoymuşdur. R.Robertsona görə, qloballaşma anlayışı – həm dünyanın bütövlük və vəhdətdə anlanılmasını, həm sferalar arası sıxlaşmanı, həm də yeni yüzillikdə qlobal tam kimi dərk olunmasını özündə əks etdirə bilir. 1990- cı ildə çap etdirdiyi «Sərhədsiz dünya» kitabı ilə yapon alimi K.Omae qloballaşma fenomenini planetəhəmiyyətli bir hadisə kimi elmi təhlil müstəvisinə gətirmişdir (5, s.6). Bu fenomenin elm-nəzəri şərhini vermək, tipologiyasını müəyyən etmək isə, şübhəsiz, öncə onun tarixi mahiyyətini, əsas inkişaf tendensiyalarının xüsusiyyətlərini aydınlaşdırmaq işi ilə sıx bağlıdır.

Azərbaycan alimi R Ulusel qeyd edir ki, qlobalistika bir elm kimi xarakterizə edilərkən onun fəlsəfə, xüsusilə harmoniya fəlsəfəsi ilə bağlılığına böyük önəm verilir. Qlobalistikanın metodologiyasında harmoniya fəlsəfəsinin əsas yer tutması, göründüyü kimi, sonuncunun sistemtörədici və vəhdətyaradıcı mahiyyəti ilə bağlıdır (6, s.35). Metodoloji əsasında harmoniya fəlsəfəsi dayanan qlobalistika müəyyənləşdirər və daha dəqiqləşdirilmiş arqumentlərlə müəyyən edə bilər ki, qloballaşma - hər şey deyil, ümumdünya proseslərinin yalnız tərkib hissəsi, aparıcı tendensiyalarının toplusudur; qloballaşma – elastik, çoxvariantlı mühit yaradır ki, burada müxtəlif fəaliyyət və inkişaf istiqamətlərinin harmonik strukturlaşması birtərəfli və ifrat meyillərdən yayınmağın, bütün tərəflərin bərabər tərəqqisi üçün ardıcıl, təminatlı perspektivlərin açılmasının şərtidir; qloballaşmanın mimezis yox, anamnezis variantı qarşılıqlı münasibətlərin uğurlu, effektiv modelidir.

Qloballaşmanı tarixi kontekstdə öyrənən müxtəlif nəzəriyyələri, bu xüsusda irəli sürülən mövqe, fikir və mülahizələri ümumiləşdirərək aşağıdakı şəkildə qruplaşdırmaq mümkündür:

I.Qloballaşma - bəşər tarixinin ilkin imperiyalarının yaranışından bəri inkişafının təbii davamı və XIX əsrdən başlayaraq daha da genişlənmiş strukturlara keçiliş mərhələsidir (7,s.18).

II. Qloballaşma- dünya sistemi olaraq XV-XVI əsrlərdən özünü təzahür etdirməkdədir (9,s.53).

III. Qloballaşma- yalnız XX əsrin ikinci yarısından etibarən dünya tarixinin yeni epoxası kimi yaranmış və genişlənməyə başlanmışdır (Onun XX əsrin konkret olaraq müəyyən tarixi etaplarından - Birinci və İkinci Dünya müharibələrindən, Soyuq müharibədən və s.- dən sonra başladığını mülahizə edən fikirlər də var).

Qloballaşma mahiyyəti etibarilə həm tarixilik, həm də müasirlik baxımından kumulyativ- toplayıcı xarakterə malik olduğundan özünə məhz həmin üsulların vəhdətini ehtiva edən qlobalistik yanaşmanı zəruri edir: «Qloballaşma anlayışı bütün dünya proseslərinin qarşılıqlı asılılığını və bir-birini qarşılıqlı şərtləndirməsini xüsusi olaraq önəmləyir»(10, s.2). Qloballaşmanı bütövlükdə bəşər tarixi, onun bütün enerjisinin planet üzərində nizamlı strukturlaşma stixiyası hazırlanmışdır. Buna görə də, bəşəriyyətin tarixi həyatının metodoloji əsası, harmoniya fəlsəfəsindən ibarət olan qlobalistik-sivilioji konsepsiyadan yanaşma qloballaşmanı planetar inkişafın diasinxroniyasının yeni epoxal mərhələsi və tarixi inteqrasiya proseslərinin zəruri nəticələr kompleksi kimi tədqiqata cəlb etməyi aktuallaşdırır. İ.Kant, V.Humboldt, İ.Q.Herder, Q.V.F.Hegel, O.Şpenqler, A.Toynbi və Yaspersin tarixi prosesə bütöv baxışın fundamental əsaslarını yaradan təlimləri, onu tarixi-müqayisəli metodla öyrənən nəzəriyyələr, V.İ.Vernadski, P.T.Şarden, P. Sorokin və İ.Priqojinin ona müxtəlif aspektlərdən, lakin bütöv sistem kimi yanaşmaya əsas verən

nəzəriyyələri, müasir dövrdə bəşər sivilizasiyasının qlobal dərki zərurəti ilə irəli sürülən konsepsiyalar və eyni zamanda, formasion və sivilizasion yanaşmaların uzlaşdırılması, ümumi bir müstəviyə gətirilməsi bəşəriyyətin qloballaşma epoxasına doğru bu epoxa da daxil olmaqla təkamül prosesinin qlobalistik-sivilizoloji metodologiya ilə öyrənilməsinə təməl qoyur (6, s.175).

Y.V.Yakovets sivilizasion yanaşma metodu ilə gedərək aşagıdakı müddəaları irəli sürür: «Bir pillədən o birinə adlayan bəşəriyyət tarixi dünya sivilizasiyalarının mərhələli dəyişməsində (qlobal tarixi dövrlər-tsiklərdə) öz ifadəsini tapır. Bu prosesin başlanğıcı neolit inqilabıdır. Sivilizasiyalar bir-birini ardıcıl olaraq əvəz etmişlər: neolit, ilkin sinfi, antik, ortaçağ, ilkin sənaye, sənaye sivilizasiyaları. XX əsrin sonundan humanist-noosfer xarakter daşıyan növbəti - sənayedən sonrakı sivilizasiya başlayır» (10, s.36). Y.V.Yakovets sivilizasiyaların əvəzlənməsində cəmiyyətin transformasiyasının bir-biri ilə bağlı olan beş sivilizasiya piramidası mərhələsini ehtiva etdiyini, qloballaşmanın üç dövrdə (tsikldə) baş verdiyini bildirir. İlk dövrənin - XV əsrdən, ikinci dövrənin - Birinci Dünya müharibəsindən, üçüncü dövrənin - XXI əsrdən başladığını deyir (10,s.23). E.A.Azroant isə bəşər təkamülündə üç dövrəni ayırır: « Birinci - insanın (və onun fiziologiyasının) təşəkkülü, ikincisi – sosial ünsiyyətin (sosial təşkilat və sosiallaşmanın) təşəkkülü, üçüncüsü – Meqasosiumun (mənəvi – əxlaqi quruluşlanmaların) təşəkkülüdür» (11,s.34). Daim təkamül edən Meqasosium – dünyanın sosial bütövlüyüdür. Qloballaşma isə Meqasosiumun ən iri miqyaslı bütövlük formasının başlanğıcıdır: «Onu müəyyən edən faktorların toplanması artdıqca, xaos və quruluşlanmanın səviyyəsindəki uyğunluq da getdikcə artır, daha doğrusu, bir parametr boyunca quruluşlanmanın səviyyəsi yüksəlir, digəri ilə həmin ölçüdə (nəticəyə görə) xaos artmalı olur» (12, s.40). P.V.Malinovskinin «professionallar sivilizasiyası» konsepsiyasına görə, tarixən bəşər sivilizasiyası öz inkişafında üç mərhələdən keçmişdir: «sərbəst professionallar sivilizasiyası (XV – XVIII əsrlər), sərbəst professionalların başçılığı ilə kütləvi sənətlər sivilizasiyası (XIX – XX əsrlər) və elitar cəmiyyətin şəbəkələri dünyasında transprofessionallar sivilizasiyası (XX – XXI əsrlər)». Qloballaşmanın güclü, çoxşaxəli intellekt bazisinin yaradılmasında hər üç mərhələnin bir-birini təkrarlamasının mühüm rol oynadığı şübhəsizdir. Y.S Pivovarov formasion və sivilizasion yanaşmaları tarix fəlsəfəçiliyinin ümumi nəzəri kontekstində müqayisə edərək tarixin klassik marksist və qeyri-marksist dəyərləndirmələrini tutuşdurur, Kondorse, Sen-Simon, Kont, Hegel, Roston, Veber, Kollinqvud, Danilevski, Leontyev, Şpeqler, Toynbi, Sorokin, Yaspers və başqalarının tarixi təkamül prosesinin dərin mahiyyətinə baxışlarının sistemli analizindən bu nəticəni çıxarır ki, «tərəqqi ideyası» tarixin sivilləşmə dinamikasını əks etdirən rasional ideya kimi həmişə qüvvətli, təkzibedilməz olmuşdur. Tarixi inkişafın mərhələliyi onun universallığı ideyası ilə tamamlanmış, inkişaf prinsipi önə çəkilmiş, dünya tarixinin vəhdəti Prinsipi qloballaşma çağında planetdə baş verən hadisələrin, motivləşən tendensiyaların sistemləşdirilib dəyərləndirilməsində daha böyük əhəmiyyət kəsb etmişdir. Sivilizasion və formasion yanaşmaların uyğunlaşdırılması, sintezləşdirilməsi ilə «kompromis konsepsiyalar» «bəşər nəsli tarixinin üçüncü- sintetik və daha adekvat nəzəriyyəsində» təmsil və koordinasiya olunmaq imkanı qazanmışlar (13,s.87).

Qloballaşmanın əsas tendensiyaları müasir dünyanın sosial həyat, siyasət, iqtisadiyyat, mədəniyyət, elm , texnologiya və s. sahələrində yeni keyfiyyət dəyişiklikləri ilə şərtlənən mürəkkəb proseslərin differensiasiya və inteqrasiyalaşmasında öz əksini tapır. Harmoniya fəlsəfəsinə görə qlobal sivilizasiyaya doğru dünya inkişafı ümumbəşəri mənafe parametrlərini meydana çıxarır ki, həmin parametrlərlə yaşadıqda qloballaşmanın bütün əsas tendensiyalarının həm müsbət, həm də mənfi tərəf və təzahürləri ilə gerçəklik faktına çevrildiyi məlum olur. Buna görə də, demək olar ki, bütün yönəlişləri əks proseslərlə müşayiət olunan qloballaşmanın əsas tendensiyalarını sistemləşdirmək mümkündür.

Ümumdünya inteqrasiya proseslərinin qloballaşması nəticəsində sosial şüur və sosial həyat tərzinin planetləşməsi baş verir, unifikasiyalaşdırıcı amillər güclənir. Yaşayışın ümumi standartları, etiketləri əmələ gəlir. Sivilizasiyalararası münasibətlərdə eynicürləşmə və öz seçkinləşmə proseslərinin ümumi bir qanunauyğunluğa tabe olmaq zərurəti meydana çıxır. Dünyagörüşlərinin tipologiyasında planetar meyarlar qüvvətlənir. Standartlaşmaya yol açan qlobal proseslər müxtəlif sivilizasiya modellərində cürbəcür reaksiyalar törədir və bu reaksiyaların doğurduğu fərqli münasibətlər bir-birini sosial şüur və sosial həyat tərzinin planetləşməsinin xarakterində və məzmununda öz əksini tapır. Qloballaşma – dünyanın dərki prosesini sadələşdirmir, əksinə, mürəkkəbləşdirir. Qloballaşma – əhatə miqyasına, əhəmiyyətlilik dərəcəsinə və aparıcı mahiyyətliliyinə görə özünə üç fərqli yanaşmanı meydana çıxarır:

1. Qloballaşma – dünyada gedən bütün prosesləri əhatə edir.
2. Qloballaşma – dünyada gedən proseslərin ən mühümüdür.
3. Qloballaşma – dünyada gedən prosesləri heç də əhatə etmir. Ondan başqa dünyada daha əhəmiyyətli hadisələr baş verir, proseslər gedir. Sadəcə olaraq, başqa hadisə və proseslərə bilərəkdən və ya

bilməyərəkdən göz yumulur. Hegemon dövlətin və ya dövlətlərin müəyyən məqsəd və mənafeləri naminə qloballaşma qabardılır, o, layiq olmadığı halda aşırı hədd diqqət mərkəzinə çəkilir ki, başqa mühüm hadisə və proseslərin mahiyyətindən, baş verən dəyişikliklərə təsir effektindən dünya xəbərsiz qalsın. Yalnız qloballaşma dünyanın dominant hadisəsi kimi informasiyanı öz ətrafında formalaşdırıb planetar psixologiya və rəyin yönəldicisinə çevrilsin. Qloballaşma prosesini qlobalist və antiqlobalist tendensiyalar və onların qarşıdurması kontekstində, eyni zamanda həmin tendensiyaların nəzəri - ideoloji platformalarını, onların yanaşma və nəticələrini nəzərə alaraq toplayıcı – sintez mövqeyindən təhlil etdikdə, bütün tərəflərdən mövcud obyektiv dəyərləndirmələrin aşkar etdiyi və anlatdığı qloballaşma gerçəkliyinin şahidi oluruq.

Qlobalizm və onun apologetləri mövqeyindən qloballaşma dünya inkişafının ən uğurlu, perspektivli, pozitiv tendensiyası kimi dəyərləndirilir; qloballaşma strategiyasının ardıcıl, səbatlı yeridilməsi, tərəddüd etmədən bu yolun davam etdirilməsi, qarşıya çıxan maneələrin aradan qaldırılması, mühafizəkar münasibətlərin dəf edilməsi, uzunmüddətli qlobal layihələrin həyata keçirilməsində, dünyanın bu istiqamətdə dəyişdirilməsi aktlarında qətiyyət, prinsipiallıq göstərilməsi zəruri bilinir. Əlbəttə, bu məqsəd və vəzifələrin həyata keçirilməsi prosesində həm praktiki, həm nəzəri səviyyədə yanlışlıqlara yol verilir, hətta müəyyən ölkələrdə vəziyyətin düzəldilməsinə kömək etmək üçün nəzərdə tutulan proqram və layihələr əks nəticələrin yaranmasına gətirib çıxarır. Dünya praktikasında (əsasən Latın Amerikası ölkələrinin təcrübəsində) rast gəlinən belə halların xüsusilə beynəlxalq, transmilli təsisatların müdaxiləsi nəticəsində baş verməsi qloballaşma proseslərinin daha düzgün istiqamətləndirilməsinə, ona daha obyektiv, milli dövlət maraqları nöqteyi-nəzərindən yanaşmalara ehtiyac duyulur.

Bu gün artıq Rusiya qlobalistikası ümumdünya antiqlobalizm hərəkatının nəzəri- metodoloji fundamentini, siyasi-fəlsəfi əsaslarını yaratmaq funksiyasını öz üzərinə götürmüşdür. Ancaq Rusiya qlobalistikasının Avropa qlobalistikasından fərqi budur ki, o qloballaşma proseslərinə daha ifratçılıqla və tendensiyalı mövqedən yanaşır, yalnız Rusiya maraqlarına xidmət edən birtərəfli, monoton konsepsiyası ilə bu proseslərin əsl mahiyyəti barədə yanlış rəy formalaşdırmağa, dezinformasiya yaratmağa çalışır (6, s.184).

Yuxarıda xatırlatdığımız rus qlobalistlərindən V.A. Lisiçkin və L.A. Şepelin bir qədər irəli gedərək ABŞ-ı Roma imperiyası ilə müqayisə edirlər. Onlar qloballaşmanı sırf Amerika fenomeni kimi izah edirlər və göstərirlər ki, ABŞ artıq 1940-cı illərdən bəri mərhələ-mərhələ «dünyanın idarə edilməsinin vahid sistemini yaratmışdır» (14,s. 323); «ABŞ-ın qlobal strategiyası dünya reallığı şəklində təqdim edilən, əslində dünyanın illüziyalı görüntüsünün yaradılmasına xidmət edən informasiya təsirinə, kütlələri informasiya narkozuna daldırmağa söykənir» (14, s.381); «ABŞ yeni qüdrətli bir gücün – idarə olunan terrorizmin təşkilatçısıdır…» (14,s.396).

Azərbaycan alimlərindən R.Mehdiyev, S.Xəlilov, İ.Məmmədzadə, R.Ulusel, Ə. Abasov, S.Hüseynov, R.Mirzəzadə, A.Şükürov, Y.Rüstəmov və başqaları qloballaşma və onun doğurduğu nəticələr haqqında maraqlı fikirlər irəli sürür, fikir və mülahizələrini bölüşürlər. Bu sahədə daim yeni fikirlərin irəli sürülməsinə, yeni-yeni tədqiqatların aparılmasına ehtiyac vardır və bu ehtiyacdan irəli gələn tələblərin araşdırılması böyük aktuallıq kəsb edir.

Açar sözlər: qloballaşma, inteqrasiya, differensiasiya, proses, konsepsiya, yanaşma, strategiya, sosial həyat tərzi ,yeni keyfiyyət dəyişiklikləri.

İstifadə olunmuş ədəbiyyat

1. Məmmədzadə İ. Qloballaşma və müasirləşmə şəraitində fəlsəfənin aktuallığı haqqında. Bakı, Təknur, 2009.

2. Dirçəliş - XXI əsr, Bakı, 2000, № 9(31).

3. Оленьев В.В.,Федотов А.П. Глобалістіка на пороге XXI века //Вопросы філософіі, 2003, №4.

4. Федотов А.П. Глобалістіка. Начала наукі о современном міре. М., Аспект Пресс, 2002.

5. Şükürov A.M. Qloballaşma: müasir dövr və Azərbaycan. Qloballaşma və Azərbaycan. Bakı, Adiloğlu,2002.

6. Ulusel R. Harmoniya fəlsəfəsi. Bakı, 2007.

7. Erkal M.E. Küreselleşme, Kimlik ve Türk Dünyası // Azərbaycanda Atatürk Mərkəzinin bülleteni. Bakı, AzAtaM, 2003.

8. Велічко О.И. Проблемы глобалізаціі в католіческой мыслі // Політія, 2002, №2
9.Удовік С.Л. Глобалізація: семіотіческіе подходы. М.: Релфбук, Кіев: Ваклер, 2002
10.Яковец Ю.В. Цівілізаціонные аспекты глобалізаціі / Глобалізація. Конфлікт ілі діалог цівілізаціі? М.: Новый век, 2002
11.Азроант Э.А. Размышленія о будушем /Глобалізація. Конфлікт ілі діалог цівілізаціі? М.: Новый век, 2002.
12.Борзунов В.Ф. О некоторых аспектах діскуссіі по проблемам глобалізаціі в контесте цівілізаціонного развітія/Глобалізація. Конфлікт ілі діалог цівілізаціі? М.: Новый век, 2002
13.Півоваров Ю.С. Історіософія ілі антропологія?/Глобалізація. Конфлікт ілі діалог цівілізаціі? М.: Новый век, 2002
14. Лісічкін В.А., Шелепін Л.А. Глобальная імперія зла. М.: Искусство, 1980.

Эльшан АЛЛАХВЕРДІЕВ

ГЛОБАЛІЗАЦІЯ КАК СОСТАВНАЯ ЧАСТЬ ВСЕМІРНЫХ ПРОЦЕССОВ

Резюме

В статье показывается, что глобалізація сегодня охватывает все області общественной жізні. В некоторых развітых странах в этом направленіі ведутся всесторонніе і ценные іссследованія, раскрываются позітівные і негатівные стороны глобалізаціі. В связі с этім была создана новая сфера наукі – глобалістіка. Одновременно в статье аналізіруются связі ученых зарубежных стран і Азербайджана. Глобалізація оценівается как очень удачное, перспектівное і позітівное явленіе, как гарант будущего всемірного развітія.

Ключевые слова: глобалізація, інтеграція, діфференціація, процесс, концепція, подход, стратегія, соцальный образ жізні, новые качестченные ізмененія.

Elshan ALLAHVERDIYEV

GLOBALIZATION AS A PART OF THE WORLD PROCESSES

Summary

The paper shows that at present globalization has covered all spheres of public life. In some advanced countries there are carried out all round and valuable studies in this direction, both positive and negative aspects of globalization are revealed. In this connection, a new field of science – globalistics was founded. At the same time, the article analyzes the relations of scientists from the foreign countries and Azerbaijan. Globalization is assessed as very successful, perspective, positive phenomenon as a guarantor of the future of world development.

Keywords: globalization, integration, differentiation, process, conception, approach, strategy, social way of life, new qualitative changes.

UOT 101

Vüsal ZÜLFÜQAROV
AMEA-nın əməkdaşı

EKOLOJİ PROBLEMLƏR KONTEKSTİNDƏ ELMİN SOSİAL FUNKSİYALARI*

Müasir dövrdə qlobal məsələlərin çözümünün zəruriliyini, xüsusən ekoloji problemlərin aradan qaldırılması məsələsinin aktuallığını nəzərə alaraq elmin sosial funksiyalarının məhz bu kontekstdə xüsusi olaraq nəzərdən keçirilməsini məqsədəuyğun hesab edirik. Belə ki, bir çox mütəxəssislərin mövqeyi, o cümlədən bizim də gəldiyimiz qənaət ondan ibarətdir ki, müasir dövrdə qlobal problemlərin ortaya çıxmasında elmi-texniki inqilab (ETİ) bilavasitə rol oynayır.

Bu kontekstdə konkret fikirlərə diqqət yetirək. Məsələn, V.A.Engelqardt bu münasibətlə aşağıdakıları bildirmişdir: ”Qlobal problemlərin müxtəlifliyinə baxmayaraq, onların hamısına ortaq bir xüsusiyyət xasdır – onların hər biri bu və ya digər dərəcədə ETİ-nin təsiri ilə yaranıb və ya ondan törəmədir”(5, s.366). Tədqiqatçı V.A.Losun mövqeyinə görə, qlobal problemlər ictimai inkişafın müasir tarixi mərhələsində ETİ-nin bilavasitə təzahürü kimi ortaya çıxır (5, s.101). Eyni mövqedən digər görkəmli sovet və dünya alimləri də çıxış edirlər (5, s.5; s.22; s.416; s.440). Əvvəlcə qlobal problemlər adı altında konkret olaraq nəyin başa düşüldüyünü aydınlaşdırmağa çalışaq.

İ.T.Frolov və V.V.Zaqladin qlobal problemlər üçün ümumi səciyyə daşıyan dörd əsas cəhəti ayırd edir. Mütəxəssislərin fikrincə, qlobal problemlər o hadisələrə deyilir ki, bütün bəşəriyyətin maraqlarına toxunur və onun gələcək taleyini şərtləndirir. Bu baxımdan demək olar ki, qlobal problemlər ümumbəşəri səciyyə daşıyır (4, s.6). İkincisi, bu elə problemlərdir ki, dünyanın bütün regionlarında cəmiyyətin inkişafının obyektiv amili kimi özünü büruzə verir, yəni ümumdünyəvi əhəmiyyət kəsb edir (4, s.7). Üçüncüsü, bu elə problemlərdir ki, onların həll edilməməsi bütün bəşəriyyət üçün təhlükə yaradır və ona görə də onların zəruri şəkildə çözümü tapılmalıdır (4, s.8). Dördüncüsü, bu elə təbii, elmi-texniki, sosial və siyasi problemlərdir ki, öz həlli üçün bütün bəşəriyyətin birgə fəaliyyətini və səylərini tələb edir, və hansıları ki regional səviyyədə aradan qaldırmaq mümkün deyildir (4, s.8-9).

“Ümumi halda qlobal problemlərə elə ümumplanetar problemlər aid edilir ki, onlar bəşəriyyətin maraqlarına toxunmaqla yanaşı, öz həllinin reallaşdırılması üçün bütün dünya xalqlarının birgə səylərini tələb edir” (3, s.3). Digər bir monoqrafiyada mütəxəssislər qlobal problemlərin dörd əsas xüsusiyyətini fərqləndirirlər. Onlar bildirirlər ki, qlobal problemlər − birincisi, müasir sivilizasiyanın fundamental ziddiyyətlərini özündə ehtiva edir; ikincisi, hər bir insanın, konkret sosial qrupun, dövlətin və regionun, eləcə də bütün bəşəriyyətin həyatı maraqlarına toxunurlar; üçüncüsü, müasir sivilizasiyanın yalnız gələcək inkişafına deyil, həm də hazırkı tarixi prosesdəki varlığı üçün təhlükə yaradırlar; dördüncüsü, bütün ölkələrin, xalqların və dövlətlərin planetar əməkdaşlığının zəruriliyini ortaya çıxarırlar (3, s.4). Zənnimizcə, bu fikirləri də tam əsasla bölüşmək mümkündür.

Qlobal problemlər üçün ümumi olan cəhətləri müəyyənləşdirən alimlər bu əsasda onların təsnifatını aparmış və bu işi iyerarxik qaydada təqdim etməyə çalışmışlar. Konkret olaraq, tanınmış sovet alimlərinin daha bir monoqrafiyasında qlobal problemlərin iyerarxik təsnifatı aşağıdakı ardıcıllıqla verilmişdir: “Hərb və sülh məsələləri; keçmiş kolonial ölkələrin zəif inkişafının və imperialist ölkələrdən asılılığının aradan qaldırılması problemi; insanların enerji və ərzaq ilə təmin edilməsi problemləri; ekoloji xarakterli problemlər; demoqrafik problemlər” (8, s.61). Qeyd edək ki, Sovet İttifaqı üçün qlobal problemlərin vaciblik dərəcəsini göstərən bu ardıcıllıq Qərb ölkələrində fərqli qaydada aparılmışdır. Qərb mütəxəssisləri qlobal problemlərə həsr edilmiş ilk yazılardan başlayaraq dünyanın ekoloji vəziyyətini daima birnömrəli qlobal problem kimi dəyərləndirmiş və çox güman ki, nüvə müharibəsinin reallaşacağının qeyri-mümkünlüyü ehtimalından irəli gələrək hərb və sülh məsələsini əsas etibarilə ikinci planda nəzərdən keçirmişlər. Dediklərimizin doğruluğuna əmin olmaq üçün qlobal problemlər üzrə ilk ciddi elmi tədqiqatlarını həyata keçirən və dünyanın nüfuzlu qeyri-hökumət təşkilatı kimi tanınan məşhur Roma klubunun üzvlərinin əsərlərinin məzmununa diqqət yetirmək kifayət edir (7; 12; 13).

---

* Məqalə fəl.e.d. F. Qurbanov tərəfindən çapa məsləhət bilinib.

Yuxarıda qeyd edilən iki problemdən hər biri (hərb və sülh məsələsi, ekoloji problem) şübhəsiz ki, ETİ-nin bilavasitə təsiri nəticəsində meydana gəlmişdir və sırf qlobal səciyyə daşıyır. Bu baxımdan mütəxəssislər haqlı olaraq qeyd edirlər ki, bəzi qlobal problemlər (ərzaq, demoqrafik) universal xarakterli olub daha çox regional əhəmiyyət kəsb edirlər (3, s.4). Biz isə öz tərəfimizdən hesab edirik ki, bu problemlər yalnız uzaq gələcəkdə ekoloji problem qədər böyük aktuallıq kəsb edəcəklər. Konkret olaraq, hazırda əksər dünya dövlətləri üçün enerji qıtlığı böyük və ağır bir problem kimi ortaya çıxır.

ETİ-nin yaratdığı fəsadlar ilk növbədə ekoloji problemlərin həlli istiqamətində özünü daha qabarıq şəkildə büruzə verir. Fikirlərinə istinad etdiyimiz alimlərdən İ.T.Frolov və V.V.Zaqladin konkret olaraq öz mövqelərini belə bildirmişlər: "Bu gün ətraf mühitin qorunması problemi bir çox hallarda digər qlobal problemlərlə müqayisədə aparıcı əhəmiyyət kəsb edir"(4, s.154). Eyni mövqedən bir sıra digər mütəxəssislər də çıxış etmişlər (8, s.366; 3, s.202). ETİ-nin bilavasitə təsiri nəticəsində ətraf mühitin çirklənməsi reallığı hazırda özünün ən təhlükəli həddini yaşamaqdadır. Bu istiqamətdə söylənilən fikirlər hələ 60-cı illərin sonlarından etibarən mütəmadi şəkildə bir sıra Qərb mütəxəssislərinin elmi tədqiqatlarında özünə yer tapmışdır. Məsələnin aktuallığını nəzərə alıb dünya alimlərinin narahatçılığına səbəb olan real ekoloji vəziyyətin araşdırılmasına və bu təhlükəni yaradan konkret faktların üzə çıxarılmasına səy göstərək.

ETİ-nin təbiətə göstərdiyi təsirdən söhbət açan Y.V.Oleynikov haqlı olaraq bildirir ki, elm tərəfindən təbiət hadisələrinin öyrənilməsi ətraf mühitə olduqca az ziyan vurur. Ətraf mühitin çirklənməsi əsas etibarilə müasir elmi-texniki nailiyyətlərin istehsal sahəsində tətbiq edilməsi ilə əlaqəlidir (11, s.278). Bu məsələyə münasibət bildirən akademik İ.T.Frolov qeyd edir ki, həddən artıq gücə malik və daima inkişaf edən texniki vasitələrin köməkliyi ilə təbiət resurslarını istismar edən bəşəriyyət öz həyat səviyyəsini hazırkı dövrdə olduqca yaxşılaşdıra bilmişdir. Lakin təbiəti ram etməklə, insan öz həyatının təbii əsaslarını da təhlükə altına salmışdır, cəmiyyət ilə təbiət arasındakı normal qarşılıqlı əlaqəni pozmuşdur (8, s.367).

Bu sahədə fəaliyyət göstərən tədqiqatçı Q.V.Antonoviç narahatçılıqla qeyd edir ki, XX əsrin ikinci yarısından etibarən cəmiyyətin başı üzərini alan qlobal ekoloji böhran insan varlığının təbii əsasını nəzərə almayan, ətraf mühiti zəhərləyən antitəbii texnologiyaların təsiri nəticəsində mümkün olmuşdur (10, s.309).

"Elmi-texniki tərəqqi (ETT) obyektiv ikili xarakter kəsb edir, çünki cəmiyyətin və təbiətin qarşılıqlı əlaqələrinin substansiyası kimi çıxış edən əməyin özü ikili xarakter daşıyır – yaradıcı və dağıdıcı. Ekoloji amillərin kifayət dərəcədə nəzərə alınmadığı təqdirdə elmi-texniki tərəqqi biosferdə baş verən proseslərdə arzuolunmaz nəticələrə gətirir. Bu səbəbdən son zamanlar alimlərin yaranmış problemlərin həlli istiqamətində konkret addımların atılması haqqındakı çağırışları daha tez-tez eşidilir"(9, s.72). ETT-nin təbiətə dağıdıcı təsir mexanizmi aşağıdakı kimi ifadə edilir: "Elmi-texniki tərəqqi, istehsal prosesinin keyfiyyətcə yeniləşdirilməsi müxtəlif metalların, ərintilərin, kimyəvi maddələrin geniş şəkildə tətbiqini tələb etdi, hansılar ki təmiz halda təbiətdə tapılmırlar və ona görə də onların mövcud biogeokimyəvi dövrandakı utilizasiyası mümkün olmur. Məhz bu cür maddələrin istehsal həcmlərinin kəskin şəkildə artması və onların utilizasiyası üçün lazımi vasitələrin, imkanların olmaması ətraf mühitin çirklənməsini şərtləndirmişdir" (9, s.79).

Dünya alimlərinin əksəriyyəti hesab edir ki, ətraf mühitə dəyən ən böyük ziyanlardan biri sənaye müəssisələrində və insanın digər fəaliyyət sahələrində neft məhsullarının və kömürün yandırılması nəticəsində atmosferə buraxılan karbon qazının iqlimə göstərdiyi neqativ təsiri ilə bağlıdır. Atmosferin karbon qazı ilə çirklənməsi isə təhlükəli "parnik effektinin" yaranmasına səbəb olur. Roma klubunun nümayəndəsi E.Pestel bu münasibətlə bildirir ki, "parnik effektinin" baş verməsi Yer kürəsi üzrə orta temperaturun artmasını şərtləndirir və bu da buzlaqların əriməsinə gətirir. Nəticədə, sahil kənarında salınmış bir çox şəhərlərin su altında qalması təhlükəsi ortaya çıxır (6, s.207). Bu məsələyə toxunan digər tanınmış rus alimləri göstərirlər ki, atmosfer qatında karbon qazının miqdarının artması dünya üzrə havanın dövr etməsinə (sirkulyasiyasına) mənfi təsir göstərəcəkdir. Bunun nəticəsində dünyanın bir sıra bölgələrində torpaqların səhraya çevrilməsi (aridləşmə) müşahidə olunacaqdır (8, s.411). Müəlliflər energetika və kimya sahələrinin tullantılarının təbiətə təsiri nəticəsində "turş yağışların" yağması, okean və dəniz sularının zəhərlənməsi kimi çox ciddi ekoloji problemlərə də diqqət yetirmişlər. Bu məsələlərin çözümünə həsr edilmiş monoqrafiyalardan birində göstərilir ki, hər il atmosferə 300 milyon tona yaxın müxtəlif tərkibli kimyəvi maddələr buraxılır (3, s.205). Bu səbəbdən biosferdə dağılma prosesləri (deqradasiya) gedir ki, nəticədə tarixən formalaşmış iqlim rejiminin pozulması qaçılmaz hal alır. Karbon qazının təbiətə vurduğu ziyandan konkret faktlar əsasında söhbət açan müəlliflər daha sonra atmosferdə ozon qatının deşilməsi probleminə toxunurlar. Onların mühakimələrindən maraqlı bir fakt da aydın olur ki, atmosferin çirklənməsinin əsas səbəbkarı məhz ETİ-nin nailiyyətlərindən geniş şəkildə yararlanmağı bacaran inkişaf etmiş ölkələrdir (3, s.205). Xüsusi olaraq qlobal ekoloji problemin həllinə həsr edilmiş

monoqrafiyada aşağıdakı fikirlərə rast gəlirik: "Şəhərlərin və sənaye mərkəzlərinin hava məkanına daxil olan bir çox texnogen maddələr təhlükəli tullantılardır. Bu tullantılar insanların sağlamlığına, canlı təbiətə, maddi dəyərlərə zərərli təsir göstərir"(11, s.9). Müəlliflər daha sonra atmosferdə karbon və kükürd tərkibli maddələrin miqdarından söhbət açır, "turş yağışların" torpağa və insana vurduğu zərərdən, ozon qatının dağılmasından və digər ekoloji problemlərin ortaya çıxmasından konkret misallar əsasında geniş, ətraflı və hərtərəfli şəkildə mühakimə yürüdürlər. Alimlərin sonrakı fikirlərindən aydın olur ki, təbiətin çirklənməsi məsələsində silahlanmanın yaratdığı neqativ təsir də az rol oynamır. Müəlliflər bildirirlər ki, silahlanmanın gedişində yalnız maddi və intellektual resurslardan istifadə edilmir, həm də təbiətin yaratdığı nemətlər küllü miqdarda insanlara heç bir fayda gətirmədən israf olunur. Digər tərəfdən, silahlanma prosesi ətraf mühitin çirklənməsinə də ciddi təsir göstərir (11, s.19). Müəlliflər bu məsələ ilə bağlı konkret faktlara və misallara müraciət edirlər. Silahlanma mövzusuna toxunan akademik D.M.Qvişiani bildirir ki, dünya üzrə hərbi məqsədlərə yönələn xərclər ümumdünya məhsulunun 5-6%-ni təşkil edir, dünyada aparılan elmi tədqiqatların və hazırlanan layihələrin 40%-i isə bu istiqamətdə aparılan işlərə sərf edilir (5, s.62).

Müasir Azərbaycan filosofu S.Xəlilov məşhur A.Eynşteyndən gətirilən sadə bir misalla silahlanmanın bəşəriyyət üçün nə dərəcədə təhlükəli və faciəvi sonluqla nəticələnəcəyini şərh edir: A.Eynşteyndən üçüncü dünya müharibəsi haqqında nə düşündüyünü soruşurlar. O, isə üçüncü dünya müharibəsi haqqında heç nə deməyərək, dördüncü dünya müharibəsinin ox və kamanla olacağını söyləyir. Lakin A.Eynşteynin bu ehtimalı hərbi texnikanın 40 il bundan əvvəlki səviyyəsi üçün doğru sayıla bilər. Müasir dövrdə dağıdıcı və kimyəvi qırğın silahlarının gücü elə bir həddə çatmışdır ki, müharibədən sonra harada isə Afrika cəngəlliklərində adamlar qalacağına və bəşəriyyətin keçdiyi bütün tarixi yolun təzədən təkrar olunacağına da ümid yoxdur. Qarşıda Yer üzərində həyatın, ümumiyyətlə, qalıb-qalmaması məsələsi durur (1, s.71). Məsələnin bu tərəfi fəlsəfə elmləri doktoru Füzuli Qurbanovun "Tarixin "postQərb" mərhələsinə keçid. I cild. Risklər, proqnozlar və ssenarilər" adlı monoqrafiyasında geniş təhlil edilmişdir (2).

Şübhəsiz ki, elmin cəmiyyətdəki rolu ETİ-nin yalnız neqativ tərəflərinin işıqlandırılması ilə məhdudlaşdırıla bilməz. Bu heç düzgün də olmazdı. ETİ-nin yaratdığı problemlər əslində insan təfəkkürünün bir sıra hallarda dar düşüncəli səciyyə daşıması ilə ortaya çıxır. Misli görünməmiş ETT, insanın təbiət proseslərinə müdaxiləsinin ifrat dərəcədə artması, tükənən resursların aramsız şəkildə sərf edilməsi və s. bu tipli fəaliyyət müasir dövrdə insanın atacağı addımları qarşısındakı məsuliyyətini kəskin şəkildə artırır. "Artıq bəşəriyyət səhv etmək imkanından məhrum olmuşdur"(8, s.79). Alimlər hesab edirlər ki, istehsal qüvvələrinin inkişafının müasir səviyyəsi və təbiət-cəmiyyət əlaqələri haqqındakı elmi təsəvvürlər təbiət proseslərinə tarixən formalaşmış sırf texniki, istehlakçı münasibətin aradan qaldırılmasını qaçılmaz edir (8, s.386). ETT tərəfindən insanların sağlamlığına və ətraf mühitin keyfiyyətinə göstərilən mənfi təsirin qarşısının alınması istiqamətində bir sıra mütəxəssislər tərəqqinin ekologiyalaşdırılması prinsipindən irəli gəlməyi tövsiyə edirlər (10, s.311). Bu prinsipə əsasən yeni yaradılan hər bir texnologiya və texnika insanın orqanizminə və ətraf mühitə ziyanlı olmaması testindən keçməlidir, ekoloji təftişə məruz qalmalıdır. Bu təklifin müəllifləri hesab edirlər ki, elmin və istehsalın ekologiyalaşdırılması təbiətin və insan sağlamlığının qorunmasına xidmət edə biləcək keyfiyyətcə yeni texnologiyaların, yeni avadanlıq və materialların istehsalına imkan verəcəkdir. Fikirlərini inkişaf etdirən müəlliflər bildirirlər ki, ekologiyalaşdırılma prinsipinin bir tərəfi də yeni təfəkkürlü insanın tərbiyəsi məsələsi olmalıdır. Bunun üçün isə cəmiyyətdə insanların tələbatlarının ekologiyalaşdırılması siyasəti həyata keçirilməlidir (10, s.316). Bu siyasət, tələbatların ekologiyalaşdırılması insanda elə vərdişlər, istəklər formalaşdırmalıdır ki, onlar sağlamlıqlarına xidmət edən ekoloji cəhətdən təmiz məhsullara və həyat tərzinə üstünlük versinlər.

Cəmiyyətdə ekologiyalaşdırılma siyasətinin aparılmasını tövsiyə edən daha bir qrup tədqiqatçılar hesab edirlər ki, ETT-nin istiqaməti, dünya sivilizasiyanın gələcək inkişafı yalnız cəmiyyət daxilində baş verən sosio-iqtisadi proseslərin gedişindən deyil, həm də ətraf mühitin qorunmasından, ekoloji vəziyyətdən asılı olacaqdır (9, s.239). Müəlliflər hesab edirlər ki, əgər ETT-nin sürəti hazırda olduğu kimi ətraf mühitin çirkləndirilməsi, bərpa olunmayan təbii ehtiyatların tükənməsi, biosferdə ekoloji tarazlığın pozulması hesabına davam etdiriləcəksə, o halda belə inkişaf özünün gələcək perspektivləri baxımından davamlı olmayacaqdır və hətta tərəqqinin bir müddətdən sonra ləngiməsi prosesi də müşahidə ediləcəkdir. Bu kontekstdə düşünən İ.T.Frolov və V.V.Zaqladin də hesab edirlər ki, ETİ-nin nailiyyətləri yalnız neqativ məqamların ortaya çıxması ilə səciyyələnmir. Onlardan bacarıqla istifadə edildiyi halda və indiki dövrün ekoloji və digər qlobal yönümlü tələblərinə müvafiq olaraq yanaşıldığı təqdirdə ətraf mühitin çirkləndirilməsinin qarşısını alan, biosferin və ümumən təbiətin yaxşılaşdırılmasına yönələn texnoloji tədbirlərin həyata keçirilməsi gözlənilən müsbət effekti verə bilir (4, s.164).

Beləliklə, elmin sosial funksiyalarının müasir dövrün qlobal problemləri, xüsusən ekoloji problemlər kontekstində nəzərdən keçirilməsi müəyyən nəticələrin əldə edilməsinə imkan verir. İlk növbədə elmin bilavasitə istehsal gücü funksiyasının əvvəlki, yəni industrial təzahür forması hazırkı postindustrial cəmiyyətlər üçün keyfiyyətli dərəcədə dəyişmiş durumdadır. Bu qənaəti qabaqcıl dünya dövlətlərinin yaxın 30 ildə keçdiyi tarixi inkişaf yolu açıq-aşkar şəkildə büruzə verir. Qabaqcıl dünya ölkələrinin təcrübələrdən irəli gələrək deyə bilərik ki, yeni innovasion texnologiyaların tətbiqinə əsaslanan elmtutumlu istehsal prosesi hər hansı bir cəmiyyətin iqtisadi inkişafında yüksək nailiyyətlərin əldə edilməsini yalnız buraxılan məhsulun kəmiyyət və keyfiyyət göstəriciləri hesabına təmin etmir, həm də yeni elmi-texniki nailiyyətlərdən fərasətlə yararlanmağı bacaran bu cəmiyyətin enerji resurslarının qənaətlə işlədilməsinə geniş imkanlar açır. Hazırkı dövrdə enerji probleminin artıq qlobal bir məsələyə çevrilməsini nəzərə alsaq, bu qənaətçillikdən ölkənin büdcəsinə gələn real mənfəəti təsəvvür etmək çətin olmaz.

Elmin sosial gücü funksiyasına gəldikdə isə, onu qeyd etmək olar ki, bəzən özəl sektor və ya dövlət tərəfindən maliyyələşdirilən sosial yönümlü iri təsərrüfat proqramlarının həyata keçirilməsi cəmiyyətdə baş alan ciddi ekoloji problemlərin daha da dərinləşməsinə yol açır. Lakin bu əsasən o hallarda mümkün olur ki, həmin ölkədə yeni texnologiyalara əsaslanmayan, enerjinin və maddi resursların qənaətcil sərfini nəzərdə tutmayan, yəni industrial dövrün xüsusiyyətlərini özündə daşıyan mənəvi aşınmaya məruz qalmış texnika və digər istehsal vasitələrindən istifadə edilir.

Müasir dövrümüzdə ekoloji problemlərin daha da dərinləşdiyi, sivilizasiyalararası müharibə təhlükəsinin hələ də sovuşmadığı bir dönəmdə bəşəriyyətin sağlam düşüncəli insanları ETİ-nin nailiyyətlərindən düzgün istifadə edilməməsi hallarını nəzərə alaraq, bəşəriyyətin gələcək perspektivləri haqqında narahatçılıq hissləri keçirməyə bilməzlər. Deməli, dünyada mövcud olan qlobal problemlərin insanların şüuruna göstərdiyi təsir nəticəsində elmin dünyagörüşü funksiyası əvvəlki dövrlərə nisbətən keyfiyyətcə yeni bir təzahür formasını yaşamaqdadır. Bu elə bir dövrdür ki, ETT-nin doğurduğu fəsadlara biganə qalmaqla, bəşəriyyətin inkişaf təmayüllərinin təhlükəli istiqamət götürməsinə yol açmaq olar.

Hazırda bəşəriyyət öz sağlam gələcəyi üçün olduqca narahat durumdadır. ETT-nin nailiyyətləri elə bir inkişaf səviyyəsinə çatmışdır ki, bu imkanlardan düzgün istifadə edilməyəcəyi təqdirdə bəşəriyyətin faciəvi sonluğu qaçılmaz reallığa çevrilə bilər. Məhz bu reallığın dərk edilməsinin nəticəsidir ki, planetimizin gələcəyi naminə dünyadakı istismarçı qlobalizm təmayüllərinə qarşı çıxan sağlam düşüncəli insanların haqlı etiraz sədaları (antiqlobalistlər, "yaşıllar" hərəkatı və s.) daha çox eşidilməkdədir. Ümid etmək olar ki, çox da uzaq olmayan bir gələcəkdə Yer kürəsinin bütün insanları bu yolun alternativi olmadığını nəzərə alaraq bu istiqamətdə öz səylərini birləşdirəcəklər.

Açarlar sözlər: elm, elmin sosial funksiyaları, ETİ, ETT, ekoloji problemlər, qlobal problemlər, tərəqqinin ekologiyalaşdırılması, silahlanma.

İstifadə olunmuş ədəbiyyat

1. Xəlilov S. Təhsil, təlim, tərbiyə. Bakı, "Azərbaycan Universiteti", 2005, 650s.
2. Qurbanov F. Tarixin "postQərb" mərhələsinə keçid. I cild. Risklər, proqnozlar və ssenarilər. Bakı, "Təknur", 2009, 378 s.
3. Дрейер О.К., Лось Б.В., Лось В.А. Глобальные проблемы і «третій мір». М., «Наука», 1991, 288 с.
4. Загладін В.В., Фролов И.Т. Глобальные проблемы современності: научный і соціальный аспекты. М., «Меж. отношенія», 1981, 240 с.
5. Марксістско-ленінская концепція глобальных проблем современності. М., «Наука», 1985, 446 с.
6. Пестель Э. За пределамі роста. М., «Прогресс», 1988, 272 с.
7. Печчеі А. Человеческіе качества. М., «Прогресс», 1980, 302 с.
8. Соціалізм і прогресс человечества: Глобальные проблемы цівілізаціі. М., «Політіздат», 1987, 447 с.
9. Ускореніе, інтенсіфікація, экологія. Кішінев, «Штіінца», 1988, 280 с.
10. Філософскіе вопросы развітія і НТП. Кішінев, «Штіінца», 1991, 339с.
11. Філософскіе проблемы глобальной экологіі. М., «Наука», 1983, 352с.
12. Meadows D.H., Meadows D.L., Randers J., Behrens W.W. The limits to growth. New York, Universe Books, 1972.

13. Mesarovic M., Pestel. E. Mankind at the turning point. N.Y., Readers Digest/Dutton, 1974.

Вусал ЗУЛЬФУГАРОВ

СОЦІАЛЬНЫЕ ФУНКЦІІ НАУКІ В КОНТЕКСТЕ ЭКОЛОГІЧЕСКІХ ПРОБЛЕМ

Резюме

В статье соціальные функціі наукі рассматріваются в контексте глобальных, в частності экологіческіх, проблем современності. Указывается, что результаты НТП достіглі такого уровня, что в случае неправільного пользованія этімі возможностямі трагіческій конец человечества может превратіться в неізбежную реальность. Именно ісходя із этого соціальные функціі наукі по сравненію с предыдущімі періодамі должны пріобретать новые формы.

Ключевые слова: наука, соціальные функціі наукі, НТР, НТП, экологіческіе проблемы, глобальные проблемы, экологізація прогресса, вооруженіе.

Vusal ZULFUGAROV

SOCIAL FUNCTIONS OF SCIENCE IN THE CONTEXT OF ECOLOGICAL PROBLEMS

Summary

In the article the social functions of science are considered in the context of global problems, in particular, the ecological problems of the present. It is shown that the achievements of STP reached such a level of development that in the case of incorrect use of these opportunities, tragic ending of the mankind will be turned into inevitable reality. As a result of all this the social functions of science compared with the previous period acquire a new form of manifestation.

Keywords: science, social functions of the science, STR, STP, ecological problems, global problems, ecologization of the progress, armament.

UOT 392

Əlirza MALİKİ
AMEA FSHİ-nin dissertantı

İRANDA BƏXTİYARİ ETNOSUNUN MƏİŞƏT MƏDƏNİYYƏTİ HAQQINDA*

Bəxtiyari İranın böyük etnoslarından biri olan böyük Lorun adlarından biridir və o Zaqros silsilə dağlarının orta hissələrində yerləşir. (Kiçik Lorlar indiki Lorestan və İlam əyalətlərinin sakinləridirlər). Böyük Lor tayfalarına Bəxtiyari adını ilk dəfə Həmdullah Mustufi vermişdir. Sonralar böyük şöhrət qazanmış və gücə malik olan bu tayfa nəhayət böyük Lor məntəqəsinin əksəriyyətini təşkil etmiş və Bəxtiyari adı ilə tanınmışdır. Səfəvilərin hakimiyyəti dövründə Bəxtiyari adı bu bölgənin seçilən tayfalarından olan böyük Lor tayfasına verildi. Bu ad "bəxtiyar" sözündən götürülmüşdür. Buna baxmayaraq, tarixi qaynaqlarda Bəxtiyari adına XIV əsrin əvvəllərində rast gəlinir. Fətəlişah Qacarın şahlıqı dövrünün ilk illərində Bəxtiyari fars məntəqəsinə aid idi. Karun çayı Fars ilə Əcəm İraqini bir-birindən ayırırdı. Hicri- qəməri tarixinin 1252-ci ilində Bəxtiyari bəzən Fars məntəqəsi, bəzən də Xuzistanın bir hissəsi hesab edilirdi. Bəxtiyarilər bölgənin tarixində həmişə siyasi-hərbi və iqtisadi cəhətdən böyük rola malik olmuşlar.

Xüsusilə, Məşrutə hərəkatında onların rolu çox böyük olmuşdur. Bəxtiyarilərin tarixi haqqında ilk kitabı Sərdar Əsəd Bəxtiyari yazmışdır. O, bu kitabda həm bəxtiyarilər və həm də başqa Lor tayfaları haqqında qısa da olsa məlumat vermişdir. Bəxtiyarilər haqqında verilən məlumatlardan biri, onların ya Baxtərilər, ya da qərb Zaqros sakinləri olmaları göstərilir. Bəxtiyarilər Loratabəylər sülaləsini (Hezar Esfiyan) təşkil edir ki, onların da paytaxtı İzə şəhəri idi.

Bəxtiyarilərin yaşadıqları ərazi Çaharmahal və Bəxtiyari əyalətlərində Suraşcanın (Suraşqan) Larkasından başlanır və Sudcana qədər davam edir. Bu ərazilər Behdarvənd, Mənczibab, Raki tayfalarına məxsusdur, həmçinin Bəxtiyari tayfaları Mizdəc (İzədcilərin məkanı) məntəqəsinin indiki Conqan məntəqəsindən başlanır və Kuhrəngə qədər davam edir. Furuzəndə və Əmani türk tayfalarından başqa Conqanda məskunlaşmış başqa tayfalardan, Bəxtiyariləri və Farsanidiləri göstərmək olar. Sonuncular ən çox Şiraz məntəqəsindən mühacirət edənlərdir. Bu ərazidə yaşayan digər tayfalar Səhid, Dinarunibab, Babali və s. ibarətdir. Kiyar adını Duruki tayfası Klar dağından götürmüşdür ki, bu da Dastandan başlanıb Göhruda və Sibəkə məntəqələrinə qədər davam edir. Burada adət-ənənə Bəxtiyarilərdə olduğu kimidir. Gəndman məntəqəsi Gəlugərddən başlanıb Dorahanda qurtarır. Bu ərazidə Bəldaci şəhərində azsaylı tayfalar istisna olmaqla (məsələn Qaşqayılar) qaçqınların hamısı Bəxtiyari tayfalarından ibarətdir. Bəxtiyari mahallarından kənarda Şəhrikord, Fəroxşəhrdən, Saman məntəqəsinə qədər, olan sahələrdə yaşayanlar demək olar ki, əsil Bəxtiyari deyillər. Oraya ən çox qərb məntəqələrindən köçmüşlər. Hal-hazırda Bəxtiyarilərin müəyyən hissəsi Xuzistan əyalətinin böyük bir hissəsində, o cümlədən Məsced Soleyman, İzə, Əhvaz məntəqələrinin bəzi yerlərində, Hendican və Mahşəhrəqədər İsfahan əyalətinin bəzi yerlərində (Daran və Feridənşəhrdən Qolpaqyana, Xuansar və Zərrinşəhrə) həmçinin Lorestan əyalətin bir hissəsində (Əliqudərz və Əznada) məskunlaşmışlar. Bəxtiyari əyalətində Şəhrekord (yerli sakinlərin dilində Dehkord) və Çaharmahal soyuq iqlimə malik olan şəhərdir Xuzistan əyalətində İzə məntəqəsi isə isti iqlimə malik olan şəhərdir. Buna baxmayaraq, Şəhrekordun əsas sakinləri kürdlərdən deyil, burada müxtəlif tayfalar məskunlaşmışlar. Bu tayfalardan Bəntalibilər Gilanqərbdən, Vahid Həbəşədən, Təməddon və Maxtarilər isə Yəzdin əyalətinin dərvişlərindən ibarətdir. Nəmədmal tayfası Atabəylər dövründə Hindistandan buraya köçmüşlər. Nafiyanilərin, Əbdullahilərin, Estəkilərin, Səfərpurların və s,. hamısının Dehkordun qədim tarixində kökləri var və bəxtiyaridirlər, lakin onlar tədricən Lencan ləhcəsinə uyğunlaşmış və onu da qeyd edək ki, bu ləhcə indiki İsfahan ləhcəsinə çox oxşayır.

Bəxtiyarilərin soyu:

Bəxtiyarilərin dil və soyları İranın cənub qərb, yəni farslarla eyni şaxədəndir. Məşhur fransız arxeoloqu Gerişmən yazır ki, bu yurdun (Bəxtiyarilərin yurdu) harasına ayaq basdımsa İlam sivilizasiyasından başqa bir şey görmədim. Aşur Banipal tərəfindən İlam ölkəsi işğal ediləndən sonra İlam

* Məqalə fəl.e.d.,prof. S. Hüseynov tərəfindən çapa məsləhət bilinib.

milləti dağlara qaçmışlar. Lakın, Kir İlamda hakimiyyəti ələ keçirdikdən sonra indiki Məscid Soleyman, Parsumaş dağlarında Həxməneşi (Əhmənilər) dövründə İlam öz gücünü yenidən bərpa etdi. İlam sivilizasiyasının qalıqlarında, Təxti-Cəmşidin, Kirin daş üzərindəki yazılarında buğda şəkli aşkar olunmuşdur. Bəxtiyarilərin indiki xəritəsində İlamilərin tarixi sivilizasiyasının daha çox Bəxtiyarilərin tərkibində olduğu görünür. Halbuki, ilamilərin zəifləməsi Ariyaların Sibir ərazisindən İran torpağına gəlmələrinə səbəb olmuşdu. Lakin Ariya onların ilamilərlə qohumluqları bu iki etnosun mədəniyyətlərinin yaxınlaşması ilə əlaqədardır. Sonralar İlam sivilizasiyası yazı, dil, adət-ənənə və din sahəsində Əhmənilərin ədəbiyyatında, daha sonra isə İran mədəniyyəti adı altında yenidən canlandı.

Bəxtiyarilərin tayfa və qolları

Böyük Bəxtiyari etnosu iki şaxəyə - Həftləng və Çaharlongə şaxələrinə ayrılır.

Həftlong dörd yerə bölünür: Bahadurvənd, Babali, Durki və Dinarinio Novruzi.

Çaharləng isə Beşbab, Mahmud Saleh (Məmsaleh), Kinorsi, Selgi Zəleki, Məyvənd (Məmivənd) və Maqoyidən ibarətdir.

Adət-ənənəyə görə əyalətin büdcəsi maldarlardan alınan illik vergilərin hesabına inkişaf etmişdir. Bu vergi hər bir tayfada otlaq sahələrin növü və sahəsi, maldarlıq işində fəaliyyət göstərən insanların sayı hesabına mal-qaradan hasil olan istehsaldan asılı idi. Bəxtiyarilərin hamısı ödədikləri vergiyə görə iki yerə bölünürdülər. Mal-qarası çox və otlaq sahələri yaxşı olan bölmədən çox, mal-qarası və otlaq sahəsi yaxşı olmayan bölmədən isə az vergi alınırdı. Vergi vahidi mal-qaranın və madyanın sayı əsasında hesab edilirdi. Hər bir baş madyan üçün illik vergi 10-30 riala qədər hesablanır və ona müvavif olaraq vergi alınırdı. Vergi ödəmə cədvəli aşağıdakı formada olur:

4 baş inək= bir baş madyan= 10 rial

4 baş ulağ = bir baş madyan= 10 rial

1 baş madyan= bir baş madyan= 10 rial

Mal-qaraya görə alınan vergi vahidi bir baş madyan üçün dörd longa bərabər olduğu üçün bu məntəqənin əhalisi isə Çaharlongə adı ilə məşhur olmuşlar. Başqa qrupda maliyyə gücləri çox olduğu üçün vergi haqqını yeddi long madyana qədər qaldırırdılar. Bəzən iki baş madyan əvəzinə həft long (yeddi long) da ödəyirdilər. Məhz buna görə də həmin məntəqənin əhalisi Həftlong adı ilə məşhur olmuşdular.

Aşağıdakı cədvəldə isə digər vergi təsnifatı göstərir:

7 baş inək= bir madyan = 10 rial

7 baş ulağ = bir madyan= 10 rial

1 baş madyan + 3 long madyan= 7 long madyan=10 rial

Vergi yığımı prosesində məntəqənin rəhbərləri siyasi səbəblərə görə öz tayfalarını nəzərə alaraq, ayrıseçkiliyə yol verir və bəzi güzəştlər edirdilər. Verginin alınması hər tayfanın başçısı tərəfindən yerinə yetirilirdi. Başçılar isə özləri vergi verməkdən azad idilər.

Bəxtiyari etnosunda bölgü strukturunun formaları

Bəxtiyari etnosunda el, hissə, tayfa, övlad, qohum, ailə strukturuna görə bölünürdü. Bu bölgüyə Korbavo və Kordada deyirlər. Məişət mədəniyyətinin əsas xüsusiyyətləri Çaharmahal və Bəxtiyari əyalətində diqqəti cəlb edən mənzərələrdən biri Bəxtiyari elinin köçəri olması idi. Baxmayaraq ki, XX-ci əsrin əvvəllərindən başlayaraq Bəxtiyari elinin bir çox qrupları İranın başqa elatları kimi köçəriliyi dayandırmış və oturaq həyata keçmişlər. Lakin Bəxtiyari köçəriləri qış fəslində Xuzistan əyalətinin şərq düzənliklərində, yay fəslində isə Çaharmahal və Bəxtriyari məntəqsinin qərb hissələrində yerləşirlər. Onlar hər il may ayının ortalarından 5 müxtəlif yolla təbiətin amansız çətinlikləri ilə mübarizə apararaq, çayları, dərələri və Zərdküh dağının yükəsliklrini keçməklə Zaqros silsilə dağlarının müəyyən məntəqlərində yerləşirlər. Üç aya yaxın bu məntəqədə qalıb yaşıl otlaqlarda maldarlıqla məşğul olur, öz sürülərini otarırlar. Onların məişət və həyat tərzi, məskunlaşma qaydaları və inancları, adət-ənənələri onların həyat tərzinin ən maraqlı cəhətlərindəndir. Köç yollarına Bəxtiyarilər "ilrah" (el yolu) deyirlər ki, bu ilrahlar Dzpart, Tarz, Hezarçəmə, Kuh Sefid və Təngefale ilrahlarından ibarətdir.

Bəxtiyarilərin məişətdə işlədilən bədii xalq sənəti, əl işləri və xüsusilə, xalçaçılıqla məşğul olmaları bütün dünyada məşhurdur. Bəxtiyarilərin yurdu daş üzərində oyma sənətinin, o cümlədən daşdan düzəldilən şirlərin vətənidir. Bu barədə ilk dəfə elmi araşdırmalar aparan Möhsen Farsiyani olmuşdur. O, hətta daş üzərində işlər haqqında "Bərd şir" adlı sənədli film çəkmişdir.

Bəxtiyarilərin zəngin atalar sözləri var. Amma bu atalar sözləri haqqında heç bir elmi tədqiqat işi aparılmamışdır.

Yas mərasimi

Bəxtityari etnosunun adət-ənənələri arasında yas mərasimləri özünəməxsus əhəmiyyətə malikdir. Bu mərasim çox kədərli və üzüntülü keçirsə də, lakin bu məsələ bəxtiyarilər arasında dərin ünsiyyət və bağlılıq yaradır. Bu bağlılığın əhəmiyyəti həm dini mərasimlərdə, həm də, xüsusi ailəvi yas mərasimlərində bariz şəkildə özünü göstərir. Ailəvi yas mərasimlərinin keçirilməsi daha çox diqqəti cəlb edir. Bəxtiyari elində bir nəfər vəfat etdikdə bütün eli qəm-kədər və matəm bürüyür və bir anda olsun yas sahibini tənha buraxmırlar.Sanki bütün el həmin ailənin kədərinə şərik olur, onlara təsəlli verirlər. Milli geyimləri olan çoqanı əyinlərindən çıxarıb qara rəngli paltar geyirlər. Vəfat etmiş kəsə qüsul verəndən sonra Seyyid Pirşah və ya köç yolu ətrafı İmamzadələrin seyyidlərinə xəbər edirlər ki, mərhumun namazının qılınması barəsində xəbər verilir. Sonra isə mərhumu torpağa tapşırırlar. Qəbri torpaqla doldurandan sonra kişilər qəbirdən kənara çəkilir və elin qadınları qəbrin ətrafına yığışaraq ağlamağa başlayırlar. Mərsiyə ilə bərabər mərhumun həyatı şərh edirlər ki, ona Qaqrio deyirlər. Bu zaman Gopi adlanan qəmli musiqi çalınır. Bu mərasimdən sonra ehsan verilir. Yas sahibi qara çadır qurur. Hər tirə və tayfadan başsağlığı verməyə gəlirlər və yardım (sərbarə) gətirirlər. Sərbarə yas sahibinin xərclərini azaldır. Bu mərasimlər bir ilə qədər davam edir. Çünki uzaq məsafədə yaşayan tayfa və ya tirə yas mərasiminə vaxtında gəlib çata bilməz. Elin məşhur adamı və ya ağsaqqalı vəfat etdikdə, xüsusi mərasim təşkil edilir. Belə ki, bir və ya bir neçə atın üstü qara parça ilə örtülür və atın boğazına rəngli parça bağlanır. Bu parçanın bir ucu yəhərdə, digər ucu isə atın alnındakı cilov bəndinə bağlanır. Sonra bir nəfər atın cilovu əlində atı İmamzadə sahəsində gəzdirir. Bu parçaya yalpuş deyirlər. Vəfat edənin çuxası və tüfəngini atın üstünə bağlayırlar. Bəxtiyarilər ümumiyyətlə öz gənclərinin, pəhlivanlarının və böyüklərinin məzarları üstündə daşdan yonulmuş şir heykəli qoyurlar. Bəxtiyarilər arasında imamların yasının, xüsusilə məhərrəm ayında əza məclislərinin icrası, təxminən İranın başqa yerlərindəki kimidir. Bu mərasimlərdə camaat məscidlərdə və hüsyeniyyələrdə zəncir vurub, sinələrinə döyürlər.

Bəxtiyari ləhcəsi

Bəxtiyari ləhcəsi İran dillərinin cənub-qərb qrupundan olan fars köklü ləhcələrdən biridir. Fars köklü dil və ləhcələr Farsi, Lori, Bəxtiyari, Larestani və Kumzari ləhcələrinə aiddir. Bəzi dilçilər Bəxtiyari ləhcəsini Lori dilinin bir şaxəsi, bəziləri isə bu ləhcəni ayrıca bir şaxə hesab edirlər. Keçmişlərdə həmişə Zaqros silsilə dağların hündür və sıldırım qayalar bu əraziyə hücum edən etnoslara Bəxtiyari məntəqəsinə daxil olmağa mane olmuşdur. Bu səbəbdən Bəxtiyari elinin dili kütləvi informasiya vasitələrinin və milli məktəblərin dili kimi yayılmadığı vaxta qədər təxminən əvvəlki kimi qalmışdır. Müasir dövrdə isə uzaq şəhərlərin də paytaxtla rabitəsi asanlaşdığına görə, Bəxtityari ləhcəsi də başqa ləhcələr və dillər kimi sürətlə dəyişmiş və İranda Fars dilinə yaxınlaşmaqdadır. Bəxtiyarilərin bu günkü nəsli (xüsusilə şəhərlər sakinləri və köç etməyənlər) 50 il bundan əvvəlki Bəxtiyari dilinin bir çox sözlərindən nəinki istifadə etmirlər, hətta oların mənasını bilmir və artıq onu unudublar. Belə deyilir ki, guya keçmişdə Bəxtiyarilər şəhərlərdə məskunlaşdıqlarına görə dağılıblar. Onların təxminən iki minə yaxın qədim sözləri lüğətdən silinmişdir.

Bəxtiyari Lori dili ümumiyyətlə 4 qrupa bölünür

- Şərq məntəqəsinin ləhcəsi Kohkuliyyə ləhcəsinin təsiri altında olmuşdur.
- Cənub məntəqəsinin ləhcəsi Bəhmeyi tayfası ləhcəsinin təsiri altında.
- Çaharləng məntəqəsinin ləhcəsi.
- Orta məntəqənin ləhcəsinə iki kənar ləhcənin təsiri az olmuşdur.

Gəlmələrin təsəvvürlərinin əksi olaraq, Bəxtiyari ləhcəsi ilə Lori ləhcəsi (Xorrəma-bad ləhcəsi) arasında, xüsusilə sözlərin tələffüzü baxımından fərq çoxdur. Lakin yerli atmacalar və atalar sözlərinə görə bütün Lori ləhcəsində çoxlu müştərək deyimlər mövcuddur.

Ərəb kəməri

Deyilənə görə, Bəxtiyarilər ətrafda yaşayan ərəblərlə qohumlaşmış, onların adət-ənənələrində, dillərində və s.. çoxlu müştərək hallar görmək mümkündür. Əslində isə bu tayfalar Bəxtiyari deyillər. Ərəb kəmərlilər dağ və kəmərdə yaşadıqları üçün onlara "kəmərli" deyilir. Onların dilləri əslində İraq ərəbcəsinə daha yaxındır belə ki, zaman keçdiksə, tədricən Bəxtiyari dili ilə qarışmış və müvafiq istilahlar yaranmışdır. Bu dili başa düşmək həm ərəblər üçün həm də, bəxtiyarilər üçün çətin idi. Ərəb kəmərlilər ümumiyyətlə, Bəxtiyari dilini, ərəb kəməri ləhcəsini həm də Xuzistan ərəbcəsini mükəmməl şəkildə bilirlər. Ərəb kəmərlilər Xusiztanın başqa ərəblərinə Bərri ərəblər deyirlər. Bərri ərəblər o ərəblərdir ki, onlar düzənlik yerlərdə yaşayırlar.

Ərəb kəmərlilərin bir sıra şaxələri vardır. Bəxtiyarilərlə evlilik və coğrafi yaxınlıq nəticəsində tədricən Bəxtiyari etnosu Durki tayfasının bir hissəsi hesab olunur. Ancaq əsliyyətləri ərəbdirlər.

Qerpi (Qerpə)

Lorestan və Xuzistan əyalətləri arasında yerləşən bir məntəqənin adı Qerpədir. Qerpə Bəxtiyarilərin ərazisidir və Bəxtiyarilər ona Qerpi deyirlər. Bu məntəqənin sakinləri çox qonaqpərvər və mehribandırlar. Məntəqənin giriş yolları çox çətin olduğu üçün onların məişət mədəniyyətində dəyişmə halları çox az baş vermişdir. Bu məntəqədə çoxlu yeraltı faydalı qazıntı yataqları var ki, indiyə qədər tədqiq edilməmişdir. Bu məntəqədə pələnglərin də sayı çoxdur. Qerpədə məkanların sayı çoxdur və onların hər birisinin adı vardır. Adların sayı 131 ədədə çatılr. Onlardan Qrpirəh, Yənsərə, Gital və s. göstərmək olar.

Həftləng tayfalarının ümumi xüsusiyyətləri

Bütün dünyada və İran etnoslarında tayfalar arası Həftləng və Çaharləng bölgüsü ən dəqiq bölgüdür. Etnoqrafların fikirlərinə görə, bu bölgü öz növünə görə misilsizdir. Bu bölgü Bəxtiyarilərin başçıları tərəfindən həyata keçirilmişdir. Burada məqsəd Bəxtiyarilərin bir-birləri ilə yaxşı ünsiyyət qurması idi. Ümumiyyətlə, onlar bir-birinə yaxın olan bir neçə kəndi birləşdirib bir ad verirdilər. Bu bölgü bir növ siyasi-inzibati bölgü idi. Ölkədə əyalət bölgüləri kimi Bəxtiyarilərin Həftləng şaxəsi 4 əsas bab: Dinaruni-Bahadurvənd (Bəxtiyarvənd)-Durki-Babadidən ibarətdir. Əlbəttə, bu iki bab yəni Babadi və Bahadurvənd keçmişdə Dinarunun bir hissəsi olmuşdur. Zaman keçdikcə böyüyərək özü bir baba çevrilmişdir. Bu cəhətdən Dinaruni ən böyük Bəxtiyari babıdır. Ümumiyyətlə, tayfaların adı çəkiləndə əsas iki bab, Dinaruni və Durki adlarından istifadə edirlər. Qeyd etmək lazımdır ki, babşünaslıq məsələsi ayrıca regional bölgüdür. Bir məntəqədə birgə yaşayan tayfalara bir bab deyirlər. Bab məsələsi Bəxtiyarilərin öz arasında elə bir əhəmiyyətə malik deyildi. Amma burada mühüm məsələ hər babda tayfaların olmasıdır. Dinaruni babın mühüm tayfaları, Urək, Babadi, Bəxtiyarvənd, Məlməli, Raki, Quruyi, Ləcmir Urək, Səhid və s. misal gətirmək olar.

Durki babında Durkvənd, Babəhmədi, Muri, Gəndli, Zrasivənd, Əsivənd, Əstərki və s. qeyd etmək olar. Bu tayfaların da hər birisinin kiçik məcmuələri vardır. Məsələn, Urək tayfası Bəxtiyarilərin böyük tayfalarından biri aşağıdakılardan ibarətdir: Urək, Muzərmuyi-Xacə, Ləndfi, Zəngi-Qulam, Kəşi, Xali-Hacəli övladı, Qəribi-Cəlali-Məmfəsəni-Çaharbiniç-Qolnamki, bunların hər biri bir, yaxud bir neçə kəndi əhatə edir.

Açar sözlər: etnos, mədəniyyət, Bəxtiyarilər, tayfa, mərasim, dil, adət-ənənə.

İstifadə olunmuş ədəbiyyat

1. Ərzinəjad C. İnsani coğrafiyanın əsasları. Tehran, 1987.
2. Kəyanvənd Ə. Hökumət, siyasət, elatlar. Tehran, 1989.
3. Rəcai F. Dünya idrologiyaların mərikəsi. Ehyaye kitab nəşriyyatı. Tehran, 1994.
4. Papəli N., Məhəmməd H. Xorasanın şimalında köçəri həyat. Tərcümə edən: Əsğər Kərimi. Məşhəd, 1992.
5. Hidayət M. Xatirat və xətərlər. III çap. Tehran, 1982, s.1365.

Алірза МАЛИКИ

О БЫТОВОЙ КУЛЬТУРЕ ЭТНОСА БАХТИЯРИ В ИРАНЕ

Резюме

В статье рассматріваются вопросы, касающіеся жівущіх в Иране племён бахтіярі. Пріводятся сведенія об іх терріторіі, обычаях і традіціях, образе жізні і в общем іх бытовой культуре. Автор особое вніманіе уделяет вопросам траурных церемоній, шіроко комментірует особенності іх бытовой культуры.

Ключевые слова: этнос, культура, бахтіярі, племя, церемонія, язык, обычаі.

Alirza MALIKI

ON CULTURE OF BAHTIYARI ETHNOS′ MODE OF LIFE IN IRAN

Summary

The article considers the questions concerning the Bahtiyari tribes inhabiting Iran. Information on their territory, habits and traditions, way of life and, as a whole, on culture of their mode of life is offered. The author pays a particular attention to the issues of mourning ceremony, widely comments the features of their culture of mode of life.

Keywords: ethnos, culture, Bahtiyari, tribe, ceremony, language, custom.

UOT 392

Cahanbəxş KİYANİ
AMEA FSHİ-nun dissertantı

ƏTTAR NİŞAPURİNİN ƏSƏRLƏRİNDƏ VƏ DİGƏR ŞƏRQ MƏNBƏLƏRİNDƏ CƏMİYYƏTİN ADƏT VƏ ƏNƏNƏLƏRİ*

Hər bir cəmiyyətin fərdi və ümumi qaydada adət və ənənələri var. Həmin adətlər uzun illərdən bəri mövcud olmuş inamdan irəli gəlir və nəsildən nəslə ötürülür. Həmin adətlərə etinasızlıq qeyri-insani hərəkət hesab edilir və ona görə də onlara hörmətlə yanaşılması və mövcud adətlərə əməl edilməsi lazım gəlir.

Cəmiyyətlərdə olan adət-ənənələr heç vaxt olduğu kimi qalmır və müəyyən dövrdən sonra müxtəlif dəyişmələrə uğrayır. Bir çox adətlər var ki, öz əsrində insanların tərbiyəsində mühüm əhəmiyyət kəsb etmişdir. Ancaq sonrakı əsrlərdə həmin adətlər yaddan çıxmış, yaxud da əksinə, yeni adətlər meydana gəlmişdir. Onların necə icra olunmasını başa düşmək üçün həmin adətlər barədə kifayət qədər məlumata malik olmaq lazımdır.

Xalqın həyat tərzi və məişət mədəniyyətinin öyrənilməsində adət-ənənələrin müəyyən rolu vardır. Orta əsrlərdə İranda mövcud olan adət və ənənələr XII əsrdə yaşamış Ə. Nişapurinin əsərlərində kifayət qədər işıqlandırılmışdır. Məqalədə təkcə Əttar Nişapurinin deyil, başqa mütəfəkkirlərin də əsərlərində öz əksini tapmış hamama getmə adəti, dəfn və matəm, qonşu ilə rəftar, toy, xəstələrə baş çəkmə, yemək yemə qaydaları, qonaqlıq kimi məişət xarakterli adət və ənənələrin açıqlanması verilir.

Birinci növbədə Əttarın öz əsərlərində yeri gəldikcə adət-ənənələrdən neçə bəhs etməsinə diqqət yetirək. Onun əsərlərində xalqın adət-ənənələrinin işıqlandırılmasında urfan və əxlaqi məsələlər üstünlük təşkil edir, milli-mənəvi və dini dəyərlərə xüsusi diqqət yetirilir. Əttarın dövründə cəmiyyətdə əhalinin məişət mədəniyyətində geniş yer almış adətlərdən biri hamama getmə adətidir.

Əttarın müasirlərindən olan Ünsür əl-Məali Babi hamama getmə adətini xüsusi olaraq qeyd etmişdir. Onun təsvirində Əttar Nişapuri zəmanəsinin adətlərinə aydınlıq gətirilir və biz görürük ki, həmin adətlərdə indi azacıq dəyişikliklər olmuşdur. Elə adətlərdə var ki, indiyədək qorunub saxlanılmışdır. O yazır: "Olsun ki, binaları imkanlı adamlar tikmişlər, onlardan başqa belə hamam tikən tapılmaz" (16, s. 88). O, hamama çox getməyi, hamamda çox qalmağı, hamamın soyuq və isti suyundan çox istifadə etməyi məsləhət bilir və qeyd edir ki, bu, insanın əsəblərini sakitləşdirir. Sonra o aşağıdakılara diqqəti cəlb edir: «Hamama gedəndə əvvəl soyuq otağa get və bir qədər orada dayan, sonra orta salona gir və orada bir qədər otur. Sonra isti hamama gir və orada bir saat ol ki, isti sənə təsir etsin. Sonra örtülü kabinəyə gir» (16, s. 88-89).

Əttar Nişapuri də hamamdan danışır və qeyd edir ki, sufilər hamamda ona xidmət edirdilər: gah başına su tökürdülər, gah soyuq şərab verirdilər, gah əl-ayağını sürtürdülər, gah da ayaqlarını yuyurdular. Elə ki, pak olurdu, onu quruluyurdular, ayaqlarının altına namaz palazını sərirdilər, paltarlarını geydirir, başına və üzünə gülab səpir, tüklərini qırxır və yelləyirdilər və s. (2, s.560-5615).

Göründüyü kimi, hamam mərasimi insanların məişətində xüsusi əhəmiyyət kəsb etmişdir. Günlərin bir günü Şeyx Səid öz əshabələri ilə birlikdə hamama gedir və onlar Şeyxin xidmətində olur. Hamı Şeyxə səcdə edir. Hamamın sahibi ən təmiz ləvazimatı onun üçün gətirir, başqası başından çalmasını götürür, Şeyx onu kəmərinə bağlayıb hamama girir (15, c. 61). İndi də deyirlər ki, Əbu Səidin tükü həmin çalmadan hamama və onun yanına düşüb (15, s.132).

Buradan məlum olur ki, sufilər hamama getməyi xoşlayıblar. Baxmayaq ki, bu dünyada onların vedrədən başqa bir şeyləri olmamışdır (15, s.211).

Əttar əsərlərinin birində hamamın divarlarını təsvir etmişdir:

Özünü qırx igiddən güclü bilirsən,
Sanki hamamdan şir olub çıxmışsan (1, s. 186).

Başqa bir adət dəfn və matəm mərasimi ilə bağlıdır. İnsanın ölümü, həyatın sonu, axirət məsələləri Əttar Nişapurinin əsərlərində tez-tez işlənən mövzulardandır. Eləcə də məsnəvilərdə belə motivlər var ki, tərkidünya adamlar mey içirlər ki, dünyanın qəmini unutsunlar və bu dünyadan səssiz getsinlər. Əttar Nişapuri əsərlərində həm adi insanları, həm də şahları başa salmaq istəyir ki, dünya fanidir və bir gün insan

* Məqalə fəl.e.d. S.Hüseynov tərəfindən çapa məsləhət bilinib.

bu dünyadan getməlidir. Ölüm qarşısında hamı bərabərdir. Belə bir eyham da vurur ki, bu həqiqəti dəlilərdən eşidib (1, s.1675-1678).

Əttar Nişapuri öz əsərlərində ölümlə bağlı kəfənə, dəfn mərasimlərinə də işarə edir. Məsələn, inamın paklığından danışanda şair ölümə işarə edir və bildirir ki, ölümə hazırlaşan hər kəs üzünü qibləyə tutmalıdır.

Kəfəndən, dəfndən çoxları bəhs ediblər. Şeyx əbu Səid öz əsərində Xacə Əbdülkərimə vəsiyyət edir ki. onun qüsulunu versin, bu işdə bütün qaydalara riayət etsin. Eləcə də onun cənazəsi üstündə nə oxumağı, baş daşına nə yazmağı vəsiyyət edir (1, s.345-346).

Əttar Nişapuri əsərlərində ölüm qarşısında hamının bərabər olması barədə qeydlər edir. Əbu Səid də belə vəsiyyət edir ki, o ölləndə kətan kəfənə büksünlər və pambıqla örtsünlər (15, s.348).

Əttar Nişapuri qeyd edir ki, tabutu götürəndə onun önündə və arxasında gedənlər nalə çəkirdi və şivən qoparırdı (2, s.3327).

"Fəthnamə" əsərində cənazənin yola salınması barədə qeydlər var: "Cənazənin arxasınca getmək, tabutu aparmaq, onu basdırmaq, bütün bunlar Allah yanında savab sayılır" (17, s.257). Qeyd edilir ki, vəfat edəni tanıyanlar onu məqbərəsinədək aparmalıdır.

Əttar Nişapurinin başqa bir hekayəsində deyilir ki, bir dəli türkün torpağında ölür ki, onu dini qaydalarla dəfn etsinlər. Başqa bir dəli ona deyir ki, o səni necə dəfn edə bilər ki, həyatda olanda onun dilini bilmirdin. Bəs ölləndən sonra onun dilini necə öyrənəcəksən? (1, s.1334-1337).

Başqa bir hekayədə o qəbiristanlığa getmə adətini belə təsvir edir: qəbiristanlığa salam vermək lazımdır, dayanıb fatihə vermək lazımdır, təkbir oxumaq, tüpürmək olmaz, qəbirlərin üstünü ayaqlamaq olmaz. Özünü də ölmüş hesab etmək lazımdır (17, s. 270). Tarixdə elə hallar olmuşdur ki, zalımlar siyasi məqsədlər naminə ölülərin qəbrini dağıdıb, onları qəbirdən çıxarıblar. Xarəzmşahlar vaxtı Cəbbarilərdən biri Muyələddini qəbirdən çıxarmış, başını kəsmiş və Xarəzmşaha göndərmişdir" (10, s. 383).

Əzizlərin qəbrləri üstünə gülab səpmək o vaxtlar da adət olmuşdur. Hətta həmin gülab yaşayanların göz yaşları ilə qarışdırılırdı (2, s.5109-5111).

Adlı-sanlı adamların qəbirlərinin üstünə yaxşı daşlar qoyub onu naxışlarla bəzəyirlər (2, s.3669-3674). Əlbəttə, şahların qəbirləri həmişə qızılla bəzədilirdi və onların ailəvi məqbərələri olurdu (2, s.291). Onlar öz əzizləri üçün bəzəkli məqbərə tikirdilər (2, s.5021).

Sərxoşların, oğruların qəbirləri ümumi qəbirlərdən ayrı olur (2, s.1174). Əlbəttə, zahidlər onlar üçün də ölü namazı qılır. Zərdüştilərin, yəhudilərin, başqa dinə itaət edənlərin qəbiristanlıq adəti başqadır (9,s 94). Əttar Nişapurinin əsərlərində zərdüştilərin və yəhudilərin qəbiristanlığına işarə var. Qəbiristanlıq bütün dəlilərin, ağıllıların yatdığı yerdir. Bəziləri qəbiristanlıqda olan kəllələri ibrət kimi göstərmiş, onların gözü ilə dünyaya baxmaq istəmişlər (1, s.1220). Bütün gədalar, qocalar, xanlar üçün ora son mənzildir (5, s.227).

Elə hallar olur ki, xanəndələr belə ictimaiyyətin tənələrindən canlarını qurtarmaq üçün qəbiristanlığa pənah aparırlar. Orada məclis düzəldib şərab içirlər (15, s. 237). Elə hallar da olub ki, sufilərin adlı-sanlı nümayəndələri qəbiristanlıqda çörək yeməyi münasib hesab etməmişlər. (4, 47).

Elə vaxtlar olub ki, yas sahibləri ölünün yanına qızıl, zinət əşyaları qoyublar. Onlar hətta adi adamlardan fərqli olaraq dəbdəbəli məclislər belə təşkil ediblər. Cəbrilərin yas mərasimlərini bərpa ediblər (5, s.14). Ancaq dərvişləri hər cür təmtəraqdan uzaq qaydada dəfn ediblər, necə ki, Məhəmməd ibn İslam vəfat edəndə onun köhnə paltarını cənazəsinə büküb, oturduğu kürsünü onun meyidi üstünə qoyublar (5, s.298).

Qonşu ilə rəftar adətinə gəldikdə isə qeyd etmək lazımdır ki, bizim xalqın mədəniyyətində qonşuya münasibət xüsusi yer tutur. Elə hallar olub ki, qonşu qonşuya özündən də yaxın olub. Sədi Şirazi özünün "Gülüstan" əsərində bu barədə belə deyir: "Qonşusu olan on dirhəm hər şeydə qabaqdır" (18, s.130).

Eləcə də Nasir Xosrov qonşunun qiyməti barədə deyir: «Qonşun yaxşıdırsa, onun dəyər, qiyməti nəyə desən dəyər" (12, s.165).

Onun nəsihətlərində deyilir ki, kim qonşusunun yaxşı olmasını istəyirsə, əvvəl gərək onun özü yaxşı olsun və ürəyindən ona qarşı hər hansı kini çıxarsın (12, s.265). Məhəmməd Qufi də bu barədə bir hədis deyir: «Əbu Hənifənin bir qonşusu var idi. Elə ki, o imam axşamlar ibadət edirdi, başqaları şərab içir, toy çalırdılar, səs edirdilər. Əbu Hənifəni incidirdilər. Elə ki imam bir neçə gün həmin səsi eşitmədi, onda qonşusunun halını soruşdu. Dedilər: Axşam onu bazarda əsəsilər aparıblar. İmam yerindən dərhal qalxıb paltarını geyir və Əsəs əmirinin yanına gedib qonşularını azad etdirir. Həmin qonşular elə həmin gündən tövbə edirlər» (8, s.280-281). Əttar da qonşular barədə bəhs etmişdir. Hekayələrinin birində o deyir ki, Həsən Bəsrinin bir gəbri (atəşpərəst) qonşusu olur. O, səksən il atəşpərəstliyə sitayiş etmişdi. Yeni dindən qətiyyən xəbəri yox idi. Elə ki, xəstələndi, Həsən ona baş çəkməyə gedir və belə bir söz işlədir: «Gəbri

kasıb olsa da, axı yenə də o, qonşudur» (2, s.3536-3541).

Buradan belə çıxır ki, qonşu hansı dinin xidmətçisi olmasına baxmayaraq, yenə də qonşudur və onun qayğısına qalmaq lazımdır. Necə ki. Sədi Şirazi bu barədə deyir: «Dərviş qonşunun evində od axtarma, onun damından çıxan qəlbinin tüstüsüdür» (18, s 82).

Elə hallar da olur ki, qonşular bir-birlərinə olduqca yaxın olur və bir-birlərinin dərdlərini yaxşı bilirlər. Bir gün Həsən Bəsri səhər tezdən iki qadın səsi eşidir və onun macəralarından agah olur (4, s.337). Məhəmməd Qəzali isə qadınların səhər söhbətlərindən çəkinməyi məsləhət bilmişdir (9, s.337).

"Fəthnamə" əsərində dörd ədəb qaydası qonşulara aiddir. Onların hamısı qonşu ilə olan münasibətlərə həsr edilmişdir (17,s. 218).

Toy adəti ilə bağlı demək lazımdır ki, Məhəmməd Qəzali nikahı dinin tərkib hissəsi hesab edirdi. Bu mənada o beş qayda göstərirdi ki, bunların hər biri savab sayılır. Birinci qayda nəslin davamı, ikinci, şəhvətin reallaşması, üçüncü, qadınlarla ünsiyyət və onlarla zarafat, dördüncüsü, evi səhmana sala biləcək birisini tapmaq, beşincisi, qadınların əxlaqına qarşı səbirli olma, onların qonaqlarına dözmək, onları şəriət qanunlarına əməl etməyə vadar etmək. Eləcə də ərin problemləri həmin mənbədə sadalanır: ərin az qazancı, millətin qeydinə qalmamağı, axirətdən və Allah Taladan bir şey bilməməsi - bütün bunlar ərin zəif cəhətləri kimi qiymətləndirilir (9, s. 238-244). "Qabusnamə"də də evlənmək barədə bəzi qeydlər var. Orada deyilir: arvad gərək gözəl və dindar olsun, evdar olsun, ərini sevsin, utancaq olsun, əli açıq olsun, dilini qısa etsin, diqqətcil olsun. Yaxşı arvadın aqibəti də yaxşı olur (19, s.129).

Əttar Nişapuri əsərlərinin birində bir qadının iki dövlət arasında sülhün saxlanılmasına səbəb olması barədə danışır. Şahın toyunda bəy və gəlin qırx gün camaatın qarşısına çıxmadılar. Padşahın qızı cehiz kimi dolu bir xəzinəni aparırdı (2, s.1641-1646). Naserinin də əsərlərində toyla bağlı qeydlər var. O deyir ki, Tüğan şahın vaxtında Təkiş Nişapura hücum edir və Səncəri, Qiyasələddinin qızını əsir alır və imam Şafeinin sözü ilə onları Ziyaləddin şaha pay verir (11, s.274).

Əlbəttə, bu kimi hallar bir daha göstərir ki, şahların toy mərasimləri. onların evlənməsi də adi camaatın ailə qurmasından kəskin surətdə fərqlənibdir. Əttar Nişapurinin toy barəsində başqa qeydlərində deyilir:

Gözəllər zülmkarlar əlində ölür,
Xasiyyəti pislərin hamısı şeytan,
Həm özünə toy edir
Gəbrani yasını yüz dəfə edir.
Həm adətlərdən qaçır,
Həm də taxt-taca can atır (1, s.343).

Əttar Nişapurinin təsvir etdiyi belə evlənmədən sadə xalqın xəbəri olmur. Belə hallar olur ki, ali təbəqə üçün evlənmə də maddi maraqlardan irəli gəlib. Elə hallar olub ki, maraq naminə öz qızını gətirib şeyxə kəbin kəsdirir. Elə ki, həmin qızın övladı olur, qadın vəfat edir. Uşaqları şeyxin yanında qalır və sonra bir neçə qız alır. Arvad almaq o şeyx üçün adi hala çevrilir və axırda həmin şeyx tövbə edir (4, s.574-575).

Əttar Nişapuriyə görə qızlar ər evinə öz iradələri ilə getməlidir. Belə olmazsa, onda həmin xanımların həyatı da cəhənnəmə çevrilir. Bu barədə Əttar hekayələrinin birində deyir ki, ər evinə gedən gəlinlərdən biri öz arzusu ilə getmirdi. Həmin qadın öz ərinə qarşı etinasız oldu və sonra bu qüssəyə dözə bilməyib xəstələnib ölür (2, s.3461-3486).

Xaqani Şirvani şeirlərinin birində süd pulu adəti barədə danışır. Göstərir ki, gəlinlər, onların ailələri kəbindən başqa süd pulu tələb edirlər (X.Şirvani, Divan, s. 6). Şair həm də özünün məktublarında gəlinin taxta oturmasından danışır. Qəribədir ki, belə toylar şahlara məxsus idi (X.Şirvani. Məktublar, s. 295). Nizami Gəncəvi də əsərlərində toy mərasimi adətindən bəhs etmişdir. Şair özünün "Xosrov və Şirin" poemasında gəlinlərin yeddi cür bəzənməsindən danışır. Həmin yeddi bəzək əşyası belədir: xına, bəsmə, gülgünə, ağ su, sürmə, qaliyə, zirək, eləcə də yeddi bəzək zinətindən danışılır.

Özünə həyat yoldaşı seçmək adəti də həmişə xüsusi qayda ilə aparılmış və bu iş məhəbbətdən başlamışdır. Belə ki, bəy seçdiyi qıza qonaq gedir. Sonra həmin bəy öz qonşularını çağırır və onlara bildirir ki, filan qıza aşiq olub. Bu hadisə ilə bağlı Münəvvərin əsərində belə deyilir ki, nikah kağızı olmadığından birisinə gəlini vermirlər. bunu eşidən Əbu Səid paltarını geyib birbaşa həmin qapıya gedir və qız evinin razılığını alır.

Keçmişdə cavan qızlarla qoca kişilərin evlənməsi geniş yayılmışdı. Həmin vaxtlarda qızın razılığına ehtiyac olmurdu. Ona görə də cavan qızı yaşlı adama ərə verirdilər. Amma onlar arasında məhəbbət yaranmırdı (2, s.5270-5280). Tarixdə belə olub ki, Şeyx Əhməd Jendepil 80 yaşında 14 yaşlı bir qız alıb.

Xəstənin halını soruşmaq və ona xəstəxanada baş çəkmək xalqın çoxdankı adətlərindəndir. Bu barədə hətta şifahi xalq yaradıcılığında, "Qabusnamə" əsərində də qeydlər var. Həmin kitabda deyilir: "Kənd əhli ilə mehriban ol və xəstələri soruş " (19, s.121). Sultaninin "Fəthnamə"sində deyilir: "Xəstələrə baş çək, bu işin savabı çoxdur, fəziləti isə daha çoxdur».

«Xəstənin ağrısını götürə bilmirsənsə,

Heç olmasa onun dərdini soruşub təskinlik ver (17, s.256).

Xəstəyə baş çəkmənin beş adətini söyləyirlər: birincisi, namazdan sonra xəstənin halını soruşmağa getmirlər, xüsusilə bu gecə vaxtları məsləhət deyil, ikinci, xəstənin yanına gedəndə onun yanında gülmə və ağlama, onun sol tərəfindən keçib sağ tərəfində oturun, yastığının yanında çox danışmayın, onun əzalarından birini tumarlayın, ondan iyrənməyin, onunla səmimi danışın, fatihə oxuyun və tez yanından gedin (17).

Xəstələrə baş çəkmək o dərəcəyə çatmışdır ki, Həsən Bəsri özünün xəstə gəbri qonşusuna baş çəkməyə gedir. Onun halı olduqca pis imiş, Bəsri onun üzünü, saçlarını tüstüdən təmizləyir və sonra ona deyir: Allahdan qorx ki, günahından keçsin (2, s.3536-3545).

Mövlanə Cəlaləddin Rumi da bu barədə deyir ki, xəstə qonşusuna baş çəkməyə gedir və onun üçün yemək, həkim tapır. Ancaq onun suallarına qulaq asmayıb, ona məsləhətlər verərək onu incidir (Rumi. Məsnəvi, s. 3360-3387). Şeyx Əhməd Cam da xəstələrə baş çəkib onları sağaldarmış.

Yemək yeməyin qaydaları barədə də Ə.Nişapurinin və başqaların əsərlərində qeydlərə rast gəlirik. Məhəmməd Qəzali yemək yeməyin qaydaları barədə belə deyir: «Əvvəl bismillah de, axırda isə əlhəmdüllah de. Lap yaxşısı odur ki, birinci tikəni yeyəndə bismillah və ikinci tikəni yeyəndə isə bismillah *əl-rəhman*, üçüncü tikəni yeyəndə bismillah *əl-rəhman əl-rəhim* deyin. Bu sözləri ucadan deyib başqalarının da yadına salmaq lazımdır (9, s.227). Yeməkdən qabaq dua oxumağı evin böyüyü və ya süfrədə oturan ağsaqqal və ya başqa bir böyük şəxs edir (2, s.1770).

Əl ilə yemək o vaxt adi hal idi və yeməyi bir neçə adam bir qabdan yeyərmişlər. Məhəmməd Qəzali əl ilə yemək barədə belə deyib: «Qabın ortasından yeməyin, onun kənarlarından götürün. Barmağınızı dodaqlarınızla yalayın, onu başqa yerə silsəniz yeməyə təsir edə bilər (9, s.227).

Əttar Nişapurinin də yemək barədə qeydləri var və bir ərəb haqqında danışanda deyir ki, ərəb beş əli ilə yemək yedi. Dedi ki, altıncı əlim olsaydı, onunla da yeyərdim (2,s.136).

"Əsrar əl- tohid" kitabında Şeyx birisinə yemək qaydalarını öyrədir və deyir ki, yeyəndə qab və əllər təmiz olmalıdır. Arada çay vermək də yemək adətlərindəndir və yeməkdən sonra əllərin yuyulması və bunun üçün qabın gətirilməsi – bütün bunlar yemək qaydalarına aiddir.

Əttar Nişapurinin əsərlərinin birində yemək barədə qoca bir adam deyir ki, yediyi piyli xörəklə soğandır (2, s.2370).

Mənbələrdə hətta yeməyin hansı vaxt olması barədə də qeydlər vardır. Onlarda deyilir ki, axşam tərəfi yemək adətən bazarda işləyənlər üçündür, zadəganlar da adətən axşam yemək yeyir. Səhər namazdan sonra yemək lazımdır. Hətta yeyərkən yavaş-yavaş yeməyin vacib olduğunu söyləyirlər və yemək vaxtı danışmamağı qeyd edirlər (19, s.64-65).

Qonaqlıq qaydaları ilə bağlı demək istəyirəm ki, qonaqpərvərlik iranlıların qədim adətidir. Əttar Nişapurinin əsərlərində də qonaqlıqlara dair qeydlər var. Hətta şair qonaqlıqda verilən əsas yemək ləri qeyd edir (4, s.396-397).

"Qabusnamə" kitabında da qonaqlıq qaydaları barədə geniş bəhs olunmuş, hətta qonaqlığa gedərkən ətir və ya gülab vurmağı xüsusi adət kimi qeyd etmişlər (15, s.72). "Qabusnamə"də qonaqlığın müntəzəm yox, tək-tək hallarda verilməsinin məsləhət olunması qeyd olunur (15, s.71). Belə rəvayət var ki, İbn Xəfif cavan bir dərvişi evinə aparır, ona ət bişirib verir (4, s.573).

Əttar Nişapurinin əsərlərində dövrünün məişət mədəniyyətində özünə yer almış adət-ənənələrlə bağlı qeydlərin açıqlanması nəticəsində belə qənaətə gəlmək olar ki, o əhalinin əxlaqı, adət-ənənələri, inancları ilə yaxından tanış imiş və istəmişdir ki, xalq həmin adətləri, inancları, etiqadları yaşatsın, həmin əxlaqı qoruyub saxlasın. Çünki xalq həmin adət-ənənələrlə bağlı olmuşdur. Kiçikdən böyüyədək hamı həmin ənənələri yaşatmış və onlara hörmətlə yanaşmışdır. Əttar da məsləhət görürdü ki, milli adət-ənənələrə hörmət olunsun və onlar yaşadılsın. İnsanların xoşbəxtliyi, səadəti bununla bağlı idi. Onların ictimai dəyərləri var. Əttarın yaşadığı XII əsrdən etibarən indiyədək həmin adətlərə və ənənələrə hörmət yaşamaqdadır. Bu fikirlər şairin milli yaddaşından, təfəkküründən, təxəyyülündən irəli gəlirdi.

Açar sözlər: cəmiyyət, hamam, adət-ənənə, toy, əxlaq, xəstə, qonaqlıq.

İstifadə olunmuş ədəbiyyat

1. Əttar Nişapuri. Əsrarnamə. Tehran, 1316.
2. Əttar Nişapuri. İlahinamə. Tehran, 1307.
3. Əttar Nişapuri. Məntiq ol-teyr. Tehran, 1297.
4. Əttar Nişapuri. Təzkireyi-övliya. Tehran, 1302.
5. Əttar Nişapuri. Müsibətnamə. Tehran, 1294.
6. Əttar Nişapuri. Şeirlər divanı. Tehran, 1306.
7. Əttar Nişapuri. Muxtarnamə. Tehran, 1342.
8. Məhəmməd Qufi. Came əl- herkayət. Tehran, 1421.
9. Qəzali Məhəmməd. Kimyayi-səadət. Tehran, 1359.
10. Ravəndi. Rahət əl-sodur. Tehran, 1426.
11. Naser Xosrov. Səfərnamə. Tehran, 1370.
12. Naser Xosrov. Şeirlər divanı. Tehran,1361.
13. Sədi. Gülüstan. Tehran,1412.
14. Mövləvi. Məsnəviyi-mənəvi. Tehran. 1566.
15. Əsrar əl-tohid. Məhəmməd ibn Mənsur Şafei Kodkoni. Tehran, 1366.
16. Ünsür əl- Məali. Tehran, 1315.
17. Vaiz Kaşifi. Tehran, 1432.

Джаханбахш КИЯНИ

ОБЫЧАІ І ТРАДІЦІІ ОБЩЕСТВА В ПРОІЗВЕДЕНІЯХ АТТАРА НІШАПУРІ І ДРУГІХ ВОСТОЧНЫХ ІСТОЧНІКАХ

Резюме

В статье рассматріваются вопросы, связанные с обычаямі і традіціямі в Иране, отраженнымі в проізведеніях ізвестного суфійского поэта Аттара Нішапурі. Это і проведеніе траурных церемоній і свадебных мероприятій і правіла пріема гостей і кушанья і посещеніе больных, побращеніе с соседямі і посещеніе бані і множество другіх обычаев і традіцій.

Автор статьі особое вніманіе обращает на обычаі і традіціі в творчестве Аттара Нішапурі, связанные с релігіознымі і національно-нравственнымі ценностямі.

Ключевые слова: общество, баня, обычаі і традіціі, свадьба, больной, пріем гостей.

Jahanbakhsh KIYANI

THE CUSTOMS AND TRADITIONS OF A SOCIETY IN THE WORKS BY ATTAR NISHAPURI AND OTHER EASTERN SOURCES

Summary

The article considers the issues related to the customs and traditions of a society reflected in the works by the famous mystic poet Attar Nishapuri and other Eastern sources. They are both holding the funeral rites and wedding ceremonies, rules of guests reception, having a meal and a visit to patient, treatment of one's neighbours, going to a bath-house, and a majority of other rites and traditions.

In article the author takes a particular notice of the customs and traditions in Attar Nishapuri's works associated with the religious and national-moral values.

Keywords: society, bath-house, customes and traditions, wedding, morals, ill, party.

UOT 091

Kəmalə NURİYEVA
AMEA Şərqşünaslıqİnstitutunun aspirantı

MÜSTƏQİL AZƏRBAYCANIN DÖVLƏTÇİLİK İDEOLOGİYASI – AZƏRBAYCANÇILIQ VƏ TÜRK BİRLİYİ KONSEPSİYASI*

Respublikanın dövlət müstəqilliyinin bərpası, ölkədə siyasi və iqtisadi stabillik, beynəlxalq əlaqələrin genişlənməsi, həyata keçirilən ardıcıl əməli tədbirlər Azərbaycan xalqının milli ideologiyasının – milli və bəşəri dəyərlərə əsaslanan müstəqil, dünyəvi dövlətçilik ideologiyasının tam formalaşması və inkişafı üçün geniş imkanlar açmışdır.

Hazırda Azərbaycan xalqının adət və ənənələrini, milli-mənəvi dəyərlərini, polietnik zənginliyini özündə yaşadan və əlaqələndirən baxışlar sistemi kimi azərbaycançılıq ideyası təşəkkül tapmışdır. Azərbaycan tarixən çoxmillətli ölkə, milli və dini tolerantlığın bərqərar olduğu məkan kimi tanınmış və bu cəhətlər azərbaycançılıq məfkurəsinin əsasını təşkil etmişdir. Bu səbəbdən mahiyyət etibarı ilə "azərbaycançılıq" Azərbaycanda yaşayan müxtəlif xalqların mədəniyyətlərinin, ənənələrinin, konfessiyalarının vəhdətidir.

Azərbaycanda müxtəlif millətlərin nümayəndələri yaşayır. Azərbaycançılıq bütün bu millətlərin nümayəndələrini birləşdirən bir ideya bir məfkurədir. Azərbaycançılıq bizim keçmişimizdən gələn dəyər olaraq vahid Azərbaycanın ideya olmaqla yanaşı, ölkədəki bütün konfessiya və etnosların həmrəyliyi və birgəyaşayışının tarixi təcrübəsidir. Azərbaycançılıq Azərbaycanın müstəqilliyini qoruyan və onu gücləndirən ideoloji sistemdir.

Azərbaycançılıq ideyasında vahid polietnik Azərbaycan dövlətçiliyinin yaranmasına dair maraqların ümumiliyi, demokratiyanın, sərbəst iqtisadiyyatın, sosial həyat şəraitinin inkişafı uğrunda mübarizəsinin məqsədləri öz əksini tapmışdır [1].

Azərbaycançılıq təliminin formalaşdırılmasının özünəməxsusluğu hansı milli mənəviyyatı, dini cərəyanı və tarixi məqamı özündə birləşdirməsindən asılı olamayaraq Azərbaycan əhalisinin əksəriyyəti üçün xarakterik olan ümumi əlamətlərin sintezi ilə səciyyələnir. Azərbaycanın milli oyanışı, onunla bağlı milli ideya uğrunda mübarizə hərəkatı milli gerçəkliyimizin çox mühüm tərkib hissələrindən biridir.

1. Azərbaycançılığın XIX əsrin sonu - XX əsrin əvvəllərində bir ideya kimi formalaşması

Qədim və Orta əsrlərdə Azərbaycanda buna oxşar ideyalar – vahid ərazi hissi, maddi-məişət şəraitinin ümumiliyi, xarici dövlətlərə qarşı birlikdə mübarizə, dil və qan qohumluğu, soykökünün eyniliyi, mənəvi mədəniyyət sahəsində oxşar cəhətlər, iqtisadi-siyasi və coğrafi birlik zəminində formalaşmış müəyyən xüsusiyyətlər olmuşdu [2, s.29]. Xalqın böyük mütəfəkkirlərinin, dövlət adamlarının, ictimai xadimlərinin fəaliyyətində bu ideya uzun zaman özünü göstərmişdir.

Lakin bütün bunlar bir qayda olaraq dağınıq, sistemsiz xarakter daşıyırdı. Azərbaycançılıq ideyasının ardıcıl və məqsədyönlü formalaşması prosesi elmi ədəbiyyatda XIX əsrdə təşəkkül tapan və inkişaf edən Maarifçilik hərəkatına aid edilir. M.F.Axundov, H.Zərdabi, Ə.Haqverdiyev, C.Məmmədquluzadə, N.Nərimanov, F.Köçərli kimi məşhur ziyalılarla yanaşı Ə.Topçubaşov, Ə.Ağayev kimi maarifçi publisistlərin ictimai fikir meydanına gəlməsi də bu dövrə təsadüf edir. Bu şəxslər milli şüurun müxtəlif ideya təmayüllərinin inkişafında yaxından iştirak edirdilər. Milli ideologiyanın – həm türkçülüyün (məhz ideologiya olaraq), həm də azərbaycançılığın konsepsiya səviyyəsində formalaşması milli mətbuatın yaranması ilə bağlıdır. 1877-ci il "Əkinçi"qətetinin nəşrindən – 1920-ci il Azərbaycan Xalq Cümhuriyyətinin süqutuna qədərki təqribən yarım əsr Azərbaycanda milli oyanışın və onun nəzəri təməli olan ideologiyanın formalaşma dövrü idi: "Azərbaycançılıq qayəsini tarixi-siyasi ideya kimi formalaşdıran – publisistikada "Əkinçi", bədii yaradıcılıqda C.Məmmədquluzadə və M.Ə.Sabir, elmi siyasətdə M.Ə.Rəsulzadə olmuşdur." [3, s.64].

Ümumiyyətlə, XIX əsrin sonu XX əsrin əvvəlləri Azərbaycanın bədii estetik və ictimai fikrində milli oyanış və özünüdərk, istiqlal kimi düşüncələrinin formalaşması dövrü hesab olunur. O dövrdə formalaşan milli təfəkkür türk dünyasının görkəmli nümayəndələri İ.Qaspiralı, Ə.Hüseynzadə, Ə.Ağaoğlu, Z.Göyalp

---

* Məqalə fəlsəfə doktoru R.Rzayeva tərəfindən çapa məsləhət bilinib.

kimi mütəfəkkirlərin türkçülüyə dair fikirlərindən bəhrələnirdi. Onlar ilkin mərhələ üçün adekvat obyektivliklə Azərbaycanın milli müstəqillik məsələsini ümumtürk azadlığının tərkib hissəsi kimi qarşıya qoyurdular. Azərbaycançılığın milli ideyası ideologiyaya çevrilmə prosesində tarixi inkişaf baxımından həm islamçılıq, həm də türkçülük mərhələlərini yaşamış, XX əsrin əvvəllərindən etibarən isə tədricən müstəqil ideya cərəyanına çevrilməyə başlamış və yalnız bundan sonra Azərbaycan milli dövlətçiliyini meydana gətirə bilmişdi.

Azərbaycan Xalq Cümhuriyyətinin rəsmən elan edilməsi ilə azərbaycançılıq ideyası öz inkişafının keyfiyyətcə yeni mərhələsinə qədəm qoydu [4,s.282]. Ə.Topçubaşov, M.Ə.Rəsulzadə, M.B.Məmmədzadə, Y.V.Çəmənzəminli və digər azərbaycanlı ideoloqlar öz sələflərinin ideoloji irsini yeni tarixi-siyasi şəraitlə uyğunlaşdırmaq yönündə gərgin fəaliyyət göstərməyə başladılar. Məsələn, Mirzə Bala Məmmədzadənin "Milli Azərbaycan hərəkatı" [5] adlı monoqrafiyası sırf siyasi əsər olsa da onun bütün yanaşmalarını, milli hərəkatın başlanmasını, əsasən azərbaycançılıq ideyasının yüksəlişi kontekstində götürdüyü üçün burada irəli sürülən ideyaları milli ideologiyanın mühüm komponentləri hesab etmək olar [2, s.46].

Azərbaycan Xalq Cümhuriyyətinin mövcud olduğu iki ildə milli ideologiya ən çox siyasi-publisistik fikir vasitəsilə inkişaf edirdi ki, bu da təbii idi. Dövlətçiliyin qorunub saxlanması, inkişafı, dünya miqyasında tanıdılması kimi real və praqmatik vəzifələr siyasi təfəkkürün ictimai-mənəvi dəyərlərlə uzlaşdırılması zərurətini meydana gətirdi. Azərbaycan Xalq Cümhuriyyətinin süqutu və Azərbaycanın SSRİ-nin tərkibinə daxil olması ilə azərbaycançılıq ideyası da arxa plana keçdisə də, lakin əsasən mühacirətdə öz varlığını saxladı. Milli hökumət qurucularının öz-özlüyündə mütərəqqi və milli məzmuna malik ideyalarının reallaşması həm daxili təşkilatçılığın zəifliyi, həm də xarici müdaxilələrin intensivliyinə görə mümkün olmadı.

2. Azərbaycan müstəqillik qazandıqdan sonra azərbaycançılıq ideyasının təkrar gündəmə gəlməsi

Milli-mənəvi dəyərlərimizin qorunması, xalqımızın mentalitetinin yaşaması və bütün bunların ümumbəşəri dünya dəyərləri ilə zənginləşdirilməsi kimi təməl üzərində qurulmuş bugünkü milli ideologiya artıq XIX əsrin sonu - XX əsrin əvvəllərində maarifçilər tərəfindən böyük səylə inkişaf etdirilirdi. Lakin birmənalı şəkildə qeyd olunmalıdır ki, azərbaycançılığın ümummilli ideya halına gəlməsi, bütün dünya azərbaycanlılarını birləşdirən məfkurəyə, müstəqil Azərbaycan dövlətinin ideya əsasına çevrilməsi məhz Heydər Əliyevin tarixi xidmətidir.

Azərbaycançılığın mühüm tərkib hissələrindən biri Azərbaycan dilidir, ona adekvat dövlət münasibətinin formalaşmasıdır [6, s.16]. Milli özünüdərk prosesində dil problemi mühüm rol oynayır. Ə.Hüseynzadə yazır ki, "millət öz dilinin qədrini bilsin və onun tərəqqi və təkamülünə çalışsın" [7].

Azərbaycançılığın tərkib hissələrindən biri də dindir. Ə.Hüseynzadə din məsələsini azərbaycançılığın əhəmiyyətli komponenti kimi milli tərəqqi ilə sıx bağlayır [8].

Azərbaycançılıq təkcə Azərbaycan Respublikasında yaşayan azərbaycanlıların, təkcə Azərbaycan dövlətinin maraqlarını deyil, həm də bütün dünyada yaşayan azərbaycanlıların milli-mənəvi maraqlarını ifadə edir. Müstəqil Azərbaycan Respublikasının inkişafında dünyanın müxtəlif ölkələrinə yayılmış azərbaycanlıların həmrəyliyi, mənəvi-ideoloji siyasi köməyi böyük rol oynayır.

Bundan əlavə, milliyyətcə azərbaycanlı olmasa da, bir neçə nəsil Azərbaycanda yaşamış və Azərbaycanı özünün tarixi vətəni sayan insanlar, xristian və yəhudi olmalarına baxmayaraq, Azərbaycan Respublikasının maraqlarına xidmət etməklə və ümumi Azərbaycan mədəniyyətinə qatılmaqla azərbaycançılıq məfkurəsinin iştirakçısı olurlar [6, s.25].

Azərbaycanın yerli sakinləri olan etnik qrupların milli-siyasi vətəni ilə doğma vətəni, mədəni-mənəvi məkanları arasında heç bir fərq yoxdur. Onlar həm coğrafi məkan baxımından, həm tarixi, həm milli-siyasi, həm də mənəvi baxımdan azərbaycanlıdırlar. Azərbaycanda gəlmə olan alman, rus, gürcü vahid Azərbaycan mədəniyyətinə qatıla bilməsə də, neçə yüz illər ərzində vahid mədəni-mənəvi məkanda yaşayan yerli etnik qruplarla birgə milli mədəniyyətin formalaşmasında eyni hüquqla iştirak edirlər.

3. Azərbaycançılığın milli ideya kimi seçilməsi və «türk birliyi» konsepsiyası

Azərbaycançılıq elmdə və siyasi ədəbiyyatda artıq bir paradiqma kimi irəli sürülmüş, onun yaranışı, təkamülü, hazırkı vəziyyəti, xüsusiyyətləri, türk birliyi konsepsiyasından fərqli cəhətləri və s. müəyyən tədqiqatların obyekti olmuşdur: "Azərbaycançılıq milli özünüdərkin, etnik şüur intibahının fəlsəfədə, elmdə, ideyada ifadəsidir" [9, s.313]. Azərbaycançılığın milli ideya kimi seçilməsi heç də onun türk birliyi konsepsiyasına qarşı qoyulması demək deyildir. Türk birliyi ümumi, bir qədər də romantik səciyyə daşıdığı halda, azərbaycançılıq daha real və praktiki görünür bu isə, yerli xalqlar, xüsusən, azsaylı xalqlar üçün daha məqbul və cəlbedicidir.

Etnik kökə dayanan türk birliyindən fərqli olaraq, azərbaycançılıq siyasi-coğrafi əsaslara dayanır və bütün respublika xalqları və vətəndaşları üçün inteqrativ rol oynayır. Ona görə də azərbaycançılıq dövlətçiliyin möhkəmləndirilməsi yolunda bir vasitədir. Amma digər milli ideyalardan fərqli olaraq, o hələ ideologiyaya çevrilməmişdir.

Müasir dövrdə Azərbaycanın milli ideologiyasının formalaşmasında aşağıdakıların nəzərə alınmasının böyük əhəmiyyəti vardır:

- Dövləti formalaşdıran millətin – Azərbaycan türklərinin tarixi və mədəni-siyasi irsi, başqa sözlə, türkçülük;
- Azərbaycan vətənpərvərliyi ideyası və ümumi Vətən naminə Azərbaycanda yaşayan xalqların həmrəyliyi, başqa sözlə, azərbaycançılıq [10].

Bunları bir-birinə qarşı qoymaq, birinin əhəmiyyətini artırıb, digərinin əhəmiyyətini azaltmaq tarixi taleyimizlə bağlı əvvəlcədən səhvə yol vermək deməkdir [11].

Nəticə

Azərbaycanın tarixdə ikinci dəfə müstəqillik əldə etdikdən sonra azərbaycançılıq aparıcı ideya kimi həm ölkəmizdə, həm də dünyada yaşayan soydaşlarımız üçün əsas ideyaya çevrildi. Heydər Əliyev üzünü dünyanın müxtəlif ölkələrindən gəlmiş həmyerlilərimizə tutaraq deyirdi ki, azərbaycançılıq öz milli mənsubiyyətini, milli-mənəvi dəyərlərini qoruyub saxlamaqdır.

Azərbaycançılıq hər şeydən öncə bir məfkurədir. Bu məfkurə təkcə Azərbaycan ərazisində yaşayan insanların maraqlarını deyil, həm də bütün dünyada yaşayan azərbaycanlıların məqsəd və məramlarını özündə ehtiva etməlidir. Həmin məfkurənin məzmunu Azərbaycanda ilk dəfə Heydər Əliyev tərəfindən bəyan edilmiş və dünyada yaşayan hər bir azərbaycanlıya ünvanlanmışdır. O vaxt bu məfkurə - azərbaycançılıq ideyası dövlətin strateji xətti kimi irəli sürüldü. XX əsrin əvvəlində azərbaycançılıq başlıca istiqlal ideyası oldu. İndi əsrin sonunda da "istiqlal ideologiyamızın təməlində türkçülük və islamçılıq dayanan azərbaycançılıq olmalıdır" [3, s.66].

Azərbaycanın müxtəlif ölkələrdəki icmaları, diasporları lobbiçilik fəaliyyətində türkdilli xalqların müvafiq təşkilatları ilə sıx əlaqə saxlamalı, birgə çalışmağın metodlarına yiyələnməlidirlər [12, s.21]. Etiraf edək ki, Türkiyə türklərinin, tatarların, özbəklərin, qazaxların və s. da bu sahədə o qədər böyük təcrübəsi yoxdur. Bununla belə, Türk dünyası, bütün mövcud problemlərə baxmayaraq, azərbaycanlıların öz milli ideallarını həyata keçirməsində ən etibarlı kontekst, ən münasib etnososial mühitdir [13, s.39].

Azərbaycançılıq ideyasında milli dövlət konsepsiyası və Azərbaycanda yaşayan xalqların milli-mədəni inkişafı konsepsiyası çox böyük əhəmiyyətə malikdir [14, s.191].

Azərbaycançılıq Azərbaycan dövlətçiliyi tarixinin yaxın gələcəyi ərzində milli ideologiyanın əsası olaraq qalacaqdır [1].

Açar sözlər: azərbaycançılıq, türk birliyi, milli ideologiya**.**

İstifadə olunmuş ədəbiyyat

1. Mehdiyev R. Azərbaycançılıq – milli ideologiyanın kamil nümunəsi /"Azərbaycan" qəzeti, 09.11.2007.
2. Vəliyeva S. Milli dövlətçilik hərəkatnın yüksəlişi və Xalq Cümhuriyyəti dövründə azərbaycançılıq ideyası, Bakı, Azərbaycan, 2003.
3. Şəmsizadə N. Azərbaycançılıq, Bakı, Nurlar, 2006.
4. Сумбатзаде А.С. Азербайджанцы – этногенез формірованія народа, Баку, Елм, 1990.
5. Mirzə Bala Məmmədzadə. Milli Azərbaycan hərəkatı. Bakı, 1992.
6. Xəlilov S. H.Əliyev və azərbaycançılıq məfkurəsi. Bakı, Azərbaycan universiteti, 2002.
7. Həyat, 1905 №7.
8. Həyat, 1905, №1
9. Qarayev Y. Tarix: yaxından və uzaqdan. Bakı, Sabah, 1995.
10. Алекперлі Ф., Еще раз о національной ідее /Зеркало, 15.08.2009.
11. Şəmsizadə N., Qasımov Y. Türk bədii təfəkkürü: talebirgəlik və özgünlük «Azərbaycan" qəzeti, 13.08.1996.
12. Гусейнов Р.Ф. Концепція національной політікі Азербайджанской Республікі, Баку, 2003.
13. H.Əliyev və Şərq. 6 cilddə. 2002-2006. VI cild. Bakı, Çaşıoğlu, 2006.

14. Mehdiyev R. Azərbaycan: tarixi irs və müstəqillik fəlsəfəsi. Bakı, Azərbaycan Ensiklopediyası, 2001.

Кямаля НУРІЕВА

ИДЕОЛОГІЯ ГОСУДАРСТВЕННОСТІ НЕЗАВІСІМОГО АЗЕРБАЙДЖАНА – АЗЕРБАЙДЖАНІЗМ І КОНЦЕПЦІЯ ТЮРКСКОГО ЕДІНЕНІЯ

Резюме

После восстановленія незавісімості Азербайджана открылісь шірокіе возможності для формірованія і развітія національной ідеологіі. Азербайджанізм был выбран ідеологіей государственності незавісімого Азербайджана. Статья посвящена історіі вознікновенія і формірованія азербайджанізма, его взаімоотношенію с концепціей тюркского єдіненія.

Ключевые слова: азербайджанізм, тюркское єдіненіе, національная ідеологія.

Kyamala NURIYEVA

STATE SYSTEM IDEOLOGY OF INDEPENDENT AZERBAIJAN – AZERBAIJANISM AND THE CONCEPT OF TURKIC UNITY

Summary

After restoration of Azerbaijans independence the ample opportunities for formation and development of national ideology have opened. Azerbaijanism was chosen by state hood ideology of independent Azerbaijan. The article is devoted to history of occurrence and formation of Azerbaijanism and its inter relation with the concept of Turkic unity.

Keywords: Azerbaijanism, Turkic unity, national ideology.

UOT 128
Nosrat DELBASTEH
BDU-nun aspirantı

AZƏRBAYCAN FİLOSOFLARI HƏYATIN MƏNASI HAQQINDA*

Müasir dövrdə fəlsəfənin həll etməyə çalışdığı bir sıra fundamental problemlər sırasında insan həyatının mənası məsələsi aktuallığı baxımından özünəməxsus yer tutur. Xüsusən XX əsrin ortalarından etibarən insan həyatına, onun hüquq və azadlığına olan münasibət nəinki fəlsəfi mühitdə, həm də beynəlxalq müstəvidə özünün ən yüksək zirvəsinə çata bilmişdir. Təsadüfi deyil ki, istənilən ölkənin sivil dövlətlər sırasına qəbul edilməsi həmin cəmiyyətdə məhz insan probleminə olan münasibətdən bilavasitə asılı olur. Hazırda dünyanın müxtəlif mədəniyyətlərində həyatın mənası problemi həmin cəmiyyətin düşüncə sahibləri (şairlərin, yazıçıların, filosofların və b.) tərəfindən çözülməkdədir. Bu problemin dərki dünya mütəfəkkirləri ilə yanaşı Azərbaycan filosoflarının da diqqətindən yan keçməmişdir. Qaldırılan mövzunun cəmiyyətimiz üçün və ümumən müasir dövr üçün aktuallığını nəzərə alaraq, hazırkı məqalədə Azərbaycan filosoflarının həyatın mənası barədəki fikir və baxışlarına diqqət yetiriləcəkdir.

İndiyə qədər belə bir fikir daha geniş yayılmaqda və tez-tez vurğulanmaqdadır ki, insanlar həyatın mənası haqqında lap qədimdən, hələ ***erkən*** *ibtidai icma* dövründən etibarən düşünməyə başlamışlar. Bir çox tədqiqatçılar və alimlər indinin özündə də bu cür yoxlanılmamış və dəbdə olan ideyadan çıxış etməkdədirlər. Lakin müasir tədqiqatlar nəticəsində aydınlaşdırılmışdır ki, insanlar həyatın mənası haqqında lap qədim zamanlardan (yəni qeyri-müəyyən dövrdən) deyil, məhz e.ə. I minillikdən etibarən düşünməyə başlamışlar (6, s.16-17). Həyatın mənası haqqında ilk düşüncələr xüsusən Upanişadlarda (e.ə. VIII-VII əsrlər) artıq səsləndirilsə də, bu problemin dərkinə göstərilən peşəkar diqqət ilk fəlsəfi məktəblərin meydana gəlməsi ilə tədricən filosofların fikirlərində özünə yer tapmış və Orta əsrlərdə (əvvəlcə Şərqdə, sonra isə Qərbdə, xüsusən İntibah dövrünün dünyagörüşündə) öz aktuallığını və əhəmiyyətini daha da artırmışdır. Digər tərəfdən, yeni araşdırmalardan o da məlum olur ki, bilavasitə həyatın mənası probleminə həsr edilmiş xüsusi tədqiqat işləri (məqalə, kitab və monoqrafiyalar) yalnız XIX əsrdən etibarən meydana gəlmişdir (6, s.16-17, s.137). Buna baxmayaraq, Antik dövrdən başlayaraq dünyanın bir çox filosofları və mütəfəkkirləri həyatın mənası haqqında az və ya çox dərəcədə öz fikirlərini söyləməyə səy göstərmişlər. Bu çətin problemin anlaşılması tanınmış Azərbaycan filosof və mütəfəkkirlərinin də diqqətindən kənarda qalmamışdır.

Qeyd etmək lazımdır ki, Azərbaycanda həyatın mənası probleminə mütəfəkkirlər tərəfindən göstərilən diqqət xüsusən bu regionda ərəbdilli İslam fəlsəfəsinin formalaşması ilə öz aktuallığını və əhəmiyyətini əldə edə bilmişdir. Orta əsr Azərbaycan filosoflarının bu mövzu ətrafındakı baxışları həm geniş yayılmış dini istiqamətlərin (qədərilər, mötəzililər və b.) və təriqətlərin (ismailizm, sufizm və b.), həm də peripatetik məktəbin böyük nümayəndələrinin (Əl Fərabi, İbn-Sina və b.) təsiri ilə formalaşmışdır. Adlarını qeyd etdiyimiz ənənəvi və qeyri-ənənəvi dini istiqamətlərin (bu dini istiqamət və cərəyanlar barədə bax: 2, s.39-40, s.89-90), eləcə də görkəmli ərəbdilli filosofların iradə azadlığına dair fikirləri (8, s.126) həyatın mənası probleminin dərkinə diqqət yönəldən Azərbaycan filosoflarının baxışlarına xeyli təsir göstərmişdir. Ümumilikdə isə, aparılan araşdırmalar belə qənaətə gəlməyə əsas verir ki, Azərbaycanın tanınmış fikir sahibləri əksər yunan filosofları və böyük ərəbdilli mütəfəkkirlər kimi həyatın mənası problemini insanın hansı dəyərlər əsasında yaşaması, xüsusən xoşbəxtliyə necə yetişməsi kontekstində, yəni daha çox etik aspektdə nəzərdən keçirməyə çalışmışlar.

Tanınmış Azərbaycan mütəfəkkirlərindən həyatın mənası məsələsinə ilk diqqət göstərənlər sırasında Xətib Təbrizinin adını qeyd etmək lazımdır. Təbrizdə anadan olan görkəmli mütəfəkkir İslam dünyasının bir sıra elmi mərkəzlərində öz dövrünün tanınmış alim və filosoflarından dərs almışdır. Aldığı zəngin biliyin sayəsində X.Təbrizi 1067-ci ildə Bağdadın tanınmış Nizamiyyə Universitetində ədəbiyyat kafedrasının müdiri vəzifəsinə təyin edilmişdir (9, s.166). Çoxşaxəli elmi və ədəbi yaradıcılığa malik olan X.Təbrizi etik problemlərin həllinə də böyük maraq göstərmişdir. Onun etik görüşlərinin ana xəttini insanın xoşbəxtliyə çatması məsələsi təşkil edir (9, s.180). Qeyd etmək olar ki, xoşbəxtliyə çatmağın yolunu

---

* Məqalə fəl.e.d., prof. H.İmanov və f.e.d., prof. Z.Hacıyev tərəfindən çapa məsləhət bilinib.

X.Təbrizi yaradıcı əmək fəaliyyətində görür. O hesab edir ki, insan yalnız çəkdiyi əməyin sayəsində xoşbətliyini əldə edə bilər. Mütəfəkkirin qənaətinə görə məhz yaradıcı əmək insan həyatının mənasını təşkil edir (9, s.180).

Görkəmli Azərbaycan filosofu Ə.Bəhmənyar isə xoşbəxtliyə çatmağın yolunu əqli fəaliyyətdə görür. O hesab edir ki, insanın xoşbəxtliyi həyatdan həzz ala bilmə bacarığı ilə müəyyənləşir. Həzz almağın ən ali səviyyəsi isə məhz zəka vasitəsilə mümkün olur (9, s.264-265). Xoşbəxtliyə çatmağın daha bir yolunu böyük filosof insanların həyatda ədalətli olmaları ilə əlaqələndirir. Ə.Bəhmanyar hesab edir ki, bu xüsusiyyət daha çox filosoflara və mütəfəkkirlərə xas olur.

Həyatın mənası probleminin dərki ilə bilavasitə bağlı olan insanların həyatda necə yaşaması, hansı dəyərlərdən çıxış etməsi, xoşbəxtliyə hansı yollarla çatması kimi taleyüklü məsələlərin nəzərdən keçirilməsi böyük Azərbaycan mütəfəkkiri N.Gəncəvinin yaradıcılığında mühüm yerlərdən birini tutur. N.Gəncəvinin fəlsəfi görüşlərini tədqiq edən müasir Azərbaycan filosofu C.Mustafayevin qənaətinə görə, böyük mütəfəkkir həyatın mənası məsələsinin dərk edilməsi istiqamətində insan əməyinə böyük önəm vermişdir (11). Daha bir tədqiqat işində göstərilir ki, həyatın mənası problemini insanların xoşbəxtliyə çatması məsələsi ilə əlaqələndirən böyük mütəfəkkir bu yolda ədalət prinsipinə riayət olunmasını mühüm addımlardan biri hesab etmişdir. Nizami Gəncəviyə görə, insanda ən yüksək keyfiyyət məhz onun ədalətli ola bilməsi ilə müəyyənləşir (12, s.146).

İnsan həyatının mənası məsələsinə öz yaradıcılığında mühüm yer ayıran böyük filosoflarımızdan biri də Şihabəddin Yəhya Sührəvərdidir. Orijinal məzmunu ilə səciyyələnən məşhur işraqiyyə nəzəriyyəsinin banisi Ş.Y.Sührəvərdiyə görə, insanların xoşbəxtliyə çatması yalnız onların maddi aləmdən uzaqlaşması və ruhi başlanğıca, işıqlı yola qədəm qoyması, ruhun kənar fikirlərdən təmizlənməsi və mənəvi zənginliyə yönəlməsi vasitəsilə mümkün ola bilər (9, s.287). Sührəvərdi aşağıdakıları bildirmişdir: "Bil ki, həyatdan həzz almaq zəkadan gəlir və xeyirxahlığın özü də ondan və biliklərdən törəyir" (9, s.287). Bir çox tanınmış Şərq filosofları kimi, Sührəvərdi də xoşbəxtliyə çatmağın əsas yolunu insanın mənəvi, ruhi özünütəkmilləşdirməsində görmüşdür (9, s.288).

Şərq dünyasının tanınmış sufi mütəfəkkiri Şəms Təbrizi öz dövrünün sayılıb-seçilən təfəkkür sahiblərindən biri olmuşdur. Tədqiqatçı E.D.Cavelidzenin axtarışları göstərir ki, Ş.Təbrizinin savadı, təsəvvüf elmini dərindən bilməsi onunla bir müddət təmasda olan böyük türk mütəfəkkiri C.Ruminin yaradıcılığına böyük təsir göstərmişdir. C.Rumi biliyinə yüksək qiymət verdiyi Azərbaycan mütəfəkkirini daim özündən yuxarıda tutmuş və onu "təkmil insan" kimi qəbul etmişdir (10, s.92). Ş.Təbrizinin yaradıcılığında insan problemi mühüm yer tutmuşdur. İnsanın dünyada yeri, onun həyatının mənası kimi məsələlər Ş.Təbrizini daim narahat edən mövzulardan biri olmuşdur (10, s.93). Ş.Təbriziyə görə, insanın əsas məqsədlərindən biri özünü tanıması, gələcəyi haqqında düşünməsidir (10, s.92). Qədərilərin və mötəzililərin mövqeyini qəbul edən Ş.Təbrizi hesab etmişdir ki, insan iradə azadlığına malikdir və ona görə də öz seçimindən çıxış edə bilir, öz hərəkətlərinə məsuliyyət daşımağı bacarır (10, s.107).

İnsanın iradə azadlığına və sərbəst seçim qabiliyyətinə malik olması böyük Azərbaycan alimi və mütəfəkkiri N.Tusinin də fikirlərində mühüm yer tutmuşdur (10, s.167). N.Tusi də öz sələfləri kimi həyatın mənası problemini insanın xoşbəxt olması məsələsinin həlli kimi başa düşmüşdür (10, s.167). Eyni zamanda böyük alimimiz hesab etmişdir ki, xoşbəxtliyə aparan yolu insanlar düzgün seçməyi bacarmalıdırlar. Məhz bu səpgili məsələlərin çözümü işinə böyük mütəfəkkir özünün məşhur "Əxlaqi-Nasiri" əsərində geniş yer ayırmışdır (4). Tusiyə görə, əsl xoşbəxtliyin əldə edilməsi üçün insanlar xeyirxah əməllər etməlidirlər. Bunun üçün isə əqlin və zəkanın köməkliyi ilə ruhun mənəvi özünütəkmilləşdirməsinə nail olmaq gərəkdir. Mütəfəkkir bildirmişdir ki, zəhmət çəkməklə, əməyə önəm verməklə, xeyirxah əməllər törətməklə insan elə düşünməməlidir ki, bütün bu işlərinə görə kiminsə tərəfindən mükafatlandırılmalıdır və ya axirət günü üçün (belə fikirlərə böyük alim inanmamışdır) özünə daha yaxşı aqibət hazırlamalıdır (həyata bu cür yanaşmanı mütəfəkkir riyakarlıq kimi dəyərləndirmişdir). Sadəcə hər bir kəs gördüyü xeyirxah işlərdən həzz almağı bacarmalı və məhz bu əsasda özünü xoşbəxt hiss etməlidir (10, s.167-168).

Panteizm dini-fəlsəfi istiqamətin tanınmış nümayəndələrindən biri olan M.Şəbüstəri öz sələfləri Baba Kuhi Bakuinin və Eynəlqüzat Miyanəcinin təsəvvüf irsini davam etdirərək insanın xoşbəxtliyə çatmasını Allahın, dünyanın və özünün dərkində görmüşdür. Bunun üçün isə insanlara xeyirxah əməllərlə məşğul olmaq məsləhət görülmüşdür. Bu yolda insanlara düzgünlüyə və ədalətə daha çox meyil göstərmələri tövsiyə olunmuşdur (6, s.27). Eyni mövqedən hürufilərin tanınmış nümayəndələri, o cümlədən görkəmli Azərbaycan şairi İ.Nəsimi çıxış etmişdir. Lakin ümumən panteistlərin, xüsusən isə sufilərin özləri üçün xoşbəxtliyə çatmağın yolu nisbətən fərqli başa düşülmüşdür. Məlumdur ki, panteistlər üçün həyatın

mənası kimi öz şəxsiyyətindən imtina və Allaha sonsuz məhəbbət vasitəsilə ona qovuşmaq arzusu qəbul edilmişdir (6, s.27).

Dahi Azərbaycan şairi M.Füzuli isə hesab etmişdir ki, insanlar həyatın mənasını pula hərislik, qızıl və gümüşün toplanılması əsasında deyil, biliyə can atmaq, elmlərə yiyələnmək vasitəsilə tapa bilərlər (10, s.481). Eyni zamanda Füzulinin qənaətinə görə, insanın xoşbəxt olması yolunda digər insanlara məhəbbət hissinin bəslənilməsi əsas şərt kimi çıxış edir. Məhz məhəbbət vasitəsilə insan öz məqsədinə çata bilər, xoşbəxt olmasını təmin edə bilər (12, s.271).

Qeyd etmək lazımdır ki, XVII-XVIII əsrlərin Azərbaycan mütəfəkkirləri, o cümlədən Y.Qarabağı, Saib Təbrizi və H.Z.Şirvani əsas etibarilə adlarını yuxarıda qeyd etdiyimiz öz məşhur sələflərinin yolunu davam etdirmiş və həyatın mənasının başa düşülməsi istiqamətində insanların xoşbəxtliyə necə çatması suallarına cavablar axtarmışlar. Bu dövrün Azərbaycan mütəfəkkirləri öz fəlsəfi düşüncələrində həm rasionalist, həm də dini-panteist istiqamətdən çıxış etmişlər.

Maarifçilik dövrünün görkəmli nümayəndələri də əsas etibarilə öz sələflərinin yolunu davam etdirməyə cəhd göstərmişlər. Lakin eyni zamanda maarifçilərimiz belə başa düşmüşlər ki, xoşbəxtliyə çatmaq üçün insan yalnız özünü düşünməli deyil, həm də mənsubu olduğu xalqın, cəmiyyətin taleyini öz dərdi kimi yaşamağı bacarmalıdır. Azərbaycanın maarifçiləri hesab etmişlər ki, hər bir insan xoşbəxtliyə can atmaqla həm də həyatının mənasını əldə etməyə müvəffəq ola bilər (6, 33). Lakin bu yolda uğur qazanmaq üçün xeyirxah əməllərlə məşğul olmaq lazımdır. Maarifçilərimiz xeyirxah əməlin ən yüksək təzahür formasını məhz xalqa xidmət etməkdə görürdülər. Müasir dövrün tanınmış Azərbaycan filosofu Z.Göyüşovun fundamental monoqrafiyasından aydın olduğu kimi, Azərbaycanın maarifçiləri və ilk növbədə M.F.Axundov, H.Zərdabi, S.Ə.Şirvani hesab etmişlər ki, insanın fərdi planda xoşbəxtliyə çatması mümkün deyil. Bu yolda uğur qazanmaq üçün insan öz xalqına xeyir gətirməli, cəmiyyətinin inkişafına öz töhfəsini verməyi bacarmalıdır (7, s.327). Əsərinin həmin yerində Z.Göyüşov onu da qeyd edir ki, M.F.Axundov və digər maarifçilərimiz öz həyatlarının mənasını məhz xalqına xidmət etməkdə görürdülər. Monoqrafiyasının digər yerində Z.Göyüşov M.Sidqinin bir hekayəsinə xüsusi diqqət yetirir. Göstərilir ki, M.Sidqinin qəhrəmanı Kəblə Nasir bütün ömrü boyu öz həyatının mənası axtarışında olur. Bu yolda müxtəlif çətinliklərlə rastlaşan, ağır məhrumiyyətlərə düçar olan əsərin qəhrəmanı sonda belə qənaətə gəlir ki, yalnız ictimai tərəqqiyə, xalqın rifahına nail olmaq vasitəsilə insan öz həyatının mənasını tapa bilər (7, s.460).

Həyatın mənası probleminin həlli yolları XX əsrin sonlarında müasir Azərbaycan filosoflarının baxışlarında daha əhatəli şəkildə tədqiq olunmağa başlanılmışdır. İlk belə cəhdi tədqiqatçı R.S.Hacıyev xüsusi olaraq bu mövzuya həsr edilmiş əsərində həyata keçirmişdir (5). Problemin çözülməsi istiqamətində öz axtarışlarını davam etdirən R.S.Hacıyev həmin mövzuda 2004-cü ildə dissertasiya işini müdafiə etməyə nail olmuşdur. Sonralar həmin tədqiqat əsasında onun rus dilində "Həyatın mənası problemi" adlı monoqrafiyası çapdan çıxmışdır (6). R.S.Hacıyev həyatın mənası məsələsinin geniş anlamda həllini qeyri-mümkün hesab etsə də, ayrıca götürülmüş şəxsin aktual seçimi baxımından bu problemin çözümünü mümkün saymışdır (6, s.5). Problemin həlli istiqamətində R.S.Hacıyev birinci tədqiqat işində özünütəsdiq prinsipini irəli sürmüş və hesab etmişdir ki, hər bir insan öz şüurlu seçimini etməklə şəxsiyyətinin özünütəsdiqini həyata keçirməyə müvəffəq olur (5, s.50-51). Tədqiqatçının mövqeyinə görə, özünütəsdiq prinsipi hər bir insanı məcburi şəkildə özünütəsdiq aktını reallaşdırmağa sövq edir. V.Franklın və digər ekzistensialistlərin baxışlarından çıxış edərək R.S.Hacıyev göstərməyə çalışmışdır ki, istənilən insan şüurlu seçimi vasitəsilə yaranmış hər bir aktual vəziyyətdə şəxsiyyətinin özünütəsdiqini reallaşdırmaqla, həm də öz həyatını mənalandırmış olur. Beləliklə də, R.S.Hacıyev hesab edir ki, insan həyatının mənası nə keşmişdə, nə də gələcəkdə, yalnız indiki zamanda, yaranmış aktual vəziyyətdə şəxsiyyətin özünütəsdiqi zəminində öz real həllini tapa bilir.

İnsan həyatının mənası probleminin araşdırılması cəhdləri tanınmış alim, professor Ə.Məmmədovun tədqiqatlarında da özünə yer tapmışdır. Belə ki, İ.A.İbrahimovla birgə çap etdirdiyi "İnsan haqqında fəlsəfi düşüncələr" adlı kitabın bir fəslini Ə.Məmmədov bu səpgili məsələlərin araşdırılmasına həsr etmişdir (3, s.137-160). Ə.Məmmədova görə, "həyatın mənası – insanın dərk edib öz həyat məqsədinə tabe etdirdiyi, həyati idealları naminə irəli sürdüyü və həyata keçirdiyi dəyərlərdir" (3, s.139). Professor hesab edir ki, bu kimi dəyərlər ali məqsədlər üçün yaşayan insanlara daha çox xasdır. Ə.Məmmədov haqlı olaraq onu da qeyd edir ki, insanların heç də hamısı həyatın mənası barədə düşünmür (3, s.141). Problemin dərki məsələsində marksist ənənələrə üstünlük verən professor belə qənaətə gəlir ki, insan həyatının mənası yalnız fəaliyyət prosesində açılır (3, s.147). Digər tərəfdən Ə.Məmmədov hesab edir ki, insan həyatının

nisbətən dərin mənası həyat mənafeyi naminə onun öz imkanlarını hərtərəfli inkişaf etdirməsindən ibarətdir (3, s.147-148).

İnsan həyatının mənası probleminin dərkinə diqqət yönəldən digər müasir Azərbaycan filosofu professor Y.Rüstəmov olmuşdur. 2004-cü ildə çap etdirdiyi dərs vəsaitinin bir bölümünü bu səpgili məsələlərin həllinə həsr edən professor haqlı olaraq göstərir ki, öz şəxsiyyətini dərk etməyən insan həyatın mənası barədə düşünə bilməz (13, s.392). İnsan tərəfindən şəxsiyyətinin dərki isə onun digər insanlarla özünü müqayisə etməsi zəminində mümkün olur. Professora görə, həyatın mənası barədə sualın qoyuluşu ondan xəbər verir ki, bu barədə düşünən insanda öz "Mən"-i haqqında təsəvvürlər baş qaldırmış, o artıq öz ləyaqəti barədəki fikirlərə dalmışdır (13, s.392). Deməli, həyatın mənası barədəki əsl düşüncələr insanın daxilində o zaman baş qaldırır ki, həmin şəxsdə özünüdərk prosesi həyata keçmiş olsun. Bu, eyni zamanda, şəxsiyyət tərəfindən onun azadlığının əldə edilməsi gerçəkliyinə də bir işarədir (13, s.392). Deyilənlərlə yanaşı Y.Rüstəmov onu da nəzərə alır ki, hər bir şəxsiyyətin həyatının məqsədi və mənası sosial ideyalar və hərəkətlər ilə bağlıdır.

Həyatın mənası probleminin dərkinə diqqət yönəldən müasir Azərbaycan filosoflarından biri də professor H.İmanovdur. Professor hesab edir ki, həyatın mənası probleminin dərki ilə bağlı baxışlar tarixən dəyişkən səciyyə daşımışdır. H.İmanovun fikrincə, insanlar həyatın mənasını fərqli əsaslarda başa düşməyə çalışmışlar: "Bəziləri bu mənanı mübarizədə, fəaliyyətdə, bəziləri cəmiyyəti və özünü kamilləşdirməkdə, cəmiyyətə xidmət etməkdə, bəşəriyyəti biliklərlə zənginləşdirməkdə görmüşlər"(1, s.294). Professor həyatın mənasına olan baxışları dörd istiqamətdə qruplaşdırmışdır:

- həyatın mənası onun mənəvi-ruhi əsaslarında, həyatın özündədir;
- həyatın mənası həyatın özünün hüdudlarından kənardadır;
- həyatın mənasını insan özü öz həyatına gətirir;
- ümumiyyətlə, həyatın mənası yoxdur (1, s.295).

H.İmanova görə, birinci istiqamət bir qayda olaraq həyatın mənasını dini əsasda axtaran insanlara xasdır. Bu istiqamətdə axtarış aparanlar daha çox mənəviyyatını saflaşdırılmasına, ruhun kamilləşdirilməsinə çalışır və bu üsullar vasitəsilə Allaha qovuşma istəyini həyata keçirməyə can atırlar. Bu istiqamət daxilində professor onu da qeyd edir ki, fəlsəfədə həyatın mənasının həlli yolunda xeyirxah əməllərin edilməsinə mühüm əhəmiyyət verilir. Digər tərəfdən o da bildirilir ki, həyatın mənası axtarışında insana onun vicdanı kömək edir (1, s.295).

İkinci istiqamətin tərəfdarları həyatın mənasını özündən kənarda axtarır və onu tərəqqinin əldə edilməsində, cəmiyyətdə ədalətin təntənəsinə nail olmaqda və digər bu kimi ideyalarda tapmağa çalışırlar. Professor H.İmanovun qeyd etdiyi kimi, bu halda hər bir insan sadəcə deyilən nailiyyətlərə sahib olmaq yolunda vasitəyə çevrilmiş olur. Digər istiqamətdə isə həyata mənanı insan özü gətirir. Bu zaman o, öz iradə azadlığından irəli gəlir, lakin insan varlığının obyektiv şəraitini nəzərə almadığı halda volyuntarizmə və subyektivizmə yuvarlanmış olur. Daha sonra fikirlərini davam etdirən H.İmanov belə qənaətə gəlir ki, həyatın mənası haqqındakı düşüncələr iddialı insanı ölüm qorxusundan azad edir, ölümü çox rahat qarşılamaqda ona yardımçı olur (1, s.296).

Həyatın mənası probleminə həsr olunmuş son tədqiqat işlərindən biri də gənc Azərbaycan tədqiqatçısı Sevinc xanıma (tam adı Sevinc Məmməd Süleymandır) məxsusdur. Rus dilində yazılmış monoqrafiyasında S.M.Süleyman göstərir ki, həyatın mənası probleminin ümumi, abstrakt həlli yoxdur (14, s.26). Yalnız ayrıca götürülmüş insan üçün həyatın mənası axtarışı müəyyən nəticə əldə etməyə imkan verə bilər. Gənc tədqiqatçı hesab edir ki, həyatın mənasını yaratmaq olmaz, onu yalnız tapmaq olar (14, s.27). İnsan öz həyatının mənasını tapa bilər və bu yolda istiqamətləndirici amil kimi onun vicdanı çıxış edir. Fikirlərini davam etdirən tədqiqatçı bildirir ki, həyatın mənasının tapılması insanın əxlaqı ilə müəyyənləşir. Bu fikirləri bildirməklə S.M.Süleyman eynilə V.Franklin mövqeyindən çıxış etmiş olur (15, s.38). Tədqiqatçı onu da qeyd edir ki, həyatın mənası axtarışları sırf fərdi xüsusiyyət daşıyır və bu baxımdan yalnız şəxsiyyət səviyyəsində, konkret və aktual vəziyyətdə öz həllini tapa bilir (14, s.38, s.66).

Apardığımız araşdırmalar bir daha onu göstərir ki, Azərbaycan filosofları müasir dünyada böyük aktuallıq kəsb edən həyatın mənası probleminin çözümü işinə dünya mütəfəkkirləri ilə yanaşı öz layiqli töhfələrini verə bilmiş, bu istiqamətdə müxtəlif fikirlər söyləmiş, özünəməxsus konsepsiyalar irəli sürmüş, bu məsələnin mümkün həlli yollarını göstərməyə çalışmış və öz axtarışlarında müəyyən uğurlara imza atmağa müvəffəq olmuşlar.

Açar sözlər: insan, həyatın mənası, antik dövr, mülahizələr, iradə azadlığı, ədalət, sərbəst seçim, filosof.

İstifadə olunmuş ədəbiyyat

1. İmanov H.R. Fəlsəfənin əsasları (dərs vəsaiti). Turan evi, 2009.
2. İslam: Qısa fəlsəfi lüğət. Bakı, ASE Baş redaksiyası, 1989.
3. Məmmədov Ə.B., İbrahimov İ.A. İnsan haqqında fəlsəfi düşüncələr. Bakı, Renessans, 2000.
4. Tusi N. Əxlaqi-Nasiri. Elm, 1989.
5. Гаджіев Р.С. О прінціпе самоутвержденія. Баку, Елм, 1999.
6. Гаджіев Р.С. Проблема смысла жізні. Баку, Текнур, 2007.
7. Геюшов З. Этіческая мысль в Азербайджане. Баку, Гянджлік, 1968.
8. Иванов В.Г. Історія этікі средніх веков. Ленінград, 1984.
9. Історія азербайджанской філософіі. Т.І. Баку, Элм, 2002.
10. Історія азербайджанской філософіі. Т.ІІ. Баку, Элм, 2008.
11. Мустафаев С. Філософскіе і этіческіе воззренія Нізамі. Баку, Изд-тво АН Аз.ССР, 1962.
12. Очеркі по історіі азербайджанской філософіі. Баку, Изд-во АН Аз.ССР. Т.І. 1966.
13. Рустамов Ю. Основы філософіі (курс лекцій). Баку, Элм, 2004.
14. Сулейман С.М. В поісках смысла жізні. Баку, Тэбіб. 2010.
15. Франкл В. Человек в поісках смысла. М., Прогресс, 1990.

Носрат ДЕЛБАСТЕХ

АЗЕРБАЙДЖАНСКІЕ ФІЛОСОФЫ О ПРОБЛЕМЕ СМЫСЛА ЖІЗНІ

Резюме

Статья посвящена исследованію проблемы смысла жізні в воззреніях азербайджанскіх філософов. В статье отмечается, что особое вніманіе к вопросу осмысленія смысла жізні азербайджанскіе філософы сталі проявлять в средневековую эпоху, когда в этом регіоне стала утверждаться мусульманская культура. Азербайджанскіе мыслітелі ісходілі із того, как і какім образом человек может достічь істінного счастья, чтобы тем самым обресті смысл жізні. Автор отмечает, что только в настоящую эпоху, учітывая всю сложность исследуемой проблемы, азербайджанскіе мыслітелі к решенію вопроса сталі подходіть более глубоко і основательно.

Ключевые слова: человек, смысл жізні, антічный період, взгляды, свобода волі, справедлівость, свободный выбор, філософ.

Nosrat DELBASTEH

AZERBAIJANI PHILOSOPHERS ON THE PROBLEM OF THE MEANING OF LIFE

Summary

This article is dedicated to the study of the problem of the meaning of life in the views of Azerbaijani philosophers. In the article it is noted that a particular attention to the issue of the problem of the meaning of life was paid by the Azerbaijani philosophers in the Middle Ages, when in the studied region the Moslem culture was becoming firmly established.

The Azerbaijani thinkers proceeded from how and in what way a man can achieve real happiness in order to find the meaning of his life.

Author notes that in the present epoch the Azerbaijani thinkers commenced to approach to solving this problem more profoundly and thoroughly taking into account the whole complexity of the researched problem.

Keywords: man, meaning of life, ancient period, views, freedom of will, justice, free choice, philosopher.

UOT 101

Mikayıl ƏKBƏROV
AMEA FSHİ-nin k.e.i.

ƏKİNÇİLİK MƏDƏNİYYƏTİNƏ FƏLSƏFİ YANAŞMA*

Hələ ibtidai icma quruluşunda, məhsuldar qüvvələrin aşağı səviyyədə olduğu dövrdə insanlar təbiət qüvvələrindən daha çox asılı olmuşlar. Yerli əhali öz təsərrüfat sahələrini coğrafi şəraitin, yaşayış vasitələrinin, təbii mənbələrin daha münasib olduğu ərazidə inkişaf etdirməyə çalışırdı.

Şübhəsiz ki, Neolit - Yeni Daş dövrünün ən mühüm yeniliklərindən biri əkinçiliyin əsas təsərrüfat formasına çevrilməsi olmuşdur. Bu yenilik məhsuldar qüvvələrin inkişafı ilə üzvi surətdə bağlı idi. Oturaq həyat tərzi keçirən yerli tayfalar əsasən əkinçiliklə məşğul olurdular.

"Tədricən əmək alətlərinin təkmilləşdirilməsi və məhsuldar qüvvələrin nisbətən inkişafı yeni tarixi dövrün - Tunc dövrünün başlanmasına səbəb olmuşdur. Yeni bərqərar olan Tunc dövrü tarixdə metal dövrünün ikinci mərhələsi kimi qiymətləndirilir. Tunc dövründən etibarən toxa əkinçiliyindən cüt əkinçiliyinə keçid başlanmışdı. Bununla da əkinçilik təsərrüfatında aparıcı - üstün rol kişilərin əlinə keçmiş, təsərrüfatın xarakterində baş verən dəyişiklik bu sahədə qadın əməyinin rolunu nəzərə çarpacaq dərəcədə azalmasına səbəb olmuşdur"(1, s.33).

Cütün meydana gəlməsi əkin sahələrinin daha geniş istifadə edilməsinə əlverişli imkan yaratdı. Bununla əlaqədar bir sıra əkinçilik sistemləri əmələ gəldi və inkişaf etdi. Əkinçilikdə işlədilən tunc alətlərin sayı xeyli təkmilləşdi və çoxaldı.

Əsrlər boyu əkinçilik cəmiyyətində taxılçılıqda məhsuldarlığı artırmaq məqsədilə torpağa xüsusi qayğı göstərilmişdir. Azyararlı və çox becərilib yorğun düşən sahələri münbitləşdirmək məqsədilə əkinçilər müxtəlif qaydalardan istifadə etmişlər. Bu məqsədlə biçilmiş taxıl zəmiləri yandırılır, bəzən də ora sürü və naxır sürülürdü. Nəticədə yandırılmış kövşən və peyin torpağa qüvvət verirdi. Peyin və külün sahəyə səpilməsi daha geniş yayılmış və daha çox əhəmiyyət kəsb etmişdir.

"Taxılçılıq təsərrüfatında mühüm əmək proseslərindən biri də toxumun seçilməsi və səpinidir. Toxumseçmədə ən çox istifadə edilən üsul zəmilərdən sünbülün seçilməsidir. Təcrübəli əkinçilər zəmilərdəki gözəgəlimli iri, sağlam və dolu dənli sünbülləri qırma üsulundan istifadə edir, başqa toxumçular isə xırmandakı dərzləri nəzərdən keçirib münasib sünbülləri seçərdilər. Təxminən hər dərzdən 4-5 sünbül götürülərdi. Buna "seçmə" üsulu deyilirdi. Bəzən də toxumluq üçün bütöv bir əkin sahəsi ayrılardı. Daha keyfiyyətli toxum seçmək üçün "qırma" və "sındırma" üsulundan istifadə edilərdi. Bu üsulla toxumçu sünbülü qırıb yalnız ortasını götürərdi. Bundan əlavə, xırmanda daha iri dənlər toxumluq üçün ayrılıb götürülərdi. Toxumluq üçün seçilmiş sünbül və dərzlər xırmanlarda ayrıca olaraq döyülərdi" (1, s. 53).

Toxum müqəddəs hesab edilir, ona haram qatılmazdı. Toxumun oğurlanması günah sayılardı, onu nə qovurar, nə də borc verməzdilər. Toxum satılmazdı, lakin dəyişdirilərdi. Birçanaq toxum, on çanaq taxıl əvəzi idi.

Orta əsrlərdə əkinçilik cəmiyyətində taxılın döyülməsində həlledici alət ağac, qismən də carcarlar olmuşdur. Bu alətlər döyüm prosesində biri digərini tamamlamış və prosesi sürətləndirməyə zəmin yaratmışdır. Carcar öz quruluşu etibarilə daha da təkmilləşdirilmiş döyüm aləti olmuşdur.

Orta əsrlərdə taxılın saxlanılmasında iri səbətlər, torpaq quyular və təsərrüfat küplərilə yanaşı, çuval, kisə, ağac və çubuqdan hazırlanmış anbarlardan da geniş istifadə edilmişdir. Heç şübhə yoxdur ki, taxılın saxlanmasında çuval və anbarlar daha münasib olmuşdur. Bu dövrdə taxılçılığın inkişafı ilə əlaqədar iri anbarlardan daha geniş istifadə edilmiş və taxılın yaxşı saxlanılmasına şərait yaranmışdır.

"Taxılçılıq təsərrüfatında qədimdən darı bitkisi əkilib-becərilmişdir. Darı tez yetişməsinə və məhsuldarlığına görə başqa dənli bitkilərdən fərqlənsə də, özünün keyfiyyətinə görə bir o qədər də əlverişli bitki sayılmadığı üçün dənli bitkilər içərisində axırıncı yeri tutmuşdurr" (1, s. 36).

Ənənəvi taxıl bitkilərindən hesab olunan çovdar, mərci və başqa bitkilər də becərilmişdir. Lakin bu bitkilər az miqdarda əkilib-becərilmişsə də, alınan məhsul bazara - satışa da çıxarılmışdır.

Çəltik bitkisinin vətəni Cənub-Şərqi Asiya ölkələri olmuşdur. Dünya bitkiçiliyinə çəltiyi Hindistan və Birma vermişdir. Deməli, çəltik tədricən bu ərazilərdən başqa ölkələrə də yayılmışdır. Orta Asiyada bu

* Məqalə fəl.e.d. Lalə Mövsümova tərəfindən çapa məsləhət bilinib.

bitkinin becərilməsi təxminən eramızdan əvvəl VII əsrə, Yaxın Şərq ölkələrində eramızdan əvvəl II əsrə aid edilir. İranda isə çəltiyin Sasanilər sülaləsinin son dövrlərində becərildiyi göstərilir. Çox ehtimal ki, bu bitki İranda VI-VII əsrlərdən etibaren geniş surətdə becərilməyə başlanmışdır.

Əkin sahəsində məhsul artımı üçün əsas şərt torpağın nisbətən keyfiyyətli şumlanması olmuşdur. Şumlamada xışların qoşqu heyvanlar vasitəsilə işlədilməsi və taxıl döyümündə vəllərin geniş istifadəsi bu baxımdan böyük əhəmiyyət kəsb edir.

Əkinçilərin torpağı becərməsi sahəsindəki zəngin təcrübəsini müxtəlif torpaq-iqlim şəraitinə uyğun olan şum alətləri yaratmasında aydin görürük. Torpağı torpaqdan, yeri-yerdən seçən əkinçilər məhz bu səbəbdən quruluşuna, habelə şumlama xüsusiyyətlərinə görə bir-birindən fərqlənən xış, diyircəkli kotan və qara kotan kimi şum alətləri yaratmışlar.

Əkinçilik cəmiyyətində insanların bir-birinə yardımına daha çox ehtiyac duyulurdu. Torpağın şumlanmasından başlamış, biçin, dərzdaşıma, döyüm, otçalımı, yaxud suvarma arxlarının çəkilməsi və s. əmək proseslərində əkinçi əhalinin bir-birinə kömək etməsi adət halını almışdı. Bu cür ağır və tez görülən işlərdə köməketmə adəti ən münasib bir hal olmaqla yanaşı, bəzən zəruri və əvəzedilməz əhəmiyyətə malik olurdu. Xeyli işçi və qoşqu qüvvəsi tələb edən bu işlərin öhdəsindən bir və ya iki ailə gələ bilmirdi. Bundan əlavə, ailə başçısını itirmiş, yaxud şikəst və ya xəstəsi olan ailələrə kömək edilərdi.

Əkinçilərə üfüqün vəziyyəti əsasında günün necə keçəcəyi haqqında məlumat verərdilər. Günəş doğarkən, üfüq həddindən artıq qızarmış olduqda, həmin gün havanın dəyişəcəyi, külək əsəcəyi, qış vaxtı, hətta yağış və ya qar yağacağı gözlənildiyi, həmçinin axşam üstü, günəş batarkən üfüq qızarmış olquqda isə sabahın günəşli olacağı bildililirdi.

Göründüyü kimi, əkinçilik cəmiyyətində əsrlər boyu təbiət, səma cisimləri, Ay və Günəş üzərindəki müşahidələrinə əsaslanaraq müvafiq əkinçilik təqvimi yaratmışlar. Bu təqvimlə il Novruz - bahar bayramından hesablanırdı. Novruzun daim eyni vaxta düşməsi hansı fəslin nə vaxt başlanmasını və ya nə vaxt qurtarmasını müəyyən etməyə imkan verirdi.

Əkinçilik cəmiyyətində meşə yerlərinin təmizlənməsi üçün məngəl, düsər, bel, balta və s. kimi əmək alətlərindən istifadə edilirdi. Mövcud olan adətə görə, tala yeri onu meşəlikdən və ya kol-kosdan təmizləyən, abadlaşdıran şəxsin adı ilə adlanırdı. Böyük zəhmət tələb edən bu işdə elin köməyindən də istifadə edilirdi.

Əkinçilik mədəniyyətinin inkişafı nəticəsində kənd təsərrüfatı və ərzaq məhsullarının çoxalması, onların uzunmüddət istifadə üçün saxlanılmasını tələb edirdi. Bu tələbat da kənd təsərrüfatı məhsullarını uzun müddət saxlamağa imkan verən saxsı (keramika) qabların hazırlanmasına ehtiyac yaratmışdır. Bu proses qədim dövrlərdə dulusçuluq sənətinin inkişafını zəruri etmişdir.

Aydındır ki, torpağın becərilməsində əsas məqsəd yüksək məhsul götürmək, onu uzun illər yararlı halda saxlamaqdan ibarət olmuşdur. Bu məqsədlə əkinçilər müxtəlif üsullardan istifadə etmişlər. Nəzərdə tutulan əkin sahəsi əvvəlcədən daşdan, kol-kosdan təmizlənib şumlama üçün yararlı hala gətirilirdi. Bu cəhətdən qədim yazılı abidələrdən olan"Avesta" da verilən ibrətamiz fikir böyük maraq doğurur: "Ey məni sağ və sol əlilə becərən insan, inan, yorulmadan, usanmadan sənə keyfiyyətli və bol məhsul verməkdən doymayacağam" (4, s. 49).

Əsrlər boyu bol məhsulun əsasını ilk növbədə şumlama təşkil etmişdir.

Taxılçılıqda qoşqu qüvvəsi ilə istifadəsi mümkün olan bir sıra şum alətləri mövcud olmuşdur. Azərbaycanda bir-birini tamamlayan xış, qara kotan kimi şum alətləri daha geniş yayılmışdır. "Avesta" da Şərq ölkələrində suyun və suvarmanın əvəz edilməz əhəmiyyətindən bəhs edilərək deyilirdi: “Su olmayan yerdə nə həyat var, nə də məhsul” (4, s. 68).

Dünyada minlərlə yaşayış məskəninin suvarma ilə əlaqədar olaraq ad daşıması insanların iqtisadi həyatında suvarmanın nə dərəcədə mühüm rol oynadığını göstərir.

İri və kiçik çayların sahillərində məskunlaşan əhali süni suvarmanın üsul və qaydalarını daha yaxşı öyrənməklə, suvarılan əkinlərin becərilməsində zəngin təcrübəyə malik olmuş və onu daha da inkişaf etdirə bilmişdir ki, bu da mütəxəssislərin "süni suvarmada əkinçilik qədər qədimdir" fikrini təsdiq edir.

Torpağın kübrələnməsi məqsədilə əkinçilər əkinqabağı bir neçə gün qoyun sürüsünü əkin sahəsində saxlayar və bəzən sürünü gecələr də orada yatırardılar. Ümumiyyətlə, əkinçilərlə maldarlar arasında tarixən belə bir qayda mövcud olmuşdur ki, qoyun sürüləri kövşəndə otarılsın. Bununla əkin sahibləri torpağın kübrələnməsinə, maldarlar isə sürünün kövşəndə dən yeməsinə nail olardılar.

“Əkinçilikdə geniş yayılan sistemlərdən biri də "dincə qoyma" sistemi olmuşdur. Bu sistem torpağın məhsuldarlığını saxlamaq və ya yüksəltmək məqsədilə tətbiq edilirdi. Bir neçə il fasiləsiz olaraq becərilərək yorğun düşmüş torpaq sahəsini əkinçilər dincə qoyurdular. Yorulmuş, məhsuldarlığı azalmış torpaq sahəsi

bir-iki il və bəzən daha uzun müddətə dincə qoyulduqdan sonra onun münbitliyi bərpa olunurdu. Hər bir ölkənin iqlim şəraitindən, ictimai-iqtisadi amillərdən asılı olaraq torpağın dincə qoyulma müddəti də müxtəlif olurdu" (1, s. 43).

Azərbaycanın görkəmli mütəfəkkiri Həsən bəy Zərdabinin 1875 – ci ıldə nəşr etdirdiyi "Əkinçi" qəzeti Azərbaycanın ilk elmi – fəlsəfi mənbəyi idi. H. Zərdabi yazırdı: "Bir il buğda əkdikdən sonra yer bir il dincəlsin və ya buğdadan sonra o yerdə bir neçə il qeyri şey, məsələn qarğıdalı, kartof, tənbəki, yerkökü, və qeyri kökü dərinə gedən şey əkilsin" (6, s. 2).

Əkinçiliyə keçid bəşər tarixində ən böyük çevriliş idi. Tayfalar qalan barbar kütləsindən ayrıldılar. Bu birinci böyük ictimai əmək bölgüsü idi. Əhalinin sayının artması onların çay kənarından səhralara, daha soyuq yerlərə hərəkətinə səbəb olmuşdur. Kənd təsərrüfatı sivilizasiyasının beşiyi olan Hind və Xuanxe vadiləri əkinçiliyin inkişafında misilsiz yerlər kimi tanınır. Yeni kənd təsərrüfatı texnologiyası əhalinin artımına səbəb olmuşdur. Bizim eradan əvvəl ikinci minillikdə əhalinin sayı 40-50 milyon nəfər, bizim eranın başlanğıcında isə 100-200 milyon nəfərə çatmışdır. Böyük coğrafi kəşflər dövründə əhali 450 milyon nəfərə çata bilmişdi. Böyük coğrafi kəşflər kənd təsərrüfatı texnologiyasının inkişafına və yayılmasına, onun planetar hadisəyə çevrilməsinə imkan vermişdir. Əgər sənaye inqilabına qədər əhalinin təkrar istehsalı prosesi yüksək doğum və ölümlə xarakterizə olunurdusa, sanitar-gigiyena texnologiyasının kəşfi və tətbiqi sayəsində yüksək doğum saxlanılmaqla ölüm halları tədricən aşağı enməyə, ömrün isə uzadılması müşahidə edilməyə başlamışdır. Bu rejimə əvvəlcə Avropada və ABŞ-da keçməyə başlamışlar. Avropada demoqrafik böhran yetişdiyindən əhalinin müəyyən hissəsi yeni dünyaya, - Sibirə, Avstraliyaya köçməyə üstünlük verirdilər. İşçi qüvvəsi artırdı, əhalinin strukturunda gənclərin çəkisinin yüksəlməsi ordunun formalaşması işini asanlaşdırmışdır. Elə həmin dövrdə böhran vəziyyəti ekstremist təmayüllü qrupların yaranmasına imkan vermişdir. Tarixin səhnəsinə çoxsaylı gənclərin çıxması Avropada müharibə və inqilabların bir-birini əvəz etməsinə şərait yaratmışdır. Avropa dünyanın bölüşdürülməsində və işğalçı müharibələrin aparılmasında yaxından iştirak edirdi. Bu qitədə əhali artımının zirvəsi XIX əsrə təsadüf edir.

Azərbaycan əlverişli təbii-coğrafi şəraitə malik bir ölkədir. Bu münasib şərait çox qədim zamanlardan müxtəlif təsərrüfat sahələrinin yaranması və inkişafına xüsusi təsir göstərmiş və əsaslı zəmin yaratmışdır.

Alimlərin tədqiqatları Azərbaycanın qədim insan məskənlərindən, azərbaycanlıların isə zəngin əkinçilik mədəniyyətinə malik olan xalqlardan biri olduğunu sübut etmişdir. Bu ərazinin sakinləri qədim dövrlərdən başlayaraq əkinçiliklə məşğul olmuş və zəngin əkinçilik cəmiyyətinin mədəniyyətini yaratmışlar.

Azərbaycanın qədim əkinçilik ölkələrindən olmasını təsdiq edən amillərdən biri də onun müxtəlif əkinçilik əmək alətlərinin mövcud olmasıdır. İqtisadi dövrlərin fərqi nəyin istehsal edilməsi ilə deyil, necə və hansı əmək vasitələri ilə istehsal edilməsi ilə ölçülür.

Azərbaycanda Eneolit dövrü təxminən eramızdan əvvəl V-III minillikləri əhatə edir. Bu dövrdə ilk dəfə olaraq misdən istifadə edilsə də, əkinçilikdə daş alətlər əsas mövqeyə malik olmuşdur. Əkinçilik əsas sahə olmaqla yerli cəmiyyətin başlıca məşğuliyyəti sayılmış və onun iqtisadi həyatının əsasını təşkil etmişdir. Bu dövrdə taxılın əkilib becərilməsi, döyülüb yığılmasında ağac, daş və qismən də sümük alətlərdən istifadə edilmişdir.

Hələ ötən əsrlərdə, texnikanın zəif inkişaf etdiyi dövrlərdə müasir texnikanı çox sadə əmək alətləri əvəz edirdi. Kotanın əkinçilikdə əsas əmək aləti hesab olunduğundan ona daha çox sahib olan həmin dövrün varlısı hesab olunurdu. XVIII əsrin axırlarında və XIX əsrin əvəllərində yaşamış Mirzə Camal Cavanşir Qarabaği yazırdı: "Qarabağ xanın gəliri mahalların və kəndlərin taxıl və ipəyindən alınan məlcahatdan və əkin yerlərindən xana məxsus olan kotanlardan ibarət idi. Hətta yadımdadır, bir dəfə mərhum İbrahim xanın cütlərini və kotanlarını hesablayırdılar. Məlum oldu ki, xanın cüt və kotanı bütün Qarabağ əhlinin cüt və kotanı qədərdir, hətta onlardan iki cüt də artıqdır" (5, s. 50).

Azərbaycanda təxminən eramızdan əvvəl III minillikdən başlayaraq Eneolit dövrünü Tunc dövrü əvəz edir. Bu dövr təxminən iki min il davam edərək eramızdan əvvəlki I minilliyin başlanğıcında sona çatır, həmin dövr təkcə tuncun geniş istehsalı ilə deyil, eyni zamanda ictimai münasibətlərin və əkinçilik təsərrüfatının inkişafı ilə də səciyyələnirdi.

Azərbaycanda dəmirin meydana çıxması və geniş inkişafı təkcə iqtisadi həyatda deyil, ictimai quruluşun özündə də köklü dəyişikliklərə səbəb olmuşdur.

Azərbaycanda eramızın əvvəllərindən başlayaraq ictimai-iqtisadi və mədəni həyatda bir sıra mühüm dəyişikliklər baş verir. Məhsuldar qüvvələrin inkişafı istehsal münasibətlərinə uyğun gəlmir və nəticə etibarilə yeni, daha mütərəqqi istehsal münasibətləri yaranır və tədricən formalaşır.

Azərbaycan ərazisində hələ eramızdan əvvəlki I minillikdə Manna və Midiya kimi qədim dövlətlər təşəkkül tapmış və inkişaf etmişdir. Dövrünə görə iqtisadi və mədəni cəhətdən inkişaf edən bu dövlətlər zəngin əkinçilik mədəniyyətinə malik olmuşlar.

Atropaten və Albaniya ərazisi bol məhsul verən geniş zəmiləri və təbii otlaqları ilə seçilmişdir. Məhsuldar qüvvələrin durmadan inkişafı öz növbəsində əkinçiliyin intensiv surətdə irəliləməsinə səbəb olmuşdu. Azərbaycanda yaşayan yerli əhali əsasən yumşaq və bərk buğda, qismən darı və bir neçə növ arpa becərmişlər. Bu dövrdə süni suvarma sistemlərindən istifadənin geniş yayılması əkinçilik mədəniyyətinin daha yüksək səviyyəyə çatmasına səbəb olmuşdur.

Azərbaycanda geniş yayılan əkinçilik sistemlərindən biri də dəmyə əkinçiliyidir. Dəmyə əkinçiliyi adətən, iqlimin mülayim keçdiyi və yağışın bol olduğu dağ və dağətəyi zonalarda inkişaf etdirilmişdir. Qeyd etmək lazımdır ki, dəmyə yerinin buğdasından hazırlanan çörəyin özünəməxsus keyfiyyətləri vardır.

Yüksək məhsuldarlıq əldə edilməsi üçün əkinçiliyin sistemli şəkildə inkişaf etdirilməsi əsas şərtdir. Azərbaycanda tarixən əkinçilik sisteminin əsasını çala, dəmyə və suvarma əkinçiliyi təşkil edirdi. Şərq əkinçilik cəmiyyəti üçün səciyyəvi olan çala əkinçiliyi çaybasar, xalq arasında "çala" adlandırılan torpaqların əkilib-becərilməsi əsasında inkişaf etdirilmişdir. Çala torpaqlarda əsasən, yazlıq taxıl və bostan bitkiləri əkilirdi.

Azərbaycanda qədim tarixə və ənənələrə malik olan təsərrüfat sahələrindən biri də üzümçülükdür. Tədqiqatçılar haqlı olaraq üzümü bu ərazinin qədim meyvə növlərindən biri hesab edirlər. Azərbaycan ərazisində arxeoloji qazıntılar nəticəsində əldə edilmiş üzüm nümunələri bu fikri təsdiq edir. Tarixi mənbələr, üzümçülüklə bağlı toponimlər və nəhayət, müasir dövrümüzədək meşələrimizdə yetişən cır üzüm nümunələri ölkəmizdə üzümçülüyün qədimliyinə dəlil olmaqla bərabər, bu ərazi sakinlərinin məişətində necə görkəmli yer tutmasını bir daha sübut edir.

Eramızın təxminən III əsrindən etibarən Azərbaycanda feodalizmin yaranması və inkişafı ilə əlaqədar taxılçılıq inkişaf etmiş, məhsuldarlıq xeyli artmışdır.

XIX və XX əsrlərdə Azərbaycanın taxılçılıq təsərrüfatında müxtəlif forma və quruluşa malik olan əkinçilik vasitələrinin kompleksi tətbiq edilmişdir. Həmin alətlərin böyük bir qismi qədim dövrlərdə təsərrüfatda istifadə edilən alətlərlə xeyli oxşarlıq və eynilik təşkil edir. Bu da əkinçilikdə mövcud olmuş əmək alətlərinin təkamülünü izləməyə imkan verir.

Qədim əkinçilik mədəniyyətinə malik olan Azərbaycan təkcə özünün növbənöv taxılı, çəltiyi, mərcisi, noxudu ilə deyil, həm də dadlı meyvələri, bostan-dirrik məhsulları ilə məşhur olmuşdur. Əlverişli iqlim şəraiti, münbit torpaq ta qədim dövrlərdən bu ərazidə neçə-neçə qarpız və yemiş növünün, alma-armud, üzüm, ərik, şaftalı kimi qiymətli meyvələrin yetişdirilməsinə imkan vermişdir. Xalq seleksiyası təcrübəsindən çıxmış bir çox meyvələrimiz, bostan bitkilərimiz əsrlər boyu süfrələrimizin bəzək, çərəz, qonağına əvəzsiz hədiyyə olmuşdur.

Tədqiqatlar göstərir ki, XIX əsr və XX əsrin əvvəllərində Azərbaycanda bağçılıq əhalinin məişətində xüsusi yeri olan bir təsərrüfat sahəsi idi. Azərbaycanda Quba, Lənkəran, Göyçay, Şamaxı, Şəki, Naxçıvan kimi daha səciyyəvi bağçılıq rayonları mövcud idi. Hər bir zona özünə məxsus meyvəsi ilə fərqlənirdi.

Tarix elmləri doktoru Qəmərşah Cavadov özünün "Əkinçilik mədəniyyətinin sorağı ilə" kitabında yazır: "Xalqımızın əkinçilik təqvimi haqqında məlumatlar bizə bu nəticəyə gəlməyə əsas verir kı, Azərbaycan əkinçisi əsrlər boyu cəmiyyət və təbiətlə tamasda olmuş və biləvasitə özünün gündəlik təcrübələri əsasında bu sahadə zəngin bir irs yaratmışdır" (2, s. 165).

Azərbaycanda əkinçiliyin inkişaf tarixi ilə bağlı qədim və orta əsr mənbələrində, elmi-tədqiqat işlərində, eləcə də klassiklərin əsərlərində qiymətli məlumatlar vardır.

Açar sözlər: əkınçilik**,** toxum, kotan, əkinçilik cəmiyyəti, əkinçilik təqvimi, əmək prosesi.

İstifadə olunmuş ədəbiyyat

1. Azərbaycan etnoqrafiyası, I cild, Bakı: Elm, 1988, 456 s.
2. Cavadov Q. Əkinçilik mədəniyyətin sorağı ilə, Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1990, 168 s.
3. Fəlsəfə ensiklopedik lüğəti, Bakı: Azərbaycan ensiklopediyası nəş.pol.bir, 1997, 520 s.
4. Zərdüştliyə dair tədqiqatlar (məqalələr toplusu), Bakı: Təknur, 2004, 150 s.
5. Qarabaği M.C. Qarabağ tarixi. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1959, 170 s.
6. "Əkinçi " qəzeti, 1875, № 2.
7. Yaspers K. Tarixin mənası və təyinatı. B., Zəkioğlu, 2008, 763 s.

8. Qunnar S., Nile S. Fəlsəfə tarixi. B., Zəkioğlu, 2007, 752 s.
9. Лосев А.Ф. Философия. Мифология. Культура. М., Политическая литература, 1991, 528 с.

Микаил АКПЕРОВ

ФИЛОСОФСКИЙ ПОДХОД К КУЛЬТУРЕ ЗЕМЛЕДЕЛИЯ

Резюме

Данная статья автора посвящена истории развития земледелия, которая охватывает несколько крупных эпох. В азербайджанской философии эта тема разработана недостаточно. Подробно анализируя этапы развития земледелия, автор пытался показать его влияние на будущее.

Из статьи становится ясно, что, не изучив философию земледелия, сложно дать оценку истории народов. Кроме того, автор подробно рассматривает влияние земледелия на другие области жизни народов.

Нет сомнения, что выдвинутые в статье мысли, с интересом будут приняты читателями.

Ключевые слова: земледелие, семя, плуг, земледельческое общество, земледельческий календарь, трудовой процесс.

Mikail AKBEROV

PHILOSOPHICAL APPROACH TO AGRICULTURAL CULTURE

Summary

The present article is devoted to history of development of agriculture which covers of the large epochs. In the Azerbaijan philosophy this theme has not been suffieiently worked put. The author, profoundly analyzing stages of development agriculture, tried to show their influence on the future.

From article it becomes clear, that, not having studied agriculture, it is dificult to assess history of people. In addition author the influence. Considers of agriculture on other areas as well.

And also in clause the gifts presented agriculture to the Azerbaijan culture are investigated.

Undoubtedly to in the article the put forward ideas, will be accepted by readers with interest.

Keywords: agriculture, seed, plough, agricultural society, agricultural calendar, labour process.

UOT 101

Məhəmməd CƏBRAYILOV
AMEA FSHİ-nin k.e.i.

BİOSFERİN TARİXİ TƏKAMÜL PROSESİNƏ FƏLSƏFİ BAXIŞ*

İnsanı əhatə edən mühit, eləcə də Yerin təbiəti haqqında təsəvvürlərin formalaşması biosfer haqqında təlimin yaradılmasına gətirib çıxarmışdır. Bu təlim bir sıra təbiətşünasların fəaliyyəti sayəsində yaranmışdır. «Biosfer» terminini ilk dəfə olaraq J.B.Lamark işlətmişdir. Avstraliya alimi E.Zyuse XIX əsrin son rübündə həmin terminə geoloji məna vermişdir. Biosferi o, canlı orqanizmlərin məskun olduğu yer, yaxud da həyatın mövcud olduğu yer kimi başa düşürdü. Biosfer təlimini özünün xüsusi nəzəriyyəsi ilə zənginləşdirən böyük rus alimi, təbiətşünası V.İ. Vernadski (1863-1945) olmuşdur. 1926-cı ildə V.İ. Vernadski «Biosfer» adlı kitabını yazmışdır. Biosferə çoxlu tərifllər verilsə də, Vernadskinin tərifi onların içərisində xüsusi yer tutur. O, biosfer dedikdə canlı orqanizmlərin yaşadığı yer örtüyünü nəzərdə tuturdu. Biosfer haqqında müasir təsəvvürlər, bəşəriyyətin ətraf mühit və onu əhatə edən dünyanı dərk etməsi səviyyəsini əks etdirir. Alimlərin fikrincə, bu anlayış Yerin təbiətinin dərin mahiyyətini onun müəyyən məkanında daha geniş və tam əks etdirir. Bu təbiətin ən spesifik xüsusiyyəti – həyatıdır.

Bəşəriyyətin inkişaf pilləsində insan və təbiət münasibəti öz təbii ahəngini dəyişərək müasir dövrün ümumi mənzərəsini yaradır. Məlumdur ki, ibtidai insanla (homo sapiyensin biosferdəki fəaliyyətindən asılıdır) müasir insanın biosferdəki fəaliyyəti arasında ölçüyə gəlməz dərəcədə fərqlər meydana gəlmişdir.

Qeyd etməliyik ki, bəşər sivilizasiyasının ilkin inkişaf mərhələsində (biosferdə) qida tələbatının ödənilməsi məqsədi biosferdə antropogen təsirin mənfi izlərinin əmələ gəlməsini mümkünsüz etmişdir. Əgər biz ilkin ibtidai cəmiyyətlərin meydana gəldiyi dövrdən çağdaş dövrə qədər biosfer və insan münasibətinin dinamikasına nəzər salsaq ilkin mərhələdə insanın biosferdən asılılığının son bir neçə əsrdə biosferin insandan asılılığı ilə əvəzləndiyini müşahidə edə bilərik. Biosferin yaşaması və mövcudluğu geoloji və fiziki proseslərdən çox müasir insanın biosferdə gedən proseslərə humanist münasibətindən asılıdır.

İctimai formasiyaların bir-birini əvəz etməsində iqtisadi faktoru nəzərə alan müəlliflər insanın təbiəti istismar məqsədi ilə əldə etdiyi alətlərin yeniləşməsi və təkmilləşməsi məqsədini nəzərə almamışdır. İctimai formasiyaların bir-birini əvəz etməsi bütövlükdə iqtisadi tarixin inkişaf pillələrindəki bu qanunauyğunluq təkcə iqtisadi faktorla bağlı olmayıb, insanların yeni sivilizasiya yaratmaq təşəbbüsünün genezisində biosfer üzərində dominantlıq məqsədinin həyata keçirilməsi niyyəti ilə əlaqədardır. Təsadüfi deyildir ki, cəmiyyətin sosial-mədəni inkişafında mühüm rol oynayan (iqtisadi) maddi sərvətlərin yaradılması və inkişafını təşkil edən amil təbii resurslardır. İnsan təbiətdən əldə etdiyi təbii resurslardan, müxtəlif tələbatların ödənilməsi məqsədilə emal prosesindən keçirdiyi əmtəə məhsullarından sonsuz sayda maddi sərvətlər yaradır. Bəs görəsən insan bəşəriyyətin yaşamaq qarantiyasını özündə saxlayan biosferdən istismar hesabına əldə etdiyi xammal resursundan yaratdığı sonsuz sayda maddi sərvətlərin hamısını zəruri ehtiyacların ödənilməsinə sərf edirmi? Əlbəttə ki, yox.

Antik dövrdən təbiət haqqında teoloji ideyalardan yaranan ümumi dünyagörüşünə görə təbiət dəyişməzdir və o yaradanın ixtiyarındadır. Belə təsəvvürlərin inkişafı insanın təbiətə münasibətindəki mövqeyinə dəyişməz xarakter verir və onunla amansız mübarizədə insanın təbiət üzərində hiyləgərliklə əldə etdiyi "nisbi nailiyyətlər" sonda bəşəriyyətin ən böyük faciəsinə çevrilir.

Məqalədə həmkarlar ittifaqları liderinin bəzi - kommunikativlik, təşkilatçılıq qabiliyyətinin olması, məqsədyönlülük, çeviklik, inadkarlıq, müstəqil qərar qəbul etmək qabiliyyəti, intizamlılıq kimi xüsusiyyətləri araşdırılır və elmi cəhətdən əsaslandırılır.Həmçinin məqalədə həmkarlar ittifaqları rəhbərliyinin yerinə yetirdiyi idarəetmə fəaliyyətinin də öz xarakterinə, istifadə olunan mexanizmlərə, təsir vasitələrinə və metodlarına görə təsərrüfat rəhbərinin, yaxud inzibati məmurun müvafiq fəaliyyətindən xeyli fərqləndiyi qeyd olunur və bu fəaliyyətin mahiyyəti şərh edilir. Eyni zamanda həmkarlar təşkilatlarında düşünülmüş kadr siyasətinin aparılmasına münasibət də bildirilir.

Azərbaycan Respublikası demokratik, hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğunu özünün inkişaf yolu seçmişdir. Dövlətimizin sosial siyasəti insanın ləyaqətli həyatını və azad inkişafını təmin edən şəraitin yaradılmasına, ölkədə sosial institutların, o cümlədən həmkarlar ittifaqlarının inkişafı və möhkəmləndirilməsinə geniş imkanlar açır.

Sosial-humanist funksiyaların həyata keçirilməsində həmkarlar ittifaqlarının rolu müstəsna əhəmiyyət kəsb edir. Azərbaycan Respublikasının Konstitusiyasında təsbit olunmuş zəruri hüquqlar və azadlıqlar həmkarlar ittifaqlarına bir sosial institut kimi müqavilələr və danışıqlar sistemi vasitəsilə əmək şəraitinin yaxşılaşdırılmasına, iqtisadi siyasətin müəyyənləşdirilməsində iştirakına, daha dəqiq deyilsə, məşğulluğun, əməkçi insanların sosial müdafiəsinin, əmək haqqının ədalətli müəyyənləşdirilməsində sərişləli siyasət aparılmasına imkan verir. Digər tərəfdən, «Həmkarlar ittifaqları haqqında» Azərbaycan Respublikasının Qanunu ölkədə həmkarlar ittifaqları təşkilatlarının işinin müasir tələblər, sivilizasiyalı dövlətlərdə təşəkkül tapmış sosial institutların fəaliyyəti səviyyəsində qurulması üçün çox önəmli dövlət sənədidir.

Təsadüfi deyil ki, ümummilli lider Heydər Əliyevin siyasətini uğurla davam etdirən Azərbaycan Respublikasının prezidenti cənab İlham Əliyev həmkarlar ittifaqları haqqında demişdir: «İnanıram ki, müstəqil Azərbaycan Respublikasının əsas demokratik təsisatlarından biri olan həmkarlar ittifaqları vətəndaşların əmək hüquqlarının cəsarətlə qorunması və sosial rifah halının yüksəldilməsi sahəsində öz nəcib fəaliyyətlərini bundan sonra da davam etdirəcək və öhdələrinə düşən vəzifələri uğurla yerinə yetirəcəklər». Həmkarlar ittifaqının cəmiyyətdəki rolu isə onun rəhbərinin liderlik xüsusiyyətləri ilə birbaşa bağlılıq ehtiva edir.

Həmkarlar ittifaqı təşkilatı rəhbəri hər bir rəhbər üçün ümumi rol funksiyalarını yerinə yetirərək, həm lider, həm inzibatçı, həm də menecer kimi çıxış edir. Eyni zamanda bu rəhbərin spesifik fəaliyyət cəhətləri də xarakterikdir.

Dövlət, yaxud təsərrüfat təşkilatlarında rəhbərin müvafiq təşkilatın üzvlərinə münasibətdə lider kimi çıxış etməsi heç də vacib deyildir. Bunu başa düşmək çətin deyil. Həmkarlar ittifaqının rəhbəri isə hökmən insanları inandırıb öz ardınca aparmağa qabil olan lider olmalıdır.

Təşkilatda liderlik özünütəşkil, özünütənzimləmə münasibətləri sistemində meydana gəlir. Bu münasibətlər həmin təşkilatın qeyri-formal strukturunda təşəkkül tapır, o isə bürokratik tipli təşkilatlarda çox zaman rəsmi rəhbərin başçılıq etdiyi formal strukturla ziddiyyətə girir. Həmkarlar ittifaqı təşkilatlarında isə, adi şəraitdə belə «ikiləşmə» və onun törətdiyi ziddiyyətlər baş vermir. Həmkarlar ittifaqları öz mahiyyətinə görə bütövlükdə qeyri-formal əsasda fəaliyyət göstərən özünütəşkil və özünütənzimləmə sistemidir. Həmkarlar ittifaqları öz təşkilatlanma strukturuna görə məhz qeyri-formal təşkilat strukturuna malikdirlər.

---

* Məqalə iqd.e.d. R. İsgəndərov tərəfindən çapa məsləhət bilinib.

Həmkarlar ittifaqlarında işçilərin fəaliyyəti xüsusi göstərişlərlə reqlamentləşməyən böyük qeyri-formal təşkilati «məkan» mövcuddur. Bunun sayəsində burada liderliyin və liderlik münasibətlərinin formalaşması üçün ən əlverişli şərait yaranır.

Hər bir təşkilatın fəaliyyəti burada idarəçilik fəaliyyətinin həyata keçirilməsini nəzərdə tutur. Onun həm rəhbəri, həm lideri bu rolların bir şəxslə üst-üstə düşüb-düşməməsindən, yaxud bu rolların daşıyıcıları kimi müxtəlif subyektlərin çıxış etməsindən asılı olmayaraq, hökmən onun fəaliyyəti üçün zəruri olan idarəçilik funksiyalarını yerinə yetirir. Həmkarlar ittifaqları da istisna deyildir. Burada bir tərəfdən təşkilatın daxili həyat proseslərinin idarə olunması, digər tərəfdən isə təşkilatın mövcud olduğu və fəaliyyət göstərdiyi sosial mühitdə cərəyan edən proseslərə idarəçilik təsiri göstərir, yəni həmkarlar ittifaqlarının fəaliyyət göstərdiyi idarələrin, müəssisələrin və daha geniş miqyaslı sosial-iqtisadi sistemlərin həyat fəaliyyətinə təsir göstərir. Müvafiq idarəçilik, təşkilati-idarəçilik funksiyalarının həyata keçirilməsində baş rol həmin təşkilati sistemin bütün vəsilələrində həmkarlar ittifaqları təşkilatının rəhbərinə məxsusdur. Həmkarlar ittifaqları rəhbərliyinin yerinə yetirdiyi idarəetmə fəaliyyəti öz xarakterinə, istifadə olunan mexanizmlərə, təsir vasitələrinə və metodlarına görə təsərrüfat rəhbərinin, yaxud inzibati məmurun müvafiq fəaliyyətindən xeyli fərqlənir.

Sonuncular, tabeçilər üçün vacib olan əmrlər və sərəncamlar da daxil olmaqla, idarəetmədə inzibati vasitələrdən istifadə etməyə malikdir, həmkarlar ittifaqları lideri tam kamil dərəcədə qeyri-formal vasitələrdən istifadə edə bilər. Həmkarlar ittifaqları rəhbəri obyektiv olaraq təsərrüfat rəhbərindən, yaxud dövlət məmurundan fərqli olaraq, başqa yolla koordinatlar sistemində işləməlidir. Həmkarlar ittifaqları rəhbərinin fəaliyyət miqyası, effektivliyi və keyfiyyəti xeyli dərəcədə onun şəxsi keyfiyyətləri və sözün geniş mənasında, səriştəliliyi ilə müəyyən edilir.

Həmkarlar ittifaqları könüllülük əsasında yaranan təşkilat olduğundan burada əsas rəhbərlik avtoritar deyil, demokratik idarəçilik üsuludur. Burada qərarların qəbul edilməsində tərəflər bərabər tərəfdaş kimi çıxış edir, onlara hörmət edilir, qayğı göstərilir, amma bununla yanaşı, hər bir tərəf görülən işin, bütövlükdə fəaliyyətin yekunu üçün məsuliyyəti əsasən öz üzərinə götürür.

Həmkarlar ittifaqları rəhbərinin rolunun xüsusiyyətlərinə uyğun olaraq, bu rolun uğurla yerinə yetirilməsinə iddiaçı olan insana bir sıra mühüm psixoloji cəhətlər və xüsusiyyətlər xas olmalıdır. Məsələn, kommunikativlik kimi xüsusiyyət, müxtəlif sosial qrupların nümayəndələri ilə ünsiyyət qurmaq bacarığı çox mühüm cəhətdir.

Həmkarlar ittifaqları liderinin mühüm xarakterik xüsusiyyətlərindən biri dinləmək bacarığıdır. İnsana diqqətlə qulaq asmaq keyfiyyəti həmişə ona diqqətin, hətta hörmətin əyani təzahürü kimi qəbul edilir. Təbii ki, bu, insanın daha dolğun açıqlanmasına kömək edir, psixoloji maneələri aradan götürür, işgüzar ünsiyyəti artırır. Dinləmək bacarığı sadəcə nəzakət deyil, həm də mühüm və lazımlı informasiyanı almaq, işgüzar əlaqələr yaratmaq, müsahibi özünə xoş münasibətə dəvət etmək, onun rəğbətini qazanmaq vasitəsidir. Həmkarlar ittifaqları rəhbərinə təşkilatçılıq qabiliyyətləri və onunla bağlı aşağıdakı keyfiyyətlər də xas olmalıdır: məqsədyönlülük – dəqiq və aydın məqsədi olmaq və onlara nail olmaq bacarığı; çeviklik – şəraiti real qiymətləndirmək, prinsipial mövqeləri dəyişməməklə buna alışmaq bacarığı; əmək qabiliyyəti – işi uzun müddət yüksək səmərə ilə yerinə yetirmək qabiliyyəti; inad – şüurlu şəkildə qoyulmuş məqsədə nail olmaq üçün israrla cəhd göstərməkdə təzahür edən şəxsiyyətin iradi xüsusiyyəti; müstəqillik – öz imkanlarına arxalanaraq, fəaliyyəti həyata keçirmək qabiliyyəti; intizamlılıq – müəyyən edilmiş qaydaya tabe olmaq, kollektivdə intizam yaratmaq və möhkəmlətmək bacarığı; təşəbbüskarlıq və zirəklik – həvəslə hərəkət etmək bacarığı, ideyalar irəli sürmək və onları təcəssüm etdirmək yollarını müəyyənləşdirmək qabiliyyəti.

Rəhbər rolunun uğurla yerinə yetirilməsi üçün həmkarlar ittifaqlarının üzvü insanlar arasında qarşılıqlı münasibətlərə həssas reaksiya verməyi bacarmalı və onları bacarıqla tənzimləmək qabiliyyətinə malik olmalıdır. Ümumiyyətlə, onda təşkilati fəaliyyətlə məşğul olanlara xas bütün keyfiyyətlər olmalıdır.

Menecment nəzəriyyəsində o situasiya optimal sayılır ki, burada idarəedənlərin yaş strukturu bütün demoqrafik qrupların – gənclər çoxluq təşkil etməklə – nümayəndələrinin təmsil olunması ilə balanslaşdırılır. Bu model üzrə idarəetmənin kadr tərkibi 30 yaşına qədər 35 %-ə qədər, 31-50 yaş 35 %, 51 və daha çox yaş 30 % olmalıdır.

MDB ölkələrində həmkarlar ittifaqları sıralarına gənc nəslin daha geniş cəlb olunmasını və həmkarlar ittifaqlarının müvafiq kadr potensialının formalaşdırılmasını nəzərdə tutan fəal gənclər siyasətinin işlənib hazırlanması və reallaşdırılması böyük zərurətə çevrilmişdir.

Həmkarlar ittifaqlarında bütün islahatlar dövrü üçün kadr siyasətinin əsası, əlbəttə, kadr potensialının varisliyi prinsipidir. Birincisi, bu, həmkarlar ittifaqlarının işində sabitliyin və nizamın saxlanmasına,

rəhbərlikdə ifrata varmaqdan qaçmağa və bütün toplanmış müsbət hallardan praktiki istifadə etməyə imkan verir. İkincisi, belə yanaşma daha faydalıdır, çünki o, praktiki olaraq, illərlə toplanmış və bunun konkret daşıyıcıları həmkarlar ittifaqlarının stajlı rəhbərlərinin təcrübəsindən bacarıqla istifadə etməyə imkan verir. Üçüncüsü, kadrların ağıllı varisliyi cəmiyyətdə lüzumsuz qarşıdurmadan qaçmağa, keçmişdə zəhmətkeşlər üçün fayda ilə işləmiş və həmkarlar ittifaqlarının yeni nəslinin həyata atılması üçün əsasın yaradılmasında iştirak etmiş insanların qəzəblənməsinə yol verilməməsinə imkan yaradar.

Əldə olan məlumatlar deməyə əsas verir ki, ilk həmkarlar ittifaqları təşkilatının rəhbərləri kifayət qədər avtonom çalışırlar. İlk həmkarlar ittifaqı təşkilatlarının rəhbərlərini aşağıdakı kimi qruplaşdırmaq olar: spesifik sahə əlamətlərinə görə; azad və ictimai əsaslarla; müəssisələrin (təşkilatların) iş qabiliyyətli olması əlamətinə görə; ümumi peşə və həmkarlar ittifaqı təşkilatlarında iş stajına görə; ümumi mədəni səviyyəyə görə (bu isə daha çox sosial mühitlə müəyyən edilir). Bu siyahını davam etdirmək də olar.

Tədqiqatçılar real həyatda iki lider tipini fərqləndirirlər. Bəziləri insanları fəal surətdə ardınca apara, ictimai rəyi formalaşdıra bilir, digəri isə kütlələrin ovqatını tez duyur və onları ifadə etməyi bacarır.

Aparılan tədqiqatların nəticələri göstərir ki, həmkarlar ittifaqları rəhbərləri bu gün həm təhsilin profili, həm də seçilənə qədərki əmək fəaliyyəti ilə şərtlənən müxtəlif səviyyəli ixtisasa və buna uyğun peşəkarlığa malikdirlər. Həmkarlar ittifaqları işində ixtisas modelini yaratmaq, eləcə də onların fəaliyyətini qiymətləndirmək üçün bütün bu xarakteristikalar nəzərə alınmalıdır. Həmkarlar ittifaqları rəhbərinin modeli (professioqramı) xüsusi biliklərin səviyyəsi, bacarıqları, vərdişləri, həmçinin peşə yararlığı, yəni qabiliyyətlərin, fiziki və sosial-psixoloji xarakteristikaların tutduğu vəziyyətə uyğun gəlməsi kimi çox mühüm keyfiyyətləri özündə birləşdirir. Bunu da nəzərə almaq məqsədəuyğundur ki, həmkarlar ittifaqları rəhbərini, hər bir mütəxəssisi olduğu kimi, konkret peşə və dəyərli-dünyagörüşü sahələri, şəxsiyyət keyfiyyətləri və cəhətləri xarakterizə edir.

Bu gün həmkarlar ittifaqı rəhbərlərinə, liderlərinə aşağıdakı şəxsi keyfiyyətlər, bacarıq və qabiliyyətlər vacibdir: hərəkətlərində ardıcıllıq, məsuliyyət, ünsiyyət, iş qabiliyyəti, iradi güc, təmkinlilik və xarici təsirlərə müqavimət göstərmək bacarığı.

Həmkarlar ittifaqı orqanları tərəfindən həmkarlar ittifaqları rəhbərinin, liderinin praktik fəaliyyətinin təhlili ilə əlaqədar işlənib hazırlanmış ixtisas tələbləri elə bir etalon olmalıdır ki, bununla həmkarlar ittifaqları rəhbəri seçilərkən, yerləşdirilərkən və irəli sürülərkən onun peşə xarakteristikalarını qiymətləndirmək mümkün olsun.

Həmkarlar ittifaqları rəhbəri öz funksiyalarını yerinə yetirmək üçün müvafiq sosial-idarəçilik səriştəsinə malik olmalıdır. Həmkarlar ittifaqları rəhbərinin sosial-idarəçilik səriştəliliyinin səviyyəsini onun iqtisadi, idarəetmə sosiologiyası, əmək qanunvericiliyi, əhalinin sosial müdafiəsi sahələri üzrə biliyi, həmçinin ixtisasının artırılması, bacarıq və vərdişləri xarakterizə edir. Rəhbərin sosial idarəçilik səriştəsini xarakterizə edən keyfiyyətlər blokuna təşkilatçılıq qabiliyyətini də, yəni müstəqil qərar qəbul etmək, onun nəticəsinə nail olmaq bacarığını da daxil etmək lazımdır.

Müəssisələrdə həmkarlar ittifaqları təşkilatlarının idarəetmə fəaliyyətinin spesifikası bundadır ki, o, başqa idarəetmə subyekti – müdiriyyət ilə müxtəlif qarşılıqlı təsir formaları – sosial tərəfdaşlıq mexanizmləri sistemi vasitəsilə həyata keçirilir. Bu vəziyyət həmkarlar ittifaqları rəhbərlərinin sosial tərəfdaşlıq subyekti kimi qarşısında kompleks bilik, bacarıq və vərdiş tələbləri qoyur. Bu, nəzəri və tətbiqi konfliktologiya, sosial tərəfdaşlıq nəzəriyyəsi, beynəlxalq və regional qanunvericilik sahəsindəki biliklərdir, danışıqlar aparmaq vərdişləridir. Sosial tərəfdaşlıq mexanizmləri vasitəsilə muzdlu işçilərin maraqlarının fəal təmsilçisi olan həmkarlar ittifaqları rəhbərinin, liderinin şəxsiyyət keyfiyyətləri blokuna qətiyyət və dəyanət, prinsipiallıq və vicdanla yanaşı, mürəkkəb situasiyanı həll etmək bacarığı, bunun yollarını tapmaq qabiliyyəti, prinsipsizliyə yol vermədən və işçilərin maraqlarına toxunmadan kompromis qərarlar axtarıb tapmaq kimi keyfiyyətlər daxil edilməlidir.

Muzdlu işçilərin maraqlarının ifadəçisi kimi həmkarlar ittifaqlarının rəhbəri insanların ehtiyaclarını, arzularını, həmçinin ölkənin, regionun, sahənin, konkret müəssisənin istehsalat, əmək və sosial problemlərini bilməlidir. Bunun üçün ona həm ictimai elmlər sahəsindəki, hər şeydən əvvəl, politologiya, psixologiya və sosiologiya sahəsindəki biliklər, həm də empirik sosioloji tədqiqatlar aparmaq vərdişləri vacibdir, çünki bunun köməkliyi ilə həmişə işçilərin problemləri, ehtiyacları, onların ovqatında, özünü hiss etməsində baş verən dəyişikliklər barədə obyektiv informasiya əldə etmək olar. Muzdlu işçilərin maraqlarının ifadəçisi olan həmkarlar ittifaqları liderinin keyfiyyətlərinə mehribançılıq, ünsiyyətlilik, başqasının halına şərik olmaq, əməlində dəqiqlik, işgüzarlıq, əməkdaşlığa meyillilik, diplomatik davranmaq, təmkinlilik kimi mühüm keyfiyyətləri də aid etmək olar.

Həmkarlar ittifaqı təşkilatlarının rəhbərlərini seçmək və irəli sürmək sisteminin təkmilləşdirilməsi məqsədilə respublikamızın dövlət qulluğu sistemində mövcud olan praktikadan istifadə etmək məqsədəuyğun olardı.

Dövlət qulluğuna vətəndaşlar test imtahanlarından keçməklə, müsahibə əsasında qəbul edilirlər. Müsahibədə namizədlərin peşə bilikləri, təhlil aparmaq, problem həll etmək və qərar vermək bacarığı, yaradıcılıq və təşəbbüskarlıq, kollektivdə işləmək bacarığı, ünsiyyət, işçilərarası münasibətlər və b. meyarlar əsas götürülür.

Liderlərin seçilməsi işində dünyanın inkişaf etmiş ölkələrində zəngin təcrübə toplanmışdır. Belə ki, ABŞ-ın İBM korporasiyasında rəhbər kadrları qiymətləndirməyin ən mühüm metodu ildə iki dəfə keçirilən ictimai rəy sorğusudur. Sorğular anonim və könüllüdür, demək olar ki, firmanın bütün əməkdaşlarını əhatə edir. Sorğuların nəticələri işçilərin kampaniya, ən vacibi isə öz liderləri haqqında baxışlarının ətraflı mənzərəsini verir. Belə tədqiqatlar praktik istiqamətdə keçirilir, onların nəticələri üzrə hər bir rəhbər qüsurların aradan qaldırılması və bu işi öz tabeçiləri ilə razılaşdırmaq üzrə konkret plan hazırlamalıdır.

Almaniyada rəhbərlərin işgüzarlıq və əxlaqi keyfiyyətlərini qiymətləndirmək məqsədilə attestasiya keçirmək praktikası diqqəti cəlb edir. Attestasiya keçənlər müxtəlif əlamətlərə görə qiymətləndirilirlər: zirəklik (işin əsas mahiyyətini tez və differensiasiyalı şəkildə qavramaq qabiliyyəti); təfəkkür və qiymətləndirmə qabiliyyəti (problemləri təhlil etmək və nəticə çıxarmaq qabiliyyəti); xüsusi biliklər (onların genişliyi və dərinliyi); əməyə hazırlıq (o cümlədən, onun səlahiyyətinə aid olmayan vəzifələrin yerinə yetirilməsi); adaptasiya olunma (yeni situasiyaya uyğunlaşmaq, yaxud vəzifələrin həllinə yeni yanaşma qabiliyyəti); təşkilati qabiliyyətlər (rasional planlaşdırma və işin yerinə yetirilməsini təşkil etmək qabiliyyəti); şəxsi təşəbbüs (öz təşəbbüsü ilə problemi üzə çıxartmaq və həlli yollarını tapmaq qabiliyyəti); qərar qəbul edib, onu həyata keçirmək qabiliyyəti (o cümlədən, xarici müqavimətə baxmayaraq, öz planlarını müdafiə etməyə hazır olmaq); danışıqlar aparmaq qabiliyyəti (öz fikirlərini əminliklə arqumentləşdirmək də daxil olmaqla tərəfdaşa uyğunlaşmaq); əməyin keyfiyyəti (əməyin nəticələrinin yararlı olması, o cümlədən səliqəlilik, etibarlılıq, rasionallıq, qənaətcillik); intensivlik (verilmiş vaxtda əməyin tempi); öz fikirlərini yazılı və şifahi şəkildə ifadə etmək qabiliyyəti (o cümlədən böyük auditoriya qarşısında); məsuliyyətli yükü daşımaq və belə şəraitdə davranış qabiliyyəti; rəhbərlik qabiliyyəti (o cümlədən qarşıya məqsəd qoymaq, təşkilatın motivasiyası və nəzarət); ünsiyyət üslubu (rəislərlə, tabeçilərlə və kolleqalarla).

Dünya praktikasında sınaqdan çıxmış təsərrüfat və dövlət kadrları ilə işin bu cür çoxlu və buna oxşar metodlarından həmkarlar ittifaqları rəhbər – liderlərin seçilməsi və tərbiyəsində istifadə etmək məqsədəuyğundur (təbii ki, bu kateqoriyadan olan işçiləri də, milli psixologiyamızın spesifikasını da yaddan çıxarmaq olmaz). Müvafiq rol funksiyalarını müvəffəqiyyətlə yerinə yetirməyə qabil olan həmkarlar ittifaqları işçilərinin seçilməsində ciddi maneə insanlar üçün həmkarlar ittifaqları işində olduqları müddətdə, xüsusilə bu işdən gedəndən sonra dayanıqlı vəziyyəti təmin edən zəruri sosial təminatların olmamasıdır.

İşçi özünün seçkili həmkarlar ittifaqları fəaliyyətini başa çatdırdıqdan sonra çox zaman inzibatçının, menecerin tabeçiliyində qalır və onun sonrakı taleyinin necə olması yalnız axırıncıdan asılı qalır. Bunlar bir yana qalsın, həmkarlar ittifaqları rəhbərlərinin çoxu xeyli müddət həmkarlar ittifaqında işlədikdən sonra əvvəllər aldıqları peşə ixtisasını itirmiş olurlar. Bununla əlaqədar onların əmək bazarında rəqabət qabiliyyəti azalır, deməli, həm də seçilmədiyi təqdirdə işə düzəlmək imkanı azalmış olur. Bütün qeyd olunan hallar gələcəkdə narahatlıq yaradır və həmkarlar ittifaqları işçilərini işəgötürənlə «dostluğa» getməyə məcbur edir. Nəticədə, həmkarlar ittifaqı təşkilatlarının rəhbəri işəgötürənlə qeyri-bərabər vəziyyətdə olur.

Həmkarlar ittifaqı işçilərinin sosial nemətlər və xidmətlərlə təmin olunması məsələləri yuxarıda deyilənlərlə üzvi bağlıdır. Dövlət qulluqçularının və işəgötürənlərin öz kadrlarını maddi stimullaşdırma və dəstəkləmək sistemi vardır: ev, yaxud maşın almaq üçün maliyyə yardımı, iş yerində tibbi sığorta və s. Həmkarlar ittifaqlarında öz işçilərinə bu cür sosial müdafiə və dəstək mövcud deyildir. Belə qəbul olunmuşdur ki, həmkarlar ittifaqları işçisinin vəzifəsi başqalarının maraqlarını müdafiə etməkdir.

Həmkarlar ittifaqı kadrlarının sosial təminatının inkişaf etməməsi ona gətirib çıxarır ki, daha qabiliyyətli mütəxəssislər dövlət orqanlarına, yaxud müəssisənin administrasiyasına işə keçirlər.Bununla bağlı ən başlıca vəzifə, bizcə, həmkarlar ittifaqı işçilərinin hüquqi və sosial təminatlarla praktiki təmin olunmasıdır. Bunlardan ən mühümü həmkarlar ittifaqı liderinin seçilmədiyi təqdirdə onun məşğulluğuna təminat verilməsidir.

Bizə elə gəlir ki, həmkarlar ittifaqı orqanları və tərəfdaşları bu məsələni həll edə bilərlər. Müqavilələrə belə bir müddəa daxil edilə bilər: seçilməmiş həmkarlar ittifaqları rəhbərləri müəssisə, təşkilat rəhbərlərinin köməkliyi ilə işə düzəlməlidir. Yeni iş yerini seçərkən, həmkarlar ittifaqları rəhbərinin peşə hazırlığı və təcrübəsi nəzərə alınmalıdır. Bəzi hallarda həmkarlar ittifaqları rəhbərlərinin işə düzəlməsi üçün məsuliyyəti həmkarlar ittifaqları orqanları öz üzərinə də götürə bilərlər. Həmkarlar ittifaqlarında 10 ildən az olmayaraq çalışmış, növbəti müddətə seçilməmiş işçilər başqa işə, məsələn, təsisçiləri həmkarlar ittifaqları olan təşkilatlara keçə bilərlər. Bu təklifin reallaşdırılması, təsisçi kimi, həmkarlar ittifaqları təşkilatlarının iştirakı ilə kommersiya və başqa təşkilatlar şəbəkəsinin yaradılmasını tələb edir. Bu, şübhəsiz ki, çoxlu vaxt və investisiya tələb edəcəkdir.

İlk həmkarlar ittifaqları təşkilatı rəhbərinin vəziyyətinin sabitliyinin təmin olunması baxımından perspektivdə münasib variant o ola bilər ki, həmkarlar ittifaqları rəhbərləri ilk həmkarlar ittifaqları təşkilatlarına xidmət edən sahə və ya ərazi həmkarlar ittifaqları orqanlarına işə qəbul edilsinlər.

İlk həmkarlar ittifaqları təşkilatlarının yuxarı həmkarlar ittifaqı orqanları ilə belə münasibətlərini xüsusi müqavilə ilə rəsmiləşdirmək olar.

Həmkarlar ittifaqları rəhbərlərinin sosial müdafiəsinin və stimullaşdırılmasının digər mühüm aspekti onların maddi təminatına və həyat problemlərinin həllinə yardım göstərməkdir. Həmkarlar ittifaqı kadrlarının xüsusi yaradılmış fonddan maddi vəsait almaq hüququna malik olmaq sisteminin işlənib hazırlanması imkanını düşünmək məqsədəuyğun olardı. Görünür, belə bir məsələnin həlli həmkarlar ittifaqlarının vəsaitinin birləşdiyi təqdirdə mümkündür.

Dəqiq həllini tələb edən məsələlərdən biri də həmkarlar ittifaqları rəhbərlərinin əmək haqqını ödəmək sisteminin işlənib hazırlanmasıdır. Bu istiqamətdə artıq Rusiya Federasiyasında sahə həmkarlar ittifaqları işlər aparırlar. Belə ki, Rusiya kömür həmkarlar ittifaqlarının Nizamnaməsinə belə bir müddəa daxil edilmişdir: «Həmkarlar ittifaqlarının mərkəzi komitəsi: buraya daxil olan ərazi və ilk həmkarlar ittifaqları təşkilatlarının sədrlərinin əməyinin ödənilməsinin miqdarını və sistemini təsdiq olunmuş normalara uyğun müəyyən edir; həmkarlar ittifaqları üzvlərinin mənəvi və maddi həvəsləndirilməsi sistemini təsdiq edir.

Bu həmkarlar ittifaqlarının təcrübəsi göstərir ki, həmkarlar ittifaqlarında əməyin ödənilməsinin və stimullaşdırılmasının vahid sistemini yaratmaq mümkündür. Hər bir həmkarlar ittifaqlarında əməyin ödənilməsi sistemi işlənib hazırlanarkən öz spesifikası nəzərə alınmalıdır. Lakin ehtimal ki, bütün həmkarlar ittifaqları təşkilatları üçün məcburi olan iki prinsipi nəzərdən keçirmək lazımdır. Birincisi, əmək haqqı kifayət qədər olmalıdır ki, həmkarlar ittifaqı işçisi özünü və ailəsini təmin edə bilsin. Bu, onu əlavə qazanc yeri axtarmaqdan azad edəcək, bütün gücü ilə öz işi ilə məşğul olmağa imkan verəcəkdir. İkincisi, əmək haqqı müəyyən nəticələrin əldə edilməsinə görə əlavə ödəmə və mükafatı nəzərdə tutmalıdır.

Praktikanın göstərdiyi kimi, rəhbər kadrlar ehtiyatı ilə iş də ciddi problemlərdən biridir. Çox zaman kadr ehtiyatı yalnız kağız üzərində olur və həmkarlar ittifaqlarına təsadüfi adamlar düşürlər.

Həmkarlar ittifaqları rəhbərlərinin kadr ehtiyatının formalaşması və hazırlığı problemi son dərəcə diqqət tələb edən məsələdir. Çünki sabah həmkarlar ittifaqına gələcək kadrlar onların gələcəyini müəyyənləşdirəcəklər. Bu gün hamıya aydındır ki, «evdar qadın dövləti idarə edə bilməz», çünki bunun üçün xüsusi hazırlıq, peşə bilikləri, bacarıq və vərdişlər lazımdır. Və bununla bağlı həmkarlar ittifaqlarına kadrların ehtiyatını formalaşdırmaq və onlarla işləməyin texnologiyasını və prinsiplərini işləyib hazırlamaq vacibdir.

Bizə elə gəlir ki, kadr ehtiyatını həmkarlar ittifaqlarının bütün səviyyələrində (müəssisə, ərazi, sahə, ölkə) müəyyənləşdirmək lazımdır. Kadr ehtiyatının formalaşmasında ekspertlərin, həmkarlar ittifaqları rəhbərlərinin, həmkarlar ittifaqı üzvlərinin rəyi əsas götürülməlidir.

Kadr ehtiyatının müəssisə və region, sahə, ölkə səviyyəsində formalaşması prinsipləri fərqlidir. Belə ki, ilk həmkarlar ittifaqları təşkilatında kadr ehtiyatının formalaşması prosesində həmkarlar ittifaqı üzvlərinin fikri nəzərə alınmalıdır.

Sahə, ərazi və ölkə səviyyəsində kadr ehtiyatının hazırlanması zamanı həmkarlar ittifaqlarının üzvlərinin fikri ilə yanaşı, peşəkarların da – müstəqil ekspertlərin, işdəki kolleqaların da mülahizələri nəzərə alınmalıdır. Belə halda tələb olunan amillər məcmusuna sosial fəallıq, ictimai nüfuz, peşəkarlıq, şəxsi və işgüzar keyfiyyətlərə görə hər bir namizədin inkişaf perspektivini müəyyən etmək daxildir.

Həmkarlar ittifaqları orqanlarına ali məktəbi bitirmiş və ictimai iş təcrübəsi olan gənc mütəxəssislərin, həmçinin müəssisələrin və regionların administrasiyasında işləmiş orta vəsifəli rəhbərlərin və mütəxəssislərin dəvət olunması imkanı barədə də düşünmək lazımdır.

Kadr ehtiyatlarının peşə hazırlığı ciddi diqqət tələb edir. Müəssisə (təşkilat), sahə, region, bütövlükdə ölkə səviyyəsində ehtiyatların hazırlanmasının xüsusi proqramının işlənib hazırlanması zərurəti eyni zamanda kollektiv müqavilələrdə və tarif razılaşmalarında onun maddi və sosial təminatlarının nəzərə alınmasını vacib edir.

Araşdırmamızdan bu nəticəni əldə etmək olar: Həmkarlar ittifaqları rəhbərinin sosial-demoqrafik portreti ümumiləşmiş şəkildə belə təsvir edilir - bu, yuxarı yaş kateqoriyasından böyük iş stajı olan və həmkarlar ittifaqlarında iş stajı nisbətən az olan həmkarlar ittifaqı işçilərinin üstünlük təşkil etməsidir; rəhbər vəzifələrdə kişilərin üstünlük təşkil etməsi; gənclərin və gənc mütəxəssislərin azlıq təşkil etməsi. Kadrlarla işin bu vəziyyəti narahatlıq doğurmaya bilməz. Müasir şəraitdə həmkarlar ittifaqlarının kadr siyasəti yeni yanaşmalar tələb edir. Bizcə, onun mühüm tərkib hissələri bunlar olmalıdır: öz kollektivlərində bacarıqlı, nüfuzlu insanları həmkarlar ittifaqları təşkilatları rəhbərliyinə irəli çəkmək, həmkarlar ittifaqları kadrlarının hazırlığının çevik və səmərəli sistemini yaratmaq, onların fəaliyyətini stimullaşdırmaq, onları sosial təminatlarla təmin etmək. Həmçinin, həmkarlar ittifaqı işçilərinin sosial müdafiəsinin təmin edilməsi üzrə səmərəli tədbirlər sistemini işləyib hazırlamaq lazımdır. Söhbət həmkarlar ittifaqları orqanlarında hansısa kadr «təmizlənməsindən» getmir: müxtəlif «səviyyəli» həmkarlar ittifaqları iyerarxiyası üçün öz yaş diapozonu da qəbuledilən dir, lakin bütövlükdə rəhbər kadrların cəsarətlə cavanlaşdırılması siyasəti varislik prinsipinə riayət edilməsini, təcrübə ilə gəncliyin ağıllı əlaqələndirilməsini nəzərə almalıdır.

Açar sözlər: həmkarlar ittifaqları lideri, idarəetmə, məqsədyönlülük, çeviklik, əmək qabiliyyəti, inad, intizamlılıq, təşəbbüskarlıq.

İstifadə olunmuş ədəbiyyat

1.Qaraşov H. Heydər Əliyev və həmkarlar ittifaqları. B., Elm. 2010

2.Qaraşov H. Həmkarlar ittifaqları vətəndaş cəmiyyətinin mühüm sosial mexanizmidir. Tarix və müasirlik. B., Elm, 2009.

3.Смірнов Е.А. Современный руководітель: стратегіі жізні і деятельності. М.: Изд-во Моск. ун-та, 2002.

4.Mehbalıyev S., İsgəndərov R. Əmək bazarı və əhalinin sosial müdafiəsi. B., Çaşıoğlu, 2002.

5.Волков Ю.Е. Основы современного соціального управленія: теорія і методологія. М., 2000.

6.Большаков А.С., Міхайлов В.И. Современный менеджмент: теорія і практіка. М.,СПб.:Пітер, 2001.

7.Сілін А. Міфы і быль соціального партнерства в Россійской Федераціі і на Западе // Управленіе персоналом. М., 2001, № 5.

8.Тарасенко М. Глобалізація і профсоюзы: сужденія і прогнозы. Мы должны делать не то, что говорят нам амеріканцы. Мы должны делать то, что оні делают// Профсоюзы і экономіка. 2002, № 4.

9.Кадровая політіка профсоюзов: проблемы профессіоналізма. М., 2006.

Гусейн ГАРАШОВ

СПЕЦІФІЧЕСКІЕ ОСОБЕННОСТІ ПРОФСОЮЗНОГО ЛІДЕРА НА СОВРЕМЕННОМ ЭТАПЕ

Резюме

В статье іcследуются і научно обосновываются ряд характерных особенностей профсоюзного лідера - коммунікабельность, організованность, целенаправленность, убежденность, незавісімость в прінятіі решенія, дісціплінірованность.

Отмечаются іспользуемые профсоюзным руководітелем в процессе его управленческой деятельності і свойственные его характеру механізмы, средства і методы управленія, которые резко отмечают от деятельності хозяйственного руководітеля ілі адміністратівного чіновніка дается іх объясненіе.

В то же время ізлагается его отношеніе к проведенію разумной кадровой політікі в профсоюзной організаціі.

Ключевые слова: профсоюзный лідер, управленіе, целеустремленность, гібкость, трудоспособность, упрямство, дісціплінірованность, ініціатівность.

Hussein GARASHOV

SPECIFIC FEATURES OF A TRADE-UNION LEADER AT PRESENT STAGE

Summary

In the article some characteristic features of a trade-union leader – sociability, selt-discipline, purposefulness, conviction, independence in taking decisions, discipline are investigated and substantiated from the scientific point of view.

In the article mechanisms, means and methods of being used by a trade-union leader in his managing activity and peculiar to his character which differ sharply according to the activity of economic leader and administrative official are also noted, their explanation is given.

At the same time the attitude to carrying out reasonable personnel policy in trade union organization has been stated.

Keywords: professional leader, management, purposefulness, flexibility, able-bodied, obstinacy, discipline, initiativity.

UOT 31.314

Mətləb MAHMUDOV
AMEA FSHİ-nin b.e.i, fəlsəfə doktoru

Mahir SƏLİMOV
AMİ-nun Ağcabədi
filialının baş müəllimi , fəlsəfə doktoru.

AİLƏ MÜASİR TEXNOLOGİYALAR MÜHİTİNDƏ*
(sosial-fəlsəfi təhlil)

Çağdaş şəraitdə heç bir ailəni müasir tipli məişət avadanlıqlarsız təsəvvür etmək mümkün deyil. Bununla belə, bu avadanlıqların pozitiv funksionallıqları ilə yanaşı bəzi gizli sosial deviantlığı (tədricən cəmiyyətə dağıdıcı təsirləri) haqqında bəzi fikirləri qeyd etməyə ehtiyac vardır.

XX yüzilliyin ikinci yarısı bəşəriyyət tarixinə elmi-texniki inqilabın (ETİ) genişlənməsi dövrü kimi daxil olmuşdur. ETİ məhsuldar qüvvələrin inkişafında keyyfiyyət sıçrayışı olmaqla, elmin, istehsalın aparıcı qüvvəsinə, cəmiyyətin inkişafının həlledici amilinə çevrilməsilə xarakterizə olunur. XVIII əsrdən etibarən maşın və yeni avadanlığın istehsalata kütləvi tətbiqi sənaye çevrilişinin əsas mahiyyətini təşkil etməklə yanaşı, sonrakı sosial-iqtisadi inkişafa da dərin və həlledici təsir göstərdi.

XX əsrdə son dərəcə sürətli texnoloji inkişaf nəticəsində cəmiyyətin həyatının bütün sahələrində baş verən ciddi dəyişikliklər demək olar ki, ilk növbədə urbanizasiyalaşmış ailələrdə özünəməxsus formada təzahür etməyə başladı. Məişətə daxil olan yeni maşın və avadanlıq növlərinin, elektrik enerjisinin tətbiqi ailə təsərrüfatının məhsuldarlığını artırmaqla yanaşı, bu amillərdən asılı olan neqativ vəziyyətlərin yaranmasında həlledici rol oynadı. Müasir elmi-texniki inqilab nəticəsində insan əməyinin hər yerdə olduğu kimi məişətdə də kompleks formada avtomatlaşdırılması, kompüterlərin bu avadanlıqlara tətbiqi ilə nəzarət və idarəetmə vasitələrinin yaradılması və istifadəyə verilməsi kimi ciddi nailiyyətlər əldə edildi.

XX əsrin ortalarında kənd təsərrüfatında tətbiq edilən mexanizmlərin yaratdığı «möcüzələr» həmin dövrlərdə yaşayan nəsillərin hələ də yaddaşlarından silinməyib. Bu xam torpaqların becərilməsindən tutmuş məhsulların yığılmasına qədər, maşınla inəklrin sağılması, südün emalı, mənzillərin elektrikləşdirilməsi, radio-telefon xətlərinin çəkilməsi, nəhayət, televizorların yavaş-yavaş kütləviləşməsi ilə xarakterizə edilən amilləri əhatə edirdi. Lakin, bu dövrü böyük nostalji hisslərlə xatırlayanların, demək olar ki, hamısı, həmin mexanizmlərin yaratdığı yeniliklərə deyil, şişirdilmiş rəqəmlərin "fantasmoqoriyasına" - «möcüzələr»inə inanırdılar. O rəqəmlər ki, həmin dövr sovet vətəndaşlarını kommunizm deyilən ümumrifah dövlətində yaşamaq üçün "mübarizə" aparmağa, "səfərbər etməyə ruhlandırırdı". Bu rəqəmlərin nümayişi daha çox, dünya ictimaiyyətinin diqqətini özünə cəlb etməyə, sosialist düşərgəsinə əks olan qüvvələrə qarşı yönəlmiş ideoloji bir fəaliyyət idi. Bu dövrü daha böyük həcmdə cuşa gətirən ən mühüm səbəblərdən biri ilk dəfə olaraq sovet kosmik süni peykinin və vətəndaşının kosmosu fəth etməsilə bağlı idi.

Elmi-exniki inqilabın nailiyyətlərinin məişətdə ekstropoyasiyası müxtəlif siniflər və sosial qrupların qarşılıqlı münasibətlərində, ailə üzvlərinin mənəvi simasında və xarakterində ciddi dəyişikliklər yaratmışdır. Bu dəyişikliklər həm sosiologiya, həm sosial-psixologiya elmlərinin predmeti olması ilə yanaşı, həm də fəlsəfi araşdırma obyekti olması ilə səciyyələnir.

Hazırda müasir ailəni televizorsuz, internet şəbəkəsinə qoşulmuş kompütersiz və mobil əlaqə vasitələrsiz təsəvvür etmək mümkün deyil. Bu barədə müxtəlif peşə sahiblərinin və tətqiqatçıların qeydləri saysızdır [1]. Onların hamısında müəyyən həyəcan notları az yer tutmur [2]. Dəyərlərimiz aşılanır, mənəviyyatımız dağılır, qarşılıqlı ünsiyyət alçalır, böyüklərə və qadınlara qarşı hörmət yoxa çıxır və s. kimi çağırışlar bu qəbildəndir [3].

Bu iradların məhz indiki dövrdə daha çox səslənməsi, heç də onların əvvəllər olmamasını təsdiqləmir. Bunların əsaslı olmasını heç kim danmasa da, hansısa həyata keçirilən tədbirlərin ciddi nəticələri haqqında danışmaq hələ tezdir.

---

* Məqalə fəl.e.d.,prof. Ə.Abasov tərəfindən çapa məsləhət bilinib.

Bəzi tədqiqatçılarımız ailə dəyərlərimizin aşılanmasını ilk növbədə geniş tamaşaçı auditoriyası toplayan əcnəbi teleserialların telekanallarımızda nümayiş etdirməsində görürlər. Bunun hansı təzahürləri diqqətə çatdırılır? İlk növbədə, ər-arvad arasında şübhələrin yaranmasına, guya tərəflərə bir-birilərinə xəyanət etməsinin heç də böyük qəbahət olmaması faktının artıq geniş ictimaiyyət tərəfindən qəbul edilməsinin mümkünlüyünü təsdiqləir və s. Məyər analoji situasiyalara düşən ailələr öz problemlərini indiyə kimi dərk etmirdilərmi? Bəlkə bu neqativ əlamətlər haqqında məlumatların çoxluq təşkil etməsi həmin tədqiqatçıları narahat edir.

«Sağa-sola gəzməyən, qaz vurub qazan doldurmayan adamdan kişi çıxar?»,

«Əsası budur ki, kişi ailəsini bir təhər dolandırır»,

«Arvadın işi uşaqlara baxmaq və mətbəxdə məşğul olmaqdır» və s. kimi fikirlər az deyil. Bunları az qala milli mentalitet kimi dəyərləndirənlərin sayı azlıq təşkil etmir və s.. Neqativ məlumatların çoxluğundan deyil, bu vəziyyəti yaradan amillərdən narahat olmaq lazımdır. Belə ki, hazırkı dövr 20-30 il bundan əvvəlki dövrdən çox fərqlidir. Meydanlarda kişilərlə birgə mübarizə aparan xanımlarımız nə dərəcədə haqlı idilərsə, bir o qədər də ömür-gün yoldaşlarının paxırlarını nümayişkəranə formada deməyə haqlıdırlar. Bunu ailə çərçivəsində həll etməyə nail olmayan, ümüdü hər yerdən kəsilənlər ictimaiyyətdən kömək istəməyə məcburdurlar. Sadəcə olaraq, ictimai efirə çıxmaq imkanları indi əvvəlki, sovet illərinə nisbətən daha genişdir. Bəli, bəziləri tərəfmüqabilləri haqqında əldə etdikləri məlumatları bilərəkdən gündəmə gətirmirlər. Səbəblər müxtəlif ola bilər: fiziki zorakılıq qorxusundan, ailənin dağılmamasından, karyeraya pis təsir etməsindən ehtiyatlanmaq, ətrafdakıların nəzərində ümüdlərinin puç olmasını bildirməmək, ərinin alfons və ya arvadının fahişə olmasından bəhrələnmək (nə fərqi var ki, evə hansı formada qazanc gəlir), belə həyatın xüsusi təbəqələrdə adi hal olması və ya dəbdə olması kimi və s. kimi mövqelər az deyildir. Cəmiyyətimizdə ən aşkar formada yaşayan şou-sənət işçiləridirlər. Sanki onlar bilərəkdən öz ətraflarında "skandal" xarakterli əhvalatlar yaradırlar ki, gündəmdə qalsınlar. Bunun təşkili üçün xüsusi peşəkar PR-menecerlər də fəaliyyət göstərirlər. Bu cür əhvalatların geniş formada ictimailəşməsi heç də artıq problem deyildir. Adi şaiyələr artıq indi birbaşa intervülərlə əvəzlənib. Heç bir xəcalət, utanc hissi keçirmədən sənətçilər öz şəxsi ailə vəziyyətlərini ictimailəşdirərək kiminlə isə nikahsız yaşamalarını, hərdən bir birinci həyat yoldaşları ilə də görüşmələrini və s. bildirməkdən belə çəkinmirlər. Başqa bir kişi cinsinə aid müğənninin isə digər özhəmcinsi ilə həyat qurması onun böyük arzusu olduğunu bildirməsi kimi məlumatlar da bu qəbildəndir. Sözsüz ki, bu məlumatların ictimailəşməsində maraqlı tərəflərlə yanaşı telekanalların, multi-media sistemlərinin də rolu az deyildir [4].

Bütün bunlar günbəgün artmaqda olan telejurnalistlərin iş yerlərini qoruyub saxlamalarıdır. Reytinqli teleməkan yaxşı gəlir gətirən reklam məkanıdır. Reklam yerləşdirən şirkətlərin sponsorluğu təkcə öz məhsullarının reklam edilməsilə bitmir. Onlar həm də "skandal" ssenarilərini yaradaraq həyata keçrirlər. Sözsüz ki, teleməkanın yaradıcı heyəti ilə birlikdə. Gündəmdə olan şou-biznes ulduzları tamaşaçılara yeni həyat tərzi modelləri nümayiş etdirirlər: təmtəraqlı mənzillər, bahalı avtolar və ekstravaqant geyimlər və c. Bütün bu məhsullar istehsal olunur, idxal olunur, satışa çıxarılır. Bütün bu məhsullara potensial istehlakçı-müştəri kontingenti hazırlamaq lazımdır.

Qeyd olunan avadanlıqların müasir həyatımızın tərkib hissəsi olması heç kəsdə şübhə hissi oyatmır. Məgər övladlarımızın tərbiyəsinin pozulması tək bu amillərin təsirlərinin nizamlanmasındanmı asılıdır?

İlk növbədə bunun nizamlanmasının efiri təşkil edənlərin məsuliyyətindən asılı olduğunu bildirilir [5]. İnzibatçılıq və senzuranın tətbiqinin zəruri olduğu qeyd olunur [6].

Müasir dövrdə uşaqlar tək efirlə tərbiyələnmir. Mən burada digər vasitələrin – kitab, dövri mətbuat məhsullarının təsirlərini də nəzərə almıram. Belə ki, onların təsiri indiki dövrdə demək olar ki, sıfıra bərabərdir. Kim isə hələ də bu sahədə öz fəaliyyətini qurmaq istəyirsə, bu vasitələrin köməyindən bəhrələnmək arzusundadırsa deməli, o, müasir dövrün tələblərindən çox uzaqdadır. Kağız üzərində yaradıcılığın dinamikasına diqqət yetirsək, görərik ki, son 20 il ərzində ağ-qara təqdimat geniş çeşidli rənglərlə əvəz olunub. Həm dərsliklər, həm də bədii, elmi-kütləvi ədəbiyyatlar tərtibat baxımından böyük inkişafa nail olmuşdur. Amma bunun nə faydası? Yüzlərlə rəngli kitab-jurnalların yanında gözə dəyən mobil smartfon onların hamısını kölgədə qoyur. Deməli, bu istiqamətdə xüsusi elmi araşdırmaların aparılmasına ehtiyac vardır.

Bu araşdırmalar tərbiyənin təşkili baxımından hansı istiqamətdə aparıla bilər? Mənə elə gəlir ki, bu aşağıdakı istiqamətlərdə ola bilər:

- çap məhsulları ilə elektron məhsullarının sintezi;
- çap məhsullarının tədricən tamamilə elektron məhsulları ilə əvəz edilməsi;
- elektron məhsullarının çap məhsullarına alternativ inkişaf etdirilməsi;

-elektron məhsulların ümumiyyətlə təlim-tərbiyə və tədrisdən kənarlaşdırılması.

Sözsüz ki, bu proseslər heç də qadağalar vasitəsilə icra olunmamalıdır.

Təsəvvür edək ki, dörd nəfərdən ibarət olan ailədə hansı bir andasa maraqlar çarpazlaşmır. Bu əgər avadanlıqlardan asılıdırsa onu həll etmək olar. Hərənin ayrı otağı, televizoru, internetə çıxışı və mobil əlaqəsini indi təşkil etmək bir o qədər də çətin məsələ deyil. 20 il öncə bir-iki televiziya kanalı olduğu dövrlərdə bütün ailə üzvləri səbirsizliklə ekran qarşısında əyləşib öz sevimli verilişlərini gözləyirdilər. Verilişi bir yerdə seyr etdikdən sonra hamı birlikdə orada olanların təəsüratından danışar, fikirlərini bölüşdürərdilər. Bu ailə üzvlərinin bir-birilərinin fikirlərinin dəyərləndirilməsinə, ailə ənənəsinin və mədəniyyətinin formalaşdırılmasına xidmət edərdi. Ən əsası isə, övlad tərbiyəsi tədricən normal istiqamətdə formalaşardı. Belə bir qərarla razılaşmaq olar ki, «həmin dövr artıq ya keçmişdə qalıb və ya itirilib!»

Bu bir tərəfdən yaranan təsirdir. Digər bir tərəfədən, ailə başçılarının ailə-məişət işlərinin təşkilində iştiraklarıdır. Əvvəllər evin xanımı ailə üzvlərini sevindirmək üçün öz ləziz kulinariya bacarıqlarını işə salardı. Bu işdə ona daima ünsiyyətdə olduğu yaxın qohumları, rəfiqələri dəstək olurdular. Bir-birilərinə qonaq gedib-gəlmələri, bayram sovqatlarını birlikdə hazırlamaları, hər bir məclisin yadda qalan bir hadisə kimi xatırlayanlar hələ də həmin dövrün nostalji hisslərini yaşamaqdadırlar. İndi isə, ən yaxşı halda onları kulinariyaya həsr olunan televiziya verilişləri əvəz edirlər. Bir az imkanı olanlar isə, ümumiyyətlə mətbəğə girmirlər. Onların bu istəklərini hər addım başı tikilən kafe və restoranlar, yarımfabrikat dükanları əvəz edirlər.

Xarici ölkə filmlərində müəyyən fəaliyyət sahəsinin işçilərinin gərgin iş gününün sonunda ancaq kafelərdə nahar etmələri, övladlarının isə evə pitsa sifariş verməklə qidalandıqları nümayiş olunur. Bu filmlərdə müxtəlif məqsədlər qoyula bilər. Həyat tərzinin təbliğindən tutmuş bəzi məhsulların reklamına qədər. Belə filmlərin maraqlı olması, özünə geniş tamaşaçı auditoriyasını cəlb etməsi üçün xüsusi effektlərdən istifadə edilməsi adi hal alıb. Məhz onların auditoriyanı gözləmə şəraitində saxlamaları kommersiya sifarişlərinə əsasən reklamların verilməsi ilə əlaqələndirilir. Yoxsa, kimin nəyinə gərək milyonlarla xərc çəkərək adi bir filmə sərmayə qoysun. Sözsüz ki, çəkilişi 100 milyon dollara başa gələn bəzi filmlər milyard dollardan da çox gəlir gətirə bilər (məs. «Avatar» filmi).

Bu faktın özü də kommersiya xarakterli olduğu üçün kommersiya məqsədlərinə xidmət edir.

Tədqiqatçılar tərəfindən qeyd edilən digər bir hal teleserialların ailə dəyərlərinə müdaxiləsidir [3]. Melodrama xarakterli seriallar bəzi hallarda tamaşaçılarda müəyyən pozitiv sosial dəyərlərə münasibətləri möhkəmlədir, onlarda müxtəlif baxışların olması ilə yanaşı dəyişməz qalmasının tamaşaçılar tərəfindən dərk edilməsinə xidmət edir. Lakin müxtəlif kommersiya xarakterli, süjeti havadan götürülən seriallar da vardır və onlara aludəçilik haqqında geniş tənqidi fikirlər vardır [6]. Bəzi hallarda xanımlarımızın ev işlərini kənara qoyub günlərini bu seriallara seyr etməklə keçirmələrini tənqidi bir fakt kimi qeyd edənlər heç də az deyil [8]. Burada da haqlı məqamlərlə yanaşı bəzi qərəzli mövqelərin olduğu da nəzərə çarpır. Bu həm də çox vaxt ailədə başlayan diskussiyaların telediskussiyalarda davam etməsinə bənzəyir. Bu prosesin özünü bir pozitiv məqamdır. İctimai müzakirələrə çıxarılan mövzuların demək olar ki, hamısı bu qəbildəndirlər. Mövzu ətrafında yaranan rezonans son anda pozitiv məqsədlərə xidmət edir. Hələ də kommersiya xarakterli tamaşa və verilişlərin, filmlərin insan təfəkkürünə təsirini qiymətləndirən bir cihaz icad edilməmişdir. Ümumiyyətlə bunu qiymətləndirmək elə də asan bir iş deyil. Seçmə sorğular vasitəsilə toplanan məlumatların obyektivlik ehtimalını dəyərləndirmək də çox çətindir. Bunun üçün uzunmüddətli panel tədqiqatlarının (konkret dövrü xarakterli sosioloji tədqiqat) keçirilməsinə ehtiyac vardır. Məqsədli sorğu anketləri vasitəsilə ilkin tədqiqatlarda toplanan məlumatların heç olmasa 3-5 ildən bir təkrarən əvvəllər sorğuya cəlb edilənlər arasında yenidən keçirilməsi mütamadi xarakter almalıdır. Belə sorğuları ABŞ-da və Avropa ölkələrində müxtəlif mövzular formatında aparırlar. Hələ sovet dövründə "Koqortaların taleyi" mövzusunda respondentlərinin sayı 20-25 min olan sorğuların keçirilməsi mühüm dövlət tədbiri kimi qiymətləndirilirdi. Məhz bu tipli məqsədli sorğular vasitəsilə gənclərin inkişaf meyllərini, həyatdakı mövqelərini müəyyən etmək və uzunmüddətli proqnozlar vermək mümkündür.

Xanımlarımızı sevindirən amillərdən biri də müasir, çoxfunksional məişət avadanlıqlarının olmasıdır. Burda artıq, geniş sosioloji sorğuların keçirilməsinə ehtiyac yoxdur. Satılan avadanlıqların statistk təhlili bu mövzuda yekun fikir söyləməyə kifayət edər. Artıq kompyuterlə idarə olunan paltaryuyan, qabyuyan, qaz-elektrik sobaları, mikrodalğalı sobalar, quruducular, buxar ütüləri heç kimi təəcübləndirmir. Bunlarla yanaşı, yeni tipli tekstil məmulatlarının: yanmayan, qırışmayan, çirklənməyən, toz qəbul etməyən, rəngləri aşınmayan və s. kimi parça məmulatlarından istifadə edilməsi xanımların məişət yükünün xeyli azalmasına, onların asudə vaxtlarının artmasına səbəb olması kimi qəbul edilə bilər. Lakin reallıqda

bunların hamısının tamamilə başqa məqsədlərə xidmət etməsinə səbəb olmasını müşahidə etmək mümkündür. Müasir dövr vətəndaşlarının mühüm gizli məqsədlərində böyük məbləğdə pul-para qazancı əldə edilməsi xüsusi yer tutur. Bu müxtəlif səbəblərdən irəli gələ bilər. Kimsə qızı üçün cehiz toplamağa, kimsə övladının məcburi formada düşdüyü ödənişli təhsil xərcini ödəməyə, kimsə nə vaxtsa düşdüyü borcları qaytarmağa çalışır və s. Odur ki, yuxarıda qeyd olunan avadanlıqlar ən yaxşı halda insanların asudə vaxt qazanmalarından daha çox gəlir əldə etmələri üçün əlavə vaxt əldə etmələrinə xidmət edir. Asudə vaxtının da olmaması tərbiyənin qalıq vaxtının ümüdünə qalmasıdır.

Asudə vaxtın dəyəri haqqında aşağıdakıların qeyd edilməsi onun təsvirini verməyə kifayət edər. Son tədqiqatlara görə, hazırki dövrdə tikintidə fəhlələr 12-15 saat, kompüter operatorları (ixtisaslı fəhlə kimi) 14-17 saat, proqram təminatçıları 10-12 saat, mühasibatçılar 11-13 saat, orta məktəb müəllimləri 14-16 saat (repetitorluq daxil olmmaqla), həkimlər 14-16 saat (özəl klinikalarda çalışmaları daxil olmaqla), dayələr 16-18 saat, ticarətlə məşğul olanlar 14-16 saat, taksi sürücüləri 14-18 saat, iaşə xidməti işçiləri 14-16 saat və s. Bura həmçinin indiki şəraitdə normalaşdırılmayan əmək rejimində çalışan dövlət qulluqçularını da əlavə etsək yanılmarıq.

Göründüyü kimi, qeyd olunan kateqoriyalardan olanların ancaq yatmağa vaxtları qalır. Burada artıq hansısa uşaq tərbiysindən, ailə dəyərlərinin formalaşmasından söhbət belə gedə bilməz.

Burada gənclərin asudə vaxtının təşkili məsələsi mühüm tutur. Bəzi tədqiqatçılar gənclər üçün asudə vaxtlarının keçirilməsində heç bir problemin olmadığını vurğulayırlar. Belə ki, gənclərin ən çox cəmləşdiyi yerlərdə - təhsil müəssisələrində onların təhsil prosesi zamanı vaxtlarını səmərəsiz keçirmələrini önə çəkənlər az deyil. İstər qızların, istərsə də oğlanların əksəriyyətinin əlində ya smartfon, ya aypodların (Ipod) ya da qulaqlarında səs qulaqcıqlarının olması adi haldır. Bəziləri isə gələcəkdə heç olmasa "ali təhsilli işsiz statusunu" qazanmaq üçün düşdüyü borcdan qurtarmaq üçün müxtəlif xidmət sahələrində real olaraq almadıqları təhsil haqqını ödəmək üçün bəziləri telefon biznesində, bəziləri ayaq üstü qəlyanaltı biznesində, əksəriyyəti isə axşamlar şadlıq saraylarında fəaliyyət göstərir. Əmək yarmarkalarında isə işaxtaranlar özlərinə müvafiq iş tapa bilmirlər.

Gənclərin asudə vaxtlarının səmərəli təşkilinin göstəricisi kimi onların mədəni əyləncə müəssisələrinə cəlb edilməsidir. Bunların bəzilərində (teatr, opera və balet, kamera musiqisi və s.) qiymətlər simvolik olsa da belə zallar boş əksər hallarda qalır. Lakin, məşhur şou biznes ustalarının tədbirləri həmişə anşlaqdadır. Bunun səbəbini tədqiqatçılar müasir dövrün dəb tələbatından irəli gəlməsi ilə əlaqələndirirlər. Ən acınacaqlısı da budur ki, onlar arasında imkanlı tamaşaçılarla yanaşı, sabaha çörək pulu tapa bilməyənlərin də olmasıdır. Bu əgər gözəl bir sənət əsərinə tamaşa etmək əzmidirsə, onları yenə də başa düşmək olar. Lakin məlum olandakı, orda kimsə müasir səs və işıq qurğularının köməyi ilə olmayan sənət qabiliyyətini heç də üçüncü növ səviyyəsinə cavab verməyən yarıçılpaq bədəni vasitəsisilə kompensasiya etməkdədir, bunu anlamaq çətin olur. Digər əyləncə yeri kimi, diskoteka, karaoke klubları heç bir formada bizim milli mentalitetimizə sığmır. Onların yerinə dövlət nəzarəti altında olan .....xanaların açılması daha münasib olardı. Bir haldakı bu əyləncə müəssisələrinə Avropada təhsil almış bəzi məzunların öz nostalji hisslərini sakitləşdirmək istəyində olanların təşrif gətirmələrini istisna etməklə, qalanlarının oraya "alqı-satqı" mübadiləsi məqsədi ilə gəlmələri hamıya bəllidir. Bu müəssisələrin həmçinin, narkoticarət obyekti olması faktı heç kimə sirr deyil. Bu müəssisələri açanları, onların arxasında dayanan mafioz qruplarını ifşa etmək hüquq-mühafizə orqanlarının əlində heç bir şeydir. Lakin…

İqtisadi təhlillərə görə indiki halda Azərbaycanda mövcud olan təhsil resursları (təhsil müəssisələri, professor-müəllim heyəti, kitabxanalar, çap və elektron məhsulları) ölkədə təhsil alan bütün tələbələrin sayı ilə tərs mütənasibdir. Bu resurslar həmin tələbələrin ancaq 15-20%-nin hazırlığına kifayət edə bilər. Deməli qalanların əvvəlcədən keyfiyyətsiz təhsil almaları, "ali təhsilli işsizlər" ordusunun üzvü olmaları artıq məlumdur. Burda dövlətin sıx formda müdaxiləsinə ehtiyac vardır.

Mən bu qısa icmal xarakterli məqalədə ancaq yaranmış problemləri sadaladım. Problemlərin üzə çıxarılması faktını artıq onlara münasibətin dəyişməsi kimi qymətləndirənlərə fikir mübadiləsi üçün bir fürsət kimi qəbul edərək hamını gələcək nəslin taleyinə biganə qalmamağa çağırıram.

İstifadə olunmuş ədəbiyyat

1. Xəlilov S. Şərqdə və qərbdə milli-mənəvi dəyərlər http://psychology.az/az/salahaddin_halilov.php
2. Əlibəyli E. "Televiziyaların yaratdığı insan" http://www.kitabxana.net/?oper=readNews&id=882
3. Süleymanlı M. Azərbaycan mütəfəkkirləri milli-mədəni birliyin amilləri haqqında: XX əsrin əvvəllərinə aid kulturoloji mənbələr...

www.elibrary.az/.../cgiirbis_64.exe?...
4. Azərbaycan tamaşaçisi daha çox hansi telekanallara və hansi verilişlərə baxir? http://odlar-yurdu.ru/index.php?newsid=1287
5. Mehdiyev R. Azərbaycanın efir məkanı: problemlər və vəzifələr. Azərbaycan qəz. Bakı, 2009, 4 oktyabr.
6. Asudə vaxt və mənəvi tərbiyyə. Nəşriyyat: Azərnəşr, Bakı, 1981.

Матлаб МАХМУДОВ
Махір САЛІМОВ

СЕМЬЯ В МІРЕ СОВРЕМЕННЫХ ТЕХНОЛОГІЙ
(соціально-філософскій аналіз)

Резюме

Статья отражает авторскую позіцію по поводу ісчезновенія некоторых семейных традіцій і ценностей, в ней обобщаются некоторые общіе высказыванія по данному вопросу. Автор считает, что в современный період СМИ, с одной стороны, способствуют развітію этіх отношеній, а с другой - ускоряют процесс іх разрушенія. Более того, іспользованіе в массовой форме современной інформаціонной і коммунікаціонной технологіі ускоряет процесс ісчезновенія этіх ценностей. Автор подчерківає, что все эті проблемы так же актуальны, как і 30-40 лет тому назад.

Далее автор затрагіває проблемы організаціі досуга для молодежі, а также успеваемості в області образованія в процессе перехода к рыночной экономіке. Он рекомендует проведеніе долгосрочных панельных соціологіческіх ісследованій предполагаемого моніторінга длітельного характера.

Ключевые слова: семья, быт, національные нравственные ценності, компьютерізація, телевіденіе, коммунікаціонные средства, досуг, образованіе.

Matlab MAHMUDOV
Mahir SELIMOV

FAMILY IN THE ENVIROMENT OF THE MODERN TECHNOLOGIES
(socio-philosophical analysis)

Summary

The article reflects author's position as regards losses of some family traditions and values, in it some general statements on this question are summarized. The author considers that in the modern period mass media, on the one hand, promote to development of these relations, on the other hand, hasten the process of their frustration. Moreover, using the modern informative and communication technology in mass form speeds up the process of disappearance of these values. The author underlines that these problems are as actual as they were 30-40 years ago. Further, the author touches upon the problem of organization of leisure-time of the youth, as well advancement in the field of education in the process of transition to market economics.

He recomments to carry out long-term panel sociological reseaches of proposed monitoring of prolonged character.

Keywords: family, every day life, national moral values, computerizing, television, communicative means, leisure time, edication.

UOT 314

Seyid Rəhmət MOZƏFFƏRİ
BDU-nun doktorantı

İİR-NİN GİLAN ƏYALƏTİNDƏ ŞƏHİD VƏ QAZİLƏRİN ÖVLADLARININ BOŞANMASINA TƏSİR EDƏN AMİLLƏRİN TƏHLİLİ*

Ailə ilkin və həyati əhəmiyyət kəsb edən bir sosial institut olmaqla yanaşı eyni zamanda, fərdin və həm də cəmiyyətin sağlamlığını təmin edir. Heç bir cəmiyyət ailə olmadan mövcud ola bilməz. Ailə elə bir mühitdir ki, fərd bioloji və həm də daha çox əhəmiyyət kəsb edən emosional-psixoloji baxımdan ailənin təsiri altında olur, orada sosiallaşaraq özünün cəmiyyətdəki ictimai mövqe məsuliyyətini üzərinə götürməyə hazır olur. Ailənin yaranması və evlənmənin ictimai prosesə qoşulması həyat yoldaşı seçməklə başlayır ki, bu da fərqli cəmiyyətlərdə müxtəlif formada baş verir. Ailə həyatı qurmağın ilkin məqsədi nəsillər arasında əlaqə yaratmaq və cəmiyyətdə mövcud olan mədəniyyəti keçmiş nəsillərdən indiki nəsillərə ötürməkdən ibarətdir. Lakin bəzi insanlar müxtəlif amillərin təsiri nəticəsində ailə həyatını qoruya bilmir, nəticədə ailədə baş verən ixtilaflar bir çox hallarda ailənin ictimai bağlılığının qırılmasına və boşanmaya və bununla da nəsillər arasında fasilə yaranmasına səbəb olur.

Həyat yoldaşı seçimi kişi və qadının gələcək səadətinə və bir-birinə uyğunlaşmasına çox ciddi təsir göstərən bir amildir. Tərəflər arasında dini, mədəni, sosial, qohumluq və məkan cəhətdən nə qədər çox uyğunluq olsa, boşanma və tərk etmələrin faizi bir o qədər aşağı düşəcəkdir. Boşanma xüsusi qanuna və şəriətə uyğun şəraitin nəzarəti altında ailə həyatını sona çatdırmaq hesab edilir və ər-arvadın bir-birinə münasibətdə heç bir öhdəliyi və hüququ olmur [1, s. 355].

Uilyam Qudun fikrincə, ailə həyatı qurmağın özü boşanmanın, ayrılığın və evi tərk etmənin əsas səbəbidir [2, s.34]. Əslində boşanma bir qanuni fenomen kimi çox da qədim bir anlayış deyildir. Boşanmanın qanuniləşməsinin rəsmi forması ilk dəfə eramızdan 2300 il əvvəl Hammurabi qanunlarında öz əksini tapmışdır. Bu qanunlarda qadın kişinin sərvətinin bir hissəsi hesab edilir və kişi istədiyi vaxt heç bir səbəb göstərmədən qadını boşaya bilərdi. Yəhudilər də boşanmanı kişinin özəl hüququ kimi qeyd edirlər. Roma qanunları əsasında da bir sıra məhdudiyyətlər nəzərə alınmazsa kişinin ailə həyatını dayandırmağa və ailə məsuliyyətindən boyun qaçırmağa tam haqqı var idi. Xristian dininin meydana çıxmasından sonra isə boşanmaya dair Roma qanunlarında müəyyən dəyişikliklər edildi və IV əsrin ikinci yarısına qədər boşanma tərəflərin razılığı əsasında həyata keçirilirdi. İslam dinində də boşanma bəyənilməyən bir iş hesab edilmiş, ancaq bəzi hallarda [cinsi zəiflik, dəlilik, nəfəqənin (kişinin qadını ev, yemək və geyim ilə təmin etməsi nəfəqə adlanır) verilməməsi şəraitində] onun baş verməsinə şərait yaradılmışdır.

Qeyd edilən tarixi məqamlara baxmayaraq boşanma yalnız XX əsrdən etibarən ciddi sosial bəla kimi qeyd edilməyə başlanır. Müasir cəmiyyətlərdə boşanma fenomeninin tarixi prosesinin tədqiqi onu göstərir ki, cəmiyyət kapitalizmə nə qədər yaxınlaşırsa, boşanmaların sayı da bir o qədər sürətlə artır. Feodal cəmiyyətə xas olan əsasların tədricən məhv edilməsi, ənənəvi ailənin dayağı olan ailə başçısına hörmətin zəifləməsi və evdən kənarda sosial ziddiyyətlərin gündən-günə artması köhnə adətlərin aradan çıxması yeni cəmiyyətin əxlaqi normalarının onların yerini tutmasına səbəb olur. Bu durum ailədə olan köhnə yaşayış tərzini və ənənəvi anlayışları xeyli dərəcədə dəyişdirir. XX əsr ərzində əhalinin artması və dünyanın bir çox bölgələrində xüsusən sənaye cəmiyyətlərinin qərarlaşması, mədəniyyət və dəyərlər sahəsində baş verən dəyişikliklər boşanmaların da kəskin artmasına səbəb olmuşdur.

Aparılan araşdırmalarda boşanan kişi və qadınlar, habelə onların övladlarında bir sıra mənfi əxlaqi, sosial, psixolji və s. əlamətlərin olduğu meydana çıxmışdır. Aparılan tədqiqatların çoxu boşanma ilə narkotika, cinayət, tərəflərin şəxsiyyət uyğunsuzluğu, təlim-tərbiyə məsələləri, intihar və s. arasında əlaqənin olduğunu meydana çıxarır və boşanmaların onların nəticəsi olduğu fikrini irəli sürməyə əsas verir [2, s. 35]. Araşdırmalardan belə məlum olur ki, subay insanlar arasında mövcud olan psixi pozuntular evli insanlarla müqayisədə çoxluq təşkil edir. Boşanma təhlükəsi dul qalmaqdan daha çox ağrılıdır. Bir çox araşdırmalar sübut edir ki, boşanan insanlarda cismi və ruhi pozuntular, o cümlədən spirtli içkilərdən

* Məqalə fəlsəfə doktoru Q.Abbasova tərəfindən çapa məsləhət bilinib.

asılılıq, intihar və zehni qüvvənin zəifləməsi və yaşayışdan razılıq hallarının minimum olması müşahidə edilməkdədir.

Riçard Ordi yazır: «Hal-hazırda ilk dəfə qurulan ailə həyatının 20-25%-i boşanma, tərketmə ilə nəticələnir (Saroxani: 1997, 18-19). 1981-1991-ci illər arasında Britaniyada boşanmanın səviyyəsi sabit olaraq hər il 9 % artımla müşahidə edilmişdi. 1970-1972-ci illər arasında isə bu göstərici iki dəfə artmışdı (Giddens, 1996: 42). Bu göstərici 1981-ci ildə min nəfərə hesabı ilə 2/8%, 1993-cü ildə isə 3/1% olmuşdur. Britaniyada mövcud olan boşanma durumu ABŞ-la oxşardır, digər Avropa ölkələri ilə təqribən eynidir. Danimarkada boşanma halları yüksəkdir. Boşanma səviyyəsinə görə Almaniya və Fransa bu ölkədən sonra gəlir [3, s.44]. Ümumiyyətlə, əldə edilən statistikaya görə Qərb dövlətlərində boşanma səviyyəsi getdikcə yüksəlir. Qərb cəmiyyətlərində boşanmanı meydana çıxaran ən mühüm amillər kimi sənayeləşməni, boşanmaya tənqidi münasibətin olmamasını, spirtli içkilərdən istifadəni və s. göstərirlər.

İranda boşanma vəziyyətini nəzərdən keçirdikdə son illərdə boşanma hallarının kəskin şəkildə artmasını müşahidə edirik. Aidiyyəti orqanlar (məsələn, İran Statistika Mərkəzi) tərəfindən nəşr edilən statistikaya görə 1996-cı ildə İranda 38 min 817 nəfər (min nəfər hesabı ilə 1/5%), 2001-ci ildə isə 60 min 559 nəfər (min nəfər hesabı ilə 2/3%) insan ayrılmışdır. Bu göstərici 2006-cı ildə 98756 nəfərə çatmışdır (min nəfər hesabı ilə 3/1%). Başqa sözlə, 1996, 2001 və 2006 cı illərdə hər gün müvafiq surətdə 106, 165 və 270 nəfər boşanmışdır. Ailə məhkəmələrindən alınan məlumata görə boşanma halları nəzərə çarpacaq dərəcədə çoxalmışdır. 2008-ci ildə Gilan əyalətində digər illərlə müqayisədə boşanma hallarına daha çox rast gəlinmişdir. Ona görə də bu araşdırmada şəhid ailələrində baş verən boşanma hallarına təsir göstərən amilləri araşdırıb öyrənməklə onun qarşısını almağa müəyyən dərəcədə yardımçı olmağa çalışırıq.

Bu araşdırmanın nəticələri aşağıdakı fond və təşkilatların istifadəsinə verilə bilər:

1. İslam inqilabı şəhidləri və qazilərlə iş üzrə fond
2. İran müşavirə və psixoloji qanun təşkilatı
3. Səhiyyə Nazirliyi, ölkənin tibbi təlim və müalicə təşkilatları
4. Ailə məhkəmələri
5. Ailə məsələləri üzrə elmi-tədqiqat təşkilatı.

Əvvəlcə daha öncə aparılan tədqiqatlarda problemlə bağlı müxtəlif yanaşmaları nəzərdən keçirək.

a) Dünya səviyyəsində

L.A.Kurdek (2004) bir araşdırmasında xüsusi olaraq kişi və qadının əqidə, dəyər və meyillərində olan müxtəlifliyin ailə həyatında problemlər yaratdığını vurğulamışdır. Çünki onlar əlaqədar hadisələrə müxtəlif müstəvidən yanaşırlar. Kurdekə görə kişi və qadın arasında dini, sosial və mədəni sahələrdə fərqlilik müşahidə edilərsə, o zaman ailədə anlaşmanın səviyyəsi də azalmağa başlayır. Bu isə boşanma və ayrılıq üçün şərait yaradır [4, s. 230].

Qaqnon, Hersen və Kabakov boşanmaq istəyən yüz cütlük üzərində apardıqları araşdırmadan belə bir nəticə əldə etmişlər ki, boşanmanın səbəbi tərəflərdən birinin ruhi pozuntu və sarsıntıya məruz qalması ilə bağlıdır. Onların fikrincə, əgər tərəflərdən biri və ya hər ikisi iztirab, depressiya, vasvasıçılıq və digər ruhi sarsıntılara düçar olarsa, bu zaman həmin pozuntu onların anlaşmasına mənfi təsir göstərəcək və ailə həyatının kəsilməsinə səbəb olacaqdır [5, s.367].

Larson və Holman ailənin (qaynana və qaynataların) tərəflərə təsiri və boşanmada rolu ilə bağlı bir araşdırma aparmışlar. Onların fikrincə, valideynlərin məsələlərə həddən artıq müdaxiləsi, yaşayış üslubunun möhkəmlənməsi, tərəflərin əsas qərarlarına etiraz, tərəfləri dəstəkləməmək kimi məqamlar ailəyə qaynata və qaynana tərəfindən daxili təzyiqləri artırır ki, bunun da nəticəsi çox zaman boşanma olur [6, s.234].

Amato və Rocerz 1990-2005-ci illər ərzində boşanma hallarının baş verməsinə təsir edən amilləri araşdırmışlar. Onların araşdırmalarının nəticəsinə görə tərəflərin 20%-i ailə həyatında yaranan problemləri ərin əsəbi olması ilə əlaqələndirmişdir. Ərlər isə hamılıqla bildirmişlər ki, həyat yoldaşlarının qısqanclığı, tənqid mövqeyində dayanması, pis xasiyyət, deyingən olması ailə həyatında problemlərin yaranmasına səbəb olur [7, s. 618]. Qadınların mövqeyi isə fərqlidir; onlar birmənalı olaraq qeyd etmişlər ki, həyat yoldaşlarının qısqanclığı və əzabverici davranışı onların ailə həyatlarında problemlərin yaranmasına gətirib çıxarmışdır.

Boşanmanın baş verməsində altı əsas problem ön plana çəkilir ki, onlar da faiz etibarilə aşağıdakı kimi sıralanır:

1. Xəyanət - 66%
2. Ağıllı, rasional bədxərclik - 56 %
3. Spirtli içki və narkotiklərin qəbulu - 53 %

4. Həsəd aparmaq - 40%
5. Qeyri-normal adətlərə meyillilik - 40 %
6. Sərt xasiyyət və davranış sahibi olmaq - 27%.

Boşanmanın İrandakı vəziyyəti iranlı tədqiqatçılar tərəfindən də müəyyən dərəcədə araşdırılmışdır.

Bəni Camal, Nəfisi və Yezdi boşanmaya təsir edən amilləri araşdıraraq bu qənaətə gəlmişlər ki, yeni qurulmuş ailələr (1-5 il) uzun müddət evli olan ailələrlə (11-15 il) müqayisədə əsasən ailənin (ata və ananın) müdaxiləsi, iqtisadi problemlər, yaşayış yeri və mədəniyyət fərqinin təsiri nəticəsində boşanmaya daha çox məruz qalır. Bu araşdırmanın nəticələrinə görə, ailə həyatının davam etməsi məsələsində məşğuliyyət, gəlir, evlənməzdən öncəki təhsil, ictimai- iqtisadi şərtlər daha çox təsir etmək qüvvəsinə malikdir [8, s. 152].

Rəhmətullahi boşanmaya təsir edəcək amilləri tədqiq edərkən bu nəticəyə gəlmişdir ki, bir çox hallarda ailə həyatında baş verən ən mühüm problemlər maliyyə çətinlikləri ilə bağlıdır. Onun fikrincə, ix-tilaflar daha çox yaşı az olan, təhsilsiz, işsiz və gəliri az olan ailələrin payına düşür.

Apardığımız bu araşdırmanın əsas məqsədi Gilan əyalətində boşanmaq istəyən şəhid övladları arasında boşanmanın baş verməsinə təsir edən amillərin müəyyən edilməsindən ibarətdir. Bu, bir sıra vəzifələrin reallaşdırılmasını zəruri edir. Onlar aşağıdakılardan ibarətdir:

1. Şəhid övladları arasında boşanmanın baş verməsinə təsir edən iqtisadi amillərin müəyyən edilməsi
2. Şəhid övladları arasında boşanmanın baş verməsinə təsir edən sosial-psixoloji amillərin aşkara çıxarılması
3. Şəhid övladları arasında boşanma ilə həyat yoldaşının narkotik maddələrin aludəçisi olması arasındakı əlaqəni müəyyənləşdirmək
4. Şəhid övladları arasında boşanma ilə dini etiqada bağlılığın səviyyəsi arasında əlaqəni müəyyən etmək
5. Şəhid övladları arasında boşanma ilə həyat yoldaşının yaşı və təhsil səviyyəsi arasında əlaqəni müəyyən etmək.

Tədqiqatın fərziyyələri:

1. Şəhid övladlarının iqtisadi durumu ilə boşanmanın baş verməsi arasında əlaqə mövcuddur. Bu, işsizlik, sabit gəlirin olmaması və digər amillərlə bağlıdır
2. Şəhid övladlarının sosial-psixoloji durumu ilə boşanmanın baş verməsi arasında spesifik əlaqə mövcuddur. Bu, qısqanclıq, bədgümanlıq, narkomaniyaya meyillilik, valideynlərin ailə münasibətlərinə müdaxiləsi, ailəyə sədaqətlilik səviyyəsi, mənəvi-əxlaqi dəyərlərə münasibət və tərəflərin yaş və təhsil səviyyəsi ilə şərtlənir
3. Şəhid övladlarının şəxsi durumu ilə boşanmanın baş verməsi arasında əlaqə mövcuddur.

Araşdırdığımız problemlə bağlı müxtəlif nəzəriyyələrin şərhlərinə diqqət yetirmək məqsədəuyğun-dur. Belə nəzəriyyələrdən biri münasibət həyat yoldaşı nəzəriyyəsidir. Bu nəzəriyyə ailənin möhkəmliyini cütlüyün bir-birinə uyğun olmasında görür. Tərəflər arasında uyğunluq onları bir-birinə cəzb etməkdən əlavə ailədə normal münasib üçün əsas yaradır. Heylin fikrincə, insanlar özlərinə layiq olan həyat yoldaşı seçməyə meyillidirlər. Əgər bu qanuna riayət edilməzsə, çox ehtimal ki, tərəflər ayrılacaqdır. Barmone qeyd edir ki, insan bilərəkdən və ya bilməyərəkdən həmişə öz xarakterinə uyğun insanlar axtarışındadır. İnsanlar bütün yaş qruplarında elə insanlarla münasibət yaratmaq istəyirlər ki, özlərinə uyğun olsun. Vud özünün "Din baxımından ailə həyatı qurmaq" kitabında göstərir ki, din və məzhəb baxımından tərəflər arasında uyğunluq nə qədər çox olarsa, ayrılıq da bir o qədər az olacaqdır. Şenq və Yamamuranın fikrincə, isə, tərəflər arasında mədəni və tayfa bağlılıqları nə qədər çox olarsa, onlar arasında ayrılıq təhlükəsi də bir o qədər azalacaqdır.

Mübadilə nəzəriyyəsinin də mövqeyi müəyyən elmi maraq doğurur. Bu nəzəriyyəyə görə insanlar həmişə öz həyatları boyunca digərləri ilə qarşılıqlı əlaqədə olurlar. Onlar həm də çalışırlar ki, bu əlaqədə özləri üçün xeyirli bir şey əldə edə bilsinlər. Başqası ilə olan hər növ əlaqə mübadilə qismindədir. Mübadilə nəzəriyyəsi sübut etməyə çalışır ki, davranış əldə edilən mükafat və qazanca, habelə itirdiyi xərclərə görə dəyişir. Bu nəzəriyyəyə əsasən hər iki tərəf öz xeyir və zərərlərini müqayisə edir. Ədalət qanununa görə əməkdaşlıq o zaman baş verir ki, hər iki tərəf təxminən eyni səviyyədə xeyir və zərər görmüş olsunlar. On-lar bu əməkdaşlığı müqayisə etdikdə əgər bir tərəf fayda götürüb digər tərəf zərərə düşürsə, o zaman bu əməkdaşlıq təhlükə altına düşür. Ər ilə arvad arasında olan münasibətlər, habelə qruplar arasında olan əməkdaşlıq da sosial mübadilə nəzəriyyəsinə görə müzakirə edilir [9, s. 26].

Beləliklə, bu nəzəriyyəyə görə, qadınla kişi arasında olan əlaqələr ailə həyatı qurduqdan sonra mübadilə nəzəriyyəsinə uyğun olaraq davam edir. Əgər onların qarşılıqlı hüquqları fayda və xərc kimi

dəyərləndirilərsə onların həyatı qarşılıqlı mübadilə olaraq davam edəcəkdir. Digər tərəfdən, tərəflər üçün xərc və faydanın qeyri-bərabər olması mübadilədə ədalətsizlik və bərabərsizliyə gətirib çıxaracaq, sonda isə qarşılıqlı olan əlaqələr aradan qalxacaqdır. Misal üçün, əgər tərəflərdən biri itirdiklərinin qazandıqlarından çox olduğunu deyirsə, deməli, bu şəxs həmin əlaqəni bitirmək haqqında fikirləşir. Həqiqətən fərdin bu ailə həyatından qazandığı və itirdiyinin nə olması barəsində fikirləşməsi müəyyən əhəmiyyət kəsb edir [10, s. 44-45].

Şəbəkə nəzəriyyəsinin mövqeyi, fikrimizcə, maraqlıdır. Bu nəzəriyyə ictimai proseslərin şəxsi və daxili rəftardan qaynaqlanması haqqındakı təlimləri qəbul etmir. Şəbəkə nəzəriyyəsinin məşhur simalarından biri olan Elizabet Bat qadın və kişinin evdən kənar mühitdə nümayiş etdirdikləri davranış nümunələrinin bu proseslə əlaqədar olduğunu bildirir. Onun fikrincə, əgər qadın və kişi evdən kənar öz qohumları, dostları, yaxınları ilə əlaqə yarada və onların təsir dairəsinə düşürsə, bu zaman evlilik həyatında süstlük baş verir. Yox, əgər onlar ictimaiyyət içərisində tənhalığa qapılırlarsa, ictimai əlaqələrə əhəmiyyət vermirlərsə və sistemin bu şəxsə təsiri zəifdirsə, o zaman həmin durum özünü ailə mühitində də göstərir. O, bu məsələni mədəni sıxıntılar timsalında izah edir. Əgər qadın və kişinin hər biri sistemə meyilli olarlarsa, ailə həyatı həmin sistemlərdən asılı olur. Belə ki, tərəflər yalnız sistemin icazə verdiyi şeylərə doğru meyl edirlər. Bu halda boşanma və ayrılıq qaçılmazdır. Çünki onlar xaricdən onların ailəsinə gələn təsirin qarşısını ala bilməyəcəklər. Buna görə də sistem nəzəriyyəsi təkidlə qeyd edir ki, ata və ananın sistem ilə əlaqəsi nə qədər zəif olarsa, ailəni bir o qədər çox qorumaq mümkün olacaq və tərəflərin ailənin onların üzərinə qoyduğu məsuliyyəti layiqincə yerinə yetirə biləcəklər. Yox əgər sistem güclü olarsa, tərəflər özləri qərara gələ bilməyəcəklər. Çünki onlar sistemin qərarları ilə uyğunlaşmalı olacaqlar. Bu zaman onlar digərlərinin onların ailə həyatına qoşulmasını qəbul edəcəklər. Bu məsələ ailədə ziddiyyətlərin yaranmasına gətirib çıxaracaqdır. Nəticə etibarilə digərlərinin müdaxiləsi onların ailə həyatının dağılmasına gətirib çıxaracaqdır.

Ailə həyatına digər şəxslərin müdaxilə edə bilməsinin mümkünlüyü Şərq aləmində qədimdən qalma adət- ənənədir. Çünki Şərq aləmində ağsaqqallar həmişə ailələrə müdaxilə etmişlər. Belə ənənə qaynanaların cavan ailələrin həyatına müdaxilə etməsinə gətirib çıxarmışdır [2, s. 41].

Bizim apardığımız araşdırma praktik əhəmiyyətə malikdir, çünki tədqiqat elə bir istiqamətdə aparılır ki, bu məsələ ilə əlaqədar olan orqan və təşkilatlar ondan faydalana bilsinlər. Bundan əlavə, hazırkı araşdırmanı mərhələli araşdırma da adlandırmaq olar, çünki boşanmaya təsir göstərən amillərin öyrənilməsi xüsusi bir zaman (2009-cu ilin qış fəsli) çərçivəsində həyata keçirilmişdir. Araşdırmada sorğunun əhatə etdiyi insanlar ailə məhkəmələrinə boşanmaq üçün ərizə verən şəxslərdən ibarətdir. Sorğu zamanı bu metodla nümunə kimi insanları seçmək üçün ilk olaraq nəzərdə tutulan ərazi coğrafi cəhətdən bir neçə kiçik hissələrə ayrılır, sonra isə həmin şərtlərə malik insanlar təsadüfi olaraq seçilirlər. Araşdırmada əyalətin müxtəlif ərazilərində ailə məhkəmələri müəyyən edilir, həmin məhkəmələrə müraciət olunaraq şəxsi işlərlə tanış olduqdan sonra həmin qadın və kişilər arasından respondentlər seçilir. Bu iş nəzərdə tutulan həddə respondent əldə edilənə qədər davam etdirilir. Tələb olunan sayda respondent əldə edildikdən sonra nümunə götürmə işi sona çatır. Bəs nümunənin həcmi neçə müəyyənləşdirilir? Hər bir araşdırmada nümunənin həcmini əhatə etmək üçün araşdıranın növü və araşdırma imkanlarına müvafiq addım atmaq lazımdır. Bu araşdırmada nümunənin həcmini ehtiva etmək üçün aşağıdakı formuldan istifadə edilmişdir:

$$n = \frac{Nt^2 pq}{Nd^2 + t^2 pq}$$

Bu formulda:

N - sorğunun əhatə dairəsini (boşanmaq istəyən evli qız və oğlanların sayı) ifadə edir. Bu araşdırmada xatircəmlik səviyyəsi 95% olduğu üçün t= 1/96

p - boşanmanın baş vermə ehtimalı 0/5 - ə bərabər hesab edilmişdir.

d - bu araşdırmada xatircəmlik fasiləsi 0/5 - ə bərabər olmuşdur.

Ona görə də bu formulda yuxarıdakı ədədləri ifadə etməklə tələb olunan nümunə aşağıdakı kimi verilmişdir.

$$n = \frac{25000 \times (1/96)^2 \times (0/5 \times 0/5)}{25000 \times (0/5)^2 + (1/96)^2 (0/5 \times 0/5)} = 384$$

nəfər

Bu araşdırmada 400 nəfər (200 cütlük) nümunə kimi seçilmişdir. Araşdırmanın əhatə dairəsi 2010-cu ildə ailə məhkəmələrində əyalətdə boşanma üçün müraciət edən insanların ərizələri əsasında müəyyənləşdirilmişdir. Araşdırmanın həyata keçirildiyi zaman çərçivəsi 2010-cu ilə qədər olan dövrü əhatə

edir.

Araşdırmada məlumatların toplanması məqsədi ilə anket sorğusundan istifadə edilmişdir. Bundan əlavə, boşanmaq istəyən insanlarla dərin müsahibə aparılmış və ictimai yardım sənədləri təhlil edilmişdir.

Anketin ilkin hissəsi respondentlərin sosioloji xüsusiyyətlərini, ikinci hissəsi isə tədqiqatın əsas suallarını, yəni boşanmaya təsir edən amillərin araşdırılmasını əhatə edir.

Anketin validliyinə və etibarlılıq səviyyəsinə də ciddi diqqət yetirilmişdir.

Bu araşdırmada məlumatların təhlili məqsədilə qeyri-test (cədvəllər, faizlər, orta, yüksək tipli mərkəz əmsalları) vasitələrdən, habelə dəyişənlərə (Kay Eskuer sınağı, Person bağlılıq əmsalı sınağı, biristiqamətli və çoxistiqamətli reqresyon təhlil) uyğun olaraq statistik metoddan istifadə edilmişdir. Məlumatlar kompyüterə ötürüldükdən sonra onlar SPSS statistik proqramı vasitəsilə təhlil olunmuşdur.

Nəticə olaraq qeyd etmək istərdik ki, boşanmaya bir ictimai məsələ kimi, onun spesifikası nəzərə alınmaqla yanaşılmalıdır. Boşanmanın səbəblərinə hər bir cəmiyyətdə konkret məkan və zaman daxilində baxılmalıdır; boşanmanın əsas səbəbləri iqtisadi amillər, mədəni problemlər, az yaşlarda nikaha girməkdən və s. ibarətdir. İqtisadi çətinliklər və yoxsul siniflərə mənsubluq, ər-arvadın bir-birinə qarşı barışmaz mövqeləri, başqalarının, xüsusilə valideynlərin müdaxilələri, yaş fərqləri, savadsızlıq, dini dəyərlərin zəifliyi, narkotik maddələrdən istifadəyə meyillilik boşanma hallarının artmasına təsir edən amillərdir.

Açar sözlər: Gilan əyaləti, şəhidlərin övladları, boşanmaya təsir edən amillər.

İstifadə olunmuş ədəbiyyat

1. Beach S. R. & O'Leary R. D. Dysphoria and marital discord: Are dysphoria individuals at risk for marital maladjustment? Journal of Marital and Family Therapy, 2003, №19.
2. Piran Pərviz. Boşanmanın sosioloji izahı ardınca. Tehran, 1990. Rovnəq, C.1.
3. Bernardez Can. Ailə araşdırmalarına giriş (Hüseyn Qaziyanın tərcüməsi). Tehran, Ney, 2006.
4. Kurdek L.A. Predicting marital dissolation: A 5 year prospective longitudinal study of newly web couples. Journal of Personality and Social Psychology, 2004.
5. Qaqnon M.D., Hersen M., Kabacoff R.I. & Vanhasselt V.B. Inter personal and psychological correlates marital dissatisfaction in late life. Clinical Psychology Review, 19, 2006.
6. Larson J.H. & Holman T.B. Premarital of marital quality and stability. Journal of Family Relations, 2004, 43.
7. Amato P.R. & Rogers S.J. A longitudinal study of marital problems and subsequent divorce. Journal of Marriage and Family, 2007, 59.
8. Bəni Camal. Ş, Nəfisi Ğ. Və Yezdi S.M. Evlənmədən öncə oğlan və qızların sosial- psixoloji xüsusiyyətləri ilə əlaqədə ailələrin dağılma səbəbinin kökləri. Əhvazın şəhid Çəməran Universitetinin psixoloji və pedaqoji elmlər jurnalı, 2004, III.
9. Bedar Luk və b. Sosial psixologiya. Həmzə Gəncinin tərcüməsi. Tehran, Savalan, 2003.
10. Cəliliyan Zəhra. Tehran şəhərində boşanma istəyinə təsir edən sosial amillər. Əllamə Təbatəbai Universiteti, magistratura üzrə diplom işi, sosiologiya ixtisası. 1996.

Сейід Рахмат МУЗАФФАРІ

АНАЛІЗ ФАКТОРОВ, ВОЗДЕЙСТВУЮЩІХ НА УРОВЕНЬ РАЗВОДОВ СРЕДІ ПОТОМКОВ ШАХІДОВ І ВЕТЕРАНОВ ГІЛЯНСКОЙ ПРОВІНЦІІ ІР

Резюме

В статье проводітся соціологіческій аналіз факторов, вліяющіх на чісло разводов среді потомков шахідов і ветеранов Гілянской провінціі Ирана. Выявлены факторы, ведущіе к повышенію уровня разводімості среді этой группы населенія. В частності, определено, что существеннымі факторамі здесь являются экономіческіе трудності, вмешательство родітелей,

разлічія в обычаях і традіціях, сексуальные проблемы і т.д. Аналізірованы статістіческіе матеріалы, общій вывод заключается в том, что разлічія в характере супругов, матеріальные проблемы, ослабленіе ролі морального фактора, наркотіческая завісімость пріводят к распаду семьі.

Ключевые слова: Гілянская провінція Ирана, деті шехідов, факторы, ведущіе к разводу.

Sejid Rahmat MUZAFFARI

THE SOCIOLOGICAL ANALYSIS OF THE FACTORS, INFLUENCING ON THE LEVEL OF DIVORCEMENT AMONG DESCENDENTS OF THE SHAHIDS AND VETERANS OF GILJAN PROVINCE OF IIR

Summary

In article the situation in the Giljansky province of the Iranian Islamic Republic, connected with the relation of children шехідов and газі to divorce is analyzed. The factors conducting to increase of level разводімості among this group of the population are revealed. In particular, it is defined that essential factors here are economic difficulties, intervention of parents, distinctions in customs and traditions, sexual problems etc. Analizirovany statistical materials, the general conclusion consists that distinctions in character of spouses, material problems, easing of a role of the moral factor, a drug dependence lead to family disintegration.

Key words: the Gilan province of Iran, shehids children, the factors conducting to divorce.

UOT 316.75

Məhəmmədi Meyxoş ƏLAƏDDİN
BDU-nun dissertantı

MƏDƏNİ TURİZM VƏ MİLLİ İDENTİKLİK*

Mədəni turizm sahəsi müasir dövrdə sürətlə inkişaf edən turizm sənayesində xüsusi yerlərdən birini tutur. Bu fenomen qloballaşma və postmodernizm kimi konsepsiyalar çərçivəsində təhlil edilərək mədəniyyətə yeni baxışların inkişafına səbəb olmuş və onu bəzi yeni kateqoriyalarla zənginləşdirmişdir*. Bəzi alimlərin fikrincə, iqtisadi qloballaşma mədəni qloballaşmanı tələb edir və sonuncunun tərkib hissəsi olan mədəni turizm müxtəlif ölkələrin insanları üçün sərhədləri açıq elan etməklə önəmli rol oynayır. Üstəlik turizmin inkişafı prosesində yerli mədəniyyət nəinki ziyan görmür, hətta bundan faydalanır.

Mədəni turizmdə əsas məqsəd turizm sektorunda mədəni sahələrə insanların cəlb olunmasına xüsusi diqqət yetirməkdir. Mədəni sahələr dedikdə müəyyən bir ölkənin maddi və mənəvi mədəniyyətinə dair tarixi abidələr, muzeylər, burada keçirilən ənənəvi sərgilər, festivallar və s. nəzərdə tutulur. Lakin burada inkişaf etmiş ölkələrlə inkişaf etməkdə olan ölkələr arasında müəyyən fərqlər vardır. Belə ki, əgər inkişaf etmiş ölkələrdə turizm üçün cəlbedici yerləri incəsənət muzeyləri, teatrlar, müxtəlif musiqi, incəsənət və mədəni proqramların keçirildiyi salonlar və s. təşkil edirsə, inkişaf etməkdə olan ölkələrdə bura əsasən dini yerlər, əl işlərinin nümayişi və s. kimi fəaliyyət növləri daxil ola bilər. İnkişaf etməkdə olan ölkələrdə mədəni turizmin inkişafı üçün daha çox potensial mövcuddur. Çünki yerli icma və mədəniyyət sektoru bu sahəyə potensial təsir göstərmək imkanlarına malikdir. Müxtəlif mədəniyyətlərə məxsus insanlar mədəni turizmin potensial imkanları sayəsində bir-birlərinin mədəniyyətlərini öyrənməklə qarşı tərəfin mədəniyyətini də zənginləşdirirlər.

Mədəni turizmin mahiyyəti

Turizm fəaliyyəti çoxsahəli olduğuna görə mədəni turizm də mürəkkəb bir anlayışdır. Mədəni turizm irsi turizm, incəsənət turizmi, etnik turizm və s. kimi sahələri özündə birləşdirir.

Q.Richards mədəni turizmi belə xarakterizə edir: "Mədəni turizm yalnız keçmişin mədəniyyət nümunələri demək deyildir. Burada həm də müxtəlif regionlardakı icmaların müasir mədəniyyətinə və həyat tərzinə diqqət yetirilir. Belə ki, mədəni turizm həm irs turizmini (keçmişə aid olan mədəniyyət nümunələrini), həm də bədii turizmi (müasir mədəni nümunələri) əhatə edir (1, s. 12).

H.Zippel və S.Holl mədəni turizmi iki hissəyə bölürlər: 1) bədii turizm və 2) incəsənət turizmi (burada incəsənət turizmi müasir dövrə aid fenomen kimi götürülərək ayrılıqda götürülmüş hər hansı bir məkan üçün səciyyəvi hal kimi çıxış edir (2, s. 47-65). Lakin bir çox hallarda turizmin bu iki sahəsi bir-birilə o qədər çulğalaşır ki, onlar arasında fərq qoymaq xeyli çətinləşir. Belə ki, bir sıra tarixi şəhərlərdə (məsələn, Venesiyada, Vyanada və b.) bədii elementlərlə mədəni turizmə aid elementlər, mədəni turizm xidmətləri ilə mədəni məhsullar arasında fərq qoymaq çətinlik yaradır. Bu şəhərlərdə köhnə tarixi bina və muzeylərdə sərgilər təşkil edilir, teatr tamaşaları və operalar qədim amfiteatrlarda, festivallar və müsabiqələr isə həmişə tarixi küçələrdə keçirilir. Beləliklə, bu iki sahə arasında sərhədlərin müəyyənləşdirilməsi elə də asan deyildir.

C.Vilyam mədəniyyəti bütün yaşam tərzinin məcmusu kimi qəbul edir, mədəni turizmin geniş təcrübə və müşahidədən asılı olduğunu göstərir.

Mədəni turizmin təsnifatı:

Mədəni turizm fəaliyyəti ilə bağlı aşağıdakı sistemləşməni aparmaq olardı:

1.Mədəni irs saytları (məsələn, arxeoloji əhəmiyyət kəsb edən yerlər, muzeylər, abidələr, tarixi binalar və dəyişməmiş tarixi şəhərlərin saytları) ilə tanışlıq;

2. Mədəni nümayiş yerlərinə getmək (məsələn, teatr, konsert zalları, mədəni mərkəzlər kimi yerlərlə) tanışlıq;

---

* Məqalə s.e.d. R. Həsənov və fəl.e.d., prof. İ. Rüstəmov tərəfindən çapa məsləhət bilinib.

* Müasir mədəni turizm məsələləri həmçinin digər sosial nəzəriyyələr vasitəsilə də tədqiq edilə bilər ki, bura da aşağıdakıları aid etmək olar: sosial fəaliyyət, sosial dəyişikliklər, sosial mobillik, sosial faktlar, sosial nəzarət, struktur funksionalizm nəzəriyyələri; anomiya, aşkar və latent funksiyalar nəzəriyyəsi; tənqidi sosial nəzəriyyə; radikal postmodernist sosial nəzəriyyə və s.

3. Vizual bədii əsərlərlə (məsələn, qalereyalar, parklar, heykəllər, şəkil və memarlıq abidələri kimi yerlərlə) tanışlıq;

4. Festivallarda və xüsusi müsabiqələrdə (məsələn, musiqi festivalları, karnavallar və idman yarışlarında və s.) iştirak;

5. Kilsələr, məbədlər, türbələr kimi dini yerlərə ziyarət;

6. Kənd yerlərinə (məsələn, kəndlərə, milli parklara, muzey və eko-müzeylərə və s. kimi yerlərə) səyahət;

7. Etnik azlıqların yaşadığı məntəqələrə səyahət və onların ənənələri ilə yaxından tanışlıq (məsələn, tayfa həyatının, mədəniyyətinin xüsusiyyətləri və s.);

8. Dil öyrənmək məqsədi ilə o dildə danışan əhali yaşayan yerlərə səyahət etmək və ya o yerlərdə yerli dilin kurslarında iştirak etmək;

9. Sənət və sənaye nümunələri (məsələn, poeziya, rəssamlıq, heykəltəraşlıq, xalçaçılıq və s. kimi incəsənət və sənətkarlıq nümunələri) ilə tanışlıq;

10. Yerli kulinariya və içki nümunələri ilə tanışlıq;

11. Məntəqənin sənaye və kommersiya obyektlərində (məsələn, zavodlarda, mədənlərdə və s.) görüşlərdə iştirak;

12. Məntəqənin müasir mədəniyyəti (məsələn, pop musiqisi, mağazaları və alış-veriş mərkəzləri, moda zalları, media, dizayn, texnologiya və s. kimi müasir populyar mədəniyyəti) ilə tanışlıq.

Beləliklə, yuxarıda göstərilən siyahıdan aydın olur ki, mədəni turizm özündə müxtəlif profilli fəaliyyət sahələrini birləşdirir.

Turizmin mədəni istiqamətləri

Ümumdünya Turizm Təşkilatının hesablamalarına əsasən, beynəlxalq səyahətin 37 faizi məhz mədəni turizmlə bağlıdır və XXI əsrin sonuna qədər bu göstərici 52%-ə çatacaqdır.

Onu da qeyd edək ki, mədəni turizm ümumi turizmin küllü hesab oluna bilməz. Lakin dünya miqyasında mədəni turizm ümumi turizmlə bərabər inkişaf edir. Digər tərəfdən mədəni turizm turistlərini də fərqli kateqoriyalara ayırmaq lazımdır. Mədəni turistlər arasında ən maraqlı fərqləndirmə Bay Vater tərəfindən aparılmışdır. O 1993-cü ildə, mədəni turistləri xüsusiyyətlərinə müvafiq olaraq üç kateqoriyaya bölmüşdür:

1. Mədəniyyəti stimullaşdıran turistlər;
2. Mədəniyyətdən ilham alan turistlər;
3. Mədəni elementləri mənimsəyən turistlər (4, s. 261).

Mədəni turistlərin sayının nisbətən az olmasına baxmayaraq onlar kommersiya sektoru üçün olduqca sərfəlidirlər. Mədəni turistlər yüksək gəlirlərə malik turistlərdir, bir zonada bir neçə gün qalırlar (məs., Salenburg musiqi festivalı kimi).

Müşahidələr göstərir ki, mədəni turistlər səyahət etdiyi məntəqələrə ikinci dəfə səfər etmir, uzun müddət bir məntəqədə qalmırlar və mühüm məntəqələrdə qalmağa daha çox üstünlük verirlər. Təəssüflə qeyd etməliyik ki, bu qrup turistlər bəzən ətraf mühitə, xüsusilə zəngin mədəni irsə malik yerlərə müəyyən xəsarətlər də yetirirlər.

Mədəniyyət vurğunu olan turistlər əsasən kommersiya və istirahət-əyləncə məqsədi ilə səyahət edir. Hər hansı bir məkanda keçirilən mədəniyyət proqramları və mədəni müsabiqələrə cəlb edilirlər. Bu səbəbdən onların səfərlərinin əsas məqsədinin mədəni məntəqələrin ziyarət olunmasını hesab etmək o qədər də düzgün olmazdı.

Mədəni turizm və milli identiklik

Milli identiklik dedikdə hər hansı bir ərazidə yaşayan əhalinin ümumi mədəni, siyasi, tarixi, coğrafi xüsusiyyətləri, bir-birinə qarşı həmrəylik, öhdəçilik və sədaqət hissləri nəzərdə tutulur. Məhz bu səbəbdən sosial həmrəylik yolunda milli identiklik ən mühüm faktorlardan biri kimi çıxış edir. Başqa sözlə, milli kimliyi, milli icmanın ortaq mütləq rəmzlərə və elementlərə bağlılıq hissi kimi qəbul etmək olar. Milli identiklik güclü dövlət-millətin (nation state) formalaşmağa başladığı modern dövrünün məhsulu sayıla bilər.

Milli identiklik iki hadisənin nəticəsi hesab oluna bilər: (1) mürəkkəb tarixi proseslərlə müşahidə olunan millətçilik dövrü və (2) orta əsrlər üçün səciyyəvi sayılan və dini identikliklə ifadə olunan təbəələrin millətlə əvəz olunması (5), (6).

Beləliklə, hər bir milləti başqa millətlərdən fərqləndirən xarakter və funksiyala elə həmin millətin milli kimliyini təşkil edir. Milli identiklik millət və millətçilik anlayışına aiddir. Millətçilik olmazsa milli

identiklik də ola bilməz. Ona görə də milli identiklik yeni məfhum olaraq modern qneseologiyası konsepsiyasının məhsulu sayılır.

Milli identiklik üç reallığı əks etdirir. Milli kimliyə malik şəxslərdə öz millətlərinə 1) mənsubiyyət, 2) millətə sədaqət və 3) birlik hissləri. Bununla da milli identiklik millətin bir növ "öz" varlığını dərk etməsidir. Identiklik və şəxsiyyətin iki tərəfi haqqında danışmaq olar ki, onlardan da birincisi "biz", digəri isə "onlar"dır. Bu anlayışlardan biri olmadan digərinin mənası yoxdur.

Mədəniyyətin və turizmin qarşılıqlı təsiri, müasir turizmin mədəni trayektoriyası identikliyin və multikulturalizmin təhlilini aparmaq üçün əsas sayıla bilər. Müasir *qlokal* proseslər kontekstində inkişaf edən müasir turizmin sosio-mədəni praktikası onun aşkar və gizli imkanlarını pozitiv şəkildə həyata keçirməyin yollarını müəyyənləşdirməyə imkan yaradır.

İnkişaf etmiş ölkələrdə identikliyin və nüfuzun əldə olunması üçün əsas vasitələr kimi istehlak və "zahiri dəyərlər" - yaradılmış sosial nüfuz nəzərdə tutulur. Onlar "mübadilə dəyərlərindən" və ya "istehlak dəyərlərindən" daha mühüm olana çevrilirlər. Məslən, bir sıra alimlərin (məs., M. Sarupun) fikrincə, bazar münasibətləri identiklik yaradan alətlər təklif edirlər ki, onların da vasitəsilə hər kəs "özün özünü yarad" prinsipinə əməl edə bilər. J. Bodriyyarın fikrincə isə, fərdlər özünəməxsus bir tələyə salınmışlar: bu əsasən televiziya və KİV vasitəsilə yaradılmış obrazlar dünyası və ya "hiperreallıq"dır ki, burada da xəyal və reallıq praktiki olaraq bir-birindən seçilməyəndir. Turizm sferası elə həyat fəaliyyəti sahəsinə aiddir ki, burada miflər, fantaziyalar, "hiperreallıq" və müştərilərin modelləşdirilən davranışı agentlər tərəfindən maksimal dərəcədə istifadə olunur.

Bir sıra tədqiqatlarda turizm dünyanın ən mötəbər sənayelərindən biri kimi qəbul edilir. Bu nöqteyi-nəzərədən o, daha çox Qərb fenomeni hesab olunur və burada "periferiya" ölkələrinə yalnız bir rol ayrılır: yaratmaq yox, yalnız qəbul etmək. Bəzi nəzəriyyəçilər turizmi imperializmin yeni forması kimi təsvir edirlər. Belə ki, M.Sarup inkişaf etməkdə olan ölkələrə səyahəti və turizmi təsvir etməkdən ötrü "özümüzünkilər" və "başqaları" terminlərindən istifadə edir. Turizm fiziki və metaforik hadisədir. Səyahət isə metaforadır, çünki o, məlum mərkəzdən ekzotik periferiyaya hərəkətə aiddir. Qərb nöqteyi-nəzərindən turizm həm də metaforadır. Maddi təminatı yüksək olan insanlar ekzotikanı seyr etməkdən, öz mədəniyyətləri ilə "başqa"ları arasındakı fərqləri müşahidə etməkdən həzz alırlar. M.Smitin fikrincə, səyahət getdikcə öz identikliyini kəşf etmənin daha çox yayılmış üsuluna çevrilir.

Beləliklə, göstərmək olar ki, turizm sahəsi müxtəlif mədəniyyətlərdən olan insanların qarşılıqlı əlaqələrinin nəticəsidir. Bu əlaqələr onların milli və qrup identikliklərinin üzləşməsinə zəmin yaradır. Bu üzləşmə nəticəsində arzuolunmaz tam dəyərə malik olmama kompleksi və ya, əksinə, üstünlük, hegemonluq kimi hisslər də təzahür edə bilər. Mədəni turizmin başqa mədəniyyətlər və identikliklər əsasında formalaşaraq genişlənməli olmasına baxmayaraq, göstərilən halda qonaq mədəniyyət yerli mədəniyyəti və ya kollektiv kimliyi öz içində həll edərək yerli mədəniyyəti daxilən zəiflədə, yaxud onun mahiyyətini məhv edə bilər.

Beləlilə, mədəni turizm nə differensiasiyanı, nə də ki, assimilyasiyanı qarşısına məqsəd qoymamalı, turizmin xeyirli məqamlarından bəhrələnməlidir.

Açar sözlər: turizm, mədəniyyət, mədəni turizm, identiklik, milli identiklik, qloballaşma, modern, yaşam tərzi.

İstifadə olmuş ədəbiyyat

1. Richards, Greg. 2007. The Haworth Hospitality Press Greg, The Haworth Press, Inc bir Import New York. Oksford.

2. Zeppel, H. and Hall, C.M. (1992) "Arts and Heritage Tourism", in Weiler, B. and Hall, C.M. (eds) Speacial Interest Tourism, London: Belhaven Press.

3. Smith, M.K. (2003) Issues in cultural Tourism Studies. London: Routledge.

4. Richards Greg. (2001) Cultural Attractions and European Tourism. Wallingford: CAB International.

5. Nash Kate. Müasir siyasi sosiologiya. Delfruz Məhəmməd Tağı tərəfindən tərcümə edilmişdir. «Kəvir», 2005.

6. Mirmahammadi Davud. İranda milli identiklik haqda mülahizələr. İran Milli Tədqiqat İnstitutu. Tehran, «Tehran», 2004.

Мохаммади Мейхош АЛААДИН

КУЛЬТУРНЫЙ ТУРИЗМ И НАЦИОНАЛЬНОЕ ЕДИНСТВО

Резюме

Экономическая глобализация требует культурной глобализации, и в этом смысле культурный туризм, объявляя открытыми границы для людей различных стран, играет очень важную роль. Сфера туризма – результат взаимодействия людей с разными культурами, которое создает основу для взаимовлияния их национальных и групповых идентичностей. Люди с различными культурами благодаря потенциальным возможностям культурного туризма, ознакамливаясь с культурой друг друга, взаимо обогащаются. Поэтому культурный туризм должен воспользоваться его положительными сторонами.

Ключевые слова: туризм, культура, культурный туризм, идентичность, национальная идентичность, глобализация, модерн, образ жизни.

Mohammadi Meykhosh ALADDIN

CULTURAL TOURIZM AND NATIONAL UNITY

Summary

Economic globalization requires the cultural globalization. In this sense the cultural tourism as a part of cultural globalization, by declarating the borders open for the people of all countries plays extremely important role in it. The sphere of tourism is the result of the interaction of the people with different cultures. This interaction creates the basis for mutual influence of their national and group identities. The people of the different cultures owing to the potential opportunities of cultural tourism to study cultures of eash of them become mutually enriched. Cultural tourism should use only the positive aspects of tourism.

Key words: tourism, culture, cultural tourism, identity, national identity, national identity, globalization, modernity, life standard.

UOT 316.4

Səməd ŞAHNƏHAD
BDU-nun aspirantı

İCTİMAİ KAPİTAL ANLAYIŞINA DAİR*

Son zamanlarda "ictimai kapital" anlayışının müxtəlif iqtisadi, ictimai və siyasi sahələrdə tədqiqati məsələsi inkişaf etməkdədir. Lakin qeyd olunmalıdır ki, müəyyən zaman kəsiyi ərzində ictimai kapital anlayışının geniş mübahisə obyektinə çevrilməsi bu sahədə bir sıra fikir ayrılıqlarına səbəb olmuşdur.

İctimai kapital anlayışını müxtəsər şəkildə izah etsək deyə bilərik ki, bu anlayış ictimai quruluşun elə bir sahəsidir ki, fərdlər və qruplar müəyyən məqsədə çatmaq üçün onun mənbələrindən müntəzəm olaraq faydalanırlar. İctimai kapital anlayışının birinci tərəfini təşkil edən "ictimai" sözünün işlənməsi onun fərdi və şəxsi əsaslara malik olmadığına işarədir. Yəni fiziki kapital quruculuq işlərində şərait və təchizat hasil edən vasitədir, milli kapital hər hansı bir fərdin bankda saxlanılan əmanətidir, insan kapitalı insanların beynində toplanmış biliklərdir. "İctimai kapital" isə fərdlərin sistemli şəkildə əlaqəsinə əsasən formalaşır və o bu əlaqələrin həcmi, keyfiyyəti, növləri əsasında təşəkkül tapır.

İctimai kapital anlayışının ikinci tərəfini təşkil edən "kapital" sözü də məcazi mənada işlənmişdir və bizə məlum olan adi kapital, sərmayə mənasını ifadə etmir. Bu anlayışın tərkibində istifadə olunan kapital sözü eynilə ənənəvi kapital forması kimi hasil edici qüvvədir, dəyərlər sistemini təşkil edir, müəyyən bir məqsədə çatmağı nəzərdə tutur.

Mütəfəkkir sosioloqlardan – Emil Durkheym, Maks Veber, Corc Zimmel və Karl Marks "ictimai kapital" anlayışının izahını verməyə çalışmışlar.

İctimai kapital nəzəriyyəçilərindən biri olan Volkok ictimai kapitalı tarixi aspektdən tədqiq etdikdən sonra belə bir nəticəyə gəlir ki, bu anlayışı ətraflı şəkildə tədqiq edən mütəfəkkirlər Bordyo, Kolman və Putnamdır olmuşdur. Volkok ictimai kapital haqqında olan bütün nəzəriyyələri bir-birindən fərqləndirərək, onları 4 əsas qrupa ayırır:

1. Yerli ictimai nəzəriyyə - Bir qrup insanlar qeyri-rəsmi şəkildə klub, əncümən və mədəniyyət kursları formasında toplaşırlar və onların bu fəaliyyəti ictimai kapitalın mühüm göstəricilərindən hesab olunur.

2. Sistem nəzəriyyəsi. Bu nəzəriyyədə ictimai kapitalın müsbət və mənfi tərəfləri əsas götürülür və insanlar arasında yaranmış olan birliklər, ictimai əlaqələr, yerli ictimai ittifaqlar, şirkətlər, iqtisadi və sənaye korporasiyaları tədqiq edilir.

3. Orqan və qurumlar haqqında olan nəzəriyyə. Burada yerli ictimai sistemlər, mədəni cəmiyyətlər siyasi hüquq aspektindən təhlil edilir.

4. İkili nəzəriyyə. Bu nəzəriyyə sistem, orqan və qurumlar haqqında olan nəzəriyyələri özündə birləşdirir və bu 2 nəzəriyyə arasındakı ziddiyyətli fikirləri tədqiq edir.

İctimai kapital haqqında 4 əsas nəzəriyyə

Siyasi sahəyə aid təkliflər və ya siyasi kurs	İşi icra edənlər	Nəzəriyyənin adı
Kasıb təbəqədən təşkil olunmuş kiçik qruplar	Yerli ictimai qruplar, könüllü surətdə təşkil olunmuş qurumlar	1) Məhəlli xarakterli ictimai nəzəriyyə (məhəlli əncümənlər)

* Məqalə f.d., dos. R. Məmmədova və f.d., dos. H. Cavadova tərəfindən çapa məsləhət bilinib.

Mərkəzləşmənin olmaması, iştirak etmə və həyata keçirilən işlər üçün məhdudiyyətlərin qoyulması, ictimai həyatın müxtəlif sahələri arasında əlaqələrin yaradılması	Məlumatların bir-birinə ötürülməsi əsasında yaradılan iş birliyi	2) Şəbəkə xarakterli nəzəriyyə (əsaslı və əsassız əlaqələr)
Mədəni, siyasi azadlığın və açıq-aşkar fəaliyyət göstərmənin, öz mövqeyini müdafiə etmək imkanının yaradılmasına təminat verilməsi	Ümumi və xüsusi bölmələr	3) Müəssisə xarakterli nəzəriyyə (siyasi və hüquqi müəssisələr)
Müştərək istehsal, mükəmməl qarşılıqlı iş birliyi, birliklər, məhəlli qurumların miqyasının genişlənməsi	Yerli ictimai qruplar, mədəni cəmiyyət, şirkətlər, dövlətlər	4) Birləşmiş ctimai şəbəkə xarakterli nəzəriyyə (dövlət və cəmiyyət arasındakı əlaqə)

İctimai kapital haqqında söylənən fikirləri və əvvəlki dövrlərə aid tədqiqatları nəzərdən keçirdikdən sonra ictimai kapital barəsində deyilən tərifləri də nəzərdən keçirib, hər ikisini bir-biri ilə müqayisə etməyi münasib bildik. Aşağıda təqdim olunan cədvəllər bu məqsədlə tərtib edilmişdir.

Cədvəl 1. İctimai kapital haqqında olan tərif lər, tərif lərin müəllif ləri olan mütəfəkkirlər, hər tərifin istiqaməti.

İctimai kapital haqqında olan tərif	Tərifin müəllifi	Tərifin meyarı (daxili, xarici)
"İllik istehsalın, başqa sözlə ictimai kapitalın ümumi dəyərləndirilməsi: İctimai kapitalın dəyərlər sistemində inqilab olduqda, güman etmək olar ki, kapitalistin fərdi sərmayəsi də bu şəraitə uyğunlaşa bilmədiyi üçün süqut etdi". (İzahat: Marksın ictimai kapitalın istifadə üsulu haqqında olan nəzəriyyəsi müasir dövrün nəzəriyyələrindən təmamilə fərqlənsə də bu mövzuda ilk tədqiqat işi aparan şəxs o olduğu üçün bunu nəzərinizə təqdim etməyi münasib bildik.)	Karl Marks. Kapital. I cild, 1986, səh. 105	Daxili
Mən ictimai kapital anlayışından digər mənbələrdə qeyd olunan anlamda deyil, bir növ məcazi mənada istifadə etmişəm. Bu ifadədə bir növ mülkiyyət, var-dövlət, pul kimi toxunula bilən əşyalar nəzərdə tutulmur, əksinə gündəlik həyatda rast gəlinən insani dəyərlər nəzərdə tutulur. Buraya ictimai birliyin göstəricisi olan fərdlərdən ibarət qrup və ailələrin bir-birinə qarşı duyduğu xeyirxaqlıq, qayğıkeşlik hissləri daxildir. Hər hansı bir təşkilat formasında yaradılmış ictimai birliyin fəaliyyət göstərməsi və inkişaf etməsi üçün lazımi kapitala sahib olmaq lazımdır.	Hanifan, 1916	Daxili

İctimai kapital əvəzolunmazdır. Belə ki, kapital hər hansı bir işin nəticəsində əldən getdikdə, ondan əldə olunan nəticə də məhv olur və heç vaxt geri qayıtmır. Çünki yeni kapital ya ləng şəkildə toplanır, ya da çox nadir hallarda yenidən belə fürsət əldə edilir.	J-Jacobs, 1961	Daxili
İctimai kapital kasıbçılığın qarşısını almaq və başqalarına yardım etmək məqsədilə mərhəmət hissi üzərində qurulmuş dost və ya tanış insanların birliyidir.	Hannerz, 1969	Xarici
Luri kapitalist cəmiyyəti haqqında olan bir neçə illik müşahidələri tədqiq edərək belə nəticəyə gəlmişdir ki, ictimai kapital insanların bir-birinə kömək etmək məqsədilə yaratdığı birliyə deyilir. Onun məşhur cümləsi belədir: "Heç kəs inkişafa gedən yolda tənha səyahət etmir".	Loury, 1977	Xarici
Şübhəsiz ki, hər bir iqtisadi sistemi tərtib edən zaman fərdlərin hətta icrası vacib olmayan qayda-qanunlara riayət etməsi mühüm şərtlərdən birini təşkil edir. Bu isə sərf olunan vəsaitlərə nəzarət edilməsinə, iqtisadi sərvətin çoxalmasına səbəb olur. Bu birlik öz-özlüyündə ictimai kapital yaradır. O Van Veizsakerin nəzəriyyəsinə əsaslanaraq, "təşkilati kapital" və "əxlaqi kapital" anlayışlarının da adını çəkir.	Schiht, 1984	Xarici
Bizim fikrimizcə, ictimai kapital mövzusu ancaq yuxarı təbəqəyə mənsub olan fərdlər arasında formalaşır və bu sistemdə yüksək təhsil almış və ya buna bənzər üstün məziyyətlərə malik olan səhmdar şirkətlərin müdirləri müəyyən nəticə əldə edir.	Useem & Karabel,1986	Xarici
İctimai kapital ictimai öhdəçilik, vəzifə və məsuliyyət nöqteyi-nəzərindən (ictimai birliklər) təşkil olunur ki, bu da xüsusi şəraitin təsiri altında iqtisadi kapitala çevrilərək, ictimai səviyyəyə uyğun yüksək rütbə və məqama (kübar və əsilzadə nəslindən olanlar) sahib ola bilər.	Bourdicu, 1986, səh.243	xarici/ daxili
İctimai kapital potensial və həqiqi qüvvə əsasında bir-birini az tanıyan fərdlərin iştirakı ilə formalaşmış səbatsız sistemdir. Onlar qanunların qəbul edilməsi və təqdim olunmasında əlaqəli şəkildə iştirak edirlər.	Bourdicu, 1986, səh.248	Xarici
İctimai kapital elə bir sərvətdir ki, xüsusi ictimai mövqeyə malik olan insanlar onu əldə edir və sonra da öz mənafelərinə uyğun şəkildə ondan istifadə edirlər.	Baker, 1990, səh. 619	Xarici
İctimai kapital özündə müxtəlif mövzuları ehtiva edir və 2 müştərək xüsusiyyətə malikdir: ictimai quruluşa və həmçinin ictimai quruluşun tərkib hissəsini formalaşdıran fərdlərdən təşkil olunur.	Coleman, 1990, səh.302	Xarici
İctimai kapital çoxlu sayda fərddən təşkil olunmuş elə bir sistemdir ki, o bu fərdlərə himayədarlıq edir və onlar bu sistemin mənbələrindən istifadə edirlər.	Boxman, De Graai & Flap, 1991, səh.53	Xarici
İctimai kapital fərdlərin və ya qrupların möhkəm əlaqə sisteminə malik olmaq məqsədilə potensial və həqiqi qüvvəsini birləşdirərməklə təşkil etdiyi ittifaqdır.	Bourdicu & Wacquant, 1992, səh.19	xarici/ daxili
İctimai kapital dostluq, həmkarlıq və ümumi əlaqələr zəminində təşəkkül tapır və hər bir fərd bu vasitə ilə əmtəə və insan kapitalından istifadə edə bilir.	Burt, 1992, səh. 9	Xarici
İctimai kapital fərdlər arasında təbii yolla qurulan əlaqədir və bu fərdlər sahib olduqları dəyərli məharətlərini kömək məqsədilə səfərbər edirlər. Buna görə də ictimai kapital həm cəmiyyətdə bərabərliyi hifz edən əmtəə mirası xarakterlidir, həm də əhəmiyyətli mövqeyə malikdir.	Loury, 1992, səh.100	xarici/ daxili

İctimai kapital ictimai quruluşun elə bir növüdür ki, insanlar arasındakı əlaqələrə təsir göstərərək istehsalla və ondan alınan mənfəətlə əlaqədar o bütün faktların və sənədlərin əsasını qoyur.	Schiff, 1992, səh.160	xarici/daxili
İctimai kapital daxilən elə bir quruluşdur ki, insanlar burada müəyyən bir məqsədə çatmaq ümidi ilə birləşirlər və hətta bəzən müəyyən hədəfə çatmaq naminə qarşıya qoyulmuş məqsədlər iqtisadi arenada hələ müzakirə edilmədən icra edilir.	Portes – Sensenbernner, 1993, səh. 1323	Daxili
İctimai kapital ictimai quruluşun elə bir xüsusiyyətidir ki, qarşılıqlı uyğunluq və etimad əsasında formalaşır və müştərək mənafeyə nail olmaq üçün o həmkarlıq edən fərdlərin birliyinə çevrilir.	Putnam, 1995, səh. 67	Daxili
İctimai kapital fərdlərin müəyyən məqsədə çatmaq üçün bilik və bacarıqlarını səfərbər etməklə qrup və təşkilat şəklində formalaşan birliyidir.	Fukuyama, 1995, səh. 10	Daxili
İctimai kapital seçilmiş fərdlərdən təşkil olunmuş sistemdir.	Belliueau, o:Reilly, Wade, 1996, səh.1572	Xarici
İctimai kapital mədəni cəmiyyətin mənsub olduğu elə imkan, fürsət və vasitədir ki, bütünlükdə cəmiyyətin inkişafına yardım edir.	Thomas, 1996, səh. 11	Daxili
İctimai kapital elə qarşılıqlı etimad və iltifat mədəniyyətidir ki, onun zəminində tələb olunan sayda birliklər formalaşır.	Inglehart, 1997, səh. 188	Daxili
İctimai kapital anlayışının sadə tərifini versək, deyə bilərik ki, bu elə bir ittifaqdır ki, o qarşılıqlı yardım və məqsədlərin həyata keçirilməsi üçün qeyri-rəsmi şəkildə formalaşır. Bu burliyin üzvləri müştərək hədəfə çatmaq uğrunda fəaliyyət göstərir və onların arasında məcazi mənada həmkarlıq yaranır.	Fukuyama, 1997	Daxili
İctimai kapital qarşılıqlı ictimai əlaqələrin elə bir növüdür ki, o fərdlərin davranışına təsir göstərir və bu yolla da iqtisadi inkişafa səbəb olur.	Pennar, 1997, səh.154	xarici/daxili
İctimai kapital vətəndaşların ümumi problemlərinin həll olunması məqsədilə yaratdıqları həmkarlıq əlaqəsidir.	Brehan & Rahn, 1997, səh. 999	Daxili
İctimai kapital sistemli imkanlar birliyidir.	Burt, 1997, səh. 355	Daxili
İctimai kapital özündə fərdlərin və ya bütövlükdə cəmiyyətin qarşılıqlı əlaqəsinin məhsulu olan potensial və həqiqi qüvvələri sistemli şəkildə müəyyənləşdirir və bu qüvvələri şəbəkələr vasitəsilə səfərbər edir.	Nahapiet & Ghoshal, 1998, səh.243	xarici/daxili
İctimai kapital iş adamlarının ictimai sistem və ya digər ictimai quruluşlarda öz mənafeləri uğrunda bacarıqlarını göstərmək məqsədilə yaratdıqları birlikdir.	Ports, 1998, səh. 6	Xarici
İctimai kapital hər fərdin 2 tərəfli uyğunluğu, etimadı, məlumatlılığı zəminində formalaşır.	Wookock, 1998, səh. 153	xarici/daxili
İctimai kapital bir qrup iş adamının digər qrup iş adamının əldə etdiyi mənbələrdən istifadə etmək imkanına nail olmaq üçün yaratdıqları sistemli birlikdir.	Knoke, 1999,səh. 18	Daxili
İctimai kapital insanların birlikdə fəaliyyət göstərən və qarşılıqlı yardım etmək məqsədilə yaratdıqları birlikdir. Burada nəyi bildiyin yox, kimi tanıdığın vacibdir.	Woolcock & Narayan, 2000, səh.225	Daxili

İctimai kapital təbii kapitalla eyni mənanı kəsb edir. Burjua iqtisadçıları kapitalın daxili faktorları və ya alqı-satqı vasitəsilə kapitalın artırılması və kapital vasitəsilə aradan götürmə və ya əksinə kapitala əlavə etmə məsələlərinin izahı zamanı bu sözdən istifadə etmişlər.	MIA, 2001, səh. 149	xarici/daxili
İctimai kapital elə bir əlaqədir ki, müasir dövrdə ABŞ-da və Avropada bu məfhumun ifadə etdiyi məna və nəticələri haqqında bir sıra kitabların yazılmasına baxmayaraq, geniş planda müzakirə obyektinə çevrilib. ABŞ mütəfəkkirlərinin fikrincə, ictimai kapital yerli ictimai məqsədlərə nail olmaq yerli rəhbərlərin iştirakı ilə formalaşır və mədəni cəmiyyətin sahib olduğu dəyərlərə və idarə üsuluna əsaslanır. Avropalı mütəfəkkirlər isə belə hesab edirlər ki, ictimai kapital ailədaxili əlaqələrdən ibarətdir və hüquq, məsuliyyət kimi faktorlardan xəbərsizdirlər.	Vicente Navarro, 2002, səh. 423	xarici/daxili
İqtisadçılar cəmiyyətin yaratdığı birliyi ictimai kapital adlandırılar.	Joseph Stiglit, 2002, səh. 161	Daxili
Ümumi fikrə əsasən, ictimai kapital elə dəyərlər və qaydalar sistemidir ki, buradakı insanlar qarşılıqlı anlaşma əsasında ictimai qruplar, birliklər yaradırlar.	Rosalind Edwards, 2004, səh. 81	Daxili
İctimai kapital fərdlərin ictimai quruluşun tərkibində ittifaqlar şəklində birləşərək mövcud faydalı bilgilərə, fürsətlərə,\ istinad edərək həyata keçirdikləri iş hesabına formalaşır.	Chay yue wha & et al, 2005, səh.1	Daxili
İctimai kapital ictimai quruluşla əlaqədar bir mövzudur və müəyyən hədəfə çatmaq məqsədilə istifadə oluna biləcək potensial qüvvə hesab oluna bilər.	Murielle Mignot, 2005, səh. 1	xarici/daxili

İctimai kapital quruluşca mürəkkəb struktura malik olsa da təqdim etdiyimiz tədqiqat işində bu mövzuya aydınlıq gətirməyə çalışmışıq.

Yuxarıdakı cədvəldə ictimai kapital haqqında 37 tərif yer almışdır. Lakin bunlardan ancaq Karl Marksa məxsus olan tərifin mövzu ilə birbaşa əlaqəsi yoxdur. Digər tərifdə ən mühüm məsələlər müzakirə obyektinə çevrilmişdir və ictimai kapital anlayışının ifadə etdiyi mənanı əhatə edir. (45; səh. 25)

2.2. Müasir nəzəriyyələr

Talkott Parsons ictimaiyyəti cəmiyyətdə qayda-qanunun bərqərar olmasında böyük rola malik olan 4 əsas ünsürdən biri olduğunu hesab edir. İctimaiyyət özündə fərdlərin qrup şəklində birləşməsi üçün önəmli əhəmiyyət kəsb edən inkişaf və tərəqqi uğrunda çalışmaq, sədaqət, məsuliyyətlilik hisslərini özündə birləşdirir. Dövlət quruluşu, mədəniyyətin səviyyəsi, etimad, birlik və sarsılmaz ictimai quruluş, ictimai nizam-intizama xas olan xüsusiyyətlərdir. Yerli kiçik ictimai birliklər mövcud olan cəmiyyətlərdə xüsusiyyətçilik, qarşılıqlı simpatiya, birlik, tərəfkeşlik və müasir cəmiyyətlərdə mövcud strukturun əksinə olan ümumilik, qayda-qanunlara tam riayət etmə kimi hisslər mövcuddur.

Habermasın fikrincə, ictimai kapital dünya miqyasında "ictimai sfera"-da ümumi insan qruplaşmaları arasında mövcud olan qarşılıqlı anlaşma, uyğunluq, birgə iş birliyi kimi xüsusiyyətləri özündə birləşdirir. Bu birliyə daxil olan ictimai sahədə fəaliyyət göstərən birliklər sistemin quruluşuna uyğun tərzdə hər növ danışıqlarda iştirak edərək birgə məqsədlər uğrunda fəaliyyət göstərirlər və yaşayış prinsiplərinə uyğun tərzdə qərarlar qəbul edirlər. Ümumi sahələr və birgə fəaliyyət sahələri ictimai kapitalın əsas amilləri və göstəriciləridir.

Antoni Qiyonez belə hesab edir ki, ictimai kapital ümumi birliklər, öhdəliklər və ictimai etimad kimi ünsürləri özündə birləşdirir. Müasir cəmiyyətdə qrupdaxili qayda-qanunlar və məhdudiyyətlər geniş formada təşəkkül tapmışdır (5 ; s. 201).

2.4 Əvvəlki dövrlərə aid tədqiqat işləri.

Son illərdə ictimai kapitalın meyarının təyin edilməsi mövzusu bu istiqamətdə aparılmış tədqiqatların əhəmiyyətini müəyyən etdikdən sonra uyğun və lazımi məlumat toplamaq məqsədilə bu mövzu ilə əlaqədar beynəlxalq təşkilatların, ölkələrin və tədqiqat işləri ilə məşğul olan mütəxəssislərin müxtəlif səviyyədə ictimai kapitalın meyarının təyin edilməsi və qiymətləndirilməsi məsələsinə aydınlıq gətirəcəyik.Son dövrlərdə adı çəkilən mövzu ilə əlaqədar çoxlu sayda məlumatlar nəşr olunmuşdur ki, həmin məlumatları 3 səviyyədə təhlil etmək olar: beynəlxalq, milli, daxili.

Açar sözlər: ictimai kapital, insan kapitalı, ictimai asayiş, yerli sosial nəzəriyyələr, nəzəriyyələr sistemi, sosial mühit, qarşılıqlı anlaşma, həyat səviyyəsi.

İstifadə olunmuş ədəbiyyat

1. Tudaro Maykl. Üçüncü dünyada iqtisadi inkişaf, Qulaməli Fərcadinin tərcüməsi, I cild. Proqram və büdcə təşkilatı nəşriyyatı, Tehran, 1987.
2. Cavan Cəfər. İran əhalisinin coğrafiyası, Məşhəd Universitet tədqiqatı nəşriyyatı, I nəşr, 2001.
3. Hüseynzadə Delir Kərim. Təbrizin şəhər civarında məskunlaşan əhalisinin tədqiqi layihəsi, Təbriz Universitetinın şəhər tədqiqatı müəssisəsi, 1982.
4. Şokuyi Hüseyn. Şəhərin coğrafiyası. Tövhid nəşriyyatı, II nəşr, Tehran, 1993.
5. Şeyxi Məhəmmədtağı. İqtisadi və ictimai cəmiyyətşünaslıq, II nəşr, Tehran, 2001.
6. Şarepur M. Sosial kapitalın parametrləri, fəaliyyəti və onun erroziyasının nəticələri. İran ictimai məsələlər kitabında nəşr olunmuşdur (Toplu), s.291-326. Tehran, 1 çap, 1997, Agəh nəşriyyatı.
7. Sosial kapitalın insan kapitalını yaratmaqda rolu. Sosial, etimad, demokratiya və inkişaf. Kiyan Tacbəxş. A.Xakbazın və H.Payanın tərcüməsi, Tehran, 1çap, Şiraze nəşriyyatı, 2005. s.41-91.
8. Kolmen J. Sosial nəzəriyyələrin əsasları. M.Səburinin tərcüməsi, Tehran, 1 çap, 1998.
9. Purtes, Alhazru. Sosial kapital, onun müasir sosiologiyada yeri və tətbiqi. s.303-349, 2005.
10. Firuzabadi S. İranda sosial kapitalın araşdırılması layihəsi və onun yüksəlməsi yolları. Ali İnqilab mədəniyyəti şurasının kitabxanası, 2005, Tehran.

Camed ШAXNEXAD

К ПОНЯТИЮ СОЦИАЛЬНОГО КАПИТАЛА

Pezöme

B poslednee vremə vse çahe obrahaötsə k probleme soüialğnoqo kapitala, v çastnosti k eqo gkonomiçeskomu, politiçeskomu i soüialğnomu aspektam. Bmeste s tem v tolkovanii dannoqo ponətiə, imeötsə rasxojdeniə, na çto i obrahaet vnimanie avtor nastoəhey statği.

Coüialğnıy kapital predpolaqaet qarmoniö vo vzaimootnoşeniəx mejdu çelovekom i obhestvom, a takje oboqahenie znaniy i umeniə kak otdelğnım individom, tak i soüialğnımi qruppami v üelom. 3desğ vajno nalajivanie kaçestvennıx svəzey mejdu soüialğnımi subcektami.

Klöçevıe slova: soüialğnıy kapital, çeloveçeskiy kapital, obhestvennıy porədok, mestnaə soüialğnaə teoriə, sistemnaə teoriə, soüialğnaə sfera, vzaimoponimanie, jiznennıy urovenğ.

Samed SHAHNEHAD

TO CONCEPT OF THE SOCIAL CAPITAL

Summary

Recently they address to the problem of the social capital, in particular, to its economic, political and social aspects even more often. At the same time there are divergences in interpretation of the given concept, to which the attention is paid in the present article. The social capital assumes harmony in mutual relations between a person and a society, increasing knowledge and abilities, both by the separate individual and social groups as a whole. Here adjustment of qualitative communications between social subjects is important.

Key words: social capital, human capital, social order, local social theory, system theory, social sphere, reciprocal comprehension, life standard.

UOT 316.4

Hafiz Əli MOXTARİ
BDU-nun aspirantı

TƏLİM-TƏRBİYƏDƏ İMKANLAR BƏRABƏRSİZLİYİ*

Təlim-tərbiyənin kütləvi mexanizmlərindən biri, müasir cəmiyyətdə bərabər inkişaf şəraitinin yaradılması yaratmaq və sinfi fərqləri azaltmaqdır. Bununla belə təlim-tərbiyənin ümumiləşməsi və təhsilin cəmiyyətin aşağı təbəqələrini də əhatə etməsi vətəndaşlar içərisində bərabərliyi artıra bilməyib və hətta sənaye baxımdan inkişaf etmiş cəmiyyətlərdə də bərabərliyi və ədaləti genişləndirbilməmişdir. Əksinə, məktəb daha çox "siniflərin yenidən yaranma" rolunu ifa etmişdir. Başqa sözlə, yeni təlim-tərbiyə qarşısına qoyduğu məqsədi, yəni sinfi fərqləri azltmağa və ədalərtsizliyə son qoymağa, həmçinin demokratiyanı bərqərar etməyə nail olmamışdır.

Təlimdəki bərabərsizliklərin təsnifatı

Təlim üzrə mütəxəssislərin dediklərinə görə, uzun illərdir ki, təlim-tərbiyə nəinki mövcud ayrıseçkilikləri aradan qaldırmaqda qüsurlu və aciz olmuşdur, eyni zamanda gücləndirməkdə böyük rol oynamışdır. Daha doğrusu bir çox ölkələrdə müxtəlif dərəcələrdə bərabərsizliyi ləğv etməyə yardım edən quruluş indi özü ixtilaf və fərqlərlə doludur. Yeni anlayışda fərqlər aşağıdakı üç qrupda təsnif olunmuşdur:

a) Ölkə daxilində coğrafi bərabərsizlik.

b) Kişi-qadın arasında (cinsi) bərabərsizlik.

c) İqtisadi və ictimai bərabərsizlik.

Qeyd etmək lazımdır ki, yuxarıda qeyd edilənlərin hər birisi barədə mübahisə edəndə onların amili ola biləcək ortaq səbəblərdən və ənənəvi təhlildən uzaq olmaq üçün qanunauyğun proses də nəzərdə tutulmuşdur.

Təlim içində bərabərsizlikləri əmələ gətirən amillər:

1. Yoxsulluğ yaradan amillər.

Şəhər-kənd, iki hakim təlim sisteminin mövcudluğu xüsusilə də zəif inkişaf etmiş ölkələrdə, kəndli gənclərin çox böyük əksəriyyətini təlimdən, hətta tam şəkildə ibtidai məhrum edir. Orta və ali təhsilə gəldikdə, isə qeyd etmək lazımdır ki, dövlətlərin və beynəlxalq müəssisələrin hesabatlarla əsasən, məktəbə getməyənlər və ibtidai təhsildən məhrum olmuş uşaqlar, ümumiyyətlə kənd yerlərində və şəhərətrafı gecəqondularda yaşayan kasıb ailələrin uşaqlarıdır. Bu uşaqlar yoxsulluq şəbəkəsinə mövqe tuturlar ki, orada isə təlim mənbələrinin az olması, xəstəliklər, çirklənmiş içməli su, aclıq, ölüm səviyyəsinin yüksək olması, özünü və ailəsini himayə etmək üçün uşaq yaşlarından işləməyə məcbur olması kimi acınacaqlı hallar mövcuddur.

2. Şagirdlərin dərsdəki inkişafı haqda tədqiqatlar

1966-cı ildə İranda tədqiqatlardan belə nəticə çıxartdı ki, məktəbin şagirdin dərslərdəki inkişafına heç bir müsbət təsiri yoxdur və yalnız dərsin inkişafı ilə sabit və davamlı rabitəni göstərən yeganə parametr uşaqların ictimai təbəqələridir. Başqa sözlə, cəmiyyətin yuxarı və orta təbəqələrinə mənsub olan uşaqlar kasıb təbəqələrin uşaqlarından daha yaxşı və uğurlu olurlar. Bu tədqiqatda təlim sistemin daxilində olan amma şübhəsiz ailələrin fərqli ictimai-iqtisadi şəraitindən irəli gələn bərabərsizliklər aşkar olmadı. (1)

Bu bərabərsizlikləri aşağıdakı kimi şərh etmək olar:

---

* Məqalə fəlsəfə doktoru, dosent Q.Abbasova tərəfindən çapa məsləhət bilinib.

3. Məktəbin növündən irəli gələn fərqlər.

1. Hər bir şagirdin təlim keyfiyyəti, müəllimlərin səviyyəsindən, məktəbdə kitabxananın və s. Olması ilə bağlıdır.

2. Hər məktəbin özünəməxsus mədəniyyəti olur ki, bu da ailə mədəniyyətinə oxşar olsa da, başqaları üçün yeni mədəniyyət hesab edilir və şagirdlər üçün təhsil əvvəlkilərə müqayisədə daha çətin olur.(1)

3. Az təminatlı valideyn və uşaqların təhsil almağa meyil etməmələri:

Kütlə təlim-tərbiyəsinə maneələrindən biri, hətta məktəb onların yaşadıqları yerdə olsa da belə, aztəminatlı valideyn və uşaqların bu xidmətdən imtina etməsidir. Bərabər təlimat yolunda olan maneələrin bir başqası, keçmişdə diqqət mərkəzində olan bu acı həqiqətdir ki, təlim sisteminin hamısında indiki proses daha çox o uşaqlara aiddir ki, onların valideynləri uşaqlarının təhsilinə yüksək dəyər verirlər.

4.Təhsildə geriləmə

O cəmiyyətlərdə ki, bəzilərinin gəlirləri ehtiyaclarından artıqdır və yaxud əksinədir, rifah səviyyəsi yaxşı və rifah səviyyəsi pis olan ictimai siniflərə bölünürlər.Belə cəmiyyətlərdə rifah səviyyəsi pis olan ailələrə aid olan uşaqlarla, rifah səviyyəsi yaxşı olan ailələrə aid uşaqların mədəniyyət sahəsində və dil nöqsanları zəminində kəskin fərqlənməsi meydana çıxır. Bu fərqlər uşaqlarda təhsil sahəsində geriləməyə, bir sözlə, təhsildə uğursuzluqlara zəmin yaradır. Təhsildə geriqalma nəinki şagirdlərin bu gününə və gələcəyinə ziyan yetirir, iqtisadi-ictimai ziyanlara da səbəb olur.

Mədəniyyət, dil və müəyyən qədər zəka amili, icbari təhsilin möhkəmlən-dirilməsindən sonra, təhsildə alt qurum kimi diqqətə layiqdir.

5. Varlıların təhsil xərcləri və onların kasıblar tərəfindən ödənilməsi

Maliyyə və vergi baxımdan kasıblar, varlıların xərclərini ödəyirlər. Məktəblərdə şagirdlərin sayının artması, həmçinin təlim-tərbiyə büdcəsinin çoxalması əslində hamı üçün bərabər imkan yaratmaq və hamının təhsilində bərabər nəticələr əldə etmək məqsədim əslində elə olur ki, varlıların xərcləri kasıbların cibindən təmin edilir.

Belə ki, bəzi ölkələrdə rifahı yaxşı olan ictimai qruplar kasıb qruplara nisbətdə, 4 qat artıq təlim-tərbiyə sistemindən bəhrələnirlər. Halbuki, bu sistemin budcəsinin 80%-i kasıb qrupların vasitəli vergisi hesabına təmin edilir.

Bir başqa tədqiqat onu göstərir ki, özəl məktəblərin və kolleclərin xərclərinin 70%-i varlı təbəqənin uşaqlarına aiddir ki, dövlətin yardımı və vergi güzəştləri hesabına təmin edilir. (3).

6. İctimai siniflərin yenidən qurulması

1. Bordionun nəzəriyyəsinə görə, mədəniyyətlər arasında əlaqə, bir növ mənfi fəsadları olan mədəniyyətin qəbulunu aparır. Zəif mədəniyyətə malik şagirdlər birincisi öz mədəniyyətlərini kənara atmalıdırlar ki, yeni, rəsmi mədəniyyəti mənim-səsinlər. (O cümlədən, ailədə öyrəndiyi və danışdığı dil və ləhcəni). Özünü şişirtmək nadir hallarda baş verir, halbuki burjuaziya dili (şəhərin şimal zonası və ya rifah səviyyəsi yaxşı olan təbəqə) özünü ziyalı kimi aparmağa meyl göstərir ki, bu da məktəb dilinin xüsusiyyətlərindəndir. Bordionun fikrinə görə, məktəb mədəniyyətinin mənimsənilməsi simvollaşdırılmış zorakılıq formulu olur. Belə ki, kasıb təbəqənin uşaqları sanki bir xarıci dili öyrənməlidirlər. Yəni öz mədəniyyətindən uzaqlaşma prosesi, yerli mədəniyyəti atmaq və simvollaşmış məktəb mədəniyyətini qəbul etməlidirlər. Belə olmayan halda məktəbdən qovulurlar.

7. Universitet, təhsil dərəcələri və onların mahiyyəti ilə bərabərsizliklərin şiddətlənməsi.

Bir tərəfdən inkişaf etmiş ölkələrin məktəb və universitetlərindəki təlim-tərbiyənin mahiyyəti hakim ictimai təbəqənin mənbə və dəyərlərinin inikasıdır. Başqa tərəfdən,

universitet elmi dərəcələri, dissertasiyalar və təhsildən əldə edilən nailiyyətlər təşkilatlanmış iqtisadiyyatda məşğulluğa aparan qapıların açarı hesab edilir. Buradan gözlənilən gəlirlə təhsil pilləsi arasında əlaqə və rabitəni nəzərdə tutmaq olar.

Bu təhsili başa çatdıranların əksəriyyəti cəmiyyətin rifah səviyyəsi yaxşı olan ailələrə aiddir. Çünki, əsasən təhsili tərk edənlər kasıb ailənin uşaqlarıdır.

8. Tale. Ali təhsildən bəhrələnmək və münasib iş.

Latın Amerikası ölkələrinin çoxunda, orta məktəb güclü ictimai ədalətsizliklərin inkişafına zəmin yaradır ki, bunun nəticəsi universitetlərdə görünür. Valideynlərinin maliyyə imkanları ən yaxşı özəl orta məktəblərdə oxumağa imkan verən istedadlı uşaqlar, həmçinin təhsil ilə maraqlanan gənclər, təqribən əmin olurlar ki, Amerika və Avropa universitet və kollecləri ilə eyni səviyyədə olan yaxşı universitetlərə daxil olacaqlar. O uşaqlar ki, bu sahədə daha az imkanları var, ictimai cəhətdən daha az keyfiyyətə malik dövlətin orta təhsilli məktəblərinə daxil olurlar. Beləliklə, onların etibarlı universitetlərə qəbul olmaq imkanları azalır. Bu Latın Amerikası variantı Asiya və Afrika ölkələrinin çoxunda icra edilir.

Yuxarıda qeyd olunanların heç biri bu mənanı daşıyır ki, bir tərəfdən təhsil üçün maraq və zehni qabiliyyət, digər tərəfdən valideynin təhsili, ictimai və iqtisadi mövqeyi arasında sabit, davamlı və həmişəlik bağlılıq var.

Kasıb ailələrdən də elə uşaqlar olmuşdur ki, məktəbə getməklə mühüm dövlət vəzifəsinə çatmışlar.Hər halda bu uğurlar da belə qaydalı durumlarda istisna hallar kimi nəzərə alınır.

9. Ali təhsil imkanlarından istifadədə cinsi bərabərsizlik

Kişi-qadın arasında kəskin bərabərsizlik mövcud olduğu yerlərdə ali təhsil səviyyəsində daha da çoxdur. Ali təhsil səviyyəsindəki bərabərsizlik, mənşəcə orta təhsildəki bərabərsizlikləbağlıdır. İbtidai təhsil pilləsindəki bərabərsizlikdə orta təhsil pilləsindəki bərabərsizliyin əsasını təşkil edir. Beləliklə ibtidai və orta təhsil pilləsindəki kişi-qadın arasındakı bərabərsizlik, inkişaf etməkdə olan ölkələrdə sürətlə azalmasa, ali təhsil pilləsində mövcud olan bərabərsizlik istəristəməz genişlənməkdə davam edəcəkdir.

10. Ali təhsil ixtisaslarında cinsi bərabərsizlik.

Ali təhsil ixtisaslarında qadınlara qarşı ayrıseçkilik, həmçinin iş bazarının müxtəlif peşələrində,o cümlədən universitetlərin tədris işində ayrıseçkilik, keçmişdəki cinsi zəmində olan amillərdən qaynaqlanır.

11. Kənd məktəbləri və şagirdlərində təlim sahəsində yoxsulluq

Kasıb ölkələrin çoxunda (həmçinin bəzi sənayeləşmiş ölkələrdə) təlim sahəsində kənd məktəblərinin şəraiti keyfiyyət baxımdan və şagirdlərin kəmiyyət baxımdan görüntüsü təhsildəki tənəzzülün göstəricilərindən də pisdir. Çünki, bu statistik rəqəmlər özləri keyfiyyətdə çatışmayan cəhətləri böyük miqyasda örtbasdır edir. İnkişafda olan müxtəlif ölkələrin eyni müşahidələri və araşdırmaları sübut etmişdir ki, şəhərdən uzaq olan məntəqələrin məktəblərində dərslik, kitab və kifayət qədər təlim üçün ləvazimat yoxdur və bu məktəblərin ibtidai sinif müəllimlərinin böyük hissəsi, təlim görməmişlər və səviyyələri aşağıdır.(5)

Nəticə:

1. İdeallarla reallıqlar arasında mövcud olan fərqlərə baxmayaraq, dünyanın hər yerində çox insanlar dövlətin intizamlı və fikirli səyləri nəticəsində onların imkanlarından xarıc olan təlimatı kəsb etməyə müvəffəq olmuşlar və yaxşı peşələr əldə etmişlər. Bunlara rəğmən, cəmiyyətlərə ümumən baxanda, coxlu ədalətsizliklər görünür ki, təhsil sahəsindəki məhdudiyyət barədə nigarançılıqları aradan qaldırmır. Hərçənd, təlim tərbiyə işi çoxsahəli ictimai inkişafın proqramının zəruri hissəsidir, amma təklikdə bir ölkənin əhalisinin həyat strukturunda mövcud olan bərabərsizliklərini aradan qaldıra bilməz. İctimai inkişaf istiqamətində hər növ çalışmalar, ictimai, iqtisadi və siyasi islahatlara, təhsil sahəsinin inkişafı yolu ilə ciddi formada izlənilməli, yaxud ən azı müşayət olunmalıdır. Belə olmayan halda,

kütlənin həyatında mövcud olan geriqalmalar təhsil sisteminə də sirayət edərək təhsil piramidasının üst hissəsi, müəyyən seçilmiş zümrələr üçün ümid yerə çevrilir.

2. Məktəb sistemin inkişafında bir sıra mənfi fəsadlar aşkara çıxmışdır. O cümlədən təhsilin keyfiyyətinin aşınması, hədərə getmənin yüksək olması, işlək olmaması, dərs proqramında uyğunsuzluq, diqqətin daha çox universitetlərə yönəldilməsi və nəticədə kəndlərdə ibtidai təhsil pilləsinə etinasızlıq müşahidə edilmişdir. Başqa tərəfdən bəziləri təkidlə israr edirlər ki, məktəb sisteminin geniş miqyasda yayılmasına rəğmən, sosial ədalətsizlik sabit qalmışdır və Emil Durkheyamın "ictimai təkrar istehsal» nəzəriyyəsinin təhsil sistemində işlənilməsi vasitəsilə, yaxud həmin məqsədlərin istiqamətini saxlamaqla formanı dəyişdirməkdədir. Başqa sözlə təlim –tərbiyə daha çox demokratiya və ictimai hərəkətin məhsulu olmaq əvəzinə, sosial ədalətsizliyi qoruyub, hətta şiddətləndirmişdir.

3. İnkişafda olan ölkələrin təhsil sistemləri Qərb kapitalizmi modellərindən örnək götürmüşdür və ictimai inkişaf üçün vasitə hesab edilmir. Bu sistemlərdə itaəti, tabe olmağı istehsalda yüksək bəhrə vermək üçün istismar olmuş uşaq kütlələrinə öyrətməklə əslində hakim təbəqələri öz güclərini qorumaq üçün potensial imkanlarla təchiz edir. İnkişaf halında olan ölkələrdə məktəblərin istismarçı rolu yalnız idxalat sisteminə aid deyildi, bəlkə sənayeləşmiş kapitalist ölkələrin təhsil sistemlərində, hansı ki, bu idxalatın mənşəyidirlər, təhsil sistemi eyni rola malikdir.

4. Qeyd etmək lazımdır ki, hər cəmiyyətdə, müxtəlif rəsmi məqsədlərin və ideologiyaların mövcudluğuna baxmayaraq, təhsildəki bərabərsizlik daha da çətinləşib. Tarixdən hətta qanlı inqilablar da uzun illərin keçməsindən sonra da bu bərabərsizliyi aradan qaldıra bilməmişdir. Qədim məsəl var ki, "bilən güclü olar" ; Bu cümlənin mühüm nəticəsi bu olmuşdur ki, güclü insanların uşaqları rahatcasına bütün elmi və onun nəticəsində gələcək gücü mənimsəmişlər. Bəlkə, insan təbiəti barədə bu sözü bəziləri inkar edir, insanların ümumiyyətlə baxışları və dəyərləri mühütlə əlaqədə formalaşır. Amma şübhəsiz ictimai və iqtisadi bərabərsizliklər yüksək miqdarda cəmiyyətin çoxunun müxtəlif mədəni, ictimai, siyasi və təhsili şöbələrində nəzərə çarpır və başqa cinsi, coğrafi və sair bərabərsizliklərin də kökü yüksək dərəcədə bu bərabərsizliklərdən irəli gəlir. İndiyə qədər dünyada heç bir millət, heç bir ideologiya ilə öz təhsil sistemlərində bu bərabərsizlikləri aradan qaldmağa müvəffəq ola bilməmişlər.

Açar sözlər: təlim, tərbiyə, yoxsulluq, təhsil sistemi, islahat aparır.

İstifadə olunmuş ədəbiyyat

1. Kolmən. «Təlim-tərbiyə məsələləri tədqiqatı» fəsilnaməsi, İran təlim-tərbiyə cəmiyyəti nəşriyyatı, Yenı dövr, nömrə 3, 1974, səh.20.

2. Əsgəriyan, Müstəfa, Təlim-tərbiyyənin sosiologiyası, Tuş nəşriyyatı, Tehran, birinci çap, 1987. səh:137-138.

3. Yunesko, Gələcək təlim-tərbiyyə inkişafı barədə fikir. Tərcümə edən Məhəmmədəli Əmiri, ikinci cild. Təhsil nazirliyinə bağlı təlim-tərbiyə bu iş yerləri əldə etmək üçün tədqiqat nəşriyyatı. Tehran, 1990, səh.97-98.

4. H. Kombez, Fillip, Dünya təlim-tərbiyə böhranı və 80-cı onillikdə onun durumu. Tərcümə edən, Fəridə Aliaqa. Elmlər, tədqiqat və texnologiya nazirliyi ilə bağlı humanitar elmlər və mədəni tədqiqatı nəşriyyatı, Tehran, birinci çap, 1994, səh.311.

5. Məhəmmədi, Məhəmmədəli, Dehqan, Hüseyn, Təlim-tərbiyə və yeni dialoqlar.Təhsil nazirliyinə bağlı, təlim-tərbiyyət araşdırma nəşriyyatı. Tehran, birinci çap, 2004, səh.109-110.

6. Maşini, Fəridə, Təlim-tərbiyədə islahat mühəndisliyinin milli seminarın məqalələr toplusu. İkinci cild.Təhsil nazirliyinə bağlı təlim-tərbiyə araşdırmalar nəşriyyatı. Tehran. Birinci çap. 2004, səh.197.

Хафізалі МУХТАРИ

НЕРАВЕНСТВО ВОЗМОЖНОСТЕЙ В ПРОЦЕССЕ ОБУЧЕНІЯ І ВОСПІТАНІЯ

Резюме

В статье выдвігается ідея о неравенстве возможностей в полученіі полноценного образованія даже в высокоразвітых странах, не говоря уже о развівающіхся. Среді прічін называюся высокіе темпы научно-техніческого прогресса, регіональные і національные особенності, связанные с уровнем жізні, соціально-політіческой структурой, обычаямі і традіціямі. Большую роль в формірованіі неравенства возможностей іграют субъектівные факторы, связанные с качественнымі показателямі школьных коллектівов как ученіков, так і педагогов (пол, возраст, соціальное положеніе, профессіональные навыкі і т.д.).

Ключевые слова: обученіе, воспітаніе, бедность, сістема образованія, реформа.

Hafezali MOKHTARI

INEQUALITY OF OPPORTUNITIES DURING TRAINING AND EDUCATION

Summary

In article the idea about an inequality of opportunities in reception of highgrade education even in the advanced countries, let alone developing is put forward. Among the reasons high rates of scientific and technical progress, the regional and national features connected to a standard of living, sociopolitical structure, refer to is customs and traditions. The big role in formation of an inequality of opportunities the subcective factors connected to quality indicators of school collectives as pupils and teachers (play a floor, age, a social status, professional skills, etc.).

Keywords: education, upbringing, poverty, system of education, reform.

PSİXOLOGİYA BÖLMƏSİ

UOT 316.6

İlham MİRZƏYEV
AMEA FSHİ-nin b.e .i.,
psixologiya üzrə fəlsəfə doktoru

DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİNİN BAŞ VERMƏSİ SƏBƏBLƏRİNİN TARİXİ RETROSPEKTİVDƏ HÜQUQİ-PSIXOLOJİ TƏHLİLİ*

Respublikaya qarşı aşkar təcavüzün nəticələrinin beynəlxalq səviyyədə qanuniləşdirilməsinə və oyuncaq rejimin "dövlət" kimi tanınmasına nail ola, bilməyən qəsbkarlığa "xalqın öz müqəddəratını təyin etməsi" formasını verməyə qadir olmayan, müstəqil Azərbaycan Respublikasının keçmiş Azərbaycan SSR-in sərhədlərinin dünya praktikasında qəbul edilmiş *uti possidetis juris* prinsipi əsasında hüquqi varisliyinin dünyanın bütün ölkələri, aparıcı beynəlxalq təşkilatları və ən nüfuzlu alimlər tərəfindən dəfələrlə təsdiq olunması ilə qarşılaşan erməni siyasətbazları məğlubiyyətə uğradıqlarına və beynəlxalq hüquq normalarına riayət etməyə məcbur olduqlarına görə, danışıqların uzadılması və mövcud status *quo post bellum* vəziyyətinin dondurulması yolunu seçmişlər. Bu, ötən il Yerevanın Ermənistan-Azərbaycan münaqişəsinin nizamlanması üzrə çərçivə sazişinin çoxdan razılaşdırılmış bəndlərinə bilərəkdən yenidən qayıtmasında, yeni ildə isə xarici müdaxilənin və zorakı separatizmin vəkillərinin işğalın daha da möhkəmləndirilməsi və münaqişənin beynəlxalq hüquq çərçivəsində həlli əvəzinə dondurulması lüzumuna dair dəfələrlə darmadağın edilmiş dəlillərlə dolu "təzə" məqalələrinin mətbuatda görünməsi ilə ifadə olunmuşdur.

Dünya birliyi xarici müdaxiləni, zorakı separatizmi, etnik təmizləmələri, dövlətlər tərəfindən qəbul edilmiş sərhədlərin birtərəfli qaydada dəyişdirilməsini, ağır hərbi cinayətlər və bəşəriyyətə qarşı cinayətləri törədilməsi praktikasını məqbul hesab etmədiyi və pislədiyi bir vaxtda erməni siyasi və ekspert elitası Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazisinin bir hissəsini indiyədək işğal altında saxlamaq üçün ümidsiz cəhdlər göstərməkdə davam edir. Ermənistanın danışıqlarda məqsədi beynəlxalq ictimaiyyət tərəfindən tanınmış *a prioriyə*, başqa sözlə, Azərbaycanın ərazi bütövlüyünün və özünün bütün ərazisində suverenliyinin bərpasına yol verməməkdir. Məsələn, Dağlıq Qarabağ regionunun Azərbaycana diplomatik yolla qaytarılmasının uğursuzluğuna dair mümkün ssenarini nəzərdən keçirən müəllif özündən dırnaqarası "bu elə belədir" sözlərini əlavə edir və bununla da faktik olaraq özünü və saxta sülhsevərliyini ifşa edir, başqa bir ssenari irəli sürür, daha doğrusu, qarşı tərəfi elə həmin məqsədə digər müstəvidə nail olmağa təhrik edir.

Azərbaycanın ərazi bütövlüyünün və Dağlıq Qarabağ regionu üzərində suverenliyinin beynəlxalq hüquq çərçivəsində tam bərpası mütləqdir. Məhz buna görə də Azərbaycan danışıqlarda fəal iştirakını davam etdirir, diplomatların və həmsədirlərin rəyinə görə, ötən il bu istiqamətdə çoxdan gözlənilən müsbət meyllər və dinamika müşahidə olunmuşdur. Diplomatik səylərin tam uğurlu olması üçün isə hələlik bir cəhət çatışmır ki, o da Ermənistan rəhbərliyinin konstruktiv mövqeyinin olmamasıdır. Yeri gəlmişkən, bunu təkcə Azərbaycan diplomatları deyil, həm də şəxsi söhbətlərdə vasitəçilər də qeyd edirlər. İndi bizə təkcə erməni cəmiyyətinin, nəhayət, mövcud reallıqları dərk edən, "miatsum" ideyasının mənasızlığını başa düşən, öz qonşuları ilə sivil münasibətlərə əsaslanan dövlət siyasəti yeridən liderin ortaya çıxmasını gözləmək qalır. Helsinki aktı çərçivəsində xalqların öz müqəddəratını təyin etməsi və ərazi bütövlüyü prinsipinin uyğunlaşdırılmasını nəzərdə tutan Madrid prinsipləri məhz belə münasibətlər üçün yol açır.

Dağlıq Qarabağ regionu 1920-ci ilin aprel ayında sovet hakimiyyəti qurulanadək Azərbaycanın tərkibində idi və SSRİ dağılandan sonra da dünya ictimaiyyəti tərəfindən Azərbaycan Respublikasının tərkib hissəsi kimi tanınmışdır. Sovet hakimiyyətinə qədər "Dağlıq Qarabağ" termini, ümumiyyətlə, yox idi. Yalnız Qarabağ var idi və hətta 1828-ci ildə imzalanmış Türkmənçay müqaviləsinin şərtlərinə görə, İran ermənilərinin Cənubi Qafqaza köçürülməsindən və təqribən sonrakı 90 il ərzində 1,3 milyon erməninin Rusiyanın Cənubi Qafqazda yeni yaradılmış quberniyalarına mühacirətindən sonra da burada

* Məqalə fəl.e.d. S.Hüseynov tərəfindən çapa məsləhət bilinib.

azərbaycanlılardan ibarət əhali əksəriyyət təşkil edirdi. Bir vaxtlar vahid Qarabağ xanlığı Rusiyaya birləşdirildikdən sonra bu regionun dağlıq hissəsində demoqrafiq dəyişikliklər başlandı və həmin rayonlarda ermənilərin sayı 1917-ci ildə qismən çoxaldı.

Qarabağın dağlıq hissəsinin ayrıca şərti inzibati ərazi vahidi kimi ayrılması Qarabağın Azərbaycanın tərkibində saxlanılması, onun yuxarı hissəsində erməni əhalisi üçün muxtariyyət yaradılması qərarının qəbul olunduğu ildə baş vermişdir. Ümumiyyətlə Qarabağda ermənilər heç vaxt əksəriyyət təşkil etməmişlər. Buna görə də erməni tərəfinin sovet hakimiyyətinin ilk illərində guya "Qarabağda əhalinin 90 faizini ermənilərin təşkil etməsi" haqqında iddia irəli sürməsi ya statistikaya bələd olmamaqdan irəli gəlir, ya da onu bilərəkdən təhrif etmək məqsədi daşıyır.

Dünyada dövlətlərarası ərazi münaqişələrinin (buna Ermənistan-Azərbaycan münaqişəsi də aiddir) həllinin elmi-tarixi deyil, beynəlxalq-hüquqi müstəvidə axtarılması ilə əlaqədar tam razılığa nail olunsa da, bu, erməni tarixşünaslığına regionun tarixini təhrif etməyə heç bir əsas vermir. 313-cü ildə xristianlıq Qafqaz Albaniyasının dövlət dini elan edilmişdir, lakin şərq əyalətlərində əhali ənənəvi dinə inanclarını saxlayırdılar. Qafqaz Albaniyasının Arsax-Orxisten kimi tanınan, lakin heç də ucqar qərb əyaləti olmayan dağlıq ərazisində hind-Avropa mənsubiyyətli olmayan qarqarlar, utilər, hunlar, xəzərlər, basillər yaşayırdılar. Ərəblərin VIII əsrdə istilası nəticəsində Azərbaycanda İslam dini əsas din kimi qəbul edildi, albanların böyük əksəriyyəti islamlaşdı və oğuzların təsiri ilə türk dilinə keçdi ki, bu da müasir Azərbaycan xalqının formalaşmasının əsasını qoydu, Arsax albanları öz dinlərini, bir neçə əsr ərzində isə öz alban oxşarlıqların qoruyub saxladılar. Erməni istorioqrafiyasının daha çox siyasiləşmiş hissəsi bir müddət, ümumiyyətlə, erkən orta əsrlərdə Qafqaz Albaniyasının mövcud olduğunu inkar edirdi. lakin onlar təkzibolunmaz sübutlar qarşısında qalaraq hiyləyə əl atdılar – dövləti şərqə "köçürdülər" və onun qərb sərhədini Kür çayına qədər "müəyyənləşdirdilər". Yeri gəlmişkən, Arsaxın və həmçinin Sünikin Qafqaz Albaniyasının tərkibinə daxil olması faktı siyasi təsirlərə məruz qalmayan erməni alimləri (məsələn, prof. Ronald Suni, İosif Orbeli bunu qətiyyətlə, XIX əsr yazıçısı Raffi isə dolayı yolla etiraf edirlər) tərəfindən etiraf edilmişdir. Bizans imperiyasının təsiri ilə Cənubi Qafqazda alban kilsəsi diofizitizm ehkamlarını qəbul edirdi. Bizansın təsirinin qarşısını almaq məqsədi ilə xilafət qərara əsasən alban kilsəsini monofizit erməni kilsəsinə tabe etdirdi. Halbuki Alban kilsəsi, həqiqətdə 1836-cı ildə Rusiya hakimiyyəti tərəfindən ləğv olunana qədər müstəqil təsisat kimi fəaliyyət göstərmişdir. XI-XIV əsrlərdə Arsax Səcidilər, Salarilər, Şəddadilər, Atabəylər, Cəlairilər oğuz (Azərbaycan) dövlətlərinin tərkibinə daxil idi və Qarabağ adlanırdı.

XV əsrdə Qarabağ daha iki oğuz (Azərbaycan) dövlətinin (Qaraqoyunlu, sonra isə Ağqoyunlu) tərkibinə daxil olmuşdur. Həsən Cəlalın nəsli Qaraqoyunlu hökmdarı Cahanşahdan "məlik" titulu almış, sonralar bu nəslin siyasi hakimiyyət dövrü başa çatmış və onlar öz xalqının mənəvi liderləri, Alban aftokefal apostol kilsəsi ləğv edilənə qədər onun patriarx-katalikosu olmuşlar. Alban knyazları ermənilərin "işxan", "ter" və digər titullarından fərqli olaraq, "məlik" titulu daşıyırdılar. Qarabağ məliklərinin heç birinin soyadı erməni nəsillərinə aid deyildir, alban köklərinə malikdir. XVI əsrdən başlayaraq, Qarabağ Səfəvilər dövlətinin tərkibinə daxil olmuşdur. XVI-XIX əsrlərdə isə vilayətə Qacarlar oğuz nəslindən olan Ziyadoğlu hakimlik etmişdir. XVIII əsrin ortalarında Azərbaycanın ərazisində xanlıqlar meydana gəldi. Qarabağ və İrəvan xanlıqları da belə yarandı. Qarabağ xanlığında müsəlman türklər (azərbaycanlılar) və xristian albanlar yaşayırdılar. Xristian albanlar üçün qonşu erməni kilsəsinin güclü təsiri altında özünəməxsusluğu onlara tam oxşarlığı qoruyub saxlamaq çətinləşirdi. Rusiyanın rəsmi mənbələrinin məlumatına görə, 1810-cu ildə Qarabağ xanlığında 9500 müsəlman-türk (azərbaycanlı) və cəmi 2500 "erməni" yaşayırdı. Onların sırasında erməni dilini qəbul etmiş albanlar və bu diyarda tədricən məskunlaşan ermənilər (haylar)da var idi (1, 38-39) Gürcüstan çarı II İrakli 1769-cu ildə öz məlumatında məhz onlardan bəhs edirdi. Əslində məlikliklərin uydurma "erməni" əhalisi xristian-monofizit albanlardan ibarət idi, onları monofizit etiqadlarına görə səhvən erməni adlandırırdılar. V.Veliçko bununla əlaqədar yazırdı: "Qarabağın (Albaniya və ya Aqvaniya) erməni-qriqorian etiqadına malik, lakin dağ və türk tayfalarından əmələ gələn, səhvən erməni adlandırılan sakinləri istisna təşkil edirlər (2, 154). Erməni müəllifi B.İşxanyanın yazdığına görə, "Dağlıq Qarabağda yaşayan ermənilərin bir hissəsi qədim albanların nəslindən olan yerli əhalidir (...), digər hissəsi isə Türkiyədən və İrandan gələn qaçqınlardır. Azərbaycan torpaqları onlar üçün təqiblərdən və zülmlərdən qurtulmaq üçün sığınacaq olmuşdur (3, s. 73-74).

1823-cü ilin məlumatlarından bəlli olur ki, Qarabağ xanlığında bir Şuşa şəhəri və 600-ə yaxın kənd (onlardan 450-si türk kəndi və 150-yə yaxını isə indi artıq "erməni" kəndləri adlanan alban kəndləri idi) vardı, burada 90 minə yaxın əhali yaşayırdı, o cümlədən Şuşa şəhərində təqribən 1048 Azərbaycan ailəsi və 474 erməni ailəsi, kəndlərdə isə müvafiq olaraq 12902 və 4331 ailə vardı. 1805-ci il mayın 14-də Kürək çayı yaxınlığında Azərbaycan xanı İbrahim Xəlil ilə Rusiya imperatorunun nümayəndəsi, general

Sisiyanov Qarabağ xanlığının Rusiyanın hakimiyyəti altına keçməsi barədə müqavilə imzaladılar. Həmin sənəd Qarabağın tarixən Azərbaycana məxsus olmasının tutarlı sübutudur. Müqavilənin 2-ci maddəsinə uyğun olaraq, Rusiya çarı Şuşanın və Qarabağın xanı İbrahim xanın "bu torpaqlarının bütövlüyünün və hüquqlarının qorunacağına özünün imperator zəmanətini vermişdir"(4) Araz çayının şimalındakı Azərbaycan xanlıqlarının Rusiyaya birləşdirilməsindən sonra ermənilərin İrandan, sonra isə Osmanlı imperiyasından Rusiyanın yeni ərazilərinə, xüsusən də keçmiş Qarabağ, Naxçıvan və İrəvan xanlıqlarına mütəşəkkil surətdə köçürülməsinə başlandı. Nəhayət, Qarabağın və Zəngəzurun Azərbaycan Xalq Cümhuriyyətinin tərkibinə daxil olduğu dövr barədə ölkəmizin BMT-dəki daimi nümayəndəsinin BMT-nin baş katibinə məktubunda bütün istinad mənbələri göstərilməklə təsvir edilmişdir (5).

Qarabağın Azərbaycanın tərkibinə guya yalnız SSRİ dövründə və SSRİ sayəsində daxil edilməsi barədə ermənilərin iddiası tarixi gerçəklikdən uzaqlaşmaq deməkdir. Digər tərəfdən, Ermənistan-Azərbaycan münaqişəsi elmi-tarixi müstəvidə deyil, beynəlxalq-hüquqi müstəvidə həll edilir. Tədqiqatçı T.Musayevin haqlı olaraq bildirdiyi kimi, "Dağlıq Qarabağ Respublikasının müstəqilliyi haqqında referendumun nəticələrinə dair aktın" altında soyadları yazılan həmin müşahidəçilərin (cəmi 23 nəfər) siyahısına baxanda məlum olur ki, onların hamısı keçmiş SSRİ respublikalarındandır (əsasən, Rusiyadan). İttifaq dövləti hələ öz fəaliyyətini dayandırmadığı halda müşahidəçilərin hansı əsasda beynəlxalq müşahidəçilər hesab edilməsinə dair suala yəqin ki, yalnız bu dəlilləri gətirən müəlliflər – Ermənistanın rəsmi şəxsləri cavab verə bilərlər (6, s.7).

Lakin məsələ bu kiçik "uyğunsuzluqlarda" da deyildir. Son bir neçə ildə keçmiş DQMV-nin yerində "respublika" yaradılmasının və onun müstəqilliyinin elan olunmasının "hüquqi qüsursuzluğu" barədə tezislər tez-tez eşidilir. Maraqlı haldır ki, 1990-cı il aprelin 3-də qəbul edilmiş "Müttəfiq respublikanın SSRİ-dən çıxması ilə əlaqədar məsələlərin həlli qaydası haqqında" SSRİ Qanunu hüquqi baza qismində götürülür. Bu məsələnin dəqiq və ittifaq qanunu nəzərə alınmaqla öyrənilməsi göstərir ki, həm "DQR"in elan olunması, həm də hüquqi nəticələr verməyən bədnam "müstəqillik haqqında referendum" qeyri-qanunidir. Belə ki, bu addımların təşəbbüskarlarının özləri dəfələrlə ilk növbədə SSRİ Qanununu pozmuşlar.

SSRİ-nin mövcudluğunun son il yarım ərzində baş verən hadisələrin xronologiyasını xatırladaq. Bu məsələnin təhlilində bunun çox böyük əhəmiyyəti vardır.

1990-cı il:

Aprelin 3-ü. "Müttəfiq respublikanın SSRİ-dən çıxması ilə əlaqədar məsələlərin həlli qaydası haqqında" SSRİ Qanununun qəbul edilməsi.

1991-ci il:

Martın 17-si. SSRİ-nin taleyi ilə əlaqədar referendum. Azərbaycan SSR-in vətəndaşları SSRİ-nin qorunub saxlanılmasına və respublikanın onun tərkibində qalmasına səs vermişlər. Ermənistan SSR ümumittifaq referendumunu boykot etmişdir.

Avqustun 30-u. Azərbaycan SSR Ali Soveti tərəfindən "Azərbaycan Respublikasının dövlət müstəqilliyinin elan olunması haqqında" Bəyannamənin qəbul edilməsi.

Sentyabrın 2-si. Azərbaycan SSR DQMV-də qondarma "Dağlıq Qarabağ Respublikası"nın elan edilməsi.

Sentyabrın 6-7-si. SSRİ Xalq Deputatlarının növbədənkənar qurultayı.

Oktyabrın 18-i. Azərbaycan Respublikasının Ali Soveti tərəfindən "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktının qəbul edilməsi.

Noyabrın 26-sı. Azərbaycan SSR Ali Soveti tərəfindən DQMV-nin ləğv edilməsi.

Dekabrın 10-u. Keçmiş DQMV ərazisində "DQR-nin müstəqilliyi məsələsinə dair referendum"un keçirilməsi.

Dekabrın 26-sı. SSRİ-nin süqutu və bütün ittifaq qanunlarının qüvvədən düşməsi.

Göründüyü kimi, SSRİ Qanunu 1990-cı il aprelin 3-dən 1991-ci il dekabrın 26-dək ittifaq dövlətlərinin bütün ərazilərində qüvvədə olmuşdur. Müttəfiq respublikaların və muxtar qurumların qanunazidd olaraq SSRİ tərkibindən çıxması və yaxud öz statusunu dəyişməsi ilə əlaqədar hərəkətləri heç bir hüquqi qüvvəyə malik deyildi və onlar etibarsız sayılırdı. Bunlar "Müttəfiq respublikanın SSRİ-nin tərkibindən çıxması ilə əlaqədar məsələlərin həlli qaydası haqqında" SSRİ Qanununun qüvvəyə minməsi haqqında" SSRİ Ali Sovetinin 1990-cı il 3 aprel tarixli Qərarında ətraflı göstərilmişdir. Həmin Qərarın 2-ci bəndinə uyğun olaraq "…müttəfiq respublikanın SSRİ-nin tərkibindən çıxması haqqındakı məsələnin qoyuluşu ilə əlaqədar olan və "Müttəfiq respublikanın SSRİ tərkibindən çıxması ilə əlaqədar məsələlərin həlli qaydası haqqında" SSRİ Qanununa zidd olan, istər bu qanun qüvvəyə minənə qədər, istərsə də onun

qüvvəyə minməsindən sonra görülmüş hər hansı bir tədbir istər SSR İttifaqı üçün, istərsə eləcə də müttəfiq respublikalar üçün heç bir hüquqi nəticə doğurmur".

Avqustun 30-da "Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpa olunması haqqında" Bəyannamənin qəbul edilməsi, 3 gün sonra DQMV-də "Dağlıq Qarabağ Respublikasının" elan edilməsi və müstəqillik haqqında referendumun dekabrın 10-na təyin olunması mövcud ittifaq qanunvericiliyinə əsaslanmayan, qiyamdan sonrakı günlərdə emosiyalar və eyforiya dalğasında atılan addımlar idi. Bəyannamənin qəbul edilməsi SSRİ Qanununa zidd idi və heç bir hüquqi qüvvəyə malik deyildi. Həmçinin DQMV-nin gələcək statusunu müstəqil surətdə müəyyənləşdirilməsi prosedurunun başlanması üçün hüquqi əsas ola bilməzdi.

T.Musayev haqlı olaraq yazır: "… əgər 1990-cı il 3 aprel tarixli Qanunun hər bir bəndinə və mahiyyətinə riayət etsək onda adı çəkilən Bəyannamənin qəbul olunması DQMV üçün özünün dövlət-hüquqi statusu haqqında məsələnin qanuna uyğun surətdə qaldırılması üçün hüquqi əsas yaratmır" (8, s.46).

Bundan əlavə, Bəyannamənin qəbul olunması Azərbaycanın dövlət müstəqilliyinin son hüquqi sənədi deyildi və yalnız uzun sürən prosesə yol açırdı, ittifaq qanunvericiliyinə görə, bu proses ümumrespublika səsverməsinin keçirilməsi ilə nəticələnməli idi. Məlum olduğu kimi, 1991-ci il martın 17-də keçirilmiş referendum zamanı, yəni 1990-cı il Qanunu qüvvəyə mindikdən sonra Azərbaycan SSR-in vətəndaşları respublikanın SSRİ tərkibində qalmasına səs vermişlər. SSRİ Qanununun 10-cu maddəsinə uyğun olaraq, ittifaqdan çıxma barədə məsələ üzrə yeni referendum əvvəlki referendumun keçirildiyi vaxtdan 10 il, yəni 2001-ci il martın 17-dən tez olmayaraq keçirilə bilərdi. Yenə də əgər Qanunun hər bəndinə və ruhuna əsasən, mart (1991) referendumundan sonra növbəti 10 il ərzində və yaxud SSRİ Qanunu qüvvədən düşənədək Azərbaycan ittifaq dövlətinin tərkibindən çıxması barədə məsələ qaldıra bilməzdi və avqustun 30-da qəbul olunmuş Bəyannamənin hüquqi əsası olmazdı, ilk növbədə isə Dağlıq Qarabağ Muxtar Vilayətinin özünün gələcək statusu barədə məsələni müstəqil müəyyənləşdirilməsi üçün hüquqi yol aça bilməzdi.

Azərbaycan Respublikasının Ali Soveti noyabrın 26-da öz muxtariyyətindən dəfələrlə sui-istifadə edərək, respublika və ittifaq qanunvericiliyini pozaraq DQMV-ni milli ərazi vahidi kimi ləğv etmişdi. Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin "Dağlıq Qarabağ Muxtar Vilayətinin yaradılması haqqında" 1923-cü il 7 iyul tarixli Dekretinin və Azərbaycan SSRİ-nin "Dağlıq Qarabağ Muxtar Vilayəti haqqında" 1981-ci il 16 iyun tarixli Qanunu da qüvvədən düşmüş hesab edildi. SSRİ-nin mövcudluğunun son dəqiqəsinə qədər Dağlıq Qarabağ sovet qanunvericiliyinə uyğun olaraq, Bakıda və Xankəndində qəbul olunmuş bəyannamələrdən, müstəqillik haqqında bəyanatlardan və dekabrın 10-da keçirilmiş, etibarsız sayılan referendumdan asılı olmayaraq Azərbaycanın tərkib hissəsi kimi qalmaqda davam edirdi.

T.Musayevin digər məqaləsində belə bir fakt diqqəti cəlb edir ki, "Dağlıq Qarabağ respublikasının" elan edilməsi "Müttəfiq respublikanın SSRİ-dən çıxması ilə əlaqədar məsələlərin həlli qaydası haqqında" 1990-cı il 3 aprel tarixli SSRİ Qanununa əsaslanırdı. Lakin əgər erməni tərəfinin məntiqinə riayət olunsa və Ermənistan SSR-in ilə Dağlıq Qarabağın 1989-cu il dekabrın 1-də birləşməsi ilə razılaşsaq, onda 1991-ci il sentyabrın 2-də "DQR"ın elan olunması və həmin ərazidə referendumun keçirilməsi nəticələrinə görə, Dağlıq Qarabağ artıq Ermənistandan ayrılmış hesab edilə bilər. Erməni tərəfinin boş dəlilləri açıq-aşkar şübhə doğurmur. Əks halda rəsmi Yerevan etiraf etməlidir ki, Ermənistan tərəfinin 1991-ci il 2 sentyabr tarixinə qədər etdiyi hərəkətlər qeyri-qanuni idi və həmin tarixə qədər Dağlıq Qarabağ Azərbaycan Respublikasının bir hissəsi kimi qalmaqda davam edirdi"(9, s.76).

Bununla yanaşı bir sıra başqa maraqlı faktlar da diqqəti cəlb edir. Ləğv edilmiş DQMV ərazisində referendum hələ SSRİ-nin "mövcudluğu", ittifaq qanunlarının hələ qüvvədə olduğu vaxtda keçirilmişdisə, deməli bu səsvermənin nəticələri də etibarsız sayılmalı idi ki, SSRİ Qanununun digər maddələri ilə yanaşı, həmin qanunun 6-cı maddəsi də pozulmuşdur. Həmin maddədə müttəfiq respublikaların ali sovetləri və muxtariyyətlərin xalq deputatları sovetləri referendumun nəticələrini birlikdə nəzərdən keçirməli və yekun sənədi SSRİ Ali Sovetinə təqdim etməlidir. Ləğv edilmiş DQMV-də özünü qeyri-qanuni şəkildə müstəqil elan edən "DQR"-də heç olmasa forma olaraq və Qanunun maddələrinə riayət edərək, səsvermənin nəticələrini Qanunun tələb etdiyi kimi, Azərbaycan parlamentinə təqdim etməyi, nəticələrin birgə müzakirəsini (heç olmasa telekörpü vasitəsilə) lazım bilməmişlər. Bunun özü Dağlıq Qarabağın Azərbaycandan ayrılmasına dair özbaşına qəbul edilmiş qərarın etibarsız olduğunu bir daha sübuta yetirir. Referendumun təşəbbüsçüləri Qanunun 3-cü maddəsinin tələb etdiyi kimi, Azərbaycan icmasının yığcam yaşadığı yerlərdə (azərbaycanlıların əksəriyyət təşkil etdiyi Şuşa rayonunda) ayrıca səsvermə təşkil olunmamışdır. Aydındır ki, keçmiş DQMV-də yaşayan azərbaycanlılar qeyri-qanuni keçirilən referendumun əleyhinə çıxmışlar. Lakin təşkilatçılar tərəfindən Qanunun maddələrinə heç olmasa texniki

cəhətdən riayət olunması görüntüsü verən formal cəhd belə göstərilməmişdir. Həmçinin əlavə edək ki, hətta azərbaycanlıların hamısı həmin referendumda iştirak etsəydilər belə, bu səsvermənin heç bir hüquqi nəticələri olmayacaqdı.

SSRİ Qanununun daha bir pozuntusu səsvermənin keçirilməsi tarixi ilə bağlıdır. 2-ci maddəyə uyğun olaraq referendum müttəfiq respublikanın SSRİ-dən çıxması barədə məsələ qaldırılmasına dair qərar qəbul edilməsindən 6 ay tez və 9 ay gec keçirilə bilməzdi. Hətta Azərbaycan Respublikası Ali Sovetinin 30 avqust tarixli Bəyannaməsinin respublikanın SSRİ-dən çıxmasına dair məsələni (yuxarıda qeyd edildiyi kimi, baxmayaraq ki, 10-cu maddəyə uyğun olaraq Azərbaycan növbəti 10 ildə prinsip etibarilə belə məsələ qaldıra bilməzdi) qanuni hesab etsəydi belə, respublikanın bütün ərazisində və yaxud onun ərazisinin bir hissəsində səsvermə yalnız 1992-ci ilin mart-may aylarında keçirilə bilərdi. Səsvermənin dekabrın 10-da keçirilməsi ittifaq qanununun növbəti dəfə pozulması deməkdir ki, bu da hansı hüquqi qüvvədən məhrum edir.

Açar sözlər: tarixi retrospektiv, hüquqi psixoloji təhlil, münaqişə.

İstifadə olunmuş ədəbiyyat

1. Qafqaz arxeoqrafiya komissiyasının topladığı sənədlər. Qafqaz canişini baş idarəsinin arxivi. IV c. Komissiyanın sədri dos. A.D.Berjenin redaktəsi ilə nəşr edilmişdir. Sənəd № 37. Tiflis: Qafqaz canişini baş idarəsinin mətbəəsi, 1870.

2. Veliçko V. *Qafqaz.* Rus işi və tayfalararası məsələlər. Bakı, Elm, 1990.

3. Əliyev İ. Dağlıq Qarabağ: Tarix. Faktlar. Hadisələr. Bakı, Elm, 1989.

4. Qarabağ xanı və Rusiya imperiyası arasında Xanlığın Rusiya hakimiyyəti altına keçməsi barədə Müqavilə. 14 may 1805-ci il. http: //azeri.ru/az/karabakh/412/).

5. Azərbaycanın Birləşmiş Millətlər Təşkilatındakı daimi nümayəndəsinin baş katibə 2009-cu il 30 sentyabr tarixli məktubu, səh.5-11.
http://www.usazeris.org/integrity/Letter_A-64-475_Rus.pdf

6. Musayev T. Dağlıq Qarabağ münaqişəsi: hüquqi xarakterli bəzi əsas elementlərin təhlili. http://vugar-seidov.blogspot.com/2010/01/1991.html;

7. Məmmədov İ., Musayev T. Ermənistan-Azərbaycan münaqişəsi: tarix, hüquq, vasitəçilik, ikinci nəşr Bakı, 2008.
http://www.usazeris.org/integrity/kniga.pdf

8.Musayev T. Ermənistanın Azərbaycana ərazi iddiaları nümunəsində münaqişələrin nizamlanmasının hüquqi çərçivələr. Azərbaycan Respublikası XIN-in "Diplomatiya aləmi" jurnalı, №1, 2002, http://www.karabakh-doc.azerall.info/ru/law/law041.htm.

9. Musayev T. Dağlıq Qarabağ münaqişəsi: hüquqi xarakterli bəzi əsas elementlərin təhlili. "İrs" jurnalı, 2006.

Ilğxam MIRZOEV

PSIXOLOQIÇESKI-ПRAVOVOY ANALIZ PRIÇIN PROISXOJDENIƏ HAQORNO-KARABAXSKOQO KONFLIKTA V ISTORIÇESKOY RETROSPEKTIVE

Pezöme

Зaplanirovannoe izqnanie v konüe 1987 qoda okolo 250 tısəç azerbaydjanüev, projivavşix v Armənskoy CCP, poslujilo tolçkom k sovremennomu gtapu arməno-azerbaydjanskoqo konflikta. 20 fevralə 1988 qoda na sessii Oblastnoqo Coveta Haqorno-Karabaxskoy Avtonomnoy oblasti armənskie deputatı prinəli reşenie "Ob obrahenii k Berxovnım Covetam Azerbaydjanskoy CCP i Armənskoy CCP o peredaçe HKAO iz sostava Azerbaydjanskoy CCP v sostav Armənskoy CCP".1 dekabrə 1989 q. bılo prinəto postanovlenie Berxovnoqo Coveta Armənskoy CCP "O soedinenii vnovğ Armənskoy CCP i Haqornoqo Karabaxa", kotoroe do six por ne otmeneno.

Дeystviə armənskix predstaviteley Oblastnoqo Coveta HKAO i Armənskoy CCP əvləlisğ odnoznaçnım i qrubım naruşeniem vsex pravovıx norm, oni ne sootvetstvovali ni Konstituüii CCCP,

deystvuöhey vo vremə ix prinətiə, ni kakim-libo mejdunarodnım kanonam. Əti reşeniə doljnı bıtğ oüenenı tolğko kak popıtki armənskoy storonı öridiçeski pridatğ aqressii ofiüialğnıy xarakter.

B otvet na gtot protivozakonnıy postupok Azerbaydjanskaə Pespublika, polğzuəsğ svoimi suverennımi pravami, 26 noəbrə 1991 qoda vpolne obosnovanno prinəla zakon "Ob uprazdnenii Haqorno-Karabaxskoy Avtonomnoy oblasti Azerbaydjanskoy Pespubliki".

Klöçevıe slova: istoriçeskaə retrospektiva, psixoloqiçeskiy pravovoy analiz, konflikt.

İlham MIRZOYEV

THE LEGAL-PSYCHOLOGICAL ANALYSIS OF THE REASONS OF AN ORIGIN OF THE NAGORNO-KARABAKH CONFLICT IN A HISTORICAL RETROSPECTIVE

Summary

The planned exile in the end of 1987 of about 250 thousand of the Azerbaijani remained in the Armenian Soviet Socialist Republic, gave an impetus to the present stage of the Armenian-Azerbaijan conflict. On February 20, 1988 at session of the regional Soviet Council of the Nagorno-Karabakh Autonomous region the Armenian deputies made the decision "On the appeal to the Supreme Soviets of the Azerbaijan Soviet Socialist Republic and the Armenian Soviet Socialist Republic about transfer of NKAO from structure of the Azerbaijan Soviet Socialist Republic to the structure of the Armenian Soviet Socialist Republic" and on December, 1 1989 not yet cancelled decision of the Supreme Soviet of the Armenian Soviet Socialist Republic "About connection Again of Armenian Soviet Socialist Republic and Nagorno-Karabah" was accepted.

These actions of the Armenian representatives of the regional Soviet Council of NKAO and the Armenian Soviet Socialist Republic were unequivocal and rough infringement of all legal frameworks, and they didn't correspond both to the Constitutions of the USSR which existed during their acceptance and any international norms. These decisions should be estimated only as the attempts of the Armenian party to officialize aggression from the legal point of view. In reply to this illegal act, on November 26, 1991 the Azerbaijan Republic, using its sovereign rights, passed the well-grounded law "About abolition of the Nagorno-Karabakh Autonomous region of the Azerbaijan Republic".

Keywords: historical retrospective, legal-psychological analysis, conflict.

UOT 159.9.316.6

Jalə PƏŞMFRUŞ
BDU-nun aspirantı

NARKOMANLIĞA QAYIDIŞIN SƏBƏBLƏRİ VƏ ONUN QARŞISINI ALMA YOLLARI*

Narkoman şəxs fiziki cəhətdən zəif və aciz bir varlıq olmaqla, psixi cəhətdən isə fantaziya aləmində yaşayan, həyatın gerçəklikləri və ətrafında baş verən həqiqətlərdən tam uzaq və onlara ögey olan iradəsiz və laqeyd bir insandır. Belə şəxslər narkotik maddədən uzaqlaşdırmaq istəsələr, çox həssas şəxsiyətə malik olduqlarına görə, kimsə, yəni ailə, dostlar və s. tərəfindən onların istəyinə qarşı çıxarlarsa və onun inciməsinə səbəb olan kiçik bir hərəkət belə edilərsə, ondan uzaqlaşmaq və problemlərə qarşı çıxmağın ən düzgün yolunu narkomanlığa qayıdıb narkotik maddələri almağa görəcək, belə bir səhv təsəvvür və fikirlə yenidən narkomanlığa başlıyacaqdır (2, s.44-213). Narkotik maddədən istifadəyə qarşı ən önəmli amil, narkoman olan şəxsin düşdüyü problemə etiraf etməsi və həyatında baş vermiş bütün fəlakətlərin və hadisələrin səbəbi narkotik maddə olduğunu başa düşməsi və özünün belə vəziyyətdən çıxmağı istəməsidir, əks halda həkimin, ailənin, dostun, qohumların onu narkomanlıqdan qurtarmaqa cəhdləri, (həmçinin, cəzalandırma, həvəsləndirmə və bu kimi sair tədbirlərin) heç birisi efektli olmayacaqdır (4, s.36-47). Lakin dünyada narkomanlara edilən müalicənin məqsədi, onların narkomanlıq mərhələsinə qayıtmamaları üçün onlar ilk mərhələdə fiziki və psixi cəhətdən müalicə olunmalı və ikinci mərhələdə narkomanların müalicəsi üçün şəraitin müalicə mərkəzlərinin və klinikaların çoxaldılması lazımdır. Deməli, fiziki müalicə ilə yanaşı pisixi müalicə də aparıldıqı da narkomanların tam sağaldıqlarına əmin olmaq olar (3, s.99-101). Narkomanların çoxu narkotik məsrəfdən əl cəkdikdən bir müddət sonra, yenə və daha da şövqlə narkotik madə almağa başlayırlar ki, bununda səbəbləri çoxdur. Məsələn, narkotik maddədən əl çəkdikdən sonra narkomanın bədənində, narkotik maddədən istifadə etdiyinə görə yaranan zəhər hələ də onun bədənində qalmış ola bilər və yaxud da ailəsinin onunla yaxşı davranmaması ona lazımi layiqli nəzarət etməməsi və ya gəlirli peşə sahibi olmaması səbəb ola bilər (8, s.87). Narkotiklikdən əl çəkmək üçün 3 mərhələni keçmək lazimdir: 1- Müalicədən əvvəlki mərhələ (xəstəyə dərman verilməsi üçün hazırlıq mərhələsi). 2- Bədənin zəhərdən təmizlənməsi mərhələsi. 3- Xüsusi qayğı və nəzarət mərhələsi ki, xəstə tam sağalana qədər davam etməlidir (2, 220-221). Narkoman şəxslər, müalicənin gedişində, narkotik məsrəf etməkdən tam uzaqlaşa bilər. Lakin onun prinsiplərinə, o cümlədən narkotik qəbul etdiyi vaxtda narkotikə etdiyi məsrəf dostlar və kimsələrlə əlaqə yaratmamağa riayət etməyən şəxsin yenidən narkomanlığa başlaması ehtimalı çoxdur. Narkotik maddədən əl çəkmək şəxsin yenidən narkomanlığa başlamasına və narkotikə məsrəf etməsinə səbəb olan müxtəlif amillər bunlardır:

1- şəxslər: adətən fərdin narkoman olmasında rolu olan şəxslər, onun narkomanlığı buraxdıqdan sonra da, yenidən onu narkomanlığa başlamağa təsir göstərə bilərlər. 2- narkomanlıq vaxtlarındakı dostlarla görüşməklə. 3- narkotik maddə ilə əlaqədə tanış olduqları şəxslər. 4- narkomanlarla əlaqədə olmaq və hətta onlarla məcburi bir mənzildə yaşamaq. 5- narkoman şəxsin narkotiki qəbul etməsində birbaşa və ya dolayısı yolla əlaqəli olduğu məkanlar şəxsin yenidən narkoman olmasına təsir göstərən amil ola bilər. 6- əşyalar: narkomanlıq vaxtlarında narkotik maddədən istifadə etməyə və ya narkotiki hazırlamaqda istifadə etdiyi əşyaları görmək və hətta onlara oxşar əşyaları belə görmək narkomanlıqdan müalicə alıb sağlam olmuş şəxsi yenidən narkomanlığa çəkə bilər. 7- hiss üzvlərinin qıcıqlanması: adətən narkotik maddələri qəbul etdiyi vaxtlarla əlaqədar olan səsin, musiqinin eşidilməsi, hanısısa səhnələri müşahidə etmək nəticəsində müəyyən qədər narkotik maddəni məsrəf etdityi vaxtların xatirələrini canlandıran qıcıqlandırıcılar narkotik maddənin yenidən məsrəfinə gətirib çıxara bilər. 8- xatirələrin, düşüncələrin yeniləşməsi və təkrar olunması. 9- psixi pozuntular və sair psixi xəstəliklər. 10- fiziki xəstəliklər. 11- xoşagəlməz vəziyyətlər. 12- narkomanlıqdan əl səkmiş şəxs üçün ətrafında olan bəzi əşyalar onun narkomanlıq vaxtlarındakı xatirələrin bərpa olunmasına səbəb olur (7, s. 27). 13- narkomanlığı atmış şəxslərin çoxu indiki durumlarını həyatda özlərindən yuxarıda durmuş şəxslərlə müqayisə edirlər və belə düşüncə onun kədərlənməsinə səbəb olaraq yenidən narkotikə üz tutmasına və narkotik maddədən istifadə qayıtmasına səbəb olur. 14- narkomanlar etdikləri hər hansı bir iş üçün səbəb formalaşdıraraq hərəkətlərini

---

* Məqalə ps.e.d. R.Qədirova və psixologiya üzrə f.d. M.Vəliyev tərəfindən çapa məsləhət bilinib.

əsaslandırırlar ki, bu da onların narkomanlığa qayıtmaları üçün önəmli amillərdən biri olur. 15- həyalı və utanqac olmaq: narkomanların çoxu hansısa bir hərəkəti etməyə tez razılaşırlar. Bu hal narkomanın narkomanlığa başladığı vaxtlarda və narkomanlıqdan əl çəkdiyi vaxtda da müşahidə olunur. 16- narkomanların özəl xüsusiyyətlərindən biri utopiya və ideal bir həyatda yaşamaqdır. Narkoman şəxslər adətən çox hallarda öz uğursuzluqlara və məğlubiyyətlərə duçar olurlar ki, bu da həsrətin, kədərin və qəmin artmasına gətirir və bunlar narkomanlığı buraxma prosesində baş verir. 17- narkotiki atan şəxslər üçün yalqız qaldıqları vaxtlarda nakortik maddəni məsrəf etdikləri vaxtların duyulmasının zirvə nöqtəsidir. Belə ki, həmin vaxtlar onun xatirində iz buraxmış olduğuna görə də yalqız qaldıqda onun rahatsız və kədərli olmasına səbəb olur (5, s.96-120). 18- narkomanlığı atan şəxs özü diqqətli olmalıdır ki, hansı hallar onu narkomanlıq dövrünün xatırələrinə qaytarır, onları tanımalı və onlara yaxınlaşmaqdan və rast gəlməkdən qətiyətlə çəkinməlidirlər.

Narkotik maddənin yenidən məsrəfinin qarşısını almaq üçün narkoman şəxs və onun çevrəsindəki şəxslər aşağıda qeyd olunan hallara riayət etməlidirlər:

1- yenidən narkomanlığa qayıtmağa səbəb olan amilləri o cümlədən şəxslər, əşyalar, xəstəliklər və sair tanınmalıdır. 2- narkomanlığa hər hansı bir amil aradan qaldırılmalıdır. Belə ki, bu amillər qalmaqda davam edərsə narkomanın narkotik məsrəfini davam etdirmək və narkomanlığa qayıtmaq ehtimalı mövcud olacaqdır. 3- narkomanqdan əl çəkmək istəyən şəxslər həyatlarının bütün mərhələlərində ailə, qohumlar hətta dostlar və ətrafındakılar tərəfindəm himayə qorunmalı, qayğı göstərilməli, dayaq durmalı və ürək yandırmalıdırlar. 4- narkomanlığı atan şəxsin əli altında narkotik maddə olduqda o həvəslənərək ona tərəf meyll göstərərək o isə, çəkmək arzusu qarşısında davam gətirə bilməyəcəkdir. Buna görə də narkomanlığa səbəb olan hər hansı bir maddə onun əli altında olmamalıdır. 5- narkomanlıqdan əl çəkən şəxsi ailə mühitindən uzaqlaşdırmamaq onun bir daha narkotik almaq fikrinə düşməməsinə səbəb olacaqdır (6, 73). 6- narkomanlığı atan şəxs hər şeyə və hamıya həssasdır və onlar ədalətsiz bir davranış müşahidə etsələr tez narkotik maddəyə sığınacaqlar.. 7- narkomanlığa, narkotik maddəyə dair hər hansı bir fikir söyləmək və bunları təkrarlamaq narkomanlığı atmış şəxsin həssaslığını artıracaq və onun keçmiş zamanları xatırlamasına səbəb olacaqdır. Belə ki, bu hallar onu narkomanlığa apara bilər (9, s.195). 8- narkomanlığa qayıtmasının qarşısını almaq üçün o psixi rahatlığa malik olmalıdır. Onun üçün münasib şərait yaradılmalıdır. İztirab, nigarançılığı və çəkişmələrdən uzaq olmalıdır. 9- müalicədən sonra onlara cəmiyyətin parazitləri kimi və təhqirlə baxılmamalı əksinə müalicə almış bir şəxs kimi baxılmalıdır. 10- narkomanlara narkoman deyiləndə çox qəzəblənir və əsəbləşirlər və həmin onu narkoman çağırmalar onun yenidən narkotik məsrəf etməsinə gətirəcək. 11- narkomanlıqdan qurtarmış şəxslər, yeni bir sosial kimlik (şəxsiyyət) əldə edə bilsinlər deyə yeni bir sosial şəraitdə yaşamalı idirlər. Onlara peşə bacarığını əldə etməyə lazım olan imkanları təşkil etmək lazımdır. 12- xəyallar və mənfi baxış aləmindən çıxmaq: onlara müalicə aldıqları müddət ərzində təlim, təlqin yolu ilə onu artıq əvvəlki iradəsiz və laqeyd insan olmadığına inandırmaq lazımdır. 13- həyat tərzi dəyişməli və onun yaşayış şəraiti dəyişməz qalarsa, əmniliklə demək olar ki, yenidən narkotikə üz tutacaq. 14- narkomanlıqdan əl çəkən şəxsin keçmişi düşünməyə fürsət tapmasın deyə, onun boş vaxtları meyl və marağına əsasən planlaşdırılmalıdır. 15- narkomanlıqdan əl çəkən şəxslər adətən narkomanlığı atdıqdan neçə həftə, neçə ay sonra yenidən narkotikdən istifadəyə həvəslənirlər, lakin bu müddət keçərsə vaxt keçdikcə kəskin həvəslənmələr onda baş verməyəcəkdir. Lakin narkomanlığı atmasından uzun meddət keçsə də onların şəxsiyyətlərində olan mənfi xüsusiyyətlər yenidən narkomanlığa tikə qayıtmalarına səbəb ola bilər. 16- narkotikdən müalicə almış şəxslər cəmiyyət tərəfindən hərtərəfli qorunmalıdırlar və onlar münasib peşə və şəraitə malik olmayanadək depresiyaya düşür və yenidən narkotikə üz tuturlar. 17- dövlətin narkomanlara qayğısı və qorunması çox önəmlidir. Onlar üçün peşə təlimi emalatxanalarının və mərkəzlərinin təşkil olunması vacibdir. Belə ki, peşəyə yiyələnərək müəyyən gəlir də əldə edə bilirlər, əks təqdirdə narkotikdən əl səkdikdən sonra peşəyə və gəlirə malik ola bilməsələr yenidən narkomanlığa qayıdacaqlar. Hər halda narkomanların çoxunun narkotiki dəfələrlə buraxdıqdan sonra uzun müddətə və ya həmişəliyə özlərini saxlaya bilməmələrinin və yenə də qayıtmalarının və əksinə bəzilərinin isə narkotiki buraxdıqdan sonra adi həyata qayıda və təmizliklərini qoruya bildiklərinin niyəsini bilmək üçün araşdırmalar aparılıb. Bu tədqiqlərdə sorğu blankı verilərək dəfələrlə narkotiki buraxmış, yenidən qayıtmış və hələdə məsrəf etməkdə olan 100 nəfər narkoman kişidən sorğular olunub və əvvəlcə narkoman olmuş lakin hal hazırda 1-3 il müddətdir narkotiki buraxmış, indidə narkoman olmayan və öz təmiz qalmalarını qorumuş 100 narkoman kişidən də sorğular olunub və bu iki qrupun yaş həddi 20-40 arasında olmaqla seçilib və hər iki qrup təsadüfən seçilmiş şəxslər olmaqla ancaq onaların yaş həddinin uyğun gəlməsinə cəhd olunub. Bu araşdırmada Çi-Skuar (Chi-Square Test) sınağından istifadə olunub və iki qrup müqayisə olunaraq əldə olunan nəticələr 10 cədvəldə qeyd olunub:

Cədvəl 1-də narkoman və tərk etmiş şəxslərin yaş qrupları üzrə müqayisəsi verilmişdir.

Yaş qrupları	Tərk etmiş	Narkoman	Ümumi
21-25	53	35	88
26-30	38	34	72
31-35	7	17	24
36-40	2	14	16
Ümumi	100	100	200

Cədvəl 2-də yaş qrupları arasında əsaslı fərq müşahidə edilmir (χ^2=0.128 , p>0.05).

	Miqdar	Sərbəstlik dərəcəsi	Təsirli fərq
Chi-Square	0.97	6	0.128

Cədvəl 3-də ailə narkoman və tərk etmiş şəxslərin vəziyyəti müqayisə olunub.

Ailə vəziyyəti	Tərk etmiş	Narkoman	Ümumi
Evli	64	41	105
subay	16	19	35
boşanma	9	22	31
Yoldaşını tərk etmə	11	18	29
Ümumi	100	100	200

Cədvəl 4-də göstərilir ki, ailə vəziyyəti baxımından iki qrup arasında fərqlər vardır (χ^2=8.64 , p<0.05). Başqa sözlə narkomanların boşanma və ayrılma halları tərk etmiş şəxslərlə müqayisədə daha çoxdur. Bu müqayisə bəlli edir ki, narkomanlar ailə həyatına bağlı deyillər və məsuliyyət hissləri yoxdur. Bu müqayisədən belə bir nəticəyə gəlmək olar ki, tərk etmiş şəxslərin ailəyə bağlılığı daha çoxdur.

	Miqdar	Sərbəstlik dərəcəsi	Təsirli fərq
Chi-Square	8.64	6	0.046

Cədvəl 5-də iki qrup təhsil səviyyəsi baxımdan biri-biri ilə müqayisə edilib.

Təhsil	Tərk etmiş	Narko man	Ümumi
12-ci sinifi bitirib	20	7	27
9-11-ci sinifə qədər	32	21	53
8-ci sinifi bitirib	15	14	29
5-8-ci sinifə qədər	14	24	38
Tam ibtidayi təhsil	8	13	21
Natama ibtidayi təhsil	11	21	32
Ümumi	100	100	200

Cədvəl 6-da müşahidə edilir ki, narkoman və tərk etmiş şəxslər arasında təhsiıl səviyyəsi baxımda mənalı fərq vardır (χ^2=11.33 , p<0.05).

Belə ki, narkoman şəxslərin təhsil səviyyəsi narkotik maddələrdən istifadəni tərk etmiş şəxslərə nisbətən aşağıdır.

	Miqdar	Sərbəstlik dərəcəsi	Təsirli fərq
Chi-Square	11.33	8	0.029

Cədvəl 7-dəiki qrupun peşə vəziyyəti müqayisə edilmişdir.

Peşə	Tərk etmiş	Narko man	Ümumi
Sənaye işi	30	9	39
Mağaza sahibi	21	4	25
Əkinçi	2	3	5
Küçə ticarəti	18	35	53
Adi işçi (fəhlə)	13	21	34
İşsiz	16	28	44
Ümumi	100	100	200

Cədvəl 8-də narkoman və tərk etmiş şəxslərin arasında iş mövqeyi baxımdan mənalı fərqin olduğu müşahidə edilir (χ^2=12.46 , p<0.01). belə ki, narkoman şəxslərin münasib və gəlirli işləri yoxdur və onların gəliri tərk etmişlərlə müqayisədə daha aşağıdır. Tərk etmişlər əsasən sənaye sahəsinin işçiləri və mağaza sahibləridirlər.

	Miqdar	Sərbəstlik dərəcəsi	Təsirli fərq

Chi-Square	12.46	6	0.004

Cədvəl 9-da narkoman və tərk etmiş şəxslər ailədə davranış tərzi baxımından (səmimi, mehriban və məsuliyyət, qəbuletmə) müqayisə edilmişdir.

Səmimilik səviyyəsi	Tər etmiş	Narkoman	Ümumi
Çox	57	18	75
Normal	29	42	71
Heç	14	40	54
Ümumi	100	100	200

Cədvəl 10-da göstərir ki, narkoman və tərk etmiş şəxslərin ailələrinə yanaşma tərzində ciddi fərq vardır (χ^2=11.32 , p<0.01). Belə ki, narkomanların valideynlərinin çoxu öz övladları ilə səmimi və uyğun münasibətdə deyillər. Halbuki tərk etmiş şəxslərin valideynlərinin çoxu öz övladları ilə daha səmimi və mehribandırlar.

	Miqdar	Sərbəstlik dərəcəsi	Təsirli fərq
Chi-Square	11.32	5	0.031

Narkotik maddəni buraxmış şəxsin yenidən narkomanlıca çəkilməsi və məsrəf edici olmasına səbəb olan müxtəlif amillər var. Bu tədqiqatda göstərilir ki, narkomanlar ailə həyatına bağlı deyillər. Onların məsuliyyət hissləri yoxdur, boşama və ayrılma daha çoxdur və təhsil səviyyəsi tərk etmiş şəxslərə nisbətən aşağıdır. Onların gəlirli işləri yoxdur və ailələrinin çoxu öz övladları ilə səmimi və mehriban deyillər.

Açar sözlər: narkoman, tərk etmiş, narkotik maddə, psixi.

İstifadə olunmuş ədəbiyyat

1. Dr. Məhəmməd Tağı Əsədəfruz., Narkomanlığın səbəblərinin tədqiqi və narkotik maddəni buraxma. Kuşa Mehr Nəşriyyatı, Şiraz, 2008.
2. Kərimpur Sadıq. Narkomanlıq psixologiyası. Əmir Kəbir Nəşriyyatı, Tehran, 1985.
3. Dr. Mahmud Lalə. Narkomanlıq şəxsi bir xəstəlik, sosial faciə. Teymurzadə Nəşriyyatı, Tehran, 2000.
4. Mirdərikvənd Fəzlulla. Narkomanlığın proflaktikası və müalicəsi. Loristan Əyalətinin Mədəniyyət və İslama Çağırış Baş İdarəsi, Loristan, 2004.
5. Purcəfər Məzdək. Narkomanlıqdan qurtarma", Hamun Nəşriyyatı, Tehran, 2007.
6. Dr. Məhəmmədrza Sərmgəzai. Narkomanlıq səbəblərini tanıma və müalicəsi", Qətrə Nəşriyyatı, Tehran, 2008.
7. Təşəkkür Əhməd. Ölümlə səfər edənlər: narkotik və psixatrop maddləri tanıma. Salehan Nəşriyyatı, Qum, 2009.
8. Bir sıra fikir sahiblərinin məqalələri. Gənc və narkomanlıq Konferansı, məqalələr toplusu, narkomanlığın qarşısını almağa təlim və mədəniyyəti şurası katibliyinin nəşriyyatı, Mazəndəran Əyalətinin Mədəniyyət və İslama Çağırış aş İdarəsi, Mazəndəran, 2002.

Жale ПАШМФРУШ

**PRIÇINI VOZVRAHENIƏ K NARKOMANII
I PUTI EE PREDOTVRAHENIƏ**

Pezöme

Harkomanı – gto slabıe i bespomohnıe lödi. Bsledstvie gtoqo, stalkivaəsğ s trudnostəmi i buduçi slabovolğnımi lödğmi, oni pribeqaöt srazu k prinətiö narkotikov. Te narkomanı, kotorıe ostavili narkomaniö, no zatem ne videli k sebe doljnoqo vnimaniə i zabotı so storonı obhestva, vnovğ vozvrahaötsə k starım privıçkam.

B statğe ukazıvaetsə na neobxodimostğ svoevremennoqo izuçeniə vsex priçin vozraheniə k narkomanii, çtobı nayti puti ee predotvraheniə.

Klöçevıe slova: narkoman, brosil, narkotiçeskie sredstva, psixiçeskiy.

Zhala PASHMFRUSH

**THE REASONS OF RETURNING TO DRUG
ADDICTION AND THE WAYS OF ITS PREVENTION**

Summary

The drug addicts are the weak and helpless people. Therefore, they having faced the difficuties and been weak of will they resort to drug addiotion. Those men who have left drug addiction but have not received a due attention and care on the side of a society, return to their old habits. In this connection, the author points out to the necessity of timely study of all the reasons of returning to drug addiction in order to fund out the ways of preventing it.

Keywords: drug addict, give up, narcotic drugs, psychical.

UOT 159.9. 316.6

Sədaqət MƏSTURƏ
BDU-nun aspirantı

QADINLARDA HAMILƏLIYIN ILK AYLARINDA ÖZÜNÜDƏRK HALLARININ IRAN TƏDQIQATLARINDA TƏHLILI*

Müasir dövrdə bütün dünyada, o cümlədən Azərbaycanda qadınların problemlərinin tədqiqi, xüsusən hamiləlik dövründə qadınların davranışa təsir göstərən sosial-psixoloji problemlərin təhlil edilməsi kifayət qədər mühüm aktuallıq kəsb edir. Ümumiyyətlə, hamilə qadınların davranışının nizamlanması, onların düzgün istiqamətə yönəldilməsi kifayət qədər mürəkkəb sosial-psixoloji məzmuna malikdir. Ümumilikdə, hamiləlik dövrünün problemlərinin müxtəlif istiqamətlərdə, o cümlədən psixoloji baxımdan hərtərəfli şəkildə təhlil edilməsi, onun yeni şəraitdə adaptasiyasına mane olan amillərin müəyyən edilməsi amillərin diqqət mərkəzində olmuşdur[1,s.143-145].

Bir məsələni qeyd etmək lazımdır ki, ananın hamiləlik dövründəki davranışı ilə onun həmin dövrdən sonrakı davranışı arasında mühüm fərqlər özünü büruzə verir [2,s.69-78].

Sosial baxımdan "Mən" ictimai məhsuldur. Sosial psixoloqların bir qrupu «Mən»i qarşılıqlı münasibətlərin siması (simvolu) adlandırırlar, və belə hesab edirlər ki, insanlar başqalarının onların haqqında olan fikirlərinə, yaxud onlara qarşı münasibətlərinə əsasən özlərinə qiymət verirlər. Bu baxımdan, başqalarının bizim haqqımızdakı fikirləri bizim üçün mühüm əhəmiyyət kəsb edir. Xarici mühit, yaşadığımız ictimai quruluş, insanlar arasındaki münasibətlər və oynadığımız rollar bizim özümüzə müəyyən münasibətin yaranmasına təsir göstərən əsas amillərdəndir [2,s.69-78].

Psixologiyanın mühüm yanaşmalarından biri hesab olunan koqnitiv cərəyanın nümayəndələri hesab edirlər ki, digərinin bizim haqqımızda olan qiymətləndirmələri bizim seçimlərimizə və başqa insanlara mühüm təsir göstərir. Başqa sözlə, hər xarici təsir ona qarşı münasibət fonunda hadisəyə münasibətdədir. Əslində ictimai baxışın əksinə olaraq hər bir şəxsin öz təsəvvürləri var və yalnız digərlərinin onun haqqında olan fikir və münasibətinin məhsulu deyil. Yəni şəxsiyyətin özünü yenidən qiymətləndirməsi onun başqa insanların fikirlərinə necə böyük əhəmiyyət verməsinin əsas göstəricilərindən biridir [3,s.54-69].

Özünüdərketmə səviyyəsi ilk növbədə şəxsiyyətin hadisələrə və özünə münasibətdə üzə çıxır [3,s.54-69].

Analıq dövrü qadından yeni rol oynamağı tələb edir, analıq məqamını rolsuz təsəvvür etmək mümkün deyildir. Bu yeni rolu ilə tanışlıq prosesi hər qadının həyatında öz anasına danışdığı xatirələri ilə başlayır. Lakin bu rolun tam başa düşülməsi müxtəlif səbəblərlə əlaqədardır. Məşhur tədqiqatçı Mayes qeyd edir ki, bu rol haqqında təsəvvürün əmələ gəlməsi analıq rolunun qəbuluna müxtəlif sosial-psixoloji amillərin təsiri ilə bağlıdır. Bu amillər mədəniyyət, cəmiyyət, ananın hamiləlik zamanı olduğu yaş, uşaq dünyaya gətirməyin məsuliyyətinin dərkedilməsi, ictimai müdafiə, özünüdərketmə, övlada qarşı davranış, təzə anadan olmuş körpənin xüsusiyyətləri və s. ibarətdir. Mayes həmçinin qeyd edir ki, analıq rolunun qəbul edilməsinə və analıq vəzifəsinin yerinə yetirilməsinə bundan əlavə psixoloji amillər - mədəniyyət, ailə və qadının təhsil səviyyəsi də təsir edir [4,s.78-80].

Şübhəsiz, "ana olmaq" qadının həyatında mühüm hadisə sayılır. Uşaq ananın qucağında böyüyür və ana ilə vasitəsiz - emosional ünsiyyət uşağın təşəkkülündə, formalaşmasında əsas rol oynayır [5,s.70-78].

Aydındır ki, yeni rolun əmələ gəlməsi şəxsin təsəvvürləri və şəxsin başqaları ilə olan əlaqələrində yeni dəyişikliklər yaradır. Yeni rolun meydana çıxması şəxsin fikirlərinin təzələnməsi qərarının müəyyənləşməsini tələb edir. Belə bir rolun qəbulu zamanı şəxs çalışır ki, bu dəyişikliklərin mənasını özü üçün müəyyənləşdirsin və onları dərk etsin, gözləmələrin əsasını ayırd etsin və yaxud öz keyfiyyətlərini və şəxsiyyətlərarası münasibətləri aydınlaşdırsın. Məlumdur ki, hamiləlik dövründə qadınların davranışlarında dəyişikliklər yaranır. Belə ki, bu dövrdə yaranan kefsizlik, həyəcan, pərişanlıq və evlilik problemləri hamiləlik dövrünün əvvəlləri ilə əlaqədardır. Tədqiqatçıların qeyd etdiyi kimi, son zamanlar ədəbiyyatda "ilk övladın dünyaya gəlməsi" zamanı ananın özünə və uşağa nəzarət etməsinə, qayğısına diqqət yetirilir. İlk övladın dünyaya gəlməsi, ailə həyatında və özünüdərketmədə qarşılıqlı ziddiyyətlər yaranması təbiidir [6,s.637].

---

* Məqalə ps. e.d. G. Qurbanova tərəfindən çapa məsləhət bilinib.

Bu istiqamətdə aparılan tədqiqatlar hamiləlik dövrünün dövrünün mürəkkəb mahiyyət daşıdığına sübut edir. Həmçinin tədqiqatlar göstərir ki ailənin, xüsusilə həyat yoldaşının diqqəti, ictimai qayğı ananın yeni roluna daha yaxşı adaptasiya olunmasına şərait yaradır . Çünki ilk övladın dünyaya gəlməsi ilə əlaqədar olaraq ailədə dəyişikliklər və sıxıntılar yaranır. Bu dəyişikliklər bəzi ailələrdə iqtisadi xərclərin artması, uşağa nəzarət etmək məsuliyyəti, ananın digər istəklərindən uzaqlaşması və ailənin maddi imkanının azalması ilə müşayiət olunur. Bunlar öz növbəsində anaya hamiləlik dövründə mənfi təsir etməklə ana şəxsiyyətində müəyyən ziddiyyətlər yarada bilir. [6,s.637].

İran tədqiqatçısı Yazdaninin apardığı tədqiqat sübut edir ki, ilk dəfə hamilə olan qadınlara həyat yoldaşının, yaxın ətrafın və ictimaiyyətin diqqəti və səmimiyyəti müsbət təsir edir. O, ana olmasından, hamilə olmasından razı qalır. Həmçinin bu qayğı və diqqət ananın əhvalının yüksəlməsinə, qəmginliyinin azalmasına, özünüqiymətləndirmənin yüksəlməsinə müsbət təsir edir. Bununla bağlı aparılan bir sıra tədqiqatlar göstərir ki, sosial əlaqələr zamanı yaranan diqqət və qayğı ananın özünə inamını (analıq rolunun ifası üçün hər bir ananın ehtiyacı var), şüur və səbrini artırmaqda çox böyük əhəmiyyətə malikdir.

Həyatın çətin anlarında insanların dəyişmə və özünütanıması onların özünüdərkində, həmçinin yeni şəraiti dərk edib özlərini ona uyğunlaşdırmalarında böyük rol oynayır. Bəzi tədqiqatçılar bu prosesi sosiallaşma kimi təsvir edirlər. Bu baxımdan qeyd edə bilərik ki insanlar uyğun informasiya axtarmaqla və onu yoxlamaqla aldığı nəticəyə əsasən öz keyfiyyətlərini müəyyənləşdirə bilirlər. Qadınlar haqqında xüsusilə övladın dünyaya gəlişindən sonra aparılan müxtəlif tədqiqatlar onu göstərir ki, analıq hissi ananın hamiləliyi dövründə yaranır. Hamilə qadınlardan əldə edilən məlumatlar onu göstərir ki, hamiləlik dövrü zamanı anada yeni rolunun qəbul edilməsi onun özünüdərketməsində yeni cəhətlər meydana çıxarır. Belə dəyişikliklər analıq təcrübəsində müsbət nəticələrə səbəb olur. Bu xüsusən o qadınlara aiddir ki, özünü hamiləlik dövründə ana kimi dərk edirlər, övladına baxanda özünü dünyanın ən xoşbəxt anası sayır və ana olmaqdan xüsusi zövq alırlar [7,s.110].

Bu sahədə aparılan tədqiqatlardan aydın olur ki, övladın dünyaya gəlişindən 3 ay sonra özünə inam, özünüdərketmə hamiləlik dövründəki özünüdərketmə ilə qarşılıqlı əlaqədədir. Aydındır ki, sakit uşaqları olan analar , özlərini yaxşı hiss edir, halbuki dəcəl uşaqları olan analar özlərini narahat hiss edirlər [8,s.55-58].

Qadınlar ilk hamiləlik dövründən başlayaraq artıq hamiləlik və doğum haqqında informasiyalar toplamağa başlayırlar. Hamiləlik haqqında informasiyaları toplamaq ilk 3 ayda daha çoxdur və get-gedə tədricən azalır. Aydındır ki, hamiləlik və özünüdərketmə zamanı anaya ana kimi müxtəlif informasiyaları əldə etmək vacibdir. Bu baxımdan sona çatdırılan tədqiqin nəticələri göstərdi ki, qadınlar aktivcəsinə informasiyaları əldə etməklə özlərini dərk etmək və şəxsiyyətlərini müəyyənləşdirmək üçün faydalanırlar.

İnformasiyaların əldə olunması hamiləlik dövründə başa çatır. Bu qadınlara müəyyən bir qərara gəlməyə imkan verir, bu da öz növbəsində onlarda stress səviyyəsini azaldır. Bu tədqiqatın nəticələri onu göstərir ki, hamiləlik dövründə ana olmaq haqqında daha çox informasiya toplayan qadınlar "yaxşı ana" nın müsbət xüsusiyyətlərini özündə müəyyənləşdirir, özünü yüksək səviyyədə dərk edir, nəticədə özünün yeni ana roluna nəzərən özünə inamı baxımdan çox faydalanır [8,s.55-58].

Tədqiqatçılar hamiləlik dövründə ananın yaşı və özü haqqında təsəvvürləri əsasında tədqiqləri sona çatdırdılar. Kərimi 51 ananın ilk hamiləlik dövründəki iki yaş qrupunu (20-29 yaş və 30-39 yaş) tədqiq elədi. İkinci qrup hamiləlik dövründə daha çox iztirab göstərdilər və bu qrup analar özünüdərklə mürəkkəb dövr yaşadılar [9,s.94].

Məhbubə Fəramərzinin (1378) "Hamilə qadınların özünüdərketməsi və onların təbii doğuşa qarşı olan dünyagörüşünün tədqiqi" mövzusunda apardığı tədqiqat işində əksər hamilə qadınlarda təbii doğuşun ən yaxşı üsulu müəyyənləşdirilmişdir. O, eyni zamanda göstərmişdir ki, özünü dərk etməyən və mənliyi formalaşmayan hamilə qadınlar təbii doğuşdan qorxurlar. Bu halda hamilə qadının doğuşu qeysər kəsiyi ilə ola bilər.

Bu tədqiqatın nəticəsi göstərir ki, hamilə qadınların yalnız 19,6 %-i təbii doğuşa qarşı baxışları müsbətdir. Təbii doğuşa qarşı özünüdərkin genişləndirilməsi üçün düzgün müəyyənləşdirilmiş cəhətlə dünyagörüşü və özünüdərk arasında mühüm əlaqə mövcuddur. Bu inkişafın ardınca müsbət dünyagörüşü təbii doğuşa meylin miqyasını genişləndirə bilər [10,s.123].

Fatimə Bakuvi "Evdə doğuşa hamilə qadınların meyli, dünyagörüşü və özünüdərketmənin tədqiqi" adı altında 220 hamilə qadından sorğu-sual şəklində özünüdərketməni tədqiq etmişdir. Bu tədqiqat zamanı əksər qadınların (58%) orta səviyyəli özünüdərketməsilə rastlaşılmışdı. Tədqiqatçılar daha çox statistik əlaqələrlə tədqiq olunmuş orta səviyyəli özünü təsəvvürdən istifadə etmişlər. Özünüdərketmənin tədqiqi həm də statistik elmi dərəcəylə əlaqədardır [11,s.33].

Açar sözlər: qadın, hamiləlik dövrü, özünüdərk, İran tədqiqatları.

İstifadə olunmuş ədəbiyyat

1. İzədi S. Gadının hayatında böhranları, Tehran, 1380.
2. Fəthi Aştiyani A. Yeniyetmələrdə özünüdərk, özünəhörmət, depressiya tədqiqatı. Namizədlik dissertasiyası.
3. Səffariyan Tusi M. Hamiləlik dövründə özünüdərketmə ilə hamiləliyə mənalı münasibət varmı? Namizədlik dissertasiyası.
4. Karol C.The women patlent medical and psychological interface .Vol. I. Plenum press New-York, 1999.
5. İsfəndyari M. Amerikada özünüdərketmə nəzəriyyələrinin təhlili (1920-ci illərdən indiyə qədər). Pedaqogika jurnalı.
6. Dayan C., Williams R.J. Brockington. Is puerperal psychosis the same as bipolar manic-depressive disorder? A family study. Psychol. Med., 1986.
7. Deutsch H. The psychology of women. Vol.2, 1945.
8. Qomeyşi O. Hamiləlik dövründə (30-40 yaşlı analarda) özünüdərketmə ilə hamiləliyə mənalı münasibət varmı? Namizədlik dissertasiyası.
9 .Kərimi R. İlk hamiləlik dövründə özünüdərketmə və ananın yaşı ilə münasibət. Pedaqogika jurnalı.
10. Fəramərzi M. Hamilə qadınların özünü dərketməsi və onların təbii doğuşa qarşı olan dünyagörüşünün tədqiqi, Namizədlik dissertasiyası.
11. Bakuyi F. Evdə doğuşa hamilə qadınların meyli, dünyagörüşü və özünüdərketmənin tədqiqi. Namizədlik dissertasiyası.

Cadaqat MACTУPA

ANALIZ PROVEDENNIX V IRANE ISSLEDOVANIY O SOSTOƏNII SAMOPOZNANIƏ JENHIN V PERVIE MESƏÜI BEREMENNOSTI

Pezöme

B statğe otmeçaetsə, çto v pervıe mesəüı beremennosti na povedenie jenhin vliəet rəd soüialğno-psixoloqiçeskix faktorov. По mneniö avtora, vnimanie muja, blizkix rodstvennikov i obhestvennosti okazıvaet polojitelğnoe vliənie na samopoznanie beremennoy jenhını, çto əvləetsə priçinoy povışeniə ee samooüenki. Bnimanie i zabota, proəvləemıe vo vremə soüialğnıx vzaimosvəzey povışaöt samouverennostğ, terpenie materi i usilivaöt ee samooüenku. B to je vremə podçerkivaetsə, çto razliçnıe informaüii moqut bıtğ priçinoy oslojneniy i deformaüiy v psixike rebenka.

Klöçevıe slova: jenhina, period beremennosti, samopoznanie, iranskie issledovaniə.

Sadagat MASTURA

ANALYSIS OF THE STUDIES OF A STATE OF WOMEN'S SELF-COGNITION IN THE EARLY PERIOD OF PREGNANCY, CARRIED OUT IN IRAN

Summary

In the article it is noted that a number of socio-psychological factors influences on a behavior of women in the early period of pregnancy. In author's opinion, an attention of a husband, near relatives and on a side of a society exerts a positive influence on the pregnant women, raises their self-estimation. The notice and care taken during establishing social relations supplement to the belief of mother in herself, in creasing her consciousness and patience raise her value. At the same time it is stated that different kind of information may cause some disturbances and generate deformation in a child's psychology.

Keywords: women, period of pregnancy, self-concept, Iranian studies.

UOT 316.6

Nəsrullah ƏNSARİNEZHAD
AMEA FSHİ -nin dissertantı

CİNAYƏTKAR VƏ ADİ QRUPDA POLİSƏ MÜNASİBƏT*

Müxtəlif elm sahələrində, o cümlədən ictimai elmlər və psixologiyada yeniyetmələrin cinayətkarlığı ilə bağlı müxtəlif şərhlər verilmişdir. Bu sahədəki ən yaxşı şərhlərdən biri V.B.Reklesə məxsus olan cilovlama nəzəriyyəsidir.(1) Bu nəzəriyyədə cəmiyyət üzvləri fərddə cinayətlə bağlı təzyiq və təhriklər yaradır. Bunlar daxili təzyiqlərə qərarsızlıq, düşmənçilik, müdaxilə və qızğınlıq, psixi qarşıdurma, iztirab, istəklərinin bilavasitə yerinə yetirilməsinə olan ehtiyacı; xarici təzyiqlərə nisbi məhrumiyyət, yoxsulluq, işsizlik, təhlükə qorxusu, imkanların azlığı və bərabərsizlikdən ibarətdir.

Xarici təhrikedicilərə cinayətkar düşüncə tərzinə malik olan kiçik dəstələrə və cinayətkar qruplara üzv olmaq, lazımsız əşyalardan bəhs edən yerli və qrup informasiya vasitələrində fəaliyyət göstərmək daxildir. Bu təhriflər qarşısında fərdi cinayətkarlıq etməkdən qorunmaq üçün insanın daxilində və xaricində müxtəlif cilovlayıcılar mövcuddur. Bunlar daxili cilovlayıcılar – fərdin şəxsiyyətinin yüksək mənlik, uğursuzluğa yüksək dərəcədə qatlaşmaq, həyatda məqsədə nail olmaq, böhranları azaltmaq və onlara nəzarət etmək kimi möhkəmlik və qüdrət göstəriciləri; xarici cilovlayıcılar – bir qrupa aid olmaq hissi, dəyərlərə malik olmaq və bunların cəmiyyətdə möhkəmləndirilməsi, valideynlərin təsirli nəzarəti, cəmiyyətdə nüfuzlu ictimai rola malik olmaqdan ibarətdir.

Bu nəzəriyyədə qeyd olunur ki, hər bir fərddəki daxili və xarici cilovlayıcılar onların cinayətkar olmağa müqavimət göstərməsinə səbəb olur. Mənlik isə bunların ən önəmlisidir (11, 46).

Yeniyetmələr və polis.

Yeniyetmələrin polisə qarşı olan münasibətlərinin araşdırılmasının səbəblərindən biri bundan ibarətdir ki, onlar polislə anlaşmada olub polis tərəfindən tutulan yeniyetmələrin böyük bir hissəsini təşkil edirlər. Yeniyetmələrlə polis arasındakı münasibəti araşdıran tədqiqatçıların çoxu bu nəticəyə gəlmişlər ki, ümumiyyətlə, yeniyetmələr polisə mənfi münasibət bəsləyirlər (16, 224). Eyni zamanda onu da bilmək lazımdır ki, kişilər qadınlara nisbətən polisə daha çox mənfi münasibət bəsləyirlər. Yeniyetmələrin şəhərlərin xüsusi məntəqələrində yaşayan azlığın polisə münasibəti yaxşı deyilir. (16, 227).

Demək olar ki, polisə qarşı mənfi münasibət cinayətkarlıq fəaliyyətləri ilə bağlıdır. Cinayətkar yeniyetmələr özlərinə məxsus mədəniyyətlərinə və meyllərinə heç də aydın olaraq cəmiyyətin müxtəlif fərqli münasibətdə dəyərlərə malikdirlər.

Neyhart və onun həmkarları (2005) belə bir nəticəyə gəldilər ki, küçə mədəniyyətində küçə cinayətlərinin formalaşması və gecə oğurluqları törədilməsi amili vardır.

Yeniyetmələrin polisə olan münasibətlərini araşdıran tədqiqatçıların çoxunun gəldiyi nəticədən aydın olur ki, cinayətkar fəaliyyətlərə qoşulmaq polisə mənfi münasibətlə birbaşa olaraq əlaqədardır. (28, 187).

Polisə mənfi münasibət bəsləyən fərdlər böyük bir ehtimalla cinayətlərdə iştirak edən kiçik mədəniyyətlərə üzv olur. Əksinə, polisin vəzifəsini professional şəkildə və düzgün yerinə yetirməli olduğunu düşünən fərdlər böyük bir ehtimalla, qanunlara riayət edir və hətta şahid kimi polis sistemini müdafiə edirlər. (10-125). Buna görə də yeniyetmələrin cinayətə münasibətinin yaxşılaşdırılması vasitəsilə cinayətin qarşısını almaq asanlaşacaqdır. Əgər məhkəmə yeniyetmələrdə polisə qarşı müsbət münasibət yarada bilsə, böyük bir ehtimalla, məhkəmə ilə üzləşən yeniyetmələrin sayını azaltmağa qadir olacaqdır. Əlbəttə, qeyd etmək lazımdır ki, polisə mənfi münasibət bəsləmək yeniyetmələrin cinayət törətməsinin yeganə amili deyildir. Bəlkə valideyn və müəllimlər kimi digər qüdrət sahiblərinin müsbət münasibəti də cinayət törədilməsinə təsir göstərir.

Yeniyetmələrin gerçək cinayətləri ilə bağlı olaraq polis müxtəlif üsullardan da istifadə edə bilər.Yəni polislər yeniyetmələrin cinayət və davranışlartını zarafat hesb edir və ona ciddi münasibət bəsləmirlər. Bəziləri isə onlarla qeyri-rəsmi olmayaraq davranır və yeniyetmələrə nəsihət edirlər. Bir başqaları isə əlaqədar mənbələrə məlumat verməklə və valideynlərin yardımı ilə yeniyetmələri evlərinə qaytarırlar. Bəziləri də son seçimi, yəni cinayət işi açılması və yeniyetmələrin məhkəməyə verilməsi olmalıdır.

---

* Məqalə fəl.e.d., prof. Q. Vəliyev tərəfindən capa məsləhət bilinib.

Qeyd etmək lazımdır ki, bu seçimlərdən hər hansı birinin müəyyənləşdirilməsi yeniyetmələrin polisə olan münasibətinə təsir göstərir. Polislə yeniyetmələr arasındakı anlaşmanın keyfiyyəti polisə qarşı mənfi münasibətin yaranmasında mühüm əhəmiyyətə malikdir(16, 246). Amorso və Levi (1986) də həmçinin müəyyənləşdirdilər ki, yeniyetmələrin ailə mühitindən uzaqlaşdırılması onların güc sahiblərinə olan münasibətinə güclü təsir göstərir (2, 78).

Braven və Benedikt (3-436) qeyd etmişdilər ki, valideynə müsbət münasibət polisə müsbət münasibətlə bağlıdır. Neyhart və həmkarları (16-219) öz tədqiqatlarında bu nəticəyə gəldilər ki, yeniyetmələrin valideynlər və müəllimlərinə münasibəti polisə münasibət üçün yaxşı göstəricidir.

Yeniyetmələrin qüdrət məqamlarına olan münasibəti məhkəmə orqanları üçün mühüm və həyati əhəmiyyət daşıyır. Belə ki, yeniyetmələrin qaunvə polis kimi qüdrət məqamlarına münasibətini daha yaxşı dərk etməklə yeniyetmələrin qanun və polislə münaqişələrini azaldır. Yeniyetmələrin güc sahiblərinə olan məqamlarına olan münasibərinin əhəmiyyəti son illərdə çox aydın bir şəkildə aşkarlanmış və bu sahədə hazırda çoxlu tədqiqatlar aparılır. Levinin (2001) nəzəriyyəsinə əsasən, kütləvi informasiya vasitələrinin yeniyetmələrin cinayət və cinayətkarlıqları haqqındakı məlumatları onların güc sahiblərinə olan mənfi münasibətinin göstəricisidir. Keçən iyirmi il ərzində yeniyetmələrin qanuni idarələrin hakimiyyətinə qarşı münasibəti ilə bağlı bir çox tədqiqatlar aparmışlar (10, 290). Güc sahiblərinə münasibət sahəsindəki ilkin və ən mühüm tədqiqatlar Reqbi və Ramp (1979) tərəfindən aparılmışdır. Bu tədqiqatdan belə bir nəticə alınmışdır ki, güc sahiblərinə hər hansı birinə müsbət münasibət digər məqamlara müsbət münasibət bəslənilməsi ilə sıx əlaqədədir. İngilis yeniyetmələr üzərində aparılan buna bənzər tədqiqat göstərfi ki, bəzi yeniyetmələr güc sahiblərinə müsbət münasibət bəsləmir, bununla belə, onların əksəriyyəti müəllimlərə və polisə müsbət münasibət bəsləyir. (16-167). Həmçinin Reqbi (1990) belə bir nəticəyə gəlmişdi ki, yeniyetmələrdə qüdrət müəssisələrinə ümumi bir münasibət vardır.

Reqbi və onun həmkarları tərəfindən 1987-ci ildə Avstraliyalı yeniyetmələrlə əlaqədar aparılan tədqiqatlarda yeniyetmələrin əsas qüdrətlərə (valideyn, müəllimlər, polis və qanun) müsbət münasibət bəslədidikləri təsdiq edilmişdir. Avstraliya (28-131), Şotlandiya (28-131) və İngiltərədə (28-131) aparılan başqa bir tədqiqatda da buna bənzər nəticələr əldə edilmişdir.

Levi (29-235) tərəfindən aparılmış başqa bir tədqiqatda yeniyetmələrin özünü düşünmək və cinayətkarlıqla əlaqədar münasibətləri araşdırılmışdır. O belə bir nəticəyə gəlmişdir ki, cinayətkar olmayan gənclərin müəllim, valideyn və polis kimi qüdrət məqamlarına münasibəti müsbətdir. Eyni zamanda bu tədqiqatda müəyyən edilmişdir ki, özünü düşünməklə qüdrət mənbələrinə olan münasibətin növü arasında müsbət əlaqə vardır. Bu əlaqə iki qrup arasında da, yəni cinayətkar və cinayətkar olmayanlar, arasında da mövcuddur.

Yeniyetmələrin polisə münasibəti

Yeniyetmələrin məhkəməsi prosesində ədalətin tələb edilməsi və insan hüquqlarının pozulması hallarının qarşısının alınması tutulma vaxtınından başlayıb mühakimənin sonuna və fərdin cinayət işinə baxılana qədər davam edir.

Fərdin, xüsusilə, yeniyetmənin polisə münasibətinin necə olması cinayətin qarşısının alınmasında təsirli və təyinedici amildir. Yeniyetmələrin polisə münasibəti ilə bağlı çox az tədqiqatlar aparılmışdır. Lakin keçən onilliklər ərzində onların ictimai mövzulara baxışını dəyişdirən məqamların inkişafı nəticəsində yeniyetmələrin polisə münasibətinin əhəmiyyəti də müəyyən edilmişdir. Bu da mövzu ilə əlaqədar elmi tədqiqatlardan bəhs edilməsinə səbəb olmuşdur. O cümlədən yeniyetmələrin polisə münasibətinin araşdırılmasını göstərmək olar. Misal olaraq başqa tədqiqatları da qeyd etmək olar (2, 119).

Yeniyetmələrin polisə münasibəti ilə bağlı aparılmış tədqiqatların azlığını nəzərə alsaq, müxtəlif nəticələrin əldə edildiyini görə bilərik. Bəzi araşdırmalar sonucunda belə nəticələrə gəlinmişdir ki, yeniyetmələr adətən, polisə yaxşı münasibət bəsləmirlər, uşaqlar isə polisin cəmiyyətdəki rolu haqqında düzgün anlayışa malik deyillər. (3-432).

Bəzi tədqiqatsılar bu nəticəyə gəlmişlər ki, adətən, yeniyetmələrin polisə münasibəti yaxşı deyil və onlar belə fikirləşirlər ki, polis problemləri həll etmək üçün yalnız zor işlədir. (3, 433).

Bəzi tədqiqatçılar iddia edirlər ki, yeniyetmələr bu fikirdədirlər ki, polisin onları qorumasına ehtiyac yoxdur, həmçinin onlar belə düşünürlər ki, yardım və müdaxiləyə ehtiyacları olduqda polis olduqca yavaş hərəkət etmişdir (15-222). Bundan başqa, yeniyetmələr olduqca böhrani bir şəkildə polisləri tənqid edirlər. (15, 223).

Tədqiqatçılardan bəziləri, yeniyetmələrin polisə və digər güc sahiblərinə müsbət münasibət bəslədiklərini qeyd etmişlər (2, 107).

Amorser və Vier (1983) belə məlumat vermişlər ki, yeniyetmələr polisə müsbət cavablar verir. Bundan başqa, tədqiqatda iştirak edən məktəblilər də polis peşəsinin yaxşı bir iş olduğunu söyləmişlər (2,108).

Hər halda yeniyetmələrin polisə olan münasibəti, eləcə də onların valideynlərə və müəllimlərə olan münasibəti haqqında ümumiləşmiş bir fikir mövcud deyildir. Tədqiqatçılar arasındakı ümumi fikir bundan ibarətdir ki, yeniyetmələr digər güc məqamlarına qarşı da buna bənzər baxışlara malikdirlər (2,109).

Eyni zamanda Amorser və Viey (1983) istifadə edilən sınaq və təhqiq üsulları ilə bağlı çətinliklərdən də bəhs edir və bu amili mövzu ilə əlaqədar qəti nəticələrə çatmaq yolundakı çətinlik kimi qeyd edirlər. (2, 111).

Statistik təhlil üsulları

Qeyd edək ki, bu araşdırmada iki müstəqil qrupdan istifadə edilmişdir:

1) cinayətkar qrup – buraya Tehrah təlim-islah müəssisəsindəki bütün yeniyetmələr daxildir.

2) adi qrup – buraya Tehran şəhərinin 5-ci və 15-ci məntəqəsindəki təlim-tərbiyə şöbəsinə daxil olan məktəblərdə təhsil alan məktəblilər daxildir.

Örnək qruplar da 4 dəstəyə bölünür:

- Tehran təlim-islah müəssisəsindəki yeniyetmələr arasından təsadüfi olaraq 100 yeniyetmə oğlan və 30 qiz örnək olaraq seçilmiş və üzərində tədqiqat aparılmışdır.

- Tehranın 15-ci və 5-ci məntəqəsindəki təlim-tərbiyə şöbəsinə daxil olan məktəblərdə təhsil alan oğlan və qiz yeniyetmələr arasından təsadüfi olaraq 100 adi yeniyetmə oğlan və 30 örnək olaraq seçilmiş və onlar üzərində tədqiqat aparılmışdır.

Örnəkalma üsulu

Bu tədqiqatda istifadə edilmiş örnəkalma üsulu sadə təsadüfi üsuldur. Sadə təsadüfi örnəkalmada haqqında bəhs edilən qruplardakı üzvlərin hər biri örnəklə bağlı qərar almaq üçün bərabər və müstəqim şansa malikdir. Müstəqil olmaq bu deməkdir ki, bir üzvün seçimi heç bir şəkildə qrupun digər üzvlərinin seçiminə təsir göstərmir. Bu tədqiqatda cinayətkar qrup 25 oğlan və 30 qızdan ibarət olmuşdur. Bütün qızlarla sorğu keçirilmişdir və əslində cinayətkar qızların sayı və örnək qrupunun miqdarı eynidir. Cinayətkar oğlanlarla əlaqədar olaraq isə püşkatma üsulundan istifadə edilmişdir. Beləliklə, sınaq üzvlərin (cinayətkarların) sayı bəlli olduqdan sonra kompüterdən istifadə edilərək təsadüfi olaraq 100 oğlanın adı seçildi. Müqayisə qrupuna da statistik baxımdan cinayətkarların sayı ən çox olan 15-ci məntəqəki oğlan məktəblərindən 100 nəfər təsadüfi olaraq bu sınaq üçün seçildi və onlar sınaqda iştirak etdilər. Qızların adi qrupu ilə əlaqədar olaraq da qız cinayətkarların sayının ən çox olduğu 5-ci məntəqəki qız məktəblərindən 30 qız təsadüfi olaraq seçildi və onlar sınaqda çıxış etdilər.

Ölçmə vasitələri

Polisə münasibət sorğu vərəqəsi Tədqiqatçı tərəfindən hazırlanmış bu sınaq Likret miqyasına əsasən "tam razıyam"dan başlamış "əsla razı deyiləm"-ə qədər 5 seçimi olan 20 sualdan ibarətdir. Bu sorğu vərəqəsini hazırlamaq üçün öncə cinayətkar yeniyetmələrdən ixtiyari olaraq polisə olan münasibətlərini bəyan edən cümlələri söyləməsi tələb olunur. Sonra söylənən cümlələr təhlil edildi və bunlar arasından sorğunun əsas sualları olaraq 20 sual seçilərək sorğu vərəqəsinə daxil edildi. Sonra polisə münasibət vərəqəsi psixi baxımdan araşdırılması üçün Polis Universitetinin 3 psixoloq müəlliminə bu sorğularla əlaqədar öz fikirlərini söyləmək üçün verildi. Bütün suallar onlar tərəfindən qəbul edildi. Eyni zamanda təhlil statistikasına uyğun olaraq polisə münasibət sorğu vərəqəsinin daxili etibarlılıq koofisienti 0.74 olaraq göstərildi.

Nəticələrin statistik təhlili üsulu

Bu tədqiqatda polisə münasibət sorğu vərəqəsi ümumiləşdirildikdən sonra şərhetmə, ortalama və standartdan yayınma üsullarından istifadə edildi. Sonra fərziyyələri araşdırmaq üçün qruplar üçün müstəqil statistik **t** üsulundan, sualları araşdırmaq üçün isə təkdəyişkənli varians statistik təhlil üsulundan (**ANOVA**) istifadə edildi.

Təsviri nəticələr

Sınaqda iştirak edənlərlə bağlı məlumatlar cədvəli

1. Sınaqda iştirak edənlərin sayı

Qrupların sayı Say Faiz (%)

Cinayətkar oğlan	**100**	**38/5**
Cinayətkar qız	**30**	**11/5**

Adi oğlan	**100**	**38/5**
Adi qız	**30**	**11/5**
Cəmi	**260**	**100**

2. Sınaqdan çıxarılanların təhsil səviyyəsinin müxtəlifliyi

Təhsil Say Faiz (%)

İbtidai	**30**	**11/5**
Orta siniflər	**132**	**50/8**
Yuxarı siniflər	**83**	**31/9**
Diplom	**14**	**5/4**
Cəmi	**260**	**100**

Adi qrupdakı qızların ən yüksək polisə münasibət miqdarı(sd=4/69 və mean=83/37) bərabərdir.

Cinayətkar qrupdakı qızların ən aşağı polisə münasibət miqdarı (sd=12/84 və mean=62/77) bərabərdir. Deməli cinayətkar qrupdakı qızlar digər qrupdakı qızlara nisbətən polisə daha mənfi münasibət bəsləyir.

Əldə edilən nəticələr

Tədqiqatın fərziyyələrini araşdırmaq üçün iki qrup arasındakı fərqi araşdırmaq məqsədilə iki müstəqil qrupun **t** statistik sınaq üsulundan istifadə edilmişdir. Bunun nəticələri aşağıda verilmişdir.

Fərziyyə: Adi qrupla müqayisədə cinayətkar qrup polisə mənfi münasibət bəsləyir.

Cədvəl 6. İki qrupun polisə münasibət dəyişkənliklərinin qiymətləri cəminin təsviri göstəriciləri

Dəyişkən / **Qrup**		**Say**	**Ortalama**	**Standartdan yayınma**	**Standart xətası ortalama**
Mənlik	**cinayətkar**	**130**	**65/22**	**15/5**	**1/36**
	adi	**130**	**82/05**	**7/34**	**0/323**

Cinayətkar qrupla müqayisədə adi qrupdakı fərdlərin polisə münasibəti daha müsbətdir.

Nəticə göstəriciləri

Öncə homogen variasiya üsulları üçün LEVENS sınağı icra edildi və nəticələr variasiyaların bərabərliyini göstərdi. Sonra **t** sınağı həyata keçirildi.

Cədvəl 7. Adi və cinayətkar qrup ortalamalarının müqayisəsi üçün t sınağı.

Göstəricilər / **Dəyişkən**	**Levens sınağı**		**t**	**Azadlıq dərəcəsi**	**Anlamlı səviyyə**	**İki ortalamar arasında fərq**
	F	**Sig**				
Polisə münasibət	**46/41**	**0/00**	**-11/19**	**258**	**0/00**	**-16/84**

Ahpha<0/01

t nəzərə alınmaqla hesablanmışdır.(t=-11/86 ,df=258), iki qrupun fərqi anlamlıdır. Buradan bu nətəcəyə gəlmək olar ki, cinayətkar qrupa nisbətən adi qrupdakı fərdlərin polisə münasibəti daha müsbətdir.

Tədqiqın sualı

Sualı tədqiq etmək üçün iki yolu olan (ANOVA 2 way) varians statistik təhlil üsulundan istifadə edilmiş və lazım gəldikdə yoxlama sınaqları aparılmışdır.

Sual. İki qız və oğlan qrupları arasında polisə münasibət fərqlidir?

Cədvəl 8. Sınaqda iştirak edənlərin polisə münasibət qiymətləri cəminin təsviri göstəriciləri.

Göstərici Miqyas	Adi qrup		cinayətkar qrup	
Polisə münasibət	oğlanlar N=100	qızlar N=30	oğlanlar N=100	qızlar N=30
M	81/66	83/37	65/95	62/77
sd	7 /9	4/69	16/22	12/84

Alpha<0/01

Alınan göstəricilər

Cədvəl 9. Bir dəyişkənli cədvəl (Anova).

	Kvadrat cəmi	Azadlıq dərəcəsi	Kvadrat oralaması	F	Anlamlı səviyyə
Qruplararası	187 30/77	3	624 3/59	42/41	0/00
Qrupdaxili	366 89/52	256	147/ 225		
Cəmi	564 20/29	259			

Alpha<0/01

Yuxarısadı cədvəl nəzərə alınmaqla (p<0/01 ,F=42/41) ilə sınaqda iştirak edənlin polisə münasibət orta qiymətləri arasında anlamlı fərq mövcuddur. Şeyfe yoxlama sınağından istifadə etməklə ortalamaları müqayisə edirik.:

Cədvəl 10. Bütün qrupların polisə münasibət qiymətlərini yoxlama sınağı.

Qrup 1	Qrup 2	Orta qiymətlər fərqi(1-2)	Standartdan kənara çıxma xətası	Anlamlı
Cinayətkar oğlan	Cinayətkar qız Adi oğlan Adi qız	3/19 -15/71 -1742	20/52 1/72 2/53	0/066 0/00 0/00
Cianyətkar qız	Cinayətkar oğlan Adi oğlan Adi qız	-3/19 -18/89 -20/6	2/53 2/53 3/13	0/66 0/00 0/00
Adi oğlan	Cinayətkar oğlan Cianyətkar qız Adi qız	15/71 18/89 -1/71	1/72 2/53 2/53	0/00 0/00 0/93

Adi qız	**Cinayətkar oğlan**	**17/42**	**2/53**	**0/00**
	Cinayətkar qız	**20/6**	**3/13**	**0/00**
	Adi oğlan	**1/71**	**2/53**	**0/93**

Alpha<0/01

Yuxarıdakı cədvəl nəzərə alınmaqla, iki cinayətkar və adi qrupun polisə münasibət qiymətləri ortalaması arasında anlamlı fərq vardır. Başqa qruplara nisbətən adi qrup qızlarının polisə münasibət qiymətləri ortalaması daha yuxarıdır. (mean=83/37) ilə bu deməkdir ki, adi qızlar başqa qruplarla müqayisədə polisə daha müsbət münasibət bəsləyirlər. Eyni zamanda cinayətkar oğlan və cinayətkar qızların polisə münasibət qiymətləri ortalaması arasında anlamlı fərq mövcuddur.

Tədqiqatın fərziyyə va sual cəhətdən araşdırılması

Fərziyyə. Adi qrupla müqayisədə cinayətkaq qrupun polisə münasibəti mənfidir.

Bu fərziyyə təsdiq edildi, yəni iki qrupun polisə münasibət qiymətləri fərqlidir və polisə münasibət qiymətləri ortalaması adi qrupda cinayətkar qrupdan daha çoxdur. Bu nəticə də əvvəlki tədqiqatın nəticələri ilə eyniyyət təşkil edir.

Sual. İki qrupdakı qız və oğlanların polisə münasibətləri fərqlidir?

Bu sualın cavabı müsbətdir, yəni cinayətkar qrupla adi qrupun polisə münasibət qiymətləri ortalaması arasında anlamlı fərq vardır. Adi qızların polisə münasibət qiymətləri ortalaması digərlərindən daha yüksəkdir. Belə ki, digər qruplarla müqayisədə adi qızların polisə münasibəti daha müsbət və daha yüksəkdir.

Cinayətkar oğlanlarla cinayətkar qızların polisə münasibət qiymətləri ortalaması arasında anlamlı fərq mövcud deyildir.

Təkliflər

1. Təklif olunur ki, sonrakı tədqiqatlar başqa şəhərlərdəki yeniyetmələr və imkan daxilində digər ölkələrdə mədəniyyətlər arasında müqayisəli şəkildə aparılsın.

2. Təklif olunur ki, sonrakı tədqiqatlarda cinayətkarlığın şərhi üçün başqa nəzəriyyələrdən istifadə edilsin və nəticələr vahid və ümumi görüşlər əldə etmək məqsdilə müqayisəli şəkildə təhlil edilsin.

Açar sözlər: cinayətkarliq, polisə münasibət, İslah müəssisələrindəki yeniyetmələrin.

İstifadə olunmuş ədəbiyyat

1. Tehran islah-tərbiyə müssisəsinə daxil olanların müqayisəli statistikası, 2000-2005. İslah-tərbiyə müəssisəsi, Tehren.

2. Amorso, Donald və Vier, Edvard. (1986). Yeniyetmələrin ev mühiti haqqında fikirləri və onların öz valideynlərinə olan münasibəti və xarici iqtidar. "Yeniyetməlik".

3. Bravin, Ben və Benedikt, R.Vilyam.(2002). Polis haqqında müxtəlif düşüncələr: əldə edilənlər, problemlər, metodologiya, anlayışla bağlı mövzular. "Polisin üsulları və rəhbərliyi" beynəlxalq jurnal, № 25.

4. Farinqton P.Devid. (2003) Yeniyetmələrdə qəddarlığın səbəbləri və ehtimalları. Yeniyetmələrdə qəddarlıq.(Cinayət və ədalət). Tədqiqatlara baxış, 24-cü cild.

5. Gelen,A. və Qrant, C. (2009). Məhkəmələrin icra qanunu.Ailəyə aid məsələlər.Trenton, Nyu Cersi.

6. Kuper, Smit S.(1968). Mənlik və gənclik.Frimen, San Fransisko.

7. Lober, R. və həmkarları. (1998).Yeniyetmələrdə dalaşqanlıq və qəddarlıq dəyişiklikləri: bəzi səhv təsəvvürlər və mübahisələr.Amerika psixologiya jurnalı, № 53.

8. Lorens, A. (2008).Almaniyada yeniyetmələrin cinayətkarlığı. Almaniya vilayət statistika idarəsi.

9. Məhəmmədiəsl, M.(2006).Yeniyetmələrin cinayətkarlığı və ictimai yayənmalar nəzəriyyəsi. Tehran, "Elm" nəşriyyatı.

10. Pataçini, E. (2008)..Qızların cinayətkarlığı və həmrənglilik. İtaliya, Stokholm Universiteti.

11. Patrik, T. və həmkarları. (2008). Yeniyetmələrin cinayətkarlığına təsirli müdaxilənin və onunla bağlı problemlərin araşdırılması. Yeniyetmə Tədqiqat İnstitutu, Psixologiya departamenti, İlinoys Universiteti, Çikaqo, Amerika.

12. Reqbi, K və Şafild, F. (1987). Uşaqlaqrın və yeniyetmələrin müxtəlif qüdrət məqamlarına baxışının tədqiqi. "Yeniyetməlik" jurnalı, № 10.
13. Sigel, L. və Sena, J. (2003).Yeniyetmələrin cinayətkarlığı: nəzəriyyə, əməl və qanun. VII-cü çap.
14. Şambiyati H. (2005). Uşaqların və yeniyetmələrin cinayətkarlığı. "Məcd və jobin" nəşriyyatı, Tehran.
15. Vilyams, L. (2004). Uşaqlıqda incidilmə və qızların cinayətkarlığı arasında əlaqə. http:// www.wewonline.org, accessed. April, 23, 2004.
16. Neyhart, T. və həmkarları. (2005). Övladlar, valideynlər və müəllimlər:yeniyetmələrin qüdrət məqamlarına baxışının tədqiqi. Qərb kriminalistikasına baxış. Şimali Florida Universiteti, Amerika.
17. Delavər, Ə. (1995).Humanitar və ictimai elmlərdə tədqiqatın əsasları. "Roşd", Tehran.

Hasrulla АНСАРИНЕДЖАД

OTNOŞENIE K POLIÜII V PRESTUPNIX I OBIÇNIX QRUPPAX

Pezöme

Цelğ dannoy issledovatelğskoy rabotı – izuçenie prestupnosti sredi podrostkov iz obıçnıx şkol i Teqeranskoy ispravitelğnoy kolonii s toçki zreniə soüialğnoy psixoloqi, a takje vıəvlenie, naskolğko razvitı u nix çuvstvo sobstvennoqo dostoinstva, kak otnosətsə k poliüii, k zakonu, kak perenosət neudaçi i jestokostğ. Дlə sravneniə berutsə, prestupnaə qruppa malğçikov (100 çelovek) i prestupnaə qruppa devuşek (30 çelovek) iz Teqeranskoy ispravitelğnoy kolonii, a takje qruppa obıçnıx malğçikov (100 çelovek) i obıçnıx devuşek (30 çelovek) iz Teqeranskoy şkol. B kaçestve osnovı issledovaniə bıla ispolğzovana teoriə obuzdaniə. Otbor podrostkov ne provodilsə izbiratelğno. B kaçestve issledovaniə ispolğzovana forma oprosa. Bıvodı delaötsə na osnove statistiçeskoy proqrammı SPSS.

Klöçevıe slova: prestupnostğ, otnoşenie k poliüii, podrostki v ispravitelğnoy kolonii, opros.

Nasrullah ANSARINEJDAD

AN ATTITUDE TO THE POLICE IN THE CRIMINAL AND ORDINARY GROUPS

Summary

The purpose of the present research work is a study of the criminality among the teenagers from the usual schods and Teheran reformatory schools. From the standpoint of social psychology, as well exposing the degree of developing a sence of their self-respect, attitude to the police, law and how they endure misfortune and cruelty. For comparison there were taken the criminal group of boys (100 persons) and criminal group of the girls (30 persons) from Teheran reformatory school, as well the group of ordinary boys (100 persons) and usual girls (30 persons) from Teheran ordinary schools. There was used a theory of restraining as a basis of study. The members of the group were selected accidentally. They used the form of interrogation as a study. The conclusions are drawn on the basis of statistical programme SPSS.

Keywords: criminality, attitude to the police, teenagers in a reformatory school, questioning.

SİYASİ ELMLƏR BÖLMƏSİ

UOT 327.7

Hikmət MƏMMƏDOV
BDU-nun dosenti,
siyasi elmlər üzrə fəlsəfə doktoru

AVROPADA YENİ BEYNƏLXALQ MÜNASİBƏTLƏR SİSTEMİNİN FORMALAŞMASI, XÜSUSİYYƏTLƏRİ VƏ BEYNƏLXALQ TƏŞKİLATLAR*

İkinci dünya müharibəsindən sonra Avropada mövcud olan beynəlxalq münasibətlər sistemi yaranmış şəraitin təbiətinə uyğun olaraq, hazırkı vəziyyətindən tam fərqli idi. Bu dövrdə Avropada öz fəaliyyətlərinə görə tamam əks qütblərdə duran bloklar mövcud idi. Beynəlxalq münasibətlər də məhz bu blokların fəaliyyət və mövqe prinsiplərinə uyğun olaraq formalaşmışdır (1).

Bunlardan birinci blok əsasən Qərbi Avropanın bütün inkişaf etmiş ölkələrini özündə birləşdirirdi. Digəri isə Şərqi Avropa dövlətlərinin ittifaqından ibarət idi. Bu vəziyyət XX əsrin 80-ci illərinə qədər davam etdi. XX əsrin sonlarında kommunist cəbhəsinin aradan çıxması dünya siyasi xəritəsində və buna uyğun olaraq beynəlxalq münasibətlər sistemində ciddi dəyişikliklər baş verdi. Bu dəyişikliklərdən ən nəzərə çarpanları 1990-cı ildə Almaniyanın birləşməsi, 1991-ci ildə sovetlər birliyinin çökməsi, 1991-ci ildə Yuqoslaviyanın süqutu, 1993-cü ildə Çexoslavakiyanın parçalanması idi. Beləliklə, dünya siyasi xəritəsinin Avropa hissəsində doqquz yeni aktor yer almış oldu (3).

Yaranmış yeni siyasi vəziyyət Avropada iqtisadi və siyasi durumu kökündən dəyişdirdi. Bütün bu proseslərin fonunda tamam fərqli, yeni prinsiplərə söykənən beynəlxalq münasibətlər sistemi formalaşdı. Yaranmış yeni beynəlxalq münasibətlər sistemi müasir dövrün siyasi reallıqlarına söykənirdi. Bu reallıqları ümumi şəkildə aşağıdakı kimi qruplaşdırmaq olar:

- İdeoloji və iqtisadi baxımdan Avropanın qütbləşməsi aradan qalxmışdı. Avropa dövlətləri isə məlum olduğu kimi, keçid iqtisadiyyatı və bazar iqtisadiyyatı prinsiplərinə əsaslandığı üçün burada ideoloji zəmində münaqişələrin meydana gəlməsi ehtimalları az idi. Bundan əlavə, belə vəziyyətdə Avropa dövlətlərinin inteqrasiyası üçün də münbit şərait yaranmışdı olur. Bu da öz növbəsində vahid iqtisadi zonanın yaranmasını şərtləndirmişdi.

- Avropada beynəlxalq münasibətlər sistemi yalnız dövlətlər arasında münasibətləri deyil, həm də ittifaqlarda təmsil olunan dövlətlər arası münasibətləri də əhatə edirdi. Bu ittifaqlar əsasən iqtisadi, siyasi və hərbi xarakterə malik olurlar. Avropa tarixində Avropa ölkələrinin siyasi, iqtisadi və hərbi inteqrasiya məsələləri həmişə aktual olmuşdur. Buna görə də Avropa qitəsində bu cür ittifaqların mövcud olması tarixi xeyli qədimdir. Bu baxımdan inteqrasiya prosesi artıq mövcud olan ittifaqlara yeni üzvlərin daxil olması çərçivəsində inkişaf edirdi. Belə ki, Avropa ittifaqı özündə 15 ölkəni birləşdirir və vahid valyuta Avropanın 11 ölkəsində qüvvədədir. Avropanın 19 ölkəsi isə vahid iqtisadi zonada qarşılıqlı əlaqədədir.

- Avropa hazırda postindustrial inkişaf mərhələsinə qədəm qoymuşdur. Bu baxımdan Avropa dövlətlərini üç qrupa ayırmaq olar. Birinci qrupda inkişaf etmiş yeddilik yer almışdır. İkinci qrupa Yeddiliyin müttəfiqləri olan dövlətlər, nəhayət üçüncü qrupa keçid iqtisadiyyatına malik olan dövlət daxil idi. Hazırda Avropada bərqərar olmuş yeni beynəlxalq münasibətlər sistemində başlıca prinsip ondan ibarətdir ki, bütün dövlətlərin maraqları uzlaşdırılır. lakin buna baxmayaraq, dövlətlər arasında bəzi fikir ayrılıqları da müşahidə olunur. Məsələn belə fikir ayrılıqlarından biri Aİ, NATO və s. kimi təşkilatlara inteqrasiya məsələsi ilə bağlıdır. Bundan başqa, maliyyə ehtiyat bölgüsü ilə bağlı kəskin fikir ayrılıqları meydana çıxa bilər. Əsas diqqəti çəkən məqam isə ondan ibarətdir ki, Avropada və bütün dünyada meydana çıxan qlobal problemlərin həlli ilə bağlı ciddi ziddiyyətlər meydana çıxır. Belə ki, dövlətlərdən hər biri problemin aradan qaldırılmasının xüsusi mexanizmlərini təklif edirlər və məhz hər bir tərəf onun təklif etdiyi mexanizm üzrə fəaliyyət göstərilməsini tələb edir. Buna baxmayaraq, Avropada beynəlxalq münasibətlərin problemləri bir qayda olaraq dinc yolla, kompromiss və məsləhətləşmələr yolu ilə həll edilir.

---

* Məqalə siyasət üzrə f.d. E. Mirbəşiroğlu tərəfindən çapa məsləhət bilinib.

- Bütün dünyada olduğu kimi, Avropada daim keçid mərhələsində olduğu kimi hiss olunur.

Ümumiyyətlə beynəlxalq təhlükəsizlik üçün gizli təhdidlər qalmaqda davam edir və regional münaqişələr hələ də mövcuddur. ABŞ NATO vasitəsi ilə mövcud təhdidlərdən yeni geosiyasi vəziyyətin yaranması üçün istifadə edir. Avropada yaranmış yeni beynəlxalq münasibətlər sistemində səciyyəvi xüsusiyyətlərdən biri də məhz bundan ibarətdir. Yəni, ABŞ Avropaya hərbi-siyasi təsirini heç bir halda itirmək istəmir. Bu məqsədlə ABŞ Avropadakı bütün inteqrasiya proseslərinin məhz NATO bayrağı altında həyata keçirilməsinə çalışır (4).

Yuxarıda nəzərdən keçirdiyimiz prinsiplərdən aydın olur ki, həqiqətən Avropada tamam fərqli bir beynəlxalq münasibətlər sistemi formalaşmışdır. Yeni beynəlxalq münasibətlər sisteminin əsas xarakterik cəhəti ondan ibarətdir ki, bütün inteqrasiya prosesləri başlıca olaraq beynəlxalq və regional təşkilatlar çərçivəsində müşahidə olunur. Yəni sistemin başlıca subyektləri rolunda əsasən beynəlxalq təşkilatlar çıxış edir(2).

Bu baxımdan bu təşkilatların hər birini ayrı-ayrılıqda nəzərdən keçirmək, onların fəaliyyətlərinin vacib məqamlarına diqqət yetirmək əhəmiyyətlidir. Avropanın müasir beynəlxalq münasibətlər sistemində aparıcı rol Avropa İttifaqına məxsusdur buna görə də ilk növbədə məhz bu təşkilatın nəzərdən keçirilməsi məqsədə uyğundur. Hər şeydən öncə qeyd etmək lazımdır ki, Avropa İttifaqı siyasi, iqtisadi və maliyyə ittifaqıdır. Ən əsası isə siyasi yönümlü bir təşilatdır. Bu təşkilatın əsas devizi Avropada təhlükəsizliyin birgə səylərlə təmin olunmasından ibarətdir. Həmçinin Avropa İttifaqının qarşısında duran əsas vəzifələrdən biri də inteqrasiya proseslərini sürətləndirməkdir. Bu mənada Avropada siyasi sahədə inteqrasiya prosesləri nəzərə çarpacaq dərəcədə dərinləşmişdir. Belə ki, bu gün fəaliyyət göstərən Avropa parlamenti 518 nəfərdən ibarətdir.**(5)**

Qeyd etmək lazımdır ki, parlament ümumi birbaşa seçkilər yolu ilə formalaşır. Müşahidələr göstərir ki, Avropadakı mövcud vəziyyət məhz Aİ-nin ciddi səyləri və təsiri altında dəyişir. Artıq yuxarıda qeyd etdiyimiz kimi, Avropanın 11 ölkəsində vahid valyuta işləyir. Bu, Avropa İttifaqı sayəsində inteqrasiyanın dərinliyini bir daha sübut edir. Aİ-nin bir sıra səciyyəvi cəhətlərə malikdir. Birincisi bu təşkilatla əməkdaşlıq üçün bir sıra meyarların olması tələb olunur. Belə ki, Aİ-də əməkdaşlıq üçün iqtisadi göstəricilərin olması vacibdir və həmçinin hüquqi sistemə də inteqrasiya tələb olunur.**(7)**

Bəzi tədqiqatçılar hesab edirlər ki, Aİ-də əməkdaşlıq edən dövlət bu və digər formada öz suverenliyinin bir qismini də qurban verməlidir. Bu ondan irəli gəlir ki, beynəlxalq miqyaslı idarəetmə məsələlərində bir sıra funksiyalar Brüselin əlinə keçir. Avropa İttifaqını digər təşkilatlardan fərqləndirən səciyyəvi xüsusiyyət ondan ibarətdir ki, bu təşkilatda Avropanın ən inkişaf etmiş dövlətləri təmsil olunur. Bunlar Fransa, Italiya, Almaniya, İspaniya, Böyük Britaniya, Avstriya, İsveç və s. dövlətlər. Onu da qeyd etmək lazımdır ki, ittifaq çərçivəsində əməkdaşlıq edən dövlətlər arasında bir çox məsələrlə bağlı ciddi fikir ayrılıqları da yaranır. Belə fikir ayrılıqları əsasən aqrar siyasətlə, sənaye ilə, maliyyə və s. məsələlərlə bağlı olur. Fikir ayrılıqlarını meydana gətirən başlıca səbəb ondan ibarətdir ki, qeyd etdiyimiz məsələlər ittifaq çərçivəsində həll edilir. Belə olan halda isə bəzən qəbul edilmiş qərarlar ayrı-ayrı dövlətlərin maraqlarına cavab verməyə bilər. Bu isə əlbəttə müəyyən ziddiyyətlərə gətirib çıxarır. Avropada yaranmış yeni beynəlxalq münasibətlər sistemində inteqrasiya əsasən təşkilatlar çərçivəsində baş verir. Bu yeni beynəlxalq münasibətlər sisteminin xarakterik cəhətidir. Yeni sistemə uyğun olaraq Aİ-da da genişlənmə prosesi müşahidə olunur. Belə ki, 1999-cu ildə Avropa İttifaqına altı yeni üzvün qəbul edilməsi haqqında qərar qəbul olunmuşdur. Yeni üzvlər Kipr, Çexiya, Macarıstan, Sloveniya, Estoniya dövlətləri idi. Bundan əlavə, Bolqarstan, Latviya, Malta, Slovakiya, Rumıniya və Türkiyə dövlətləri də Avropa İttifaqına üzv olmaq üçün rəsmi namizəd statusu almışdılar. Yaranmış yeni beynəlxalq münasibətlər sisteminin daha bir səciyyəvi xüsusiyyəti ondan ibarətdir ki, Avropada vahid ordunun yaradılması ideyası da gündəmə gəlmişdir. İttifaqa qəbul kritelərinin yumşaldılması haqqında qərarın qəbul olunması yeni beynəlxalq sistemin səciyyəvi xüsusiyyəti idi. Belə ki, artıq iqtisadiyyatı zəif olan dövlətlərin də Avropa İttifaqına qəbul olunmaq imkanları yaranmışdır. Bununla bağlı olaraq Aİ ittifaqın modernləşdirilməsi istiqamətində müəyyən islahatların həyata keçirilməsi haqqında bəyanat vermişdir. Eyni zamanda ittifaqın aparıcı dövlətlərinin hər hansı bir probleminin həlli ilə bağlı qərarların qəbul olunmasında mövqeyinin həlledici olması meyli genişlənməkdədir. Bu vəziyyət müasir beynəlxalq münasibətlər sistemində daha yeni bir mənzərənin yaranmasını şərtləndirmişdir. Belə ki, Avropa İttifaqında əməkdaşlıq edən dövlətlərin də öz aralarında koalisiyaların yaradılması ehtimalları getdickə güclənməkdədir. Bu ondan irəli ki, zəif dövlətlər güclü dövlətlər qarşısında öz hüquqlarını qorumağa və maraqlarını müdafiə etməyə cəhd göstərirlər. Avropa Şurası müasir Avropa beynəlxalq münasibətlər sistemində həlledici mövqeyə malik olan bir təşkilatdır. Yenə də ilkin olaraq qeyd etmək lazımdır ki, bu təşkilatda 40 dövlət əməkdaşlıq edir. Avropa

Şurasının fəaliyyətinin əsas istiqamətləri aşağıdakılardan ibarətdir:

1. İnsan hüquqlarının qorunması üçün səmərəli hüquqi bazanın yaradılması;
2. Avropa mədəni dəyərlərinin qorunub saxlanması istiqamətində tədbirlərin həyata keçirilməsi;
3. Sosial problemlərin birgə həlli istiqamətində fəaliyyətin həyata keçirilməsi;
4. Avropanın yeni demokratik dövlətləri ilə əməkdaşlığın qurulması.

Avropa Şurası işini əsasən üzv dövlətlərin xarici işlər nazirlərindən ibarət olan nazirlər komitəsi çərçivəsində reallaşdırır. Nazirlər səviyyəsində toplantı bir qayda olaraq ildə iki dəfə olur (8).

Avropanın müasir beynəlxalq sistemində hərbi blokların da özünəməxsus yeri vardır. Avropada bir neçə hərbi blok, ittifaq və qruplar mövcuddur. Bunlar beynəlxalq münasibətlərin inkişaf dinamikasına əhəmiyyətli dərəcədə təsir göstərirlər. Avropada mövcud olan hərbi bloklardan NATO, Qərbi Avropa ittifaqı, avropa korpusu və s. kimi hərbi təşkilatları göstərmək olar. Bu hərbi təşkilatlar arasında ən ciddi olanı sözsüz ki, NATO-dur. NATO öz sıralarında 16 dövləti birləşdirir. Mənzil qərargahı Brüseldə yerləşir. Ayrı-ayrı hallarda isə hər hansı bir dövlət blokda müşahidəçi qismində əməkdaşlıq edə bilər. Məsələn İslandiyanın özünün züsusi hərbi qüvvəsi olmadığı üçün müşahidəçi qismində təmsil olunur. Yaranmış yeni beynəlxalq siyasi reallıqlara uyğun olaraq. NATO-nun genişlənməsi məsələsi ciddi diqqət mərkəzindədir. Xüsusi ilə də blokun Şərqə doğru genişləndirilməsi məsələsi daha böyük aktuallıq kəsb edir. NATO öz mövcudluğunun ilkin dövrlərində kifayət qədər yüksək qiymətləndirilirdi. Yəni, bu blok Avropada təhlükəsizliyin əsas təminatçısı kimi qəbul edilirdi. Lakin bu gün yeni bir vəziyyətin yaranması müşahidə olunur. Belə ki, artıq NATO əvəzolunmazlığı ilə bağlı stereotiplərin dağıldığı müşahidə olunur. Bir çoxları artıq hesab edirlər ki, NATO-nun müasir beynəlxalq münasibətlər sistemində rolu və əhəmiyyəti azalmaqdadır. (6)

Bu baxımdan onun siyasi səhnədən çıxması məqbul sayılardı. Bunun tamam əksini fikirləşənlər çoxluq təşkil edir. Onların fikrincə, NATO-ya əlavə yeni funksiyalar şamil etməklə, onu canlandırmaq lazımdır. ABŞ NATO-nun ATƏT mandatına sahib olaraq Avropada sülhün qorunması üzrə əməliyyatlarda aparıcı rol oynamasını təklif etmişdir. Bu təklifə uyğun olaraq, ABŞ NATO-nun coğrafiyasının genişlənməsi istiqamətində ciddi addımlar atmağa cəhd edir. Bu gün hətta Avropada mövcud olan bütün hərbi qurumlarım NATO-ya tabe etdirilməsi istiqamətində ciddi işlər reallaşdırılmaqdadır. Avropanın bir çox dövlətlərində ciddi olaraq belə düşünürlər ki, NATO-nun zəifləməsi ümumilikdə ABŞ-ın Avropadakı təsirlərini zəiflədəcəkdir. Bu baxımdan NATO-nun siyasi səhnədən uzaqlaşmasına maraqlı olan dövlətlərdə mövcuddur. Avropada son dövrlərdə baş vermiş mühüm bir hadisə bu fikirlərin ciddiliyinə dəlalət edir. Belə ki, Böyük Britaniya, Almaniya, İtaliya və Fransa Aİ nəzarəti altında vahid silahlı qüvvələrin yaradılması haqqında razılaşma əldə edilmişdir. Siyasət sahəsinin bir çox tədqiqatçıları hesab edirlər ki, gələcəkdə NATO-nun nüfuz dairəsinə daxil olmayan ərazilərdə Avropa İttifaqının vahid silahlı qüvvələri fəaliyyət göstərəcəkdir. Həqiqətən də müasir dövrümüzdə birləşmiş Avropa ordusunun yaradılması məsələsi ciddi şəkil almışdır. Qərbi Avropa İttifaqı adlı hərbi qurum öz sıralarında Avropanın 13 dövlətini birləşdirir. lakin bu ittifaqın təşkilatı məsələlərində bir sıra ciddi problemlər meydana çıxmışdır. Bu problemlər içərisində maliyyə məsələsi birinci yer tutur. Tədqiqatçıların əksəriyyəti hesab edirlər ki, hazırkı şəraitdə beynəlxalq münasibətlərə Avropanın hərbi təsirləri onun iqtisadi təsirindən xeyli dərəcədə zəifdir.

Müasir Avropa siyasi sistemində özünəməxsus yeri olan təşkilatlardan biri də ATƏT-dir. ATƏT-in Avropa məkanında başlıca məqsədlərindən aşağıdakıları göstərmək olar.

- dövlətlər arası qarşılıqlı münasibətlərin yaxşılaşması istiqamətində fəaliyyət göstərmək;
- sülhün əsaslı şəkildə təmin olunması üçün şəraitin yaradılması;
-dövlətlər arası münasibətlərin yaxşılaşdırılması üçün bütün dövlətlərin marağının artırılması;
-Avropada sülhlə təhlükəsizliyin sıx təmasının uzlaşdırılması və s. (9)

ATƏT-in əsas orqanı dövlət və hökumət başçılarının toplantısından ibarətdir. Bu toplantı ATƏT-in prioritetlərini və əsas istiqamətlərini müəyyənləşdirir. Son zamanlar ATƏT Avropada cərəyan edən siyasi proseslərin önündə durur. Lakin ATƏT haqqında danışarkən xüsusi bir məqama da diqqət yetirmək lazımdır. Avropada sülhün və təhlükəsizliyin təmin olunması fəaliyyətinin prioriteti kimi müəyyənləşdirmiş ATƏT bir çox məsələlərin həllində ikili standartlar nümayiş etdirir. Məsələn, götürək Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsini. Azərbaycan Respublikası 1992-ci ildən ATƏT-in üzvüdür. Deməli, bütün üzv dövlətlərində olduğu kimi, Azərbaycanın təhlükəsizliyinin təminatçısı rolunda ATƏT-in üzərinə böyük məsuliyyət düşür. 1992-ci ilin martında birbaşa Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi üçün ATƏT-in Minsk qrupu yaradıldı. 1994-cü ilin mart ayının 4-də ümummilli lider Heydər Əliyevin böyük əzmkarlığı və siyasi iradəsi nəticəsində atəşkəs haqqında razılaşma imzalandı. Məhz bu dövrdən başlayaraq ATƏT-in Minsq qrupu çərçivəsində tərəflərin ardıcıl

danışıqlar prosesinə start verilmişdir. Lakin bu günə qədər ATƏT-in vasitəçiliyi ilə aparılan bu danışıqlar heç bir nəticə verməmişdir. Bundan başqa, ATƏT daim işğalçı Ermənistana münasibətdə yumşaq mövqe nümayiş etdirmişdir.

Açar sözlər: beynəlxalq münasibətlər, Avropa, beynəlxalq təşkilatlar, Avropa İttifaqı, NATO, Avropa Şurası, ATƏT-in Minsk qrupu, Avropa parlamenti, Dağlıq Qarabağ münaqişəsi.

İstifadə olunmuş ədəbiyyat

1. Abbasbəyli A. Nəcəfov E. Beynəlxalq münasibətlər nəzəriyyəsi. Bakı, 2007, 206 s.
2. Əfəndiyev M. Siyasi elmin əsasları. Bakı, Siyasət nəşriyyatı, 2008, 636 s.
3. Əliyev E. Müasir beynəlxalq münasibətlərdə qütbləşmə problemi. Bakı, Adiloğlu, 2007, 118 s.
4. Məmmədov H.Azərbaycan beynəlxalq münasibətlərin aktoru kimi: siyasi, ideoloji və diplomatik məsələlər. Bakı, Elm, 2007, 516 s.
5. Piriyev A. Siyasi strategiya və milli təhlükəsizlik. Bakı, Bakı Universiteti Nəşriyyatı, 2005, 544 s.
6. Əzimli A. Azərbaycan-NATO münasibətləri (1992-2000). Bakı, 2001, 226 s.
7. Tayyar Arı. Uluslararası İlişkiler ve Dış politika, (qısaltma: Dış Politika) 7. bsk, Bursa,2008,671 s.
8. Цıqankov П., Дrobot Г., Лebedeva M. i dr. Mejdunarodnıe otnoşeniə: teorii, konfliktı, dvijeniə, orqanizaüii. M., 2007, 320 s.
9. Archer C. International Organizations. 2nd Ed. London, 1992. P. 22.

Xikmet MAMEДOB

ФORMIROVANIE NOVOY SISTEMI MEJDUNARODNIX OTNOŞENIY V EVROPE, OSOBENNOSTI I MEJDUNARODNIE ORQANIZAÜII

Pezöme

Covremennaə sistema mejdunarodnıx otnoşeniy - gto sovokupnostğ mejdunarodnıx otnoşeniy v sfere politiki, gkonomiki, kulğturı i t.d. Mejdunarodnıe otnoşeniə realizuötsə putem mejdunarodnoy politiki, provodimoy suverennımi qosudarstvami, ix soözami i mejdunarodnımi orqanizaüiəmi, v tom çisle nepravitelğstvennımi. Otnoşeniə mejdu qosudarstvami osnovıvaötsə na ix stremlenii obespeçitğ opredelennımi sredstvami realizaüiö sobstvennıx interesov.

Klöçevıe slova: mejdunarodnıe otnoşeniə, Evropa, mejdunarodnıe orqanizaüii, Evropeyskiy Coöz, HATO, Covet Evropı, Minskaə qruppa OБCE, Evropeyskiy parlament, Haqornıy Karabax.

Hikmet MAMMADOV

FORMATION OF A NEW SYSTEM OF THE INTERNATIONAL RELATIONS IN EUROPE, FEATURES AND INTERNATIONAL ORGANIZATIONS

Summary

The present system of international relations is an aggregate of international relations in a sphere of politics, economics, culture and etc.

The international relations are realized through world policy held by the sovereign states, their unions and international organizations, including the non-governmental ones too.

The relations between the states are based on their aspirations to provide for realization of own interests by certain means.

Keywords: international relations, Europe, international organizations, European Union, NATO, European Council, Minsk group of OSCE, European parliament, Nagorno Karabagh conflict.

UOT 101

Güləddin HƏMZƏYEV
AMİ-nin dosenti, fəlsəfə d oktoru

EKOLOJİ VƏ SOSİAL SİSTEMLƏRİN İNKİŞAFINDA XARİCİ VƏ DAXİLİ AMİLLƏRİN ROLU HAQQINDA*

İnsan yarandığı vaxtdan etibarən təbiət qarşısındakı acizliyini hiss etmiş və daima onun qanunlarını öyrənməyə maraq göstərmişdir. Təbiətin möcüzə xarakterli hadisə, prosesi, qanun və qanunauyğunluqları bütün əsirlər boyu müxtəlif mövqelərdən araşdırılmış və müxtəlif fikirlər söylənilmişdir (2, 37, 28, 29). Lakin təkamül o qədər mürəkkəb və ziddiyyətli bir prosesdir ki, onu mütləq mənada öyrənib axıra çıxmaq və bitmiş bir təlim kimi qəbul etmək mümkün olmamışdır. Odur ki, inkişaf prosesinin öyrənilməsi həmişə aktual olmuş və bu gün də aktual olaraq qalır. Qeyri-üzvi və üzvi təbiət, insan və cəmiyyət təkamül prosesinin müəyyən mərhələsində konkret zaman və məkan daxilində əlverişli şərait yaranarkən meydana gəlmişlər (2, 5, 7, 16, 24). İnkişaf prosesinin məhz əlverişli şərait anlarında dönüş yaranmış, qeyri-üzvi aləmdə yeni strukturlar, üzvi aləmdə taksonlar, cəmiyyətdə isə liderlər, yeni münasibətlər və siyasi rejim yaranmış, köhnə isə təkamül və ya inqilabi yolla, qismən və ya tamamiylə inkar olunmuşdur.

Yerin geoloji inkişaf tarixini öyrənən tədqiqatçılar planetimizin inkişafında 5 əsas mərhələ - arxeozoy, protorozoy, paleozoy, mezozoy və kaynozoy eralarını ayırırlar. Bu eraların hər birində mövcud olmuş ekosistemlər tektonik, vulkanik, sedimentasiya və digər proseslərin xarakterinə, üzvi aləminə, mühitin fiziki-kimyəvi göstəricilərinə və digər parametrlərinə görə digərlərindən əsaslı surətdə fərqlənmişlər (8, 9, 10, 19, 21, 26).

Cəmiyyəti öyrənən tədqiqatçıların araşdırmaları birmənalı göstərmişdir ki, bəşər cəmiyyəti özünəməxsus xüsusiyyətləri ilə səciyyələnən 5 inkişaf mərhələsi – iqtisadi-ictimai formasiya keçmişdir: ibtidai icma, quldarlıq, feodalizm, kapitalizm və sosializm quruluşu. Göründüyü kimi, təbiətin və cəmiyyətin inkişafında özünəməxsus xüsusiyyətləri ilə fərqlənən 5 əsas mərhələ olmuşdur. Təbii sual yaranır ki, bu mərhələlərin, yəni əlverişli anların yaranmasına, inkişafına və dəyişməsinə səbəb olan amillər hansılardır? Onların qarşılıqlı münasibətləri nə cürdür? Təbiət və cəmiyyətin inkişafında oxşar cəhətlər hansılardır?

Həm təbiət, həm də cəmiyyət bir-biri ilə qarşılıqlı əlaqədə və iyerarxik aslılıqda olan, biri digərinin fəaliyyətini şərtləndirən sistemlər çoxluğu kimi mövcud olduğundan təkamül prosesində maddi və sosial sistemlərin inkişaf qanunauyğunluqlarını müəyyən edən əsas şərt ümumi mənada sistem üçün xarici və daxili hesab edilən amillərin və onların qarşılıqlı təsiri nəticəsində yaranan qüvvə olmuşdur. Planetar miqyasda ekosistem üçün xarici amil qalaktika səviyyəsində baş verən hadisələr və onların Yerə təsiri, daxili amillər isə ekosistemi təşkil edən komponentlər və onların qarşılıqlı münasibətidir.

İctimai sistemlərdə daxili amillərə mövcud cəmiyyətin iqtisadi, sosial, mədəni inkişaf səviyyəsi, müxtəlif təşkilatlar, təsisatlar, etnik birliklər, sosial təbəqələr, onların həyat və düşüncə tərzi, buna uyğun olaraq şuür və davranışı, maraq və mənafeylərindəki fərqlər və ziddiyətlər elitanın dünyagörüşü, maraq və mənafeyləri, digər sosial təbəqələrə münasibəti və nəhayət bütün bu ünsürlərin qarşılıqlı təsirindən yaranan və cəmiyyətdəki prosesləri tənzimləyən hüquqi qanunlarla müəyyən olunan ictimai mühit aid edilə bilər. Xarici amillər dedikdə mövcud cəmiyyətdən kənarda olan müxtəlif dövlətlər, qurumlar, etnik birliklər, beynəlxalq və ya regional təşkilatlar, cəmiyyətlər və s. nəzərdə tutulur.

Ekosistemlər daxili amillərin bir-biri ilə vəhdətdə və mübarizədə olan əks tərəflərini əsasən mühit və orqanizm təşkil edir (3, 22) cəmiyyətdə isə bu əksiklər ictimai mühit və sosial birliklərdir. Ekoloji mühit orqanizimlərin yaşaması üçün enerji və maddələr mənbəyi rolunu oynayır. O, canlılar üçün əlverişli və ya əlverişsiz ola bilər. Üzvi aləmin inkişafını ləngidər və ya sürətləndirər. Mühitin dəyişməsi canlıların məhvinə və ya mutasiyaya səbəb ola bilər. Mühit təkamülün genetik başlanğıcıdır (5, 15). Ona görə də hər bir geoloji zaman kəsiyində özünəməxsus, təkrarolunmaz fauna və flora mövcud olunmuşdur (1, 11, 14). Üzvi aləmin inkişafında baş verən iri miqyaslı dəyişikliklər adətən paleoekoloji şəraitin dəyişməsi ilə müşayət edilmişdir.

---

* Məqalə fəl.e.d., prof. Ə.Abasov tərəfindən çapa məsləhət bilinib.

Orqanizimlərin mühitdən aslılığı ilə yanaşı eyni zamanda nisbi müstəqilliyi də vardır. Onlar mühitə aktiv təsir göstərə bilirlər. Mühitdən aldıqları həyatı vacib maddələri özünəməxsus formada mənimsəməyə və mühitin fiziki-kimyəvi parametirlərini müəyyən qədər dəyişə bilirlər. Məsələn, müasir okeanlarda sedimentasiya prosesinin 90%-dan çoxu biogen yolla baş verir (8, 17, 18, 25). Mühitdə qaz rejiminin tənzimlənməsində, kimyəvi elementlərin miqrasiyasında, bəzi mineralların və çökmə suxurların yaranmasında və s. proseslərdə canlıların xüsusi rolu vardır. Cəmiyyətdə də mahiyyət etibarı ilə buna bənzər mənzərə müşahidə olunur. İctimai mühit ictimai həyatın mövcudluğu üçün əsas şərt rolunda çıxış edir.

Kifayət qədər çox və mürəkkəb amillər və proseslərin qarşılıqlı təsiri nəticəsində formalaşan və potensial davranışı şərtləndirən ictimai mühit konkret zaman kəsiyi üçün cəmiyyətin və onun tərkib hissələrinin inkişaf istiqamətini, sürətini, tərəqqisini, tənəzzülünü və s. göstəriciləri müəyyənləşdirir. Adətən bir və ya bir neçə qrup insanın obyektiv və ya subyektiv qüvvələrin təsiri ilə formalaşan fərdi şüuru, ictimai mühiti, o isə öz növbəsində ictimai şüuru müəyyən edir. İctimai şüru bütövlükdə cəmiyyətin potensial durumu, onun tərbiyəsidir. Hərçənd ki, cəmiyyətin tərkib hissələri nisbi müstəqilliyə malikdirlər və konkret şəraitdən asılı olaraq cəmiyyətdəki proseslərə bu və ya digər dərəcədə təsir göstərə bilərlər. Bəşər cəmiyyətinin tarixi inkişaf prosesində baş vermiş əsaslı dəyişikliklər məhs yeni iqtisadi-ictimai formasiyaların yeni ictimai mühitin yarandığı mərhələlərdə olmuşdur. Bunun üçün antik, orta əsrlər, intibah və s. dövrlərdəkı tərəqqi və tənəzzüllərin cəmiyyətdəki sosial-ictimai proseslərlə bilavasitə əlaqədar olmasını xatırlatmaq kifayətdir.

Maddi və ictimai sistemlərin inkişafında xüsusi yeri və rolu olan daxili amillər onu təşkil edən konponentlər arasındakı mürəkkəb münasibətlərin vəhdəti kimi özünü göstərdiyindən bu münasibətərin uyğunlaşması sistemin çiçəklənməsinə, ziddiyəti isə köhnə əlaqələrin qismən və ya tamamiylə inkarına və yeni əlaqələrin yaranmasına gətirib çıxarır ki, bu da inkişafda yeni mərhələnin başlanğıcı olur. Bu proses fasiləli-fasiləsiz xarekter daşıyır.

Doğrudur, inkişafda daxili amillərin rolu çox böyükdür, lakin o təkamülün həmişə aparıcı qüvvəsi ola bilməz. Daxili qüvvələrin təsiri ilə inkişaf tədricən gedir, kəskin dəyişikliklər olmur. Sistemin müvazinətinin pozulmasına və kəskin dəyişikliklərin getməsinə səbəb olan başlıca qüvvə adətən xarici təsirlərlə əlaqədar olur. Xarici amil böyük qar uçqununun yaranmasına səbəb olan kiçik kütləli qar yığımını xatırladır. İlk mərhələdə mühitin fiziki-kimyəvi göstəricilərində dəyişiklik gedir. Sonra mühit orqanizim münasibətlərindəki müvazinət pozulur, məxsusi xususiyyətlərindən asılı olaraq orqanizimlərdə adaptasiya, mutasiya, məhv olmaq və s. proseslər gedir. Bütün bunlar ekosistemin tam bir mexanizmi kimi funksiyalaşmasında öz əksini tapır. Məsələn, kosmosda baş verən dəyişikliklərin, Yerə təsiri nəticəsində tektonik proseslərin rejimi pozulur. Bu isə mühitin fiziki-kimyəvi parametlərinə, o da orqanizim-mühit münasibətlərinə və nəhayət orqanizimlərə təsir edir. Kiçik Qafqazın yuxarı təbaşir hövzəsinin inkişafı əsasən vulkanik proseslərlə tənzimlənmişdir.

Dəyişilmiş mühitin orqanizmə təsirinin effektivliyi, orqanizmin fizioloji xüsusiyyətlərindən, mütəşəkkillik dərəcəsindən, fərdi və tarixi inkişaf səviyyəsindən, nisbi müstəqilliyindən və s. göstəricilərdən asılıdır. Məsələn, quruda yaşayan orqanizimlər su mühitində yaşayanlara nisbətən, yüksək mütəşəkkilli orqanizimlər isə aşağı mütəşəkkililərə nisbətən mühitin təsirinə daha həssasdırlar. Elə növlər var ki, paleozoy erasından indiyə kimi yaşayırlar. Elələri də var ki, qısa geoloji zaman kəsiyi üçün xarakterikdir (6, 10, 20, 31). Cəmiyyətdə də belədir. Sosial sistem üçün xarici hesab edilən qüvvələrin təsiri altında ictimai mühitdə və onun tənzimləyən qanunlarda leqal və ya qeyri-leqal dəyişikliklər baş verir. Müxtəlif sosial təbəqələr, xüsusilə də idarə edənlər və idarə olunanlar arasında ziddiyət yaranır və inkişaf edir. Liqitim və qeyri-liqitim qanunlar fəaliyyət göstərir. Xarici təsir daxili əksiliklərin mübarizəsi üçün detanator rolunu oynayır. Təbii ekosistemlərdən fərqli olaraq sosial sistemlərdəki əksiliklərin mübarizəsi prosesində subyektiv qüvvələr xüsusi əhəmiyyət kəsb edir və bəzən inkişafın təbii istiqamətini dəyişir və ya proseslərin sürətini ləngidir. Mühitə uyğunlaşanlar və uyğunlaşmayanlar, konservatorlar və novatorlar və digər keyfiyyətlərə malik insan birlikləri vəhdət təşkil edirlər. Xüsusilə də inkişaf etməkdə olan cəmiyyətlərdə vəhdətdə olan ziddiyyətlərin kəskinlşməsi və həll edilməsi, yeni siyasi rejimin yaranması əsasən xarici qüvvələrin təsiri ilə reallaşır.

Daxli və xarici qüvvələrin təsiri orqanizimlərin və insanların fərdi və tarixi inkişaf prosesində eyni olmur. Fərdi inkişafda daxili, tarixi inkişafda isə xarici qüvvələr daha çox dominantlıq edirlər. Təbiətin və cəmiyyətin müxtəlif inkişaf mərhələlərində daxili və xarici qüvvələrin səciyyəsi və qarşılıqlı münasibətləri müxtəlif olmuşdur. Daxili amillər inkişafın bilavasitə mənbəyi, xarici amillər isə daxili potensialın reallaşmasına təsir göstərən və inkişafın istiqamətini müəyyənləşdirən qüvvə rolunda çıxış etmişlər.

Xarici və daxili amillər arasındakı əksiliklərin həlli hər bir konkret halda təkrar olunmaz, özünəməxsus formada həyata keçirilir. Adətən əksiliklərin həll olunması birdən-birə və bütövlükdə deyil, kiçik sıçrayışlarla olur və bu zaman baş vermiş dəyişikliklər bütün orqanizimlər üçün eyni olmur. Məsələn, geoloji keçmişdə təbaşir-paleogen sərhəddində baş vermiş qırğın nəticəsində bir qrup orqanizim tamamilə, digərləri qismən məhv olmuşlar. Bəzi qruplar isə heç bir zərər çəkməmişlər. Onların qırılma müddəti də müxtəlif olmuşdur. Məsələn, əhəngli planktonlar geoloji inkişaf baxımından forominiferlərə nisbətən qısa vaxt ərzində (təxminən 10000 il) məhv olmuşlar. Dinozavırların qırılması isə 7000000 il ərzində başa çatmışdır. Məməlilərdən kisəlilər daha qısa zaman ərzində məhv olmuşlar. İnoseranlar, beleminitlər və digərləri tamamilə qırıldıqları halda braxiopodlar, dəniz kirpiləri və başqa orqanizimlər qismən qırılsalar da öz inkişaflarını davam etdirə bilmişlər. Bitkilərin də bir hissəsi təbaşir-paleogen sərhəddində qırılmış, digər hissəsi isə heç bir dəyişikliyə uğramadan yeni eraya keçmişlər (4, 27, 29, 30). Cəmiyyətin müxtəlif inkişaf mərhələlərində baş vermiş dəyişikliklər heç də onu təşkil edən bütün sosial təbəqələr üçün eyni dərəcədə əlverişli olmamışdır. Belə tarixi anlarda bəzi sosial təbəqələr əzilmiş, bəziləri tamamilə məhv edilmiş, digərləri isə xüsusi imtiyazlar qazanmışlar.

Ekoloji və sosial sistemlərdə yaranmış ziddiyətlərin həll edilməsi heç də köhnə münasibətlərin tamamilə məhv edilməsi və tam yeni münasibətlərin yaranması deyil. O keyfiyyətlər inkar olunurlar ki, onlar yeni münasibətlərə uyğun gəlmirlər. Sonra sistem öz normal inkişafını davam etdirir. Tarixi inkişaf prosesində, adətən, proqressiv və reqressiv proseslər paralel gedir.

Daxili amillər daxili müvazinatın qorunub saxlanmasına, tənzimlənməsinə yönəldiyindən ekosistemin sabit, konservativ münasibətləri müəyyən çərçivə daxilində saxlayan tərəfdir. Xarici amillər isə daha tez dəyişən, mütəhərrik tərəfdir.

Beləliklə, ekoloji və sosial sistemlər dayanıqlı və qeyri sabit olurlar. Sabitlik dəyişkənlik çərçivəsi daxilində həyata keçirilir. Sistemin durumu və inkişaf istiqaməti əsasən xarici təsir və daxili inikasa uyğun olur. Lakin elə bir təsir forması yoxdur ki, o həmişə aparıcı və ya ikinci dərəcəli olsun. Elə bir proses yoxdur ki, o həmişə yalnız bir faktorun təsiri ilə dəyişsin. Ekoloji və sosial sistemlərin inkişafında aparıcı rol oynamaq baxımından daxili və xarici amillər yerlərini dəyişirlər. Konkret zaman kəsiyində onlardan biri aparıcı, tənzimedici funksiyanı yerinə yetirir. Bunlardan birinin dominantlığı heç də digərinin inkarı demək deyil. Qarşılıqlı təsirdə olan ünsürlərdən birinin rolunu həmişə mütləqləşdirmək digərinin isə həmişə ikinci, üçüncü və s. dərəcəli hesab etmək və onların rolunu qismən və ya tamamilə nəzərə almamaq idrakda çaşqınlıq yarada bilər.

Təbiətdə və cəmiyyətdə çox səbəblilik və çox nəticəlik əsas şərtlərdən biridir. Səbəblərdən hansının əsas olması konkret şəraitdən asılıdır. Sistemin inkişafında xarici amillərin təsiri nisbi sabitləşərsə bu zaman inkişafın aparıcı qüvvəsi daxili amillər olacaqdır. Paleontoloji səlnamənin verdiyi məlumatlardan görünür ki, geoloji inkişaf prosesində xarici amillərin təsiri dəfələrlə kəskinləşmiş və belə anlarda təkamülün aparıcı qüvvəsinə çevrilmişdir. Nəticədə orqanizim-mühit münasibətləri pozulmuş və canlı aləmin bir hissəsi, kütləvi sürətdə məhv olmuşdur (6, 12, 13).

Adətən cəmiyyətə xarici qüvvələrin təsiri azaldıqca daxili amillərin, xüsusilə də elitanın nisbi müstəqilliyi və subyektiv meyillərinin dominantlığı artır. Cəmiyyəti tənzimləyən qanunlar elitanın maraq və mənafelərinə uyğunlaşdırılır. Daxili əksiliklərin mübarizəsi zəifləyir. Nisbi durğunluq və ya tədrici inkişaf mərhələsi başlayır. Xarici amillərin təsiri artdıqca daxili əksiliklər arasındakı ziddiyətlər kəskinləşir və əsaslı islahatların, hakimiyyət və struktur dəyişikliklərinin, uyğun olaraq yeni münasibətlərin, düşüncə tərzinin, hüquqi qanunların, davranışın və digər keyfiyyət göstəricilərinin yaranması ilə başa çatır.

Beləliklə, ekoloji və sosial sistemlərin inkişafi xarici və daxili qüvvələrin qarşılıqlı təsiri nəticəsində yaranan yeni keyfiyyətlərlə müəyyənləşir.

Açar sözlər: ekoloji, üsvi təbiət, qeyri-üsvi təbiət, ekoloji mühit təkamül, mutasiya, təsir, mühit.

İstifadə olunmuş ədəbiyyat

1. Aleşinskaə З.В. i dr. Итоqi paleoqeoqrafiçeskix issledovaniy. Bestnik МГУ, ser. 5, 1988, № 5, s.13-18.

2. Bernadskiy В.И. Фilosofskie mısli naturalista. M., Hauka, 1988. 3.Геorqievskiy А.Б. Дarvinizm. M., Пrosvehenie, 1985.

4. Golovin Д.И., Binoqradov В.И., Биəkayte М.И. Globalğnıe qeoloqiçeskie sobıtiə. Доkladı АН СССР, 1991, 322, № 6.
5 Grant В. Эvolöüiə orqanizmov. М., Mir, 1980.
6. Davitaşvili Л.Ш. Priçinı vımiraniə orqanizmov. М., Hauka, 1969.
7. Иordanskiy Н.Н. Pazvitie jizni na Зemle. М., Prosvehenie, 1981.
8. Kaqarmanov А.Х. i dr. Истoriçeskaə qeoloqiə s osnovami paleontoloqii. Hedra,1985.
9. Katastrofı i istoriə Зemli. Пod. red. У.Berqqren. М.,1992.
10. Kordöm В.А. Эvolöüiə i biosfera. Kiev, 1982.
11.Krasilov В.А. Periodiçnostğ razvitiə orqaniçeskoqo mira. Журn. «Paleontoloqiə», 1987, № 3.
12. Krisaçenko В.С. Filosofskiy analiz gvolöüionizma. Kiev, Haukova Dumka, 1990.
13. Moroz С.А. Polğ qeoloqiçeskoqo znaniə v formirovanii nauçnoqo mirovozzreniə. Журn. «Geoloqiə», 1992, № 1, s.88-94.
14. Haydin Д.П. i dr. Paleoqeoqrafiə i paleookeanoloqiə. Hauka, 1986.
15. Odum Ю. Osnovı gkoloqii. М., Mir,1975.
16. Oparin А.И. Problema proisxojdeniə jizni. М., Знanie, 1976.
17. Popov А.В. О vzaimodeystvii biotiçeskix i abiotiçeskix faktorov v gvolöüii. Bestnik С.-Peterburq. un-ta., ser.7,1992, № 4.
18. Covremennaə paleontoloqiə. Пod. red. В.В.Mennera. М., Hedra,1988.
19. Cokolov Б.С. Fauna i gkosistemı qeoloqiçeskoqo proşloqo. Hauka, 1993.
20. Tatarinov А.П. Oçerki po teorii gvolöüii. М., Hauka, 1987.
21. Tixomirov В.В., Xain В.Е. Kratkiy oçerk istorii qeoloqii. М.,1956.
22. Шvarü С.С. Эkoloqiçeskie zakonomernosti gvolöüii. М.,1981.
23. Шimanskiy В.Н. Истoriçeskoe razvitie biosferı. М., 1987.
24. Шmalğqauzen И.И. Puti i zakonomernosti gvolöüionnoqo proüessa. М.,1983.
25. Alvarez Walter. Toward a theory of impact crises. Eos.Trans. Amer. Geophys. Union.,1986, № 35, pp. 649, 653-655.
26. Kinney Michael L. Dist anguishing patterns of evolution from patterms of deposition. J. Paleontol., 1985, 59, № 3, 561-567.
27. Kouffman Frle G., Walliser Otto H. Global bioevents abrupt changes in the global biotop. Episodes. 1988-11, № 4, 289-292.
28. Lewin Roger. Pattern and process in life`s history. 1985, 229, № 4, pp.151-153, 709.
29. Raup David M., Sepkovski J. John. Mass extinctions in the marine fossil record. Science, 1982, 215, № 4539, 1501-1503.
30.Russebe D.A. The mass extinctions of the Late Mesozoic. Sci. Amer., 1982, 246, № 1, 48-55.
31. Schopf Tomas J.M., Rates of evolution and the notion of, living fossils; Annual Rev. Earth and Planet. Sci. Vol. 12. Paleo. Alto. Calif., 1984, 245-292.

Гюляддин ГАМЗАЕВ

О РОЛИ ВНЕШНИХ И ВНУТРЕННИХ ФАКТОРОВ В РАЗВИТИИ ЭКОЛОГИЧЕСКИХ И СОЦИАЛЬНЫХ СИСТЕМ

Резюме

Статья посвящена анализу и сравнению роли, места и значения внешних и внутренних факторов, оказывающих воздействие на развитие экологических и социальных систем. Автор отмечает, что сами эти факторы образуют своеобразный порядок и проявляются в неорганических и живых системах в своем единстве. В результате исследований удалось установить общие и единичные проявления воздействия данных факторов на экологические и социальные системы, что позволило анализировать эти системы в контексте общей научной парадигмы. В качестве примеров приводятся материалы из геологии и социальной жизни.

Ключевые слова: экология, органическая природа, неорганическая природа, экологическая среда, эволюция, мутация, влияние, среда.

Guladdin HAMZAYEV

ABOUT THE ROLE OF EXTERNAL AND INTERNAL FACTORS IN THE DEVELOPMENT OF ECOLOGICAL AND SOCIAL SYSTEMS

Summary

The article deals with analysis and comparison of the role, place and significance of external and internal factors affecting the development of ecological and social systems. It is noted that these factors themselves constitute a kind of system and manifest themselves in the inorganic and living systems in their unity. As a result of this study it was possible to determine a general and individual manifestations of the impact of these factors on the ecological and social systems, what permited to analyze these systems in the context of the overall scientific paradigm. In the article the materials from geology and social life are cited as examples.

Keywords: ecology, organic nature, inorganic nature, ecological surrounding, evolution, mutation, impact, medium.

УДК 32.327

Эсма ЭМИР-ИЛЬЯСОВА
в.н.сотр. к.э.н.,отдела «международные отношения и международное право» ИФСП НАНА

КЛАССИФИКАЦИЯ СТРАН, ТИПЫ И ФОРМЫ ИХ ИНТЕГРАЦИИ В МИРОВУЮ ЭКОНОМИКУ И МЕЖДУНАРОДНЫЕ ОТНОШЕНИЯ*

Мировое (всемирное) хозяйство, а соответственно мировая экономика и международные отношения - это совокупность связей, характеризующих обмен, способ и характер диалектического взаимодействия всех стран мира буквально во всех сферах сотрудничества.

Общеизвестно также, что переход к новому типу мировой экономики и международных отношений стал определяться уже с момента великих географических открытий, соединивших в одно целое все континенты мира. Вот тогда и внешний рынок и внешняя торговля для Европейских стран (и стран-объектов их колонизации) стали приобретать особо важное значение. Собственно тогда внешняя торговля, по мнению видных ученых, играла ту истинную роль, которую она должна была играть, в ней доминировал хозяйственный элемент, сопровождавшийся политико-экономическим аспектом, захватом чужих территорий и превращением их в свои колонии и т.д. [7,с.33] Как видно, формирование мировой глобальной экономики - это длительный процесс, охватывающий целые исторические эпохи и было бы неверно все сводить к XVIII-XX вв.

Методологически большинство исследований в течение 80-ти лет почти до конца XX в., базировалось на существовании двух экономических систем – капитализма и социализма. В них нашли отражение и годы «перестройки и гласности».Эти исследования приобретают особую актуальность в странах, находящихся на стадии перехода от «общественной нерыночности» к биполярности и рынку. В целом этот процесс в них носил хаотический характер, так как господствовало убеждение, что рынок сам решит проблемы системной трансформации централизованных плановых экономик. Затем пришло осознание необходимости институтов рыночной экономики,создание которых существенно отставало и проводилось без учета требований времени. Поэтому отмечался и продолжает сохраняться разрыв между экономическими и институциональными реформами, который не может не привлекать внимания ученых.

По сути дела, как отмечает Р.И.Хасбулатов, [6,с.9] речь идет о сильнейшем влиянии политического фактора на экономические отношения в призме их внешних преломлений. Экономические отношения, в противовес теории К.Маркса, действуют не автоматически, а во взаимосвязи с политикой государств.

Как, вполне справедливо, отмечают авторы вышедшего недавно исследования Всемирного банка: «Существует тесная взаимосвязь между политическими событиями и экономическими реформами. Политические системы оказывают воздействие на стимулы, побуждающие политиков делать определенный выбор той или иной экономической политики» [5,с.28]

Вместе с тем, становилось все более очевидным, что вышеотмеченная разбивка

---

* Məqalə fəl.e.d., prof. Ə.Tağıyev və t.e.d. H.Əlibəyli tərəfindən çapa məsləhət bilinib.

стран не учитывала характерных фундаментальных сдвигов, происходящих в недрах каждой из этих двух систем.

Во-первых, потому, что капитализм с конца XX-го века перестал быть по своей сущности тем капитализмом, который описывали А.Смит и К.Маркс. Во всех развитых странах Запада шел процесс неуклонного действия закона социализации капитала (т.е. непрерывного усиления социальной функции государства, увеличения роли ТНК и частного капитала). Потому исследователи, характеризуя их, стали больше применять термин «страны рыночной экономики», а не «капиталистические», как раньше.

Во-вторых, «развивающиеся страны» стали активно интегрироваться в систему стран рыночной экономики через новые кооперационные связи, усиливая тем самым их мощь и потенциал.

В-третьих, из единой мировой системы социализма с начала 70-х г. стали выпадать отдельные страны. К концу 90-х г. процесс завершился полным выходом из нее стран ЦВЕ, Югославии, из бывшего Союза - стран Балтии и образованием на постсоветском прос- транстве других ННГ. Охваченные идеей мирового господства теоретики социалистического периода этого не замечали, так же как и движение обеих систем в направлении сближения и конвергенции.

В-четвертых, под действием объективных факторов в целом в мире идет постепенное стирание экономических границей между развитыми и развивающимися и трансформирующимися странами, создается единая сетевая геоэкономика, подчиняющаяся общим диалектическим законам и единым нормам права. Подтверждением этому – пример Европейского Союза.

Такая классификация на группы была выбрана международным сообществом для удоб- ства анализа и расчетов в 1980 г. экономическим и социальным советом (ЭКОСОС) ООН. Ряд же всемирных организаций (МВФ, МБРР - Всемирный банк) и другие в своих сравнительных анализах придерживаются несколько иных подходов к классификации стран.

Группу развитых стран в мире с рыночной экономикой (ДФЕС) отличают высокие темпы роста производства, ведущие позиции в развитии прогрессивных отраслей промышленности, по энерговооруженности труда и потреблению энергии и ВВП на душу населения, уровень развития науки, образования, обустройства села, затраты на здравоохранение, низкий показатель смертности среди новорожденных, высокий коэффициент дожития и другие показатели, характеризующие качество жизни населения.

По классификации МВФ, к их числу отнесена 31 страна, которая держит за собой лидерство в отраслях глубокой переработки и высоких технологий. Все эти страны получают сырье и рабочую силу из стран третьего мира и переводят трудоемкие производства, добывающие отрасли и первичную переработку сырья за пределы своих государств.

К ним относятся страны Европейского Экономического Сообщества (ЕЭС), именуемого Европейский Союз с 1993 г. (ЕС), куда входят Австрия, Бельгия, Великобритания, Германия, Греция, Дания, Ирландия, Испания, Италия, Португалия, Люксембург, Нидерланды, Финляндия, Франция, Швеция, Скандинавские страны (Норвегия, Швеция), а также Исландия и Гренландия, Латвия, Литва и Эстония.

В целях экономического анализа международные эксперты выделяют группу наиболее продвинутых стран, с наибольшим объемом валового внутреннего продукта. Это, прежде всего «большая семерка»: США, Япония, Германия, Италия, Франция,

Канада, Великобритания и Бельгия.

Страны с переходной экономикой, или трансформирующиеся страны. Этот разнородный сектор мировой экономики составляют страны, входившие ранее в СЭВ, а ныне - в СНГ, ЦВЕ и Балтии.

Страны Центральной и Восточной Европы, именуемые теперь как страны Восточной Европы (ВЕ): Албания, Болгария, Венгрия, Польша, Румыния, Чехия и Словакия и государства – преемники Социалистической Федеративной Республики Югославии (СФРЮ), а именно: Босния и Герцеговина, Республика Македония, Хорватия, Югославия (Сербия,Черногория) и Косово.

Государства Балтии: Латвия, Литва и Эстония. Содружество Независимых Государств (СНГ): Азербайджан, Армения, Беларусь, Грузия, Казахстан, Кыргызстан, Молдова, Россия, Таджикистан, Туркменистан, Узбекистан, Украина.

Специфические черты перехода к рынку присущи Китайской Народной Республике, Монголии, Вьетнаму, и в меньшей мере – Кубе.

По существующему общему подходу к группе развивающихся стран относятся страны, которые не могут обеспечить свой экономический рост. Это группа так называемых, ранее «отсталых стран».Однако этот термин, носящий несколько и уменьшающий их роль характер, был заменен на «развивающиеся страны» или страны с развивающейся промышленностью (т.е. находящиеся на стадии индустриализации). Основная проблема этих стран обеспечение экономического подъема. Однако, после окончания второй мировой войны эта проблема стала насущной для всего мирового сообщества.

Ввиду многочисленности развивающиеся страны группируются по регионам, с учетом их географического положения.

При проведении экономического анализа в практике развивающиеся страны подразделяют также на следующие группы:

- страны Чистые кредиторы: Бруней Даруссалам, Катар, Кувейт, Ливия, ОАЭ, Оман, Саудовская Аравия, Сингапур, Тайвань (провинция Китая);

- страны Чистые должники: все другие развивающиеся страны;

- страны-экспортеры топлива (АРЕС): Азербайджан, Алжир, Ангола, Бахрейн, Боливия, Бруней - Даруссалам, Венесуэла, Вьетнам, Габон, Египет, Индонезия, Ирак, Иран, Камерун, Катар, Колумбия, Конго, Кувейт, Ливия, Мексика, Нигерия, ОАЭ, Оман, Саудовская Аравия, Сирия, Тринидад и Тобаго, Эквадор.

Страна считается экспортером энергоресурсов: а) если их производство, (включая каменный уголь, магнит, сырую нефть, природный газ, гидро- и атомную энергию) превышает потребление не менее чем на 20,0%; б) если экспорт энергоресурсов составляет 20,0% и более от общего объема экспорта.

Страны-импортеры энергоресурсов - все другие развивающиеся страны. Среди них выделяются страны с активным платежным балансом, это четыре азиатские страны, успешно экспортирующие готовые изделия (Гонконг, Республика Корея, Сингапур, Китайская провинция Тайвань) и др. страны.

Наименее развитые страны (ЛДС), (объединяющие 50 стран): Афганистан. Ангола, Бан- гладеш, Бенин и др.

В современном мире, как отмечает Р. И. Хасбулатов, происходит как бы «двойная» интеграция: всемирная экономическая интеграция, порожденная процессами транснационализации; и - традиционная региональная интеграция, развивающаяся в определенных институциональных формах еще с 50-х годов XX в. [9,с.571].

Первая, то есть экономическая интеграция - результат действия НТП, углубления

процессов интернационализации, международного разделения производственных процессов, решения общеполитических проблем мира и прав человека, развития науки, образования, международного туризма и спорта, изменения климата, экологии, охраны окружающей среды, транснациональной преступности и др.

Но в то же время интеграция как экономическая категория все еще носит абстрактный характер, так как нигде в мире мы не наблюдаем процессов окончательной интеграции в полном понимании этого слова, завершившейся потерей самостоятельности тех или иных государств – участников этих союзов.

Поскольку, как отмечалось выше, первоначально она происходила как процесс интернационализации (в форме межгосударственного общения) и, затрагивая сферу обращения, была в основном связана с международной торговлей (конец XVIII – начало XX вв.). Это были простые формы международной интеграции, связанные с мировой торговлей.

В последующие столетия (с конца XIX в.) определяющим становится движение капитала, которое на рубеже XX-XXI вв. приняло особый динамизм, а объемы - грандиозные масштабы. Такое развитие производительных сил не могло не отразиться на эволюции международной экономической интеграции и ее внешних форм, постепенно преобразуя их от простых форм к наиболее сложным.

Стадиями международной экономической интеграции по мере их развития Р.И.Хасбулатов называет следующие зона свободной торговли, таможенный союз, единый или общий рынок, экономический союз; экономический и валютный союз [7, с. 572].

В использовании форм экономической интеграции происходят трансформации, сходные с теми, которые наблюдаются в области, собственно, самих международных интеграционных процессов. Однако в одних странах, зоны свободной торговли, таможенные зоны, оф- фшорные зоны и т.д. успешно действуют, принося значительный экономический эффект, способствуя экономическому росту (ряд азиатских стран – Турция, страны Латинской Америки, Китай, страны Балтии), в других – ничего этого не происходит, а целая система налоговых, таможенных и прочих предоставляемых льгот используется как инструмент«перелива капитала» за рубеж [7, с.573].

Классическим примером исторической неудачи в этом направлении можно назвать Европейскую Ассоциацию свободной торговли (ЕФТА), региональные группировки на Африканском и Латино-Американском континентах, а также ряд объединений новых независимых государств (NIS), образовавшихся после развала социализма, в частности СНГ (CIS). Опыт множества региональных объединений показывает, что в основу их интеграции заложены два принципа: первый – это инициатива самих государств (в качестве классического при- мера можно назвать ЕС); второй принцип - растущая роль частного предпринимательства, ко- торое буквально заставляет государства встать на путь интеграции с той или иной группой стран (например, НАФТА – договор между США, Канадой и Мексикой).

В целом процесс экономической интеграции и социально-демократических преобразований имеет скорее смешанный характер, поскольку на него оказывают влияние прежде всего развитые страны и их правительства, а с другой, -мощные ТНК (ТНС) и ТНБ (ТНБ), с третьей – влиятельные международные финансово-экономические союзы и альянсы (WTO,WБ, IMФ) структуры ООН (UHO), неправительственные (НПО), частные и неформальные объединения. Так, членами WTO этой всемирной торговой организации, созданной в 1994 г. на базе Генерального соглашения по тарифам и

торговле (GATT) являются более 180 стран мира.

По масштабам интеграционные союзы делятся на двусторонние, их очень мало. В качестве примера можно привести действующий на основе соглашения Союз Беларуси и России; многосторонние. Наибольшее распространение получили региональные и отраслевые интеграционные союзы например, Центрально-азиатское экономическое сообщество (ЦАЕС), континентальные Латиноамериканская ассоциация (ЛАІА) и Организация Африканского единства (ОАЕ), официально-таможенный экономический союз стран Центральной Африки (ИДЕАС).

К региональным интеграционным объединениям также относятся:

Организация экономического сотрудничества и развития (ОЕСД), созданная в 1961 г., членами которой является 31 развитая страна. Она преемница организации Европейского экономического сотрудничества(ЕОЕС), созданной в 1948г. В работе ОЕСД принимают участие, согласно протоколу, комиссия ЕИ, а также представители ЕФТА, ECSC и EURATOM.

Большая группа комитетов, входящих в указанную организацию, занимается содействием экономическому и социальному развитию, как стран –участники так и стран и регионов мира, где присутствуют интересы стран-участниц (а это почти весь мир); разработкой эффективных методов координации их торговой и общеэкономической политики, исключающей дискриминацию одних стран другими.

Вышеградская группа, куда входят Венгрия, Румыния, Чехия, Польша. В 1993 г. они провозгласили создание Центрально-Европейской зоны свободной торговли, а в 1995 г. подписали Соглашение об отмене пошлин на большинство видов промышленной продукции. В том же году сюда вошла Словакия.

Государствами - участниками СНГ в 1993г. был подписан договор о создании Экономического Союза, который определил долгосрочные цели их сотрудничества. Был создан также межстрановый экономический комитет, одной из задач которого - создание общего инвестиционного пространства.

Шанхайская организация сотрудничества (ШОС) образована 26.IV.1996 г. (до 07.2000 г., именуемая Шанхайской, а затем с 06.2001 г.-Шанхайским Форумом), представляет собой альтернативную модель многостороннего сотрудничества для Центральной Азии [1, с.10] Казахстана, Узбекистана, Киргизии, Таджикистана и Китая. Позже сюда вошла и Россия.

Казахско - Киргизско- Узбекское Соглашение о свободной торговле;

Организация сотрудничества Грузии, Украины, Узбекистана, Азербайджана и Молдавии (ГУУАМ), образованная 24. IV.1999 г. Узбекистан через четыре года вышел из нее. Россия же на саммите Глав государств в Ялте (01.07.2004 г.) приняла участие в ее работе.

В конце 2002 г. Москва предпринимает попытку создать новый интеграционный проект Союз «четырех: России, Казахстана, Беларуси и Украины под эгидой «Единое экономическое пространство» (ЕЭП). Этот Союз не достиг даже начальной стадии рыночной интеграции в форме создания Зон свободной торговли. В феврале 2003г. государства, входящие в этот союз подписали декларацию о подготовке Единого экономического пространства «ЕЭП-четырех» в целях обеспечения свободного передвижения товаров, капиталов, рабочей силы и услуг. Таким образом, их конечная цель сформировать общий рынок, с вытекающими из этого условиями унификации норм экономического законодательства для расширения возможностей бизнеса на территории этих стран с последующим переходом на единую валюту.

В 2003 г. образовано Евразийское экономическое сообщество (ЕврАзЭС), куда

вошли Россия, Беларусь, Казахстан, Киргизия и Таджикистан.

За последние годы структурирование пространства СНГ активизировалось. Во-первых -это Российско-Белорусский Экономический Союз, с переходом в 2003 г. в сотрудничество в рамках союзного государства Россия –Беларусь (СГРБ) и Центрально-Азиатское соглашение о свободной торговле (ЦАС), с 1998 г. «Центрально-Азиатское экономическое сообщество» (ЦАЭС), объединяющее Казахстан, Киргизию, Узбекистан и Таджикистан. В 2001г. (XII) страны договорились о преобразовании его в Центрально-Азиатскую организацию сотрудничества (ЦАОС) [1, с. 8]. На Совете же Глав государств 2 апреля 1999г. было принято решение о реформировании структуры органов СНГ. В итоге была утверждена структура органов управления (Схема) [5, с.2860]. Было создано 9 межгосударственных советов: Совет Глав государств (СГГ), Совет Глав правительств (СГП), Совет министров иностранных дел (СМИД),Совет министров обороны (СМО), Совет командующих пограничными войсками (СКПВ), Исполнительный комитет, экономический Совет, экономический суд и более 70 отраслевых Советов, а также принята совместная Декларация об основных направлениях развития СНГ.



Однако, по мнению генерального секретаря В. Чечеашвили, международной Организации за демократию и экономическое развитие ГУАМ - это название ей было дано на первом Саммите этого формата в Киеве (2006 г.). «ГУАМ, как и СНГ, превратилась в формальный ин -ститут». «И это - по мнению политического эксперта Е.Золотарева, будет продолжаться до тех пор, пока организация не трансформируется в экономический проект».[2, № 29, с.1]

- Региональные интеграционные объединения государств Азии и Тихого океана:

- Организация стран Центральной Азии, - Экономический Союз (ЕСО), куда входят Афганистан, Азербайджан, Иран, Казахстан, Кыргызстан, Пакистан, Таджикистан, Турция и Узбекистан.

С 2010 г. возникает крупнейшая в мире Зона Свободной Торговли (ЗСТ), которая создается на основе союза Китая и государств АСЕАН. Решение об этом было принято еще в 2001 г. на седьмом Саммите Организации стран Юго - Восточной Азии. Население стран - участниц вместе с Китаем составит 1,9 трлн. человек -то есть треть населения планеты, общий объем ВВП – 6,0 трлн.$, товарооборот - 4,5 трлн.$. В связи с этим, как перед участниками этого Союза, так и другими азиатскими странами открываются большие возможности, включая производителей и потребителей. С одной стороны, снизится стоимость, с другой, повысится товарооборот и предложение. Увеличение рынка в Азиатском регионе снизит расходы на им- порт, так как торговые операции с ближайшими соседями будут обходиться дешевле, чем с такими отдаленными государствами, как США, Канада, ЕС и др. Кроме того, сам Китай получит возможность участвовать в процессах миграции рабочей силы, в обмене технологий, распоряжаться финансовыми потоками внутри региона и таким образом управлять их экономиками посредством финансовых вливаний в их крупные перспективные Проекты.

Азербайджан пока далек от этого Союза. Но вблизи от него создается еще одна СЭЗ на Турецко-Иранской границе (на участке Ван-Игдир). К этому союзу со временем может присоединиться и Азербайджан. Этот проект предусматривает строительство новых аэропортов, автомобильных и железных дорог [2, № 4, 2010,с.17]

Стабильно и с согласованными предложениями на переговорах в рамках WTO выступает Каирская группа, которая объединяет экспортеров сельскохозяйственной продукции из развитых, развивающихся и стран СНГ и ВЕ.

Следует отметить, что потери у Азербайджана могут быть менее значительными от затягивания переговоров со вступлением в WTO, чем от участия в такого рода региональных объединениях. Это тем более актуально в связи с активизацией интеграционных процессов и в рамках СНГ. В частности, это касается таможенного Союза Беларуси, Казахстана и России, который предусматривает в последующем более амбициозную цель - формирование Единого экономического пространства.

Реальной подвижкой Таможенного Союза трех стран стало вступление в действие единого таможенного тарифа – БФМ.ру. Со временем намечено устранение «внутренних экономических границ» между тремя странами, то есть свободное движение товаров, капиталов, услуг и информации, что будет способствовать укреплению кооперационных связей. Повысится конкуренция, а значит и качество продукции и востребованность инновационных технологий, создание новых и модернизация существующих производств. Функционирование Союза было намечено с середины 2010г., со вступлением в силу принятого ими Таможенного кодекса.

Правительство Азербайджана и ЕС приступило к претворению в жизнь программы «Всестороннее институциональное строительство», финансируемой ЕС, которая является результатом инициативы «Восточное партнерство» и рассчитана на ближайшие три года. Оно поможет приближению 6 восточноевропейских партнеров (ВЕП) -Азербайджану, Грузии, Армении, Украине, Беларуси и Молдове к стандартам ЕС в политической, экономической и социальной сферах, а следовательно, и к большей мобильности, росту внешнеторгового оборота и повышению качества жизни их населения. В рамках программы «Всесторон- нее институциональное

строительство» запланировано оказание помощи в сфере юстиции, вопросах торговли и в потенциальном строительстве правительственных структур по госуправлению в целом. Растет число проектов, реализуемых в Азербайджане при финансовой поддержке со стороны НПО - Центр экономического и социального развития объявил о реализации проекта «Программа повышения способности организаций гражданского общества». Партнером в реализации данного проекта является Средиземноморский центр менеджмента. Будут приняты шаги по повышению способности НПО, по поддержке сектора гражданского общества и местных инициатив. Одним из приоритетных направлений в деятельности ЕС в других странах является развитие образовательной сферы и поиски новых путей взаимовыгодного сотрудничества [2, № 21, с.31].

Фактически речь идет о геополитических факторах, аргументах и диалектических взаимо связях, формирующих мировую политику и геоэкономику, связях между отдельными государствами, между государствами и международными структурами, между государствами, неправительственными организациями (НПО), политическими союзами, частными, формальными и неформальными объединениями граждан и т. д. В итоге, по своей сути, общение из «интернационального» (межгосударственного) превращается в «транснациональное».

Для новых акторов, число которых практически все время растет, не существует национальных границ. На наших глазах формируется глобальный мир, в котором политика будет играть все более весомую роль в развитии экономики, а разделение политики на внутреннюю и внешнюю терять свое прежнее значение.

В итоге, пути интеграции Азербайджана в МЭ и МО XXI в. находятся в плоскости системной трансформации и по своей сути ориентированной на кардинальные изменения всех форм жизнеустройства социума. Потому речь должна идти о способности Азербайджана ответить на цивилизационные, формационные, геополитические и социально-экономические вызовы мирового сообщества. От этого зависит его роль и место в мире в третьем миллениуме.

Как явствует из анализа, глобальная экономическая интеграции носит смешанный, но позитивный характер, так как базируется на унифицированные политико-правовые нормы, действующие в мировом сообществе не один десяток лет. Процессы интеграции динамично развиваются не для изоляции от внешнего мира, а для извлечения экономических выгод из международного обмена. По масштабам наибольший уд. вес среди них занимают многосторонние и многопрофильные союзы.

Усилия мирового сообщества и отдельных государств должны быть направлены на ликвидацию неравенство между странами «золотого миллиарда», развивающимися странами, а также странами «третьего мира», различий в уровне потребления между богатыми и бедными внутри самих стран еще имеющего место в мире.

Мощными проводниками интеграции являются инвестиционные потоки-кредиты, прямые и портфельные инвестиции, которые придали интеграционным блокам их современное содержание и формы.

Поэтому существующая классификация стран сейчас пересматривается через конструктивный синтез и призму действия новых глобальных фундаментальных и конъюнктурных факторов в экономике, ярко проявляющихся в начале XXI в.

Ключевые слова: развитые, развивающиеся, трансформирующиеся страны, должники, кредиторы, импортеры и экспортеры нефти, формы и стадии

интеграции,союзы, географическое положение, ресурсы, инвестиции, интернационализация, транснационализация.

Список использованной литературы

1. Бор М.З.История мировой экономики: Конспект лекций. М., Дело и сервис, 1998, с.288.
2. Гамедов А. Горизонты возрождения //Бакинский рабочий, 2004, 13.02, с.4.
3. Основы внешнеэкономических знаний. (Отв. ред. И.П.Фаминский), М., МО, 1990 г., 557 с.
4. Самедзаде З.А. Этапы большого пути. Экономика Азербайджана за полвека, ее новые реалии и перспективы. Баку, Gənclik, 2004, 932 с.
5. Сборник законодательных норм ММ АР за 1993-2010 гг..
6. Хасбулатов Р.И. Мировая экономика. М., Инсан, 1994, 736 с.
7. Хасбулатов Р.И. Мировая экономика. М., Экономика, 2001, т.1, 598с.; М., 2001,т.2, 674с.

Esma EMİR-İLYASOVA

DÜNYA ÖLKƏLƏRİNİN TƏSNİFATI, ONLARIN DÜNYA İQTİSADİYYATINA VƏ BEYNƏLXALQ MUNASİBƏTLƏRİNƏ İNTEQRASİYASININ TİPLƏRİ VƏ NÖVLƏRİ

Xülasə

Müəllif məqalədə aşağıdakı məsələləri təhlil etmişdir:
-dünya iqtisadiyyatı inkişafının ən mühüm qanunauyğunluqları, o cümlədən XX-XXI əsr aralığında fundamental və konyuktur amillərin təsiri altında dünya iqtisadiyyatında və beynəlxalq munasibətlərdə baş verən dəyişikliklər və inteqrasiya proseslərinə təsir edən dünyəvi, regional sahə üzrə, çoxtərəfli və çoxsahəli bloklar və alyanslar;
-iqtisadi inkişafın səviyyəsinə görə dünya ölkələrinin təsnifatı, inteqrasiyalı ittifaq və alyansların növləri və formaları. Nətiçədə müəllif elmi maraq kəsb edən təkliflər irəli sürür.

Açar sözlər: inkişaf etmiş ölkələr, inkişaf etməkdə olan ölkələr, transformasiya olunmuş və borçu olan ölkələr , kredit verən, nefti idxal və ixraç edənlər, inteqrasiyanın formaları və mərhələləri, birliklər,coğrafi mövqe, resurslar, investisiyalar, beynəlmiləlçiik, transmilliləşmə.

Esma EMIRILYASOVA

CLASSIFICATION OF THE COUNTRIES, TUPES AND FORUM SOF THEIR INTEGRATION INTO WORLD ECONOMICS AND INTERNATIONAL REALITIONS”

Summary

İn the article the author makes an analysis of the problems given as follows
- the most important regularities in development of world economics and international realition and, in particular, the changes occarring on the eve of the XX-XXI cc. Under impact

of fundamental and conjucture factors influencing on the integration processes in WE, regional and brach blocs;

- classification of the countries by level of their economic development, types, forms and stages of integration, manylateral and manyprofile unions and alliances. There are offered a number of conclusions and proposals representing the sientific interest.

Keyworlds: advanced, developing, transforming conntries, debtors, creditors, imrorters, exporters of oil, forms and stages of integration, unions, geographical situation, resources, investments, internationalization.

UOT 327

Telman QULİYEV
AMEA FSHİ -nin elmi işçisi

AVROPANIN ENERJİ TƏCHİZATI: AZƏRBAYCAN-GÜRCÜSTAN VƏ TÜRKİYƏ SİYASİ ƏMƏKDAŞLIĞINDA*

Azərbaycan Respublikasının 1994-cü ildən bəri yeritdiyi yeni neft və enerji siyasəti ölkənin xarici əlaqələrini və beynəlxalq nüfuzunu əhəmiyyətli dərəcədə dəyişmiş və gücləndirmiş oldu. Ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışının ilk günündən təməli qoyulan nizamlı və düşünülmüş siyasətin təməl prinsiplərində əsas məqsəd ölkənin mövcud sərvətlərinə, o cümlədən zəngin neft və qaz yataqlarına sahib olmaq, onlardan dövlətin möhkəmlənməsi, əhalinin həyat şəraitinin yaxşılaşması üçün istifadə etmək dururdusa, digər maraqlı məqam xarici siyasətdə region ölkələri, Avropa dövlətləri və ABŞ ilə hərtərəfli iqtisadi əlaqələr qurmaq, xüsusən enerji sahəsində əməkdaşlığı inkişaf etdirmək prioritet istiqamət təşkil edirdi(1, 9-10).

«Enerji siyasətinin və layihələrin həyata keçirilməsinə başlayanda, həmin vaxt Avropa İttifaqı bazarı bizim üçün uzaq olan məsafə idi. Lakin enerji layihələrinin reallığa çevrildiyi bir vaxtda aydın olur ki, Avropaya, Avropa İttifaqına alternativ təchizat lazımdır»(2).

Prezident İlham Əliyevin bu sözləri ulu öndər Heydər Əliyevin «Şərqlə Qərbin, Avropa və Asiyanın kəsişdiyi nöqtədə yerləşən Azərbaycan dinlərin, tarixlərin və mədəniyyətlərin qovuşduğu mərkəzə iki qitə və iki sivilizasiya arasında körpüyə çevriləcəkdir»(2) ideyalarını reallaşdırdı.

Geosiyasətin formalaşmasında mühüm əhəmiyyət kəsb edən amillərdən biri enerji təhlükəsizliyi məsələsidir. Bu problemin həlli hər bir dövlətdə strateji əhəmiyyət daşıyır. Lakin təbiət enerji ehtiyatlarını dünyanın bütün dövlətlərinə bərabər şəkildə bəxş etməyib. Yəni planetin müxtəlif bölgələrində mövcud olan ölkələrin hamısında təbii ehtiyatlar enerji tələbatını təmin etmək üçün yetərincə deyil. Ona görə də həmin strateji mahiyyət daşıyan problemi müsbət həll etmək üçün istər-istəməz bu məsələ beynəlxalq münasibətlərin yaranmasının və inkişafının əsas amilinə çevrildi. Bu isə hər dövlətin təbii ehtiyatlarına uyğun olaraq enerji təhlükəsizliyi siyasətini yaratmağı zəruri etdi.

Enerji siyasətinin region və Avropa üçün əhəmiyyətini Azərbaycan-Gürcüstan və Türkiyə tərəfi də diqqətdə saxlamış və demək olar ki, bütün rəsmi səfərlərdə bu məsələ müzakirə mövzusu olmuşdur. 13 fevral 2001-ci ildə Azərbaycan Prezidenti Heydər Əliyevin Gürcüstan Beynəlxalq Neft Korporasiyasının rəhbəri Georgi Çanturiya ilə söhbətində də iki ölkə arasında bütün sahələrdəki münasibətlərlə yanaşı enerji siyasətinə geniş yer verilmiş, Qafqazın enerji potensialının istifadəsində atılmış addımların geosiyasi vəziyyəti və zəruriliyi əsaslandırılmışdır. Burada tamamilə haqlı olaraq göstərilmişdir ki, məhz Xəzər hövzəsinin enerji ehtiyatlarının ağıllı və səmərəli istifadəsi və bu işdə Azərbaycan-Gürcüstan və Türkiyənin beynəlxalq layihələrin reallaşdırılması üçün sıx əməkdaşlığı Xəzəri dünyaya tanıtdırdı. Dünya üçün bu proses bir yenilik oldu. Həmin görüşdə Heydər Əliyev demişdir:

«Bakı-Ceyhan neft kəmərinin tikintisi məsələsi vaxtımızı çox aldı. Bir tərəfdən çətinliklər vardı, digər tərəfdən də mane olurdular. Biz iki dəfə sənəd imzaladıq, bir dəfə 1998-ci ildə Ankarada bəyannamə, sonra ikinci dəfə 1999-cu ildə İstanbulda isə qəti sənəd imzaladıq. Bakı-Ceyhan boru kəmərinin tikintisinə yalnız indi başlamışıq. Hələlik bu işdə müəyyən gecikmə var. Ona görə də mən Eduard Amvrosiyeviçlə sonuncu dəfə Yaltada görüşərkən ona bildirdim ki, bizim həmkarlarımız – konsorsiuma daxil olan şirkətlər deyirlər ki, xüsusən Gürcüstan ərazisində dağlardan keçən çətin yerlər var. Əgər indi biz tikintinin başlanmasında ləngisək, bir il gecikə və bu bir ili itirə bilərik. Hesab edirəm ki, bu bir ili nə siz, nə də biz itirə bilmərik. O vaxt biz Yaltada razılığa gəldik ki, danışıqları sürətləndirmək lazımdır. Mən artıq dedim ki, mart ayında biz bütün bu məsələləri qurtarmışıq. Mən bütün danışıqlar prosesini nəzarətdə saxlayırdım, mənə məlumat verdilər. Şadam ki, indi artıq qəti qərara gəlmisiniz və sənədin imzalanmasına gedə bilərik». Daha sonra prezident qeyd etmişdir ki, «Bakı-Tbilisi-Ceyhan neft kəməri layihəsini reallaşdırmaq üçün mən Tbilisiyə gələndə və Azərbaycanın payına düşən tarifləri Gürcüstana güzəştə gedəndə müxalifət tərəfindən mənə nə qədər hücumlar oldu. Məni onda günahlandırmağa başladılar ki, nəinki öz ölkəmin mənafeyini qorumamışam, hətta könüllü şəkildə güzəştə getmişəm. Amma mən nə etdiyimi həmişə

* Məqalə fəl.e.d. Ə.Tağıyev tərəfindən çapa məsləhət bilinib.

bilirəm. Mən bunu məhz iqtisadi çətinliklər keçirən, həqiqətən, bizimki kimi belə təbii ehtiyatları olmayan Gürcüstanı dəstəkləmək üçün etdim. Başqa cür necə ola bilərdi? Axı biz dostuq, qonşuyuq, bir-birimizə həmişə kömək etməliyik. Mənim də etdiklərim, necə deyərlər, həm gürcü, həm də azərbaycan xalqlarının tarixi ənənələrinə tamamilə uyğundur»(2).

Enerji siyasətinin həyata keçirilməsində hər iki ölkənin mövcud siyasi vəziyyəti də həmin tarixi dövr üçün oxşarlıq təşkil edirdi.

Məsələn, götürək Gürcüstanı. Nə üçün məhz Gürcüstanı? Bunun bir sıra səbəbləri var və onlardan bəzilərini nəzərdən keçirək:

1. Gürcüstan dost və qonşu ölkədir, Azərbaycan kimi o da tarixi-coğrafi, mədəni və geosiyasi baxımdan Cənubi Qafqazda yerləşir.

2. Hər iki ölkənin sovetləşmədən əvvəl, sovetləşmə və sovetlərin süqutundan sonrakı taleyində oxşar cəhətlər çoxdur.

3. Gürcüstanda öz tarixi torpaqlarında yaşayan yarım milyondan artıq azərbaycanlı, Azərbaycanın ərazisində isə əsrlərdən bəri burada məskunlaşmış gürcülər yaşayır.

4. SSRİ-nin dağılması ərəfəsində hər iki ölkə qızışdırılmış separatçılığın qurbanına çevrilib və indi onların hər ikisi ərazi bütövlüyünü bərpa etmək üçün birgə fəaliyyət göstərir.

5. Müstəqilliyi əldə edəndən sonra hər iki ölkə qərbpərəst siyasi mövqe seçdi. Avropa strukturlarına inteqrasiya və ABŞ-la əməkdaşlıq kursunu qəbul etdi.

6. Gürcüstan və Azərbaycan GUAM-ın yaradılmasının təşəbbüskarındandır və bu blokla fəal siyasi əməkdaşlıq edirlər. Hər iki ölkə özlərinin xarici siyasi davranışlarını müntəzəm olaraq əlaqələndirir, MDB, Avropa Şurası, BMT və başqa beynəlxalq çərçivələrdə razılaşdırılmış vahid mövqedən çıxış edir.

7. Hər iki ölkənin taleyi TRASEKA, Bakı-Tbilisi-Qars, Bakı-Tbilisi-Ceyhan neft kəməri və Bakı-Tbilisi-Ərzurum qaz kəməri kimi qlobal energetika və kommunikasiya layihələri ilə sıx bağlıdır.

Doğrudan da arxada qalan illərdə Azərbaycanın iştirakı və qətiyyəti ilə həqiqətə çevrilən irimiqyaslı, bütün dünya xalqlarını heyrətləndirən layihələrin əhəmiyyəti ölçüyəgəlməz dərəcədə yüksəkdir. «Bizim siyasətimizdə xalqın maraqları böyükdür» deyən Prezident İlham Əliyevin dövlətçilik fəaliyyətinin dünya miqyasında tanınmış siyasətçilər tərəfindən yüksək qiymətləndirilməsi, onun praqmatik siyasətçi adlandırılması təsadüfi deyildir. Siyasətçilərin sözləri ilə deyilsə, Prezident İlham Əliyev Azərbaycanı uca zirvələrə doğru aparır, onun siyasi və iqtisadi fəaliyyət xəttinin nəticələri göz qabağındadır.

Bu amili tarixi anlar, hadisələr də sübut edir.

Bir neçə il bundan əvvəl Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri bəzi dairələr tərəfindən real layihələr kimi qəbul olunmurdu. Lakin siyasi iradəsini, bütün xalqlarla əməkdaşlıq prinsiplərini, dostluq istəyini ortaya qoyan Azərbaycan iqtidarının qətiyyəti nəticəsində bütün şübhələrə son qoyuldu. 2008-ci ildən tam gücü ilə işləyən və il ərzində 50 milyon ton neft nəql edən Bakı-Tbilisi-Ceyhanla paralel Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin istismara verilməsi enerji təhlükəsizliyini təmin etmək istəyən, bu məsələdə yeni tərəfdaşlar axtaran Avropa dövlətləri üçün Azərbaycan etibarlı mənbə oldu. Yəni vaxtilə qonşu dövlətdən 4,5 milyard kubmetr qaz alan ölkəmiz indi bir çox dövlətlərin maraq göstərdiyi və əməkdaşlıq etmək istədiyi mavi yanacaq ixrac edən respublikaya çevrilib.

Belə layihələrin reallaşması bir neçə cəhətdən əhəmiyyətlidir. Beynəlxalq ekspertlərin hesablamalarında qeyd olunduğu kimi «davamlı iqtisadi inkişaf yolu ilə irəliləyən Azərbaycanın qarşıdakı 20 il üçün gəlirləri 340 milyard dollardan artıq olacaq. Beləliklə, neft ölkələri üçün xarakterik olan «Holland sindromu» və «Nigeriya variantı»nın Azərbaycana təsiri barədə ortaya atılan qeyri-obyektiv fikirlərin əksinə respublikamızın Avrotlantika məkanına inteqrasiyasını sürətləndirən enerji layihələri, eyni zamanda Xəzər, Qara və Baltik dənizləri hövzəsində yerləşən dövlətlərin əməkdaşlıq səylərini birləşdirəcək.

Hazırda Avropa və dünya siyasətinin əsas məsələləri, problemləri, müasir dövrün əsas tələbi kimi diqqəti cəlb edən enerji ilə təminat açıq müstəvidə müzakirə olunur. Enerji ehtiyatlarından asılılıq əməkdaşlıqla həll olunur. Bu sahədə daha çox etibarlı tərəfdaş hesab olunan Azərbaycana nəinki regionun, Şərqi və Mərkəzi Avropanın önəmli dövləti kimi də maraq artır.

ABŞ-ın Gürcüstanda strateji maraqlarının təmin olunması müasir dövrdə ABŞ-ın Xəzər regionu siyasətinin prioritetlərindəndir. Amerika analitiki A.Koen Gürcüstanın geosiyasi mövqeyini belə qiymətləndirir: «Qara dənizin Türkiyə ilə sərhədlənən strateji hövzəsinə nəzarət edərək, Ermənistanın dənizə çıxışını Qərbdən kəsərək sanki Gürcüstan Qafqazda giriş qapılarının açarlarını öz əlində saxlayır, Qərb ölkələrinin Xəzərə və «İpək yolu»na çıxışı üçün platsdarm rolunu oynayır»(5). Tbilisi Dövlət Universitetinin müəllimi Zurab Davitaşvili rus dilində dərc olunan «Gürcüstan bitərəf və ya Qərb

orientasiyası»(5) adlı məqaləsində üç dəlilə əsaslanan, Gürcüstanda daha çox məhşur olan Qərb istiqamətini göstərir. Onun fikrincə, onlardan biri – Qərb coğrafi düşüncə deyil, təkmilləşdirməyə və tərəqqiyə sinonimdir. İstənilən dövlət tərəqqiyə, demokratiyaya, iqtisadi nailiyyətlərə, siyasi stabilliyə, insan azadlığının təmin olunmasına can atırsa Qərblə birləşməlidir. Bundan imtina etmək, axının əksinə üzmək, ölkəni keçmişinə qaytarmaq deməkdir. İkinci dəlilə əsasən Qərblə birləşmə respublikanın təhlükəsizliyi və müdafiəsi üçün ən yaxşı zəmanətdir. Əgər Gürcüstan Qərb strukturuna daxil olarsa, ərazi itkisi təhlükəsi öz-özünə ötüb keçər. Üçüncü dəlil: Bütün ölkələr gec-tez Qərbə doğru üz tutacaqlar, çünki, Qərb sivilizasiyası və həyat tərzi universal xarakter daşıyır və Qərb daha çox hesaba alınmayan regionlara yayılır.

2007-ci ildə imzalanan «Azərbaycan Respublikası ilə Avropa Birliyi arasında enerji məsələləri üzrə strateji tərəfdaşlığa dair anlaşma memorandumu»nun qəbulunda da məqsəd Azərbaycanın enerji ehtiyatlarının Avropaya çatdırılması, bununla da dövlətlərarası iqtisadi, siyasi, mədəni əliqələrin genişlənməsinə təminat yaratmaq idi. Təsadüfi deyildir ki, Avropa İttifaqının «Yeni qonşuluq siyasəti» nə qoşulan ölkəmiz üçün beş il müddətinə müəyyənləşdirilən fəaliyyət planında da enerji təhlükəsizliyinə xüsusi diqqət yetirilir. ABŞ ilə Azərbaycan arasında enerji sahəsində təhlükəsizliyə dair sənədin imzalanması isə əməkdaşlığın coğrafiyasını şaxələndirir və zənginləşdirir. Ümumi nəticə isə budur: xalqların bir-biri ilə yaxınlaşması və sülh şəraitində yaşaması üçün iqtisadi əməkdaşlıq və dialoq ən yaxşı vasitədir.

Gələcəkdə Türkmənistan qazının, Qazaxıstan neftinin xarici bazarlara ixracı üçün Azərbaycanın tranzit ölkə rolunu oynayacağı barədə irəli sürülən təkliflər isə ölkəmizin regional və beynəlxalq əhəmiyyətini daha da artırır.

«Vilnüs enerji təhlükəsizliyi 2007» sammitində deyildiyi kimi Bakı-Tbilisi-Ceyhan və Bakı-Tbilisi-Ərzurum vasitəsilə Azərbaycanın neft və qazının dünya bazarlarına çıxarılması ölkəmizin Mərkəzi Avropa dövlətləri ilə əməkdaşlığına əlavə stimul yaradır»(5).

Avropa dövlətlərinin enerji təhlükəsizliyinin təminatı və Azərbaycanın təbii ehtiyatlarından istifadəni artırmaq üçün Xəzər, Qara və Baltik dənizləri regionunda yerləşən ölkələrin əməkdaşlığının yaradılması qarşıda duran vəzifələrdəndir. Zamanın tələbi də Azərbaycanda neft-qaz hasilatı və nəqlinin yeni variantları barədə düşünmək ehtimalını çoxaldır. Deyildiyi kimi, iqtisadi münasibətlərin genişləndirilməsi transmilli layihələrin reallaşmasında, bölgə dövlətlərinin eyni siyasi məkanda birləşmələrinə şərait yaradır. Bütün danışıqlarda isə qlobal dəyəri ilə diqqəti cəlb edən enerji və nəqliyyat layihələri müzakirə obyektinə çevrilir. Hazırda ən sərfəli variant, illərdən bəri perspektiv layihə hesab olunan, güclü siyasi dəstək alan Odessa-Brodi-Plotsk-Qdansk strateji xəttinin çəkilməsidir. Həmin layihənin reallaşması nəticəsində Avropa İttifaqına üzvlüyə daha da yaxınlaşan Azərbaycanın iştirakı ilə keçirilən mərasimləri nəzərə alaraq qətiyyətlə demək olar ki, ölkəmiz Xəzəri kəmərlər vasitəsilə Qara və Aralıq dənizləri ilə birləşdirmək və Azərbaycanın enerji ehtiyatlarını Avropa bazarına çıxarmaq vəzifələrini qısa müddət ərzində yerinə yetirmək imkanına malikdir.

Bu layihənin iqtisadi və siyasi əhəmiyyətindən bəhs edərkən bir məsələ də unudulmamalıdır ki, Xəzər neftinin Avropa və dünya bazarlarına çıxarılmasında Odessa-Brodi xəttinin çəkilməsinə böyük inamla yanaşı Polşa əlverişli coğrafi məkana və imkanlara malikdir. Artıq Odessa ilə Brodi arasındakı kəmər istifadəyə verilib. Qarşıdakı illərdə Brodidən Qdanska uzanan 450 km ərazidə kəmərin çəkilişi davam etdiriləcəkdir.

2007-ci il noyabrın 21-də Gürcüstan öz ərazisi olan hissədə Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin tikinti işlərinə başlamışdır. Cənubi Qafqaz vasitəsilə Avropa və Asiyanı birləşdirəcək bu dəmir yolunun Gürcüstan bölməsi layihənin əsas hissəsidir. Azərbaycan Prezidenti İlham Əliyev, Gürcüstan Prezidenti Mixail Saakaşvili və Türkiyə Prezidenti Abdullah Gül Gürcüstanın cənub-şərqində yerləşən Marabda dəmir yolu stansiyasının təməlqoyma mərasimində iştirak etmişlər.

Bu üç ölkə heç bir əlavə iştirakçı və beynəlxalq təşkilat olmadan həmin qitələrarası layihəni həyata keçirir. Həm regionun, həm də Qərbin maraqlarına xidmət edəcək bu layihədə Azərbaycan məsuliyyəti öz üzərinə götürmüşdür.

Azərbaycan, Gürcüstan və Türkiyə dəmir yolları sistemini birləşdirəcək xəttin tikintisi başa çatdıqdan sonra yüklərin Asiyadan Avropaya və əks istiqamətdə daşınması asanlaşacaqdır.

«Dəmir İpək yolu» adlandırılan xəttin əsas təşəbbüskarı olan Azərbaycanın irəli sürdüyü bu layihə ilə bağlı saziş 2007-ci il fevralın 7-də üç ölkənin rəhbərləri tərəfindən imzalanmışdır. 6 mart 2007-ci ildə bu məsələni geniş təhlil edən ABŞ-da "Kriscen Sayəns Monitor" qəzeti "Nett Azərbaycanın möhkəmlənməsinə kömək edir. Dəmir yolu kecmiş sovet respublikasını Avropa bazarı ilə birləşdirəcək"

adlı məqalə dərc etmişdir. Məqalədə müxbir Darya Vaisman Tbilisidə Azərbaycan və Gürcüstan prezidentləri və Türkiyənin baş naziri tərəfindən Mərkəzi Asiya ilə Avropa arasında malların və yüklərin daşınması üçün ən kəsə yol olacaq Bakı-Tbilisi-Qars dəmir yolunun tikintisi haqqındakı sazişin imzalanmasından bəhs edərkən bu sazişdən ən çox Azərbaycanın fayda götürəcəyi qənaətinə gəlir. Almaniya kansleri Angela Merkelin (həmin ərəfədə İlham Əliyevlə görüşdə – T.Q) «Avropa da Azərbaycanla daha sıx əlaqələr yaratmaq istəyir»(8) fikrini xatırladan müəllif "Türkiyə ilə əlaqə ölkəyə hər il 20 milyon tonadək yükü qəbul edib, Avropaya yola salmaq imkanı verəcəkdir"(9) fikrini vurğulayır. Ötən il tamamlanması nəzərdə tutulan layihə ilkin olaraq 600 milyon ABŞ dolları dəyərində qiymətləndirilmişdir. Bunun 420 milyon dolları dəmir yolu xəttinin tikintisinə və bərpasına, qalan hissəsi isə müvafiq infrastrukturun yaradılmasına sərf olunacaqdır.

Azərbaycan Beynəlxalq Bankı Gürcüstan ərazisindəki əsas tikinti və bərpa işlərini maliyyələşdirir. Bank Gürcüstana 25 il müddətinə güzəştli şərtlərlə 200 milyon dollar kredit ayırmışdır. Gürcüstan borcunu öz ərazisində olan dəmir yolundan gələn gəlir hesabına ödəyəcəkdir. Türkiyə hökuməti ərazisindəki tikinti işlərini özü maliyyələşdirəcəkdir.

Azərbaycanın «Azərinşaatservis» şirkəti xəttin Gürcüstana məxsus hissəsini inşa edəcəkdir. 2010-cu ildən sonrakı ilkin mərhələdə dəmir yolu ilə ildə 5 milyon ton, sonrakı illərdə 15 milyon ton, 2020-ci ildən sonra isə təxminən 30 milyon ton yük daşınacağı gözlənilir. Sərnişin daşınması da nəzərdə tutulan bu dəmir yolu SSRİ dağılandan və Rusiyaya gedən yolların blokadasından sonra Gürcüstanı yenidən dünyaya birləşdirəcəkdir.

Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin Gürcüstan hissəsinin təməlqoyma mərasimində Prezident Mixail Saakaşvili demişdir: «Bu yol Gürcüstan və onun vətəndaşları üçün Avropaya pəncərə açır»(8).

«Layihə Azərbaycan və Gürcüstanı daha güclü və daha azad edəcəkdir»(8). Bu sözləri Azərbaycan Prezidenti İlham Əliyev mərasimdəki nitqində demişdir. Türkiyə Prezidenti Abdullah Gül isə dəmir yolunu «tarixi dəyişən layihə» adlandırmışdır.

Zənnimizcə, gələcəkdə Çin də öz məhsullarını bu regiona və birbaşa Avropaya ixrac etmək üçün Rusiyanın Transsib dəmir yolundan daha çox bu yola üstünlük verəcəkdir.

Asiya və Avropanı birləşdirəcək Bakı-Tbilisi-Qars dəmir yolu layihəsinin həyata keçirilməsində Azərbaycanın həlledici rolu ölkənin regional enerji və nəqliyyat layihələrindəki liderliyini gücləndirir. Bakı-Tbilisi-Ceyhan neft kəmərinin tam işə düşməsindən cəmi bir il keçmiş Azərbaycan əldə etdiyi neft gəlirlərini Gürcüstan və Türkiyə ilə birgə gələcəkdə daha çox gəlir gətirəcək qarşılıqlı, faydalı layihələrə qoyur.

2007-ci il noyabrın 18-də Azərbaycan qazı ilk dəfə olaraq Türkiyə-Yunanıstan boru kəməri ilə Avropaya çatdırıldı və həmin gündən ticarət əməliyyatlarına start verildi. Azərbaycan Prezidenti İlham Əliyev Türkiyə-Yunanıstan sərhədində keçirilmiş mərasimdə ABŞ, Türkiyə və Yunanıstan rəsmiləri ilə birgə iştirak etdi.

Türkiyə-Yunanıstan boru kəməri Yunanıstandan İtaliyaya qədər uzadılmışdır. Azərbaycan 2011-ci ildən başlayaraq, Türkiyə-Yunanıstan-İtaliya kəməri vasitəsi ilə 11,5 milyard kubmetr qaz ixrac etməyi planlaşdırır. Həmin vaxt Azərbaycan Türkiyədən Avropaya uzanan «Nabukko» kəmərinin birinci fazasına start verməyi də nəzərdə tutur. «Şahdəniz»dən çıxarılan qaz da bu kəmərlə Bakı-Tbilisi-Ərzurum xətti ilə nəql ediləcəkdir.

Gürcüstanın Qara dəniz sahilindəki Poti limanı yaxınlığında yerləşən və Azərbaycan Respublikası Dövlət Neft Şirkətinə (ARDNŞ) məxsus olan terminalın gücü 9 milyon tona çatdırılmışdır. Gələcəkdə isə onun gücünü 15-20 milyon tona çatdırmaq nəzərdə tutulur. Terminal Azərbaycandan həm xam, həm də emal olunmuş neft məhsulları ixrac etmək üçün inşa edilmişdir. ARDNŞ Kulevidə illik gücü 20 milyon ton olan neftayırma zavodu tikməyi planlaşdırır. Şirkət, eyni zamanda Gürcüstanın qazpaylayıcı sisteminin müəyyən hissəsinin özəlləşdirilməsində də iştirak edir. 2007-ci il noyabrın 22-də ARDNŞ və onun tərəfdaşları – Səudiyyə Ərəbistanının «İnjaz Projects» və Türkiyənin «Turkcas» şirkətləri Türkiyənin ən böyük neft kimyası müəssisəsi olan «Petrochemical Holding»inin (Petkim) özəlləşdirilməsi ilə bağlı müsabiqənin qalibi oldular.

Eyni zamanda, ARDNŞ Türkiyə şirkəti ilə birlikdə Ceyhan limanında gücü 10 milyon ton olan neftayırma zavodunun tikintisinə dair birgə layihə həyata keçirir. Bura Bakı-Tbilisi-Ceyhan boru kəmərinin və İraqın Kərkük əyalətindən dənizə uzanan kəmərin sonuncu məntəqəsidir. Kulevi layihəsi və Ceyhan neftayırma zavodunun tikintisi ilə Azərbaycan xam və emal edilmiş neft məhsullarının ixracı sahəsində rolunu genişləndirəcəkdir.

"Türkiyə həm Gürcüstanla, həm də zəngin enerji ehtiyatları və sərmayə potensialı olan Azərbaycanla əlaqələri daha da inkişaf etdirmək yolunu seçmişdir. Bakı-Tbilisi-Ceyhan və Bakı-Tbilisi-Ərzurum boru kəmərləri, Bakı-Tbilisi-Qars dəmir yolu layihəsi bu üçlüyün iqtisadi və siyasi münasibətlərinin daha da güclənməsinə təkan vermişdir"(11).

Noyabrın 22-də Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin Gürcüstan hissəsinin təməlqoyma mərasimində iştirak edən üç ölkənin prezidentləri qeyd etdilər ki, Gürcüstan, Azərbaycan və Türkiyə vahid iqtisadi region yaratmağa başlayır. Abdullah Gülün Gürcüstana səfəri zamanı (o, prezident kimi ilk səfərini Azərbaycana etmişdir –T.Q) Türkiyə və Gürcüstan arasında azad ticarət zonası yaradılması haqqında saziş imzalandı. 2006-cı ildə Türkiyə Gürcüstanın bir nömrəli xarici tərəfdaşı olmuşdur.

Ermənistan hökuməti isə Cənubi Qafqazda həyata keçirilən enerji və nəqliyyat layihələrindən özünütəcrid siyasəti yürütməkdədir. Yerevan Azərbaycan-Gürcüstan-Türkiyə dəmir yolu layihəsinin əleyhinədir və bu istiqamətdə Amerika Birləşmiş Ştatlarındakı və Avropa İttifaqındakı müttəfiqləri vasitəsilə layihənin beynəlxalq maliyyələşdirilməsinə qarşı çıxmağa çalışdı. Yerevan və Qərbdə onları dəstəkləyən qüvvələr Bakı-Tbilisi-Ceyhan neft kəməri layihəsinə də qarşı çıxmışdılar, lakin onlar uğur qazana bilmədilər. Azərbaycan və Türkiyə elə bir mövqe tutdu ki, Azərbaycan torpaqlarını işğal etməsinə və Türkiyəyə qarşı torpaq iddialarına görə Ermənistan regional layihələrin heç birində iştirak edə bilmədi. Əvəzində, Ermənistan nə qədər mane olmağa çalışsa da, qonşuları çox əhəmiyyətli milli və ümumi maraqlarını həyata keçirməkdə davam edirlər.

Araşdırmalardan belə bir nəticəyə gəlmək olur ki, əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş Azərbaycanın uğurlu neft və enerji siyasəti ölkəmizin Qafqazda aparıcı mövqeyə malik dövlətə çevrilməsinə, "Əsrin müqaviləsi" və tarixi "İpək yolu"nun bərpasına dair müqavilələrin imzalanması respublikamızın regionda və dünyada çəkisinin artırmasına səbəb oldu. Belə ki, Bakı-Tiblisi-Ceyhan neft boru kəməri layihəsinə Gürcüstan və Türkiyəni cəlb edən Azərbaycan, kəmərin Qara dənizdən yan keçərək Aralıq dənizinə çıxarılması ilə dəniz ətrafı ölkələrin neftə olan ehtiyaclarının ödənilməsinə şərait yaratdı.

Xəzər regionunu Qərblə birləşdirən Azərbaycan, dünya neft bazarında artan gücə çevrildiyini nümayiş etdirməklə, həm qaz ixracatçısı, həm də qaz nəqli marşrutu (tranzit) rolunu üzərinə götürdüyünü təsdiqləmiş oldu.

2007-ci ildə Xəzərin "Şahdəniz" yatağını istismara verməklə bütün şübhəli proqnozları sarsıdan Azərbaycan, Gürcüstan ərazisi ilə Türkiyəyə uzanan Cənubi Qafqaz boru kəmərini qazla təmin etdi ki, bununla da Respublikanın Rusiyadan qaz asılılığına son qoydu və Azərbaycan özü dünyada yeni qaz ixrac edən ölkə statusu qazandı.

"Şahdəniz" yatağından çıxarılan qazın Avropaya nəqli üçün yeni kəmərlərin çəkilməsi ideyası ortaya çıxdı. Bunlardan biri Avstriya, Macarıstan, Rumıniya, Bolqarıstan və Türkiyə tərəfindən dəstəklənən "Nabukko", digəri Adriatik dənizindən keçməklə Yunanıstan və ya Albaniya vasitəsilə İtaliyaya qədər uzanacaq qaz kəmərləridir. Hazırda bu istiqamətdə işlər davam etdirilir. "Nabukko"nu Rusiyadan qaz asılılığını azaltmaqda vasitə kimi görən Avropa, Mərkəzi Asiya qazının Xəzər dənizindən və Azərbaycan ərazisindən keçməklə öz ərazisinə ixracını nəzərdə tutan digər bir kəmərin də reallaşmasına çalışır.

Başqa tərəfdən, Şimal dənizində azalmaqda olan hasilatın kompensasiya edilməsi baxımından Xəzər regionu Avropanın yeni qaz mənbələri axtarışında əsas hədəflərdən biri kimi diqqəti cəlb etməkdədir.

Rusiyanın yanacaq monopoliyası yaratmaq iddiasında olduğu bir zamanda Avropanın qazancı o oldu ki, Azərbaycan öz karbohidrogen ehtiyatları ilə dünya bazarına çıxdı. Trans Xəzər qaz kəmərinin çəkilişinin sürətləndirilməsi Avropanın enerji təhlükəsizliyində vacib amil olaraq gündəmdə qaldı.

Bakı-Tiblisi-Ceyhan, Bakı-Tiblisi-Ərzurum neft-qaz layihələrinin işlənməsi ilə yanaşı, Avrotlantik məkanı, Şərqi-Qərblə birləşdirən Bakı-Tibilisi-Qars dəmir yol layihəsinin reallaşması nəinki Azərbaycan, Gürcüstan, Türkiyə və bölgə dövlətləri üçün mühüm əhəmiyyət kəsb etdi, bu, eyni zamanda Avropa və dünya üçün də mühüm hadisə kimi qarşılandı.

Beləliklə, nəticədən aydın görünür ki, Avropanın mütərəqqi dəyərlərini paylaşan və Avrotlantik məkanın təhlükəsizlik arxitekturasının ayrılmaz bir halqası olan Azərbaycan və onun birgə əməkdaşlığa cəlb etdiyi Gürcüstan və Türkiyə dostluğu bu məkanın enerji təhlükəsizliyinə öz töhvələrini verməkdədir...

Açar sözlər: enerji, Avropa, əlaqələr, əməkdaşlıq, Xəzər, təhlükəsizlik, region, layihələr.

İstifadə olunmuş ədəbiyyat

1.Həsənov Ə. Azərbaycanın dünyanın aparıcı ölkələri ilə əlaqələrində Xəzər neftinin rolu AMEA-nın FSHTİ "Azərbaycanda milli siyasət strategiyası".Bakı, 2005.
2. Quliyev T., Həsənov V. İlham Əliyev: Zirvədən boylanan günəş. Bakı, 2004, Nurlan.
3. www.economy.gov.az
4. Amerika qəzeti Azərbaycanın regionda mövqeyini təhlil edir. (Azər Tac). Xalq qəzeti, 7 mart 2007-ci il.
5. Бjezinskiy З. Belikaə şaxmatnaə doska. M., Юrletizdat, 1999.

Telğman KULIEV

POLITIÇESKOE COTRUDNIÇESTVO AZERBAYDJANA, ГRUZII I TURÜII V OBESPEÇENII EVROPI GNERQORESURSAMI

Pezöme

B statğe rassmatrivaetsə odna iz aktualğnıx problem qeopolitiki – bezopasnostğ obespeçeniə gnerqoresursami Evropı, a takje razumnoe i raüionalğnoe ix ispolğzovanie.
B rezulğtate sovmestnıx usiliy Azerbaydjana, Гruzii i Turüii bıli realizovanı mejdunarodnıe proektı, kotorıe sposobstvuöt populərizaüii Kaspiyskoqo basseyna v mire, a takje prevraheniö eqo v vajnoe sredstvo obespeçeniə po voprosu evropeyskoy gnerqobezopasti.

Klöçevıe slova: gnerqiə, Evropa, svəzi, sotrudniçestvo, Kaspiy, bezopasnostğ, reqion, proektı.

Telman KULIYEV

POLITICAL COLLABORATION OF AZERBAIJAN, GEORGIA AND TURKEY IN PROVIDING EUROPE WITH POWER RESOURCES

Summary

The article considers one of the actual problems of geopolitics – security of providing Europe with power resources, as well their reasonable and rational use.
As a result of the joint efforts of Azerbaijan, Georgia and Turkey there have been realized the international projects which promote to popularization of the Caspian basin in the world, as well its turning to the important means of providing in the matter of European power security.

Keywords: energy, Europe, relations, collaboration, Caspian, security, region, projects.

UOT 327

Sənan HƏSƏNOV
AMEA FSHİ-nin elmi işçisi

QLOBAL ƏMƏKDAŞLIQDA XƏZƏRİN STATUSU PROBLEMİNİN HƏLLİ PERSPEKTİVLƏRİ*

1993-cü ilin yayında Azərbaycanda baş vermiş hakimiyyət dəyişikliyi xarici siyasət fəaliyyətinin ölkənin strateji maraqları əsasında yenidən qurulmasını zəruri etdi. Həyata keçirilən yeni xarici siyasət konsepsiyası xarici ölkələrin respublikamız üzərində köklənmiş imperiya ambisiyalarını ərazi iddialarını, iqtisadi maraq və nüfuz dairəsini, onların kəsişən və toqquşan maraqlarını müəyyənləşdirmək, çevik manevrlər və xüsusi gedişlərlə, Azərbaycanın dövlətçilik mənafelərini maksimum qorumaq kimi mürəkkəb tarixi vəzifənin öhdəsindən layiqincə gəlməli idi. Bütövlükdə, Azərbaycan dövlətinin bəşəriyyətdə siyasi-iqtisadi, sosial mədəni irəliləyişə nail olması kimi, mühüm məsələ bu tarixi şəraitdə edilən cevik siyasi manevrlərdən bilavasitə asılı idi .

İlk vaxtlar Xəzərin statusu problemi ətrafında cərəyan edən hadisələr göstərir ki, sovet milli siyasəti, təkcə geostrateji məkan kimi Xəzər probleminin yaranmasında deyil hətta bu bölgədə ən ağrılı problem kimi Dağlıq Qarabağ münaqişəsinin yaranmasında da dərin ziddiyyətin əsasını qoymuşdur. Həqiqətən də, bu problemləri sovet hakimiyyətinin tarixi irsi hesab etmək olar. Sovet rəhbərliyinin imperiyapərəst iddiaları XX əsrin 80-90-cı illərində Azərbaycanı həlli çətin vəziyyətə düşmüş problemlər qarşısında qoyaraq, gərgin siyasi vəziyyətə, böyük maddi və mənəvi itkilərə gətirib cıxardı.

Həmin tarixi şəraitdə Xəzərin statusu barədə aparılan ilk danışıqlar məsələnin siyasi calarlarını gücləndirmiş, region ölkələrinin xarici siyasətində problem önəmli yeri tutmağa başlamışdır. Prosesin gedişinə isə region və dünyanın nüfuzlu ölkələrinin iqtisadi-siyasi maraqları, Xəzər neftinin istismarına yönələn siyasi addımlar, habelə beynəlxalq normalarla tanışlıq zərurəti də ciddi təsir etmişdir. Azərbaycan dövlətinin apardığı siyasət ilk vaxtlar dövlətlərin ciddi narazılığına səbəb olsa da sonrakı mərhələlərdə bu konsepsiya problemin həlli perspektivinin əsasını təşkil etmişdir. Bu baxımdan problem sahilyanı dövlətlərin müzakirə mövzusu olduğu halda, az sonra Qərb ölkələrinin, hətta beynəlxalq və regional təşkilatların müzakirə mövzusuna cevrildi (2, s.13-21).

Bunun bir necə səbəbi vardır. Əvvəla Azərbaycan dövlətinin dünyanın aparıcı neft şirkətləri ilə imzaladığı 21 beynəlxalq neft müqavilələri ətrafında uzun sürən gərgin danışıqlar və həmin müqavilələrdə dünya ölkələrinin Xəzər neftindən münasib pay almaq istəyi, dünya dövlətlərinin diqqətini bu bölgəyə yönəltdi. Dünya iqtisadiyyatında neftə olan ehtiyac, imzalanmış müqavilələrdə ölkələrin iştirakının təhlükəsizliyi bu mənada Xəzərin hüquqi rejimi və ondan istifadə məsələsinin beynəlxalq hüquq normaları əsasında həllinin vacibliyini ön plana çıxardı. Əlbəttə, məsələ nəinki Azərbaycan dövlətinin, həm də bütövlükdə, Xəzər regionunda dövlətimizlə sıx əməkdaşlıq edən Qərb dövlətlərinin maraq dairəsinə cıxdı. Bu baxımdan Xəzərin statusunun həlli dövlətlərin Xəzərdə təhlükəsiz əməkdaşlığı baxımından vacib və əhəmiyyətli məsələ hesab olunurdu.

İkincisi, Xəzərin enerji ehtiyatlarının beynəlxalq bazarlara çıxarılmasında dövlətlərin maraqlarını nəzərə alaraq Azərbaycanın bir neçə səciyyəvi xüsusiyyətə malik fəal strategiya həyata keçirməsi.

Şübhəsiz ki, Xəzərin enerji ehtiyatlarının beynəlxalq bazarlara çıxarılması, həm Xəzər neftindən pay almış dövlətlər üçün, həm də Azərbaycan dövləti üçün əhəmiyyətli idi. Bu barədə səfir Uilyam Kurtni qeyd edirdi ki, Xəzərin hüquqi məsələləri (yəni onun statusu problemi – S.H.) elə həll edilməlidir ki, bu, neft-qaz ehtiyatlarının sürətlə istismarını, neft və qazın tezliklə ixracını stimullaşdırsın (1).

Xəzərin statusu məsələsinin həll olunması, həm ixrac kəmərlərinin təhlükəsizliyində, bu kəmərlərin dövlətlər arasında ziddiyyətsiz fəaliyyətində həm də Qərb ölkələrinin aldıqları enerjinin daşınmasında xüsusi əhəmiyyətə malikdir. ABŞ rəsmi dairələri belə bir fikri müdafiə edirdi ki, Xəzər regionunda təhlükəsizliyin təmin edilməsi və buradakı mübahisəli məsələlərin həlli, nəinki Qafqaz və Mərkəzi Asiya ölkələrinin iqtisadi inkişafı üçün, hətta Xəzər neftinin birgə istismarında əməkdaşlığa can atan ölkələrin imkanlarının genişlənməsinə də köməklik edəcəkdir (5). Lakin bu da faktdır ki, regionda bəzi dövlətlərin yersiz iddiaları Xəzərin statusunun həllində maneəyə çevrilmiş, bu işi ləngitmişdir.

---

* Məqalə fəl.e.d., prof. Ə. Tağıyev tərəfindən çapa məsləhət bilinib.

Üçüncüsü, Xəzərin statusu probleminin həll olunması regionda sabitliyin və əməkdaşlığın indiki mərhələsində olduqca siyasi əhəmiyyət kəsb edir. Bu gün Azərbaycan ərazilərinin 20%-indən çoxu Ermənistan tərəfindən işğal edilib, azərbaycanlı əhali qaçqın vəziyyətinə düşüb. Dağlıq Qarabağ münaqişəsi tənzimlənmədikcə, Xəzər regionunda dünya ölkələrinin iqtisadi əməkdaşlığa dair atdığı addımlar istənilən müsbət nəticəni vermir. Təbii ki, dünyanın bütün regionlarında qeyri-sabit siyasi vəziyyət geosiyasi mənzərəni dəyişən amildir. Araşdırma belə bir nəticəyə gəlməyə əsas verir ki, Xəzərin statusunun beynəlxalq hüquq normaları əsasında həll olunması, bu məsələdə Azərbaycan Respublikasının obyektiv mövqeyinin ölkələr tərəfindən dəstəklənməsi, Qafqazda və Yaxın Şərqdə qlobal əməkdaşlığın həyata kecirilməsini bilavasitə şərtləndirir. Qərb şirkətlərinin Xəzər regionuna qoyduğu külli miqdarda sərmayənin nəticələrinə ümid artır. Bu baxımdan ölkələr arasında qlobal əməkdaşlq ücün həlli vacib məsələlər icərisində Xəzərin statusu əsas yer tuturdu (3, s.127).

Beləliklə, Xəzərin yeni siyasi şəraitdə istifadəsi və burada nüfuz bölgüsü müzakirə obyektinə çevrildi. Xəzəryanı dövlətlər bu məsələdə özlərinin ilk mövqelərini açıqladıqları zaman Rusiya, İran, Türkmənistan dövlətlərinin mövqeyi bu hövzədə onların sırf milli maraqlarını əks etdirirdi. Bölgədə beş müstəqil dövlətin yaranması və hər bir dövlətin yenidən öz nüfuz dairəsini Xəzərdə genişləndirməsi, xüsusən də, bu bölgədə hökmranlığa can atan Rusiya və İranın siyasi vəziyyəti dəyişmək cəhdləri artmağa başladı. SSRİ-nin süqutu belə cəhdlərə bilavasitə, şərait yaratdı. Bir neçə il dövlətlərin nümayəndə heyətlərinin Bakıda, Alma-Atada keçirilən görüşlərində Xəzərdən yeni şəraitdə bioloji, ekoloji istifadə variantları müzakirə olunsa da, əslində bu proses kortəbii gedir, yenicə müstəqillik əldə etmiş sahilyanı ölkələr bir-birinin qarşılıqlı mövqeyində anlaşılmaz müzakirələrə daha çox yer verirdilər. Xəzər neftinin Azərbaycan tərəfindən istismarına dair ilk atılmış addımlar isə konfliktin şiddətlənməsinədə yeganə faktor oldu. Lakin Azərbaycan tərəfi beynəlxalq hüquqi konvensiyalarda əks olunmuş mövcud qanunları, su hövzəsi haqqındakı normaları lazımi səviyyədə araşdırmış, diplomatiyamızın bu istiqamətdəki fəaliyyəti getdikcə mütəşəkkil xarakter almışdır. Hesab edirik ki, bu sahədəki siyasi iradə digər ölkələrə nümunə olmuşdu. Rusiya isə problemin ilk vaxtlarından öz dövlət maraqlarını təmin edən variantlar irəli sürməyə başladı. Lakin bölgədə Qərb ölkələri ilə enerji əməkdaşlığının həyata kecirilməsi bu istiqamətdə Azərbaycanın Xəzərdə atdığı addımlar Rusiya və digər sahilyanı ölkələrin mənafe toqquşmalarını meydana çıxardı. Getdikcə dərinləşən ziddiyyət, ölkələrin mövqelərinə və baxışlarına təsir etdi, qərar qəbul edilməsini mümkün etmədi. Xəzərin statusunun on ildən artıq kəskin müzakirə obyektinə cevrilməsində və vahid qərarın qəbul olunmamasında bu faktor da vardır. Digər səbəb isə istər Xəzəryanı ölkələrin, istərsə də Qərb dövlətlərinin Xəzərin tarixi, hüquqi müqavilə praktikası, beynəlxalq qanunların bu hövzəyə tətbiqi, mövcud qaydalar haqqında düzgün informasiyaya malik olmamaları, ölkələrdə Xəzər haqqında fundamental elmi dəlillərin olmaması, problemin mahiyyətinin kifayət qədər öyrənilməməsinin nəticəsi olaraq meydana çıxmışdır. Bu da Azərbaycanla Xəzəryanı dövlətlərin ikitərəfli və çoxtərəfli dialoqunun əhəmiyyətinin zəruriliyini meydana çıxarmışdır. Xəzəryanı ölkələrdə baş vermiş hadisələrin ilkin mərhələsinin təhlili göstərir ki, 1993-cü ilədək bölgədə əməkdaşlığa dair ikitərəfli dialoqun əsası qoyulsa da, vahid mövqe ifadə edən diplomatık variant mövcud deyildi. Bütün bu proseslərdə dönüş Heydər Əliyevin 1993-cü ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri vəzifəsindən, xalqın tələbi ilə yenidən mərkəzi hakimiyyətə gəlməsi oldu. Məhz Heydər Əliyevin əsasını qoyduğu yeni neft strategiyası ilə Azərbaycanın tədricən dirçəlməsi və beynəlxalq aləmlə eləcə də region ölkələri ilə strateji əməkdaşlığı və tərəfdaşlığı da yeni mərhələyə qədəm qoymuş oldu. 1994-cü il fevral ayının 14-də «Azərbaycan Respublikasında dəniz neft yataqlarının işlənməsinin sürətləndirilməsi haqqında» qərar imzalandı. Həmin il sentyabrın 20-də Gülüstan sarayında imzalanmış «Əsrin müqaviləsi» bütün bu proseslərin ən yüksək zirvəsi kimi, Azərbaycanın neft tarixində ilk və ən böyük dönüş oldu. Ardıcıllıqla və böyük siyasi ustalıqla aparılan neft siyasəti bundan sonra böyük inkişaf yoluna qədəm qoydu (4).

Belə vəziyyət Xəzəryanı dövlətlərin Xəzərdən istifadə məsələsində ciddi narahatlığına səbəb olsa da Heydər Əliyevin ikinci dəfə hakimiyyətə gəlişindən sonra, həm də Xəzərin tarixən Azərbaycana aid olan hissəsinin, digər dövlətlər tərəfindən tanınması istiqamətində, eləcə də hər bir ölkənin bu hövzədə öz sektorunda təhlükəsiz fəaliyyətinin qurulmasına dair geniş diplomatik iş aparıldı. Bu əsasda «status» məsələsinin müzakirəsində yeni mərhələ başlandı. «Əsrin müqaviləsi»ndən sonra Azərbaycan diplomatiyasının fəallaşması ölkə rəhbərliyinin, Xəzərin statusu məsələsinin həllində qarşılıqlı hörmət və strateji əməkdaşlıq yolunu tutması, qarşı dövlətlərin məsələyə münasibətdə tutduğu qeyri-konstruktiv mövqenin zaman keçdikcə dəyişməsində həlledici rol oynadı. 1994-cü ildən başlayaraq Azərbaycan mərhələlər üzrə Xəzəryanı dövlətlərlə siyasi dialoqa girdi. Onlara az məlum olan, lakin tarixən mövcud praktikanı və beynəlxalq hüquq normalarını əks etdirən faktlar qarşıya qoyuldu (6). Bu gərgin və geniş

diplomatik fəaliyyət, zaman keçdikcə Xəzəryanı ölkələrin rəsmi dairələrində əvvəllər mövcud olmuş imperiyapərəst fikirlərin ləğvinə, onları problemin həllində ədalətli mövqe nümayiş etdirməyə məcbur etdi. Əgər 1992-ci ilin noyabrında Rusiya dövləti Xəzərin ehtiyatlarının ona məxsusluğunu iddia edirdisə, 1994-cü ildə Azərbaycanın Qərb şirkətləri ilə imzaladığı neft müqaviləsini tanımırdısa, Xəzərdə Qərb şirkətləri ilə hər cür əməkdaşlığın yolverilməzliyini bildirirdisə, 1996-cı il yanvarın 18-də Azərbaycan Respublikası ilə imzalanmış sazişdə bu ölkə rəsmi şəkildə etiraf etdi ki, Azərbaycan neftinin Rusiya ərazisindən daşınmasına razıdır, eyni zamanda Azərbaycan neftinin sahibi deyildir və mülkiyyət hüququ neftin istehsalçısına məxsusdur. Bu Azərbaycan diplomatiyasının ilk uğuru hesab olunmalıdır. Daha sonra, 1997-ci il fevralın 27-də Qazaxıstan Prezidenti N.Nazarbayev və Türkmənistan Prezidenti S.Niyazov arasında məsələ ilə bağlı görüşün nəticəsi kimi imzalanmış bəyanat Xəzərdə əməkdaşlığın prinsiplərini müəyyənləşdirən, mehriban qonşuluq prinsipi əsasında sektorial bölgü prinsipinin həyata keçirilməsi istiqamətində çox ciddi addım idi. Az sonra, 1998-ci ilin iyul ayında Rusiya ilə Qazaxıstan arasında əldə edilmiş razılaşma dövlətlərin Xəzərə dair baxışlarında əsaslı dəyişikliklərin yaranmasının nəticəsi idi. Bu iki ölkə ilk dəfə olaraq Xəzər dənizinin şimal hissəsinin dibinin sektorlara bölünməsi və su səthinin ümumi istifadədə qalmasını təsdiq etdilər. Əvvəllər Xəzərin ümumi istifadəsini tələb edən ölkələrin indi prinsipcə, mövqeləri Azərbaycanın mövqeyinə daha da yaxınlaşmış. Danışıqlar prosesinin gərgin keçməsinə baxmayaraq, Azərbaycan tərəfi dövlətlərin mövqeyinə bilavasitə, tutarlı faktlarla təsir etmişdir. Artıq proses elə həddə çatmışdır ki, bütün neft müqavilələri Azərbaycanın milli maraqlarına uyğun imzalanmış və həyata keçirilmiş, özünün təhlükəsizliyində neft faktorunun bütün tərəfləri incə, lakin möhkəm əsaslara söykənmişdir.

Problemin həlli perspektivləri yolunda Azərbaycan Prezidenti Heydər Əliyev, digər Xəzəryanı dövlətlərlə dialoqu inkişaf etdirmiş, təkmilləşdirmiş və yeni formatlarla zənginləşdirmişdir. Xəzəryanı dövlətlərlə dialoq, məktublaşmalardan, nümayəndə heyətlərinin qarşılıqlı səfərlərindən inkişaf edərək, dövlət başçılarının görüşləri müstəvisinə keçdi. Bu görüşlərin hər birinin problemin həllində müsbət əhəmiyyəti ondadır ki, problem Xəzəryanı dövlət başçılarının bir çox beynəlxalq və regional təşkilatlarda müzakirə mövzusu olmuşdur. Problemin həlli istiqamətində 2001-ci il yanvarın 9-da Azərbaycana səfər etmiş Rusiya Federasiyasının Prezidenti V.Putinin yeni minilliyin başlanğıcında Azərbaycanla qarşılıqlı anlaşmaya nail olması, problemin həllinə müsbət təsir edən amil idi. İmzalanmış «Bakı Bəyannaməsi» Azərbaycanla Rusiyanın Xəzərin statusuna dair mövqelərini aydınlaşdırdı. Bu rəsmi şəkildə dövlət başçıları tərəfindən təsdiq edildi. Nəticə etibarilə, Türkmənistanın və xüsusilə, İranın, Xəzər bölgəsində geosiyasi əməkdaşlıqda iştirak zərurətini ortaya qoydu.

Xəzəryanı dövlətlərin bu hövzənin statusunun müəyyənləşməsində mühüm addımılardan biri 2003-cü ilin aprel ayında dövlət başçılarının "Aşqabad Zirvə toplantısı" olmuşdur. Dövlətlər ilk dəfə olaraq toplantını bütövlükdə bu məsələyə həsr etdilər. Hər bir ölkə öz mövqeyinin nə dərəcədə doğru, və ya yanlış olunmasını dərk etdi. Bu toplantı Azərbaycanın obyektiv mövqeyinin Xəzəryanı ölkələrə çatdırılmasında əsaslı rol oynadı. Danışıqlarda Azərbaycan Respublikasının Prezidenti geniş, tutarlı və güclü məntiqə söykənən çıxışı ilə qonşu Türkmənistanın, İranın tutduğu mənfi mövqenin mahiyyətini və regionun inkişafına vurduğu ziyanları göstərdi. Xəzərin statusunun həllində beynəlxalq prinsiplərin və tarixi təcrübənin əsas məqamlarını geniş izah etdi. Rusiya və Qazaxıstan Prezidentləri rəsmi şəkildə Azərbaycanla sektorial bölgünün mövcudluğunu təsdiq etdi. Ən əsası odur ki, Rusiyanın həmin görüşdən sonra İran və Türkmənistan dövlətlərinin mövqeyinə münasibəti kəskin şəkildə dəyişdi. Doğrudur, görüşdə baxmayaraq problemin siyasi vasitələrlə həllində diplomatik addım atıldı, lakin bir sıra ziddiyyətlərin meydana çıxması üzündən, problem yenə də öz qəti həllini tapmadı. Lakin Azərbaycan, Rusiya və Qazaxıstan dövlətlərinin Xəzərin statusunun həllinə dair qəti və möhkəm mövqe tutmaları hər bir dövlətə aydın oldu. Bu da hadisələrin gələcək formatına təsirsiz qala bilməzdi;

Dövlətlərin apardıqları dialoqun müasir mərhələsinin mühüm əhəmiyyəti vardır. Bu dialoq bölgə xalqlarının getdikcə sıx əməkdaşlığına şərait yaratdı, problemin mahiyyətini, nəticələrini, xalqlar üçün əhəmiyyətini başa düşməyə imkan verdi. Dövlətlərarası münasibətlərdəki dialoqun gedişində qonşu İranın və Türkmənistanın tutduğu mövqenin mahiyyəti müzakirə edilmişdir. Bu isə dövlətlərin siyasətinə və dünya ictimai rəyinə heç şübhəsiz təsirsiz olmadı. Bu baxımdan 2007-ci ildə 16 oktyabrda Tehranda kecirilən Xəzəryanı ölkələrin dövlət başcılarının Zirvə görüşündən sonra bu ölkələr arasında iqtisadi, siyasi, mədəni, ətraf mühitin mühafizəsi və digər sahələrdə əlaqələrin daha da genişlənməsi müşahidə olundu. Bu görüşdə İran tərəfi həm də bəyan etmişdir ki, o, artıq Xəzəryanı bölgədəki əməkdaşlıqda fəal iştirak etmək və Xəzərin statusunun həllinə yönəlmiş bütün görüşlərdə müzakirələrə qatılmaq istəyindədir. Həmin Zirvə görüşünün tarixi əhəmiyyəti isə ondadır ki, dövlət başçıları Xəzərin statusu problemində gərginlik

yaratmamaq, yalnız ümumi razılaşmalar əldə etmək və bu əsasda da sülh və mehriban qonşuluq şəraitində yaşamaq uğrunda ümumi səyləri gücləndirmək haqqında rəsmi bəyannamə imzalamışlar. Qeyd edək ki, həmin sənəd qlobal əməkdaşlıq tarixində mühüm hadisə olmaqla yanaşı, həm də bu sahədə qarşılıqlı fəaliyyətin dərinləşməsini və Xəzər hövzəsində təhlükəsizliyin möhkəmlənməsi üçün etibarlı əsas yaratmış bu iş rəsmi təsdiqini tapmışdır.

Aparılan təhlillər göstərir ki, Xəzəryanı dövlətlərin Xüsusi İşçi Qrupları çərçivəsində, rəsmi nümayəndələr və dövlət başçıları səviyyəsində aparılan danışıqlar, çoxtərəfli münasibətlərin inkişafı, problemin dinc siyasi vasitələrlə həlli prosesini müasir şəraitdə davam etdirməyi zəruri edir. Bu baxımdan ləngimə səbəbi kimi İran və Türkmənistan tərəfinin tutduğu mövqenin dəyişməsi ücün perspektiv vasitələrdən, eləcə də işçi qrupunun potensial imkanlarından geniş istifadə edilməlidir. Bundan başqa Xəzər bölgəsində bir neçə ölkənin strateji əməkdaşlığının yüksək səviyyəyə çatması, eləcə də külli miqdarda neft-qaz ehtiyatlarının istehsalında qlobal layihələrin həyata kecirilməsi Xəzərin statusunun həlli perspektivlərində daha bir tarixi görüşü 2010-cu il noyabrın 18-də Bakıda kecirilən "Zirvə görüşünü reallaşdırdı. Fikrimizcə, Xəzəryanı ölkələrin dövlət başcılarının ücüncü dəfə məsələnin həllinə yönəlmiş səyləri bu görüşdə konkret məcraya yönəlmiş, "status"un müəyyənləşməsini ifadə edən detalların əksər prinsiplərində dövlət başcıları həmrəylik nümayiş etdirmişlər. Problemin hazırkı durumuna nəzər salan prezident İlham Əliyev demişdir: " Xəzər nəinki regionun enerıi təhlükəsizliyinə hətta bütün Qərb ölkələrinin enerıi bazarlarına həlledici təsir göstərir. Biz hamımız isə istehsalcıyıq və maraqlarımız üst-üstə düşür. Əməkdaşlığımız da ölkələrimizin maraqlarına xidmət etməli, bir-birimizlə rəqabət aparmamalıyıq. Yaxşı haldır ki, rəqabət yoxdur. Calışmalıyıq ki bütün tranzit imkanlarımızda və bu sahədəki infrastruktur layihələrimizdə qonşu ölkələrin maraqlarının təmin edilməsini də həyata kecirək". Zirvə görüşü ümumiyyətlə əməkdaşlığın möhkəmləndirilməsi və Xəzərin statusunun həllində perspektiv imkanların ortaya qoyulmasını təmin etdi, indiyədək əldə olunan təcrübələrin tətbiq edilməsi ücün praktik addımların atılmasını ölkələrin qarşısına qoydu. Görüş zamanı Qazaxıstan prezidenti N.Nazarbayev belə bir məqamı vurğuladı ki, "dövlət başcıları bundan sonra ildə bir dəfə, işci qrupları isə beş dəfədən az olmayaraq görüşsünlər". Bu fikir məsələnin həllinə olan zərurəti ifadə edirdi. Türkmənistan prezidenti Q. Berdiməhəmmədov indi daha obyektiv mövqe tutaraq etiraf etdi ki, "indi Xəzəryanı ölkələr Xəzər hövzəsinin mühüm strateji region olmasını yaxşı anladığından məsələ ilə bağlı danışıqlar prosesi konstruktiv əsasda qurulmuşdur. Hüquqi statusun konvensiya layihəsi üzərində aparılan iş də qaneedicidir. Dəniz mühitinin qorunması ilə bağlı cərcivə konvensiyanın imzalanması ürəkacan haldır. Ümumiyyətlə isə Xəzər dənizi ölkələri ayırmır , əksinə birləşdirir" (7).

Beləliklə, problemin həlli istiqamətində ölkələrin bu gün ortaya qoyduqları mövqe Azərbaycanın ilk vaxtlardan bu sahədəki siyasi strategiyasının, bütövlükdə Xəzərə olan baxışların və konsepsiyaların məzmununu ifadə edir. Bu diplomatik fəaliyyət Xəzərin statusu haqqında dövlətlərin dialoqunun, bu istiqamətdə ortaya qoyulan mövqelərin, problemin hazırkı durumu haqqında obyektiv informasiyanın öyrənilməsi ücün vacibdir.

Açar sözlər: Xəzər, əməkdaşlıq, siyasət, problemlər, status, beynəlxalq, regional, dövlət.

İstifadə olunmuş ədəbiyyat

1. Azərbaycan Prezidenti Heydər Əliyevin İrana işgüzar səfəri. Azərbaycan qəzeti 13 iyun 2000, № 143.
2. Əliyev İ. «Böyük siyasətdə reallıqlar və perspektivlər». Bakı: Qanun, 1999, 317 s.
3. Гadjiev K. C. Геopolitika. M.,1997.
4. Washington Post. September 19, 1995, №138
5. Tomas Lippman: "Washington Post". 9 Oktober 1997, №183
6. Yusifzade Kh: Status Kaspia. Contact, 1-4 June 1999. r. 11-13.
7. Zirvə görüşü Xəzərlə bağlı problemləri həll etdimi. "Şərq qəzeti"20 noyabr 2010.

Canan ГASANOV

ПERSPEKTIVI REŞENIƏ PROBLEMI STATUSA KASPIƏ V QLOBALĞNOM SOTRUDNIÇESTVE

Pezöme

B statğe rassmatrivaetsə problema reşeniə statusa Kaspiə, a takje veduhiesə v gtom napravlenii pereqovorı. Analiziruetsə pervonaçalğnoe polojenie Kaspiə i vozniknovenie vokruq neqo qlobalğnıx problem, kotorıe sleduet reşatğ putem dialoqa so stranami raspolojennımi v Kaspiyskom basseyne.

Klöçevıe slova: Kaspiy, sotrudniçestvo, politika, problema, status, mejdunarodnıy, reqionalğnıy, qosudarstvo.

Sanan HASANOV

PERSPECTIVES OF SOLUTION OF THE CASPIAN STATUS IN THE GLOBAL COLLABORATION

Summary

The article researches the problem of the Caspian status, as well the negotiations being held in this direction. The initial situation of the Caspian and arising the global problem about it as well the perspectives of the negotiations on the status of the Caspian are analysed in this article.

Key words: Caspian, collaboration, politics, problem, status, international, regional, state.

UOT 322

Hüseyn İBRAHİMOV
AMEA FSHİ-nun elmi işçisi

AZƏRBAYCANDA SİYASİ MƏDƏNİYYƏTİN FORMALAŞMASI PROSESİ*

Siyasi mədəniyyət çox geniş anlayışdır. Bu anlayışa təkcə mühüm siyasi, sosial və digər problemləri həll etmək vərdişləri və bacarıqları deyil, həm də siyasi mübarizə təcrübəsi, məğlubiyyətlər və qələbələr, yüksəliş və tənəzzül halları, xalqın sıx birləşməsi və mütərəqqi dəyişiklikləri həyata keçirmək üçün səmərəli üsullar daxilidir.

Məlumdur ki siyasi mədəniyyət anlayışını elmə ilk dəfə fransız politoloqları Q.Almond və S.Verba gətirmişdir. Hər iki alimin apardığı araşdırmanın məqsədi fərdin və toplumun siyasi sistem daxilində oynadığı rolun, eləcə də Qərb siyasi həyat tərzinin mahiyyətini təşkil edən demokratiyanın mədəni özüllərini müəyyənləşdirmək olub. Q.Almond hesab edirdi ki, siyasi mədəniyyətin xarakteri siyasi sistemdə müəyyən norma, davranış və inamlarla ifadə edilir. Onun həmkarı S.Verbanın irəli sürdüyü tezisdən məlum olur ki, o, siyasi mədəniyyəti fərdin siyasi sistemi bütövlükdə psixoloji cəhətdən dərk etməsi kimi xarakterizə edir.

Siyasi mədəniyyət heç də mücərrəd bir proses kimi məkan və zamandan açılı olaraq formalaşmır. Sosial reallıq, cəmiyyətdəki və şəxsiyyətlər arasındakı münasibətlər, mənəvi və əxlaqi dəyərlər sistemi, ictimai rəy və ənənələr siyasi mədəniyyətin formalaşmasına təsir göstərir.

Siyasi mədəniyyət sistem daxilində siyasi təsisatların qarşılıqlı münasibətlərini, eləcə də onların sosial sistemin başqa ünsürləri ilə əlaqələrini normalar, sərvətlər, ənənələr vasitəsilə tənzimləyir. Siyasi mədəniyyət bir tərəfdən siyasi sistemin legitimliyini və səmərəli işini təmin edirsə, digər tərəfdən o, siyasətçilərin və onların təmsil etdikləri qüvvələrin "oyun qaydalarından" tutmuş geniş xalq kütlələrinin siyasi proseslərə münasibətinədək olan səviyyəni bildirir. Siyasi mədəniyyət cəmiyyətin mənəvi potensialının tərkib hissələrindən biridir. Onu ümumi mədəniyyətdən ayırmaq müəyyən mənada şərtidir, çünki mənəvi mədəniyyətin hüquqi, əxlaqi, estetik və s. sahələri bu və ya digər formada siyasi mədəniyyətə daxildir.

Siyasi mədəniyyətin inkişafının ən mühüm şərtlərindən biri siyasi plüralizmin həyat normasına çevrilməsinə geniş imkan yaradılması və digəri aşkarlığın genişlənməsidir.

Azərbaycanda siyasi mədəniyyət plyuralizmin geniş spektrini əhatə edərək formalaşmışdır. Hələ vaxtilə Ümummilli lider Heydər Əliyevin vətəndaş cəmiyyəti uğrunda etdiyi çağırışlar və apardığı siyasət Azərbaycanda müasir vətəndaş cəmiyyətinin formalaşmasını surətləndirdi. Sovet totalitarizmindən çıxmış Azərbaycan cəmiyyətinin yeni siyasi mədəniyyəti formalaşmağa başladı. SSRİ-nin dağılması prosesində ən gərgin şəraitlərlə üzləşmiş Azərbaycanda siyasi mədəniyyət stabil şəkil aldı. Bu siyasi mədəniyyətin formalaşmasını şərti olaraq 3 mərhələyə bölmək olar: 1992-1999; 2000-2005; 2005-ci ildən başlanan mərhələ.

Azərbaycanda siyasi mədəniyyətin formalaşması prosesində Ümummilli lider Heydər Əliyevin nəzəri və praktiki siyasi fəaliyyəti olduqca böyük olmuşdur. Əsasən Azərbaycanın müstəqillik əldə etməsindən sonra formalaşan siyasi mədəniyyət Azərbaycançılıq kontekstində özünün fərqli xüsusiyyətləri ilə seçilir. Azərbaycanın siyasi mədəniyyəti özünün dövlətçiliyə möhkəm sədaqət, rəhbərin güclü tərəflərini tez müəyyənləşdirmək və populizmə tez məruz qalmamaq məharəti ilə seçilməyə başlamışdır. Azərərbaycaçılıq ideyasının bu prosesdə xüsusi rolu vardır.

Siyasi mədəniyyətin formalaşmasında və inkişafında çoxpartiyalığın böyük rolu olmuşdur. 1993-cü ildən bu günə qədər Azərbaycanda fəaliyyət göstərən müxalifət siyasi partiyaları öz mübarizə üsullarını xeyli təkmilləşdirmişlər. Yaxın tarixə nəzər saldıqda bu partiyaların bir çoxunun nizamnaməsi ilə fəaliyyətlərinin təzad təşkil etdiyini yəqin etməmək mümkün deyildi. Siyasi fəaliyyətdə yalnız populizmə silahlanan müxtəlifət partiyalar bu illərində yalnız bir neçə "üzvünü" cəmiyyətin ictimai rəyinə tanıda bildi. Ancaq siyasi mədəniyyət həmişə ictimai rəyin formalaşmasında daha aktiv və çevik rola malik olduğundan bu şəxslərin "təkrar populizmi" özlərinə qarşı yönəlmiş oldu. Siyasi sisteminin onlara heç bir uğur gətirməməsi onları kökdən saldı.

---

* Məqalə f.e.d., prof. Ə.Abasov tərəfindən çapa məsləhət bilinib.

2003 ildən başlayaraq formalaşan yeni siyasi mədəniyyət mərhələsində Azərbaycanın müxalif siyasi partiyaları öz fəaliyyətlərini dəyişdirməyə başladılar, artıq onlar siyasi hakimiyyətin uğurlarını da etiraf etmək yoluna qədəm qoydular. Siyasi mədəniyyətin formalaşma mərhələsi artıq başa çatmışdır. Bu xarakterik siyasi mədəniyyətdən kənarda heç bir siyasi fəaliyyət təsəvvür olunmur. Aparılan müşahidələr göstərir ki Azərbaycanda demokratik siyasi mədəniyyətin formalaşmasının 3-cü mərhələsi 2005-ci ildən başlanmışdır. Məhz bu tarixdən etibarən Azərbaycan cəmiyyətində siyasi mübarizənin və siyasi münasibətlərin keyfiyətcə yeni cəhətini müşahidə etmək olur. Əhalinin populizmə meylli təbəqəsinin kəmiyyətcə azalması, siyasi sistemlə münasibətdə müxalifətin reallığı qiymətləndirmə cəhdlərinin artması həmçinin daha dinc mübarizə və mədəni mübarizə üsullarına yer ayırması bütün bunlarla yanaşı ölkədə siyasi məhbus probleminin aradan qaldırılması bu dövrün əsas cəhətlərindəndir.

2008-ci ilin prezident seçkiləri isə bu istiqamətdə daha böyük irəliləyiş idi. Bu seçkiləri müşahidə edən müxalifət yönümlü monitorinq qrupları özləri də bəzi müxalifət partiyalarının 2008- ci il prezident seçkilərində iştirak etməməsini "onların öz elektoratlarını itirməsi" kimi qiymətləndirdilər. Göründüyü kimi bu seçkilərdə 15 il fəaliyyət göstərən bəzi partiyaların müəyyən mənada reallığı başa düşərək yalnız siyasi piarın qara maşını ilə mübarizə taktikalarının səmərəsiz olduğunu yəqin etdilər və yeni siyasi mədəni kurs axtarmağa başladılar. Lakin artıq siyasi mübarizə üsullarında postsovet ənənəsi azalmışdır və bunun özü də yeni siyasi mədəniyyət düşüncəsi hesab edilə bilər.

Azərbaycan Respublikasının prezidenti cənab İlham Əliyev andiçmə mərasimində 2008-ci il prezidet seçkilərini yeni siyasi mədəniyyətin formalaşması kimi xüsusi qeyd etmişdir. Sözsüz ki yeni siyasi mədəniyyət kontekstində bu seçkilər heç bir müdaxilə olmadan keçirildi.

Ümumiyyətlə, aparılan tədqiqatlar göstərir ki ölkə sosial mədəni dəyişikliklər baxımından uğurlu yoldadır. Son illər Azərbaycan əhalisinin sosial həyat tərzində baş verən dəyişikliklər də əhalinin siyasi mədəniyyətinə müsbət təsirlərini göstərmişdir. Azərbaycan seçicisi populist radikalizmin deyil islahatların və sabitliyin yolunda radikaldır. Sosioloji sorğular göstərir ki ölkə əhalisi siyasi sistemə münasibətdə olduqca informativ və aktivdir. Siyasi sistemin sabitliyinə və davamlığına xalqın rəyi dəyişilməzdir. Hər-hansı məmurun korrupsiya fəaliyyətindən əziyyət çəkdiyini bildirən respondent Azərbaycan prezidentinin bu halları yoluna qoyacağına qətiyyətlə inanır. Azərbaycanda siyasi mədəniyyətin formalaşması həm də siyasi cəhətdən yeniləşməsini səviyyəsi ilə ölçülməlidir. Müasir Azərbaycanın sosial siyasi həyatında əsaslı islahatlar həyata keçirilməkdə və ölkə müasirlik yolunda böyük uğurlar əldə etməkdədir. Nəticə etibarilə yeni siyasi mədəniyyət formalaşmışdır. 2008-ci ilin prezident seçkiləri bu siyasi mədəniyyətin nəticəsi olaraq xüsusi əhəmiyyət kəsb etdi. Azərbaycan seçicisinin öz namizədini seçməkdə yüksək aktivlik görməsi seçkilərin insidentsiz başa çatması, hətta müxalifət elektoratının müəyyən qisminin seçki zamanı hakim partiyanın namizədi lehinə səs verməsi Azərbaycanın siyasi mədəniyyət tarixinin yeni səhifəsi kimi yadda qalandır. Nəticə etibarı ilə Azərbaycan ictimaiyyətinin siyasi mədəniyyət səviyyəsinin göstəriciləri artıq müəyyən dəyərlərə ehtiramı ilə seçilir. Bu dəyərlərdən ən mühümü də Heydər Əliyev fenomenidir. Heydər Əliyev yolunun davamçısı olan şəxsə rəğbət güclüdür. "Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən Azərbaycanlıyam" fikri Azərbaycan vətəndaşının siyasi mənlik şüurunun, deməli həm də siyasi mədəniyyətinin tərkib hissəsinə çevrilmişdir.

Siyasi mədəniyyətin mühüm komponenti milli-dövlət simvolları və ideyalarıdır. Bəzi politoloqlar siyasi mədəniyyəti, hətta "simvolik sistem" adlandırmağı təklif edirlər. Məsələn, L.Ditmerin fikrincə, siyasi mədəniyyət "siyasi kommunikasiya" termini ilə ifadə edilən, daha geniş bir sistemə daxil olan siyasi simvollar sistemidir. Doğurdan da dövlət bayrağı, himn, konstitusiya, bayramlar, pul nişanları, gerb və s. kimi simvollar tarixən həmişə dövlətin ümumi atributu kimi onu möhkəmləndirməyə xidmət etmişdir.

Azərbaycanda daha davamlı siyasi mədəniyyətin formalaşması həm ölkəmiz eləcədə region üçün böyük müsbət əhəmiyyətli proseslərin başlanğıcıdır Azərbaycanın Dövlət rəmzlərinin qorunmasının konstitusiyaya edilən əlavə və dəyişiklşklərlə referendum yolu ilə qəbul olunması da ölkəmizdə siyasi mədəniyyətin inkişafında yeni mərhələnin göstəricisidir.

Prezident və məmur münasibətlərində ölkə başçısının İlham Əliyevin yeni davranış normalarının formalaşmasına önəm verməsi ölkədə demokratik siyasi mədəniyyətin inkişafına şərait yaradır. Aparılan tədqiqatlar sübut edir ki Azərbaycan prezidenti İlham Əliyevin Müasir Azərbaycanın siyasi mədəniyyətinin geniş vüsət almasında böyük rolu vardır. Azərbaycanda 2008-ci ilin sonunda konstitusiyaya əlavə və dəyişikliklər haqqında qanunu layihəsi müzakirə edildi. Bu referendumda Azərbaycanın Dövlət rəmzlərinin qorunmasının konstitusiyaya edilən əlavə və dəyişiklşklərlə qəbul olunması da ölkəmizdə siyasi mədəniyyətin inkişafında yeni mərhələnin göstəricisidir.

Beləliklə, Azərbaycanda siyasi mədəniyyət həm özünəməxsus inkişaf yolu ilə həm də siyasi təkmilləşmənin davamlı tətbiqi ilə seçilir.

Açar sözlər: siyasi mədəniyyət, siyasi modernizasiya, seçki, plüralizm, dövlət rəmzləri, referendum, milli ideya.

İstifadə olunmuş ədəbiyyat

1. Mehdiyev R. Azərbaycan: Qloballaşma dövrünün tələbləri. Bakı, 2005.
2. Упpelev A.Г. Пolitoloqiə: vlastğ, demokratiə, liçnostğ. M., İnterprake, 1994.
3. Гuttenberq Б. Teoriə demokratii. Пolis, 1991, № 4.
4. Деynkard A. Mnoqosostavnie obhestva i demokratiçeskie rejimı. Пolis, 1992, №1-2.
5. Meduçievski A.H., Ostroqorskiy M.Я. O politiçeskoy soüioloqii v XX v. Coü.issl., 1992, № 8.
6 .Corokin П. Чelovek. Цivilizaüiə. Obhestvo. M., 1992.
7. Гadjiev K.C. Bvedenie v politiçeskuö nauku. M., 1997.

Гuseyn ИBRAQIMOV

ПROÜESS FORMIROVANIƏ POLITIÇESKOY KULĞTURI AZERBAYDJANA

Pezöme

B statğe analiziruetsə razvitie speüifiçeskix osobennostey politiçeskoy kulğturı Azerbaydjana. Otmeçaetsə, çto vopros razvitiə politiçeskoy kulğturı v naşey strane naxodit svoe reşenie v kontekste sovremennıx trebovaniy modernizaüii sobstvenno politiki, ona bıla sformirovana v şirokom spektre plöralizma. B rabote takje otmeçaetsə, çto novım gtapom v razvitii politiçeskoy kulğturı Azerbaydjana əvləetsə zahita qosudarstvennıx atributov, kotoraə osuhestvlena s putem provedeniə referenduma po izmeneniəm i dobavleniəm k Konstituüii.

Klöçevıe slova: politiçeskaə kulğtura, politiçeskaə modernizaüiə, vıborı, plöralizm, qosudarstvennıe atributı, referendum, naüionalğnaə ideə.

Husein IBRAHIMOV

THE PROCESS OF FORMING A POLITICAL CULTURE IN AZERBAIJAN

Summary

The article examines the development of specific features of political culture in Azerbaijan. It is noted that the issue of developing of political culture in our country finds its solution in the context of modern requirements of the modernization of politics itself it was formed in a wide spectrum of pluralism. The work also notes that the protection of the State attributes of Azerbaijan which has been realized through carrying out a referendum on changes and additions to the Constitution is a new stage in development of political culture.

Key words: political culture, political modernization, elections, pluralism, the state attributes, the referendum, the national idea.

UOT 32.019

Sevil ƏLİYEVA
AMEA FSHİ-nin əməkdaşı

MİLLİ ÖZÜNÜDƏRKETMƏDƏ İDEOLOJİ ASPEKTLƏR*

Müstəqillik illərinin ilk vaxtlarından bu günədək gedən proseslərin təhlili onu deməyə əsas verir ki, müstəqil dövlətçiliyimizin çətin sınaq qarşısında qaldığı bir vaxtda milli birliyimizin formalaşdırılması kimi mühüm əhəmiyyətli problemin həlli yolunda Heydər Əliyev zəkası böyük əzmkarlıq və ciddi səylər göstərməli olmuşdur. Onun ilk vaxtlardan yaratdığı bütün əlaqələr, xalqımızın və ölkəmizin milli mənafelərini ləyaqətlə təmsil etməsi, Azərbaycan həqiqətlərini, xüsusilə ağrılı Qarabağ münaqişəsinin əsl mahiyyətini dünya ictimaiyyətinə açıqlaması sözün əsl mənasında Azərbaycan Respublikasının yeni tipli xarici siyasətinin formalaşması və xalqımızın birliyinin tərəqqisi dövrü olmuşdur. Baş vermiş gərgin siyasi proseslərin cərəyan etdiyi bir vaxtda xalqın tələbi ilə yenidən hakimiyyətə gəlmiş təcrübəli siyasi xadim Heydər Əliyevin başlıca məqsədi Azərbaycanı dünyaya tanıtmaq, ölkənin müasir geosiyasi reallıqlara cavab verən diplomatiyasını qurmaq, ölkəmizin beynəlxalq münasibətlər subyekti kimi milli mənafelərini ləyaqətlə həyata keçirmək, habelə bu əsasda xalqın vahid ideologiya ətrafında vahid cəbhədə birləşməsi və milli-mənəvi, əxlaqi dəyərlərin özünə qaytarılması olmuşdur.

Qeyd edək ki, XX əsrin əvvəllərində milli dəyərlərimizin təbliği və ideoloji fikirlər özünün ilk rüşeymlərini göstərmişdir. Sonrakı dövrdə isə xalqımızın ümummilli lideri Heydər Əliyevin Azərbaycana rəhbərlik etməsi xalqın milli ruhunu oyatmış, milli özünüdərketmə prosesini daha da gücləndirmişdir. Xalqın mənəviyyatı, milli mədəniyyətimizin inkişafı ilə bağlı bu dövrdə məqsədyönlü şəkildə aparılan genişmiqyaslı tədbirlər eyni zamanda onların dünyagörüşündə müstəqilliyə, azadlığa çatmaq, qovuşmaq arzularını qanadlandırmış, milli özünüdərketmədə böyük rol oynamışdır. Respublikamızda bu dövrdə N.Nərimanova, C.Cabbarlıya, İ.Nəsimiyə və başqalarına abidələrin ucaldılması, görkəmli yazıçılarımızın və mədəniyyət xadimlərimizin yubiley tədbirlərinin keçirilməsi, bir çox sənətkarlarımıza dövlətin ən ali mükafatlarının verilməsi, Azərbaycan dilinin inkişafı ilə bağlı ictimai mühitin formalaşdırılması, teatrlarımızda milli tariximizi, keçmişimizi işıqlandıran əsərlərin tamaşaya qoyulması, kino sənətimizdə tarixi janrda çəkilmiş filmlərə geniş meydan verilməsi, şəhərsalma mədəniyyətinin, dövlət quruculuğunun müxtəlif sahələrinin inkişaf etdirilməsi, gənclərimizin təhsilə cəlb edilməsi ilə bağlı aparılan milli siyasət xalqın milli özünüdərkini elə bir səviyyəyə çatdırmışdır ki, sonralar, 80-ci illərdə bu, xalqın mənəviyyatına qarşı həyata keçirilən qəsdlər cavabsız qalmamış, bütün xalq öz müstəqilliyini və azadlığını qorumaq uğrunda mübarizəyə qalxmışdır (1, s.18).

Milli özünüdərketmə prosesi müstəqilliyin əldə edilməsi ərəfəsində xalqın şüurunda daha da güclənmişdir. Xüsusilə 80-ci illərdə cəmiyyətdə baş verən ictimai-siyasi hadisələr, sürətlə dəyişməkdə olan mənəvi- siyasi proseslər hər bir vətəndaşın dünyagörüşündə mühüm dəyişikliklər yaratmış, milli özünüdərketmənin formalaşmasına güclü təsir göstərmişdir. Xalqımızın müstəqilliyin qazanılması dövründə əldə etdiyi tarixi təcrübə aydın göstərir ki, milli özünüdərketmə həm fərdlərin, həm də bütövlükdə xalqların, millətlərin ümumi inkişafında böyük rol oynayır.

Azərbaycan gerçəkliyi milli özünüdərketmə prosesinin inkişafına və hər bir şəxsiyyətin, xalqın, millətin cəmiyyət üçün gərəkli bir vətəndaş kimi yetişməsinə lazımi şərait yaradır. Sadəcə olaraq insan onun üçün yaradılmış bir tarixi – sosial şəraitdən səmərəli istifadə etməyi bacarmalıdır.

Xalqımızın milli özünüdərki qədim tarixi köklərə, ənənələrə əsaslanır. Fərəhli haldır ki, bu ənənələr tarix boyu xalqımız tərəfindən nəinki qorunub saxlanmış, həm də onun gələcək nəsillərə ötürülməsi təmin olunmuşdur.

Xalqımızın ümummilli lideri Heydər Əliyev öz çıxış və nitqlərində dəfələrlə milli ideologiyanın tərkib hissələrinə toxunmuş, bu amillərin xalqın milli şüurunun formalaşması və milli özünü dərketmə prosesinin gücləndirilməsində əhəmiyyətini qeyd etmişdir. O, çıxışlarının birində demişdir: "Azərbaycanın suverenliyi, bütövlüyü və bölünməzliyi, ölkəmizin bütün vətəndaşlarının mənsub olduğu Azərbaycan xalqı, azərbaycançılıq , ölkəmizin dövlət dili olan Azərbaycan dili, xalqımızın tarix boyu yaratdığı milli – mənəvi dəyərlərimiz, xalqımızın milli - əxlaqi mentaliteti, ümumbəşəri dəyərlər və bütün bu dəyərlərin sintezi, respublikamızın ilk demokratik konstitusiyası, bu konstitusiyada hər bir vətəndaş üçün vəzifələr,

* Məqalə fəl. e.d., prof. Ə. Tağıyev tərəfindən çapa məsləhət bilinib.

vətəndaşlarımızın hüquqları, Azərbaycanın milli bayrağı, gerbi, himni- bütün bunlar, mənim fikrimcə, müstəqil Azərbaycanın milli ideologiyasının əsasını təşkil edən prinsiplərdir" (2, s. 43).

Müdrik siyasətçinin etno – siyasi proseslərin axarını düzgün qiymətləndirməsi və buna müvafiq olaraq düzgün milli siyasət yeritməsi nəticəsində ölkədə hər bir xalq, böyüklüyündən – kiçikliyindən asılı olmayaraq, eyni, bərabər hüquqla yaşamalarına davam etdilər. Böyük siyasətçi öz çıxışlarında və nitqlərində dəfələrlə belə bir fikri bildirirdi ki, Azərbaycan dövlətçiliyinin inkişafında və möhkəmlənməsində bütün xalqların və millətlərin özünəməxsus yeri və rolu vardır. Millətləri bir-birinə qarşı qoymaq, hər hansı birinə üstünlük vermək, heysiyyatına toxunmaq, milli nifaqa, ayrı-seçkiliyə səbəb ola bilər. Bu prinsip əsas götürülərək Azərbaycanda hər bir xalqa və millətə öz milli mədəniyyətini, adət və ənənəsini qoruyub saxlamaq, inkişaf etdirmək üçün yaxşı şərait yaradılmışdır. Azərbaycan prezidenti ölkəmizdə yaşayan bütün xalqların və millətlərin milli birliyini təmin etmək məqsədilə hamının milli mənafeyinə cavab verən azərbaycanşılıq ideologiyasının həyatımıza daxil olmasını, inkişaf etdirilməsini mühüm vəzifə kimi irəli sürmüşdür. Qeyd etməliyik ki, "azərbaycançılıq" bir ideoloji termin kimi yaxın zamanlardan başlayaraq irəli sürülmüş və vətəndaşlıq pasportu almışdır. Bu ideoloji vəzifədə, anlayışda iki mühüm cəhət öz əksini tapmışdır. Azərbaycançılıq və dövlətçilik ideyaları milli ideologiyanın tərkib hissəsi kimi diqqət mərkəzində saxlanmışdır. Dövlət başçısı ölkədə yaşayan bütün etnik qrupların və xalqların məhz ümumxalq, dövlət mənafeləri ətrafında birləşmək ideyasını irəli sürmüş, onu şovinist millətçilik və separatçılıq əhval-ruhiyyələri ilə mübarizəyə yönəltmişdir. Sonralar bu ideya ölkədə geniş vüsət aldı, hamı tərəfindən dəstəkləndi, cəmiyyətin inkişafı prosesində dolğunlaşaraq ideologiya xüsusiyyətləri kəsb etdi. Artıq bir məfkurə kimi ictimai həyatımızda mühüm rol oynayan azərbaycançılıq həm də cəmiyyətdə etno-siyasi proseslərin tənzimlənməsi və düzgün idarə olunmasında da müsbət əhəmiyyət kəsb edir. Fikrimizcə, azərbaycançılıq ideologiyası "türkçülük, islamçılıq və müasirlik" ideyalarını özündə birləşdirir, həm də daha konkret məzmun daşıyaraq bütün xalqlara və millətlərə bir prizmadan yanaşır, onların hərtərəfli inkişafını təmin edir (3, s.44).

Ümummilli liderimiz bu mühüm problemə toxunaraq, onu hamının milli mənafeyində mühüm rol oynayan bir konsepsiya kimi irəli sürmüş və inkişaf etdirilməsi meyillərini göstərmişdir.

Azərbaycançılığın təməl daşları – milli dilin, milli-mənəvi dəyərlərin qorunub saxlanması və inkişaf etdirilməsi, mədəniyyətin durmadan həyatımızda mühüm rol oynaması – müasir dövrdə xalqımızın milli – etnik zəmində formalaşan dünyagörüşünün bəşəri ideyalarla zənginləşməsinə daha güclü təsir edirlər. Azərbaycançılığın ən yüksək təlqinedici gücü odur ki, ölkədə yaşayan hər bir vətəndaş özünün bu ölkənin əsl sahibi, vətəndaşı hesab etsin, onun inkişafı uğrunda əzmlə çalışsın.

Azərbaycanda həyata keçirilən milli siyasət bu ölkədə yaşayan xalqları və millətləri bir-birinə qarşı qoymur, əksinə, onları vahid dövlət, ümumi mənafe, xoşbəxt gələcək uğrunda mübarizə ətrafında birləşdirir və bir-birinə yaxınlaşdırır. XXI əsrdə, Azərbaycan öz müstəqilliyini möhkəmləndirdiyi bir şəraitdə müxtəlif etnik qrupların dövlətçiliyimiz ətrafında birləşməsi və azərbaycançılıq ideologiyasından bəhrələnməsi çox zəruridir. Bu, zamanın tələbidir, tarix xalqımızı sınaqlara çəksə də, milli dövlətçiliyimiz ətrafında sıx birləşmiş bütün etnik qruplar istiqlaliyyətimizin müdafiəsində, milli birliyimizin möhkəmləndirilməsində daha böyük uğurlar qazanacaqlar.

90-cı illərin əvvələrində milli siyasətin düzgün aparılmaması müstəqil dövlətin inkişafına və möhkəmlənməsinə çox pis təsir göstərdi. Azərbaycanda yaşayan bütün xalqların və millətlərin bir-birinə qarşı qoyulması gözlənilməyən ağır nəticələrə gətirib çıxaracaqdı. Bunun başlıca səbəbi milli siyasət sahəsində təcrübəsiz insanların milli hissləri qızışdıracaq fikirləri irəli sürməsi olmuşdur. Azərbaycan Dağlıq Qarabağda müxtəlif problemlərlə qarşılaşmasına baxmayaraq, ölkə daxilində türkçülük ideyalarına geniş yer verdiyinə, təbliğat apardığına görə bu ərazidə yaşayan azsaylı xalqların, milli azlıqların və etnik qrupların nümayəndələri tərəfindən böyük narazılıqla qarşılandı.

Bu gün cəsarətlə deyə bilərik ki, dünya miqyaslı siyasətçi və təcrübəli dövlət xadimi Heydər Əliyevin hakimiyyətə qayıdışı hər şeydən əvvəl yenicə müstəqillik qazanmış Azərbaycan Respublikasının milli mənafelərinə söykənən yeni tipli xarici siyasətin işlənib hazırlanmasında müstəsna rol oynamışdır. O, 1993-cü il iyunun 15-də qətiyyətlə bildirmişdir: " Azərbaycan xalqının tarixi nailiyyəti olan Azərbaycan Respublikasının Dövlət müstəqilliyini qorumağı, möhkəmləndirməyi, inkişaf etdirməyi özüm üçün əsas vəzifələrdən biri hesab edirəm" (5, s. 74). Heydər Əliyev ilk günlərdən Azərbaycan cəmiyyətinə belə bir magistral ideyanı aşılayırdı ki, demokratik cəmiyyət, bazar iqtisadiyyatı qurmaq məqsədini seçmiş, dünya inteqrasiya proseslərinə qoşulmaq prinsipini ön plana çəkən Azərbaycan xalqının süveren dövlətinin milli inkişafı naminə həm daxili, həm də xarici siyasəti müasir geosiyasi reallıqlar baxımından yeni keyfiyyətdə işlənib hazırlanmalıdır. Bir sözlə, Heydər Əliyev zəkası Azərbaycan cəmiyyətini belə bir həqiqətə

inandırmışdır ki, dünya birliyinə ölçülüb – biçilmiş, milli mənafelərə əsaslanan xarici siyasətlə çıxmaq, ölkəmizin geosiyasi imkanlarından səriştəli istifadə etmək lazımdır (6). Azərbaycan müstəqilliyini möhkəmləndirmək naminə Avropa, Amerika və Asiya ölkələrilə diplomatik əlaqələr qurmaq, bəşəri dəyərlərə söykənən demokratiya və sülh siyasəti dövrün danılmaz geosiyası ehtiyacı idi. Xalqının tarixini və mədəniyyətini gözəl bilən Heydər Əliyev öyrədirdi ki, əsrlər boyu qonşu dövlətlərlə sülh və əmin – amanlıq şəraitində yaşamış xalqımızın bu günkü siyasi həyatı yeni beynəlxalq reallıqlardan bəhrələnmişdir. Dövlətimizin xarici siyasəti sülh mədəniyyətinə söykənməlidir.

Açar sözlər: müstəqillik, millət, ideologiya, siyasət, cəmiyyət, mədəniyyət, lider, demokratiya.

İstifadə olunmuş ədəbiyyat

1. Ağayev İ. Müasir şəraitdə Azərbaycanda milli etnik proseslər. Bakı, «MBM», 2006, 180 s.
2. Əliyev Q. Heydər Əliyev və milli mentalitet fəlsəfəsi. Bakı, «Qismət», 2003, 295 s.
3. Seyidov M., Rzayev M. Zamanı qabaqlayan dahi. Bakı, «Vektor», 2008, 314 s.
4. Rzayev M. Heydər Əliyev və milli həmrəylik fəlsəfəsi: Ümummilli lider Heydər Əliyevin anadan olmasının 85-ci ildönümünə həsr edilmiş ümumrespublika elmi-praktik konfransının materialları. Bakı, «Səda», 2008, s. 112
5. Hüseynova İ. Müstəqilliyimizin təminatçısı. Bakı, «Təhsil», 2003, s.74, 314 s.
6. Həsənov S. Heydər Əliyev diplomatiyası milli maraqlar kontekstində, «Respublika» qəzeti, 18 sentyabr, 2003. №168.

Cevilğ ALIEVA

ИDEOLOQIÇESKIE ASPEKTI V NAÜIONALĞNOM SAMOPOZNANIƏ

Pezöme

B statğe rassmatrivaötsə aktualğnıe problemı sovremennoy obhestvenno-politiçeskoy jizni Azerbaydjana. B 90-x qodax borğba naroda nosila razobhennıy xarakter, çto poslujilo priçinoy eqo raskola. B strane üarila beskontrolğnostğ.

Avtor proslejivaet rolğ velikoqo politiçeskoqo deətelə Ґeydara Alieva v dele urequlirovaniə gtoqo proüessa. Cozdanie im naüionalğnoy ideoloqii i formirovanie vnutrenney i vneşney politiki poslujili osnovoy obrazovaniə nezavisimoqo qosudarstva i dalğneyşeqo eqo razvitiə vo vsex oblastəx.

Klöçevıe slova: nezavisimostğ, naüiə, ideoloqiə, politika, obhestvo, kulğtura, lider, demokratiə.

Sevil ALIYEVA

IDEOLOGICAL ASPECTS OF THE NATIONAL SELF-CONSCIOUSNESS

Summary

In the article the actual problems of the modern socio-political life in Azerbaijan are considered. In the 90-es the struggle of the people had a disconnected character what caused its split. In the country there was reigning uncontrollness.

The author retraces the role of the great political figure Heydar Aliyev in the cause of regulating this process. Foundation of the national ideology and formation of the national policy both internal and foreign by him served the basis for the establishment of the independent State and its further development in all the spheres.

Keywords: independence, nation, ideology, policy, society, culture, leader, democracy.

UOT 327

Mayis MUSAYEV
BDU-nun doktorantı

MÜASİR DÖVRDƏ AZƏRBAYCAN VƏ İRAN ARASINDA MÜNASİBƏTLƏR*

Xəzər regionu hal-hazırda Qərblə Şərq, ABŞ-la Rusiya Federasiyası arasında baş verən qlobal siyasi rəqabət mübarizəsi məkanlarından demək olar ki, biridir. Region həm coğrafi mövqeyinə, həm iqtisadi və hərbi potensialına, həm də mədəni, elmi və dini dəyərlərinə görə qlobal və regional siyasi rəqabət məkanına çevrilmişdir. Regionda əsasən ABŞ, Rusiya Federasiyası, Çin Xalq Respublikası, İran İslam Respublikası, Türkiyə Cümhuriyyəti və Avropanın aparıcı dövlətlərinin maraqları mövcud olduğu üçün bu maraqların icrası zamanı müəyyən toqquşmalar baş verir. Xəzər regionunda böyük potensiala sahib olan dövlətlərdən biri kimi Azərbaycan Respublikası əlverişli coğrafi mövqeyi, əhalisinin çox olması, iqtisadi cəhətdən inkişaf etmiş sənaye sahələrinin mövcudluğu və maddi sərvətlərin bolluğuna görə, XX əsrin 90-cı illərindən etibarən dünya birliyinin bərabərhüquqlu üzvü seçilmişdir. Bu gün Azərbaycan Respublikası təkcə geosiyasi mövqeyinə görə deyil, həm də başqa aspektlərdən dünya ölkələrinin diqqət mərkəzindədir.

Buradakı proseslərə nəzər saldıqda son illər Azərbaycanın çox sürətlə inkişaf edən ölkəyə çevrilməsi və regionda daim stabilliyə nail olunması istiqamətində siyasət yeritməsi dünya dövlətləri və beynəlxalq təşkilatların hesabatlarında öz əksini tapır. Məlumdur ki, əlverişli geosiyası məkan kimi qeyd edilən bir ərazidə nüfuz əldə etmək istəyən böyük dövlətlər arasında siyasi, iqtisadi, hərbi nüfuz əldə etmək uğrunda təqribən bir əsrə yaxındır ki, rəqabət mübarizəsi həyata keçirilir. Rəqabəti zəruri edən əsas amil məhz hər iki dövlətin böyük potensiala sahib olması və bu potensialın daha da artırılmasıdır. Rəqabəti zəruri edən digər bir məsələ isə böyük dövlətlərin öz potensiallarını qoruyub saxlamasıdır. Azərbaycan Respublikasında maraqları olan böyük dövlətlərin öz potensiallarını gücləndirmək üçün çoxlu imkanlar mövcuddur.

Bu dövlətlərdən biri də İran İslam Respublikasıdır. Azərbaycan dövlətinin xarici siyasətində İran İslam Respublikası özünəməməxsus yer tutur. İran İslam Respublikası ilə Azərbaycan Respublikası arasında əlaqələr tarix boyu birmənalı olmamışdır. Hər iki ölkə arasında dostluq münasibətləri ilə yanaşı, çox zaman əlaqələrin soyuması da baş vermişdir. İranda Azərbaycan Respublikasının dövlət müstəqilliyinə birmənalı münasibət heç bir zaman mövcud olmayıb. Azərbaycanın dövlət müstəqilliyinə təhlükə kimi baxan İran İslam Respublikasının rəsmi dairələri onu XX əsrin 90-ci illərində tanımaqda çətinlik çəkirdilər. Bir çox dünya dövlətlərinin Azərbaycanın dövlət müstəqilliyini artıq tanımalarına baxmayaraq, İran İslam Respublikası hələ də tərəddüd edirdi (1, s.2).

İran İslam Respublikasının Xarici İşlər Naziri Ə.Ə.Vilayəti 1991-ci ilin noyabırında Moskvaya səfəri zamanı «Moskvanın səsi» radiostansiyasına verdiyi müsahibəsində birmənalı şəkildə bildirmişdi: «Biz Azərbaycanın müstəqilliyini tanımaq niyyətində deyilik. Bu respublika ilə münasibətlərimiz Sovet İttifaqı çərçivəsində inkişaf etdiriləcəkdir» (2, s.76).

Sonrakı danışıqlarda da İran İslam Respublikası belə iddialarından əl çəkmir, cənub qonşumuzun 1990-1991-ci illərdəki siyasəti də mahiyyətcə 1918-1920-ci illərdəkindən fərqlənmirdi. Lakin nə 20-ci illərdə, nə də 90-cı illərdə İran İslam Respublikası öz istəyinə çata bilmədi. Lakin tərəddüdlərdən sonra 1991-ci il dekabrın 25-də ABŞ-la eyni gündə İran İslam Respublikası Azərbaycan Respublikasının dövlət müstəqilliyini tanıdı və 1992-ci il martın 12-də respublikamız ilə diplomatik əlaqələr qurdu. (3, s.73)

Bu zaman İran İslam Respublikası on birinci dünya dövləti idi ki, Azərbaycan Respublikasının müstəqilliyini tanıyırdı. Münasibətlər məsələsində, hər iki tərəf sözdə xoş məram nümayiş etdirsə də, İranla Azərbaycanı mehriban düşmən kimi xarakterizə etmək olar. Hər iki ölkə normal münasibətlər qurmaq istəyini bildirsə də, gərginlik heç vaxt səngimir. İran İslam Respublikası tərəfdən bu gərginlik həmişə hiss olunur. Xüsusən də Ermənistanı himayə etməsində, Xəzərin dibinin bölüşdürülməsində, sərhəd bölgələrdə ideoloji təbliğat aparmaqda İran İslam Respublikası barışmaz mövqe nümayiş etdirir. İranın Ermənistana koridor açması və Azərbaycan Respublikasının torpaqlarını İran İslam Respublikası sərhədlərinə qədər işğal altında saxlayan bir ölkəyə siyasi, iqtisadi və strateji yardımlar göstərməsi Azərbaycan hökümətini və Azərbaycan xalqını qıcıqlandırır. İran İslam Respublikasının azərbaycanlılar yaşayan bölgəsində nə orta

* Məqalə iqtisadiyyat üzrə f.d., dosent L.Mirzəzadə tərəfindən çapa məsləhət bilinib.

məktəb, nə mədəni ocaqlar, nə də ki, ali məktəblər var. Ancaq 200-300 min əhalisi olan Ermənistanda cəmi 7-8 məktəbi fəaliyyət göstərir.

Buna paralel olaraq, İran İslam Respublikasının bir çox media orqanları bu təbliğatı açıq şəkildə aparırlar və belə fikir formalaşdırmağa çalışırlar ki, tarixən Azərbaycan dövləti mövcud olmayıb, bu dövləti yaradan Qərbin xristian təəssübkeşləridir və sanki onların əsas məqsədləri İran dövlətini parçalamaq və qədim İran dövlətini aradan qaldırmaqdır. İran İslam Respublikası Ermənistan Respublikasına ona görə yardım edir ki, Azərbaycan Respublikası Qərblə və İsraillə əməkdaşlıq edir və bununla da İran xalqına, onun milli maraqlarına xəyanət etmiş olur.

Bizə elə gəlir ki, İran digər dövlətlərdən fərqli olaraq öz siyasətini müəyyən edərkən regiondakı həqiqi hadisələri qiymətləndirə və hadisələrin regional və beynəlxalq iştirakçılarının rol və imkanlarını düzgün müəyyən edə bilməmişdir. Buna baxmayaraq, onun ərazisi Xəzər regionundan enerji daşıyıcılarının ötürülməsi üçün daha çox iqtisadi əhəmiyyətli, daha təhlükəsiz yol kimi qalmaqdadır. Son onillik ərzində İran İslam Respublikası Azərbaycan Respublikası ilə konstruktiv əməkdaşlığın və sosial-siyasi sahədə əməkdaşlığın inkişaf etdirilməsinə o qədər də önəm verməmiş, əlaqələrin daha da möhkəmlənməsi üçün ciddi səy göstərməmişdir.

İran İslam Respublikasının xarici siyasətinin vahid prinsiplər üzərində qurulmaması onun regional siyasətinə mənfi təsir göstərir. Eyni zamanda İran İslam Respublikası hər bir rəqibi ilə müxtəlif vasitələrlə rəqabət apardığından daha çevik siyasət yeritməyə səy göstərir. Məsələn, Mərkəzi Asiya və Qafqazda Səudiyyə Ərəbistanı ilə rəqabətdə region xalqlarının etnik, tarixi, mədəni yaxınlığına, Türkiyə ilə rəqabətdə o qədər uğurlu olmasa da etno-dini dəyərlərə, Rusiya ilə rəqabətdə hələlik çoxmənalı şəkildə susmağa üstünlük verir.

Rusiya Federasiyasının İran İslam Respublikasını dəstəkləməsi regionda onun Azərbaycan Respublikasına olan münasibəti və Ermənistanı dəstəkləməsi ilə uzlaşır. İran İslam Respublikası Azərbaycan Respublikasının daxili siyasətinə təzyiqlər göstərməklə yanaşı, işğalçı ermənilərlə Dağlıq Qarabağda işbirliyi qurur. Fikrimizi təsdiqləmək üçün Ermənistanın "News.am"-erməni saytının hesablamalarına nəzər salaq: "Son iki ildə İran İslam Respublikasından Dağlıq Qarabağa gedən turistlərin sayında ikiqat artım var". (4)

Saytda digər bir maraqlı məqam İran İslam Respublikasının "Kiş Telekom" adlı şirkətinin işgal altında olan torpağımız Dağlıq Qarabağ ərazisində fəaliyyət göstərən erməni şirkəti "Karabakh Telekom"la rominq müqaviləsi imzalaması haqqında verilən məlumatdır. Araşdırmalarımız zamanı məlum olur ki, İran şirkətinin web-saytındakı xəritədə də Qarabağ Ermənistan ərazisi olaraq göstərilib. Bu xəbər İran İslam Respublikasının Ermənistanın işğalı altında olan Azərbaycan torpaqlarındakı ermənilərlə iş birliyi qurduğunu bir daha təsdiqləyir. Qeyd edək ki, İran İran İslam Respublikasıyla Ermənistan arasında turizm sahəsində inkişafın olduğu barədə tərəflər əvvəllər də bəyanat veriblər.(5, s. 34-43)

Ermənistan İranın nüvə proqramı baxımından mühüm önəm kəsb edir. Bu mənada Ermənistan-İran münasibətlərinin iki istiqaməti var. Əvvəla Erməni lobbisi digər nüanslarla yanaşı, həm də bu mənada ABŞ-ın İran siyasətinin müəyyənlədirilməsində sərtlik tərəfdarı Yəhudi lobbisini müəyyən mənada tarazlama funksiyasını yerinə yetirməkdədir. Hətta Obama iqtidarının İranla müzakirələrə üstünlük verməsinə dair siyasətində də erməni lobbisinin müəyyən qədər təsiri olduğu qeyd edilə bilər. Digər tərəfdən İranın nüvə proqramının davam etdirilməsində Erməni əsilli elm adamlarının yer aldığı iddiaları da zaman-zaman gündəmə gəlməkdədir. Ermənistanla yaxşı münasibətlər, xüsusən Seyid Məhəmməd Xatəminin (1997-2005) dövründə "Mədəniyyətlər dialoqu" çərçivəsində Qərblə əlaqələrdə rəsmi İranın tez-tez baş vurduğu amil olmuşdur (6, s. 13-16).

İran-Ermənistan münasibətlərində gündən-günə güclənən digər sahə isə iqtisadi münasibətlər sahəsidir. İki ölkə arasındakı iqtisadi münasibətləri ticarət, enerji, nəqliyyat və iqtisadi layihə istiqamətləri diqqət xüsusi olaraq çəkir. İran İslam Respublikası Ermənistanın Rusiyadan sonra ikinci ən böyük ticarət ortağıdır.

Ermənistan Respublikasının Xarici işlər Naziri Edvard Nalbandyan Erməni-İran əlaqələrinin vəziyyəti, gələcəyi və xüsusiyyəti barədə açıqlamasında bildirir ki, bu əlaqələr, əsasən, çoxdandır ki, inkişaf edir, növlərə ayrılır və güclənir. İki ölkə liderlər və nazirlər səviyyəsində çox sıx bir araya gəlirlər. Bu çərçivədə ən son İran xarici işlər naziri 2010-cu ildə Ermənistanı ziyarət etmiş, həmsöhbətləri ilə məhsuldar görüşlər keçirmişdi. Nazir bu ziyarətində iki ölkə arasında olan hökumətlərarası iqtisadi əməkdaşlıq komissiyası yığıncaqlarının doqquzuna ortaq başçı kimi qatılmışdı. Bu komissiya əsasən, İranlı nazirin də qeyd etdiyi kimi, xüsusilə bu üç strateji layihəni ələ almağa, bunlarda irəliləməni təmin etməyə çalışır. (7)

2011-ci ilin 31 yanvarında Ermənistanın energetika və təbii ehtiyatlar naziri Armen Movsisyan ilə İranın neft naziri Məsud Mirkazeminin Tehran görüşündə İran-Ermənistan neft kəmərinin inşası barədə razılıq əldə edilmişdir. Nazirlər həmçinin 2014-cü ildə tikintisi yekunlaşacaq və uzunluğu 365 kilometr olacaq Təbriz-İrəvan neft kəmərinin tikintisi məsələsinə də toxunmuşlar. Kəmərin tikintisinin bu ilin payızında başlanacağı bildirilirdi. Qeyd edək ki, İran, Cənubi Azərbaycanın Təbriz şəhərində tikilən "Şəhriyar" kombinatında istehsal edilən neft məhsullarını Ermənistan və bir sıra Orta Asiya ölkələrinə satmağı planlaşdırır. İlkin hesablamalara əsasən, kəmərin tikintisinə 160-180 milyon dollar sərmayə qoyulacağı planlaşdırılmışdır. Maliyyələşmə hər iki tərəfə 50/50 nisbətində nəzərdə tutulur. Ancaq Ermənistan faktiki olaraq heç bir sərmayə yatırmayacaqını və razılaşmaya görə, İran erməni tərəfinin əvəzinə də sərmayə yatıracağını, əvəzində isə neftkəmərinin istismarından əldə ediləcək gəlirlərin hesabına vəsait əldə edəcəyini bildirmişdir.(8)

Rusiyada nəşr olunan "Nezavisimaya qazeta"nın hərbi əlavəsi olan "Nezavisimaya voyennaya obozreniye" nəşri İranın Cənubi Qafqaza dair siyasətini və Dağlıq Qarabağ münaqişəsindəki rolunu təhlil edəcək, "İranın Cənubi Qafqazdakı pəncələri" başlıqlı təhlildə deyilir ki, hazırda İranın Ermənistanla əlaqələri kifayət qədər uğurla inkişaf edir. Təhlildə deyilir ki, Ermənistanda siyasi və iqtisadi mövqelərini gücləndirmək istəyən İran dəfələrlə İrana müxtəlif tipli silahlar təklif edib, bura minomyotlar, reaktiv artilleriya sistemləri, müxtəlif tipli sursat və digər hərbi ləvazimatlar daxildir. Ancaq real olaraq İranla Ermənistan arasında hərbi-texniki əməkdaşlıq əsasən, erməni ordusu üçün uzun müddət saxlanıla bilən ərzaq ehtiyatının və digər əşyaların göndərilməsi ilə məhdudlaşır. BMT Təhlükəsizlik Şurasının İrana dair son qətnaməsindən sonra bu əməkdaşlığın imkanları azalmışdır: Bununla belə, bəzi məlumatlara görə, Ermənistanla İran arasında müharibə zamanı əməkdaşlığa dair müqavilə də mövcuddur. Bu müqaviləyə əsasən, Qarabağda müharibə yenidən başlayarsa, onda İran Ermənistan üçün arxa cəbhə funksiyasını həyata keçirməli, İrana qarşı xarici müdaxilə olarsa, Ermənistan bu ölkə ərazisinin blokadaya alınmasına mane olmalı və həmin istiqamətdən zərbələrin endirilməsinə imkan verməməlidir. Məqalədə deyilir ki, bu müqavilənin ikinci hissəsinin, xüsusən ABŞ-ın İrana qarşı hərbi müdaxiləsi zamanı reallaşdırılması imkanları xeyli məhduddur. Çünki mümkün müharibə zamanı Ermənistanın İranı dəstəkləməsi bu ölkənin Qərblə münasibətlərini korlayacaq, İrəvana xarici yardımları kəskin azaldacaq. (9)

Hesab edirik ki, İranın fundamental islam dövləti olmasına baxmayaraq, bu dövlət üçün «islam» ideoloji silah olaraq istifadə edilir. Əgər bu gün İran Ermənistana yardım etməsə, Ermənistan bir ildən çox bu mübarizəni davam etdirmək iqtidarında olmayacaq. Lakin İran bunu etmir. Səbəbi də aydındır. İran əhalisinin böyük bir əksəriyyəti Azərbaycan türkləridir və onlar daim birliyə can atırlar. Orada ana dilində, məktəblərin olmaması onların hüquqlarını pozur. İran dövləti üçün oradakı torpaqlarımızın birləşməsi təhlükəsi mövcuddur. Ona görə də, o, heç vaxt Azərbaycanın güclü, qüdrətli olmasını istəmir. İran özünün bir növ Ermənistanla olan əlaqələrinə, qardaşlıqlarına don geydirmək üçün bizi İsraillə əməkdaşlıq etməyimizə görə qınayır. Əvvəla, biz yenicə müstəqillik qazanmış dövlətik və hansısa ölkələrlə münasibət qurmağımıza görə, bizi qınamaq olmaz.

Türkiyənin İran üzrə tanınmış siyasi analitiki Arif Kəskin hesab edir ki, Ermənistan İranın ikiüzlü siyasətinin göstəricisidir. Özünü İslam dünyasının lideri olduğunu iddia edən İranın Ermənistan kimi xristian bir dövləti himayəyə götürməsi bir daha göstərir ki, bu dövlət islam prinsiplərindən uzaqdır. İran Ermənistana fars milliyyətçiliyi prizmasından baxmaqdadır. Fars milliyyətçiliyi idelogiyasi Azərbaycan və türk düşmənçiliyi üzərində formalaşıb. Həm də münaqişənin həll olunmaması və uzanması İranın xeyrinədir (10, s.3).

Ermənistanın Azərbaycanla gərgin münasibəti, eyni zamanda Azərbaycanın inkişafı və İrandakı türklər üçün bir güc mərkəzi olmasının qarşısını alır. Əvvəla, Ermənistan-Azərbaycan savaşı hər iki dövləti İrana doğru yönəldir. İkincisi, İran Ermənistanın Rusiyadan ayrılıb Qərbin təsir dairəsinə düşməsini istəmir. Başqa ifadə ilə desək, İran Ermənistanın Rusiyadan ayrılıb Qərbə yaxınlaşmasından qorxur və bunun qarşısını almaq üçün Ermənistanı dəstəkləməyə və onu öz təsir dairəsində saxlamaq məcburdur. Bir tərəfdən İran İslam Respublikası Ermənistanı Türkiyə Cümhuriyyətinin Qafqazdakı fəaliyyətini məhdudlaşdırmaq vasitələrindən biri kimi görür, digər tərəfdən də Avropa və ABŞ-dakı erməni diasporunun qlobal siyasətdə özünə bəzi qapılar açə biləcəyini düşünməkdədir.

Xəzər dənizi mövzusuna gəldikdə isə aydın olur ki, hələ də müəyyən problemlər həll olunmamış qalır və dondurulmuş vəziyyətdədir. Rus tədqiqatçısı Ejiyev hesab edir ki, Xəzər dənizinin statusuna yanaşılmasında İranın hər iki mövqeyi iki əsas amilə söykənirdi. Bunlardan biri, Qərb ölkələrinin dənizdə nə hərbi-geostrateji, nə də ki, geoiqtisadi iştirakına imkan verməmək, digəri isə, yeni yaranmış şəraitdən istifadə edərək, Xəzər dənizində öz geosiyasi mövqelərini gücləndirmək, bölgənin müsəlman ölkələrində

dominantlığını qazanmaq və mümkün qədər Rusiyanı bu məkandan sıxışdırmaqdan ibarət idi. Göründüyü kimi, İranı öz iqtisadi maraqlarından daha çox, geosiyasi mənafeləri düşündürür. Çünki rəsmi Tehranı bu məsələdə maraqlandıran əsas məqam Xəzərin "dəniz", yaxud "göl" kimi qəbul olunması deyil, İranın geostrateji təhlükəsizliyinin təmin edilməsi və regionda fəallaşmış Qərb ölkələrindən qaynaqlanan "potensial təhlükələrin" qarşısının alınmasıdır. İqtisadi maraqlar isə Tehran üçün ən azı ona görə ikinci dərəcəlidir ki, onun Fars körfəzində, digər quru ərazilərində Xəzərdəkindən qat-qat üstün və zəngin enerji qaynaqları, hazır istehsal infrastrukturları mövcuddur (11, s. 84).

İran kəşfiyyatı 1990-cı illərin ortalarında Azərbaycanda olduqca fəal idi. Bakıda, Lənkəranda, Astarada və digər yerlərdə tutulanların sayı-hesabı yox idi. İş o yerə çatmışdı ki, İran kəşfiyyatı Azərbaycanda bütöv bir partiyanı (İslam Partiyası) öz təsiri altına salmağa müvəffəq olmuşdu. Milli Təhlükəsizlik Nazirliyinin həmin illərdəki fəaliyyətinin əksər hissəsi İran kəşfiyyatının Azərbaycandakı fəaliyyətini neytrallaşdırmağa yönəlmişdi desək, yanılmarıq. Bu vəziyyətə son qoyulmalı idi. Vaxtilə İran İslam Respublikası və Azərbaycan Respublikası rəsmiləri təmaslarda, ayrı-ayrı görüşlərdə iki ölkə arasındakı münasibətləri dost və qardaşlıq statusuna qaldırmışdılar. Dost və qardaşlar isə bir-birinə qarşı təxribat həyata keçirməməliydilər. Odur ki, 2000-ci ildə iki ölkənin təhlükəsizlik idarələri arasında bir anlaşma imzalandı. Anlaşmanın əsas maddəsi iki ölkənin bir-birinə qarşı kəşfiyyat işi aparmamasıyla bağlı idi. (12)

2009-cu ilin 6 oktyabrında İran İslam Respublikasının Azərbaycan Respublikasındakı səfiri Məmmədbaqir Bəhrami Xarici İşlər Nazirliyinə dəvət olunaraq nazir müavini Vaqif Sadıqov tərəfindən Azərbaycan Respublikasının daxili və xarici siyasəti ilə bağlı videoçarx və məqalə İran diplomatının nəzərinə çatdırılmışdı. Bu materiallarda Azərbaycan Respublikasının dövlət siyasəti məqsədyönlü şəkildə təhrif olunmuş, milli dövlət bayrağı kobudcasına təhqir edilmiş, həmçinin Azərbaycan Respublikası hökumətinin və Milli Məclisinin üzvlərinə və digər dövlət məmurlarına qarşı böhtan xarakterli ittihamlar yer almışdır. (13, s.3)

Lakin son zamanlar İran İslam Respublikasının ölkəmizdə apardığı işlər bir daha sübut etdi ki, həmin anlaşma və digərləri sərhəd qonşumuz üçün mənasız kağız parçasından başqa bir şey deyildır. Bir məqamı da qeyd edək ki, hadisələrin bu şəkildə baş verməsi həm də başqa maraqlı bir mənzərənin ortaya çıxmasına səbəb olmuşdu. Söhbət ondan gedir ki, artıq Türkiyə Respublikası və Azərbaycan Respublikasından sonra Gürcüstan Respublikası da eyni mövqe nümayiş etdirməyə başlamışdır. Bu da region dövlətlərinin ümumiyyətlə hansısa münaqişəyə müdaxilə etməmək istəyini aşkara çıxarır. Azərbaycan Respublikası isə rəsmi mövqeyini Milli Məclisin 2011-ci ilin ilk sessiyasında aydınlaşdırdı. Millət vəkilləri öz çıxışlarında İranın son zamanlar yeritdiyi siyasətin birbaşa Azərbaycan Respublikasının daxili işlərinə qarışmaq kimi qiymətləndirdilər. Onlar İran İslam Respublikasının rəsmilərinin süni formada yaradılan hicab problemindən istifadə edərək Azərbaycanın daxili işinə qarışmasını kəskin tənqid etdilər. (14)

Qeyd edək ki, qərəzli materialların İranın rəsmi kütləvi informasiya vasitələrində yayımlanmasının Azərbaycan tərəfində ciddi narahatlığa səbəb olduğunu vurğulayaraq eyni xarakterli materialların İranın rəsmi mətbu orqanlarında əvvəllər də yer aldığını və bununla bağlı Azərbaycan tərəfinin dəfələrlə narahatlığı müxtəlif səviyyəli görüşlərdə və açıqlamalarda bildirilməsinə baxmayaraq bu günə qədər problem qarşı tərəfin laqeydliyi üzündən öz həllini tapmamışdır.

Qeyd etmək lazımdır ki, regionda lider mövqeyə malik olan Azərbaycan Respublikası balanslaşdırılmış xarici siyasət kursundan irəli gələn yüksək əməkdaşlıq niyyətini hər zaman bəyan edir. Azərbaycan son illər müvəfəq olduğu inkişaf səviyyəsi, sosial-iqtisadi nailiyyətlərlə çox irəli getmişdir. Regionda əməkdaşlığın düşünülmüş prinsiplər üzərində qurulmasının iki tərəfə də dvidentlər gətirə biləcəyi dövlət rəsmiləri tərəfindən İİR rəsmiləri ilə görüşlərdə bildirlir. Belə olan halda Azərbaycan Respublikası strateji mövqeyindən dönmək fikrində deyil, regionda sabitlik istəyən İran dövləti mütləq xarici siyasət strategiyasında mövqe dəyişikliyi etməlidir. Deməli, söhbət ilk növbədə bu fərqlərə rəğmən, iki dövlətin dinc yanaşı yaşamasından getməlidir.

Açar sözlər: diplomatik əlaqələr, Azərbaycan, İran, Xəzər, gesoiyasət.

İstifadə olunmuş ədəbiyyat

1. Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı. Xalq qəz., Bakı, 1991, 7 noyabr.

2. Qasımov M.C. Azərbaycanın xarici siyasəti (konsepsiya məsələləri). Bakı: Gənclik, 1997.

3. Qasımov M.C. Azərbaycan beynəlxalq münasibətlər sistemində (1991-1995- ci illər). Bakı: Gənclik, 1996.

4. www.news.am
5. Əlibəyli H. İran İslam İnqilabı və Şərq //«İşığa doğru» jurnalı. Bakı: İran İslam Respublikasının Azərbaycandakı Mədəniyyət Mərkəzinin nəşri, 2005, № 4.
6. Güney Azərbaycan Sosyo-Kültürəl Araşdırmaları (GÜNASKAM) dərgisi, sayı 7, 2010.
7. http://www.lent.az/news.php?id=54973
8. http://anspress.com/index.php?a=2&lng=az&nid=81380
9. www.ng.ru
10. Azad Tribun qəzeti, İsveç, 27 avqust 2010-cu il
11. Ejiev И.Б. Геopolitika Kaspiyskoqo reqiona. M., 2007.
12. www.mns.gov.az
13. Azərbaycan qəzeti, 7 oktyabr 2009-cu il
14. www.meclis.gov.az

Mais МУСАЕВ

АЗЕРБАЙДЖАНО-ИРАНСКИЕ ОТНОШЕНИЯ НА СОВРЕМЕННОМ ЭТАПЕ

Pezöme

Bo vneşnepolitiçeskoy deətelğnosti suverennoqo Azerbaydjana reqionalğnaə politika zanimaet vajneyşee mesto. Haxodəsğ v rayone Kaspiyskoqo basseyna, Azerbaydjan, nesmotrə na mnoqoçislennıe problemı, zainteresovan v dinamiçeskom razvitii otnoşeniy razliçnoqo xaraktera s druqimi stranami reqiona. Cozdatelem dannoqo strateqiçeskoqo kursa bıl obhenaüionalğnıy lider Geydar Aliev.

B dannoy statğe analiziruötsə mnoqostoronnie otnoşeniə s Iranom, faktorı, stimuliruöhie gti otnoşeniə i prepətstvuöhie ix razvitiö. C nauçno-praktiçeskoy toçki zreniə rassmatrivaötsə sovremennoe sostoənie i perspektivı razvitiə otnoşeniy mejdu stranami Kaspiyskoqo basseyna, a takje voprosı requlirovaniə i razvitiə sotrudniçestva mejdu nimi, çto imeet vajnoe znaçenie dlə vsex stran reqiona.

Klöçevıe slova: diplomatiçeskie svəzi, Azerbaydjan, Iran, Kaspiy, qeopolitika.

Mais MUSAYEV

AZERBAIJAN-IRAN RELATIONS ON THE PRESENT STAGE

Summary

In the foreign policy activity of the sovereign Azerbaijan the regional policy is of the greatest importance. In spite of a great number of problems in the country Azerbaijan as a Caspian basin country is interested in the dynamic development of the relations with the countries of the region. The all nation leader Heydar Aliyev was the founder of this strategic course. In the article an analysis is made of the multilateral relations of Azerbaijan with Iran, the factors stimulating these relations and hampering oil development. The present condition and the development perspectives are considered from the scientific – practical point of view as well the problems of the regulation and development of cooperation of the countries of the Caspian basin what is of great significance for all the countries in the region.

Keywords: diplomatic relations, Azerbaijan, Iran, Caspian, geopolicy.

UOT 172.12.321

Kazım ƏZİMOV
BDU-nun professoru, fəl.. e. d.

Nazim ƏLİYEV
Sosial elmlər və Beynəlxalq hüquq magistri,
Bonn Rayn Fridrik-Vilhelm Universiteti, Almaniya

MAKİAVELLİNİN DÖVLƏTÇİLİK İDEYASININ SOSİAL MAHİYYƏTİ*

"Mənəviyyat mübarizəsində bir məfhuma yiyələnmək
bir qalanın zəbti uğrunda mübarizə kimi əhəmiyyətlidir"
Quariş Helmut

Giriş. Hərbi və xarici işlər idarəsinin katibi vəzifəsində işləyən 29 yaşlı Makiavelli idarəetmə qabiliyyətinə görə rəhbərlik tərəfindən işlədiyi İkinci dəftərxananın katibi, sonra Onluqlar Şurasının katibi vəzifəsinə təyin edildi [1]. Bu, Florensiya Respublikasının hərbi məsələlər və xarici siyasətlə məşğul olan dövlət Komitəsinin nəzdində idi [2]. Bununla da Makiavellinin Florensiya Respublikasına xidməti başladı. Bu vəzifə onun üçün bir məktəb idi, ona siyasəti ətraflı həyata keçirməyi öyrədirdi və öz siyasi ideyalarının formalaşmasına xidmət edirdi [3]. Bu andan etibarən, Makiavelli siyasi strukturun bir hissəsi kimi dövlətin iş prinsipi haqqında nəzəriyyəsini yaratdı. Makiavelli respublika ilə bağlı diplomatik səfərlərində, fransız sarayında, papa kilsəsində, Valensiya hersoqluğunda müasir dövləti idarəetməyi öyrəndi. Öz sonrakı karyerasında, həmçinin vəzifələrini itirdikdən sonra Makiavelli siyasi yazıçı kimi fəaliyyətə başlamışdı, çünki o deyirdi: "Mən dövlət haqqında danışmalıyam; mən əhd-peyman etməliyəm, susmalı yaxud da bu barədə danışmalıyam [4].

Hələ biz XV əsrin mücərrəd nəzəriyyəsinə qayıtmırıq. Makiavellinin dövlət və hökumət haqqında verdiyi suallar XVI əsrin astanasında ortaya çıxdı [5]. Özünü necə idarə etmək? Necə idarə olunmaq? Başqalarını necə idarə etmək? Kimin idarə edəcəyi qəbul olunmalıdır? Ən yaxşı hakim olmaq üçün nə edilməlidir? Əlbəttə, bu suallar tarixdə heç də yeni deyil, intibahın yuxarıda qeyd olunmuş iki prosesinin kəsişməsi bu suallara xüsusi intensivlik verir: proses bir tərəfdən feodal strukturların tədricən dağılması nəticəsində böyük ərazi, idarəetmə və müstəmləkə dövlətlərini yaratdı, digər tərəfdən isə bu, artıq intibahda ilk rüşeymi olan tamamilə başqa bir intellektual hərəkat idi: qurtulmaq üçün fərdin yerdə özünü mənən necə aparması sualı isə artıq reformasiyada (islahat dövründə-N. Ə.) irəli atılmışdı [6]. Basqa sözlə, bu bir tərəfdən dövlətin inkişaf tendensiyası, digər tərəfdən isə dini parçalanma və dissident tendensiyası zamanı mövcud idi.

Əsas hissə. Qeyd olunduğu kimi, artiq intibah dəyişikliyin bir dönəmi idi. Rene Köniq intibahın bir formasını hazırlamışdı ki, bu da nəticədə böhran dövrü kimi təsvir olundu:

"İtalyan intibahı bu cür zaman parçalanmasının ən dolğun bir ifadəsidir, buna görə də o, mifdən və həqiqətdən ibarət iki mənalı tipik bir böhrandır və biz, onun yaratdıqlarını, həmçinin Makiavellini o zaman düzgün başa düşəcəyik ki, lap əvvəldən bu ikili məna ilə hesablaşaq" [7].

Buna baxmayaraq, Florensiya Respublikasının ağır böhranının təsiri altında Makiavellinin siyasi ideyaları Orta əsrlərdə və həmçinin Antik dövrdə, yaxud reformasiya və anti-reformasiya [8]. dövründə olduğu kimi vətəndaşların yaxşı və mənalı həyat şərtlərini əsas götürmür, daha çox dövlət birliklərinin daxili stabilliyinə, xarici ekspansiyasına və davamlılığına əsaslanırdı. Prioritetlər verilir və dövlətin özünümüdafiəsinin mütləq norması altında başqa normalardan da imtina edilirdi [9]. Dövlət, siyasət, hakimiyyət: bu üçlük Makiavellinin dünyasını yaradırdı. Bu dünya metafizika və yaxud teologiya üçün, teizm və yaxud ateizm üçün, determinizm və yaxud iradə azadlığı uğrunda dini mübahisələr üçün məkan deyil. [10]. O, siyasi strukturların yaradılması, müdafiəsi və gücləndirilməsi haqqında danışılan bir dünyadır.

---

* Məqalə fəl.e.d., prof. H.İmanov tərəfindən çapa məsləhət bilinib.

Birmənalı olaraq, Makiavellinin təfəkküründə siyasi elementlər onun fəlsəfəsinin müasir yaxud modern kimi qəbul olunması üçün kifayət etmir. Tədqiqatın bu probleminə yaxınlaşmaq üçün Makiavelli dövləti onun siyasi nəzəriyyənin əsas elementi kimi araşdırılır. Dəyişiklik dövrü kimi XV-XVI əsrlər yeni insan tipləri ilə yanaşı əlavə sosial dəyişikliklər də hasil etdi. İntibah yeni siyasi qurumun, məhz dövlət hakimiyyətinin son nifaq dövrü idi [11]. Makiavelli bu dövləti necə kəşf etmişdi? Ümumiyyətlə, onun üçün dövlət nədir? Cavablar Nikolo Makiavellinin əsas əsərlərində, «*Hokmdar və Mülahizələr*»-də verilmişdi.

Makiavellinin dövlət ideyası nədən ibarətdir? Bu dövlət faktiki olaraq necə yaranmışdı? Bu suala dəqiq cavab müxtəlif sosial elmlərin nailiyyətlərinə istinad edilməklə mümkün olardı. Şəraitdən doğan dilemma elə mürəkkəbdir ki, bu barədə geniş, irihəcmli əsər yazmaq olar: Makiavelli dövləti necədir, onun qanuni əsası nədir və bu, onun yaranma dövrü üçün qaneedicidirmi? Verilmiş konteksdə Makiavellinin müasir siyasi mütəfəkkir adlandırılması ilə bağlı onun innovativ dövlət anlayışının əhəmiyyəti mühüm rol oynayır.

Müasir elm üçün dövlət "mürəkkəb gerçəklik, abstraksiya"dir [12] və heç kimlə, heç nə ilə eyniləşdirilə bilməz [13]. O nə metafizik substansiya, nə də təbii orqan deyil, əksinə, insan fəaliyyətinin, onun hakimiyyəti vasitəsilə yaradılmış təfəkkür məhsuludur [14]. Öz kitabında Mauruzio Viroli dövlətə aşağıdakı tərifi vermişdi:

"Hakimiyyətin şəxssiz (impersonal) strukturu və siyasətin nüvəsi adlandırılan dövlət ideyası bizim təfəkkür formasında o qədər dərin kök atıb ki, dövlətlə bağlı hər hansı başqa bir konsepsiya qeyri-məntiqi və qeyri-həqiqi görünür" [15].

Nizam-intizamın həyata keçirilməsi üçün dövləti qanuni fiziki gücün və cəzanın tətbiqi üzərində monopoliya kimi görən Maks Veberin məşhur tərifi ilə yanaşı, [16] saysız-hesabsız, bir-birinə zidd fikirlər saymaq olar, ancaq bunların bu işin həllində heç bir köməyi yoxdur. Bu işin həcmi məhdud olduğuna görə dövlət anlamı haqqında digər fəlsəfi-antropoloji təriflər və əsaslardan imtina olunur.

İtalyan bələdiyyələrinin və ağalıqlarının, həmçinin Qərbi Avropa monarxiyalarının təcrübəsini daşıyan dövlət Fransa inqilabı dövründə yuxarıda bəhs etdiyimiz mənada süqut etdi [17]. Alman hüquqşünasları dövləti hüquqi baxımdan izah etmiş və hər bir müasir dövlətin atributlarını göstərmişlər: 1) yeganə hökmranlıq sferası kimi dövlət ərazisi; 2) daimi üzvlüyü olan oturaq insan birliyi kimi bir xalq; (a) fiziki gücün qanuni tətbiqi üzərində monopolyanın daxilə, (b) başqa hallarda isə hüquqi müstəqilliyin xaricə təsiri olan 3) suveren dövlət hakimiyyəti. Dövlət quruculuğu nəzəriyyəsinin əsas müdafiəçisi Georq Jellinek bu barədə yazırdı: "İtaliyada müasir dövlət təfəkkürünün tarixi əsasları intibahla meydana gəldi" [18]. Jellinek davam edir: "Müasir dövlət ideyalarının yaranması ilə həmçinin müvafiq söz tapılmışdır. Bu, Makiavellinin «*Hökmdar*» əsərində başladığı qaydaları öyrədir [19].

«*Hökmdar*»-ın I cümləsi belədir: "Tutti gli stati, tutti e` dominii che hanno avuto e hanno imperio sopra li uomini, sono stati e sono o repubbliche o monarchie" [20]. "Dövlət" və "hakimiyyət" burada sintaktik vəziyyət kimi göstərilir, təxminən sinonim kimi bir-birinə çox yaxın verilir. "*Dominio*" sözü italyancadan alman dilinə tərzümədə "*Herrschaft*" [21], («*Hakimiyyət*») mənasına uyğun gəlir. Bununla da «*Hökmdar*»-ın 1-ci cümləsinin alman dilindən azərbaycan dilinə tərcüməsi belədir: "Bütün dövlətlər, bütün hakimiyyətlər [...]." [22]. Alman siyasi alimi Dolf Sternberger Makiavellinin hermenevtikasi ilə ətraflı məşğul olmuşdu. Burada o, "Mülk" və "Malikanə" sözlərini "Hakimiyyət gücü" anlamında oxuculara təqdim etmişdi. «*Hökmdar*»-ın müəllifi qəsdən azadlığı iki mənada göstərmişdi ki, onlar da birlikdə vahid bir subyekti bildirir [23]. Ona görə də göstərilən məna fərqləri, Sternbergerin fikrincə, belə daha dəqiq olardı: "Hər bir insanın hakim gücə malik olduğu bütün dövlətlər, bütün hakimiyyətlər [...]." [24]. Makiavelli, fikrimizcə, dövlətin siyasi müstəqilliyini əsaslandırmaqla müasir dövlət anlayışının əsas nəzəriyyəçisidir. "Müasir insan"-ın inkişafına nəzər yetirən Yakob Burkhardt Makiavellinin ideyalarını italyan şəhər-dövlət prizmasından təhlil edirdi və bununla da florensiyalının hər iki əsərində müzakirə olunmuş "dünyada ilk müasir (modern) dövlət"-i [25] möhkəm siyasi şüur ilə inkişaf etdirirdi. İntibah epoxasında və *vivere civile (vətəndaş həyat tərzi), societe civile (vətəndaş cəmiyyəti), corpus politique (siyasi kodeks)* ilə rəqabətdə duran yeni dövrü Makiavelli *Lo stato (dövlət)* məfhumuna giriş adlandırırdi [26]. Makiavellinin ümumən səhv anlanması heç də *lo stato (dövlət)* məfhumundan asılı deyil. Elmi ədəbiyyatda Makiavelli dövlətinin çoxlu, bir-birindən fərqli tərifləri ilə qarşılaşırıq [27]. Amerika tarixçisi J.H.Hexter [28] bu sahədə geniş tədqiqat işi aparmışdı. O, öz araşdırmasında göstərir ki, «*Hökmdar*» *əsərində lo stato* (dövlət) sözü 114 bənddə işlənmişdi. Tədqiqatın nəticəsi göstərdi ki, "əldə etmək", "sahib olmaq" və "itirmək" kimi xarakterik fellər həmişə *lo stato* sözü ilə birlikdə istifadə olunur. Hexter buradan belə bir qənaətə gəlir ki, Makiavellinin düçüncəsində *lo stato* hər bir halda siyasi istismarın (political exploitation) [29] obyekti kimi birinci yerdədir [30]. Hexter bu məfhuma heç bir konkret məna əlavə

etməmişdir, hər halda o, burada insanların hakim gücünü görmüş və «*Hökmdar»*-ın birinci cümləsi ilə bağlı fikrini bu cür ifadə etmişdir: "Hökmdar»-da "lo stato" məfhumunun heç vaxt ifadə etmədiyi bir şey varsa, o da fərdlərin qurduğu, lakin fərdlərin fövqündə duran siyasi bir orqanı bildirən dövlətdir" [31].

Lakin Makiavelli «*Hökmdar» əsərində* deyil, məhz «*Mülahizələr»*-də mövcud olan *vivere libero (azad yaşamaq), vivere civile (vətəndaş-mülkü həyat)* və *vivere politique (siyasi həyat)* sözlərini siyasi bir obraz kimi dövlət üçün istifadə etmişdi [32]. Hexterdən Sternbergerə qədər olan şərhlər haqqında belə bir nəticəyə gəlmək olar:

"Buradan: " [...] "lo stato" siyasi qurum deyil" [33]. Bu, mənim cavab verməyə cəhd etdiyim əsas suala bilavasitə münasibət bildirməkdir. Şəxsən Makiavelli üçün "Lo stato" siyasi məfhum deyil" [34].

Makiavellinin sözlərinin izahının çətinliyi ilə yaranmış mübahisə *lo stato* məfhumunun son mənası ilə bağlı nisbətən çaşqınlığa gətirib çıxarırdı [35]. Buna baxmayaraq, Makiavellinin digər tədqiqatçıları Sternbergerin və Hexterin müvafiq arqumentlərinə qarşı çıxmışdır. Herfred Münkler *lo stato*-nun dəqiq tərifini "semantik yeknəsəklik" kimi təxminən belə təsvir edir [36]. Demək olar ki, beş əsr ərzində siyasi dil dəyişikliyə uğramışdı, yəni o vaxtki dilin dərinliyi onun müasirlərindən gizli qalmışdı.

Makiavellinin «*Hökmdarı»*-nı araşdırarkən florensiyalı bir neçə yerdə *lo stato* kəlməsinə əsasən Sternberger və Hexter tərəfindən göstərilmiş mənanı daha yaxın hesab edir. Məsələn: ümumi bir dövlət məfhumunun mənası *lo stato* qəbul edilə bilərdi: [37] "İstər köhnə, istərsə də təzə və qarışıq dövlətlərin başlıca arxası [*titti li stati* - N. Ə.] yaxşı qanun və güclü müdafiəsidir" [38]. Yaxud siyasəti dövlət səviyyəsinə qaldırmaq: "Kardinal məni qınayırdı ki, italyanlar müharibəni başa düşmürlər. Ancaq mən ona cavab verdim ki, fransızlar isə siyasəti başa düşmürlər [*dello stato* - N. Ə.]". [39]. *Lo stato* məfhumunun yeni tendensiyasına münasibətdə italyan tarixçisi Fredi Çiapelli öz araşdırmasında müasir Makiavelli-bioqrafı Maurizio Viroli, Hexter və Sternberger tərəfindən tamamilə fərqləndirmiş *lo stato* məfhumunun tərifini vermişdi:

"Fredi Çiapelli qeyd etmişdir ki, «Hökmdar»-da "stato" sözü, bəzi istisnalarla dövlətin yaxud siyasi rejimin konkret formasından asılı olmayan və insanların müəyyən ərazidə siyasi təşkilatını bildirir, yəni dövlətin müasir abstrakt anlayışını ifadə edir" [40].

Nəticə. Makiavellinin yeni məfhumunun tətbiqi tətqiqatlarda müasir dövlətin sinonimi kimi verilmişdir. Buradan belə bir nəticə çıxır ki, Makiavelli yalnız müasir dövləti düşünən mütəfəkkirlərdən deyildi, o, həm də, xüsusilə də məhz "*ictimai-vətəndaş* dövləti" (dövlət-status - N.Ə.) anlayışının müəllifi idi [41].

Makiavelli dövləti Hexterin təsvir etdiyi kimi hakimin istismar aləti deyil. Amerikan tarixçisi etiraz edirdi ki, Makiavelli dövləti tək şəxsin yaxud bir qrupun aləti kimi təsvir edilirdi və əlavə etməyi də unutmurdu ki, belə bir dövlət böhranda və istisna hallarında, yaxud da Münklerin təsvir etdiyi kimi "tarixən zəifləyən (enən-e.red.) xəttində" yerləşir [42]. Çünki bu vəziyyət anarxiyadan xilas olmağa, güclü və stabil respublika qurmağa ehtiyac olduqda dövlətə kömək edəcək fövqəladə hərəkəti tələb edir [43].

Açar sözlər: Makiavelli, dövlət, dövlətin siyasi mahiyyəti.

İstifadə olunmuş ədəbiyyat

1. Weiterführend dazu vgl. Ridolfi: Machiavelli, säh- 15-34; Rubinstein, Niccolai: The Beginning of Niccolo Machiavellis Career in the Florentine Chancery, in: Italien Studies Nr. XI (1956), səh. 72-91.

2. Müq. et. Viroli: Lächeln des Niccolo, səh. 44.

3. Zugrundelegung der Übersetzung von Johann Ziegler und Franz Nicolaus Baur, München 1925, Bd. 5, səh. 342.

4. Machiavelli, Niccolo: Brief an Vettori, vom 09. April 1513, in: Floercke, Hanns (Nəşr.): Niccolo Machiavelli. Gesammelte Schriften in fünf Bänden, unter

5. Müq. et. Foucault, Michel: Die Couvernementalität, in: Bröckling, Ulrich (Nəşr.): Couvernementalität der Gegenwart, Frankfurt am Main, 2001, səh.41.

6. Müq. et. elə orada., səh. 42.

7. König: Machiavelli, səh. 77.

8. Müq. et. Foucault: Gouvernementalität, 42 ff.

9. Müq. et. exemplarisch: Viroli, Maurizio: From Politics to the Reason of State. The Acquisition and Transformation of the Lanquage of Politics 1250-1600. Cambrige, 1992, səh. 131; Reinhard, Wolfgang: Geschichte der Staatsgewalt (Dövlət hakimiyyətinin tarixi): Eine vergleichende

Verfassungsgeschichte Europas von den Anfängen bis zur Gegenwart (Avropanın başlanğıcdan hazırkı dövrə qədər müqayisəli konstitusiya tarixi). München, 1999, səh. 108; Münkler: Machiavelli, səh. 97.

10. Müq. et. Durant: Renessance (İntibah), səh. 552.

11. Müq.et. exemplarisch: Durant: Renaissance, səh. 79 ff.; Buck. August: Renaissance: Krise und Neubeginn, Marburg 1977, səh. 5; Beyme, Klaus von: Die politischen Theorien den Gegenüart. Eine Einführung, 7., neubearb. Aufl., Bonn 1992, səh. 125; Reinhard: Geschichte der Staatsgeüalt, səh. 62 f.

12. Foucalt: Gouvernementalität, səh. 65.

13. Müq. et. Runciman, David: The Concept of the State: The Sovereignty of a Fiction, in: Skinner, Quentin / Sträth, Bo (Nəşr.) States and Citizens. History, Theory, Prospects. Cambridge, 2003, səh. 28 f.

14. Müq. et. Reinhard: Geschichte der Staatgeüalt, səh. 18.

15. Viroli: From Politics to the Reason of State, səh. 284.

16. Weber, Max: Politik als Beruf (Siyasət peşə kimi), 10. Nəşr., Berlin, 1993 , səh. 13.

17. Müq. et. Reinhard: Geschichte der Staatgewalt (Dövlət hakimiyyətinin tarixi), səh.28 f.

18. Jellinek,Georg: Allgemeine der Staatslehre, 7. Neudruck der 3. Nəşr., Berlin, 1966, səh. 294.

19. Elə orada., səh. 132

20. «İnsanların hakim gücə malik olduğu bütün dövlətlər və bütün hakimiyyətlər ya respublikalara yaxud da monarxiyalara məxsus olmuş və yaxud məxsusdur". Machiavelli, Niccolo: II Princile (I grandi della letteratura italiana), Milano, 1997, Bölmə I, səh. 43.

21. Langenscheidts handwörterbuch Italienisch, Italienisch-Deutsch, Deutsch-Italienisch. völlig neuentw. Ausgabe, München, 1997, səh. 470.

22. Angesichts der Tatsacheç dass im Laufe der Jahrhunderte mehrere deutschsprachige Öbersetzungen des II Principe entstanden sind, üird nur die yu dem Yeitpunkt der Entstehung der Arbeit aktuelle Ausgabe aufgeföhrt; Machiavelli: Principe, I, səh. 19.

23. Müq. et. Sternberger, Dolf: Machiavell´s «Principe» und der Begriff des Politischen (Sitzungsberichte der wissenschaftlichen Gesellschaft an der Johann Wolfgang Goethe- Universität Frankfurt am Main, Bd. XII, № 2), 2. Aufl., Wiesbaden, 1975, səh. 43.

24. Müq. et. elə orada.

25. Burckhardt: Kultur der Renaissance(İntibah mədəniyyəti), səh. 102.

26. Müq. et. Skalweit, Stephan: Der Beginn der Neuzeit, Epochengrenze und Epochenbegriff (Erträge der Forschung, Bd. 178), „Yeni dövrün başlanğıcı. Keçid dövrü və keçid məfhumu“ (Tədqiqatın gəliri, Nəşr 178), Darmstadt, 1982, səh. 133.

27. Müq. et. exemplarisch: Mesquita. Bueno De D. M.: the Sforza Prince and his State, in: Denley, Peter / Elam, Caroline (Nəşr.): Florence and İtaly. Renaissance Studies in Honour of Nicolai Rubinstein (westfield Publications in Medieval Studies, Vol. 2), London, 1988, səh. 161; Parel: Machiavellian Cosmos, səh. 9-13; Foucault: Gouvernementalität, səh. 50; Münkler: Machiavelli, səh. 266.

28. Hexter, Jack H: II Principe and lo stato, in: Studies in the Renaissance Vol. VI, New York, 1957, səh. 113-138.

29. Elə orada., səh. 135.

30. Diese Meinung wird von einigen anderen Autoren vertreten (Bu fikir bəzi başqa müəlliflər tərəfindən təqdim olunmuşdur); Müq. et. exemplarisch: Sternberger: „Principe“ und der Begriff des Politischen (Prinsip və siyasət məfhumu), səh. 41; Kersting: Machiavelli, səh. 102-104.

31. Hexter: II Principe and lo stato, (II Prinsip və lo stato) səh. 133.

32. Müq. et. Sternberger: “Principe” und der Begriff des Politischen, (Prinsip və Siyasət məfhumu), səh. 45.

33. Hexter: II Principe and lo stato, («Hökmdar» və lo stato), səh. 134.

34. Sternberger: “Principe” und der Begriff des Politischen, (“Hökmdar” və Siyasət məfhumu) səh. 45.

35. Maurizio Viroli findet vier unterschiedliche Bedeutungen des Wortes *lo stato* bei Machiavelli: als “national or political community”, als “political regime”, als “political power” oder als “power of a signore”; müq. et. Viroli: From Politics to the Reason of Stateç . səh. 129, Anm. 10.

36. Münkler, Herfried: İm Namen des Staates. Die Begrındung der Staatsrəson in der Frıheren Neuzeit, Frankfurt am Main, 1987, səh. 173.

37. Hauser, Susanne: Untersuchungen zum semantischen Feld der staatsbegriffe von der Zeit Dantes bis zu Machiavelli, Zürich, 1967, səh. 92.

38. Machiavelli: Principe, XII, səh. 72.

39. Elə orada., III, səh. 30.18.

40. Chiapelli, Fredi: Studi sul linguaggio del Machiavelli, Firenze 1952, səh. 59-68, sitat: Viroli: From Politics to the Reason of State, səh. 131, Anm. Viroli selbst war nicht mit der These einverstanden, dass Machiavelli den Begriff *lo stato* im modernen Sinne als ein "[...] power-structure, independent of those who have charge of it" gemeint hat.

41. Müq. et. Hauser: Untersuchungen zum semantischen Feld, səh. 83; eine ähnliche, aber abgeschwächte Meinung vertritt Harvey Mansfield; Harvey C. Jr.: On the Impersonality of the Modern State: A Comment on Machiavelli´s Use of Stato, in: Dunn, John / Harris, Ian (Nəşr.): Machiavelli, Bd. II, (erstmals erschienen in: American Political Science Review Vol. 77 (4. December 1983), səh. 849-857), Cheltenham / Lyme 1997, səh. 355-363.

42. Münkler: Machiavelli, səh. 330.

43. Müq. et. exemplarisch: Machiavelli: Discorsi, I, 9, səh. 36 f., I, 18 , səh. 64 f., I, 58, səh. 151 f., ders.: Principe, IX, səh. 61.

Kəzım АЗИМОВ
Hazim АЛИЕВ

СОЦИАЛЬНАЯ СУЩНОСТЬ ИДЕИ ГОСУДАРСТВЕННОСТИ У МАКИАВЕЛЛИ

Pezöme

B statğe otmeçaetsə, çto, pod vliəniem təjeloqo krizisa vo Florentiyskoy Pespublike politiçeskie idei Makiavelli bıli osnovanı na vnutrenney stabilğnosti qosudarstvennıx obcedineniy, vneşney gkspansii i ustoyçivosti. Iprioritet otdavalsə samozahite qosudarstva kak absolötnoy norme, kotoraə stavilasğ previşe druqix soüialğnıx norm obhestva i vo imə kotoroy mojno bılo otkazatğsə ot funküioniruhix v dannom obhestve moralğnıx norm. Gosudarstvo, politika, vlastğ - gti tri ponətiə sostavləli mir Makivavelli. Etot mir ne bıl prostranstvom dlə reliqioznıx diskussiy vokruq metafiziki ili teoloqii, teizma ili ateizma, determinizma ili svobodı voli. Eto bıl mir o sozdanii politiçeskix struktur, ix zahite i usilenii ix mohi.

Klöçevıe slova: Makiavelli, qosudarstvo, soüialğnaə suhnostğ qosudarstva.

Kazim AZIMOV
Nazim ALIYEV

SOCIAL ESSENCE OF MACHIAVELLI'S IDEA OF THE STATEHOOD

Summary

In the article it is noted that under the influence of severe crisis in the Florentine Republic Machiavelli, mostly grounded his political ideas on the internal stability of state associations, foreign expansion and sustainability. Priority was given to self-defense of the state as an absolute norm, what was higher that other social norms, and in the name of which it was possible to refuse from the moral functioning in the this society. State, politics, and power - these three concepts formed Machiavelli's world. This world was not a space for religious discussions around metaphysics or theology, theism or atheism, determinism or free will. It was the world that rather talked about creating political structures, their protecting from internal and external dangers and enhancing their power.

Keywords: Machiavelli's state, the social nature of the state.

UOT 327.8

Əbülfəzl BOZÇOLLOU
AMEA Şərqşünaslıq İnstitutunun dissertantı

İRANIN XARİCİ TİCARƏTİNDƏ ASEAN ÖLKƏLƏRİNİN YERİ (2001-2009)*

Problemin qoyuluşu. İran İslam Respublikasının 2005-ci ildən yeni və daha fəal mərhələyə qədəm qoymuş «Şərqə baxış» siyasətində ASEAN ölkələrinə xüsusi önəm verildiyi qeyd olunur. Xarici əlaqələrin mühüm tərkib hissəsinin, çox zaman bazası və əsas məqsədlərindən birinin xarici iqtisadi əlaqələr olduğunu nəzərə alsaq, deyə bilərik ki, İranın ASEAN ölkələri ilə iqtisadi münasibətləri daha çox ticarət əlaqələri ilə məhdudlaşdığından «Şərqə baxış» siyasətinin ASEAN istiqaməti mühüm iqtisadi baza yaratmaq səviyyəsinə çatmamışdır. İranın ASEAN ölkələri ilə istər ayrı-ayrılıqda, istərsə də bütövlükdə ticarət əlaqələri onun xarici ticarət əlaqələrində son dərəcə məhdud və cüzi yer tutur.

Giriş. ASEAN təşkilatı kəmiyyət, üzvlərin sayı və genişlənməyə qoyulmuş moratorium baxımından 1967-1999-cu illərdə formalaşmışdır. Etnik, siyasi sistem, dini mənsubiyyət və inkişaf səviyyəsi baxımından əsaslı şəkildə fərqlənən 10 ölkənin (İndoneziya, Tayland, Malayziya, Filippin, Sinqapur, Bruney, Vyetnam, Laos, Myanma və Kamboca) birləşdiyi ASEAN təşkilatı vahid iqtisadi məkanın yaradılması sahəsində xeyli işlər görmüş, yaxın və uzaq ölkələrlə iqtisadi, ticarət əlaqələrini genişləndirmək istiqamətində hərəkət edir. ASEAN böyük potensialı olan iqtisadi bazar rolunda çıxış etməkdən əlavə təşkilata daxil olan ayrı-ayrı ölkələrin vasitəsi ilə müasir texnika və texnologiya və kapital ixracı imkanlarına da malikdir. Başqa sözlə ASEAN təşkilatına üzv olan ölkələrin bir çoxu inkişaf etməkdə olan ölkələrlə tammiqyaslı iqtisadi əlaqələr bərqərar etmək potensialına malikdir. ASEAN ölkələrinin çoxu əlverişli enerji daşıyıcıları, xüsusən xam neft idxalçısı rolunda çıxış edir.

İran İslam Respublikası 1978-1979-cu illər İslam inqilabından əvvəl ASEAN ölkələrindən bəziləri ilə məhdud iqtisadi əlaqələrə malik olsa da, tərəflər arasında stabil və genişlənmək meyli göstərən iqtisadi əlaqələr inqilabdan sonra formalaşmağa başlamışdır.

İran İslam Respublikası ASEAN ölkələrinin potensial bazarı kimi. İranda İslam inqilabının qələbəsindən sonra yeridilməyə başlayan yeni regional və beynəlxalq siyasət ABŞ səfirliyinin əməkdaşları ilə birlikdə girov götürülməsinə (1979, 4 noyabr) və ABŞ-ın İrana qarşı iqtisadi sanksiyalar tətbiq etməsinə səbəb oldu (1979, 12 noyabr). Onun ardınca başlanan İran-İraq müharibəsi (1980-1988) İranın xarici iqtisadi əlaqələri qarşısında spesifik məqsədlər qoyulması ilə nəticələndi. Bütün bunlar xarici iqtisadi əlaqələrin miqyası, xarakteri? formalarına həlledici təsir göstərdi.

Müharibə illərində İranın xarici iqtisadi əlaqələri müharibənin ehtiyaclarının və əhalinin istehlak tələbatının ödənilməsinə yönəldiyindən həmin dövrdə iqtisadi əlaqələrin əsas və yeganə formasını iqtisadi-ticarət əlaqələri təşkil edirdi. Neft istehsal edən İran neft ixracından əldə etdiyi gəlirləri yuxarıda qeyd edilən ehtiyacların təmin olunmasına yönəltməyə məcbur idi. Həmin məqsədlə İran formalaşma mərhələsini yaşayan əvvəlcə cəmi beş, müharibənin sonuna kimi cəmi altı ölkəni birləşdirən ASEAN regional təşkilatı [1] ilə deyil, ona daxil olan bəzi ölkələrlə iqtisadi əlaqələr qurmağa təşəbbüs göstərmişdir. ASEAN ölkələri bir sıra siyasi mülahizələr səbəbindən İran İslam Respublikası ilə iqtisadi əlaqələr qurmağa meyil göstərmirdilər. Yalnız İran-İraq müharibəsi başa çatdıqdan, İran yeni, praqmatik xarici siyasət kursu həyata keçirməyə başladıqdan sonra ASEAN ölkələri İranla iqtisadi və əsasən iqtisadi-ticarət əlaqələri qurmaq və həmin əlaqələri genişləndirmək siyasəti yeritməyə başladılar. Müharibə illərində Taylandla iqtisadi-ticarət əlaqələri davam etmiş [2, s189] müharibənin sonlarına yaxın İndoneziya [3, s.176] Malayziya [4, s.285-286], Filippinlə [5] iqtisadi-ticarət əlaqələri qurulmağa başlamışdır. Həmin dövrə aid materialların azlığı iqtisadi-ticarət əlaqələrinin məhdudluğu ilə şərtlənirdi. ASEAN təşkilatının formalaşmasının birinci mərhələsinin 1999-cu ildə başa çatmasını, ASEAN ölkələri ilə İran arasında iqtisadi-ticarət əlaqələrinin 2002-2009-cu illərdəki vəziyyəti haqqında statistik məlumatları nəzərə almaqla və həmin dövrü ətraflı şəkildə nəzərdən keçirməklə məqalədə ticarət əlaqələrinin əsas cəhətlərini, dinamikası və problemlərini müəyyən etməyə cəhd göstərilmişdir. Əvvəlcədən qeyld edilməlidir ki, istifadə olunan statistik məlumatlarda ticarət dövriyyəsinin həcmi, (çəki) dəyəri və ticarət balansı öz əksini

---

* Məqalə tarix üzrə f.d. C.Qasımov tərəfindən çapa məsləhət bilinib.

tapmışdır. Biz ticarət dövriyyəsinin həcminə aid məlumatdan istifadə etməyərək digər mənbələr əsasında ticarətin strukturunu müəyyən etməyi daha vacib hesab edirik. Əsas məlumat kimi, İran İslam Respublikasının Ticarət Nazirliyinin Ticarətin inkişaf etdirilməsi təşkilatının 2002-2010-cu illərdə İranın dünya ölkələri ilə ticarət dövriyyəsi haqqında İnternet saytında yerləşdirdiyi statistik məlumatdan istifadə etmişik. Statistik məlumatlarda ASEAN-a daxil olan ölkələrə aid məlumatları bir yerə toplayaraq aşağıdakı cədvəli tərtib etdik.

Cədvəl 1.İran İslam Respublikası ilə ASEAN ölkələri arasında ticarət dövriyyəsinin həcmi (İranın ixracı və idxalı) 2001-2007-ci illər dollar

Ölkə / il	2001		2002		2003		2004		2005	2006	2007		
	İxrac	idxal	ixrac	idxal	ixrac	idxal	ixrac	idxal	ixrac	idxal	ixrac	idxal	ixrac
İndoneziya	42181195	91714314	58029952	10248870	68116520	12815294	86952295	18565797	90781572	14141089	63259761	17197232	20579844
Malayziya	15445983	16907060	8432763	16887547	8872412	24503833	18504772	28375579	27068865	31195115	36265923	35801095	31473059
Sinqapur	43575659	15854365	65734009	31788513	75301399	43752675	33864337	59881657	10966389	46241614	90974165	40123161	52021797
Tayland	43791310	10720934	38714783	12313722	71620076	23090246	33162463	35383618	23731	16182020	19348202	35965957	46033765
Filippin	2410611	6585484	6398519	6380849	4432136	2898 6391	5062769	12054534	10677280	30222051	15122639	98793661	47324550
Vyetnam	52698 19	476644	18392281	3627652	18024857	10905466	14352336	13160492	23399465	40398828	10540251 9	22228 57	81603540
Kamboca			3733		50451		94491		107875		1250684		575002
Bruney	157720		454656		1257669		826324		680016		743915		355256
Laos	79				796								
Myanma	54556		2971572	196795	3178683	179063	3542158		1431508		2253930		3594369

Həmin saytda ayrı-ayrı ölkələr haqqında verilən məlumatlardan istifadə edərək 2008-2009-cu ilə aid cədvəl tərtib etdik.

İndoneziya haqqında məlumatlarda İranla ticarət dövriyyəsi əks olunmadığından bizim cədvəldə həmin ölkə ilə bağlı boşluq yarandı.

Cədvəl 2. İran İslam Respublikası ilə ASEAN ölkələri arasında qeyri-neft ticarət dövriyyəsinin həcmi (İranın ixracı və idxalı) 2008-2009-ci illər mln.dollar

Ölkə / il	2008		2009	
	ixrac	idxal	ixrac	Idxal
İndoneziya	.			
Malayziya	178	405	68	398
Sinqapur	91	869	111	1.013
Tayland	112	201	59	152
Filippin	107	64	221	106
Vyetnam	83	48	129	7

.				
Kamboca	0,4	-	0,5	-
.				
Myanma				
.				
Bruney	0,5	-	1	-
.				
Laos				
0.				
Cəmi				

Biz birinci və ikinci cədvəllər əsasında İran ilə ASEAN ölkələrinin qeyri-neft ticarət dövriyyəsinin illər üzrə balansını əks etdirən cədvəl tərtib etdik.

Cədvəl 3. İran İslam Respublikası ilə ASEAN ölkələri arasında ticarət dövriyyələrinin balansı (neftsiz) 2001-2009-ci illər mln.dollar

2001	ixrac	Idxal	Balans
	287,5	380,5	- 93
2002	19,7,5	720	- 532,5
2003	189	1080	- 891
2004	196	1.444	- 1248
2005	504	1145	- 641
2006	332	1390	- 1058
2007	329,5	1814	- 1484,5
2008	471,9	1567	- 1095,1
2009	589,5	1676	1086,5
Cəmi	3075,9	11216,5	-8540,6

Həmin cədvəllərdə İranın ASEAN ölkələrinə ixrac etdiyi neftin dəyəri əks olunmadığından tərəflər arasında ticarət dövriyyəsinin ümumi vəziyyəti haqqında tam təsəvvür əldə etmək mümkün deyildir. İranın Filippin, Malayziya və İndoneziyaya neft ixrac etdiyi və həmin ixracın dəyəri haqqında tam olmayan statistik məlumatı da qeyd etməyi zəruri sayırıq. Həmin məlumatlar öyrənilən dövrün bütün illərini əhatə etməsə də ticarət dövriyyəsi haqqında müəyyən təsəvvür yaranmasına yardım edir.

Cədvəl 4. İran İslam Respublikasının ASEAN ölkələrinə neft ixracının həcmi

mln.dollar

Ölkə / İl	2000	2001	2002	2003	2004	2005	2006	2007
İndoneziya	1 17	1 40	1 5	2 30				
Filippin	2 26	7 54	3 60	2 71	3 44	9 95	8 34	3 14
Malayziya			5 5	7 3	2 35	2 90	4 92	

İranın ASEAN ölkələrinə neft ixracı haqqında tam olmayan məlumatı [7] nəzərə aldıqda tərəflər arasında ticarət dövriyyəsi haqqında müəyyən təsəvvür əldə etmək olar. Cədvəldən göründüyü kimi, hər üç ölkəyə neft ixracı haqqında yalnız 2002, 2003-cü illərə aid məlumat vardır.

Cədvəl 5. İran İslam Respublikası ilə ASEAN ölkələrinin ticarət dövriyyəsi (neftlə birlikdə) 2001-2009-ci illər mln.dollar

İl	ixrac	Idxal	balans
2001	1181,5	380,5	+8010
2002	827,5	720	+107,5
2003	763	1080	- 217
2004	775	1444	- 669
2005	1789	1145	+644
2006	1658	1390	+268
2007	643	1814	-1171
2008	471,9	1567	- 1095,1

2009	589,5	1676	- 1086
Cəmi	8217,9	11216,5	- 29986

Cədvəldən (3) göründüyü kimi, İranın ASEAN ölkələri ilə ticarətində 2001, 2002, 2005 və 2006-cı illərdə müsbət, digər illərdə və bütövlükdə mənfi saldosu olmuşdur.

Ayrı-ayrı ölkələrə gəldikdə, cədvəl 1-dən göründüyü kimi, İran ASEAN-ın aparıcı, ixracyönümlü iqtisadiyyata malik olan ölkələri (İndoneziya, Malayziya, Sinqapur, Tayland, qismən Filippin) ilə qeyri-neft ticarətində mənfi, digər ölkələrlə ticarətdə isə nisbi müsbət (Vyetnam) və mütləq müsbət saldoya malik olmuşdur.

İranın neft ixrac etdiyi ölkələrlə ümumi ticarət dövriyyəsinin vəziyyəti haqqında təsəvvür əldə etmək üçün həmin ölkələrlə ticarətə aid statistik məlumatlara nəzər yetirmək lazımdır.

Cədvəl 6. İran - İndoneziya ticarət dövriyyəsi 2001-2003-ci illər mln.dollar

İxrac	2001	2002	2003
	(42+140) 182	(58+15)73	(68+230)
İdxal	92	102	128
Dövriyyə	274	175	426
Saldo	+90	- 29	+170

Cədvəl 6[a] İran İslam Respublikası ilə Filippin Respublikasının ticarət dövriyyəsi 2001-2007-ci illər mln.dollar

İllər / tic	2001	2002	2003	2004	2005	2006	2007
İxrac	(2+754) 756	(6+360) 366	(4+271) 275	(5+344) 345	(10+995) 1005	(15+834) 849	(47+314) 361
İdxal	6	6	28	12	30	98	56
Dövriyyə	762	372	303	357	1035	947	417
Balans	+750	+360	+247	+333	+975	+751	+305

Cədvəl 6[b] İran İslam Respublikası ilə Malayziya Sultanlığı arasında ticarət dövriyyəsi 2002-2006-ci illər mln.dollar

ticarət / illər	2002	2003	2004	2005	2006
İxrac	(8,4+55) 63,4	(9+73) 82	(18+236) 254	(20+290) 310	(231+492) 723
İdxal	195	270	300	325	368
Dövriyyə	258,4	352	554	635	1091
Balans	-131,6	-188	-46	-15	+355

Cədvəllərdə (6, 6[a], 6[b]) İranın neft ixracı haqqında məlumatlar bütün illəri əhatə etmir. Bu da onunla bağlıdır ki, İndoneziya, 2004-cü il də daxil olmaqla, İrandan sonralar neft idxal etməmişdir, Malayziya isə çox güman ki, (dəqiq məlum olmasa da) 2002-ci ildən neft idxal etməyə başlamışdır. Əsas neft idxalçısı olan Filippinlə bağlı çatışmamazlıq statistik məlumatın əldə edilməsinin çətinliyi ilə bağlıdır. Cədvəllərdən göründüyü kimi demək olar ki, neft istehsal etməyən Filippinlə ümumi ticarət dövriyyəsi İranın bir neçə dəfə üstünlüyü ilə xarakterizə olunur. Malayziya ilə ticarətdə isə, hətta neft ixracı belə 2006-cı il istisna olmaqla saldonun İranın xeyrinə olmasını təmin etməmişdir. İndoneziya ilə ticarətdə isə neft ixracının həcminin artması zamanı müsbət saldoya malik olmuşdur. Bu deyilənlər İranın xarici ticarətinin əsasən neftdən asılı olduğunu bir daha göstərir.

Nəhayət, İranın xarici qeyri-neft ticarətində ASEAN ölkələrinin yerini əks etdirən cədvəli nəzərə çatdırırıq.

Cədvəl 7. 2001-2007-ci illərdə İran İslam Respublikasının qeyri-neft ixracında ASEAN-ın yeri mln.dollar

Şərh / İl	2001	2002	2003	2004	2005	2006	2007
Dünya	4200	4600	5900	7600	11000	16300	21000
ASEAN	153	201	185	197	286	333	467
ASEAN-ın	3,6	3,4	3,1	2,6	2,7	2	2,2

payı-%							

Cədvəllə bağlı bir məsələni qeyd etmək zəruridir. Belə ki, həmin [9] cədvəldə İranın qeyri-neft ixracı haqqında yekun rəqəmlər İranın dünya ölkələri ilə qeyri-neft ticarəti haqqında illər üzrə verilmiş məlumatın [7] yekun hissəsi ilə bir sıra illərdə uyğun gəlmir.

Bunu aşağıdakı cədvəldə nümayiş etdiririk.

Birinci rəqəmlər cədvəl 7-dən, ikinci rəqəmlər isə İranın dünya ölkələri ilə ticarəti haqqında statistik məlumatlardan götürülüb. Birinci cədvəldə dəyər mln.dollarla verildiyindən ikinci mənbədəki məlumatı da mln-a qədər yuvarlaşdırmaq lazım gəldi.

il / mənbə	2001	2002	2003	2004	2005	2006	2007
Cədvəl 7	4200	4600	5900	7600	11000	16300	21000
Dünya ölkələri ilə ticarət	4200 (4203)	4600 (4584)	5900 (5936)	6800 (6817)	1000 (10439)	13000 (12927)	15000 (15266)

Cədvəldən göründüyü kimi, birinci sırada 2004-2007-ci illərdə daha böyük rəqəmlər göstərilmişdir. Bunun səbəbi aydın olmasa da, güman etmək olar ki, fərq iki mənbədən yarana bilər: qeyri-neft ixracının sürətlə artdığını vurğulamaq meylindən, ya da bunu əsaslı göstərmək üçün neft məhsullarını da statistik məlumatlara daxil etməkdən.

Cədvəldən göründüyü kimi, İranın xarici ticarətində (q/neft) ASEAN-ın payı çox az olmuş və 2003-cü ildən sonra daha da azalma meyli müşahidə olunmuşdur. Lakin 2008, xüsusən 2009-cu illərə aid məlumatlarda İranın ASEAN ölkələrinə qeyri-neft ixracının artaraq 1 mln. dolları keçməsi qeyd olunmuşdur [10]. Həmin illərdə İranın qeyri-neft ixracının 20-23 mld. [11] civarında dəyişdiyini nəzərə alsaq, onda ASEAN-ın payının 4-5%-ə çatdığını demək olar.

İranın ticarət dövriyyəsinin strukturu haqqında təsəvvür əldə etmək üçün biz ASEAN-ın əsas 6 ölkəsinə İranın və həmin ölkələrin İrana ixrac etdiyi üç əsas məhsul əsasında aşağıdakı cədvəli tərtib etdik.

Cədvəl 8. 2009-cu ildə İranın ASEAN ölkələrinə ixrac və idxal etdiyi əsas əmtəələr

№	Ölkələr	İxrac	İdxal
1.	İndoneziya	Asfalt (bitium), faydalı qazıntılar, tikinti materialları	Kauçuk, rezin məmulatlar, polad məmulatlar
2.	Malayziya	Neft, neft məhsulları, kimya maddələri	Palma yağı, kauçuk, iplik
3.	Sinqapur	Digər neft qazları və maye halına salınmış qazlar, qeyri-həlqəvi hidrokarbonlar, toxuculuq toru	Yüngül yağlar Benzin Palma yağı
4.	Tayland	Etilen Metanol Sidik cövhəri	Maye kristall plastin, DVB, sintetik örtük
5.	Filippin (2007)	Neft, etilen, kükürd xəmiri, maye butan	Banan, təmizlənmiş kokos yağı, kokos yağı xammalı
6.	Vyetnam	Təzə və quru püstə, aliminium, polietilen	Polivinilxlorid lövhələr, siqaret kağızı, sintetik örtük

Daha sonra bizim istifadə etdiyimiz mənbələrdə [7] verilən məlumatlar əsasında İranın və həmin ölkələrin əsas ixrac və idxal mallarını müqayisə edərək tərəflərin ticarət əlaqələrinin xarakterini müəyyən etməyə çalışdıq. Bizim fikrimizcə, İranın əsas ixrac malları həmin ölkələrin əsas idxal malları ilə üst-üstə düşürsə, deməli həmin ölkə İranın həmin məhsulunun əsas bazarı olmaq potensialına malikdir. ASEAN ölkələrinin əsas ixrac malları İranın əsas idxalı malları ilə üst-üstə düşürsə, deməli, İran həmin məhsul bazarı potensialına malikdir. Bizim istifadə etdiyimiz mənbədə [7] ölkələrin əsas ixrac və idxal mallarının siyahısı verilmişdir. Bunların əsasında həmin uyğunluğu müəyyən etmək mümkündür. İranın İndoneziyaya ixrac etdiyi üç məhsuldan yalnız biri - bitium İndoneziyanın əsas idxal malları sırasınla yer almışdır. Digər ölkələrlə bağlı eyni məlumatı qısa şəkildə olsa da qeyd etməyi zəruri hesab edirik. Malayziya – 2 (neft və neft məhsulları), Tayland – 1 (maye qazları), Filippin – 2 (neft, maye butan), Sinqapur – 0, Vyetnam – 0. Deməli, 4 ölkə İranın stabil ticarət tərəfdaşı olmaq potensialına malikdir. Vəziyyətə tam aydınlıq gətirmək üçün İranın həmin ölkələrdən idxal etdiyi məhsulların onların əsas ixrac etdiyi əmtəələr sırasında olub-olmadığını aydınlaşdırmaq lazımdır. Araşdırma göstərdi ki, İranın idxal etdiyi məhsullardan kauçuk

(İndoneziya), palma yağı (Malayziya), benzin (Sinqapur) həmin ölkələrin əsas ixrac malları siyahısında qərar tutur. İranın Tayland, Filippin, Vyetnamdan idxal etdiyi məhsullar həmin ölkələrin əsas ixrac malları siyahısında qeyd olunmur. Deməli, İran İndoneziya və Malayziya üçün həm ixrac mənbəyi, həm də bazar rolunda çıxış edir. Başqa sözlə, İranın həmin iki ölkə ilə stabil qarşılıqlı iqtisadi-ticarət əlaqələrinə malik olmaq imkanı vardır. Yuxarıda qeyd edildiyi kimi, Tayland və Filippin də İranın bazarı rolunda çıxış etdiyi halda, İran Sinqapur üçün bazar rolunda çıxış edir. Onu da əlavə etmək lazımdır ki, İran Taylandın düyü, Filippinin banan bazarı rolunda çıxış etsə də həmin məhsullar bu ölkələrin əsas ixrac malları sırasında yer almamışdır. Artıq qeyd edildiyi kimi, ASEAN-ın az inkişaf etmiş ölkələri - Vyetnam, Myanma, Kamboca və inkişaf etmiş Bruney ölkəsi əsasən bazar rolunda çıxış edirlər, hərçənd İranın həmin ölkələrə ixrac etdiyi məhsullar dəyər baxımından İranın ticarət dövriyyəsində cüzi yer tutur.

Tədqiqatın elmi əhəmiyyəti və perspektivləri. İran ilə ASEAN ölkələri arasında ticarət əlaqələri XX əsrin 80-ci illərinin sonlarından formalaşmağa başlamış, tədricən çox aşağı templə də olsa, artaraq genişlənmişdir. Ticarət dövriyyəsində baş verən əsas dəyişiklik İranın ASEAN-ın aparıcı ölkələri ilə qeyri-neft sahəsində ticarət kəsirinin getdikcə azalma meyli göstərməsidir. Tədqiqatın göstərdiyi kimi, hələlik neftdən asılı olmayaraq ticarət dövriyyəsi bütövlükdə ASEAN ölkələrinin xeyrinədir, yəni İran daha çox bazar rolunda çıxış edir. İranın qeyri-neft ixracının artım meyli göstərir ki, son dərəcə geniş potensiala malik olan (600 mln. əhali, 3 trl. UDM, 780 mld. İdxal, 1,5 trl. dollar ticarət dövriyyəsi) ASEAN İran üçün ən cəlbedici bazardır. Həmin bazarda möhkəmlənmək üçün qeyri-neft istehsalı artırılmalı, xarici ticarət şəraiti yaxşılaşdırılmalıdır.

Açar sözlər: İranın xarici ticarəti, ASEAN-ın xarici ticarəti, ticarət dövriyyəsi, ticarət balansı.

İstifadə olunmuş ədəbiyyat

1. ASEAN // www.asean sec.org
2. Tayland [be sefareş-e] Dəftər-e motaleat-e siyasi və beynəlmiləli. Tehran, Vəzarət-e omur-e xarece, mərkəz-e çap və enteşarat, 1387, şeş, 211 s.
3. Müzəffəri, Məhəmməd Rza, Endonezi, Tehran, Vəzarət-e omur-e xarece. Moəssese-ye çap və enteşarat, 1373, pənc, 171 s. Cədvəl.
4. Məsaeli, Mahmud, Malezi, Tehran, Vəzarət-e omur-e xarece, Dəftər-e motaleat-e siyasi və beynəlmeləli, 1373, şeş, 298 s. Nəqşe.
5. Filippin Rəvabet-e eqtesadi // www.aftabir.com
6. Sazman-e tousee-e tecarət-e İran Təraz-e tecari-ye Comhuri-ye eslami-ye İran be təfkik-e keşvərha, teyy-e salha-ye 1380-1386 (2001-2007). Dəftər-e bərnameriyi-ye tecari-ye qoruh-e amar, aban 1387/www.fa.tpo.ir
7. Sazman-e tousee-e tecart-e İran Qozareşha-ye motaleatı Gozareşha-ye keçvəri: Malezi, Sinqapur, Tayland, Filippin, Kamboca, Bruney /www.fa.tpo.ir
8. Sazman-e tousee-e tecarət-e İran Bazarşenasi-ye Malezi Təhiyye konənde Rza Abbasqu-lu/www.fa.tpo.ir

Abulğfeyzl БОЗЧОЛЛОУ

MESTO STRAN ACEAH VO VNEŞNEY TORQOVLE ИRANA

Pezöme

Torqovıe otnoşeniə Иrana so stranami – çlenami ACEAH, kotorıe bıli ustanovlenı do islamskoy revolöüii v strane, bıli prervanı v rezulğtate pobedı gtoy revolöüii. Иzbrav novıy vneşne-politiçeskiy kurs, Иslamskaə Pespublika Иran stala vnovğ nalajivatğ politiçeskie i gkonomiçeskie svəzi so stranami – çlenami ACEAH. Hesmotrə na usiliə Иrana, torqovıe otnoşeniə s gtimi stranami naçali formirovatğsə k konüu irano-irakskoy voynı (1980-1988).

B statğe na osnove statistiçeskix materialov issleduetsə mesto stran ACEAH vo vneşney torqovle Иrana.

Kləçevıe slova: Bneşnəə torqovlə Иrana, vneşnəə torqovlə ACEAH, torqovıy oborot, torqovıy balans.

Abulfeyzl BOZCHOLLOU

THE PLACE OF THE ASEAN COUNTRIES IN FOREIGN TRADE OF IRAN

Summary

Trading relations with the countries members of ASEAN which were establiched before Islamic revolution in Iran, be come interrupted by a victory of this revolution. Islamic Republic Iran having selected new outwardly-political cousse started to establish the political and economic relations with the countries-members of ASEAN. Despite the efforts of Iran, the trade relations with these countries begau to be formed by the end of the Iran-Iraq war (1980-1988). In article the place of the ASEAN countries in foreign trade of Iran is investigated on the basis of the statistical material.

Keywords: Foreign trade of Iran, foreign trade of ASEAN, trade turnover, trade balance.

UOT 327.7

Mahir İBRAHİMOV
AMEA Tarix İnstitutunun dissertantı

AZƏRBAYCANIN XƏZƏRYANI ÖLKƏLƏRLƏ ELMİ-MƏDƏNİ ƏLAQƏLƏRİNDƏ HEYDƏR ƏLİYEV ŞƏXSİYYƏTİNİN ROLU*

XX əsrdə fəlsəfənin ən kəskin tənqidçilərindən biri olan Avstriya filosofu Lüdviq Vitginşteyn (1889-1951) yazırdı: «Mədəniyyət-nəhəng bir dəyərlər sistemi olub hər kəsə özünün hara mənsub olduğunu göstərir» (4, s.96). Bu sözlər tədqiq etdiyimiz mövzunun açıqlanması üçün bir açar rolunu oynaya bilər. Həqiqətən də mədəniyyətlərin və sivilzasiyaların dialoqu, onların bugünkü qlobal siyasi proseslərə təsir aspektləri hazırki ictimai elmlərin diqqət mərkəzində dayanan məsələlərdəndir.

Məhz ötən əsrin 60-cı illərindən Fransada meydana çıxan mədəniyyət siyasəti qısa zaman kəsiyində bütün ölkələrin mədəni həyatının tərkib hissəsinə çevrildi (5, s.104).

Soyuq müharibənin başa çatması və dünya sosializm sisteminin dağılması keçmiş sovet respublikalarının müstəqil dövlətlər kimi beynəlxalq arenaya çıxması və öz xarici siyasət prioritetlərini özləri təyin etməsi, bütün bunlar mədəniyyət sahəsində beynəlxalq münasibətlərin yeni formada qurulmasına birbaşa təsir göstərdi. Yaranmış yeni əlverişli şərait eyni kökdən olan müştərək mədəniyyəti və incəsənətinin vahid təşkilatının yaranmasına səbəb oldu. Həmin təşkilat bu gün də uğurla fəaliyyət göstərən beynəlxalq TÜRKSOY təşkilatıdır.

Azərbaycan Respublikası TÜRKSOY-un yaradılmasında olduğu kimi, onun sonrakı fəaliyyətində də aparıcı dövlətlərdən biri olmuşdur. Ölkə rəhbərliyi bu təşkilatın türk xalqlarının mədəniyyət və incəsənətinin inkişafında və təbliğ olunmasında rolunu daim yüksək qiymətləndirərək onun fəaliyyətini genişləndirmək üçün demək olar ki, mümkün olan hər işi görmüşdür. Təşkilatın işi daim Azərbaycanın ümummilli lideri Heydər Əliyevin diqqət mərkəzində olmuşdur. O, 1996-cı il noyabrın 6-da türk dünyası yazıçılarının Bakıda keçirilən III qurultayında bu barədə belə demişdir: «Biz çalışmalıyıq ki, ölkələrimiz, xalqlarımız arasında olan əlaqələr bundan sonra bütün sahələrdə sürətlə inkişaf etsin. Dövlət tərəfindən biz bunu edirik və türkdilli dövlətlərin başçılarının görüşləri də buna çox böyük imkan verir. Dövlət başçılarının ikitərəfli görüşləri də buna çox böyük imkanlar verir, dövlətlərimiz, ölkələrimiz arasında imzalanmış sazişlər və sürətlə inkişaf edən iqtisadi əlaqələr bunların hamısına imkan yaradır. Əmin ola bilərsiniz ki, Azərbaycan hökuməti bu sahədə əlindən gələni əsirgəməyəcəkdir» [1, .s.11-12].

1996-cı il noyabrın 6-7-də Bakıda Türk xalqlarının birliyi, ədəbi-mədəni əlaqələri ilə bağlı üç mühüm tədbirin (TÜRKSOY-un VIII toplantısı, türk dünyası yazıçılarının III qurultayı və Məhəmməd Füzulinin 500 illik yubileyinin tədbirləri) keçirilməsi artıq onu sübut edirdi ki, Azərbaycan türk dünyasının liderlərindən birinə çevrilməkdədir.

TÜRKSOY-un beynəlxalq təşkilat kimi nüfuzunun getdikcə artdığını belə bir faktdan da görmək olar ki, onun VIII toplantısının işində türk dövlətlərindən başqa Rusiya Federasiyası və Gürcüstan nümayəndə heyətləri də iştirak etmişlər. Rusiya Mədəniyyət Nazirinin müavini Konstantin Şerbakovun toplantıdakı çıxışında Rusiya Federasiyasında yaşayan türkdilli xalqların sayının 12 milyon nəfər olduğu göstərilir və bildirilirdi ki, Rusiya Federasiyasında slavyandilli xalqlardan sonra ikinci yerdə türkdilli xalqlar durur və onların arasında ədəbi-mədəni əlaqələrin möhkəmləndirilməsinə böyük əhəmiyyət verilir.

Həmin ərəfədə ümummilli liderimiz Heydər Əliyevin çıxışındakı bəzi məqamları xatırlamaq yerinə düşərdi: «Təsəvvür edin, biz türkdilli dövlətlər birlikdə «Manas»ın 1000 illiyini qeyd etdik, böyük qazax şairi, filosofu Abayın 150 illiyini qeyd etdik. Özbəkistanın böyük dövlət xadimi, bütün türk dünyasının böyük şəxsiyyəti Əmir Teymurun 660 illiyini qeyd etdik. Bu günlərdə biz böyük Azərbaycan şairi, eyni zamanda bütün türk dünyasına mənsub olan Məhəmməd Füzulinin 500 illiyini bir yerdə qeyd edəcəyik… indi isə, türkdilli xalqların müstəqil dövlətləri olduğuna görə və bizim əlimizdə böyük imkanlar yarandığına görə bu prosesləri daha da gücləndirə, daha da mütəşəkkil edə bilərik. Bu bizim vəzifəmizdir, borcumuzdur….» [2, s.10]. Qeyd edək ki, Məhəmməd Füzulinin yubileyi təkcə Azərbaycanda deyil, həm də Türkiyədə-Ankrada, Rusiyada-Moskvada, İraqda-Bağdadda, Kərbəlada, Kərkükdə, İranda-Tehranda, Gürcüstanda, Qazaxıstanda, Özbəkistanda, Dağıstanda, Dərbənddə, Mahaçqalada, Parisdə YUNESKO-nun

* Məqalə fəl.e.d., prof. Ə.Tağıyev tərəfindən çapa məsləhət bilinib.

baş qərargahında keçirilmiş, bütün dünyada Azərbaycanın şöhrətini daha yüksəklərə qaldırmış, türk xalqlarının əlaqələrinin gücləndirilməsi işinə layiqli xidmət göstərmişdi.

Ulu öndər, TÜRKSOY-un fəaliyyətinin necə böyük əhəmiyyət daşıdığını 2000-ci ilin aprelində Bakıda keçirilmiş «Kitabi-Dədə Qorqud»un 1300 illik yubileyini konkret misal kimi göstərmiş və demişdir ki, «Kitabi-Dədə Qorqudun yubileyi keçirilən günlərdə Azərbaycana təkcə türkdilli dövlətlərdən deyil, bir çox ölkələrdən, o cümlədən Avropa ölkələrindən nümayəndə heyətləri gəlmişdi. Biz «Kitabi-Dədə Qorqud» haqqında o bir il içərisində öyrəndiyimizin heç on faizini də bilmirdik. Amma indi «Kitabi-Dədə Qorqud» hamı üçün ulu babadır. Birisi «Dədəm Qorqud» deyir, o biri «Ata Qorqud» deyir, digəri «Dədə Qorqud» deyir» [6]. Bu konkret nümunə bir daha onu göstərir ki, türkdilli xalqların ədəbiyyatını, musiqisini, tarixi köklərinin eyniliyini, yaxud oxşarlığını sübut edən əsərlərin təbliği nə qədər vacib və böyük əhəmiyyətə malikdir. Təbiidir ki, belə mötəbər tədbirlər digər türk respublikalarında da həyata keçirilir və bunlar hamısı birlikdə türk dünyasının zəngin mənəvi sərvətlərinin dünyada tanınmasında çox böyük rol oynayır.

Bir qədər də İran-Azərbaycan mədəni əlaqələrinə toxunmaq istərdim. Bu mədəniyyətlər daim bir-biri ilə qırılmaz tellərlə bağlı olmuş, tarixi, mədəni və dini kökləri çox qədimlərə qədər uzanır.

1994-cü il iyunun 29-dan iyulun 2-dək Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin İran Islam Respublikasına rəsmi səfəri iki ölkə arasında mədəni əlaqələrin inkişafında yeni bir mərhələnin başlanğıcı oldu. Danışıqlar zamanı prezident Heydər Əliyev Azərbaycanla İran arsındakı münasibətlərin xüsusi xarakter daşıdığını göstərmişdi. O demişdi: «Məni bu səfərdə Azərbaycanın görkəmli simaları, alimləri, yazıçıları, siyasətlə məşğul olan şəxslər müşayiət edirlər. Onlar Azərbaycanın tarixi, qədim ədəbiyyatı ilə məşğul olan, böyük əsərlər yazmış adamlardır. Elmi işlə, yaradıcılıq işləri ilə məşğul olan şəxslər həmişə Azərbaycanla İran arasında, xalqlarımız arsında dostluq, qardaşlıq əlaqələrini və tarixi köklərimizin birliyini təhlil edərək öz əsərlərində əks etdirmişlər. Belə hesab edirəm ki, onlar həmin sahədəki fəaliyyətlərini bundan sonra da davam etdirəcəklər. Əgər keçmişdə onlar çox böyük maneələr kəçərək elmi tədqiqat işləri aparmışlarsa indi İranın qapıları Azərbaycan üçün, Azərbaycanın qapıları isə İranın alimləri, şairləri, yazıçıları, tədqiqatçıları, diplomatları üçün açıqdır. Hər iki tərəf bu imkanlardan istifadə edib xalqlarımızın bir-birinə yaxınlaşmasına səy göstərməlidir. Mən əminəm ki, Azərbaycan tərəfindən belə səylər göstəriləcəkdir» [3, s.6].

Praqrmatik siyasətçi kimi tanınan Rusiya Federasiyasının sabiq prezidenti Vladimir Putinin 2000-ci ildə hakimiyyətə gəlişindən sonra Rusiya-Azərbaycan münasibətləri elmi-mədəni əlaqələr sahəsində tamamilə yeni müstəviyə qədəm qoymuş, psixoloji-siyasi gərginliyin tədricən aradan qalxması bu sahədə əməkdaşlıq üçün real imkanlar açmışdır.

2001-ci ilin yanvarında Vladimir Putinin Azərbaycana ilk rəsmi səfəri və ulu öndər Heydər Əliyevlə görüşləri münasibətlərin keyfiyyətcə yeni mərhələdə inkişafına əsaslı təkan vermişdir. Dövəlt başçılarının birgə bəyanatında iki ölkə xalqlarının hərtərəfli şəkildə daha da yaxınlaşmasının, mədəniyyət, elm, təhsil, informasiya, turizm və digər sahələrdə əməkdaşlığın genişləndirilməsinin, habelə Azərbaycan və Rusiya xalqları arasında ənənvi dostluq və etimad tellərinin möhkəmlənməsi üçün bütün istiqamətlərdə mübadilələrin zəruriliyini qeyd etmişlər. Məhz bu səfərdən sonra Rusiyanın təhsil naziri Vladimir Filippovun Azərbaycana səfəri və burada aparılan danışıqlar ölkələr arasında elm və təhsil sahəsində əlaqələrin genişlənməsinə təkan vermişdir.

Azərbaycanla Rusiya arasında təhsil sahəsində əməkdaşlıq hələ ötən əsrin 90-cı illərinin ortalarından başlamışdır. Ulu öndər Heydər Əliyev keçmiş SSRİ dövründə əsasını qoyduğu mütərəqqi ənənənin keyfiyyətcə yeni mərhələdə davamı kimi azərbaycanlı gənclərin təhsil almaq üçün Rusiyanın nüfuzlu ali təhsil müəssisələrinə göndərilməsini təmin etmək məqsədilə bu ölkənin rəhbərliyi ilə danışıqların aparılmasına nail olmuşdu. 13 iyun 1997-ci il tarixdə imzalanmış «Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında ticarət-iqtisadiyyat, elmi-texniki və mədəni sahələrdə əməkdaşlıq haqqında» sazişə əsasən gənclərimiz keçmiş SSRİ-nin süqutundan sonra ilk dəfə Moskva şəhərindəki nüfuzlu universitetlərdə təhsil almaq imkanı qazanmışlar. Bundan sonra hər iki ölkənin təhsil nazirlikləri ali təhsil sahəsində əməkdaşlıq və mübadilələr haqqında protokola imza atmışlar. Həmin protokola əsasən Rusiya tərəfi hər il Azərbaycana bu ölkənin ali məktəblərində təhsil almaq üçün müəyyən olunmuş sayda yer ayırır.

Rusiya Federasiyası son 10 ildə Türkiyədən sonra Azərbaycan vətəndaşlarının istər dövlət, istərsə də qeyri-dövlət xətti ilə ən çox təhsil aldığı ölkədir.

Beləliklə istər TÜRKSOY və MDB daxilində, istərsə də iki və çoxtərəfli münasibətlər çərçivəsində Xəzər regionu ölkələri arasında mədəniyyət və incəsənət sahəsində əlaqələrin inkişaf etdirilməsi və

möhkəmləndirilməsi, bu məqsədlə müxtəlif proqram və layihələrin birgə həyata keçirilməsi, region ölkələrinin ümumi mənəvi dəyərlərinin, tarixi irsinin, mədəniyyət və incəsənət əsərlərinin, ənənəvi idman və xalq oyunları növlərinin inkişafı və təbliği, teatr, musiqi, opera və balet sənəti sahəsində festival və müsabiqələrin təşkili, sərgilərin, vernisajların və region ölkələrinin təsviri və plastik sənətinin inkişafına yönəldilən digər tədbirlərin təşkili, mədəniyyət, incəsənət, təhsil, elm sahələrində beynəlxalq və milli təşkilatlarla, ictimai strukturlar və hərəkatlarla qarşılıqlı əlaqə yaradılması nəinki Xəzər regionu xalqlarının, eləcə də Mərkəzi Asiya, Qafqaz regionunda yaşayan xalqların daha da bir-birinə yaxınlaşmasına və bununla də Xəzərin ağrılı probleminin çözülməsində beynəlxalq əmkdaşlığa yeni imkanlar yaradacaqdır.

Açar sözlər: Xəzər, siyasət, Türksoy, ölkə, mədəniyyət.

İstifadə olunmuş ədəbiyyat

1. Əliyev H. Müstəqilliyimiz əbədidir. (səkkizinci kitab, noyabr, 1996-mart,1997) Azərnəşr, Bakı, 1998.
2. Səfərli Ə, Əlibəyli N. Tarixin dörd günü. Tehran, 1994.
3. Sosial-siyasi problemlər. AMEA Fəlsəfə, Sosiologiya, Hüquq İnstitutu. № 1(18), 2008.
4. www.elibrar.az / docs / xronologiya. Pdf.

Maxir ИБРАГИМОВ

ROLĞ QEYDARA ALIEVA V USTANOVLENII NAUÇNIX I KULĞTURNIX SVƏZEY AZERBAYDJANA SO STRANAMI KASPIYSKOQO REQIONA

Pezöme

B dannoy statğe qovoritsə o nauçnıx i kulğturnıx otnoşeniəx, əvləöhixsə sostavnoy çastğö üelenapravlenoy politiki obhenaüionalğnoqo lidera Г.Alieva so stranami prikaspiyskoqo reqiona. Ha os-nove nauçno obosnovannıx faktov bıla pdtverjdena polojitelğnaə rolğ dannoy politiki v reşenii problemı statusa Kaspiyskoqo morə. Bıli sdelanı obosnovannıe vıvodı.

Klöçevıe slova: Kaspiy, politika, Törksoy, strana, kulğtura.

Mahir IBRAHIMOV

THE ROLE OF HEYDAR ALIYEV IN ESTABLISHING SCIENTIFIC AND CULTURAL RELATIONS OF AZERBAIJAN WITH THE LITTORAL COUNTRIES OF THE CASPIAN SEA

Summary

In the present article it is stated on the scientific and cultural relations between the countries of Cas-pia region as a part of purposeful policy of the national leader H.Aliyev. On the the basis of scientifically grounded facts there was confirmed a positive role of this policy in solving the problem of the Caspian sea status. There have been drawn scientifically substantiated conclusions.

Key words: the caspian, policy, Turksoy, country, culture.

UOT 327.7

Könül BƏŞİROVA
BDU-nun dissertantı

AZƏRBAYCAN-TÜRKİYƏ ƏMƏKDAŞLIĞI BEYNƏLXALQ SİYASİ PROSESLƏRİN TƏRKİB HİSSƏSİ KİMİ*

Qeyd edilməlidir ki, Azərbaycan-Türkiyə münasibətlərinin tarixi, onun yaranma, inkişaf etmə zərurəti çox ziddiyyətli, çətin tarixi siyasi proseslərin fonunda cərəyan etmişdir. Geosiyasi maraqlar sistemində münasibətlər tarixi bəzən iki xalqı qarşı-qarşıya qoymuş, qanlı müharibələr törətmiş, bəzən isə onları vahid mövqedə birləşdirmişdir. Orta əsrlərdən bəri hadisələrin belə inkişaf dinamikası, beynəlxalq aləmdə müasir siyasi vəziyyətin düzgün qiymətləndirilməsi münasibətlərdə milli maraqlardan düzgün nəticə çıxarılması ilə təmin olunması baxımından çox böyük vəzifələri şərtləndirir.

XX əsrin əvvəllərində Türkiyə Respublika elan edildikdən sonra hər iki ölkə arasında münasibətləri nizama salmaq və onu genişləndirmək üçün tarixi şərait yarandı. Lakin bu münasibətləri yaxşılaşdırmaq üçün bir çox maneələri aradan qaldırmaq lazım idi. İki ölkə arasında yeni münasibətlərin yaranmasında yeni Türkiyə Respublikasının rolu həlledici olmuşdur. Ankara hökuməti bütün qonşu dövlətlərlə dostcasına münasibətlər yaratmaq təşəbbüsündə olmuşdur. Lakin milli-azadlıq mübarizəsinin ilk illərində Ankara hökuməti ilə yanaşı, İstanbul hökumətinin mövcud olması bu münasibətləri qaydaya salmağa mane olurdu.

Beləliklə, həmin vaxt Türkiyə-İran münasibətlərinin gərgin olaraq qalmasının səbəbi də Cənubi Azərbaycan məsələsi idi. 1920-ci ildə İran öz iddialarında təkid etdiyi zaman türk qoşunları Cənubi Azərbaycana daxil olmuşdu. Bu hadisə iki ölkə arasında münasibətlərin yenidən gərginləşməsinə səbəb oldu. İranın hakim dairələri bu hadisədən fitnəkarlıq məqsədi ilə istifadə edərək türk qoşunlarının İran ərazisinə daxil olmasını «birgə Sovet-türk təhlükəsi» kimi qiymətləndirir və Sovet Rusiyası ilə Mustafa Kamal Türkiyəsinin İran sərhədlərini təhlükə altına almaları barədə şayiə yaymağa başlayırlar. Türk qoşunlarının İran ərazisinə təcavüz etməsi faktı İranın hakim dairələrinin xarici siyasətinin bəzi xarakter cəhətini büruzə verdi. Belə ki, müəyyən oldu ki, İran rəsmi olaraq İstanbulda qalmış sultan hökuməti ilə əlaqədar idi, milli hökuməti tanımaq belə istəmirdi (1, s. 283). Çünki yeni milli hökumətin Azərbaycanla sıx əməkdaşlıq siyasəti, beynəlxalq səviyyədə qaldırılan milli məsələlərdəki birgə mövqe İran hökumətini ciddi narahat edirdi. Hətta İran hökumətinin Mosula olan iddiasına cavab olaraq Türkiyə mətbuatında Cənubi Azərbaycan haqqında kampaniya başlamışdı. Onu da qeyd edək ki, Cənubi Azərbaycan tarix boyu İranla Türkiyə arasında münaqişəyə səbəb olan ərazilərdən biri olmuşdur. Hələ 1918-ci ildə türk qoşunları Cənubi Azərbaycana daxil olarkən İran hökuməti Türkiyənin bu hərəkətini Cənubi Azərbaycanı işğal kimi qiymətləndirmişdi. İran hökuməti Cənubi Azərbaycandan heç cür əl çəkmək istəmirdi. İranın ən zəngin rayonlarından biri olan Cənubi Azərbaycanda İran hökuməti farslaşdırma siyasəti yeridir, Cənubi Azərbaycanın təbii sərvətlərini istismar edirdi. Burada qalxan xalq-azadlıq mübarizəsinin boğulması məqsədli siyasətin nəticəsi idi. Əlbəttə, bu siyasət XX əsrin əvvəllərində Azərbaycanın Türkiyə ilə əməkdaşlığını zəruri edirdi. Türkiyə mətbuatında Cənubi Azərbaycana aid tez-tez materiallar çap edilir və bu ölkənin Türkiyəyə birləşdirilməsi ideyası irəli sürülürdü. Əslində isə bu, tarixi ərazilərimizin İranın tərkibindən çıxarılması üçün siyasi vasitə idi. Fikrimizcə, bu ideya Azərbaycan və Türkiyənin maarifçi ziyalıları tərəfindən irəli sürülürdü. Mosul ətrafında mübarizə qızışdığı dövrdə türk mətbuatı yenidən Cənubi Azərbaycan problemini irəli sürdü. Bu da iki ölkə arasında münasibətlərin yenidən gərginləşməsinə səbəb oldu. 1924-cü ildə Cənubi Azərbaycan problemi ətrafında yenidən kampaniya başlandı. Türk mətbuatında nəşr olunmuş bir çox məqalələrə cavab olaraq, İran mətbuatında da məqalələr nəşr edildi. Dünya ictimaiyyətinin fikrini bu məsələyə cəlb etmək məqsədi ilə həmin məqalələrin bir çoxu almancaya tərcümə olunaraq Berlində qəzet səhifələrində çap edilmişdir (2, s. 44-45.). Bu təbliğatın əsas məqsədi Cənubi Azərbaycanın İran torpağı kimi qələmə verilməsi idisə, digər tərəfdən isə Türkiyə Respublikası haqqında beynəlxalq aləmdə mənfi rəy yaratmaq idi. Burada Azərbaycanın rəsmi sənədlər və tarixi həqiqətlər əsasında diplomatik missiyası Türkiyə ilə birlikdə özünü göstərməli idi.

Bu sənədlərin araşdırılması iki xalqın müxtəlif sahələrdə qarşılıqlı surətdə faydalı əməkdaşlığını genişləndirmək üçün yeni imkanlar yaratdı. Yəni beynəlxalq məkanda Cənubi Azərbaycan torpağına İranın

---

* Məqalə fəl.e.d., prof. Ə. Tağıyev tərəfindən çapa məsləhət bilinib.

iddiaları dayaq tapa bilmədi. Lakin Türkiyə Respublikasının yaranmasının ilk vaxtlarından Avropa ölkələrinin əksəriyyəti beynəlxalq aləmdə Türkiyənin vəziyyətini gərginləşdirməyə, daxili parçalanmaya yönəlmiş siyasət aparırdılar (3, s. 87).

Qeyd edək ki, bütün beynəlxalq təzyiqlərə baxmayaraq, hələ AXC elan olunarkən Türkiyə dövləti öz münasibətini birinci olaraq bildirdi. Bu həmin vaxt idi ki, Türkiyə ərazisi Antanta ölkələrinin tapdağı altında idi. Bu istiqlala həsr edilmiş böyük bir yığıncağı açarkən Yusifbəy Ağçura oğlu (1876-1935) demişdir: «Ey qardaşlar, bu böyük vaqay tarixi ilə türk aləmində birinci dəfə qurulan Türk Cümhuriyyətini ürəkdən təbrik ediyorum. Millətin həyatında ən böyük səadət olan istiqlal nailiyyətinin sevincini sizinlə bölüşüyorum. Tanrı üçrəngli bayrağımıza qara gün göstərməsin» (4, s. 10). Bundan az sonra Bakı Sovetinin daşnak dəstələri Gəncə istiqamətində yürüşə başlayaraq qırğınlar törətdilər. Bu zaman Türkiyədən dəvət olunmuş hərbi müşavirlərin köməyi ilə hərbi kurslar fəaliyyətə başladı və «Əlahiddə Azərbaycan korpusu» bərpa edildi. Lakin bu güc kifayət etmədiyi üçün Azərbaycan hökuməti o zamankı beynəlxalq münasibətlərə və dostluq haqqında müqaviləyə tam uyğun olaraq Osmanlı hökumətinə hərbi yardım haqqında müraciət etdi. Nuru paşa başda olmaqla beşinci ordu diviziyası Göyçay və Bakının daşnaklardan təmizlənməsini həyata keçirdi (5, s. 160-163). Təbii ki, Türkiyə ilə həyata keçirilən əməliyyatların hər biri yeni yaranmış Azərbaycan hökumətinin mövqeyini, xarici siyasət sahəsindəki mühüm addımlarını möhkəmlədir, dünya ölkələri ilə münasibətlərin qurulmasında mühüm amil rolunu oynayırdı. Azərbaycan və Türkiyə əməkdaşlığı həm də beynəlxalq aləmin həmin dövrdəki siyasi vəziyyətinə təsirsiz deyildi. Bu təsir Rusiya və Ermənistanın milli maraqlarının qarşısında bir sipər idi. Azərbaycan-Türkiyə əməkdaşlığına toxunan və bu missiyanın ağarlığını daşıyan görkəmli ictimai-siyasi xadim Ə.M.Topçubaşov «Azərbaycanın təşəkkülü» əsərində yazır: «Dil və milli kökə malik bu iki xalqın sıx birləşməsi vacibdir. Çünki onların dili, ədəbiyyatı və tarixi izləri tək Qafqazda deyil, Volqaboyunda, Türküstanda, Sibiriyada, Krımda milli kütlələrin dərin təbəqələrinə qədər nüfuz etmişdir. Bu gün bu fürsət milli «dəstur və istinadgah ruhu» tərzində sərf edilməlidir (6, s. 96). Ə.M.Topçubaşov dili və milli kökü qeyd etməklə hər iki xalqın dünya siyasi səhnəsində var qüvvəsi ilə birləşməyinin vaxtının çatdığına işarə edirdi. Azərbaycan-Türkiyə münasibətlərinin beynəlxalq səviyyədə həyata keçirilməsi yolunda Ə.M.Topçubaşovun xüsusi xidmətləri olmuşdur. Bu onun şanlı həyat yolunda aşkar görünür. O, 1921-ci ildə Paris sülh konfransına təqdim etdiyi «Qafqaz Azərbaycan Respublikasının nümayəndəliyinin Paris sülh konfransına memorandumu» adlı sənəddə göstərirdi ki, «Azərbaycan xalqı öz müqəddaratını təyinetmə hüququnu saxlamaqla yanaşı milli mənafeyinin təmin olunması üçün qardaş Türkiyə Respublikası ilə müttəffiqliyi əsas götürür. Türkiyənin və Azərbaycanın ərazi bütövlüyünün pozulmasına qarşı beynəlxalq təşkilatların qarşısında eyni mövqedən çıxış edirlər». XX əsrdə hadisələrin sonrakı inkişafı göstərdi ki, Azərbaycan və Türkiyənin beynəlxalq əməkdaşlıq siyasəti bu dövlətlərin milli maraqlarının təmin olunması baxımından xüsusi əhəmiyyət daşıyır. Bunu hələ Ə.M.Topçubaşov dünyanın siyasi mənzərəsinin hər an dəyişdiyi vaxtda bəyan etmişdir. O, Türkiyənin XİN Əhməd Nəsim bəylə, Ömər Paşa ilə görüşlərində bu əməkdaşlığın siyasi tərəflərini geniş müzakirə etmiş, konkret tarixi sənədlər imzalamışdır. Bu sənədlərdən ən əsası Azərbaycanın ərazi bütövlüyünün pozulmasına qarşı birgə möqeyin beynəlxalq aləmdə nümayişi idi. 1920-ci ilin yanvarında Versal sülh konfransı AXC-ni tanıyarkən Ə.M.Topçubaşov dərhal Türkiyə ilə münasibətlərin daha da möhkəmlənməsini özünün əməli işində həyata keçirmişdir. Türkiyə ilə münasibətlər haqqında o, Türkiyədən F.X.Xoyskiyə ünvanladığı 14 noyabr 1918-ci il tarixli məktubda yazırdı: «İstanbula gəldiyimiz vaxtda üç kabinet yaradılıb. Bu kabinetlərin hər birində Azərbaycanın bu ölkələrdə diplomatik fəaliyyəti sistemli şəkildə qurulmuş və bu iş beynəlxalq vəziyyətimizə xeyli təsir göstərmişdir. Lakin Türkiyədə baş verən hökumət dəyişikliyi Berlin və Vyanaya olacaq səfərlərimizi təxirə salmış, beynəlxalq təşkilatlarda birgə apardığımız işlərə mənfi təsir göstərmişdir» (7. № 60). Azərbaycan-Türkiyə əməkdaşlığının beynəlxalq əhəmiyyəti, fikrimizcə, məhz AXC dövründə məhz Ə.M.Topçubaşovun səyi nəticəsində başlamışdır. O, 1918-ci il oktyabrın 12-dən, 1919-cu il yanvarın 16-dək İstanbulda 36 rəsmi görüş keçirmiş, bu görüşlərin hamısı Türkiyənin Azərbaycana dayaq olması haqqında rəsmi razılaşmalar əldə edilməsindən ibarət olmuşdur. Yeri gəlmişkən, Türkiyə sultanı Sultan Mehmet xüsusilə Azərbaycanın mövcud vəziyyətini diqqətdə saxlayaraq xarici ölkə səfirlərinə və diplomatlarına, habelə Hollandiya, ABŞ, İtaliya, İsveçrə, İngiltərə nümayəndələri ilə Ə.M.Topçubaşovun rəsmi görüşlərinə şərait yaratmışdır. Diplomatik danışıqlar prosesində Azərbaycana qarşı ədalətsiz mövqe tutan Ermənistan, Rusiya və İranın işğalçılıq siyasəti Türkiyənin köməyi ilə həmin ölkələrin diqqətinə çatdırılmışdır. Türkiyənin mətbuat orqanları bu informasiyaların yayılmasına köməklik göstərmişdir.

Qeyd edilməlidir ki, 1918-ci il 30 oktyabrda başlanmış Mudros müqaviləsi əslində Azərbaycan-Türkiyə əməkdaşlığının zəifləməsinə gətirib çıxarmışdır. Bu müqavilə ilə Zaqafqaziyanın qapıları

ingilislərin üzünə açılmışdır. Ona görə də həmin vaxtdan Türkiyənin Azərbaycana olan köməyi, demək olar ki, tükənmişdir. Hətta bu müqavilə Türkiyənin Azərbaycana diplomatik nümayəndə təyin etməsinə pantürkizm meyli kimi baxmış və Türkiyə hökumətinə onu qadağan etmişdir (8, s. 56). Beləliklə, Azərbaycan-Türkiyə əməkdaşlığının beynəlxalq əhəmiyyətinin əsasını təşkil edən AXC dövründəki diplomatik münasibətlər bir sıra tarixi vəzifənin həyata keçirilməsində mühüm rol oynadı.

1. Azərbaycan Türkiyənin dəstəyi ilə Böyük Britaniya, ABŞ, Fransa, İtaliya kimi müttəfiq hökumətlərlə, habelə İsçevrə, Hollandiya kimi neytral dövlətlərin nümayəndələri ilə danışıqlar apararaq Azərbaycanın müstəqilliyinin tanınmasına nail oldu. O, həmçinin beynəlxalq aləmdə bərabər hüquqlu iştirakçı statusunu əldən vermədi.

2. İctimai xadimlərin, diplomatların sosialist hərəkat liderlərinin, beynəlxalq təşkilat rəsmilərinin diqqəti Azərbaycana və onun taleyüklü problemlərinə maksimum dərəcədə yönəldi. Bu missiyanın həyata keçirilməsi üçün Türkiyə respublikası Azərbaycan üçün əlverişli şərait yaratdı.

3. Türkiyə mətbuatının Azərbaycan haqqında məlumatlar yayması onun mənafeyi ilə bağlı məsələlərdə xarici ölkələrin obyektiv informasiyasını formaşladırdı. Bunun nəticəsi idi ki, AXC dünyanın 25-dən artıq ölkəsi ilə suverenlik və qarşılıqlı etimad haqqında rəsmi müqavilələr imzaladı.

4. İlk dəfə bu əməkdaşlıq prosesində Azərbaycanın sərhədlərində və ərazi bütövlüyündə dəyişiklik etmək üçün xarici ölkələrin ermənilərə dəstək verməsi aşkarlanmış, onların tarixi həqiqətlərə qarşı ədalətsizlik etdikləri bəyan edilmişdir (9).

Fikrimizcə, bu ikili standartların iç üzünün açılıb göstərilməsi məhz bu əməkdaşlığın nəticəsində mümkün olmuşdur. Lakin hadisələrin gedişatı AXC-nin Rusiya tərəfindən işğal olunmasına gətirib çıxardı və demək olar ki, siyasi proseslərin istiqaməti tamamilə dəyişdi. Bu işğaldan sonra SSRİ tərkibində Azərbaycanın birinci növbədə 20-30-cu illərdə Türkiyədəki mühacirətdə olan qabaqcıl nümayəndələri ilə əlaqələrinin izlənilməsi həyata keçirilmiş, onların fəaliyyətinə maneələr yaradılmış, bu barədə konsulluq və diplomatik nümayəndələrin qarşısında ciddi məsələ qoyulmuşdur. Lakin Azərbaycan ziyalılarının səyi nəticəsində 10 maddədən ibarət bəyannamə Parisdə Gürcüstan və Ermənistan nümayəndələrinin iştirakı ilə imzalanmışdır. Həmin bəyannamənin VII maddəsində deyilir: «Azərbaycan qonşu Türkiyə ilə mehriban münasibətlər qurmalı, Türkiyədə erməni məsələsi həll edilməli və ittifaq yaratmağa ən ciddi maneə törədən bu amil aradan götürülməlidir (10, s.108). Digər tərəfdən İngiltərə bu prosesdə Rusiyanın rolunu azaltmaq üçün Türkiyəni Bakı nefti ilə birlikdə Güney Qafqazı öz protektoratlığına çevirmək üçün bütün vasitələrə əl atmağa təhrik edirdi. Bu isə tarixi siyasətin davamı idi.

Lakin SSRİ dövründə yalnız beynəlxalq səviyyədə və iki ölkə arasında ədəbi-mədəni sahələrdə Azərbaycanın Türkiyə ilə münasibətlərinə məhdudiyyət qoyulmamış, müxtəlif səviyyələrdə bu münasibətlər həyata keçirilmişdir. Çünki siyasi münasibətlərin və qarşılqlı diplomatik fəaliyyətin rolu Azərbaycanın işğalından sonra beynəlxalq münasibətlərdəki vəziyyəti, habelə Azərbaycan-Türkiyə münasibətlərinin xarakterik xüsusiyyətlərinə təsir göstərdi. 16 mart 1921-ci il Moskva müqaviləsi RSFSR nümayəndəsinin iştirakı ilə Zaqafqaziya Sovet respublikalarının (Azərbaycan, Gürcüstan və Ermənistan) Türkiyə ilə 13 oktyabr 1921-ci ildə birlikdə imzaladıqları Qars «Dostluq müqaviləsi» üçün əsas oldu. Moskva müqaviləsinin müddəaları əsasında hazırlanmış Qars müqaviləsi Türkiyənin beynəlxalq vəziyyətini xeyli qüvvətləndirdi. Bu müqavilə Türkiyə xalqının milli istiqlaliyyət uğrunda daxili və xarici düşmənlərinə qarşı xarici siyasət sahəsində siyasi mübarizəsinin olduğunu və onun aparılmasında dövlət hüququnu təsdiq etmişdir.

Beləliklə, tədqiqatlar göstərir ki, Azərbaycan-Türkiyə əməkdaşlığının beynəlxalq əhəmiyyəti bu iki xalqın bəşər tarixində gedən mürəkkəb siyasi proseslərin xarakterindən irəli gəlirdisə, digər tərəfdən milli maraqların bir-birini tamamlaması zərurətindən irəli gəlirdi. XX əsrdə bu prosesin qarşısını heç bir qüvvə və siyasət ala bilməmişdir. Ona görə də XX əsrin 90-cı illərində Azərbaycan Respublikasının müstəqillik əldə etməsi ilə münasibətlərin ilkin mərhələsi məhz Türkiyə Respublikası ilə başladı. Bu tarixi andan etibarən müasir beynəlxalq münasibətlərin hərəkətverici qüvvəsi olan regional və beynəlxalq təşkilatlarda Azərbaycan-Türkiyə əməkdaşlığı özünün yeni mərhələsinə qədəm qoydu.

Açar sözlər: siyasi proseslər, qonşuluq münasibətləri, təbliğat, beynəlxalq təzyiq, əməkdaşlıq.

İstifadə olunmuş ədəbiyyat

1. Təhsin Ünal. 1700-dən 1958-ə qədər türk siyasi tarixi. Ankara, «Metin», 1958, 584 s.

2. Hüseynov Q.H. İkinci Dünya müharibəsi ərəfəsində Türkiyə Cümhuriyyətinin Yaxın və Orta Şərqdə siyasəti (1923-1939). Bakı, «Elm», 1992, s.44-45.
3. Hüseynov Q.H. Atatürk dövründə Türkiyənin xarici siyasətinə dair. Bakı, «Elm», 1992, 243 s.
4. Əliyev M. Bir kərə yüksələn bayraq bir daha enməz. «Gənclik» jurnalı, Bakı, 1990, №4 (28).
5. XX əsrin siyasi tarixi (müəlliflər heyəti: S.Aslanov, S.Qəndilov). Bakı, «Elm», 1991, 283 s.
6. Ə.M.Topçubaşov. Azərbaycanın təşəkkülü. İstanbul, 1918, 138 s.
7. Abbasov İ. AXC-nin qanunvericilik fəaliyyəti tarixindən. 1918-1920-ci illər. «Dirçəliş» jurnalı, Bakı, 2003, fevral, № 60.
8. Sofiyev M. Türkiyə 1918-23-cü illərdə. Bakı, 1968, 164 s.
9. Süleymanov R. AXC XİN erməni təcavüzünə qarşı diplomatik mübarizəsi (AXC və müasir dövr adlı elmi konfransın materialları). Bakı, «Təknur», 2003, 200 s.
10. Qasımov M. Xarici dövlətlər və Azərbaycan. Bakı, «Qanun», 1998, 310 s.

Kenulğ БАШИРОВА

AZERBAYDJANSKO-TUREÜKOE SOTRUDNIÇESTVO KAK SOSTAVNAƏ ÇASTĞ MEJDUNARODNIX POLITIÇESKIX PROÜESSOV

Pezöme

Politiçeskaə naprəjennostğ, imevşaə mesto v mire v 20-x qodax XX v. ne oboşla storonoy kak Azerbaydjanskoe, tak i Tureükoe qosudarstva. Bnutrennie i vneşnie politiçeskie proüessı, okazavşie vliənie na narodı gtix stran, vobrali üelıy rəd momentov obheqo xaraktera i soderjaniə otnoşeniy, imevşix üelğö sozdanie edinoqo fronta naüionalğnıx interesov oboix qosudarstv. B nastoəhey statğe rassmatrivaötsə gti proüessı, v çastnosti rabota diplomatov i vidnıx deəteley nauki i kulğturı, provodəivşaəsə na mejdunarodnom urovne.

Klöçevıe slova: politiçeskie proüessı, dobrososedskie otnoşeniə, propaqanda, mejdunarodnoe davlenie, sotrudniçestvo.

Kenul BASHIROVA

AZERBAIJAN-TURKEY COLLABORATION AS A CONSTITUENT PART OF THE INTERNATIONAL POLITICAL PROCESSES

Summary

The political tension observed in the world in the XX-es of the XX th century touched upon both Azerbaijan and Turkey states as well. The internal and external political processes influenced on the peoples of these countries included many moments of the joint character and contents of the relations aimed at the foundation of the unite front of the national interests of both states.

In the present article these processes are considered, in particular, the work of the diplomats and prominent figures of science and culture carried out on the world level.

Keywords: the political processes, good-neighbourly relations, propaganda, international pressure, collaboration.

UOT 629.28.81

Daşqın RƏCƏBLI
BDU-nun dissertantı

BEYNƏLXALQ SIYASI MÜNAQIŞƏLƏRIN FUNKSIYALARI HAQQINDA*

İctimai həyatın inkişafı kifayət qədər mürəkkəb və ziddiyyətlidir. Bu prosesdə tez-tez münaqişələrə rast gəlmək mümkündür. İnsanların həyatında münaqişələrin müəyyən rolu vardır. İnsanlar daim sülh, əmin-amanlıq arzulasalar da, lakin bəzən münaqişə və müharibə ilə üz-üzə qalmalı olurlar. "Struktur – funksionalizm" cərəyanına mənsub olan sosioloq L.Kozer yazır: "Münaqişə sosial sistemlərin daşlaşmasına mane olaraq, yeniləşmə və yaradıcılıq istəyi doğurur". Sosial münaqişələr ictimai dəyişikliklərin demək olar ki, əsas mənbəyidir, çünki müəyyən qruplar sosial dəyişiklikləri məhz münaqişələr vasitəsilə həyata keçirməyə çalışırlar. Siyasi elitalar münaqişələri gizlətməyə çalışsa da, münaqişəsiz cəmiyyət mövcud deyil [1, s. 127-128].

Siyasi münaqişə dedikdə, hakimiyyət səlahiyyətləri və sərvətlər uğrunda mübarizə aparan iki və daha çox tərəfin rəqabət tipli qarşılıqlı fəaliyyəti başa düşülür [3, 385]. Bu fəaliyyətdə iştirak edən tərəflər isə qruplar, birliklər və dövlətlər ola bilər.

Siyasi münaqişə siyasi mənafe və məqsədlərin toqquşmasıdır. Siyasi münaqişələrin də müxtəlif növləri vardır. Onun ən geniş yayılmış növü beynəlxalq siyasi münaqişələrdir. Bu münaqişə növü iki və daha çox dövlətin nüfuz, sərvət və ərazi uğrunda mübarizəsini əks etdirən, spesifik xüsusiyyətlərə, formaya, struktura və məzmuna malik olan rəqabət xarakterli münasibətidir.

Digər münaqişələrdən fərqli olaraq beynəlxalq siyasi münaqişələr daha geniş oriyentasiyaya malik olur və bu münaqişələri tənzimləyən mərkəzin, yəni idarəetmə orqanının olmaması üzündən, bəşəriyyət üçün böyük təhlükə yaranır. Beynəlxalq siyasi münaqişə beynəlxalq münasibətlərdə daim təzahür edən bir hadisədir. Beynəlxalq münasibətlər isə ictimai-siyasi münasibətlərin spesifik forması olub, bir sıra münasibətləri dövlətlər, xalqlar, sosial qruplar, partiyalar, təşkilatlar arasında iqtisadi, siyasi, hüquqi, diplomatik, mədəni, elmi-texniki, hərbi, ideoloji, sosial-psixoloji özündə birləşdirir. Ümumi planda isə beynəlxalq münasibətlər xalqlar, dövlətlər və dövlət birlikləri arasındakı siyasi, iqtisadi, diplomatik, hərbi, mədəni, elmi-texniki əlaqə və qarşılıqlı münasibətləri ifadə edir.

Beynəlxalq siyasi münaqişələr xarici siyasətlə də sıx bağlıdır. Başqa sözlə, dövlətlər öz mənafelərini (iqtisadi, siyasi və s.) beynəlxalq aləmdə renada təmin etmək məqsədi ilə göstərdiyi siyasi fəaliyyət nəticəsində istər-istəməz başqa dövlətin oxşar mənafelərinə təəziq göstərir. Bu isə beynəlxalq münaqişələrin formalaşmasına zəmin yaradır. Deməli, xarici siyasətdə elə istiqamət götürülməlidir ki, ya münaqişə yaranmasın, yaxud ya yaranan münaqişənin həlli nəzərə alınmış olsun [3, 363].

Beynəlxalq siyasi münaqişə siyasi münasibət kimi təkcə obyektiv ziddiyyətlər deyil, həm də xarakterinə görə subyektiv ziddiyyətlər doğurur. Bunlar da öz növbəsində ölkənin siyasi rəhbərliyinin bu ziddiyyətləri qəbuletmə spesifikası və siyasi qərarlar qəbul etmələri ilə şərtlənir. Bu zaman subyektiv ziddiyyətlər münaqişələrin yaranmasına və onun inkişafına, tərəflərin məqsəd və maraqlarına təsir etmək yçün bir vasitə olur. Belə ki, beynəlxalq münaqişə qeyd-şərtsiz iqtisadi, ideoloji, sinfi-ictimai, xüsusilə siyasi, hərbi-strateji və s. münasibətlərlə əlaqədar olur. Siyasi münasibət kimi meydana çıxan beynəlxalq münaqişə getdikcə müstəqillik və xüsusi inkişaf imkanı əldə edir. Buna görə də müxtəlif şəkildə bu münaqişə daxilində inkişaf edən digər münasibətlərə, münaqişə əsasında yaranan ziddiyyətlərə və onların həllinə təsir edə bilər.

Beynəlxalq siyasi münaqişələr onların hər birinə məxsus olan spesifik əlamətlərdən asılı olmayaraq, müəyyən məkan-zaman daxilində ölkələr və ölkə qrupları arasında xüsusi konkret tarixi-siyasi münasibətlər törəyir. Onlar bilavasitə bu və ya digər şəkildə beynəlxalq aləmdə qüvvələr nisbətini, beynəlxalq münasibətlərin inkişaf sistemini və onun müxtəlif səviyyələrdə olan quruluşlarını, bundan başqa digər bir münaqişə ilə az və ya çox dərəcədə bağlı olan müasir dünyanın qlobal, regional, yaxud ikitərəfli ziddiyyətlərini, yer kürəsinin müxtəlif səviyyələrində beynəlxalq münasibətlərin çoxsaylı konkret vəziyyətlə əks etdirərək yenidən törəyir.

---

* Məqalə fəl.e.d. K.Əzimov tərəfindən çapa məsləhət bilinib.

Qlobal, regional, subregional, qrupşəkilli, yaxud ikitərəfli xarakterə malik olan münaqişəlilik, obyektiv və subyektiv, birbaşa və ya vasitəli, gizli və ya aşkar şəkildə beynəlxalq münaqişənin yaranmasında və inkişafında iştirak edir. Başqa sözlə, münaqişəlilik münaqişənin yaranmasına təkan verir, lakin təkanı özü avtomatik şəkildə yaratmır. Milli-dövlət maraqlarının müasir izahı, hətta beynəlxalq gərginliyin ən yüksək səviyyəsində belə münaqişələrinin cəmlənməsini təmin edir.

Həyatda baş verən bütün sosial münaqişələr müəyyən funksiyaları yerinə yetirir. Sosial münaqişələrin funksiyaları problemi özlüyündə müstəqil problem deyildir. Qeyd etmək lazımdır ki, münaqişələrin funksiyalarının fərqləndirilməsi şərti xarakter daşısa da, münaqişələrə yanaşma istiqamətlərinin, münaqişə nəzəriyyələrinin əsasında duran başlıca amillərdir. Bəzi tədqiqatlarda bütün sosial münaqişələrin yalnız iki - pozitiv və neqativ funksiyaları göstərilir. Sosial nəzarətdə olan münaqişələr ictimai həyatda qarşı duran tərəflər arasındakı gərginliyi aradan qaldırır, onların münasibətini qaydaya salır, tənzimləyir.

Münaqişələr bir tərəfdən sosial strukturu dağıdır, bərpa olunmayan ehtiyatların əhəmiyyətli dərəcədə sərfinə gətirib çıxarır, amma digər tərəfdən çoxsaylı problemlərin həlli mexanizmi kimi özünü büruzə verir və sosial ədalətə nail olmağın bir vasitəsinə çevrilir. Münaqişənin nəticəsi olaraq yeni liderlik, yeni siyasət və yeni normalar yaranır. Münaqişə bəzən gərgin vəziyyətdən çıxmanın yeganə yolu olur [6, s. 81].

Beynəlxalq münaqişələrin neqativ və pozitiv funksiyaları barəsində demək olar ki, beynəlxalq münaqişə beynəlxalq gərginlik yaradan dağıdıcı funksiya ilə birgə, həm də digər münaqişələr kimi müsbət xüsusiyyət daşıyır, bu zaman o, beynəlxalq arenada qüvvələr nisbətinin dəyişməsi barədə siqnal verərək, informasiya-kommunikasiya funksiyası həyata keçirir.

Komunikativ – informasiya və əlaqələndirici funksiya pozitiv funksiyanın bir çalarıdır. Toqquşmaların gedişində insanlar bir - birini daha yaxşı tanımaq imkanı əldə edir, müəyyən birliklərdə, platformada birləşirlər, onlar ümumi məqsədə, amala xidmət göstərirlər. Fikrimizi aydınlaşdırmaq üçün bir misala nəzər yetirək. Azərbaycan Respublikasında Dağlıq Qarabağ münaqişəsi cəmiyyətə məlum, aşağıda göstərəcəyimiz neqativ təsiri ilə yanaşı, ümumi ideya, ümumi məqsəd, ümumi amal uğrunda xalqı birləşdirəcək pozitiv təsir də göstərir. Münaqişənin özünün pozitiv funksiyası ondadır ki o, sosial dəyişikliklərin stimulu və hərəkətverici qüvvəsi kimi çıxış edir. Məhz pozitiv funksiyası sayəsində münaqişə əks mənafeləri aşkarlayır, cəmiyyətin inkişafına şərait yaradır, zidd mənafelərin elmi təhlilinə və zəruri dəyişikliklərin müəyyən olunmasına imkanlar açır.

L.Kozerin «Sosial münaqişələrin funksiyaları» adlı klassik əsərindən göründüyü kimi, münaqişə özündə yalnız dağıdıcı funksiyanı təcəssüm etdirmir, o, eləcə də böyük pozitiv potensiala malikdir. Həmin əsərdə münaqişələrin funksiyalarının əhəmiyyəti və təsnifatı verilərək nəzərə çatdırılır ki, münaqişələr cəmiyyətin aktual vəziyyətinə faydalı təsir göstərir, onun inkişafına imkan yaradır.

Münaqişənin funksional nəzəriyyəsinin əsas müddəalarından biri aşağıdakı tezisdir: münaqişə qüvvələrin tarazlığını yaradır və saxlayır. Razılığa o zaman gəlmək olar ki, tərəflər öz imkanlarını, bir də rəqibin gücünü öyrənmiş olsun. Lakin qüvvələrin nisbətini çox vaxt açıq toqquşma zamanı, məsələn, «tətilin keçirilməsi» zamanı etmək mümkün olur. Belə münaqişələr cəmiyyətin əsaslarını sarsıtmayaraq hakimiyyət, status və müəyyən qrupun təsiri altında uyğunsuzluğu aradan qaldırır. Bu fikir əsasən açıq cəmiyyətə aiddir (bir də tam formalaşmamış strukturu olan qruplara). Açıq cəmiyyət münaqişəni qəbul edir, institutlaşma mexanizmi yaratmış olur.

L.Kozerin fikrincə, hər bir cəmiyyət gərginliyin və potensial sosial münaqişənin bəzi ünsürlərinə malik olur. Deməli, sosial münaqişə qarşılıqlı sosial təsirin çox mühüm ünsürüdür. Bu ünsür isə sosial əlaqələrin ya dağılmasına, ya da möhkəmlənməsinə kömək edir. «Qapalı» cəmiyyətlərdə sosial münaqişə cəmiyyəti iki düşmən qrupa, yaxud da iki «düşmən sinfə» ayırır, kollektiv «razılığın» əsaslarını sarsıdır. İnqilabi zorakılıq vasitəsilə sosial əlaqələrin və ictimai sistemin özünün dağılması təhlükəsi yaranır. «Açıq», «plyuralistik» cəmiyyətlərdə isə belə olmur, bu cəmiyyətlərdə münaqişələrdən çıxış yolu sosial təsisatların ictimai razılığı qoruya bilməsidir. Münaqişələrin dəyəri ondadır ki, onlar sosial sistemin donuqluğunun qarşısını alır, yeniliklərə yol açır.

Bu nəzəriyyənin digər nümayəndəsi, Morton Doyç münaqişənin daha bir neçə müsbət tərəfini qeyd edir: münaqişə durğunluğun qarşısını alır, qrupdaxili identifikasiyanı (uyğunlaşmanı) gücləndirir. O, eyni zamanda mənfi cəhətlərini də sadalamışdır: kommunikasiyalar sistemini, qrupdaxili əlaqələri pozur, onun dəyərlər və oriyentasiyalar sistemini sarsıdır, qrup həmrəyliyini zəiflədir. Bütün bunlar münaqişənin düzgün qiymətləndirilməsini, güc və imkanlarının ölçülüb-biçilməsini tələb edir.

Ümumiyyətlə, cəmiyyətdə qrupların çoxluğu, mürəkkəbliyi, status müxtəlifliyi hər bir münaqişənin həllində çoxlu konkret amillərin rolunu qat-qat artırır, münaqişənin həllinə mane olur.

Münaqişələrin funksiyalarına nəzəri yanaşma baxımından çoxlu sayda tipləşdirmə ilə qarşılaşırıq. Qərb sosioloji ədəbiyyatında sosial münaqişələrin aşağıdakı başlıca funksiyaları müəyyənləşdirilir:

-sosial strukturun inteqrasiyası;-qrup daxilində həmrəyliyin saxlanılması;- insanlararası münasibətlərin möhkəmləndirilməsi;- sosial dəyişikliklərin idarə olunması [4, 297].

Bundan başqa, tədqiqatlarda rast gəldiyimiz və bizim fikrimizcə, münaqişələrin funksiyalarının tipləşdirilməsinin ən optimallarından birini də verməklə kifayətlənək:

1. Birləşdirici funksiya;2. Səfərbəredici funksiya;3. Mobilləşdirici funksiya;4. Dağıdıcı funksiya.

Ümumiyyətlə, nəzər yetirsək, bütün bu yanaşma və fərqləndirmələr yalnız formal xarakter daşıyır. Çünki, bu funksiyalardan yalnız birini həyata keçirən münaqişə yoxdur, yəni, hər bir pozitiv nəticə ilə yanaşı neqativ nəticələrin və ya əksinə, hər bir neqativ nəticə ilə yanaşı pozitiv nəticələrin də olması istisna hal deyil.

Münaqişələrin neqativ funksiyasına misal kimi münaqişənin cəmiyyətin inteqrasiyasına təhlükə törətməsini, hakimiyyətə olan münasibətlərin dəyişilməsinə mənfi təsirini və az sabit qruplarda parçalanmanı göstərmək olar [2, 17].

Tədqiqatçı T. Parsons sosial konfliktin, münaqişənin müsbət nəticələrini deyil, onun neqativ nəticələrini, dağıdıcı təbiətin göstərərək sosial konflikti ictimai orqanizmin "lokal" xəstəlik forması hesab edirdi. O, cəmiyyəti kolliziyadan "sağaltmaq" üçün terapevtik vasitələr axtarmaq qayğısına qalmağa çalışırdı [5, 75].

Ümumilikdə, cəmiyyətdəki münaqişələr konkret bir funksiya daşımır o, həm konstruktiv, həm də destruktiv funksiyalar daşıyır.

Münaqişə güc və silah tətbiqi ilə müşayiət olunduğu zaman onun əsasən destruktiv – neqativ funksiyaları özünü daha çox büruzə verir. Yalnız münaqişədən sonrakı mərhələnin təhlili münaqişənin funksiyalarının düzgün istiqamətinin müəyyənləşdirilməsinə kömək edə bilər [6, s. 93].

Deməli, münaqişənin konstruktivliyi (pozitivliyi) cəmiyyətdə müsbət sosial-siyasi dəyişikliklərin yaranmasına, destruktivliyi isə cəmiyyətdə mövcud strukturun dağılmasına, zorakılığın artmasına səbəb olur.

Açar sözlər: münaqişə, əməkdaşlıq, sülh, beynəlxalq, siyasət.

İstifadə olunmuş ədəbiyyat

1. Abbasbəyli A.N., Qarabadi P.Q., İbrahimov Ə.G. Konfliktologiya. Bakı, 2006
2. Əliyev Q.C., Dayızadə H.M. Konfliktologiyaya giriş. Bakı, Təbib, 1998.
3. Əhmədov Ə., Şirəliyev H. Politologiya. Bakı, Təbib, 1997.
4. Əfəndiyev M., Şirinov A. Sosiologiyanın nəzəri problemləri. Bakı Universiteti, 2001.
5. Şəfi Ü. Konfliktologiya Siyasi – sosioloji təhlil. "Adiloğlu", Bakı, 2002.
6. Kurbatov B.И. Konfliktoloqiə (vısşee obrazovanie). Postov-na-Donu. "Феniks", 2005.

Daşqın PADJABLI

O FUNKÜIƏX MEJDUNARODNIX POLITIÇESKIX KONFLIKTOV

Pezöme

Avtor statği prejde vseqo raskrıvaet soderjanie samoqo ponətiə «politiçeskie konfliktı». Passmatrivaə mejdunarodnıe konfliktı kak odnu iz raznovidnostey politiçeskix konfliktov, on aküentiruet vnimanie na ix funküiəx. Иssledovatelğ prixodit k zaklöçeniö, çto mejdunarodnıe konfliktı kak i inoqo roda konfliktı, ne bıvaöt suqubo pozitivnımi ili suqubo neqativnımi. Takoe delenie uslovno. Esli rassmatrivatğ koneçnıy rezulğtat konfliktov, to stanovitsə əsno, çto kajdıy iz nix imeet kak pozitivnıe, tak i neqativnıe momentı.

Klöçevıe slova: konflikt, sodrujestvo, mir, mejdunarodnıy, politiçeskiy.

Dashgin RAJABLI

ABOUT THE FUNCTIONS OF THE INTERNATIONAL POLITICAL CONFLICTS

Summary

Author analyzes first the conception of political conflict in the article. Considering the international conflicts as a kind of a variety of the political conflicts, he lays emphasis on their functions. The researcher draws a conclusion that international conflicts like the other conflicts are not of a pure positive or negative character. Such division is conventional one. If to consider the results of conflicts it becomes clear, that each of them has both positive and negative moments.

Keywords: conflict, collaboration, peace, international, political.

UOT 34.341

Pərviz SƏMƏDOV
BDU-nun Beynəlxalq münasibətlər
və Beynəlxalq hüquq fakültəsinin dissertantı

AZƏRBAYCANA TƏTBİQ EDİLƏN EMBARQOYA ERMƏNİ LOBBİSİNİN TƏSİRİ*

1. İqtisadi embarqo və nəticələri. Azərbaycan Xalq Cəbhəsinin qısa müddətli hakimiyyəti zamanı Rusiyanın təsiri altından qurtulmaq ən başlıca siyasi xətt olaraq mənimsənilmiş, son 200 ildə ilk dəfə Rus ordusu Azərbaycandan tamamilə çıxarılmış (l, s.3.), bununla da iki ölkə arasında bərabər dövlətçilik anlayışına əsaslanan əlaqələrin qurulmasına səy göstərilmiş və Azərbaycan bunun cəzasını «İqtisadi Embarqo» ilə ödəmişdir. Bu zaman ərazidə baş verən Çeçenistan və Rusiya arasındakı vəziyyətin gərginləşməsi ilə Azərbaycan Kremlin elan edilməmiş təktərəfli daşıma embarqosu ilə qarşılaşdı.

Azərbaycan və Rusiya arasındakı əlaqələrə Çeçenistan problemi fərqli bir təsir amili olmuş, birinci Çeçen - Rus müharibəsi davam etdiyi müddət ərzində Rusiya Azərbaycanın Çeçenistana dəstək verdiyini iddia etmiş, Azərbaycan isə bunu rədd etmişdir. Həmin zaman ixracaatının 70%-ni Rusiyaya edən Azərbaycan 3 il Rusiyanın təktərəfli olaraq tətbiq etdiyi iqtisadi embarqo ilə qarşılaşmışdır (2,s.308). SSRİ dövründən iqdisadiyyatın Rusiya ilə əlaqəli işləməsi səbəbindən Azərbaycanın pul vahidi manat üzərində Rusiyanın pul vahidi rublun təsiri də göz önündə canlandırıldığı zaman bu embarqonun Azərbaycan iqtisadiyyatı üzərindəki mənfi təsiri daha da sürətlənmişdir.Bunun Azərbaycan iqtisadiyyatına müsbət təsiri isə ondan ibarət idi ki, Azərbaycan yeni iqtisadi əlaqələr qurmaq üçün digər ölkələrə üz tutdu.

Embarqonun Azərbaycan iqtisadiyyatına verdiyi zərər bir həqiqətdir. Ancaq Rusiya tərəfindən ortaya qoyulmuş «Çeçen Bumeranqı» Azərbaycana strateji qazanclar da gətirdi. Azərbaycan digər ölkələrlə əlaqə qurmaq üçün təşəbbüslərə başladı. Xəzər Dənizi vasitəsilə Mərkəzi Asiya, İran-Naxçıvan yolu ilə Türkiyə əlaqələri artdı, Gürcüstan vasitəsilə Türkiyə ilə, Qaradəniz vasitəsilə Avropa ilə əlaqələr gücləndi. Bütün bu təşəbbüslər iqtisadiyyatın səmtini dəyişdi, nəticədə milli pul vahidi manat rus rublunun təsir dairəsindən çıxdı (12,s. 201-202).

Müstəqilliyini qazandıqdan sonra zəngin neft yataqlarına sahib olması səbəbindən məşhur neft istehsalçılarının iştahını artıran Azərbaycan son illərdə qorunan sabit iqtisadi inkişaf nəticəsində buraya iri xarici neft şirkətlərinin axını surətləndi. Amerikadan, İngiltərədən, Almaniyadan, Yaponiyadan, Türkiyədən və İrandan gələn iş adamları və sərmayəçilər "şəkərdən pay" ala bilmələri üçün bir-birləri ilə rəqabətə başladılar.Norveç kimi bir ölkənin 55 fərqli şirkətinin Azərbaycanda təmsilçilərinin olduğu mənbələr tərəfindən ifadə edilmişdir (13, s.169).

1994-cü ilin dekabr ayında Budapeştdə toplanan ATƏT Zirvəsində Qarabağa «Beynəlxalq Təhlükəsizlik Gücü» göndərilməsi istiqamətində bir qərarın alınmasında Türkiyənin təsiri ilə bərabər Amerikanın da Qarabağ məsələsində barış mövqeyinə maraqlı olmasına şahid oluruq. Hər şeydən əvvəl, o vaxtın ABŞ hakimiyyəti Xəzər neftinin gələcəyi baxımından Cənubi Qafqazda sülhün saxlanmasını və bu çərçivədə Türkiyə - Ermənistan əlaqələrinin normallaşmasını istəyirdi. Buna bağlı olaraq, Qarabağ məsələsi həll edilə bilərdi. Başqa bir ifadə ilə desək, ABŞ Türkiyə - Ermənistan əlaqələrini, ortaq mənafelər qura biləcək Qarabağ problemindən və Bakının təsirindən qurtarmağı qarşısına məqsəd qoymuşdu. Bu düşüncə Ermənistanın mənafeyinə uyğun olduğu üçün iqdisadi çıxar baxımından Türkiyənin də işinə yarayırdı (4, s. 103).

Müxtəlif mənbələrə nəzər salsaq, bu düşüncənin təsiri ilə 23-24 fevral 1995-ci ildə Ankarada TİKA (Türk İş Birliyi və Kalkınma Ajansı) ilə Xarici Siyasət İnstitutunun işbirliyi nəticəsində «Cənubi Qafqaz Bölgəsində Təhlükəsizlik, Sabitlik və Qarşılıqlı Əlaqələr» mövzusunda Konfrans təşkil olunmuş və buraya NATO, eləcə də ATƏT rəhbərləri gəlmişlər (5, s.15). Bu zamanlar Ermənistan prezidenti Ter-Petrosyanın məsləhətçisi J.Libaridyan Ankaraya gələrək Prezident Süleyman Dəmirəl və baş nazir

* Məqalə t.e.d., prof. C.Həsənli tərəfindən çapa məsləhət bilinib.

Tansu Çillər ilə Türkiyə - Ermənistan əlaqələrini müzakirə etdi (9, s.l). Ancaq Qarabağ problemi ilə bağlı irəliləmə mümkün olmadı. Buna baxmayaraq, Türkiyə ABŞ-ın təsiri altında 1993-cü ildə bağladığı hava koridorunu Ermənistana açdı (ll, s. 2).

1996-cı ildə Rusiya və Çeçenistan tərəfindən imzalanan Hasavyurd müqaviləsi ilə Azərbaycan və Rusiya arasındakı münasibətlərdə Çeçenistan problemi gündəlikdən çıxarılmış, əsasını bu problemlə əlaqələndirilən Rusiya tətbiq etdiyi embarqonu mərhələ ilə ortadan qaldırmışdır (8, s. 309) .

Bütün yuxarıda deyilənlər baş verdiyi anlarda ermənilərin ABŞ Konqresini zəkalı bir şəkildə ermənilərə məxsus məsumanə metodlarla yanıltması və aldatması ilə Erməni lobbisi Azərbaycanı yardım proqramından məhrum etmişdir. Azərbaycanın ABŞ yardımından məhrum edilmə səbəbi isə Ermənistanın Azərbaycan təhdidi altında olması ilə izah edildi. Ancaq bunun əsassız olduğunu beynəlxalq aləm və təşkilatlar Azərbaycana dəyən zərər və ziyanın ödənilməyəcək hal aldığı bir zamanda öyrənmişlər.

Halbuki Azərbaycan Ermənistanın bir qarış torpağını belə işğal etməmişdir. Amerikanın öz mənbələrində (CIA) də 1994-cü ildə Azərbaycanda 800.000 azərbaycanlının öz torpaqlarında köçkün vəziyyətdə olduqlarını, Qarabağ xaricində torpaqlarının 16%-ni itirdiyini yazmışdır (6).

2.Xarici Dövlətlərin və Beynəlxalq təşkilatların baxışı. ABŞ Konqresinin 907 saylı Qərarı və Azərbaycanın buna reaksiyası.

2. ABŞ-ın Azərbaycanla və Ermənistanla bağlı siyasəti bütün Zaqafqaziya üzrə öz təsirini göstərməkdədir. Məsələ ilə bağlı apardığımız araşdırmalarda Konqres və Prezidentlərin siyasətlərinin fərqli olduğu müşahidə edilir. Amerika Konqresi tərəfindən qəbul edilən 1992-ci il tarixli Azadlığı Dəstəkləmə aktına 907-ci düzəliş aşağıdakı kimidir: «Azərbaycan hökumətinin Ermənistan və Yuxarı Qarabağa qarşı bütün embarqoları və digər hücum xarakterli qüvvə tətbiqinin istifadəsi dayandırılmayanadək, eləcə də bu istiqamətdə Azərbaycanın atdığı addımların sübut ediləcək xarakterdə olması Prezident tərəfindən müəyyən edilib Konqresə raport verilməyənədək» bu qanun və ya hər hansı bir qanun səbəbi ilə Azərbaycan hökümətinə ABŞ yardımı verilə bilməz (10, s. 27).

Azərbaycan Dağlıq Qarabağa nəzarət etməməkdə davam edir, hətta Dağlıq Qarabağın xaricində də işğal edilən torpaqlara nəzarət olunmur, bu torpaqlar Ermənistanın işğalı altındadır (ll, s.3). Azərbaycandan Ermənistana gedən 130 km bölgədə 1988-ci ilə qədər Zəngibasardakı azərbaycanlıların yaşadığı, ancaq qətliam və təcavüz nəticəsində oradan köçkün düşdükləri 907-ci düzəlişdə nəzərə edilmişdir. Bu embarqonun, Azərbaycanın o vaxtki dövlət büdcəsində pulun yox deyiləcək dərəcədə az olduğu bir vaxtda, eləcə də işğala uğrayan Azərbaycana tətbiqi nə dərəcədə həyati məsələ olduğuna sübutdur.Xalqa açıqlanmayan, mərhum «Əbülfəz Elçibəy və mərhum Heydər Əliyevin 8 saatlıq görüşündə» başlıca müzakirə mövzularından birinin də elə 907 saylı embarqo olduğu söylənilməkdədir, ancaq bunun hər hansı mənbədə yer almadığı bir gerçəkdir.

29 sentyabr 1994-cü ildə Azərbaycanın keçmiş prezidenti mərhum Heydər Əliyev BMT-nin ümumi yığıncağında iştirak etdiyi vaxtda, həmçinin New Yorkda ABŞ prezidenti Bill Klintonla olan görüşündə onun bölgədə aktivkliyini artırmasını istədi. Azərbaycan nefti və Dağlıq Qarabağ mövzularını gündəmə gətirərək Azərbaycan və Ermənistan siyasəti ilə bağlı Abş-ın mövqeyinin bütün bölgədə təsirli olduğunu ifadə etdi.

Ancaq qeyd etmək lazımdır ki, Konqreslə Prezidentlərin siyasətində fərqliliklər olduğunu görürük. 1992-ci ildə Konqres Azadlığı Dəstəkləmə aktına 907 düzəlişlə Azərbaycanı Ermənistana embarqo tətbiq etməkdə, eləcə də hücum məqsədli güc tətbiq etməkdə suçlamış və Azərbaycana ABŞ yardımı əngəllənmişdir. Konqresin qərarına baxmayaraq, Klinton hakimiyyəti 907-ci düzəlişi ləğv etmək üçün təşəbbüs etmiş və Ermənistan-Azərbaycan arasında tarazlayıcı siyasət izləmişdir. Azərbaycandan Ermənistana İran sərhəddi boyunca gedən 130 kilometrlik dəmiryolunun Ermənistan tərəfindən blokada edilmiş olmasından isə bəhs edilmir.

Bu əngəlin ortadan qaldırılması təşəbbüsü zamanı isə bəzi konqresmenlərin Azərbaycanın Dağlıq Qarabağın işğalına son qoyanadək embarqo davam etsin demələri əlbəttə ki, heyrətamizdir.

Bu zaman embarqonun qaldırılmasında Türkiyə Dövlətinin Azərbaycana dəstək vermə mövqeyi isə ermənilərin Türkiyə lobbisi tərəfindən də tənqidə məruz qalmışdır, Türkiyədəki erməni lobbisi daha çox türk adları ilə öz çirkin niyyətlərini həyata keçirməkdədirlər. Onlar dünyanı yanıltmaq üçün hər cür çirkin əməllərə əl atmağa hazırdırlar. Bunların sırasında erməni mənşəli Taner Akçam, Baskın Oran, Mələk Fırat və s. adlarını çəkmək olar.

Məsələn, Baskın Oran yazır ki, Türkiyə Azərbaycanın mövqeyini dəstəkləyərək Azərbaycanın Ermənistana tətbiq etdiyi embarqoya qoşuldu. Başlanğıcda Türkiyə Ermənistanla Azərbaycan arasında tərəfsiz olmaq istədi, fəqət Türkiyənin bu «tərəfsiz arabulucu» fəaliyyətləri uzun sürmədi. Türkiyənin Ermənistan siyasətinin əvvəlcədən Azərbaycanın imzasını alaraq həyata keçirildiyi üzə çıxdı (7, s. 234-235).

Araşdırmalardan məlum olur ki, əksər ölkələrdə olan erməni lobbisi embarqonun qaldırılmasından narahat olmuş, hətta Türkiyədə erməni məsələsinə görə 4 dəfə həbs edilib, insan haqları müdafiəçisi pərdəsi adı altında qurtulan Baskın Oranlar da bundan narahatlıqlarını ifadə etmişlər. Türkiyənin erməni soyqırımı abidəsi ucaltmasına etiraz edən bu cür elm adamlarının mövqelərini açıq şəkildə dilə gətirə bilmələri, eləcə də Bakı şəhərində çox sayda ermənin yaşaya bilməsi bu ölkələrin nə dərəcədə dünyəvi və demokratik olduqlarının sübutudur. Ancaq embarqoya məruz qalan Azərbaycanın, Ermənistana embarqo tətbiq etdiyini Türkiyədə erməni lobbisinin dilə gətirməsi bu ölkənin nə dərəcədə səbirli və eləcə də demokratik olduğunu da ortaya qoymaqdadır.

Ankara Universiteti Beynəlxalq Əlaqələr bölümünün, müəllimi, 2 dəfə Universitetdən dövlətə qarşı təşkilatlanma apardığına görə 1402 saylı Qanunla həbs edilən, Prof. Dr. Baskın Oranın ideya dostu olan Köçəryan isə:

9 oktyabr 2001-ci ildə prezident Buşa məktub göndərərək hökmlərin yumşalmasının sülhə zərər verəcəyini yazmış, buna baxmayaraq Senat 907 düzəlişdə bəzi dəyişikliklər edilməsini 25 oktyabr 2001-ci il tarixində qəbul etmişdir. Ancaq ermənilərə təsəlli üçün 4,6 milyon dollarlıq bir hərbi yardımın olması isə ABŞ-kı erməni lobbisinin fəallığını göstərməkdədir.

Son illərdə qondarma Erməni soyqırımının müxtəlif dövlətlərin parlamentlərində tanınması ilə əlaqədar erməni lobbisinin canfəşanlığı da onu göstərir ki, bu lobbi yalanı, yuxarıda yazdığımız kimi, həqiqətin yerinə sırımağı ustalıqla bacarır. Bu ustalıq erməni sosial quruluşuna xas əlamətdir. İngilis Vilsonun dediyi kimi, ermənilər acgöz və tamahkardırlar, fitnəkar və araqarışdırandırlar, onlar bir işi şişirməkdə istedad sahibidirlər.

Digər problemlərdə olduğu kimi, Qarabağ probleminin və erməni fitnəkarlığının ortadan qaldırılmasında da Türkiyə-Azərbaycan tərəfdaşlığı dostluq ənənələrinə sadiq qalmışdır. Bu ənənələr Türk Dünyası inteqrasiyasında öz töhvəsini verəcəkdir.

Açar sözlər: iqtisadi embarqo, erməni lobbisi, Türkiyədəki ermənilər, Türkiyə-Azərbaycan münasibətləri, Qarabağ münaqişəsi.

İstifadə olunmuş ədəbiyyat

l.Akin Sametoğlu. Əbülfəz Elçibəy. İstanbul, 1994.
2.Avrasya Dosyası, Ankara 2001, sayı 1.
3.Avrasiya dosyası, Ankara, sayı 28, mart 1995.
4.Asiman Alıyev. Azərbaycan - Ermənistan müharibəsinin gəlişmə mərhələləri. İstanbul, 2003.
5.Avrasiya dosyası. Ankara, sayı 28, mart 1995/1- 309.
6.Azerbaijan. The World Facebook, http://www.cia.gov./cia/ publications/factbook/geos/as.htmi
7.Baskın Oran.Türk Dış Politkası. Cilt 1. İstanbul, 2002.
8. Cəfərsoy N. Bağımsızlığın 10-cu ilində Azərbaycan-Rus ilişkiləri. Avrasiya dosyası, sayı 28, Ankara, mart 1995/1.
9. J.Libaridyan ilə aparılan görüşmə. Yeni Yüzil, 8 iyul 1995.
10. Lütem Ömer E. Olaylar və Yorumlar. Erməni Araşdırmaları, sayı 3, Ankara, 2001.
11.Milliyət. Ankara, 17 iyun 1995.

12.Rusiyanın əsgəri doktrini və Azərbaycan. Avrasiya dosyası, Ankara, cilt 3, sayı 4, 1996.
13. Şıxəliyev E. Erməni sorunu. Ankara, 2002.

Парвіз САМЕДОВ

ВЛИЯНИЕ АРМЯНСКОГО ЛОББИ НА ПРИМЕНЕНИЕ ЭМБАРГО К АЗЕРБАЙДЖАНУ

Резюме

В статье раскрываются політіческое і экономіческое воздействія, оказываемые на молодую республіку, сразу же после обретенія Азербайджаном своей независімості со стороны ряда государств, а также намеренія другіх сіл, стающіх за німі. Сообщается, что со временем прінятіе Конгрессом США поправкі к Акту 907 об оказаніі содействія свободе, предусматрівающей снятіе эмбарго с Азербайджана, вызвало небывалую реакцію у армянского лоббі. Автор отмечает, что содействіе армянскому лоббі, выступающему протів снятія эмбарго с Азербайджана, оказывалі некоторые граждане Турціі, армянского проісхожденія, под турецкімі іменамі, дело о которых в настоящіе время рассматрівается в государстве.

Ключевые слова: экономіческое эмбарго, армянское лоббі, турецкіе армяне, турецко-азербайджанскіе отношенія, карабахскій конфлікт.

Parvız SAMEDOV

THE İNFLUENCE OF ARMENİAN LOBBY ON LAYİNG EMBARGO ON AZERBAİJAN

Summary

In the article the political and economic prenure made on the young Republic of Azerbaijan immediately after obtaining its independence on the side of some states. And the intentions of other powers backing them are exposed. It is states that adoption of amendment 907 to the Actof Freedom Support meant for Azerbaijan aroused strong apposing reaction of the Armenian lobby. Author notes the Armenian lobby coming out against taking off embargo from Azerbaijan was aided by the citizens of Turkey of Armenian origin with Turkish names, at present their case is examined in the state.

Keywords: economic embargo, Armenian lobby, Armenians of Turkey, Turkish-Azerbaijani relations, Karabakh conflict.

İLAHİYYAT BÖLMƏSİ

UOT 124
Rauf MƏMMƏDOV
AMEA FSHİ-nun b. e.i., fəlsəfə üzrə fəlsəfə doktoru

İSLAM MƏNBƏLƏRİNDƏ MƏCUSİLİK DİNİ*

Qurani-Kərimə əsasən yeganə «haqq yolda» (sıratəl-müstəqim) olan - yalnız Allaha «iman edən» (mömin) və O'nun dini olan «İslama təslim olandır» (müslim). Bundan kənarda qalan «qeyri-müslim» camaatı isə «kafir»lərdir (1). Kafirlər də «əhli kitab» (zimmi) və «müşrik» (Allah'a şərik qoşan bütpərəst) camaatına bölünürlər. Bunlar arasında məcusilərin (həmçinin sabiilərin) hansı kateqoriyaya aid olmasını müəyyənləşdirmək çətin məsələdir. Qurani-Kərim'də yalnız bir yerdə məcusilər barədə məlumat verilir:

«Həqiqətən, Allah möminlər, yəhudilər, sabiilər, nasranilər, məcusilər və müşriklər arasında qiyamət günü hökmünü verəcəkdir. Şübhəsiz, Allah hər şeyə qadirdir!» (Həcc, 17**).**

Göründüyü kimi, ayədə öz adları ilə tanıdılan Sabiilik (2) və Məcusilik din tərəfdarlarının «kitab əhli» və ya «müşrik» camaatına aid olması ilə bağlı konkret bir dəlil mövcud deyildir. Məhz bu ayədən çıxış edərək, onların «kitab əhli» kateqoriyasına aid olması ilə bağlı konkret bir dəlilin ortaya qoyulması isə mümkün deyildir. Çünki Qurani-Kərim'də «kitab əhli» hüquqi statusuna aid olanlar yəhudi və nasrani (xristian) camaatıdır (3). Ayədə müşriklərin adının çəkilməsi isə, ayədə «kitab əhli»ndən bəhs olunması fikrini də təkzib edir. Buna görə bir çox təfsirçilər Qurani-Kərim'ə istinadən məcusilərin «kitab əhli» olması dəlilinin çıxarılmasını qeyri-mümkün saymışlar (4, s.442).

Maraqlıdır ki, sabiilər və məcusilər ayədə müşrik adı altında deyil, öz adları ilə tanınırlar. Onlar müşriklərə aid edilsəydilər, onda bu ayədə onların adına təsadüf olunmazdı. Əl-Bəlazuri kimi bəzi ərəb müəllifləri buna baxmayaraq bəzən məcusiləri müşriklər ilə eyniləşdirmişlər (5). Lakin məcusiləri və sabiiləri müşriklərdən fərqləndirən başqa bir cəhət də vardır. Bilindiyi kimi, müşriklərin peyğəmbər və kitabları mövcud deyildir. Lakin ənənələr sabiilərin və məcusilərin kitaba, peyğəmbərə sahib olduqlarını bildirir. Məcusilər ənənəvi olaraq Zərdüştü öz peyğəmbəri, «Avesta»nı isə öz kitabları hesab etdikləri kimi, həmçinin Mandai («elm, irfan, qnosis») kimi tanınan sabiilər də, ənənəvi olaraq Hz.İsanı deyil, Yəhya peyğəmbəri həqiqi peyğəmbər sayar və «Ginza»nı (başqa cür «Nasosace») isə öz kitabları hesab edərlər (6). Lakin əl-Razi, əl-Nişapuri kimi bir çox alimlər onların həqiqi peyğəmbərə sahib olmadıqlarını (mutənnəbi) söyləmişlər (5, s.442-443).

Deməli, ayədən çıxış edərək deyə bilərik ki, sabiilər və məcusilər nə müşrik, nə də «kitab əhli»nə aiddirlər. Onlar hər iki status arasında qərar tutan dini icmadırlar. Əl-Razi, məcusilərin «kitab əhli» ilə «müşriklər» arasında olan bir dini icma hesab etmişdir (5, s.442-443). Buna görə də, İslam hüququnda heç bir zaman onlara ayrıca bir status təyin olunmamışdır. Lakin İslamın ilk fatihləri, səhabələr, bir çox alimlər məcusiləri zimmi, yəni «əhli kitab» kimi tanımışdılar (7, s.128). Bu Qurani-Kərim'də məcusilər barədə deyilənlərə istinadən deyil, Məhəmməd Peyğəmbər'in (səs) məcusilər barədə söylədiklərinə və onlara qarşı olan davranışlarına istinadən ortaya çıxmışdır.

Ərəblər başqa dini icmalar ilə olduğu kimi, məcusilər ilə də əvvəlki dövrlərdən tanış idilər. Çünki Yaxın və Orta Asiya regionunda hökmranlıq etmək iddiasında olan Bizans və Sasani imperiyalarının birbiri ilə toqquşan hərbi-siyasi və mədəni təsirləri özünü hər yerdə büruzə verirdi. Sasanilərdə məcusilik dövlət dini səviyyəsinə qaldırıldığı üçün o, iranlıların milli dini kimi qəbul olunurdu. Sasanilər imperiyasının cənub sərhədləri Ərəbistan yarımadasına qədər uzanırdı. Ərəbistanın orta tərəfləri ilə Hicazın Məkkə istiqaməti təbii mühiti ilə bağlı olaraq digər millətlərlə əlaqəyə əlverişli olmadığından, buralarda yaşayanlar digər dinlərin təsirinə məruz qalmamışlar. Lakin yarımadanın şimal-şərqi, şimal-qərbi və cənub ərazilərində yaşayanlar qonşu millətlərin təsirinə məruz qalmışlar. Buna görə də, həmin ərazilərdə yəhudilik, xristianlıq, məcusilik, brahmanlıq kimi dinlər yayılmışdı (6, s.83).

---

*Məqalə fəl. e. d., prof. Ə.Abasov tərəfindən çapa məsləhət bilinib.

İslamın ilk dövrlərində Sasanilərin müstəmləkəçilik siyasəti ilə əlaqədar olaraq bəzi məcusi təriqətləri Nəcran, Bəhreyn və Dumət əl-Cəndəl kimi kiçik əmirliklərdə yayılmışdı. Sonralar Xosrov tərəfindən ləğv olunan məzdəkilik təriqəti, əvvəllər Qubad şahın təhriki ilə burada Harisinin başçılığı altında kindililər arasında qismən yayılmışdı. Həmçinin xirəlilər arasında Əmr b. Adiy rəhbərliyi ilə Manilik təriqətinə bağlı olanlar da vardır. Ümumiyyətlə, Sasani üsul-idarəsinə və ya məcusi kahinlər təbəqəsinin mənafeyinə qarşı zidd mövqedə dayanan məzdəkilik, manilik, xristianlıq kimi din və təriqətlər burada yayılmışdı (8, s.75-78).

Məhəmməd Peyğəmbər'in (səs) məcusiləri (həmçinin sabiiləri) «müşrik» deyil, məhz «kitab əhli» statusuna aid etməsi ilə bağlı hədislərin varlığı ilə yanaşı, onları müşriklərə aid etməsi ilə bağlı digər rəvayətlər də mövcud olmuşdur. (9, s.443) Bu, müsəlmanlar arasında ilk dövrlərdə müəyyən bir çaşqınlıq yaratmışdı. Lakin sonralar Peyğəmbər'in məcusiləri «kitab-əhli»nə aid etməsi ilə bağlı bir çox səhih mənbələrin ortaya çıxması şübhələrin ortadan qalxmasına və məcusilərin hüquqi statusunun möhkəmlənməsinə imkan yaratmışdı.

Təbəriyə görə, Məhəmməd Peyğəmbər (səs) Sasani hökmdarı Hörmüzd oğlu Pərvizə göndərdiyi məktubunda bildirmişdi: «….**Ey Pərviz! Sən də müsəlman ol və Böyük Allah'ın əzabından qurtul!**» Öz adının Rəsullah'ın adından sonra yazıldığını görən Pərviz hiddətlənərək məktubu parçalamışdı. Peyğəmbər bundan narahat olan səhabələrinə belə buyurmuşdu: «**Fikir verməyin, narahat olmayın! O Pərviz, özünü və səltənətini parçaladı**» Təbəri deyir ki, Pərviz dərhal Yəmən canişini Bazana məktub göndərərək Peyğəmbəri həbs edib yanına gətirilməsini əmr etmişdi. Lakin bunun üzərindən bir neçə gün keçəndən sonra Pərviz öz oğlu tərəfindən öldürülmüşdü (10, s.39-40). Bununla Sasanilərin Yəməndə hökmranlığı bitmişdir.

Məmləkətlərinə dönən Sasani ordusunun qalanlarından formalaşan Yəməndəki məcusilər «abna» adlandırılırdılar. Peyğəmbər Oman və Yəmənə öz dinində qalmaq istəyən xristian, yəhudi və məcusilərdən cizyə toplamaq üçün elçilər göndərmişdi (7, s.443). Yəməndə əl-Əsvad adlı yalançı bir peyğəmbər ortaya çıxmışdı. Peyğəmbər ona qarşı Yəmənə bir ordu göndərdiyi zaman ordunun sərkərdəsinə yalançı peyğəmbər tərəfindən işkəncəyə məruz qalan məcusiləri öz tərəfinə çəkməyə səy göstərməsini tövsiyə etmişdi. Məcusilərin başçılarından sayılan Dazavayh (Dazuya) İslamı qəbul etmiş və digər məcusilər də onun tövsiyəsini qəbul etmişlər. Onlar əl-Əsvada qarşı müsəlmanların mübarizəsində onlara yardım etmişlər. Yəmən məcusiləri ilə Peyğəmbər ilk gündən zimmi kimi rəftar etmiş və bunun nəticəsində onlar könüllü şəkildə İslamı qəbul etmişlər (7, s.443-444).

«Hicrətin 8-ci ilində zilqadə ayının sonlarında Məhəmməd Peyğəmbər (səs) Ala b. Hadrami ilə Bəhreynin hökmdarı Münzir b. Sava İslama dəvət etmək ilə əlaqədar bir məktub göndərdi. Ala b. Hadraminin yanında Hz. Əbu Hüreyrə də var idi (11).

«Bəhreyn Hindistan ilə Bəsrə və Üman arasında olan bütün dənizsahili ərazilərdəki məmləkətlərə verilən addır. Burada xalqın bir qismi məcusi, bir qismi yəhudi, digər bir qismi də nasranidir. Ala b. Hadrami Münzir b. Savanın hüzuruna yetişərək Peyğəmbərimizin (səs) məktubunu ona çatdırdı. Məktubda aşağıdakılar yazılmışdı:

«Bismillahir Rəhmanir Rəhim. Hidayətə uyanlara salam olsun! Mən, səni İslama dəvət edirəm! Müsəlman ol, salamata qovuş! Allah əllərinin altındakı hökmranlığını yenə səndə saxlayar. Onu bil ki, mənim dinim dəvələrin və insanın ayaq basa bildiyi bütün yerlərə qədər yayılaraq, hakim olacaqdır» (12, s.444).

«Ala b. Hadrami ilə Münzir b. Sava bir müddət söhbət etdikdən sonra Münzir b. Sava, məcusi dini icma rəhbəri olan Sibuht ilə birlikdə müsəlman oldu» (13, s.444). Beləliklə o, dünya səltənəti yanında mənəvi səltənəti də təmin edən imanı əldə etdi. Hökmdar və dini icma rəhbəri ilə birlikdə xalqdan bir çoxları da İslamı qəbul etmək şərəfinə nail oldular.

Münzir b. Sava Peyğəmbərimizə (səs) bir məktub göndərdi. Müsəlman olduğunu, peyğəmbərliyini təsdiq etdiyini bildirdikdən sonra qeyri-müsəlmanlar ilə, ölkəsində olan məcusi və yəhudilər ilə necə davranmağın yollarını soruşdu.

Rəsuli-Əkrəm Münzirin məktubuna belə cavab verdi:

«Bismillahir Rəhmanir Rəhim. Məhəmməd Rəsulullah'dan Münzir b. Savaya!

Allah'ın salamı üzərinə olsun! Mən, sənə olan hidayət neməti ilə əlaqədar Özündən başqa ilah olmayan Allah'a həmd edirəm. Allah'dan başqa ilah olmadığına və Muhəmməd'in də Allah'ın qulu və Rəsulu olduğuna şəhadət edirəm!

Məktubunu aldım və yazdıqlarını oxuyub dinlədim. Sənə, Uca Allah'ı, O'nun əmr və yasaklarına görə hərəkət etməni xatırladıram. Nəsihət edən, özü də hökmən ondan nəsihət alır və

savabından istifadə edir. Elçilərimə itaət edən və onların əmrlərinə riayət edən, mənə itaət etmişdir. Onları dinləyən, məni dinləmişdir. Elçilərim, səni mənə tərifləmişdilər və barəndə xoş sözlər danışdılar. Sənin qövmün barədə olan şəfaət iltimasını qəbul etdim. Onlardan müsəlman olanları, müsəlman olduqları şeylərə görə burax! Günahkar olanların keçmişdəki günahlarından keç! Onları keçmişdə etdiklərinə görə məsuliyyətə çəkmə! Bil ki, yaxşı davranana qədər, səni işindən ayırmayacıyıq, bizim orada vəkilimiz olaraq davam edərsən! Yəhudilik və məcusilik dinində qalmaq istəyənlərə gələndə isə, onları cizyəyə bağlayarsan! Salam və Allah'ın Rəhməti üzərinə olsun!» (14).

«Məhəmməd Peyğəmbərin (səs) Münzir b. Sava müxtəlif vaxtlarda daha bir neçə məktub göndərdiyi və cavab aldığını göstərən mənbələr vardır (15). Peyğəmbərin (səs) əmri ilə Ala b. Hadrami burada qaldı. O, müsəlmanlardan öşür, müşriklərdən isə cizyə almaqda davam etdi. Hicrətin 8-ci ilində ətraf qəbilələrdən bir çox heyətlər Mədinəyə Məhəmməd Peyğəmbərin (səs) yanına gələrək müsəlman olduqlarını bildirdilər (16).

Peyğəmbərin Bəhreyndəki məcusilər ilə əlaqədar olan fikir, əmr və davranışları, yəni məcusilərlə ilk sülh müqaviləsinin Məhəmməd Peyğəmbər (səs) tərəfindən bağlandığı və onlara cizyə vergisinin tətbiq olunduğu sonralar məcusilərə münasibətdə əsas hüquqi mənbə kimi götürülmüşdür. Onlar arasında Yusif Yaqub İbrahim əl-Kufinin İslamın ilk yayıldığı dövrləri əks etdirən «Kitabül Xərac» əsərində verdiyi məlumatlar daha dəyərlidir. O bildirir ki: «Peyğəmbərin məcusilər ilə bağlı hökmünü sonralar dörd xəlifə də təsdiq etmişdir» (17). O, sonra yazır:

«Qeys b. ər-Rəbi əl-Əsədi bizə Qeys b. Müslim əl-Judalidən, o da Həsən b. Məhəmməddən belə rəvayət etmişdir: «Allahın Rəsulu Həcərin məcusi sakinləri ilə sülh müqaviləsi bağladı. Onlardan cizyə alınması, qadınları ilə nikah bağlanmaması və qurbanlıqlarından yeyilməməsi barədə şərt kəsdi». Bunu, İbn Abbasa istinad edən Məhəmməd Əbu Salih də təsdiq etmişdir» (17, s.229-231).

«Sufyan b. Uyayna bizə Nəsr b. Asim əl-Leylidən, o da Əli b. Əbu Talibdən belə rəvayət etmişdir: «Mən məcusiləri hamıdan yaxşı tanıyıram. Onların oxuduqları ilahi kitabları və öyrəndikləri elmləri olmuşdur. Lakin bunların hamısı onların qəlbindən silinmişdir» (25).

Buxari həmçinin İran elçisinə verilən bu cavabı belə nəql etmişdir: «Peyğəmbərimiz bizə, siz Allah'a və yanlız O'na xidmət edənə və ya cizyə ödəyənə qədər, sizinlə mücadilə etməmizi əmr etdi»(18).

Lakin Xəlifə Ömər b. Xəttabın məcusilərin zimmi, yaxud müşrik olması ilə bağlı məsələdə tərəddüd edərək - «Bilmirəm onlarla nə edək» dediyini bildirirlər:

«Bizə, şeyxlərdən biri, Jəfər b. Məhəmməd öz atasının sözlərinə istinad edərək belə demişdir: «Ömər b. Xəttabdan oda pərəstiş edən və yəhudi, xristian, ümumiyyətlə, kitab-əhli olmayanlar barədə soruşdular. Ömər dedi: «Bilmirəm onlarla nə edək».

Onda Əbdürəhman b. Avf ayağa qalxdı və dedi: - «Mən şəhadət edirəm ki, Allah Rəsulu buyurmuşdur: «Mən kitab-əhli ilə necə rəftar edirəmsə, onlarla da elə rəftar edin!»

«Ömər əl-Xəttab Mənazir və Dastmaysan əyalətinə əmirlik edən Jaz b. Müayaya belə yazmışdır: «Allahın Rəsulu Həcərdəki məcusilərdən cizyə aldı. Sən də ətrafında yaşayan məcusilərdən cizyə al!» (17).

Halbuki başqa bir rəvayətə görə, Xəlifə Ömər ölümündən bir il əvvəl Caz b. Müayaya məcusilər barədə göndərdiyi bir məktubunda bir sehrbazın öldürülməsini, bir məcusinin arvad və uşaqlarından ayrılmasını, məcusilərin dodaqlarının altında etdikləri zümzümə (zamzama, yeni farsca – bac) ənənəsinin qadağan edilməsini əmr etmişdir. Abd əl-Rəhman b. Avf Bəhreyndəki məcusilərdən cizyə alındığını Xəlifə Ömərə inandırana qədər, o, onlardan cizyə almaqdan imtina etmişdir (20).

Lakin Xəlifə Ömər b. Xəttabın Bəhreyndəki hadisələrdən xəbərsiz olması da qəribə səslənir. Çünki o, Peyğəmbəri daim müşahidə edən səhabələr sırasında olmuşdur. Bəlkə, Hz. Öməri xəlifəlik vəzifəsində sıxışdıran başqa məsələlər olmuşdur. Hz.Əbu Bəkrin xəlifəliyi dövründə Bəhreyndə olan məcusilər üsyan edərək cizyə verməkdən boyun qaçırmış və ancaq Hz.Ömər xəlifələyi dövründə onlar yenidən tabe edilmişdilər (5, s.444).

Məcusilərin dini ibadət və mərasimləri müsəlmanların gözündə müşrikləri xatırladırdı. Onlar atəşin və ya bütlərin önündə dayanaraq ibadət edən məcusiləri atəşpərəst, bütpərəst hesab edirdilər. Qurani-Kərim'də yəhudi və xristianların «kitab-əhli» olması ilə bağlı ayələri məcusiləri, sabiiləri bu siyahıdan çıxarıb atmağa kifayət edirdi. Lakin onların qarşısını alan Peyğəmbər'in məcusilərlə bağlı olan sünnəti idi. Bunu bir çox səhabələr təsdiq edirdi. Xüsusilə, müsəlmanlar daima Peyğəmbər'dən sonra onun sünnəti ilə bağlı bir çox məsələlərdə Hz. Əliyə müraciət etmişlər. Hz. Əli nəinki məcusilərin Peyğəmbər tərəfindən müəyyənləşdirilən hüquqi statusu barədə, hətta onların təliminin mahiyyəti ilə də bağlı dəyərli fikirlər söyləmişdir:

«Fitr b. Xəlif deyir ki, Fərv b. Naufəl belə demişdir: «Kitab-əhli olmayan məcusilərdən cizyə almaq mürəkkəb məsələdir».

Bu zaman Mustaurid b. əl-Əhnaf ona belə dedi: «Sən Allah Rəsulu'nun sözünü təkzib etdin. Üzr istə, yoxsa səni öldürərəm». Sonra sözlərinə davam edərək dedi: «Axı, Allah Rəsulu Həcər məcusilərindən cizyə almışdır».

Sonra biz bu məsələyə aydınlıq gətirilməsi ilə əlaqədar Əli b. Əbu Talibin yanına getdik və o, bizə dedi: «Allahın Rəsulu onlardan ilahi kitab ilə əlaqədar olaraq cizyə təyin etdi. Lakin onların bütpərəstliyini nəzərə alaraq onlarla nikah bağlamağı və qurban etdikləri əti yeməyi qadağan etdi» (7, s.229-231).

Ərəblər arasında məcusilərin statusuna qısqanclıqla yanaşanlar da olurdu. Çünki ərəb müşriklərinin məcusilər kimi seçim hüququ yox idi. Hətta bəzi ərəblər Həcərdə (Bəhreyn) məcusilərdən cizyə alınması ilə bağlı Peyğəmbəri tənqid etmişdilər. Bununla əlaqədar olaraq V surə 104-cü ayə nazil olmuşdur (5, s.444).

Bir çox ərəblər buna təbii baxmırdılar. Məsələn, Əbu Yusif Yaqub İbrahim əl-Kufi qeyri-ərəb bütpərəst əhalidən cizyə alındığı halda, bütpərəst ərəblərə qarşı bunun edilmədiyini, onların İslamı qəbul etmədikləri təqdirdə öldürüldüyünü, uşaq və qadınlarının əsir götürüldüyünü bildirirdi (17, s.229). O, qeyri-ərəb bütpərəst məcusilərin «kitab-əhli» statusuna aid edilməsi barədə belə yazırdı: «Axı, Allahın Rəsulu (Bəhreyndəki) Həcər şəhərindəki məcusilərdən cizyə almışdır. Amma məcusi bütpərəstlər «əhli-kitab»a aid deyildirlər. Onlar bizə görə qeyri-ərəbdirlər. Onların qadınları ilə evlənmək, qurbanlıqlarından yemək olmaz» (17, s.116).

Müəllif, bunun siyasi məqsədlərə söykəndiyini bildirmək üçün ərəb mənşəli Taqlib xristianları ilə müqayisə edir. O, Peyğəmbər'in (səs) xristian ərəb tayfası olan Taqlibitlərdən cizyə alması gərəkdiyi halda, onlardan xristianlığı övladlarına təbliğ etməmək şərti ilə cizyə almamasını siyasi addım hesab edirdi (17, s.214). Məcusilərin statusu ilə bağlı səhih hədislərə münasibət də fərqli idi. Fakihlərin bir qismi bu hədislərin həqiqətəuyğun olmadığını iddia edir, yaxud onları başqa cür şərh etməyə çalışırdılar. Bəziləri də bunun məcusiləri (həmçinin sabiiləri) tədricən İslama gətirmək üçün edildiyini söyləyirdilər. Hər halda, Qurani-Kərim'də məcusilərin, sabiilərin müşriklər və «kitab-əhli» arasında qalan qeyri-müəyyən statusuna sonralar Peyğəmbər tərəfindən aydınlıq gətirilmişdir. Qurani-Kərim'də Məhəmməd Peyğəmbərin (səs) bütün iradəsi ilə Allah'ın iradəsinə tabe olması barədə söylənilən ayələr (21), İlahi İradənin Peyğəmbər vasitəsi ilə bu tarixi hadisələrə tam müdaxilə etməsindən xəbər verir.

Məhəmməd Peyğəmbər (səs) müxtəlif etnomədəni substansiyaları əhatə edən böyük bir coğrafiyada İslamı yaymaq və onu insanların qəlbində yerləşdirmək üçün «tədricən sevdirmək» təbliğ metoduna üstünlük vermişdir. Çünki Peyğəmbər (səs) Bəhreyn əmiri Münzirə göndərdiyi məktubundan bəlli olduğu kimi, öncədən İslamın böyük bir coğrafiyaya hakim olacağını bilirdi (**Onu bil ki, mənim dinim dəvələrin və insanın ayaq basa bildiyi bütün yerlərə qədər yayılaraq, hakim olacaqdır**» (12). Məhz bunu bildiyi üçün öncədən müsəlmanların gələcəkdə tətbiq edəcəkləri təbliğ metodunu və ya İslamı yaymaq siyasətini müəyyənləşdirmişdir. O, praktiki olaraq, bu siyasətin nəticəsini hələ öz dövründə görmüşdür. Çünki hicrətin 8-ci ilində ətraf qəbilələrdən bir çox heyətlər Mədinəyə Məhəmməd Peyğəmbər'in (səs) yanına gələrək müsəlman olduqlarını bildirmişdilər (16).

Mədinə dövləti timsalında sosial ədalət və azadlıq nümunəsinə çevrilən İslam dini dünyada sosial-siyasi sistemlərdə sıxılan böyük insan kütlələrini azadlığa və ədalətə səsləyən ümumbəşəri bir üsyan idi. Dünyanın hər yerindən Peyğəmbər'in (səs) yanına gələn və O'nun dinini qəbul edən səhabələr sonralar bu xalq hərəkatlarının genişlənməsində mühüm rol oynamışlar. Buna görə də, İslam dini nəinki Sasanilər dövləti üçün, ümumiyyətlə, bütün əsarətçi rejimlər üçün böyük təhlükə idi. Çünki İslam hakimiyyətin mənbəyi olan insanların qəlbini fəth etmək yolunu tutmuşdur.

Açar sözlər*:* Avesta, məcusilik, müsəlman, hədis, zimmi, səbaiililər, müsrik camaatı.

İstifadə olunmuş ədəbiyyat

1. Qurani-Kərim. Bəqərə 21; Zariyat 56**; Mulk** 2; Əraf 84; Kəhf 29**; Təğabun** 2.

2. Qurani-Kərim. Bəqərə 62; Maidə 69**; Həcc 17.**

3. Qurani-Kərim. Bəqərə 111, 113, 120, 121, 144-146; Maidə 18, 51**; Ali İmran** 19, 20, 67; Əraf 84; Kəhf 29; Təğabun 2.

4. **Bayzavi**, nəşr. Fleischer, s. 629, **əl-Zamahşari**, Kaşşaf, s.901, **əl-Razi** Mafatih əl-Qeyb, IV. S.554. **əl-Nişapuri və Təbəri**nin «Təfsir» əsərlərində. İslam Ansiklopedisi. J. VII. İstanbul, 1988.

5. İslam Ansiklopedisi. J. VII. İstanbul, 1988.

6. Şemseddin Günaltay. İslam öncesi araplar ve dinleri. Ankara, 1997. Manilik təliminin sabiilikdən təsirləndiyini söyləyənlər də vardır. Onlarda suların kənarında tikilən məbədləri yanlız ulduzpərəst kahinləri ziyarət edirlər. Xristianlarda olan tərkidünyalığı qəbul etmirlər. Onların bütləşdirilmiş astral kultlarının mənşəyində təhrif olunmuş Mütləq Ağıla sitayiş dayanır. Onların bir çox dini mərasimləri xürrəmilərdə də müşayiət olunur. Məsələn, çörəklə bağlı ayinlərindən birində çörəyi şəraba qatırlar. Bu mərasim Babəkin tac mərasimində də icra olunmuşdur.

7. Es-Serahsi, el-Mebsut, X, s. 7. İbn Kayyum el-Jevzi, Ahkam I, s.2. Prof. Dr. Zekeriya Kitapcı. Orta Asiyada islamiyetin yayılışı ve Türkler. Konya, 1998. «Kuzucular».

8. Dr. Neşet Çağatay. İslam öncesi arap tarihi ve cahiliye çağı. Ankara, 1982.

9. Abu-Davud, XIX, 29. II, 30. İslam Ansiklopedisi. J. VII. İstanbul, 1988.

10. Təbəri III, İstanbul (576 s.).

11. İbn Sad. Tabakâtül kübra 1:263. Sîre, 4:254; www. darulkitab.com

12. Prof. Dr. M. Hamidullah, İslâm Peygamberi, 1:272 İslam Ansiklopedisi. J. VII. İstanbul, 1988.

13. Ravdü'l-Ünf, 7:520; İnsanü'l-Uyûn, 3:301. İslam Ansiklopedisi. J. VII. İstanbul 1988.

14. Ibn Kayyim el-Cevziyye. Zâdü'l-Mead, 3:73; Mevahibü'l-Ledünniye, 1:294; İnsanü'l-Uyûn, 2:267-300; Taberî, 3:102 www. darulkitab.com

15. İbn Sad. Tabakâtül kübra 1:263-276; Taberî, 3:102-103; Ibn Hacer el-Askalani "el-İsâbe fi temyizis-sahabe" 3:460. www. darulkitab.com

16. İbn Sad. Tabakâtül kübra, 1:298, 326-327; Ibn Kayyim el-Cevziyye. Zâdü'l-Mead, 3:60; Ibn Hacer el-Askalani "el-İsâbe fi temyizis-sahabe" 3:423 www. darulkitab.com

17. Abu Йusuf Йakub Иbraxim al-Kufi. Kitab alğ-Xaradj. Cankt-Пeterburq (Пeterburqskoe vostokovedenie), 2001.

18. Əli b. Əbu Talib məcusilərin müqəddəs kitablarının olmasını və sonradan etdikləri əməllərə görə kitablarının səmaya çəkildiyini söyləməsi ilə bağlı digər rəvayətlər də buna bənzəyir. Bu məlumat ilk dəfə Şevkani (VIII. S. 64-65) tərəfindən verilmiş və sonra İbn Hazm da ona istinad etmişdir. İslam Ansiklopedisi. J.13. İstanbul, 1996.

19. Sahih Buhari. II. 145. Kahire 1304. İslam Ansiklopedisi. J. VII. İstanbul, 1988.

20. Ebu Davud, XIX, 29. 11, 30. İbn Hanbal, Müsned I, 190, 194. Sahih Buhari. II. 144. Kahire 1304. www. darulkitab.com

21. Qurani-Kərim. Sura 52-53; Nəcm 1-4; Haqqa 44-47; Maidə 67; Qasas 56; Ənam 125.

Pauf MAMEДOB

PELIQIƏ MADJUSI V ISLAMSKIX ISTOÇNIKAX

Pezöme

Уje v VII v. Casanidskiy Иran perestal suhestvovatğ kak samostoətelğnoe qosudarstvo, tak kak poçti vsə eqo territoriə okazalasğ pod vlastğö arabov. Пobediteli otnosilisğ k zoroastriyüam, tak je, kak k xristianam i iudeəm, nazıvaə ix "zimmiəmi" ("inoverüami"). Ha osnovanii zaklöçennoqo s nimi soqlaşeniə im qarantirovalasğ jizng, svoboda, razreşalosğ ispovedovanie svoey verı i soxranenie altarey oqnə. Зimmii doljnı bıli requlərno platitğ poduşnuö podatğ (djizğö), kotoraə vzimalasğ lişğ s "nevernıx". B VIII—IX vv. bolğşinstvo naseleniə Arabskoqo xalifata postepenno prinimaet islam. Зoroastriyskie svəhennoslujiteli staralisğ soxranitğ i uvekoveçitğ srednepersidskiy əzık s eqo sistemoy pisğmennosti, a takje "sakralğnıy əzık Avestı".

Klöçevıe slova: Avesta, maq, musulğmanin, istoçnik, xadis, zimmii.

Rauf MAMMADOV

THE RELIGION MAJUSI IN THE ISLAMIC SOURCES

Summary

In the VIIth century already the Sasanian Iran ceased to exist as an independent state as almost all its turned to be under Arabians′ authority. The winners treated the Zoroastrians as well as the Christians and Yudaists naming them zimmi of a different faith too.

On the basis of the concluded agreements they were guaranteed a life and freedom, they were allowed to confess their faith and preservation of fire altars. The Zimmis had to pay regularly the poll-tax which was raised only from «the intrue». In the VIII-IX c.c. the majority of the population of the Arabian

Caliphate gradually adopts Islam. The Zoroastrian crergymen tried to keep and immortalize the Middle Persian language with its system of of writing and also «the sacral language of Avesta».

Keywords: Avesta, magician, moslems, a source, hadis, zimmi

HÜQUQ BÖLMƏSİ

UOT 343

Mirağa CƏFƏRQULİYEV
AMEA FSHİ-nin baş e.i.,
hüquq elmləri doktoru, professor

SON 20 İLDƏ MÜSTƏQİL AZƏRBAYCAN RESPUBLİKASININ CİNAYƏT-PROSESSUAL HÜQUQUNUN STABİL İNKİŞAF PROSESİ*

Sovet imperiyasının dağılması ilə müstəqillik yoluna qədəm qoyan Azərbaycan xalqı gələcək inkişaf yollarını, öz dövlətinin daxili və xarici siyasətini sərbəst müəyyən etmək imkanı əldə etdi. 1989-cu il sentyabrın 23-də Azərbaycan SSR Ali Soveti tərəfindən qəbul edilmiş «Azərbaycan Sovet Sosialist Respublikasının suverenliyi haqqında» Azərbaycan SSR-in Konstitusiya Qanunu, «Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpası haqqında» Azərbaycan Respublikası Ali Sovetinin 1991-ci il avqustun 30-da qəbul etdiyi Bəyannamə Azərbaycanın müstəqilliyinə doğru atılan ilk hüquqi addımlar idi.

Beləliklə, 1991-ci il oktyabrın 18-də Azərbaycan Respublikasının Ali Soveti tərəfindən «Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında» Konstitusiya aktının qəbul edilməsi Azərbaycan xalqının dövlət müstəqilliyi uğrunda apardığı mübarizənin yekun nöqtəsi oldu.

Azərbaycan Respublikasının beynəlxalq hüququn subyekti kimi tanınması, ictimai həyatın bütün sahələrində köklü iqtisadi və siyasi, o cümlədən hüquqi islahatların aparılması zərurəti yeni Konstitusiyanın qəbul edilməsini şərtləndirən başlıca amillərdən olmuşdur.

1990-cı ildə Azərbaycan SSR məhkəmələrinin təşkili və fəaliyyəti ilə bağlı Azərbaycan SSR Ali Soveti bir sıra mühüm qanun və qərarlar qəbul etdi. Onlara aşağıdakıları aid etmək olar: «Azərbaycan SSR məhkəmə quruluşu haqqında» Azərbaycan SSR-in Qanunu; «Azərbaycan SSR məhkəmə quruluşu haqqında» Azərbaycan SSR Qanununun qüvvəyə minməsi qaydası barəsində» Azərbaycan SSR Ali Sovetinin qərarı; «Azərbaycan SSR məhkəmələri hakimlərinin və xalq iclasçılarının andı haqqında» Azərbaycan SSR Ali Sovetinin qərarı; «Azərbaycan SSR məhkəmələri hakimlərinin intizam məsuliyyəti, hakimlərin və xalq iclasçılarının geri çağırılması və vaxtından əvvəl azad edilməsi haqqında Əsasnamənin təsdiq olunması barədə» Azərbaycan SSR-in Qanunu» və digərləri.

Dövlət müstəqilliyinin bərpası və yeni dövlətçiliyin təşəkkül tapması prosesi həmin dövlətin, ilk növbədə, öz müvafiq milli hüquq sisteminin yaradılması problemini bütün kəskinliyi ilə qarşıya qoyur. Azərbaycan Respublikasının formalaşmaqda olan hüquq sistemində bu günün sosial-iqtisadi gerçəklikləri, o cümlədən bazar iqtisadiyyatının yaradılması və inkişafı, yəni əslində dövlətin iqtisadi və siyasi əsaslarının kökündən dəyişdirilməsi kimi faktorlar öz real əksini tapmalıdır. İstənilən müstəqil dövlətin hüquq sisteminin, cinayətkarlıqla aparılan mübarizənin çox vacib tərkib hissəsini cinayəy hüququ və buna müvafiq cinayət-prosesssual hüquq təşkil edir.

Demokratik qaydaların bərqərar edilməsi, insan hüquq və azadlıqlarının müdafiə olunması məsələləri bu gün demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu yolu ilə irəliləyən respublikamızın həyata keçirdiyi islahatların əsas mahiyyətini təşkil edir.

Son illərdə ölkəmizdə aparılan demokratik islahatlar daha geniş xarakter almış, məhkəmə hüquq sisteminin yenidən qurulması sahəsində, artıq demək olar ki, müəyyən müsbət nəticələr əldə edilmişdir.

Məhkəmə hüquq islahatının əsas xüsusiyyətlərindən birini ədalət mühakiməsi sisteminin yenidən qurulması təşkil edir. Belə ki, hüquqi dövlətdə dövlət hakimiyyətinin müstəqil, sərbəst qanadı kimi məhkəmə hakimiyyəti xüsusi yer tutur. Məhz bu hakimiyyətin gücü ilə məhkəmə orqanları dövlət hakimiyyətinin qanunvericilik və icra orqanlarını əvəz etmədən onların arasındakı və ictimai münasibətlərin digər subyektləri arasındakı mübahisələri həll edirlər. Məhkəmə orqanları hüququn bütün subyektləri üçün məcburidir və dövlət hakimiyyəti kimi onların gücü də məhz bunda təzahür edir. Məhkəmələr öz qərarlarını dövlətin adından çıxarır, bu qərarların icrasını isə dövlət təmin edir.

Müasir həyat qanunlarla tənzimlənir. Hər bir yeni qanunun qüvvəyə minməsi öz-özlüyündə irəliyə atılmış vacib bir addımdır. Bu baxımdan 14 iyul 2000-ci il tarixdə qəbul olunmuş və 1 sentyabr 2000-ci

---

* Məqalə h.e.d.,prof. B. Zahidov tərəfindən çapa məsləhət bilinib.

ildə qanuni qüvvəyə minmiş Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi, demək olar ki, ədalət mühakiməsinin həyata keçirilməsinə dair yeni Konstitusiyanın tələblərinin yerinə yetirilməsinin bariz nümunəsidir.

Müstəqil Azərbaycan Respublikasının cinayət-prosessual qanunvericiliyi 20 illik qisa zaman kəsiyində, demək olar ki, yenidən qurulmuş və surətlə inkişaf etməkdədir. Buna, bu dövr ərzində Milli Məclis tərəfindən qəbul olunmuş çoxsaylı qanunları misal göstərmək kifayət edər.

Belə ki, 10 iyun 1997-ci ildə "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanunun qəbul olunması ilə köhnə məhkəmə sisteminə son qoyuldu. Lakin onu da qeyd edək ki, göstərilən Qanunun qəbul olunması ilə müəyyən edilmiş məhkəmə sistemi dərhal yox, yalnız 17 iyun 1999-cu ildə "Azərbaycan Respublikası məhkəmələrin təşkili və fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanından sonra yaradılaraq funksiya göstərməyə başladı.

1995-ci il noyabrın 12-də müstəqil və suveren Azərbaycan Respublikasının Konstitusiyasının qəbul edilməsi Azərbaycanın dövlət və hüquq tarixində xüsusi yer tutan mühüm hadisələrdən biridir. Birmənalı olaraq qeyd etmək lazımdır ki, milli dövlətin formalaşmasında, hüquq sisteminin və milli qanunvericiliyin inkişafında Konstitusiyanın əhəmiyyəti əvəzsizdir.

Konstitusiyanın "Məhkəmə hakimiyyəti " adlanan VII fəslində məhkəmə hakimiyyəti institutu öz geniş şərhini tapmışdır. Belə ki, hakimiyyətin bölünməsi prinsipinə uyğun olaraq, məhkəmə hakimiyyəti müstəqildir və o, hakimiyyətin başqa qollarından asılılığı olmadan həyata keçirilir. Konstitusiyada istifadə edilən "məhkəmə hakimiyyəti" termini hüquqi dövlətdə hakimiyyətin bölünməsi prinsipindən irəli gələn və məhkəmənin dövlət hakimiyyəti sistemində yerini müəyyən edən hakimiyyət növünün qısa ifadəsidir.

Konstitusiyaya görə məhkəmə hakimiyyətinin əsasını müxtəlif səlahiyyətləri olan, nümayəndəli və icra orqanlarından asılı olmayan məhkəmə orqanlarının məcmusu təşkil edir. Azərbaycan Respublikasının məhkəmə sistemi Azərbaycan Respublikasının 12 noyabr 1995-ci ildə qəbul olunmuş Konstitusiyaya uyğun olaraq, respublikada fəaliyyət göstərən, məhkəmə hakimiyyətinin vahid vəzifələri, təşkilati və fəaliyyət prinsipləri altında birləşmiş bütün məhkəmələrin məcmusundan ibarətdir.

Azərbaycan Respublikası məhkəmə sisteminin quruluşu "Məhkəmələr və hakimlər haqqında" 1997-ci il 10 iyun tarixli Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edildikdən sonra Azərbaycan Respublikasının 16 iyun 2007-ci il və 22 fevral 2008-ci il tarixli qanunları və CPM-in 66-cı maddəsinə edilmiş əlavələr və düzəlişlər nəticəsində cinayət mühakimə icraatını həyata keçirən məhkəmə sistemində böyük dəyişikliklər baş vermişdir. Bütün bu dəyişikliklərdən sonra, hal hazırda, respublika cinayət mühakimə icraatını aşağıdakı məhkəmələr həyata keçirir:

1) rayon (şəhər) məhkəmələri;

2) hərbi məhkəmələr;

3)Ağır Cinayətlərə Dair İşlər üzrə Azərbaycan Respublikasının Məhkəməsi;

4) Ağır Cinayətlərə Dair İşlər üzrə Azərbaycan Respublikasının Hərbi Məhkəməsi ("Məhkəmə quruluşunda bəzi dəyişikliklər, hakimlərin ümumi sayı və məhkəmələrin ərazi yurisdiksiyası haqqında" Azərbaycan Respublikası Prezidentinin 09.08.2010 tarixli Fərmanı ilə ləğv edilmişdir, lakin AR CPM-in 66-cı maddəsinə hələ müvafiq dəyişiklik edilməmişdir.)

5) Ağır Cinayətlərə Dair İşlər üzrə Naxçıvan Muxtar Respublikasının Məhkəməsi;

6) Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsi;

7) apellyasiya məhkəmələri;

8) Azərbaycan Respublikasının Ali Məhkəməsi.

Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi məhkəmə hakimiyyəti sistemində ayrıca yer tutur. Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi Konstitusiya ilə onun səlahiyyətlərinə aid edilmiş məsələlərə dair ali konstitusiya mühakiməsi orqanıdır. Konstitusiya Məhkəməsinin əsas məqsədi Azərbaycan Respublikası Konstitusiyasının aliliyini təmin etməkdən ibarətdir və onun fəaliyyəti 23 dekabr 2003-cü il tarixdə qəbul olunmuş "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikasının Qanunu ilə tənzim olunur (4)

Yuxarıda qeyd etdiyimiz kimi, Konstitusiyanın VII fəslində dövlət hakimiyyəti sistemində məhkəmə hakimiyyətinin yeri, hakimlərin təyin edilməsi qaydaları, onların səlahiyyətləri göstərilir. "Məhkəmələr və hakimlər haqqında" Qanuna gəldikdə isə qeyd etmək lazımdır ki, bu Qanun müasir ölkələrdə olduğu kimi Azərbaycanda da dövlətin konstitusiya quruluşunun əsaslarının, fiziki və hüquqi şəxslərin hüquqlarının və maraqlarının müdafiəsinin təmin edilməsinə yönəldilmiş yeni məhkəmə sistemini yaratdı. Məhkəmələrin təsis olunması qaydasını şərh edərək adı çəkilən Qanunun 1 -ci maddəsində göstərilir ki, Azərbaycan Respublikasında Azərbaycan Respublikasının qanunları ilə təsis edilmiş Azərbaycan Respublikası

məhkəmələri fəaliyyt göstərirlər. Azərbaycan Respublikası Konstitusiyasının 125-ci maddəsinin VI hissəsinə uyğun olaraq məhkəmələrin səlahiyyətlərinin dəyişdirilməsi məqsədilə müəyyən olunmamış hüquqi üsulların tətbiq edilməsi və fövqəladə məhkəmələrin, eləcə də xarici dövlətlərin, yaxud bu qanunla nəzərdə tutulmayan qaydada məhkəmələrin yaradılması qadağandır.

Haqqında söhbət apardığımız Qanun 21 fəsil, 123 maddə və 7 bənddən ibarət keçid müddəalardan ibarətdir. Qanun mohkəmə hakimiyyətinin anlayışını; ədalət mühakiməsinin həyata keçirilməsinə dair əsas müddəaları; Azərbaycan Respublikasının məhkəmə sistemini; Azərbaycan Respublikası məhkəmələrinin fəaliyyətinin təşkilati təminatı məsələləri; hakimlərin statusunu, onların təyin edilməsi, səlahiyyətləri və mıüstəqilliyi, hakimlərin maddi və sosial təminatı, hakimlərin həvəsləndirilməsi, səlahiyyətlərinə xitam verilməsi və intizam məsuliyyətı; andlı iclasçılar və onlara aid tələbləri geniş şəkildə şərh etmişdir.

"Məhkəmələr və hakimlər haqqında" Qanunun keçid müddəaları yeni məhkəmə sisteminin təşkili və fəaliyyəti nöqteyi-nəzərdən çox böyük bir maraq doğurur. Onlardan bir neçəsini misal göstərməklə dediyimiz məsələyə tam aydınlıq gətirmək olar. Adı çəkilən keçid müddəalarda göstərilir ki, Azərbaycan Respublikasında fəaliyyət göstərən məhkəmələr Qanunda nəzərdə tutulmuş məhkəmələr təşkil edilənədək və yeni prosessual qanunlar qəbul edilənədək qüvvədə olan qanunvericiliklə müəyyən edilmiş səlahiyyətləri həyata keçirirlər. Və yaxud 5-ci bənddə izah edilir ki, bu Qanun qəbul edilənədək seçilmiş Azərbaycan Respublikası məhkəmələri hakimlərinin səlahiyyət müddəti həmin məhkəmələrə yeni hakimlərin təyin olunduğu gündən, işə baxılan müddətdə isə işə baxılıb qurtardığı gündən bitmiş hesab olunur.

Andlı iclasçılar barədə də keçid müddəalarda müvafiq ızah verilir. Qanunun andlı iclasçılara dair müddəaları məhkəmə-hüquq islahatları başa çatdıqdan və müvafiq qanun qəbul edildikdən sonra qüvvəyə minməsi nəzərdə tutulmuşdur. Nəhayət, hakimlərin maddi və sosial müdafiəsinə dair müddəaların yalnız "Məhkəmələr və hakimlər haqqında" 10 iyun 1997-ci ildə qəbul edilmiş yeni Qanunun tələblərinə uyğun təyin edilən hakimlərə aid edilməsi göstərilmişdir.

Haqqında söhbət apardığımız Qanunla məhkəmələrə çox geniş səlahiyyətlər verilməklə onların vəzifələri də dəqiq müəyyən olunmuşdur. Qanunun 3-cü maddəsində məhkəmələrin vəzifələri şərh edilərək göstərilmişdir ki, "Azərbaycan Respublikası məhkəmələrinin fəaliyyəti yalnız ədalət mühakiməsinin və qanunvericiliklə müəyyən edilmiş hallarda və qaydada məhkəmə nəzarətinin həyata keçirilməsinə yönəldilmişdir.

Məhkəmələr ədalət mühakiməsini həyata keçirərkən Azərbaycan Rcspublikası Konstitusiyasında təsbit edilmiş insan və vətəndaş hüquqlarını və azadlıqlarını, mülkiyyət formasından asılı olmayaraq bütün müəssisə, idarə və təşkilatların, siyasi partiyaların, ictimai birliklərin, digər hüquqi şəxslərin hüquqlarını və qanuni mənafelərini hər cür qəsdlərdən və qanun pozuntularından müdafiə edir, Azərbaycan Rcspublikasının Konstitusiyasında və bu Qanunda nəzərdə tutulmuş digər vəzifələri həyata keçirirlər". Bununla yanaşı, Qanunda qəti surətdə bildirilir ki, məhkəmələrin üzərinə başqa vəzifələrin qoyulması yolverilməzdir.

"Məhkəmələr və hakimlər haqqında" Qanunun 4-cü maddəsində məhkəmələrdə işlərə baxılmasının qaydası dəqiq şərh edilərək göstərilir ki, məhkəmələrdə işlərə birinci instansiya, apellyasiya və kassasiya instansiyaları üzrə baxılır.

Azərbaycan Respublikası qanunvericiliyində nəzərdə tutulmuş hallarda və qaydada Azərbaycan Respublikasının yeni təşkil olunmuş məhkəmələrində işlərə kollegial və hakim tərəfindən təkbaşına: birinci instansiya məhkəməsində işlərə təkbaşına və ya üç hakimdən ibarət tərkibdə, yaxud andlı iclasçılardan ibarət tərkibdə; apellyasiya və kassasiya instansiyası məhkəməsində üç və ya daha çox hakimdən ibarət tərkibdə baxılır.

Məhkəmələr işlərə baxarkən Azərbaycan Respublikasının Konstitusiyasını, qanunlarını və digər qanunvericilik aktlarını, eləcə də Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri rəhbər tuturlar. Məhkəmələr baxılmış işlər üzrə Azərbaycan Respublikası adından qətnamələr, hökmlər, qərardadlar və qərarlar çıxarırlar.

"Məhkəmələr və hakimlər haqqında" Qanun müdafiə hüququnun təmin edilməsinə xüsusi fikir vermişdir. Qanunun 10-cu maddəsində bu barədə konkret olaraq göstərilir ki, Azərbaycan Respublikası vətəndaşlarının, onun ərazisində yaşayan xarici vətəndaşların, habelə vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasının Konstitusiyasında və digər qanunlarda nəzərdə tutulmuş hüquq və azadlıqlarının, hüquqi şəxslərin qanuni mənafelərinin hər cür qəsdlərdən və qanun pozuntularından məhkəmə icraatının istənilən mərhələsində məhkəmə müdafiəsi hüququ təmin olunur. Heç kəs məhkəmə müdafiəsi hüququndan məhrum edilə bilməz.

Müsbət bir hal kimi qeyd etmək lazımdır ki, söhbət apardığımız Qanunun 10-cu maddəsində, ilk dəfə olaraq, şəxsin tutulduğu andan müdafiəçinin dəvət olunmasına imkan yaradıldı. Bu barədə konkret olaraq izah edilir ki, şübhə edilən və təqsirləndirilən şəxsin Azərbaycan Respublikası qanunvcriciliyində nəzərdə tutulmuş vasitələrlə müdafiə hüququna, o cümlədən tutulduğu, həbsə alındığı, cinayət törədilməsində ittiham olunduğu andan müdafiəçinin kömöyindən istifadə etmək hüququna təminat verilir.

1995-ci il noyabrın 12-də qəbul edilmiş Azərbaycan Rcspublikasının yeni Konstitusiyası məhkəmə orqanları ilə yanaşı prokurorluğun funksiyalarına, sisteminə və təşkili qaydasına dair əsas müddəaları da müəyyən etrmişdir. Belə ki, Konstitusiyanın prokurorluğa aid normaları onun "Məhkəmə hakimiyyəti" adlanan yeddinci fəslinə daxil edilmişdir. Bu normaların təhlilinə əsasən, ilk görnüşdə prokurorluğu məhkəmə hakimiyyətinin bir hissəsi hesab etmək olardı. Amma Konstitusiyanın 133-cü maddəsinin ikinci bəndi Azərbaycan Rcspublikası Prokurorluğunun statusunu ərazi və ixtisaslaşdırılmış prokurorluqların Azərbaycan Respublikasının Baş prokuroruna tabeliyinə əsaslanan vahid mərkəzləşdirilmiş orqan kimi müəyyən edir. Deməli, buradan belə çıxır ki, hüquqi cəhətdən prokurorluğun statusunun müs-təqil orqan kimi təsdiqi Konstitusiya tərəfindən bir daha konkret formada nümayiş etdirilmişdir. Onu da qeyd edək ki, əvvəlki konstitusiyalardan fərqli olaraq, yeni Konstitusiyadan "ali nəzarət" məfhumu çıxarılmışdır. Yeni Konstitusiya prokurorluğu qanunvericilik təşəbbüsü hüququndan da məhrum etmişdi, lakin 24 avqust 2002-ci ildə referendum yolu ilə Konstitusiyaya edilmiş dəyişikliklər nəticəsində prokurorluğun bu hüququ yenidən bərpa olundu.

Azərbaycan Respublikası Prokurorluğunun funksiyaları Konstitusiyanm 133-cü maddəsində belə müəyyən edilir: "Azərbaycan Respublikasının Prokurorluğu qanunla nəzərdə tutulmuş qaydada və hallarda qanunların icra və tətbiq olunmasına nəzarət edir; qanunla nəzərdə tutulmuş hallarda cinayət işləri başlayır və istintaq aparır; məhkəmədə dövlət ittihamını müdafiə edir; məhkəmədə iddia qaldırır; məhkəmə qərarlarından protest verir".

Çox maraqlıdır ki, prokurorluq və müdafiə tərəfi, əvvəlki dövrlərdən fərqli olaraq, məhkəmə qarşısında hüquqi vəziyyətlərinə görə bərabərləşdirilir. Belə bir nəticəyə gəlməyə Konstitusiyanın 125-ci maddəsinin dördüncü hissəsi əsas verir. Orada deyilır: "Cinayət məhkəmə icraatında Azərbaycan Respublikasının Prokurorluğu və müdafiə tərəfi ıştirak edir". Beləliklə, prokuror cinayət və mülki işlərin məhkəmə baxışında sənədlərin, sübutların tədqiqində, vəsatətlər verilməsində, əlavə materiallar təqdim edilməsind və s. digər iştirakçılarla bərabər hüquqlara malik proses iştirakçısı kimi tanınır.

Respublika prokurorluq orqanlarının fəaliyyəti müstəqillik əldə edildiyi vaxtdan keçən bu müddət ərzində, ilk növbədə, cəmiyyətdə sabitlik üzrə tədbirlərin görülməsinə, vətəndaşların sosial hüquqlarının müdafiəsinə yönəlmiş qanunların icrasının təmininə istiqamətləndirilmişdir. Bununla bağlı prokurorluğun Azərbaycan Respublikası Prezidentinin 9 avqust 1994-cü il tarixli "Cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, qanunçuluğun və hüquq qaydasının möhkəmIəndirilməsi tədbirləri haqqında" Fərmanın icrasının təmini sahəsində fəaliyyəti xüsusi qeyd edilməlidir.

Azərbaycan Respublikası Prczidentinin 17 iyul 1998-ci il tarixli Sərəncamı səksən ildən sonra prokurorluğun tarixini yenidən özünə qaytardı.

Prokurorluğun statusunu və səlahiyyətlərini müəyyən edən müstəqil respublikanın "Prokurorluq haqqında" Qanunu Milli Məclis tərəfindən 1999-cu il 7 dekabr tarixində qəbul edilmiş və Azerbaycan Respublikası Prezidentinin 1999-cu il 24 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir(5). Bu Qanunla Avropa Şurasının tövsiyələrinə əsasən, prokurorluq artıq ümumi nəzarəti, məhkəmə nəzarəti, cəzaların və digər məcburi xarakterli tədbirlərin icrası zamanı qanunçuluğa əməl edilməsi üzərində prokuror nəzarəti funksiyalarından məhrum edilmiş və beləliklə, tam demokratikləşdirilmiş bir orqana çevrilmişdir.

"Prokurorluq haqqında" Qanun prokuror fəaliyyətinin, onun qanunvericilik qaydasında tənzimlənməsinin onillərlə toplanmış təcrübəsini, elmi tədqiqatların nətıcələrini (7;9), nəinki prokurorluğun müasir hüquqi vəziyyətini, həm də başlıca olaraq, onun inkişaf perspektivlərini özündə təcəssüm etmişdir. Prokurorluğun funksiyalarının dairəsi ilə əlaqədar Qanunda aşağıdakılar öz həllini tapmışdır: 1) hüquqi dövlət quruculuğu şəraitində Azərbaycan Respublikasının hər bir vətəndaşının insan və vətəndaş hüquq və azadlıqlarına dair konstitusıya normalarının təmin olunması prokurorluğun funksiyaları sırasında ön plana çəkilmiş və onun fəaliyyətinin mərkəzində dumıuşdur; 2) prokurorluğun ənənəvı ümumi nəzarət funksiyasından imtina edilmiş; prokurorluq orqanlarının dövlət və təsərrüfat idarəçiliyi və nəzarət orqanlarını əvəz etməməsi, hüquqi şəxslərin əməli-təsərrüfat fəaliyyətinə müdaxilə etməməsi, onların hüquqlarına əməl və hörmət edilməsi xüsusilə vurğulanmışdır.

"Prokurorluq haqqında" Qanunun 4-cü maddəsinə müvafiq olaraq, prokurorluq orqanları aşağıdakı əsas istiqamətlərdə qanunla nəzərdə tutulmuş hallarda və qaydada fəaliyyət göstərir: a) cinayət işi başlayır

və ibtidai istintaq aparır; b) ibtidai istintaqa prosessual rənbərlık edir və qanunlara riayət edilməsini təmin edir; c) təhqiqat və əməliyyat-axtarış orqanlarının fəaliyyətində qanunların icra və tətbiq olunmasına nəzarət edir; ç) məhkəmədə iddia qaldırır (ərizə verir), mülki və iqtisadi mübahisələrə dair işlərə baxılmasında iddiaçı kimi iştirak edir; d) məhkəmədə cinayət işlərinə baxılmasında tərəf kimi iştirak edir, dövlət ittihamını müdafiə edir; e) məhkəmə qərarlarından protest verir; məhkəmələr tərəfindən təyin edilmiş cəzaların məqsədinə nail olunmasında iştirak edir.

Azərbaycan Respublikası qanunvericiliyinin tələblərinə uyğun olaraq, yuxarıda göstərilən funksiyalardan başqa, prokurorluq orqanları bir sıra digər vəzifələri də yerinə yetirir (8.s.34,35; 7 s.35-47).

Belə ki, prokurorluq orqanları digər hüquq-mühafizə orqanları ilə birlikdə cinayətkarlığın müasir dinamikasını, vəziyyətini və səbəblərini öyrənir, cinayətlərin qarşısının alınması və açılması üzrə birgə tədbirlər işləyib həyata keçirirlər. Bu funksiyanın yerinə yetirilməsi prokurorluğa təhqiqat və ibtidai istintaq orqanlarına, tabeçiliyindən asılı olmayaraq, istintaq təcrübəsinin formalaşmasına təsir etmək imkanı yaradır.

Məhkəmə orqanlarına gəldikdə isə, prokurorluq orqanları məhkəmənin müstəqillik prinsipinə ciddi riayət etməklə, cinayətkarlıqla mübarizə üzrə birgə tədbirlərin hazırlanması üçün onlarla qarşılıqlı əlaqə yaradır. Hakimlərin müstəqilliyi və onların yalnız qanuna tabe olması prinsıpinə dönmədən əməl edilməklə prokurorlar Azərbaycan Respublikasının prosessual qanunvericiliyində nəzərdə tutulmuş qaydada və hallarda məhkəmələrdə cinayət işlərinə bırinci instansiya, apellyasiya və kassasiya qaydasında baxılmasında tərəf kimi iştirak edir, rəy verir, dövlət ittihamını müdafiə edir, məhkəmədə iddia qaldınr, mülki və iqtisadi mübahisələrə dair işlərə baxılmasında iddiaçı qismində iştirak edir, məhkəmə qərarlarından protest verir (1.mad.133;10;13).

Yeni cinayət-prosessual qanunvericiliyə görə ibtidai istintaq aparan və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror məhkəmədə dövlət ittihamını müdafiə edə bilməz (2 mad.84.4).

Yeni qanunvericiliyə əsasən, məhkəmə prokurorluğun və müdafiə tərəfinin istirakı ilə cinayət və mülki işlərə baxarkən,eyni məqsədləri rəhbər tutur: qanunauyğun və əsaslandmlmış hökmün və ya qərarın çıxarılması, məhkəmə icraatı iştirakçılarının hüquqi və qanuni mənafelərinin təmin edilməsi.

Azərbaycan Respublikası öz müstəqilliyini əldə etdikdən sonra onun cinayət-proscssual qanunvericiliyinin inkişafında, 14 iyul 2000-ci ildə təsdiq edilmiş və 1 sentyabr 2000-ci ildə qüvvəyə minmiş yeni Cinayət-Proscssual Məcəllə böyük bir tarixi hadisəyə çevrilmişdir (2;12.s.103-123;11s.4-7).

"Məhkəmələr və hakimlər haqqında" Qanun Azərbaycan Respublikasında ədalət mühakiməsinin həyata keçirilməsini təmin etmək məqsədilə Azərbaycan Respublikası Konstitusiyasında təsbit olunmuş müstəqil məhkəmə hakimiyyəti yaratmağa yönəlmişdirsə, yeni Cinayət-Prosessual Məcəllə cinayət mühakimə icraatının vəzifələrinin yerinə yetirilməsi mexanizmini, onun əsas prinsiplərini və şərtlərini müəyyən etmişdir. Yeni qəbul edilmiş CPM iki hissədən, on bir bölmədən, 58 fəsildən, 521 maddədən ibarət idi, lakinson illərdə aparılmış dəyişikliklər nəticəsində məcəllədən bir sıra maddələr çıxarılmış və bir sıra yeni maddələr əlavə edilmişdir (6 s.36-39). Adı çəkilən CPM-in 9-cu maddəsində konkret olaraq qeyd edilir ki, cinayət mühakimə icraatının əsas prinsipləri və şərtləri: 1) cinayət təqibinin həyata keçirilməsinin əsasını təşkil edən qaydaları müəyyən edir; 2) insan və vətəndaş hüquq və azadlıqlarının qanunsuz məhdudlaşdırılması hallarından onun müdafiəsini təmin edir; 3) hər bir cinayət təqibinin qanuniliyini və əsaslılığını müəyyən edir. Şərh etdiyimiz maddədə ciddi surətdə xəbərdarlıq edilir ki, bu yeni CPM ilə müəyyən edilmiş hallarda cinayət prosesi prinsiplərinin və ya şərtlərinin pozulması cinayət təqibi üzrə başa çatmış icraatın etibarsız sayılmasına, onun gedişində qəbul edilmiş qərarların ləğvinə, yaxud toplanmış materialların sübutedici qüvvəsinin olmaması qənaətinə gəlməyə səbəb ola bilər.

Əvvəlki CPM-dən fərqli olaraq, 14 iyul 2000-ci il tarixdə təsdiq olunmuş yeni Cinayət-Prosessual Məcəllədə bir sıra əlavə bölmələr və fəsillər nəzrdə tutulnıuş, digər bölmə və fəsillər isə əsaslı surətdə dəyişikliklərə məruz qalmışlar. Onlara cinayət-prosessual qanunvericiliyi; cinayət təqibi üzrə icraatın aparılıması; bəraət qazanma (reabilitasiya), vurulmuş ziyanın ödənilməsi; prosessual qərarların məcburiliyi; nümayəndələr və hüquq varisləri; cinayət prosesində etirazlar; cinayət prosesində iştirak edən şəxslərin hüquqlarının və qanuni mənafelərinin təmin edilməsi; prosessual məcburiyyət tədbirləri; cinayət prosesində digər prosessual məcburiyyət tədbirlərinin tətbiqi; cinayət mühakimə icraatında əmlak məsələləri; cinayət mühakimə icraatında mülki iddia; zərər çəkmiş şəxsə kompensasiya verilməsi; əməyin və çəkilmiş xərclərin ödənilməsi; cinayət mühakimə icrası zamanı konfidensiallığın qorunması; böyük ictimai təhlükə törətməyən aşkar cinayətlər üzrə məhkəməyədək sadələşdirilmiş icraat; andlı iclasçıların iştirakı ilə birinci instansiya məhkəməsində icraatın xüsusiyyətləri; apellyasiya və kassasiya instansiyaları məhkəmələrində icraat; bəzi kateqoriyalı şəxslər barəsində icraatın xüsusiyyətləri; xüsusi icraatlar və s. aid etmək olar.

Yeni CPM yuxarıda sadaladığımız əlavə bölmə və fəsilləri nəzərdə tutmaqdan başqa, ümumiyyətlə, ibtidai araşdırmanın aparılmasının və məhkəmə baxışının keçirilməsinin prosessual qaydasını (o cümlədən apellyasiya və kassasiya instansiyaları məhkəmələrində icraat) əsaslı surətdə dəyişmişdir.

Birmənalı şəkildə qeyd etmək lazımdır ki, yeni Cinayət-Prosessual Məcəllədə ibtidai istintaqla bağlı daha böyük dəyişikliklər və əlavələr müşahidə olunur. Məsələn, əvvəlki CPM-ə görə ibtidai istintaq orqanları yalnız Prokurorluqda, Daxili İşlər və Milli Təhlükəsizlik nazirliklərinin nəzdində fəaliyyət göstərirdilər. Amma yeni cinayət-prosessual qanunvericilik ilə bunlara Ədliyyə, Vergilər, Fövqəladə Hallar nazirliklərinin, Dövlət Sərhəd Xidməti və Dövlət Gömrük Komitəsinin də istintaq orqanları əlavə olundu. Ölkədə artıq səkkiz dövlət orqanları tərkibində ibtidai istintaq orqanları yaradıldı. Bu dəyişikliklər təhqiqatdan da yan keçmədi. Belə ki, CPM-in 214-cü maddəsinə müvafiq olaraq, təhqiqat ibtidai araşdırmanın növü kimi aşağıdakı şəkildə müəyyən edilmişdir: a) ibtidai istintaqı məcburi olan cinayət işləri üzrə təxirə salmmaz istintaq hərəktlərinin icraatı; b) böyük ıctimai təhlükə törətməyən bəzi aşkar cinayətlər üzrə məhkəməyədək sadələşdirilmiş icraat. Əvvəlki təhqiqat orqanlarının sırasına dörd yeni orqanın - Vergilər, Fövqəladə Hallar nazirlikləri, Dövlət Sərhəd Xidməti və Dövlət Gömrük Komitəsinin təhqiqatçıları da qatıldı.

Yeni CPM-də prosesdə ıştirak edən şəxslərin hüquqlarının və qanuni mənafelərinin təmin edilməsinə geniş yer verilmişdir. Prosesdə ittiham tərəfi ilə müdafiə tərəfi bərabər prosessual hüquqlara malikdirlər. Daha dəqiq desək, müdafiə tərəfi olduqca güclü pozisıyalar ələdə etmişdir. CPM-in, demək olar ki, bütün müddəaları çox geniş və ətraflı şərh olunur. Hər bir prosessual hərəktin keçirilməsinin əsasları və qaydaları, bütün incəliklər nəzərə alınmaqla, izah edilir.

Qanunların qəbul edilməsi, təkmilləşdirilməsi və sistemləşdirilməsi ilə bağlı ümumi prinsiplərə uyğun olaraq, 2000-ci ilin 1 sentyabr tarixində qüvvəyə minmiş yeni Cinayət-Prosessual Məcəllənin bir sıra normaları dəyişikliklərə məruz qalmışdır. Belə ki, 2 iyul 2001-ci il tarixdə Milli Məclis tərəfindən "Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına əlavələr və dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir (3 s. 2-3).

Yuxarıda qeyd olunan Qanunla yeni Cinayət-Prosessual Məcəllənin 87-dən çox maddəsinə dəyişikliklər edilmiş və eyni zamanda Məcəlləyə üç yeni maddə əlavə olunmuşdur. Eyni zamanda 2005-2011-ci ilin yanvar ayının 1-ə qədər qəbul olunmuş 43 qanunla yeni CPM-yə 15-dən yuxarı yeni maddələr əlavə olunmuş və 175-ə qədər maddələrə dəyişiklik və düzəlişlər edilmiş, 50-dən çox maddələr isə Məcəllədən xaric edilmişdir. Bu qanunauyğun prosesdir., çünki yenicə müstəqilliyini qazanmış ölkə dövlət quruculuğu ilə bağlı hüquq islahatlarını həyata keçirir və bununla əlaqədar qanunvericilikdə total dəyişikliklər baş verir. Dövlət quruculuğunda gedən dəyişikliklər, şübhəsiz ki, hüquq islahatlarını da yeni müstəviyə keçirərək, dinamik şəkildə inkişaf etdirir. Bu dəyişikliklər hüququn bütün sahələrində oluğu kimi cinayət-prosessual qanunvericilikdə də ümumi qaydalar üzrə davam etməlidir.

Cinayət və cinayət-prosessual qanunvericiliklərin inkişafı və təkmilləşdirilməsində AMEA-ın Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutunda çalışan alimlərin, aspirant və doktorontların da müəyyən səyləri öz bəhrəsini verməkdədir. Monoqrafik əsərlərdə, dissrtasiya və elmi məqalələrdə formula edilmiş təkliflərin əksəriyyəti Respublikanın ali qanunverici orqanı olan Milli Məclisə rəsmi şəkildə çatdırılmış və onların bir çoxu qanunlara edilmiş dəyişikliklərdə öz əksini tapmışdır. Bu yaradıcılıq işi mütəmadi davam etməkdədir.

Açar sözlər: qanunvericiliyin təkmilləşdirilməsi, qanunvericiliyin inkişafı və stabiliyi, milli hüquq sistemi, məhkəmə hüquq islahatları, məhkəmə hakimiyyəti.

İstifadə olunmuş ədəbiyyat

1. Azərbaycan Respublikasının Konstitusiyası. 12 noyabr 1995.
2. Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi, Bakı, "Qanun" 2011.
3. "Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına əlavələr və dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının Qanunu. 2 iyul 2001-ci il, "Respublika" qəzeti, 20 iyul 2001-ci il.
4. "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikasının Qanunu. 23 dekabr 2003 il, "Azərbaycan" qəzeti, 8 yanvar 2004-cü il.
5."Prokurorluq haqqında" Azərbaycan Respublikasının Qanunu. 7 dekabr 1999-cu il.
6. M.Ə.Cəfərquliyev.Cinayət prosesi (Ümumi hissə). I cild. B. Qanun, 2001.

7. M.M.Cəfərquliyeva. Demokratik dövlətin qurulması və möhkəmləndirilməsində hüquq-mühafizə orqanlarının rolu. B.Qanun, 2001.
8. M.M.Cəfərquliyeva. Cinayətkarlıqla mübarizədə və sabit hüquq qaydasının təminində istintaq orqarlarının rolu.// "Qanun" jurnalı, №4 (72), 2000.
9. Ə.S.Piriyev. Azərbaycan Respublikasının hüquq-mühafizə orqanları.B. 2001.
10. B.И.Бaskov. Прокурорskiy nadzor v CCCP. M., 1991.
11. Kommentariy k uqolovno-proüessualğnomu kodeksu РСФСР. Под.red. A.M. Pekunkova i A.K. Orlova. M., Юridiçeskaə literatura, 1985.
12. M.C.Ctroqoviç. Kurs sovetskoqo uqolovnoqo proüessa. Tom- Ы. M. Hauka,1968.
13. Orqanizaüiə suda i prokuraturı v CCCP // Под. red. H.A. Бajenova, M., 1988.

Miraqa ДJAFARKULIEV

PAZVITIE I SOVERŞENSTVOVANIE UQOLOVNO-PROÜESSUALĞNOQO ZAKONODATELĞSTVA AZERBAYDJANSKOY PESPUBLIKI POSLE VOSSTANOVLENIƏ EE SUVERENITETA

Pezöme

B statğe detalğno analiziruötsə uqolovno-proüessualğnoe zakonodatelğstvo, normativno-pravovıe aktı v gtoy sfere, prinətıe posle vosstanovleniə Azerbaydjanskoy Pespublikoy svoeqo suvereniteta. Прivodətsə mnoqoçislennıe faktı vneseniə izmeneniy i dopolneniy v УПК i druqie zakonodatelğnıe aktı respubliki, requliruöhie deətelğnostğ sudov i druqix pravooxranitelğnıx orqanov, kasaöhixsə vozbujdeniə, rassledovaniə i rassmotreniə uqolovnıx del.

Klöçevıe slova: usoverşenstvovanie zakonodatelğstva, razvitie i stabilizaüiə zakonodatelğstva, sistema naüionalğnoqo prava, sudebno-pravovaə reforma, sudebnaə vlastğ.

Miraga JAFARQULIYEV

DEVELOPMENT AND THE IMPROVEMENT OF THE CRIMINAL PROCEDURE LEGISLATION OF AZERBAIJAN REPUBLIC AFTER THE RESTORATION OF ITS SOVEREIGNTY

Summary

In the article there is made a profound analysis of criminal procedure legislation, normative-legal acts in this sphere, accepted after restoration by the Azerbaijan Republic of its sovereignty. There are cited the numerous facts of the introduction of changes and additions in CPC and other legislative acts of republic, which regulate the activity of the courts and other law-enforcement agencies, concerning instution, investigations and examinations of criminal cases.

Keywords: improvement of legislation, development and stabilization of legislation, system of national law, legal-law reformation, legal power.

UOT 340

Mirafərim SEYİDOV
AMEA FSHİ-nin a. e .i, hüquq üzrə f.d.

XI-XII ƏSRLƏRDƏ AZƏRBAYCANIN HÜQUQ ABİDƏLƏRİNİN XARAKTERİSTİKASI: MXİTAR QOŞUN «QANUNNAMƏ»Sİ*

XI-XII əsrlərdə Azərbaycan əhalisinin etnik tərkibi kifayət qədər mürəkkəb idi. Əhalinin böyük əksəriyyəti müsəlman olsa da, ölkədə xristianlar, yəhudilər, hətta, az miqdarda olsa da, atəşpərəstlər yaşayırdılar. Azərbaycanın xristian əhalisi əsasən albanlardan ibarət idi. Albanların böyük hissəsi islamı qəbul etsə də, onların xüsusilə dağlıq ərazilərdə yaşayan hissəsi xristian dininə etiqad etməkdə davam edirdilər. İstər Səlcuqilər, istərsə də Atabəylər dövründə, Şirvan ərazisində xristian əhalisi dövlət və yerli əhali tərəfindən heç bir təzyiqə və təsirə məruz qalmadan öz dinlərinə etiqad edirdilər. Ölkənin xaçpərəst əhalisinin öz kilsələri, məktəbləri, dinlərinin çərçivəsi hüdudunda ictimai həyatı tənzimləyən qanun normaları var idi. Təbii ki, zaman keçdikcə hüquq normalarının da təkmilləşdirilməsinə ehtiyac yaranırdı. Bu məqsədlə Azərbaycanın xaçpərəst alban əhalisinin katolikosu, «Alban nəsli kilsələrinin nəcib başçısı» III Stepannosun təkidi ilə Gəncə şəhərindən olan kilsə xadimi, mənşəcə alban olan Mxitar Qoş 1184-cü ildə yeni bir «Qanunnamə» tərtib etdi. Mxitar Qoş «Qanunnamə»ni yazması səbəblərindən biri kimi ona müsəlmanlar tərəfindən xristianların məhkəməsiz, qanunsuz olduğunu irad tutulmasını göstərmişdir [10, s. 20].

Erməni alimləri və tarixçiləri alban Mxitar Qoşun «Qanunnamə»sinin əvvəlinə «hayos» sözünü əlavə etmiş və bu hüquq abidəsini dünyaya «Hayos dastanqrik», yəni erməni «Qanunnamə»si kimi təqdim etmişlər [4, s.10]; [9, s.18]; [1, s.26].

«Qanunnamə»nin ermənilər üçün deyil, albanlar üçün yazıldığını çoxsaylı faktlar sübut edir. Belə ki, «Qanunnamə»nin 1954-cü ildə nəşr olunmuş tərcüməsinə giriş yazmış B.M.Arutyunyan, Qoşun ölümündən cəmi 50 il sonra Kilikiya dövlətində «Qanunnamə»nin köhnəlmiş, xalqa aydın olmayan qədim erməni dilindən tərcümə edilərək istifadə olunduğunu göstərmişdir [5, s.140]. Qısa zaman kəsiyi ərzində erməni dilinin bu qədər köhnəldiyini iddia etmək sadəcə olaraq gülüncdür. Artıq 1265-ci ildə Kilikiya erməni dövlətində Smbat Qudestabl yeni qanunlar məcəlləsi tərtib etmişdi. Deməli, Kilikiya dövlətində Mxitar Qoşun «Qanunnamə»sini qəbul etməmişdilər [8, s.114].

«Qanunnamə»nin giriş hissəsinin III bölməsində Mxitar Qoş heç bir knyaza, çara deyil, məhz III Stepannosa dua edir və heç bir yerdə erməni katolikosunun adını çəkmir [10, s.7]. Bu fakt bir daha təsdiq edir ki, «Qanunnamə» ermənilər üçün deyil, məhz albanlar üçün yazılmışdır. «Qanunnamə» sonradan erməni və gürcü dillərinə tərcümə edilərkən ciddi dəyişikliyə, falsifikasiyaya məruz qalmışdır [3, s.384].

Öz dövrünün tələblərinə uyğun şəkildə yazılmış «Qanunnamə»yə heç bir sistem gözlənilmədən Şərqi Roma imperiyasının qanunları ilə yanaşı, Alban kilsəsinin qanunları, «Moisey qanunları», Aquen və Bərdə kilsə qanunları, hətta müsəlman qanunları daxil edilmişdir. «Qanunnamə»yə bir çox zəruri məsələlər məhz islam hüquq normalarına tam uyğun və ya cüzi dəyişikliklə verilmişdir. «Qanunnamə»nin X bölməsində Mxitar Qoş istifadə etdiyi mənbələrin təsnifatını verir:

Təbii qanunlar:

1. oğurluq, quldurluq, adam öldürməyə qarşı olan qanunlar;
2. xristian dininə etiqad edən xalqların qanunları;
3. xristianlıqla ziddiyyət təşkil etməyən Məhəmməd qanunları.

Yazılı mənbələr:

1. İsa Məsihin qanunları;
2. müxtəlif qanun kitabları;
3. köhnə (Əhdi – ətiq) və yeni (Əhdi – cədid) çağırış kitabları.

Sonradan bu hüquq abidəsinə Mxitar Qoşun özünün yazmadığı bəzi fəsillər əlavə edilmişdir [2, s.202]. Sonrakı dövrlərdə bu «Qanunnamə»dən Kilikiyada istifadə edilmişdir. XVI əsrdə Polşa kralı Sigizmund Mxitar Qoşun «Qanunnamə»sindən ölkəsində yaşayan erməni kolonistlərinin istifadə etmələrinə rəsmi icazə vermişdir. Müxtəlif dövrlərdə gürcü hökmdarları da bu qanunlardan istifadə etmişlər.

---

* Məqalə hüquq üzrə f.d. F.Quliyev tərəfindən çapa məsləhət bilinib.

«Qanunnamə» yazılan dövrdə Gəncə, Qanzasar kilsələri Eldəgizlər dövlətinin hakimiyyəti altında idi. Eldəgizlər dövlətində dünyəvi məhkəmələrlə yanaşı şəriət məhkəmələri də fəaliyyət göstərirdi. Eldəgizlər sülaləsindən olan dövlət başçıları xristianlara öz mübahisəli məsələlərini həll etmək üçün məhkəmə yaratmalarına mane olmamışlar. Ümumiyyətlə, müsəlman aləmində kitab əhli sayılan xristianların dini etiqadlarına və qanunlarına heç bir müdaxilə edilməmişdir. Bu səbəbdən Mxitar Qoşun «Qanunnamə»sində xristianların mübahisəli məsələlərini həll edən məhkəmənin ruhani məhkəməsi olması nəzərdə tutulurdu.

«Qanunnamə» üç hissədən ibarətdir: giriş hissəsi, kilsə qanunlarından ibarət birinci hissə və dünyəvi qanunlar adlanan ikinci hissə. Giriş hissəsi on bir bölmədən ibarətdir. Burada müəllif ona bu külliyatı tərtib etməyə sövq edən səbəbləri göstərir, şifahi formada mövcud olan İsa qanunlarının kodifikasiyasının, xristianların öz məhkəmələrinin yaradılmasının vacibliyini vurğulayır (I və II bölmələr), Alban katolikosuna dualar edir (III bölmə), ruhanilərin, yepiskop və vardapetlərin hüquq və səlahiyyətlərini, Allah qarşısında daşıdıqları məsuliyyəti xatırladır (IV və V bölmələr), müsəlman məhkəməsini düzgün qərarlar çıxarmağa qabil olmamaqda günahlandırır (VIII və IX bölmələr), istifadə etdiyi mənbələrin xarakteristikasını verir (X bölmə), əsərin yazıldığı şəraitdən danışır (XI bölmə).

«Qanunnamə»nin birinci hissəsində əsasən kilsə qanunlarından bəhs edilir və 124 maddədən ibarət olmaqla 6 hissəyə bölünür:

1. Kilsə təşkilatı, onun həyat və fəaliyyətini tənzimləyən maddələr.
2. Ər, arvad və ailə münasibətlərini tənzimləyən maddələr.
3. Qeyri xristian xalqlarla münasibətləri tənzimləyən maddələr.
4. Qətl, bədənə və sağlamlığa xəsarət yetirmə üzrə cəzaları müəyyən edən maddələr.
5. Kilsə, mənəviyyat, əxlaq, ailə – nikah məsələlərini tənzimləyən maddələr.
6. Vərəsəlik və əmlak münasibətlərini və ailə münasibətlərini tənzimləyən maddələr. (Təsnifat E.Cəlilovun «Azərbaycanın dövlət və hüquq» (XIII – XIV yüzilliklər) əsərindən götürülmüşdür. Bakı, 1995, s. 388.)

Mxitar Qoşun «Qanunnamə»sində müxtəlif hüquq institutlarına – mülkiyyət hüququ, öhdəlik hüququ, vərəsəlik hüququ, ailə və nikah hüququ, cinayət hüququ və digər sahələrə toxunulmuş, məhkəmə prosesinə dair bir sıra göstərişlər verilmişdir.

Kilsə qanunlarından bəhs edən birinci hissənin ilk şərti bölməsində əsasən kilsədaxili vəzifələrdən, kilsə xadimlərinin hüquq və səlahiyyətlərindən bəhs edilir (maddə 2 – 4). İlk növbədə kilsənin mənafelərinin qorunması baxımından tərtib edilən «Qanunnamə»də kilsə əmlakı toxunulmaz elan edilir. Yuxarı rütbəli kilsə xadimlərinin (yepiskopların) kilsə əmlakı üzərində sərəncamverici hüququ təsbit edilir və bu əmlakı mənimsəyənlərin cəzası müəyyən edilir (maddə 97). Kilsə xadimlərinin hüquqlarına həsr edilmiş maddələrin analizi göstərir ki, «Qanunnamə»də onların hüquqları xeyli genişləndirilmişdir.

Mxitar Qoş xristianlığın təbliğinin gücləndirilməsi qayğısına da qalmışdır. Hüquq abidəsində yeni kilsələrin tikilməsi təqdir edilir. «Qanunnamə»nin müəyyən etdiyi qaydalara əsasən katolikos və yepiskoplar yığıncaq tərəfindən səs çoxluğu ilə seçilməli idi. Eyni zamanda əsərdə kilsə xadimlərinin maddi ehtiyaclarının ödənilməsi, gəlirlərin onlar arasında bölünməsi qaydaları da əks olunmuşdur (maddə 98 – 100). 113-cü maddədə bir sıra kilsə və saray vəzifələri, onların hüquqları, hətta geyim tərzi müəyyən edilmişdir.

«Qanunnamə»də ailə – nikah hüququ kifayət qədər geniş şərh olunmuşdur. Sənəddə ər ilə arvad arasında olan münasibətlərin, demək olar ki, bütün cəhətlərinə toxunulmuş, incəliklərinə qədər əhatə olunmuşdur. Ailəni cəmiyyətin özəyi kimi qəbul edən kilsə ailə – nikah münasibətlərini öz təsir dairəsində saxlamaqda, digər dinlərin təsirindən qorumaqda maraqlı idi. Xristianlığın maraqları zəminindən çıxış edən «Qanunnamə» xristian qızına başqa dinin nümayəndələri ilə ailə qurmağı qadağan edirdi (maddə 72). Yaxın qan qohumları (maddə 92), nikah yaşına çatmayanlar, ağır xəstələr, bir anadan süd əmənlər arasında nikah bağlanması da qadağan idi. Konkret nikah yaşı müəyyən edilməsə də, kişinin qadından yaşca böyük olması təqdir edilir, bununla da kişinin qadından üstünlüyü təsbit edilmiş olurdu. Arvadın bakirə olmaması, əxlaqsızlığı, xəstəliyi,[1] uşaq doğmaq qabiliyyətinin olmaması[2] onu boşamağın əsası ola bilərdi. Lakin kişi

[1] Arvad artıq ata evində xəstə olub bunu gizlətmişdirsə. Ər evində xəstələnmişdirsə, kişinin onu boşamaq hüququ yox idi. (Müəl.)

[2] Kişi qadının doğmaq qabiliyyətinin olmamasını bilmədən onunla evlənibsə, başqasını ala bilərdi. Əvvəlcədən bilib razılıq vermişdirsə, arvadını boşaya bilməzdi. (Müəl.)

arvadını yalnız doğa bilmədiyi üçün boşayırdısa, onun bütün əmlakını qaytarmaqla bərabər cərimə də ödəməli idi və bu müddət ərzində evlənə bilməzdi.

«Qanunnamə»də həmçinin müharibələr dövründə əsir düşmüş kişi və qadınların davranış qaydaları, boşanma üsulları müəyyən edilmişdir. Belə ki, əsir aparılan kişi və ya qadını həyat yoldaşı 7 il gözləməli idi. Bu müddəti gözləməyib ərə getmiş qadının hətta yeni ərindən uşağı olsa idi belə, qanuni əri onu geri tələb edə bilərdi (maddə 13). Kişilərlə yanaşı qadınlar üçün də boşanmanı əsaslandıran səbəblər müəyyən edilmişdi. Kişinin dinindən dönməsi, pedafiliya, zoofiliyaya meyl etməsi, kişilik və artım qabiliyyətinin olmaması belə səbəblərdən idi. Lakin kişi zərərli vərdişlərdən əl çəksə və sağalsa, arvadını boşamaya bilərdi. Ümumiyyətlə, qadının öz ərini və ailəsini özbaşına atıb getməsi qadağan idi və bu halda o öz evinə, ərinə qaytarılmalı idi.

Yuxarıda qeyd edildiyi kimi, «Qanunnamə» ilk növbədə xristian dininin və kilsənin cəmiyyətdə mövqeyinin möhkəmləndirilməsi, kilsə xadimlərinin səlahiyyətlərinin genişləndirilməsi baxımından tərtib edilmişdir. Bu səbəbdən «Qanunnamə»də xristianlara digər dinlərin nümayəndələri ilə müqayisədə daha geniş və üstün hüquqlar verilir. Eyni cinayətlərə görə verilən cəzalarda da kəskin fərqlər var idi. Məsələn, pedafiliya, zoofiliya cinayətlərinə görə qeyri – xristianlara cinsiyyət üzvünün kəsilməsi cəzası verildiyi halda, xristianlar cərimə ödəməklə kifayətlənirdi. «Qanunnamə» ciddi dini təəssübkeşlik göstərir, başqa dindən olanlarla münasibətdə xristianlara üstün hüquqlar verir,xristianların başqa dinə keçməsinin, assimilyasiyanın qarşısını almaq üçün bütün imkanlardan istifadə edərək digər din nümayəndələrinin xristianlığa keçməsinə şərait yaradırdı [3, s.395-396].

Növbəti bölmədə cinayət hüququ normalarının şərhinə geniş yer verilir. Adam öldürməyə görə cəza müəyyən edilərkən qəsdən və qəsdən olmadan törədilən cinayətlər fərqləndirilirdi (maddə 33). Qeyd edilməlidir ki, ən ağır cinayət hesab edilən adam öldürmədə qəsd, ehtiyatsızlıq, affekt vəziyyəti yalnız qətlin üsulları kimi təqdim edilir. Bununla belə, özünü müdafiə etmək zərurəti qarşısında qalmış şəxs adam öldürmək üçün məsuliyyətə cəlb edilmirdi. Adam öldürmək üçün məsuliyyət 12 yaşdan başlayırdı. Azyaşlılar qanbahasının üçdə biri qədər cərimə olunurdular. 10-11 yaşlılar isə qanbahasının yarısını verirdilər. «Qanunnamə»də intihar məsələsinə də münasibət bildirilir, bunun qəsdən və ya ağılsızlıq səbəbilə törədilməsi formaları fərqləndirilirdi. Qəsdən özünü öldürmüş adam üçün dini mərasim (liturgiya) keçirilmirdi.

Dövlət və din əleyhinə olan cinayətlər də «Qanunnamə»də müvafiq yer almışdır. Hökmdara, senyora qarşı cinayətləri ölümlə cəzalandırırdılar. Hökmdar və knyazların təhqir olunması üçün də ağır cəzalar tətbiq edilirdi. Eyni zamanda hökmdar və knyaz kilsə xadimini təhqir etdikdə rütbəsindən məhrum ola bilərdi. Eyni cinayət əməlinin təkrarən törədilməsi üçün əllərin kəsilməsi cəzası da tətbiq edilirdi. Bu cəza növünün də şəriət qanunlarından götürüldüyü şübhə doğurmur.

«Qanunnamə»də əxlaq, mənəviyyat məsələlərinə də kifayət qədər geniş yer verilmişdir. Burada diqqət, xüsusilə evlənmə zamanı qohumluq əlaqələrinin gözlənilməsinə yönəldilir, dördüncü dərəcəyədək qohumlar arasında evlənməyə icazə verilmirdi. Müəyyən edilmiş qaydalardan kənar nikaha yol vermiş kilsə xadimləri öz rütbələrindən məhrum edilirdilər. Həddi – büluğa çatmamış uşaqlarını evləndirən valideynlər cəzalandırılmalı idilər. Əxlaqsızlıq, ərli qadınla yaxın əlaqədə olma, bakirə qızı zorlama kimi cinayətlər üçün ağır cəzalar nəzərdə tutulurdu.

Mxitar Qoşun «Qanunnamə»sində qanuna və vəsiyyətə əsasən vərəsəlik fərqləndirilir. Qeyd edilməlidir ki, vərəsəlik hüququnda müsəlman hüquq normalarından geniş istifadə edilmişdir. Mirasa mərhumun oğlu sahib olurdu. Evdə qalmış qız da varis sayılırdı. Ərə getmiş qız isə mirasdan pay alırdı. Mərhumun birbaşa varisi olmadıqda mirasa onun qardaşı, sonra atası, atası da olmadıqda əmisi sahib olurdu. Ana, arvad, bacı isə mirasdan yalnız pay alırdı. Yaxın qohumlar olmadıqda miras dördüncü dərəcədən olan qohumlara çatırdı. «Qanunnamə»yə əsasən şəxs ölümündən qabaq şahidlərin iştirakı ilə şifahi və ya yazılı vəsiyyət tərtib edə bilərdi. Vəsiyyət yazdıran şəxs ölmədikdə onun vəsiyyəti dəyişmək hüququ var idi (maddə 99).

«Qanunnamə»nin II hissəsi dünyəvi qanunların şərhinə həsr edilmişdir. Burada diqqət ilk növbədə məhkəmə prosesinə yönəldilmişdir. Mxitar Qoş dünyəvi məhkəməni qəbul etsə də, dini məhkəməyə üstünlük verirdi. Dünyəvi məhkəməni hökmdar və knyazlar həyata keçirirdilər. Lakin knyazlar hökmdarın razılığı olmadan ölüm hökmü çıxara bilməzdi. Məhkəmənin tərkibi hakim və katibdən ibarət olmalı idi. Məhkəmə prosesində şahid ifadələrinə xüsusi diqqət verilirdi. Şahidlər 25 yaşa çatmış, kişi cinsindən olan xristianlar ola bilərdi. Digər dinlərin nümayəndələrinin şahidliyi qəbul edilmirdi. Kişinin qadından üstünlüyü baxımından iki qadının şahidliyi bir kişinin şahidliyinə bərabər tutulurdu.

Dünyəvi qanunlar arasında kəndlilərin hüquqi vəziyyətini tənzimləyən maddələr də vardır. Kəndlilər azad və təhkimli statusuna bölünürdülər. Feodal cəmiyyətində kəndlilər ən hüquqsuz təbəqə olsalar da, «Qanunnamə»də onların hüquqlarını müəyyən qədər qoruyan maddələrə də təsadüf edilir. Belə ki, torpaq sahibi asılı kəndlini həddindən artıq işlətməklə sağlamlığına zərər vururdusa, məhkəməyə cəlb olunmalı idi. Sahibkarlar kəndlisinin ölümü üçün məsuliyyət daşıyırdı. Torpaq sahiblərinə kəndlilərin, muzdla işlədilənlərin əmək haqlarının ədalətlə ödənilməsi tövsiyə olunurdu. «Qanunnamə» qulların hüquqi statusunu da müəyyən etməyə çalışır. Xristian qullar onların alınmasına sərf edilmiş pulun dəyərində işlədikdən sonra azad edilməli idilər. Xristian olmayanların belə bir hüququ yox idi. Lakin onlar xristianlığı qəbul etdikdə azadlığa buraxılırdılar. Qulunu öldürən, ona xəsarət yetirən ağa cəzalandırılırdı.

«Qanunnamə»də mülkiyyət hüququ məsələlərinə də toxunulur. İri feodalların təbii sərvətlər, torpaqlarından tapılan xəzinələr üzərində hüququ təsbit olunurdu. Feodalın mülkündə tapılan və ya mövcud olan hər bir şey, o cümlədən bütün təbii sərvətlər onun mülkiyyəti hesab edilirdi. Tapılan xəzinə qədim olduqda onda bir hissəsi onu tapana verilə bilərdi. Torpaq sahələri arasında sərhədlər çaylar, qayalar, meşələrlə müəyyən edilirdi. Bu sərhədlərin pozulması qanunla cəzalandırılırdı.

«Qanunnamə»də öhdəlik hüququ məsələlərinə də yer ayrılmışdır. «Qanunnamə»də öhdəlik hüququnun alqı – satqı, icarə, girov, mübadilə, müqavilə növləri müəyyən edilir. Alqı – satqı müqavilələri kilsədə təsdiq olunmalı idi. Qeyd edilməlidir ki, bu müqavilə növünün bağlanması zamanı satandan əlavə onun varislərinin də razılığı olmalı idi. Əks – təqdirdə müqavilə etibarsız sayılırdı. Satılan ərzaq məhsulları, sənətkarlıq məmulatları keyfiyyətli olmalı, satıcı onların qüsurlu olmaması barədə and icməli idi. Ustalar vurduqları zərər üçün sifarişçi qarşısında məsuliyyət daşıyırdı. «Qanunnamə»də ticarət qaydaları da müəyyən edilirdi. Saxta pul kəsənlərin əlləri kəsilməli idi. Alqı – satqı zamanı girovdan da geniş istifadə edilirdi.

Mxitar Qoşun tərtib etdiyi «Qanunnamə»nin ətraflı tədqiqindən məlum olur ki, burada istər əvvəlki dövrlərin xristian, istərsə də yəhudi və müsəlman qanunlarından geniş istifadə edilmişdir. Qanunlar tərtib edilərkən konkret bir sistemə riayət edilməsə də, hüquq abidəsini, ümumiyyətlə, öz dövrü üçün mütərəqqi addım hesab etmək olar. Bir çox qanunlar humanizmi ilə seçilsə də, bu göstəriciyə görə müsəlman hüquq normalarından xeyli geri qalır. Məsələn, «Qanunnamə»yə görə qudurmuş heyvanları müalicə etmək mümkün olmadıqda onlar kəsilməli, əti digər dinlərin nümayəndələrinə satılmalı, əldə edilən vəsait isə yoxsullara paylanmalı idi. İnsanlıqdan uzaq olan bu hərəkətin hansı fəsadlara səbəb ola biləcəyi bilərəkdən nəzərə alınmır. Şəriət qanunlarına görə isə belə bir hərəkəti bilərəkdən edən istər müsəlman, istərsə də digər dinin nümayəndəsi edam edilməli idi. Qoşun qanunlarının humanistliyi isə onun daha çox müsəlman hüququnun təsiri altında olması, islam fəqihləri ilə yaxından tanış olmasından irəli gəlirdi.

Açar sözlər: Alban, Qanunnamə, Mxitar Qoş, kilsə.

İstifadə olunmuş ədəbiyyat

1. Akopən B.A. Armənskaə kniqa kanonov. Avtoref. diss. dok-ra istor. nauk. Erevan, 1967.
2. Bünyadov Z. Azərbaycan Atabəylər dövləti. Bakı, 2004.
3. Cəlilov E. Azərbaycanın dövlət və hüquq (XIII-XIV yüzilliklər). Bakı, 1995.
4. Иstoriə qosudarstva i prava CCCP. //Гosudarstvo i pravo feodalğnoy Armenii (IB-VIII veka) M., 1968.
5. Иstoriə armənskoqo naroda. Erevan, 1980.
6. İsmayılov X. Azərbaycanın dövlət və hüquq tarixi. Bakı, 2006.
7. İsmayılov X.C. X-XII əsrlərdə Azərbaycanda islam hüququ və digər hüquq mənbələrinin nisbəti məsələsinə dair. BDU-nun xəbərləri. Bakı, 2005, № 4.
8. Əkbərov R., S. Səlimov. Azərbaycanın dövlət və hüquq tarixi. Bakı, 2003.
9. Mnaüakanən C.C. O literature Kavkazskoy Albanii. Erevan, 1969.
10. Covetskoe uqolovnoe pravo. Obhaə çastğ. M., 1974.

Mirafərim CEYIDOV

XARAKTERISTIKA PAMƏTNIKOV AZERDAYDJANSKOY PRAVOVOY MISLI XI-XII VEKOV: «CUDEBNIK» MXITARA ГOŞA

Pezöme

Bajnım pamətnikom azerbaydjanskoy politiçeskoy i pravovoy mısli XI-XII vekov əvləetsə «Cudebnik» albanskoqo mıslitelə i pravoveda Mxitara Гoşa (1133-1213). Analiziruə istoçniki, kotorımi polğzovalsə Mxitar Гoş, avtor prixodit k mneniö, çto on apelliroval neposredstvenno k Бiblii, Evanqeliö, Tore i k musulğmanskim pravovım normam. B statğe rassmatrivaötsə prava i obəzannosti duxovnıx liü, svetskoe i duxovnoe zakonodatelğstvo, a takje razliçnıe pravovıe institutı, izlojennıe v «Cudebnike». Mxitar Гoş sçital neobxodimım v üeləx preodoleniə proizvola ustanovitğ zakonnostğ. Tverdıe zakonı, kotorım obəzanı bıli povinovatğsə vse, v tom çisle duxovnıe i svetskie praviteli, on sçital osnovoy blaqoustroennoqo obhestva. Avtor obrahaet vnimanie na proqressivnıe vzqlədı mıslitelə v oblasti qosudarstva i prava, a takje uqolovnoqo prava. Bopreki ofiüialğnoy reliqioznoy konüepüii nakazaniə kak vozmezdiə, Гoş vidit üelğ nakazaniə v oxrane obhestva ot prestupleniy, v ispravlenii prestupnikov.

Кlöçevıe slova: Albaniə, «Cudebnik», Mxitar Гoş, üerkovğ.

Miraferim SEYIDOV

THE CHARACTERTICS OF THE LECAL THOUGHT MONUMENTS OF AZERBAIJAN IN THE XI-XII CENTURIES: THE «CODE OF LAWS» OF MKHITAR GOSH

Summary

The “Code of laws” written by Albanian thinker and lawyer Mkhitar Gosh (1133 – 1213) is an important monument of Azerbaijan political and legal thought. By analyzing the sources used by Mkhitar Gosh the author comes to the conclusion that he appealed directly to the Bible, the Gospel, Torah, and even to Mohammedan legal regulations. The article investigates the rights and responsibilities of ecclesiastics, the secular and clerical legislation, as well the different legal institutions, stated in the Code. Mkhitar Gosh considered necessary to establish lawfulness in order to overcome the self-will. He considered the strong laws to which everyone, including secular and clerical rulers, had to obey as a basis of well-organized society. The article also touches upon the thinker's progressive views in a field of state and law, as well as the criminal law. Contrary to an official clerical concept of punishment as retribution Gosh sees the purpose of punishment in protection of society from crimes, and recovery of criminals.

Keywords: Albania, the «Code of laws», Mkhitar Gosh, church.

UOT 347.626.2

Zaur MƏMMƏDOV
AMEA FSHİ-nin b.e.i,hüquq üzrə f.d.

NİKAH MÜQAVİLƏSİNİN NOTARİAT QAYDASINDA TƏSDİQİ PROBLEMLƏRİ*

Normativ aktlarda nikahın anlayışı verilmir, onun hüquqi təbiəti hal-hazırkı dövrə kimi nə qanunvericilikdə, nə də doktrinada qəti olaraq həll edilməmişdir. Azərbaycan dilinin izahlı lüğətində göstərilir ki, "nikah" ərəb sözü olub, "kəbin", "izdivac", "evlənmənin qanuni şəklə salınması" deməkdir. (1, s.489) Mərhum hüquq elmləri doktoru Q.İ.Manayev nikahı qanunla müəyyən edilmiş şərtlərə və qaydaya riayət etməklə kişi ilə qadın arasında bağlanmış, onlar üçün qarşılıqlı şəxsi hüquq və əmlak hüququ və vəzifələri yaradan, ailənin təşkilinə yönəldilmiş, prinsip etibarilə ömürlük, azad, könüllü, bərabərhüquqlu bir ittifaq adlandırırdı. (2, s.40) V.V.Kuznetsov hüquq lüğətində nikahı ailə qurmaq məqsədilə bağlanan və ər-arvad üçün qarşılıqlı hüquq və vəzifələr yaradan kişi ilə qadının könüllü, bərabərhüquqlu ittifaqı kimi müəyyən edir. (3, s.29) S.N.Bondovun fikrincə, nikah – hüquqi cəhətdən rəsmiləşdirilmiş, ailə qurmaq məqsədi daşıyan kişi ilə qadının könüllü elə bir ittifaqıdır ki, bu ittifaq onlar üçün qarşılıqlı şəxsi və əmlak hüquq və vəzifələri yaradır. (4, s.65) Professor M.D.Dəmirçiyeva haqlı olaraq nikaha aşağıdakı tərifin verilməsini təklif edir: Nikah – qanunla müəyyən edilmiş qayda və şərtlərə riayət etməklə bağlanan, ailə yaratmaq məqsədi güdən və ər-arvad arasında şəxsi və əmlak hüquq və vəzifələrini doğuran, qadınla kişinin azad, könüllü və bərabərhüquqlu ittifaqıdır. (5, s.104)

Hesab edirik ki, Ailə Məcəlləsinin 9-cu maddəsində «nikah» anlayışının professor M.D. Dəmirçiyevanın təklif etdiyi kimi verilməsi məqsədəmüvafiq olardı.

Y.A.Vasilyev nikahın mülki və ya dini formada bağlana bilməsi baxımından bütün ölkələri üç qrupa bölür:

1) yalnız mülki nikah hüquqi nəticə doğurur (Almaniya, Fransa, İsveçrə, Yaponiya və s.);

2) nikah alternativ formada, həm mülki, həm də dini formada bağlana bilər (İngiltərə, ABŞ-ın bir sıra ştatları, Danimarka, İspaniya, İtaliya, Kanada və s.);

3) nikahın yalnız dini forması mövcuddur (İsrail, İraq, İran, ABŞ-ın bəzi ştatları, Kanadanın ayrı-ayrı əyalətləri və s.). (6, s.517)

Y.A.Vasilyevin bölgüsünə əsaslansaq, Azərbaycanı birinci qrupa daxil etmək olar.

1 iyun 2000-ci ildən qüvvədə olan Azərbaycan Respublikasının Ailə Məcəlləsinə daxil olmuş, respublikamızın qanunvericiliyində yeni olan institutlardan biri də nikah müqaviləsidir. Nikah müqaviləsi institutunun yaranması nəticəsində ilk dəfə olaraq ər-arvad müstəqil şəkildə öz əmlaklarının hüquqi rejimini müqavilə əsasında müəyyən etmək imkanı əldə etdilər. Azərbaycan Respublikasının keçmiş Nikah və Ailə Məcəlləsində ər-arvad arasında əmlak münasibətlərini imperativ normalar nizama salırdı. Ər-arvadın birgə əmlakının idarə edilməsi və sərəncam verilməsi ilə əlaqədar hər hansı bir başqa saziş qanuna zidd idi və etibarsız sayılırdı.

Baxmayaraq ki, Ailə Məcəlləsində "nikah müqaviləsi" termini işlədilir, Mülki Məcəllədə "nikah kontraktı", "ərlə arvadın razılaşması", təcrübədə isə qeyd olunan terminlərlə yanaşı, həmçinin "nikah sazişi" terminindən istifadə olunmasına rast gəlinir. Bunlar sinonim terminlərdir. «Kontrakt» sözü latın mənşəli "contractus" sözündən götürülərək tərcümədə "müqavilə", "razılaşan tərəflər üçün qarşılıqlı öhdəliklər nəzərdə tutan saziş (əsasən yazılı)" mənasını daşıyır. (9, s.255) Azərbaycan Respublikası Mülki Məcəlləsinin 389.1-ci maddəsinə əsasən mülki hüquq və vəzifələrin müəyyənləşdirilməsi, dəyişdirilməsi və ya xitamı haqqında iki və ya bir neçə şəxsin razılaşması müqavilə sayılır.

Mülki Məcəllənin 225.1-ci maddəsində deyilir: "Ərlə arvadın nikah dövründə qazandıqları əmlak, əgər nikah kontraktında və ya onlar arasında razılaşmada ayrı qayda nəzərdə tutulmayıbsa, onların ümumi mülkiyyətidir". Ailə Məcəlləsində bu məsələ daha da konkret göstərilərək nikah müqaviləsinin bağlanmasının mümkünlüyü öz əksini tapmışdır.

Ər-arvad münasibətləri əsasən ailə qanunvericiliyi ilə nizama salındığı üçün Azərbaycan Respublikasının Ailə Məcəlləsi ər-arvadın əmlakının müqavilə rejimi institutuna bir sıra norma həsr edib.

---

*Məqalə h. e. d. M.Əliyev tərəfindən çapa məsləhət bilinib.

Ailə Məcəlləsinin 38.1-ci maddəsinə görə nikah müqaviləsi nikaha daxil olan şəxslər arasında bağlanan, nikah dövründə və (və ya) nikah pozulduqda ər-arvadın əmlak hüquqlarını və vəzifələrini müəyyən edən sazişdir.

Nikah müqaviləsi ilə ər-arvad birgə mülkiyyətin qanunla müəyyən olunmuş rejimini dəyişərək, ümumi əmlaka, onun ayrı-ayrı növlərinə və ya ər-arvadın hər birinin əmlakına birgə, paylı və ya ayrıca mülkiyyət rejimi tətbiq edə bilərlər (Ailə Məcəlləsinin 38.2-ci maddəsi).

Nikah müqaviləsi mülki-hüquqi müqavilələrin bir növü olaraq müəyyən xüsusiyyətlərə malikdir. Bununla belə, nikah müqaviləsi mülki-hüquqi əqdlərin həm bağlanma qaydasına, həm məzmununa, həm də tərəflərin iradə ifadəsinə görə bütün tələblərə cavab verməlidir. Nikah müqaviləsi ikitərəfli əqddir. Bütün əqdlər üçün müəyyən olunmuş qaydalar bu müqaviləyə də şamil olunur. Nikah müqaviləsində ər-arvadın iradəsi ifadə olunmalıdır. Beləliklə, nikah müqaviləsi – nikahın bağlanmasının dövlət qeydiyyatına qədər, eləcə də nikah dövründə istənilən vaxtda bağlana bilən sazişdir. Bu saziş tərəflərin bərabərlıyinə əsaslanır.

Ailə Məcəlləsinin 39.3-cü maddəsi müəyyən edir ki, nikah müqaviləsi yazılı formada bağlanır və notariat qaydasında təsdiq olunur.

Mülki Məcəllənin 334-1-ci maddəsinə görə əqdin notariat qaydasında təsdiqlənməsi Mülki Məcəllənin 331-ci maddəsinin tələblərinə uyğun gələn sənəddə notariusun və ya bu cür notariat hərəkəti yerinə yetirməyə hüququ çatan digər vəzifəli şəxsin təsdiqləyici qeyd etməsi yolu ilə həyata keçirilir.

Mülki Məcəllənin 329.1-ci maddəsinə uyğun olaraq, əgər qanunla başqa hal müəyyən edilməmişdirsə, qanunla və ya tərəflərin qarşılıqlı razılığı ilə müəyyən edilmiş forma tələblərinə riayət etməməklə bağlanan əqd etibarsızdır.

Buradan belə nəticəyə gəlmək olar ki, nikah müqaviləsi yalnız notariat qaydasında təsdiq olunduqda etibarlıdır.

Nikah müqaviləsinin müəyyən müddətə, məsələn, beş il müddətinə və ya müddətsiz bağlanması müqavilədə göstərilə bilər.

Digər müqavilələr kimi, nikah müqaviləsi də hər iki tərəfin imza etdiyi hüquqi sənəddir. Amma adi müqavilələrdə tərəflərin əvəzinə etibarnamə əsasında onların nümayəndələri də imza edə bilərlər. Sual olunur: nikah müqaviləsində tərəflərin əvəzinə etibarnamə ilə onların nümayəndələri imza edə bilərlərmi? Nə ailə, nə də mülki qanunvericilik bu suala dəqiq cavab vermir. Doğrudur, Mülki Məcəllənin 359.4-cü maddəsi müəyyən edir ki, xarakterinə görə yalnız şəxsən bağlana bilən əqdlərin, eləcə də Mülki Məcəllədə göstərilən digər əqdlərin təmsilçi vasitəsilə bağlanmasına yol verilmir. Nikah müqaviləsi belə əqdlərə aiddirmi? A.A. İqnatenko və N.N.Skrıpnikovın fikrincə, nikah müqaviləsi tərəflərin şəxsən bağlaya biləcəkləri müqavilələrdəndir, ona görə də bu müqavilənin tərəflərin nümayəndələri vasitəsilə bağlanması mümkün deyil. (11, s.62)

S.N.Bondov elə hesab edir ki, nikah müqaviləsi əmlak xarakterli əqd olduğu üçün bu müqavilə notariat qaydasında təsdiq edilmiş etibarnamə əsasında nümayəndə vasitəsilə bağlana bilər. (4, s.80) O.A.Ulyanenko isə təklif edir ki, Ailə Məcəlləsində dəyişiklik edilərək belə bir norma öz əksini tapsın ki, tərəflərin nümayəndələri (və ya hər hansı tərəfin nümayəndəsi və digər tərəf) nikah müqaviləsi bağlaya bilər, amma müqavilə ər-arvad tərəfindən imza edilərək notariat qaydasında təsdiqləndikdən sonra qüvvəyə minir. (12, s.9)

Bizə elə gəlir ki, nikah müqaviləsinə tərəflərin şəxsən özlərinin imza etmələri məqsədəuyğundur. Məhz buna görə Azərbaycan Respublikasının Ailə Məcəlləsinə aşağıdakı məzmunda 39.5-ci maddə əlavə edilməsi məqsədəmüvafiq olardı:

"Nikah müqaviləsinin nümayəndə vasitəsilə bağlanmasına yol verilmir".

Əksər xarici ölkələrdə, məsələn, Fransa Mülki Məcəlləsinin 1394-cü maddəsində, Almaniya Mülki Qanunnaməsinin 1410-cu paraqrafında, Rusiya Federasiyası Ailə Məcəlləsinin 41-ci maddəsində, Ukrayna Ailə Məcəlləsinin 94-cü maddəsində, Belarus Respublikası "Nikah və Ailə haqqında" Məcəlləsinin 13-cü maddəsində, Qazaxıstan Respublikası "Nikah və Ailə haqqında" Qanununun 39-cu maddəsində, Gürcüstan Respublikas Mülki Məcəlləsinin 1174-cü maddəsində, Moldova Respublikası Ailə Məcəlləsinin 28-ci maddəsində, Özbəkistan Respublikası Ailə Məcəlləsinin 30-cu maddəsində, Tacikistan Respublikası Ailə Məcəlləsinin 41-ci maddəsində, Qırğızıstan Respublikası Ailə Məcəlləsinin 44-cü maddəsində, Estoniya Respublikası "Ailə haqqında" Qanununun 10-cu maddəsində (bu Qanunda nikah müqaviləsi ər-arvadın əmlak müqaviləsi adlanır) nəzərdə tutulmuşdur ki, nikah müqaviləsi yazılı formada bağlanmalı və notariat qaydasında təsdiq olunmalıdır (13, s.499; 7, s.356 ; 14, s.147; 15; 16; 17; 18; 19; 20; 21; 22; 23). Bundan başqa, Moldova Respublikası Ailə Məcəlləsinin 28.3-cü maddəsində və Tacikistan Respublikası Ailə Məcəlləsinin 41.2-ci maddəsində birbaşa göstərilir ki, nikah müqaviləsinin notariat formasına əməl

edilməməsi müqavilənin etibarsızlığına səbəb olur. Qırğızıstan Respublikası Ailə Məcəlləsinin 44.2-ci maddəsində isə nəzərdə tutulub ki, nikah müqaviləsinin şərtləri Qırğızıstan Respublikasının qanunvericiliyinə zidd olduqda notarius belə müqaviləni və ya sazişi təsdiq etməkdən imtina etməlidir.

Fiziki şəxslərin hüquqlarını müdafiə etmək məqsədilə Qırğızıstan Respublikası Ailə Məcəlləsinin 44.3-cü maddəsi müəyyən edib ki, notarius notariat hərəkətini aparmaqdan imtina etdikdə məhkəməyə şikayət verilə bilər.

Fikrimizcə, Qırğızıstan Respublikası Ailə Məcəlləsinin 44.2 və 44.3-cü maddələrinin məzmununun Azərbaycan Respublikası Ailə Məcəlləsinin 39.3 və 39.4-cü maddələrində öz əksini tapması məqsədəmüvafiq olardı. Doğrudur, hal-hazırda da nikah müqaviləsinin məzmunu Ailə Məcəlləsinin 38-ci maddəsinə zidd olduqda notarius Azərbaycan Respublikası Ailə Məcəlləsinin 38-ci və "Notariat haqqında" Qanunun 40-cı maddəsinin 5-ci hissəsini rəhbər tutaraq notariat hərəkətini aparmaqdan imtina edə bilər. Amma Ailə Məcəlləsinin nikah müqaviləsinin bağlanma qaydasını müəyyən edən 39-cu maddəsində nikah müqaviləsi Azərbaycan Respublikasının qanunvericiliyinə zidd olduqda notariusun belə müqaviləni təsdiq etməkdən imtina etmək hüququnun və maraqlı şəxslərin notariusun hərəkətindən məhkəməyə müraciət etmələrinin mümkünlüyünün göstərilməsi nikah müqaviləsi bağlamaq arzusunda olanların məsuliyyətini daha da artırardı.

Həmçinin qeyd etmək istərdik ki, bəzi ölkələrdə, məsələn, Peruda nikaha girən şəxslərin nikah müqaviləsi bağlaması məcburidir, yəni bu ölkənin qanunvericiliyi nikah müqaviləsi olmadan nikahın bağlanmasını qadağan edib. (24, s.5)

Nikah müqaviləsi Azərbaycan Respublikasının qanunları ilə müəyyən olunmuş qaydalara uyğun olmalıdır. Aşağıdakı müddəalar nikah müqaviləsində nəzərdə tutula bilməz:

- ər-arvadın hüquq və fəaliyyət qabiliyyətini, öz hüquqlarının müdafiəsi üçün məhkəməyə müraciət etmək hüququnu məhdudlaşdıran müddəalar;
- uşaqlara münasibətdə hüquq və vəzifələri məhdudlaşdıran müddəalar;
- ər-arvad arasındakı şəxsi qeyri-əmlak münasibətlərini tənzimləyən müddəalar;
- ehtiyacı olan və əmək qabiliyyəti olmayan ərin (arvadın) saxlanılması üçün vəsait almaq hüququnu məhdudlaşdıran müddəalar;
- ər-arvadın birini çox əlverişsiz vəziyyətə salan və ailə qanunvericiliyinin əsaslarına zidd olan müddəalar.

Ona görə də tərəflər tərtib etdikləri nikah müqaviləsinə yuxarıda göstərilən hər hansı müddəanı daxil etsələr, notarius belə müqaviləni təsdiq etməkdən imtina etməlidir. Məsələn, ər-arvadın bir-birlərini daim sevməsi, bir-birlərinə xəyanət etməyəcəkləri, ev işlərinin kim tərəfindən görülməsi və s. nikah müqaviləsində nəzərdə tutula bilməz.

Ədliyyə Nazirliyinin Qeydiyyat və Notariat Baş İdarəsinin verdiyi məlumata görə 2005-ci ildə 71 min 619 nikah qeydə alınsa da, onlardan yalnız 19-u nikah müqaviləsi bağlaylb, 2006-cı ildə 79 min nikah və 33 müqavilə, 2007-ci ildə isə 81 min 756 nikah və 16 nikah müqaviləsi bağlanılıb. (25)

Nikah müqaviləsi ər və arvadın məhkəmə qaydasında əmlak bölgüsünə dair mübahisələrdən uzaq olmaq üçün onların maraqlarını nəzərə almaq məqsədilə bağlanan sazişdir. Məhz savadlı tərtib olunmuş nikah müqaviləsi, ər və arvadı artıq bölünməmiş əmlakdan başqa heç bir şey birləşdirmədiyi halda, onların tək istinad mənbəyi ola bilər. N.Y.Abdullayev haqlı olaraq göstərir ki, nikah müqaviləsinin bağlanmasının ilk növbədə əhəmiyyəti ondan ibarətdir ki, təsadüfi, müəyyən maddi maraqlar naminə bağlanan nikahların sayını azalda bilər. (26)

Azərbaycan Respublikası Ali Məhkəməsi Mülki İşlər üzrə Məhkəmə Kollegiyasının sədri Ş.A.Məmmədova qeyd edir ki, ərlə arvad arasında nikahın pozulmasından sonra əmlak bölgüsü ilə əlaqədar Ali Məhkəmənin icraatına daxil olan mülki işlərə baxılarkən tərəflərin nikah müqaviləsi barədə məlumatsız olduqları aydınlaşır. Nikah müqaviləsi bağlanmasından imtina bəzən milli mentalitetlə əsaslandırılır. Təsadüfi deyil ki, hələ indiyədək bu cür müqavilə imzalamış ər-arvadın boşanma məsələsi məhkəmə predmetinə çevrilməyib. (27)

Beləliklə, aparılmış tədqiqatlar qanunvericiliyin təkmilləşdirilməsinə dair aşağıdakı təkliflərin verilməsinə əsas verir:

Ailə Məcəlləsinin 39.3-cü maddəsi aşağıdakı redaksiyada verilsin:

"Nikah müqaviləsi yazılı formada bağlanır və notariat qaydasında təsdiq olunur. Nikah müqaviləsinin şərtləri Azərbaycan Respublikasının qanunvericiliyinə zidd olduqda notarius belə müqaviləni təsdiq etməkdən imtina edir".

Həmin Məcəllənin 39-cu maddəsinə bu məzmunda 39.4. və 39.5-ci maddələri əlavə edilsin:

39.4. “Notarius notariat hərəkətini aparmaqdan imtina etdikdə məhkəməyə şikayət verilə bilər”.
39.5. “Nikah müqaviləsi nümayəndə vasitəsilə bağlana bilməz”.

Açar sözlər: Mülki Məcəllə, Ailə Məcəlləsi, nikah müqaviləsi, notarius, əmlakın hüquqi rejimi, fiziki şəxslər, notariat qaydasında təsdiq.

İstifadə olunmuş ədəbiyyat

1. Azərbaycan dilinin izahlı lüğəti: 4 cilddə, III cild / f.e.d., professor Əliheydər Orucovun rəhbərliyi və ümumi redaktəsi ilə. Bakı: ŞƏRQ-QƏRB, 2006, 672 c.
2. Manayev Q.İ. Sovet ailə hüququ. Dərslik. Bakı: Azərbaycan Universiteti Nəşriyyatı, 1989, 260 s.
3. Kuzneüov B.B. Юridiçeskiy slovarğ. Postov: «Фeniks», 2009, 314 s.
4. Бondov C.H. Braçnıy doqovor (kontrakt) po Cemeynomu pravu Possii: Дis. … kand. örid. nauk. M., 1999, 123 s.
5. Dəmirçiyeva M.D. Azərbaycan Respublikasının ailə hüququ. Dərslik. Bakı, «Qanun», 2008, 488 s.
6. Grajdanskoe i torqovoe pravo kapitalistiçeskix qosudarstv. Yçebnik / Otv.red. E.A.Basilğev. M.: Mejdunarodnıe otnoşeniə, 1993, 560 s.
7. Grajdanskoe ulojenie Germanii. M.: Bolters Kluver, 2006, 816 s.
8. Azərbaycan Respublikasının 28 dekabr 1999-cu il tarixli Qanunu ilə təsdiq edilmiş Ailə Məcəlləsi. Bakı, «Qanun», 2009, 184 s.
9. Clovarğ inostrannıx slov. M., «Pusskiy əzık», 1989, 624 s.
10. Azərbaycan Respublikasının 28 dekabr 1999-cu il tarixli Qanunu ilə təsdiq edilmiş Mülki Məcəlləsi. Bakı, «Qanun», 2009, 640 s.
11. Иqnatenko A.A., Ckrıpnikov H.H. Braçnıy doqovor. Zakonnıy rejim imuhestva supruqov. M.: Иnformaüionno-izdatelğskiy dom «Фilin», 1997, 112 s.
12. Ylğənenko O.A. Braçnıy doqovor v Cemeynom prave Ykrainı: Дis. … kand. örid.nauk. Kiev, 2003, 185 s.
13. Фranüuzskiy qrajdanskiy kodeks /Пerevod s franüuzskoqo əzıka. M., «Пrospekt», 2008, 752 s.
14. Kommentariy k Cemeynomu kodeksu Possiyskoy Фederaüii /Otv. Ped. И.M.Kuzneüova. M., «Юrist», 2000, 568 s.
15. www.meget.kiev.ua/kodeks/semeyniy
16. www.pravo.kulichki.com
17. www.pavlodar.com/zakon/dok
18. www.base.spinform.ru/show
19. www.law-moldova.com
20. www.fms.uz/legisl.php
21. www.asia-realty.ru/co-zakon-tajikistan.php
22. www.medialawca.org/document
23. www.intolex.ee/zakony-ectonskoj-respubliki
24. Aqamirov N.İ., Antipenkov A.A., Qolğdin Q.Q. Ontoloqiə braçnoqo doqovora. M., «Öniti», 2010, 215 s.
25. Boşanmış qadınlar necə olur küçəyə düşür... “Ekspres” qəz., Bakı, 2010, 14 avqust.
26. Abdullayev N.Y. Nikah müqaviləsi nikahın və ailənin qorunmasında mühüm vasitədir. www.legalreform.az
27. Məmmədova Ş.A. Nikah və nikah müqaviləsinin bağlanması ər-arvad arasındakı mübahisələrin həlli üçün təminatdır. “Azərbaycan” qəz., Bakı, 2010, 10 iyul.
28. «Notariat haqqında» 26 noyabr 1999-cu il tarixli Azərbaycan Respublikasının Qanunu. Bakı, «Qanun», 2010, 40 s.

Зaur MAMEDOV

IIROBLEMI UDOSTOVERENIƏ BRAÇNOQO DOQOVORA V NOTARIALĞNOM PORƏDKE

Pezöme

B statğe qovoritsə o problemax, voznikaöhix v svəzi s udostovereniem braçnoqo doqovora v notarialğnom porədke. Avtor predlaqaet izmenitğ statğö 39.3 Cemeynoqo kodeksa i izlojitğ ee v sleduöhey redaküii: «Бraçnıy doqovor zaklöçaetsə v pisğmennoy forme i podlejit notarialğnomu udostovereniö. Esli usloviə braçnoqo doqovora protivoreçat Зakonodatelğstvu Azerbaydjanskoy Pespubliki, to notarius vprave otkazatğ v udostoverenii takoqo doqovora».

Дalee on predlaqaet dopolnitğ statğö i izlojitğ ee sleduöhim obrazom:

«39.4. Otkaz notariusa v soverşenii notarialğnoqo deystviə mojet bıtğ objalovan v sudebnom porədke».

«39.5. Зaprehaetsə zaklöçatğ braçnıy doqovor çerez predstavitelə storon».

Klöçevıe slova: Гrajdanskiy kodeks, Cemeynıy kodeks, braçnıy doqovor, notarius, pravovoy rejim imuhestva, fiziçeskie liüa, udostoverenie v notarialğnom porədke.

Zaur MAMMADOV

PROBLEMS OF NOTARIAL CERTIFICATION OF THE MARRIAGE CONTRACT

Summary

The article highlights the problems that arise in connection with the notarial certification of the marriage contract. The author proposes to change the Article 39.3 of the Family Code and to set forth it in the following wording: "The marriage contract shall be concluded in written form and notarized. If the conditions of the marriage contract are contrary to the law of the Azerbaijan Republic, the notary shall be entitled not to certificate such contract".

The author also proposes to supplement Article 39 of the Family Code by provision as follows: "39.4. The notary's refusal to commit notarial act may be appealed in a court".

"39.5. To enter into a marriage contract through a representative of the parties shall be forbidden".

Keywords: Civil code, Family Code, marriage contract, notary, legal regime of property, natural persons, certificate by a notary.

UOT 1.179

Fikrət NƏBİYEV
AMEA FSHİ-nin b.e. i.., fəlsəfə üzrə f əlsəfə doktoru

ƏXLAQ VƏ HÜQUQUN QARŞILIQLI ƏLAQƏSİ MƏSƏLƏSİ*

Əxlaqın məzmunu dövrün konkret ictimai-tarixi şəraiti ilə bağlıdır. SSRİ dövründə proletar əxlaqı sinfi mübarizənin tələbinə uyğun tərbiyə etmək funksiyasını yerinə yetirirdi. Bu dövrdə əxlaqi münasibətləri həyata keçirmək üçün müəyyən tələblər irəli sürülürdü. O dövrdə kollektivizm, beynəlmiləlçilik, istismara qarşı nifrət kimi keyfiyyətlər proletar əxlaqının formalaşması işinə xidmət edirdi.

Xalqa miras qalmış iqtisadiyyat vətəndaşların maddi və mənəvi tələbatını ödəyə bilmirdi. Vəziyyəti yaxşılaşdırmaqdan ötrü birinci növbədə maddi çətinlikləri aradan qaldırmaq lazım idi. Həyata keçirilən yenidənqurma iqtisadiyyatda və insanların mənəvi həyatında yeni bir mərhələ oldu. Proletar əxlaqının öz mahiyyəti, tələbləri və meyarı olmuşdur. Belə ki, materializmə görə əxlaqi tərəqqi zamanı cəmiyyət öz kortəbii xarakterini itirir, planlı surətdə ictimai inkişaf qanunlarından şüurlu istifadə etmək əsasında irəliyə doğru hərəkət edir. Materialistlər cəmiyyətin inkişafında mənəvi amillərin roluna böyük əhəmiyyət verərək göstərmişlər ki, yalnız tələb etməklə azadlıq, insanpərvərlik, ədalət əldə etmək mümkün deyil. Bunun üçün istismarın kökünü kəsmək gərəkdir.

Qərb ölkələrində öz mənəvi silahlarını təkmilləşdirmək və onu tarixi şəraitə uyğunlaşdırmaq istiqamətində işlər həyata keçirilir. Bəzi nəzəriyyəçilər bütün ideologiyaların tərksilah edilməsi nəzəriyyəsini irəli sürmüşdülər ki, bu ideyanın mahiyyəti kapitalizm və sosializmi vahid sənaye cəmiyyətində birləşdirməkdən ibarət idi. Amerika Jelek Universitetinin doktoru R.Morters bu nəzəriyyəni praktiki olaraq əsaslandırmaq üçün Pekinlə taktiki ittifaq yaratmaq, oradakı hakim partiya daxilində millətçi ünsürləri müdafiə etmək, milli azadlıq dəstələrində ziddiyyətlər yaradaraq onları öz ətrafına cəlb etmək və bununla da dünyada bütün siyasi iqtisadi hegemonluğa nail olmaq ideyasını irəli sürürdü.

Alman professoru Flexthayma görə hazırkı sənaye əsrində ideoloji və siyasi amilləri önə çəkmək lazım deyil. Bütün proseslər obyektiv əsasda həll edilməlidir. Bəşəri keyfiyyətlərə malik olan hər bir insanda ümumbəşəri əxlaqi keyfiyyətlərdən biri olan azad iradə vardır ki, bu amil məhz ictimai-siyasi münasibətləri sonrakı plana çəkir ki, bu da beynəlxalq miqyasda antoqanist ziddiyyətlərin yox olması üçün təminat verir.

Əxlaq ictimai qüvvələrin tarixi boyu yaratmış olduqları mənəvi prinsip və normaları özündə birləşdirir. Mənəvi zənginlik, əxlaqi saflıq və fiziki kamilliyi özündə birləşdirən yeni insanın formalaşması əxlaqın qarşısında duran məsələdir. Əxlaq, şəxsiyyətin cəmiyyətə, insanın insana olan münasibətlərini ifadə edir. Cəmiyyətdə əxlaqın fəaliyyət həcmi getdikcə genişlənir. İnsanlar arasında qarşılıqlı münasibətlərin inzibati hüququ yolla nizama salınması öz yerini əxlaqi əsaslarla nizamlama sahəsinə verir.

Cəmiyyətdə fəaliyyət göstərən insanlar maddi və mənəvi, o cümlədən, əxlaqi sərvətləri yaradır və qoruyur. Əsasən xalq kütlələri əxlaqi münasibətləri, əxlaqi ideyaları və normaları hazırladı, nəsildən-nəslə verib onları yaşatdı. Hakim sinif tərəfindən yaradılan əxlaq da öz mahiyyətinə görə mütərəqqi xarakterə malik olmuşdur. Belə ki, hər bir hakim siniflərin əxlaqi sistemlərində müsbət keyfiyyətlər olmuşdur. Həmin keyfiyyətlər sonrakı dövrdə yeni qabaqcıl, sağlam qüvvələrin köməyi ilə inkişaf etdirilmişdir. Misal üçün "azadlıq, bərabərlik" kimi əxlaqi keyfiyyət kəsb edən şüarlar burjua inqilabları dövründə humanist xarakter kəsb edirdi. Postsovet məkanında kommunizm quruculuğu illərində əxlaq kodeksi nəzəri və praktiki fəaliyyətin nəticəsi olaraq ölkədə baş verən siyasi və əxlaqi dəyişiklikləri əks etdirməli idi. Rəhbər kodeks kimi bu prinsiplər aşağıdakılardan ibarət olmuşdur.

Kommunizm işinə sədaqət, Sosialist Vətəninə, sosializm ölkələrinə məhəbbət; cəmiyyət xeyrinə vicdanla işləmək: işləməyən dişləməz; ictimai sərvəti qoruyub saxlamaq və artırmaq qayğısına hər kəsin qalması; cəmiyyət qarşısında öz vəzifəsini dərindən başa düşmək; ictimai mənafeyin pozulması hallarına dözməmək; kollektivçilik və qarşılıqlı yoldaşlıq yardımı: hər kəs hamı üçün, hamı hər kəs üçün; adamlar arasında insanpərvərlik münasibətləri və qarşılıqlı hörmət; insan insana dost, yoldaş və qardaşdır; düzlük və doğruçuluq, mənəvi saflıq ictimai və şəxsi həyatda sadəlik və təvazökarlıq; ailədə qarşılıqlı hörmət,

* Məqalə hüquq üzrə fəlsəfə doktoru A.Quliyev tərəfindən çapa məsləhət bilinib.

uşaqların tərbiyəsi qayğısına qalmaq; haqsızlığa müftəxorluğa, əliəyriliyə, mənsəbpərəstliyə, qənimətçiliyə qarşı barışmazlıq; SSRİ-nin bütün xalqlarının dostluğu və qardaşlığı: milli və irçi ədavətə qarşı barışmazlıq; bütün ölkələrin zəhmətkeşləri ilə, bütün xalqlarla qardaşcasına həmrəylik tarixdə ilk dəfə nəcib əxlaqi münasibətləri əhatə edən birgə yaşayış qaydaları yüksək mənəvi dəyərləri əks etdirir.

Əxlaq kodeksində kollektivçilik, humanizm, qarşılıqlı hörmət kimi prinsiplər konkret olaraq ictimai əxlaqi və hüquqi məna kəsb edir. Düzlük və doğruçuluq, mənəvi saflıq, ictimai və şəxsi həyatda sadəlik və təvazökarlıq kimi əxlaqi normalar təmiz əxlaqi ideyalara əsaslanır. Xalqlar arasında mənəvi əlaqələrin gücləndirilməsi isə ümumi tərəqqiyə xidmət edən vasitələrdən biridir.

Nəzərə almaq lazımdır ki, mənəvi həyatda pis əməllərdən uzaqlaşmaq çağırışı dini ainlərdə də vardır. Belə ki, dini əxlaqın faydalı cəhətlərindən biri də ondan ibarətdir ki, cəmiyyət üçün neqativ hal hesab edilən əməllərə, ailədə ata-anaya qarşı hörmətsizliyə qarşı çıxır.

Məlumdur ki, cəmiyyətdə mövcud olan əxlaqi keyfiyyətlər dindən əvvəl insanlar tərəfindən yaradılmış və ictimai münasibətləri tənzim etməli olan normalar sistemi kimi möhkəmlənmişdir. Belə ki, ata-anaya hörmət, onların nəsihəti quldarlıq dövründən mövcud olmuşdu. Bu dövrdə ailədə uşaqlar valideynlərin mülkiyyəti hesab edilirdi. Oğurluq, adam öldürmə kimi cinayət xarakterli əməllərə qarşı yönəldilən əxlaqi nəsihətlər isə ümumiyyətlə cəmiyyətdə xüsusi mülkiyyətin yaranması ilə meydana gəldi. Burada məqsəd xüsusi mülkiyyəti və mülkiyyətçilərin fiziki sağlamlığını qorumaqdan ibarət olmuşdu.

Göründüyü kimi əxlaq kodeksindəki müddəalar dini-əxlaqi əsaslara malikdir. Kodeks öz məzmunu etibarı ilə mənəvi qüsurlar əleyhinə yönəldilmiş ideyalar toplumundan ibarətdir. Eyni zamanda əxlaq kodeksi ictimai münasibətləri nizama salmaq, əxlaqi və hüquqi eybəcərliklərə qarşı mübarizə vasitəsidir. Xalqın düşmənləri olan oğrular, soyğunçular, dələduzlar hüquqi normalar əsasında tənbeh edilirlər. Xüsusi mülkiyyətə qarşı yönəlmiş tamahkarlıq, rüşvətxorluq kimi əməllər də ictimai münasibətləri pozur. Bu cür əməllər əxlaqi cəhətdən yolverilməzdir və bütün bunlar günahkar şəxsin hüquqi əsaslarla cəzalandırılması üçün əsas verir.

Mənəvi dəyərlərimizə tarixi dövrlərin özünəməxsus hadisəsi kimi baxsaq görərik ki, cəsarət, mərdlik kimi normalar ibtidai-icma quruluşunda ən yüksək əxlaqi keyfiyyət hesab edildiyi halda feodalizmdə mütilik, allahın mərhəməti əsasında fəaliyyət, inam ən yüksək mənəvi dəyərlər hesab olunurdu. Kapitalizmdə, inqilablar dövründə isə, azadlıq, bərabərlik, ədalət kimi dəyərlər yüksək qiymətləndirilirdi.

Sovetlər dövründə kollektivçilik, sosialist vətənpərvərliyi və beynəlmiləlçiliyi, humanizm, düzlük, doğruçuluq və prinsipiallıq, cəmiyyətin işlərində fəallıq, köhnə idarəçilik sistemlərinə və həmin mühitdən irəli gələn təzahürlərə qarşı barışmazlıq kimi normalar bir şərt kimi irəli sürülürdü. Müasir dövrdə insanların əxlaqi keyfiyyəti onun cəmiyyətə, kollektivə, ailəyə, ictimai-siyasi mühitə, əmlaka, yoldaşlara münasibəti ilə qiymətləndirilir. Deməli zaman keçdikcə əxlaqi dəyərlərin məzmunu dəyişir və təkmilləşir. Yəni, hər hansı əxlaqi hərəkətlə bağlı fəaliyyəti təhlil etmək, nəzəri müddəaları əxlaqi tərəqqi əsasında qiymətləndirmək olar. Əxlaqın ölçüsünü müəyyən etmək, onun elmi təhlilini vermək üçün bir çox nəzəriyyəçilər müxtəlif elmi müddəalarla çıxış etmişlər. Onların bir çoxu əxlaqın meyarını cəmiyyətdən kənarda, əbədi olan insan təbiətində axtarmışdılar. Bəziləri isə mənəviyyatın obyektiv meyarını-əxlaqiliklə əxlaqsızlıqda, ədalətlə ədalətsizlikdə xeyrlə-şərdə axtarmışlar. Mülki məhkəmə idarəsinin prezidenti Q.Ştofer özünün "Etik qiymətləndirmə bacarığı haqqında" əsərində qeyd edir ki, mənəviyyatın obyektiv meyarı yoxdur. Praqmatistlər, ekzistensialistlər kimi etik məsələləri obyektiv idealist mövqedən təhlil edən digər nəzəriyyəçilər əxlaqi münasibətlərin obyektiv əsaslandırılmasını inkar edirlər. Onlar belə hesab edirlər ki, insan əxlaqının meyarı onun dəyişməz təbiəti ilə bağlıdır və bu dəyişməz əxlaq ümumbəşəri mahiyyət kəsb edir.

Relyativizm cərəyanının nümayəndələri isə subyektiv əsaslarla izah etməyə çalışırlar ki, əxlaqın meyarı şərti xarakter daşıyır və əsassızdır. Yəni, hər bir şəxs, kollektiv, təbəqə müxtəlif əxlaqı dəyərlər haqqında öz xüsusi fikrini əsaslandıra bilər. Belə olduqda əxlaqın konkret obyektiv meyarı haqqında fikir söyləmək olmaz. İngilis filosofu A.Ayenə görə hər hansı hərəkət, digərindən heç nə ilə fərqlənmir. Bir-birinə zidd olan iki hərəkətdən hər hansını digərindən üstün tutmaq olmaz.

Relyativistlər hesab edirlər ki, bütün əxlaqi normalar yaxşıdır və əxlaq sahəsində heç bir obyektivlik mövcud deyil. Hər bir şəxsin, hər bir kollektivin öz əxlaqı vardır.

Materializmə görə əxlaqi və hüquqi normalar üçün obyektiv meyarı insanların cəmiyyətdə həyata keçirdiyi iqtisadi münasibətlərin obyektiv qanunlarında axtarmaq lazımdır. Burada əsasən mövcud olan ictimai siyasi quruluş diqqət mərkəzində olmalıdır. Çünki hər bir dövrdə özünəməxsus əxlaqi münasibətlər formalaşır və burada məqsəd cəmiyyətdə yaşayan insanların xoşbəxt həyatını təmin etməkdən ibarətdir. Hazırda Azərbaycan dövləti, xalqın əmin-amanlığı uğrunda, ölkənin təhlükəsizliyi başqa dövlətlərlə dinc

yanaşı yaşamaq, işğal olunmuş torpaqlarının işğaldan azad edilməsi uğrunda mübarizə aparır. Bu ictimai siyasi və hüquqi aspektdə həm də əxlaqi aspektdə aparılan mübarizədir. Xalqımız və dövlətimiz bu mübarizə imkanlarını humanist əsaslarla həyata keçirməyi özünə borc hesab edir.

Nəzərə almaq lazımdır ki, hər hansı bir tarixi şəxsiyyətlə (şəxslə) bütöv bir xalqın əxlaqını eyniləşdirmək olmaz. Bu cür şəxslər əksər hallarda ictimai həyatın real tələblərinə uyğun olmayan tələblər irəli sürdüklərinə görə məğlub duruma düşürlər. Məsələn Hitler mürtəce iradəsi ilə həyata keçirilən bu qeyri əxlaqi ideya yerinə yetirilə bilmədi. Çünki, ancaq tarixi inkişafın obyektiv tələblərinə uyğun olan, xalqının həyati mənafeyinə uyğun gələn əxlaqi meyar həqiqi qəhrəmanlıq nümunəsi ola bilər.

Tarixi dövrlərə nəzər salsaq görərik ki, hər bir tarixi dövrdə, ictimai inkişafın hər bir mərhələsində dövrün əxlaqi tipinə uyğun əxlaqi meyar mövcuddur. F.Englesə görə üç əxlaq-feodal, burjua və proletar əxlaqi mövcuddur və hər bir dövrün öz əxlaqi meyarı vardır. Tarixən mühitin dəyişməsi ilə əxlaqın məzmunu və meyarı da dəyişir və inkişaf edir. Ona görə tarixin qanunauyğun gedişinin müasir mərhələlərinin əxlaqi tərəfini təşkil edən idealları və qiymət meyarlarını götürməklə yanaşı ümumdünya tarixinin müasir vəziyyətinin obyektiv məzmununu da elmi əsasda tədqiq etmək lazımdır.

Əxlaq və hüquq insan davranışı ilə bağlıdır. Burada ictimai məsuliyyət və ictimai mənafe əxlaqi və hüquqi dəyərlərin qiymətləndirilmə prosesində əsas rol oynayır. Ailə münasibətlərində əmələ gələn mübahisəli məsələlər əksər hallarda əxlaqi hüquqi cəhətdən əsaslandırılmalıdır.

Bəzi tədqiqatçılar belə düşünürlər ki, yalnız ictimai inkişaf qanunlarını bilən adamlar yüksək əxlaqi tələblər əsasında hərəkət edə bilirlər. Cəmiyyətdə elə insanlar var ki, onlar ictimai inkişaf qanunlarını bilməsələr də, öz davranışları ilə başqalarına nümunə olurlar. Azərbaycan xalqı əxlaqi prinsipləri rəhbər tutaraq, onun həyata keçirilməsinə səy göstərir. Əxlaqi prinsiplər öz mahiyyətinə görə bütün insanların sülh şəraitində yaşamasının istiqamətlərini müəyyən edir, beynəlxalq, iqtisadi, siyasi, mədəni və hüquqi əlaqələrin inkişaf etməsi üçün əsas şərtlər hesab edilir.

Ümumiyyətlə, əxlaqi mahiyyət kəsb edən hüquqi keyfiyyətlər də ictimai şüurun formalarından biridir. Nəzərə almalıyıq ki, əxlaq və hüquq öz mahiyyəti etibarı ilə formalaşdıqdan sonra hər bir cəmiyyətdə cəmiyyət üzvlərinin hamısı üçün məcburi xarakter daşımağa başlayır. Onda qiymətləndirici, sevindirici və məcburedici, xüsusiyyətlər mövcuddur. Bütün bunlar öz xüsusiyyətlərinə görə əxlaqi və hüquqi qiymətlər vasitəsi ilə müəyyən edilir. Yəni, insanlarda formalaşmış hüquqi-əxlaqi mənəvi keyfiyyətlər əxlaqi-hüquqi qiymətlərlə bağlıdır. Mənəvi sərvətlər əxlaqi və hüquqi qiymət vasitəsi ilə anlaşılır. Bu mənada əxlaqi və hüquqi qiymət bir problem kimi aktuallıq kəsb edir.

Materialistlər determinizmə əsaslanaraq əxlaqın və hüququn obyektiv meyarını, əxlaqi və hüquqi məsuliyyət və qiymət problemini elmi şəkildə həll edərək qeyd etmişlər ki, determinizm iradə azadlığı haqqında ideyanı rədd edərək, insanın zəkasını, vicdanını və əməllərini qiymətləndirir və eyni zamanda hər şeyi azad iradənin məhsulu hesab etmir. Hər şeyə düzgün qiymət vermək üçün determinizm prinsipinə əsaslanmağı lazım bilir.

Determinizm, əxlaqi və hüququ müəyyənləşdirmədə nisbi azadlığı qəbul edir, ancaq insanın özü üçün seçdiyi əxlaqi və hüquqi hərəkət üçün məsuliyyət nəzərdə tutur. Əxlaqi seçmə azadlığı nə qədər geniş əhatəli olarsa, insan öz əxlaqında və davranışında o qədər məsuliyyətli olar. Burada əxlaqi və hüquqi qiymət məsələsinə dair müəyyən fikir irəli sürmək mümkündür. Belə ki, əxlaqi və hüquqiqiymət insanların şəxsi və ictimai həyatda, praktikada fəaliyyətini müəyyən edən amillərdən biridir. A.S.Makapenkoya görə, insanlarda yaxşı cəhətləri görmək həmişə çətindir. İnsanların kollektivdə yaxşı cəhətlərini görmək çətindir. Belə ki, bu yaxşı cəhətlər gündəlik xırda mübarizə şəraitində münaqişələrdə görünməz olur (1, s.684).

Əxlaqa və hüquqa qiymət verərkən birinci növbədə əxlaqi və hüquqi dəyərlərə əsaslanan meyara qiymət verilməlidir. Əxlaqa və hüquqa qiymət verərkən obyektiv və subyektiv baxışlar nəzərə alınmalıdır. Obyektivizmə görə əxlaqi və hüquqi qiymət insana ona faktlar əsasında, məlumatlar əsasında verilir, onun mahiyyəti isə açılmamış qalır. Obyektivistlər əxlaqa və hüquqa insan davranışına, fəaliyyətinə öz mənafeləri baxımından qiymət verir və öz şəxsi mənafelərinə toxunan hər şeyi ədalətsiz hal kimi qiymətləndirirlər.

Beləliklə, əxlaqi və hüquqi məqsəd və onu əldə etmə vasitələri təhlil edilməlidir. N.Q.Çernışevski qeyd edirdi ki, yüksək əxlaqi məqsədlər üçün müvafiq vasitələr lazımdır. Cəmiyyətin inkişafı üçün, əxlaqın düşünülən yaxşı məqsədlərini həyata keçirməkdən ötrü yaxşı vasitələr lazımdır. Yaxşı məqsədə düzgün olmayan vasitələrlə nail olmaq mümkün deyildir. Vasitə məqsədin xarakterinə uyğun olmalıdır, ancaq belə olduqda vasitə məqsədə çatdırıla bilər (2, s. 30).

Məqsədi müəyyən etdikdən, onun istiqaməti aydın olduqdan sonra mənəvi keyfiyyətlərdən və dünyanın yenidən qurulması problemindən danışmaq olar. Məqsəd fəaliyyətin əvvəlcədən lazım olan

şərtidir. Ona görə də məqsədin həyata keçirilməsi üçün, əxlaqi və hüquqi məqsədin həqiqiliyini ictimai tərəqqinin qanunayğunluğunda axtarmaq lazım gəlir. İctimai tərəqqi əxlaqi və hüquqi tərəqqi ilə paralel inkişaf edir. Əxlaqi tərəqqi cəmiyyətin ictimai-tarixi inkişafının nəticəsində baş verir və ona görə də ədalətli cəmiyyət qurmaq vəzifəsinə xidmət edən əxlaqi və hüquqi keyfiyyətlərin meyarına müasir dövrdə həqiqi əxlaqi və hüquqi məqsədin obyektiv meyarı kimi baxmaq olar.

Hər hansı sinif öz əxlaqi və hüquqi prinsip və normalarını hər hansı bir məqsədi həyata keçirmək üçün yaradır. Siyasi məqsəd, ictimai inkişaf əxlaqi və hüquqi tərəqqi üçün istiqamətverici mayaq rolunu oynayır. Yəni, mütərəqqi ictimai əxlaqi və hüquqi məqsədlər cəmiyyətin əxlaq və hüquqi cəhətdən təkmilləşməsi üçün şərait yaratmış olur. Ancaq, məqsədin nəticəsi cəmiyyət üçün o vaxt yararlı hesab edilə bilər ki, o öz mahiyyəti etibarı ilə müsbət həqiqi əsaslara malik olsun. Bu zaman həmin əxlaqi və hüquqi dəyrələr məqsədəuyğun hesab edilir və onun həyata keçirilməsi vacib hesab edilir. Həqiqətə çatmaq üçün, müəyyən mərhələli, çoxtərəfli məqsədləri həyata keçirmək lazımdır.

İnsan öz davranışı ilə mahiyyətini, öz əxlaqi keyfiyyətini və mənəvi simasını açıb göstərir. İnsanın mahiyyəti onun işində, hərəkət və davranışında, işin motivlərində müəyyən edilir. Şəxsiyyətin qiymətləndirilməsi zamanı bütün bu vahid əxlaqi və hüquqi motivlər əsas götürülməklə onun fərdi keyfiyyətləri, arzu və istəkləri, şəxsi təşəbbüsləri, işinə münasibəti, hazırlıq səviyyəsi, mənəvi siması, ailədə, kollektivdə davranışı nəzərə alınmalıdır. Məsələn, hər hansı şəxsin keyfiyyəti, davranışı nəzərə alınmırsa və xasiyyətnamədə bütün bunlar öz əksini tapmırsa həmin şəxs haqqında qeydlər birtərəfli qaydada əks olunmuş olar.

Əxlaqi qiymət siyasi, hüquqi, estetik qiymətlərlə əlaqədədir və bunlar bir-birinə uyğun şəkildə mühakimə edilməlidir. Əxlaqi qiymətin hüquqi qiymətlə əlaqəsi bununla müəyyən olunur ki, hüquqi qiymət həmişə mənəvi əhəmiyyət kəsb edir. Halbuki hər hansı əxlaqi qiymət hüquqi məna daşımır. Hüquqi qiymət yalnız qanunla nəzərdə tutulan hərəkət və davranışa verilir. Qanunla nəzərdə tutulmayan davranış və hərəkətlər isə əxlaqi baxımdan qiymətləndirilir. Hüquqi qiymət müvafiq olaraq səlahiyyətli müəssisələr və şəxslər tərəfindən verilir və dövlət tərəfindən icbari şəkildə müdafiə olunur, əxlaqi qiymət isə ayrı-ayrı şəxslərə öz kollektivləri tərəfindən yazılı və şifahi şəkildə irəli sürülür və ictimai rəy vasitəsilə möhkəmləndirilir (3, s. 76-77).

Hüquqi və əxlaqi qiymət həm hərəkətin özünü, həm də onun motivlərini eyni dərəcədə nəzərə alır. Əxlaqi və hüquqi qiymət arasında mütləq sərhəd yoxdur. Əxlaqi norma ilə qiymətlər hüquqi norma və qiymətlərlə uyğun ola bilər. Məsələn, bütün ictimai təhlükəli əməllər həm əxlaqi həm də hüquqi nöqteyi-nəzərdən qiymətləndirilir.

Cəmiyyət inkişaf etdikcə əxlaqi və hüquqi normalar da mahiyyəti etibarı ilə təkmilləşir və həmin normalara münasibət də dəyişir. Hüquq və əxlaq bir-birinə qarşılıqlı təsir edir, cəmiyyətdə vahid əxlaqi norma əsasında hüquqi və əxlaqi qiymətlər qarşılıqlı surətdə bir-birini tamamlayır.

Əxlaqi dəyərlər estetik qiymətlərlə ayrılmaz vəhdət təşkil edir. Belə ki, estetiklik və etikliyin vəhdəti həyatda baş verən obyektiv qanunauyğunluqdur. V.Q.Velinskiyə görə gözəllik əxlaqın doğma bacısıdır. Estetik qiymət gözəllik haqqında təsəvvürə, etik qiymət isə əxlaqa əsaslanır. Ancaq, hər iki qiymət yeni insan haqqında təsəvvürdən yaranır. Müsbət obrazlar estetik və həm də əxlaqi cəhətdən qiymətləndirilir. Əxlaqi, hüquqi, siyasi, estetik qiymətlərin əsasını yaxşı demokratik cəmiyyət uğrunda mübarizə təşkil edir və bu əxlaqın və hüququn prinsipləri əsasında bir vəzifə olaraq qarşıya qoyulur.

Açar sözlər: əxlaq normaları, hüquq normaları, əxlaqi və hüquqi münasibətlər, əxlaqi və hüquq keyfiyyətlər, ictimai münasibətlər.

İstifadə olunmuş ədəbiyyat

1. N.Q.Çernışevski. Seçilmiş əsərləri, XIV cild.
2. A.S.Makarenko. Kommunist tərbiyəsi haqqında, Bakı, «Azərnəşr», 1954.
3. S.Ş.Paşayev. Kommunist əxlaqının nəzəri məsələləri. Bakı, “Maarif”, 1978.

Фikret НАБИЕВ

VOPROS VZAIMOSVƏZI MORALI I PRAVA

Pezöme

Moralğnaə i pravovaə oüenka kak samoqo povedeniə, tak i eqo motiva doljnı uçitıvatğsə v odinakovoy stepeni. Mejdu moralğnoy i pravovoy oüenkoy net çetkoqo razqraniçeniə. Moralğnaə oüenka norm mojet sovpadatğ s ix pravovoy oüenkoy. Tak, naprimer, vse obhestvenno opasnıe deəniə oüenivaötsə kak s moralğnoy, tak i s pravovoy toçek zreniə.

C razvitiem obhestva soverşenstvuötsə normı morali i prava i menəetsə otnoşenie k nim. Moralğ i pravo vzaimodeystvuöt na osnove edinıx norm nravstvennosti. Пravovıe i moralğnıe üennosti dopolnəöt druq druqa.

Klöçevıe slova: gtiçeskie normı, pravovıe normı, gtiçeskie i pravovıe otnoşeniə, moralğnıe i pravovıe kaçestva, obhestvennıe otnoşeniə.

Fikrat NABIYEV

THE ISSUE OF INTERRELATIONSHIP BETWEEN MORALS AND LAW

Summary

The moral and legal appraisals of both behavior itself and its motive are to be taken into account in the same degree. There is not a clear-cut differentiation between the moral and legal estimation. The moral value of the norms may coincide with their legal estimation. Thus, for instance, all the socially dangerous acts are estimated from both moral and legal points of view.

With development of a society the standards of morals and law are being improved and an attitude to them changes. The morals and law interact on the basis of unite norms of morality. The legal and moral values supplment each other.

Keywords: ethical norms, legal norms, ethical and juridic relations, moral and legal features, social relations.

UOT 340

Əli RZAYEV
AMEA FSHİ-nin a.e. i,
hüquq üzrə fəlsəfə doktoru

DÖVLƏT QULLUĞU PROBLEMLƏRİNİN TƏDQİQİNİN METODOLOJİ ƏSASLARI*

Dövlət qulluğu problemlərinin həllində tədqiqat metodologiyasından geniş istifadə edilir. Dövlət qulluğunun tədqiqində qəbul olunan metodlar başqa hüquq təzahürləri üçün tətbiq olunan metodlardan heç nə ilə fərqlənmir. Dövlət qulluğunun metodoloji bazasını şərti olaraq bir-birini tamamlayan iki yanaşma sistemi tutur. Birinci yanaşmada elm və praktikada təsdiq olunmuş ümumi nəzəri metodlardan, sistemli, sistemli funksional, struktur, struktur funksional, tarixi yanaşma, təhlil, formal məntiqi, müqayisə, induksiya və deduksiyadan, təşkil olunmuş konkretdən mücərrədə keçmədən istifadə olunur. İkinci yanaşmaya hüquq, iqtisad, siyasi, sosiologiya, fəlsəfə elmində istifadə olunan nəzəri metodlar daxildir. Nəzəri müddəaları konkretləşdirmək və əsaslandırmaq məqsədilə statistik məlumatlardan, habelə dövri mətbuat materiallarından da istifadə edilir.

Dövlət qulluğu problemlərinin tədqiqində onun ilk növbədə metodoloji əsasını təşkil edən və mühüm dövlət-hüquq institutları kimi onun xüsusiyyətlərini xarakterizə edən «Dövlət», «Dövlət hakimiyyəti», «Dövlət aparatı» və «Dövlət idarəetməsi» təzahürlərinin mahiyyəti, dövlət qulluğunun bu təzahürlərlə qarşılıqlı əlaqələri və təsiri müxtəlif metodlarla araşdırılır. Dövlət qulluğu dövlətlə (onun məqsəd və funksiyalarını yerinə yetirir), dövlət hakimiyyəti ilə (avtoritet və gücünə əsaslanır), dövlət aparatı ilə (funksiya göstərməsini təmin edir), dövlət idarəetməsi ilə (onun əsas mexanizmi kimi çıxış edir) vahid sistemdə baxılır.

Hansı halda hansı metoddan necə istifadə etməyi metodologiya elmi öyrədir. **Metodologiya** (yun. metod + logos) hər hansı bir elmdə tətbiq edilən üsulların məcmusudur. Metodologiya gerçəkliyi dərk etmək metodları haqqında fəlsəfi təlimdir. Metodologiya eynicinsli təzahürlərin tədqiq olunmasını, təşkilatı cəhətdən müəyyənləşməsini, dəyişməliyini, təkmilləşdirilməsini, modernləşməsini və onlar arasında qarşılıqlı əlaqələrin koordinasiyasını, ahəngliyini nəzərdə tutur. Metodoloji problemlərə maraq XIX əsrin axırlarından Almaniyada yaranmışdır.

Hüquq nəzəriyyəsi üzrə məşhur hüquq nəzəriyyəçisi S.S.Alekseyev göstərir ki, **metod** kompas rolunu oynayır və tədqiqatın ümumi strategiyasını müəyyən edir [1, s.24]. Lüğətlərdə metod (yun. metodos) dərketmə üsulu, təbiətin və ictimai həyatın təzahürlərinin tədqiqi, hər hansı bir məqsədə çatmaq üçün üsul, yol və ya üsullar sistemi kimi göstərilir [2, s.315].

S.S.Alekseyev metodda iki cəhət ayırır: birinci, bu ilkin metoddur – bu metodu subyektlərin hüquqi statusunda müəyyən olunan məntiqi tənzimlənmə yolları təşkil edir; ikinci, hüquqi tənzimləmə üsuludur – burada hüquqi normalar və hüquqi sisteminin başqa elementlərində ifadə olunan hüquqi təsvir başa düşülür. O metodda iki əsas mərhələ ayırır: birinci, bilavasitə təzahürlərdən onların mahiyyətinə yol; ikinci, təzahürlərin mahiyyətindən bu təzahürlərin konkret hissələrinə yol. Hüquqi təzahürlərin bütün keyfiyyətləri, anlayışlar aydınlaşdıqdan sonra tədqiqatın davamına imkanlar yaranır [1, s.25]. Metodda bu iki mərhələ hüquq elmində bütün sahələr üçün universal xarakter daşıyır.

Məşhur alman sosioloqu M.Veber (1864-1920) «Elmlərin metodologiyası üzrə tədqiqatı» əsərində sosial elmlərin məntiqi-metodoloji prinsiplərini təhlil edərək göstərirdi ki, təbiətdə və cəmiyyətdə «fərd» və «ümumini» ayırmaq lazımdır. Fərd məntiqin predmetidir, yəni geniş mənada predmetidir. Bununla belə hər iki metod «ümumi» əsasında təhlil olunur. Humanitar və təbiət haqqında elmlər arasında fərq onların predmetlərinin fərqliliyində yox, bu elmilərin məntiqi metodlarının fərqindədir [3, s.15]. O göstərir ki, təbiət elmində və ictimai elmdə anlayışlar müxtəlif cür yaranır. Əgər təbiət elmində məqsəd ümumi qanunu müəyyən etməkdirsə, tarix elmində isə məqsəd xüsusi, fərdi dərk etməkdir. Predmetin mahiyyətini açmaq üçün ümumini aşkar etmək lazımdır. Ümumi anlayışlar olmadan fərdi dərk etmək olmur. Təbiət elmində «ümumi» məqsəd kimi qoyulduğu halda, humanitar elm üçün «ümumi» yalnız vasitədir. Əgər biz fərdi

---

* Məqalə h.e.d., prof. H.Qurbanov tərəfindən çapa məsləhət bilinib.

xarakterizə edən müəyyən elementləri ayırmaq istəyiriksə (istər tarixi şəxsiyyət, yaxud tarixi hadisə olsun) bütün bunları tam kimi təsvir etməliyik [3, s.15-16].

Metodologiya haqqında mütəfəkkirlərin klassik baxışlarını göstərmək əhəmiyyətlidir. Orta əsrlərin ensiklopedik alimi Əbu Reyhan Biruni (X ə.) metodu aşağıdakı kimi tətbiq etməyi tövsiyə edirdi: təbiət hadisələrini izah edərkən təbiətin özündən başlamalı, onda mövcud olan qanunauyğun faktlara və təcrübəyə əsaslanmalı; predmet öyrənilərkən onu təşkil edən elementlərin öyrənilməsindən başlamalı, ən əsas duyğu məlumatlarına (sübutlara, əlamətlərə) əsaslanan deduksiyanı rəhbər tutmalı; təhlil və ümumiləşdirmələr aparmalı; müxtəlif məlumatları, fikirləri və rəvayətləri başqaları ilə tutuşdurmaqla həqiqəti müəyyən etməli; tədqiqat zamanı məlumdan-naməluma, yaxından-uzağa getməli; əgər uzaq keçmişi dərk etməyə aiddirsə predmetin, hadisənin tarixini öyrənməli [4, s.47].

Fransız filosofu Dekart «Metod haqqında düşüncələr» (1637) klassik əsərində məşhur metodoloji qaydaları dörd yerə ayırır: **Birinci**, heç vaxt heç nəyi həqiqət kimi qəbul etməmək, tələsməkdən və yanlış fikirdən qaçmaq və öz mühakimənə şübhə üçün yer qalmayan şeyləri daxil etmək; **İkinci**, baxılan hər problemləri həll etmək üçün onu nə qədər tələb edilirsə o qədər hissələrə bölmək; **Üçüncü**, öz fikirlərini sadə və asan dərk olunan predmetləri müəyyən qaydalar üzrə düzmək və iyerarxiya üzrə mövcud qaydalar ilə aşağıdan yuxarı daha mürəkkəbləri dərk etməyə yönəltmək; **Dördüncü**, heç nəyi buraxmadan siyahı üzrə nəzərdə tutulanları tam və hərtərəfli əhatəli etmək [5, s.124-125].

İngilis filosofu, ingilis materializminin banisi Bekon «Yeni orqanon» traktatında gerçəkliyi dərk etməyin üç əsas yolunu – hörümçək, qarışqalar və arıların yolunu göstərir:

Hörümçək yolu – hörümçəyin özündən tor toxumağına oxşar olaraq təmiz idrakdan həqiqəti çıxarmaq səyidir. Bekon bu yolu tələsik və reallıqdan uzaq hesab edir. Hörümçək yolunu tutanların səhvlərinin əsas səbəbi məntiqi qaydaların təcrübəyə əsaslanmayan konstruksiyanın qurulmasına gətirən faktların tam nəzərə alınmamasında əks olunur.

Qarışqa yolu birinci yola tam ziddir. Bu yolu seçənlər faktlara köləcəsinə bağlı olurlar. Onlar faktları düzgün ümumiləşdirə bilmirlər. Əməkçi qarışqalar kimi bu cür empiriklər müxtəlif faktları yığır, lakin onlardan düzgün nəzəri nəticə əldə etmir.

Arıların rolu həqiqətə çatmaq üçün yeganə ən düzgün yoldur: ona birinci iki yolun yaxşıları xasdır, bununla belə yuxarıda göstərilən çatışmamazlıqları aradan qaldırmağa, empirik və nəzəri dərketmədə harmonik vəhdəti əldə etməyə imkan verir [5, s.116-117].

Müxtəlif idrak üsulları içərisində iki metod: **tarixi** və **məntiqi** metodlar xüsusi əhəmiyyət daşıyır. Tarixi metod obyektlərin müxtəlif inkişaf mərhələsini xronoloji ardıcıllıqla, onları konkret tarixi təzahür formaları halında işıqlandırmaqla əlaqədardır. Məntiqi metod birincisi, obyekti, onun ən mühüm əlaqələrini əks etdirir; ikincisi, eyni zamanda predmetin tarixini anlamağa imkan verir. Məntiqi metodun tarixi metoddan üstün cəhəti ondadır ki, bu da tədqiqatın iki zəruri ünsürünün: mövcud predmetin tarixini anlamaqla onun strukturunun öyrənilməsinə, bunların birgə vəhdətdə araşdırılmasına imkan verir.

Müasir hüquqi tədqiqatların aktual məsələlərindən biri başqa elmlərin, o cümlədən sosiologiyanın metodoloji imkanlarından istifadə etməkdir. Sosiologiya metodlarının nəzəri müddəalarının tətbiqində müasir zamanın tələblərinə uyğun sosial kateqoriyaların araşdırılmasının, konkret sosioloji materialların toplanması, faktiki materialların hazırlanması və öyrənilməsinin (sorğu, anketləşmə, təhlil, şkala, eksperiment metodları və s.) rolu artır. Konkret sosioloji metodlardan istifadə edilməsi hüquq-elmi metodlarının istifadəsini azaltmır, əksinə onların daha geniş tətbiqini şərtləndirir.

Tədqiqat metodları milli və xarici təcrübə əsasında qurulur. Bu sahədə elmi tədqiqatlar – ümumiləşdirilir, qiymət verilir, nəticələr çıxarılır və praktiki tövsiyələr verilir. Hər bir anlayışa müqayisəli metodun tətbiqi ilə tərif verilir və 1) nəzəri-tədqiqat obyektinə çevrilmiş predmetləri, hadisələri əks etdirən yeni anlayışlar yaranır; 2) köhnə anlayışlar konkretləşdirilir və daha yüksək abstraksiya səviyyəsində göstərilir. Hüquq elminin inkişafı əsas anlayışların və onları təşkil edən elementlərin yenidən nəzərdən keçirilməsini, dəqiqləşdirilməsini və zənginləşdirilməsini tələb edir.

Hüquqi tədqiqat üçün **müqayisəli hüquq** metodu xarakterikdir. Hüquq komparativistikanın* inkişafının müasir mərhələsi üçün müstəqil elmi istiqamət kimi müqayisəli hüquq qəbul olunur. Əksər tədqiqatçılar bu istiqaməti metodoloji xarakterli ümumi nəzəri təlim hesab edir. Qanunvericilik sisteminin müqayisəli metodu qədim dövrdə tətbiq edildiyinə baxmayaraq hüquqi komparativistika predmeti yalnız XX əsrin əvvəlində müzakirə olunmağa başlamışdır. Müqayisəli metod qoyulan məqsədə çatmaq üçün müqayisənin məqsədyönlü tətbiqidir. Müqayisəli-hüquqi metodun daha yüksək fəlsəfi, sosioloji səviyyədə

* Komparativistika (lat. Comprativus – müqayisəli) – müqayisəli elm.

hüquqi təhlil üçün müxtəlif mənaları vardır. Müqayisəli tədqiqat metodunun əsas məqsədi konkret institutlar üçün optimal model və struktur tapmaqdır.

Müqayisə sözü insan dərk edəndən onun gündəlik həyat fəaliyyətində, düşüncəsində, elmi tədqiqat işlərində ən geniş istifadə olunan termindir. Bu gün elmdə müqayisəli tədqiqata üç baxış var: birinci, müstəqil elm kimi; ikinci, sahə hüquq elmi çərçivəsində yaradılmış elm kimi, üçüncü, elmi tədqiqat metodu kimi. Müqayisə termini – lüğətdə uyğunluğu və ya fərqi müəyyən etmək məqsədi ilə nəyisə tutuşdurmaq kimi göstərilir. Müqayisəli tədqiqatda bu və ya başqa metoda üstünlük verilir. Müqayisə metodu anlayışına müqayisə yolu ilə gerçəkliyi dərk etmək üsulu, qeyri məlumun məlumla müqayisəsi, təzahürün keyfiyyətlərini başqa bir təzahürün keyfiyyətləri ilə tutuşdurmaqla aydınlıq gətirmək kimi baxılır [6, s.21].

Beləliklə, müqayisə predmetlərin, təzahürlərin, institutların, normaların və s. fərqli və oxşar cəhətlərinin aşkar edilməsini və təhlil olunmasını əks etdirir. İnsan yaranan gündən təbiəti, cəmiyyəti, təzahürü, predmeti dərketmə prosesində müqayisə əsas amil kimi çıxış edir. Müqayisə hər hansı bir təzahür və predmet haqda məlumat və ya bilik almaq üçün tətbiq olunan universal metoddur. Dünyada bütün təzahürlər müqayisəli metodun köməyi ilə – bir təzahürün məlum elementlərinin başqasında olması, oxşarlığı və ya fərqləri ilə araşdırılır. Əgər tədqiqat iki qrupa aiddirsə, onda bu qruplarda bizi maraqlandıran faktları müqayisə edirik. Müqayisəli tədqiqat müxtəlif sistemləri və onları təşkil edən dövlət – hüquq institutlarının oxşar elementlərinə əsaslanır, müqayisəli elementləri təhlil edir.

Müqayisəli tədqiqat metodu dövlət qulluğunun bütün elementləri üçün ümumi xarakterli olduğundan dövlət qulluğunda qoyulan məsələlərin nəzəri aspektləri müqayisəli hüquqi tədqiqat prizmasından baxılmaqla araşdırılır. Müqayisəli hüququn əsas məqsədlərinə: başqa dövlətlərin təcrübəsinə əsaslanan bəzi nəticələri formalaşdırmaq yolu ilə öz milli hüququnu dərindən dərk etmək; hüquqda, hüquq institutlarında oxşar əlamətləri müəyyən etmək, inkişafın ümumi əsaslarını və ənənələrini aşkarlamaq daxildir [6, s.133]. Erkən dövrlərdə müqayisəli hüququn məqsədləri aşağıdakı kimi təsvir edilirdi: birinci növbədə nələrin əsas və ya təsadüfi xarakter daşıdığını ayırd etmək, ikinci növbədə, bu fərqlərin səbəblərini, onların sistemin ümumi strukturu ilə nisbətini müəyyən etmək; üçüncü növbədə onların tətbiqinin spesifik şərtləri nəzərə alınmaqla üstün və çatışmayan cəhətləri haqda fikri formalaşdırmaq [7, s.80-81].

Müqayisə prosesi bir neçə mərhələyə ayrılır. Birinci, müqayisənin predmetinin müəyyən edilməsi və öyrənilən təzahürlər arasında müqayisənin həyata keçirilməsinə imkan verən müqayisə meyarlarının seçilməsi; ikinci, seçilmiş meyarların əsasında təzahürlər arasında oxşarlığın və müxtəlifliyin aşkarlaması; üçüncü, bu oxşarlıq və müxtəliflik əsasında onların öyrənilməsi: a) təzahürün əsas əlamətlərinin aşkarlanması və onun anlayışına tərif verilməsi; b) onun inkişaf tendensiyasının aşkar edilməsi; v) bu təzahürün baş verdiyi konkret formaların qiymətləndirilməsi. Ayrı-ayrı institutlar üzrə müqayisə aparılarkən iki nəticəyə gəlinir: birincisi, identik terminlər müxtəlif hüquq sistemində müxtəlif məna kəsb edir; ikincisi bu identik terminlər həmin institutlarda müxtəlif funksiya daşıyır.

Müqayisəli tədqiqat metodunun qanunvericilikdə tətbiqi isə üç mərhələdə ardıcıllıqla həyata keçirilir: birinci mərhələdə müqayisə edilərək dövlət-hüquq institutlarına aid qanunvericiliyi seçmək; ikinci, bu institutların inkişaf tarixini öyrənmək, üçüncü – onların qanunlarla yanaşı, hüququn ali prinsiplərinə cavab verməsini araşdırmaq. Bu mərhələlərdən sonra müqayisəli qanunvericilik aktlarında fərqlərin və əsas iqtibas mənbələrini müəyyən etməklə hüququn özünün müqayisəsi başlayır.

Dövlət qulluğunun problemlərinin tədqiqində kompleks şəkildə müqayisəli metodların aşağıdakı forma və növlərindən istifadə olunur: 1) hərtərəfli və konkret əhatəli metod; 2) diskriptiv, tənqidi, evristik və proqnostik müqayisəli metod; 3) mikromüqayisə və makromüqayisə; 4) sinxronik və dioxronik müqayisə; 5) təsviri, tənqidi (qanunvericiliklə); diaqnostik və ziddiyyət təşkil edən müqayisə; 6) ərazi və xronoloji retropektiv (müxtəlif dövrlərin müqayisəli metodları); 7) ümumi müqayisə və konkret institutların müqayisəsi; 8) daxili identik sosial xarakterli hüquq sisteminin müqayisəsi və xarici-müxtəlif sosial sistemlərin müqayisəsi; 9) müqayisənin səviyyəsinə görə: a) hüquqi səviyyəsində, b) hüquq sahəsində c) hüquq institutları səviyyəsində müqayisə; d) hüquq normaları səviyyəsində müqayisə, 10) müqayisəli-paralel və müqayisəli analitik.

Müqayisəli metodun tətbiqinin müqayisəli elmin, müqayisəli anatomiyanın, müqayisəli hüququn elmi baxımdan banisi Aristotel hesab olunur. Aristotel siyasi təşkilatların qanunauyğunluğu barədə nəticəyə gəlmək üçün 158 yunan və başqa dövlət quruluşlarını müqayisə etmişdir. Mütəfəkkirlərin əsərlərinin klassikliyini onların müqayisəli metodlardan geniş istifadəsində görmək olar. Məsələn, Plutarx «Müqayisəli həyati təsvirlər» əsərində görkəmli yunanlar və romalılar arasında qısa şəkildə müəyyən oxşarlığa görə (23 qoşa şəxsiyyəti) müqayisə aparmışdır. Qay Svetoniy Trankvill müqayisə metodu ilə on iki Sezarın – Roma imperatorlarının həyat və fəaliyyətini təsvir etmişdir. Orta əsrlərdə müqayisəli metoddan istifadə etməklə

Şərq mütəfəkkirlərindən Əl Fərabi «İdeal dövlət», Firdovsi «Şahnamə», Nizamülmülk «Siyasətnamə»; Nizami Gəncəvi «İskəndərnamə», Nəsrəddin Tusi «Əxlaqi-Nasiri» kimi şah əsərlərini yaratmışlar. Qərbi Avropada N.Makiavelli qədim dövrün, xüsusən Roma respublikasının tarixini müasir tarixlə müqayisə edərək, məşhur «Hökmdar» əsərini yaratmış, diktatorlara fəaliyyət proqramı vermişdir.

Avropada dövlət və hüquq problemlərinin tədqiqində müqayisəli metod ideyasının baniləri İngiltərədə Bekon, Fransada Monteskye, Almaniyada Leybnist hesab edilir. Bekon «Təcrübələr esse və mənəvi, iqtisadi və siyasi nəsihət» əsərində (1597) humanitar elmin müxtəlif mövzuları üzrə qeydlərində 58 qısa müqayisə aparmışdır [8, s.376].

Müqayisəli hüquqi tədqiqat problemlərinin həllində Oksford dərsliyinin böyük əhəmiyyəti vardır. Böyük Britaniya, Almaniya, İtaliya, ABŞ, Yaponiya və b. Yniversitetlərinin 43 professoru tərəfində hazırlanmış müqayisəli hüquq üzrə Oksford dəsrliyi giriş və 42 fəsil daxil olmaqla üç hissədən ibarətdir. Birinci hissə dünyada müqayisəli hüqudun inkişafından; ikinci hissədə müqayisəli hüqudun öyrənilməsinə baxışlardan; üçüncü – müxtəlif təlimlərdə (inzibati, cinayət, ailə hüqudu və s.) müqayisəli hüqudqdan bəhs edir. Hər fəsil müxtəlif müəllif baxışları ilə əks olunan həcminə görə böyük olmayan orijinal, tam və yekunlaşmış tədqiqat işidir. Hər fəsildə müəyyən sahədə müqayisəli hüquqi tədqiqatın «müsbət» və «mənfi» cəhətləri qısa şəkildə yekunlaşdırılır və gələcək inkişafı üçün proqnoz verilir [9, s.1430].

Bu fundamental əsər qlobal xarakter daşımaqla müəlliflərin hüquqi müqayisə haqqında fikirləri maraqlıdır. Onlardan: Fransanın "Paris II" Universitetinin alimi **B.Fovark-Keccon** müqayisəli hüquqa «universal elmi kimi» baxır (s. 32); İsveçrənin Bazel Universiteinin alimi **İ.Şvanger** göstərir ki, Avropa Şurasının yaranması nəticəsində Avropa hüqudu alman hüqudu ilə harmonizasiya olunur (s.172); **Z.Kyun** (Çexoslovakiya) Mərkəzi və Şərqi Avropa ölkələrində müqayisəli hüquq haqda fəsildə «kommunizmə», stalinizmə qədər dövrü təhlil edərək müqayisəli hüqudun müasir inkişafını Avropa İttifaqının yaranması ilə əlaqələndirir və qeyd edilir ki, bu problem üzrə hələlik akademik elmi inkişaf etməmişdir (s. 235); **N.Yansenin** (Myunster Universiteti, Almaniya) fikrincə müqayisəli hüquqla – müqayisəli biliyi tutuşdurmaq zəruriliyini, müqayisəli hüqudun müqayisəli təlimin hissəsi olmasını, təzahürlərin oxşar və fərqliliyini öyrənilməsinin vacibliyini göstərir. **R.Maykls** (Şimali Karolina ştatının Universiteti, ABŞ) – müqayisəli hüqudun funksional metodundan (hüquq institutun rolunu və funksiyasını öyrənməklə), bu metodun müxtəlif növlərə bölünməsindən (klassik, instrumental, yeniləşmiş, ekvivalentli və s.) yazır (s. 461); **N.M.Uott** (Parij Universiteti, Fransa) qlobalizasiya və müqayisəli hüqudun problemlərini baxaraq, göstərir ki, vahid transmilli hüquq yaratmaq zəruridir (s. 606); **A.Rayls** (Kornel Universiteti, ABŞ) müqayisəli hüquq və sosial-hüquqi tədqiqatlar haqda fikirlərini M.Veberin ənənəsini gündəmə gətirməklə komporativistikanı və sosial-hüquqi təzahürlərin tədqiqatçılarını qarşılıqlı əlaqəsinin təmin edilməsinə yönəldir [s. 801].

Müqayisəli təhlil nəticəsində Azərbaycan dövlət qulluğu Avropa İttifaqı ölkələrinin dövlət qulluğunun modelinə uyğun sosial-hüquqi institutu kimi formalaşır. Azərbaycan dövlət qulluğunda xarici ölkələr üçün xarakterik olan aşağıdakı əlamətlər öz əksini tapmışdır: siyasətin idarəetmədən ayrılması konsepsiyasına uyğun siyasi elita və peşəkar dövlət qulluğu ayrılması; dövlət qulluğuna qəbulda açıq müsabiqə imtahanlarının aparılması; dövlət qulluqçusunun etik davranış qaydaları haqqında qanun qəbul edilməsi; qulluq karyerası (qulluq keçmə prosesi) tətbiq olunması; dövlət qulluğu idarəetmə orqanların yaradılması və digər innovasiyalar daxildir.

Demokratik inkişafa nail olmaq, informasiya-texnologiya dəyişiklikləri mənimsəmək, maddi və mənəvi dəyərlərin inkişafına lazımi şərait yaratmaq üçün dövlət təzahürlərinə dəqiqlik, etibarlıq və möhkəmlik vermədən mümkün deyil. Odur ki, bütün dövlət təzahürləri özünə diqqət, dərindən öyrənmək və düşünülmüş dəyişikliklər tələb edir. Nəzəri-metodoloji tədqiqatda ilk əvvəl dövlətçilik sisteminin əsas anlayışlarına, sonra isə tərkib elementlərinə tərif verməklə araşdırmaq mümkündür.

Açar sözlər: metodologiya, metod, müqayisəli metod, komparativistika.

İstifadə olunmuş ədəbiyyat

1. Alekseev C.C. Obhaə teoriə prava. M., Politizdat, 1981, T.1. 360 s.
2. Clovarğ inostrannıx slov. 16-e izd. ispr. M., Pusskiy əzık, 1988, 624 s.
3. M.Beber. Иssledovanie po metodoloqii nauki. Ч.1. M., 1980, 688 s.
4. Зaxidov B. Tri titana. Taşkent: ФAH, 1973, 88 s.

5. 100 velikix mısliteley. 688 c.M, Beçe, 2002, 688 s.
6. Tille A.A. Coüialistiçeskoe sravnitelğnoe pravovedenie. M.: Юridiçeskaə literatura, 1978, 208 s.
7. Cravnitelğnoe pravovedenie. Cbornik statey /Пod red. Tumanova B.A. M.: Пroqress, 1978, 272 s.
8. Taranov П. Coroka pəti pokoleniy. M.: ACT, 1999, 656 s.
9. Oksfordskiy uçebnik po sravnitelğnomu pravu / red. M.Peymani, P.Цimmermani. Oksford, 2008, 1430 s.

Ali PЗAEB

METODOLOQIÇESKIE OSNOVI ISSLEDOVANIƏ PROBLEM QOSUDARSTVENNOY SLUJBI

Pezöme

B statğe rassmatrivaösə ponətiə «metodoloqiə», «metod», a takje suhnostğ metodov issledovaniə problem qosudarstvennoy slujbı. Ykazıvaetsə vajnostğ sravnitelğnoqo metoda dlə issledovaniə teoretiçeskix problem qosudarstvennoy slujbı i dlə reşeniə praktiçeskix zadaç v gtoy oblasti. Analiziruötsə podxodı uçenıx k izuçeniö sravnitelğnoqo metoda kak universalğnoqo metoda issledovaniə qosudarstvenno-pravovıx əvleniy i institutov.

Klöçevıe slova: metodoloqiə, metod, sravnitelğnıy metod, komparativistika.

Ali RZAYEV

METHODOLOGICAL FOUNDATIONS OF STUDYING THE PROBLEMS OF STATE SERVICE

Summary

The article considers the notions “methodology”, “method” as well an essence of the methods of studying the problems of state service. An importance of the comparative method for theoretical problems of state service and solving the practical tasks in this field is pointed out. The approaches of the scientists to study of comparative method of study of state-legal phenomena and institutes are analysed.

Key words: methodology, method, comparative method, comparative study.

UOT 340

Əbülfəz HÜSEYNOV
BDU-nun dosenti, hüquq elmləri doktoru

HÜQUQ DİALOJİ VƏ KONSENSUAL TƏNZİMLƏYİCİ KİMİ*

Son zamanlar hüququn metodologiyası sahəsində müəyyən "boşluqlar" və yaxud ziddiyyətlər meydana gəlmişdir. Müxtəlif səbəblərdən irəli gələn bu vəziyyət hüququn tədqiqinin metodologi problemlərinin tədqiqini, müasir metodologi yanaşmaların işlənib hazırlanmasını zəruri edir. Bununla yanaşı əsas məsələlərdən biri də hüququn sovet dövründə təşəkkül tapmış metodologiyasının rasional tərəfləri ilə müasir konsepsiyaların üzvi əlaqəsinin itirilməməsindən ibarətdir.

Hal-hazırda hüququn metodologiyası sahəsində, demək olar ki, hələlik vahid bir mövqe və elmi platforma yoxdur. Belə demək mümkünsə, müasir dövr "metodoloji axtarışlar" dövrüdür.

Bu baxımdan müasir dövrdə hüququn tədqiqində perspektivli istiqamətlərdən biri fərdiliyin və xolizmin birtərəfliyini aradan qaldırmaq iddiasında olan dialoji yanaşma ilə bağlıdır. M.M.Baxtinin, V.S.Biblerin, M.Buberin, Y.M.Lotmanın, O.Rozenştok-Hüssinin və fəlsəfə və semiotikada dialogizmin digər tərəfdarlarının ideyalarına köklənən bu yanaşma hüquqşünaslıqda hazırda Sankt-Peterburq hüquqşünaslıq məktəbi (İ.L.Çestnov və b.) tərəfindən inkişaf etdirilir. Bəs hüquqda dialoq nədir? O burada necə şərh olunur? Hüquqi düşüncədə dialoji konsepsiyanın müasir dövr üçün böyük əhəmiyyətini nəzərə alaraq və hüquqşünüs-alim İ.L.Çestnovun müddəalarını təsdiq edərək onu (hüquqi dialoqu) XXI əsrdə hüququn əsas konseptual inkişaf istiqamətlərindən biri kimi qiymətləndirmək olar.

Dialoq başqasına (başqa fərdə, insanlar qrupuna, başqa mədəniyyətə) obyekt yox, subyekt kimi yanaşmadır. O hətta başqasına perspektiv "Mən-Sən" münasibətinin mümkünlüyünü açıqlamaq üçün özünə yanaşdığın kimi yanaşma deməkdir. Dialoq başqaları ilə eyniləşdirilmə deyil. Bununla belə, o, başqalarından tamamilə fərqlənməni də nəzərdə tutmur. Dialoqun məqsədi oxşar və fərqli cəhətləri üzə çıxarmaqdır. *Dialoji metodologiya* kollektiv və şəxsi başlanğıcların harmoniyasını təmin edəcək "qızıl orta"nı tapmağa cəhd göstərir**.**

Bu nöqteyi-nəzərdən hüquq fəlsəfəsinin əsas məsələlərindən biri kimi aşağıdakıları formulə etmək olar: fərdlərin hüquqi statusunun tipikliyi və unikallığının ölçüsü kimi çıxış edən hüquq onları eyni zamanda necə həm birləşdirir, həm də ayırır? Hər bir sosial təsisat kimi hüquq da cəmiyyətin bütövlüyünü təmin edən qarşılıqlı təsirlərin və təsəvvürlərin toplusunu kəsb edir. Bu cür qarşılıqlı təsirlər subyektlərin bir-birini qarşılıqlı tanıması əsasında yaranır. Bu prosesdə hüquq və öhdəliklər müəyyən olunur. Bu və ya digər sosial təsisatın legitimliyi ya onun tam bəyənilməsini, ya da onunla dinməz razılaşmanı ehtimal edir. Öz növbəsində geniş əhali kütləsinin əks təsirinə məruz qalan və ya praktiki əməllərdə realizə olunmayan təsisat qeyri-legitim hesab olunur. Deməli, hüququn norması olmaq üçün norma hüquq münasibətlərində *realizə* olunmalıdır. Burada biz obyektiv olanla subyektiv olanın dialoqu ilə üzləşmiş oluruq: tipikləşdirilmiş qarşılıqlı təsirlər modelini kəsb edən hüquq norması konkret hərəkətlərlə bu normada təsbit olunan informasiyanın bir-biri ilə uzlaşdırılmasını ehtimal və təmin edir.

Dialoq yalnız iki obyektin qarşılıqlı təsir forması deyil. Dialoqun mahiyyəti onun subyektlərinin sayında yox, bu subyektlərin arasındakı qarşılıqlı münasibətlərin xarakterindədir. Burada makrodialoqu (qanunverici ilə vətəndaşların dialoqu), hüquqa müxtəlif yanaşmaların dialoqunu, orta səviyyəli dialoqu (hüquq tətbiqetmə fəaliyyətində), mikrodialoqu (daxili dialoq) və başqa formaları göstərmək olar. Beləliklə, hüquqda dialoq bərabər hüquqlu subyektlərin, partnyorların məhsuldar və fəal qarşılıqlı təsirləri deməkdir.

Sosial təsisatların məzmununu təşkil edən qarşılıqlı təsirlərin və mental proseslərin ənənəvi və innovasiya kimi iki növü var. Sonuncu halda yeni təsisatın (məsələn, hüququn yeni normasının) formalaşdırılmasının əsas şərti onun legitimliyinin, yəni səmərəliliyinin, düzgünlüyünün, ədalətliliyinin və s. tanınmasıdır. Hüquq istənilən yox, yalnız cəmiyyətin bütövlüyünü və təkrar istehsalını təmin edən qarşılıqlı təsirlər kompleksidir. Bu təsirlər kompleksində şəxsi başlanğıcla kollektiv başlanğıc bir araya gəlir. Hüququn funksional təyini onun *transendental* başlanğıcını, hüququn bütün qalan əlamətlərini təşkil edir. Postmodern cəmiyyətinə xas olan radikal dəyişikliklər şəraitində bu başlanğıc hansısa bir konkret məzmunda təmsil oluna bilməz. Bununla belə onun mövcudluğunu inkar etmək də olmaz.

---

* Məqalə hüquq üzrə f.d. Ş.Kərimov və hüquq üzrə f.d. C.Cəfərov tərəfindən çapa məsləhət bilinib.

Ümumi universal transendent başlanğıclar öz konkretliklərini immanent əsaslarda, məhz, bu və ya digər cəmiyyətin bütövlüyünün necə təmin olunmasında, fərdi və kollektiv başlanğıcların necə əlaqələndirilməsində tapır. Hüququn mahiyyət əlamətinə cavab verən sosial normaları dolayı əlamətlərə görə, məhz burada aşkar etmək olar. Bu kimi əlamətlərə mövcud davranış qaydasının legitimliyi, onun mütəmadi təkrarlanması, geniş yayılması, səmərəliliyi aiddir. Bununla belə hüququn son meyarı tarixdir. Başqa sözlə, hüquq, onun normaları cəmiyyətin nə dərəcədə özünü qoruyub saxlaya bilməsi ilə də ölçülür.

Beləliklə, bu gün hüquq çoxölçülü, ziddiyyətli, daimi dəyişkən strukturu olan bir fenomen kimi dərk olunur. Hüquq haqqında modern dövrünün universal təsəvvürləri müasir dövrdə rasionallığın başqa meyarlarına əsaslanan *"yumşaq model"* ilə əvəz olunur. Onu da deyək ki, hüquqi plüralizm qaçılmaz olsa da, o, birtərəfli və məhduddur. Buna görə də hüquq təkcə qəbul olunmuş davranış nümunələri yox, həm də onların obyektiv funksionallığı deməkdir.

Lakin dəyərlər sistemi yuxarıda xatırlatdığımız ədalət, ümumi rifah, nizam, təhlükəsizlik, bərabərlik, azadlıq kimi universal dəyərlərlə tükənmir. Hüquq ictimai həyata sosial azadlıq, fəallıq, məsuliyyət prinsiplərinə əsaslanan normativ qaydaları, mütəşəkkilliyi və nizamı gətirmək tələbatından irəli gələn sosial fenomendir. Buna görə də təbiətinə görə hüquq özbaşınalığa və qanunsuzluğa qarşı durmalıdır. Burada biz artıq hüquqi dəyərlərin spesifik instrumental mənada, hüquqi mədəniyyətlərin hər birinin daxilində realizə olunmasından danışırıq. Təsisat statusunun köməyi ilə hüquq onun mədəni missiyasını açıqlayan bir neçə mühüm xassələr əldə edir.

Birinci xassə hüququn ictimai münasibətlərdə ümumi və davamlı qaydanı təmin etmək qabiliyyəti ilə bağlıdır. Həlledici rolu burada normativlik oynayır. Bu, hüquqi normalarla reqlamentləşdirilən nizamın hüquqi məkanda bərabər, daimi, fasiləsiz qüvvədə olmasını təmin edir.

İkinci xassə hüququn ictimai münasibətlərin məzmununun özündə müəyyənlikliyə nail olma qabiliyyəti ilə bağlıdır. Burada əsas rolu hüququn formal müəyyənlilik xassəsi oynayır. Məhz o, hüquqi tənzimləmənin dəqiq hədlərini açıqlayır, predmetin təyinini, qabaqcadan şərtlənməsini, mümkün və ya zəruri davranışın xarakterini nümayiş etdirir. Bu səbəbdən də hüquqi tənzimləmə onu sosial əhəmiyyətli hadisəyə çevirən bəzi cəhətlər əldə edir. O, "boşluqlar"ı saxlamamaqla ictimai həyatın bütün zəruri formalarını əhatə etməyə qadirdir ki, bu da hüquqi davranışla özbaşınalıq arasında sərt sərhədləri qoymaq imkanı verir.

Bu, həm qadağa və pozitiv öhdəliklərə, yəni hüquqi öhdəliklərə və bu öhdəliklərlə bağlı hüquqi məsuliyyətə, həm də yol (icazə) verilənlərə, yəni subyektiv hüquqlara aiddir.

Üçüncü xassə hüququn təminatlı nəticəyə nail olmaq qabiliyyəti ilə bağlıdır. Hüququn bu xüsusiyyəti pozitiv hüquqi öhdəliklərdə və onların dövlətin məcburetmə tədbirlərinə söykənən yüksək təmin olunma dərəcəsində ifadə olunur. Bu keyfiyyətlər hüquqi vasitələrin intensiv istifadəsi nəticəsində proqramlaşdırılmış, gözlənilən effektin baş verəcəyini güman etməyə əsas verir. Birbaşa dövlət təsirləri ilə bağlılıq hüququn bu tərəfinə ziddiyyətli xarakter gətirir və müəyyən neqativ nəticələrə də səbəb olur.

Hüququn dəyərliliyi onun xassələrində təcəssüm olunan imkan və ya qabiliyyətlərlə tükənmir. Əhəmiyyətli məqamlardan biri də odur ki, ictimai həyatın, mədəiyyətin dərin qatlarında yerləşən bir element kimi hüquq təkcə sivil cəmiyyətin əsas tələblərini həyata keçirmir. O, sivilizasiya və mədəniyyət dəyərlərini də özündə birləşdirir (2, s.43-44).

Dövlətlə qarşılıqlı təsirlərdə olan hüquq tarixi inkişaf prosesində olduqca səmərəli xassələrə, ilk növbədə ümumi normativlik, formal müəyyənlilik, dövlət tərəfindən təmin olunma kimi xassələrə malik olan normativ bir qurum kimi təşəkkül tapmışdır. Başqa sözlə, hüququn timsalında olduqca qüdrətli sosial tənzimləyici bir fenomen meydana gəlmişdir. Bu, həmçinin o deməkdir ki, sosial həyatın müxtəlif subyektləri (dövlət, kilsə, ictimai birliklər, vətəndaşların özü) hüquqdan müxtəlif məsələlərin həlli aləti, vasitəsi kimi də istifadə edə bilər. Lakin uzun müddət təşəkkül tapmış bu xassələr sırasında müasir dövrün irəli çəkdiyi və gerçəkliklə qarşılıqlı şərtlənən dioloji və konsensual funksiyalar müəyyən dərəcədə unudulmuşdur.

Hüququ müstəsna olaraq dövlət hakimiyyətinin məhsulu kimi qiymətləndirmək də fikrimizcə, düzgün olmazdı. Düzdür, hüququn xassələrinin formalaşması və onun tətbiqi dövlətin iştirakı şəraitində baş verir. Məhz, hüququn dövlətdən asılı olması üzündən dövlət daima bu qüdrətli tənzimləyici aləti özünün *xidmətçisinə* çevirməyə can atır. Məşhur hüquqşünas-alim Q.V.Maltsev haqlı olaraq qeyd edir ki, "hüquq hakimiyyəti dövlət hakimiyyəti ilə bağlı olsa da, onunla eyniyyət təşkil etmir"(1,S. 283). XIX əsr rus hüquqşünası Q.F.Şerşeneviç hüquq subyektinin hərəkətlərinin hakim xarakterini onun, öz iradəsini öhdəliyi olan şəxsə və hüquq münasibətində iştirak edən bəzi digər şəxslərə zorla qəbul etdirmək qabiliyyətində görürdüsə (3, s. 609), hüquq praktikası (o cümlədən, hüquqi-antropologi araşdırmalar) göstərir ki,

cəmiyyətin *stabil* inkişaf şəraitində hüquq nadir hallarda dövlət məcburetmə tədbirlərinə əl atır. Cəmiyyətin ən mükəmməl inkişaf mərhələsi halında hüquqi həyat öz axarı ilə, sanki razılaşdırılmış (dialoq) və barışığa əsaslanan (konsensus) mövqelər əsasında gedir, öhdəliklər yerinə yetirilir, səlahiyyətləri fərdlərin özü könüllü həyata keçirir. Lakin bu ideallaşmış cəmiyyət modelini xatırlatsa da, bəşəriyyətin inkişafının adət hüququ mərhələsində əsasən belə olmuşdur və müasir ənənəvi ölkələrdə də belədir.

Tarixi təcrübə göstərir ki, hüquq sferasını dövlət hakimiyyətinin maraqlarına tabe etdirmək tendensiyası yalnız vətəndaş cəmiyyətində öz imperativ təsirini itirir: vətəndaş cəmiyyətində hakimiyyətdən asılı olmayan institutlar (təbii anlamda götürülmüş insan hüquqları və b.) hüququn konstruktiv elementlərinə çevrilir. Bu baxımdan hüquq bu və ya digər dərəcədə sinfi-etatik cəhətlər əldə edir və özünün bütün potensiyalarını tam həcmdə realizə edə bilmir. Buna baxmayaraq o, əsasən hakimiyyət hüququ xarakterini ifadə edir və belə bir hüquq formasını kəsb edir. Belə məntiqlə düşünsək, onda qeyd edə bilərik ki, müəyyən tarixi şəraitlərdə hüquq məscidin, kilsənin və digər dini mərkəzlərin, siyasi partiyaların, başqa qeyri-dövlət təşkilatlarının və institutlarının inhisarına keçə, nəticə etibarilə, bu qurumların alətinə çevrilə bilər.

Bir dəyər kimi hüququn dialoji və konsensual xassəsi onun digər bir əlaməti-instrumental funksiya ilə bağlıdır. Hüququn instrumental xarakterliliyinin aspekti ondan ibarətdir ki, o, əmtəə-bazar institutları, idarəetmə, demokratiya, əxlaq, mədəniyyət kimi digər yüksək əhəmiyyətli dəyərlərin realizə olunmasında vasitəli həlqə xarakterini kəsb edir. Cəmiyyətdə hüquq normasından başqa iqtisadi, dövlət-siyasi, təşkilatçılıq və bir sıra digər münasibətləri belə ciddi tənzimləyən, bu baxımdan isə müəyyən dəyərləri realizə edən digər sosial normalar sistemi yoxdur. Hüquq bir sosial normanın növü kimi elə xassələrə malikdir ki, onların hesabına ictimai həyatda daima və fasiləsiz təsir göstərən, tarixən dövlət tərəfindən təmin olunan stabil, məzmununa görə sərt müəyyənləşdirilmiş tipik davranış qaydaları sistemini tətbiq etmək mümkün olur. Ona görə də ictimai həyatın mütəşəkkilliyini, qaydalılığını, barışığı və ünsiyyəti, stabilliyi, müəyyən nizam-intizamı, bütövlükdə ictimai orqanizmin normal fəaliyyətini, sosial idarəetmənin səmərəliliyini təmin edən əsas alətlərdən biri məhz hüquqdur. Beləliklə, yüksək səmərəli sosial tənzimləyicilərdən biri kimi hüquq, ilk növbədə instrumental (xidməti) dəyər xarakteri də kəsb edir və hüququn bu xassəsi tarixi məzmuna malikdir.

Bununla belə qeyd etmək lazımdır ki, hüququn öz xüsusi dəyəri də var ki, bu da demokratik cəmiyyətdə mühüm əhəmiyyət kəsb edir. İctimai münasibətləri ədalət prinsipi, müxtəlif sosial qrupların iradə və maraqlarının bir araya gətirilməsi və barışdırılması əsasında nizamlayan hüququn öz *xüsusi* dəyərliliyini insanların sosial azadlığının və fəallığının ifadəsi kimi səciyyələndirmək olar. Başqa sözlə, idealda hüquq başqa heç bir sosial-siyasi hadisəyə xas olmayan dəyərdir. O, nizamlaşdırılmış sosial azadlıq, ədalət, *konsensual* dəyərdir, ən münasib ünsiyyət vasitəsidir, müxtəlif mədəniyyətlər arasında dialoqur. Özünün bu keyfiyyətlərində hüquq insanlara, onların kollektivlərinə, xalqlara və dövlətlərə subyektiv hüquqlar halında azadlıq, fəal davranış üçün geniş imkanlar meydanı açır.

Beləliklə, hüquq cəmiyyətin sosial tənzimetmə sahəsinin xüsusi bir mexanizmi kimi unikal sosial dəyərdir, çünki o ictimai həyatın sivil təşkilinin fundamental əsaslarını, onların normativ-mədəni tələblərini, özü də bəzən hətta bir qədər uyuşmayan və ya hər halda bir-birindən uzaq olan tələblərini harmonik formada təmin edir. Hüququn xüsusi hüquqi məzmunu öz ifadəsini məhz onun (hüququn) özünün xüsusi dəyər olmasında (hüquq bir dəyər kimi) tapır.

Beləliklə, qısa şəkildə yuxarıda şərh etdiyimiz elmi mülahizələr nəticəsində aşağıdakı bəzi nəticələrə gəlməyə əsaslarımız vardır:

Birincisi, hər bir tarixi dövr, ictimai-siyasi quruluş öz hüququ, hüquq sistemi, eləcə də bu hüquqi gerçəkliyin ruhundan irəli gələn və hüquqi mentaliteti ifadə edən xüsusi "hüquqi insan"- *Homo yuridikus* tipi ilə seçilir.

İkincisi, hüquq mədəniyyətinin sosial-mədəni təhlili onun, bir tərəfdən insanların birgəyaşayışının özündə hüquqi təsisatlar sistemini, hüquqi üstqurumu birləşdirən təşkili modeli kimi, digər tərəfdən də hüquq mədəniyyətinə, hüquqi şüurun stereotipləri, hüquqi mentalitet, insanların hüquqi davranış motivləri kimi subyektiv amillərin təsiri prizması baxımından nəzərdən keçirilməsini ehtimal edir. Nəticə etibarilə, bir normativ hadisə kimi hüququn və hüquq mədəniyyətinin tarixi, onun etnososial, sivilizasiya və digər aspektləri özünəməxsus bir sistem kəsb edir. Elə məhz bu sistemin elementləri də bütövlükdə hüquq mədəniyyətinin müxtəlif növlərini təşkil və müəyyən edir.

Üçüncüsü, hüquq hüquqi dəyərlərin universal məzmununun olmadığını daha parlaq şəkildə sübut edən, başqa sözlə desək, hüququn *milli* xarakterini üzə çıxaran xüsusi bir mədəniyyət sferasıdır. Müxtəlif ölkələrin hüquq sistemlərində və beynəlxalq hüquqda eyni sözlərdən, terminlərdən, anlayışlardan istifadə

olunmasına baxmayaraq, hər bir konkret-tarixi birlikdə onların mədəni məzmunu müxtəlif olur. Elə bu baxımdan da milli, mədəni inkişafdan asılı olaraq hüquqi dəyərlər normalar tərəfindən də müxtəlif cür müəyyən edilir, qorunur və müdafiə olunur.

Dördüncüsü, hüququn normativ-mədəni dəyərliliyi təkcə onun xassələrində olan imkanlarla şərtlənmir. Hüquq cəmiyyətin bir sosial tənzimetə mexanizmi kimi öz xüsusi dəyərlərindən başqa, sivilizasiya və mədəniyyət dəyərlərini də özündə ehtiva edir. Sosial həyatın olduqca səmərəli və məqsədəmüvafiq bir tənzimləyicisi olan hüquq başqa sosial təsisatların fəaliyyətini təmin edən vasitə kimi çıxış etməklə, ilk növbədə dialoji, konsensual dəyər xarakteri də kəsb edir. Şübhəsiz ki, hüququn bir dialoq və konsensus tənzimləyici kimi təsviri onun instrumental (xidməti) funksiyası ilə ayrılmaz surətdə bağlıdır.

Nəhayət, beşincisi, ədalət prinsipi əsasında müxtəlif sosial təbəqələrin, qrupların iradə və maraqlarını bir araya gətirən və ictimai münasibətləri nizama salan hüquq, insanların sosial azadlığının və fəallığının etibarlı ifadəçisi və təcəssümüdür.

Bütün bu keyfiyyətlərə görə hüquq özü də müəyyən dəyər xarakteri kəsb edir. Hüququn dərin normativ-mədəni məzmunu, məhz onun xüsusi dəyər olmasında öz ifadəsini tapır. Bu dəyər öz ifadəsini, hər şeydən əvvəl hüququn bir normativ-mədəni hadisə kimi xalqlar, millətlər, etnik qruplar və dövlətlər arasında dialoqun, qarşılqlı anlaşmanın və nəticə etibarilə müxtəlif mövqe, fikir, ideya və konsepsiyaların razılaşdırılmasının, birgəyaşayışın, əmin-amanlığın bərqərar edilməsində tapır.

Açar sözlər: hüquq, dialoq, konsensus, dəyər, metodologiya.

İstifadə olunmuş ədəbiyyat

1. Malğüev Г.В. Пonimanie prava. Пodxodı i problemı. M., 1999.
2. Teoriə qosudarstva i prava: Yçebnik dlə vuzov /Пod red. O.B.Martışina. M., 2007.
3. Шerşeneviç Г.Ф. Obhaə teoriə prava. Bıp. III. M.,1912.

Abulğfaz ГUSEYNOV

ПRAVO KAK DIALOQIÇESKIY I KONSENSUALĞNIY REQULƏTOR

Pezöme

Пravo seqodnə okazalosğ v slojnoy metodoloqiçeskoy situaüii. Ctarıe konüepüii uje ne otveçaöt trebovaniəm vremeni. Пrixoditsə dumatğ nad razrabotkoy novıx konüepüiy i podxodov, blaqodarə kotorım pravo stanet dialoqiçeskim i konsensualğnım requlətorom mejdu lödğmi, narodami i qosudarstvami v oçenğ slojnıx sovremennıx usloviəx.

Klöçevıe slova: pravo, dialoq, konsensus, üennostğ, metodoloqiə.

Abulfaz HUSEYNOV

THE RIGHT AS A DIALOGUE AND CONSENSUS REGULATOR

Summary

Today a right is in a difficult methodological situation. The old concepts do not meet the requirements of time. It is necessary to think over working out the new concepts and the approaches owing to which the right will become a regulator of dialogue and a consensus between people, the people and the states in rather complicated modern conditions.

Keywords: the right, dialogue, a consensus, value, methodology.

UOT 091

Qəhrəman BEHBUDOV
NDU-nun dosenti, hüquq üzrə fəlsəfə doktoru,

HÜSEYN CAVİDİN SİYASİ-HÜQUQİ GÖRÜŞLƏRİİNİN FORMALAŞMASININ TARİXİ ŞƏRAİTİ VƏ İDEYA ƏSASLARI*

Hüseyn Cavid XIX əsrin sonu XX əsrin birinci yarısında Azərbaycanda elmin və maarifin, mədəniyyətin inkişafında özünəməxsus şərəfli yer tutan ən parlaq simalardan biridir. Öz qaynağını milli mədəniyyətin ən dərin qatlarından alan Hüseyn Cavid yaradıcılığı Şərqin estetik fikir tarixi və dünya romantizmi ənənələri ilə sıx bağlı olmuşdur. Milli bədii düşüncə tarixini bir-birindən parlaq xarakterlərlə zənginləşdirən Hüseyn Cavid sənətkar şəxsiyyətinin bütövlüyünü nümayiş etdirən ibrətamiz həyat yolu keçmişdir.

H.Cavidin yaşayıb yaratdığı dövr Azərbaycan xalqının ictimai-iqtisadi və siyasi həyatında ağır sınaq və imtahanlar dövrü olmuşdur. Mütəfəkkirin dünya-görüşü Şərqin qabaqcıl və mütərəqqi elmi, fəlsəfi fikri və mədəniyyətindən bəhrələnsə də, onun dünyagörüşündə və ümumiyyətlə yaradıcılığında müasiri olduğu dövrün sosial-iqtisadi və siyasi hadisələri dərin iz buraxmışdır.

Gülüstan və Türkmənçay müqavilələri nəticəsində böyük bir xalqın parçalanıb bir hissəsinin İrana qatılması, bir hissəsinin isə Rusiyaya zorla birləşdirilməsi Azərbaycanın müstəqil dövlət kimi inkişafına tarix səhnəsində vurulan sarsıdıcı zərbə idi.

Siyasət bazarının sahibsiz obyektinə çevrilən Azərbaycanın taleyini buna nə mənəvi, nə də hüquqi haqqı olmayan İran və Rusiya istədikləri kimi həll edirdilər.

Azərbaycanın dövlət müstəqilliyinin əlindən alınması xalqımızın milli şüurunun inkişafı prosesinə əngəllər törətməklə, siyasi fikirdə milli özünüdərk-etmənin, azad fikirliliyin inkişafı üçün buxova çevrildi. İmperiya rus kimi fikirləşməyi, yalnız onun mövqeyindən danışmağı təkidlə tələb edirdi.

Belə bir vəziyyət xalqımızın ziyalılarının yaradıcılığına da sirayət edirdi. Sosial-iqtisadi və siyasi əsarətin əsl səbəbləri Rusiya müstəmləkəçiliyinin siyasətində deyil, mövcud quruluşun zorakılıq və istismarında axtarılırdı.

Lakin bütün bunlara baxmayaraq, xalqımızın qabaqcıl fikirli mütəfəkkirləri etiraz səslərini açıq-aşkar ucaltmaqdan çəkinmirdilər. Həmin dövrün mütəfəkkirləri xalqın mövcud vəziyyətini məhdud mənada deyil, geniş ictimai-siyasi və hüquqi mənada başa düşür və öz yaradıcılıqlarında ciddi problemlərə toxunurdular (12, s.43).

Hüseyn Rəsizadə ilk təhsilini mollaxanada almışdır. O burada fars və ərəbcəni öyrənərək, klassik Azərbaycan və Şərq ədəbiyyatı ilə, Sədi Şirazi və Hafiz Şirazi kimi klassiklərin divanları ilə tanış olmuşdur. Hüseyn təhsil aldığı müddət ərzində elmə həvəsi, kəskin və iti hafizəsi ilə ətrafdakıları heyrətə salmışdır. Mollaxanada təhsil alan Hüseyn 14 yaşında Naxçıvanda fəaliyyət göstərən yeni üsullu "Məktəbi-tərbiyə" məktəbində oxumağa həvəslənir. Onun bu məkətəbə daxil olmasının əsl səbəbkarları isə M.T.Sidqi, Q.Şərifov olmuşdur.

"Məktəbi-tərbiyə"də təhsil illəri Cavidin xarakterinə, onun dünyagörüşünün formalaşmasına müsbət mənada çox ciddi təsir göstərmişdir. Sonralar bu həqiqəti Cavidin özü də etiraf etmişdir. İstanbuldan Q.Şərifova göndərdiyi məktubların birində o yazır: "Mən də atamın proqramı ilə böyüsə idim, indi kim bilir, nə məsləkdə idim. Sidqinin məktəbinə məni təşviq edən də siz oldunuz"(4, s.22).

"Məktəbi-tərbiyə"dəki təhsil illəri və "atam yerində" adlandırıdığı M.T.Sidqi Cavid üçün çox böyük əhəmiyyətə malik insan idi. Belə ki, M.T.Sidqi yalnız müəllim deyildi, ona atalıq qayğısı göstərən idi. Cavid məhz bu məktəbdə oxuyarkən bədii yaradıcılığa başlamışdır. Sözsüz ki, bunda da Sidqinin müsbət təsiri olmuşdur. Şağirdinin şairlik istedadını duyan M.T.Sidqi bu yolda da onun ilk müəllimi olmuşdu.

Sidqinin "Tərbiyə" məktəbi istər məktəbin quruluşu, daxili qaydaları, istərsə də təlimin məzmunu və üsulları, həmçinin şagirdlərin çoxluğu ilə digər məktəblərdən fərqlənirdi (1, s.139). "Tərbiyə" məktəbi yüksək səviyyəli, yeni tipli təhsil müəssisəsi olmaqdan başqa, həm də Naxçıvan mühitində əsas ədəbi-

* Məqalə fəl.e.d. M.Rzayev tərəfindən çapa məsləhət bilinib.

ictimai fikir mərkəzi funksiyasını yerinə yetirmişdir. "Məktəbi-tərbiyə"də əsasən ana dili, tarix, coğrafiya, hesab kimi dünyəvi fənlər tədris edilirdi. Bunlardan başqa, rus və fars dilləri də keçirilirdi.Əlavə dərs saatlarından sonra təcrübə məşğələlərində tərcümələrə xüsusi saatlar ayrılırdı.M.T.Sidqi dərslərin ana dilində tədris edilməsinə xüsusi əhəmiyyət verirdi. O, ana dilinə xüsusi qiymət verərək belə deyirdi: "O, əvvəla, ana dilidir, saniyən vətən dilidir, salisən millət dilidir" (8, s.54).

H.Cavid "Tərbiyə" məktəbini müvəffəqiyyətlə bitirdikdən sonra təhsilini davam etdirmək üçün Təbrizə gedir. "Talibiyyə" mədrəsəsində təhsilini davam etdirən Cavid qəzet və jurnallara abunə olmaqdan da geri qalmır. Məktublarının birində qardaşı Məhəmmədin Seyid Həkim adlı bilikli, açıqfikirli bir şəxslə dost olduğunu bildirir. Cavid ondan "Nasiri", "İttilah" və s. qəzetləri alıb oxuduğunu qeyd edir. Məktublarda Cavidin o zamankı ictimai-siyasi görüş dairəsi, eləcə də İran və Cənubi Azərbaycan həyatına baxışı əks etidirilir. Məktubların, demək olar ki, hamısında Cavid Cənubi Azərbaycanın ictimai-siyasi və inzibati həyatından çox şikayət edir, narazı qaldığını bildirir. İran dövlət başçılarının özbaşınalıqları, öz şəxsi mənafeləri naminə ölkəni açıq-aşkar xarici işğalçıların tapdağına çevirmələri Cavidi çox narahat edir. Xüsusən Cənubi Azərbaycanın bir tərəfdən İran istibdadının, digər tərəfdən ingilis və rus imperializminin təzyiqi altına düşməsi, xalqın öz azadlığını itirməsi gənc şairi çox düşündürür.

H.Cavidin Urmiyadan yazdığı və 21.V.1904-cü ildə Məhəmməd ağa Şahtaxtinskinin redaktorluq etdiyi "Şərqi-Rus" qəzetində nəşr olunan məqaləsində yenə də "müsəlman qardaşları"mızın qəflətdə yatdığından acı-acı şikayətlənərək deyir ki, "necə bədbəxt və nadan olmuşuq!" (8, s.179). Şair bu əsarətin əsas səbəbini "dövlət başçılarının xəyanət və kütbeyinliyi" ilə izah etdikdən sonra yazır ki, ingilislər, fransızlar və ruslar özlərinin şəxsi mənafelərini güdürlər, ancaq və ancaq özlərinin mövqelərini möhkəmləndirməyə çalışırlar. O belə qeyd edir ki, «şəhərin hər hansı bir tərəfində nə qədər gözəl, abad yerlər var, harada yaxşı yaylaqlar varsa, "bir tərəfdə imperator canibindən rus şkolası, bir səmtdə ingilis məktəbxanası, bir mövqedə Fransa məktəbi güşad olunub..." (5, c.4, s.179). Azərbaycanın hər iki hissəsində rus, ingilis, fransız, fars işğalı təhlükəsi getdikcə böyüyür, bu da Azərbaycanın qabaqcıl maarif xadimlərini çox narahat edirdi.

1904-1905-ci illərdə Rusiya ilə Yaponiya arasında "müharibədə çarizmin dalbadal məğlubiyyətə uğraması Rusiyada, o cümlədən Azərbaycanda da inqilabi böhranı daha da dərinləşdirdi" (3, s.56). Ancaq Azərbaycan zəhmətkeşlərinin çarizmə, müstəmləkəçiliyə qarşı hərəkatı genişləndiyi zaman bu hərəkata başçılıq edə biləcək heç bir milli, siyasi təşkilat, partiya yox idi. Çar hökuməti digər müstəmləkələri kimi, Azərbaycanda da ali, həmçinin orta təhsil ocaqlarının açılmasına icazə vermirdi. Ali təhsil almaq üçün xaricə getmək lazım idi. Dünyanın qabaqcıl mədəni ölkələrində xalqın tarixinin öyrənilməsinə onun dilinin, adət və ənənələrinin qorunub saxlanmasına, elm və mədəniyyətinin inkişafına milli hökumətlərin xüsusi qayğı göstərməsi azərbaycanlı gənclərə əyani sübut edirdi ki, xalqın mənəvi yüksəlişi yalnız onun milli-siyasi azadlığı şəraitində mümkündür. Müstəmləkə əsarətindən qurtarmaq üçün hər şeydən əvvəl xalqın oyanması,onun milli özünü dərketməsi lazımdır.

1905-ci ildə mütləqiyyətə qarşı ümumxalq mübarizəsindən qorxuya düşən çar hökuməti 17 oktyabr manifesti ilə xalq kütlələrinə söz azadlığı, yığıncaq azadlığı, cəmiyyət və ittifaqlar təşkil etmək azadlığı, şəxsiyyətin toxunulmazlığını elan etdi (12, s.102). İnqilab Azərbaycan maarifpərvərlərinə, onların yaradıcılığına, dünyagörüşünə təsir etdi. Azərbaycanın qabaqcıl maarifpərvərləri bu dövrdə təlimi doğma dildə, Azərbaycan dilində aparmaqla, avamlığı, savadsızlığı ləğv etmək, ana dilində yeni üsullu məktəblər şəbəkəsini genişləndirmək, təhsili məcburi etmək, təlimdəki geriliyə və köhnəliyə zərbə vurmaq, tədrisin keyfiyyətini yüksəltmək, müəllimlərin ağır vəziyyətini aradan qaldırmaq üçün dönmədən, yorulmadan mübarizə aparırdılar.

1905-ci il inqilabının təsiri altında, bütün Rusiyada olduğu kimi Zaqafqaziyada və onun mərkəzi şəhəri hesab olunan Tiflisdə də zəhmətkeşlərin inqilabi nümayişləri keçirilir, çarizmə qarşı qızğın mübarizə aparılırdı. Çarizm də öz fitnəkar tədbirləri ilə Zaqafqaziya xalqları arasında milli ədavət toxumu səpirdi. Bu fitnəkar tədbirlər nəticəsində Azərbaycanda, eləcə də Tiflisdə və Tiflis-Batum yolundakı şəhər və kəndlərdə evlər yandırılır, günahsız adamlar öldürülürdü. Cavid bu amansız fitnəkarlığı İstanbula gedərkən yolda seyr etmişdi.

1905-1909-cu illərdə Cavid İstanbul Darülfununun ədəbiyyat fakultəsində ali təhsil almışdır. O, hələ tələbə ikən 1909-cu ildə "Cavid" təxəllüsünü qəbul etmişdir. Türkiyədə yaşayarkən Tənzimat ədəbiyyatını, Türkiyə mühitini öyrənmiş, filosof Rza Tofiqlə tanış olmuşdur. İstanbul həyatı Cavidin şüurunda, dünyagörüşünün , bədii təfəkkürünün formalaşmasında həlledici rol oynamışdır. Bu onun İstanbuldan Qurbanəli Şərifzadəyə yazdığı məktublarında öz əksini tapır. Həmin məktublarda gənc Cavid Qurbanəli Şərifzadə ilə öz fikir və düşüncələrini bölüşür. Hüseyn Cavid burada məşhur türkçülər Əli bəy

Hüseynzadənin və Ziya Göy Alpın türkçülük, islamçılıq və müasirlik ideyaları ilə tanış olmaq imkanı qazanmışdır. Universitetdə Rza Tofiqdən aldığı dərslər, Şərq və Qərb filosoflarının – Aristotel, Zərdüşt, İbn Sina, Dekart, Spinoza, Nitsşe və başqalarının fəlsəfi əsərlərindən qazandığı biliklər onun dünyagörüşünün inkişafında mühüm rol oynamışdır. Beləliklə, o, Əbdülhəqq Hamid, Tofiq Fikrət və Namiq Kamalın yaradıcılığından daha çox təsirlənmişdir. Qeyd edək ki, o dövrdə Türkiyə ədəbiyyatı müxtəlif meyil və istiqamətləri ilə səciyyələnirdi və Cavid yaradıcılığındakı bəzi ziddiyyətli cəhətləri məhz həmin müxtəlif meyil və istiqamətlərin təsiri baxımından izah etmək lazımdır.

Təhsil aldığı illərdə Cavidi ən çox məftun edən Əbdülhəqq Hamid olmuşdur. Şərqlə, Şərq ədəbiyyatı ilə tanışlıq Əbdülhəqq Hamidin yaradıcılığında özünün daha geniş əksini tapmışdır. Cavidin yaradıcılığına dərindən nəzər salanda müsbət mənada onun yaradıcılığında Əbdülhəqq təsiri aydın görünür.

Əbdülhəqq Hamid klassik Şərq şerini mükəmməl bilən, divan şerini incə-liklərinə qədər mənimsəyən qüdrətli bir sənətkardır. Üslub və üsul baxımından bu iki sənətkarı bir-birindən ayırmayan Rafik Zəka yazır: "Türkiyədə Əbdülhəqq Hamid nədirsə, Azərbaycanda Hüseyn Cavid odur. Cavid də Hamid kimi yurdunda ilk mənzum dram meydana çıxarmış, o da Qərbi Avropa şerini ilk dəfə öz mühitinə gətirmişdir. Hamidə bələd olmayanlar şerlərini eşidərkən Cavidinki, Cavidə bələd olmayanlar isə şerlərini eşidərkən, Hamidinki zənn edərlər" (9, s.26).

Hamidin qabarıq təsirini Cavidin "Sən nəsin, kimsən?" deyən Ariflərə müraciətlə yazdığı "İştə bir divanədən bir xatirə" poemasında aydın şəkildə görmək mümkündür. Bu poema istər məzmununa görə, istərsə də vəzninə görə Əbdülhəqq Hamidin "Gəram" adlı mənzum poeması ilə eynidir.

Cavidin "İblis"ində də Hamidin təsiri duyulur.

İblis nədir? – Cümlə xəyanətlərə bais...
Ya hər kəsə xain olan insan nədir?- İblis...
Əbdülhəqq Hamidin "Finten"indəki:
- Mələkmi; yoxsa insanmı diyordun, bəlkə şeytandır?
Mələk də şimdi insandır, qızım, şeytan da insandır! (4, s.12).

Cavidin dinə münasibəti onun bütün əsərlərində hiss olunur; gah-"Hər kəsin ruhunda bir xaliq gülər", "Eylə bir xaliq ki, xəlq etmiş bəşər"..., gah "Məhəbbətdir ən böyük din", gah isə "Din bir olsaydı əgər" şəklində. Sözsüz, Cavidin dinə münasibəti eyni deyil, lakin əsərlərində o, dini amansızcasına qamçılayır, insanlara müasir insan, müasir cəmiyyət, bəşəriyyətin keçmişi, indisi və gələcəyinə olan baxışlarını ifadə edir. Cavidə görə, bəşəriyyət tarixi bir yığın mənasız adət və ənənələrdən, ziddiyyət və keşməkeşlərdən ibarətdir. İndinin özü isə köhnənin təkrarıdır.

Azərbaycan dramaturgiyasının tarixində mərhələ yaradan, yeni bir ədəbi cərəyanın başçısı olan böyük dramaturqumuz Hüseyn Cavidin yaradıcılığında Türkiyə həyatından bəhs edən əsərləri də əsas yer tutur.

Lakin Hüseyn Cavidin Türkiyə və türk mövzusuna müraciəti ilk növbədə ümumtürk və turançılıq aspektindən qiymətləndirilməlidir. Böyük sənətkar oğuz-türk xalqlarının, ümumiyyətlə, türk mənşəli bütün millətlərin qardaşlıq və həmrəyliyini bir ideya kimi irəli sürərkən hər şeydən əvvəl bu xalqların tarixi köklərini, qədim mənşə ümumiliyini, keçmiş qəhrəmanlıq səhifələrindəki müştərəkliyi ön plana çəkirdi. Turançı şair böyük iftixarla və qürurla keçmişə arxalanıb, "Qoca bir türkün vəsiyyəti" şeirində belə yazırdı:

... Bir millət öz kökü üstı bitər, böyür, yüksəlir.
Köksüz ağac çapuq çürür, çiçək açmaz, bar verməz.
Baxın görün! Tariximiz sizə nələr göstərir.
... Əvət, arslan yavrularım! Türk eli həp şanlıdır,
Almas kimi ləkəsizdir, saqın, qafil olmayın:
Əsr-iyirminci əsrdir! Vəzifəsi pək ağır.
Marş irəli!
Qonşular yol aldı, geri qalmayın! (4, c.3 s.10).

Filologiya elmləri doktoru İslam Ağayev Azərbaycan romantiklərinin məx-susən Türkiyəyə üz tutmalarını elmi şəkildə belə izah edir: "XX əsrin əvvəllərində Azərbaycan romantikləri fəaliyyətə başlayarkən daha çox Osmanlı Türkiyəsinin ədəbi təcrübələrinə müraciət etmişdilər. Çünki bu dövrdə Türkiyədəki milli zəmin ilə Azərbaycandakı milli zəmin arasında bir çox cəhətdən oxşarlıqlar var idi...

Təsadüfi deyil ki, XX əsrin ilk illərində Türkiyənin onlarca milli hərəkat xadimi Azərbaycanın, eyni zamanda Azərbaycanın onlarca ziyalısı Türkiyənin siyasi-ictimai hadisələrində iştirak edirdi. Məhz bu dövrdə gələcəyin böyük türkçüsü, Azərbaycanda romantik şeirin banisi Əli bəy Hüseynzadə, görkəmli romantik şairlər Məhəmməd Hadi, Hüseyn Cavid və başqaları Türkiyədə təhsil almaqla yanaşı, bu mühüm siyasi-ictimai hadisələrin fəal iştirakçıları idilər. Təsadüfi deyil ki, XX əsrin ilk illərində Türkiyə və Azərbaycan ədəbi-ictimai fikrində bir çox oxşar hadisələr özünü göstərirdi" (1, s.181).

Şairin keçirdiyi böhran onun etdiyi etiraflarından da görünür. O, etiraf edir ki, bu yaşa qədər kəsb etdiyi elmi-irfan onu heç bir həyat həqiqətinə yaxınlaşdırmır, əksinə, bir az da uzaqlaşdırır. Oxuduğu kitablar "sərsəm kitablar", yazdığı dəftərləri isə "saçma dəftərlər" adlandırır, "hökm edir ruhumda artıq başqa hal" deyə bildiyi bütün elmi-irfandan narazılığını bildirir, "Bildiyim hər bir həqiqət əskidir" söyləyir (7, s.539).

1905-1907-ci il inqilabına H.Cavidin dünyagörüşünün formalaşmasına təsir edən böyük ictimai-siyasi hərəkat kimi baxılmalıdır. Başqa maarifpərvərlər kimi inqilabın əsil siyasi mahiyyəti Cavid üçün də aydın deyildisə də, o, bir maarifçi kimi bu hərəkatdan böyük nəticələr gözləyirdi. İnqilab onda əsrlərlə "qəm uyqusunda yatan" övladlarının oyanacağına, gözlərini açıb "elmə", "maarifə" qərq olacağına və yeni dünya ilə ayaqlaşa biləcəyinə dərin bir inam doğurmuşdu. Artıq o, ətrafdakı ictimai-siyasi hadisələrlə maraqlanır, xalqı ətalətdən birdəfəlik xilas etməyə çalışır.

H.Cavidin dünyabaxışındakı inkişaf və tərəqqi meyilləri bir tərəfdən öz dövrünün ictimai mühitində baş verən əhəmiyyətli dəyişiklikləri, xüsusən fəhlə sinfinin tarix səhnəsinə atılması sayəsində özünü göstərən siyasi və mənəvi oyanışı müşahidə etməsindən irəli gəlirdisə, digər tərəfdən bu, onun elm, mədəniyyət, fəl-səfə tarixinə bələdliyinin geniş mütaliəsinin nəticəsi idi. Onun mütaliəsi təkcə ədəbiyyat sahəsi ilə, müxtəlif xalqların, xüsusilə Avropa xalqlarının bədii söz usta-larının əsərlərini öyrənməklə məhdudlaşmır, həm də fəlsəfi fikir tarixinə, o cümlədən Şərq fəlsəfəsinə maraq göstərməsində öz ifadəsini tapırdı. Maraqlıdır ki, "Xəyyam" adı ilə yazdığı cəhalət, nadanlıq əleyhinə yönəldilmiş dramında H.Cavid müsəlman ilahiyyatçılarının, din vaizlərinin, "Bağdad xəlifəsi"nin saxtakarlığını və riyakarlığını ifşa edir, onların nəinki təkcə xalqa, həm də mütərəqqi fəlsəfəyə, dünya şöhrəti qazanmış humanist filosoflara, o cümlədən Əbu Nəsr əl Fərabiyə, Əbu Əli İbn Sinaya, Mövlana Cəlaləddin Rumiyə və başqalarına zidd olduqlarını göstərirdi.

Hüseyn Cavid vətəndaş qeyrətli sənətkar olması ilə də fərqlənmişdir. 1917-20-ci illərdə Bakıda və Naxçıvanda erməni daşnaklarının qanlı cinayətlərinə qarşı mübarizə aparmış, düşmənlərin əlinə keçsə də, amalına xəyanət etməmiş, xalqın güclü tələbilə azad olunduqdan sonra mübarizəsini daha kəskin şəkildə davam etdirmişdir. O, Naxçıvanın çətin günlərində doğma yurduna dolmuş erməni quldurlarının fitnəkarlığına qarşı mübarizədə xalqla birlikdə olmuşdur. Naxçıvanı erməni təcavüzündən xilas edən rəşadətli türk generalı Kazım Qara Bəkir paşa ilə şəxsi dostluğu bu ağır günlərdə yaranmış və möhkəmlənmişdir.

1918-ci il Hüseyn Cavidin həyatında onunla əlamətdar olmuşdur ki, o, Şahbuz rayonunun İrəmiş(14,s.98) (Güney Qışlaq – Q.B.) kəndindən olan Mişkinaz xanımla ailə həyatı qurmuşdur. Həmin ildə özünün şah əsəri olan "İblis"i yazmışdır. Daha doğrusu, 1918-ci ildə dünya siyasətinin hədəflərini və mahiyyətini mükəmməl dərk edə bilməsi Cavidə "İblisi"i yazdırmışdı.

Cavidşünas Azər Turan haqlı olaraq yazır: "Uzun tədqiqatdan kənarda qalan məsələlərdən biri də Hüseyn Cavidin siyasi fəaliyyəti ilə bağlı olan məqamlardır. 1918-ci ildə onun Bakıdan gedişi və bura təkrar qayıdışı ictimaiyyətin ciddi maraq dairəsində olan məsələydi. Hüseyn Cavidin Naxçıvandan gəlişi heç də, dönə-dönə qeyd edildiyi kimi, sıravi müəllim missiyasına bənzəmir. Bu dəfəki (və həmişəlik) dönüşündə Cavid daha çox siyasi müstəvidə görünür və 1918-ci ildə Bakıya Naxçıvanın, daha doğrusu, Cənubi Qafqazın rəsmi nümayəndəsi statusu ilə gəlir. Cənubi Qafqazın və Naxçıvanın siyasi-hərbi çıxarlarını müzakirə etmək üçün Bakıya gələn dörd nəfər nümayəndədən biri, "Azərbaycan" qəzetinin 1919-cu il 18 fevral tarixli məlumatında bildirdiyi kimi, Araz-Türk Hökümətinin Xariciyyə naziri Bəhrəmxan Naxçıvanski idi, digər üç nəfərdən biri isə Hüseyn Cavid olmuşdur" (2, s.67).

XIX əsrin sonu – XX əsrin əvvəllərində elm, mədəniyyət və sənayenin inkişafı cəhətdən şöhrət qazanmış Bakı şəhərinə əhəmiyyət verməsi, fəhlə sinfi və onun vəziyyəti ilə tanışlığı sonralar həmin sinfin həyat tərzindən bəhs edən əsərlər ("Bakıda", "Çəlik qollar", "Bakı işçisinə", "Şeyda") yazmasını H.Cavidin dünyagörüşündəki mütərəqqi cəhət kimi qiymətləndirmək olar. Əməl dostu A.Şaiqə yazdığı məktubunda yaşadığı Naxçıvanın məhdud ictimai muhitindən şikayətlənərək "xabi-qəflətdə" qalan vətən övladlarına acıyır, onların gələciyini düşünür və Bakıya elm, mədəniyyət mərkəzi kimi böyük ümidlə baxırdı.

H.Cavidin bu cür inqilabi əhval-ruhiyyədə çıxış etməsinə, görüşlərinin formalaşmasına, onda əmələ gələn demokratizm meyillərinin qüvvətlənməsinə, digər tərəfdən mütaliə etdiyi mütərəqqi rus və Avropa ədəbiyyatı nümayəndələrindən Lev Nikolayeviç Tolstoy, Fyodor Mixayloviç Dostoyevski, Leonid Nikolayeviç Andreyev, ingilis filosof və pedaqoqu Conn Lokk, Vilyam Şekspir, Herbert Spenser, alman filosof və pedaqoqları İmanuil Kant, Fridrix Nitsşe kimi romantik və realistlərin, habelə şairin müasirləri - A.Şaiq, satirik demokrat C.Məmmədquluzadə və M.Ə.Sabirin güclü təsiri olmuşdur. H.Cavid inqilabçı şair Sabirə, görkəmli ədib, satirik Məmmədquluzadəyə və onların sənətinə xüsusi hörmətlə yanaşır, inqilabi ideyalarından təsirlənirdi. Belə ki, H.Cavid C.Məmmədquluzadənin redaktorluq etdiyi, kəskin ictimai satira mənbəyi olan, mütərəqqi ideyalar uğrunda mübarizə aparan "Molla Nəsrəddin" jurnalında şeirləri ilə çıxış etməsə də ("Novruz bayramı" şeirini çıxmaq şərtilə), ondan faydalanır və xalqı onun ideyalarından bəhrələnməyə, dövrün ictimai-siyasi məsələlərindən baş çıxarmağa və hər cür haqsızlıqlara qarşı haqq, ədalət uğrunda mübarizəyə çağırırdı.

Akademik Məmməd Cəfər yazır: "Bu böhran təkcə bir şairin şəxsi mənəvi böhranı deyil, müəyyən tarixi olan bir çox ideyaların, görüşlərin XX əsrdə üzə çıxmış böhranı idi ki,bu da şairin görüşlərində öz xüsusi, fərdi inikasını tapmışdı. "Cavidin bu illərdə (yəni Türkiyədə oxuduğu illər)" tədqiq edib öyrəndiyi müəyyən dərəcədə dini-sxolastik görüşlərlə qarışmış Şərq panteizmi adlanan fəlsəfə və qismən də köhnə idealist Qərb fəlsəfə sistemlərinin modernizə edilmiş skeptisizmi, şübhəsizlik fəlsəfəsi, müasir həyatın suallarına cavab vermirdi: Cavidin bu fəlsəfi sistemlərdən üz döndərməsi qəti inkarçılıq şəklində olsa da, yeni fəlsəfi axtarışlar yolunu tutmuş romantik şərqli bir şair üçün çox təbii idi" (9, s.64).

Cavidi ən çox düşündürən, başqa romantiklərdə olduğu kimi, Şərqin geriliyi, Şərqin inkişaf, səviyyəcə Qərbdən geridə qalması idi. Onlarn nəzərincə, Şərq ətalət içərisindədir, fəaliyyətsizdir. Şərqdə azadlıq, hürriyyət deyilən şey yoxdur. Məsələn, Hadiyə görə, "Şərq acdır işığa xasü əvğani". Onlara görə, Qərb inkişaf etmiş və gözəl mədəni yaşayışa yiyələnmişdir. Şərq isə "ağır həyat sürən, uçuruma doğru gedən bir müsəlman ölkəsi idi" (1, s.36).

Romantik şair Cavid də başqa romantiklər kimi, əvvəllər Qərbi idealizə etsə də, sonralar, yəni Birinci Dünya müharibəsindən sonra onda kəskin dönüş əmələ gəldi. Uzaqdan "cənnət görünən" Qərbə münasibəti dəyişdi, artıq Qərb onun gözündə "elm və maarif ocağı" yox, "təcavüzkar, mədəni vəhşilər" idi. Şərq öz milli mənəvi dəyərləri ilə Qərbdan yüksəkdə dururdu. Romantik şairin mövzu dairəsi həyatın bütün sahələrini əhatə edirdi. "XX əsrin əvvəllərində romantik şeirdə də maarifçi-demokratik ideyaların qüvvətlənməsi qadın azadlığı məsələsini də kəskin şəkildə irəli sürməyi tələb etmişdi" (11, s.45).

Hüseyn Cavidin ədəbi-bədii yaradıcılığa başladığı XX əsrin əvvəllərində isə ictimai-siyasi şərait və ədəbi-mədəni mühit tamam başqa cür idi.

Tarixdən bildiyimiz kimi, Əli bəy Hüseynzadə, İsmayıl bəy Qaspralı, Ziya Göyalp, Məmməd Əmin Rəsulzadə, Əhməd bəy Ağaoğlu, Üzeyir Hacıbəyov kimi o dövrün turançı, türkçü, islamçı olan şəxsiyyətlərinin, digər milli-istiqlal müca-hidlərinin ideyaları müsəlman Şərqində öz bəhrəsini verdi və 1918-ci il 28 may tarixində ilk müsəlman-Şərq respublikası olan Azərbaycan Xalq Cümhuriyyəti yaradıldı. Müasir tipli demokratik dövlətin banisi və yaradıcısı Məmməd Əmin Rəsulzadə 1919-cu il dekabrın 2-də "Müsavat" Partiyasının ikinci qurultayını açaraq demişdi: "Əziz arkadaşlar, biz hamımız çox böyük çətinliklərlə qarşılaşdıq. Amma bir türk kimi işıqlı gələcəyə olan inamımızı itirmədik. Biz inanırdıq ki, haqq işimiz qalib gələcək və bizi xilas edən bu inam oldu" (s.3, N-076).

Tarixdən məlumdur ki, keçən yüzillik bütün dünyada, o cümlədən qədim Şərqdə sosial ədalətsizliyə, imperializm müstəmləkəçiliyinə, əsarətə, istismara və haqsızlığa qarşı üsyanlar, inqilablar, mübarizələr dövrü kimi səciyyələnir. Rusiyadakı 1917-ci ilin oktyabrında baş vermiş proletar-bolşevik çevrilişindən sonra imperiyanın ucqarlarında, o cümlədən Azərbaycanda həyata keçirilən sovetləşmə prosesi çarizmi kommunist hakimiyyəti ilə əvəz edərək müstəmləkəçiliyi yeni formada qanuniləşdirib təsbit etdi. Azərbaycan xalqının mədəniyyəti, ədəbiyyat və incəsənəti əslində yeni bir mövcudluq yoluna salındı. Ümumən sovet xalqının bir tərkib hissəsi kimi keçmiş SSRİ məkanında din, dil və regional-coğrafi yaxınlıq və doğmalıqla birləşdiyi digər Şərq xalqlarından təcrid olunmağa məhkum edilmiş Azərbaycan xalqı öz kökündən, tarixindən, qədim mədəniyyətindən qoparılmaqla, Türkiyə, İran və ərəb ölkələrinin ictimai-siyasi həyatını, ədəbi-mədəni mühitini əsasən uzaqdan seyr edərək İslam dünyasında, türkdilli dövlətlərdə gedən proseslərdən xəbərsiz qalırdı və ya bütün bunlar barədə təhrif olunmuş məlumatlar alırdı.

"Həqiqət istərəm, yalnız həqiqət" deyən Türk oğlu Türk bu millətə azadlığı damızdırmaq, həqiqəti anlatmaq yolunda yazırdı". Ancaq bu o zaman idi ki, belə işıqlı adamların soyqırımı, onlarla xüsusi haqq-hesab çəkmək vaxtı idi. Bu nurda olanların əksəriyyəti birbaşa mənada qula çevrilməsələr də, geri çəkildilər. Cavid isə "Əsiri olduğum bir şey varsa, o da həqiqətdir" deyirdi.

Qarşıdan isə qanlı 37-ci il gəlirdi. İmperiyanın şər maşınları gecə-gündüz işləyirdi. Xalqın ziyalı övladları bu qara niyyətli şər maşınlarının ac gözlərini doyura bilmirdi.

İdrakı sönük başçıların qəfləti ancaq,
Etmiş, edəcək milləti həbh əldə oyuncaq

- deyən ulu Cavid bu zülməti, bu faciəni daha gözəl duyur, daha gözəl dərk edirdi. "İdrakı sönük başçıların qəfləti" ucbatından Hüseyn Cavid də repressiya burulğanının qorxunc dalğalarından can qurtara bilmədi.

Mütəfəkkirin ideya irsinin tədqiqi bir daha sübut edir ki, o, geniş dünyagörüşünə malik bir şəxsiyyət olmuş, hələ uşaq yaşlarından Şərq şairlərinin əsərləri ilə tanış olmuş, universitetdə oxuduğu illərdə isə Avropanın ictimai-siyasi, fəlsəfi, elmi fikrinin mütərəqqi nümayəndələrinin yaradıcılığı ilə maraqlanmağa başlamışdır. Azərbaycan maarifçisi ömrünün sonuna qədər öz ənənəsinə sadiq qalmış, dünya elminin, o cümlədən siyasi və hüquq fikrinin ən yeni nailiyyətləri ilə ma-raqlanmışdır.

H.Cavidin ictimai-siyasi, hüquqi baxışlarının formalaşmasında XIX əsrin sonu XX əsrin birinci yarısında mövcud olmuş sosial-iqtisadi və siyasi şərait çoxəsrlik Azərbaycan mədəniyyəti və ictimai fikri, mütəfəkkirlərinin qabaqcıl ideyaları mühüm rol oynamışdır.

H.Cavid dünya mədəniyyətinə, ictimai-siyasi və hüquqi fikrinin nailiyyətlərinə öz müstəqil təfəkkür tərzindən tənqidi yanaşmış, onları yaradıcı surətdə mənimsəməyə və Azərbaycanın mövcud şəraitinə uyğun təbliğ etməyə çalışmışdır.

Beləliklə, H.Cavidin ictimai-siyasi hüquqi baxışlarının formalaşmasında Azərbaycanda XIX əsirin sonu, XX əsirin birinci yarısında movçud olmuş sosial-iqtisadi və siyasi şəraitin, çoxəsrlik Azərbaycan mədəniyyəti və içtimai fikri, mütəfəkkirlərinin qabaqcıl ideyaları, xalq yaradıcılığı ilə yanaşı, demokratik rus fikri və ədəbiyyatı, elmi, həmçinin Şərq və Avropa mədəni, elmi və siyasi-hüquqi fikrinin rolu şübhəsizdir.

Hüseyn Cavidin ictimai-siyasi, hüquqi görüşləri Azərbaycanda, yeni sosial-iqtisadi münasibətlərin formalaşdığı, cəmiyyətin sosial strukturunda ciddi dəyişik-liklərin baş verdiyi, kapitalist münasibətlərinin əsas daşıyıcıları olan burjuaziya və fəhlə sinfinin təşəkkül tapdığı bir dövrdə formalaşmağa başlamışdı. Bu baxımdan onun ictimai görüşlərində yaşadığı dövrün xarakterini, inkişaf meyillərini, zid-diyyətlərini əks etdirən fikirlər mühüm yer tutur.

Açar sözlər: mütəfəkkir, siyasi-hüquqi dünyagörüşü, azadlıq, fikir.

İstifadə olunmuş ədəbiyyat

1. Ağayev İ. Azərbaycan romantik irsində milli azadlıq və istiqlal ideyaları. Ədəbiyyat məcmuəsi. Nizami adına Ədəbiyyat İnstitunun əsərləri. XVIII cild. Bakı, 2004, 205 s.
2. Azər T. "İrfan çobanı". Araz, 2004, 349 s.
3. "Azərbaycan" qəzeti, 1996, 30 oktyabr.
4. Cavid H. Əsərləri. 4 cilddə. I cild, Bakı, «Yazıçı», 1982, 321 s.
5. Cavid H. Əsərləri. 4 cilddə. IV cild, Bakı, «Yazıçı», 1985, 321 s.
6. Cavid H. Əsərləri. Üç cilddə. III cild, Bakı, Azərbaycan Mədəniyyət fondu, 2003, 632 s.
7. Cavid H. Seçilmiş əsərləri. Bakı, Azərnəşr, 1960, 631 s.
8.Cavidi xatırlarkən: Məqalələr və xatirələr. Bakı, «Gənclik», 1982, 400 s.
9. Cəfər M. Hüseyn Cavid. Bakı, Azərnəşr 1960, 640 s.
10. Əhmədov H. XIX əsr Azərbaycan məktəbi. Bakı, 2000, 366 s.
11. Həbibbəyli İ. XX əsr Azərbaycan yazıçıları. Bakı, APİ-nin nəşri, 1992, 104 s.
12. Məlikova M. Bayramov E. Azərbaycanın siyasi-hüquqi nəzəriyyələr tarixi. Bakı, «Maarif», 1984, 312 s.
13. Mir Cəlal, Hüseynov F. XX əsr Azərbaycan ədəbiyyatı. Bakı, «Maarif», 1982, 391 s.
14. Məmmədli Q. Cavid ömrü boyu. Bakı, «Yazıçı», 1982, 296 s.

Kaqraman Бехbudov

ИDEYNIE OSNOVI I ISTORIÇESKIE USLOVIƏ FORMIROVANIƏ POLITIKO-PRAVOVIX VZQLƏDOV ГUSEYN ДJAVIDA

Pezöme

В statğe izlaqaötsə soüialğnıe, gkonomiçeskie i politiçeskie faktorı, a takje rolğ peredovıx nauçnıx deəteley Бlijneqo i Credneqo Bostoka i mirovoy filosofskoy mısli, kotorıe okazali vliənie na formirovanie mirovozzreniə Г.Дjavida.

Иssledovanie istoriçeskix usloviy formirovaniə politiko-pravovıx vzqlədov i osnovopolaqaöhix idey qenialğnoqo mıslitelə Г.Дjavida imeöt vajnoe teoretiçeskoe i praktiçeskoe znaçenie.

Кlöçevıe slova: mıslitelğ, politiko-pravovoe mirovozzrenie, svoboda, mıslğ.

Kagraman BEHBUDOV

IDEOLOGICAL FOUNDATIONS AND HISTORICAL CONDITIONS OF FORMING THE POLITICAL AND LEGAL VIEWS OF HUSEYN JAVID

Summary

In the article the social, economic and political factors, as well the role of the advanced scientific figures of the Near and Middle East, including the world philosophical thought which influenced on formation of H.Javid's world outlook are stated. Investigation of historical conditions of standing the political-law views and basic ideas of the thinker of genius, H.Javid is of great theoretical and practical importance.

Keywords: thinker, political-law world outlook, freedom, thought.

УДК 343

Eqəna БALAKIŞIEVA
k.ö.n., st. nauçnıy sotrudnik ИФСП НАНА

ИSTORIƏ RAZVITIƏ INSTITUTA OTSROÇKI OTBIVANIƏ NAKAZANIƏ BEREMENNIM JENHINAM I JENHINAM, IMEÖHIX MALOLETNIX DETEY*

Дlə toqo çtobı uəsnitğ öridiçeskuö prirodu instituta otsroçki otbıvaniə nakazaniə beremennım jenhinam i jenhinam, imeöhim maloletnix detey, opredelitğ eqo mesto v sisteme mer uqolovno-pravovoqo xaraktera, neobxodimo prosleditğ istoriçeskoe razvitie dannoqo instituta po uqolovnomu pravu Azerbaydjanskoy Pespubliki.

Otsroçka otbıvaniə nakazaniə beremennım jenhinam i jenhinam, imeöhim maloletnix detey, əvləəsğ odnim iz vidov otsroçki ispolneniə nakazaniə, imeet otnositelğno ne davnöö istoriö v naüionalğnom uqolovnom zakonodatelğstve.

B dannoy statğe budet rassmotrena istoriə razvitiə instituta otsroçki otbıvaniə nakazaniə beremennım jenhinam i jenhinam, imeöhim maloletnix detey za period, koqda Azerbaydjan bıl prisoedinen k üarskoy Possii i deystvovali zakonı üarskoy Possii, sovetskiy period i period nezavisimosti.

B period, koqda Azerbaydjan naxodilsə v sostave üarskoy Possii, v Azerbaydjane deystvovalo v osnovnom zakonodatelğstvo üarskoy Possii, za nekotorım isklöçeniem koqda primenəlisğ normı şariata. B ukazannıy period norma ob otsroçke ispolneniə nakazaniə v otnoşenii beremennıx jenhin bıla zakreplena v st.st.959 i 970 Ystava uqolovnoqo sudoproizvodstva ot 20 noəbrə 1864 q.[1,s.150], v sootvetstvii s kotorımi beremennostğ jenhinı i rodı əvləlisğ osnovaniem otsroçki ispolneniə takoqo nakazaniə na srok do isteçeniə 40 dney posle rodov. Kormlenie qrudğö pozvoləlo otsroçitğ ssılku na srok do 1.5 let so dnə rojdeniə rebenka. Пri naliçii gtix usloviy, kak ukazıval H.C. Taqanüev, «nemedlennoe ispolnenie nakazaniə moqlo bı bez merı otəqotitğ podsudimoqo» [2,s. 328].

Пosle ustanovleniə sovetskoy vlasti v Azerbaydjane, rassmatrivaöhiy institut vpervıe bıl reqlamentirovan v Yqolovno proüessualğnom Kodekse AzCCP 1923 q. Otsroçka ispolneniə priqovora jenhinam poluçila zakreplenie i razvitie v st.444.2 УПK AzCCP 1923 q. B dannoy statğe pomimo proçeqo, ustanavlivalasğ, çto «esli beremennostğ osujdennoy əvləətsə prepətstviem k otbıvaniö eö nakazaniə, to takovoe otkladıvaetsə do isteçeniə dvux mesəüev posle rodov». Пri gtom sleduet otmetitğ, çto v dannoy statğe otsroçka ne zavisela ot təjesti soverşennoqo beremennoy jenhinoy obhestvenno opasnoqo deəniə.

Ykazom Пrezidiuma Berxovnoqo Coveta CCCP ot 3 sentəbrə 1955 q. «O dosroçnom osvobojdenii iz mest lişeniə svobodı invalidov, prestarelıx, liü, stradaöhix təjelım neizleçimım neduqom, beremennıx jenhin i jenhin, imeöhix maloletnix detey» bıla predostavlena vozmojnostğ primeneniə otsroçki otbıvaniə nakazaniə beremennım jenhinam i jenhinam, imeöhim maloletnix detey, v svəzi s tem, çto dalğneyşee soderjanie v mestax lişeniə svobodı takix kateqoriy osujdennıx ne vızıvaetsə neobxodimostğö. Coqlasno gtomu Ykazu predpisıvalosğ osvoboditğ ot dalğneyşeqo otbıvaniə nakazaniə iz mest lişeniə svobodı narədu s druqimi kateqoriəmi osujdennıx beremennıx jenhin i jenhin, imeöhix maloletnix detey v vozraste do semi let.

Yqolovnaə politika sovetskoqo qosudarstva v 60-70-x qodax proşloqo stoletiə bıla napravlena na qumanizaüiö uqolovnoqo zakonodatelğstva, vospitaniö novoqo çeloveka i likvidaüiö prestupnosti. Пodtverjdeniem qumanizma sovetskoqo zakonodatelğstva əvilsə Ykaz Пrezidiuma Berxovnoqo Coveta AzCCP ot 26 aprelə 1977q. v sootvetstvii s kotorım kruq liü, popavşix pod deystvie normı ob otsroçke ispolneniə priqovora, bıl suhestvenno rasşiren. Hovaə redaküiə st. 42-1 УK AzCCP 1960 q. «Otsroçka ispolneniə priqovora» predusmatrivala otsroçku ispolneniə priqovora löbomu liüu, vpervıe osujdaemomu k lişeniö svobodı na srok do trex let. B sootvetstvii s dannoy statğey, «pri naznaçenii nakazaniə v vide lişeniə svobodı na srok do trex let liüu, vpervıe soverşivşemu prestuplenie, sud s uçetom xaraktera i stepeni obhestvennoy opasnosti soverşennoqo prestupleniə, eqo liçnosti i inıx obstoətelğstv dela, a takje vozmojnosti eqo ispravleniə i perevospitaniə bez izoləüii ot obhestva, mojet otsroçitğ ispolnenie priqovora v otnoşenii

* Məqalə hüquq üzrə f.d. R.Güləliyeva tərəfindən çapa məsləhət bilinib.

takoqo liüa na srok ot odnoqo qoda do dvux let. Cud v gtix sluçaəx mojet otsroçitğ ispolnenie i dopolnitelğnıx nakazaniy».

Coqlasno gtomu Ykazu i st. 42-1 УК AzCCP predpisıvalosğ naznaçatğ otsroçku ispolneniə priqovora narədu s druqimi kateqoriəmi osujdennıx beremennım jenhinam i jenhinam, imeöhim maloletnix detey v vozraste do trex let.

C momenta svoeqo poəvleniə rassmatrivaemıy vid otsroçki stal obcektom pristalğnoqo vnimaniə nauçnıx i praktiçeskix rabotnikov. Pazliçnıe problemnıe aspektı dannoqo vida otsroçki v toy ili inoy mere zatraqivalisğ v rəde publikaüiy. Otsroçka ispolneniə priqovora i uslovnoe osujdenie rassmatrivalisğ mnoqimi öristami kak merı, alğternativnıe realğnomu lişeniö svobodı, prizvannıe maksimalğno sposobstvovatğ dostijeniö üeley uqolovnoy otvetstvennosti v otnoşenii sravnitelğno menee opasnıx prestupnikov bez izoləüii ix ot privıçnıx usloviy jizni [3]. Полаqaem, çto osnovaniem predostavleniə rassmatrivaemoqo vida otsroçki əvləlasğ vozmojnostğ ispravleniə i perevospitaniə osujdennıx bez realğnoqo otbıvaniə nakazaniə. Crok, na kotorıy naznaçalasğ otsroçka ispolneniə priqovora, predusmatrivalsə na period ot odnoqo qoda do 2-x let. Этot srok moq sovpadatğ so srokom naznaçennoqo sudom nakazaniə v vide lişeniə svobodı, a moq i ne sovpadatğ s nim. По obhemu pravilu, sudı opredeləli srok otsroçki ispolneniə priqovora v zavisimosti ot razmera naznaçennoqo nakazaniə. Haprimer, dvuxletniy srok otsroçki obıçno naznaçalsə tem osujdennım, kotorım lişenie svobodı bılo naznaçeno na srok ot 2-x do 3-x let [4,s.234]. Пrodoljitelğnostğ sroka otsroçki ispolneniə priqovora zavisela i ot liçnosti vinovnoqo, on doljen bıl dokazatğ svoe ispravlenie [5,s.168].

Пri otsroçke ispolneniə priqovora sud moq obəzatğ osujdennoqo(uö) vıpolnətğ opredelennıe obəzannosti, pri gtom doljen bıl razcəsnitğ emu suhestvo otsroçki i posledstviə nevıpolneniə vozlojennıx na neqo obəzannostey, naruşeniə obhestvennoqo porədka, trudovoy disüiplinı ili soverşeniə novoqo prestupleniə [6,s.157].

Kontrolğ za povedeniem osujdennıx (v tom çisle i jenhin), v otnoşenii kotorıx ispolnenie priqovora k lişeniö svobodı otsroçeno, osuhestvləlsə orqanami vnutrennix del. Esli osujdennaə, v otnoşenii kotoroy ispolnenie priqovora k lişeniö svobodı bılo otsroçeno, ne vıpolnəla vozlojennıe na nee sudom obəzannosti, to po predstavleniö orqana vnutrennix del, sud moq vınesti opredelenie ob otmene otsroçki ispolneniə priqovora k lişeniö svobodı i o napravlenii osujdennoy dlə otbıvaniə lişeniə svobodı, naznaçennoqo priqovorom.

По isteçenii sroka otsroçki ispolneniə priqovora sud po predstavleniö orqana, osuhestvləöheqo kontrolğ za povedeniem osujdennoy, vınosil opredelenie o ee osvobojdenii ot nakazaniə libo o napravlenii osujdennoy dlə otbıvaniə lişeniə svobodı, naznaçennoqo priqovorom.

Beləliklə, cinayətkarlıqla beynəlxalq mübarizə sahəsində uşaq və qadın hüquqlarının müdafiəsi bir tərəfdən insanın təhlükəsizliyinin və sağlamlığının təmin olunması, habelə sülhün və ictimai asayişin qorunması ilə bağlıdırsa, digər tərəfdən istənilən beynəlxalq münasibətlərin mərkəzində insan və şəxsiyyət amilinin, eləcə də böyüməkdə olan gənc nəslin mövcudluğunu və varlığını göstərən vacib amillərdən biri kimi dəyərləndirilə bilər. Ümumiyyətlə, dünyanın ən zərif, məsum, günahsız və müqəddəs varlığı hesab edilən uşaqlar nəinki hər bir ailənin, hətta hər bir mütərəqqi cəmiyyətin və dövlətin qayğıya ən çox möhtac olan vətəndaşları hesab olunurlar. Buna görə də uşaqların statusunun hüquqi tənzimlənməsinə harada daha çox önəm verilirsə, belə ölkələr insan hüquqlarına və azadlıqlarına görə müsbət mənada fərqlənən qabaqcıl ölkələr kimi dəyərləndirilirlər. Bu mənada beynəlxalq və milli hüquqda əsasən II Dünya müharibəsindən, Azərbaycan isə dövlət müstəqilliyini bərpa etdikdən sonra zəruri olan normativ-hüquqi aktların hazırlanması və qəbul edilməsi istiqamətində intensiv və səmərəli fəaliyyət həyata keçirilmişdir.

BMT Baş Assambleyasının 20 noyabr 1959-cu il tarixli 1386 saylı Qətnaməsi ilə «Uşaq hüquqları haqqında Bəyannamə» elan edilmişdir. Bundan sonra BMT 12 noyabr 1989-cu ildə «Uşaq hüquqları haqqında Konvensiya»nı qəbul etmişdir (4, s.131).

Özünün dövlət müstəqilliyini bəyan etdikdən sonra 13 avqust 1992-ci ildə Azərbaycan Respublikası bu Konvensiyanı tanımış və ona qoşulmuşdur. Azərbaycan eyni zamanda 2 aprel 2002-ci il tarixli qanunla «Uşaq hüquqları haqqında» BMT Konvensiyasının «Uşaq alverinə, uşaq fahişəliyinə və uşaq pornoqrafiyasına dair fakültətiv Protokolu»na və «Uşaq hüquqları haqqında» BMT Konvensiyasının «Uşaqların silahlı münaqişələrə cəlb edilməsinə dair fakültətiv Protokolu»na da qoşulmuşdur (5, s.56-61). Uşaq əməyinin mühafizəsi ilə bağlı BMT Konvensiyası da Azərbaycan Respublikasında ratifikasiya olunmuşdur. Belə ki, «Uşaq əməyinin ən pis formalarının qadağan edilməsinə və onların aradan qaldırılması üçün təcili tədbirlərə dair» Beynəlxalq Əmək Təşkilatının Baş konfransı tərəfindən qəbul edilmiş Konvensiya Azərbaycan Əmək Məcəlləsində tamamilə nəzərə alınmışdır (5, s.97).

«Uşaq hüquqları haqqında» BMT Konvensiyasına, ümumilikdə isə uşaq hüquqlarına və azadlıqlarına dair beynəlxalq hüququn ən ümdə prinsiplərinə və şərtlərinə əməl edilməsi bu məsələdə əsas meyarlar hesab olunur. Buna görə də Birləşmiş Millətlər Təşkilatının Uşaq Hüquqları Komitəsi, digər çoxsaylı beynəlxalq və regional təşkilatlar mütəmadi olaraq bu məsələyə dair monitorinq keçirir, ayrı-ayrı ölkələrə müvafiq köməkliklər göstərir və uşaq hüquqlarının qorunmasına dəstək verir.

Uşaq hüquqlarının müdafiəsi problemi ümumdünya səviyyəsində baş verən proseslərin tərkib hissəsi kimi dəyərləndirilə bilər. Buna görə də uşaqlar arasında hüquq pozuntularının artması və uşaq hüquqlarının müdafiəsi beynəlxalq təşkilatları dərindən narahat edir. Bu zaman nəzərə alınmalıdır ki, yalnız uşaqlar cinayət etmirlər, habelə onlara qarşı cinayətlər, zoraki hərəkətlər intensiv artmaqdadır. Uşaqların cinayətkar qəsdlərdən müdafiəsi, yaxud onların yaşlılar tərəfindən cinayətkarlığa cəlb edilməsinin qarşısının alınması yetkinlik yaşına çatmayanların və gənc nəslin normal inkişafının, onun kamil şəxsiyyət kimi formalaşmasının mühüm şərtidir. Cinayətkarlıqla mübarizədə uşaq hüquqlarının müdafiəsi böyük aktuallığa malik olan problemdir. Bu başlıca olaraq ondan irəli gəlir ki, qloballaşan dünyada bu problem təhlükəli xarakter almaqdadır. Buna görə də Azərbaycan Respublikasının daxili siyasətinin, o cümlədən hüquq siyasətinin qarşısında duran ən ümdə vəzifələrdən biri ölkədə cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsindən, qanunçuluğun və hüquq qaydasının möhkəmləndirilməsindən, habelə vətəndaşların hüquq və azadlıqlarının qorunmasının etibarlı şəkildə təmin edilməsindən ibarətdir. Bu sahədə qarşıda duran vəzifələrin layiqincə yerinə yetirilməsi Azərbaycan dövlətçiliyinin əsas prinsiplərindən və vəzifələrindən birini təşkil edir. Beləliklə, beynəlxalq və milli təcrübə təsdiq edir ki, yetkinlik yaşına çatmayanlar tərəfindən törədilən hüquq pozuntularının və cinayət

faktlarının nəzarətdə saxlanılması üçün aşağıdkıların həyata keçirilməsi tövsiyyə edilir: 1. Uşaq hüquqlarının müdafiəsi və mühafizəsi sahəsində milli qanunların beynəlxalq hüquq normalarına uyğunlaşdırılması sahəsində tədbirlər davam etdirilməlidir; 2. Uşaq hüquqlarının pozulması ilə bağlı hər bir fakt, xüsusilə cinayət faktları ciddi surətdə araşdırılıb qanuni tədbirlər görülməlidir; 3. Uşaq hüquqlarının qorunması və yetkinlik yaşına çatmayanların cinayətləri üzrə profilaktiki tədbirlər sisteminin hazırlanıb həyata keçirilməsi zəruridir; 4. Yetkinlik yaşına çatmayanların cinayət işləri üzrə qanunvericiliklə müəyyən olunmuş prosessual normalara istintaq və məhkəmə orqanları tərəfindən ciddi əməl olunması təmin edilməlidir; 5. Yetkinlik yaşına çatmayanların cəzaçəkmə müəssisələrində təlim-tərbiyəsinə və təhsilinə diqqətin artırılması zəruridir; 6. Cəzaçəkmə müəssisələrindən buraxılan cinayət etmiş yetkinlik yaşına çatmayanların yaşayış və iş yeri ilə təmin olunması sistemli şəkildə həyata keçirilməlidir; 7. Yetkinlik yaşına çatmayanların cinayətləri dövlət nəzarətində saxlanılmalıdır; 8. Yetkinlik yaşına çatmayanlar arasında hüquq tərbiyəsinə xüsusi önəm verilməli, beynəlxalq qabaqcıl təcrübədən istifadə edilməlidir.

Açar sözlər: uşaq cinayətkarlığı, beynəlxalq hüquq normaları, uşaq hüquqlarının müdafiəsi, məcəllə, yeniyetmə.

İstifadə olunmuş ədəbiyyat

1. Babayev Ş.Ə. Yetkinlik yaşına çatmayan şəxslərin narkotiklə bağlı törətdikləri cinayətlərə qarşı mübarizə. Bakı, «Qanun», 2007.
2. «Azadlıq» qəzeti. 30 iyun 2011-ci il.
3. Yuvenal ədliyyə: Yetkinlik yaşına çatmayanlar tərəfindən terədilən cinayət işləri üzrə ədalət mühakiməsi icraatı. Dərs vəsaiti. Bakı, 2006.
4. Beynəlxalq sənədlər toplusu. Bakı, "Qanun" nəş., 2005.
5. Uşaq hüquqları hamı üçün. Bakı, Ombudsman Aparatının nəşri, 2009.
6. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, "Hüquq ədəbiyyatı" nəş., 2010.
7. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi. Bakı, "Hüquq ədəbiyyatı" nəş., 2011.
8. Uşaq hüquqları hamı üçün. Bakı, Ombudsman Aparatının nəşri, 2009.
9. Azərbaycan Respublikasında cinayətkarlıq və hüquq pozmalar. Bakı, 2010.

Caida ГASANZADE

BOPROSI BORĞBI S DETSKOY PRESTUPNOSTĞÖ V MEJDUNARODNOM I NAÜIONALĞNOM PRAVE

Pezöme

Haruşenie zakona nesoverşennoletnimi, vklöçaə postupki kriminalğnoqo xaraktera vseqda vızıvaöt serğëznoe bespokoystvo v löbom obhestve. B proqressivnıx qosudarstvax gtot vopros rassmatrivaöt kak uspeşnuö qarantiö buduheqo obhestva. Пogtomu v poslednie qodı naüionalğnıe zakonı Azerbaydjana, formiruöhiesə na osnove norm mejdunarodnoqo prava pridaöt osoboe znaçenie oxrane prav detey. Пredotvrahenie detskoy prestupnosti, postoənnıy kontrolğ nad gtim sçitaötsə prioritetnımi napravleniəmi v mejdunarodnıx otnoşeniəx i sotrudniçestve.

B statğe rassmatrivaetsə sostoənie borğbı s detskoy prestupnostğö na naüionalğnom i mejdunarodnom urovnəx, predlaqaötsə predlojeniə po ustraneniö problem, suhestvuöhix v gtoy sfere.

Klöçevıe slova: detskaə prestupnostğ, normı mejdunarodnoqo prava, oxrana prav detey, kodeks, nesoverşennoletniy.

Saida HASANZADE

**THE STRUGGLE AGAINST CHILD'S CRIMINALITY:
IN NATIONAL AND INTERNATIONAL LAW**

Summary

Breaking the law committed by the under age including the actions of criminal character causes always anxiety in any society. In the advanced states they consider thus question as a successful guarantee for a society. Therefore, in recent years Azerbaijan national laws being formed on the basis of the international law norms attach a particular attention to protection of the children's rights. Prevention of child's criminality, keeping it always under control is considered the priority directions in the international relations and collaboration.

In the article a state of the struggle against the child's criminality on the national and international levels are considered, the proposals on removing the problems existing in this sphere are offered.

Keywords: child's criminality, international law norms, protection of the children's rights, codex, the under age.

UOT

Sevinc SƏBZƏLİYEVA
hüquq üzrə fəlsəfə doktoru
ADİU-nin baş müəllimi

İNSANIN YAŞAMAQ VƏ SOSİAL HÜQUQLARININ TƏMİN EDİLMƏSİNDƏ BEYNƏLXALQ HÜQUQ NORMALARININ ROLU*

Azərbaycanın əməklə bağlı beynəlxalq standartların tanıması və həyata keçirməsi sahəsində aktiv fəaliyyəti, xüsusən həyata keçirilən və daima təkmilləşdirilən sosial islahatlar (pensiya, sosial sığorta, tibbi xidmət və s.) baxımından sosial təminatla bağlı beynəlxalq sənədlərin rolu artır. Bu məsələdə Azərbaycan Respublikasının 25 yanvar 2001-ci il tarixdə Avropa Şurasına tamhüquqlu üzv qəbul edilməsi və həmin il «İnsan hüquq və əsas azadlıqlarının müdafiəsi haqqında» Avropa Konvensiyasını ratifikasiya etməsi mühüm rol oynayır. Ölkəmiz həmçinin Avropa İnsan Hüquqları Məhkəməsinin yurisdiksiyasını tanıyır. Bu Məhkəmənin bir sıra qərarları birbaşa və ya dolayı şəkildə sosial təminatla bağlıdır. Hesab edirik ki, beynəlxalq öhdəliklərin vicdanla icra olunması prinsipinə uyğun olaraq beynəlxalq hüququn müddəalarının dövlətdaxili səviyyədə reallaşdırılması ilə əlaqədar gələcəkdə məhkəmələrin fəaliyyətinin təkmilləşdirilməsinin labüdlüyü baxımından məhkəmələrə müxtəlif kateqoriya işlərə baxılması zamanı beynəlxalq hüququn hamılıqla qəbul edilmiş norma və prinsiplərinin tətbiqi məsələləri üzrə şərhlərə əsaslanmaq səlahiyyətlərinin verilməsi məqsədəmüvafiq olardı.

İnsan hüquq və azadlıqlarının təminatı və müdafiəsi sahəsində beynəlxalq hüququn milli hüquq üzərində üstünlüyü şərtsizdir. Azərbaycan Respublikası Konstitusiyasının 12-ci maddəsinin II hissəsində nəzərdə tutulur ki, bu Konstitusiyada sadalanan insan və vətəndaş hüquqları və azadlıqları Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun tətbiq edilir.

Beynəlxalq hüququn hamılıqla qəbul edilmiş prinsipləri beynəlxalq hüququn dövlətlər birliyi tərəfindən tanınan və qəbul edilən ən mühüm imperativ xarakterli normalarıdır ki, onlardan imtina edilməsi yolverilməzdir (məsələn, insan hüquqlarına hörmət və ya beynəlxalq öhdəliklərin vicdanla yerinə yetirilməsi prinsipləri). Beynəlxalq hüququn hamılıqla qəbul edilmiş normaları dünya dövlətləri birliyi tərəfindən hüquqi öhdəlik kimi tanınan və qəbul edilən davranış qaydalarıdır. Beləliklə, beynəlxalq hüququn hamılıqla qəbul edilmiş norma və prinsiplərini insan hüquqları sahəsində icrası bütün dövlətlər üçün məcburi olan beynəlxalq standartlar kimi nəzərdən keçirmək olar. BMT-nin bir çox sənədələrinin adında «standart» termininindən istifadə edilməsi faktı da bunu təsdiq edir. Məsələn, məhbuslarla rəftar edilməsinin minimum standart qaydaları; Yetkinlik yaşına çatmayanlara münasibətdə ədalət mühakiməsinin aparılmasına dair BMT-nin minimum standart qaydaları və s.

Azərbaycan Respublikasının beynəlxalq müqavilələri beynəlxalq hüququn hamılıqla qəbul edilmiş norma və prinsipləri ilə birlikdə respublikamızın hüquq sisteminin ayrılmaz tərkib hissəsi kimi çıxış edir. Beynəlxalq müqavilə müqavilənin özündə nəzərdə tutulmuş və ya danışıqlarda iştirak edən dövlətlər tərəfindən razılaşdırılmış qaydada və vaxtda qüvvəyə minir. Beləliklə, beynəlxalq müqavilə bağlamaqla Azərbaycan Respublikasının öz üzərinə həmçinin milli qanunvericiliyə zəruri dəyişikliklərin edilməsi yolu ilə icra edilməli olan müəyyən beynəlxalq öhdəliklər götürmüş olur. Məlumdur ki, bir çox hallarda beynəlxalq müqavilənin şərtləri insan hüquqları sahəsində beynəlxalq standartlar kimi nəzərdən keçirilməlidir.

Qloballaşma və inteqrasiya prosesləri dövlətlər arasında, həmçinin beynəlxalq təşkilatlar çərçivəsində təzahür edən qarşılıqlı münasibətlərdə sosial təminatın müəyyən prinsip və normalarının qarşılıqlı təsirini (nüfuz etməsini) nəzərdə tutur. Hətta, sosial təminatın beynəlxalq standartları milli sistemlərin yaradılması üçün nümunə kimi çıxış etməlidir. Bu isə sosial risklərin reallaşdırılması ilə bağlı gözlənilməz hallarla (aclıq, epidemiya, təbii və texnogen xarakterli fövqəladə vəziyyət) mübarizədə bu və ya digər dövlətə köməklik göstərilməsi üçün əsasdır.

---

* Məqalə h.e.d., prof. B.Zahidov tərəfindən çapa məsləhət bilinib.

Bu baxımdan əmək və sosial təminat sferasında mövcud olan beynəlxalq standartların əlaqələndirilməsi (nisbətlərinin müəyyən edilməsi) məqsədəmüvafiqdir.

Sosial təminat hüquq münasibətlərində vəzifəli tərəf kimi özünün müvafiq orqanlarının şəxsində dövlət çıxış edir. Fikrimizcə, bəzi dövlətlərin, o cümlədən Azərbaycan Respublikasının sosial təminat sahəsində əsas beynəlxalq sənədlərin ratifikasiya edilməsi məsələlərinə bir qədər ehtiyatla yanaşması məhz bununla izah olunur. Eyni zamanda Beynəlxalq Əmək Təşkilatının əmək münasibətlərinin tənzimlənməsinə həsr edilmiş əsas Konvensiyaları respublikamız tərəfindən ratifikasiya edilmişdir və bu proses davam etməkdədir. Hal-hazırda Azərbaycan Respublikasında BƏT-in əmək sahəsində 60-dan çox Konvensiyası qüvvədədir (2, s. 553-558).

Qeyd olunanlara əsasən sosial təminatın beynəlxalq standartlarının əsas əlamətlərini müəyyən etmək olar. Birincisi, öz formallığı və normativ qaydada təsbit edilməsi baxımından onlar müqavilə formasında olan beynəlxalq hüquq normalarında əks olunur. İkincisi, onlar müvafiq sferada dövlətin beynəlxalq öhdəliklərini ifadə edir. Üçüncüsü, onlar əhaliyə göstərilən sosial yardımın şərtləri və səviyyəsi ilə bağlı müasir sivil cəmiyyətin ideyalarına uyğun gələn milli sosial təminat sistemlərinin yaradılmasına yönəldilmişdir. Beləliklə, sosial təminatın beynəlxalq standartları dedikdə müasir ümumbəşəri tələblərə cavab verən qaydada və şərtlərlə vətəndaşların sosial təminat hüququnun daha səmərəli şəkildə həyata keçirilməsi məqsədi ilə milli sosial təminat sisteminin yaradılması və fəaliyyəti üzrə dövlət tərəfindən qəbul edilən və beynəlxalq hüquq normalarında təsbit edilən qarşılıqlı öhdəliklər başa düşülür.

Dövlət tərəfindən qəbul edilən öhdəliklərin xarakterindən və detallaşdırılması dərəcəsindən asılı olaraq sosial təminatın beynəlxalq standartlarını ümumi və xüsusi standartlara ayırmaq olar. Ümumi standartlar insan hüquqları haqqında universal və regional xarakterli beynəlxalq aktlarda təsbit edilmişdir və insanların sosial təminat hüququnu, onun həyata keçirilməsi şərtlərini və təminatlı sosial yardımın səviyyəsini özündə əks etdirir. Fikrimizcə, sosial təminatın ümumi standartlarına Ümumdünya insan hüquqları Bəyannaməsi, İqtisadi, sosial və mədəni hüquqlar haqqında Beynəlxalq Pakt, Avropa Sosial Xartiyası kimi beynəlxalq sənədlərin müddəalarını aid etmək olar. Məsələn, BMT Baş Assambleyası tərəfindən 10 dekabr 1948-ci ildə qəbul edilmiş Ümumdünya insan hüquqları Bəyannaməsinin 23-cü maddəsində də hər bir kəsin əmək, sərbəst surətdə iş seçmək, ədalətli və əlverişli iş şəraiti və işsizlikdən müdafiə olunmaq, hər bir işləyən kəsin özü və ailəsi üçün insan ləyaqətinə yaraşan mövcudluğu təmin edən və zəruri olduqda digər sosial müdafiə vasitələri ilə tamamlanan ədalətli və qənaətbəxş haqq almaq hüququ təsbit edilmişdir.

BMT Baş Assambleyası tərəfindən 16 dekabr 1966-cı ildə qəbul edilmiş İqtisadi, sosial və mədəni hüquqlar haqqında Beynəlxalq Paktın 9-cu maddəsində sosial sığorta da daxil olmaqla hər kəsin sosial təminat hüququ təsbit edilir. BMT-nin xüsusi sənədlərində əhalinin ayrı-ayrı kateqoriyalarının (qadınların, uşaqların, əlillərin, əqli cəhətdən inkişafdan geri qalanların, işçi-miqrantların və b.) sosial təminat hüququ ilə bağlı müddəalar vardır.

Vətəndaşların sosial təminat hüququna dair normalar Müstəqil Dövlətlər Birliyinin aktlarında da təsbit edilmişdir. Məsələn, «İnsan hüquqları və əsas azadlıqları haqqında» MDB Konvensiyası dövlətlərin əhalinin sağlamlığının mühafizəsi sahəsində tədbirlər görməsi öhdəlyi nəzərdə tutulur, hər kəsin sosial sığorta da daxil olmaqla sosial təminat hüququnu təsbit edir, müdafiəsi dövlət tərəfindən təmin edilməli olan sosial risklərin (yaş, xəstəlik, əlillik, ailə başçısının itirilməsi, uşaqların tərbiyə edilməsi və s.) siyahısı müəyyən edilir.

Sosial təminatın beynəlxalq hüquqi tənzimlənməsi problemlərini tədqiq edən İ.İ. Şamaneva «Sosial təminat sahəsində hüquqların saxlanması haqqında» 157 №-li Konvensiyanın və 167 №-li Tövsiyənin (1982) xüsusi rola malik olduğunu qeyd edir. Bu sənədlərin əsas müddəaları beynəlxalq müqaviləni bağlayan dövlətlərin, vətəndaşların, habelə qaçqınların və vətəndaşlığı olmayan şəxslərin sosial təminat sahəsində hüquqlarının saxlanmasına yönəlmişdir. 157 №-li Konvensiyaya əsasən hər hansı bir dövlətin ərazisində təqdim edilən sosial təminatın müxtəlif növlərinə olan hüquq bu sazişin iştirakçıları olan bütün dövlətlərin ərazisində tanınmalıdır (8, s. 117-118). Muzdlu işçi üçün sosial təminat hüququ sığorta haqlarının ödənilməsi ilə bağlıdır. Pensiya və müavinətlərin təyin edilməsi zamanı istənilən iştirakçı dövlətdə qazanılmış sığorta stajı nəzərə alınır, həmçinin müxtəlif dövlətlərdə iş dövrləri və sığorta haqlarının toplanması mümkündür.

Sosial təminatın sosial standartları MDB-nin bir sıra aktlarında öz əksini tapmışdır. Sosial təminat sahəsində MDB-nin əsas sənədləri bunlardır: «MDB-nin iştirakçısı olan dövlətlərin vətəndaşlarının pensiya təminat sahəsində hüquqlarının təminatları haqqında» 13 mart 1992-ci il tarixli Saziş, «Sosial müavinətlərin, uşaqlı ailələrin kompensasiya ödəmələlərinin və alimentlərin ödənilməsi sahəsində vətəndaşların hüquqlarının təminatları haqqında» 9 sentyabr 1994-cü il il tarixli Saziş, «Çernobıl və digər radiasiya fəlakətləri və qəzaları, habelə nüvə sınaqları nəticəsində radiasiya təsirinə məruz qalmış vətəndaşların sağlamlığının sosial müdafiəsi və mühafizəsi haqqında» 9 sentyabr 1994-cü il tarixli Saziş, «Böyük Vətən müharibəsinin iştirakçıları və əlilləri, digər dövlətlərin ərazisində döyüş əməliyyatlarının iştirakçıları, ölmüş hərbi qulluqçuların ailələri üçün güzəşt və təminatların qarşılıqlı tanınması haqqında» 15 aprel 1994-cü il tarixli Saziş, «İşçilərin öz əmək funksiyalarını icra etmələri ilə bağlı şikəstlik, peşə xəstəliyi və ya sağlamlığın digər şəkildə pozulması nəticəsində işçiyə vurulan zərərin əvəzinin ödənilməsi hüququnun qarşılıqlı tanınması haqqında» 9 sentyabr 1994-cü il tarixli Saziş.

İnsan hüquqları, o cümlədən sosial hüquqlar sahəsində beynəlxalq hüquq normalarının səmərəli həyata keçirilməsinin təsirli vasitəsi kimi beynəlxalq prosedurların müxtəlif adları mövcuddur: beynəlxalq mexanizmlər, beynəlxalq nəzarət, implementasiya mexanizmi və s. (11, s. 117). S.V.Çerniçenkonun hesab etdiyi kimi, insan hüquqları sahəsində bütün beynəlxalq prosedurları iki kateqoriyaya ayırmaq olar: 1) dövlətlərin insan hüquqları sahəsində öhdəliklərinin yerinə yetirilməsi barədə beynəlxalq orqanlarda baxılan məlumatlar və 2) beynəlxalq orqanlara insan hüquqlarının dövlətlər tərəfindən pozulmasından edilən şikayətlər (etirazlar, petisiyalar, məlumatlar və s.) (11, s. 119).

Sosial hüquqların reallaşması öz əksini ilk əvvəl bütün bəşəriyyət üçün ən böyük nailiyyət sayılan, 1948-ci ildə BMT-nin Baş Assambleyasının təntənəli surətdə elan etdiyi Ümumdünya İnsan Hüquqları Bəyannaməsində tapır. Məlum olduğu kimi, Ümumi Bəyannamə universal xarakter daşıyır (9, s. 8) və demək olar ki, mənəvi-siyasi əhəmiyyət kəsb edən manifesti xatırladır (3, s. 139). Bəyannamədə əks olunan məqsəd və prinsiplər demək olar ki, əksər dövlətlərin konstitusiyalarında öz ölkələri üçün məcburi müddəalar kimi tanınır. İnsan hüquqlarının həyata keçirilməsi üçün dövlət elə şərait yaratmalıdır ki, hər kəs öz iqtisadi, sosial və mədəni hüquqlarından mülki və siyasi hüquqlardan istifadə etdiyi kimi istifadə edə bilsin. BMT Nizamnaməsində və Ümumdünya İnsan Hüquqları Bəyannaməsində öz əksini tapmış bu ideya və prinsiplər İqtisadi, sosial və mədəni hüquqlar haqqında 1966-cı il Beynəlxalq Paktda öz gələcək inkişafını əldə etdi (7, s. 464). Sosial hüquqların demək olar ki, bütün aspektlərini əks etdirən, dünyanın yarıdan çox ölkəsinin qoşulduğu bu beynəlxalq sənəd onu təsdiq etmiş dövlətlər üçün məcburi hüquqi qüvvəyə malikdir (6, s. 226) və insan hüquqlarının iştirakçı-dövlətlər tərəfindən tanınmalı və təmin olunmalı minimal standartı və əsas hüquq və azadlıqların iştirakçı-dövlətlərin hökumət orqanları tərəfindən pozulması hallarında onların müdafiəsini reallaşdırmağa imkan verən nəzarət mexanizmlərini müəyyənləşdirir (4, s. 5).

Sosial hüquqların müdafiəsinin zəruriliyi İnsan hüquqları üzrə Avropa Məhkəməsinin təcrübəsində mühüm yer tutur. Məlum olduğu kimi, İnsan hüquqları və əsas azadlıqların müdafiəsi haqqında Avropa Konvensiyasının müddəaları və onun protokolları başlıca olaraq mülki və siyasi hüquq və azadlıqlara aiddir. Lakin mütəxəssislərin qeyd etdikləri kimi, məhkəmə təcrübəsinin inkişafı tədricən Konvensiya müddəalarının sosial sferada daha aktiv tətbiq edilməsi istiqamətində gedir. Bu ilk dəfə «Eyri İrlandiyaya qarşı» adlanan iş üzrə qərarda öz əksini tapmışdır: məhkəmənin mövqeyinə görə İnsan hüquqları və əsas azadlıqların müdafiəsi haqqında Konvensiyada təsbit olunmuş mülki və siyasi hüquqların çoxu «sosial və iqtisadi xarakterli hüquqi nəticələr yaradır». Məhkəmə belə birmənalı nəticəyə gəldi ki, «iqtisadi və sosial hüquqlar sahəsini Konvensiyanın təsir sferasından ayıran heç bir sərhəd yoxdur (5, s. 71).

Azərbaycan Respublikasında sosial təminat sisteminin inkişaf perspektivləri bu sahədə beynəlxalq təcrübənin öyrənilməsinə mühüm tələbat yaradır. Azərbaycan Respublikasının Konstitusiyasında beynəlxalq hüququn norma və prinsiplərinin milli hüquq sisteminin tərkib hissəsi kimi nəzərdə tutulması, həmçinin bu norma və prinsiplərə uyğun olaraq insan və vətəndaşların hüquq və azadlıqlarının tanınması və onların təmin edilməsinin dövlətin ali məqsədi kimi müəyyən edilməsi baxımından bu vəzifə hər bir zaman öz aktuallığını saxlayacaqdır.

Azərbaycan Respublikası Konstitusiyasının 148-ci və 12-ci maddələri ilə respublikamızın tərəfdar çıxdığı beynəlxalq müqavilələrin onun qanunvericilik sisteminin tərkib hissəsini təşkil etməsi haqqında və Azərbaycan Respublikası tərəfindən beynəlxalq hüququn ümumi prinsiplərinə və normalarına uyğun olaraq insan və vətəndaşların hüquq və azadlıqlarının tanınması və onların təmin edilməsi haqqında müddəaların nəzərdə tutulması bir dövlət kimi Azərbaycan Respublikasının üzərinə sosial təminat haqqında milli qanunvericiliyini insan hüquqları haqqında beynəlxalq aktlara uyğunlaşdırmaq vəzifəsini qoyur. Bu vəzifənin yerinə yetirilməsi isə onu bildirir ki, Azərbaycan Respublikası öz vətəndaşları üçün beynəlxalq standartlar səviyyəsində həyat şəraitini təmin etməlidir.

Müasir Azərbaycanda sosial təminatın yalnız ümumi standartları həyata keçirilir, çünki ölkəmiz xüsusi standartlara dair beynəlxalq öhdəlik götürməmişdir, sosial təminat sahəsində əsas beynəlxalq hüquqi aktları ratifikasiya etməmişdir. Sosial təminat qanunvericiliyinin təkmilləşdirildiyi bir şəraitdə bu sənədlərin ratifikasiya edilməsi zərurəti əhəmiyyətli dərəcədə artır. Beynəlxalq öhdəliklər götürmədən, vətəndaşların hüquqi statuslarının stabilliyi və əvvəlcə əldə edilmiş hüquqların saxlanması baxımından sosial qanunvericiliyin inkişafının ardıcıllığı (varisliyi) prinsiplərindən imtina etməklə vətəndaşların vəziyyətini yaxşılaşdarmaq olmaz.

Sosial hüquq və azadlıqların təmin olunması və müdafiəsi müasir dövrdə təkcə milli qanunvericiliklə deyil, həmçinin beynəlxalq normalarla həyata keçirilir. Bu normaların əhəmiyyəti onların sosial hüquqlara dair minimal standartları müəyyən etməklə yanaşı, həmçinin milli normaların həyata keçirə bilmədiyi daha bir funksiyanı – dövlət hakimiyyətinin sosial hüquqlarla bağlı fəaliyyətinə nəzarəti həyata keçirilməsilə bağlıdır.

İnsan hüquqları sahəsində bütün beynəlxalq prosedurları iki kateqoriyaya ayırmaq olar: 1) dövlətlərin insan hüquqları sahəsində öhdəliklərinin yerinə yetirilməsi barədə beynəlxalq orqanlarda baxılan məlumatlar və 2) beynəlxalq orqanlara insan hüquqlarının dövlətlər tərəfindən pozulmasından edilən şikayətlər (etirazlar, petisiyalar, məlumatlar və s.).

Hər hansı bir hüquq sisteminin fəaliyyət göstərməsi və həyata keçirilməsi üçün əsas hüquqi şərt ondan ibarətdir ki, dövlətlər bu sahədə açıq şəkildə ifadə olunmuş öhdəliklər götürmüş olsunlar. Onun əsas hüquqi formasını müvafiq beynəlxalq hüquqi aktları imzalamaq (və ya ona qoşulmaq) və ratifikasiya etmək təşkil edir ki, bu zaman da dövlətlər beynəlxalq müqavilələri seçməkdə, onu imzalamaqda azaddırlar. Əgər dövlətlər könüllü surətdə beynəlxalq müqavilələrin öhdəliklərini qəbul edib onu imzalayırlarsa, onda onlar bütün hüquqi sistemin ilkin başlanğıcı sayılan – pacta sunt servanta (müqavilələrə riayət edilməlidir) prinsipinə vicdanla əməl etməlidirlər. Beynəlxalq hüququn bu ümumtanınmış prinsipi dövlətlərin sosial hüquqlar sahəsində götürdükləri öhdəliklərinin yerinə yetirilməsində bütün beynəlxalq mexanizmin əsas şərti hesab edilir. Bu baxımdan beynəlxalq hüquqda insan hüquq və azadlıqlarına dair müqavilə iştirakçısı olan və üzərinə bu hüquq və azadlıqların təmin olunmasına dair öhdəliklər götürmüş dövlətlərin həmin öhdəliklərə əməl etməsinə səmərəli nəzarət xüsusi əhəmiyyət kəsb edir. İnsan hüquqlarına dair beynəlxalq hüquqi normaların təsir gücü – bu hüquqların yerinə yetirilməsi üzərində beynəlxalq nəzarət mexanizminin səmərəliliyindən son dərəcə asılıdır.

Müxtəlif beynəlxalq nəzarət mexanizmlərinin yaradılması müasir dünya inkişafının ümumi tendensiyası olmuşdur. Müasir şəraitdə dövlətlərin beynəlxalq müqavilələrin yerinə yetirilməsinə səmərəli nəzarətin artırılmasına cəhd etmələri göz qabağındadır, bu da beynəlxalq ictimaiyyətin inkişafının obyektiv qanunauyğunluğunu əks etdirir.

Eyni zamanda məlumdur ki, beynəlxalq münasibətlərdə elə bir hakimiyyət yoxdur ki, beynəlxalq hüquq normalarının və prinsiplərinin yerinə yetirilməsinə nəzarət edə və lazım gəldikdə onları məcburi surətdə həyata keçirə və ya götürülən öhdəliklərin yerinə yetirilməməsinə görə sanksiyalar müəyyən edə bilsin. Ötən yüzilliyin ortalarına kimi insan hüquqları, o cümlədən sosial hüquqların prinsip və normalarının həyata keçirilməsinə nəzarət praktiki olaraq hər bir dövlətin müstəsna dövlətdaxili səlahiyyətinə aid idi, lakin eyni zamanda əksər ölkələrdə bu hüquqları real şəkildə təmin etməyə imkan verən müvafiq sosial-siyasi şərait yaranmamışdı. İnsan hüquqları, o cümlədən sosial hüquqların reallaşması üçün ən azı - beynəlxalq miqyasda tanınmış insan hüquqlarına hörməti və onların müdafiəsini təmin edən milli qanunvericiliyin və inzibati tədbirlərin qəbul edilməsi; hüquqları pozulmuş vətəndaşların müraciət edə biləcəyi prosedurların – milli və beynəlxalq səviyyələrdə təmin

edilən və nəzarət prosedurlarının yaradılması; insan hüquqlarının həyata keçirilməsinə mane olan və ya onların həyata keçirilməsini qeyri-mümkün edən səbəblərin aradan qaldırılması zəruridir. Buna görə də dövlətlər beynəlxalq hüquq yaradıcılığının genişlənməsi, dövlətlərarası əlaqələrin mürəkkəbləşməsi, bütün bəşər taleyinə toxunan qlobal problemlərin meydana çıxması nəticəsində əmələ gələn beynəlxalq nəzarət mexanizminin yaradılmasını nəzərdə tutdular və bunun da əsasında beynəlxalq müqavilələrin müddəalarına uyğun olaraq insan hüquqlarının təmin edilməsi sahəsində dövlətlərin fəaliyyətinə nəzarət edən beynəlxalq mexanizmlərin daşıyıcısı - dövlətlərarası orqanların müəyyən sistemi yarandı.

Sosial təminat hüququ üzrə görkəmli alim E.Q.Tuçkova sosial təminat hüququnun həyata keçirilməsi ilə bağlı olaraq, daha dəqiq desək, dövlətin bu hüquqların yaşayış minimumu səviyyəsində təqdim etməsi ilə əlaqədar haqlı olaraq göstərir ki, dövlət heç bir halda insanların layiqli həyat şəraitini təmin etmək vəzifəsindən azad olunmur (10, s. 81). Azərbaycan Respublikasının Konstitusiyasında xalqın və hər bir vətəndaşın rifahını yüksəltmək, onun sosial müdafiəsi və layiqli həyat səviyyəsi qayğısına qalmaq dövlətin əsas vəzifələrindən biri kimi elan edilmiş (16-cı maddə) və təqaüdlərin və sosial müavinətlərin minimum məbləğinin qanunla müəyyən edilməsi göstərilmişdir (38-ci maddə) (1, s. 7-13). Göründüyü kimi, Konstitusiyada təqaüdlərin və sosial müavinətlərin minimum məbləğinin yaşayış səviyyəsi ilə əlaqəsi təsbit edilməmişdir. Fikrimizcə, insanın yaşamaq hüququnun daha dolğun təmin edilməsi baxımından Azərbaycan Respublikasının Konstitusiyasında bütövlükdə sosial təminatın minimum yaşayış səviyyəsinə uyğun müəyyən edilməsi məqsədəmüvafiq olardı.

Açar sözlər: insan, yaşamaq hüququ, sosial hüquq, beynəlxalq normalar, sosial təminat, azadlıq, nəzarət.

İstifadə olunmuş ədəbiyyat

1. Azərbaycan Respublikasının Konstitusiyası və konstitusiya aktları. B., Qanun, 2003.
2. Qasımov A.M. Əmək hüququ: Dərslik. B., Adiloğlu, 2007.
3. Baleev P.M. Kontrolğ v sovremennom mejdunarodnom prave. Kazanğ, 2001.
4. Kurs mejdunarodnoqo prava: B 7t. T.6. M., 1992.
5. Лobov M. Зahita soüialğnıx prav v ramkax Konvenüii o zahite prav çeloveka i osnovnıx svobod (praktika Evropeyskoqo suda po pravam çeloveka). Konstituüionnoe pravo: vostoçnoevropeyskoe obozrenie. M., 2003, №1.
6. Mejdunarodnoe pravo /Otv.red. B.И.Kuzneüov. M., 2001.
7. Mejdunarodnoe publiçnoe pravo: Cb.dok.: B 2 t. T.1. M., 1996.
8. Coüialğnaə zahita naseleniə v reqione: Yçebnoe posobie / Пod obh. red. B.Г. Пopova. Ekaterinburq, 1999.
9. Torkunov A.B. Bseobhaə Деklaraüiə prav çeloveka i kulğtura mira //MЖMП, 1999, №2.
10. Tuçkova Э.Г. Пravo soüialğnoqo obespeçeniə. Yçebno-metodiçeskoe posobie. Hormativnıe aktı o posobiəx i kompensaüionnıx vıplatax. M.: TEИC, 1995.
11. Чerniçenko C.B. Pazvitie mejdunarodnıx standartov i proüedur v oblasti prav çeloveka // Пrava çeloveka v istorii çeloveçestva i v sovremennom mire. M., 1989.

Cevindj CABZALIEVA

POLĞ MEJDUNARODNO-PRAVOVIX NORM V OBESPEÇENII PRAVA ÇELOVEKA NA JIZNĞ I SOÜIALĞNЫX PRAV

Pezöme

Ctatğə posvəhena roli mejdunarodno-pravovıx norm v obespeçenii prava çeloveka na jizng i soüialğnıx prav. B svəzi s provodimımi i postoənno usoverşenstvovannımi v nastoəhee vremə soüialğnımi reformami (pensiə, soüialğnaə straxovka, mediüinskoe obslujivanie, obrazovanie,

obespeçenie zanətosti) rastet rolğ mejdunarodno-pravovıx norm, svəzannıx s obespeçeniem soüialğnıx prav. По mneniö avtora statği mejdunarodnıe standartı, svəzannıe s obespeçeniem soüialğnıx prav, doljnı vıstupitğ bazoy dlə sozdaniə naüionalğnıx sistem.

Klöçevıe slova: çelovek, pravo na jizng, soüialğnoe pravo, mejdunarodnıe normı, soüialğnoe obespeçenie, svoboda, kontrolğ.

Sevinj SABZALIYEVA

ROLE OF INTERNATIONAL LEGAL NORMS IN PROVIDING HUMAN RIGHT FOR LIFE AND THE SOCIAL RIGHTS

Summary

The article is dedicated to the role of international legal norms in providing human right for life and the social rights. In connection with the social reforms carried out and constantly perfected at present (pension, social-insurance, medical service, education, maintenance of employment) a role of international legal norms connected with providing social rights grows. In opinion of the author the international standards of the social rights connected with providing social rights should act as a base for creation of national systems.

Keywords: a man, right for life, social right, international norms, social security, freedom, control.

UOT 342.41

İlqar CƏFƏROV
AMEA FSHİ-nin kiçik elmi işçisi

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNVERİCİLİK SİSTEMİNDƏ YERLİ ÖZÜNÜİDARƏETMƏNİN İQTİSADİ ƏSASLARININ HÜQUQİ TƏNZİMLƏNMƏSİ*

Azərbaycan Respublikasının qanunvericilik sistemi və ona daxil olan normativ hüquqi aktlar Azərbaycan Respublikası Konstitusiyasının 147-151-ci maddələri ilə müəyyən edilir.Müstəqil Azərbaycan Respublikasında yerli özünüidarəetməni qeyri-dövlət orqanı olan bələdiyyələr həyata keçirirlər.

"Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya aktı və Azərbaycan Respublikasının Prezidenti mərhum H.Əliyevin rəhbərliyi ilə ümumxalq səsverməsi qaydasında qəbul olunmuş Azərbaycan Respublikasının Konstitusiyası əsasında həyata keçirilən idarəetmə islahatlarının tərkib hissəsi olan yerli özünüidarəetmənin inkişafı aktual məsələlərdən sayılır.

Dövlət səviyyəsində idarəetmə islahatlarının aparılmasının məqsədi azad vətəndaş cəmiyyətinin tələblərinə uyğun olaraq dünyəvi dövlətin formalaşdırılması, Azərbaycan Respublikası vətəndaşlarının cəmiyyətin və dövlətin siyasi həyatında fəal iştirak etmək hüququnun təmin edilməsinə nail olmaqdır.

Yerli özünüidarəetmənin inkişafı sahəsində Azərbaycan Respublikasında dövlət siyasətinin əsas istiqamətlərindən biri də bələdiyyələrin iqtisadi fəaliyyətinin normativ hüquqi əsaslarını yaratmaq olmuşdur.

Qanunvericilik sisteminin təhlili göstərir ki, Azərbaycan Respublikasının Konstitusiyası, onun əsasında qəbul olunmuş qüvvədə olan qanunvericilik aktlarının fəaliyyəti nəticəsində cəmiyyətdə yaranmış ictimai-siyasi sabitlik idarəetmə sahəsində həyata keçirilən islahatların bir hissəsi olan yerli özünüidarəetmənin iqtisadi hüquqi əsaslarının formalaşmasını uğurla təmin etmişdir.

Yerli idarəetmə orqanlarının rolunun nəzəri cəhətdən təhlili ilə bağlı araşdırmalarda yerli özünüidarəetmə sisteminin ümumi inkişafı, iqtisadi baxımdan imkanlılığı dövlətin də iqtisadi cəhətdən güclü olmasına təsir edən vacib amillərdən hesab olunur.

Azərbaycan Respublikasının Konstitusiyasında bələdiyyələr (1, s. 58) yerli özünüidarəetmənin formalarından biri olaraq müəyyən edilir, onun iqtisadi, o cümlədən maliyyə müstəqilliyinə təminat verilir.

Azərbaycan Respublikasının Konstitusiyasının 144-cü maddəsində 1-ci hissənin 4-cü bəndində "yerli vergilərin və ödənişlərin müəyyən edilməsi"; 5-ci bəndində "yerli büdcənin və onun icrası haqqında hesabatların təsdiq edilməsi", 6-cı bəndində "bələdiyyə mülkiyyətinə sahiblik, ondan istifadə və onun barəsində sərəncam vermək"; həmin maddənin 2-ci hissəsində "bələdiyyələrə qanunvericilik və icra hakimiyyətləri tərəfindən verilən əlavə səlahiyyətlərin həyata keçirilməsi üçün müvafiq zəruri vəsaitlərin ayrılması" kimi təminatlı hüquqlar və iqtisadi imkanlar Ali Qanunvericilik aktında təsbitini tapmışdır.

Eyni zamanda Azərbaycan Respublikası Konstitusiyasında digər səlahiyyətlərlə paralel olaraq bələdiyyələrin maliyyə-iqtisadi fəaliyyətinin də dövlətin suverenliyinə xələl gətirmədən müstəqil reallaşdırması imkanlarına təminat verilir.

Azərbaycan dövləti Ali Qanunvericilik Aktında - Konstitusiyada demokratik, hüquqi, dünyəvi, unitar respublika olduğu üçün daxili məsələlərdə qəbul edilmiş bələdiyyələrin fəaliyyətinin tənzimlənməsinə aid normativ-hüquqi aktlar, digər qanunvericilik aktları kimi dövlətin tərəfdar çıxdığı beynəlxalq hüquq normalarının tələblərinə tam uyğundur.

Yerli özünüidarəetmənin fəaliyyətinin hüquqi tənzimlənməsi Konstitusiya normaları əsasında ayrı-ayrı xüsusi qanunların da qəbul edilməsini zəruri etmişdir.

Azərbaycan Respublikasında digər ölkələrin təcrübəsində olduğu kimi, yerli özünüidarəetmə sahəsində mövcud münasibətlərin nizamlanması üçün normativ – hüquqi aktların qəbul edilməsi yerli özünüidarəetmənin inkişafında mühüm mərhələ sayıla bilər.

Belə zəruri qanunlardan "Yerli özünüidarəetməni həyata keçirən bələdiyyələrin yaradılması prinsiplərini, rolunu, yerli özünüidarənin hüquqi iqtisadi və maliyyə əsaslarını, onun həyata keçirilməsi

---

* Məqalə hüquq üzrə f.d. Z.Məmmədov tərəfindən çapa məsləhət bilinib.

təminatlarını müəyyən edən" "Bələdiyyələrin statusu haqqında" (2 iyul 1999-cu il, N698-İQ) Azərbaycan Respublikasının Qanununu qeyd etmək olar (3, s. 80).

Həmin qanunda yerli özünüidarəetmənin iqtisadi əsaslarını bələdiyyə mülkiyyəti, yerli maliyyə, dövlət mülkiyyətində olan və bələdiyyələrin istifadəsinə verilmiş bələdiyyə əhalisinin tələbatının ödənilməsinə xidmət edən əmlak təşkil edir.

Həmin qanunun 32-ci maddəsinə baxsaq aydın olur ki, maliyyə sistemi yerli özünüidarənin iqtisadi əsaslarının tərkibinə daxil edilmişdir.

Rusiya Federasiyasının 12 dekabr 1993-cü ildə ümumxalq səsverməsi ilə qəbul olunmuş Konstitusiyasında 8-ci maddə 2-ci hissədə yerli özünüidarəetmə orqanları xüsusi və dövlət mülkiyyət formaları ilə bərabər səviyyədə müstəqil mülkiyyət forması kimi müəyyən edilmişdir. Həmin Konstitusiyaya görə yerli özünüidarəetmənin iqtisadi sahədə səlahiyyətləri ümumi formada sadalanır və təminat verilir. Müqayisə edəndə görürük ki, Azərbaycan Respublikası Konstitusiyasının 13-cü maddəsinin 2-ci hissəsində müəyyən edilir ki, "Mülkiyyət dövlət mülkiyyəti, xüsusi mülkiyyət və bələdiyyə mülkiyyəti növündə ola bilər".

Eyni hüquqi məkanda fəaliyyət göstərmiş hər 2 dövlətin yerli özünüidarəetmə orqanlarının iqtisadi əsaslarının hüquqi tənzimlənməsi normativ-hüquqi aktlarda təsbit edilmiş, o cümlədən konstitusiyalarında təsbit edilmiş hüquqi əsasların müqayisəsi göstərir ki, iqtisadi sahədə istər yerli özünüidarəetmə orqanlarının, istərsə də formaca bələdiyyələr adlanan orqanların qanunvericilikdə təsdiqini tapmış səlahiyyətlərin yaranma əsasını və təməlini uyğun olaraq həmin ölkələrin konstitusiyaları müəyyən edir.

Daha geniş hüquq təhlilindən, xüsusilə mövcud hüquq sistemləri baxımından yanaşsaq, müasir dünyada 180-dən çox mövcud olan müstəqil dövlətlərin hər birində özünəməxsus yerli özünüidarəetmə sisteminin mövcudluğunu görərik. Tarixə nəzər salsaq görərik ki, XIX əsrdən sonra yerli özünüidarəetmə sisteminin 3 əsas forması qəbul olunur.

Birincisi, ingilis-sakson hüquq sistemində yerli özünüidarəetmə orqanları onlara verilmiş səlahiyyətlər daxilində hakimiyyətlərini müstəqil həyata keçirirlər. Belə halda mərkəzi hakimiyyətin yerlərdə heç bir nümayəndəsi olmur.

İkincisi, fransız sistemi üzrə mərkəzi hakimiyyət orqanları xüsusi təyin edilmiş nümayəndələr vasitəsilə və yaxud digər formalarda yerli özünüidarəetmə qurumları üzərində nəzarəti həyata keçirirlər.

Üçüncüsü, alman yerli özünüidarəetmə sistemində yerli özünüidarəetmə orqanları dövlətin proqram və ya tapşırığı ilə fəaliyyət göstərir, yerli məsələlərin həllində seçicilərlə bir yerdə cavabdehlik daşıyırlar.

Bu fərqləndirmələrin zəruri tərəfi onunla bağlıdır ki, dövlətlərin daxil olduğu və tarixi baxımdan formalaşan hüquq sistemləri yerli özünüidarəetmənin normativ-hüquqi baza əsaslarının istiqamətlərini müəyyənləşdirən əsas amillərdən sayılır.

Azərbaycan Respublikası Konstitusiyası ilə normativ-hüquqi əsası yaradılmış bələdiyyələrin statusu ilə bağlı qəbul olunmuş qanunlar 1999-2005-ci illərdə normativ-hüquqi bazanı təşkil etməklə, onların fəaliyyətlərində əsas və dinamik rol oynamışdır.

Bələdiyyələrin səmərəli fəaliyyətində təcrübədə səlahiyyətlərin yarımçıq olması, onlara verilmiş iqtisadi əsaslara daxil olan maddi təminatın kifayət etməməsi, yeni qeyri-dövlət qurumunun əhali tərəfindən tam anlaşılmaması, fəaliyyət təcrübəsizliyi, müvafiq icra hakimiyyəti strukturlarının, təbii olaraq, müəyyən idarəetmə səlahiyyətlərinin bələdiyyələrə verilməsində maneələr yaratması daha uğurlu idarəetməyə imkan verməmişdir.

Bələdiyyələrin iqtisadi əsaslarına dair münasibətləri tənzimləyən normativ hüquqi aktlardan "Bələdiyyələrin statusu haqqında", "Bələdiyyə mülkiyyətinə əmlakın verilməsi haqqında", "Bələdiyyələrin əraziləri və torpaqları haqqında", "Bələdiyyələrin maliyyəsinin əsasları haqqında", "Yerli (bələdiyyə) vergilər və ödənişlər haqqında" Azərbaycan Respublikasının qanunlarını sadalamaq olar. Qüvvədə olan qanunvericilik aktları bəzi hallarda bələdiyyə qurumlarının maliyyə -iqtisadi fəaliyyətinin müstəqil həyata keçirilməsini tam nizama salmır.

Hesab edirik ki, maliyyə-iqtisadi sahədə bələdiyyələrin müstəqilliyinin hüquqi təminatı məsələlərinin uğurlu həllində xeyli işlər görülməlidir.Hüquq normaları dövlət tərəfindən yaradılır, məcburi icra qüvvəsi ilə təmin edilir ki, təcrübi olaraq həyata keçsin və məqsədə nail olunsun. Qanunverici orqan da qanunlarının qəbulunda bu amilləri nəzərə alır.

Azərbaycan Respublikasında bələdiyyələrin fəaliyyətini tənzimləyən normativ –hüquqi baza yaradılmışdır.

Müstəqil Azərbaycan dövləti üçün bu, uğurlu hüquqi nəticədir. Yeni normativ hüquqi aktların qəbulu ilə arzu olunan sosial səmərəliliyini təmin etmək üçün qanunverici və icraedici hakimiyyət orqanları

onların reallaşmasını da təmin etməlidirlər. Bələdiyyələrin fəaliyyəti ilə əlaqədar qəbul edilmiş qanunların səmərəli işləməməsinin səbəblərindən hüquq mədəniyyətinin aşağı olması, hüquqi düşüncə problemləri, hüquqi maarifçilik, iqtisadi çətinliklər və səlahiyyətlərin paralelliyi, kadrların təkmil olmaması, səlahiyyət bölgüsünün dəqiq olmaması və təcrübəsizlik hallarını göstərmək olar.

Azərbaycan Respublikasının 1985-ci il oktyabrın 15-də Strasburq şəhərində imzalanmış "Yerli özünüidarə haqqında" Avropa Xartiyasına qoşulmasından və həmin xartiyanın təsdiqindən sonra yerli özünüidarəetmənin maliyyə və iqtisadi fəaliyyətinin hüquqi əsaslarının formalaşması və təkmilləşməsi Konstitusiyada və qanunlarla onlara verilən səlahiyyətlərə münasibliyinin ölkədaxili qanunvericilikdə təsbiti öhdəlik olaraq dövlətin vəzifələri sisteminə daxil olmuşdur.

Xartiyada "Yerli özünüidarəetmə orqanlarının maliyyələşdirilmə mənbələri" maddəsində müəyyən edilir ki, yerli özünüidarəetmə orqanlarının milli iqtisadi siyasət çərçivəsində öz funksiyalarını həyata keçirəcəyi zaman sərbəst surətdə istifadə edə biləcəkləri qədər maliyyə vəsaitinə malik olmaq hüququ təsbit edilir ki, Azərbaycan Respublikasında qəbul olunmuş bələdiyyələrin maliyyə münasibətlərini tənzimləyən normativ-hüquqi aktlar həmin beynəlxalq aktlara uyğundur.

Yerli özünüidarəetmənin əsaslarının Azərbaycan Respublikası Qanunvericilik sistemində hüquq tənzimlənməsinin elmi-nəzəri təhlili göstərir ki, bu orqanlar dövlətlərin demokratik quruluşunun əsaslarından birini təşkil edirlər.

Mükəmməl normativ-hüquqi sistemdə yer almış bələdiyyə orqanlarının vəsaitinin əsaslandığı maliyyə-iqtisadi sistemlər kifayət qədər çevik olmalıdır ki, qanunvericiliklə onlara verilmiş səlahiyyətlər sahəsində öz iş planlarını icra etmək imkanları olsun.

Azərbaycan Respublikasında bələdiyyələrin maliyyə-iqtisadi əsaslarını müəyyən edən əsas xüsusi qanunlardan "Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikasının Qanunu (15 oktyabr 1999-cu il, № IQ), "Bələdiyyələrin maliyyəsinin əsasları haqqında" Azərbaycan Respublikası Qanunu (7 dekabr 1999, № 772 – IQ) bələdiyyə qurumlarının birinin digərinə tabeliliyini və asılılığını nəzərdə tutmur.

Bələdiyyə qurumları qüvvədə olan qanunlara əsaslanaraq qarşılıqlı maliyyə -iqtisadi münasibətlərini müstəqil olaraq qururlar. Qanunvericiliyin təhlili göstərir ki, bələdiyyənin yerli maliyyə təsisatları yerli özünüidarənin iqtisadi əsaslarından hesab olunur.

Yerli özünüidarəetmənin maliyyəsinin hüquqi tənzimlənməsi əsaslarına, maliyyəni əldə etmənin prinsiplərinin və maliyyə ehtiyatlarından istifadə istiqamətlərinin müəyyənləşdirilməsini, büdcənin formalaşdırılması əsaslarını, maliyyə hüquqlarının həyata keçirilməsinə hüquqi təminat hissələrini daxil etmək olar.

Yerli özünüidarəetmə dəqiq ölçülüb-biçilmiş maliyyə və iqtisadi imkanlara əsaslandıqda səmərəli fəaliyyət göstərə bilər.

Sərbəst maliyyə imkanları sahibi olan bələdiyyələr maddi-texniki baza yaradılmadığı hallarda real hakimiyyət sahibi olsalar da, qərarları formal olmaqla kağız üzərində qala bilər.

Yerli əhəmiyyətli məsələlərin həlli üçün maliyyə ehtiyatlarının yaradılması bölgüsü və istifadəsi münasibətlərinin məcmusu yerli maliyyəni əhatə edir.

"Bələdiyyələrin maliyyələrinin əsasları haqqında" Azərbaycan Respublikası Qanununun 3-cü maddəsində "Bələdiyyə maliyyəsinin iqtisadi əsasları və formalaşması prinsipləri müəyyən edilmişdir (3, s. 199).

Bələdiyyə maliyyəsinin iqtisadi əsaslarını bələdiyyə əmlakı, bələdiyyə torpaqları, yerli büdcə və büdcədənkənar fondlar, bələdiyyənin istehsal, xidmət və digər iqtisadi fəaliyyəti təşkil edir. (3, s.199).

Yerli büdcə bələdiyyələrinin statusuna uyğun olaraq yerli özünüidarəetmə prinsiplərini reallaşdırmaq, Azərbaycan Respublikasının Konstitusiyası və xüsusi qanunları ilə müəyyənləşdirilmiş bələdiyyə səlahiyyətlərini həyata keçirmək üçün formalaşan və istifadə olunan maliyyə vəsaitidir.

Yerli büdcənin vəsaitləri, bələdiyyənin büdcədənkənar fondları, qiymətli kağızlar yerli maliyyənin maddi məzmununu təşkil edir. Yerli maliyyə münasibətlərinin tənzimlənməsi qüvvədə olan qanunlar və dövlət qeydiyyatına alınmış nizamnamələrinə uyğun olaraq inzibati ərazidə yaşayan sakinlərin təşkil etdiyi Bələdiyyə orqanları tərəfindən həyata keçirilir.

Bələdiyyə orqanları səlahiyyətlərini müstəqil həyata keçirir, maliyyə vəsaitlərindən gəlir yaradır, əmlaklarından, iqtisadi potensialından səmərəli istifadə edir.

Bələdiyyələrin maliyyə münasibətləri iqtisadi əsaslara daxil olmaqla xüsusi qanunvericilik aktları ilə tənzimlənir. Elmi yanaşmalarda, ayrı-ayrı ədəbiyyatlarda bələdiyyənin maliyyəsinin geniş və dar mənada izahları verilmişdir.

Belə ki, hüquq ədəbiyyatında A.M.Babiç belə anlayış verir ki, "bələdiyyə orqanlarının onlara verilmiş funksiyalarının həyata keçirilməsini təmin edən topladığı pul vəsaitləri yerli özünüidarəetmənin maliyyə bazasını təşkil edir" (7, s. 172).

Digər müəlliflərdən O.E.Kutafin və V.İ.Fadayev belə hesab edirlər ki, "yerli özünüidarəetmə orqanlarının sərəncamına daxil olmuş və onlara verilmiş pul vəsaitlərinin məcmusu onun maliyyə vəsaitlərini təşkil edir".

Hesab edirik ki, müxtəlif elmi mütəxəssislər tərəfindən maliyyə vəsaitləri anlayışı barədə verilən izahlar müəyyən mənada müvafiq tələblərə cavab verir. Lakin bələdiyyələrin iqtisadi əsaslarının tərkibinə daxil olan "yerli maliyyə" anlayışının maddi məzmununa hərfi mənada pul vəsaitləri və digər qiymətli kağızların təşkil etməsi baxımından tərif verilməsinin tam uğurlu nəticə kimi qəbul edilməsi, fikrimizcə, məqbul sayılmamalıdır. Bələdiyyələrin maliyyə əsasları haqqında Azərbaycan Respublikasının qanununda, Azərbaycan Respublikası Mülki Məcəlləsində, Yerli vergilər və ödənişlər haqqında Azərbaycan Respublikası Qanununda maliyyə-iqtisadi əsaslar anlayışına verilmiş izahlar və təriflər bu anlayışın daha geniş əlamətləri olmasını müəyyən edir.

Bələdiyyələrin fəaliyyət təcrübəsi artdıqca Azərbaycan Respublikası Qanunvericilik sistemində yerli özünüidarəetmə sahəsində ayrı–ayrı qanunlarda əlavələr, dəyişikliklər edilmiş, ölkənin Konstitusiyasında referendum nəticəsində qüvvəyə minən əlavə və dəyişiklər əsasında bələdiyyələr üzərində dövlət nəzarəti hüququ əlavə edilmiş, o cümlədən bələdiyyələrin maddi texniki bazasının güclənməsinə təsir edəcək yeni qanunvericilik aktının - "Bələdiyyələrin reyestri haqqında" Qanunla təsdiq edilmiş Əsasnamənin qəbulu mövcud hüquq boşluqlarının aradan qaldırılmasına kömək edəcəkdir.

Yerli özünüidarəetmə münasibətlərinin əsasını təşkil edən iqtisadi əsasların dayanıqlığının artırılmasında bələdiyyələrin səlahiyyətlərinin dəqiqləşdirilməsi ilə bağlı müvafiq icra hakimiyyət orqanları ilə bu seçkili nümayəndəli orqan arasında səlahiyyətlərin bölgüsünün başa çatdırılmasına zərurət görürük. Həmin zərurətin həyata keçirilməsi hazırki dövrdə qanunvericilik sisteminə daxil olan yeni sahəvi qanunların qəbul edilməsi və onların tətbiqinin təmin edilməsinin səmərəliliyi ilə sıx bağlıdır. Hesab edirik ki, qanunvericilik bu sahədə dinamik və çevik hüquq mexanizmlərinin yaradılması və həyata keçirilməsi ilə bağlı kompleks hüquqi monitorinq aparmaqla hüquqyaratma və tətbiqetmə fəaliyyətinin çevikliyinə nail olmalıdır. Qanunvericiliyin tətbiqi təcrübəsinin öyrənilməsi və təkmilləşdirilməsi üçün ictimai institutların yaradılması da, fikrimizcə, önəmli olardı.

Açar sözlər: bələdiyyə, qanun, əmək, maliyyə, normativ hüquqi akt, konstitusiya, büdcə.

İstifadə olunmuş ədəbiyyat

1. Azərbaycan Respublikası Konstitusiyası. Bakı, Qanun, 2009.
2. Yerli özünüidarəetmə haqqında Avropa Xartiyası. Bakı, 2001.
3. Bələdiyyələr haqqında sənədlər toplusu. Azərb. dilində. Bakı, Qanun, 2007.
4. "Yerli özünüidarəetmə haqqında"Azərbaycan Respublikası Qanunu Azərbaycan Respublikası Milli Məclisinin nəşri, Bakı,1999.
5. "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikası Qanunu. Bakı, Qanun, 2006.
6. Babiç A.M., Pavlova Л.H. Гosudarstvennıe i muniüipalğnıe finansı. Yçebnik. M, ЮНИТЦ, 2000.
7. Kutafin O.E., Фadaeev B.И. Muniüipalğnoe pravo Possiiyskoy Фederaüii. M., 1997.
8. Шapsuqov Д.Ю. Mestnaə vlastğ v Poscii i Гermanii. Postov n/Д, 1994.
9. Baqlay M.B. Konstituüionnoe pravo Possiyskoy Фederaüii. Yçebnik. M., Horma, 2008.
10. Evdokimov B.Б., Ctarüev Я.Ю. Mestnıe orqanı vlasti zarubejnıx stran: pravovıe aspektı. M., Cpark, 2001.
11. Konstituüiə Possiyskoy Фederaüii. 3-e izd., pererab. M., Horma, 2009.
12. Azərbaycan Respublikasının Mülki Məcəlləsi. Azərb. dilində. Bakı, Qanun, 2009.

Ilqar ДЖАФАРОВ

PRAVOVOE UREQULIROVANIE GKONOMIÇESKIX OSNOV MESTNOQO SAMOUPRAVLENIƏ V SISTEME ZAKONODATELĞSTVA AZERBAYDJANSKOY RESPUBLIKI

Pezöme

B statğe avtor rassmatrivaet obhie çertı uporədoçeniə deətelğnosti muniüipalitetov, otrajennıx v zakonodatelğnıx aktax, deystvuöhix vnutri stranı. Kommentiruötsə naşedşie otrajenie v normativno-pravovıx aktax sootvetstvuöhix neqosudarstvennıx obrazovaniy posle vosstanovleniə qosudarstvennoy nezavisimosti Azerbaydjanskoy Pespubliki.

Avtor kasaetsə faktov deystviə konstituüii - vısşeqo zakonodatelğnoqo akta Azerbaydjanskoy Pespubliki kak osnovnoqo fundamenta dlə uspeşnoqo funküionirovaniə otdelğnıx speüialğnıx zakonov, sozdannıx na ee osnove. Opredeləötsə finansovo-gkonomiçeskie otnoşeniə muniüipalitetov i pravovıe probelı, nablödaemıe v praktike i pravoprimenenii, kotorıe neobxodimo ustranitğ.

Klöçevıe slova: muniüipalitet, zakon, imuhestvo, finansı, normativno-pravovoy akt, konstituüiə, bödjet.

Ilgar JAFAROV

LEGAL REGULATION OF THE ECONOMIC FOUNDATIONS OF LOCAL SELF-GOVERNMENT IN THE SYSTEM OF THE LEGISLATION OF AZERBAIJAN REPUBLIC

Summary

In the article an analysis is made of the general features of regulating the activities of the municipalities, reflected in the existing legislation within country.

The author commented the corresponding powers of the respective powers of the municipalities – nonstate actors in an era of historical development since the restoration of state independence of Azerbaijan, reflected in the normative acts.

The article contains the facts of functioning the Constitution of the highest legislative act of the Republic of Azerbaijan as the main foundation for the successful functioning of the special laws created on its basis and determines the financial-economic relations of municipalities and states on the legal gaps that need to be abolished in practice and in their enforcement.

Keywords: municipality, law, property, finances, normative-legal, act, constitution, budget.

UOT 340

Südabə ƏSGƏROVA
AMEA FSHİ -nun kiçik elmi işçisi

HÜQUQİ MAARİFLƏNDİRMƏ HÜQUQİ DÜŞÜNCƏNİN FORMALAŞDIRILMASININ ƏSASLARI KİMİ*

Yeni inkişaf mərhələsinə qədəm qoyan bəşəriyyət sosial, siyasi, iqtisadi, hüquqi və bir çox digər sosial institutların inkişaf xüsusiyyətlərinə görə əvvəlki mərhələlərdən fərqlənir. İnformasiya mübadiləsinin indiyə qədər görünməyən sürəti və həcmi müasir inkişaf mərhələsinin əsas göstəricisinə çevrilib. Dünya birliyinə inteqrasiya, qarşısı alınmaz qloballaşma prosesi və informasiya texnologiyalarının istifadəsi, informasiya məkanının hüdudlarını və cəmiyyətin hüquqi tənzimlənməsi imkanlarını genişləndirib. Qeyd olunan dəyişikliklər şəxsiyyətin hüquqi düşüncəsinin formalaşmasına əsaslı təsir göstərir. Ümumiyyətlə, cəmiyyətdə baş verən dəyişikliklər şəxsiyyət – cəmiyyət münasibətlərinin yeni mahiyyət kəsb etməsinə səbəb olur. İnsan fərqli sosial mədəni mühitə uyğunlaşaraq Homo juridicus (hüquqi insan) statusu qazanır. Şəxsiyyətin hüquqi düşüncəsi sosial təzahür kimi əxalq, etika, din, Milli adətlər əsasında formalaşır. Eyni zamanda sosial reallığın yenidən dərk edilməsi bacarıqları şəxsiyyətin hüquqi düşüncəsinin təkamülünə gətirir. Belə ki, şəxsiyyət tədrici inkişaf prosesində mövcud hüquqi məhdudiyyətləri hiss etmək, bu sahədə islahatların keçirilməsinə yönəlir. Keçirilən islahatlar, insanın hüquq və azadlıqları ilə bağlı qəbul edilmiş qanunların təkmilləşdirilməsi ilə yanaşı, bu qanun və azadlıqların geniş təbliği, cəmiyyətdə hüquqi maarifləndirmə tədbirlərinin genişləndirilməsi tələbatı yaranır.

Hüquqi maarifləndirmə prosesi hüquqi tərbiyənin əsas metodlarından biri kimi çıxış edir. Hüquqi biliklərin genişləndirilməsi və təbliği ümumi hüquqi mədəniyyətin yüksəlməsinə şərait yaradır. Hüquqi maarifləndirmənin əsas məqsədi hüquqa hörmət hissinin formalaşdırılması, əhalinin hüquqi biliklərə yiyələnməsi, sosial və hüquqi məsuliyyəti dərk etməsi ilə bağlıdır. Hüquqi maarifləndirmə şəxsiyyətin fərdi hüquqi düşüncə tərzinin formalaşmasına, cəmiyyətin və dövlətin tələblərinə, maraqlarına uyğun olan ümumi hüquqi prinsiplərin şəxsiyyət tərəfindən dərk edilməsinə şərait yaradır (2, s. 148 - 149).

Y.A.Frolovun qeyd etdiyi kimi, hüquqi düşüncə hüquqi münasibətlərin subyekti olan şəxsiyyətin ali analitik bacarığı kimi müxtəlif sosial hüquqi ziddiyyətlərin mənəvi-təcrübi həlli gedişində funksiyalaşır və inkişaf edir (5, s. 57). Hüquqi lüğətdə hüquqi düşüncə aşağıdakı kimi izah edilir: «Hüquq düşüncəsi – adamların, sosial qrupların, siniflərin hüquqa, qanunçuluğa, ədalət mühakiməsinə münasibətini, onların nəyin hüquqi və nəyin hüquqazidd olması haqqında təsəvvürlərini ifadə edən görüşlərin, ideyaların məcmusudur. İctimai şüur forması kimi hüquqi düşüncə hüquqi ideologiya, müəyyən sosial və elmi mövqelərə əsaslanan hüquqi görüşlər sistemidir. Adamların hüquqi hadisələrə münasibətdə vərdişləri, hissləri, emosiyaları hüquqi düşüncənin psixoloji cəhətidir. Hüquqi düşüncə ictimai şüurun ümumi inkişaf qanunauyğunluqlarına tabedir. Hüquqi düşüncə cəmiyyətin, siniflərin və fərdlərin ictimai istehsal sistemində və sosial-siyasi quruluşda vəziyyətinin spesifik ifadəsidir. İctimai şüurun digər formaları, ilk növbədə siyasi şüur və əxlaq, habelə ictimai psixologiya və s. də hüquqi düşüncəyə mühüm təsir göstərir. Hüquqi düşüncə ilə hüquq arasında qarşılıqlı mürəkkəb əlaqə var. Bir tərəfdən hüquqi düşüncə hüquqdan əvvəl yaranır, çünki hüquq hakim siniflərin mövqeyini əks etdirir. Nəhayət, hüququn qüvvədə olması, onun tətbiqi və ona əməl olunması hüquqi düşüncənin səviyyəsindən asılıdır» (8, s. 72).

A.F.Nikitinin maraqlı mülahizələrini qeyd etmək olar. O deyir ki, «qanunlara və qaydalara pozitiv münasibət, vətəndaşların öz hüquqlarını və cəmiyyət qarşısında vəzifələrini dərk etməsi hüquqi mədəniyyətin formalaşmasına gətirir. Hüquqi mədəniyyətin formalaşdırılması məqsədilə həm kommersiya, həm də dövlət səviyyəsində geniş hüquqi maarifləndirmə aparılmalı, yəni xüsusi hüquqi kurslar, seminarlar keçirilməlidir. Hüquqi maarifləndirmənin əsas məqsədi vətəndaşları digər dövlətlərdə olan hüquqi təcrübə və ənənələrlə tanış etmək olmalıdır». Hüquqi maarifləndirmə prosesində təbliğ olunan ideyaların çox zaman sosial münasibətlərdə və təcrübi fəaliyyətdə çox zəif şəkildə əks olunması hüquqi mədəniyyətin formalaşmasına mənfi təsir edir (1, s.6).

A.F.Nikitin öz tədqiqatlarında bir sıra müddəalarla çıxış edərək qeyd edir ki, şəxsiyyətin hüquqi mədəniyyətinin formalaşması üçün bir neçə şərt tələb olunur:

---

* Məqalə fəl.e.d. R.Əzimova tərəfindən çapa məsləhət bilinib.

1. Dövlətin hüquqi sisteminin əsasları və prinsiplərinin təmin edilməsi. Bu prinsiplər hüquqi sistemin əsas ideyaları sahə (məsələn, təknigahlılıq, nigaha daxil olmada könüllülük, ailə hüququ prinsiplərinə aiddir), sahələrarası (məhkəmə tədqiqatında aşkarlıq, hakimlərin müstəqilliyi və onların yalnız qanuna tabeliyi prosessual və cinayət hüququna aiddir), əsas Konstitusiya qanunları ilə bağlıdır. Hüquqi sistemin əsas qanunları haqqında biliklər hüququn sosial mahiyyətini, əqli fəaliyyətlə bağlılığını və zəruriliyini daha dərindən dərk etməyə imkan verir.

2. Hüquqi davranışın səviyyəsinin, yüksəlməsinə, və onun miqyasının genişlənməsinə şərait yaranır. İnsanların hüquqi davranışının yüksək səviyyədə olması sosial münasibətlərin təşkili, bu onların sosial intizama tabeçiliyini təmin etməyə kömək edir. İnsanların hüquqi davranışı onların hüquqi təmayüllərin (ustanovkalarınının) ədalətli və səmərəli olması ilə bağlı hüquqi düşüncə tərzinin təzahürüdür, yəni hüquqi davranış vətəndaşların sosial yetkinliyinin və hüquqi savadlılığının əsasları kimi çıxış edir. Sosial əhəmiyyətli təzahür olan yüksək hüquqi mədəniyyət, vətəndaş cəmiyyətinin normal funksiyalaşmasının əsaslarını təşkil edir.

3. Vətəndaş cəmiyyəti hüquq və vəzifələrin daşıyıcısı olan şəxsiyyətin öz hüquq və azadlıqları ilə bağlı mübarizəsinə imkan verməli, hüquqi passivliyi aradan qaldırmalıdır. Hüquqi mədəniyyət qanunpərəstlik və ədalət hisslərinin, ədalət uğrunda mübarizə tələbatının yaranması ilə bağlıdır. Lakin ədalətsizliyə qarşı mübarizə digər bir ədalətsizliyin yaranmasına səbəb olmamalıdır, məsələn, ictimai yerdə təhqir olunmuş insan hüquqazidd davranışla bu ədalətsizliyin qarşısını almamalı, hüquq müdafiə orqanlarına müraciət etməlidir. Məhz belə bir seçim hüquqi mədəniyyətin səviyyəsi haqqında məlumat verir.

4. Cəmiyyət hüquq pozuculuğunun qarşısını almaq üçün profilaktik tədbirlər görməlidir və qanunla bağlı savadsızlıq məsuliyyətdən qaçmağın səbəbi ola bilməz. Hüquqi dövlət hüquqi nihilizmə qarşı mübarizə aparmalıdır. Hüquqi nihilizm vətəndaşların hüquqi savadsızlığı, qanunları şüurlu, yaxud düşünülməmiş şəkildə pozması ilə bağlı olur. Hüquqi nihilizmin səbəblərini öyrənmək üçün mövcud cəmiyyətin qanunlarının keyfiyyəti, xalq, və qanunvericilər arasında etibarın səviyyəsi təhlil edilməlidir. Hüquqi davranışı fəallaşdırmaq üçün cəmiyyətin hər bir üzvü hüquq pozuculuğuna qarşı mübarizə aparmalıdır. Bu məqsədlə, vətəndaşlar dövlətin hüquq-mühafizə istiqamətli fəaliyyətinə kömək etməlidirlər (1, s. 112).

Fsəməndərov isə hüquqi maariflənmənin əsaslarını izah edərkən qeyd edir ki, «geniş miqyasda əhalini hüquqi cəhətdən maarifləndirmədən, onlarda yetkin hüquqi düşüncə, yüksək hüquqi mədəniyyəti formalaşdırmadan, cəmiyyət üzvlərini özlərinin qanuni hüquq və mənafelərinin, qanunçuluğun gözlənilməsinin fəal müdafiəçisinə çevirmək, ümumiyyətlə hüquqi dövlət qurmaq reallıqdan uzaq olardı» (3, s.98).

Hüquqi təfəkkürün mahiyyətindən çıxış edərək deyə bilərik ki, təfəkkür tərzi mürəkkəb bir fenomendir və hüquqi maarifləndirmə prosesində bir sıra məqamlar – şəxsiyyətin fərdi düşüncəsi, onun formalaşmış maraqları, məqsədləri və fəaliyyətində passiv və aktiv olması, və s. nəzərə alınmalıdır.

Hüquqi mədəniyyətin formalaşması bilavasitə hüquqi tərbiyə ilə bağlıdır. Siyasi-hüquqi ideyaların, normaların, prinsiplərin formalaşması dünyəvi tərbiyənin mahiyyətilə bağlıdır. Hüquqi tərbiyə vətəndaşların hüquqi münasibətləri mənimsəməsinin, hüquqi mədəniyyətini formalaşmasını əsası kimi çıxış edir. Hüquqi tərbiyələndirmədə dövlət müəssisələri, vəzifəli şəxslər, tədris müəssisələri və bütövlükdə cəmiyyət əsaslı rol oynayır. Hüquqi tərbiyə insanların dövlət və hüquq, qanunvericilik, şəxsiyyətin hüquq və azadlıqları haqqında biliklərinin genişləndirilməsinə, onların hüquqi təlimlər və doktrinaları dərk etməsinə, vətəndaşlarda qanuna tabeçilik hissinin formalaşdırılmasına yönəlir. Hüquqi dəyərlər öz əsaslarını əxlaqi dəyərlərdən götürdüyü üçün şəxsiyyət onları öz şəxsi həyat təcrübəsində mənimsəyir. Hüquqi tərbiyənin əsas məqsədi hüquqi dəyərləri hər bir insana çatdırmaq məqsədilə müəyyən metodların tətbiq edilməsilə bağlıdır (6, s. 268).

Bu ideyanı Rusiya mütəfəkkirləri N.İ. Matuzova və A.V.Malko dəqiqləşdirərək daha geniş şəkildə mədəniyyət və mədəni səviyyənin hüquqi təfəkkürün formalaşmasında aparıcı rolunu qeyd edirlər: «hüquqi maarifləndirmənin əsasında hüquqi mədəniyyətin formalaşması durur. Hüquqi dövlətin qurulmasının əsası olan hüquqi mədəniyyətin formalaşması şəxsiyyətin vətəndaşı olduğu dövlətin qanun, və qaydalarına hörmətlə yanaşması, hüquqi nizam-intizamın müdafiəsində fəal iştirakı ilə bağlıdır» (4, s.62 - 68).

Məqalədə qaldırılan məsələ ilə bağlı A.V.Yakuşev öz monoqrafiyasında maarifləndirmə məsələsilə bağlı bir sıra başqa aspektləri də nəzərdən keçirir, o qeyd edir ki: «referendumlar, seçkilər, və s. tədbirlərlə bağlı keçirilən hüquqi iş, bədii ədəbiyyat və kütləvi informasiya vasitələri ilə hüququn təbliği, kütləvi hüquqi təhsilləndirmə və hüquqi tərbiyələndirmə vasitələri kimi çıxış edir. Hüquqi tərbiyələndirmənin digər vasitələrindən biri də, hüquq mühafizə orqanlarının maraqlarına uyğun şəkildə şəxsiyyətin hüquqi düşüncəsinin və hüquqi davranışının formalaşdırılması ilə bağlıdır. Bu zaman siyasi – hüquqi ideya və

prinsiplər düşünülmüş formada təbliğ edilir. Hüquqi tərbiyələndirmə prosesində şəxsiyyət emosional, pedoqoji təsirə məruz qalır. Hüquqi düşüncənin və mədəniyyətin formalaşdırılması prosesində inandırma, xəbərdarlıq, təbliğat və məcburiyyət kimi vasitələr istifadə edilir» (7, s. 61-69). Hüquqi tərbiyədə kütləvi informasiya vasitələrinin təsirli rolu danılmazdır. Kütləvi informasiya vasitələrilə hüquqi tərbiyələndirmə dedikdə, əsasən hüquqi mövzuda, siyasi-hüquqi münasibətlərlə bağlı müzakirələr, yeni qanunların mütəxəssislər tərəfindən təhlil edilməsi və s. istiqamətli müxtəlif televiziya və radio verilişləri, dövlət və digər siyasi yönümlü qəzetlərdə hüquqi proseslərlə bağlı analitik məqalələr, İnternet şəbəkə vasitəsilə yayılan hüquqla bağlı elmi və publisist nəşrlər və s. nəzərdə tutulur.

Ekspertlərlə aparılan sorğu nəticəsində belə qənaətə gəlmək olar ki, hüquqi tərbiyələndirmənin genişləndirilməsi üçün «əhalinin hüquqi savadının artırılması» vacib şərtdir və bu məqsədlə «hüquq müəssisələrində ödənişsiz hüquq kursları və ödənişsiz hüquq məsləhətxanaları təşkil edilməlidir», «hüquq təhsili verən fakultələrdə hüququn sosial mahiyyətilə bağlı proqramlar hazırlanmalı», «hüquq, hüquqi düşüncə, hüquq psixologiyası ilə bağlı yeni fənlər tədris edilməli», «hüququn əsasları fənni orta məktəblərdə tədris olunmalıdır» və s. Əlavə etmək olar ki, hüquqi tərbiyələndirmə, yaxud hüquqi sosiallaşma prosesində qəzet, jurnal təhlillərilə yanaşı və bəlkə də daha təsirli vasitə hüquqi və ya cinayətkar davranış və hadisələrlə bağlı bədii əsərlər, teatrlaşmış səhnələrin televiziya kommunikasiya vasiələrilə təbliği, bu mövzuda filmlərin çəkilməsi daha təsirli rola malik ola bilər. Lakin bu sahədə aparılan tədqiqatlar və gündəlik müşahidələrimiz əsasında belə qənaətə gəlmək olar ki, çox zaman televiziya, bəddi və publisist nəşrlərdə cinayətkar davranış təbliğ olunur. Bu isə, gənclər arasında bu tip davranışın təqlidinin genişlənməsinə səbəb olur.

Hüquqi davranışın mahiyyəti hüquqi mədəniyyətlə sıx bağlıdır. Hüquqi mədəniyyətin formalaşması mürəkkəb bir proses kimi cəmiyyətin bütün tərəflərilə bağlıdır. Belə ki, hüquqi mədəniyyətin formalaşmasında KİV ilə yanaşı, ekspertlərin də qeyd etdiyi kimi, dövlət tərəfindən hüquqi yeniliklərin əhaliyə olduğu kimi çatdırılması, hüquqi biliklərin tədrisinin genişləndirilməsi və möhkəmləndirilməsi, qanunyaradıcı orqanların fəaliyyətinin təkmilləşdirilməsi və s. əsaslı rola malik ola bilər.

Mövzu ilə bağlı aparılmış empirik tədqiqatın nəticələri göstərir ki, müasir dövrdə Azərbaycan cəmiyyətində hüquqi maarifləndirmə işinin genişləndirilməsi tələbatı ən aktual problemlərdən biri kimi nəzərə çarpır. Aparılan ekspert və kütləvi sorğunun nəticələri də belə bir fikrə gəlməyə əsas verir. Beləliklə, aparılan nəzəri və empirik tədqiqatın ümumiləşdirilməsi əsasında aşağıdakı nəticələ gəlmək olar:

1. Cəmiyyətdə hüquqi maarifləndirmə fəaliyyətinin genişləndirilməsi şəxsiyyətin hüquqi düşüncəsinin formalaşmasında əsaslı təsirə malik ola bilər və hüquqi maarifləndirmə prosesində yerli adət – ənənələr və dövlətçilik təcrübəsi, Milli mentalitet nəzərə alınaraq və uyğun şəkildə Qərb dövlətlərinin təcrübəsi öyrənilməli və təbliğ edilməlidir.

2. Qanunlara riayət olunmasına nəzarət edən orqanlar stimullaşdırıcı tədbirlər görməlidir.

3. Təhsil müəssisələrində uyğun formada uşaq və yeniyetmələr arasında hüquqi maarifləndirmə ilə bağlı xüsusi dərslər keçirilməlidir.

4. Vətəndaşların hüquqi maarifləndirilməsi məqsədilə onların işlədikləri müəssisələrdə pulsuz hüquq kursları təşkil olunmalıdır. O cümlədən, pulsuz hüquq məsləhətxanaları, hüquq kurslarının keçirilməsi hüquqi maarifləndirmə istiqamətində əhəmiyyətli addım ola bilər.

5. Cəzaçəkmə müəssisələrində pozitiv hüquqi düşüncə tərzinin formalaşdırılması istiqamətində geniş təbliğat işi aparılmalıdır.

6. Həbsdən azad olmuş şəxslərin resosiallaşması məqsədilə onlara müəyyən müddətə psixoloji yardım göstərilməlidir. Onların həbsdən azad olduqdan sonra işlə, yaşayış yeri ilə təmin olunması gələcəkdə yenidən cinayət törətmələrinin qarşısının alınması üçün vacib şərtdir.

7. Həbsdən azad olmuş şəxslərə peşə öyrənməyə, yaxud öz peşəsini təkmilləşdirməyə imkan yaratmaq, onların asudə vaxtlarının səmərəli təşkil edilməsinə şərait yaratmaq lazımdır.

Açar sözlər: hüquqi düşüncə, hüquqi maarifləndirmə, hüquqi mədəniyyət.

İstifadə olunmuş ədəbiyyat

1. Hikitin A.Ф. Что takoe pravovaə kulğtura? M.: Прosvehenie, 1988.

2. Obhaə teoriə qosudarstva i prava. Уçebnik dlə öridiçeskix vuzov / Дmitriev Ю.A, Kazğmin И.Ф. i dr. Под obh. red. Пiqolkina A.C., M.: HOPMA,1997.

3. Camandarov Ф.Ю. Пravovoe soznanie i uqolovno-pravovoe tvorçestvo, «Ganun», Baku, 1996.

4. Teoriə qosudarstva i prava. Kurs leküiy. / Под red Н.И. Matuzova i A.B.Malğko. M.: Юrist, 1997.
5. Фrolov Ю.A. Coüialğno-pravovoe mışlenie sotrudnikov orqanov vnutrennix del. Дiss. kand. örid. nauk. M., 2000.
6. Xropanök B.H. Teoriə qosudarstva i prava. Xrestomatiə. Yçeb. posobie, M., «Юrist», 1998.
7. Якuşev A.B. Teoriə qosudarstva i prava, M.: Изd.-vo АПРИОР, 2000.
8. Hüquq ensiklopedik lüğəti, Azərbaycan Ensiklopediyasının baş redaksiyası, Bakı,1991.

Cudaba ACKEPOBA

PRAVOVOE PROSVEHENIE KAK OSNOVA FORMIROVANIƏ PRAVOVOQO SOZNANIƏ

Pezöme

Ctatğə posvəhena problemam pravovoqo prosveheniə. Пravovoe prosvehenie vıstupaet kak odin iz osnovnıx metodov pravovoqo vospitaniə. Pasşirenie öridiçeskix navıkov i ix propaqanda sozdaöt usloviə dlə razvitiə pravovoy kulğturı. Гlavnaə üelğ pravovoqo prosveheniə - formirovanie çuvstva uvajeniə k pravam, ovladenie naseleniem pravovıx navıkov, ix osoznanie, a takje soüialğnaə i pravovaə otvetstvennostğ.

Klöçevıe slova: pravovoe mışlenie, pravovoe prosvehenie, pravovaə kulğtura.

Sudaba ASKEROVA

LEGAL EDUCATION AS A BASE OF FORMING LEGAL CONSCIOUSNESS

Summary

Article is dedicated to the problems of legal education. Legal education acts as one of the basic methods of legal education. Expansion of legal skills and their propagation create conditions for development of legal culture.

The overall objective of legal education is formation of sense of respect to the rights, mastering by population of legal skills, as well their comprehension of social and legal responsibility.

Keywords: juridical thinking, juridical education, juridical culture.

UOT 343

Mətləb AĞAYEV
AMEA FSHİ -nin doktorantı

İBTİDAİ İSTİNTAQ MƏRHƏLƏSİNDƏ ZƏRƏRÇƏKMİŞ ŞƏXSİN HÜQUQ VƏ QANUNİ MƏNAFELƏRİNİN MÜDAFİƏSİ HAQQINDA*

Cinayət işinin başlanmasından sonra ibtidai istintaq mərhələsi gəlir. İbtidai istintaq mərhələsindən başlayaraq cinayət prosesinin iştirakçısı kimi zərər çəkmiş şəxs daha qabarıq özünü göstərir.

Qeyd edək ki, şəxsin zərər çəkmiş kimi tanınması haqqında vaxtında qəbul edilməyən qərarlar daha çox AR CPM-in 87-ci maddəsində şəxsin belə bir statusa malik olması anının dəqiq tənzim edilməməsi ilə bağlıdır. Ədalət naminə demək lazımdır ki, bu çatışmazlıq AR CPM-in 87-ci maddəsinə Azərbaycan SSR-in 1961-ci il martın 1-dən qüvvəyə minmiş CPM-in 49-cu maddəsindən gətirilmişdir ki, burada da şəxsin zərər çəkmiş kimi tanınması anı təsbit edilməmişdir. Azərbaycan Respublikasının hal-hazırda qüvvədə olan CPM-in 87.1-ci maddəsinin mənasından görünür ki, şəxsin zərər çəkmiş kimi tanınması üçün müstəntiq kifayət qədər ona fiziki, mənəvi, əmlaka ziyan vurulmasını təsdiq edən sübutlar məcmusu əldə etməlidir.

Sübutların kifayət qədər olması haqqında qərarı müstəntiq özünün daxili inamı əsasında verir, yəni bu sübutların kifayət etməsi qənaəti şərti və fərdi xarakter daşıyır. Bu, əslində şəxsin zərər çəkmiş kimi tanımasının gecikdirilməsinə gətirib çıxarır. Burada digər bir səbəb müstəntiqin öz işinə layiqincə yanaşmaması, məsələn, onun şəxsi zərər çəkmiş kimi tanınmağının qəsdən yubadılmasıdır və s.

AR CPM-in 87.2-ci maddəsinə uyğun olaraq nəticəsi şəxsin ölümü ilə əlaqədar olan cinayət işləri üzrə zərər çəkənin hüquqları onun yaxın qohumlarının birinə keçir. Burada da qeyd etmək istərdik ki, şəxsin zərər çəkmiş şəxs kimi tanınmasına razılıq verməsi belə qərar üçün vacib hesab edilməlidir. Lakin digər hallarda bizim fikrimizcə, həqiqətən də şəxsin arzusu onun zərər çəkmiş kimi tanınması haqqında qərara təsir etməməlidir. Axı şəxsə zərər çəkmiş kimi prosessual hüququn verilməsi onun üzərinə bu hüququ realizə etmək öhdəliyi qoymur. Belə ki, zərər çəkən özü seçməlidir: bu hüquqdan imtina etmək, yoxsa onu realizə etmək. Bunu məhz həm də ona görə məqbul saymaq olar ki, variantlardan birinin seçilməsinə əsaslanan davranış zamanı ədalət mühakiməsinin maraqları zərər çəkmir. Ədalət mühakiməsinin məqsədi zərər çəkmişin istənilən vəziyyətində, onun aktiv və ya passiv olmasından asılı olmayaraq əldə edilməlidir.

Cinayət nəticəsində həlak olmuş zərər çəkmişin yaxın qohumları olmadıqda bu halda kimin belə statusda tanınması problemi ortaya çıxır. Belə çıxır ki, zərər çəkmişin qohumlarından istənilən birini belə şəxs qismində tanımaq olar və mümkündür. Lakin hələ sovet dönəmində, yəni 1985-ci il 1 noyabr tarixli SSRİ Ali Məhkəməsi Plenumunun "Məhkəmələr tərəfindən zərər çəkmişin mühakimə icraatında iştirakını tənzim edən qanunvericiliyin tətbiqi praktikası haqqında" qərarın 4-cü maddəsində deyilirdi ki, yaxın qohumlar hesab edilənlərin siyahısı qətidir. AR CPM-in 7.0.32-ci maddəsinə əsasən, yaxın qohumlar aşağıdakılardır: ər, arvad, valideynlər, uşaqlar, övladlığa götürülənlər, övladlığa götürənlər, doğma və ögey bacılar və qardaşlar, baba, nənə, nəvələr. Bu siyahıda göstərilməyən qohumlar, eləcədə digər şəxslər, məsələn, qonşular, ölənin tanışları zərər çəkmiş kimi tanına bilməzlər. SSRİ Ali Məhkəməsinin yuxarıda göstərilən Plenumunun qərarının 7-ci bəndində qeyd edilirdi ki, kiminsə əsassız olaraq zərər çəkmiş kimi tanınması halında məhkəmə, belə şəxsin cinayətdən zərər çəkmiş kimi uzaqlaşdırılması haqqında həmin şəxsin barəsində, əvvəlcədən xəbərdar etmək şərtilə, qərardad çıxarır.

Zərər çəkmişin ölümü ilə nəticələnmiş cinayətlərdə dövlətin və cəmiyyətin mənafeyinə, yəni dövlət mühafizəsi mənafeyinə ziyan vurulduğundan dövlət zərər çəkmişin nümayəndəsi olmaq hüququna malikdir və öz üzərinə belə bir öhdəlik götürməlidir. AR CPM-in 37-ci maddəsində göstərilir ki, xüsusi ittiham qaydasında cinayət təqibi yalnız zərər çəkmiş şəxsin şikayəti əsasında Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 147, 148, 165.1 və 166.1 maddələrində göstərilən cinayətlər üzrə həyata keçirilir və məhkəmə müşavirə otağına gedənədək zərər çəkmiş şəxs təqsirləndirilən şəxslə barışdıqda ona xitam verilir. Ona görə də yerli özünüidarəetmə orqanının nümayəndəsinin zərər çəkmişin nümayəndəsi kimi prosesdə iştirakı qanunvericilik qaydasında tənzim olunmalıdır.

---

* Məqalə hüquq üzrə f.d. F.Xəlilov tərəfindən çapa məsləhət bilinib.

Yuxarıda deyilənlərə və kök salmış paktikaya uyğun olaraq, biz AR CPM-in 87.6.21-ci maddəsinə aşağıdakıların əlavə edilməsini təklif edirik: "Yaxın qohumlarının olmadığı halda zərər çəkənin maraqlarını yerli sosial müdafiə orqanının nümayəndəsinin şəxsində dövlət təmsil edir". Belə ki, Azərbaycan Respublikası CPM-in 87.6-cı maddəsinə görə zərər şəkmiş şəxsin aşağıdakı hüquqları vardır: təqsirləndirilən şəxsə yönələn ittihamın mahiyyətini bilmək; ifadə vermək; izahat vermək; etirazlar etmək; məhkəmə istintaqı başlananadək hər an onun xüsusi ittihamçı qismində tanınmasını tələb etmək; cinayət işinin materialları ilə tanış olmaq və ona aid zəuri sənədlərin surətlərini çıxartmaq; nümayəndəsi olmadıqda birinci və apellyasiya instansiyası məhkəmələrində nitq və replika söyləmək; mənafeyi əlehinə prosesi aparan orqanların çıxardığı qərarlar haqqında məlumatlandırılmaq; sübutlar təqdim etmək; vəsatətlər vermək; nümayəndəyə malik olmaq; cinayət işinə əlavə olunması və məhkəmə iclasında tədqiq edilməsi üçün materiallar təqdim etmək; özünün və ya nümayəndəsinin vəsatəti ilə qaldırılmış istintaq hərəkətlərində müstəntiqin və ya istintaq orqanının icazəsi ilə iştirak etmək; onun iştirakı ilə tərtib olunan istintaq hərəkətləri protokolları ilə tanış olmaq və buna öz qeydlərini etmək; ibtidai istintaqın yekunu üzrə cinayət işinin bütün materialları ilə tanış olmaq, cinayət işi üzrə istənilən məlumatların istənilən həcmdə surətlərini, o cümlədən, texniki vasitələrin köməyi ilə çıxarmaq; cinayət qanunu ilə nəzərdə tutulmuş əməl nəticəsində şəxsə vurulmuş ziyana görə qanunla müəyyən edilmiş kompensasiyanı dövlət hesabına almaq; cinayət işi üzrə icraat zamanı sərf edilmiş xərclərin və orqanlar tərəfindən atılmış qanunsuz hərəkətlər nəticəsində dəymiş ziyanın kompensasiyasını tələb etmək, ondan götürülmüş rəsmi sənədləri və maddi sübutları geri almaq; özü və nümayəndəsi tərəfindən verilmiş hər hansı bir şikayətdən imtina etmək.

Bununla belə hesab edirik ki, zərər çəkmiş çəxsin hüquqlarının sırasına aşağıdakıların da əlavə edlməsi məqsədəuyğundur: 1) özünə, öz həyat yoldaşına və dairəsi cinayət-prosessual qanunvericiliyi ilə müəyyən edilmiş digər yaxın qohumlarının əleyhinə ifadə verməkdən boyun qaçırma; 2) özünə, yaxın qohumlarına, qohumlarına və yaxın adamlarına təhlükəsizliyinə qarşı təhlükə olduğu, zor tətbiqi, onların əmlaklarının zədələnməsi haqqında təhlükələr haqqında təhqiqatçı, müstəntiq, prokurorluq orqanları qarşısında vəsatət qaldırmaq.

Lakin AR CPM üzrə zərər çəkmiş şəxsin hüquqi vəziyyəti hərtərəfli surətdə onun cinayət prosesində olan digər bir iştirakçı-təqsirləndirilən şəxsin vəziyyəti ilə qarşılaşdırıldıqda daha bariz üzə çıxır.

İbtidai araşdırma mərhələsində zərər çəkmiş şəxsin yuxarıda sadalanan hüquqlarından göründüyü kimi, onların əksəriyyəti 1961-ci il martın 1-də qəbul edilmiş Azərbaycan SSR CPM-in 50-ci maddəsindən mənimsənilmişdir. Bunlarla yanaşı olaraq AR CPM zərər çəkmiş şəxsin hüquqlarını genişləndirmişdir. Bu baxımdan ardıcıl olaraq aşağıdakılara diqqət verək. Birincisi, AR CPM-in 87.6.1-ci maddəsinə görə, zərər çəkmiş şəxs təqsirləndirilən şəxsə yönəldilmiş ittihamın mahiyyətini bilməlidir. Bununla belə, bu müddəanın realizəsi ilə əlaqədar olaraq hər hansısa bir mexanizm Məcəllədə təsbit edilməmişdir. Buna müvafiq olaraq praktik işçilər təqsirləndirilən şəxsə yönəlmiş ittiham haqqında zərər çəkəni xəbərdar etməyə borclu deyildir və ya bunu xüsusi olaraq bildirməyəcəklər. O biri tərəfdən isə belə bir halı da təsəvvür etmək mümkün deyildir ki, zərər çəkən şəxs öz təşəbbüsü ilə hüquq-mühafizə orqanlarına gedərək cinayət törətmiş şəxsə ittihamın irəli sürülməsini və ya onun məzmununu öyrənməyi tələb etmiş olsun. Buna görə də istintaqa təhqiqatçıların və müstəntiqin şəxsi və ya şəxsləri təqsirləndirilən şəxs qismində cəlb etdikdən sonra zərər çəkmiş şəxsi bu ittihamın məzmunu ilə xəbərdar etmək öhdəliyinin qanunvericilik qaydasında təsbit olunmasına zərurət vardır.

AR CPM-in müddəalarına görə zərər çəkənin növbəti hüquqlarından biri də məhkəmə ekspertizası təyin edildiyi halda ekspertizasının təyin edilməsi haqqında qərarla və onun gəldiyi nəticələrlə tanış olmaqla bağlıdır. Belə bir müddəanı, ümumiyyətlə özündə ifadə etməyən 1961-ci il AR SSR CPM ilə müqayisədə, əlbəttə ki, bu norma müsbət bir haldır. Lakin, CPM-də zərər çəkmişə və təqsirləndirilən şəxsə məxsus olan hüquqların məcmusunu müqayisə etsək alınan mənzərənin heç də ürəkaçan olmadığı qənaətinə gələ bilərik. Belə ki, AR CPM-in 268-ci maddəsinə əsasən təqsirləndirilən şəxs ekspertizanın qərarı ilə tanış olmaq və yaxud belə bir qərarın və rəyin verilməsinin mümkün olmaması haqqında məlumatla tanış olmaq, ekspertə etiraz etmək, öz təşəbbüsü və öz hesabına alternativ ekspertiza aparmaq, ekspertin gəldiyi rəyin cinayət işinə əlavə edilməsi barədə vəsatət vermək, ekspert qarşısında əlavə suallar qoymaq, eləcə də əlavə olaraq cinayət işinin icrası çərçivəsində ekspertin dindirməsində iştirak etmək hüququna malikdir. Belə hüquqlar zərər çəkmiş şəxsdə yoxdur. Ona görə də cinayət-prosessual qanunda zərər çəkmişin ekspertizanın təyin edilməsi zamanı hüquqlarını göstərən maddəyə ehtiyac vardır, yaxud da CPM-in 87-ci madəsinə müvafiq əlavələr edilməlidir. Beləliklə, ekspertizanın təyini və icrası zamanı zərər çəkmiş şəxsin hüquqları təqsirləndirilən şəxsin hüquqlarına nisbətən məhduddur ki, bu da yolverilməzdir.

Hesab edirik ki, ekspertizanın təyin edilməsi və icrası zaman zərər çəkmiş və təqsirləndirilən şəxslər mütləq mənada bərabər hüquqlara malik olmalıdırlar.

AR CPM-nin 87-ci maddəsində zərər çəkmiş şəxsin hüquqlarından biri də cinayət işinin başlanması anında onun zərər çəkmiş kimi tanınması və yaxud onun belə qisimdə tanınmağının rədd edilməsi ilə əlaqədar cinayət prosesində iştirakına xitam verilməsi, cinayət işi üzrə icraatın dayandırılması haqqında qərarların surətlərini ala bilmək hüququdur. İlk baxışda elə görünür ki, burada hər şey qaydasındadır. Lakin diqqət versək görərik ki, bu sahədə də çatışmazlıqlar var. Bu isə aşağıdakılardan ibarətdir. Belə ki, AR CPM-in 210.4-cü maddəsinə görə, cinayət işinin başlanması haqqında qərarın qəbul edilməsi zamanı onun surəti 24 saat müddət ərzində cinayət haqqında məlumat vermiş fiziki, hüquqi və ya vəzifəli şəxsə, habelə prokurora göndərilir. Burada da, göründüyü kimi, qərarın surətinin zərər çəkmiş şəxsə göndərilməsi haqqında qayda yoxdur ki, bu da cinayət prosesinin iştirakçısı kimi, zərər çəkmişin hüquqlarının pozulması kimi qiymətləndirilməlidir. Burada cinayət işinin zərər çəkmiş şəxsə göndərilməsindən söhbət getmir. Hesab etsək ki, ölkə əhalisinin hüquqi savadı o qədər də yüksək deyil və sadə vətəndaşların belə hərəkət etmələri az inanılandır, onda belə hallarda istintaq orqanlarının qərarın surətini zərər çəkmiş şəxsə göndərmələrinin vacib olduğu aydın olar.

Cinayət işi üzrə icraatın dayandırılması zamanı AR CPM-in 277.4-cü maddəsinə görə təhqiqatçılar və müstəntiqlər bu haqda digər iştirakçılarla yanaşı, 122-ci maddədə nəzərdə tutulmuş qaydada qərardan şikayət etmək qaydalarını izah edərək zərər çəkmişi də xəbərdar etməlidirlər. Burada yenə də zərər çəkmişə ibtidai istintaqın dayandırılması haqqında qərarın surətinin göndərilməsi unudulur. Burada göstərilir ki, müstəntiq zərər çəkmiş şəxsi, onun nümayəndəsini yazılı qaydada cinayət işinin dayandırılması barədə qərarla tanış etməli və onlara şikayət vermək hüququnu izah etməlidir. Yəni müvafiq qərarı almaq üçün zərər çəkmiş bu barədə dəfələrlə iş üzrə icraatı aparan vəzifəli şəxslər qarşısında vəsatət qaldırmalıdır, yalnız bundan sonra o, qərarın surətini almaq imkanı əldə etmiş olur. Buradan da 277.4-ci maddənin çatışmazlıqları aydın görünür. Bu çatışmazlıqların aradan qaldırılması üçün belə bir qayda qoyulmalıdır: cinayət üzrə icraatın dayandırılması haqqında qərarla tanış etməklə yanaşı, icraatı aparan vəzifəli şəxslərin üzərinə zərər çəkmiş şəxsin ünvanına bu barədə qərarın surətinin göndərilməsi öhdəliyi qoyulsun. Yalnız cinayət işi üzrə icraatın dayandırılması haqqında qərarın surətini aldıqdan sonra, qanunverici AR CPM-in 281.1-ci maddəsində belə bir göstəriş nəzərdə tutur ki, bu qərara görə müstəntiq və ya təhqiqatçı digər proses iştirakçıları ilə yanaşı olaraq zərər çəkmiş şəxsə də qərarın surətinin göndərilməsini təmin edir.

AR CPM-in 123-cü maddəsində cinayət prosesində iştirak edən zərər çəkmiş şəxsin digər proses iştirakçıları ilə yanaşı dövlət müdafiəsi üçün tədbirlər görülməsinin məcburiliyi göstərilmişdir. Lakin hesab edirik ki, belə bir müddəa AR CPM-in 87-ci maddəsində təsbit edilməli və burada zərər çəkmiş şəxsə belə bir hüququn da verilməsi ayrıca qeyd edilməlidir ki, o özünün, yaxın qohumlarının və qohumlarının, yaxın adamlarının həyatı və təhlükəsizliyi üçün təhlükə hiss etdikdə, onlara qarşı hüquqa zidd əməllər törədiləcəyi hallar qorxusu yarandıqda müstəntiq, təhqiqatçı, prokuror qarşısında təhlükəsizlik tədbirləri görülməsi barədə vəsatət qaldıra bilər. Göstərilən hüquqlardan başqa zərər çəkmiş ibtidai istintaq mərhələsinin gedişində onun mülki iddiaçı kimi tanınması zamanı əlavə olaraq bir sıra hüquqlarla da təmin olunur. AR CPM-in 89.1-ci maddəsinin məzmunundan belə bir nəticə çıxır ki, cinayətin törədilməsi nəticəsində maddi ziyan vurulması qənaətinə gəlməyə kifayət qədər əsaslar olduqda mənafe və maraqlarına, əmlakına zərər yetirilən şəxs bu zərərin ödənilməsini tələb etmək hüququna malik olmaqla prosessual mülki iddiaçı statusunu da əldə etmiş olur. Zərər çəkmiş şəxs həmçinin ona dəymiş mənəvi ziyanın ödənilməsi üçün də iddia qaldıra bilər. Mülki iddia cinayət işinin başlanmasından birinci instansiya mərhələsinədək, cinayət işinin araşdırılması zamanı, məhkəmə istintaqı başlanana qədər qaldırıla bilər(1, s.336). Mülki iddiaçı ittihamın mahiyyətini bilmək, sübutlar təqdim etmək, vəsatət və şikayət vermək, etirazlar etmək, rəy bildirmək, məhkəmə baxışında iştirak etmək, verdiyi mülki iddianı müdafiə etmək, istintaq orqanlarının hərəkətlərindən, eləcə də məhkəmənin hökm və ya qərarının mülki iddiaya aid hissəsindən şikayət vermək və s. hüquqlara malikdir (AR CPM, maddə 89.4). Bundan başqa mülki iddiaçının aşağıdakı hüquqları da vardır: irəli sürdüyü mülki iddiadan imtina etmək; mənafeyinə aid olan qəbul edilmiş qərarlardan xəbəri olmaq və təqdim etdiyi mülki iddia ilə bağlı prosessual qərarların surətini almaq.

Zərər çəkmişin (mülki iddiaçının) sadalanan hüquqlarının siyahısından göründüyü kimi, zərər çəkmişin hüquqlarının cəmi, ilk nəzərdə, yuxarıda dediklərimizə baxmayaraq, hər halda AR CPM-in 91-ci maddəsində təsbit olunan təqsirləndirilən şəxsin hüquqlarının cəminə yaxınlaşır. Lakin zərər çəkmişin və təqsirləndirilən şəxsin bərabər hüquqlarından danışmaq hələ tezdir. Belə ki, AR CPM-in 87.6 maddəsinin 21-ci bəndinə görə zərərçəkmişin nümayəndəyə malik olmaq və onun səlahiyyətlərinə xitam vermək

hüququ var, bu isə 102.2-ci maddəyə görə vəkil və digər şəxslər ola bilər. Lakin ölkə əhalisinin gəlir minimumunu nəzərə alsaq, əlbəttə ki, əhalinin vəkilin peşəkar xidmətini ödəmək imkanının məhdud olduğu aydın olar.

Bununla yanaşı, zərər çəkmiş şəxsin belə hüququnun (nümayəndəyə malik olmaq) təqsirləndirilən şəxsin analoji hüququ ilə müqayisə etsək qeyd etməliyik ki, AR CPM-in 91.5.4-cü maddəsinə görə, həbsə alındığı və ya təqsirləndirildiyi andan müdafiəçiyə malik olmaq, 91.5.5-ci maddəsinə müvafiq olaraq isə müdafiəçinin xidmətindən pulsuz da istifadə etmək hüququna malikdir. Bu halda AR CPM-in 193.2-ci maddəsinə uyğun olaraq müdafiəçinin prosesdə iştirakı Məcəllənin 92.3-cü maddəsində nəzərdə tutukmuş hallarda təmin olunmalıdırsa təqsirləndirilən və ya şübhəli bilinən şəxsə hüquqi yardım göstərilməsini dövlət büdcəsi hesabına təmin edir. Bu hal müdafiəçinin xidmətinin təqsirləndirilən şəxs və ya şübhəli şəxs tərəfindən ödənilməsi mümkün olmadığı hallarda tətbiq edilir. Lakin AR CPM-in 87-ci maddəsində zərər çəkmiş şəxsin belə müvafiq hüququ haqqında, vəkil xidmətinə görə ödəmə qabiliyyəti olmadığı halda onun dövlət hesabına həll edilməsi ilə əlaqədar heç nə deyilmir.

Baxmayaraq ki, AR CPM-in 197-ci maddəsində nümayəndəyə, o cümlədən vəkilə cinayət mühakimə icraatında zərər çəkmişin mənafeyini müdafiə etdiyinə görə məhkəmə tərəfindən, yəni dövlət büdcəsi hesabına ödəniş edilir, fikrimizcə, bu, kifayət deyildir. Belə hüquq məhz AR CPM-in 87-ci maddəsində təsbit olunmalıdır. Burada biz təqsirləndirilən şəxsin hüququ xeyrinə zərər çəkmişin hüquqlarının yeni bir pozğunluğunu görürük ki, bu da bariz şəklidə zərər çəkmişin öz hüquqlarını səmərəli müdafiə etməsinə pis təsir göstərir.

Ona görə də zərər çəkmişin, nümayəndəsi kimi vəkilə malik olmaq niyyəti zamanı onun xidmətini ödəyə bilmədiyi zaman, təqsirləndirilən şəxsin müdafiəsi üçün müəyyən edilən qaydada təhqiqatçının, müstəntiqin və prokurorun təyini ilə ibtidai istintaqda iştirak etməlidir (3, s. 22). Bununla yanaşı bir məsələni də unutmaq olmaz. Qanunverici tərəfindən AR CPM-in 92-ci maddəsində təqsirləndirilən və şübhəli bilinən şəxsin müdafiəçisinin cinayət mühakimə icraatında mütləq iştirakı halları (AR CPM, maddələr, 92.3, 92.4) təsbit edilib.

AR CPM-də zərər çəkmişlə bağlı analoji norma yoxdur. Deməli, burada da növbəti dəfə zərər çəkmişin və təqsirləndirilən şəxsin hüquqlarının bərabərliyindən söhbət gedə bilməz. Ona görə də AR CPM-ə zərər çəkmişin nümayəndəsinin-vəkilin işdə iştirakını nəzərdə tutan müvafiq dəyişikliklərin edilməsi zəruridir. Belə ki, məsələn, rus alimi V.N.Osipkin hesab edir ki, zərər çəkmişin nümayəndələri-vəkillər aşağıdakı hallarda cinayət işinə cəlb edilməlidirlər: a) əgər işdə təqsirləndirilən şəxsin (şübhəli şəxsin) müdafiəçisi iştirak edərsə; b)zərər çəkmiş yetkinlik yaşına çatmamışdırsa; ç) zərər çəkmiş kar, kor, lal və yaxud digər fiziki və psixi çatışmazlıqlarına görə öz maraqlarını və mənafelərini müdafiə edə bilmirsə; c) işə andlı iclasçılar məhkəməsində baxılırsa; e) cinayət hadisəsi mütəşəkkil cinayətkar qrup, cinayətkar birlik (cinayətkar təşkilat) üzvləri tərəfindən törədildikdə və s. (2, s. 34-35). Biz V.N.Osipkinin mövqeyini tam müdafiə edirik. Bununla yanaşı, yuxarıda sadalanan hallardan başqa, zərər çəkmişin nümayəndəsinin – vəkilinin prosesdə iştirakının zəruriliyini bildirən daha bir halı da qeyd etmək lazımdır. Bu da zərər çəkmiş şəxsin cinayət icraatının aparıldığı dildə danışa bilmədiyi halda onun vəkilinin-nümayəndəsinin prosesdə iştirakını zəruri edən halla əlaqədardır: Bu hal AR CPM-in 92.3.4-də göstərilən müddəa ilə analojidir.

AR CPM-in 92-ci maddəsi cinayət işi üzrə prosesdə müdafiəçinin iştirakını ancaq təqsirləndirilən və şübhəli bilinən şəxsin maraqları ilə əlaqələndirir və burada zərər çəkmiş unudulur. Ancaq AR CPM-in 101 və 102-ci maddələrində cinayət prosesi iştirakçılarının nümayəndələri və qanuni nümayəndələrinin fəaliyyətinin hüquqi tənzimindən söhbət getdikdə zərər çəkmişin qanuni nümayəndələri (nümayəndəsi) haqqında danışılır. Lakin, ümumiyyətlə götürsək, cinayət mühakimə icraatında müdafiəçinin iştirakı ona verilən hüquqların məcmusu ilə birlikdə (AR CPM nin 92 və 93-cü maddələrində tənzim edilir) zərər çəkmişin nümayəndəsinin prosesdə iştirakından və malik olduğu hüquqlarının məcmusundan çoxdur.

Açar sözlər: ibtidai istintaq, zərər çəkmiş şəxs, hüquq, qanuni mənafe.

İstifadə olunmuş ədəbiyyat

1.Mirağa Cəfərquliyev. Azərbaycan Respublikasının Cinayət prosesi. Bakı, Qanun, 2008.
2. Osipkin B.B. B zahitu prav poterpevşeqo //Зakonnostğ, 2000, № 2.
3. Шestakova T. Yhemlenie prav poterpevşix //Зakonnostğ, 2003,. №8.

Matlab AQAEV

O ZAHITE PRAV I ZAKONNIX INTERESOV POTERPEVŞEQO NA STADII PREDVARITELĞNOQO RASSLEDOVANIƏ

Pezöme

Kak uçastnik uqolovnoqo proüessa poterpevşiy, naçinaə so stadii predvaritelğnıx rassledovaniy, proəvləet sebə vsestoronne i otkrıto.

B üelom druqie otdelğno vzətıe uçastniki uqolovnoqo proüessa v sovokupnosti obladaöt bolğşimi pravami, çem poterpevşie. Coqlasno УПК AP, pravovoe polojenie poterpevşeqo znaçitelğno şire, vıiqrışnee obvinəemoqo.

Klöçevıe slova: predvaritelğnoe rassledovanie, poterpevşiy, prava poterpevşeqo, zakonnıe interesı.

Matlab AGAYEV

ON PROTECTION OF THE RIGHTS AND LEGITIMATE INTERESTS OF A VICTIM AT A STAGE OF PRELIMINARY INVESTIGATION

Summary

As a participant of the criminal procedure, a victim beginning since the stage of preliminary investigations proves comprehensively and openly. On the whole, the other participants of the criminal procedure each taken separately possess in aggregate more rights than the victims. The legal condition of the victim is more advantageous in comparison with the rights of the accused according to CC of AR.

Keywords: preliminary investigation, the victim, the rights of the victim, legitimate interests.

UOT 343

Əlirza DƏRVİŞHA
AMEA FSHİ -nin dissertantı

BEYNƏLXALQ ÖHDƏLİKLƏRLƏ BAĞLI MÜQAVİLƏLƏRİN NİZAMLANMASI*

Terminlər: Beynəlxalq müqavilələrdə terminləri başa düşmək üçün əvvəl müqavilənin özü ilə tanış olmalısan. Bunun üçün mülki hüquq sahəsi üzrə alimlərin mövzu ilə bağlı fikirlərini söyləməzdən əvvəl məqalənin mövzusu barədə qısa izah verilməsi məqsədəuyğundur.

1. «Müqavilə» - ingilis dilində «kontrakt» sözü olmaqla iki və ya bir neçə şəxs arasında bağlanan hüquqi sənəddir. Belə müqavilələrin mövzusu tanışlıq barəsində olur və ya dəyişiklik, öhdəliyin ləğvi və ya hüquqların verilməsi ilə bağlı olur. (1, s.29) İran qanunvericiliyində müqavilə və əqd sinonim kimi işlənir. Onların hər ikisi eyni mənada işlədilir. (2, s.16) Bununla belə, öhdəlikli müqavilələr rəsmi əqd hesab edilir və əsasən əqd ümumi müqavilədən çıxarılmış ola bilər və ya müqavilənin özü də əqddən çıxarıla bilər. (3, s.35) Məqalənin mövzusu bu problemlə bağlıdır. Qeyd etmək lazımdır ki, İran Mülki Məcəlləsinin 10 və 975-ci maddələrində əqdin mahiyyəti qeyd edilir.

2. Beynəlxalq müqavilələr: ingiliscə «interneşnl kontrakt» adlanır. Bütün alğı-satqı və əqdlər Mülki Məcəlləyə aiddir. Buna görə də beynəlxalq konvensiyalar da həmin Mülki Məcəllənin qanunları ilə tənzimlənir. Bu mənada beynəlxalq terminlər də həmin məcəllənin terminləri ilə izah olunur. Müqavilənin tərəfləri müxtəlif olur. Ola bilər ki, müqavilə tərəfləri və müqavilənin məkanı müxtəlif ölkələr olsun. Elə buna görə də müqavilələrin bir xüsusiyyəti də beynəlxalq sahədə olmasındadır. Eyni zamanda, onlar beynəlxalq konvensiyalar əsasında bağlanır. Qeyd edilən müqavilələrin xarici ölkələrlə əlaqədar olmalarına baxmayaraq, onlar Mülki Məcəllə və digər normativ aktlarla, başqa sözlə desək, beynəlxalq müqavilə olanda və onun mövzusu öhdəliklə bağlı olanda, məsələn, maldaşıma, xidmət, hüquqi və fiziki şəxslər arasında alqı - satqı, yaxud hüquqi müqavilə olanda və ya iki dövlətin təşkilatları arasında bağlananda Mülki Məcəllə ilə tənzimlənir. Belə ki, müqavilələrə dair ayrıca beynəlxalq mülki hüquq məcəlləsi yoxdur. (2, s.16) Misal üçün belə bir qərara nəzər salaq: tutaq ki, satın almaq barədə müqavilə var və bu energetika şirkəti ilə başqa bir xarici şirkət tərəfindən bağlanmışdır. Yaxud da xarici bir şirkətin satış haqqında müqaviləsi var və orada təchizatlar, informasiya texnologiyaları poçt və teleqraf nazirliyinə satılır. Yaxud da belə ola bilər ki, bir xarici şirkət hər hansı bir ölkədə müəyyən xidməti işləri yerinə yetirir. Bütün bu müqavilələr beynəlxalq müqavilə hesab olunur və Mülki Məcəllə ilə, İnzibati Xətalar Məcəlləsi, İranın mühasibata dair norma qaydaları ilə tənzimlənir və icra edilir.

Ədliyyə üzrə Beynəlxalq Arbitraj (4) 22 iyul 1952-ci ildə İran və İngiltərə neft şirkətləri arasındakı müqavilə iddiasına baxmış və onu 1933-cü ildə İran dövləti ilə İngiltərə dövləti arasında bağlanmış xarici müqavilə kimi təsdiq etmişdir. Həmin məhkəmənin çıxardığı qərarda yazılır ki, İngiltərənin iddiaları beynəlxalq konvensiyalar kontekstindədir və müqavilə beynəlxalq müqavilə hesab edilir. Həmin məhkəmə işə baxandan sonra İranın xeyrinə qərar çıxarmışdır. (5) Onu da qeyd etmək lazımdır ki, daxili müqavilələrlə xarici müqavilələrin mövzusu arasında elə bir fərq olmur. Misal üçün, qaz borularını almaq üçün İran şirkəti ilə xarici bir şirkət arasında müqavilə bağlansa, onda İran tərəfindən həmin müqaviləni bir dövlət təşkilatı bağlayır. Burada İran hökumətinin özü iştirak etmur.

3. Beynəlxalq öhdəliklər: ingilis dilində «Treati» deyirlər. Bu, 1969 və 1989-cu illər Beynəlxalq konvensiyalarının 2-ci maddəsində öz əksini tapmışdır. Həmin konvensiyaların qəbul etdiyi müddəalar beynəlxalq xarakter daşıyır, beynəlxalq aləm həmin qanunları qəbul edir və müvafiq öhdəliklər həmin qərarlar əsasında tənzimlənir. (6, s.26) Qeyd etmək lazımdır ki, öhdəliklər beynəlxalq olmalarına baxmayaraq, həm də dövlət aktları ilə tənzimlənir. Elə öhdəliklər var ki, onlarda dövləti maraqlar var və həmin maraqlar lazımi səviyyədə qorunmalıdır. Ölkələr bir çox konvensiyalara qoşulurlar, həmin konvensiyalar yazılı olur və dövlətlər həmin öhdəlikləri öz üzərinə götürürsə, deməli, həmin konvensiyalardan irəli gələn öhdəlikləri də yerinə yetirməyə borcludurlar. İran Konstitusiyasının 77-ci maddəsində öz əksini tapmış qanunlar da dövlətin öhdəlikləri hesab edilir.

---

* Məqalə t.e.d. H. Əlibəyli tərəfindən çapa məsləhət bilinib.

Beynəlxalq öhdəlikləri isə dörd yerə ayırmaq olar:

1. Öhdəlik. Öhdəlik elə bir sənəddir ki, iki dövlət arasında və ya bir neçə dövlət arasında bağlanır. Məsələn, İran və Türkiyə arasında bağlanan öhdəliklər.

2. Konvensiya, yəni ölkələr arasında olan hüquqi aktların tənzimlənməsi. Məsələn, Cenevrə dördlük konvensiyası.

3. Razılaşma. İngilis dilində buna «aqreement» deyirlər. Bu adətən ancaq iki dövlət arasında bağlanmış müqavilədir, əsasən mədəni, iqtisadi, ticarət, nəqliyyat sahəsində olur və həmin ölkələr boyunlarına bir çox öhdəliklər götürür. Məsələn, vaxtilə İran və Sovet İttifaqı arasında bağlanmış razılaşma.

4. Beynəlxalq birliklərlə bağlı sazişlər.

Sazişlər də öhdəliklərin tərkib hissəsidir. Adətən dövlət hər hansı bir beynəlxalq təşkilatla və ya hər hansı bir beynəlxalq qurumla bağlayaraq onun üzvü olur. Məsələn, Bağdad sazişi.

Fərqli hallar.

Fars dilində olan əksər əsərlərdə müəlliflər beynəlxalq hüquqi aktlardan danışır və həmin mətnlərdə "öhdəlik" terminini işlədirlər. Ancaq bəzən onların mahiyyətinə tam varmırlar. Belə ki, bəzi terminlərin Mülki Məcəllədə mənası var. Belə ki, öhdəlik ümumi beynəlxalq termindir, ancaq onun ayrı mənaları da var. (7, s.167)

Ölkə qanunvericiliyində müqavilənin və öhdəliklərin bir termin kimi yerində işlədilməməsi hallarına da rast gəlinir. (8)

Terminlərin yerində işlədilməsi və onların mənasının tam nəzərə alınmaması bir çox hüquqi sənədlərdə yanlış nəticələrə gətirib çıxarır.

Beynəlxalq müqavilə və öhdəliklərdə terminlərin fərqli verilməsi konstitusiya aktlarının və digər hüquqi aktların tədqiqində də problemlər yaradır. Mövcud fərqləri aşağıdakı kimi qruplaşdırmaq olar:

1. Beynəlxalq öhdəliklər və onların təsdiqinin zəruriliyi.

Beynəlxalq öhdəliklər beynəlxalq hüququn tərkib hissəsidir. Həmin hüquqi aktlar həm də hər bir ölkənin konstitusiyasında öz əksini tapır. Yəni, öhdəliklərin özü də ölkələr tərəfindən fərdiləşdirilir. Belə ki, beynəlxalq hüquqi aktlar sonradan müəyyən dövlətlərin konstitusiyasında əks olunur və ölkə daxilində həmin hüquqi aktlara riayət olunur. İran qanunvericiliyində 9 maddə öhdəliklərlə bağlıdır.

Hüquqi baxımdan hər bir qanunun öhdəlikləri də eyni olur. Belə ki, mənzil öhdəliyi ilə bağlı ikilik yoxdur. (9)

İran Konstitusiyasının 77-ci əsas maddəsi müqavilənamələrdən, öhdəliklərdən, müqavilələrdən, sazişlərdən ibarət olub beynəlxalq hüquqi aktlarda öz əksini tapmışdır. Həmin əsas qanun İslami Məclis tərəfindən təsdiq edilmişdir.

2. Təsdiqinə ehtiyac olmayan beynəlxalq müqavilələr.

Beynəlxalq hüquqi aktlara söykənən İran Konstitusiyasının 77-ci maddəsində öz əksini tapan öhdəliklər, müqavilələr, razılaşmalar təsdiq olunmalıdır. Baxmayaraq ki, müqavilələrin əksəriyyəti beynəlxalq xarakter daşıyır, bununla belə onlardakı mülki aktlar də dövlət qanunvericiliyində nəzərə alınır. Təsdiq olunmayan hüquqi aktlar əsla Konstitusiyanın 77-a maddəsində öz əksini tapmamışdır. Həmin hüquqi aktlar Ali Məclis tərəfindən təsdiq ediləndən sonra qüvvəyə minir və icra edilir. Eləcə də bəzi beynəlxalq aktların Ali Məclisdə təsdiqinə ehtiyac yoxdur.

Belə ki, ölkədə Ali Nəzarət Şurası adlı bir qurum var ki, bu qurum qanunların qəbuluna və icrasına dair xüsusi nəzarəti həyata keçirir. Bu mənada həmin qurumun səlahiyyət dairəsini belə səciyyələndirə bilərik:

a) beynəlxalq sahədə iki dövlət arasında bağlanmış müqavilələri araşdırmaq və onları diqqətlə nəzərdən keçirmək. Həmin nəzarətdə əsas prinsip bundan ibarətdir ki, müqavilə ölkə Konstitusiyasının 77-ci maddəsinə uyğun olsun. Həmin qurumun təsdiqindən sonra müqavilənin təsdiqini İslami Şura Məclisi həyata keçirir və İslami Şura Məclisinin təsdiqindən sonra öhdəliklər və müqavilələr qüvvəyə minir. (10, s.3)

İlk baxışdan belə təsəvvür yarana bilər ki, bütün bu dediklərimiz heç də məqalənin mövzusuna aid deyil və bunların beynəlxalq müqavilə və öhdəliklərlə bağlı mətnlərdə olan nizamlanma ilə elə bir əlaqəsi yoxdur. Əslində isə həmin hüquqi sənədlərin əksəriyyətində sözlərin seçimi və onların lazımi yerlərdə işlədilməsi olduqca vacibdir. (3, s.82)

b) baxmayaraq ki, "nazirliklərlə, müəssisələrlə, şirkətlərlə, dövlət idarələri ilə bağlanan müqavilələr, xarici dövlətlər üçün olur, onlar heç də beynəlxalq müqavilə hesab edilmir". (11, s.81)

Elə bu sitatda da görünür ki, heç bir sübut nəzərə alınmadan beynəlxalq müqavilənin şərtləri lazımi səviyyədə izah edilməmişdir. Ola bilər ki, müqavilə və öhdəliklər İran dövlət təşkilatları və xarici ölkələrin təşkilatları ilə olsun. Bütün bunların hamısı "beynəlxalq müqavilə" adı altında qəbul edilir. Həmin müqavilələr ölkə Konstitusiyasındakı 77-ci maddəyə zidd deyilsə, onda hüquqi cəhətdən qüvvəyə minir və təsdiq edilir.

Onu da qeyd etmək lazımdır ki, beynəlxalq müqavilələr arasındakı fərqlər də müəyyən edilib təsbit olunmamışdır. Yəni, əgər öhdəlik Mülki Məcəlləyə uyğundursa, onda dövlət tərəfindən ona heç bir irad olmur və həmin akt da beynəlxalq müqavilə statusu alır. Buna görə də müvafiq qərarların qəbul edilməsi şəxsi xarakter daşıyır. Baxmayaraq ki, həmin müqavilə həm də dövləti hesab edilir.

c) Konstitusiyanın 77-ci maddəsinə əlavələrdəki 125-ci izaha nəzər salanda görürük ki, orada yazılıb ki, nazirliklər, İranın müxtəlif dövlət təşkilatları ilə və xarici şirkətlərlə bağlanılan müqavilələr hüquqi şəxslərin işi hesab edilir və bu tip müqavilələr adi qanunvericiliklə tənzimlənir və onların İslami Şura Məclisi tərəfindən təsdiqinə ehtiyac yoxdur. Ancaq əgər bu barədə həmin qurum qarşısında vəsatət qaldırılarsa, həmin adi qanunvericiliyin özü də, onun bəzi fəsilləri də İslam Şura Məclisi tərəfindən təsdiq edilə bilər. (11, s.81)

Nəzarət Şurasının sənədində işarə olunan həmin müqavilədə əsas diqqət ona yönəlir ki, dövlətin xarici şirkətləri hüquqi şəxs kimi göstərilir. Müqavilənin uyğunluğu nəzərə alınmır. Halbuki belə müqavilələr Mülki Məcəllə ilə tənzimlənir və xarici nazirliklərlə, yaxud da hər hansı bir xarici dövlətin tabeliyində olan təşkilatın öhdəlikləri kimi götürülmür. Belə müqavilələrin Məclis tərəfindən təsdiqinə də ehtiyac qalmır.

Ancaq elə müqavilə və öhdəliklər var ki, onlar Məclis tərəfindən təsdiq edilməlidir. Əsas məsələ müqavilə, öhdəlik və əqdlərin mətnləridir. İran hüquqşünaslarından biri bu barədə belə sübutlar irəli sürür: "Ola bilsin ki, xarici dövlət öz tabeliyində olan (məsələn, İranın tabeliyində) bir təşkilatla ticarət müqaviləsi bağlayır. Belə olduqda elə bir əsas yoxdur ki, bu müqavilə Konstitusiyanın 77-ci maddəsinə ziddir. Ona görə də həmin müqavilənin icrasında tərəflər hüquqi şəxs kimi müstəqil qərarlar qəbul edirlər. Belə müqavilələr Mülki Məcəllə ilə tənzimlənir. Onun Konstitusiyanın 77-ci maddəsinə heç bir aidiyyəti yoxdur. Baxmayaraq ki, müqavilə tərəflərinin biri xarici təşkilatdır. Bununla bağlı birinci tərəf məclisin (parlamentin), ikincisi isə hüquq mühafizə orqanları tərəfindən təsdiq edilməlidir". (3, s.85-86)

Belə təsəvvür yarana bilər ki, Konstitusiyanın 77-ci maddəsi və parlamentin qərarının nəzərə alınması müqavilənin təsdiqi üçün başlıca şərtdir. Belə ki, 09.07.1366 (30.09.1987) tarixli Neft qanununun 5-ci maddəsinə əsasən İranın Neft Nazirliyinin başqa dövlətlərlə bağladığı müqavilələr Konstitusiyanın 77-ci maddəsinə zidd olmamalıdır. Bu da həmin 77-ci maddənin nəzərə alınması və parlamentin təsdiqinin asanlaşdırılması deməkdir. Əgər müqavilə tərəflərinin biri İranın Neft Nazirliyi və ikincisi isə xarici hüquqi şəxsdirsə, onda həmin müqavilənin parlamentdə təsdiqinə ehtiyac qalmır. Bununla da həmin müqaviləyə həm də Konstitusiyanın 77-ci maddəsini şamil etməyə ehtiyac qalmır.

Hüquqşünaslardan biri Əsas qanunun 24-cü maddəsini əldə rəhbər tutaraq iddia edir ki, həmin müqavilələrin prosedurası sadaladığımız formada olmalıdır. Öhdəliklər, müqavilələr, sazişlər, razılaşmalar bu məqsədlə olur ki, dövlətin alqı-satqı işləri getsin, eləcə də dövlətin öhdəlikləri həyata keçsin. Əgər müəyyən məsələlər dövlət əhəmiyyətlidirsə, o, məclisdə təsdiq olunmalıdır. Əgər onların dövlət büdcəsinə aidiyyəti yoxdursa, onda həmin müqavilə və öhdəliklərin parlamentdə təsdiqinə ehtiyac qalmır.

Qeyd etmək lazımdır ki, beynəlxalq öhdəliklərə dair müvafiq aktlar Dövlət Komissiyası tərəfindən 1992-ci ildə təsdiq edilmişdir və onda müvafiq islahat və düzəlişlər isə 2000-ci ildə təsdiq edilmişdir. İslami Şura Məclisi isə onu təsdiq etmişdir (Məcəllənin maddələri: 1 və 14)

Nəticə

1.Beynəlxalq müqavilələr heç də beynəlxalq öhdəliklərin eyni deyildir. Hər ikisi həm hüquqi, həm də termin baxımından da bir-birinə oxşamır. Buna görə də onları işlədərkən məzmunlarına, mahiyyətlərinə diqqət etmək lazımdır. Sözlər yerində düzgün işlədilməlidir.

2. Beynəlxalq müqavilələrin həyata keçirilməsinə Nəzarət Şurası nəzarət etsə də həmin müqavilələr Mülki Məcəllə ilə tənzimlənir və bütün alqı, satqı, icarə müqavilələri həmin qanun məcəlləsinə uyğun tərtib edilir. Ona görə də qanunvericilik orqanları tərəfindən onların təsdiqinə lüzum qalmır.

3. Beynəlxalq öhdəliklər beynəlxalq hüquqi şəxslər arasında bağlanır və birbaşa dövlət öhdəlikləri ilə bağlı olur və mütləq qanuni qurumlar tərəfindən təsdiq edilməlidir.

4. Elmi cəhətdən beynəlxalq müqavilələrlə beynəlxalq öhdəliklər arasındakı əlaqəni izah etmək lazımdır. İndi beynəlxalq müqavilələr xarici şirkətlərlə bağlanır və onların dövlət tərəfindən öhdəlikləri də olur, ona görə də həmin halların geniş izahına ehtiyac vardır.

Acar sözlər: müqavilə, termin, beynəlxalq, qanunvericilik, hüquq, razılaşma, maddə.

İstifadə olunmuş ədəbiyyat

1. Doktor Əmir Qaim Məqami. Öhdəlik hüququ. 2-ci cild, ikinci nəşr, Tehran. Tehran Universiteti nəşriyyatı, 1356.
2. Doktor Katuzyan Naser. Mülki hüquq. Müqavilələrin ümumi qaydaları. I cild, Tehran, Bəhmənnəşr, 1346.
3. Doktor İnayət Seyid Hüseyn. İranın müasir hüququnda beynəlxalq öhdəliklərin tənzimlənməsi. Tehran, 1370. Musizadı, Beynəlxalq öhdəliklər. Tehran, 1377.
4. İnternational court of Justice
5. AnqlİarnIan oil compani case.
6. Ümidzadə. Beynəlxalq hüquq. Tehran, 1369.
7. Səftəri. Ümumi beynəlxalq hüquq. Tehran, 1346.
8. Dünya poçt müqaviləsi yerinə Dünya poçt müqavilənaməsi, maddə 9, əlavə 1365.
9. Bir çox ölkələrdə həmin hüquqi aktlarda bəzi deformasiyalar var. Məsələn, Fransa qanunvericilində bu özünü göstərir.
10. Qanun məcəlləsi. 1361. Ölkənin rəsmi qəzeti.
11. Mehrpur. Nəzarət Şurasının nəzəri məcmuəsi. Tehran, 1371.

Alirza ДARVIŞA

УPORƏDOÇENIE DOQOVOROV, SVƏZANNIX S MEJDUNARODNIMI OBƏZATELĞSTVAMI

Pezöme

Avtor otmeçaet, çto v iranskom zakonodatelğstve net osobıx smıslovıx razliçiy mejdu terminami, upotrebləemımi v mejdunarodnıx doqovorax i v mejdunarodnıx obəzatelğstvax. Пogtomu nekotorıe iranskie pravovedı sçitaöt, çto «doqovor» i «obəzatelğstvo» əvləötsə sinonimami. Odnako, po-mneniö avtora, i s pravovoy toçki zreniə, i po smıslu oni razliçaötsə druq ot druqa, i nikak ne moqut əvlətğsə sinonimami. Bnaçale on temu rassmatrivaet v obzornoy forme, zatem detalğno obcəsnəet razniüu mejdu terminami, upotrebləemımi v mejdunarodnıx doqovorax i mejdunarodnıx obəzatelğstvax i v konüe izlaqaet svoi vıvodı i predlojeniə po rassmatrivaemoy teme.

Klöçevıe slova: doqovor, termin, mejdunarodnoe zakonodatelğstvo, pravo, soqlaşenie, statğə.

Alirza DARVISHA

REGULATION OF THE CONTRACTS CONNECTED WITH THE INTERNATIONAL COMMITMENTS

Summary

In the article the author notes that in the Iranian legislation there are not particular semantic differences between the terms used in the international contracts and international commitments. Therefore some Iranian lawyers consider that 'contract' and 'commitment' are synonyms. However in author's opinion, from the juridical standpoint and by sense they differ from each other and cannot be synonyms. He considers the theme in a survey form at first, then he gives a detailed explanation of the difference between the terms used in the international contracts and international commitments, and in the end, he states own conclusions and proposals on the theme considered.

Keywords: contract, term, international legislation, law, agreement, clause.

UOT 341

Seyid Abdolla HOSEYNİ
AMEA FSHİ -nin dissertantı

İRANIN POSTSOVET ÖLKƏLƏRİ İLƏ İQTİSADİ ƏLAQƏLƏRİNİN HÜQUQİ NİZAMLANMASI SİSTEMİNDƏ BEYNƏLXALQ TİCARƏT MÜQAVİLƏSİ*

SSRİ-nin dağılmasından sonra yeni müstəqil dövlətlərin yaranması ilə bağlı İran İslam Respublikası və bu dövlətlər arasında qarşılıqlı faydalı iqtisadi münasibətlərin qurulması problemi əmələ gəldi. Belə münasibətlərin qurulmasının öz xüsusiyyətləri var. Belə ki, əgər İran İslam Respublikasının keçmiş SSRİ ilə, həm quruda, həm də suda ümumi sərhədi var idisə, İran və postsovet ölkələrinin əksəriyyəti arasında belə sərhədlər mövcüd deyil. (Hal-hazırda İran təkcə Azərbaycanla, Türkmənistanla və Ermənistanla ümumi sərhədlərə malikdir). Əgər İran İslam Respublikası və Sovet İttifaqı arasında iqtisadi əlaqələrin uzun tarixçəsi mövcud idisə, postsovet ölkələrinin əksəriyyəti ilə belə münasibətlərin yaradılması zərurəti ilk dəfə yaranmışdı. İqtisadi əlaqələr ölkələr arasında bütün dövlətlərarası münasibətlər sisteminin vacib elementini təşkil edir. İran İslam Respublikası və yeni postsovet ölkələr arasında iqtisadi fəaliyyətin müxtəlif sahələrində müəyyən əməkdaşlıq təcrübəsi toplanmış, bir sıra müqavilə və sazişlər bağlanmış, çoxlu sayda protokol, müxtəlif memorandumlar imzalanmışdır. Bu sənədlərin çoxu müvafiq hüquq formasında tərəflərin qarşılıqlı hüquq və vəzifələrini əks etdirir. Belə ki, İran və Rusiya, Belarus, Azərbaycan, Ukrayna, Qazaxıstan, Qırğızıstan, Tacikistan, Türkmənistan və Özbəkistan arasında iqtisadi əməkdaşlıq sahəsində çoxlu sayda müxtəlif növlü sazişlər və ticarət müqavilələri imzalanmışdır. Fikrimizcə, bu səbəbdən, o cümlədən müqayisəli-hüquqi təhlildən istifadə etmə yolu ilə, İran İslam Respublikası və bir sıra postsovet ölkələri arasında iqtisadi xarakterli eynitipli müqavilə və sazişlər kompleksinin elmi tədqiqatının aparılması məqsədəmüvafiqdir.

Qeyd etmək lazımdır ki, İran İslam Respublikası və postsovet ölkələri arasında iqtisadi əməkdaşlıq sahəsində müqavilə-hüquqi praktika nisbətən az tədqiq edilib və nə İran hüquq ədəbiyyatında, nə də ki bir çox postsovet ölkələrinin, o cümlədən Azərbaycan daxil olmaqla, hüquq ədəbiyyatında ayrıca müstəqil tədqiqat mövzusu kimi bu problematikanın təhlilinə həsr olunmuş az-çox əhəmiyyətli işlər yoxdur. Məhz bununla bağlı olaraq, bu sahədə nəzəri araşdırılmaların aparılması belə elmi tədqiqatların aktuallığını müəyyən edir. Bu problemin tədqiqi həm də vacib praktiki əhəmiyyətə malikdir. Çünki toplanmış təcrübəni araşdırmağa və iqtisadi əməkdaşlığın bu sahəsində mövcüd olan çatışmazlıqları və boşluqları, və bununla bərabər, həm hökumətlərarası səviyyədə, həm də bu ölkələrin kommersiya və təsərrüfat strukturları arasında hərtərəfli iqtisadi əməkdaşlığın optimal hüquqi nizamlanmasının yollarını müəyyən etməyə imkan verir.

Postsovet ölkələrin sayının ondan çox olduğunu nəzərə alsaq (SSRİ-nin süquta uğramasından sonra onun qalıqları üzərində 15 yeni müstəqil dövlət yarandı) İranın butün bu ölkələrlə iqtisadi sahədə əməkdaşlığının hüquqi aspektlərinin araşdırılması bir məqalənin çərçivəsindən kənara çıxır. Bu səbəbdən bu məqalə çərçivəsində belə tədqiqatın İranın daha sıx iqtisadi əlaqələr yaratdığı Rusiya, Ukrayna, Belarus və Azərbaycanın misalında aparılması məqsədəmüvafiqdir.

Rusiya Federasiyası İranın ən iri ticarət tərəfdaşlarından biridir. İran-Rusiya ticarət mübadiləsinin həcmi 2008-ci ildə 3,7 mlrd. ABŞ dollarına çatmışdır. İran İslam Respublikası və Azərbaycan Respublikası arasında iqtisadi əməkdaşlığın müxtəlif sahələrində sıx əlaqələr qurulub. İranın xarici işlər naziri M.Mottaki Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarovla 14 dekabr 2009-cu ildə keçirilmiş görüşünün yekunu üzrə bəyan etdi ki, tərəflərin razılığa gəldikləri kimi, iki dövlət arasında ticarət mübadiləsinin həcmi indiki 600 mln. ABŞ dollarından 1 mlrd. ABŞ dollarına qədər çatdırılsın. [***1***]

İran və Belarus arasında ikitərəfli əməkdaşlığın müqavilə-hüquqi bazasının inkişafı çərçivəsində 35 dövlətlərarası və idarələrarası müqavilələr imzalanıb. 2009-cu ilin yanvar-noyabr aylarında iki dövlət arasında ticarət mübadiləsi 65,2 mln. ABŞ dolları təşkil edirdi. 2009-cu ilin yekunlarına görə, bu rəqəm 71,6mln. ABŞ dolları təşkil etdi. [***4***] Hər iki dövlət bəyan etdi ki, onlar bu rəqəmin artmasına çalışacaq və yaxın gələcəkdə onlar arasında ticarət mübadiləsinin həcmi 1 mlrd. ABŞ dollarına çata bilər. [***2***] Belarus İrandan neft-kimya və farmasevtik məhsulların, tikinti materiallarının, meyvələrin və gəvələrin alınmasını

* Məqalə s.e.d. R.Sevdimalıyev və hüquq üzrə f.d. R.Qarayev tərəfindən çapa məsləhət bilinib.

genişləndirəcəkdir. İran isə Belarusda yaşayış və ticarət obyektləri (layihənin qiyməti 20 mln. ABŞ dollarıdır), Minskdə beşulduzlu mehmanxana (layihənin qiyməti 50 mln. ABŞ dollarıdır), "Minsk" azad iqtisadi zonada nəqliyyat kompleksi (layihənin qiyməti 50 mln. ABŞ dollarıdır), kağız istehsalı üzrə zavod (layihənin qiyməti 300 mln. ABŞ dollarıdır) və elektroenerji obyektləri (layihənin qiyməti 10 mln. ABŞ dollarıdır) tikəcəkdir. 27 dekabr 2006-cı ildə İran-Belarus sazişinin bağlanması nəticəsində "Belarusneft" milli neft şirkəti İranda sutkada 30 min barrel neft verən Jofeyr neft mədəninin istismarı hüququnu əldə etdi. İİR-in Prezidenti bəyan etdi ki, "Belarusneft" neft şirkəti nəinki Jofeyr neft mədənini istismar edib oradan neft çıxara biləcək, o həm də bu nefti dünyanın istədiyi regionunda sata biləcək. Bu haqda hələlik tərəflər danışıqlar aparmasa da prezident M. Əhmədinejad təbii qazın çıxarılması və istismarına aid eynisini də söylədi. İki ölkə arasında tikinti, maşınqayırma, investisiya-bank sahələrində bir sıra birgə layihələr həyata keçirilir. İran şirkətlərindən biri məbləği 200 mln. avrodan çox olan "Maqnit Minsk" mehmanxana-işgüzar kompleksin tikintisinə sərmayə qoyilmasını planlaşdırır. Beləliklə, bu günə İran-Belarus münasibətləri sürətlə inkişaf edir.

İran və Ukrayna arasında ikitərəfli münasibətləri nizamlayan 85 saziş, memorandum və müqavilə imzalanıb və bunlar iki dövlət arasında, o cümlədən iqtisadiyyat və ticarət əməkdaşlığı sahəsində qüvvədə olan müqavilə-hüquq əsasını təşkil edir. [***6***] Ukrayna Gömrük Komitəsinin məlumatına görə Ukrayna-İran ticarət mübadiləsi 2001-ci ildə 165 mln. ABŞ dolları təşkil edirdi. Lakin artıq 2008-ci ildə bu rəqəm 930 mln. ABŞ dollarına çatdı. Iki ölkə arasında münasibətlərdə əsas diqqət ticarət dövriyyəsi sahələrinin və həcmlərinin genişlənməsinə, bu ölkələrin təsərrüfat strukturları arasında birbaşa əlaqələrin qurulması və möhkəmlənməsinə, ilk növbədə, aviasiya, maşınqayırma, neft-qaz sənayesi avadanlıqlarının, dəmiryolu vaqonlarının, enerji qurğularının, dağ-mədən sahəsi üzrə avadanlığın istehsalına ayrılır. Ukrayna İrana əsasən metal prokatı, kağız, yüksək texnoloji maşınqayırma məhsulları (təyyarələr, təyyarə mühərrikləri, dağ-mədən və qaldırma-nəqliyyat avadanlığı, qaz-nasos stansiyaları və s.), şüşə, buxar qazanları və enerji avadanlıqları ixrac edir. İrandan isə Ukraynaya qida məhsulları, mis, plastmas, paltar, gəvələr, mebel, tütün məmulatları, kimyəvi maddələr, boyalar, dəri məmulatları və s. ixrac olunur. 8 fevral 2001-ci ildə Ukraynanın o vaxtkı baş naziri V.Yuşşenkonun İrana səfəri baş tutdu. Bu səfər zamanı V.Yuşşenko və İranın birinci vitse-prezidenti Həsən İbrahim Həbibi tərəfindən 8 fevral 2001-ci ildə iki ölkə arasında ticarət sazişi imzalandı.[***11***]

İran İslam Respublikası hökuməti və postsovet ölkələrin hökumətləri arasında bağlanmış iqtisadi müqavilələr sistemində, ilk növbədə, ticarət müqavilələrini qeyd etmək lazımdır. Beynəlxalq ticarət müqaviləsi dövlətlərin xarici iqtisadi fəaliyyətinin hüquqi nizamlama sisteminin əsas institutlarından biridir. Belə müqavilələr 5-10 il müddətinə bağlanılır (sonradan uzadılma imkanı ilə). Belə müqavilələrdə ticarət və qarşılıqlı əməkdaşlığın digər formaları haqqında uzunmüddətli razılaşmalar öz əksini tapa bilər. Bir çox hallarda belə müqavilə və sazişlərə əlavə olaraq ölkələr arasında malların qarşılıqlı tədarükü haqqında illik protokolların bağlanması praktikası mövcuddur. Belə müqavilələr (sazişlər) və onlara müvafiq protokollar, bir-birinə əlavə olaraq sabit və qarşılıqlı faydalı əməkdaşlığın inkişafına yardım edir. Belə müqavilələr (sazişlər) müxtəlif cür adlana bilərlər: ticarət müqaviləsi, ticarət və iqtisadi əməkdaşlıq haqqında saziş, ticarət və gəmiçilik haqqında müqavilə, dostluq, ticarət və gəmiçilik haqqında müqavilə, ticarət və naviqasiya haqqında müqavilə, ticarət sazişi və s.[***3***, 52-53; ***14***, 420].

Məsələn, İranın Azərbaycanla, Ukrayna və Belarusla bağladığı müqavilələr ticarət sazişləri, Rusiya ilə bağladığı müqavilə isə ticarət və iqtisadi əməkdaşlıq haqqında saziş adlanır. Lakin adından asılı olmayaraq onların hüquqi mahiyyəti dəyişmir. Ticarət müqavilələri ticarətin, gömrük vergiqoymanın, nəqliyyat və tranzit məsələlərinin, razılığa gələn ölkələrin fiziki və hüquqi şəxslərinin fəaliyyətinin ümumi hüquqi rejimini müəyyən edir. [***3***, 53] Beynəlxalq ticarət müqavilələri müxtəlif dövlətlər arasında iqtisadi münasibətlərin inkişafının ümumi yollarını nəzərdə tutur, qarşılıqlı fəaliyyətin siyasi, iqtisadi-ticarət rejimini müəyyən edir, qarşılıqlı hesablaşma şərtlərini, əməkdaşlıq etmə müddətlərini əks etdirir və s. Ticarət müqavilələrinin müddəalarında dövlətlərin fiziki və hüquqi şəxslərinin qarşılıqlı münasibətlərində müəyyən növ iqtisadi-ticarət rejimi əks olunur. Belə rejimlərin içində milli rejimi, ən çox əlverişlilik rejimini, qarşılıqlı fayda rejimini, preferensiya rejimini, diskriminasiya etməmək rejimini və s. misal göstərmək olar. [***14***, 420]

Bəzi dövlətlər müxtəlif qarşılıqlı faydalı xarici ticarət əməliyyatlarının həyata keçirilməsi prosesində özlərinin qarşılıqlı hüquq və vəzifələrini müqavilə-hüquqi formada rəsmiləşdirirlər. Belə ki, İİR və Rusiya hökumətləri arasında 14 aprel 1997-ci ildə ticarət və iqtisadi əməkdaşlıq haqqında Saziş imzalanıb (bundan sonra İİR və Rusiya arasında Saziş). Bu Saziş preambula və 14 maddədən ibarətdir. Həm də 12 mart 2001-ci ildə İİR və Rusiya arasında qarşılıqlı münasibətlərin əsasları və əməkdaşlıq prinsipləri haqqında

imzalanmış Müqaviləni də qeyd etmək lazımdır. Bu Müqavilə preambula və 21 maddədən ibarətdir. (bundan sonra İİR və Rusiya arasında Müqavilə). Bu sənəd 29 dekabr 2001-ci ildə Rusiyanın Dövlət Duması tərəfindən ratifikasiya edilib. Bu iki hüquqi sənəd iki dövlət arasında iqtisadi-ticarət fəaliyyətinin beynəlxalq-hüquqi əsasını təşkil edir. İİR və Rusiya arasında Sazişin 2-ci maddəsi sənaye, nəqliyyat, ticarət sahəsində və həm də digər sahələrdə əməkdaşlıq üzrə ayrıca dövlətlərarası və hökumətlərarası müqavilələrin bağlanması imkanını nəzərdə tutur. Bu müddəa həm də İİR və Rusiya arasında Müqavilənin 10-cu maddəsi ilə təsdiqlənmişdir. Bu maddəyə əsasən, tərəflər iki ölkə arasında əməkdaşlığın konkret istiqamətləri və parametrlərinin müəyyən edilməsi məqsədilə müxtəlif sahələrdə ayrıca sazişlər bağlayacaq. Bundan əlavə, İİR və Rusiya arasında Sazişin 12 maddəsinə əsasən razılığa gələn tərəflər bu sazişin inkişafına yönəlmiş sazişlər və protokollar bağlaya və əməkdaşlıq proqramlarını tərtib edə bilərlər. İİR və Rusiya arasında Saziş müəyyən edir ki, iki ölkə arasında iqtisadi, texniki əməkdaşlıq, əmtəə və xidmətlərlə ixrac-idxal əməliyyatları bu dövlətlərin hər ikisində qüvvədə olan qanunlara və qaydalara uyğun olaraq bu ölkələrin hüquqi və fiziki şəxsləri tərəfindən bağlanan kontraktlar əsasında həyata keçiriləcək (bax: Sazişin 4-cü maddəsinə). Beləliklə, Sazişdə iki dövlətin təsərrüfat subyektləri arasında ticarət əqdləri daxil olmaqla, xarici iqtisadi əqdlərin bağlanma qaydası müəyyən olunur. Sazişdə bir tərəfin digər tərəfin təsərrüfat subyektlərinə verdiyi rejim birbaşa göstərilmir. İİR və Rusiya arasında Sazişin 8-ci maddəsində təkcə bir ölkənin öz ərazisində digər ölkənin kommersiya təşkilatları nümayəndəliklərinin yaradılmasına aid hər bir tərəfin səlahiyyətli orqanları tərəfindən öz ölkələrinin qüvvədə olduğu qanunvericiliyi çərçivəsində belə təşkilatların fəaliyyiət göstərməsi üçün mümkün olan hər şeyi edəcəkləri haqqında müddəa öz əksini tapmışdır. İİR və Rusiya arasında Müqavilədə tərəflər öz üzərinə bir-birinin və üçüncü ölkələrin ərazilərində ikitərəfli və çoxtərəfli fəaliyyət göstərilməsi və birgə sərmayə qoyuluşu üçün əlverişli hüquqi, iqtisadi, maliyyə və kommersiya şərtlərinin yaradılmasına dair öhdəlik götürmüşlər. Tərəflər yuxarıda göstərilən məqsədlərə nail olunması üçün ən çox əlverişlilik rejiminin verilməsinin vacib əhəmiyyət kəsb etməsini qeyd etmişlər. (bax: Müqavilənin 5-cü maddəsinə). Hər iki ölkədə qüvvədə olan qanunvericiliyə uyğun olaraq sərbəst valyutada aparılması nəzərdə tutulan ixrac-idxal əməliyyatlarının həyata keçirilməsi prosesində ödəmələrin nizamlanması məsələsinə həsr olunmuş İİR və Rusiya arasında Sazişin 5-ci maddəsi vacib əhəmiyyətə malikdir. Ayrı-ayrı hallarda fiziki və hüquqi şəxslər öz ölkələrində qüvvədə olan valyuta qanunvericiliyinə zidd olmayan beynəlxalq norma və qaydalara müvafiq olan ödəmələrin digər üsullarını razılaşdıra bilərlər. Bununla da ticarət əməliyyatlarının həyata keçirilməsinin ən mürəkkəb problemlərindən biri öz həllini tapır. Belə ki, qarşılıqlı maliyyə hesablaşmalarının həll olunmamış məsələləri bir çox hallarda məhsuldar iqtisadi əməkdaşlığı dayandıra bilər. Bu xüsusilə milli valyutaları sərbəst dəyişdirilməyən və ya qismən dəyişdirilən ölkələrə aiddir. İİR və Rusiya arasında Sazişdə həmçinin fiziki və hüquqi şəxslərin bağladıqları kontraktlar üzrə mübahisələrin həll edilməsi problemi nizamlanır. Belə ki, Sazişin 11 maddəsinə əsasən belə mübahisələr bağlanmış kontraktların şərtlərinə uyğun həll olunmalıdır. İİR və Rusiya arasında Sazişin qüvvədəolma müddəti İİR-in digər postsovet ölkələri ilə bağladığı Ticarət sazişləri ilə eynidir. Belə ki, maddə 14 nəzərdə tutur ki, İİR və Rusiya arasında Saziş Razılığa gələn Tərəflərin hər birisi tərəfindən Sazişin qüvvəyə minməsi üçün iki dövlətin hər birində qüvvədə olan qanunvericiliyə uyğun olaraq zəruri prosedurların yerinə yetirilməsini təsdiq edən yazılı bildirişlərlə mübadilə tarixindən sonra qüvvəyə minir və 5 il müddətinə qüvvədə olacaq. Bu müddət bitəndən sonra, əgər tərəflərin hər hansı biri onun qüvvədə olmasının müvafiq müddətinin bitməsinə qədər 6 ay öncə xəbərdarlıq etməklə onun qüvvəsinin dayandırılması istəyi haqqında yazılı bəyanat verməzsə, Saziş avtomatik olaraq müəyyən illərə qədər uzadılacaq.

İİR və Belarus Respublikası hökumətləri arasında 11 may 1994-cü ildə Ticarət Sazişi imzalanmışdır (daha sonra İİR və BR arasında Saziş). Bu Saziş 2000-ci ildən qüvvəyə minib. [***13***] Bu Saziş preambula və 12 maddədən ibarətdir. Sazişin 2-ci maddəsi nəzərdə tutur ki, Razılığa gələn Tərəflərin hər birisinin öz ərazisində digər Razılığa gələn Tərəfin əmtəə idxalına, ixracına və tranzitinə qoyulan idxal və ixrac lisenziyalara, yerli vergilərə və digər vergi və rüsuslara aid əmtəə və xidmətlərə verdiyi rejim hər hansı bir üçüncü ölkənin əmtəə və xidmətlərinə verilən rejimdən əlverişsiz olmamalıdır. Beləliklə, Sazişdə Razılığa gələn hər bir tərəfin digər tərəfin təsərrüfat subyektlərinə verdiyi rejim müəyyən edilir. Bu ən çox əlverişlilik rejimidir. Əmtəə və xidmətlərin idxal və ixracı hər iki dövlətin fiziki və hüquqi şəxsləri arasında bu ölkələrin qanunvericiliyinə və beynəlxalq ticarət praktikasına uyğun olaraq sərbəst qiymətlərlə bağlanan kontraktlar əsasında həyata keçirilir (bax İİR və BR arasında Sazişin 4-cü maddəsinə). Bu səbəbdən xarici iqtisadi kontraktlarda tətbiq olunan hüquq haqqında şərtin əks olunması çox vacibdir. Kontrakta tətbiq olunan hüquq haqqında şərtin olmadığı halında belə tətbiq olunan hüquq kolliziya norması əsasında müəyyən edilir. Bu xarici elementlə əqd üzrə tərəflərin münasibətlərinin hansı ölkənin hüququ üzrə

nizamlanması sualına cavab verir. [***12***, 2] Bununla yanaşı, qeyd etmək lazımdır ki, əmtəənin beynəlxalq alqı-satqısının nizamlanmasını tədqiq edərək, həmdə nəzərə almaq lazımdır ki, Belarusda xarici ticarət müqaviləsinin şərtlərinə və, deməli, həmdə əmtəənin beynəlxalq alqı-satqısı müqaviləsinin şərtlərinə xüsusi tələblər irəli sürülür. [***10***, 11]

İran İslam Respublikası və Azərbaycan Respublikası arasında hökumətlərarası Ticarət müqaviləsi ilk dəfə 28 oktyabr 1993-cü ildə imzalanmışdır. Onu 5 avqust 2004 bağlanmış və hal-hazırda İran İslam Respublikası və Azərbaycan Respublikası arasında hərtərəfli iqtisadi və ticarət əməkdaşlığının əsas parametrlərini müəyyən edən yeni Ticarət müqaviləsi əvəz etdi. [***5***] Bu müqavilə preambula və 23 maddədən ibarətdir. Müqavilənin 1-ci maddəsi müəyyən edir ki, iki ölkə arasında məhsul və xidmətlərlə qarşılıqlı mübadilə, və həmdə iki ölkənin fiziki və hüquqi şəxslərinin bağladıqları müqavilə və sazişlər bu ticarət müqaviləsi əsasında, və həmdə razılığa gələn tərəflərin hər birinin milli qanunvericiliyinə uyğun olaraq həyata keçiriləcəkdir. Beləliklə, müqavilədə, iki ölkənin təsərrüfat subyektləri arasında ticarət sazişləri daxil olmaqla, xarici iqtisadi və ticarət əqdlərinin bağlanması qaydası nizamlanır. Idxal-ixrac əməliyyatların həyata keçirilməsi prosesində ödəmələrin nizamlanması məsələsinə həsr olunmuş müqavilənin 7-ci maddəsi vacib əhəmiyyətə malikdir. Bu maddə müəyyən edir ki, bütün beynəlxalq qarşılıqlı hesablaşmalar, bu müqaviləyə və razılığa gələn tərəflərin milli qanunvericiliyinə uyğun olaraq sərbəst valyutada həyata keçiriləcəkdir. Bununla da ticarət əməliyyatlarının həyata keçirilməsinin ən mürəkkəb problemlərindən biri həll olunur. Heç də sirr deyil ki, həll olunmamış qarşılıqlı maliyyə hesablaşmaların həll olunmamış məsələləri faydalı iqtisadi əməkdaşlığı dayandırmaq qabiliyyətinə malikdir. Bu xüsusilə o ölkəlrə aiddir ki, onların milli valyutası sərbəst dəyişdirilmir. Müqavilənin 3-cü maddəsi nəzərdə tutur ki, bu ölkələrin milli qanunvericiliyinə müvafiq olaraq əgər müqavilə tərəfləri arasında digər razılaşma əldə edilməyibsə, üçüncü ölkələrə malların reeksportu bu müqavilə əsasında həyata keçiriləcəkdir. Qeyd etmək lazımdır ki, müqavilənin bu müddəası onu, tədarükçü ölkənin ilkin razılığı olmadan tədarük edilən malların reeksportunun qadağan edilməsi haqqında müddəanın əks olunduğu Azərbaycanın digər dövlətlərlə bağladığı analoji ticarət müqavilələrindən fərqləndirir. [***7***, 244]

Ticarət müqaviləsində həmdə müəyyən edilir ki, tərəflər onların fiziki və hüquqi şəxsləri tərəfindən beynəlxalq ticarət metodlarından istifadə etməsini həvəsləndirəcəklər. Məsələn, bu malların tədarükü şərtlərinə, müxtəlif növlü xarici iqtisadi əməliyyatlarını və əqdlərini həyata keçirən kommersiya strukturları arasında qarşılıqlı hesablaşmaların aparılmasına, bank əməliyyatlarının aparılmasına və s. aiddir. Müxtəlif növlü xarici iqtisadi əqdlər belə xarici iqtisadi əməliyyatların həyata keçirilməsinin hüquqi forması şəklində çıxış edir. Belə ki, xarici iqtisadi əməliyyatların əsas hissəsi xarici ticarət əqdlərinin üzərinə düşdüyündən onların arasında xarici ticarət alqı-satqı müqaviləsi (əqdi) xüsusi yer tutur. Malların beynəlxalq alqı-satqısı üzrə müqavilələr haqqında 1980-cı il tarixli Vyana konvensiyası belə müqavilələr altında kommersiya müəssisələri müxtəlif dövlətlərdə yerləşən tərəflər arasında bağlanmış malların alqı-satqısı əqdlərini başa düşür. [***8***, 200] Həmdə xarici ticarət əqdləri malların ixracı və idxalı üzrə fərqlənirlər. Barter əqdləri daxil olmaqla, valyutasız əsasında müxtəlif növlü əmtəə mübadiləsi və kompensasiya əqdlərinin bağlanması mümkündür. İranın təsərrüfat subyektlərinə Azərbaycanda, və müvafiq olaraq, Azərbaycanın təsərrüfat subyektlərinə İranda verilən rejimin müəyyən edilməsi vacib əhəmiyyət kəsb edir. Müqavilənin 5-ci maddəsi, faktiki olaraq, vergilər (o cümlədən kömrük vergiləri) üzrə, qarşılıqlıq prinsipi əsasında, bu ölkələrin təsərrüfat subyektlərinə aid milli rejimin verilməsini nəzərdə tutur. Beləliklə, bir ölkənin milli şəxslərinə (fiziki və hüquqi) yayılan hüquqi rejim, müvafiq məsələlərdə, digər tərəfin təsərrüfat subyektlərinə də yayılır. Öz mənası və mahiyyətinə görə bu maddəyə müqavilənin 12-ci maddəsi də yaxındır. Bu maddədə nəzərdə tutulur ki, razılığa gələn tərəflərin hər birisi, öz milli qanunvericiliyinə uyğun olaraq, öz ərazisində digər tərəfin müəssisə və kommersiya təşkilatları nümayəndəliklərinin yaradılmasına icazə verəcəkdir və onlara üçüncü ölkələrin müəssisə və kommersiya təşkilatları nümayəndəliklərinə verilmiş rejimdən az əlverişli olan rejimi tətbiq etməyəcəkdir.

Bizim fikrimizcə, burada ən çox əlverişlilik rejiminin verilməsindən danışmaq olar. Belə ki, bu halda razılığa gələn tərəflərin hər birinin müəssisə və kommersiya təşkilatları nümayəndəliklərinə ümumi yox, bu dövlətlərdə, müvafiq məsələlərdə, hər hansı bir üçüncü dövlətin şəxslərinə verilən hüquqi rejimlərdən ən yaxşısı verilir. [***9***, 37] Müqavilənin 15-ci maddəsi nəzərdə tutur ki, razılığa gələn tərəflər öz ölkələrinin fiziki və hüquqi şəxsləri arasında beynəlxalq ticarət üsullarının tətbiq edilməsini, birgə müəssisələrin yaradılmasını və uzunmüddəyli kommersiya əməkdaşlığını həvəsləndirəcəklər.

İran İslam Respublikası və Azərbaycan Respublikası arasında Ticarət müqaviləsində, əgər razılığa gələn dövlətlər arasında, onların qanunvericiliyinə uyğun olaraq, başqa saziş əldə edilməyibsə, tədarükçü ölkənin ilkin razılığı olmadan malların təkrar ixracatının azad rejimi nəzərdə tutulub (müqavilənin 2-ci

maddəsi). Lakin İRİ və Rusiya Federasiyası arasında Ticarət müqaviləsində nəzərgə tutulub ki, bir dövlətdən digərinə idxal edilən mallar üçüncü dövlətlərə təkcə ixracatcı ölkənin səlahiyyətli orqanlarının əvvəlcədən yazılı razılığı verildikdən sonra təkrar ixrac oluna bilərlər (müqavilənin 6-cı maddəsi). İRİ və Belarus arasında Ticarət müqaviləsində isə bu məsələyə heç toxunulmur.

Beləliklə, aparılmış müqayisəli-hüquqi təhlil belə bir nəticəyə gəlməyə imkan verir ki, bu müqavilələrdə tərəflər digər tərəfin təsərrüfat subyektlərinə ya milli rejim, ya da ki, ən çox əlverişlilik rejimi verir. Bizim fikrimizcə, dövlətlər bir birinə ən çox əlverişlilik rejimi verdiyi hallarda xarici iqtisadi fəaliyyətin inkişafı üçün ən yaxşı şərtlər təmin edilir. Belə rejimdə razılığa gələn tərəflərin tərəfdaş ölkədə kommersiya təsərrüfat subyektlərinə kömrük, vergi və digər imtiyazlardan tam həcmdə istifadə olunması üçün əlverişli şərait yaranır.

Açar sözlər: beynəlxalq ticarət əlaqələri, sazişlər kompleksi, ticarət dövriyyəsi, ticarət və əməkdaşlıq haqqında saziş, xarici-iqtisadi əqdlər, maliyyə hesablaşmaları, hüquqi rejim.

İstifadə olunmuş ədəbiyyat

1.Azerbaydjan i Иran namerenı uveliçitğ tovarooborot//_УРЛ :http:// day.az/news/ politics/ 85492.html

2.Belorussko-iranskie otnoşeniə na sovremennom gtape// http://nnm.ru/blogs/master222/

3.Boquslavskiy M.M. Mejdunarodnoe çastnoe pravo.M., 1986 - 304 s.

4.Belarusğ i Иran uveliçivaöt tovarooborot //http://portal.trend.az/capital/business/1761689.html

5.Torqovıy doqovor mejdu Пravitelğstvom Azerbaydjanskoy Pespubliki i Пravitelğstvom İslamskoy Pespubliki İran//«Cvod zakonov Azerbaydjanskoy Pespubliki», 2005, № 3. (na azerb. əzıke)

6.Mıkola Ciruk. Ukraina-Иran. Costoənie i perspektivı sotrudniçestva//http://www.defense-ua.com/rus/news/?id=9629

7.Эfendiev O., Aliev Э.Bneşne-gkonomiçeskaə deətelğnostğ sovremennoqo Azerbaydjana. Baku, 2007.- 328 s.

8.Boquslavskiy M.M. Mejdunarodnoe çastnoe pravo: Uçebnik.- 2-e izd., pererab. i dop.- M.; Mejdunar. otnoşeniə, 1994.- 416 s.

9.Шumilov B.M. Mejdunarodnoe finansovoe pravo: uçebnik. - M.: Mejdunar. otnoşeniə, 2005.- 432 s.

10.Фunk Я.И. Пravo mejdunarodnoy torqovli: doqovorı mejdunarodnoy kupli-prodaji tovarov i mejdunarodnoqo torqovoqo posredniçestva. B 3 kn. Kn.1. Yniversalğnaə mejdunarodno-pravovaə unifikaüiə kupli-prodaji tovarov. – Mn.: Дikta, 2005.- 282 s.

11.Итоqi vizita premğer-ministra Ukrainı v Иran //http://elvisti.com/node/12480

12.Pozenberq M.Г. Mejdunarodnaə kuplə-prodaja tovarov: Kommentariy k pravovomu requlirovaniö i praktike razreşeniə sporov. M,: «Ctatut», 2004.- 352 s.

13.Torqovoe soqlaşenie Пravitelğstva Pespubliki Belarusğ i Пravitelğstva Иslamskoy Pespubliki Иran ot 11 maə 1994 q.//УРЛ:http://pravo.levonevsky.org/bazaby/mdogov/megd4023.htm

14.Mejdunarodnoe pravo: Uçebnik. Otv. red. Ю.M. Kolosov, B.И. Kuzneüov.- M.; 1999.- 624 s.

Ceyid Abdolla XOSEYNI

MEJDUNARODNIY TORQOVIY DOQOVOR V SISTEME PRAVOVOQO REQULIROVANIƏ GKONOMIÇESKIX OTNOŞENIY ИRANA S POSTSOVETSKIMI QOSUDARSTVAMI

Pezöme

B statğe rassmatrivaötsə rolğ i znaçenie mejdunarodnoqo torqovoqo doqovora (soqlaşeniə) v sisteme gkonomiçeskix doqovorov i soqlaşeniy, napravlennıx na pravovoe requlirovanie vsey sistemı torqovo-gkonomiçeskix svəzey Иrana s postsovetskimi stranami. Ha osnove provedennoqo sravnitelğno-pravovoqo analiza avtor prixodit k zaklöçeniö, çto nailuçşie usloviə dlə razvitiə vneşnegkonomiçeskoy deətelğnosti obespeçivaötsə v tex sluçaəx, koqda stranı predostavləöt druq druqu rejim naibolğşeqo blaqopriətstvovaniə.

Klöçevıe slova: mejdunarodnıe torqovıe svəzi, kompleks kontraktov, kontraktı po torqovle i sotrudniçestvu, finansovıe rasçetı, pravovoy rejim.

Seyid Abdallah HOSSEYNI

INTERNATIONAL TRADE AGREEMENT IN THE SYSTEM OF LEGAL REGULATION OF ECONOMIC RELATIONS BETWEEN IRAN AND POST-SOVIET STATES

Summary

The article considers the role and importance of the international trade contract (agreement) in the system of economic treaties and agreements aimed at legal regulation of the entire system of trade and economic ties between Iran and former Soviet countries. Based on comparative legal analysis, the author concludes that the best conditions for the development of foreign economic activity are provided in cases when the countries provide each other with the rejime of better treatment.

Keywords: international labour ties, complex of contacts, trade and collaboration contracts, financial accounts, legal rejime.

UOT 343.1

Vasif QASIMOV
AMEA FSHİ -nin dissertantı

CİNAYƏT MÜHAKİMƏ İCRAATINDA ŞƏXSİYYƏTİN DÖVLƏT MÜDAFİƏSİ VƏ TƏHLÜKƏSİZLİYİNİN TƏMİN EDİLMƏSİ ANLAYIŞI*

Cinayət prosesində iştirak edən şəxslərin hüquqlarının müdafiəsi, bu hüquqların pozulduğu hallarda isə onların bərpası təmin edilmədən cinayət mühakimə icraatının vəzifələrini realizə etmək və ədalət mühakiməsinin effektivliyini artırmaq mümkün deyil. Ədalət mühakiməsinin effektivliyinin artırılması ilk növbədə ədalət mühakiməsinin həyata keçirilməsinə və cinayətkarlığa qarşı mübarizəyə lazımi şərait yaratmaq məqsədilə "sübut daşıyıcılarının" və onlarla işləyən şəxslərin təhlükəsizliyinin təmin olunmasını tələb edir. Sonuncuya cinayət prosesində iştirak edən şəxslərin dövlət müdafiəsi institutunun tətbiqi ilə nail oluna bilər.

Ədəbiyyatda cinayət prosesində iştirak edən şəxslərin dövlət müdafiəsi institutunun yaradılması zərurəti haqlı olaraq bu institutun şəxsiyyətin konstitusion hüquq və azadlıqlarına zəmanət verəcəyi və cinayət mühakimə icraatında iştirak edən bütün şəxslərin təhlükəsizliyinin təmin edilməsinə aid sahəvi hüquq və vəzifələrin həyata keçirilməsinə təminat verəcəyi ilə izah edilirdi (4, s.83).

N.S.Tomilova zərər çəkmiş şəxslərin, şahidlərin və cinayət prosesinin digər iştirakçılarının dövlət müdafiəsinə müxtəlif hüquq normaları ilə nizama salınan sahələrarası kompleks institut kimi baxır (22, s. 31). L.V.Brusnitsın da həmin institutun sahələrarası kompleks xarakterə malik olması fikrini müdafiə edir (3, s. 94). Dövlət müdafiəsi institutunun kompleks xarakterə malik olması müdafiə tədbirlərinin müxtəlif hüquq sahələrinə aid normalarla tənzimlənməsi ilə əlaqədardır. Bununla belə, şəxsiyyətin dövlət müdafiəsinə zərurət cinayət-prosessual fəaliyyətlə əlaqədar yarandığına görə bu institut cinayət prosesinə aid edilir.

Cinayət mühakimə icraatı iştirakçılarının dövlət müdafiəsi müasir elmin hələ az işlənilmiş kateqoriyalarına aid edildiyindən "dövlət müdafiəsi" və "şəxsiyyətin təhlükəsizliyinin təmin edilməsi" anlayışlarına aydınlıq gətirilməsi vacibdir (11, s. 18). Bunun üçün, ilk növbədə, "dövlət müdafiəsi" və "təhlükəsizlik" sözlərinin mənasını araşdırmağa çalışaq. Azərbaycan dilinin izahlı lüğətinə əsasən, müdafiə: 1) özünü, ya başqasını hücumdan qoruma, hücuma qarşı durma, 2) birisinin əleyhinə deyilən sözlərə cavab verməklə onun tərəfini saxlama, ona tərəf çıxma, 3) düşməni dəf etmək üçün lazımı vasitələrin məcmusudur, təhlükəsizlik isə heç bir təhlükə olmadığı hal, vəziyyət, şərait mənasını bildirir (1, s. 284; 2, s. 122).

Qeyd etmək lazımdır ki, semantik mənası ilə yanaşı, hüquq ədəbiyyatında müdafiə və təhlükəsizlik sözləri hüquqi anlamda da izah edilmişdir. Məsələn, A.Y.Yepixinə görə, təhlükəsizlik vəziyyət, bəzən hiss, müdafiə isə birinci mənada proses, ikinci mənada predmetdir. Hər iki anlayışda ümumi element təhlükə sözü hesab edilir (8, c. 46). Təhlükə isə: 1) hər hansı zərər, bədbəxtlik gətirən qabiliyyət; 2) təhlükəli bir şeyə təhdid imkanıdır (17, s. 364).

Təhlükəsizlik vəziyyət, hal olduğundan təhlükəsiz yerdə olma, bəzən müdafiə altında olma deməkdir. Hiss kimi təhlükəsizlik şəxsiyyətin yerləşdiyi yerə, zamana, cəmiyyətə subyektiv münasibətidir, təhlükəsiz yerdə, müdafiə altında olma hissidir (8, s. 46).

Başqa bir mənbəyə görə təhlükəsizlik "şəxsiyyətin, cəmiyyətin və dövlətin həyati vacib maraqlarının dövlətdə siyasi, iqtisadi və sosial stabilliyin yaradılmasını, müttəfiqlik əsasında beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsini, qanunlara birmənalı riayət olunmasını və hüquq qaydasının qorunub saxlanmasını nəzərdə tutan siyasi, iqtisadi, sosial, hərbi, texnogen, ekoloji, informasiya və digər xarakterli daxili və xarici təhlükədən müdafiəsidir (21, s. 82). Qısaca, təhlükəsizlik dedikdə, şəxsin həyati əhəmiyyətli maraqlarının, cəmiyyətin və dövlətin daxili və xarici təhlükədən müdafiə vəziyyəti başa düşülür (22, s. 49).

N.V.Şedrinə görə, təhlükəsizlik qəsddən, təhlükəli düşmən hərəkətlərindən hər hansı pis şeydən, bədbəxtlikdən müdafiə, mühafizə, qoruma, qarşısını alma vasitələri və ya tədbirləridir (25, s. 46-47). L.V.Brusnitsın təhlükəsizlik dedikdə, fərdin fiziki və psixi vəziyyətinin müdafiəsini nəzərdə tutur (4, s. 3). Ümumiyyətlə, "təhlükəsizlik" termini mürəkkəb struktura malik olan kompleks anlayışdır və müxtəlif

* Məqalə hüquq üzrə f.d. F.Xəlilov tərəfindən çapa məsləhət bilinib.

sahələrdə (milli təhlükəsizlik, ekoloji, iqtisadi, texniki, cinayət-prosessual və s.) öz sahəvi aidiyyətinə uyğun istifadə olunur. Məsələn, "Milli təhlükəsizlik haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən, Azərbaycan Respublikasının milli təhlükəsizliyi – dövlətin müstəqilliyinin, suverenliyinin, ərazi bütövlüyünün, konstitusiya quruluşunun, xalqın və ölkənin milli maraqlarının, insanın, cəmiyyətin və dövlətin hüquq və mənafelərinin daxili və xarici təhdidlərdən qorunmasının təmin edilməsidir. «Texniki Təhlükəsizlik haqqında» Azərbaycan Respublikası Qanununun 1-ci maddəsində bu terminə belə bir anlayış verilmişdir: "Texniki təhlükəsizlik vətəndaşların və cəmiyyətin vacib həyati maraqlarının təhlükə potensiallı obyektlərdə baş verə biləcək qəzalardan müdafiəsinin vəziyyətidir". Göründüyü kimi, təhlükəsizliyin izahı üçün bir qanunda qorunma, digər bir qanunda isə müdafiə sözündən istifadə edilir və hər bir halda təhlükəsizlik sahəvi aidiyyətinə uyğun olaraq təhdid və qəza kimi, ziyanlı təsirlər barəsində işlənilir.

Hüquq ədəbiyyatında təhlükəsizlikdən daha çox təhlükəsizlik tədbirlərinin anlayışı verilir (25, s. 50-58). L.V.Brusnitsın cinayət prosesində tətbiq edilən təhlükəsizlik tədbirlərinin digər təhlükəsizlik tədbirlərindən onların tətbiq olunduğu şəxslərin dairəsinə (cinayət prosesini həyata keçirən, ona kömək edən şəxslər və onların yaxınları), sferasına (cinayət mühakimə icraatı gedişatında və ondan kənarda), cinayət qanunu ilə qadağan edilmiş postkriminal təsirin məzmununa (təhlükəsizliyin təmin edilməsi üsuluna) və digər əlamətlərə görə fərqlənən qabaqlayıcı hüquqi vasitələr olduğunu qeyd edir (3, s. 79).

"Cinayət prosesində iştirak edən şəxslərin dövlət müdafiəsi haqqında" Azərbaycan Respublikası Qanununun 4-cü maddəsinə əsasən, müdafiə olunan şəxslərin təhlükəsizliyinin təmin edilməsi bu şəxslərin həyatının və sağlamlığının, əmlakının qorunması məqsədilə səlahiyyətli dövlət orqanları tərəfindən hüquqi, təşkilati-texniki və digər tədbirlərin həyata keçirilməsindən ibarətdir.

M.P.Fadeyevin qeyd etdiyi kimi, "təhlükəsizliyin təmin edilməsi" belə bir fəaliyyəti bütünlüklə əks etdirə bilməz və bir çox aspektlər sadəcə onun hüdudlarından kənarda qalır. Araşdırılan fəaliyyətin məzmununa daha çox "dövlət müdafiəsi" ifadəsi uyğun gəlir və bu zaman təhlükəsizliyin təmin edilməsi onun tərkib hissəsi kimi çıxış edir (23, s. 22-23).

Fikrimizcə, təhlükəsizliyin təmin edilməsi təhlükəsizlik tədbirlərinin həyata keçirilməsi yolu ilə təhlükəsiz vəziyyətə nail olunmasıdır. Bu ifadə daha çox buna səlahiyyəti olan şəxslərin təhlükəsizliyi təmin etmək vəzifəsi, öhdəliyi mənasında işlənir. Hüquqda təhlükəsizlik və müdafiə ilə yanaşı mühafizə və qoruma terminlərindən də istifadə edilir. Onların cinayət prosesində işlənməsi ilə bağlı müxtəlif fikirlər irəli sürülür. Məsələn, Z.V.Makarovaya görə, "mühafizə" "müdafiə" anlayışına daxildir. Mühafizə etmək pozuntuya yol verilməməsi, müdafiə etmək isə yalnız pozuntuya yol verilməməsi deyil, həm də qəsddən qorumaq deməkdir (12, s. 217).

"Müdafiə" və "təhlükəsizlik" anlayışlarını eyniləşdirmək olmaz (16, s. 16). A.Y.Yepixin hesab edir ki, təhlükəsizlik, mühafizə və müdafiə terminlərinə sinonim sözlərdən daha çox cinayət mühakimə icraatında şəxsiyyətin qanuni maraqlarının, təhlükəsizliyinin təmin edilməsi vasitəsi kimi baxılır və onlardan bu cür istifadə edilir (8, s. 52). O.A. Zaytsevin fikirincə, müdafiə anlayışı şəxsiyyətin subyektiv hüquqlarının mühafizəsi kimi, bu hüquqların daşıyıcısının real müdafiəsini xarakterizə edən təminatları da əhatə edir (9, s. 13). Belə ki, «müdafiə» anlayışı mahiyyətcə «mühafizə» anlayışından genişdir (19, s. 68-72).

A.A. Yunusov "qoruma" kimi yeni bir hüquqi termin irəli sürür ki, bu da dövlət orqanlarının, vəzifəli şəxslərin, ictimai təşkilatların qanunla tənzimlənən aşağıda qeyd edilmiş istiqamətə yönəlmiş fəaliyyəti mənasını nəzərdə tutur: cinayət prosesi iştirakçılarına və onlarla əlaqəli şəxslərə qarşı olan hüquqazidd təsirin qarşısının alınması; cinayət prosesi iştirakçılarının və onlarla əlaqəli şəxslərin şəxsi təhlükəsizliyinin təmin edilməsi; onların əmlakının, hüquq və maraqlarının müdafiəsi; sosial-psixoloji reabilitasiya; cinayət mühakimə icraatına cəlb edilmiş və ya ona kömək edən şəxslərə qayğı göstərilməsi və rahat şəraitin yaradılması (26, s. 18).

Bununla A.AYunusov "müdafiə" və "təhlükəsizliyin təmin edilməsi" anlayışlarının bu fəaliyyəti tam əhatə etmədiyini göstərməyə çalışır. Çünki göstərilən fəaliyyət istiqamətləri çox genişdir. Cinayət mühakimə icraatına kömək etmək üçün cəlb edilmiş şəxslərə qayğı göstərilməsini və onlara rahat şərait yaradılmasını əslində onların konstitusion hüquqları tələb edir. Bu tələbin yerinə yetirilməsi cinayət mühakimə icraatına kömək edən şəxsləri hər hansı bir narahatçılıqdan qurtarmış olur və bununla vətəndaşları öz vətəndaşlıq borcunu həyata keçirməyə həvəsləndirmiş olur. Bundan başqa, müdafiə olunan və ya qorunan şəxslərin sosial-psixoloji reabilitasiyası da vacib məsələlərdən biridir. Cinayət işində şahidlik edərək öz həyatını təhlükəyə atan şəxsə hər hansı qəsd edilməsindən asılı olmayaraq belə bir hədənin

mövcudluğu psixoloji narahatlıq keçirilməsinə səbəb olduğundan onların sosial-psixoloji reabilitasiya olunmasına ehtiyac vardır.

A.Y.Yepixin hesab edir ki, təhlükəsizlik və müdafiə anlayışı təhlükədən və son nəticədə zərərdən qorunmanı bildirir. Belə ki, təhlükə özü-özlüyündə potensial zərərdir (8, s. 46). E.P. Qavrilov hesab edir ki, mühafizə ümumi-hüquqi rejimin müəyyən olunmasıdır, müdafiə isə onlar pozulduğu halda tətbiq olunan tədbirlərdir (6, s. 217). N.İ.Matuzova görə isə "şəxsin hüquqları daima mühafizə olunur, müdafiə isə yalnız onlar pozulduğu zaman həyata keçirilir (13, s. 131).

Tədqiqatçıların əksəriyyəti qeyd olunan fəaliyyətlə bağlı məhz «müdafiə» termininin işlənilməsini fərqli şəkildə əsaslandırmağa çalışırlar. Məsələn, O.V. Levçenko hesab edir ki, cinayət mühakimə icraatının iştirakçılarına münasibətdə «müdafiə» termini işlənilməlidir, çünki o, proses iştirakçılarının ədalət mühakiməsinə kömək göstərməsinə görə hüquqazidd təsirə məruz qaldığı halda tətbiq olunan müxtəlif tədbirlərin məcmusunu nəzərdə tutur. Bu sistemə qüvvədə olan qanunvericilikdə nəzərdə tutulmuş cinayət-prosessual təhlükəsizlik tədbirləri də daxildir (11, s. 28).

N.S.Tomilovanın fikrincə, cinayət-prosessual kontekstdən "müdafiə" və təhlükəsizlik" anlayışlarını ayırmağa ehtiyac yoxdur və bu anlayışlar bir-birinin əvəzləyicisi ola bilər. Buna baxmayaraq "müdafiə" daha geniş olduğundan və qanunvericilikdə təsbit edildiyindən ondan istifadə edilməsi daha məqsədəuyğundur (22, s. 52).

Fikrimizcə, müdafiə, təhlükəsizlik, mühafizə və qoruma bilavasitə təhlükə ilə əlaqədar işlənən sözlərdir. Onların heç biri sinonim sözlər deyil və bu baxımdan hər birinin mənası və işləndiyi sahələr var. Real təhlükənin mövcudluğu halında onun ziyan vura bilmədiyi təhlükəsiz vəziyyətin yaradılması, məlum obyektin – həyatın, səhhətin, şərəf və ləyaqətin, əmlakın bütövlüyünün, salamatlığının təmin edilməsi üçün müəyyən üsul və vasitələrdən istifadə olunması dövlət müdafiəsi adlanır. Mühafizə və qoruma isə dövlət müdafiəsinin üsul və vasitələrinə aiddir.

Beləliklə, təhlükəsizlik son vəziyyət kimi məqsəd hesab edilir və müdafiənin nəticəsi olmalıdır, müdafiə isə öz növbəsində təhlükəsizliyə nail olunmasının və onun təmin edilməsinin vasitəsi kimi çıxış edir (8, s. 47).

Tədqiqat predmetinə dövlət müdafiəsinin tərkib elementi kimi, cinayət prosesində şəxsiyyətin təhlükəsizliyinin təmin edilməsi daxil olduğundan hüquq ədəbiyyatında bu barədə söylənilmiş fikirlərin də təhlili zəruridir. Demək olar ki, tədqiqatçıların hamısı cinayət mühakimə icraatında təhlükəsizliyi müdafiə olunan vəziyyət kimi xarakterizə edirlər. Məsələn, M.V.Novikova cinayət mühakimə icraatında təhlükəsizlik dedikdə, cinayət mühakimə icraatı iştirakçısının həyatının, sağlamlığının, hüquqlarının və qanuni maraqlarının, habelə əmlakının hər hansı bir qəsddən müdafiəsi vəziyyəti və göstərilən şəxslərin cinayət prosesində öhdəliklərini qərərsiz yerinə yetirməsi və hüquqlarını həyata keçirməsi imkanının mövcudluğunu nəzərdə tutur (16, s. 14).

V.V.Voynikov hesab edir ki, cinayət prosesində təhlükəsizlik cinayət prosesi subyektinin, onların qohumlarının və yaxınlarının həyatının, sağlamlığının, əmlak hüquqlarının; xidməti sirrin; ibtidai araşdırma orqanlarının və məhkəmələrin ədalət mühakiməsinin həyata keçirilməsi üzrə vəzifələrinin real və mümkün təhlükədən səlahiyyətli subyektlər tərəfindən cinayət-prosessual, inzibati, əməliyyat-axtarış tədbirləri, habelə kriminalistik tövsiyələr vasitəsilə müdafiəsi vəziyyətidir (5, s. 8).

Göründüyü kimi, müdafiə təhlükəsizliklə sırf əlaqəli anlayışdır və təhlükəsizlik müdafiənin son məqsədidir. Cinayət proresində müdafiə ənənəvi olaraq şübhəli və təqsindirilən şəxsin müdafiə hüququnun təmin edilməsi ilə əlaqələndirilir (18, s. 60-61). Bu, cinayət-proressual funksiyaların xarakterindən irəli gəlir. Belə ki, «müdafiə» sözü bu mənada təqsirləndirilən və şübhəli şəxsin ittihamdan müdafiəsi mənasında işlənir.

"Dövlət müdafiəsi" ifadəsi cinayət mühakimə icraatında iştirak edən şəxslərin təhlükəsizliyinin təmin olunması üçün müvafiq tədbirlərin həyata keçirildiyini bildirir. Məhz bu ifadə onu cinayət prosesində mövcud olan "şübhəli və təqsirləndirilən şəxsin müdafiə institutu"ndan fərqləndirməyə imkan verir.

O.A.Zaytsevin qeyd etdiyi kimi, cinayət mühakimə icraatı vəzifələrinin yerinə yetirilməsinə yönəlmiş cinayət-prosessual fəaliyyəti həyata keçirən bütün şəxslərin hüquqlarının və qanuni maraqlarının müdafiəsini təmin etməyə borclu olan əsas təşkilat dövlət adından çıxış etdiyindən, bu halda "dövlət müdafiəsi" ifadəsindən istifadə olunması məqsədəuyğundur. Belə yanaşma bu anlayışı ittihama əks funksiya olan müdafiədən fərqləndirməyə imkan verir (9, s. 15). Şübhəli və təqsirləndirilən şəxslərin müdafiə hüququ ittihamın təkzib olunması üçün imkanın verilməsini (ifadə vermək, sübutlar təqdim etmək və s.) və bu məqsədlə vəkilin xidmətindən istifadəni nəzərdə tutduğu halda, dövlət müdafiəsi müdafiə olunan şəxslərə təhlükəsizlik, hüquqi və sosial xidmətlərin göstərilməsi deməkdir. Şübhəli və

təqsirləndirilən şəxslərin müdafiə hüququ özü və vəkili tərəfindən həyata keçirildiyi halda, dövlət müdafiəsi dövlət adından çıxış edən orqanlar tərəfindən həyata keçirilir.

Cinayət prosesində iştirak edən şəxslərin dövlət müdafiəsi mənasında müdafiə dövlət tərəfindən, yəni onu təmsil edən orqanlar tərəfindən həyata keçirilir. Bu halda müdafiənin obyekti genişdir. Bura həm həmin şəxslərin şəxsi mühafizəsi, təhülkəsizliyi, onların qohumlarının, yaxınlarının təhlükəsizliyi, həm də əmlakının, mənzilinin mühafizəsi daxildir.

Bu ifadənin işlənilməsi "dövlət müdafiəsi" anlayışını "müdafiə hüququ", "məhkəmə müdafiəsi", "müdafiə tərəfi" kimi institutlardan fərqləndirməyə imkan verir (11, s. 32). Bundan başqa, bu institut vasitəsi ilə dövlət cinayətin açılması və cinayət törətmiş şəxslərin ifşa olunması üçün hüquq-mühafizə orqanları ilə əməkdaşlıq edən şəxslərin təhlükəsizliyinə təminat verir. Ona görə də o, dövlət müdafiəsi adlanır.

A.V. Moskalenko qeyd edir ki, "dövlət müdafiəsi" söz birləşməsi bu instituta nəzərən daha çox tədqiq olunan fəaliyyətin məzmununa uyğundur, təhlükəsizliyin təmin olunması isə onun tərkib hissəsidir. Axı məhz konstitusion və digər qanunvericilik göstərişləri belə bir qənaətə gəlməyə əsas verir ki, cinayət mühakimə icraatının vəzifələrinin yerinə yetirilməsinə yönəlmiş cinayət-prosessual fəaliyyəti həyata keçirən bütün şəxslərin hüquqlarının və qanuni maraqlarının müdafiəsini təmin etməyə borclu olan əsas təşkilat kimi məhz dövlət çıxış edir (14, s. 13-14).

Geniş mənada müdafiə hüquqlara qəsd edilərkən, onlar məhdudlaşdırılarkən və ya onların pozulmasına real təhlükə yaranarkən həyata keçirilən fəaliyyət hesab edilir. Məsələn, A.M. Larinin fikrincə, müdafiə dedikdə, "insanın hüquq və azadlıqlarının mümkün pozuntulardan, qəsdlərdən bütünlüklə mühafizəsi və pozuntunun qarşısını almaq və ya qəsdi aradan qalıdrmaq mümkün olmadıqda insan hüquq və azadlıqlarına vurulmuş ziyanın ödənilməsi üzrə həyata keçirilən müxtəlif fəaliyyət nəzərdə tutulur (10, s. 58).

A.M. Larinin bu fikrinə münasibət bildirən N.S. Tomilova hesab edir ki, həmin anlayışda müəllif tərəfindən müdafiə anlayışına insan hüquq və azadlıqlarına vurulmuş ziyanın ödənilməsi məsələsinin daxil edilməsi mühüm əhəmiyyət kəsb edir. Bu onu söyləməyə əsas verir ki, müdafiə pozulmuş hüquqi tarazlığın bərpasını nəzərdə tutur (22, s. 47).

A.M. Larinin verdiyi anlayışda cinayətkar qəsdin qarşısı alına bilmədikdə, müdafiə olunan şəxsə vurulmuş ziyanın ödənilməsinin nəzərdə tutulması bu institutun sırf cinayət-prosessual xarakterli olmaması mənasını verir. Çünki cinayət prosesində bu qaydada ziyanın ödənilməsi proseduru mövcud deyil. Bu növ ziyanın ödənilməsi məsələsinə yalnız mülki qaydada baxıla və o, həll oluna bilər.

A.V.Moskalenko hesab edir ki, məhkəmə baxışı iştirakçılarının dövlət müdafiəsi məhkəmə baxışında iştirak edən şəxslərin, habelə onların yaxın qohumlarının və yaxınlarının həyatının, sağlamlığının, şəxsi (cismani) təhlükəsizliyinin, əmlakının, şərəf və ləyaqətinin müdafiəsi məqsədilə məhkəmələr və digər səlahiyyətli dövlət orqanları, habelə onların vəzifəli şəxsləri tərəfindən tətbiq olunan qanunla müəyyən olunmuş təhlükəsizlik, hüquqi və sosial müdafiə tədbirlərinin məcmusudur (15, s. 38).

O.A.Zaytsevə görə, cinayət proresi iştirakçılarının dövlət müdafiəsini səlahiyyətli dövlət orqanları tərəfindən həmin şəxslərin cinayət mühakimə icraatında fəaliyyəti ilə əlaqədar həyatına, sağlamlığına, şəxsi toxunulmazlığına, şərəf və ləyaqətinə, əmlakına təhlükə olduğu halda tətbiq olunan və qüvvədə olan qanunvericiliklə nəzərdə tutulmuş təhlükəsizlik, hüquqi və sosial müdafiə tədbirlərinin həyata keçirilməsi kimi müəyyən etmək olar (9, s. 27). Buna yaxın bir anlayış M.P.Fadeyev tərəfindən irəli sürülür: "Cinayət mühakimə icraatına kömək edən şəxslərin dövlət müdafiəsi müdafiə olunan şəxslərin hüquqqlarının və pozulmuş maraqlarının təmin edilməsi və ya bərpa edilməsi məqsədilə, habelə onların ədalət mühakiməsinə kömək etmələri ilə əlaqədar həyatına, sağlamlığına, şəxsi azadlığına, şəxsi təhlükəsizliyinə, əmlakına, şərəf və ləyaqətinə təhlükə yaranarsa, səlahiyyətli dövlət orqanları və vəzifəli şəxslər tərəfindən beynəlxalq və milli hüquq normaları əsasında həyata keçirilən prosessual hərəkətlərin, təhlükəsizlik, hüquqi və sosial müdafiə tədbirlərinin məcmusudur" (23, s. 10).

M.P.Fadeyev dövlət müdafiəsinə digər tədqiqatçılar kimi təhlükəsizlik tədbirlərinin cinayətkar qəsdin real olduğu zaman tətbiq edilməsi üzrə fəaliyyət kimi anlayış verir və bu fəaliyyətin belə qəsdin aşkar edilməsi, qarşısının alınması və aradan qaldırılmasına yönəlməsi göstərilmir. Belə yanaşma K.D. Şevçenkonun verdiyi aşağıdakı anlayışda öz əksini tapır. Həmin müəllifə görə, dövlət müdafiəsi – səlahiyyətli dövlət orqanları tərəfindən qanunvericilik əsasında və ona uyğun olaraq həyata keçirilən, dövlət hakimiyyət xarakteri kəsb edən və zərər çəkmiş şəxslərə, şahidlərə, cinayət mühakimə icraatına kömək edən digər şəxslərə, onların yaxınlarına, onların həyatının, səhhətinin, əmlakının cinayətkar qəsdlərdən

müdafiəsi və belə qəsd hadisəsinin aşkar edilməsi, qarşısının alınması və aradan qaldırılması məqsədilə təhlükəsizlik tədbirlərinin həyata keçirilməsinə yönəlmiş fəaliyyətdir (24, s. 39).

K.D.Şevçenkonun fikrindən belə çıxır ki, müdafiə hüquqazidd təsirin real şəkildə baş verməsi ilə məhdudlaşdırıla bilməz və əksinə, belə bir təsirin qarşısının alınmasının aktiv aləti kimi ortaya çıxmalıdır. Belə təsəvvür yaranır ki, müəllif dövlət müdafiəsinə konkret məqsəd daşıyan fəaliyyət növü kimi baxır (22, s. 47). N.S. Tomilova hesab edir ki, K.D. Şevçenkonun verdiyi anlayışda pozulmuş hüquqların bərpasına yönəlmiş tədbirlər göstərilmədiyindən müəllifin verdiyi "dövlət müdafiəsi" anlayışı tam hesab oluna bilməz (22, s. 48).

K.D.Şevçenkonun verdiyi anlayışın müsbət cəhəti dövlət müdafiəsinin cinayətkar qəsdin aşkar edilməsi, qarşısının alınması və aradan qaldırılması məqsədilə təhlükəsizlik tədbirlərinin həyata keçirilməsi üzrə fəaliyyət kimi adlandırılmasıdır. Fikrimizcə, bu tamamilə doğru və dövlət müdafiəsinin məqsədlərinə uyğun gələn ifadədir. Belə ki, qəsdin reallığını müəyyən etmək üçün bəzi araşdırmalar aparmaq, əgər bu, realdırsa, onun qarşısını almaq və aradan qaldırmaq daha məqsədəuyğundur. Əks halda təhlükəsizlik tədbirləri müdafiə olunan şəxsin gizlədilməsi təəssüratını yaradır. Hesab edirik ki, ilk növbədə səbəb, təhlükə doğuran amillər aradan qaldırılmalıdır. Lakin bununla yanaşı müdafiə olunan şəxsin təhlükəsizliyinin təmin edilməsinə yönəlmiş tədbirlər görülə bilər.

Deməli, dövlət müdafiəsi yalnız müdafiə olunan şəxslərin həyatının, sağlamlığının, əmlakının cinayətkar qəsdlərdən müdafiəsi üçün təhlükəsizlik tədbirlərinin tətbiq olunması deyil, eyni zamanda, belə qəsdlərin aşkar olunması, qarşısının alınması və aradan qaldırılması üzrə həyata keçirilən fəaliyyətdir.

K.D.Şevçenkonun verdiyi anlayışın çatışmayan cəhəti isə qəsd obyektinin tam göstərilməməsidir. Belə ki, həmin anlayışda qəsd obyekti kimi müdafiə olunan şəxsin həyatı, sağlamlığı və əmlakı göstərilir. Lakin şərəf və ləyaqətin müdafiəsi verilən anlayışda nəzərdə tutulmur. Bundan başqa o, dövlət müdafiəsini bu məqsədlə həyata keçirilən təhlükəsizlik tədbirləri ilə məhdudlaşdırır. Eyni cür yanaşmaya O.V. Şevçenkonun verdiyi anlayışda da təsadüf olunur. O da hesab edir ki, cinayət mühakimə icraatı iştirakçılarının dövlət müdafiəsi səlahiyyətli dövlət orqanlarının həmin şəxslərə və onların yaxınlarına qarşı hüquqazidd əməllərlə hədənin mövcud olduğu halda qanunvericiliklə müəyyən olunmuş təhlükəsizlik tədbirlərinin tətbiq olunması yolu ilə həyata keçirilən fəaliyyətdir (11, s. 43). Halbuki, dövlət müdafiəsi təhlükəsizlik, hüquqi və sosial müdafiə tədbirlərinin kompleksindən ibarətdir.

"Cinayət prosesində iştirak edən şəxslərin dövlət müdafiəsi haqqında" Azərbaycan Respublikası Qanununun təyinatından bəhs edən birinci maddəsinin məzmunundan aydın olduğu kimi, dövlət müdafiəsi qeyd olunan şəxslərin təhlükəsizliyinin təmin edilməsini və sosial müdafiəsini nəzərdə tutan tədbirlər sistemidir. Deməli, dövlət müdafiəsi təhlükəsizlik tədbirlərindən daha geniş anlayışdır. Təhlükəsizlik tədbirlərinin siyahısı həmin qanunun 7-ci maddəsində, sosial müdafiəni nəzərdə tutan tədbirlər isə 22-ci maddədə verilmişdir.

Sosial müdafiə tədbirləri barəsində təhlükəsizlik tədbirləri tətbiq olunan şəxs barəsində tətbiq edilə bilər. Daha dəqiq desək, sosial müdafiə tədbirləri hüquq-mühafizə orqanlarına cinayət hadisəsi haqqında məlumat vermiş və ya cinayətin aşkar edilməsində, qarşısının alınmasında və ya açılmasında iştirak etmiş şəxs barəsində tətbiq olunur.

Beləliklə, dövlət müdafiəsinə verilmiş izahların təhlili belə bir qənaətə gəlməyə əsas verir ki, onun tərkib elementləri haqqında fikir müxtəlifliyi mövcuddur. Lakin nəzərə almaq lazımdır ki, bir sıra mühüm nəzəri məsələlərin tədqiq edilməsi məhz cinayət mühakimə icraatında iştirak edən şəxslərin dövlət müdafiəsinin anlayışının necə verilməsindən və bu anlayışın əsasında hansı kriteriyaların durmasından asılıdır (9, s. 12; 11, s. 21). Hüquq ədəbiyyatında dövlət müdafiəsinin tədqiqi barədə irəli sürülmüş fikirlərin onun təkmilləşdirilməsində əhəmiyyətini və bu məsələlərin daha müfəssəl tənziminin dövlət müdafiəsinə verilən izahdan asılı olduğunu nəzərə alaraq, bu anlayışın tərkib elementlərinin və bu növ fəaliyyətin əsas əlamətlərinin araşdırılmasını zəruri hesab edirik. Bundan başqa, cinayət mühakimə icraatı iştirakçılarının dövlət müdafiəsinin anlayışının müfəssəl şəkildə işlənib hazırlanması yeni CPM normalarının təcrübədə həyata keçirilməsində az əhəmiyyət kəsb etmir (11, s. 21).

O.V.Zevçenko dövlət müdafiəsinin anlayışına daxil olan tərkib elementləri təhlil edərək belə qənaətə gəlir ki, dövlət fəaliyyətinin bu növü bir sıra mühüm əlamətlərə malikdir:

1) belə bir fəaliyyət istənilən üsulla deyil, yalnız xüsusi təhlükəsizlik tədbirləri sisteminin tətbiqi yolu ilə həyata keçirilə bilər. Müəllif onlara cinayət-hüquqi, cinayət-prosessual, inzibati, sosial və s. aid edir;

2) təhlükəsizlik tədbirləri qanunun göstərişlərinə tam uygun tətbiq olunmalıdır;

3) dövlət müdafiəsinin həyata keçirilməsi ilk növbədə xüsusi səlahiyyətli dövlət orqanlarına həvalə edilir;

4) o, müdafiə olunan şəxslər və onların yaxınlarına qarşı hüquqazidd əməllərlə hədələmə mövcud olarsa həyata keçirilir (11, s. 37-41).

Dövlət müdafiəsi fəaliyyətinin qeyd olunan əlamətlərini doğru hesab etsək də, bu əlamətlərin siyahısının tam olmaması qənaətindəyik. Belə ki, onun əsas əlamətlərindən biri dövlət müdafiəsi fəaliyyətinin ədalət mühakiməsinin həyata keçirilməsinə, cinayətlərə qarşı mübarizəyə lazımi şərait yaratmaq məqsədilə və cinayət prosesində iştirak edən şəxslərin cinayət mühakimə icraatına kömək etmələri ilə əlaqədar həyata keçirilməsidir.

Bir məsələyə xüsusi diqqət yetirilməsini zəruri hesab edirik. Belə ki, tədqiqatçıların əksəriyyəti dövlət müdafiəsinin anlayışında yalnız zərər çəkmiş şəxs, şahid, cinayət mühakimə icraatına kömək etmiş digər şəxslər və onların yaxınlarına hüquqazidd təsirlərin göstərilməsindən bəhs edirlər. Halbuki, dövlət müdafiəsi eynilə cinayət prosesini həyata keçirən şəxslərə də aid bir fəaliyyətdir. Bu baxımdan dövlət müdafiəsi vahid bir prosesdir və yalnız tətbiq olunduğu subyektləri fərqlidir.

"Məhkəmə və hüquq mühafizə orqanları işçilərinin dövlət müdafiəsi haqqında" Azərbaycan Respublikası Qanununun təyinatından bəhs edən 1-ci maddəsinə əsasən, özlərinin təhlükəsizliyinə qarşı qəsdlərə səbəb ola biləcək funksiyaları yerinə yetirən məhkəmə və hüquq mühafizə orqanları işçilərinin dövlət müdafiəsini təmin etmək, habelə ədalət mühakiməsinin həyata keçirilməsinə, cinayətlərə qarşı mübarizəyə lazımi şərait yaratmaq məqsədi ilə bu Qanun göstərilən şəxslərin və ya onların yaxın qohumlarının həyatının, sağlamlığının, mənzilinin və əmlakının dövlət müdafiəsi üzrə tədbirlər sistemini müəyyənləşdirir.

"Məhkəmə və hüquq-mühafizə orqanları işçilərinin dövlət müdafiəsi haqqında" Azərbaycan Respublikası Qanununun 13-cü maddəsinə görə, müdafiə olunan şəxslər barəsində real təhlükələrin mövcudluğunu göstərən kifayət qədər məlumatların olması təhlükəsizlik tədbirlərinin tətbiq edilməsi üçün əsasdır.

"Cinayət prosesində iştirak edən şəxslərin dövlət müdafiəsi haqqında" Azərbaycan Respublikası Qanununun təhlükəsizlik tədbirlərinin tətbiq edilməsi adlanan 17-ci maddəsinə əsasən, cinayət işi üzrə istintaq və ya məhkəmə icraatına kömək etmələri ilə bağlı müdafiə olunan şəxslər barəsində öldürməklə hədənin icra ediləcəyi, zor tətbiq ediləcəyi, həmin şəxslərin əmlakının məhv ediləcəyi və ya ona ziyan vurulacağı qorxusunun mövcudluğu barədə təhlükəsizliyi təmin edən orqanlar tərəfindən müəyyən edilmiş real məlumatlar təhlükəsizlik tədbirlərinin tətbiqi üçün əsasdır.

Göründüyü kimi, hər iki qanunda təhlükəsizlik tədbirlərinin tətbiqi üçün əsas təhlükələrin mövcudluğunu göstərən məlumatlar hesab edilir. Lakin təəssüflər olsun ki, hər iki qanunda təhlükəsizlik tədbirlərinin tətbiqi əsaslarını göstərən müxtəlif məzmunlu ifadələr işlənilmişdir. Belə ki, "Məhkəmə və hüquq-mühafizə orqanları işçilərinin dövlət müdafiəsi haqqında" Qanununun 13-cü maddəsində "real təhlükələrin mövcudluğunu göstərən kifayət qədər məlumatlar", "Cinayət prosesində iştirak edən şəxslərin dövlət müdafiəsi haqqında" Qanununun 17-ci maddəsində "... qorxusunun mövcudluğu barədə ... real məlumatlar" təhlükəsizlik tədbirlərinin tətbiqi əsasları hesab edilir. Göründüyü kimi, birinci halda "real" sözü təhlükə barəsində, ikinci halda isə məlumat barəsində işlənilir. Beləliklə, hər iki qanunda işlənən hüquqazidd təsirin xarakteri barədə vahid fikir söylənilməsi qeyri-mümkündür.

Hüquq ədəbiyyatında qeyd edilir ki, dövlət müdafiəsinin həyata keçirilməsi üçün real təhlükənin mövcudluğu tələb edilir. Heç şübhəsiz ki, belə bir təhlükənin mövcudluğu real məlumatlara əsaslanmalıdır. Lakin "Cinayət prosesində iştirak edən şəxslərin dövlət müdafiəsi haqqında" Qanunu 17-ci maddəsində işlənən "real məlumat" ifadəsi isə təhlükənin real olması mənasını vermir.

Təhlükənin reallığının müəyyən edilməsi araşdırma aparılmasını tələb etdiyindən həmin müddətdə müdafiə olunan obyektlərə qəsd həyata keçirilə bilər ki, bunun qabaqcadan nəzərə alınması zəruridir. Bu baxımdan real təhlükənin və ya təhlükə barədə real məlumatın aşkar edilməsi üzrə fəaliyyətin də dövlət müdafiəsi anlayışına daxil edilməsi zəruridir.

Bütün bunları nəzərə alaraq hesab edirik ki, dövlət müdafiəsi anlayışının tərkib elementlərinə aşağıdakılar daxildir:

1) hüquqazidd təsirin yönəldiyi obyektlər (müdafiə olunan şəxslərin həyatı, səhhəti, şərəf və ləyaqəti, əmlakı);

2) hüquqazidd təsirin yönəldiyi subyektlər (cinayət prosesini həyata keçirən və cinayət mühakimə icraatına kömək edən şəxslər, onların qohumları və yaxınları);

3) hüquqazidd təsirin, yəni real təhlükənin mövcudluğu;

4) dövlət müdafiə tədbirləri, yəni təhlükəsizlik, hüquqi və sosial müdafiə tədbirləri.

Beləliklə, dövlət müdafiəsi səlahiyyətli dövlət orqanlarının qanunvericiliklə müəyyən olunmuş qaydada ədalət mühakiməsinin normal gedişatının təmin olunması məqsədilə həyata keçirilən vahid bir proses kimi, cinayət prosesinin iştirakçılarının, cinayət mühakimə icraatına kömək edən şəxslərin, onların qohumlarının və yaxınlarının həyatına, sağlamlığına, şərəf və ləyaqətinə və əmlakına hüquqazidd təsirlərin aşkar edilməsinə, qarşısının alınmasına və aradan qaldırılmasına yönəlmiş təhlükəsizlik, hüquqi və sosial müdafiə tədbirlərinin məcmusudur.

Qeyd olunanları ümumiləşdirərək cinayət prosesində iştirak edən şəxslərin dövlət müdafiəsi institutu barədə bunları söyləmək olar:

1) dövlət müdafiəsi institutu cinayət mühakimə icraatında şəxsiyyətin təhlükəsizliyinin və buna nail oluna bilmədikdə hüquqazidd təsirlərdən ziyan çəkmiş şəxslərin sosial müdafiəsinin təmin olunmasına yönəlmiş normaların məcmusundan ibarətdir;

2) təhlükəsizlik vəziyyətdir, son məqsəddir, dövlət müdafiəsi isə bu vəziyyətə nail olunması üçün vasitədir, mexanizmdir;

3) Azərbaycan Respublikasında cinayət prosesində iştirak edən şəxslərin dövlət müdafiəsinin hüquqi bazası mövcuddur, lakin dövlət müdafiəsi institutuna aid normalar CPM-ə tam həcmdə daxil edilməmişdir;

4) bu sahəyə aid qanunlarda mövcud boşluqların aradan qaldırılması üçün onların təkmilləşdirilməsinə ehtiyac vardır.

Açar sözlər: cinayət prosesi, dövlət müdafiəsi, təhlükəsizlik, mühafizə, proses iştirakçıları.

İstifadə olunmuş ədəbiyyat

1. Azərbaycan dilinin izahlı lüğəti. Prof. A.Axundovun redaktəsi ilə. II cild. Bakı: “Çıraq”, 1999.
2. Azərbaycan dilinin izahlı lüğəti. Prof. A.Axundovun redaktəsi ilə. III cild. Bakı: “Çıraq”, 2000.
3. Бrusniüın Л.В. Пravovoe obespeçenie bezopasnosti liü, sodeystvuöhix uqolovnomu pravosudiö. M., Cpark, 1999.
4. Бrusniüın Л.В. Obespeçenie bezopasnosti liü, sodeystvuöhix uqolovnomu pravosudiö: rossiyskiy, zarubejnıy i mejdunarodnıy opıt XX veka. M., Юrlitinform, 2001.
5. Boynikov B.B. Taktika obespeçeniə bezopasnosti v uqolovnom sudoproizvodstve. Avtoref. diss. ... kand. örid. nauk. Kalininqrad, 2002.
6. Гavrilov Э.П. Kommentariy k Зakonu ob avtorskix i smejnıx pravax.M.,1996.
7. Дalğ B. Tolkovıy slovarğ jivoqo velikorusskoqo əzıka. B 4-x t., T.1, M., 2002.
8. Epixin A.Ю. Obespeçenie bezopasnosti liçnosti v uqolovnom sudoproizvodstve. CПb., 2004.
9. Зayüev O.A. Гosudarstvennaə zahita uçastnikov uqolovnoqo proüessa. M., Эkzamen, 2001.
10. Лarin A.M. Зahita prav çeloveka i qrajdanina v uqolovnom sudoproizvodstve // Konstituüiə Possiyskoy Федeraüii i soverşenstvovanie mexanizma zahitı prav çeloveka. M.,1994.
11. Лevçenko O.B. Yqolovno-proüessualğnıe merı bezopasnosti uçastnikov uqolovnoqo sudoproizvodstva so storonı zahitı, sodeystvuöhix pravosudiö. Дiss. ... kand. örid. nauk. M., 2008.
12. Makarova З.B. Зahita v rossiyskom uqolovnom proüesse: ponətie, vidı, predmet i predelı. Пravovedenie, 2000, №3.
13. Matuzov H.И. Пravovaə sistema i liçnostğ. Caratov, 1987.
14. Moskalenko A.B. Osobennosti qosudarstvennoy zahitı uçastnikov uqolovnoqo proüessa v xode sudebnoqo razbiratelğstva: Дisc. ... kand. örid. nauk. M., 2006.
15. Moskalenko A.B. Osobennosti qosudarstvennoy zahitı uçastnikov uqolovnoqo proüessa v xode sudebnoqo razbiratelğstva: Avtoref. diss. ... kand. örid. nauk. M., 2006.
16. Hovikova M.B. Obespeçenie bezopasnosti uçastnikov uqolovnoqo sudoproizvodstva kak qarantiə osuhestvleniə pravosudiə v sovremennıx usloviəx: Avtoref. dis. ... kand. örid. nauk. M., 2006.
17. Ojeqov C.И. Clovarğ russkoqo əzıka. M., 1988.
18. Поləkov M.П. O zahite obvinəemoqo i zahite ot obvinəemoqo // Гos. i pravo. 1998, №4.
19. Пorohuk C.Д. K voprosu soüialğno-pravovoy zahite liçnosti // Пroblemı obespeçeniə prav çeloveka v deətelğnosti orqanov vnutrennix del. M., 1994.
20. Corokina Ю. Зahita na predvaritelğnom sledstvii. Зakonnostğ, 1992, №3.
21. Tixomirova Л.B., Tixomirov M.Ю. Юridiçeskaə gnüiklopediə. 5-e izd., dop. i pererab. / Пod red. M.Ю. Tixomirova. M., 2001.

22. Tomilova H.C. Пrinüipı qosudarstvennoy zahitı poterpevşix, svideteley i inıx uçastnikov uqolovnoqo sudoproizvodstva. Дisc… kand. örid. nauk. M., 2009.
23. Фadeeva M.П. Teoriə i praktika qosudarstvennoy zahitı liü, sodeystvuöhix uqolovnomu sudoproizvodstvu: Avtoref. diss. ... kand. örid. nauk. M., 2006.
24. Шevçenko K.Д. Пroüessualğnıe aspektı qosudarstvennoy zahitı poterpevşix, svideteley i druqix liü, sodeystvuöhix uqolovnomu sudoproizvodstvu: Дiss. ... kand. örid. nauk. M., 2004.
25. Шedrin H.B. Bvedenie pravovuö teoriö mer bezopasnosti. Krasnoərsk, 1999.
26. Юnusov A.A. Oberejenie uçastnikov uqolovnoqo proüessa i ix blijnix: Дiss. ... kand. örid. nauk. H. Hovqorod, 1998.

Basif КАСУМОВ

ПОНƏTIE OBESPEÇENIƏ QOSUDARSTVENNOY ZAHITI I BEZOPASNOSTI JIIÇNOSTI V UQOLOVNOM SUDOPROIZVODSTVE

Pezöme

B statğe podverqaötsə sravnitelğnomu analizu ponətiə «obespeçenie bezopasnosti liçnosti» i «qosudarstvennaə zahita liçnosti» v uqolovnom sudoproizvodstve. Əti ponətiə analiziruötsə takje v linqvistiçeskom aspekte, razcəsnəötsə razliçiə mejdu terminami qosudarstvennaə zahita, bezopasnostğ i «obespeçenie bezopasnosti» v uqolovnom proüesse. Avtor sçitaet, çto bezopasnostğ v uqolovnom proüesse əvləetsə koneçnoy üelğö qosudarstvennoy zahitı, kotoraə vırajaetsə v polojenii, qde net nikakix opasnostey; qosudarstvennaə zahita – gto sredstvo dostijeniə takoqo polojeniə, svoeqo roda eqo mexanizm.

Klöçevıe slova: uqolovnıy proüess, qosudarstvennaə zahita, bezopasnostğ, oxrana, uçastniki proüessa.

Vasif GASUMOV

THE CONCEPT OF PROVIDING STATE PROTECTION AND SAFETY OF PERSONALITY IN THE CRIMINAL PROCEDURE

Summary

In the article the concepts providing safety of personality and «state protection of personality» in the criminal legal procedure undergo comparative analysis. These conceptsa are also analyzed from the linguistic aspect, the differences between the terms: state protection, safety and «providing of safety» in the criminal process are explained. The author considers that safety in the criminal process is the final goal of state protection, which is expressed by the position, where there are no dangers whatever, and state protection is a means of the achievement of this position, some kind of mechanism.

Keywords: criminal procedure, state protection, safety, guarding, participants of the process.

UOT 343

Mohammədi Eiravanlou SOLTANƏLİ
AMEA FSHİ -nin dissertantı

YETKİNLİK YAŞINA ÇATMAYAN CİNAYƏTKARIN ŞƏXSİYYƏTİ*

Təqsirləndirilən şəxsə cəza təyini zamanı məhkəmə ədalətli cəza təyini məqsədilə onun şəxsiyyəti haqqında məlumatlara malik olmalıdır. Təqsirləndirilən şəxsin şəxsiyyətinin xüsusiyyətlərinə diqqət yetirməmək məhkəmə qərarlarının formallığına və cəzanın təyin edilməsinin fərdi yanaşma əsaslarının nəzərə alınmamasına səbəb olur. Eyni zamanda yetkinlik yaşına çatmayanın xarakteristikası haqqında məlumatların sistemləşdirilməsi nəzəri planda cinayətkarlığın adekvat profilaktik tədbirlərinin işlənilib hazırlanması üçün onun şəxsiyyətini tipikləşdirməyə imkan verir. Bu baxımdan yetkinlik yaşına çatmayan cinayətkarın şəxsiyyətinin xüsusiyyətlərini təhlil edərək ümumiyyətə insanın bir şəxsiyyət kimi xarakterizə edilməsinə diqqət vermək vacibdir.

Cinayət hüququ və kriminologiya elmində şəxsiyyətin öyrənilməsi xüsusiyyətləri fərdin ictimai təhlükəli davranışını determinasiya edən cəhətlərdə özünü göstərir. Bu baxımdan təqsirləndirilən şəxsin formalaşmasına təsir edən cinayət-hüquqi, yaxud da bioloji amillərin xarakterizə edilməsi (yaş, cins, psixika) onun şəxsiyyəti ilə bilavasitə əlaqədar olmayan xüsusiyyətlərinin də üzə çıxarılmasına səbəb olur. V.N.Kudryavtsev və V.E.Alinevanın fikrincə, cinayətkarın şəxsiyyəti "digər insanlarla çoxşaxəli və sistematik qarşılıqlı təsir prosesində yaranan sosial əhəmiyyətli neqativ xassələrin məcmusudur" (23, s. 219).

Yetkinlik yaşına çatmayan cinayətkarın xüsusiyyətlərindən biri də odur ki, formalaşan mənfi cəhətləri onun şüuru və fiziologiyasında intensiv dəyişikliklərlə, yeniyetmə dövrünün psixoloji xüsusiyyətləri ilə müşaiyət olunur. O, yeniyetməyə məxsus olan keçid dövrünün xüsusiyyətlərini və istənilən cinayətkar üçün xarakterik olan neqativ cəhətləri özündə cəmləşdirir. Hüquqşünas-alim S.Quliyevanın haqlı olaraq qeyd etdiyi kimi, burada yetkinlik yaşına çatmayanın idrak səviyyəsinin və kifayət qədər həyat təcrübəsinin olmaması da öz təsirini göstərir (16, S. 385).

Odur ki, yeniyetmə dövrü xüsusi deviantlıqla xarakterizə olunur. Yetkinlik yaşına çatmayan cinayətkarlar bütün yaş qrupları sırasında özünəməxsus fəallıqları ilə seçilirlər. Məsələn, 2010-cu ilin birinci yarısında 30 yaşdan yuxarı cinayət törətmiş şəxslərin sayı 5476 nəfər olmuş, 18-29 yaşlılarda isə bu 3258 nəfəri, 14-18 yaşlılarda isə 218 nəfəri təşkil etmişdir. Bütövlükdə cinayət törətmiş şəxslərin tərkibində faizlə müvafiq olaraq aşağıdakı qaydada özünü nümayiş etdirir: 61.2 % (30 yaş və yuxarı), 36,4 % (18-29 yaş) və 2,4 % (14-18 yaş) (7, S.19). Yetkinlik yaşına çatmayanlar psixoloji cəhətdən adətən digər şəxslərin təsirinə daha tez məruz qalırlar və başqalarının tələbini yerinə yetirməyə, tabe olmağa meyllidirlər. Həqiqətən də belə yaşlı şəxslərin əhatə etdiyi ətraf aləmdən asılılığı ya neqativ, ya da pozitiv xarakter daşıyır. Bir tərəfdən yeniyetmədə yaşlılardan asılı olmamağa cəhd, müstəqillik xüsusiyyətləri olur ki, bu da çox vaxt böyüklərlə münaqişələrə gətirib çıxarır. Bununla belə, bu yaşın psixologiyasının xüsusiyyətlərinə ünsiyyətə inadlı cəhd, özünütəsdiq tələbatı, öz yaşıdlarının fikirlərinə diqqət vermək də xasdır.

Şübhəsiz ki, yetkinlik yaşına çatmayanın cəmiyyətə zidd davranışının formalaşmasında yaş xüsusiyyətləri də az rol oynamır, lakin onların mövcud olmasını cinayətin həyata keçirilməsi faktı ilə birbaşa əlaqələndirmək olmaz. Onlar kriminal davranış tipinin yalnız katalizatoru kimi çıxış edirlər (AR CM, maddə 20.3) (15, s.388).

Yetkinlik yaşına çatmayanın şəxsiyyətinin sosial-demoqrafik xarakteristikası bilavasitə onun yaşı ilə bağlıdır. Cinayət qanunu cinayət etmiş yetkinlik yaşına çatmayanı on dörd yaşa çatmış, lakin hələ 18 yaşı tamam olmayan şəxs kimi şərh edir (AR CM, maddə 84.1). Prinsip etibarilə 14-18 yaş arasında olan şəxsləri bu kateqoriyaya aid edirlər. Cinayət qanunu ilə müəyyən edilmiş cinayət məsuliyyəti yaşının hüdudları (16 və 14 yaş) cinayət hüquq elmində bu baxılan şəxsləri iki yaş qrupuna bölmək imkanı verir: 14–15 və 16–17 yaşlılar üzərində kriminoloji tədqiqatlar sübut edir ki, yetkinlik yaşına çatmayan cinayətkarların yaş qruplarına bölgüsü yuxarı yaşlıların (16 –17) üstünlüyü ilə xarakterizə olunur. Bunu cinayət statistikası da təsdiq edir. Azərbaycan Respublikasında törədilmiş cinayətlərə görə 2008-ci ildə məhkum

* Məqalə hüquq üzrə f.d. N.Əliyev tərəfindən capa məsləhət bilinib.

olunmuşlar arasında 14-15 yaşlılar 47 nəfər, 16-18 yaşlılar 220 nəfər, 2009-cu ildə isə 14-15 yaşlılar 33, 16-18 yaşlılar isə 189 nəfər olmuşdur (1, s. 5, 13). Bütün bunlar da yeniyetmələrin yaşlı qrupunda kriminal fəallığın olduğuna dəlalət edir.

Yetkinlik yaşına çatmayanların cinayətlərin ümumi həcmində təxminən 10 – 15 % təşkil etməsinə baxmayaraq, hər halda cinayət hərəkətlərinin 2/3 hissəsi yuxarı yaş qrupunun (16-17) üzərinə düşür. 2008-ci ildə 13995 nəfər məhkum olunmuşdursa, onun 47 nəfəri 14-15, 220 nəfəri isə 16-17 yaşlılar olmuşdur. 2009-cu ildə müvafiq olar 14496 nəfər məhkum olunanlar içərisində 14-15 yaşlılar 33, 16-17 yaşlılar 189 nəfər olmuşdur (2, s. 5,12).

Kriminoloji nöqteyi-nəzərdən görünür ki, hüquq pozucularının yaş bölgüsü mənzərəsinin öyrənilməsi təkcə 14–18 yaşlılarla deyil, bütün yaşlar üzrə tərbiyəvi–profilaktik materiallar əsasında aparılsa, bu, metodoloji cəhətdən daha düzgün olardı. N.Y.Kryukovun fikrincə, son illərdə yetkinlik yaşına çatmayanların müşahidə olunan "cavanlaşması" hər şeydən əvvəl onun profilaktikasında buraxılan boşluqlardan danışmağa əsas verir (22, s.86). Bu mülahizə ilə razılaşmamaq çətindir, lakin bununla belə qeyd edək ki, cinayət statistikası cinayətin cinayət-hüquq anlayışlarına istinad edir ki, burada da cinayət məsuliyyəti yaşına çatmaq onun məcburi və zəruri şərti kimi çıxış edir. Ona görə də yetkinlik yaşına çatmayan cinayətkarların "gəncləşməsi"nin neqativ meyilləri haqqında nəticə tamamilə əsaslıdır. Bu göstərilən meylin əksi cəzaçəkmə müəssisələrində məhkumların "yaşlanması"dır. Bu hadisənin əsas səbəbi qanunvericiliyin dəyişməsində və tərbiyə müəssisələrində 18 yaşa çatmışların saxlanılmasının barəsində normanın təsbitidir. Tərbiyə müəssisələrində yetkinlik yaşına çatmayanların ümumi sayının ixtisar olunması bu kateqoriyaya aid olan şəxslərə qarşı məhkəmə təcrübəsinin daha yumşaq münasibəti ilə də şərtlənir.

Cinayət siyasətində yetkinlik yaşına çatmayanlara münasibət birmənalı deyildir. Bu mənada bəzi tədqiqatçılar cinayət məsuliyyəti yaşını aşağı salmağı, ya da 14 yaşdan sonra cinayət məsuliyyətinə səbəb ola biləcək hərəkətlərin dairəsini genişləndirməyi təklif edirlər. Digərləri isə, əksinə onlara görə cinayət məsuliyyətini və cəzanı yumşaltmaq ideyasını əsaslandırırlar. Bizə belə gəlir ki, cinayət qanununun belə dəyişikliklərinə çox ehtiyatla yanaşmaq lazımdır. Cinayət qanunvericiliyinin tarixi təcrübəsinin sübut etdiyi kimi, repressiyanın gücləndirilməsi yetkinlik yaşına çatmayanlar arasında cinayətkarlığın heç də zəifləməsinə səbəb olmur. Hesab edirik ki, burada əsas məsələ cinayətkarın şəxsiyyətinin xarakteristikası və ona fərdi yanaşmadır. Odur ki, "burada yetkinlik yaşına çatmayanların yaşındakı fərqlərlə bağlı olaraq cinayətlərin təsnif olunan müxtəlif variantları mümkündür"(17, s.389).

Ayrılmış yaş qruplarının cinayət hərəkətlərinin istiqaməti xəsarətin obyektindən asılı olaraq növ strukturu üzrə fərqləndirilir. Yetkinlik yaşına çatmayan yaşlı qrupların həyata keçirdikləri cinayətlərin xarakteri yaşlıların törətdikləri cinayətlərə yaxınlıq təşkil edir. Bunların sırasında zorakılıq cinayətləri üstünlük təşkil edir: insanın həyatına və sağlamlığına xəsarət, zorlama, xuliqanlıq. 14–16 yaşlılar üçün daha geniş yayılmış cinayətlər oğurluq, soyğunçuluq, talama, avtomobil nəqliyyatının qaçırılması və s. hesab olunur.

Yetkinlik yaşına çatmayan cinayətkarların cinsi əlamətlərə görə bölgüsü onların sırasında kişi cinsinin üstünlüyü ilə seçilir. Lakin yaşlı cinayətkarlarla müqayisədə qadın cinayətkarların çəkisi az da olsa müəyyən yer tutur ki, bu da yetkinlik yaşına çatmayanların təcrübəli cinayətkarların təsirinə tez-tez düşmələrindən xəbər verir. Belə ki, 2008-ci ildə məhkum olunmuş 267 nəfər 14-17 yaşlılardan 261-i oğlan, 6 nəfəri isə qızdır, 2009-cu ildə isə 222 məhkum olunan 14-17 yaşlılardan 215 nəfəri oğlan, 7 nəfəri qızlar olmuşdur. Bu isə öz növbəsində ümumiyyətlə kişi cinayətkarların artımına meyildən xəbər verir. Bu, son illərdə qadınlara nisbətən kişilər arasında cinayətkarlığın getdikcə artdığını göstərir. Məhkum olunan yetkinlik yaşına çatmayanlar arasında kişilərin sayı 2008-ci ilə nisbətən 2009-cu ildə 97,8%, qadınların sayı isə 2,2% təşkil edir (4, s.12).

Peşə növü üzrə ən fəal kriminogen vəziyyət əvvəlki kimi işləməyən, oxumayan yetkinlik yaşına çatmayanlarda özünü göstərir, onların sayı isə intensiv olaraq artır. Bütövlükdə Azərbaycan Respublikası üzrə yetkinlik yaşına çatmayan cinayətkarların sırasında işləməyən və oxumayanların sayı məhkum olunanarın arasında 2008-ci ildə 35,2%, 2009-cu ildə 58,1% qədər artıb. Əmək fəaliyyəti ilə məşğul olmayan yetkinlik yaşına çatmayanların sayının artması çox ciddi təhlükə doğurur. Onların fəaliyyətinin istiqaməti cinayət hüquq normalarının şüurlu pozulması ilə bağlı olur. Təhsil alanlar da burada xüsusi yer tutur ki, bu da 2008-ci ildə 59,6%, 2009-cu ildə isə 31,1% təşkil etmişdir (3, s. 12).

Yetkinlik yaşına çatmayan cinayətkarların əksəriyyətinin ailədaxili vəziyyəti yaxşı deyil, belə ki, onların valideynlərindən biri adətən olmur. Yetkinlik yaşına çatmayan cinayətkarların şəxsiyyətinin təhlilinin sübut etdiyi kimi əgər XX əsrin 80-ci illərində kriminoloqlar 28% yetkinlik yaşına çatmayan

cinayətkarların qeyri-tam ailədə yaşadığı faktını üzə çıxarmışdılarsa, artıq XX-XXI əsrin hüdudlarında bu göstərici əhəmiyyətli dərəcədə – 40%-ə qədər artmışdır. Bizə belə gəlir ki, bu, müasir dövrdə ailə münasibətlərində gedən mürəkkəb proseslərlə bağlıdır. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin məlumatlarına görə, məsələn, 2003-cü ildə 5769 (10, s. 68), 2009-cü ildə isə 7513 boşanma qeydə alınmışdır (5, S.15). Onu da qeyd edək ki, əhatə olunduğu mühit, həyat fəaliyyətini təmin etmək üçün yaşayış vasitələri axtarmaq uğrunda mübarizə yetkinlik yaşına çatmayanı cinayət etməyə məcbur edir (21, s.9).

Cinayətkarın şəxsiyyətini səciyyələndirən xarakterik əlamətlər sırasına aşağıdakıları da aid etmək olar: ağırlıq dərəcəsi də daxil olmaqla hərəkətin xarakteristikası, bu və ya digər obyektə istiqamətlilik, məhkumluğun olması, əvvəlki hökmlə təyin edilən cəza haqqında məlumat, cinayətin qrup şəklində silahlardan istifadə olunmaqla həyata keçirilməsi və s. Yetkinlik yaşına çatmayan cinayətkara ictimai təhlükəli hərəkətin həyata keçirilməsinin qrup üsulu da xasdır. Bunun ilkin səbəbi yeniyetmənin daimi ünsiyyət tələbatı digər şəxslər tərəfindən qiymətləndirmənin onun üçün vacibliyi öz yaşıdlarının xüsusiyyətlərində istifadə olunan psixologiyası ilə bağlıdır. Yetkinlik yaşına çatmayan cinayətkar qrupu öyrənən K.E.Jqoşev hələ XX əsrin 70-ci illərində qeyd edirdi ki, üzərlərində tədqiqat aparılan yetkinlik yaşına çatmayanların 7,6% cinayəti qrup şəklində həyata keçirirlər (18, S.55). Əgər əvvəllər iştirakçılarla qrup şəklində törədilən cinayətkar hərəkətlərdə birgə iştirakçılıqdan söhbət gedirdisə, indi artıq rolların bölgüsü, qrup daxilində iyerarxiya yaradılması, tabeçilik münasibəti üzrə icra intizamından danışmaq olar. Yetkinlik yaşına çatmayanlar tərəfindən törədilən cinayətlər AR üzrə qrup şəklində törədilən cinayətlərin ümumi sayının 2009-cu ilin birinci yarısında 93,1%, 2010-cu ildə isə 97,7% təşkil edir. Təkcə 2009-cu ilin birinci yarısına nisbətən 2010-cu ilin müvafiq dövründə onların sayı 1,9 dəfə artmışdır (11, s. 18).

Bəzi hallarada ictimai şüurda hesab olunur ki, yetkinlik yaşına çatmayanlar o qədər də böyük ictimai təhlükə törətməyən və cəmiyyət üçün əhəmiyyətsiz olan hərəkətlərdə özünü göstərən cinayətlər törədirlər. Bu isə yetkinlik yaşına çatmayanların törətdikləri qeydiyyata alınmış cinayət hərəkətlərinin məlumatlarının əldə edilməsi sahəsində çətinliklər yaradır.

Edilmiş cinayətlərin keyfiyyət tərkibində tamah-zorakılıq cinayətləri, müxtəlif növ soyğunçuluq artır. Cinayətkarlıqda onların ümumi sayı 2002-ci ildə 15520 nəfər cinayət edən şəxsdən 253 nəfəri, 2003-cü ildə isə 15206 cinayət törədəndən 158 nəfəri təşkil edirdisə (13, S. 48), məsələn, 2009-cu ildə məhkim olunmuş 222 nəfər 14-18 yaşlılar içərisində belə əməllər 121 nəfəri əhatə edir (6, s.16).

Son illərdə yetkinlik yaşına çatmayanların cinayət əməllərinin ictimai təhlükəliliyi, o cümlədən ölüm və səhhətə ağır zərər vurma ilə nəticələnən cinayətlərin sayı artır, qəddarlıq, aqressivlik və s. əlamətlər şiddətlənir. Yeni cinayət növləri yayılır: rüşvətxorluq, silah alveri, kompyuter cinayətləri, terror haqda əvvəlcədən yalan məlumat vermə və s. Yeniyetmələrin kütləvi şəkildə narkobiznesə qoşulması artır. Yetkinlik yaşına çatmayanlar burada təkcə istehlakçı qismində iştirak etmir, həm də onu yaymaqla məşğuldurlar. Azərbaycan Respublikasında təkcə 2010-cu ilin birinci yarısında 2009-cu ilin müvafiq dövrünə nisbətən narkotik vəziyyətdə törədilən cinayətlər 14-18 yaş qrupu üzrə 9 dəfə artıb (9, s.22). 1993-cü ildə 19 nəfər, 1995-ci ildə 40 nəfər, 2003-cü üzrə ildə isə 7 nəfər, 2009-cu ildə 9 nəfər yetkinlik yaşına çatmayan narkotik vasitələrlə bağlı cinayət törətmişlər. 2000-ci il üzrə narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə bağlı məhkum olunan 1658 nəfərdən 3 nəfəri 16-17 yaşlılar, 2003-cü ildə 1686 nəfərdən 6-sı 16-17 yaşlılar olmuş, 14-15 yaşlılar içərisində isə 1 nəfər olmuşdur, halbuki əvvəlki illərdə bu yaşda belə növ üzrə cinayətkar qeydə alınmamışdı (12, s. 31-48). 2009-cu ilin birinci yarısında təkrar cinayət törətmiş 881 nəfərdən 11 nəfəri 14-18 yaşda, 2000-ci ilin birinci yarısında 895 nəfərdən 7 nəfəri 14-18 yaşda olan şəxslər olmuşdur (73,3%-dən 63,6%-ə enmişdir) (8, s.22).

Cinayətkarın şəxsiyyətinin cəzaya təsir edən xarakteristikalarından biri də təqsirləndirilən şəxsin məhkumluğunun olmasıdır. Yetkinlik yaşına çatmayanlarda əmlak cinayətləri üzrə həyata keçirilmiş cinayətkar əməllər daha çoxluq təşkil edir, onların çəkisi, əksinə ölüm hadisələri və həmçinin zorlama cinayətlərində daha artır. Bu faktlar belə bir nəticəyə gəlməyə əsas verir ki, yetkinlik yaşına çatmayanlarla və məhkəmənin təyin etdiyi cəzanın vəzifələrinin yerinə yetirilməsi ilə bağlı cinayət siyasətində qüsurlar vardır. Yetkinlik yaşına çatmayanların cinayəti həyata keçirərkən silahdan istifadə etmə məsələsinə gəlincə qeyd etmək lazımdır ki, yeniyetmələr arasında bu elə də geniş yayılmayıb.

Yetkinlik yaşına çatmayan cinayətkarların şəxsi mənəvi-psixoloji bazası hüquqa riayət edən yeniyetmənin dünyagörüşündən keyfiyyətcə fərqlənir. Psixoloji ünsiyyətlər psixi hallar üzrə də özünü göstərir. Yaşlılarla müqayisədə yetkinlik yaşına çatmayan şəxslərə şəxsiyyətin kriminallığının aşağı səviyyəsi xasdır. Yetkinlik yaşına çatmayanlar tez-tez kriminal mühitə zəif müqavimət üzündən və hüquqi şüurun aşağı səviyyəsinə görə cinayət hərəkətləri edirlər, heç də qeyri–hüquqi hərəkətə şüurlu surətdə get-

mirlər. Bununla belə yetkinlik yaşına çatmayanlar içərisində cinayəti həyata keçirənədək cəmiyyətə zidd hərəkətləri ilə seçilən müəyyən cinayətkarların olması bəzi yetkinlik yaşına çatmayanların hələ kriminallıq səviyyəsini yox, onların "deviant" davranışlarla xarakterizə olmasından xəbər verir.

Yetkinlik yaşına çatmayanların cinayət etmələrinin motivləri kimi çox hallarda maddi həyat sahəsində öz tələbatlarını təmin etmək, kollektivdə özünütəsdiq çıxış edir. Bu göstərilən motivlərlə yanaşı olaraq onların sırasında elmi ədəbiyyatda "uşaq" motivi adlandırılanlar da vardır. Bu motivə risk etmək arzusu, özünü təcrübədən keçirmək, dəcəllik və s. bu kimi xüsusiyyətlər aiddir. Onların maraq və tələbatları üçün qeyri-sabitlik, dəyişkənlik, maddi maraqların mənəvi tələbatlar üzərində üstünlüyü xasdır.

Yetkinlik yaşına çatmayan cinayətkarın iradəsi əsas etibarilə aşağıdakı mənfi ifadəvi xüsusiyyətlərlə fərqlənir: məqsədə müvafiqliyin olmaması, intizamsızlıq, qeyri-müstəqillik, tərslik, qərarsızlıq, həddən çox təsir altına düşmə. Onun emosionallığı həddən artıq aqressivlikdə, həyəcanda, narahatçılıqda, artan emosional həyəcanda, özündən tez çıxmaqda təzahür edir. Xarakterik bir haldır ki, zorlama cinayətlərində aqressiyanın yüksək səviyyəsi, tamaha istiqamətlənmiş yeniyetmələrdə isə həyəcan kimi cəhət daha qabarıq nəzərə çarpır. Qanunauyğun davranışa malik yaşıdları ilə müqayisədə yetkinlik yaşına çatmayan cinayətkarlarda hüquqi şüur adətən aşağı olur. Onlar, bir qayda olaraq, öz hüquq və azadlıqları haqqında çox yayğın təsəvvürlərə malik olurlar, onların biliyi qanunla qarşılaşdıqları zaman və yaxın ətrafın söhbətləri üzrə təcrübədən əldə edilir. Hüquq normalarının yerinə yetirilib yetirilməməsi cəza qorxusundan asılı olan qadağaların müəyyən edilməsi kimi qəbul edilir.

Yetkinlik yaşına çatmayanın təqsirləndirilməsi üzrə cinayət işlərinin öyrənilməsi göstərir ki, məhkəmə onların şəxsiyyətlərinin qiymətləndirilməsinə əhəmiyyət vermir, ona məxsus xarakterik cəhətləri nəzərə almır. Şəxsiyyətin xassələrinin məcmusu yetkinlik yaşına çatmayana cəza növü və tədbirləri tətbiq edilməsinin təyini zamanı kifayət qədər əks etdirilmir. Belə ki, Azərbaycan Respublikası CM-in 59, 84, 85 –ci maddələri ilə yetkinlik yaşına çatmayanın konkret yaşı, 22-ci maddə ilə onun psixi inkişafının səviyyəsi, 59 və 61-ci maddələri ilə onun cəzanı yüngülləşdirərək və ya ağırlaşdıran halları müəyyən edilir.

Azərbaycan Respublikası CM-in 86.1-ci maddəsi ilə nəzərdə tutulan "şəxsiyyətin digər xüsusiyyətləri"ifadəsi məhkəmələrin fəaliyyətində faktiki olaraq onların başa düşülməməsi ucbatından düzgün şərh olunmur və nəzərə alınmır. Fikrimizcə qanunun bu müddəası onun mənəvi-emosional, iradəvi və psixoloji keyfiyyəti də daxil olmaqla yetkinlik yaşına çatmayanların daha geniş xüsusiyyətlərini nəzərə almağa imkan verir.

Açar sözlər: yetkinlik yaşına çatmayan, şəxsiyyət, cinayət, cəza, psixologiya, iradə, hüquqi şüur, xarakter.

İstifadə olunmuş ədəbiyyat

1. 2009-cu ildə Azərbaycanda məhkumetmə və məhkəmələrdə baxılan işlər haqqında (statistik bülleten). №1, Bakı. 2010.
2. 2009-cu ildə Azərbaycanda məhkumetmə və məhkəmələrdə baxılan işlər haqqında (statistik bülleten).№2, Bakı. 2010.
3. 2009-cu ildə Azərbaycanda məhkumetmə və məhkəmələrdə baxılan işlər haqqında (statistik bülleten). № 3, Bakı. 2010.
4. 2009-cu ildə Azərbaycanda məhkumetmə və məhkəmələrdə baxılan işlər haqqında (statistik bülleten).№4, Bakı. 2010.
5. 2009-cu ildə Azərbaycanda məhkumetmə və məhkəmələrdə baxılan işlər haqqında (statistik bülleten).№ 5, Bakı. 2010.
6. 2009-cu ildə Azərbaycanda məhkumetmə və məhkəmələrdə baxılan işlər haqqında (statistik bülleten). № 6, Bakı. 2010.
7. 2010-cu ilin birinci yarısında Azərbaycanda cinayətkarlıq. Bakı. 2010.
8. 2010-cu ilin birinci yarısında Azərbaycanda cinayətkarlıq. Bakı. 2010.
9. 2010-cu ilin birinci yarısında Azərbaycanda cinayətkarlıq. Bakı. 2010.
10. 2010-cu ilin birinci yarısında Azərbaycanda cinayətkarlıq. Bakı. 2010
11. Azərbaycanda cinayətkarlıq və hüquqpozmalar. Bakı. 2004.
12. Azərbaycanda cinyətkarlıq və hüquqpozmalar Bakı.2004.
13. Azərbaycanda cinyətkarlıq və hüquqpozmalar Bakı. 2004.

14. S.M.Quliyeva Yetkinlik yaşına çatmayanların yaş psixoloji xüsusiyyətləri və onların törətdiyi cinayətlərə görə cəzaların tətbiqində nəzərə alınması//Azərbaycan Respublikasında dövlət və hüquq quruculuğunun aktual problemləri. 17-ci buraxılış. Bakı. 2007.
15. S.M.Quliyeva Yetkinlik yaşına çatmayanların yaş psixoloji xüsusiyyətləri və onların törətdiyi cinayətlərə görə cəzaların tətbiqində nəzərə alınması//Azərbaycan Respublikasında dövlət və hüquq quruculuğunun aktual problemləri. 17-ci buraxılış. Bakı. 2007.
16. S.M.Quliyeva Yetkinlik yaşına çatmayanların yaş psixoloji xüsusiyyətləri və onların törətdiyi cinayətlərə görə cəzaların tətbiqində nəzərə alınması//Azərbaycan Respublikasında dövlət və hüquq quruculuğunun aktual problemləri. 17-ci buraxılış. Bakı, 2007.
17. Иqoşev K.E. Пrestupnostğ i otvetstvennostğ nesoverşennoletnix. Cverdlovsk. 1973.
18. Kovalev O.T. Xatina H.A.Bolevaə samorequləüiə nesoverşennoletnix osujdennıx jenskoqo polə. M.2001.
19. Karolenko И.И. Kriminoloqiçeskaə xarakerisika i profilaktika preodoleniy, soverşaemıx nesoverşennoletnim, ostavşimisə bez popeçeniə roditeley. Avtoreferat…k.ö.n. Postov H/Д. 1999.
20. Kosenko A.A. Пrestupnaə deviantnostğ nesoverşennoletnix i eë profilaktika (teoretiçeskie i praktiçeskie aspektı). Bolqoqrad. 2003
21. Krökova H.И. Пrestupnostğ nesoverşennoletnix v Possii, ee prinüipı i puti preodoleniə. Дis. …d.ö.n. M.1999.
22. Kurquzkina C.Б. Teoriə liçnosti prestupnika i problemı individualğnoy profilaktiki prestuplenii. Avtor. … d.ö.n. M. 2009;
23. Фilosofskiy slovarğ/Пod red. И.T. Фrolova 5-e izd. M. Пolitizdat. 1987.

Moxammadi Эyravanlou СОЛТАНАЛИ

ЛIÇNOSTĞ NESOVERŞENNOLETNEQO PRESTUPNIKA

Pezöme

Cçitaetsə, çto v perspektive pri analize liçnosti nesoverşennoletnix presstupnikov doljnı uçitıvatğsə eqo obhie jiznennıe üeli, üennostnıe orientaüii, otnoşenie k svoim postupkam, stepenğ aqressivnosti i priemlemosti eqo protivopravnoqo povedeniə, t.e. psixiçeskie sostavləöhie eqo liçnostğ. Bse gto neobxodimo dlə svoevremennoy reaküii na protivopravnoe povedenie nesoverşennoletnix. Xarakteristiku liçnosti nesoverşennoletneqo mojno datğ putem vıəvleniə eqo obraza jizni. Имenno takoy kompleksnıy podxod qarantiruet osuhestvleniə merı nakazaniy nesoverşennoletnix prestupnikov.

Klöçevıe slova: nesoverşennoletnie, liçnostğ, prestuplenie, nakazanie, psixoloqiə, volə, pravovoe soznanie, xarakter.

Mohammadi Eiravanlou SOLTANALI

PERSONALITY OF A MINOR CRIMINAL

Summary

It is considered that in the long term, at the analysis of personality of minor criminals his general vital purposes, valuable orientations, the attitude to own acts, degree of aggression and an acceptability of its illegal behaviour, i.e. mental making his personality should be considered. All it is necessary for timely reaction to illegal behaviour of minors. The characteristics of the minors personality may be given at revealing of his way of life. Such complex approach guarantees realisation of a measure of punishments against minor criminals.

Keywords: minors, personality, a crime, punishment, psychology, will, legal consciousness, character.

UOT 340

Kamran EMİNOV
AMEA FSHİ -nin dissertantı

BANKLARIN FƏALİYYƏTİNİN LİSENZİYALAŞDIRILMASI ZƏRURƏTİ*

Hüquqi ədəbiyyatda haqlı olaraq qeyd olunduğu kimi, bu fakt nümunəvidir ki, keçmiş SSRİ məkanında sahibkarlıq fəaliyyətinin həyata keçirilməsinin lisenziya rejimi ilk dəfə olaraq məhz banklar üçün 02.12.1990-cı il tarixli "Banklar və bank fəaliyyəti" haqqında və "RSFSR Mərkəzi bankı haqqında" qanunların qəbul edilməsilə müəyyən edilmişdir (5, s. 178). Azərbaycan Respublikasında isə bankların fəaliyyətinin lisenziyalaşdırılmasına "Azərbaycan Respublikasında banklar və bank fəaliyyəti haqqında" 07 avqust 1992-ci il 262 nömrəli və "Azərbaycan Respublikasının Milli Bankı haqqında" 07 avqust 1992-ci il 261 nömrəli qanunların qəbul edilməsi ilə başlanmışdır. Azərbaycan Respublikasında iqtisadiyyatın liberallaşdırılması ilə bağlı və iqtisadiyyatda mülkiyyət formalarının dövlət, xüsusi və bələdiyyə mülkiyyəti formasında müəyyən olunması zərurəti azad sahibkarlıq sisteminin yaradılmasını zəruri edir. Həmin baxımdan sahibkarlıq fəaliyyətinin milli qanunvericilikdə tənzimlənməsinə zərurət yaradan şərtlər eyni zamanda sahibkarlıq fəaliyyətinin önəmli sahəsini təşkil edən bankların fəaliyyətinin də nizama salınması və lisenziyalaşdırılmasının əsaslarını yaratmışdır. Digər strateji əhəmiyyətli şərtlərlə bərabər xüsusilə azad tənzimlənən bazar iqtisadiyyatının formalaşması və müstəqil dövlətin pul-kredit siyasətinin formalaşması amilləri bank fəaliyyətinin lisenziyalaşdırılmasının əsaslarından biri kimi çıxış edir. Tək bu amil özü onu göstərir ki, dövlət sahibkarlıq fəaliyyətinin digər növləri arasında bank fəaliyyətinə xüsusi yer ayırır.

Hüquqi ədəbiyyatda göstərilən qanunlar hələ qəbul edilməzdən xeyli əvvəl lisenziyalaşdırılmalı fəaliyyət növlərinin siyahısını yaratmaq üçün bir sira həlledici əlamətlər sadalanmışdır: 1) konkret fəaliyyət növünün həyata keçirilməsində iştirak etməyən şəxslər üçün fəaliyyətin lisenziyalaşdırılmamasının təhlükəsi; 2) həmin fəaliyyətə məhdudiyyətsiz sayda iştirakçıların qoşulması; 3) belə fəaliyyətin yüksək mənfəəti. (6, s. 16). Deməli, lisenziyalaşdırma institutu fövqəladə metodlara və qeyri-populyar tədbirlərə əl atmadan, qanun çərçivəsində qalaraq, cəmiyyətin və hər bir konkret fərdin maraqları naminə təhlükəli, nizamlanmamış və dövlət tərəfindən təminat verilməmiş fəaliyyətin nisbətən təhlükəsizliyini təmin etməyə hakimiyyət üçün imkan yaradır.

Beləliklə, lisenziyalaşdırma – bazar iqtisadiyyatı şəraitində vətəndaşların və cəmiyyətin hüquq və qanuni maraqlarına zəmanət və hüquqi təminat imkanı yaradan kompromisdir (7, s. 21).

Lakin təhlükəsizliyin zəmanətləndirilməsi həmin təhlükəsizliyin təmin edilməsinə görə müvafiq subyektin məsuliyyətini də müəyyən edir. Buna görə dövlət müəyyən fəaliyyət növü ilə məşğul olmaq üçün lisenziya verərkən həmin fəaliyyətin ictimai və dövlət maraqlarına uyğun gəlməsinə nəzarət etmək işində məsuliyyəti öz üzərinə götürməlidir. Digər tərəfdən fiziki və hüquqi şəxslər əmin olmalıdır ki, səlahiyyətli dövlət orqanı tərəfindən subyektə verilən lisenziyanın mövcudluğu onu bildirir ki, sonuncunun fəaliyyəti daima dövlətin nəzarəti altındadır və lazımi tələblərə uyğun gəlir.

Belə qarşılıqlı əlaqənin yoxluğu ən azından iki mənfi fəsad törədir: 1. Verilmiş lisenziyaya uyğun gəlməyən fəaliyyətin nəticələrindən istifadə etmiş şəxslərin maraqlarına zərər yetirilir. 2. Nəticədə bu, hakimiyyətə etimadin itirilməsinə gətirir, bu isə siyasi xarakterli fəsadlara gətirib çıxarır. Misal kimi 1992-1993 illərdə fiziki və hüquqi şəxslərin vəsaitlərini özünə cəlb edən, faktiki isə hökumətin səhlənkarlığı fonunda ölkə daxilində nəhəng maliyyə piramidasını qurmuş müxtəlif sərmayə fondlarını, birgünlük maliyyə təşkilatlarını göstərmək olar. Etiraf etmək lazımdır ki, indiki zamana qədər dövlət orqanlarının məsuliyyətsiz nəzarətinə görə zərərçəkmiş şəxslərə kompensasiyanın verilməsi mexanizmi hələ də yaradılmayıb, buna isə yol vermək olmaz, çünki son nəticədə fiziki və hüquqi şəxslər əzab çəkən yerdə dövlət də zərər çəkir və onun nüfuzuna xələl gəlir. Belə nəzarətə zərurət bank fəaliyyəti sahəsində daha qabarıq görünür.

Onu da etiraf edək ki, ümidi itirmək olmaz, çünki "Əmanətlərin sığortalanması haqqında" III Q 226 nömrəli 29.12.2006-cı il tarixli qanunun qəbul edilməsi ilə bir sıra pozitiv nəticələr əldə olundu. Belə ki, əmanətlərin sığortalanması sisteminin yaradılmasının məqsədi banklar və xarici bankların yerli filiallarının

* Məqalə h.e.d. M.Mövsumov tərəfindən çapa məsləhət bilinib.

ödəmə qabiliyyətini itirdikdə fiziki şəxslərdən əmanətə qəbul olunmuş pul vəsaitinin itirilməsi riskinin qarşısını almaq, maliyyə və bank sisteminin sabitliyini və inkişafını təmin etməkdir.

Bank fəaliyyəti barədə rus hüquqşünas alimi N.Y.Yerpılyova tərəfindən təqdim olunan əlamətlər bankların üç səciyyəvi xüsusiyyətində öz ifadəsini tapır ki, bunlar da bank sisteminin qeyri-sabitliyini və mümkün olan böhran qarşısında onun acizliyini müəyyən edir: 1) qarşılıqlı maliyyə asılılığının yüksək səviyyəsi; 2) asanlıqla götürülən pul vəsaitlərinə əsaslanma; 3) bankların həqiqi maliyyə vəziyyətinin müəyyən edilməsində çətinliklər (8, s. 43). Məhz buna görə maliyyə sisteminin əsas elementi kimi bank fəaliyyəti digər iqtisadi fəaliyyət formalarına nisbətən dövlət tərəfindən daha sərt tənzimlənmə obyekti hesab edilir.

Bununla əlaqədar etiraf etmək lazimdır ki, bank siyasəti kifayət qədər düzgün istiqamət aldıqda onun fəaliyyəti fayda gətirir, səhv istiqamət isə fayda əvəzinə ölkənin iqtisadi vəziyyətinə xeyli ziyan gətirə bilər, çünki azsaylı banklarda əhalinin əmanətlərindən çəmləşmiş nəhəng kapital həmin banklara böyük güc verir və həmin güc asanlıqla təsadüfən və ya bilərəkdən xalqa qarşı istifadə edilə bilər, çoxsaylı tarixi faktlar da buna əyani sübutdur.

Bank fəaliyyətinin lisenziyalaşdırılmasına zərurət həm də onunla şərtləndirilir ki, öz cəciyyəsinə görə bank fəaliyyəti geniş əhatəli şəxslərin maraqlarına toxunur. Belə ki, nağdsız formada əmtəə və xidmətlərin ödənilməsi zamanı müvəqqəti azad pul vəsaitlərinin yerləşdirilməsi və istehlak kreditlərinin cəlb edilməsi zamanı bank xidmətlərinə vətəndaşlarin ehtiyacı yaranır. Hüquqi şəxslərin və hüquqi şəxs yaratmadan fəaliyyət həyata keçirən sahibkarların öz hesablarına xidmət göstərmək, maliyyə kreditlərinin alınmasında, sərbəst pul vəsaitlərinin effektli yerləşdirilməsində və digər bank xidmətlərində tələbatı var.

Bundan başqa, bank fəaliyyətinin lisenziyalaşdirilmasına zərurət xırda əmanətçilərin və bank müştərilərinin, səriştəsiz menecmentdən qorunması, həmçinin bank müştərilərinin sistemli riskdən qorunması tələbatı ilə maliyyə-kredit sisteminə və ayrılıqda kredit institutlarına əmanətçi və əhalinin etimadını təmin etmək zərurətilə şərtləndirilir. (9)

Əlbəttə, lisenziyalaşdırılma ayrı-ayrı kredit təşkilatlarının iflas ehtimalını bütövlükdə kənar edə bilməz və ya ayrı-ayrı kreditor və əmanətçiləri müxtəlif itkilərdən sığortalaya bilməz. Lakin lisenziyalaşdırma müvafiq tələb və şərtlərə riayətə daima nəzarətlə kredit təşkilatlarının öz üzərinə götürdüyü müxtəlif riskləri məhdudlaşdırmalıdır, yəni bir və ya bir neçə maliyyə-kredit institutunun müflisləşməsilə yarana bilən zəncirvari reaksiyanın qarşısını ala bilər. Belə reaksiya isə bir ölkənin maliyyə sistemində deyil, beynəlxalq miqyasda böhran və mənfi fəsadlar yarada bilər. Buna əyani sübut isə Amerika Birləşmiş Ştatlarında başlayan və əksər ölkələrə mənfi təsir edən dünya maliyyə böhranıdır.

Beləliklə, bank fəaliyyəti, birincisi, qeyri-məhdud sayda subyektlərin əmlak maraqlarına toxunur, ikincisi isə öz xüsusiyyətinə görə ölkədə gedən iqtisadi proseslərə həlledici təsir göstərə bilər.

Göstərilən amillər ictimai təhlükəsizliyin təmin edilməsi məqsədilə digər sahibkarlıq subyektlərinə nisbətən banklar barədə daha sərt tələblərin qoyulması üçün kifayət qədər təbii əsasdır (10, s. 49).

Bank fəaliyyətinin lisenziyalaşdırılmasının tətbiqi normativ göstərişlər formasında davranış qaydaları sisteminin mövcudluğunu şərtləndirir, belə göstərişlər həm qanunlarda, həm də qanun qüvvəsinə malik olan aktlarda mövcuddur. Bu sistemin birbaşa məqsədi təyin olunmuş tələblərə cavab verən banklar tərəfindən əməliyyatların aparılmasına icazə verməkdir. Buna görə lisenziya mexanizminin lazımi təşkili və fəaliyyəti olduqda bank fəaliyyəti kifayət qədər sərt çərçivədə həyata keçirilir.

Sadalananların fonunda belə nəticə çıxarmaq olar ki, bank fəaliyyətinin lisenziyalaşdırılması məsələlərini tənzimləyən bank hüquq qanunvericiliyinin normaları aşağadakı məqsədlərin nail olunmasına yönəlmişdir:

1. Lisenziyalaşdırılan bank əməliyyatı növlərinin vahid siyahısı və lisenziyanın verilməsi, dayandırılması, ləğv edilməsinin vahid qayda, əsas və şərtlərinin təsdiq edilməsi.

2. Bank müştərilərinin, ilk növbədə xırda əmanətçilərin səriştəsiz və qeyri-səmimi rəhbərlikdən (menecmentdən) müdafiəsi.

3. Fiziki və hüquqi şəxslərin maliyyə-kredit sisteminə və ayrı-ayrı banklara etimadının möhkəmləndirilməsi.

4. Cəmiyyətdə və bütövlükdə dövlətdə maliyyə dövriyyəsində iqtisadi sabitliyin təmin edilməsi.

Xarici ədəbiyyatda söylənilən fikirlə bütövlükdə razılaşmaq olar ki, lisenziyalaşdırmanın məqsədi ayrılıqda götürülən hər bir bankın müflisləşməsinin qarşısını almaq deyildir (11, s. 55). Lisenziyalaşdırma ilk növbədə sistemli marağın müdafiəsinə yönəlib və bu mənada makroiqtisadi xarakter daşıyır.

Bank faəliyyətinin lisenziyalaşdırılması məqsədi göstərilən institutun funksiyalarını da müəyyən edir. Onları aşağıdakı kimi qeyd etmək olar:

1. ***Legitimlik funksiyası*** (lat. «legitimus» – "qanun" – bankın fəaliyyətinə qanuni əsasın verilməsi). Bu, kredit təşkilatlarının dövlət qeydiyyatı ilə yanaşı lisenziyalaşdirma legitimliyi formasıdır. Bank sahəsində legitimliyin mahiyyəti bank əməliyyatı və əqdlərinin hər hansı kredit təşkilatı tərəfindən həyata keçirilməsinin Mərkəzi Bank tərəfindən təsdiq edilməsindən ibarətdir.Deməli, lisenziyalaşdırma vasitəsilə kredit təşkilatına müvafiq hüquqi status, onun fəaliyyətinə isə qanuni xarakter verilir.

2. ***Eliminativ funksiya*** müvafiq lisenziyanın əldə edilməsi və hüquqi xarakterli tələblər sisteminin təyin edilməsi vasitəsilə bank əməliyyatlarını həyata keçirməyi güman edən subyektlərin seçilməsi.

3. ***Tənzimləyici funksiya*** öz iş prosesində bankların əməl etməyə borcu olduğu şərtləri müəyyən edir.

4. Təbii olaraq öncə göstərilən funksiyadan irəli gələn ***nəzarət funksiyası,*** fəaliyyət prosesində banklar tərəfindən lisenziya tələblərinə riayətə nəzarət.

5. ***Müdafiə - təminatçı funksiya*** bankın müflisləşməsi baş verdiyi halda müştərilərin maraqlarina zəmanət verməlidir. Bu funksiya bank lisenziyasının geri cağırılması və sonrakı müflisləşmə prosedurları ilə sıx bağlıdır.

6. ***İnformasiya – statistik funksiya*** (xüsusi reyestrdə verilmiş geri çağırılmış lisenziyaların uçotu).

Beləliklə, bank fəaliyyətinin lisenziyalaşdırılmasını legitimliyin forması kimi nəzərdən keçirmək olar ki, bu da müəyyən tələb və şərtlərə əməl etməklə Mərkəzi Bank tərəfindən verilən xüsusi icazənin (lisenziyanın) mövcudluğu ilə bank əməliyyatlarının aparılması mümkünlüyünü təyin etməkdən ibarətdir.

Bundan əlavə, lisenziyalaşdırma prudensial tənzimləmə və bank nəzarəti forması kimi də çıxış edir. Belə ki, bank fəaliyyətinin lisenziyalaşdırılmasının qeyd olunmuş şərtləri, onun məqsəd və funksiyaları lisenziyalaşdırmanın prudensial tənzimləmə və nəzarət kimi institutla nisbətdə nəzərdən kecirilməsini tələb edir. Eyni zamanda hüquqi təsisatların yaranma prinsipindən çıxış etsək, belə qənaətə gəlirik ki, kredit müəssisəsi olaraq bankların fəaliyyətinin dövlət nəzarətinin qurulması prosesində iki əsas vacib şərtləndirməni qeyd etmək zəruri olardı. Bank sahəsində legitimliyin əsas göstəricilərindən biri də bankın hüquqi şəxs statusunda dövlət qeydiyyatına alınması və maliyyə kredit fəaliyyəti üçün dövlətin səlahiyyətli orqanları tərəfindən fəaliyyətinin lisenziyalaşdırılmasıdır. Həmin hüquqi şəxs kimi qeydə alınma və lisenziya verilməsi təsisatları hər ikisi birlikdə tamlıq yaratmaqla kompleks hüquqi icazə təsisatları kimi qanunvericilikdə nəzərdə tutulur. Hər iki hüquqi təsisat birgə bankın legitim fəaliyyətinin əsasını təşkil edir.

«Prudensial» termini spesifik bank terminidir və ingilis sözü « prudent»-dən əmələ gəlir, bu da hərfi mənada «ehtiyatlı», «dərrakəli» kimi tərcümə edilir və "prudensil" bankın təhlükəsizlik fəaliyyətinin təmin edilməsinə istiqamətlənmiş normativlərə, qaydalara, tələblərə və göstərişlərə əsaslanmış, düşünülmüş davranış, idarəetmə və hərəkət üsuludur (12, s. 28). «Prudensial tənzimləmə» termini isə «dərrakəli tənzimləmə» deməkdir.

Fəaliyyətin prudensial normativləri dedikdə isə Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən banklar, xarici bankların yerli filialları və kredit ittifaqları üçün müəyyən edilmiş aşağıdakı normativlər və tələblər başa düşülür:

- nizamnamə kapitalının (xarici bankların yerli filialları üçün nizamnamə kapitalına bərabər tutulmuş vəsaitin) minimum miqdarını;
- məcmu kapitalın minimum miqdarını (xarici bankların yerli filialları üçün məcmu kapitala bərabər tutulmuş vəsaitin minimum miqdarını);
- əsas və məcmu kapitalın risk dərəcəsi üzrə ölçülmüş aktivlərə (xarici bankların yerli filialları üçün əsas və məcmu kapitala bərabər tutulmuş vəsaitin risk dərəcəsi üzrə ölçülmiş aktivlərə) nisbətini (kapitalın adekvatlıq əmsallarını);
- likvidlik göstəricilərini;
- bir borcalan və ya bir-biri ilə əlaqədar borcalanlar qrupu üçün kredit risklərinin maksimum miqdarını;
- məçmu iri kredit risklərinin maksimum miqdarını;
- aidiyyəti şəxslərə və aidiyyəti şəxs adından hərəkət edən şəxslərə verilmiş kreditlərin maksimum miqdarını;
- məçmu iri kredit risklərinin maksimum miqdarını;
- aidiyyəti şəxslərə və aidiyyəti şəxs adından hərəkət edən şəxslərə verilmiş kreditlərin maksimum miqdarını;
- aidiyyəti şəxslərə və aidiyyəti şəxs adından hərəkət edən şəxslərə verilmiş məçmu kreditlərin maksimum miqdarını;
- digər hüquqi şəxslərin kapitalında bankların iştirakının maksimum miqdarını;

- digər hüquqi şəxslərin kapitalında bankların məçmu iştirakının maksimum miqdarını;
- açıq valyuta mövqeyinin limitlərini;
- aktivlərin, balansarxası öhdəliklərin təsnifatından və qiymətləndirilməsindən asılı olaraq, mümkün zərərin ödənilməsi üçün xərçlər hesabına yaradılan xüsusi ehtiyatlara aid tələbləri;
- aidiyyəti şəxslər və aidiyyəti şəxs adından hərəkət edən şəxslər ilə aparılan əməliyyatlara aid tələbləri;
- aktivlərin və passivlərin ödəniş müddətlərinin və faiz dərəcələrinin uyğunluğuna dair tələbləri;
- kapitalın minimum məbləği normativi və onun adekvatlıq əmsalı normativi;
- vəsaitlərin qaytarılması tarixləri ilə cəlb olunmuş vəsaitlərin uyğunluğu normativi;
- bir üzvə verilən kreditin maksimum məbləği normativləri;
- təminatsız kreditlərin maksimum məbləği normativi;
- Kredit Ittifaqının kapital ehtiyatı normativi və onun yaradılması qaydaları;
- Kreditlərin təsnifləşdirilməsi, xüsusi ehtiyat fondu normaları və onun yaradılması qaydaları (13, s. 59, 338).

Hüquqşünas alim O.N.Antipova prudensial tənzimləmə və nəzarətin vəzifəsini onda görür ki, «daimi nəzarət vasitəsilə bankda ilkin mərhələdə yaranmaqda olan problemləri və kredit təşkilatının yaxın gələcəkdə müflisləşə bilməsini aşkar edib, mənfi tendensiyaları qabaqlamaq ücün təsirli tədbirlər görmək olsun». Deyilənlər qeyd-şərtsiz düzdür. Lakin ilkin mərhələni, kredit təşkilatının qeydiyyatı və lisenziyalaşdırılmasını unutmaq olmaz. Məhz bu mərhələdə Mərkəzi Bankın hərəkətləri bankların gələcək fəaliyyətini, onun «ehtiyatlılığını» və «dərrakəliliyini», müxtəlif mənfi proseslərə müqavimət bacarığını qabaqcadan müəyyən edir.

Müəllifin fikrincə, lisenziyalaşdırma bankların kredit təşkilatının Mərkəzi Bankla birlikdə qurduğu «müdafiə sədlərindən» biridir (14, s.67).

Lisenziyanın alınmasına və onun saxlanılmasına iddialı olmaq ücün hüquqi şəxslər müəyyən prudensial tələblərə əməl etməlidir (15, s.40, 356).

Müxtəlif baxışları cəmləşdirərək N.Y.Yerpılyova bank fəaliyyətinin prudensial tənzimlənməsinin üc funksiyasını qeyd edir: 1) preventiv funksiya – bankların fəaliyyət riskinin minimuma endirilməsi; 2) müdafiə funksiyası - konkret bankın müflisləşməsi zamanı əmanətçilərin maraqlarını zəmanətləndirmək; 3) təminedici funksiya - bankın maliyyə böhranı vəziyyətində son instansiyalı kreditor kimi Mərkəzi Bank tərəfindən maliyyə dəstəyini təmin etmək ücündür. Bu halda, müəllifin fikrincə, preventiv funksiya bank fəaliyyətinin prudensial tənzimlənməsinin əsas funksiyası kimi cıxış edir (16, s. 49).

Beləliklə, prudensial tənzimləmə forması kimi lisenziyalaşdırma kredit təşkilatı yaradılan məqamda və gələcəkdə bank fəaliyyətini həyata kecirərkən mövcud olur. Lisenziya tələblərinə riayətə görə bank nəzarəti forması kimi lisenziyalaşdırma kredit təşkilatı yaradıldıqdan və bank lisenziyası verildikdən sonra həyata kecirilir. Belə bölgü onunla izah edilir ki, kredit təşkilatı qeydiyyata alınana və ona lisenziya verilənə qədər nəzarət obyekti yoxdur. Beləliklə, əvvəlcə kredit təşkilatının yaradılması və bank lisenziyasının verilməsi qaydası tənzimlənir, sonra isə artıq yaradılmış kredit təşkilatlarına bank nəzarəti həyata kecirilir. Ümumilikdə dövlətin müəyyən etdiyi hüquqi tənzimləmə mexanizmindən çıxış etsək, kredit təşkilatları olaraq bankların fəaliyyəti qanunların təsiri altında olur, bank nəzarəti isə əsasən kredit fəaliyyətinin mövcud qaydalara uyğun həyata keçirilməsi ilə əlaqəlidir.

Mərkəzi Bank tərəfindən həyata kecirilən bank nəzarətinin məqsədi kredit təşkilatları tərəfindən yalnız iqtisadi normativ və rezerv tələblərinə (prudensial nəzarət) deyil, həm də bütövlükdə bank qanunvericiliyi normalarına əməl olunmasıdır.

Açar sözlər: legitimlik funksiyası, elminativ funksiya, tənzimləyici funksiya, prudensial tənzimləmə, preventiv funksiya, müdafiə və təminedici funksiya, prudensial nəzarət.

İstifadə olunmuş ədəbiyyat

1. “Banklar və bank fəaliyyəti” haqqında 02.12.1990-cı il tarixli RSFSR Qanunu.
2. “RSFSR Mərkəzi bankı haqqında” 02.12.1990-cı il tarixli RSFSR Qanunu.
3. “Azərbaycan Respublikasının Milli bankı haqqında” 261 nömrəli 07 avqust 1992-ci il tarixli Azərbaycan Respublikasının Qanunu.
4. “Azərbaycan Respublikasında banklar və bank fəaliyyəti haqqında” 262 nömrəli 07 avqust 1992-ci il tarixli Azərbaycan Respublikasının Qanunu.

5. «Пredprinimatelğskoe (xozəystvennoe) pravo» Yçebnik. B 2 t., t.1 otv.red. O.M.Oleynik. M., «Юristğ», 1999.

6. Oleynik O.M. «Пravovıe osnovı liüenzirovaniə xozəystvennoy deətelğnosti», Зakon, 1994, № 6.

7. Baqandov A.Б. «Лiüenzirovaniə öridiçeskix liü». M., 2000.

8. Erpıleva H.Ю. «Mejdunarodnoe bankovskoe pravo». Yçebnoe posobie. Izdatelğskaə qruppa «Форum», Инfra. M., 1998.

9. Möller X.И. «O bankovskom nadzore v stranax s rınoçnoy orientaüiey». Denğqi i kredit. 1990, № 3.

10. Capojnikov H.B. «Balötnıe operaüii kommerçeskix bankov». Пravovoe requlirovanie. Пraktiçeskoe posobie. M., «Юristğ», 1999.

11. Erpıleva H.Ю. «Mejdunarodnoe bankovskoe pravo». Yçebnoe posobie. Izdatelğskaə qruppa «Форum», Инfra. M., 1998.

12. "Banklar haqqında" 590-II Q nömrəli 16.01.2004-cü il tarixli Azərbaycan Respublikasının Qanunu. Banklar haqqında normativ-hüquqi aktlar toplusu. «Qanun», B., 2009.

13. "Banklar haqqında" 590-II Q nömrəli 16.01.2004-cü il tarixli Azərbaycan Respublikasının Qanunu. Maddə 34.2. "Kredit İttifaqının iqtisadi tənzimləmə normativləri (prudensial normativlər) haqqında" qaydalar. Qeydiyyat nömrəsi 2660, 08.02.2001-ci il. Banklar haqqında normativ-hüquqi aktlar toplusu. «Qanun», B., 2009.

14. Antipova O.H. Ctandartı bankovskoqo nadzora v Possii. M., 1999.

15. "Banklar haqqında" 590-II Q nömrəli 16.01.2004-cü il tarixli Azərbaycan Respublikasının Qanunu. Maddə 14.1. "Kredit İttifaqına bank əməliyyatı aparmaq üçün xüsusi razılıq (lisenziya) verilməsi" qaydaları. Qeydiyyat nömrəsi 2661, 09.02.2001-ci il. Banklar haqqında normativ-hüquqi aktlar toplusu. «Qanun», B., 2009.

16. H.Ю.Erpılëva «Mejdunarodnoe bankovskoe pravo». Yçebnoe posobie. Izd. qruppa «Форum», M.,1998.

Kəmran ƏMINOV

HEOBXODIMOSTĞ LIÜENZIROVANIƏ DEƏTELĞNOSTI BANKOV

Pezöme

Ctatğə raskrıvaet suhnostğ liüenzirovaniə bankov. Deətelğnostğ qosudarstva, napravlennaə na neobxodimostğ liüenzirovaniə, presleduet sleduöhie üeli:

1. Зahita klientov i melkix vkladçikov ot neprofessionalğnıx rukovoditeley bankov.
2. Ykreplenie doveriə qrajdan i öridiçeskix liü k finansovo-kreditnoy sisteme i otdelğnım bankam.
3. Obespeçenie finansovo-kreditnoy i gkonomiçeskoy stabilğnosti v obhestve i qosudarstve.

Klöçevıe slova: leqitimnaə funküiə, glğminativnaə funküiə, requliruöhaə funküiə, pridenüialğnaə requləüiə, preventivnaə funküiə, zahitnaə i obespeçivaöhaə funküiə, prudenüialğnıy kontrolğ.

Kamran EMINOV

THE NECESSITY OF LICENSING BANKS ACTIVITY

Summary

The article is devoted to the need in licensing banks activity. The aims of State's activity directed at licensing necessity are as foll ows:

1) Protection of bank clients, especially bank depositaries from unprofessional administrators of banks; 2) Strengthening the trust of the people and juridical persons to financial-credit system and individual banks;3) Providing for financial-credit, economic stability in a society and State.

Keywords: legitimic function, eliminative function, regulativing function, prudential regulation, preventive function, preventive and providing function, prudential control.

UOT 343.1

Anar PƏNAHOV
AMEA FSHİ -nin dissertantı

CİNAYƏT MÜHAKİMƏ İCRAATINDA SÜBUTLARIN ANLAYIŞI, TƏSNİFATI VƏ SİSTEMİ HAQQINDA*

Həqiqəti dərk etmə vasitəsi kimi ümumi anlayış olan sübutetmə həm mülki, həm də cinayət prosesi üçün aktualdır. Bu anlayışın mahiyyəti sübutetmə predmetindən, sübutetmə subyektlərindən və sübutetmə qaydalarından asılı olaraq müəyyən edilir. Sübutetmə mülki və ya cinayət prosesində həyata keçirilməsindən asılı olaraq müəyyən xüsusiyyətlərə malikdir.

Sübutetmə ittihamının qanuni, əsaslı və ədalətli həlli üçün əhəmiyyət kəsb edən halların müəyyən edilməsi məqsədilə sübutların əldə edilməsindən, yoxlanılmasından və qiymətləndirilməsindən ibarətdir. Təqsirləndirilən şəxsin cinayət məsuliyyətinə cəlb olunması əsaslarını və onun təqsirli olub-olmamasını sübutmə vəzifəsi ittihamçının üzərinə düşür. Cinayət-prosessual qanunvericilik sübutmə prosesinin tərkib hissələrini aşağıdakı kimi müəyyənləşdirir: sübutların toplanılması, yoxlanılması və qiymətləndirilməsi. Sübutetmə prosesinin məqsədi sübut edilməli olan halların (CPM-in 139-cu maddəsi) müəyyən edilməsindən ibarətdir. Cinayət-prosessual qanunvericiliklə müəyyən edilmiş qaydada rəsmiləşdirilməmiş məlumatlar sübutetmə prosesindən kənarda qalır. Hər hansı istintaq hərəkətinin nəticəsinin müvafiq protokolla rəsmiləşdirilməməsi həmin istintaq hərəkətinin hüquqi cəhətdən mövcud olmaması deməkdir. Cinayət-prosessual qanunvericilik sübutetmə prosesinə aid olan halları dəqiq müəyyən edir. Qanunverici hər bir cinayət işi və ya digər materiallar üzrə sübut edilməli olan halları, sübutetmə vasitələrini, subyektlərini, həmin subyektlərin səlahiyyətlərini, sübutmənin forma və məzmununu, əməliyyat-axtarış fəaliyyətinin nəticələrindən sübutetmədə istifadə olunması qaydasını və s. halları müəyyənləşdirir (1, 458-459).

Cinayət prosessual qanunvericilikdə sübut məfhumu altında işin düzgün həlli üçün əhəmiyyəti olan və istintaq, prokurorluq və məhkəmə orqanlarının əsaslana biləcəyi hər cür faktiki məlumatların nəzərdə tutulması başa düşülür. Buradan belə nəticəyə gəlmək olar ki, sübutlar nəzəriyyəsi cinayət-prosessual hüququn əsas sütunlarından biri olmaqla təhqiqat, istintaq və məhkəmə prosesində böyük əhəmiyyət kəsb edir (2, 235).

Sübutetmənin mahiyyəti məsələsində prosessualist alimlər arasında fikir birliyi yoxdur. Hüquqi ədəbiyyatda müxtəlif fikirlər mövcuddur. Bu məsələ ilə bağlı daha geniş yayılmış mülahizələr aşağıdakılardır. Bəzi müəlliflərin fikrincə, məhkəmə sübutetmə prosesində iş üzrə həqiqətin müəyyənləşdirilməsi, işin həlli üçün zəruri faktların mövcudluğu, yaxud yoxluğunun müəyyənləşdirilməsinə yönəldilmiş prosessual hərəkətləri həyata keçirir.

Sübutetmə subyekti kimi yalnız tərəflər və işdə iştirak edən digər şəxslər çıxış edə bilər, məhkəmə sübutetmə funksiyasını həyata keçirmir. Çünki sübutetmə məhkəməni inandırmaq üçün icra olunur. Nəzərdən keçirilən problemin əksər tərəfdarları hesab edir ki, sübutetmə fəaliyyətini təkcə işdə iştirak edən şəxslər deyil, həm də məhkəmə həyata keçirir.

Geniş yayılmış fikirlərdən biri də ondan ibarətdir ki, sübutetmə həm məkəmə və işdə iştirak edən şəxslərin prosessual fəaliyyəti, həm də dəlillərin qiymətləndirilməsi üzrə hakimlərin və digər sübutetmə subyektlərinin təfəkkür fəaliyyətidir (4, 29-30; 4, 33).

Məhkəmə tərəfindən sübutların qiymətləndirilməsi, ədəbiyyatda qeyd edildiyi kimi, bütün dərk etmə prosesinin məzmununu təşkil edir (5, 206), buna görə əqli fəaliyyəti, yəni sübutların qiymətləndirilməsini praktiki fəaliyyətdən, yəni sübutların toplanması və təhqiqi prosesindən ayırmaq olmaz.

Məhkəmə istintaqı bir neçə mərhələdən ibarətdir: 1) sübutların tapılması, təqdim olunması, toplanması və möhkəmləndirilməsi; 2) sübutların məhkəmə iclasında (cinayət prosesində işin ibtidai istintaq mərhələsində) təhqiqi, yoxlanması; 3) dəlillərin qiymətləndirilməsi, yəni dəlil kimi təhqiq olunan

---

* Məqalə hüquq üzrə f.d. F.Xəlilov tərəfindən capa məsləhət bilinib.

məlumatların, yəni faktların həqiqiliyinin müəyyənləşdirilməsi və dəlillər əsasında işin faktiki vəziyyətinin müəyyən edilməsi (6, 302-303).

Cinayət prosessual qanunvericilikdə mühakimə icraatının mühüm qaydaları təsbit olunmuş, onun məqsədləri ifadə olunmuş, onların əldə edilməsi mənbələrinin qanunla yol verilən siyahısı, üzərlərinə sübutetmə və sübut təqdim etmə öhdəliyi düşən proses iştirakçıları göstərilmiş, sübutetmə vəzifəsinin müqəssirin üzərinə qoyulmasının yolverilməzliyi müəyyən edilmiş, tərəflərin hüquq və vəzifələri, o cümlədən müttəhimin təqsırını sübut edən və ona bəraət qazandıran hallar, habelə onun təqsırını yüngülləşdirən və ağırlaşdıran vəziyyətlərin hərtərəfli, tam və obyektiv araşdırılması üçün qanunla nəzərdə tutulmuş bütün tədbirləri görmək haqqında məhkəmənin, həmçinin prokuror, müstəntiq və tədqiqatı həyata keçirən şəxslərin vəzifəsi olduğu müəyyən edilmiş və eyni zamanda qanunla sübutları qiymətləndirmə prinsipləri təsbit olunmuşdur.

Sübuta yetirmə fəaliyyəti həyata keçirilərkən məhkəmə sübutların mahiyyəti məsələsini araşdırmalıdır. Cinayət prosessual qanunvericilik məhkəmə sübutlarının oxşar mahiyyətini, onların əldə edilməsinin oxşar vasitələrini göstərir.

Hər hansı faktiki məlumat cinayət işi üzrə sübut sayılır. Məhkəmə, təhqiqat və istintaq orqanları həmin faktiki məlumatlar əsasında qanunla müəyyən edilmiş qaydada tərəflərin tələbi və etirazını əsaslandıran halların mövcudluğu və ya yoxluğunu müəyyən edir.

Məhkəmə sübutları ilə bağlı iş üçün əhəmiyyətli halların müəyyən etdiyi faktiki məlumatlar və bu məlumatların özlərini müəyyənləşdirən vasitələri bir-birindən ayırmaq olmaz: faktiki məlumatlar yalnız o zaman məhkəmə sübutu hesab edilir ki, onların özləri qanunda göstərilmiş vasitələrlə müəyyən edilir. Qanunvericilikdə həm iş üçün əhəmiyyət kəsb edən faktiki məlumatlar, həm də bu məlumatları müəyyən edən vasitələrdən bəhs edilir.

Hüquq ədəbiyyatında məhkəmə sübutu anlayışı barədə məsələ mübahisəlidir. Bir sıra alimlər məhkəmə sübutu dedikdə, yalnız faktiki məlumatları başa düşür. Belə ki, məhkəmə həmin məlumatların əsasında qanunla müəyyən edilmiş qaydada işin düzgün həlli üçün əhəmiyyət kəsb edən halları müəyyən edir (7, 154). Digərlərinin fikrincə, məhkəmə sübutu anlayışı ikili xarakterə malikdir və sübut kimi, əvvəla, faktiki məlumatları, ikincisi, sübut etmə vasitələrini qəbul edirlər (8, 98-100; 5, 288).

Nəhayət, üçüncülər hesab edir ki, məhkəmə sübutları faktiki məlumatların vəhdəti deməkdir və məhkəmə onlara əsaslanaraq qanunla müəyyən edilmiş qaydada işin düzgün həlli üçün əhəmiyyət kəsb edən halları və bu faktiki məlumatların olduğu sübutetmə vasitəsini müəyyənləşdirir (9, 55-66). Bütün bu baxışların müfəssəl icmalı ədəbiyyatda verilmişdir (7, 137-143). Fikrimizcə, üçüncü nöqteyi-nəzər daha düzgündür. Məhkəmə sübutu anlayışını ifadə edərkən qanunla göstərilmiş əlamətlərə əsaslanaraq çıxış etmək lazımdır. Belə nəticə çıxarmaq olar ki, məhkəmə sübutu qanunla nəzərdə tutulmuş sübutetmə vasitələrindən istifadə edilməklə prosessual qaydaya riayət olunmaqla əldə edilmiş işlə bağlı istənilən faktiki məlumatlardır.

Məhkəmə sübutları qanunla nəzərdə tutulmuş sübutetmə vasitəsindən əldə edilmiş faktiki məlumatlardır. Məhkəmə (müstəntiq və ya təhqiqatı həyata keçirən orqan) onlara əsaslanaraq, qanunla nəzərdə tutulmuş prosessual qaydada işin düzgün həlli üçün əhəmiyyət kəsb edən halların mövcudluğunu, yaxud yoxluğunu müəyyən edir.

Hüquq ədəbiyyatında qeyd edildiyi kimi, faktiki məlumatlarla sübutetmə vasitələrinin vəhdətdə olması barədə çıxarılan nəticə qətiyyən o demək deyil ki, faktiki məlumatlar və sübutetmə vasitələri arasında mövcud fərqlərə etinasız yanaşmaq olar. Bu fərq mövcuddur, praktiki əhəmiyyətə malikdir və məhkəmə sübutların qiymətləndirilməsi zamanı onu nəzərə almalıdır. Məhkəmə sübutetmə vasitəsini təhqiq edərkən onların işin müvafiq halları ilə uyğunluğunu yoxlayır; sübutetmə vasitəsinin mükəmməlliyini qiymətləndirir, şahidin faktları düzgün dərk etməyə qadir olub- olmadığını, sənədlərin həqiqiliyini və s. aydınlaşdırır. Faktiki məlumatları təhqiq edərkən işin halları barədə məlumatların həqiqətə uyğun olub-olmadığını, işin həlli üçün əhəmiyyət kəsb edən vəziyyətin onları təsdiqləyib-təsdiqləmədiyini müəyyənləşdirir.

Məhkəmənin və ya cinayət prosesi tərəflərinin əldə etdiyi mötəbər dəlillər (məlumatlar, sənədlər, əşyalar) cinayət təqibi üzrə sübutlar hesab olunur. Bu sübutlar: cinayət prosessual qanunvericiliyinin tələblərinə əməl edilmədiklə insan və vətəndaşın konstitusiya hüquq və azadlıqları məhdudlaşdırılmadan və ya məhkəmənin qərarı əsasında (bu, Məcəllə ilə nəzərdə tutulmuş, təxirə salına bilməyən hallarda isə müstəntiqin qərarı əsasında) məhdudlaşdırılmaqla əldə olunmalı; hadisənin cinayət hadisəsi olub-olmamısını, törədilmiş əməldə cinayətin əlamətlərinin olub-olmamısınıı, bu əməlin təqsirləndirən şəxs tərəfindən törədilib-törədilməməsini, onun təqsirli olub-olmamısını, habelə ittihamın düzgün həll edilməsi

üçün əhəmiyyət kəsb edən digər halları göstərməlidir. Cinayət prosesində aşağıdakılar sübut kimi qəbul olunur: şübhəli, təqsirləndirilən və zərər çəkmiş şəxsin və şahidlərin ifadələri; ekspertin rəyi; maddi sübutlar; istintaq və məhkəmə hərəkətlərinin protokolları; digər sənədlər. 1. Şərh olunan maddəyə görə sübutlar dedikdə, məhkəmənin və cinayət prosesi tərəflərinin əldə etdiyi mötəbər dəlillər-məlumatlar, sənədlər, əşyalar başa düşülür. Sübut qismində aşağıdakılar qəbul olunur: a) şübhəli, təqsirləndirilən və zərərçəkmiş şəxsin və şahidlərin ifadələri; b) ekspertin rəyi; c) maddi sübutlar; ç) istintaq və məhkəmə hərəkətlərinin protokolları; d) digər sənədlər (1, 393).

«Məhkəmə sübutu» anlayışı məsələsinin tədqiqi göstərir ki, bu prosessual institutların mahiyyəti , istər mülki, istərsə də cinayət mühakimə üsulunda üst-üstə düşür. Lakin bu o demək deyil ki, həmin təsisatlar arasında heç bir fərq mövcud deyildir. Belə fərqlər var və onlar, deyək ki, sübutetmə predmetində, sübutetmə ilə bağlı vəzifələrin bölgüsündə kifayət qədər aydın təzahür edir.

Sübutların ittihamedici və bəraətqazandırıcı olması yalnız konkret cinayət prosesində sübutlara baxılarkən tətbiq oluna bilər. Mülki prosesdə sübutlar müvafiq olaraq təsdiqedici iddia tələbi, yaxud iddia əleyhinə etirazı müəyyən edən təsdiqləyiciyə bölünür.

Sübutların ilkin və törəmə olması mülki prosessual hüquqda, həm də cinayət – prosessual hüquqda eynidir. Bu məsələdə istər mülki hüquq mütəxəssisləri, istərsə də kriminalistlər arasında hansısa mühüm fikir ayrılığı yoxdur.

Sübutların düzünə, yəni birbaşa və dolayı təsnifatı məsələsində vəziyyət başqadır. Hüquq ədəbiyyatında sübutların düzünə, yəni birbaşa və dolayı təsnifatı məsələsinə münasibətdə müxtəlif fikirlər vardır.

Mövcud fikirlərdən biri budur ki, sübutun birbaşa və ya dolayı olması məsələsini həll edən zaman aydınlaşdırılmalıdır ki, sübut başlıca faktı (müttəhimin təqsirləndirildiyi ittiham faktını), yaxud sübutedici faktı, yəni əsas fakta daxil olmayan hansısa kənar faktı müəyyən edir, ya etmir. Əgər sübut əsas faktı müəyyən edirsə, o, birbaşa, yox, əgər sübutedici faktı müəyyən edirsə - dolayıdır. Bu fikir cinayət prosesinə dair ədəbiyyatda geniş yayılsa da, hakim baxış deyildir.

Mülki prosesə aid ədəbiyyatda da ayrı-ayrı müəlliflər birbaşa və dolayı sübutlar arasında fərqlərin mövcudluğu barədə fikirlər söyləmişlər. Belə ki, S.N. Abramov qeyd edir ki, hüquqi əsas faktı müəyyən edən sübutlar düzünə, sübutedici faktları müəyyən edənlər isə dolayı sübutlardır.

Düzünə sübut əsasında sübut edilən faktın mövcudluğu və ya mövcud olmaması barədə doğru-düzgün nəticə çıxarmaq mümkündür. Ancaq sübut edilən faktın mövcud olub-olmaması barədə yalnız güman edilən nəticə çıxarmağa əsas verən sübut dolayı sübut olacaqdır (11, 209).

Cinayət prosessual ədəbiyyatda qeyd edilir ki, sübutedici fakt yalnız dolayı sübut üçün əsas ola bilər. Birbaşa sübut varsa, sübutedici fakt yoxdur. V.Y. Livşits iddia edir ki, birbaşa sübutlar olan yerdə sübutedici fakt ona görə yoxdur ki, düzünə faktla bilavasitə əsas fakt əsasında, məsələn, qətl faktı müəyyən edilir (12, 29-32). P.A. Lupinskaya tamamilə düzgün olaraq hesab edir ki, sübutedici faktı fakültativ element kimi nəzərdən keçirən baxışlar qanunun sübutlar barədə tələbi ilə uzlaşmır (13, 103). Bunu mülki prosesə münasibətdə də demək olar. Belə ki, mülki prosesdə sübutetmə predmeti faktların məcmusudur və mahiyyəti üzrə işin həlli onların müəyyən edilməsindən asılıdır.

Qanunla tərəflərin ifadələri, o cümlədən zərərçəkənin, şübhəli və ya təqsirləndirilən şəxsin və ya müttəhimin ifadələri sübutetmə vasitəsidir. Tərəflərin ifadələri mahiyyəti etibarilə iki qrupa bölünə bilər. Birinci – iş üzrə sübut olan faktiki məlumatlar. İkinci, işin mahiyyəti üzrə faktiki məlumat, hələ sübut edilməmiş dəlillər, mülahizələr, qiymətləndirici mühakimələrdir. Proses iştirakçılarının izahatlarını sübutetmə vasitəsi kimi o halda qəbul etmək olar ki, onlar məhkəməyə iş üzrə sübut olan faktiki məlumatları çatdırırlar.

Tərəflərin sübutetmə vasitəsi kimi izahatlarının özünəməxsusluğu ondan ibarətdir ki, tərəflər işin nəticəsində maraqlıdırlar. Buna görə onların izahatlarında, ifadələrində bir qayda olaraq eyni vaxtda həm iş üzrə faktiki məlumat, həm də bu faktların izahı, onların qiymətləndirilməsi, tərəflərin bu faktlar əsasında gəldiyi nəticələr öz əksini tapır.

Iddianın cavabdeh tərəfindən təsdiqlənməsinin xarakteri ilə bağlı müxtəlif fikirlər söylənilir. Belə ki, bu məsələni xüsusilə tədqiq etmiş V.K.Puçinski və S.V.Kurilyev müxtəlif nəticələrə gəlmişlər. V.K.Puçinskinin fikrincə, cavabdeh tərəfindən iddia tələblərinin məhkəmə baxışı zamanı qəbul edilməsi iddiaçının iddiadan imtina etməsi və tərəflərin barışıq sazişi bağlaması istisna edilməklə qanunla əsas akt kimi nəzərdən keçirilə bilməz (14, 26). S.V.Kurılyev isə əksinə, bu fikirdədir ki, cavabdehin iddianı təsdiqləməsi məhkəmə çəkişməsinin dayandırılmasına yönəldilmiş fəaliyyətdir. Bu, məhkəmə baxışında

həyata keçirilmiş olan prosessual hüquqdan istifadə aktıdır (15, 151). Fikrimizcə, S.V.Kurilyevin mövqeyi daha düzgündür.

Tərəflərin faktları təsdiqləməsi məhkəmə və məhkəmə prosesindən kənarda baş verə bilər. Sübut faktın məhkəmə tərəfindən təsdiqlənməsidir. Bu iş məhkəmədə həyata keçirilir və bilavasitə hakimlər tərəfindən qəbul edilir. Faktın məhkəmədən kənar təsdiqlənməsi hələ sübut deyildir. Ona görə ki, məhkəmə iclasında tərəf onu təsdiqləmirsə, sübutetməyə ehtiyacı vardır.

Cavabdehin faktı təsdiqləməsi o halda böyük əhəmiyyət kəsb edir ki, həmin faktın təsdiqlənməsi yalnız qanunla müəyyən edilmiş vasitələrlə həyata keçirilsin, iddiaçı isə bu vasitələrə malik olsun.

Təqsirləndirilən şəxsin öz günahını etiraf etməsi həm faktlardır, həm də törədilmiş cinayətin halları barədə məlumatlar deməkdir. Lakin təqsirləndirilən şəxsin belə etirafı digər sübutlarla təsdiqini tapmayıbsa, ittihamedici hökmün əsası kimi qəbul edilə bilməz. Cinayət prosessual qanunvericiliyi məhkəmələrin diqqətini qanunun bu göstərişinin sözuz icrasının zəruriliyinə yönəltməlidir (16, 327).

Cinayət prosesində etiraf bütün digər sübutlar kimi qiymətləndirilməlidir. Onun digər sübutlar qarşısında heç bir üstünlüyü yoxdur.

Məhkəmələr tərəfindən cinayət işlərinə baxılarkən qanunlara ciddi riayət edilməlidir. Təqsirləndirilən şəxsin cinayət törətməkdə öz təqsirini etiraf etməsi yalnız iş üzrə bütün sübutların məcmusu ilə tətbiq edildiyi halda ona qarşı ittihamın əsası kimi qəbul edilə bilər (1, 406).

Qanunla cinayət işi üzrə müdafiəçinin ona müdafiəçi vəzifəsinin icrası ilə əlaqədar məlum olmuş faktlar barədə şahid qismində dindirilməsinin qeyri-mümkünlüyünü müəyyənləşdirir. Fikrimizcə, şübhəli və ya təqsirləndirilən şəxsin, müttəhimin nümayəndəsi olmuş və bununla əlaqədar müəyyən vəziyyətlər barədə məlumat əldə etmiş şəxsin dindirilməsi yolverilməzdir.

Cinayət prosessual qanunvericilikdə müəyyən edilmişdir ki, şahidin çağırılması barədə vəsatət qaldıran şəxs şahidin iş üçün əhəmiyyət kəsb edən hansı vəziyyətləri təsdiqləyə biləcəyini göstərməlidir. Bu, məhkəmənin əlavə şahidlərin çağırılması barədə vəsatəti təmin etmək məsələsinin həlli, həmçinin xüsusi ittihamlı işlər üzrə şahidlərin tərkibinin müəyyənləşdirilməsi zamanı zəruri və faydalıdır.

Cinayət prosesində şəxsin şahidliyə yararlı olub-olmadığını aydınlaşdırmaq məqsədilə psixi və ya fiziki vəziyyətini müəyyənləşdirməkdən ötrü məcburu qaydada ekspertiza aparmasını nəzərdə tutan norma da müəyyən olunmuşdur. Mülki prosessual qanunvericilikdə belə norma yoxdur, hərçənd mülki prosesdə belə hallarda maraqlı şəxslərin xahişi, yaxud məhkəmənin təşəbbüsü ilə həmin məsələ ilə bağlı ekspertiza keçirilə bilər.

Açar sözlər: sübutetmənin mahiyyəti, sübutetmə subyekti, məhkəmə sübutlarının mahiyyəti, məhkəmə sübutu anlayışı, sübutların ilkin və törəmə olması, qanunla tərəflərin ifadələri, cinayət prosessual qanunvericilik.

İstifadə olunmuş ədəbiyyat

1. C.H.Mövsümov. Azərbaycan Respublikası Cinayət-prosessual Məcəlləsinin kommentariyası. Bakı, «Diqesta», 2003, s.674.

2. M.Cəfərquliyev. Azərbaycan Respublikasının Cinayət Prosesi. Bakı, «Qanun» 2002, s.767.

3. Полənskiy H.H. Oüenka dokazatelğstv vışestoəhim sudom v uqolovnıx delax. /Cov. qosudarstvo i pravo, 1951, № 7.

4. Лupinskaə П.A. Dokazıvanie v sovetskom uqolovnom proüesse. M., Юrid. lit., 1966.

5. Cbornik uçenıx trudov Cverdlovskoqo öridiçeskoqo instituta. Cverdlovsk, 1964, vıp. 3.

6. Ctroqoviç M.C. Kurs sovetskoqo uqolovnoqo proüessa, t. 1.

7. Kurılev C.B. Osnovı teorii dokazıvaniə v sovetskom pravosudii.

8. Чeçot Д.M. O suhnosti sudebnıx dokazatelğstv i forme ix ispolğzovaniə. /Bestn. ЛГУ, 1964, № 11.

9. Гureev П.П. O ponətii sudebnıx dokazatelğstv v sovetskom uqolovnom proüesse. /Cov. qosudarstvo i pravo, 1966, № 8.

10. Kurılev C.B. Osnovı teorii dokazıvaniə v sovetskom pravosudii.

11. Osipov Ю.K. Иspolğzovanie kosvennıx dokazatelğstv v sovetskom qrajdanskom proüesse. – Уçen. Зap. Cverdl. örid. in-ta, 1957, t. 5.

12. Лivşiü В.Я. Пrinüip neposredstvennosti v sovetskom uqolovnom proüesse. М., Иzd-vo АН СССР, 1949.
13. Лupinskaə П.А. Soçineniə.
14. Пuçinskiy В.К. Пriznanie storonı v sovetskom qrajdanskom proüesse. М., «Гosörizdat», 1955
15. Kurılev С.В. Obcəsnenie storon kak dokazatelğstvo v sovetskom qrajdanskom proüesse. М., «Гosörizdat», 1956.
16. Cbornik postanovleniy Пlenuma Berxovnoqo Cuda СССР, 1924-1977, ç. 2.

Anar ПАНАХОV

O PONƏTII KLASSIFIKAÜII I SISTEME DOKAZATELĞSTV PRI PROVEDENII SUDEBNOQO RAZBIRATELĞSTVA PRESTUPLENIƏ

Pezöme

Пredstavlenie dokazatelğstv, obhee ponətie kotoroqo – gto sredstvo dlə ustanovleniə deystvitelğnosti, əvləetsə aktualğnım kak dlə qrajdanskoqo, tak i uqolovnoqo proüessa. Cuhnostğ dannoqo ponətiə opredeləetsə v zavisimosti ot predmeta dokazatelğstva, subcektov dokazatelğstva i pravil dokazatelğstva. Пroüess dokazatelğstva obladaet opredelennımi svoystvami v zavisimosti ot eqo primeneniə v qrajdanskom ili uqolovnom proüesse.

Mnenie uçenıx-proüessualistov otnositelğno suhnosti dokazatelğstva razliçno. В pravovoy literature suhestvuöt razliçnıe mneniə po gtomu voprosu.

Klöçevıe slova: ponətie «sudebnoe dokazatelğstvo», suhnostğ dokazatelğstva, subcekt dokazatelğstva, perviçnostğ i obrazovanie dokazatelğstv, pokazaniə storon po zakonu, uqolovno-proüessualğnoe zakonodatelğstvo.

Anar PANAHOV

ON THE NOTION, CLASSIFICATION AND SYSTEM OF EVIDENCE AT HOLDING LEGAL PROCEEDINGS

Summary

Providing evidences generally interpreted as the instrument for reality identification is actual both for civil and criminal process. The essence of such interpretation is defined depending on the matter of evidence, the subject of evidence, and the rules of evidence. The evidence process has certain features depending on its applying to civil or criminal proceedings.

The opinions of proceeding experts with regard to the essence of evidences are different. There are various opinions on this question in the legal literature.

Keywords: notion «legal evidence», the essence of legal evidences, the subject of evidence, the primary nature and formation of evidences, the parties' testimonies under law, the criminal procedural legislation.

UOT 347.158

Sevil MƏMMƏDOVA
AMEA FSHİ -nin aspirantı

YETKİNLİK YAŞINA ÇATMAYANLARIN HÜQUQLARI İLƏ BAĞLI AZƏRBAYCAN QANUNVERİCİLİYİNİN İNKİŞAF TARİXİ*

Tarixə nəzər saldıqda görürük ki, Azərbaycanın qədim quldarlıq dövlətlərində hüququn əsas mənbəyi adət olmuşdur. M.F.Məlikova və X.C.İsmayılov haqlı olaraq göstərirlər ki, qədim Misirdəki şah Bakxorisin qanunları, qədim Babilistandakı Xammurapi qanunları, qədim Hindistandakı Manu qanunları, qədim Romadakı XII cədvəl qanunları kimi hüquq abidələrinin qədim Azərbaycanda olmaması dövlət idarəçiliyi və hüquqla bağlı məsələlərin tam mənzərəsini əks etdirməyə imkan vermir (14, s.33). Həmin dövrün tarixi mənbələrində yetkinlik yaşına çatmayanların yalnız vərəsəlik hüququnun olmasına rast gəlinir.

VIII əsrin əvvəllərinə yaxın islam dini Azərbaycanda hakim dinə çevrildikdən sonra yetkinlik yaşına çatmayanların hüquqları, o cümlədən mülki hüquqları şəriət normaları ilə nizamlanmağa başladı. Şəriət normalarının əsas mənbəyi isə müqəddəs kitab olan Qurani-Kərimdir.

Müsəlmanlar anadan olduğu andan etibarən hüquq qabiliyyətinə, yetkinlik yaşına çatdıqda isə fəaliyyət qabiliyyətinə malik olurdular. Kişilər üçün yetkinlik yaşına çatma, onların üzündə tüklərin peyda olması və ya 15 yaşın tamam olması, qadınlar üçün isə cinsi yetkinliyə çatma və ya doqquz yaşın tamam olması ilə əlaqələndirilirdi (11, s. 100).

Amma şəriət qaydalarına əməl etməklə bağlanmış nikahdan doğulan uşaqlar, nikahdankənar doğulan uşaqlarla müqayisədə daha üstün hüquqlara malik idilər.

Uşaqların, o cümlədən yetkinlik yaşına çatmayanların vərəsəlikdə payları müqəddəs Qurani-Kərimin Ən-Nisa (Qadınlar) surəsinin 11-ci ayəsində aşağıdakı kimi nazil olmuşdur:

"Allah övladlarınız haqqında sizə tövsiyə buyurur ki, oğula iki qız hissəsi qədər pay düşür. Əgər (ölən şəxsin) qızlarının sayı ikidən artıqdırsa, mirasın üçdə iki hissəsi onlara çatır. Əgər təkcə bir nəfər qızdırsa, mirasın yarısı onundur. Övladı olduğu təqdirdə vəfat edənin ata və anasının hər birinə mirasın altıda bir hissəsi verilir.

Bu bölgü ölən şəxsin vəsiyyəti yerinə yetirildikdən və ya borcu ödənildikdən sonra aparılır" (12, s. 166).

Əl-Bəqərə (İnək) surəsinin 180-cı maddəsinə əsasən müsəlman əmlakının yalnız üçdə bir hissəsini vəsiyyət edə bilər (12, s. 133). Yetkinlik yaşına çatmayanların vəsiyyətnamənin məzmunundan asılı olmayaraq vərəsəlikdə məcburi pay hüququ təsbit olunub.

Yetkinlik yaşına çatmayanların vərəsəlik hüququ ilə yanaşı digər əmlak hüquqlarına da təminat verilirdi. Valideynlərini itirmiş yetkinlik yaşına çatmayanların əmlakları üzərində qəyyum təyin olunurdu.

XIX əsrin başlanğıcına kimi müsəlman hüququ Azərbaycanda hüququn yeganə və əsas mənbəyi olmaqda davam edirdi. Şimali Azərbaycan Rusiya imperiyası tərəfindən işğal edildikdən sonra ayrı-ayrı hüquq sahələri Rusiya qanunvericiliyi bazasında formalaşmağa və inkişaf etməyə başladı. Bu dövrdə mühüm hüquqi mənbə qismində "Rusiya imperiyasının tam qanunlar külliyyatı" və "Rusiya imperiyasının qanunlar toplusu" çıxış edirdi.

Mülki qanunlar külliyyatının 10-cu cildinin 1-ci hissəsinin 220, 221 və 222-ci maddələrinə uyğun olaraq yetkinlik yaşına, 21 yaşa çatmayan şəxslər hər hansı mülki-hüquqi müqavilə bağlamağa haqlı deyildilər. Çünki bu yaşa çatmamış şəxsin bağladığı bütün əqdlər etibarsız sayılaraq tərəflərdə hər hansı hüquq və vəzifələrin yaranmasına səbəb olmurdu.

21 yaşdan əvvəl hər hansı növ öhdəliyin bağlanmasını qadağan edən ümumrusiya qanununun göstərişi ilə 21 yaşadək nikaha daxil olmağa və buna görə də kişi tərəfindən qadının xeyrinə əmlak öhdəliyilə əlaqədar müqavilə bağlamağa izacə verən xüsusi müsəlman qanunu arasında kolliziya (ziddiyyət) mövcud idi (11, s. 338).

Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra 1921-ci ilin mayın 6-da qəbul edilmiş Azərbaycanın ilk Konstitusiyasında 18 yaşına kimi uşaqlar yetkinlik yaşına çatmayan hesab olundular.

---

* Məqalə hüquq üzrə f.d. Z.Məmmədov tərəfindən çapa məsləhət bilinib.

Mülki hüquq sahəsində əsas qanunvericilik aktı Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin 2-ci çağırış 3-cü sessiyasında 1923-cü il iyul ayının 16-da qəbul edilən və sentyabrın 8-də qüvvəyə minən Azərbaycan SSR Mülki Məcəlləsi oldu. Azərbaycanın ilk Mülki Məcəlləsi hüquq qabiliyyətinin yaranma anını müəyyən etməsə də, 7-ci maddədə fəaliyyət qabiliyyətinə malik olma anını müəyyən etmişdi. Həmin maddədə deyilirdi: «Bir şəxsin öz hərəkəti ilə mülki hüquqları əldə etmək və özü üçün mülki vəzifələri yaratmaq (fəaliyyət qabiliyyəti) qabiliyyəti, onun tam yaşa dolması ilə bütöv həcmdə meydana çıxır. Tam yaşa dolmaq 18 yaşına çatdıqda başlanır» (8, s. 6).

Qeyd etmək istərdik ki, 1923-cü ilin Mülki Məcəlləsi yetkinlik yaşına çatmayanları tam yaşa dolmayanlar adlandırırdı.

1924-cü ildə Millətlər Liqası "Uşaq hüquqları haqqında" Cenevrə Bəyannaməsini qəbul etdi. Beş bənddən ibarət olan bəyannamə uşaqların maddi, mədəni və mənəvi inkişafı üçün imkanlardan istifadə etmək hüququnu; xəstə, əlil və ya valideynlərdən məhrum olmuş uşaqlar üçün qayğı almaq hüququnu; çətin vəziyyətdə olduqda kömək üçün müraciət etmək hüququnu; iqtisadi istismardan azadlıq və sosial məsuliyyət hissini aşılayan tərbiyə almaq hüquqlarını müəyyənləşdirdi. Bu bəyannamə uşaqların müdafiəsinə həsr olunmuş ilk beynəlxalq sənəd olaraq beynəlxalq hüquq sisteminə daxil oldu (15, s. 6).

Müharibə dövründə hamilik, qəyyumluq və övladlığa götürmə institutlarında bir sıra dəyişiklik olundu. Hamiliyə götürülmüş uşaqların saxlanılması xərcini dövlət özü verirdi. İtirilmiş uşaqlarını tapmış valideynlərin və ya onların yaxın qohumlarının tələbi ilə hamilik xitam olunurdu. Valideynlərsiz qalmış yetkinlik yaşına çatmamış uşaqlar üzərində qəyyumluq təsis edilirdi. Qəyyumluq orqanlarının icazəsi olmadan qəyyum qəyyumluqda olanın əmlakını özgəninkiləşdirməklə əlaqədar olan heç bir əqd bağlamaq hüququna malik deyildi. Hamilikdən fərqli olaraq, qəyyumluqda olanın saxlanılması xərcləri qəyyumluqda olanın öz əmlakı hesabına ödənilirdi.

İkinci Dünya müharibəsindən sonra dünya ictimaiyyəti tərəfindən insan hüquqları probleminin ümumbəşəri əhəmiyyəti dərk olunmağa başlamışdır. İnsan hüquqları sahəsində ilk beynəlxalq hüquqi akt Birləşmiş Millətlər Təşkilatının Baş Məclisi tərəfindən 1948-ci il 10 dekabr tarixində qəbul edilən "Ümumdünya insan hüquqları bəyannaməsi" hesab edilir (10, s. 4-5). Bu Bəyannaməni nəzərə alaraq 4 noyabr 1950-ci ildə Romada insan hüquqlarına dair mühüm beynəlxalq hüquqi akt – "İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında" Avropa Konvensiyası imzalanmışdır. Konvensiyanın 5-ci maddəsinin «d» bəndinə əsasən, yetkinlik yaşına çatmamış şəxslərin həbsə alınması məsələsinin ancaq və ancaq qanuni əsaslar olduqda mümkünlüyü ön plana çəkilmişdir (2, s. 283).

BMT Baş Məclisinin 20 noyabr 1959-cu il tarixli 1386 (XIV) saylı qətnaməsi ilə "Uşaq hüquqları Bəyannaməsi" qəbul edildi. Bəyannamənin rreambulasında deyilir ki, Baş Məclis uşaqların xoşbəxt uşaqlığını və burada nəzərdə tutulan hüquq və azadlıqlardan onların öz nəfinə və bəşəriyyətin xeyrinə istifadə olunmasını təmin etmək məqsədilə bu Uşaq hüquqları Bəyannaməsini elan edir və valideynlərin ayrı-ayrı şəxslər kimi kişi və qadınları, həmçinin könüllü təşkilatları yerli hakimiyyət orqanlarını və milli hökumətləri bu hüquqları tanımağa, onlara bəyannamədə göstərilən prinsiplərə müvafiq olaraq tədricən qəbul edilən qanunvericilik tədbirləri və digər tədbirlər yolu ilə əməl etməyə çalışmağa çağırır (15, s. 59).

11 sentyabr 1964-cü ildə qəbul edilmiş Azərbaycan SSR Mülki Məcəlləsi 15 yaşınadək şəxsləri həddi-büluğa çatmayan, 15 yaşından 18 yaşınadək şəxsləri isə yetkinlik yaşına çatmayan adlandırdı. 1964-cü il MM-nin 14-cü maddəsinə əsasən həddi-büluğa çatmayan 15 yaşınadək şəxslər fəaliyyət qabiliyyətnə malik deyildilər. Bununla belə, xırda məişət xarakterli əqdlərin bağlanması üçün onların valideynlərinin, övladlığa götürənlərinin və ya qəyyumlarının iştirakı tələb olunmurdu.

Məcəllənin 13-cü maddəsinə uyğun olaraq 15 yaşından 18 yaşadək şəxslər məhdud fəaliyyət qabiliyyətli, 18 yaşına çatmış şəxslər isə tam fəaliyyət qabiliyyətinə malik hesab olunurdular. Yetkinlik yaşına çatmayan 15 yaşından 18 yaşınadək şəxslərin əqdləri yalnız valideynlərinin, övladlığa götürənlərin və ya himayəçilərin razılığı ilə bağlamaq hüququ var idi. Lakin 15 yaşından 18 yaşınadək olan yetkinlik yaşına çatmayanlar müstəqil surətdə xırda məişət xarakterli əqdləri bağlaya bilər, qazancları və təqaüdləri üzərində sərəncam verə bilər, öz elmi, ədəbi və incəsənət əsərinə, kəşfinə, ixtirasına, səmərələşdirici təklifinə və sənaye nümunəsinə müəlliflik hüquqlarını həyata keçirə bilərdilər (6, s. 2-3).

1964-cü ilin MM-i uşaqların əmlak hüquqlarını qorumaq məqsədilə onları qanun üzrə vərəsəlikdə birinci növbəli vərəsə hesab edirdi, həmçinin 538-ci maddəyə uyğun olaraq miras qoyanın həddi-büluğa çatmamış və ya əmək qabiliyyəti olmayan uşaqları (o cümlədən övladlığa götürülənlər) vəsiyyətnamənin məzmunundan asılı olmayaraq, onların hər birinə qanun üzrə vərəsəlik zamanı çatası payın (məcburi payın) üçdə iki hissədən az olmayan hissəsini alırdılar (6, s. 2-3).

Yetkinlik yaşına çatmayanların mülki-prosessual fəaliyyət qabiliyyəti məsələsi isə 11 sentyabr 1964-cü ildə qəbul edilmiş Azərbaycan SSR Mülki-Prosessual Məcəlləsinin 33-cü maddəsində öz əksini tapmışdır. Həmin maddədə deyilirdi:

"On beş yaşı tamam olmayan həddi-büluğa çatmamış vətəndaşların hüquqları və qanunla qorunan mənafeyi məhkəmədə onların qanuni nümayəndələri – valideynləri, övladlığa götürənlər və ya qəyyumlar tərəfindən müdafiə edilir.

Həddi-büluğa çatmayan on beş yaşından on səkkiz yaşınadək vətəndaşların hüquqları və qanunla qorunan mənafeyi məhkəmədə onların valideynləri, övladlığa götürənlər və ya himayəçilər tərəfindən müdafiə edilir.

Həddi-büluğa çatmayan on beş yaşından on səkkiz yaşınadək vətəndaşlar əmək, kolxoz və nikah-ailə hüququ münasibətlərindən və alınan qazanc üzərində sərəncam verməklə əlaqədar olan əqdlərdən əmələ gələn işlər üzrə öz hüquqlarını və qanunla qorunan mənafeyini qanunda nəzərdə tutulan hallarda məhkəmədə şəxsən müdafiə etmək hüququna malikdirlər. Həddi-büluğa çatmamışlara kömək etmək üçün onların valideynləri, övladlığa götürənlər və himayəçilər bu cür işlərdə iştirak etməyə məhkəmənin mülahizəsindən asılı olaraq cəlb edilirlər" (7, s. 2-3).

26 dekabr 1969-cu ildə Azərbaycan SSR-in Nikah və Ailə Məcəlləsi qəbul edildi (9). Professor Q.İ. Manayev göstərirdi ki, valideynlərlə uşaqlar arasında əmlak münasibətləri həm ailə hüququ normaları, həm də mülki hüquq normaları ilə tənzim edilir. Valideynlərlə uşaqlar arasında əmlak münasibətləri aşağıdakı məsələləri əhatə edir: a) valideynlərə və uşaqlara məxsus olan əmlakı; b) valideynlər və uşaqlar arasında aliment öhdəlikləri (13, s. 160).

On beş yaşına çatmayan yetkinlik yaşına çatmayanlar üzərində qəyyumluq, on beş yaşından on səkkiz yaşınadək olan yetkinlik yaşına çatmayanlar üzərində isə himayəçilik müəyyən edilirdi. Yetkinlik yaşına çatmayanlar üzərində qəyyumluq və himayəçilik məsələlərinin bilavasitə həyata keçirilməsi xalq maarifi şöbələrinin üzərinə qoyulurdu. Həmin orqanlar qəyyumluğun və himayəçiliyin müəyyən edilməsi məsələsinin həlli haqqında material hazırlayır, göstərilən məsələlərə dair rəy verir, qəyyum və himayəçinin öz vəzifələrini yerinə yetirmələri üzərində nəzarət edir və onlara uşaqların tərbiyəsi üçün kömək edirdilər (13, s. 224).

Psixi inkişaf, yaş xüsusiyyətləri və digər hallar nəzərə alınmaqla uşaqların hüquqları barəsində ayrıca olaraq bir sıra beynəlxalq aktlar qəbul olunmuşdur. "Uşaq hüquqlarına dair" BMT Baş Məclisinin 1989-cu il 20 noyabr tarixli Konvensiyası, BMT Baş Məclisinin 1985-ci il 6 sentyabr tarixli 40/33 saylı qətnaməsi ilə qəbul edilmiş "Yetkinlik yaşına çatmayanlar barəsində ədalət mühakiməsinin həyata keçirilməsinin minimum standart qaydaları" (Pekin qaydaları) belə beynəlxalq sənədlərdəndir.

Azərbaycan Respublikası "Uşaq hüquqlarına dair" Konvensiyaya Milli Məclisin 1992-ci il 21 iyul tarixli qərarı ilə qoşulmuşdur (15, s. 3). Həmin Konvensiyanın "Uşaq alverinə, uşaq fahişəliyinə və uşaq pornoqrafiyasına dair" və "Uşaqların silahlı münaqişələrə cəlb edilməsinə dair" Fakultativ Protokollarını isə Azərbaycan Respublikası Milli Məclisi 2002-ci il 2 aprel tarixli qanunu ilə ratifikasiya etmişdir (10, s. 6).

Azərbaycan Respublikası uşaq hüquqları sahəsində, həmçinin 5 may 1993-cü ildə "Uşaqların yaşaması, müdafiəsi və inkişafının təmin edilməsi barədə Ümumdünya Bəyannaməsi"nə, 1993-cü il 28 iyun tarixdə "Yetkinlik yaşına çatmayanlar barəsində ədalət mühakiməsinin həyata keçirilməsinin minimum standart qaydaları" haqqında Konvensiyaya, 3 iyul 1993-cü ildə "Uşaqların kənd təsərrüfatında işlərə buraxılmasının minimal yaş həddi barədə Beynəlxalq Əmək Təşkilatının 10 saylı Konvensiyası"na və s. beynəlxalq müqavilələrə qoşulmuşdur.

12 noyabr 1995-ci il tarixdə referendumla müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyası qəbul edildi. Cəmiyyətin özəyi kimi ailənin dövlət himayəsində olduğunu, yetkinlik yaşına çatmayanların hüquqlarının qanunla mühafizə edildiyini, yetkinlik yaşına çatmayanlara qayğı göstərməyi elan edən Konstitusiyada yetkinlik yaşına çatmayanların hüquqlarının mühafizəsinə yönəlmiş çoxsaylı müddəalar vardır. Məsələn, Konstitusiyanın 17-ci maddəsinin II hissəsində deyilir: Uşaqların qayğısına qalmaq və onları tərbiyə etmək valideynlərin borcudur. Bu borcun yerinə yetirilməsinə dövlət nəzarət edir.

"Uşaq hüquqlarına dair" Konvensiyaya uyğun olaraq 19 may 1998-ci ildə "Uşaq hüquqları haqqında" və 22 iyun 1999-cu il tarixdə "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının qanunları qəbul edildi (16; 17). Bu qanunlar Azərbaycan Respublikasında yetkinlik yaşına çatmayanların hüquq və azadlıqlarını, yetkinlik yaşına çatmayanlar barəsində dövlət siyasətinin əsas prinsiplərini, onların müdafiəsi sahəsində dövlət orqanlarının, fiziki və hüquqi şəxslərin vəzifələrini bilavasitə müəyyən edir. Yetkinlik yaşına çatmayanların

hüquq və azadlıqları, qanuni mənafelərinə dair mühüm müddəaları əks etdirən digər qanunlar 28 dekabr 1999-cu ildə qəbul edilərək, müvafiq surətdə 1iyun və 1 sentyabr 2000-ci ildən qüvvəyə minmiş Azərbaycan Respublikasının yeni Ailə və Mülki Məcəllələridir. Köhnə Məcəllələrlə müqayisədə yeni Məcəllələrdə yetkinlik yaşına çatmayanların hüquqları daha ətraflı əks etdirilmişdir. Yeni Ailə Məcəlləsinin 114.1-ci maddəsinə əsasən valideynlər öldükdə, valideynlik hüquqlarından məhrum olunduqda, valideynin hüquqları məhdudlaşdırıldıqda, valideynlər fəaliyyət qabiliyyəti olmayan hesab edildikdə, valideynlər xəstələndikdə, uzun müddət uşaqlarla birlikdə olmadıqda, valideynlər uşaqlarının tərbiyəsindən və ya onların hüquq və mənafelərinin müdafiəsindən yayındıqda, o cümlədən doğum evlərindən, tərbiyə, müalicə və əhalinin sosial müdafiəsi müəssisələrindən və digər analoji müəssisələrdən öz uşaqlarını götürməkdən imtina etdikdə, eləcə də valideyn himayəsinin olmadığı digər hallarda uşaqların hüquq və mənafelərinin müdafiəsi yerli icra hakimiyyətlərinin qəyyumluq və himayə orqanları tərəfindən həyata keçirilir.

14 yaşınadək olan yetkinlik yaşına çatmayanlar üzərində qəyyumluq, 14 yaşından 18 yaşınadək olan yetkinlik yaşına çatmayanlar üzərində isə himayəçilik təyin edilir.

11 sentyabr 1964-cü il tarixli Azərbaycan SSR-in MM-indən fərqli olaraq, yeni MM ilk dəfə olaraq 7 yaşı tamam olmamış yetkinlik yaşına çatmayanlarla 7 yaşından 14 yaşınadək olan şəxslərin fəaliyyət qabiliyyətləri arasında fərq qoyub. Yeni MM-in 28.3-cü maddəsinə əsasən 7 yaşınadək olan yetkinlik yaşına çatmayanların (azyaşlıların) fəaliyyət qabiliyyəti yoxdur, onlar müstəqil surətdə heç bir əqd bağlaya bilməzlər. 7 yaşından 18 yaşınadək olan yetkinlik yaşına çatmayanların məhdud fəaliyyət qabiliyyəti vardır.

14 yaşı tamam olmamış yetkinlik yaşına çatmayanların əvəzinə əqdləri yalnız onların valideynləri, övladlığa götürənlər və ya qəyyumlar bağlaya bilərlər. 7 yaşından 14 yaşınadək olan şəxslər yalnız MM-in 29.2-ci maddəsində göstərilən əqdləri müstəqil bağlamaq hüququna malikdirlər.

MM-in 30.1-ci maddəsi müəyyən edir ki, 14 yaşından 18 yaşınadək olan yetkinlik yaşına çatmayanlar əqdləri öz qanuni nümayəndələrinin – valideynlərinin, övladlığa götürənlərin və ya himayəçinin yazılı razılığı ilə bağlayırlar. Bu cür yetkinlik yaşına çatmayanların bağladığı əqd sonradan valideynləri, övladlığa götürənlər və ya himayəçi tərəfindən bəyənildikdə də etibarlıdır.

Buna baxmayaraq, MM-in 30.2-ci maddəsinə uyğun olaraq 14 yaşından 18 yaşınadək olan yetkinlik yaşına çatmayanların ixtiyarı vardır ki, valideynlərinin, övladlığa götürənlərin və ya himayəçinin razılığı olmadan müstəqil surətdə öz qazancı, təqaüdü və digər gəlirləri barəsində sərəncam versin; elm ədəbiyyat və ya incəsənət əsərinin, ixtiranın və ya qanunla qorunan digər əqli fəaliyyət nəticəsinin müəllifi hüquqlarını həyata keçirsin.

Qeyd olunan normativ aktlardan əlavə yetkinlik yaşına çatmayanların hüquq və azadlıqları, qanuni mənafeləri və vəzifələri ilə bağlı münasibətləri bu və ya digər dərəcədə tənzimləyən çoxsaylı normativ-hüquqi aktlar mövcuddur.

Azərbaycan Respublikasında uşaqlara dövlət qayğısının gücləndirilməsi, uşaq problemlərinə vətəndaş cəmiyyəti qurumlarının diqqətinin artırılması və ölkənin uşaqlarla bağlı demoqrafik perspektivlərinin müəyyənləşdirilməsi məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin 22 dekabr 2008-ci il tarixli 103 №-li sərəncamı ilə 2009-cu il Azərbaycanda "Uşaq ili" elan olundu (3). Bu, Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin uşaqlara olan böyük diqqət və qayğısının bariz nümunəsidir.

18 mart 2009-cu il tarixdə referendumla Azərbaycan Respublikası Konstitusiyasına edilən əlavə və dəyişiliklərdən sonra 2 hissədən ibarət olan "Ailə və dövlət" adlanan Konstitusiyanın 17-ci maddəsinin adı dəyişdirilərək "Ailə, uşaqlar və dövlət" adlandırıldı və bu maddəyə daha üç hissə əlavə edilərək uşaqların mənafeyinin dövlət tərəfindən qorunması əsasları bir qədər də möhkəmləndirildi.

Ananın və uşağın sağlamlığına və təhlükəsizliyinə bundan sonra da kömək etmək üçün Azərbaycan Respublikasının 11 may 2010-cu il tarixli Qanunu ilə Azərbaycan Respublikası Beynəlxalq Əmək Təşkilatının "Analığın mühafizəsi haqqında" 1952-ci il Konvensiyasına (yenidən baxılmış) yenidən baxılması haqqında" 2000-ci il iyunun 15-də Cenevrə şəhərində qəbul edilmiş 21 maddədən ibarət 183 nömrəli Konvensiyasına qoşuldu (18).

Beləliklə, aparılmış tədqiqatlar aşağıdakı nəticələrə gəlməyə imkan verir:

1. İslam dini Azərbaycanda hakim dinə çevrilənə kimi yetkinlik yaşına çatmayanların ancaq vərəsəlik hüququ var idi. VIII əsrdən başlayaraq yetkinlik yaşına çatmayanlar anadan olduğu andan etibarən hüquq qabiliyyətinə, yetkinlik yaşına çatdıqda isə fəaliyyət qabiliyyətinə malik olurdular. Müsəlman hüquq normalarında yetkinlik yaşına çatmayanların hüquqlarının hərtərəfli qorunması nəzərdə tutulmuşdu, amma şəriət atalığın müəyyən olunmasını, övladlığa götürməni və valideynlik hüququndan məhrum etməni tanımırdı.

2. XIX əsrdə Şimali Azərbaycan Rusiya imperiyası tərəfindən işğal edildi. Bu dövrdə yetkinlik yaşına çatmayanların hüquqları həm müsəlman hüquq normaları ilə, həm də ümumrusiya qanunları ilə nizama salınsa da, bu hüquq normaları arasında kolliziya mövcud idi.

3. Azərbaycanda Sovet hakimiyyətinin qurulması qanunvericiliyin əsaslı surətdə dəyişməsi ilə nəticələndi. Sovet hakimiyyəti illərində çar Rusiyası ilə müqayisədə yetkinlik yaşına çatmayanların hüquqlarının daha səmərəli formada müdafiəsi nəzərdə tutulmuşdu.

4. Azərbaycan dövlət müstəqilliyini elan etdikdən sonra 1992-ci ildən başlayaraq Milli Məclis uşaq hüquqlarına dair bir sıra konvensiyaları ratifikasiya etdi. Azərbaycan Respublikası uşaq hüquqları ilə bağlı demək olar ki, bütün əsas beynəlxalq müqavilələrə qoşulmuş, uşaq hüquqları ilə bağlı müddəaları özündə birləşdirən çoxsaylı yeni daxili normativ-hüquqi aktlar qəbul etmişdir. Yetkinlik yaşına çatmayanların hüquqları beynəlxalq hüquq normalarına uyğun olaraq qorunur.

Açar sözlər: mülki Məcəllə, yetkinlik yaşına çatmayan, uşaq hüquqları, əqd, Azərbaycan Respublikası, əmlak, hüquq.

İstifadə olunmuş ədəbiyyat

1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı: Qanun, 2009, 60 s.
2. Avropa insan hüquqları məhkəməsi /6-cı maddə ilə bağlı seçilmiş qərarlar. Bakı: İsmayıl Nəşriyyatı, 2002, 344 s.
3. Azərbaycan Respublikası Prezidentinin 2009-cu il Azərbaycanda "Uşaq ili" elan olunması barədə 22 dekabr 2008-ci il tarixli 103 №-li sərəncamı. "Azərbaycan" qəzeti, Bakı, 2008, 23 dekabr.
4. Azərbaycan Respublikasının 28 dekabr 1999-cu il tarixli Ailə Məcəlləsi. Bakı: Qanun, 2009, 184 s.
5. Azərbaycan Respublikasının 28 dekabr 1999-cu il tarixli Mülki Məcəlləsi. Bakı: Qanun, 2009, 640 s.
6. Azərbaycan SSR-in 11 sentyabr 1964-cü il tarixli Mülki Məcəlləsi. Bakı: qaz. «Бakinskiy raboçiy», 1964, 12 sentəbrğ, № 214, (13212).
7. Azərbaycan SSR-in 11 sentyabr 1964-cü il tarixli Mülki-Prosessual Məcəlləsi. Bakı: qaz. «Бakinskiy raboçiy», 1964, 12 sentəbrğ, № 214 (13212).
8. Azərbaycan SSR-in 16 iyul 1923-cü il tarixli Mülki Məcəlləsi. Bakı: Azərnəşr, 1956, 228 s.
9. Azərbaycan SSR-in 26 dekabr 1969-cu il tarixli Nikah və Ailə Məcəlləsi. Bakı: qaz. «Бakinskiy raboçiy», 1969, 28 dekabr, № 303 (15726).
10. Cəfərov İ.M. Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə kommissiyalar haqqında əsasnamənin kommentariyası. Bakı: Yeni Nəsil MMC, 2003, 232 s.
11. İsmayılov X.C. Azərbaycanın dövlət və hüquq tarixi. Bakı: Nurlan, 2006, 720 s.
12. Qurani-Kərim /Z.M.Bünyadov, V.M.Məmmədəliyev tərəfindən ərəb dilindən tərcümə. Bakı: Çıraq, 2010, 640 s.
13. Manayev Q.İ. Sovet ailə hüququ. Bakı: Azərbaycan Universiteti Nəşriyyatı., 1989, 260 s.
14. Məlikova M.F., İsmayılov X.C. Qədim dövrlərdə və erkən orta əsrlərdə Azərbaycanın dövlət və hüququ. Bakı: Hüquq ədəbiyyatı, 2001, 184 s.
15. Uşaq hüquqları: Beynəlxalq standartlar və yerli qanunvericilik. Bakı: İsmayıl Nəşriyyatı, 2000, 664 s.
16. "Uşaq hüquqları haqqında" Azərbaycan Respublikasının 19 may 1998-ci il tarixli Qanunu. Azərbaycan qəz., Bakı, 1998, 10 sentyabr.
17. "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının 22 iyun 1999-cu il tarixli Qanunu. Bakı: Qanun, 2000, 22 s.
18. Azərbaycan Respublikasının Qanunvericilik Toplusu. Bakı: Azərbaycan Respublikası Prezidentinin nəşri, 31 iyul 2010-cu il, № 7, maddə 575, səhifə 1410-1416.

Cevilğ MAMEДOBA

ИSTORIƏ RAZVITIƏ AZERBAYDJANSKOQO ZAKONODATELĞSTVA, SVƏZANNOQO S PRAVAMI NESOVERŞENNOLETNIX

Pezöme

B statğe qovoritsə o zakonodatelğnıx aktax o pravax nesoverşennoletnix v Azerbaydjane v xronoloqiçeskom porədke, naçinaə s drevnix vremen. Avtor ukazıvaet, çto posle obreteniə nezavisimosti v 1991 q., naçinaə s 1992 q. Azerbaydjan prisoedinilsə k mejdunarodnım konvenüiəm o pravax rebenka i mnoqim druqim mejdunarodnım doqovoram, oxrənəöhix prava nesoverşennoletnix. B 2000 q. vstupil v silu novıy Cemeynıy i Грajdanskiy kodeksı Azerbaydjanskoy Pespubliki, vsestoronne zahihaöhie imuhestvennıe i neimuhestvennıe prava nesoverşennoletnix.

Klöçevıe slova: qrajdanskiy kodeks, nesoverşennoletniy, prava rebenka, sdelka, Azerbaydjanskaə Pespublika, imuhestvo, pravo.

Sevil MAMMADOVA

HISTORY OF DEVELOPMENT OF AZERBAIJANI LEGISLATION RELATED TO THE RIGHTS OF THE UNDERAGED

Summary

The article highlights chronologically the legislation acts on the rights of the underaged in Azerbaijan since ancient times. The author notes that since 1992 after the gaining of independence in 1991, Azerbaijan has joined to International Conventions on children rights and some other international agreements on the underaged rights. In 2000 the new Family and Civil codes of Azerbaijani Republic overall protecting property and nonproperty rights of underage entered into force.

Keywords: Civil code, underage, child rights, transaction, Azerbaijan Republic, property, law.

UOT 343.131

Vüsal ƏHMƏDOV
AMEA FSHİ-nin aspirantı

İSTİNTAQ ŞÖBƏSİNİN (BÖLMƏSİNİN, İDARƏSİNİN) RƏİSİNİN (RƏİSİ OLMADIQDA MÜAVİNİNİN) PROSESSUAL NƏZARƏTİNİN PREDMETİ VƏ HƏDLƏRİ*

İstintaq şöbəsinin (bölməsinin, idarəsinin) rəisinin (rəisi olmadıqda müavininin) prosessual nəzarətinə aid hədlər, sərhədlər, nəzarət obyektinə subyektin təsiri aşağıdakı amillərlə müəyyən edilir:

1) istintaq aparatının dövlət orqanları sistemindəki yeri ilə;

2) müstəntiqin cinayət-prosessual fəaliyyətinə prosessual nəzarət səlahiyyətlərinə malik olan subyektləri ilə;

3) müstəntiqin prosessual müstəqilliyinin təmin edilməsinin zəruriliyi ilə;

4) prosessual nəzarətin predmeti ilə;

5) prosessual nəzarətin həmin formasının həyata keçirilməsi vasitələri ilə.

Birincisi. İstintaq aparatının dövlət orqanları sistemindəki yeri və rolu haqqında məsələ uzun müddətdir ki, mübahisəli məsələlərdən biri kimi qalmaqdadır, çünki ibtidai araşdırmanın həyata keçirilməsinin hüquq-mühafizə orqanlarında (DİN, MTN və s.) qalması idarə təsirinə, müstəntiqlərin prosessual müstəqilliyinə təhlükə yaradır, istintaq şöbəsinin (bölməsinin, idarəsinin) rəisinin (rəisi olmadıqda müavininin) hüquqlarını məhdudlaşdırır. Bu məsələlərin həll edilməsi ibtidai araşdırma sistemində islahatların aparılmasına, o cümlədən istintaq şöbəsinin (bölməsinin, idarəsinin) rəisinin (rəis olmadıqda müavininin) səlahiyyətlərinin yenidən bölgüsünə xidmət edir. Bununla əlaqədar bir qrup prosessualist alimlərin təklifləri aşağıdakılardan ibarətdir: 1) ölkə prezidentinə və ya hökumətinə tabe edilməklə müstəqil istintaq komitəsinin yaradılması (5); 2) bütün istintaq aparatının prokurorluq, DİN sistemində mərkəzləşdirilməsi (4, s. 34); 3) istintaq idarələrinin məhkəmə hakimiyyətinə verilməsi (7, s. 35).

Fikrimizcə, dövlət orqanları sistemində istintaq aparatının yeri haqqında məsələ mürəkkəb, çoxaspektli odub, xüsusi müzakirə tələb edir.

Həmçinin, ölkənin bütün istintaq aparatının hansısa əməliyyat-axtarış fəaliyyətini həyata keçirən idarədə, o cümlədən DİN-də mərkəzləşdirilməsi yolverilməzdir. Bu fikir, bir tərəfdən, istintaq idarələrinin əməliyyat-axtarış orqanlarının tabeçiliyindən çıxarılması və müstəntiqlərin əsl müstəqilliyinin təmin edilməsi ilə nəticələnə bilər. Digər tərəfdən isə hüquq-mühafizə fəaliyyətinin müxtəlif növlərinin – ibtidai araşdırmanın və əməliyyat-axtarış fəaliyyətinin bir idarədə mərkəzləşdirilməsi məqsədəuyğun sayıla bilməz, çünki bu, onların arasında rəqabətin təhlükəli xarakter alması və bir fəaliyyətin digərinə tabe olması ilə nəticələnə bilər.

İstintaq fəaliyyətinin təşkili problemini onu bir neçə səviyyəyə bölməklə nəzərdən keçirmək məqsədəuyğun olardı:

1) istintaq fəaliyyətinin beynəlxalq səviyyədə təşkili;

2) istintaq fəaliyyətinin respublika səviyyəsində təşkili;

3) istintaq fəaliyyətinin idarə səviyyəsində təşkili;

4) istintaq fəaliyyətinin istintaq bölmələri səviyyəsində təşkili;

5) istintaq fəaliyyətinin ayrı-ayrı müsəntiqlərin və təhqiqatçıların işi səviyyəsində təşkili (2, s. 69).

İstintaq aparatının prokurorluqda cəmləşdirilməsi də bu nöqteyi-nəzərdən özünü doğrulda bilməz. Çünki bu zaman üç fəaliyyət növü ibtidai istintaq, dövlət ittihamı və ibtidai istintaq və təhqiqat orqanlarının prosessual fəaliyyətinə nəzarət bir-biri ilə qarışdırılmış olur. Göründüyü kimi, funksiyaların belə birləşdirilməsi, birincisi, məhkəməyədək icraatın qanuniliyinə nəzarətin həyata keçirilməsi zamanı prokurorun qərəzsizliyinin itirilməsinə səbəb ola bilər. İkincisi, istintaq aparatının prokurora verilməsi müstəntiqin cinayət mühakimə icraatında funksiyasının yalnız ittihamla məhdudlaşdırılması demək olardı. Bu zaman törədilmiş cinayətlərin hallarının tam, hərtərəfli və obyektiv tədqiqi arxa plana keçmiş olardı ki, bu da ittiham meylinin aradan qaldırılmasına kömək edə bilməz. Nəhayət, prokurora həm prosessual, həm

---

* Məqalə h.e.d. M.Cəfərquliyev tərəfindən çapa məsləhət bilinib.

də təşkilati tabelik müstəntiqin prosessual müstəqilliyini şübhə altına alır, istintaq şöbəsinin (bölməsinin, idarəsinin) rəisi (rəisi olmadıqda müavini) isə, ümumiyyətlə, lazımsız fiqura çevirir.

Azərbaycan Respublikasında hələ vahid istintaq aparatı yaradılmamışdır. Artıq yuxarıda qeyd olunduğu kimi, ibtidai istintaq prokurorluq, daxili işlər və milli təhlükəsizlik orqanlarının istintaq idarələri tərəfindən həyata keçirilir (2, s. 71).

Cinayət-Prosessual Məcəllənin 7.0.24-cü maddəsinə əsasən, müstəntiq - öz səlahiyyətləri daxilində CPM-də nəzərdə tutulmuş qaydada cinayət işi üzrə ibtidai istintaqı aparan şəxsdir. Müstəntiq cinayət-mühakimə icraatının ittiham tərəfdən iştirakçıları sırasına aid edilir. Təsdiq etmək olar ki, o, ittiham (cinayət təqibi) funksiyasını həyata keçirir. Müstəntiqin cinayət işinə və (və ya) cinayət təqibinə xitam vermə haqqında qərar qəbul etmək səlahiyyətləri onun həm də cinayət işini həll etmək funksiyasını realizə etməsi haqqında nəticə çıxarmağa imkan verir.

Cinayət-prosessual qanunvericilik müstəntiqdən tələb edir ki, o, cinayət əlamətləri tapılan hər bir halda öz səlahiyyəti dairəsində cinayət işinə başlamalı, cinayət hadisəsinin, cinayət etməkdə təqsiri olan şəxslərin müəyyən edilməsi və onların cəzalandırılması üçün qanunla nəzərdə tutulan bütün tədbirləri görməlidir (1, s. 193).

Belə ki, nəzəriyyədə ən mübahisəli məsələlərdən biri müstəntiqin müdafiə funksiyasını yerinə yetirən subyektlərə aid edilməsinə dair məsələdir (13, s. 38). Fikrimizcə, müstəntiq tərəfindən müdafiə funksiyasının yerinə yetirildiyini təsdiq etmək mümkündür. Baxmayaraq ki, bu, Azərbaycan Respublikasının CPM-in 85-ci maddəsi ilə müstəntiqin ittiham tərəfinə aid edilmişdir, lakin eyni zamanda, qismən müdafiə funksiyasını həyata keçirir. Müstəntiqin bu funksiyası nəinki şübhəli və ya təqsirləndirilən şəxsin müdafiə hüququnun təmin edilməsi üzrə tədbirlər görmək vəzifəsi ilə, həm də əməlin cəzalanmalı olması hallarını müəyyənləşdirməklə realizə olunur. Bu zaman cinayət məsuliyyətindən və cəzadan azad etməyə səbəb ola bilən hallar (Azərbaycən Respublikası CPM-in 139-cu maddəsi ilə) müəyyən edilir. Müdafiə funksiyasının elementləri cinayət-prosessual fəaliyyətdə hansısa səbəblərə görə müdafiəçinin cinayət işi üzrə icraatda iştirak edə bilmədiyi, şübhəli və ya təqsirləndirilən şəxsin öz müdafiə hüququnu həyata keçirmək iqtidarında olmadığı vəziyyətlərdə təzahür edə bilər.

Beləliklə, bu, müstəntiqin üç prosessual funksiyanı yerinə yetirdiyi məhkəməyədək icraatın indiki quruluşunda müstəntiqlərin məhkəmə idarəsinə verilməklə bir orqanda – məhkəmədə mərkəzləşdirilməsinə gətirib çıxarır. Bu isə məhkəmədə müxtəlif planlı funksiyaların – cinayət təqibinin, müdafiənin və cinayət işinin həllinin realizə olunması deməkdir. Bəsbütün bunlar cinayət işlərinin həlli zamanı məhkəmənin qərəzsizliyinin pozulmasına səbəb ola bilərmi? (9, s. 36).

Deməli, istintaq aparatının məhkəmə idarəsinə verilməsi ibtidai araşdırma icraatı sahəsində əhəmiyyətli islahatların aparılmasını tələb edir. Qeyd etmək lazımdır ki, bu ideyanın kifayət qədər əleyhdarları (6, s. 123) vardır və onlar əsaslı olaraq aşağıdakı fikirləri irəli sürürlər:

1) müstəntiqlərin və əməliyyat işçilərinin qarşılıqlı fəaliyyətinin zəifləməsi;

2) daha təhlükəli cinayətlərlə mübarizədə prosessual məcburiyyət və əməliyyat-axtarış tədbirlərinin təsirinin aşağı düşməsi;

3) aidiyyət haqqında mübahisələrin əvəzinə təhqiqat orqanları ilə ibtidai istintaq orqanları arasında mübahisələrin yaranması;

4) kadr çatışmazlığının, maddi-texniki, maliyyə çətinliklərinin yaranması.

İkincisi. Cinayət prosesi nəzəriyyəsində istintaq şöbəsinin (bölməsinin, idarəsinin) rəisinin (rəisi olmadıqda müavininin) prosessual səlahiyyətlərinə malik olan şəxslərin dairəsi haqqında məsələ kifayət qədər ətraflı tədqiqini tapmışdır. Bu şəxslərin dairəsi və həmin şəxslərin hüquq və vəzifələri Azərbaycan Respublikası CPM-in 85.6-cı maddəsində dar çərçivədə göstərilmişdir. Fikrimizcə, istintaq şöbəsinin (bölməsinin, idarəsinin) rəisinin (rəisi olmadıqda müavininin) prosessual səlahiyyətlərinə malik olan şəxslərin dairəsi və həmin şəxslərin hüquq və vəzifələrinin Azərbaycan Respublikası CPM-ə ayrıca bir maddədə təsbit edilməsi məqsədəuyğundur (məsələn, 85-1. maddəsi kimi).

Cinayət-prosessual qanunvericiliyə uyğun olaraq, istintaq şöbəsinin (bölməsinin, idarəsinin) rəisi (rəisi olmadıqda müavini), habelə onun müavini müvafiq istintaq bölməsinə başçılıq edən vəzifəli şəxsdir. Qanunda istifadə olunan terminin mənası hərfən üstün olduğuna görə, prosessual nəzarətin subyektləri qismində Baş istintaq idarəsinin, istintaq idarəsinin, xidmətinin, şöbəsinin, bölməsinin rəisi və onun müavini (müavinləri) çıxış edirlər.

Bəzi müəlliflər bu nəticəyə gəlirlər ki, idarədaxili prosessual nəzarətin subyekti həm vəzifəli şəxslər, həm də istintaq bölmələrini və müstəntiqlərin fəaliyyətinə nəzarət funksiyasını yerinə yetirən sair struktur bölmələrin rəisləri (müavinləri) ola bilərlər (10, s. 104). Belə mülahizəni haqlı hesab etmək olmaz. Hələ

Azərbaycan SSR-in 1961-cı il Cinayət-Prosessual Məcəlləsinin 45-1-ci maddəsində deyilir ki, istintaq şöbəsinin (bölməsinin, idarəsinin) rəisi (rəisi olmadıqda müavini) cinayətlərin açılması və qarşısının alınması sahəsində müstəntiqlərə nəzarət edir, cinayət işləri üzrə ibtidai araşdırmanın daha dolğun, hərtərəfli və obyektiv aparılması üçün tədbirlər görür. Normanın məzmunundan göründüyü kimi, söhbət struktur bölməsindən deyil, məhz istintaq şöbəsinin bilavasitə rəisi barəsində gedir.

Üçüncüsü. İstintaq şöbəsinin (bölməsinin, idarəsinin) rəisinin (rəisi olmadıqda müavininin) prosessual nəzarət funksiyasının düşünülmüş sərhədlərinin müəyyən edilməsi müstəntiqin prosessual müstəqilliyinin təmin olunmasından ayrılmazdır. Heç də təsadüfü deyildir ki, bir sıra müəlliflər müstəntiqin prosessual müstəqilliyinə əməl edilməsini prosessual nəzarət prinsipinə aid edirlər (8, s. 11).

İstintaq şöbəsinin (bölməsinin, idarəsinin) rəisinin (rəisi olmadıqda müavininin) prosessual nəzarəti müstəntiqi onun prosessual sərbəstliyindən və müstəqilliyindən məhrum etmir. Müstəntiq cinayət prosesində müstəqil fiqurdur. Lakin müstəntiqin sərbəstliyi və müstəqilliyi onun fəaliyyətinə nəzarətin olmamasından ibarət deyil. Bu o deməkdir ki, müstəntiqin müstəqilliyi qeyri-prosessual təsirlərdən kənarda olmasında təzahür edir. Onun qanundan asılılığı isə o deməkdir ki, müstəntiq işin bütün hallarının hərtərəfli, tam və obyektiv tədqiq edilməsi əsasında sübutları öz daxili inamına görə qiymətləndirərək, qərarları sərbəst və azad qəbul edir (və onlar üçün tam məsuliyyət daşıyır). Bununla əlaqədar olaraq müstəntiqin bir sıra qərarlarının istintaq şöbəsinin (bölməsinin, idarəsinin) rəisi (rəisi olmadıqda müavini) tərəfindən təsdiq edilməsinə dair praktikada yayılmış mülahizələr qanuna uyğundur.

Prosessual qərarların qəbul olunması zamanı müstəntiqin sərbəstliyi ilə əlaqədar V.V.Kalnitskinin mülahizəsi ilə razılaşmamaq olmaz. Onun fikirincə, «istintaqa prosessual rəhbərlik» anlayışı müstəntiqin prosessual müstəqilliyi prinsipi ilə müəyyən ziddiyyət təşkil edir, çünki, qanuna uyğun olaraq istintaq şöbəsinin rəisi müstəntiqin iradəsindən və daxili inamından kənar cinayətlərin istintaqının istiqamətlərini müəyyən etmək iqtidarında deyildir (9, s. 8).

Lakin bu heç də o demək deyildir ki, müstəntiq istintaq səhvlərinə düzəliş verən, qanunun necə tətbiq olunmasını izah edən istintaq şöbəsinin (bölməsinin, idarəsinin) rəisinin (rəisi olmadıqda müavininin) göstərişlərinə tabe olmur.

Digər tərəfdən, istintaq şöbəsinin (bölməsinin, idarəsinin) rəisi (rəisi olmadıqda müavini) unutmamalıdır ki, müstəntiq onun sərəncamlarının texniki icraçısı deyil, cinayət-mühakimə icraatının geniş hüquqlara malik olan və öz hərəkətlərinə görə məsuliyyət daşıyan müstəqil iştirakçısıdır.

İstintaq şöbəsinin (bölməsinin, idarəsinin) rəisinin (rəisi olmadıqda müavininin) prosessual nəzarəti tabelikdə olan müstəntiqlərin təşəbbüslərini məhdudlaşdırmır. Əksinə, istintaq şöbəsinin (bölməsinin, idarəsinin) rəisi (rəisi olmadıqda müavini) tabeliyində olan bölmədə istintaq işinin vəziyyətinə görə məsuliyyəti öz üzərinə götürür, habelə müstəntiqləri istintaqa qanunsuz müdaxilələrdən və kənar şəxslərin təsirindən qoruyur, müstəntiqlərin və təhqiqat orqanlarının qarşılıqlı fəaliyyətinin fəallaşmasına şərait yaradır.

Dördüncüsü. İdarədaxili prosessual nəzarətin obyekti və predmeti prosessual ədəbiyyatda dəfələrlə tədqiqat obyekti olmuşdur. Belə ki, Q.N. Meqlitski istintaq aparatında nəzarətin obyektini nəzərdən keçirərək belə bir mülahizə yürüdür ki, bu, istintaq bölmələrinə, vəzifəli şəxslərə verilən obyektiv reallıqdır. Müəllif belə nəzarətin obyektlərini aşağıdakılardan asılı olaraq təsnifləşdirir:

a) struktur vahidininin səviyyəsi (idarə və şöbə);

b) vəzifənin statusu (istintaq şöbəsinin rəisi və müstəntiqi);

c) fəaliyyətin istiqamətləri (ərizələrə və cinayət haqqında məlumatlara baxılması və cinayət işlərinin istintaqı üzrə prosessual fəaliyyət);

ç) sənədli rəsmiləşdirmə (cinayət işləri, «imtina edilmiş materiallar», protokollar, qərarlar).

Digər prosessualistlərin fikrincə, istintaq bölmələrində nəzarətin obyektləri qismində onların aşağı təşkilati strukturları və vəzifəli şəxsləri (istintaq bölmələri, onların rəhbərləri, müstəntiqlər), habelə bütövlükdə cinayət işləri üzrə prosessual fəaliyyət və istintaq hərəkətlərinin təşkili çıxış edir. Eyni zamanda, nəzarətin predmetini istintaq aparatlarının ayrı-ayrı tərəfləri təqdim edir. Cinayətlərin açılması, cinayət işlərinin başlanmasının, dayandırılmasının və onlara xitam verilməsinin əsaslandırılması, cinayət işi başlamadan imtina edilməsi, hadisə yerinə baxışın keyfiyyəti və digər təxirəsalınmaz istintaq hərəkətləri, dayandırılmış işlər üzrə sonrakı icraat və s. nəzarətin predmetini yaradır (10, s. 88).

İstintaq şöbəsinin (bölməsinin, idarəsinin) rəisi (rəisi olmadıqda müavini) öz səlahiyyətləri çərçivəsində qanunçuluq prinsipinə əməl etməlidir. Qanunçuluq prinsipinin məzmunu iki aspektə malikdir Birincisi, hər bir prosessual hərəkət və qərar yalnız qanuna əsaslanmalıdır. İkincisi, cinayət-mühakimə

icraatının hər hansı digər prinsipinin düzgün icrası eyni vaxtda həm də qanunçuluq prinsipinə əməl edilməsi deməkdir (3, s. 155).

İdarədaxili nəzarətin obyektini və yaxud predmetini fərqləndirmək olar. Belə ki, idarə nəzarətinin obyekti qismində müstəntiqlərin cinayətlərin açılması, qarşısının alınması və istintaqı, istintaq hərəkətlərinin vaxtında və düzgün yerinə yetirilməsi, habelə müstəntiqin aktlarının qanuniliyi üzrə prosessual fəaliyyət çıxış edir. İstintaq şöbəsi rəisinə nəzarətin obyektini müstəntiqlərin səlahiyyətlərinə aid edilən işlər üzrə ibtidai istintaqın icraatı ilə bağlı tabelikdə olan müstəntiqlərin bütün fəaliyyəti təşkil edir.

Açar sözlər: idarədaxili prosessual nəzarət; sistem; istintaq aparatı; istintaq komitəsi; prokuror nəzarəti; məhkəməyədək icraat.

İstifadə olunmuş ədəbiyyat

1. Cəfərquliyev M. Azərbaycan Respublikasının Cinayət prosesi. Dərslik. Azərb. dilində, Bakı, «Qanun», 2008.
2. Tağıyev N. İstintaq fəaliyyətinin təkmilləşdirilməsinin təşkilati aspektləri. «Qanun», №6 (182), Bakı, 2009.
3. Zülfüqarova S.V. İbtidai istintaqda müdafiənin bəzi problemləri. / Keçid dövründə Azərbaycan Respublikasında dövlət və hüquq quruculuğunun aktual problemləri. Elmi məqalələr məcmuəsi, 4-cü buraxılış, Bakı, 2003.
4. Baskov B.И. O predvaritelğnom sledstvii /Cov. östiüiə. 1990, №15; Temiraev O. Peforma sledstviə nujna //Зakonnostğ, 2004, №1.
5. Blasov B.И. Пredvaritelğnoe sledstvie: problemı, kaçestva. Caratov, 1988, 180 s.; Colovğev H. Peforma sledstvennoqo apparata: ot pereraspredeleniə podsledstvennosti do modernizaüii УK //Pos. östiüiə. 2000, №12.
6. Гlazırin Ф., Kleyn B. Pealğnostğ i mif pravovoy reformı //Pos.östiüiə, 2003, № 9, s. 2-5; Hikolök B.B., Дerişev Ю.B. Optimizaüiə dosudebnoqo proizvodstva v uqolovnom proüesse Possii. Krasnoərsk, 2003.
7. Дerişev Ю. Пredvaritelğnoe sledstvie: issledovanie ili presledovanie? //Pos. östiüiə, 2002, № 10.
8. Kalğniükiy B.B. Bedomstvennıy proüessualğnıy kontrolğ za deətelğnostğö sledovateley orqanov vnutrennix del: Avtoref. diss. …kand.örid.nauk. M., 1982.
9. Лarin A.M. Caviükiy B.M. Kakim bıtğ sledstvennomu apparatu //Cov. qosudarstvo i pravo, 1991, № 1.
10. Meqliükiy Г.H. Coverşenstvovanie sistemı kontrolə v sledstvennom apparate orqanov vnutrennix del. Дiss. kand.örid.nauk., M., 1984.
11. Ctroqoviç M.C. Пravo obvinəemoqo na zahitu i prezumpüiə nevinovnosti. M., 1984.

Bösal AXMEDOV

ПREDMET I PREDELI PROÜESSUALĞNOQO NADZORA NAÇALĞNIKA (PRI EQO OTSUTSTVII – ZAMESTITELƏ NAÇALĞNIKA) SLEDSTVENNOQO OTDELA (OTDELENIƏ, UPRAVLENIƏ)

Pezöme

Ctatğə posvəhena rassmotreniö predmeta i predelam proüessualğnoqo nadzora naçalğnika sledstvennoqo otdela na stadii predvaritelğnoqo rassledovaniə v uqolovnom sudoproizvodstve. Avtor otmeçaet, çto predelı funküii proüessualğnoqo nadzora naçalğnika (pri eqo otsutstvii-zamestitelə naçalğnika) sledstvennoqo otdela (otdeleniə, upravleniə) neotdelimı ot obespeçeniə proüessualğnoy nezavisimosti sledovatelə. Oznakomivşisğ s mneniem rəda uçenıx, pogtomu voprosu avtor predlaqaet vnesti v Kodeks УПK AP izmeneniə po sozdaniö sledstvennoqo komiteta s üelğö podçineniə sledstvennıx orqanov prezidentu ili pravitelğstvu.

Klöçevıe slova: vnutrivedomstvennıy proüessualğnıy nadzor, sistema, sledstvennıy apparat, sledstvennıy komitet, prokurorskiy nadzor, dosudebnoe proizvodstvo.

Vusal AHMADOV

THE SUBJECT AND LIMITS OF PROCEDURAL SUPERVISION OF CHIEF (IN HIS ABSENCE- DEPUTY CHIEF) OF INVESTIGATION DEPARTMENT (SECTION, OFFICE)

Summary

The present article tells about the subject and limits of the procedural supervision of the head of the investigation department in the stage of the primary investigating in the legal procedure. The author notes that the limits of function of the prosessual supervision of the chief (in his absence-deputy chief) of investigation department (offices, department) are inseparable from providing the procedural independence of an investigator. The author considers the opinions of a number of the scientists and outs forword a proposal to introduce a change in the Code of Criminal Procedure of Azerbaijan Republic on creation of investigation commitee subordinate to the president or government.

Keywords: interdepartmental procedural supervision, system, investigation apparatus, investigation commitee, prosecutorial supervision, procedure before court.

UOT 34.347
Nəcəfloo REZA

BDU-nun doktorantı

İRAN İSLAM RESPUBLİKASI QANUN VERİCİLİYİNDƏ BOŞANMA HÜQUQU*

Nigahın ləğv edilmə formalarından biri də daimi əqdə aid olan boşanmadır. Boşanma mənasını verən «təlaq» sözü lüğətdə «düyünü açmaq» və «azad etmək» kimi qeyd edilmişdir. İslam qanunlarında isə təlaq «xüsusi sözlərlə evlilik qeydini götürməkdir». Bir sıra fransız hüquqşünaslarına görə, boşanma «tərəflərin sağlığında onlardan birinin və ya hər ikisinin istəyi nəticəsində məhkəmənin hökmü ilə evlilik əlaqəsinin dayandırılmasına deyilir». Müasir İran hüquq sistemində boşanma həm məhkəmə, həm də məhkəmə hökmü olmadan həyata keçirilə bilər. Boşanmanın hüquqi mahiyyəti baxımından boşanma kişi və ya onun nümayəndəsi tərəfindən həyata keçirilən birtərəfli proseduradır. Hətta boşanmanın növü olan mubarat (əgər ər-arvad bir-biri ilə yaşamaq istəməzsə və qadın öz mehriyyəsini, yaxud başqa malı kişiyə təlaq verilsin deyə bağışlasa, bu cür təlaqa «mübarat boşanması» deyirlər) və ya xul (ərinə meyili olmayıb mehriyyəsini və ya başqa malını təlaq verilsin deyə ərinə bağışlayan qadının boşanmasına «xul» boşanması deyirlər) olsa belə, bu həyata keçirilməlidir. «Xul» boşanma növündə qadın ərinə qarşı ikrah hissi keçirdiyi üçün öz mehriyyəsinin bir hissəsini və ya hamısını bağışlamaq şərti ilə ondan boşanır. «Mubarat» boşanma növündə isə bu ikrah hissi hər iki tərəfdən baş qaldırır.

Birinci mövzu: Boşanmanın səbəbləri

Boşanmanın səbəbləri dedikdə boşanmaya icazə verən şeylər nəzərdə tutulur. Onlara istinad etməklə boşanmanı həyata keçirmək olar. Şiə şəriət qanunlarına əsaslanan İran mülkiyyət hüququ boşanma üçün aşağıdakı formada izahlar vermişdir. Birinci, kişi mülki qanunun qaydalarına riayət etməklə məhkəməyə müraciət edib arvadını boşaya bilər (2002-ci ilin islah olunmuş 1131-ci maddəsi). İkincisi, qadın bir sıra hallarda mülkiyyət qanununun 1029, 1129, və 1130-cu maddələrini rəhbər tutaraq məhkəmədən boşanma tələb edə bilər. Üçüncüsü isə tərəflər xüsusi şərtlərlə boşanma haqqında razılığa gələ bilərlər. (1, s.13)

Birinci söz: Boşanma kişinin iradəsinə tabedir.

2002-ci ilin islah edilmiş mülkiyyət qanununun 1133-cü maddəsinə əsasən: «Kişi bu qanunda nəzərdə tutulmuş qaydaları rəhbər tutmaqla həyat yoldaşını boşamaq üçün məhkəməyə müraciət edə bilər». (1, s.121)

Hər halda, əgər müasir dövrdə kişi arvadını boşamaq istəyirsə, məhkəməyə müraciət etməlidir. Məhkəmə ixtilaflı olan məsələlərə baxmaqla tərəfləri barışdırmağa cəhd edir. Əgər tərəflər barışmaq istəməsə, kişiyə arayış verilir. Boşanma idarəsi də həmin arayışı aldıqdan sonra boşanma siğəsini oxuyaraq bu barədə qeydiyyat aparır.

Hələ də öz qüvvəsini saxlayan ailənin himayə edilməsi qanununun 10-cu maddəsinə görə, «əgər kişi məhkəməyə müraciət etmədən həyat yoldaşını boşayarsa, altı aydan bir il müddətinə qədər məhkumluq həyatı yaşayacaqdır. Həmin cəza boşanmanı qeydə almayan idarə başçısına da şamil edilir». Bundan əlavə, vəzifəsindən də uzaqlaşdırılacaqdır. (1991- ci il tarixli boşanmaya aid qaydaların islahı qanununun birinci maddəsi) (2,s.152).

Məhkəmədən icazə almağın zəruri olması isə kişilərin bu hüquqdan sui-istifadə etmələrinin qarşısını almaqdan ötəridir.

İkinci söz: Qadının tələbi əsasında boşanma və onun boşanmada vəkaləti:

Mülkiyyət qanununun 1129 və 1130-cu maddələri qadının tələbi əsasında boşanmanın həyata keçirilməsi üçün bir sıra səbəblər irəli sürmüşdür. Bu qanunlar isə İslam fiqhinə əsaslanır. Mülkiyyət qanununun 1122-ci maddəsinə görə, «ər nəfəqə (ailəni saxlamaq üçün xərclənən pul, vəsait, aliment) verməkdən boyun qaçırarsa, qadın boşanma üçün məhkəməyə müraciət edə bilər. Habelə, bu qanun kişinin nəfəqəni ödəməkdə aciz olduğu halda da öz qyvvəsində qalır». Buradan belə bir sual meydana çıxır ki, görəsən kişinin nəfəqəni ödəyə bilməməsində məqsəd gələcəkdə olan nəfəqə hesab edilir, yoxsa keçmişdəki nəfəqələrə də şamil edilir? Bu barədə məhkəmə nəzərləri fərqlidir. Amma daha üstün olan nəzəriyyə kişinin gələcək nəfəqəni ödəməkdə aciz olmasıdır. Qanun keçmiş nəfəqəyə şamil edilmir.

1991- ci ilin islah edilmiş mülkiyyət qanununun 1130- cu maddəsinə görə, «məhkəmədə evliliyin davam etməsi əziyyətə səbəb olacağı isbat edildiyi təqdirdə məhkəmə kişini boşamağa məcbur edə bilər. Əgər icbar öz effektini verməzsə, şəriət hakimi olan şəxs ona boşanma hüququ verə bilər».

---

*Məqalə hüquq üzrə f. d. R.Göyüşov tərəfindən capa məsləhət bilinib.

Qeyd: Burada əziyyət dedikdə, yəni yaranan situasiyaya görə arvadın birlikdə evlilik sürdürməsi mümkün olmazsa və ona dözmək çətin olarsa, bu, əziyyət hesab edilir. Aşağıdakı hallar məhkəmə tərəfindən qadın üçün əziyyət kimi nəzərə alınır:

1. Qaneedici üzrü olmadan bir il ərzində davamlı olaraq altı və ya doqquz ay kişinin ailəni tərk etməsi (3, s.43).

2. Kişinin ailənin əsaslarını sarsıdacaq dərəcədə spirtli içki qəbul etmək və ya narkotik maddələrin aludəçisi olması. Onun tərk edilməsi isə hakimin müəyyən etdiyi müddətə tərk edilə bilməyəcək həddə çatarsa (3, s.44).

3. Kişinin 5 il və ya daha çox müddətə məhkum edilməsi.

4. Kişinin davamlı olaraq qadını döyməsi, təhqir etməsi və ya hər cürə pis davranışı və bu davranışın normal halda dözülə bilmədiyi təqdirdə.

5. Həyatı məhv edən və ya çətin müalicə edilən hər hansı bir xəstəliyə kişinin düçar olması.

Lakin bu maddədə qeyd edilənlər istisna edilməklə başqa bir sıra hallarda da, ola bilsin ki, məhkəmə boşanma hökmü verə bilsin.

Yuxarıda qeyd etdiyimiz hallardan əlavə mülkiyyət qanunu fiqhə tabe olaraq dörd il ərindən xəbəri olmayan qadına məhkəmədən boşanma tələb etməyə icazə verir. (Mülkiyyət qanununun 1129 - cu maddəsi)

Qadın boşanma üçün vəkaləti də İslam fiqhində olduğu kimi mülkiyyət qanununda öz əksini tapmışdır (maddə 1119).

Ər digərinə onun adından tam olaraq boşanma hüququ verə bildiyi üçün qadın da bu sahədə özünə vəkil tuta bilər (4, s.87).

Üçüncü söz: Boşanma barəsində tərəflərin razılığı

Şiə fiqhində və mülki qanunda «mubarat» və «xul» boşanma növlərindən söhbət açılmışdır. Bu boşanma növlərində qadın ərinə mal verməklə onu boşamağa razı salır. Xul boşanma növü qadının ikrah hissi üzündən baş verir. Bu zaman boşanma qarşılığında ərə verdiyi mal mehriyyə və ya ondan az miqdarda olmalıdır.

İkinci mövzu: Boşanma şəraiti

Boşanma bir sıra şərtlərə malikdir ki, mülki qanunda öz əksini tapıb və indi də öz hüquqi qüvvəsində qalmaqdadır. Onların bəzisi boşanmanın mahiyyətinə bağlıdır. Bəziləri isə boşanmanın xarici forması və iradənin ifadə formasına bağlıdır. Bu şərtləri yerinə yetirməmək isə boşanmanın həyata keçirilməməsinə səbəb olur. Bundan əlavə, boşanmaya aid qaydaların islah qanunu məhkəməyə müraciət və boşanma üçün məhkəmədən icazə almaq şərtini də irəli sürmüşdür (3, s.210)

Birinci söz: Boşanmanın şərtləri

Boşayan şəxs kişi hesab olunduğu üçün boşanma siğəsinin icra edilməsi üçün qadına və ya digər bir şəxsə vəkalət verir. Habelə hakim ər tərəfindən qanuni nümayəndə kimi qadını boşamaq səlahiyyətinə malikdir. Boşanma məqsədyönlü, razılıq və istəklə olduğu şərtdə düzgün hesab edilir. Buna görə də əgər kimsə məst və sərxoş olduğu halda, zarafatyana arvadını boşadığını söyləsə və yaxud qadınlarından birinin əvəzinə digərini boşayarsa, bu boşanma ləğv olunmuş hesab edilir. Habelə mülkiyyət qanununun 1135- ci maddəsinə görə «boşanma icra edilmək məqsədi ilə olmalıdır. Əgər boşanmanı oxuyub, onu icra etməzlərsə, bu boşanma ləğv hesab edilir». (5, s.222)

Əgər ər ikrah və ya təzyiq üzündən arvadını boşayarsa bu boşanma ləğv olunmuş hesab edilir. Çünki sosial baxımdan və boşanmanın hədəf və fəlsəfəsi ilə uyğun gəlmir. Mülkiyyət qanununun 1136 – cı maddəsinə görə boşayan ağıllı və yetkin şəxs olmalıdır. Deməli yetim qəyyumunun icazəsi olsa belə, arvadını boşaya bilməz. Amma dəlinin sahibinin icazəsi ilə onun arvadını boşamaq olar. Amma qəyyum olan şəxs dəlinin arvadını boşamaq istədikdə prokurorluğun təklifi ilə məhkəmənin icazəsini almalıdır. Səfeh şəxs isə qanunda nəzərdə tutulmuş qaydada arvadını boşaya bilər.(6, s.32)

İkinci söz. Boşanmanın şərtləri:

Mülkiyyət qanununa əsasən boşanma qadın pak olan (aybaşı olmayan zaman) zaman baş verməlidir. Habelə mensturasiya dövründən boşanma dövrünə qədər olan müddətdə ər ilə arvad arasında cinsi əlaqə olmamalıdır. Mülkiyyət qanununun 1140- cı maddəsinə görə (doğuşdan sonra və ya mensturasiya dövründə qadını boşamaq düzgün deyildir…). Deməli, üç hal istisna edilməklə, qadını mensturasiya zamanı doğuşdan sonra boşamaq olmaz:

1. Hamilə qadının boşanması.
2. Cinsi əlaqədən qabaq həyata keçirilən boşanma.
3. İtkin düşən ər tərəfindən boşanma.

Mülkiyyət qanununun 1141- ci maddəsinə əsasən bu 3 növ boşanma, pak olan zaman qadının menopauza dövründə və hamilə olması istisna edilməklə, düzgün deyildir.

Menopauzalı qadın dedikdə, yaşının çox olmasına görə mensturasiya olmayan qadın nəzərdə tutulur. Lakin xəstəliyi və ya anadangəlmə pozuntuları olan qadının boşanmasına sonuncu cinsi əlaqədən üç aydan keçdikdən sonra icazə verilir. (6,s. 142)

Üçüncü söz. Boşanmanın qaydaları:

Boşanmanın düzgün olması üçün əsas şərtlərdən əlavə məhkəmə qaydaları, iradəni ifadə etmək forması və boşanmanın xarici formasına aid olan bir sıra qaydalar da mövcuddur.Bu qaydalar aşağıdakılardan ibarətdir:

Məhkəmənmn icazəsi və ya hökmü;

Hakimlik ;

Boşanma icra qaydaları;

Boşanmanın qeydiyyata alınması.

Mülkiyyət qanununun 113- cü maddəsinə görə kişi məhkəməyə müraciət etməklə yoldaşını boşamaq istəməsini tələb edə bilər. Bu ixtiyara sahib olmaq üçün kişi arvad ilə keçinə bilməmək barədə məhkəmədən arayış almalıdır. Bu arayışı almaq isə məhkəmə prosesinin baş tutması deməkdir.

1991- ci ilin boşanma qanunlarında edilən dəyişikliyə görə arvad ilə keçinə bilməmək barəsində məhkəmədən arayış almaq hətta tərəflərin razılığı olduğu təqdirdə belə boşanma üçün vacib hesab edilir. Bu arayış məhkəmə tərəfindən alındıqdan sonra üç ay ərzində boşanmanın qeydə alınması idarəsinə təslim edilməzsə, etibarını itirmiş hesab edilir (7,s.233). Bu arayış müəyyən edilən möhlətdə qeydiyyat idarəsinə təhvil verildikdən sonra idarə rəhbəri hazır olmaları haqqında tərəfləri xəbərdar etməlidir. Onlara gəldikdə isə ikinci dəfə idarə rəhbəri ən çoxu bir ay ərzində oraya gəlmələrini elan etməlidir.Belə olmadıqda, yəni qadın oraya gəlməkdən imtina edərsə, kişi boşanma siğəsini oxuyur və qeydiyyata alındıqdan sonra qadına bu barədə xəbərdarlıq edilir. Əgər kişi oraya gəlməkdən imtina edərsə, arayış verən məhkəməyə qadın tərəfindən bildiriş göndərilir. Məhkəmə kişini tələb edir. Kişi oraya gəlmədiyi təqdirdə isə məhkəmə şəri qayda-qanunları gözləmək şərti ilə boşanma siğəsini icra edir və bu barədə boşanma qeydiyyatı idarəsinə xəbər verir. (8,s.187)

Ailənin himayə edilməsi qanununun 10-cu maddəsinə görə, «tərəflərdən hər biri boşanma haqqında arayış almadan boşanmağa cəhd edərsə, altı aydan bir ilə qədər həbs ediləcəkdir. Həmin qanun boşanmanı qeyd edən idarə rəhbərinə də aiddir». Boşanma iddiasına baxmaq ailə məhkəməsinin səlahiyyətində olan məsələdir. Bu hökmə yenidən əyalət məhkəməsində və nəhayət, ali məhkəmədə baxıla bilər. Boşanmaya aid qanunların islah edilməsinə aid qanunun ikinci maddəsinin qeydinə görə, boşanma işinin təkmilləşməsi və keçinməmək barəsində arayış almaq üçün məhkəmə şübhələndiyi vaxt tərəflərin sağlamlıq haqqında arayışını da tələb edə bilər. Müasir hüquq sisteminə əsasən, ər öz arvadını boşamaq istəyirsə, məhkəməyə müraciət etməlidir. Əgər problem məhkəmə yolu ilə həll edilməzsə, hakim tərəfindən məsələyə baxılmalıdır. Hakimin müəyyən edilməsi tərəflərin qüdrətindən xaric və ya tərəflər imtina edərlərsə, məhkəmə şəxsən özü hakim təyin etməlidir. Hakimlər isə tərəfləri barışdırmağa çalışmalıdırlar. Qadın kişidən ayrılmaq istədikdə hakimlərə müraciət etmək zəruridir. Əgər hakimlər tərəflərin keçinə bilməməsi haqqında rəy verilərsə, məhkəmə boşanma hökmü verə bilər və arvadını boşanmaya məcbur edə bilər. Mülkiyyət qanununun 1143- cü maddəsinə görə, «boşanmanın baş tutması üçün boşanma siğəsi oxunmalı və onu iki ədalətli şəxs dinləməlidir.(9,s.143) Bu maddədə boşanma siğəsindən məqsəd boşanmada aşkar olan sözlərin istifadə edilməsidir. Amma ehtiyat üzündən bu, ərəbcə oxunmalıdır. Boşanma icra edildikdən sonra yeni qanuna görə rəsmi boşanma idarəsində qeydiyyatdan keçməlidir.Bu məsələ kişi və qadının şəxsiyyət vəsiqəsində öz əksini tapmalıdır. Əgər boşanma rəsmi boşanma idarəsində qeydiyyatdan keçməzsə, bu, boşanmanın ləğv edilməsi anlamına gəlmir. Amma həmin idarədə qeydiyyatdan keçməmək cinayət hesab edilir. Qanunun 3-cü maddəsinə görə boşanmanın qeydə alınmamasına görə bir sıra dövlət rüsumları tutulur. 1994-cü ilin qanununa görə bir ilə qədər həbs cəzası və nəğd pul cəzası kəsilir. Nəğd pul cəzası isə 70001 rialdan 3 milyon riala qədərdir» (10, s.229).

Üçüncü mövzu. Boşanmanın qismləri:

İmamiyyə fiqhində boşanma «bədi» və «senni» olaraq iki yerə ayrılır. Bədi boşanmadan məqsəd haram olan boşanmadır. Buraya mensturasiya vaxtı verilən boşanma, nifas (qadının doğuşundan 10 gün keçənə qədər olan müddət) vaxtı verilən boşanma, pak olan zaman boşanma və doqquz formadan ibarət olan boşanma növləri daxildir. «Senni» boşanma növü isə qanuni və icazə verilən boşanma növünə deyilir. Bu boşanma növü «bain», «rici» və «edi» boşanma növlərinə ayrılır. Bain (bu boşanma növündə kişi arvadını boşadıqdan sonra arvadına qayıda bilməz) boşanma növünün altı forması vardır. «Qeyri-mədxulə»

boşanma növü, «yaisə» boşanma növü, «səğirə » boşanma növü, «xul» və «mubarat » boşanma növü. Ardıcıl üç dəfə evlilikdən sonra həyata keçirilən boşanma – «Rici» boşanma növündə iddə günlərində kişi yenidən evlilik həyatına qayıda bilər. Altı bain boşanma növündən başqa qalan boşanmalar «rici» (bu boşanma növündə qadın iddədə olduğu vaxta qədər kişi ona qayıda bilər) hesab edilir.(11, s.302)

Edi boşanma növü rici boşanma növünün qismlərindən hesab edilir. Bu zaman kişi iddə günlərində qadınla yenidən evlənə və sonra isə qadın pak olan zama nonu boşaya bilər.

Birinci söz. «Bain» və «rici» **boşanma növləri:**

Mülkiyyət qanununun 1143- cü maddəsi deyir: Boşanma iki növdür: Bain və rici.

Mülkiyyət qanununun 1143- cü maddəsinə görə isə «bain» boşanma növündə kişi qadına qayıda bilməz.

Mülkiyyət qanununun 1145- ci maddəsi bain boşanma növünü qeyd edir.

Aşağıdakı hallarda isə boşanma bain hesab edilir:

1. Qadınla yaxınlıq etməzdən öncə həyata keçirilən boşanma.
2. Menopauzalı qadının boşanması.
3. «Xul» və «mubarat» boşanma növləri.
4. Doqquz dəfə birgə yaşadıqdan sonra üçüncü dəfə boşanma həyata keçirilərsə. Bu zaman birgə yaşama boşanmağın qadına qayıtmaq və ya yeni evlənmək nəticəsində olmasının fərqi yoxdur.

Yuxarıda qeyd etdiyimiz hallar istisna edilməklə qalan boşanma növləri rici hesab edilir. İranın mülkiyyət qanunlarına görə qayıtmaq iddəsində olan qadın kişinin arvadı hesab edilir. Bu məsələni qeyd etmək lazımdır ki, məhkəmənin hökmü ilə olan boşanma «rici» deyil, «bain» adlanır.(12, s. 266)

İkinci söz. Xul və mubarat boşanma növü:

Şiə şəriət hökmlərinə əsaslanan mülkiyyət qanunu «xul» və «mubarat» olaraq iki növ boşanmaya işarə edir. Onların hər ikisi tərəflərin razılığı ilə həyata keçirilir.

Mülkiyyət qanununun 1144- cü maddəsinə görə isə «xul» boşanma növündə qadın ərinə qarşı ikrah hissi keçirdiyi üçün mehriyyəsinin hamısını, ona bərabər malı, mehriyyədən çox və ya az miqdarda mal ödəməklə ərinin boşanma razılığını alır.

«Xul» boşanma növündə ərin iddə zamanı qayıtmaq haqqı yoxdur. Lakin qadın fidyəyə müraciət edərsə, bu hal istisna edilir. Xul boşanma növündə kişi boşanmadan qayıtmaq üçün maneə yaradarsa (məsələn, qadının bacısı ilə evlənərsə), bu qadının fidyəyə müraciət hüququnu aradan qaldırmır. (11, s.54). Mülkiyyət qanununun 1147- ci maddəsinə görə «Mubarat boşanma növündə hər iki tərəf ikrah hissi keçirir. Lakin bu zaman əvəz ödəmək mehriyyənin miqdarından artıq olmamalıdır».

Belə nəzərə çarpır ki, əgər mubarat boşanma növündə əvəz mehriyyədən çox olarsa, bu, ümumi qaydalara tabe olur və mübarata təsiri yoxdur. Habelə «mubarat» və «xul» boşanma növündə olan bəxşiş boşanmanın batil olmasına səbəb olacaqdır. (14, s.90)

Üçüncü söz. «Bain» və **«rici» boşanma növündə yenidən qayıdış haqqı**

Əgər boşanma bain olarsa, boşanmanın baş vermə anından etibarən nikah əlaqəsi ləğv edilmiş hesab edilir. Amma bu ləğv edilmə ümumiyyətlə keçmişə təsir göstərmir. «Bain» boşanma növündə ər boşanmadan sonra heç bir maneə olmadan evlənə bilər. Əgər qadın boşanma iddəsi saxlamaq məcburiyyətindədirsə, o zaman iddə saxlamalıdır. Bu isə «bain» boşanma növündən sonra iddə günlərində keçmiş evlilikdən qalan yeganə təsiridir.(13,s209)

Mülkiyyət qanununun tələblərinə uyğun olaraq bir sıra hallarda boşanma bain olmazsa, rici hesab edilir. Qanuni ifadə ilə desək, boşanma iddəsində olan qadın arvad hökmündədir.(5, s.210)

Buna görə də rici iddə günlərində ər–arvad hüquq və vəzifələri boşanmanın vəzifə və hüququ çərçivəsində öz hökmündə qalır. Qadının nəfəqəsi kişinin boynundadır. Əgər bu sahədə ixtilaf yaranarsa, məhkəmə nəfəqənin miqdarını müəyyən etməlidir. Əgər tərəflərdən birisi vəfat edərsə, digəri ondan irs apara bilər.

Rici iddədə olan qadın ilə zina etmək evli qadınla zina etmək hökmündədir və əbədi olaraq zina edən kişi üçün haram olur. Kişi qadının iddəsi bitməyənə qədər onun bacısı ilə evlənə bilməz. Hətta iddə bitməzdən öncə kişi digəri ilə evlənmək istəsə belə məhkəmədən icazə almalıdır. Əslində iddə günləri tərəflərə evliliyi bitirmək və ya davam etdirmək barədə düşünmək üçün verilən fürsətdir.

Əgər onlar yenidən bir-birinə qayıdarlarsa, əvvəlki kimi evliliyə davam edəcəklər və yenidən evlənməyə ehtiyac qalmayacaqdır.(14, s.86)

Qayıdış hüquqi bir prosesdir, qayıdış ona dəlalət edən əməl və ya söz ilə əldə edilir. Buna görə də boşanmanın əksinə olaraq, qayıdış hər hansı bir şərait və qaydalar olmadan baş verir. (9, s.192)

Əlbəttə, mülki qanunun tələbinə görə qayıtmaq barədə olan məqsəd qayıdışın baş verməsi üçün lazımdır. Deməli, sadəcə bir öpüş və ya qayıdış qəsdi olmadan yaxınlıq etmək kifayət deyildir. (15,s.109)

Boşanma idarəsində qayıdışın qeydə alınmasının onun düz olmasına aidiyyəti yoxdur. Amma qeyd edilmədiyi şəraitdə cinayət hesab edilir. Bu zaman isə bir ilə qədər həbs cəzası və ya 70001 rialdan 3 milyon riala qədər cəza gözləyir.

Nəticə

Şiə məzhəbinin şəriət hüquqlarına əsaslanan İran İslam Respublikasının mülkiyyət qanunlarında boşanma birtərəfli qaydada həyata keçirilir və kişinin ixtiyarına verilmişdir. Amma digər tərəfdən, əgər kişi bu hüquqdan sui-istifadə etməyə qalxarsa və öz həyat yoldaşını incidərsə, bu halda qadın məhkəməyə müraciət edə bilər və özünü məhkəmə vasitəsi ilə boşada bilər.Bu zaman onun maliyyə hüquqları da öz qüvvəsində qalır. İran hüquq sisteminə görə boşanma və evliliyin qeydə alınması zəruridir. Bu işdən yayınan şəxsləri iddə cəzası gözləyir. Bəzi hallarda isə qadının xüsusi şərt və vəziyyətdə olmasını nəzərə alaraq, boşanmaya icazə verilmir. Boşanmanın növündən asılı olaraq iddə vaxtı boşanan qadına çatacaq nəfəqənin miqdarı da fərq edir. Yəni əgər boşanma «rici» növündən olarsa, qadın iddə müddətində nəfəqədən faydalana bilər. Bu zaman isə həmin müddət ərzində kişinin də qayıdış hüququ vardır, yəni yeni bir evlilik əqdi oxunmadan yenidən həmin qadınla evli kimi yaşaya bilər. Amma «bain» boşanma növündə iddə zamanı kişinin qadına dönüşünə icazə yoxdur. Bu zaman isə qadına hər hansı nəfəqə də çatmır.

Açar sözlər: nikah, nikahın ləğv edilməsi, xul və mubarat boşanması, «rici» və «bain» boşanma növləri.

İstifadə edilmiş ədəbiyyat

1. Quran, Məkarim Şirazinin tərcüməsi, «Qum» çapı 2 (405səh.)
2. Mülkiyyət hüququ, İmami Həsən, Tehran, «İslamiyyə kitab satışı» nəşriyyatı, XII çap, cild 5, 1997 (378 səh.)
3. Ailə hüququndan seçmələr, İmami Əsədulla, Səfai Hüseyn, Tehran, «Mizan» nəşriyyatı, VIII çap, 2005 (345 səh)
4. Dəyani Əbdurrəsul, «Boşanmada vəkalət», «Məhkəmə» jurnalı, 2010-cu il, №. (260 səh.)
5.Rəhim İsfahaninin tərtib etdiyi «Cəza və cinayətlər» toplusu, Tehran, «Qayda- qanunlar» nəşriyyatı, I çap, 2002-ci il (480 səh.)
6. Şərif Əli, «Ailə hüququ», Tehran, «Yeni dünya» nəşri, I çap, 1998-ci il (187 səh.)
7. « Lum – Ətul Dəməşqiyyə, Birinci Şəhid, Şirvani Əlinin tərcüməsi, Qum, «Fikir evi nəşriyyatı, II cild (308 səh.)
8. Katozian, Müasir mülkiyyət hüququ, Tehran, «Bəhmən borna» nəşriyyatı, VIII çap, 2003, I cild (398 səh.)
9. Katozian, Müasir indiki sistemdə mülki qanun, «Mizan» nəşriyyatı, III çap, 2006 (480 səh.)
10. Qudərzi Fəramərz, Keyani Mehrzad, Zəhərlənmələr və tibbi qanunun əsasları, Tehran, İran İslam Respublikasının rəsmi qəzet nəşri, I çap 2001 (450 səh.)
11. Ləngərudi Məhəmmədcəfər, Hüquq terminologiyası, Tehran, Elm Xəzinəsi kitabxanası, XIV çap, 2004 (370 səh)
12. Mautəzəri Fereşte. Tərəflərin vəkaləti, «Ədliyyə» jurnalı, 2010, 4-cü mərhələ, № 4 (305 səh.)
13. Mədəni Kermani, Arifə. «Ailə iddiası» Tehran, «Məcd» nəşriyyatı, birinci çap, birinci cild (280 səh.)
14. Müstəfəvi Cəvad. Ailə behişti, Məşhəd, «Atif» nəşri, XII çap, 2001, I cild (400 səh.)
15. İran İslam Respublikasının mülkiyyət qanunu, Mənsur Cahangirin tərtibatı, 2001, «Məcd» nəşriyyatı (130 səh.)

Hadjafloo PEZA

ПRAVO NA RAZVOD V ZAKONODATELĞSTVE ИSLAMSKOY PESPUBLIKI ИRAN

Pezöme

Coqlasno zakonam ИРИ o sobstvennosti, opiraöhimsə na pravo şariata şiitskoqo napravleniə, razvod osuhestvləetsə v odnostoronnem porədke i əvləetsə preroqativoy mujçinı. Odnako esli muj pıtaetsə zloupotreblətğ svoimi pravami i obijaet jenu, ona mojet obratitğsə v sud i dobitğsə razvoda. B takom sluçae ostaötsə v sile ee finansovıe prava.

Coqlasno pravovoy sisteme Иrana, reqistraüiə razvoda i braka əvləetsə obəzatelğnoy. Tex kto uklonəetsə ot reqistraüii, jdet nakazanie. Pazvod ne razreşaetsə v takix sluçaəx, koqda jenhina naxoditsə v osobıx usloviəx i polojenii. B zavisimosti ot razvoda vo vremə iska opredeləetsə razmer alimentov, priçitaöhiysə jene. Пri razvode «vozvratnoqo vida» jena mojet vospolğzovatğsə alimentami v period iska. B teçenie gtoqo perioda muj imeet pravo vernutğsə k jene. Odnako, pri razvode tipa «bain» mujçina lişen prava vernutğsə k jene. B gtom sluçae jena lişaetsə alimentov.

Klöçevıe slova: brak, rastorjenie braçnoqo doqovora, formı razvoda: «xul», «mubarat», «ridji», «bain».

Najafloo REZA

THE RIGHT OF DIVORCEMENT IN THE LEGISLATION OF THE ISLAMIC REPUBLIC OF IRAN

Summary

In the property laws of the Islamic Republic of Iran relying on the Shariat law of Shiah faith, the divorcement is realized unilaterally and is at the man's disposal. On the other hand, in case a man is intended to abuse his rights and hurts his wife, woman may apply to the court and achieve the divorcement by court. In addition, her financial rights are considered valid. But a person evading this case should be punished. In some cases, considering the woman's special position and condition, the divorcement is not allowed. Depending on the divorcement type, within the action period an amount of alimony due to divorced woman is also differed. It means that, if divorcement is of returnable type, within the period of which a divorced or windowed may not be married to another man, woman may be profited from alimony. In this case, within that period, the man also has a right to return. However, in case of divorcement of «bain» type a man has no right to return to his wife. In this case a woman is deprived of alimony.

Keywords: marriage, dissolution of marriage, the forms of divorce: «khul», «mubarat», «riji». «bain».

UOT 343

Tamilla ÇƏLƏBİYEVA

BDU-nun dissertantı

AZADLIĞIN MƏHDUDLAŞDIRILMAISI CƏZASINA MƏHKUM EDİLƏNLƏRİN CƏZADAN ŞƏRTİ OLARAQ VAXTINDAN ƏVVƏL AZAD EDİLMƏSİ*

Təyin edilən cəzanı tamamilə, yaxud da qismən çəkməkdən azad etmə cəzanın məqsədinə nail olmaq mümkün olduqda, humanizm və cəzaya qənaət prinsipinin tələblərinə uyğun qanunda xüsusi olaraq nəzərdə tutulan bir sıra hallar cinayət törədən şəxsi cəzadan tamamilə, yaxud da qismən azad etməyə əsas verir.

Cinayət qanununda cəzadan azad etmə institutunun mövcudluğu mühakimə edilərək cəza almış məhkumlarda azadlığa qayıdacaqlarına ümid verir, güclü islah-tərbiyəedici stimul yaradır (1, s. 179).

Cəzadan şərti olaraq vaxtından əvvəl azad etmə institutunun mahiyyəti cəza çəkən şəxsin məhkəmə hökmü ilə təyin edilmiş cəzanın çəkilməmiş hissəsindən bir sıra şərtlərlə azad edilməsindən ibarətdir. Cəzanın çəkilməmiş hissəsi ərzində məhkuma, onun yerinə yetirməli olduğu müəyyən tələblər verilir. Əks təqdirdə, yəni bu tələblər yerinə yetirilmədikdə, şərti olaraq vaxtından əvvəl azad etmə dayandırıla, yaxud ləğv oluna bilər.

Cəzadan azad etmə dövləti təmsil edən səlahiyyətli orqan tərəfindən cinayət törətməkdə təqsirli olan və məhkum edilən şəxsə cəzanın tətbiq edilməməsinə, eləcə də yuxarıda göstərildiyi kimi, məhkumun cəzanın qalan hissəsini çəkməkdən azad edilməsinə dair qərarın verilməsidir.

Qüvvədə olan Cinayət Məcəlləsi cəzadan azad etmənin tətbiqi əsaslarına yeniliklər gətirmişdir. Qüvvədən düşən qanun məhkumdan cəza çəkdiyi dövrdə əməyə vicdanlı münasibəti və nümunəvi davranışı ilə özünün islah olunduğunu sübut etməyi tələb edirdisə, yeni qanun bunu tələb etmir. Yeni qanunda cəzadan şərti azad etmənin tətbiqi zamanı məhkəmənin şəxsin islah olunması üçün cəzanı tam çəkməsinə lüzum olmadığı qənaətinə gəlməsi kifayət hesab edilir. Bununla belə, məhkəmənin belə qərarı da cəzanın çəkildiyi dövrdə məhkumun islah olunmasını təsdiq edən sabit davranışına əsaslanmalıdır.

Məhkumun islah olunub-olunmamasına qiymət verilməsi üçün qanunda ayrı bir meyar müəyyən edilməmişdir. Bu səbəbdən də şəxsin islah olunması üçün cəzanı tam çəkməsinə lüzum olmadığını müəyyən edərkən məhkəmə məhkumun şəxsiyyətini, cəza çəkdiyi dövrdə onun davranışını və s. halları nəzərə almaqla, cəzadan şərti olaraq vaxtından əvvəl azad etmənin mümkünlüyü məsələsini həll edir. Qanunda cəzadan azad etmənin bu növünün tətbiqi üçün məhkumun tam islah olunması tələb edilmir.

Azərbaycan Respublikasının 1960-cı il Cinayət Məcəlləsində cəzadan şərti olaraq vaxtından əvvəl azad etmənin tətbiq edilmədiyi məhkumların dairəsi xeyli geniş idi. Keçmiş Məcəllənin 50.1-ci maddəsində belə məhkumlar altı kateqoriyaya ayrılırdı. Bunlara aşağıda göstərilən məhkumlar aid edilirdi:

1) xüsusi təhlükəli residivistlər;

2) xüsusi təhlükəli dövləti cinayətlərə görə məhkum edilən şəxslər;

3) banditizmə, islah-əmək müəssisələrinin işini pozan əməllərə, qanunsuz silahlı birləşmələr və ya qrupların yaradılmasına, ağırlaşdırıcı hallarda qaçaqmalçılığa, ağırlaşdırıcı hallarda quldurluğa, ağırlaşdırıcı hallarda əmlakı zorla tələb etməyə, ağırlaşdırıcı hallarda əmlakı qəsdən məhv etməyə və ya zədələməyə, qəsdən adam öldürməyə, ağırlaşdırıcı hallarda qəsdən bədənə ağır xəsarət yetirməyə, xüsusilə ağır nəticələrə səbəb olan zorlamaya, adamları girov saxlamağa görə və s. əməllərə görə məhkum edilən şəxslər;

4) ömürlük azadlıqdan məhrum etmə cəzasına məhkum olunmuş, habelə ömürlük azadlıqdan məhrum etmə cəzası əfv qaydasında müəyyən müddətə azadlıqdan məhrum etmə cəzası ilə əvəz edilmiş şəxslər;

5) qəsdən cinayət etməyə görə əvvəllər iki dəfədən çox azadlıqdan məhrum etməyə məhkum olunmuş, əvvəlki cinayətə görə məhkumluğu qanunla müəyyən edilmiş qaydada götürülməmiş və ya ödənilməmiş şəxslər;

6) əvvəllər məhkəmənin təyin etdiyi cəza müddətini tamamilə çəkib qurtarmadan azadlıqdan məhrum etmə yerlərindən şərti olaraq vaxtından əvvəl azad edilmiş və ya əməyə mütləq cəlb olunmaqla şərti azad edilmiş və cəzanın, yaxud mütləq iş müddətinin çəkilməmiş dövründə qəsdən yeni cinayət törədən şəxslər.

---

* Məqalə h.e.d., prof. F. Səməndərov və hüquq üzrə f.d. A.Kərimli tərəfindən çapa məsləhət bilinib.

Göründüyü kimi, köhnə qanunda cəzadan şərti olaraq vaxtından əvvəl azad etmənin tətbiq edilmədiyi məhkumların dairəsi geniş idi. Bu da göstərilən məhkumları islah olmaq stimulundan məhrum edirdi.

Yeni cinayət qanunu əvvəlki qanundan fərqli olaraq cəzadan şərti olaraq vaxtından əvvəl azad etmənin tətbiqinə, törədilən cinayətin ağırlığından, eləcə də məhkumun şəxsiyyətinin təhlükəliliyindən asılı olaraq məhdudiyyət qoymur.

Azərbaycan Respublikasının Cinayət Məcəlləsi şərti olaraq vaxtından əvvəl azad etmənin tətbiqinin digər şərti kimi cinayətin kateqoriyaları üzrə təyin edilən cəzanın qanunla təyin edilən hissəsinin çəkilməsi tələbini qoyur. Cinayətin aid olduğu kateqoriyadan asılı olaraq təyin edilən cəzanın aşağıdakı göstərilən hədlərinin (hissələrinin) çəkilməsi zəruri sayılır:

1) böyük ictimai təhlükə törətməyən və az ağır cinayətə görə təyin edilən cəza müddətinin yarısını;

2) ağır cinayət törətməyə görə təyin edilən cəza müddətinin ən azı üçdə iki hissəsini;

3) xüsusilə ağır cinayət törətməyə görə təyin edilən cəza müddətinin ən azı dörddə üç hissəsini;

4) cəzadan şərti azad edilən, lakin cəzanın çəkilməmiş müddəti ərzində Cinayət Məcəlləsinin 76.6-cı maddəsi ilə müəyyən edilən əsaslarla barəsində belə azad etmə ləğv edilən məhkumların da yenidən cəzadan şərti olaraq vaxtından əvvəl azad edilməsi üçün törədilən cinayətin hansı kateqoriyaya aid olmasından asılı olmayaraq, onlara təyin edilən cəzanın ən azı dörddə üç hissəsini çəkmələri tələb olunur.

Qüvvədə olan qanunun göstərişinə görə, cinayətə görə təyin edilən cəza azadlıqdan məhrum etmə ilə bağlıdırsa, məhkumun cəzadan şərti olaraq vaxtından əvvəl azad edilməsi üçün ona təyin edilən bu növ cəzanın ən azı altı ayını çəkməsi tələb olunur. F.Y.Səməndərovun fikrincə, ancaq böyük ictimai təhlükə törətməyən və ya az ağır cinayətlərə görə təyin edilən azadlıqdan məhrum etmə növündə cəza ilə bağlı ola bilər (2, s.539).

Azərbaycan Respublikasının keçmiş Cinayət Məcəlləsinin mövqeyindən fərqli olaraq qüvvədə olan yeni Cinayət Məcəlləsinin 76-cı maddəsi şərti məhkum edilən şəxs üzərində nəzarətin həyata keçirilməsinin əmək kollektivinə həvalə edilməsini nəzərdə tutmur. Cinayət Məcəlləsinin 76-cı maddəsinin göstərişinə uyğun olaraq belə nəzarəti müvafiq dövlət orqanı, əgər məhkum olunan hərbi qulluqçudursa, hərbi hissənin komandanlığı həyata keçirir.

Cinayət Məcəlləsinin 76.1-ci maddəsinin göstərişinə uyğun olaraq məhkəmə məhkumu əsas cəzadan şərti olaraq vaxtından əvvəl azad edərkən onu əlavə cəzadan da tamamilə və ya qismən azad edə bilər.

Cəzadan azad etmənin bütün növləri üçün ümumi olan bir sıra cəhətlər mövcuddur. Həmin cəhətlərə aşağıdakılar aid edilə bilər:

1) araşdırılan institut cinayət törətməkdə təqsirli bilinən şəxsi ancaq dövlətin təsir tədbiri kimi məhkəmə hökmü ilə təyin edilən cəzadan azad edir;

2) cəzadan azad etmə cinayət mühakimə icraatının müəyyən mərhələsi -ittihamedici hökmün çıxarılması ilə bağlıdır. Cəzadan azad etmə cəza nəzərdə tutan hökm qüvvəyə mindikdən cəza çəkilib qurtaranadək olan dövr ərzində mümkündür;

3) cəzadan azad etmə ancaq məhkəmənin səlahiyyətinə aiddir (bağışlama və amnistiya aktı ilə azad etmə istisna olmaqla);

4) hökmün icra müddətinin keçməsi ilə cəzadan azad etmə, habelə ağır ruhi xəstəliyə tutulmuş məhkumların cəzadan azad edilməsi halları istisna olmaqla, digər hallarda cəzadan azad etmə məhkəmənin hüququdur;

5) cəzadan azad etmədə ittihamedici hökm, eləcə də onunla tənzim edilən hüquq münasibətləri dəyişikliklərə məruz qalmır. Cəzadan azad etmə tam, yaxud müəyyən şərtlə və ya şərtsiz ola bilər.

Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 76-cı maddəsi cəzadan şərti olaraq vaxtından əvvəl azad etmənin ləğv edilməsinin əsaslarında xeyli dəyişiklik etmişdir. Cinayət qanununa uyğun olaraq cəzadan şərti olaraq vaxtından əvvəl azad etmə haqqında qərar aşağıda göstərilən hallarda ləğv edilə bilər:

a) cəzadan şərti azad edilən şəxs məhkəmə tərəfindən onun üzərinə qoyulan vəzifələri yerinə yetirməkdən boyun qaçırdıqda;

b) şərti azad edilən məhkum ictimai qaydanı pozduğuna görə onun barəsində inzibati tənbeh tətbiq edildikdə;

c) cəzadan şərti azad edilən məhkumun davranışı üzərində nəzarəti həyata keçirən dövlət orqanı məhkəmə qarşısında məhkumun cəzadan şərti olaraq vaxtından əvvəl azad edilməsi haqqında qərarın ləğv edilməsi və cəzanın çəkilməmiş hissəsinin icra olunmağa yönəldilməsi barədə təklif verdikdə.

Cəzadan şərti olaraq vaxtından əvvəl azad edilən məhkum cəzanın çəkilməmiş müddəti ərzində qəsdən, yaxud ehtiyatsızlıqdan cinayət törətdikdə də onun barəsində cəzadan şərti olaraq vaxtından əvvəl azad etmə haqqında qərar ləğv edilə bilər.

Cəzadan şərti olaraq vaxtından əvvəl azad edilən şəxs cəzanın çəkilməmiş müddəti ərzində ehtiyatsızlıqdan cinayət törətdikdə, cəzadan şərti azad etmə haqqında çıxarılan qərarın qüvvədə saxlanması və ya ləğv edilməsini məhkəmə həll edir. Bunun üçün məhkəmə məhkumun şərti azad edilən andan onun ehtiyatsızlıqdan cinayət törətdiyi vaxta qədər keçən dövr ərzində davranışını nəzərə alır (2, s.541).

Məhkəmə şərti azad etməni ləğv etdikdə əvvəlki hökmlə təyin edilmiş cəzanın çəkilməyən hissəsi ilə ehtiyatsızlıqdan törədilən cinayətə görə təyin edilən cəzanı toplayaraq hökmlərin məcmusuna görə cəza təyin edir.

Cəzadan şərti olaraq vaxtından əvvəl azad edilən şəxs cəzanın çəkilmədiyi müddət ərzində qəsdən cinayət törətdikdə cəzadan şərti olaraq vaxtından əvvəl azad etməyə dair qərarın ləğvinə hər bir halda əsas yaranır. Belə hallarda məhkəmə cəzadan şərti olaraq vaxtından əvvəl azad etməyə dair qərarı ləğv edir, vaxtından əvvəl şərti azad etmə ilə bağlı cəzanın çəkilməyən hissəsini və yenidən qəsdən törədilən cinayətə görə təyin edilən cəzanı toplamaqla Cinayət Məcəlləsinin 67-ci maddəsi ilə müəyyən edilmiş qaydada, yəni hökmlərin məcmusuna görə cəza təyin edir.

Qüvvədə olan cinayət qanunvericiliyi cəzadan şərti olaraq vaxtından əvvəl azad etmənin tənzimini müəyyən edən köhnə cinayət hüquq normasından imtina etmişdir. Hazırda cəzadan şərti olaraq vaxtından əvvəl azad etmə üzrə cinayət işlərinə baxılması ilə bağlı yaranan hüquq münasibətləri cinayət-prosessual qanunvericiliklə tənzimlənir.

Azərbaycan Respublikasının hazırda qüvvədə olan Cinayət Məcəlləsi əvvəlki Cinayət Məcəlləsindən fərqli olaraq cəzanın çəkilməmiş hissəsinin daha yüngül cəza növü ilə əvəz edilməsini müstəqil bir institut kimi müəyyən edir. Bu institut cəzadan şərti olaraq vaxtından əvvəl azad etmə (Cinayət Məcəlləsinin 76-cı maddəsi) institutundan özünün əsaslarına və tətbiqi şərtlərinə görə fərqlənir.

Cəzanın çəkilməmiş hissəsinin başqa yüngül cəza ilə əvəz edilməsi yalnız azadlıqdan məhrum etmə növündə cəzaya məhkum edilən şəxslər barəsində tətbiq edildiyi halda, başqa cəza növlərinə məhkum edilmiş şəxslər barəsində bu institut tətbiq edilmir. Cəzanın çəkilməmiş hissəsini daha yüngül cəza növü ilə əvəz edilməsi bütün kateqoriyadan olan cinayətlər barəsində deyil, yalnız böyük ictimai təhlükə törətməyən və ya az ağır cinayətləri törətmək üstündə azadlıqdan məhrum etmə növündə cəzaya məhkum edilən şəxslər barəsində tətbiq edilir (2, s.542).

Azərbaycan Respublikasının qüvvədə olan cinayət qanunvericiliyi şəxsin hansı cəzalardan şərti olaraq vaxtından əvvəl azad edilməsinin mümkün olduğunu dürüst müəyyən edir. Məhz belə cəza çəkməkdən şərti olaraq vaxtından əvvəl azad etmə aşağıdakı növ cəzaları çəkən məhkumlara tətbiq edilə bilər:

1) islah işləri;
2) hərbi xidmət üzrə məhdudlaşdırma;
3) azadlığın məhdudlaşdırılması;
4) intizam xarakterli hərbi hissədə saxlama;
5) azadlıqdan məhrumetmə.

Qeyd etmək lazımdır ki, bütün bu cəzalar zamana görə hesablanan cəzalardır, yəni bu cəzalar zaman göstəriciləri ilə səciyyələnirlər. Müddətinin qısa olması səbəbindən ictimai işlər növündə cəza yuxarıda göstərilən siyahıya daxil edilməmişdir.

Yuxarıda göstərilənlər onunla izah oluna bilər ki, cəzadan şərti olaraq vaxtından əvvəl azad etmə məhkumun statusunda əhəmiyyətli dərəcədə dəyişikliyə səbəb olur. Belə azad etmə öz hüquqi nəticələrinə görə də diqqəti cəlb edir. Cəzadan şərti olaraq vaxtından əvvəl azad etmə nəticə etibarilə öz tətbiqi üçün məhkəmə tərəfindən təyin edilmiş cəza müddətinin yarısının çəkilməsini tələb edir.

Cəzanın çəkilməmiş hissəsinin əvəzi qismində Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 42-ci maddəsində nəzərdə tutulmuş istənilən daha yüngül cəza növü seçilə bilər. Bu zaman ayrı-ayrı növ cəzaların tətbiq edilməsinə aşağıdakı məhdudiyyətlər qoyulmalıdır:

1) azadlıqdan məhrumetmənin əvəzinə təyin edilmiş yeni cəza ancaq əsas cəza (məsələn, azadlığın məhdudlaşdırılması) ola bilər;

2) birinci və ikinci qrup əlillərə azadlıqdan məhrumetmə əvəzinə ictimai işlər təyin edilə bilməz, çünki Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 47.4-cü maddəsi belə şəxslərə ictimai işlərin tətbiq olunmasını qadağan edir;

3) azadlıqdan məhrumetməni cərimə ilə əvəz etmək olmaz, çünki cərimə azadlıqdan məhrumetmə ilə müqayisədə məhkumun tamamilə başqa hüquq sferasına - əmlak hüquqlarına zərbə endirir;

4) azadlıqdan məhrumetmə əvəzinə müəyyən vəzifə tutmaq və ya müəyyən fəaliyyətlə məşğul olmaq hüququndan məhrumetmə növündə cəza təyin edilə bilməz, çünki bu cəza spesifik hallarda təyin edilir;

5) azadlıqdan məhrumetməni hərbi cəzalarla əvəz etmək olmaz, çünki azadlıqdan məhrumetmə yerindən azad edildikdən sonra şəxs hərbi qulluqçu ola bilməz;

6) digər məhdudiyyətlər (3, s.385).

Cəzanın çəkilməmiş hissəsinin əvəz edilməsi zamanı yeni cəza cəzanın həmin növü üçün müəyyən edilmiş maksimum həddi aşmamalıdır. Bundan başqa, əvəz edən cəzanın müddəti azadlıqdan məhrumetmənin çəkilməmiş müddətini aşmamalıdır, çünki nəzərdən keçirilən institutun tətbiq edilməsinin məntiqi mahiyyəti məhkumun vəziyyətinin həqiqi mənada yüngülləşdirilməsini tələb edir.

Cəzadan şərti olaraq vaxtından əvvəl azad etmə və cəzanın çəkilməmiş hissəsinin daha yüngül cəza növü ilə əvəz edilməsi cəzanın icrası yeri üzrə məhkəmə tərəfindən məhkumun ərizəsinə əsasən tətbiq edilir. Ərizədə məhkumun gələcək islahı üçün məhkəmə tərəfindən təyin edilmiş cəzanın tam çəkilməsinə lüzum olmamasını sübut edən məlumatlar olmalıdır.

Əgər məhkəmə şəxsin məhkəmə hökmü ilə təyin edilmiş cəza müddətinin qanunla tələb olunan hissəsini çəkdiyi, öz davranışı ilə islah edildiyi və onım məhkəmə tərəfindən təyin edilmiş cəzanı tam çəkməsinə lüzum olmadığı qənaətinə gələrsə, o, cəzadan şərti olaraq vaxtından əvvəl azad etmə və ya cəzanın çəkilməmiş hissəsini daha yüngül cəza növü ilə əvəz etmə haqqında qərar çıxara bilər.

Məhkəmənin rədd qərarı qəbul etdiyi hallarda təkrar ərizəyə həmin qərarın qəbul edildiyi gündən ən azı altı ay keçdikdən sonra baxıla bilər. Qeyd etmək lazımdır ki, məhkəmənin cəzadan şərti olaraq vaxtından əvvəl azad etmə haqqında təqdimatı rədd etməsi cəzanın çəkilməmiş hissəsinin daha yüngül cəza növü ilə əvəz edilməsi haqqında təqdimat verilməsinə mane olmamalıdır.

Azadlığın məhdudlaşdırılması növündə cəzaya məhkum olunmuş şəxslərin cəzadan şərti olaraq vaxtından əvvəl azad edilməsinə aşağıdakılar xidmət edə bilər:

1) azadlığın məhdudlaşdırılması növündə cəzaya məhkum olunmuş şəxs tərəfindən xüsusi müəssisənin Daxili İntizam Qaydalarının tələblərinə əməl edilməsi;

2) azadlığın məhdudlaşdırılması növündə cəzaya məhkum olunmuş şəxsin xüsusi müəssisənin rejim qaydalarına riayət etməsi;

3) azadlığın məhdudlaşdırılması növündə cəzaya məhkum olunmuş şəxsin xüsusi müəssisənin yerləşdiyi ərazi vahidinin hüdudlarını müdiriyyətin icazəsi olmadan tərk etməməsi;

4) azadlığın məhdudlaşdırılması növündə cəzaya məhkum olunmuş şəxs tərəfindən hər hansı hüquq pozuntusuna yol verilməməsi.

Açar sözlər: məhkum edilənlər, məcəllə, azadlığın məhdudlaşdırılması cəzası mövzusu, hüquq.

İstifadə olunmuş ədəbiyyat

1. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin Kommentariyası/ F.Y.Səmənderovun redaktəsi ilə. Bakı, «Digesta», 2005, 944 s.

2. Səmənderov F.Y. Cinayət hüququ. Ümumi hissə: Dərslik. Bakı, «Digesta», 2009, 700 s.

3. Ağayev İ.B. Azərbaycan Respublikasının cinayət hüququ. Ümumi və Xüsusi hissələr: Dərslik. Bakı, «Nurlar», 2010, 832 s.

Tamilla ЧELEBIEVA

УСЛОВНО-ДОСРОЧНОЕ ОСВОБОЖДЕНИЕ ПРИГОВОРЕННЫХ

К НАКАЗАНИЮ ОГРАНИЧЕНИЕ СВОБОДЫ

Pezöme

Oqraniçenie svobodı predpolaqaet psixoloqiçeskoe vozdeystvie na osujdennoqo, sozdaet vozmojnosti dlə nadzora za eqo povedeniem. Yslovno-dosroçnoe osvobojdenie ot otbıvaniə - gto samıy rasprostranennıy vid osvobojdeniə ot nakazaniə, tak kak ono primenəetsə k bolğşinstvu osnovnıx vidov nakazaniə, v tom çisle i k oqraniçeniö svobodı. Osnovaniem k primeneniö dannoqo vida osvobojdeniə ot dalğneyşeqo otbıvaniə nakazaniə slujit utrata osujdennım obhestvennoy opasnosti.

Klöçevıe slova: podsudimıe, statğə o nakazanii ob oqraniçenii svobodı, pravo.

Tamilla CHALABIYEVA

PROVISIONALLY-AHEAD OF TIME DISCHARGE OF THE CONVICTED TO PUNISHMENT RESTRICTION OF FREEDOM

Summary

The restriction of freedom contemplates the psychological influence on a convicted person, creates the possibility for surveillance for his behaviour. Provisionally-ahead of time discharge from serving one's sentence is the most widespread kind of discharge from punishment, as it is applicated to majority of the major kinds of punishments, including restriction of freedom. The application of the given kind of freedom from further serving one's sentence of punishment grounds on the loss of social danger of convicted person.

Keywords: convicted persons, article on the restriction of freedom punishment, law.

UOT 341.018

Şəhla ZAREİ

BDU-nun aspirantı, İslami Azad
Astara-İran Universitetinin baş müəllimi

BEYNƏLXALQ HÜQUQUN MƏCƏLLƏLƏŞDİRİLMƏSİ VƏ MÜTƏRƏQQİ İNKİŞAFI*

Adət və razılığa əsaslanan hüquqi vəziyyətin digər bir xarakterik cəhəti onun məcburiliyi və imperativliyidir. Çünki müəyyən bir normaya tabelik məcburi və zəruri olmasa, bu zaman həmin norma beynəlxalq əhəmiyyət kəsb edə bilməz. Normanın məcburiliyi amirlik kimi qəbul edilməməlidir. Beynəlxalq sistemdə bəzi normalar təkmilləşdirici və bəzi qaydalar izahedici xarakterə malik olduğundan bu tip qaydaların məcburiliyi dolayı yolla təmin edilir. Həmçinin bəzi normalar ixtiyari xarakter daşıyır, yəni bu normanın məcburiliyi hüquqi olaraq həmin normanı qəbul edənlərə aiddir. Bu səbəbdən də həmin normaların icrasına dair hər hansı bir zəmanətin olmaması kimi fikir yarana bilər, lakin bu tip fikirlər doğru deyil. Bu normaların icrasına zəmanət var, sadəcə bu normaların icrasına olan zəmanət yalnız həmin normaları qəbul edən ölkələr üçün etibarlı sayılır. Bu tip ixtiyari normalar daxili hüquqda nadir hallarda müşahidə edilsə də, beynəlxalq hüquqda tez-tez müşahidə edilir. Çünki müasir beynəlxalq hüquqda hüquq normalarının məcburiliyinin yeganə şərti həmin normaların ölkələr tərəfindən könüllü olaraq qəbul edilməsidir. Lakin həmin normanın məcburiliyi o demək deyil ki, beynəlxalq təşkilatlar və cəmiyyətlər normayaradan sazişləri qəbul edən və bu sazişlərə qatılan ölkələri müəyyən normaya əməl etməyə məcbur edə bilərlər. Çünki hələ məcburi beynəlxalq normaların icrasının effektiv zəmanəti olan beynəlxalq qurum və yaxud institut formalaşmayıb. Əsas məsələlərdən biri də ondan ibarətdir ki, beynəlxalq ictimaiyyət beynəlxalq hüququn formalaşması və inkişafı üçün hansı işləri görüb və bu görülən işlər beynəlxalq qanunvericiliyin əsası kimi çıxış edə bilərmi? (4, s. 97).

Mövcud qaydaya əsasən beynəlxalq hüququ formalaşdırmaq və yaxud beynəlxalq adət normalarını yazılı hüquqi formaya salmaq "beynəlxalq hüququn məcəllələşdirməsi" deməkdir. Beynəlxalq hüququn məcəllələşdirilməsi dedikdə beynəlxalq hüquq normalarının beynəlxalq hüquq subyektləri tərəfindən həyata keçirilən sistemləşdirilməsi başa düşülür. Məcəllələşdirmə təkcə qüvvədə olan beynəlxalq hüquq normalarının vahid sistemə gətirilməsini yox, həmçinin onların daha dəqiq ifadə olunmasını, beynəlxalq adətlərin də müqavilələrdə öz əksini tapmasını nəzərdə tutur (10). Beynəlxalq hüququn nizamlanaraq genişləndirilməsinə "beynəlxalq hüququn inkişafı " deyilir.

Beynəlxalq hüququn məcəllələşdirilməsi və mütərəqqi inkişafı aşağıdakı vəzifələri yerinə yetirir: 1) qüvvədə olan beynəlxalq hüququn beynəlxalq münasibətlərin həmin inkişaf dövrünün tələbatına uyğunlaşdırılması; 2) ona tələb olunan yeni hüquq normaları əlavə etmək; 3) köhnəlmiş normaları kənar etmək və mövcud normalar arasındakı ziddiyyətləri aradan qaldırmaq; 4) beynəlxalq hüququn müvafiq sahəsini və ya institutunu bir normativ kompleks şəklinə salmaq (5, s. 17-18).

Beynəlxalq hüququn məcəllələşdirilməsi və inkişafının tarixi, demək olar ki, yenidir. Çünki beynəlxalq hüquq ilk formalaşma çağlarından ənənəvi xarakterli və qeyri-konkret olmuşdur. Bu isə ölkələrin mütləq hakimiyyəti ilə uzlaşırdı. XIX əsrdən etibarən güclü və sənayeləşmiş ölkələr öz milli və iqtisadi maraqları naminə nizamlanmamış beynəlxalq ictimaiyyəti nizamlamağa və beynəlxalq normaları formalaşdıraraq inkişaf etdirməyə cəhd göstərdilər. lakin öz siyasi üstünlüklərini sarsıtmamaq üçün hələlik bu ideyanı həyata keçirməyə tələsmirdilər. Lakin iqtisadi münasibətlərin mürəkkəbləşməsi və həmin ölkələr arasında cərəyan edən ciddi rəqabət onları iqtisadi sferada "ictimai davranışı" nizamlamaq məqsədi ilə beynəlxalq hüququn məcəllələşdirilməsi və inkişaf etdirilməsi kimi cəhdi müdafiə etməyə, həmçinin beynəlxalq qanunvericilik mərkəzlərini yaratmağa məcbur etdi. Beynəlxalq hüququ formalaşdırmaq məqsədi ilə başlanan bu hərəkatın məqsədi ənənəni müqavilə formasına salmaq, mücərrəd ümumi prinsiplərin məzmununu dəqiqləşdirmək, beynəlxalq hüquq normalarını aydınlaşdırmaq və ölkələrarası xaotik əlaqələrə son qoymaq idi. Bu məqsədlə təşkil olan Vyana konqresində (1814 – 1815) iştirak edən ölkələr müəyyən qədər öz məqsədlərinə çatdılar və bəzi razılaşmalar əldə olunaraq beynəlxalq suların (çayların) nizamlanması, qul satışının qadağan edilməsi və diplomatların vəziyyəti haqqında normaları qəbul etmiş oldular. Beləliklə, dənizdə və quruda müharibə adət və qanunları haqqında normalar, beynəlxalq mübahisələrin danışıqlar yolu ilə həlli, mənəvi sərvətləri müdafiə, telekommunikasiya və poçt xidmətləri, hava və dəniz yollarına dair normaların qəbulu və digər ictimai məsələlərin müəyyən normalar və qaydalar

* Məqalə hüquq üzrə f.d. R. Məmmədov tərəfindən çapa məsləhət bilinib.

vasitəsi ilə nizamlanması üçün beynəlxalq konfransların çağırılması adi hal aldı. Bu konfranslarda əldə edilmiş razılaşmalar bəzən lokal xarakterli olmuş olsa da, bu həmin ölkələrin beynəlxalq hüququ məcəllələşdirmək və inkişaf etdirmək uğrunda təşəbbüslərinin göstəricisi idi. Məhz elə bu konfranslarda konfliktlərin və müharibələrin nizamlanması haqqında əldə edilmiş təcrübələrə əsaslanan Haaqa sülh konfransında (1899, 1907) ölkələr arasında çox dəyərli razılaşmalar əldə edildi və beləliklə, beynəlxalq hüququn inkişafı uğrunda yeni bir addım atılmış oldu. Bunlara baxmayaraq, İkinci Haaqa sülh konfransının müzakirə edəcəyi əsas problemlərin əvvəlcədən dəqiqləşdirilməsini nəzərə alaraq, belə bir təklif irəli sürüldü ki, beynəlxalq mövzuları müzakirəyə hazırlayan və təklif edən bir komitə yaransın və keçiriləcək üçüncü konfransın müzakirə edəcəyi mövzuları müəyyən etsin. Həmin komitə yaranıb fəaliyyətə başlasa da, Birinci Dünya müharibəsinin başlanması bu komitənin fəaliyyətinin dayanmasını qaçılmaz etdi. Millətlər Cəmiyyətinin Assambleyası Birinci Dünya müharibəsindən sonra bəzi üzv ölkələrin səyi nəticəsində 1924-cü il sentyabrın 22-də beynəlxalq hüququn məcəllələşdirilməsi və inkişafı üçün daimi orqanın yaradılmasına dair qətnaməni qəbul etdi. Bu qətnaməyə əsasən həmin orqanın (komitənin) ekspertləri beynəlxalq hüququn inkişafı üçün lazım olan ilkin tədbirləri həyata keçirməli oldu. Müxtəlif mədəniyyətlər və hüquqi sistemlərin nümayəndələrindən ibarət olan komitə üzvləri müxtəlif ölkələri maraqlandıran normaları bir yerə toplayaraq, toplanmış materialları dövlətlərlə müzakirə etdikdən sonra Millətlər Cəmiyyəti Assambleyasına təqdim etməli idi. Millətlər Cəmiyyəti Assambleyasının bu fəaliyyəti beynəlxalq hüququn inkişafı istiqamətində ilk genişmiqyaslı qlobal fəaliyyət hesab edilə bilər. Millətlər Cəmiyyəti Assambleyasının təşkil etdiyi komitədə 17 nəfər tanınmış beynəlxalq ekspert fəaliyyət göstərirdi və bir müddət sonra onlar özlərinin topladığı və müzakirə etdikləri materialları bu orqana təqdim etdilər. Millətlər Cəmiyyəti Assambleyası materiallarla tanış olduqdan sonra müxtəlif dövlətlərlə məsləhətləşmələr apardı və belə qərara gəldi ki, vətəndaşlıq, daxili sular və dövlətlərin öz ərazisində əcnəbilərin şəxsiyyət və mülkiyyətinə vurulan zərərə görə məsuliyyəti haqqında normaları məcəllələşdirmək məqsədi ilə diplomatik konfrans çağırsın. 1930-cu il mart ayının 13-dən aprel ayının 12-nə kimi davam edən bu konfransda qeyd edilən mövzuların yalnız biri, yəni vətəndaşlıq haqqında normalar müəyyənləşdi və bununla əlaqədar razılaşma əldə edildi (3, s. 99).

Ərazi suları barədə bir sıra maddələr layihəsi qəbul edildi, dövlətlərin məsuliyyəti barədə məsələ üzrə isə heç bir tövsiyə də qəbul edilmədi (9).

Millətlər Cəmiyyəti Assambleyasının beynəlxalq normaları təsdiq və inkişaf etdirmək iqtidarında olmaması göstərdi ki, ölkələrin çoxu beynəlxalq hüququn, normaların mahiyyətini hələ düzgün başa düşmürlər. Əlbəttə, belə normaların dəqiqləşərək təsdiq edilməsini tələb edən ölkələr hesab edirdilər ki, mövcud adət hüququ o qədər təkamül tapıb ki, yazılı formada məcəllələşdirmə aparıla bilər. Lakin onlar unutmuşdular ki, indi beynəlxalq sferada ölkələrin elə problemləri var ki, həmin adət hüququ bu problemlərin təhlili və həlli üçün yararlı deyil. Yuxarıda qeyd edilənlər belə bir təsəvvür yaratmamalıdır ki, bu ölkələr əvvəlki hüquqi qaydalarda heç bir dəyişiklik etmək istəmirdilər. Lakin onlar hesab edirdilər ki, nəzərdə tutduqları hüquqi normalar və problemlər yetərincə təkamül və inkişaf edibdir. Ancaq Haaqa konfransı onların səhv etdiyini aşkar etdi. Çünki onlar beynəlxalq hüququn yaradılması dedikdə mövcud hüquq normalarının öyrənilməsi və müəyyən qədər dəyişilməsini nəzərdə tuturdular. İkinci Dünya müharibəsindən sonra Birləşmiş Millətlər Təşkilatı Nizamnaməsinin bir çox müəllifləri təşkilata beynəlxalq qanunvericilik hakimiyyətinin verilməsinə müxalif idilər. Onlar həmin istiqamətdə Baş Məclisə müvafiq səlahiyyətlərin verilməsi haqqında bir sıra ölkələrin təklifini qəbul etmədilər (təklif olmuşdu ki, Baş Məclisə onun üzvlərinin müəyyən səs çoxluğu ilə bəzi ümumi beynəlxalq konvensiyaların yerinə yetirilməsi üzrə dövlətlərin üzərinə öhdəlik qoymaq səlahiyyti verilsin), lakin Baş Məclisə bu sahədə daha məhdud səlahiyyətlərin verilməsi təklifi ilə razılaşdılar. Həmin məqsədlə 13-cü maddənin 1-ci bəndi müəyyən olundu və bununla da Baş Məclisə beynəlxalq hüququn məcəllələşdirilməsi və mütərəqqi inkişafı üzrə müəyyən səlahiyyətlər verilmiş oldu. BMT Nizamnaməsinin 13-cü maddəsinin 1-ci bəndinə əsasən, Baş Məclis siyasi sahədə beynəlxalq əməkdaşlığa dəstək vermək və beynəlxalq hüququn mütərəqqi inkişafını və onun məcəllələşdirilməsini həvəsləndirmək məqsədilə tədqiqatlar təşkil edir və tövsiyələr verir (2, s. 13) Beləliklə, Birləşmiş Millətlər Təşkilatının beynəlxalq hüquq sahəsində fasiləsiz fəaliyyətini təmin edən effektiv addım atıldı və həmin hərəkətin nəticəsi olaraq Baş Məclis 1947-ci il yanvar ayının 31-də özünün ilk sessiyasında qəbul etdiyi qətnaməyə əsasən (94(1)) beynəlxalq hüququn məcəllələşdirilməsi və inkişaf etdirilməsi üzrə komitə (buna 17-lər komitəsi də deyilirdi) yaratdı (6. s 160).

Bu komitənin əsas vəzifəsi Baş Məclisin beynəlxalq hüquq sferasında fəaliyyət metodunu müəyyən etmək idi. Komissiyada 1947-ci il mayın 12-dən iyunun 17-nə qədər olan dövrdə 30 dəfə iclas təşkil edildi və son olaraq Assambleyaya edilən təklifə əsasən Beynəlxalq hüquq komissiyasının təşkil edilmə ideyası

irəli sürüldü. 17-ci komissiyanın təqdim etdiyi təklif və nəticə Beynəlxalq hüquq komissiyasının əsas problemləri və iş prinsipini özündə ehtiva edirdi. Təqdim edilən həmin materialda üzvlərin arasında beynəlxalq hüququn məcəllələşdirilməsi və tədrici inkişafı kimi terminlərə dair fikir ayrılığı da diqqət mərkəzində olmuşdu. Bəzi üzvlər bu iki anlayış arasında hər hansı bir fərqin olmadığını iddia edir və hesab edirdilər ki, bu iki anlayışın heç biri ölkələri komissiyanın fikirləri ilə hesablaşmağa məcbur etmir və bu növ hesablaşmanın məcburiliyi yalnız ölkələrin öz aralarında olan müqavilədən irəli gələcək. Birinci qrupun əksinə olaraq, digər ölkələr hesab edirdilər ki, bu iki anlayış arasında çox əhəmiyyətli fərq vardır. Beynəlxalq hüquq komissiyası barədə Əsasnamədə ikinci qrupun fikri əsas götürüldü. Çünki 15-ci maddənin məzmununa görə, beynəlxalq hüququn inkişafı dedikdə elə problemlərin müzakirəsi və razılaşdırılması nəzərdə tutulur ki, yeni məzmuna malik olsun və ya ənənəvi hüquqda öz həll yollarını tapmamış olsun. Beynəlxalq hüququn məcəllələşdirilməsi dedikdə ənənə, əvvəlki doktrinalar və ölkələrin əvvəlki praktikasında mövcud olan norma və qaydaların dəqiq və elmi metodla öyrənilməsi və təqdimi nəzərdə tutulur. Birləşmiş Millətlər Təşkilatı bu günə qədər öz səlahiyyətlərinə, komissiyanın məsləhətlərinə əsaslanaraq müxtəlif problemlər üzrə təşkil etdiyi konfranslarda bir çox lazımi mövzuları müzakirə etmiş və üzv ölkələrin bunlarla bağlı razılığı əldə olunmuşdur. Bağlanan müqavilələr sırasında Dəniz hüququ haqqında Konvensiyaları (1958, Cenevrə, 4 razılaşma), Diplomatik əlaqələr haqqında Konvensiyanı (Vyana, 1961), İrqi ayrı-seçkiliyə son qoyulması haqqında Konvensiyanı (Nyu-York, 1961), Konsulluq əlaqələri haqqında Konvensiyanı (Vyana, 1963), Beynəlxalq müqavilələr hüququ haqqında Konvensiyanı (1969, Vyana), Dəniz hüququ haqqında Konvensiyanı (1982), Beynəlxalq təşkilatlarla dövlətlər arasında və beynəlxalq təşkilatlar arasında beynəlxalq müqavilələr hüququ haqqında Konvensiyanı (Vyana, 1986) və s. razılaşmaları göstərmək olar. "Qeyd etmək lazımdır ki, beynəlxalq hüququn məcəllələşdirilməsi və inkişafı qeyd edilən konfranslarla məhdudlaşmır. Bəzi sahələrdə Birləşmiş Millətlər Təşkilatının orqanları müəyyən metodlar vasitəsi ilə bəyannamələr və qətnamələr qəbul edərək beynəlxalq hüququn inkişafına yardım etmiş olurlar. Məsələn, Kosmos hüququ haqqında, beynəlxalq hüququn prinsipləri haqqında bəyannamələr (1970), Dövlətlərin iqtisadi hüquq və vəzifələri haqqında Bəyannamə (1974), Təcavüzün tərifi haqqında qətnamə (1974-cü il sentyabrın 14-ü, Baş Məclisin 3314\24 saylı qətnaməsi), Dövlətlərin daxili işinə qarışmamaq haqda Bəyannamə (1981-ci il dekabrın 9-u 36\103) və s. beynəlxalq hüququn inkişafında müəyyən təsirə malik olmuşdur" (7, s. 130).

İqtisadi məsələlər çərçivəsində beynəlxalq ticarətin hüquqi tənzimlənməsi sahəsində çox effektiv fəaliyyət həyata keçirilmişdir və beynəlxalq müqavilələrin əldə edilməsi, oxşar ticarət qanunlarının qəbulu, müqavilələrin ilkin və nümunəvi formasının işlənib hazırlanması, universal ticarət terminlərinin təklif edilməsi sahəsində geniş fəaliyyət həyata keçirilmişdir. Birləşmiş Millətlər Təşkilatı və Beynəlxalq hüquq komissiyasının fəaliyyətini təhlil etsək görərik ki, beynəlxalq hüququn məcəllələşdirilməsi öz inkişafının ilk mərhələlərindədir, çünki beynəlxalq hüququn əsas problemləri və beynəlxalq ümumi nizamlanma sistemi sahəsində olan problemlər hələ öz həllini tapmayıb. Birləşmiş Millətlər Təşkilatı hələ də dövlətlərin məsuliyyəti və vəzifələri, beynəlxalq su yollarından istifadə (gəmilərin hərəkəti istisna olmaqla) və digər məsələlər barəsində konkret qayda və normalar müəyyənləşdirə bilməyib və bunların hamısı beynəlxalq hüququn inkişafının ləng getməsinin əlamətidir. Beynəlxalq hüquq komissiyası lap əvvəldən qarşıdakı problem və maneələri nəzərə alaraq, 1949-cu ildə keçirilən ilk iclasında elan etmişdi ki, "komissiyanın əsas məqsədi bütün beynəlxalq problemlərin müzakirəsi deyil, sadəcə zəruri və uyğun mövzuların öyrənilməsi və məcəllələşdirilməsidir". Beynəlxalq hüququn məcəllələşdirilməsində məqsədin adət hüququnun müqavilələr formasına gətirilməsinin olmasına baxmayaraq, komissiya bununla işini bitmiş hesab etmir və beynəlxalq hüququn fasiləsiz inkişafını əsas məqsəd kimi qarşısına qoyur. Komissiya beynəlxalq hüququn inkişafına çalışaraq yeni terminlər deyil, klassik konsepsiyaya əsaslanan anlayışları qoruyur. Komissiyanın Baş Məclisə verdiyi təkliflərdən aydın olur ki, onun klassik hüquq normalarını məhdudlaşdırmaq və yaxud bütün normaları müəyyən sferada toplamaq kimi məqsədi yoxdur, çünki həmişə konkret normaların olmadığı zaman mövcud adətin istinad mənbəyi olması zərurətini vurğulayıb. Komissiya bir çox hallarda təkmilləşdirici qaydalardan söz açmaqla dövlətlərin beynəlxalq problemlərin həllində öz iradəsinə istinad etməyini normal hal hesab edib. Həmçinin dövlətlərin iradə azadlığına o qədər əhəmiyyət verib ki, müqavilələrin dövlətlərarası əlaqələr və sazişlərə toxunmaması və maneə törətməməsinin vacibliyini açıq bəyan edib, müqavilələrin qüvvəsinin keçmişə şamil edilməməsini qeyd edib. Bunu da qeyd etmək lazımdır ki, Beynəlxalq hüquq komissiyası həmişə adət, müqavilə və yaxud formal normalara əsasən beynəlxalq normaların mahiyyətini aydınlaşdırıb və bəzi vaxtlar daxili hüquqi anlayışların köməyi ilə beynəlxalq münasibətləri nizamlamağa cəhd göstərib (8, s. 437).

Məhz elə buna görə Beynəlxalq hüquq komissiyası ölkələrin maraqlarını nəzərə alaraq beynəlxalq reallıqları öyrənməyə çalışıb. Buna baxmayaraq, komissiyanın fəaliyyətini qlobal proseslərə nəzərən təhlil etdikdə müşahidə edirik ki, komissiya beynəlxalq hüququn inkişafında gözlənilən nailiyyəti əldə edə bilməyib. Dövlətlərin maraqlarının üst-üstə düşməməsi və beynəlxalq ekspertlərin arasında olan fikir ayrılığı səbəbindən komissiyanın qərarlarının çoxu adi söz səviyyəsində qalıb. Eyni zamanda komissiya beynəlxalq hüququn inkişafı konsepsiyasına yeni bir həyat vermiş olsa da, hələ özünü klassik hüququn məhdudiyyətlərindən xaric edə bilməyib. Bunun əsas səbəbi ondan ibarətdir ki, bəzi güclü ölkələr beynəlxalq hüququn real mahiyyətinin aşkar olunmasını istəməyərək, sadəcə mövcud hüquq normalarını qorumağa çalışırlar.

Yuxarıda qeyd edilənlərdən belə bir nəticəyə gəlmək olar ki, beynəlxalq hüququn məcəllələşdirilməsi əslində çox çətin bir problemdir və daxili hüququn məcəllələşdirilməsi ilə eyni deyil. Bu həm də daxili qanunverici sistemlə beynəlxalq qanunverici sistemin tamamilə fərqli olduğundan irəli gəlir. Hüquq sferasında təşkil edilən beynəlxalq konfransların nəticəsi göstərir ki, mövcud adət hüququ universal hüquq deyil, yəni adət hüququnun əsasları bütün ölkələr tərəfindən qəbul edilmir. Əgər bunun əksi olsaydı, bu zamana qədər hüquq normalarının məcəllələşdirilməsi uğurla başa çatmış olardı. Beynəlxalq sferada normaları müəyyən edən institutların əhəmiyyətini nəzərə alaraq demək olar ki, beynəlxalq sistem və sfera müasir ictimai həyat şəraitinə uyğun olaraq daha da inkişaf etməli və daha da genişlənməlidir, yeni metod və qaydalar köhnələrinin yerini tutmalıdır. Çünki köhnə metod və qaydalar əsasən keçmiş güclü ölkələrin vasitəsi ilə və məhz elə bu ölkələrin maraqlarını qorumaq məqsədi ilə meydana gəlmiş və digər ölkələrə qəbul etdirilmişdir. Beynəlxalq qanunvericilik siyasi cəhətə malikdir və onun özünəməxsus metodları vardır ki, bu metodlardan istifadə etmək istədikdə hökmən konkret normanı qərarlaşdırmaqda hansı maddi məqsədlərə çatmaq istədiyini də aydınlaşdırmalı və həmin məqsədə uyğun plan hazırlanmalıdır. Çünki qanunu qəbul edən həmin qanunun hüdudlarını müəyyən etməzdən əvvəl müəyyən bir nümunə və model düşünməli və həmin modelə uyğun qanun qəbul etməlidir. Aydındır ki, beynəlxalq qanunvericilikdə məqsədin müəyyən edilməsi olduqca çətin bir işdir. Çünki bu məqsədi müəyyənləşdirərkən bir sıra maneələr qarşıya çıxır ki, həmin maneələrin əsasında hər ölkənin öz sosioloji xarakteristikası dayanır. Bu maneə əsasən beynəlxalq ictimai rəyin olmaması və yaxud diqqətdən kənarda qalmasıdır ki, bu problemin həlli beynəlxalq qanunvericilik üçün çox vacibdir.

Parlamentarizm və demokratik sistemlərə malik olan ölkələrdə konkret ictimai rəy mövcud olur və həmin mövzu daxili qanunvericiliyin fəaliyyətinin psixoloji əsasını təşkil edir. Amma beynəlxalq səviyyədə belə bir konkret ictimai rəy mövcud deyil və sadəcə ortaq təhlükənin mövcud olduğu dövrdə beynəlxalq ictimai rəy formalaşır. Beynəlxalq ictimai rəyin öyrənilməsi ona görə vacibdir ki, hər hansı hüquqi qaydanın etibarlılığı həmin qaydaya tabe olan ölkələrin gizli və ya aşkar razılığından asılıdır. Birinci Dünya müharibəsi başa çatdıqda beynəlxalq ictimai rəy dünya dövlətlərini birlikdə millətlər adından bir təşkilatın yaradılmasına sövq etdi. Ancaq bu təşkilatın beynəlxalq reallıq əsasında yaradılmasına baxmayaraq, beynəlxalq klassik hüquq normalarının nüfuzu nəticəsində ictimai rəyin tələblərini həyata keçirə bilmədi. Məhz elə buna görə də az müddət sonra təşkilatın əsasları çökdü və təşkilat böyük arzuların məzarlığına çevrildi. Lakin İkinci Dünya müharibəsindən sonra ictimai rəy bu uğursuzluğun səbəblərini bildiyi üçün belə qərara gəldi ki, fərdi (individi) beynəlxalq əlaqələrin mərkəzi subyektinə çevirməklə "millətlərin hüququ"nu "dövlətlərin hüququ"na qarşı qoysun və beləliklə, yeni metod və üsulları köhnə metod və üsullarla əvəzləmiş olsun. Həmin məqsədlə Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsi qəbul olunaraq dövlətlərin üzərinə belə bir öhdəlik qoyuldu ki, insan hüquqlarının müdafiəsi üçün, insanlığa hörmət naminə, gender bərabərliyi və sosial həyatın yaxşılaşdırılması məqsədi ilə bir beynəlxalq təşkilat yaradılsın və həmin təşkilat (Birləşmiş Millətlər Təşkilatı) dünyada sülh və təhlükəsizliyi bərqərar etsin. Bütün bunlara rəğmən yenə də köhnə üsulların nüfuzu nəticəsində yeni təşkilat əsas funksiyasından uzaqlaşdı və fərdi beynəlxalq əlaqələrin əsas subyektinə çevirə bilmədi. Bununla da yenidən dövlətlər millətlərin taleyinə hakim olaraq millətlər adından beynəlxalq təşkilatı idarə etməyə başladılar. Qeyd etmək lazımdır ki, Birləşmiş Millətlər Təşkilatı Millətlər Cəmiyyəti kimi klassik struktura malik olmasına baxmayaraq, 60 ildən çoxdur ki, yeni bir dünya müharibəsinin qarşısını ala bilib. Həmçinin beynəlxalq səviyyədə müxtəlif ölkələrin siyasi, ictimai, iqtisadi və mədəni sahələrdə əməkdaşlıq etməsinə dair lazımı şəraiti yaratmaq üçün fəaliyyət göstərib. Bütün bunlara rəğmən hələ də lokal xarakterli müharibələrin qarşısını ala bilməyib və təcavüzün səbəblərini aradan qaldırmağa nail ola bilməyib. Bu və ya digər amillər yeni beynəlxalq hüquq qaydasının müəyyən edilməsini, BMT Nizamnaməsinə yenidən baxılmasını, beynəlxalq münasibətlərin tənzimlənməsində beynəlxalq hüququn rolunun yenidən qiymətləndirilməsini tələb edir (1, s. 136). Hazırda beynəlxalq ictimai rəyin istiqaməti dəyişməkdədir. Dünyada elə bir yeni şərait yaranıb ki bu şərait

köhnə və çürümüş beynəlxalq qaydalara uyğun gəlmir. Bəşəriyyətin ümumi və ortaq sərvətlərinin ölkələr arasında ədalətsiz formada bölüşdürülməsi, millətlərin yaşayış səviyyəsində müşahidə edilən fərqlər, qaçqınların sayının artması, dünya millətlərinin arasında əlaqələrin genişlənməsi nəticəsində inkişaf etmiş və geri qalmış millətlərin yaşayış səviyyəsində olan fərqlərin aşkara çıxması, dünya əhalisinin sayının artması, yeyinti məhsullarının həcminin azalması və başqa problemlər beynəlxalq ictimai rəyi daha çox insan hüquqları və azadlıqlarını ön plana çəkməyə sövq edir. Bu tip dəyərlərin ön plana çıxarılmasında əsas məqsəd hakimiyyətin qorunması adı altında insan hüquqlarının dövlətlər tərəfindən ayaqlanmasının və dünyanın müharibə meydanına çevrilməsinin qarşısını almaqdır. Hazırda bir çox hallarda milli maraqlar beynəlxalq maraqlara qalib gəlir, beynəlxalq ictimai rəyin formalaşmasına və beynəlxalq hüququn inkişafına mane olur. Təbii olaraq, belə bir vəziyyətdə bütün ölkələrin eyni hüquqlara malik olduğunu və beynəlxalq əlaqələrin idarə edilməsində eyni paya malik olduğunu söyləmək olmaz.

Açar sözlər: beynəlxalq hüquq, məcəllə, müqavilə, konvensiya, hüquqi tənzimləmə.

İstifadə olunmuş ədəbiyyat

1. Axundova Z.Ə. Beynəlxalq təhlükəsizliyə yeni yanaşmalar. Beynəlxalq hüquq və inteqrasiya problemləri, elmi-analitik və praktik jurnal. Bakı, 2005, № 4.
2. Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsi, Birləşmiş Millətlər Təşkilatının Azərbaycan Respublikasındakı nümayəndəliyi.
3. Ərdəbili Məhəmmədəli. Beynəlxalq cinayət hüququ. Mizan, 2004 (fars dilində).
4. Hidayətullah Fəlsəfi. Beynəlxalq hüququn öyrənilməsi üsulları. «Hüquqi tədqiqatlar» jurnalı, 1991, № 9 (fars dilində).
5. Hüseynov L.H. Beynəlxalq hüquq, dərslik. Bakı, 2002.
6. İslam din və əqidə azadlığı və insan haqları sənədləri, Möhsün Kədivər, Beynəlxalq insan hüquqları konfransı və mədəniyyətlərin dialoqu. Tehran, aprel 2001 (fars dilində).
7. Ser Tomas Vaker Arnold. İslamın inkişaf tarixi. Tərcümə: Bəhmən İzzəti, 1974 (fars dilində).
8. Xəlil Xəlilian. İslam Beynəlxalq hüququ. Tehran, İslam Mədəniyyəti Nəşriyyat Ofisi, 1996 (fars dilində).
9. www.un.org/russian/law/ilc/facts.htm
10. http://reagentrus.ru/Kodif_i_progres/index.html

Шahla ЗАРЕИ

KODIFIKAÜIƏ I PROQRESSIVNOE RAZVITIE MEJDUNARODNOQO PRAVA

Pezöme

Пrivedenie mejdunarodno-pravovıx norm v edinuö sistemu, a takje ix bolee toçnoe oformlenie, otrajenie mejdunarodnıx obıçnıx norm v doqovorax oxvatıvaötsə ponətiem kodifikaüii mejdunarodnoqo prava.

A proqressivnoe razvitie mejdunarodnoqo prava predpolaqaet izmenenie, peresmotr suhestvuöhix norm i sozdanie novıx. B statğe rassmatrivaötsə suhestvuöhee polojenie i problemı, svəzannıe s postavlennımi voprosami.

Кlöçevıe slova: mejdunarodnoe pravo, kodeks, doqovor, konvenüiə, pravovoe requlirovanie.

Shahla ZAREI

CODIFICATION OF THE INTERNATIONAL LAW AND ITS PROGRESSIVE DEVELOPMENT

Summary

Bringing the international legal norms into a single system, as well their precise drawing, reflection of the international general norms in the negotiations are covered by the notion of codification of the international law. However, the progressive development of the international law supposes change, revision of the existing norms and creation of new ones. In the article there are considered the conditions and problems arisen in this connection.

Keywords: international law, code, contract, convention, legal regulation.

ELMİ HƏYAT

AMEA Rəyasət heyətinin və FSHİ-nin təşkilatçılığı ilə «Ulu Öndər Heydər Əliyevin anadan olmasının 88-ci il dönümünə həsr olunmuş hüquq elminin və təhsilinin müasir problemləri və həlli yol-

ları» adlı Beynəlxalq Elmi Konfrans keçirilmişdir. Konfransı giriş sözü ilə AMEA FSHİ-nin direktoru, prof. İlham Məmmədzadə açaraq tədbirin keçirilməsinin əhəmiyyəti və zəruriliyi barədə məlumat vermişdir. AMEA-nın prezidenti, akademik Mahmud Kərimovun konfrans iştirakçılarına təbrik nitqi oxunduqdan sonra söz məruzəçilərə verilmişdir. MM sədrinin birinci müavini, prof. Ziyafət Əsgərov «AR Konstitusiyasının qəbulunda Heydər Əliyevin rolu», AR Prezident Administrasiyasının Qanunvericilik və hüquq ekspertizası şöbəsinin müdiri, prof. Şahin Əliyev «Qanunvericiliyin təkmilləşdirilməsinin müasir problemləri», AR-nin İnsan Hüquqları üzrə Müvəkkili, prof. Elmira Süleymanova «İnsan hüquqlarının müdafiəsində ombudsmanın rolu», BDU-nun kafedra müdiri, AMEA-nın müxbir üzvü, prof. Məsumə Məlikova «Elmin inkişafı üzrə Dövlət Proqramına müvafiq olaraq hüquq elminin prioritet istiqamətləri və yeni yanaşmalar», AR təhsil nazirinin müavini, prof. İradə Hüseynova «Heydər Əliyev və Azərbaycan dövlətçiliyi», RF DİN-nin Moskva Universitetinin elmi katibi, h.e.d., prof. Viktor Qriqoriyev «O roli Гeydara Alieva v formirovanii sovremennoy teorii rassledovaniə prestupleniy v çrezvıçaynıx usloviəx», RF EA Dövlət və Hüquq İnstitutunun sektor müdiri, h.e.d., prof. Qalina Skaçkova «Otvetstvennostğ v sfere truda: nekotorıe problemı», BDU-nun kafedra müdiri, prof. Alış Qasımov «AR Əmək Məcəlləsinin təkmilləşdirilməsinin bəzi problemləri», RF Əmək və Sosial Münasibətlər Akademiyasının əmək hüququ kafedrasının professoru, h.e.d., Soyfer Valdimir «Пravovoe requlirovanie trudovıx otnoşeniy: zapozdalıy otvet na vızovı realğnosti», BDU-nun kafedra müdiri, prof. Firudin Səməndərov «Cinayət hüququnda təhlükəli nəticə və məsuliyyətin differensiasiyasında onun rolu», RF-nin əməkdar elm xadimi, fəxri təhsil işçisi, AAK-nın üzvü, h.e.d., prof. Oleq Zaytsev «Гosudarstvennaə zahita uçastnikov uqolovnoqo sudoproizvodstvo v РФ, «Beyker və Makenzi Si-Ay-Es Limited»in Baş direktoru Daniel Mattehwsa «ABŞ hüquq təhsilinin problemləri», Gürcüstan Respublikası Qriqola Robakidze adına Universitetin hüquq məktəbinin rəhbəri, prof. Qeorqiy Qlontin «Кriminoloqiçeskaə xarakteristika prestupnosti v Гruzii na sovremennom gtape», MM-in Komitə sədri, hüquq üzrə fəlsəfə doktoru Əli Hüseynov «Milli Məclisin qanunvericilik fəaliyyəti», ATƏT-in nümayəndəsi Marko Kubnin «Almaniyada hüquq təhsilinin vəziyyəti», AR ƏN Məhkəmə Ekspertiza Mərkəzinin direktoru, h.e.d., prof. Fuad Cavadov «Məhkəmə ekspertizasının aktual problemləri», BDU-nun kafedra müdiri, h.e.d. Əmir Əliyev «Heydər Əliyev və beynəlxalq hüquq», Dos.Dr. Uğur Arif Bölək «Türkiyə Respublikasında hüquq və siyasət təhsilinə dair fikirlərin təhlili», AMEA FSHİ-nin şöbə müdiri, h.e.d. İsaxan Vəliyev «Hüquq elmi və təcrübəsinin qarşılıqlı əlaqəsi: problemlərin həlli yolları», AMEA FSHİ-nin şöbə müdiri, h.e.d., prof. Habil Qurbanov «Azərbaycanda hüquq elminin və tədrisinin inkişafı üzrə bəzi mülahizələr» mövzusunda maraqlı məruzələr etmişlər. Qabaqcıl təcrübəni öyrənmək və onlardan bəhrələnmək üçün dəvət olunmuş Türkiyə, Rusiya, ABŞ, Almaniya, Gürcüstan, Yaponiya və İranın yüksək ixtisaslı elm və təhsil işçiləri konfransın işində fəal iştirak etmişlər. İki gün davam edən beynəlxalq konfransda hüquqi dövlət quran müstəqil Azərbaycan Respublikasında cənab İlham Əliyevin modernləşmə kursuna müvafiq olaraq hüquq elminin inkişafı və hüquqşünas kadrların hazırlanmasının ən vacib məsələləri müzakirə edilmiş və bu sahədə əsaslı tədbirlərin görülməsinə dair fikir mübadiləsi aparılmışdır. Konfransın işində Respublikanın qanunverici, icraedici və məhkəmə hakimiyyəti orqanlarının rəhbərləri, deputatlar, bəzi ölkələrin diplomatik korpuslarının və beynəlxalq təşkilatların nümayəndələri, vəkillər kollegiyasının, əlaqədar QHT-lərin, tədris və elmi tədqiqat institutlarının rəhbərləri, görkəmli hüquqşünas alimlər və KİV nümayəndələri iştirak etmişlər. Beynəlxalq konfransın yekununda qətnamə qəbul edilmişdir.

* * * *

«**Ümumdünya mədəniyyətlərarası dialoq**» forumu çərçivəsində Heydər Əliyev fondunun dəstəyi, Asiya və Avropa Fəlsəfə İnstitutlarının Beynəlxalq Assosiasiyasının təşəbbüsü ilə AMEA FSHİ-nin təşkilatçılığı ilə **«Müasir dünyada mədəniyyətlərin müxtəlifliyi və dialoq fəlsəfəsi»** mövzusunda beynəlxalq konfrans keçirilmişdir. Plenar iclasda AMEA FSHİ-nin direktoru **İ.R.Məmmədzadə** (Azərbaycan) «Mədəniyyətlərin dialoqu fəlsəfi refleksiya kontekstində», prof. **K.Gürsoy** (Türkiyə) «Qloballaşma dövründə mədəniyyətlərin müxtəlifliyi və birgəyaşayış etikası (Küreselleşme Çağında Kültürlerin Çeşitliliği ve Birlikte Yaşama Etiği)», Təhsil və Elm Nazirliyi Fəlsəfə və Politologiya İnstitutunun direktoru, prof. **A.N.Nısanbayev** (Qazaxıstan) «Qarşılıqlı anlaşma konseptinin mədəniyyətlərarası dialoq məkanında məna və əhəmiyyəti», MEA Fəlsəfə İnstitutunun

direktoru **A.A.Lazareviç** (Belarus) «Qlobal kommunikasiya və milli-mədəni identiklik», Fəlsəfə Cəmiyyətinin birinci vitse-prezidenti **A.N.Çumakov** (Rusiya) «Qlobal dünyada dialoqun mədəniyyət-sivilizasiya aspekti» mövzusunda maraqlı məruzələr etmişlər. Üç gün davam edən konfransda «Akdeniz» Universitetinin təbiyyat elmləri-ədəbiyyat fakültəsinin Fəlsəfə Kafedrasının professoru İ.**Yakıt** (Türkiyə) «Milli mədəniyyətin təhsildə yeri və əhəmiyyəti», AMEA-nın müxbir üzvü**,** prof. **S. S. Xəlilov** (Azərbaycan) «Sivilizasiya, mədəniyyət, mənəviyyat: eyniyyət və fərq məqamları», REA-nın müxbir üzvü, İslam Dünyası Fəlsəfəsi Sektorunun müdiri, REA Fİ-nin direktor müavini, fəls. e. d. **A.V.Smirnov** (Rusiya) «Qeyri-Qərb fəlsəfəsi mümkündürmü?, RTEA-nın akademiki, REA Fİ-nin Sosial Fəlsəfə Sektorunun müdiri, fəls.e.d., prof. **V.Q.Fedotova** (Rusiya) «Mədəniyyət və sivilizasiyalar dialoqu qloballaşma dövrünün sosial innovasiyası kimi», Mədəniyyət Nazirliyi Antropologiya, Ön-Tarix və Tarix üzrə Milli Tədqiqatlar Mərkəzinin araşdırmalar üzrə direktoru, professor **Z.Xenşelavi** (Əlcəzair) «İnsan konsepsiyası, onun «olan» və «başqası» problemləri ilə əlaqəsi», prof. **N.Rabitu** (Kamerun) «Mədəniyyət müxtəlifliyinin Afrika xüsusiyyətləri: Bamum Krallığında NQUON hadisəsi», AMEA FSHİ-nin «Fəlsəfə və ictimai fikir tarixi» şöbəsinin müdiri, fəls.e.d., prof. **Z.Ə.Quluzadə** (Azərbaycan) «İslam regionu fəlsəfəsi qloballaşma dövrünün mədəniyyətlərarası dialoqu kontekstində», AMEA FSHİ-nin direktor müavini, Dr. **R.O.Rzayeva** (Azərbaycan) «Müasirlik barəsində diskussiyalar və ya postmodern vəziyyəti haqqında məsələyə dair», AMEA FSHİ-nin «Müasir Fəlsəfə Problemləri» şöbəsinin müdiri, fəls.e.d, prof. **Ə.S. Abasov** (Azərbaycan) «İdrakın üç mənbəyi və üç tərkib hissəsi: monoloq, dialoq, polialoq», AMEA FSHİ-nin baş elmi işçisi, fəls.e.d., prof. **Ə.F. Abbasov** (Azərbaycan**) «**Qlobal və ictimai inkişaf: postneoklassik nöqteyi-nəzər», AMEA FSHİ- nin «İdrak nəzəriyyəsi və elmin fəlsəfəsi» şöbəsinin müdiri, fəls.e.d. **F.M.Qurbanov** (Azərbaycan) «Vətəndaş identikliyi və "özgəsi": tolerantlıqdan dialoqa», AMEA Mİİ-nin şöbə müdiri, sənətşünaslıq doktoru **R.X.Abdullayeva** (Azərbaycan) «Azərbaycan mədəniyyətlər dialoqu məkanında», İnsbruk Universitetinin professoru **H.Köchler** (Avstriya) «Sivilizasiyaların dialoqu və multikulturalizmin həllini tələb edən problemləri. (Dialogue of civilizations and the challenges of multiculturalism)», RF XİN yanında MDBƏİ-nin Sosiologiya Kafedrasının dosenti, sos.e.n. **N.N.Fedotova** (Rusiya) «Münaqişələr, identiklik və dialoq», Təhsil Nazirliyi, fəls.e.d. **Q.Kurmanqaliyeva** (Qazaxıstan) «İslam mədəniyyətində dialoq: Şərq peripatetizminin tarixi təcrübəsi», şəhzadə **S.Vindiş-Qrets** (Belçika) «Mədəniyyətlərin müxtəlifliyi və dialoq fəlsəfəsi incəsənət prizmasında», «Debatlar» jurnalının baş redaktoru, prof. **S.Sliman** (Livan) «İslam dünyası ilə Qərb arasında münasibətlər. Birgəyaşayış və münaqişə problemi və ….gələcək», «Xəzər» Universitetinin rektoru, prof. **J.Rayder** (Azərbaycan) «Mədəniyyətlərarası dialoq: münasibətlər və maraqlar», AMEA FSHİ-nin «Sosiologiya və sosial psixologiya» şöbəsinin müdiri, fəls.e.d. **R.C.Əzimova** (Azərbaycan) «Müasir sosiologiyada sosiomədəni sistemlərin tədqiqinin metodoloji əsasları məsələsinə dair», AMEA Mİİ-nin direktoru, sənətşünaslıq doktoru, prof. **Ə.Ə.Salamzadə** (Azərbaycan) «Mədəniyyət və incəsənətdə təqvim şüuru: ənənələrin dialoqu», AMEA FSHİ-nin «Estetikanın nəzəri və praktiki problemləri» şöbəsinin müdiri, fəls.e.d. **A.İ. Əsədov** (Azərbaycan) «Mədəniyyətlərin dörd tipi və onlararası qarşılıqlı münasibətlər», AMEA FSHİ-nin elmi işçisi, Dr. **R.M.İlyasov** (Azərbaycan) «Mədəniyyətlərarası dialoq çərçivəsində "mən" və "başqası" məfhumlarının fəlsəfi təmelləri", AMEA Mİİ-nin baş elmi işçisi, Dr. **L.T.Kazımova** (Azərbaycan) «Mədəniyyətlərarası kommunikasiyalarda incəsənətin dili (gender aspekti)», AMEA FSHİ-nin baş elmi işçisi, fəls.e.d. **K.Y.Bünyadzadə** (Azərbaycan) «Şərq və Qərb arasında dialoqun ən yeni mərhələsi: ideallar və gerçəklər», AMEA FSHİ-nin böyük elmi işçisi, Dr. **E.M.Səmədov** (Azərbaycan) «Postmodern fəlsəfədə milli-mənəvi dəyərlər: mədəni müxtəliflilik prizmasından», AMEA FSHİ-nin baş elmi işçisi, fəls. e.d. **A.Ə.Hacıyeva** (Azərbaycan) «Gadamerin fəlsəfi ənənə ilə dialoq haqqında dialoqu» mövzusunda maraqlı çıxışlar etmişlər. Rusiya EA Fəlsəfə İnstitutunun direktoru, akademik **Ə.Ə.Hüseynov** və prof. **N.Məmmədovun** (Rusiya) fikirləri də maraqla qarşılanmışdır.

Məruzə və çıxışlarda dəyişmiş mədəni kontekst şəraitində dialoqun yeni dərki, dünyagörüşü dəyərlərinə yenidən baxılması və gender mədəniyyəti; dialoq fəlsəfəsi və postsovet məkanında milli şüurun müasirləşdirilməsi problemləri; müasir aləmdə həm fərdi, həm də ictimai seçim imkanlarına yol açaraq tolerant davranış nümunələrini yayan, başqasını (özgəsini) anlama, təhsil, mədəniyyət və maarifləndirmə vasitəsilə dözümsüzlüyü aradan qaldıran fəlsəfi axtarışlar məsələsi, tolerantlıq, etikanın

kommunikasiya prosesinin tərkib hissəsi kimi, ən yaxın gələcəyin insanı necə olacaq və transformasiya problemləri; fəlsəfə və elmlərin fənlərarası qarşılıqlı əlaqələri; mədəniyyət və din; dini və dünyəvi təhsil; Şərq və Qərb arasında dialoq kimi məsələlər ətraflı müzakirə olunmuş, fikir və mülahizələr irəli sürülmüşdür. Konfransın sonunda aşağıdakı məzmunda memorandum qəbul edilmişdir:

* * * *

«Mədəniyyətlərin Dialoqu» Dünya Forumu çərçivəsində
«Müasir Dünyada Mədəniyyətlərin Müxtəlifliyi və Dialoq Fəlsəfəsi»
mövzusunda 2011-ci il aprelin 7-9-da keçirilmiş Beynəlxalq Konfransın

MEMORANDUMU

Avropa, Asiya və Afrikanın tanınmış filosoflarının iştirak etdiyi «Müasir Dünyada Mədəniyyətlərin Müxtəlifliyi və Dialoq Fəlsəfəsi» mövzusunda keçirilmiş Beynəlxalq Konfrans qeyd etdi ki, qloballaşma şəraitində dünya mədəniyyətlərinin özgünlüyü və müxtəlifliyinin mühafizəsi üzrə ciddi səylərin göstərilməsi ilə yanaşı mədəniyyətlərin qarşılıqlı əlaqələri genişlənir. Əminliklə bildirildi ki, bu şəraitdə mədəniyyətlərin dialoqunun məntiqli və konstruktiv alternativi yoxdur.

Konfrans iştirakçıları olan filosoflar bəşəriyyətin bu gününü və yaxın gələcəyini mədəniyyətlərin dialoqunda, müxtəlifliyə malik dünyanın birliyinin qorunub saxlanılması yolunda görür.

Belə bir şəraitdə dialoq fəlsəfəsinin, qlobal etika standartları və fəal əməkdaşlıq formalarının təşəkkülünə kömək edən universal və lokal dəyərlərin bir-birinə uyğunlaşdırılması problemlərinin işlənməsi xüsusi diqqət tələb edir.

Həmçinin vurğulandı ki, dialoq və əməkdaşlıq səylərinə qədər yüksəlməmiş elm, mədəniyyət və texnologiyalar sivilizasiyaların münaqişəsinə, ümumdünya humanitar fəlakətə gətirib çıxara bilər.

Konfrans qeyd etməyi lazım bilir ki, Dünya Forumu və «Müasir Dünyada Mədəniyyətlərin Müxtəlifliyi və Dialoq Fəlsəfəsi» Beynəlxalq Konfransının Bakıda keçirilməsi Azərbaycanın dünyada əməkdaşlığın möhkəmləndirilməsi və qarşılıqlı etimad mühitinin bərqərar edilməsi, dialoq fəlsəfəsinin dərinləşdirilməsi üzrə səylərinin tamamilə düzgün və təqdirəlayiq olduğunu bir daha təsdiq edir.

Konfrans yalnız fəlsəfənin tərbiyə işində dialektik təfəkkür və müxtəliflik mədəniyyətinin üstünlüyünü təmin edərək mədəniyyətlərin dialoqunun ümumi anlayışları, forma və məzmununu işləyib meydana çıxartdığını qeyd edərək:

- çıxış və müzakirələrdə səsləndirilmiş fikirlərin elmi-nəzəri və praktiki əhəmiyyətini nəzərə alaraq konfrans materiallarının dərc olunmasını lazım bilir;
- fəlsəfə təşkilatları arasında əməkdaşlıq və qarşılıqlı etimadın yaradılmasına çalışan bir təşkilat kimi Avropa və Asiya Fəlsəfə İnstitutları Beynəlxalq Assosiasiyasının fəaliyyətini dəstəkləyir;
- filosofların mədəniyyətlərin dialoqu problemlərinin tədqiqində əməkdaşlığına kömək etməyə və bununla da dünyada mədəniyyətlərin qarşılıqlı əlaqəsi və özgünlüyünün qorunub saxlanılması işinə töhfə verməyə çağırır.

* * * *

Bakı Biznes Mərkəzində Azərbaycan Respublikasının Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzi və Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutunun birgə təşkilatçılığı ilə "Qloballaşma, milli ideya və müasir Azərbaycan" mövzusunda milli müzakirələr keçirilmişdir. Prezident Administrasiyasının rəhbəri akademik Ramiz Mehdiyevin "Müasir Azərbaycan milli ideyanın təcəssümü kimi" məqaləsindən irəli gələn ideyaların müzakirəsinə həsr olunan tədbirin əsas mövzuları milli ideya və yeni milli gerçəklik, qloballaşan dünyada milli identikliyə çağırışlar, milli ideya və milli inkişaf strategiyası, azərbaycançılıq XXI əsrdə, ideya, missiya, dövlətçiliyin fundamental resursu və digər məsələlər olmuşdur. Professor Hamlet İsaxanlı, millət vəkili, prof. Rəbiyyət Aslanova, prof. İlham Məmmədzadə, millət vəkili Asim Mollazadə, millət vəkili Rasim Musabəyov, millət vəkili Fazil Mustafayev, prof. Bəhram Zahidov, prof. Rəfiqə Əzimova, prof. İsaxan Vəliyev, elmi işçi H. İbrahimov və b. qloballaşma şəraitində milli dəyərlər məsələsinin görkəmli filosof

alim, akademik Ramiz Mehdiyevin əsərlərində geniş şərh edildiyini bildirmiş, milli ideyanın inkişafının tarixi mərhələləri barədə danışmışlar. XXI əsrdə qloballaşmanın geniş vüsət aldığını vurğulayan məruzəçilər bu prosesin ən mühüm cəhətinin informasiya-kommunikasiya texnologiyalarının inkişafı ilə bağlı olduğunu qeyd etmişlər.

* * * *

Atatürk Mərkəzində AR Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin AMEA FSHİ və "Dialoq - Avrasiya Platformu"nun təşkilatçılığı ilə **"**Adət-ənənələrimiz və müasirlik baxımından bir dəyər olaraq - ailə" mövzusunda konfrans keçirilmişdir. Azərbaycan Respublikasının müstəqilliyinin 20 illiyinə həsr olunan həmin tədbirdə çıxış edən millət vəkili, prof. Nizami Cəfərov Azərbaycanda ailə mədəniyyətindən, ailəyə olan münasibətdən və qarşıda duran əsas məsuliyyətlərdən danışmışdır. Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədr müavini Aynur Sofiyeva çıxış edərək xarici təsirlərin Azərbaycan ailələrində də özünü göstərdiyini qeyd etmişdir. FSHİ-nin direktoru, prof. İlham Məmmədzadə «Müasir Azərbaycan ailəsinin fəlsəfi təhlili», direktor müavini, prof. Bəhram Zahidov «Məişət zorakılığına qarşı mübarizədə ailənin rolu», direktor müavini, Dr. Roida Rzayeva «Müasirlik, postmodern və ailə», prof. Rəfiqə Əzimova « Sağlam ailə potensialı sağlam cəmiyyətin özəyi kimi», prof. İsaxan Vəliyev «Ailə hüquqi müstəvidə: problemlərin həlli yolları», prof. Sakit Hüseynov «Davamlı insan inkişafında ailə və məişətin rolu», Dr. Əbülfəz Süleymanov «Azərbaycan ailəsində müasirliyin və ənənəviliyin toqquşması», Dr. Aqil Əsədov «Qloballaşma şəraitində Azərbaycan ailəsi » mövzusunda məruzə etmişlər. Konfransın müzakirə hissəsində iştirakçılar yüksək fəallıq göstərmiş, maraqlı fikirlər irəli sürmüşlər.

* * * *

Türkiyənin İsparta şəhərində "Uluslararası Modern Çağ ve Gazzali sempozyumu" (Beynəlxalq müasir dövr və Qəzali) konfransı keçirildi. Süleyman Dəmirəl Universitetinin təşkilatçılıgı ilə keçirilən bu beynəlxalq konfransda bir çox ölkədən, o cümlədən Çin, Hindistan, Tunis, Amerika, Rusiya, İsrail, Əlcəzair, Hollandiya, Türkiyə və s. tədqiqatçılar iştirak edirdi. Azərbaycanı isə AMEA FSHİ-nin elmi işlər üzrə direktor müavini, fəlsəfə üzrə fəlsəfə doktoru Roida Rzayeva təmsil edirdi.

Roida Rzayeva "Rusça ve Azerbaycanca Kaynaklar Işığında Gazzali ve Felsefesi" (Rus və Azərbaycan dillərində mənbələr əsasında Qəzali və fəlsəfəsi) adlı məruzəsi ilə çıxış etmişdir. O, çıxışında adı qeyd olunan mənbələrdə Qəzali şəxsiyyətini və yaradıcılığının inikasını göstərməyə çalışmışdır.

Prof. Dr. M.Lütfü Çakmakçı Kültür Mərkəzində keçirilən konfransı giriş məruzəsi ilə Süleyman Dəmirəl Universitetinin İlahiyyat fakültəsinin dekanı prof. Dr. Kemal Sözen açdı. O, Qəzalinin sadəcə islam dünyasında deyil, o cümlədən dünyanın düşüncə tarixindəki yeri və rolu, onun düşüncələrinin dünya fəlsəfəsinə təsirini qeyd etdi. Daha sonra dünyanın dörd bir tərəfindən Qəzali şəxsiyyətini müasir dünya kontekstində müzakirə etmək üçün gələn konfrans iştirakçılarına öz minnətdarlığını bildirdi.Konfransda cıxış etmək üçün 125-dən çox müraciət olmasına baxmayaraq yalnız 47-si qəbul edilmişdir. İki gün ərzində konfransda 45-dən çox məruzə dinlənilmişdir.

* * * *

AMEA FSHİ-də Çin Xalq Respublikasının Müasir Beynəlxalq Əlaqələr Akademiyasının MBƏA-nın təmsilçiləri ilə görüş keçirilib. İnstitutun əməkdaşları ilə görüşdə iştirak edən MBƏ Akademiyasının professorları Ji Zhiye və Şan Yue Çin-Azərbaycan münasibətlərindən danışmışlar. İnstitutun direktoru, prof. İlham Məmmədzadə bu elm ocağının yaranma tarixi və fəaliyyət istiqamətləri, qazandığı elmi nailiyyətlər, burada aparılan mühüm elmi araşdırmalar haqqında qonaqlara ətraflı məlumat verib. O, müstəqillik qazandıqdan sonra ölkənin iqtisadi sferada qazandığı uğurlardan və mövcud problemlərdən,

beynəlxalq elmi əməkdaşlıq münasibətləri, ölkələrimiz arasındakı elmi əlaqələr və bu əlaqələrin gələcək inkişafından söhbət açıb. Çinli qonaqlar öz növbəsində təmsil etdiyi çoxsaylı elmi tədqiqatları ilə dünyada tanınan akademiyanın ölkənin ictimai həyatında əhəmiyyətli rol oynadığını bildiriblər. Görüşdə Çin Xalq Respublikası, Azərbaycan Respublikası və Rusiya Federasiyası arasındakı münasibətlər, dünyada baş verən qlobal problemlər, geosiyasi proseslər və digər məsələlər barədə müzakirələr aparılmışdır. Görüşün sonunda MBƏA-nın vitse-prezidenti Ji Zhiye Çin alimlərinin azərbaycanlı həmkarları ilə sıx dostluq və elmi əməkdaşlıq əlaqələrinin inkişaf etdirilməsinin vacibliyini, müasir elmi əlaqələrin ölkələrimiz arasında yeni münasibətlərin formalaşmasında əhəmiyyətli rol oynayacağına əminliyini bildirib.

* * * *

AMEA FSHİ-nin Layihələr, Beynəlxalq Əlaqələr və İnnovasyalar üzrə direktor müavini Dr. Roida Rzayeva Türkiyədə keçirilən beynəlxalq konfransda iştirak edib. "III Genc Bilim Adamlari Sempozyumu" (III Gənc alimlər simpoziumu) adlı konfransda xanım Rzayeva **"**Kültür, post-modernite ve İstanbul**"** ("Mədəniyyət, posmoderniti və İstanbul" adlı məruzə ilə çıxış edib. O, məruzəsində İstanbulu tarixi ekskursda təhlil edərək, multikulturalizm və postmodern dövr kontekstlərində mədəniyyət, postmodernizm və İstanbul məfhumlarının əlaqəsi müstəvisində göstərməyə çalışmışdır.

Bu konfrans 2009-cu ildən keçirilir. Konfrans İqtisadiyyat və İnzibati Elmlər (İqtisadiyyat, Maliyyə, Sahibkarlıq, Beynəlxalq əlaqələr), əsas ictimai elmlər (Türk dili və ədəbiyyatı, Tarix, Fəlsəfə, Sosiologiya, Müasir türk ləhcələri, Arxeologiya, Folklorşünaslıq və s.), Hüquq (ictimai hüquq və mülki hüquq), kommunikasiya (jurnalistika, radio və televiziya və s.) kimi sahələri əhatə edir.Simpoziumda bir sıra maraqlı məruzələr edilmiş, geniş fikir mübadiləsi aparılmışdır.

* * * *

AMEA FSHİ-də Amerika tarixçiləri Castin və Karolin Makkartilərin «Türklər və ermənilər. Erməni məsələsi üzrə rəhbərlik» adlı kitabının Azərbaycan dilində olan variantının təqdimat mərasimi keçirilimşdir. Kitab İnstitutun əməkdaşları fəlsəfə doktoru Yaşar Əliyev və Aydın Əliyev tərəfindən Azərbaycan dilinə tərcümə olunmuş, İnstitutun direktoru prof. İlham Məmmədzadənin elmi redaktorluğu ilə çapa hazırlanmışdır. Kitabın Azərbaycan dilinə tərcümə edilərək nəşr olunmasında məqsəd XIX və XX əsrlərdə ermənilər və türklər arasında baş vermiş münaqişələr və onların tarixi kökləri barədə neytral mövqedən çıxış edən alimlərin ancaq tarixi həqiqətlərə əsaslanan obyektiv fikirlərini Azərbaycan oxucusuna çatdırmaqdan, «erməni genosidi» deyə tüğyan edən «məzlum» erməni təbliğatının dünyaya meydan oxuduğu bir şəraitdə Azərbaycan oxucusunu əsaslı elmi müzakirələrə hazırlamaqdan ibarətdir.

* * * *

İslam Konfransı Gənclər Forumunun, Ukrayna Azərbaycanlı Gənclər Birliyinin və Ukrayna Azərbaycanlıları Konqresinin birgə təşəbbüsü və Azərbaycan səfirliyinin dəstəyi ilə Kiyev ART Qalereya sərgi salonunda Ukrayna Rəssamlar ittifaqının üzvü Rasim Seydimovun əsərlərindən ibarət "Xocalı harayı" adlı rəsm sərgisinin açılışı olub. APA-nın verdiyi xəbərə görə, tədbirdə çıxış edən Ukrayna Azərbaycanlı Gənclər Birliyinin mədəniyyət və informasiya departamentinin rəhbəri İlhamə Allahverdiyeva erməni vandalizminin dünya ictimaiyyətinə çatdırılmasında sərgilərin nümayiş etdirilməsinin müstəsna əhəmiyyətindən danışıb. Ukrayna Azərbaycanlıları Konqresi adından beynəlxalq təşkilatları və dünya birliyini Xocalı soyqırımına hüquqi siyasi qiymət verməyə səsləyən diaspora rəhbərlərindən İlqar Abbasov və Akif Gülməmmədov Ermənistan dövlətinin Xocalı soyqırımına görə tarix qarşısında cavab vermələrinin vacibliyini vurğulayıblar. AMEA FSHİ-nin direktoru, prof. İlham Məmmədzadə isə çıxışında bildirib ki, Xocalı soyqırımından 19 il ötməsinə baxmayaraq beynəlxalq təşkilatların və dünya birliyinin hələ də bu faciəyə hüquqi-siyasi qiymət

verməməsi tarixi ədalətsizlikdir. "Xocalı faciəsi təkcə əlli milyonluq azərbaycanlının deyil, bütün dünyanın faciəsidir. Hesab edirəm ki, dünya birliyi ermənilərin belə bir dəhşətli soyqırım siyasətinə göz yummaqla tarix qarşısında bu faciəni törətmək qədər bir məsuliyyəti öz üzərinə götürüb", - professor vurğulayıb.

* * * *

AMEA FSHİ-də hüquq mövzuları üzrə elmi seminar keçirilmişdir. Dövlət və hüquq əzəriyyəsi, mülki hüquq və mülki proses və cinayət hüququ və cinayət prosesi şöbələrinin əməkdaşları, doktorantlar və İnstitut rəhbərliyinin iştirakı ilə keçirilən seminarı giriş sözü ilə direktor prof. İlham Məmmədzadə açmışdır. O çıxışında bu cür elmi seminarların keçirilməsini Azərbaycan hüquq elminin inkişafına böyük yardım edəcəyini vurğulamışdır. Direktor müavini prof. Bəhram Zahidov elmi seminarda gənc doktorantların iştirakını zəruri hesab edərək onların bu sahədə böyük təcrübəsi olan alimlərlə daima əlaqə saxlamalarını tövsiyə etmişdir. Elmi seminarda alimlərdən Rauf Qarayev, Aqşin Quliyev və b. məruzə etmişlər. Azərbaycan-Ermənistan münaqişəsinin hüquqi tənzimlənməsi, Dünya hüquq sistemləri və Konstitusiya Məhkəməsinin qərarları mövzularında edilən məruzələr iştirakçıların marağına səbəb olmuşdur. Elmi seminar çıxışlardan sonra müzakirələrlə davam etmişdir.

* * * *

AMEA FSHİ-də «Müasir fəlsəfə və elm: postneoklassik epistemologiya» mövzusunda ümumrespublika elmi-nəzəri konfrans keçirilmişdir. Konfransın müzakirə mövzusuna aşağıdakılar daxil idi: fəlsəfə və elmi idrak; klassik, neoklassik və postneoklassik elmi paradiqmalar; müasir təbiətşünaslıqda və riyazi elmlərdə yeni epistemologiyalar zərurəti; sosial idrakın yeni tələbləri: lokal, regional, qlobal təqdimatda və təkcə, xüsusi, ümumi aspektlərdə; postneoklassik sosial epistemologiya: təşəkkül və inkişaf xüsusiyyətləri, mahiyyəti, yeri və rolu; cəmiyyətdaxili və dünya problemlərinin həllində postneoklassik fəlsəfənin verə biləcəyi töhfə; cəmiyyətin, dövlətin, iqtisadiyyatın, mədəniyyətin və intellektual resursların idarə olunmasının postneoklassik fəlsəfəsi; mürəkkəblik fenomeni və tənqidi-sinergetik təfəkkür konsepsiyasının perspektivləri. Konfransı giriş sözü ilə İstitutun direktoru, prof. İlham Məmmədzadə açaraq mövzunun aktuallığı və bu sahədə dünya elmindəki yeniliklər barəsində məlumat verdi. Prof. Əli Abasov «Fəlsəfənin yeni mərhələsi: postneoklassika», prof. Əbülhəsən Abbasov «Postneoklassik epistemologiya: zərurəti və mahiyyəti», prof. Zakir Məmmədəliyev «Proqmatik idrak paradiqması» mövzusunda plenar məruzə ilə çıxış etmişlər. Məruzələrdə qeyd olunmuşdur ki, fəlsəfə, ictimai və humanitar elmlər kompleksi üçün epistemologiya məsələləri həmişə mühüm əhəmiyyət kəsb edib və diqqət mərkəzində olub. Köklü transformasiyalar şəraitində isə adekvat epistemologiyalara tələbat daha da artır, ictimai inkişafın müxtəlif sahələri ilə bağlı ciddi problemlərin həllı zərurətindən doğan koqnitiv müstəvinin qurulması, səmərəli üsul və yanaşmaların, idraki alətlərin axtarışı, yeni qnoseoloji-metodoloji zəminlərin işlənib hazırlanması, müvafiq ideya və prinsiplər sisteminin, hətta leksika və prosedurların təklif edilməsi aktual və təxirəsalınmaz vəzifəyə çevrilir. Belə ki, epistemoloji qeyri-müəyyənlik, qnoseoloji qərarsızlıq və yaxud səmərəsizliyi, yanlışlığı bəlli olan metodologiyalara müraciət, innovasion tələblərə cavab verən idraki silahın yoxluğu nəinki konkret ictimai və bəşəri problemlərin həllini çətinləşdirir, eyni zamanda fəlsəfə və sosiohumanitar elmlərin öz daxilində yaşanan böhranı dərinləşdirir. Nəticədə həm elmlərin öz inkişafında tənəzzül baş verir, həm də onların qarşısında qoyulan sosial sifarişlər ödənilmir.

Məruzələr ətrafı çıxışlarda AMEA-nın müxbir üzvü Rafiq Əliyev, prof. Zümrüd Quluzadə, Dr. Rəşad İlyasov, prof. Qorxmaz Vəliyev və b. maraqlı fikirlər söyləmiş və təkliflərini irəli sürmüşlər.

* * * *

"Türk Dünyasında Bilim, Kültür, Gelenek" (Türk Dünyasında Elm - Mədəniyyət - Ənənə) adı altında Bakı şəhərində "9. Uluslararası Türk Dünyası Sosyal Bilimler Konqresi" (IX Beynəlxalq Türk Dünyası Sosial Elmlər) konfransı, Türk Dünyası Araşdırmaları Vakfinin dəstəyi və Azəbaycan Dövlət İqtisad Universitetinin, Türkiyənin Sakarya Universitetinin İşlətmə fakültəsinin, Türkiyə Qazi Universitetinin, Qırğızıstan İqtisad və Girişimçilik Universitetinin, Qazaxıstan Korkut Ata Dövlət Universitetinin iş birlikləri ilə Bakı Dövlət İqtisad Universitetində keçirildi.

Coğrafi sərhədlərdən başqa ortaq dili, dini, tarixi, ənənə və mədəniyyəti paylaşan bütün xalqları təmsil edən Türk Dünyasının keçirdiyi bu konfransın məqsədi "Türk Dünyası"ndakı elmi araşdırmalar, mədəniyyət və adət-ənənələr haqqında olan və olması zəruri olan məlumatları gündəmə gətirmək idi.

Üç gün davam edən konfransın açılışında Türkiyənin Azərbaycandakı səfirliyinin nümayəndələri, təşkilatçı universitetlərin rəhbərliyi və Türk Dünyası Araşdırmaları Vakfi Genel Başkanı prof. Dr. Turan Yazğan iştirak edirdi.

Konfransda AMEA FSHİ-nin elmi işlər üzrə direktor müavini fəlsəfə üzrə fəlsəfə doktoru Roida Rzayeva "Kültürel Yönüyle Post-Çagdaşlık ve Türk Dünyası (Türkiye Örneğinde" (Mədəni cəhətdən post-müasirlik və Türk Dünyası (Türkiyə nümunəsində) adlı məruzəsilə çıxış edərək qeyri-Qərb cəmiyyətlərindəki postmodernist indikatorlardan bəhs etdi.

İki gün ərsində "Türk Dünyasında Elm-Mədəniyyət-Ənənə" adı altında keçirilən konfrans antropologiya, tarix, türk dili və türk mədəniyyəti, ənənə və əxlaqi dəyərlər, elm fəlsəfəsi və metodologiya, təhsil, dinşünaslıq, fəlsəfə, psixologiya, sosiologiya, hüquq, beynəlxalq əlaqələr, iqtisadiyyat, maliyyə və s. sahələri əhatə edən 140 məruzə dinlənildi.

* * * *

Moskvada «Voskresenskoye» pansionatında Gənc Filosoflar Məktəbində növbəti mühazirələr oxunmuşdur. Rusiya EA Fəlsəfə İnstitutu və MDB dövlətləri Ümumittifaq Əməkdaşlıq Beynəlxalq Fondunun dəstəyi ilə 5 gün ərzində «Fəlsəfə. Siyasət. Mədəniyyət» mövzusunda keçirilən tədbirdə MDB dövlətlərini təmsil edən 6 ölkədən gəlmiş alimlər, aspirantlar, tələbələr iştirak etmişlər.

Tədbirin məqsədi elmi əlaqələri aktivləşdirmək, təcrübə mübadiləsi, Rusiya və digər MDB ölkələri arasında mənəvi, mədəni və elmi ənənələrin dərki, canlandırılması və qorunub saxlanması, peşəkar filosofların təcrübəsinin gənc nəslə ötürülməsi olmuşdur. MDB-nin yaranmasının 20 illiyinə həsr olunmuş bu tədbirə 20 məruzəsi alim və 41 dinləyici – aspirant və tələbə qoşulmuşdur. AMEA FSHİ-nin direktoru, f.e.d., prof. İ.Məmmədzadə «Fəlsəfənin aktuallığı haqqında» və «Siyasət və əxlaq», İnstitutun direktor müavini, fəlsəfə doktoru R.Rzayeva isə «Müasirliyin çağırışları: qloballaşma və modernləşmə» və «Postmodernizmin mədəni durumu» mövzularında maraqlı mühazirələr oxumuşlar. Dinləyicilər sırasında AMEA FSHİ-dən R.İlyasov, R.Mustafayev və V.Hacıyeva fəallıq nümayiş etdirmişlər.

Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının dissertasiyaların əsas nəticələrinin dərc olunması tövsiyə edilən elmi nəşrlər qarşısında məqalələrin qəbulu ilə bağlı qoyduğu tələblər:

1. Məqalələr Azərbaycan, rus, türk və ingilis dillərində çap olunmuş şəkildə və elektron variantda təqdim olunmalıdır. Məqalənin yazıldığı dildən əlavə digər 2 dildə xülasəsi verilməlidir. Məqalələrin həcminin 8-10 səhifə, xülasələrin 5-8 sətir olması tövsiyə olunur.
2. Məqalələrin müxtəlif dillərdə olan xülasələri bir-birinin eyni və məqalənin məzmununa uyğun olmalıdır. Xülasələr elmi və qrammatik baxımdan ciddi redaktə olunur.
3. Mövzu ilə bağlı elmi mənbələrə istinadlar olmalıdır. Məqalənin sonunda verilən ədəbiyyat siyahısı əlifba ardıcıllığı ilə deyil, istinad olunan ədəbiyyatların mətndə rast gəlindiyi ardıcıllıqla nömrələnməli və məsələn, [1] və ya [1, s.119] kimi işarə olunmalıdır. Eyni ədəbiyyata mətndə başqa bir yerdə təkrar istinad olunarsa, onda istinad olunan həmin ədəbiyyat əvvəlki nömrə ilə göstərilməlidir.
4. Məqalə müəllifin işlədiyi kafedrada yaxud şöbədə müzakirə olunmalı və iclasın protokolundan çaxarış redaksiyaya təqdim edilməlidir
5. Məqalələrin mətnləri Azərbaycan dilində latın əlifbası, rus dilində kiril əlifbası və ingilis dilində ingilis (ABŞ) əlifbası ilə Times New Roman – 14 şrifti ilə 1,5 intervalla yığılmalıdır.
6. Məqalələr rəyçilərin gizli rəyindən sonra sahə redaktoru və ya redaksiya heyətinin mütəxəssis üzvlərindən biri tərəfindən çapa təqdim olunur.
7. Elmi məqalələrin sonunda elm sahəsinin və məqalənin xarakterinə uyğun olaraq işin elmi yeniliyi, tətbiqi əhəmiyyəti, iqtisadi səmərəsi və s. aydın şəkildə verilməlidir.
8. Hər bir məqalədə UOT indekslər və ya PACS tipli kodlar və açar sözlər göstərilməlidir. Açar sözlər üç dildə verilməlidir.
9. Məqalələrdə müəllif(lər)in adı və soyadı, işlədiyi müəssisə və onun ünvanı, müəllifin elektron poçt ünvanı göstərilməlidir.
10. Məqalələrin sonundakı ədəbiyyat siyahısında son 5-10 ilin elmi məqalələrinə, monoqrafiyalar və s. istinadlara üstünlük verilməlidir.
11. Jurnalda baxılan elm sahəsində qabaqçıl olan dünya ölkələrindən daxil olan məqalələrin çapına da yer verilir.
12. Jurnal yalnız öz profilinə uyğun məqalələri dərc edir.

Yuxarıda göstərilən şərtlərə uyğun olmayan məqalələr redaksiya

heyəti tərəfindən qəbul edilmir

Trebovaniə Bısşey Attestaüionnoy Komissii pri Prezidente Azerbaydjanskoy Pespubliki k nauçnım izdaniəm pri prieme statey, otrajaöhix osnovnoe soderjanie dissertaüii:

1. Ctatği doljnı bıtğ predstavlenı na azerbaydjanskom, russkom, tureükom, anqliyskom əzıkax v napeçatannom vide i glektronnom variante. K statğe, napisannoy na odnom əzıke, doljnı bıtğ danı rezöme na dvux əzıkax. Pekomenduetsə statği predstavlətğ obcemom 8-10 straniü, a rezöme 5-8 stroçek.
2. Pezöme k statğəm na razliçnıx əzıkax doljnı bıtğ identiçnıe i sootvetstvovatğ soderjaniö statği. Ctatği doljnı bıtğ thatelğno otredaktirovanı s nauçnoy i qrammatiçeskoy toçek zreniə.
3. Doljnı bıtğ ssılki na nauçnıe istoçniki, svəzannıe s temoy. Cpisok literaturı, privedennıy v konüe statği doljen bıtğ dan ne v alfavitnom porədke, a pronumerovan v porədke vstreçaöheysə v tekste ssılki na literaturu, kak naprimer, (1) ili (1, s.119). Esli v statğe vstreçaötsə povtornıe ssılki na odnu i tu je literaturu, toqda gta literatura doljna bıtğ dana pod predıduhim nomerom.
4. Ctatğə doljna bıtğ obsujdena na kafedre ili otdele, qde rabotaet avtor i vıpiska iz protokola sobraniə doljna bıtğ predstavlena redaküii.
5. Tekst statey na azerbaydjanskom əzıke doljen bıtğ dan latinskim alfavitom; na russkom əzıke – kirilliüey; anqliyskom əzıke – anqliyskim alfavitom (США), Times New Roman – 14 şriftom 1,5 intervala.
6. Ctatği moqut bıtğ predstavlenı k peçati posle poluçeniə taynoqo otzıva so storonı otraslevoqo redaktora ili speüialista iz çlenov redaküionnoqo soveta.
7. B konüe statği avtor doljen skazatğ o nauçnoy novizne rabotı, prikladnom znaçenii, gkonomiçeskoy polğze, sootvetsvuöhey xarakteru statği.
8. B kajdoy statğe doljnı bıtğ danı indeksı tipa УДК i PACS, a takje klöçevıe slova na trex əzıkax.
9. B statğe doljnı bıtğ ukazanı imə i familiə, mesto rabotı i eqo adres i glektronnaə poçta.
10. B spiske literaturı predpoçtenie doljno bıtğ dano ssılkam iz statey, monoqrafiy i t.d., napisannıx za poslednie 5-10 let.
11. B jurnale pomehaötsə statği, postupaöhie iz raznıx stran mira s razvitoy naukoy.
12. Jurnal peçataet statği, sootvetstvuöhie eqo profilö.

Ctatği, ne otveçaöhie vışeizlojennım trebovaniəm,

ne prinimaötsə redaküionnım sovetom.

Requirements of the Supreme Attestation Commission under the Azerbaijan Republic President to be fulfilled at acceptance of the articles comprising the basic conclusions of the theses by the scientific editions recommended for publication

1. Articles should be submitted in Azerbaijani, Russian, Turkish, English languages in printed form and electronic version. In addition to the article written in one language, two summaries of it in other languages are to be presented. It is recommended to present an 8-10 page articles and summary in 5-8 lines.
2. Summaries to articles in different languages should be identical and in conformity with the contents of the article. The articles should be carefully edited from the scientific and grammar point of view.
3. There should be references to the scientific sources connected to the theme. Literature list cited at the end of the article is to be given not alphabetically, but numbered in order of reference to literature met in the text, as for instance (1) or (1, p.119). If in the article there are met the repeated references to one and the same literature, this literature should be given under the previous number.
4. Article is to be discussed in a chair or department where the author works, an extract from the minutes is to be submitted to the editorial board.
5. Text of the articles in Azerbaijani should be typed by Latin alphabet, in Russian – by Cyrillic alphabet, in English – by English alphabet (USA), Times New Roman – 14 font, 1,5 line spaced.
6. Articles may be submitted to the press after receiving the secret reference on the side of the branch editor or an expert from the members of the editorial staff.
7. In conclusion of the article the scientific innovation of the work, importance of applying, economic advantage corresponding to the scientific field and character of the work should be clearly indicated.
8. In every article the indices of UDC and PACS type, as well the keywords in three languages should be indicated.
9. In article an author's name, surname, his work and home addresses and e-mail are to be indicated.
10. In Literature List the preference should be given to references from the articles, monographs and oth. written for last 5-10 years.
11. In the journal there is a room for the articles coming in from the different countries of the work with advanced science.
12. The journal publishes only those articles which are in conformity with its profile.

Articles not meeting the above mentioned reguirements
are not accepted by the editorial board.

ELMI
ƏSƏRLƏR
Beynəlxalq elmi-nəzəri jurnal

№ 1 (16), 2011

Kompьter tərtibatı və dizayn:

MEHRİBAN ƏLİYEVA
AYNUR ƏLİYEVA

Redaktorlar:

ŞURA MƏMMƏDOVA
SVETLANA CABBARLI
GЬLARƏ AXUNDOVA
XURAMAN TURABOVA
SOLMAZ QURBANOVA
RƏHİLƏ HƏSƏNOVA

Yığılmağa verilmişdir: 17.01.2011
Çapa imzalanmışdır: 14.02.2011
Kağız formatı: 70x100 4/1.
Çap vərəqi: 18,3. Tirajı 200.

Azərbaycan Milli Elmlər Akademiyası Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutunun İnformasiya və Nəşriyyat şöbəsində nəşr olunmuşdur.
Şöbə müdiri: fəlsəfə doktoru Adil Həşimov, tel.: 050-337-74-33
Ünvan: H.Cavid pr-ti 31.
Tel.: (99412)537-11-39

SCIENTIFIC
WORKS

The international scientific and theoretical journal

№ 1 (16), 2011

Printing and design:
MEHRIBAN ALIYEVA
AYNUR ALIYEVA

Editors:
SHURA MAMMADOVA
SVETLANA JABBARLY
GULARA AKHUNDOVA
KHURAMAN TURABOVA
SOLMAZ GURBANOVA
RAHILA HASANOVA

Submitted to collection: 17.01.2011
Sent to the press: 14.02.2011
Paper format: 70x100 4/1
Print sheet: 18,3
Copies: 200

Published in the Information and Publishing department of IPSL of ANAS
Department chief: doctor of philosophy Adil Hashimov, phone: 050-337-74-33
Address: H.Javid ave. 31.
Phone: (99412)537-11-39